AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

"Pedaqoji elmlərin nəzəriyyəsi və praktikasının aktual problemləri: müasir yanaşma"

Magistrantların IV Respublika elmi konfransının

MATERİALLARI

I cild

Bakı, 27-28 aprel 2021

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

“Pedaqoji elmlərin nəzəriyyəsi və praktikasının aktual problemləri: müasir yanaşma”

Magistrantların IV Respublika elmi konfransının

MATERİALLARI

I cild (I-III bölmələr)

- İnnovasiyalar və təhsilin keyfiyyəti
- Təhsilin təşkili və idarə edilməsi
- Təhsildə sosial-psixoloji xidmət

Azərbaycan Dövlət Pedaqoji Universitetinin
100 illiyinə həsr edilir.

Bakı, 27-28 aprel 2021

ADPU-nun Elmi Şurasının 29 aprel 2021-ci il tarixli iclasının qərarı (protokol № 4) əsasında çap edilir.

Konfransın Təşkilat Komitəsi

Sədr
Professor Cəfər Cəfərov - Rektor

Sədr müavini
Professor Asəf Zamanov - Elm və innovasiyalar üzrə prorektor
Məsul katib
Professor İbrahim Bayramov - Magistratura və doktorantura şöbəsinin müdiri
Üzvlər
Professor Əli Allahverdiyev- Elmi-təşkilati şöbənin müdiri
Professor Fərrux Rüstəmov - İbtidai təhsil fakültəsinin dekanı
Professor Ramiz Əliyev - Ümumi psixologiya kafedrasının müdiri
Professor İsa İsmayılov - Fizikanın tədrisi texnologiyası kafedrasının professoru
Professor Mübariz Əmirov - Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının professoru
F.ü.f.d. Sevinc Quliyeva - Magistratura və doktorantura şöbəsinin müdir müavini

KONFRANSIN ELMİ BÖLMƏLƏRİ

- **İnnovasiyalar və təhsilin keyfiyyəti**
- **Təhsilin təşkili və idarə edilməsi**
- **Təhsildə sosial-psixoloji xidmət**
- **Tədrisin müasir problemləri**

I BÖLMƏ
İNNOVASİYALAR VƏ TƏHSİLİN KEYFİYYƏTİ

İsparova Səma
Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant
Elmi rəhbər: ped.e.ü.f.d.,dos.N.Abdullazadə

FƏNLƏRARASI İNTEQRASİYA ANLAYIŞININ MAHİYYƏTİ VƏ ƏDƏBİYYAT TƏLİMİNDƏ ROLU

Açar sözlər: *fənlərarası inteqrasiya, ədəbiyyat, mövzu, müəllim*
Ключевые слова: *межпредметная интеграция, литература, тема, учитель*
Key words: *interdisciplinary integration, literature, subject, teacher*

"İnteqrasiya" sözü latın sözü olub bərpaolunma, hissələrin bütöv bir tam halında birləşməsi deməkdir. XX əsrin sonundan başlayaraq inteqrasiya termini istifadə olunmağa başlasa da, anlayış olaraq tarixinin lap qədimlərə dayandığını söyləmək olar. Hələ XIII əsrdə yaşamış dahi filosof N.Tusi "Əxlaqi-Nasiri" əsərində yazırdı: "Şagird hansı fənni öyrənmək, o sahədə ixtisas sahibi olmaq istəyirsə, o fənlə əlaqəsi olan bütün elmlər və sənətlərlə tanış olmağa həvəs göstərməlidir" [4, s.172].Metodik ədəbiyyatlarda inteqrasiyanın iki növü fənlərarası və fəndaxili inteqrasiyanı xüsusi olaraq vurğulanır. Ədəbiyyat kurikulumu inteqrativ səciyyəli olduğu üçün burada həm fəndaxili inteqrasiya, həm də fənlərarası inteqrasiya özünü göstərir. Ədəbiyyat fənni üzrə fənlərarası inteqrasiya mövzuların, biliklərin, bacarıqların, nəticələrin digər fənlər üzrə əlaqələndirilməsidir.Bəs fənlərarası inteqrasiyanın mahiyyəti nədir?

Fənlərarası inteqrasiyanın tətbiq olunduğu dərslərdə müəyyən bir mövzu əsas götürülərək bu mövzunun işıqlandıra biləcəyi bilik və bacarıqlar müvafiq sahələrdən götürülür və birləşdirilir. Burada əsas məqsəd dərsin mövzusunu təşkil edən konsepsiyanı araşdırmaqla birlikdə bu müddətdə iştirak edən digər fənlərin də mövzu ilə əlaqəli bilik və bacarıqlarını öyrənmək də zəruridir. Başqa sözlə, fənlərarası inteqrasiya sayəsində tədris prosesi həm müəyyən fənlərin bilik və bacarıqlarını öyrənməyə imkan verir, həm də onları bir araya gətirməklə istifadə etməyə kömək edir. Fənlərarası inteqrasiya 45 dəqiqə ərzində bir az Azərbaycan dili, bir az Ədəbiyyat, bir az Tarix, bir az Coğrafiya, bir az Biologiyadan danışmaq deyil. Bu bir dərs üçün süni əlaqəndirmədən başqa bir şey olmaz. Həqiqi mənada fənlərarası inteqrasiya tədrisin tamamilə konsepsiya və ya problemlər ətrafında birləşməsi və bu konsepsiya və ya problemin işlənməsində müxtəlif sahələrdəki məlumatların, biliklərin effektiv şəkildə birləşdirilməsidir.

Zənnimizcə, fənlərarası inteqrasiyanın əsas mahiyyəti ondan ibarətdir ki, şagirdlərə hərtərəfli düşüncə tərzi qazandırır. Şagirdlərin tənqidi və yaradıcı düşünmə və qərarvermə prosesində müxtəlif sahələrdəki bilikləri əlaqələndirmə bacarığı çox böyük əhəmiyyətə malikdir. Bugünkü təhsil sahəsində qarşılaşdığımız ən mühüm problemlərdən bəziləri məktəbdə öyrənilən biliklərin gündəlik həyatda tətbiq olunmaması, biliklərin yenilənməməsi, öyrənmə və araşdırma bacarıqlarının inkişaf etməməsidir. Fənlərarası inteqrasiyada əsas məqsəd müəyyən bir fənnə aid biliklərin şagirdlərə ötürülməsindən əlavə, müxtəlif fənlərin biliklərinin müəyyən bir məqsəd doğrultusunda istifadəsidir. Məhz buna görə də yuxarıda bəhs etdiyimiz düşünmə qabiliyyətlərinin inkişafına çox böyük faydasının olacağı açıqdır. Şagird özünü müəyyən bir fənnə aid düşünmə tərzi liə məhdud hiss etməyəcək, əksinə, digər fənlərə aid qazandığı biliklərini öz məqsədinə

çatmaqda və ya qarşılaşdığı problemlərin həllində bir vasitə kimi qəbul edəcəkdir. Bu cür düşünmə tərzi öz üzərində daim işləyən, öyrəndiyi bilikləri tətbiq etməyi bacaran və qərar verə bilən şəxsləri yetişdirmək yolunda atılacaq əhəmiyyətli bir addımdır. Lakin fənlərarası inteqrasiyanın dərslərdə tətbiq olunmasında bəzi problemlər üzə çıxır. Müəllimlər tədris etdiyi öz fənnini digər fənlərlə əlaqələndirmə yönündə təşviq edilmədikləri üçün şagirdlərə yalnız öz dərsləri haqqında biliklər verirlər və bu dərsdə öyrənilən bilik və bacarıqların digər dərslərdə necə istifadə olunduğu yaxud necə əlaqələndirildiyi üzərində durmurlar. Bunun da nəticəsində, məktəblərimizdə ayrı-ayrı bilik və bacarıqları olan şagird qrupları formalaşır. Misal olaraq, bəzi şagirdlərin humanitar fənlərə daha yatqın, bəzi şagirdlərin isə texniki fənlərə daha yatqın olduğu söylənilir. Öyrənilmiş bilik və bacarıqların bir arada toplanması yönündə hər hansı bir dərs olmadıqda şagirdlər öyrənmənin ən vacib mərhələsində qazanmış olduqları bilik və bacarıqların əlaqələndirilməsi və tətbiq edilməsində tək qalırlar. Bu da onlarda hərtərəfli düşüncə tərzinin inkişafına mənfi təsir göstərir.

Bilal Həsənli yazır: "Ədəbiyyat müəllimi mövzunun tədrisi zamanı fənlərarası əlaqə imkanlarını reallaşdırarkən qarşıya qoyulan təlim məqsədlərini, əsərin ideya-məzmununu əsas götürməlidir. Nəzərə almaq lazımdır ki, fənlərarası əlaqə məqsəd deyil, vasitədi. Bu əlaqə əsər üzrə işin təşkili məntiqindən, görülən işin məzmunundan irəli gəlməlidir" [2, s.328].

Ədəbiyyatın tədrisində fənlərarası inteqrasiyanın rolunu müəyyənləşdirmək üçün əvvəlcə onun hansı fənlərlə əlaqəyə girdiyini xatırlamaq lazımdır. Misal olaraq, Azərbaycan dili, Tarix, Coğrafiya, Biologiya, Həyat bilgisi, Musiqi kimi fənləri göstərmək olar. Həmçinin incəsənətin digər növləri rəssamlıq, heykəltəraşlıq, kino, teatr ilə əlaqənmə də buna aiddir. Misal olaraq, 10-cu sinif Ədəbiyyat dərsliyindən M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" əsərini götürək. Bu dərsin tədrisi zamanı müəllim Coğrafiya fənni ilə əlaqəyə girərək şagirdlərə hadisələr Qarabağ vilayətində baş verdiyinə görə oranın coğrafi mənzərəsi, təbiəti haqqında məlumatlar verir. Eyni zamanda şagirdlərin Coğrafiyadan artıq qazanmış olduqları biliklər də dərsdə onların köməyinə gəlir. Qarabağ vilayətinin təbiəti haqqında məlumat verərkən əsərdən məlum olduğu üzrə bilirik ki, orada ən qiymətli bitkilər, otlar, çiçəklər haqqında Müsyö Jordanın fikirləri var. Bunları şagirdlərə çatdırmaqla Biologiya fənni ilə də əlaqələndirmiş oluruq. Əsərdən mənası tanış olmayan sözlərin izahı, Məstəli şahın nitqi, onun öz nökəri ilə dialoqu vasitəsilə şagirdlərə mövzu Azərbaycan dili ilə əlaqəli tədris olunur. Həmçinin müəllim dərsi Tarixlə əlaqəli də tədris edə bilər. Belə ki əsərin sonunda müəllif Paris inqilabına işarə vurur. Burada da şagirdlər Tarix fənnindən əldə etdikləri biliklərdən qarşılıqlı şəkildə istifadə edə bilir. Müəllim maraqlı slaydlar vasitəsilə Avropa mədəniyyəti, Avropa şəhərlərini bizim o dövrki mədəniyyətimizlə müqayisə edə bilər. Hətta 1976-cı ildə M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" əsərinin motivləri əsasında "Dərviş Parisi partladır" filmi çəkilmişdir. Bu filmdən fraqment göstərərək də dərsin motivasiya mərhələsi qurula bilər. Bu da ədəbiyyatın kino ilə əlaqələnməsinə şərait yaradır. 10-cu sinif Ədəbiyyat dərsliyinin müəllimlər üçün hazırlanmış metodik vəsaitində də qeyd olunmuşdur ki, "Sübhün səfiri" filmindən də komediya ilə bağlı bir səhnəni nümayiş etdirmək olar. Hətta müəllim şagirdlərə S.Ə.Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsərini xatırlatmaqla mədəni geriliyin səbəbinin avamlıqda, cahillikdə, elmsizlikdə görüldüyünü söyləyir. Bununla da fəndaxili inteqrasiyaya da nail olur. Təbiidir ki, yuxarıda sadaladığımız bütün fənlərlə əlaqəni bir dərsdə həyata keçirmək mümkünsüzdür. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" əsərinə 4 saat vaxt verilir və bu vaxt ərzində müəllimlər mümkün ola biləcək digər bütün fənlərlə mövzunu əlaqələndirə bilər.

Sonda belə nəticəyə gəlmək olar ki, fənlərarası inteqrasiya tədris prosesinin daha səmərəli, maraqlı qurulmasına şərait yaradır. Hərtərfli düşünmə bacarığına sahib şagirdlər və həmin şagirdlərin maraq və tələbatının nəzərə alınması cəhətindən də böyük əhəmiyyətə malikdir. Ədəbiyyat dərslərində fənlərarası inteqrasiyadan istifadə etməklə şagirdlər Ədəbiyyatı digər fən-

lərlə qarşılıqlı əlaqədə öyrənmiş olur. Bu da onların nitq qabiliyyətlərinin inkişafına, söz bazalarının genişlənməsinə, dünyagörüşünə, yaradıcı və tənqidi düşünməsinə çox ciddi təsir göstərir.

Ədəbiyyat

1. Əliyeva B.O. Ədəbiyyatdan təlim materiallarının seçilməsi prinsipləri.. Bakı: Respublika Tədris-Metodika Mərkəzi, 1991, 32 s.
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: "Müəllim" nəşriyyatı, 2016, 450 s.
3. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti, Bakı: "Bakı" nəşriyyatı, 2017, 208 s.
4. Tusi N. Əxlaqi-Nasiri. Bakı: "Lider" nəşriyyatı, 2005, 280 s.
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi üzrə tələbələr üçün dərslik. Bakı, 2017, 304 s.
6. https://www.muallim.edu.az/www.old/arxiv/2013/37/42.htm

XÜLASƏ

Dərslərdə fənlərarası inteqrasiyanın həyata keçirilməsi şagirdlərin hərtərəfli düşüncə bacarığının formalaşmasına müsbət təsir göstərir. Həmçinin fənlərarası inteqrasiya sayəsində tədris prosesi həm müəyyən fənlərin bilik və bacarıqlarını öyrənməyə imkan verir, həm də onları bir araya gətirməklə istifadə etməyə kömək edir. Ədəbiyyat dərslərində fənlərarası inteqrasiya isə şagirdlərin mövzuya marağının artmasına, Ədəbiyyatı digər fənlərlə qarşılıqlı şəkildə öyrənməsinə, tədris prosesinin səmərəliliyinin artmasına şərait yaradır.

РЕЗЮМЕ

Осуществление межпредметной интеграции на уроках оказывает значительное влияние на способность размышления учащихся. Межпредметная интеграция даёт возможность в учебном процессе изучать знание и способности определённых предметов, а также помогаетизучать их совместно. Межпредметная интеграция на уроках литературы поднимает интерес учащихся к нему, изучению литературы взаимно с другими предметами и эффективность учебного процесса.

SUMMARY

The implementation of interdisciplinary integration in the classroom has a positive effect on the formation of students` comprehensive thinking skills. Also, thanks to interdisciplinary integration, the teaching process allows learn the knowledge and skills of certain subjects, as well as helps to use by combining them. Interdisciplinary integration in literature classes creates opportunity for increasing students` interest in the subject, mutual study of literature with other subjects, increasing the efficiency of the teaching process.

Teymurova Aytən Şahin qızı
Azərbaycan Dövlət Pedaoji Universiteti, magistrant

"AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ" JURNALINDA FƏAL-İNTERAKTİV TƏLİM

Açar sözlər: *təlimdə yenilik, fəal-interaktiv təlim, dərs, müəllim-bələdçi, şagird-tədqiqatçı*

Ключевые слова: *инновации в обучении, активно-интерактивное обучение, урок, учитель-гид, ученица-исследователь*

Key words: *innovation in training, active-interactive learning, lesson, teacher-guide, pupil-researcher*

XX əsrin sonlarında sədası eşidilən, XXI əsrin əvvəllərində yavaş-yavaş Azərbaycan təhsilində özünə yer tapan fəal-interaktiv təlim dövrün tələbinə əsasən düzgün atılmış addım idi. 2008-2009-cu tədris ilindən başlayaraq fəal-interaktiv təlim əsasında hazırlanan dərsliklər məktəblilərin istifadəsinə verilmişdir. Təlimdə özünü göstərən bu yenilik qabaqcıl müəllimləri, elm adamlarını düşündürmüş və "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında öz təkliflərini, töhfələrini irəli sürmüşlər. Jurnalda 2008-ci ildən başlayaraq nəşr olunan məqalələrdə fəal-interaktiv təlimin əsasları haqqında danışılmış, növbəti illərdədaha ətraflı fikirlər söylənilmiş, dərs nümunələri verilmişdir. Bu məqalədə 2009, 2017-ci illərdə "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında fəal-interaktiv təlimdən bəhs edən bir neçə məqalə haqqında danışılması qarşıya məqsəd qoyulmuşdur.

2009-cu ildə nəşr olunmuş "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının ikinci sayında Rəna Aslanovanın "Səmərəli təhsilə və inkişafetdirici dərsliklərə doğru" məqaləsi, jurnalın dördüncü sayında Soltan Hüseynoğlunun "Fəal/interaktiv təlimin mahiyyəti haqqında" məqaləsi dərc olunmuşdur. Bu məqalələr həmin ildə təhsilə yeni gətirilən anlayışların nə dərəcədə qəbul olunduğunu, hansı keyfiyyətlərə malik olduğunu deməyə əsas verir.

R.Aslanovanın "Səmərəli təhsilə və inkişafetdirici dərsliklərə doğru" məqaləsində təhsil islahatlarının, kurikulum proqramı əsasında hazırlanan dərsliklərin dövr üçün aktuallığından haqlı olaraq danışılmışdır. Burada fəal-interaktiv təlimin mexanizmlərindən ikisi işıqlandırılmışdır. Bunlardan biri şagird-tədqiqatçı, müəllim-fasilitator mexanizmidir. Məqalədə müəllimin üzərinə böyük vəzifə düşdüyü vurğulanmışdır. Fəal-interaktiv təlimə əsasən müəllimin təlimdəki rolu bələdçi (fasilitator) olmalıdır. Artıq müəllim bilikləri hazır ötürən deyil, şagirdə biliyi öyrənməyə kömək edən vəzifəsini daşıyır. Başqa sözlə, öyrənməyi öyrədir. Bu isə müəllimdən zəngin bilik, yüksək intellektual səviyyə tələb edir. Hazır biliyi şagirdə ötürmək asan işdir, amma şagirdin özünün öyrənməsini, araşdırma apararaq nəticəyə gəlməsini təmin etmək, bu, əsl müəllimlikdir.

Digər mexanizm isə dialoqun və əməkdaşlığın zəruriliyidir. Müəllim şagirdə təlim prosesinin bərabərhüquqlu bir üzvü kimi yanaşmalıdır. Artıq şagird təlim prosesinin obyekti deyil, subyekti kimi çıxış edir. Bu mexanizmin tətbiqi nəticəsində şagird öz müstəqil fikirlərini ifadə etməkdən çəkinməyəcəkdir.

S.Hüseynoğlunun "Fəal/interaktiv təlimin mahiyyəti haqqında" məqaləsindən məlum olur ki, fəal-interaktiv təlim anlayışı müəllimlər tərəfindən öncə birmənalı qarşılanmamış, yanlış fikirlərə yol açılmışdır. Aydın, anlaşıqlı metodik tövsiyənin olmaması belə bir fikir oyadırdı: "məgər ənənəvi təlimdə şagirdlər fəal deyilmi?", "məgər biz ənənəvi təlim sayəsində bu səviyyəyə çatmamışıq?" Məqalədə S.Hüseynoğlu qeyd etmişdir ki, fəal-interaktiv təlim təlimin yeni növü deyildir. Bu təlimin əsasında 1970-ci illərdən bizə məlum olan problemli təlim dayanır. Sadəcə bu problemli təlim sistem xarakteri ala bilmədi. Fəal-interaktiv təlim ənənəvi təlimi bütünlüklə inkar etmir, müsbət xüsusiyyətləri saxlamaqla təlimdə özünü göstərən mənfi cəhətləri atır. Fəal-interaktiv təlim müəllimin təktərəfli, monoloqa əsaslanan dərs prosesini rədd edir. Hələ də beyinlərdə izi qalan "müəllim nə qədər çox, ətraflı, cəlbedici danışsa, bir o qədər yaxşıdır" anlayışını XXI əsr, fəal-interaktiv təlim qəbul etmir. Psixologiya elminin çoxdan sübut etdiyi araşdırmaya əsasən insanın yalnız eşitmə duyğusu ilə qavradığı anlayışlar tez yaddan çıxır. Buna görə də, müəllim nə qədər elmi, anlaşıqlı, düzgün danışsa belə, şagird tez yaddan çıxaracaqdır. Lakin şagirdin özünün tədqiqatı nəticəsində əldə etdiyi bilik ömür boyu özununküdür. Məqalədə müəllif fəal-interaktiv təlimin mexanizmlərini "didaktik tələblər" adı ilə dörd növü olduğunu qeyd etmişdir: 1) problemli vəziyyətin yaradılması; 2) dialoqun və əməkdaşlığın zəruriliyi; 3) şagird-tədqiqatçı, müəllim-fasilitator; 4) psixoloji dəstək: hörmət və etibar. Əvvəlki məqalədə ikinci və üçüncü mexanizm, Soltan müəllimin dili ilə desək, didaktik tələb haqqında danışdığımız üçün yenidən danışmağı lüzum bilmirik. Digər iki didaktik tələbdən biri problemli vəziyyətin yaradılması nəticəsində müəllim şagirdi yeni bilik öyrənməyə

təhrik edir. Bu təhrik güc nəticəsində deyil, şagirdin öz istəyilə baş verir. Problemli vəziyyət zamanı suallar burulğanına düşən şagird tədqiqata, axtarışa yönəlir.

Sonuncu didaktik tələb olan psixoloji dəstək: hörmət və etibar nə deməkdir? Bu tələbə əsasən müəllim şagirdlərə yaxşı oxuyan və pis oxuyan gözü ilə baxmamlıdır. Axı müəllim hər hansı şagirdə pis oxuyan gözü ilə baxsa, şagirdin şəxsiyyətinə ömür boyu təsir edəcək zərbə vurulmuş olacaq. Şagird artıq özünü tənha hiss edəcək, müəlliminin ona hörmətinin, etibarının olmadığını düşünəcək və təlimdən tamamilə uzaqlaşacaq. Fəal-interaktiv təlimə əsasən müəllim şagirdə olduğu kimi yanaşmalıdır, yəni hər şagirdin özünəməxsus xüsusiyyətlərinin, bacarıqlarının olduğunu qəbul etməlidir. Bir şagird çevik, digəri ləng ola bilər. Bütün şagirdlər tərəzinin eyni gözündə çəkilməməlidir. Müəllim bütün şagirdlərə eyni dərəcədə xeyirxah münasibət, hörmət, etibar etməlidir. Onların hər birinin gücünə inandığını bildirməlidir. Belə olduğu halda, şagird uğursuzluq qorxusundan qurtulacaqdır.

2017-ci ildə "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının 4-cü sayında dərc olunmuş Vaqif Qurbanov, Xaqani İbrahimov, Turanə Cabbarzadənin müəllifi olduqları "Təhsil fəlsəfəsi: yeniliklər, problemlər, vəzifələr" adlı məqalə diqqətimizi çəkdi. Məqalədə aktual məsələlərdən birinə toxunulmuşdur. Yeni təhsil sistemi, yəni fəal-interaktiv təlim mahiyyətinə görə yaddaşa, hafizəyə deyil, təfəkkürə əsaslanan kurikulum proqramıdır. Burada hafizəyə əsaslanmamaq hadisəsi tamamilə təlimdə artıq heç bir şəkildə hafizədən istifadə edilməyəcəyi anlamını daşımamalıdır. Biz əgər biliyin növlərinə nəzər salsaq, faktoloji biliyin nə anlama gəldiyini aydınlaşdırsaq, həmin biliyin hafizəyə əsaslandığının şahidi olacağıq. Fəaliyyətin növlərindən idraki fəaliyyətin ilk mərhələsinə baxsaq əvvəlki adı ilə "bilik", təkmilləşmiş versiyada "xatırlamaq" olduğunun şahidi olacağıq. Yəni şagirdin ilk fəaliyyəti faktları xatırlmaq, hafizəyə əsaslanmaqdır. Məqalədə qaldırılan problem ədəbiyyat dərslərində "təfəkkürə əsaslanma" şüarını əldə tutaraq şagirdlərə şeirlərin yalnız məzmununun öyrənilməsi ilə kifayətlənmək ideyasıdır. Halbuki lirik əsərlərin məzmununu dərk etdikdən sonra həmin əsərdən bir parça əzbərlənməsi şagirdin nitqini inkişaf etdirəcək, gələcəkdə situasiyaya uyğun həmin parçalardan nitqini daha təsirli edə bilmək üçün istifadə edəcəkdir. Məqalədə "əzbər" və "əzbərçilik" sözlərinin mənası aydınlaşdırılmışdır. Əzbərçilik mahiyyətə varmadan, şüursuzcasına təkrarlamaqdan ibarət olan bir fəaliyyət olduğu halda, əzbər mahiyyətə vararaq, məzmunu anlayaraq əzbər yadda saxlama üsuludur. Bəzi müəllimlər standartlarda şeirin yadda saxlanması yoxdur deyib bir yana çəkilsələr də, qabaqcıl müəllimlər şagirdi yormayacaq dərəcədə bir parça əzbər üsulundan istifadə edirlər.

Beləliklə, belə qənaətə gəlmək olur ki, təlimdə olan bu yeni yanaşma vaxtında, doğru atılmış addım idi. Sürətlə dəyişən dünyada, elmin, texnikanın, xüsusilə də kompüter texnologiyasının inkişafı, informasiya axınının kütləvi olduğu bir dövrdə - XXI əsrdə ənənəvi təlim XXI əsr insanının tələbatlarını ödəməkdə aciz idi. Fəal-interaktiv təlim birdən-birdə təhsildə yüksək inkişafa nail ola bilməzdi. Xüsusilə də, müəllimlərimizin yeni təlim metodikasına yiyələnməsi, düzgün qiymətləndirməsinin zaman tələb etməsi normal hadisədir. İlk vaxtlar istər müəllimlər, istərsə də cəmiyyətin digər üzvləri tərəfindən fəal-interaktiv təlimin düzgün qiymətləndirilməməsi özünü göstərdi.Fəal-interaktiv təlimin təhsilimizdə 12 illik bir təcrübəsinə baxdıqda, ənənəvi təlimlə təhsil almış şagirdlərlə fəal təlimdə təhsil almış şagirdləri müqayisə etdikdə yetəri qədər müsbət təcrübə əldə edildiyi qənaətinə gəlmək olar. Azərbaycan dili və ədəbiyyatı dərslərində şagirdlərin şəxsi fikirlərini səlis, ifadəli, məntiqli ifadə etməsi bu uğurun nəticəsidir.

Ədəbiyyat

1. Aslanova R. Səmərəli təhsilə və inkişafetdirici dərsliklərə doğru, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı № 2, Bakı 2009.

2. Cabbarzadə T., İbrahimov X., Qurbanov V.T. Təhsil fəlsəfəsi: yeniliklər, problemlər, vəzifələr, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı № 4, Bakı 2017.

3. Əliyev S.H. Fəal/interaktiv təlimin mahiyyəti haqqında, “Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalı № 4, Bakı 2009.

“Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalında fəal-interaktiv təlim

XÜLASƏ

Məqalədə “Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalında fəal-interaktiv təlimlə bağlı məqalələr araşdırılmışdır. 2008-2009-cu tədris ilindən məktəblərimizə gələn bu təlimin qabaqcıl müəllimlər tərəfindən necə qarşılandığı, hansı keyfiyyətlərə malik olduğu aydınlaşdırılmışdır. Fəal təlimin mexanizmləri, bu mexanizmlərin xüsusiyyətləri qeyd edilmişdir.

Активно-интерактивное обучение в журнале «Обучение Азербайджанскому языку и литературе»

РЕЗЮМЕ

В статье рассматриваются статьи, касающиеся активно-интерактивного обучения в журнале «Обучение азербайджанскому языку и литературе». Выяснилось, как это обучение, пришедшее в наши школы с 2008-2009 учебного года, было встречено ведущими учителями и какими качествами оно обладало. Отмечены механизмы активного обучения, особенности этих механизмов.

Active-interactive training in the magazine “Teaching the Azerbaijani language and literature”

SUMMARY

The article examines articles related to active-interactive training in the magazine “Teaching the Azerbaijani language and literature”. It was clarified how this training, which came to our schools from the 2008-2009 academic year, was met by leading teachers, and what qualities it had. Mechanisms of active learning, features of these mechanisms are noted.

Teymurova Aytən Şahin qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant

“AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI TƏDRİSİ” JURNALINDA FƏAL/İNTERAKTİV TƏLİM METODLARI ÜZRƏ OLAN MATERİALLAR HAQQINDA

Açar sözlər: *fəal/interaktiv təlim metodları, fəallıq, dərs prosesi, dərs mərhələləri, müəllim, şagird, əməkdaşlıq*

Ключевые слова: *активные/интерактивные методы обучения, мероприятия, процесс урока, этапы урока, учитель,ученица,сотрудничество*

Key words: *active/interactive learning methods, activity, lesson process, lesson stages, teacher, pupil, cooperation*

Dövr dəyişdikcə hər sahədə özünü göstərən yenilik təhsil sisteminə də təsir etmişdir. Elm və texnikanın inkişaf etdiyi, informasiya axınının sürətlə artdığı bir dövrdə, əlbəttə, yeni metodlara ehtiyac var idi. Ənənəvi təlim metodları ehtiyacı tam şəkildə ödəyə bilmirdi. Lakin illərin təcrübəsini danmaq mümkün deyil. Ənənəvi təlimdə qabaqcıl müəllimlərin istifadə etdiyi bəzi yollar bu gün ad verməklə və ya yeni adla fəal təlimdə istifadə olunur. Misal olaraq “Beyin həmləsi” metoduna daxil olan BİBÖ texnikasını demək olar ki, fəal təlimdə əyani olaraq şagirdlərin gözü önündə canlandırılan bu texnika ənənəvi təlimdə şifahi şəkildə özünü göstərirdi. Bu, ənənəvi təlimin fəal təlim üzərindəki izindən xəbər verir.

2008-ci ildən "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında fəal/interaktiv təlim metodlarının xüsusiyyətləri, bu metodlarla keçirilən dərs nümunələri, həmin metodların təlim materiallarının mənimsənilməsindəki rolu, dərsin hansı mərhələsində hansı metoddan istifadə etmənin məqsədəuyğunluğu məsələləri işıqlandırılmışdır. Jurnalda fəal/interaktiv təlim metodları haqqında dərc olunmuş məqalələri iki hissəyə ayırmaq olar: 1) Fəal/interaktiv təlim metodlarının xüsusiyyətlərindən, əhəmiyyətindən bəhs edən yazılar; 2) Fəal/interaktiv təlim metodları əsasında qurulan dərs nümunələri.

Fəal/interaktiv təlim metodlarının xüsusiyyətlərindən, əhəmiyyətindən bəhs edən yazılar "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalının 2009-cu ildə nəşr olunmuş 3-cü sayında Şəmistan Mikayılov, Asya Bəkirovanın "Təlim metodlarından kompleks şəkildə istifadə şagirdlərin ədəbi biliklərinin inkişafında mühüm amil kimi" adlıməqaləsi, 2015-ci ildə jurnalın 4-cü sayında İsmayıl Cavadovun "Fonetikanın tədrisi prosesində müasir təlim texnologiyalarından istifadənin əhəmiyyəti" məqaləsidir.

Şəmistan Mikayılov və Asya Bəkirova "Təlim metodlarından kompleks şəkildə istifadə şagirdlərin ədəbi biliklərinin inkişafında mühüm amil kimi" məqaləsində metod anlayışına aydınlıq gətirilmişdir. Metod anlayışı hər hansı məsələyə yanaşma tərzi, təlim metodları isə müəllim və şagirdlərin nizama salınmış fəaliyyəti kimi mənalandırılmışdır. Burada vurğulanmışdır ki, təlim metodları şagirdlərin təlim, tərbiyə və inkişafını tamlıqla əhatə etməli, onları sərbəst, yaradıcı təfəkkürə yönəltməli və şagird qazandığı biliyi həyatın özündə tətbiq etməyi bacarmalıdır. Belə ki, təlimin məzmununda baş verən dəyişiklik, əlbəttə, təlim metodlarına da öz təsirini göstərməli idi. Təlim metodları öz məzmun və formasına görə dəyişib təlimə yeni yanaşmalar əmələ gətirirdi. Buradan isə ənənəvi və yeni təlim metodları anlayışı yaranmağa başlandı. Məqalədə bildirilmişdir ki, yeni təlim metodlarına üstünlük verib ənənəvi təlim metodlarına laqeyd münasibət göstərmək məqsədəuyğun deyildir. Dərsin məqsədinə uyğun olaraq ənənəvi metodla fəal/interaktiv metodları düzgün əlaqələndirib bunlardan təlimdə kompleks şəkildə istifadə etmək lazımdır. Fikirlərini əsaslandırmaq üçün ədəbiyyat dərslərindən bir sıra nümunələr göstərilmişdir. Bunlardan birinə nəzər salaq. V sinifdə ədəbiyyatın tədrisinə yeni başlayan şagirdlərin bu fənn haqqında biliklərinin olmamasına əsasən bu mərhələdə oxu, müşahidə, müsahibə, şərh kimi metodlardan istifadə etmənin lazım olduğu vurğulanmışdır. Şagirdin müəyyən biliyə yiyələnməsindən sonra, təlim materialları mürəkkəbləşdikcə təlimdə inteqrasiyaya ehtiyac yaranır. Bu zaman fəal/interaktiv təlim metodlarından BİBÖ metodundan istifadə etmək lazım gəlir. Beləliklə, şagirdin yeni mənimsəməsi nəzərdə tutulan təlim materialı əvvəlki biliklərinə istinad etməklə uğurlu nəticə əldə edilməsinə səbəb olur. Burada BİBÖ metodu ilə yanaşı klaster metodunun da adı çəkilmişdir.

İsmayıl Cavadovun "Fonetikanın tədrisi prosesində müasir təlim texnologiyalarından istifadənin əhəmiyyəti" məqaləsində fəal/interaktiv təlim metodlarının əhəmiyyətindən söz açmış, fikirlərini fonetikanın tədrisi üzərində əsaslandırmışdır. Fəal/interaktiv təlim metodları ilə keçilən dərslərin müəllim-şagird əməkdaşlığına əsaslandığı və bunun da şagirdlərin idraki fəallığına gətirib çıxartdığı vurğulanmışdır. Şagird artıq dərsin passiv dinləyicisi yox, aktiv əməkdaşına çevrilir. Məqalədə bir sıra fəal/interaktiv təlim metodlarının adı çəkilmişdir: beyin həmləsi, təqdimat, rollu oyunlar, şaxələndirmə, BİBÖ, insert, Venn diaqramı, kublaşdırma, diskussiya, karusel, debat, ziqzaq, dəyirmi masa. Metodların bəzilərinə fonetikanın tədrisi müstəvisində nəzər salınmışdır.

Əvvəla, danışıq səsləri və onların əmələ gəlməsində mühüm rol oynayan danışıq üzvləri bəhsində təqdimatdan istifadənin lazımlı olduğu bildirilmişdir. Təqdimat zamanı müxtəlif sxem, diaqram, slaydlardan istifadə effektli nəticə verir. Danışıq səslərinin əmələ gəlməsində iştirak edən danışıq üzvlərinin əyani göstərilməsi öz müsbət təsirini göstərəcəkdir.

Həmin mövzu üzrə müəllim "Dodaqlarınızı büzməklə yavaşdan fit çalın. Bu səsə danışıq səsi demək olarmı?" sualı əsasında debat keçirə bilər. Debatda hər qrup öz fikirini sü-

but edəcək əsaslı dəlillər toplayır. Debat şagirdlərin dialoq, fikirlərini sərbəst, əsaslı demək bacarığını formalaşdırır, tədris materialının isə dərindən mənimsənilməsinə kömək edir.

Fonetikanın tədrisində Venn diaqramı metodundan istifadənin tədris materialının şagirdlər tərəfindən daha asan başa düşülməsini təmin etməsi vurğulanmışdır.

Fəal/interaktiv təlim metodları əsasında qurulan dərs nümunələrinə jurnalın 2009-cu ildə dərc olunmuş 3-cü sayında Soltan Hüseynoğlunun "Lirik şeirlərin təhlilində yeni texnologiyaların tətbiqi" adlı məqaləsi, 2010-cu ildə nəşr olunmuş 1-ci sayında Gültəkin Abdullayevanın "Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadə", Şəhla Mirzəyevanın "Tədris materialının möhkəmləndirilməsi prosesində interaktiv təlim metodlarından istifadə" adlı məqalələri, 2011-ci ildə nəşr olunmuş 1-ci sayında Şəhla Mirzəyevanın "Düzəltmə sifətlərin öyrədilməsində yeni texnologiyaların rolu" adlı məqaləsi, 2014-cü ildə nəşr olunmuş 2-ci sayında Tərlan Həsənovanın "Yeni texnologiyaların tətbiqi həyatın tələbidir" və Gültəkin Abdullayevanın "VIII sinifdə Azərbaycan dilindən xitabın tədrisində yeni təlim üsullarının tətbiqi" adlı məqalələri, 2016-cı ildə jurnalın 3-cü sayında dərc olunmuş Şəhla Məcidovanın "Məhəmməd Füzulinin "Səhhət və Mərəz" əsərinin təhlilində fəal təlim metodlarından istifadə" məqaləsində rast gəlmək mümkündür. Bu dərs nümunələrindən bəziləri aşağıda təhlil ediləcəkdir.

Soltan Hüseynoğlu "Lirik şeirlərin təhlilində yeni texnologiyaların tətbiqi" adlı məqaləsində Ə.Cavadın "Göygöl" şeirinin təhlili və ifadəli oxusu mövzusunda fəal/interaktiv dərs nümunəsi təqdim etmişdir. Dərsdə fəal/interaktiv təlim metodlarından əqli hücum, Venn diaqramı və iki hissəli gündəlikdən istifadə edilmişdir.Dərsin əvvəlində müəllim şeirin məzmunu ilə tanış olan şagirdlərə əqli hücum metodundan istifadə edərək şeirin ideyasını müəyyənləşdirmək istiqamətində suallarla müraciət edir. "Əsəri yazmaqda şairin başlıca niyyəti nə olmuşdur?" sualı istiqamətində müzakirələr aparılır. Müzakirələr şagirdləri əsas məqsədə çatmaq üçün istiqamətləndirir.Tədqiqatın aparılması mərhələsində Venn diaqramı metodundan istifadə edilmişdir. Qrupların birinə M.Arazın "Göygöl" şeiri təqdim edilmişdir. Şagirdlərə Venn diaqramından istifadə etməklə iki sənətkarın eyniadlı şeiri üzərində müşahidə aparmaq, şeirlərin məzmunu, müəlliflərin mövqeyi, niyyəti arasındakı oxşar və fərqli cəhətləri araşdırmaq tapşırılmışdır. Bu metoddan istifadə etmək şagirdin tənqidi təfəkkürünün inkişafına öz müsbət təsirini göstərəcəkdir. Həmin mərhələdə digər bir qrupda isə iki hissəli gündəlik metodundan istifadə edilmişdir. Həmin qrupun tapşırığı belədir: "Kommunist rejiminin bu əsərə görə şairi ittiham etməsinin səbəbini aydınlaşdırın. Fikrinizi əsaslandırmaq üçün şeirdən və əlavə ədəbiyyatdan nümunələr göstərin". Tapşırıqla bağlı dərslikdən və digər mənbələrdən məlumatları oxuyan şagird kommunist rejiminin şairi hansı fikirlərə görə ittiham etməsini müəyyənləşdirir. Şagirdlər iki hissəli gündəliyin birinci sütununda "Əsərdə diqqətimi daha çox cəlb edənlər" başlığı altında şeirdən nümunələr gətirir,ikinci sütununda həmin nümunələrə şərh verir, fikrini əsaslandırır.

Gültəkin Abdullayeva "Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadə" adlı məqaləsində fəal/interaktiv təlim metodlarından istifadə etmədən yüksək, intellektual səviyyəli şagirdlər yetişdirməyin mümkün olmadığını bildirmişdir. O, "Müxtəsər və geniş cümlə" mövzusunda dərs nümunəsi təqdim etmiş, fəal/interaktiv təlim metodlarından beyin həmləsi, klaster (şaxələndirmə), müzakirə, diskussiya, Venn diaqramı metodundan istifadə etmişdir. Dərsin ilk mərhələsində beyin həmləsi metodundan istifadə edərək şagirdlərlə cümlə haqqında sorğu aparılmışdır. Sonra klaster (şaxələndirmə) metodundan istifadə edərək şagirdlərin cümlə haqqında bildikləri "cümlə" sözündən şaxələr ayrılmaqla lövhədə qeyd edilmişdir. Daha sonra "müxtəsər" və "geniş" sözlərinin ilk növbədə leksik mənası üzərində müzakirə, diskussiya aparılmışdır. Dərsin nəticə, ümumiləşdirmə mərhələsində Venn diaqramı metodundan istifadə edərək şagirdlər müxtəsər və geniş cümlələrin oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirirlər.

Şəhla Mirzəyeva "Tədris materialının möhkəmləndirilməsi prosesində interaktiv təlim metodlarından istifadə" məqaləsində "Leksika bəhsinin təkrarı" dərsində fəal/interaktiv metodlardan karusel və akvarium metodundan istifadə etmişdir. Karusel metodu vasitəsilə ayrı-ayrılıqda frazeoloji sinonimlərə, omonimlərə, antonimlərə aid misallar yazın başlıqlı işçi

vərəqləri şagirdlərə paylanılmış, saatı əqrəbi istiqamətində bütün qruplar öz fikirlərini burada qeyd etmişdir. Akvarium metodu vasitəsilə şagirdlər dörd qrupa ayrılmış, iki qrup daxili, iki qrup xarici dairədə əyləşmişlər. Daxili dairədəki şagirdlər verilmiş mətnlərə əsasən "nümunədə omonim varmı?", "nümunədə həm çoxmənalı, həm də omonim olan söz varmı?", "nümunədə ümumişlək olmayan söz varmı?" tapşırıqlarını işləyirlər. Xarici dairədəki şagirdlər sinonim, omonim, antonimlərlə əlaqədar lövhədə rəsm çəkirlər və bu dairənin bəzi şagirdləri daxili dairədəki şagirdlərə nəzarət edir, onların reqlamentə nə dərəcədə əməl etmələrini yoxlayır, qeyd aparırlar.

Fəal/interaktiv təlim metodları ilə keçirilən dərslər öz dinamikliyi, fəallığı, çevikliyi ilə seçilir. Burada fəallıq dedikdə hər iki tərəfin, müəllim və şagirdlərin fəallığı nəzərdə tutulur. Fəal/interaktiv təlim metodları dərsin məzmunundan və mərhələsindən asılı olaraq seçilməlidir. Bu zaman həmin dərs öz effektivliyi ilə seçiləcəkdir.

Ədəbiyyat

1. Abdullayeva G. Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadə, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı №1, Bakı 2010.

2. Bəkirova A.M. Mikayılov Ş.A. Təlim metodlarından kompleks şəkildə istifadə şagirdlərin ədəbi biliklərinin inkişafında mühüm amil kimi, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı №3, Bakı 2009.

3. Cavadov İ. Fonetikanın tədrisi prosesində müasir təlim texnologiyalarından istifadənin əhəmiyyəti, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı №4, Bakı 2015.

4. Əliyev S.H. Lirik şeirlərin təhlilində yeni texnologiyaların tətbiqi, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı №3, Bakı 2009.

5. Mirzəyeva Ş. Tədris materialının möhkəmləndirilməsi prosesində interaktiv təlim metodlarından istifadə, "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı №1, Bakı 2010.

"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında fəal/interaktiv təlim metodları üzrə olan materiallar haqqında

XÜLASƏ

Məqalədə "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında fəal/interaktiv təlim metodları ilə yazılmış məqalələr geniş təhlil olunur . Bu metodların səciyyəvi xüsusiyyətləri, məktəblərimizdə necə istifadə edildiyi öyrənilir. Fəal/interaktiv təlim metodları əsasında keçirilən bir neçə qabaqcıl müəllimin təcrübi dərs nümunəsinə nəzər salınır və metodik təhlillər verilir . Filoloq tələbələr və gənc müəllimlər üçün bu məqalə əhəmiyyətli ola bilər .

О материалах по активным / интерактивным методам обучения в журнале «Преподавание азербайджанского языка и литературы»

РЕЗЮМЕ

В статье анализируются статьи, написанные в журнале «Обучение азербайджанскому языку и литературе» с использованием активных / интерактивных методов обучения. Изучаются особенности этих методов, как они используются в наших школах. Рассмотрены примеры практических занятий нескольких продвинутых учителей, основанных на активных / интерактивных методах обучения, и дан методический анализ. Эта статья может быть важна для студентов-филологов и молодых преподавателей.

About materials on active / interactive teaching methods in the magazine "Teaching of Azerbaijani language and literature"

SUMMARY

The article analyzes the articles written in the magazine "Teaching the Azerbaijani language and literature" by active / interactive teaching methods. The specific features of

these methods are studied, how they are used in our schools. Examples of practical lessons of several advanced teachers based on active / interactive teaching methods are considered and methodical analyzes are given. This article may be important for philology students and young teachers.

Rəhimli Elvira
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos. Əliyev Həmzə

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ FONETİKANIN TƏDRİSİNDƏ İNTEQRASİYADAN İSTİFADƏ ÜSULU

Açar sözlər: *dil, inteqrasiya, üsullar*
Ключевые слова: *язык, интеграция, методы*
Key words: *language, integration, methods*

Kurikulum üzrə Azərbaycan dili dərslərində fonetikanın tədrisi zamanı müxtəlif inteqrasiyadan istifadə olunur.

Müasir dərsin əsas komponentlərindən biri inteqrativlikdir. İnteraktiv dərsdə inteqrativlik iki səciyyə daşıyır:

1) Fəndaxili inteqrasiya
2) Fənlərarası inteqrasiya

Fəndaxili inteqrasiya eyni fənn daxilində yeni mövzunun əvvəl keçilmiş mövzularla əlaqələndirilməsidir. Bu inteqrasiya həm eyni sinifdə bir dərs ili müddətində keçilən, həm də müxtəlif siniflərdə əvvəlki illərdə öyrənilmiş mövzular üzrə ola bilər. Mövzulararası inteqrasiya şagirdlərə fənnə dair əvvəlki biliklərini təkrarlamaq və yeni öyrənilən biliklə əlaqələndirmək, eyni zamanda, gələcəkdə öyrəniləcək mövzularla əlaqədar yaradıcı təfəkkürü inkişaf etdirmək imkanı verir. Bu baxımdan orta məktəbdə Azərbaycan dili fənninin tədrisində də inteqrativlik dərsin əsas komponentlərindən biri kimi daim diqqət mərkəzində durur.

V-XI siniflərdə Azərbaycan dili dərslərini fəndaxili inteqrasiyasız təsəvvür etmək mümkün deyil.

Orta məktəbdə Azərbaycan dili proqramı, məlum olduğu kimi, siniflər üzrə aşağıdakı şəkildə müəyyən olunmuşdur:

V sinif - fonetika, leksikologiya, söz yaradıcılığı
VI - VII siniflər – morfologiya
VIII - IX siniflər - sintaksis
X sinif - nitq mədəniyyəti
XI sinif - üslubiyyat

Göründüyü kimi, müxtəlif siniflərdə öyrənilən dil faktlarının bir-biri ilə əlaqələndirilməsi baxımından fəndaxili inteqrasiya mühüm əhəmiyyət kəsb edir.Azərbaycan dili dərslərində fəndaxili inteqrasiyanı müxtəlif səviyyələrdə və formalarda həyata keçirmək olar. Bu vasitələrdən biri də linqvistik təhlildir.

Azərbaycan dili üzrə məzmun standartlarından bəzilərinin dərketmə, digərlərinin tətbiqetmə mərhələsinə aid olması bir çox hallarda fəndaxili inteqrasiyaya yol açır; məsələn, verilmiş mətndə bəzi sözlər (daha çox feillər) buraxılır və kontekstdən çıxış edərək onların qrammatik formasını müəyyənləşdirmək tapşırılır ki, bu da oxu və dil qaydaları məzmun xətləri arasında şaquli inteqrasiya yaradır. Bəzən isə ibtidai siniflərdə reallaşdırılmış məzmun standartlarına müraciət olunur (şaquli inteqrasiya); məsələn, dərslərin şərhində qoyulan "mətnin davamını təxmin et" 4-cü sinfə aid məzmun standartıdır. Fəndaxili inteqrasiya zama-

nı inteqrasiya olunan məzmun standartı bəzən təlim məqsədi kimi göstərilmir. Bu həmin standartın dərsdəki çəkisindən asılıdır.

Dərslikdə və MMV-də verilmiş istənilən tapşırığın məqsədi müvafiq fənn (Azərbaycan dili) üzrə müəyyən məzmun standartını reallaşdırmaqdır. Lakin bu məqsədi həyata keçirmək üçün bəzən başqa fənnin məzmun standartı vasitə kimi çıxış edir və bu zaman fənlərarası inteqrasiya baş verir; məsələn, Şəhriyarın "Heydərbabaya salam" şeirini təhlil edərkən "Oxuyaydım: "Çoban qaytar quzunu" misrası araşdırılır və bu cümlənin məşhur xalq mahnısı "Sarı gəlin"dən olduğu müəyyənləşdirilir. Müəllimin köməyi ilə şagirdlər mahnının sözlərini və musiqisini xatırlayır və oxuyurlar. Beləliklə, musiqi fənni ilə inteq- rasiya yaradılır.

Fonetikadan öyrənilən səs və hərf arasındakı münasibətlər əvvəlcə, orfoqrafiya ilə orfoepiya arasındakı, daha sonra isə mahiyyət etibarı ilə düzgün yazı və düzgün tələffüz arasındakı əlaqələri öyrənməyə gətirib çıxarır.

Səslər və hərflər fonetikanın əsas mövzularından biridir. Məhz fonetikanın tədrisi ilə bağlı şagirdlər səs və hərf anlayışlarını anlamağa başlayırlar. Səs və hərf arasındakı münasibətlərin öyrənilməsi isə bilavasitə orfoqrafiya və orfoepiya ilə bağlıdır. Professor Y.Ş.Kərimov yazır: "Sözlərin səs və hərf tərkibi, sözlərdə səs və hərfin arasındakı fərqi anlamağa hazırlayır. Bu şagirdlərin orfoqrafik-orfoepik vərdişlərə yiyələnməsinə səbəb olur"

İbtidai siniflərdə Azərbaycan dili təliminin əsas məqsədi şagirdlərə savadlı yazı və düzgün tələffüz vərdişləri aşılamaqdan ibarətdir. Bunun əsası isə fonetikanın tədrisi ilə bağlıdır. İbtidai siniflərdə Azərbaycan dili fənninin tədrisində başlıca məqsəd şagirdlərə doğma dildə oxumağı, yazmağı öyrətmək onların yazılı və şifahi nitqini inkişaf etdirməkdir. Yazılı və şifahi nitqin əsasında isə orfoqrafik və orfoepik normalar durur. Yeni kurikulum əsasında hazırlanmış "Azərbaycan dili" dərsliklərində şagirdlərin orfoqrafik normaları gözləməklə savadlı yazıya yiyələnmələri və orfoepik normalara riayət etmələri diqqət mərkəzində saxlanılır.

Ədəbiyyat

1.Ümumi təhsil məktəblərinin V sinif üçün yeni Azərbaycan dili fənni üzrə dərslik

2. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulum 2006-cı il)

3. Bəşir Əhmədov. V sinif Azərbaycan dili dərsləri (müəllim üçün metodik vəsait Bakı maarif 1987) .

4. Afət Süleymanova Təhsilin əsasları dərs vəsaiti (Bakı təhsil 2014)

XÜLASƏ

Məktəblərdə aparılan araşdırmalara görə fəndaxili inteqrasiya zamanı müəllimlər çətinlik çəkirlər. Buna səbəb müəllimlərin inteqrasiyanı düzgün təşkil edə bilməməsidir. İnteqarasiya mövzuya uyğun olmalı, yığcam olmalı, şagirdləri düşündürməli, şagirdlərin hamısı əlaqələndirmə zamanı dərsə cəlb olunmalı və uyğun inteqrasiyanı edə bilməlidir.

Рагимли Э.

РЕЗЮМЕ

Согласно исследованиям в школах, учителя испытывают трудности с междисциплинарной интеграцией. Причина этого в том, что учителя не могут правильно организовать интеграцию. Интеграция должна быть актуальной, краткой, продуманной для учащихся, все учащиеся должны участвовать в уроке во время координации и иметь возможность осуществить соответствующую интеграцию.

Rahimli E.

SUMMARY

According to research in schools, teachers have difficulty with interdisciplinary integration. The reason for this is that teachers are not able to organize the integration properly. Integration must be relevant, concise, thoughtful to the students, all students must be involved in the lesson during the coordination and be able to make the appropriate integration.

Rəhimli Elvira
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos Həmzə Əliyev

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ FONETİKANIN TƏDRİSİNDƏ FƏNLƏRARASI İNTEQRASİYADAN İSTİFADƏNİN ÜSUL VƏ VASİTƏLƏRİ

Açar sözlər: *inteqrasiya, tədris, fənlərarası*
Ключевые слова: *интеграция обучение, обучение, междисциплинарный*
Key words: *integration, teaching, interdisciplinary*

İnteqrasiya termini XX əsrin sonundan daha fəal istifadə olunmağa başlasa da onun ifadə etdiyi mahiyyət və məzmun həyat yarandığı gündən mövcud olmuş, onun varlığını təşkil etmişdir. Zaman-zaman diferensial yanaşmalar hissələrə bölünməni, ayrılmaları tənzimlədiyi kimi, inteqrasiya prosesləri də bütövləşmələrin, tamamlanmaların nəticəsi kimi meydana çıxmışdır. Bəşəriyyətin tarixi boyu proqressiv xarakter daşıyan yeniliklər diferensial və həmçinin inteqrativ yanaşmaların fonunda yaranmışdır. Bütün elm sahələrində, o cümlədən sosiologiyada, eləcə də pedaqogikada inteqrasiya önəmli yer tutmuşdur. Ona görə də pedaqogikada "inteqrasiya", "inteqrativlik", eləcə də "təhsildə inteqrasiya" və s. Anlayışlardan daha çox istifadə olunmağa başlamışdır. İnteqrasiya təhsilin bütün struktur elementlərinə aid olduğundan son dövrlərdə "inteqrativ təlim", "inteqrativ dərs", "inteqrativ fənn" və s. anlayışlar da işlənir.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Bu inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır.

Fənlərarası və fəndaxili münasibətlərin sadəcə əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır.

Şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır. İnteqrasiya nəticəsində tədris materialının yığcamlığı təmin edilir, təkrara yer verilmir, şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt içərisində çox, həm də bir-biri ilə üzvi əlaqədə formalaşmış biliklər əldə edirlər. Bu məqsədlə uşaqları inteqrativ biliklər əldə etməyə hazırlayan fənlərarası əlaqəyə geniş yer verilməlidir. Bunun təmin edilməsi üçün müəllim bütün fənlər üzrə proqram materiallarına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən bilməlidir.

Fənlərarası əlaqə prosesində tədris fənni şagirdlər tərəfindən yaxşı mənimsənilir, bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır. Biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi təmin edilir.

Fənlərarası əlaqədən ardıcıl şəkildə istifadə tədrisin səviyyəsini yüksəldir, şagirdlərin təfəkkürünü inkişaf etdirir, dünyagörüşünü genişləndirir. Buna görə də təhsil ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyati bacarıqlardır.

İnteqrasiya nəticəsində təkrara yol verilmir. Şagirdlər artıq yüklənmir və tədris vaxtına qənaət edilir. Onlar az vaxt ərzində çox, həm də bir-biri ilə sıx bağlı olan biliklərə yiyilənmiş olurlar. Bu məqsədlə şagirdləri inteqtartiv biliklər əldə etmək üçün hazırlayan fənlərarası əlaqəyə çox böyük diqqət yetirilir.

Müasir tələblərə cavab verən kurikulumlar bir çox cəhətlərinə görə ənənəvi təhsil proqramlarından fərqlənir. Məsələn, ənənəvi təhsil proqramı: Bilikyönümlüdür, müəllimyönüm-

lüdür, fənnyönümlüdür, təklifyönümlüdür, fəndaxili və fənlərarası əlaqə məqsədyönlü və sistemli xarakter daşımır, bəzi fənlər üzrə qiymət normaları müəyyən edilib.

Müasir kurikulum: Şəxsiyyətyönümlüdür, şagirdyönümlüdür, nəticəyönümlüdür, tələbyönümlüdür, inteqrativlik əsas prinsip kimi qəbul olunub, qiymətləndirmə standartları və mexanizmləri müəyyən edilib.

Müqayisəli cədvəli müşahidə edərkən bir məqam diqqəti cəlb edir. Təhsilin digər komponentləri arasındakı fərq kəskin surətdə dəyişsə də, fəndaxili və fənlərarası əlaqənin müasir kurikulumdakı ifadəsi və yeri dəyişmir. Sadəcə olaraq ənənəvi təhsildə fəndaxili və fənlərarası əlaqənin məqsədyönlü və sistemli xarakter daşımaması müasir kurikulumlarda isə inteqrativliyin əsas prinsip kimi qəbul olunması qeyd olunur.

Pedaqoji mətbuatvə metodiki vəsaitlər inteqrativliyi təhsilin məzmun komponentlərinin birbiri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməsi kimi açıqlayır. Bu anlayışa verilən tərif həqiqətən də əhatəlidir.

Ədəbiyyat:

1. Ümumi təhsil məktəblərinin V sinif üçün yeni Azərbaycan dili fənni üzrə dərslik
2. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulum 2006-cı il)
3. Bəşir Əhmədov. V sinif Azərbaycan dili dərsləri (müəllim üçün metodik vəsait. Bakı: Maarif, 1987) .
4. Afət Süleymanova.Təhsilin əsasları. Dərs vəsaiti (Bakı: Təhsil, 2014)

XÜLASƏ

Fənlərarası əlaqə zamanı dərsin tələbinə uyğun qurulmalıdır. Ana dilində inteqrasiyanın üsulları şagird şəxsiyyətinin formalaşmasında, dərketmənin hər bir səviyyənin təlim məqsədlərinin reallaşmasında mühüm rolu vardır.

Рагимли Э.

РЕЗЮМЕ

Междисциплинарное общение должно быть построено в соответствии с требованиями урока. Способы интеграции на родном языке в формировании необходимой личности, каждый уровень понимания

Rahimli E.

SUMMARY

Interdisciplinary communication should be structured in accordance with the requirements of the lesson. Methods of integration in the native language in the formation of the required personality, each level of comprehension

Məhərrəmova Günay Arzuman qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos. S.Hüseynoğlu

NƏSR ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİNDƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ

Açar sözlər: *nəsr əsərləri, yeni texnologiyalar, təhlil, məzmun, hekayə*
Ключевые слова: *произведения прозы, новые технологии, анализ, содержание, история*
Key words: *prose works, new technologiens, analysis, contect, story*

Ləyaqətli vətəndaş tərbiyəsi hər bir bir cəmiyyəti ciddi düşündürən taleyüklü məsələdir. Bu, əslində, vətən, ölkə üçün yaradıcı, təşəbbüskar, eyni zamanda yurdsevər insanın tərbiyə edilməsi deməkdir. Bu tərbiyənin bünövrəsi ailədə, uşaq bağçasında qoyulur, lakin həlledici

addımlar məktəbdə atılır. Təlim-tərbiyənin elmi müstəvidə təşkil olunduğu təhsil ocağının - məktəbin uşaq və gənclərin əqli-mənəvi inkişafında, həqiqətən, əvəzsis rol oynayır. Bu, məktəbin işini, təhsilin məzmununu daim yeniləşdirməyi mühüm vəzifə kimi qarşıya qoyur. Təsadüfi deyildir ki, müasir dərsdə yeni təlim texnologiyalarından ardıcıl, sistemli istifadəyə geniş yer verilir. Ədəbiyyat təlimində, xüsusən, bədii əsərlərin öyrənilməsində yeni texnologiyaların tətbiqi barədə az yazılmamışdır, məktəbimiz də müəyyən təcrübə qazanmışdır. Etiraf edilməlidir ki, ədəbiyyat fənninin vəzifələrinin reallaşdırılmasında bədii əsərlərin tədrisi mühüm rol oynayır. Təhsil proqramının tələbinə uyğun olaraq ədəbiyyat fənn kurikulumunda bədii əsərlərə, o cümlədən epik əsərlərə geniş yer verilmişdir. Məqalədə E.Hüseynbəylinin "Firuzə qaşlı xəncər" hekayəsinin məzmunu üzrə işin təşkilindən və təhlili yollarından danışılmışdır. Bu hekayənin tədrisinə 3 dərs saatının ayrılması təcrübədə özünü doğrultmuşdur. Bunlardan iki saat məzmunun öyrənilməsinə, bir saat isə təhlilə həsr edilir. Əsərin tədrisinə ayrılmış birinci saatın əvvəlində dərslikdə [6]mətnin əvvəlində "Yada salın" və "Düşünün" başlıqlı suallara diqqətin cəlb edilməsi vacibdir. Birinci başlıqdakı suallar belədir: *Qarabağ müharibəsinə həsr olunmuş hansı incəsənət əsərləri ilə (kino, teatr tamaşası, və s.) tanışsınız? Düşmənlərimizin işğal etdikləri torpaqlarda dinc əhaliyə münasibəti haqqında nə bilirsiniz?* Bu suallar əsasında aparılan yığcam müzakirə mövzunun, əsərdə təsvir olunanların daha aydın təsəvvür edilməsinə,inteqrasiya imkanlarının reallaşdırılmasına səbəb olur.

İkinci başlıq altında verilmiş sual (Müharibədə dinc əhaliyə: qocalara, qadınlara, uşaqlara, xəstələrə, silahsız əsgərlərə münasibət necə olmalıdır?) beynəlxalq sazişlərin, razılaşmaların Qarabağ uğrunda gedən müharibədə ermənilər tərəfindən kobud şəkildə pozulduğunu izah etmək baxımından faydalıdır.

Məzmun üzrə işin təşkilinə motivasiya qurmaqla başlanılır. Bu mərhələdə Xocalı soyqırımını əks etdirən sənədli filmin fraqmentlərindən istifadə edilməsi və yığcam müzakirənin aparılması ilə tədqiqat sualını müəyyənləşdirmək mümkündür. Yaxud dərslikdəki "Yada salın" başlıqlı suallar üzrə müzakirə motivasiyanın yaradılması üçün vasitə rolunu oynaya bilər. Tədqiqat sualının bir variantı "Körpə uşağı ilə düşmənlə üzbəüz qalan ananın xilas yolu nə ola bilər?" şəklində müəyyənləşdirmək olar. Şagirdlərin fikirləri dinlənilir. Eyni zamanda tədqiqat sualı ilə əlaqədar olaraq müəllim mətni diqqətlə oxumağı, təsvir edilmiş hadisələrə münasibət bildirməyi, mətnkənarı sualları cavablandırmağı şagirdlərə tövsiyə edə bilər. Tədqiqatın aparılması mərhələsində mətndə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması məzmunun daha yaxşı mənimsənilməsinə və şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə imkan yaradır. Mətndəki ***hövlnak, xəyanətkar, aeroport, ratsiya***sözləri bu qəbildəndir. Hekayənin məzmununun mənimsədilməsi üçün fasiləli oxu tətbiq edilə bilər. Şagirdlər müəyyən zaman ərzində əsərin bir hissəsini oxuyub parta yoldaşları ilə qənaətlərini bölüşə bilərlər. Oxunmuş parça ilə əlaqədar şagirdlərə aşağıdakı sualların üzərində düşünmək təklif oluna bilər:

1)Oxuduğunuz parçadan nə öyrəndiniz?

2) "İtlə dost ol,çomağı yerə qoyma" atalar sözünü necə başa düşürsünüz7

3) Tofiq düşməni "xəyanətkar" adalandırmaqda haqlı idimi?

Bu suallar üzrə fikir mübadiləsi aparılmalı, şagird cavabları dinlənilməli, lazım gəldikdə müəllim öz tövsiyələrini verməlidir. Eyni qayda ilə digər hissələr də oxunmalı və müəyyən olunmuş suallar üzrə müsahibə aparılmalıdır.

Dərsin ikinci saatı da məzmunun mənimsədilməsi ilə bağlı işin təşkilinə həsr olunmalıdır. Tədqiqatın aparılması məqsədilə şagirdlər tərəfindən evdə oxunmuş parçalar bir daha nəzərdən keçirilir və şagirdlər mətnin məzmunu ilə bağlı verilmiş suallara cavab hazırlayırlar. Məlumat mübadiləsi zamanı şagirdlərin oxumuş olduqları mətnlə bağlı fikirləri dinlənilir və müzakirə mərhələsinə keçilir. Müzakirə zamanı diqqət edilməlidir ki, mətndə ifadə olunmuş "sən saydığını say, gör fələk nə sayır", "qisas qiyamətə qalmaz", "bu murdar qanı yumaq ondan xilas olmaq lazımdır" və s. kimi ifadələr şagirdlər tərəfindən dərk olunsun. Müzakirə zamanı mətndə işlədilmiş bədii təsvir və ifadə vasitələrinin (lalə yanaq, pambıq kimi) rolunun müəy-

yənləşdirilməsi 1.1.5 standartının reallaşmasına şərait yaradır. Əsərin hekayə janrında olduğunu göstərən faktların müəyyənləşdirilməsi 1.1.4 standartının tələbi əsasında həyata keçirilir. Məzmun məniməsənilməsi üzrə işin təşkili zamanı hekayənin müəyyən bir hissəsinin plan əsasında geniş nağıl edilməsi şagirdlərdə şifahi nitq bacarığının inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Təqdimatlarında hekayədəki söz və ifadələrdən istifadə etməklə şagirdlər öz lüğət ehtiyatlarını daha da zənginləşdirirlər. Məzmun üzrə işin uğurlu təşkilindən sonra nəticə ümumiləşdirmə mərhələsində daha öncə deyilmiş fikirlər bir daha təkrarlanır. Şagirdlərin müstəqilliyi və fəallığı diqqət mərkəzində saxlanılmalıdır. Aparılmış işlərin sonunda şagirdlərdə belə bir fikir formalaşmalıdır ki, Azərbaycan qadını, Azərbaycan türkü olan ana üçün övladdan, vətəndən əziz heç nə yoxdur.

Hekayənin məzmunu mənimsənildikdən sonra təhlil üzrəişin təşkili həyata keçirilir. Təhlil dərsinə keçmiş mövzunun soruşulması, ev tapşırığının yoxlanılması ilə başlamaq məqsədəuyğundur. Motivasiyanın uğurlu alınması üçün "Xoca" filimindən bir parça nümayiş olunsa, daha yaxşı olar. Şagirdlər arasında müsahibənin aparılması tədqiqat sualının formalaşdırılmasına zəmin yaradacaqdır. Tədqiqat sualını müxtəlif variantlarda müəyyənləşdirmək olar. Məsələn, "Bu əsəri yazmaqda müəllifin əsl niyyəti nə olmuşdur?". Şagirdlərin fərziyyələri dinlənilməli, təkrara yol verilmədən qeyd edilməlidir. Tədqiqatın aparılması məzmun və formasına görə müxtəlif cür planlaşdırıla bilər. Qruplara iş vərəqləri paylanmalı və hər qrupda iştirak edən şagirdin sual və tapşırıqları cavablandırarkən fəallıq göstərməsi diqqət mərkəzində saxlanılmalıdır. Müasir dərsin tələbinə uyğun olaraq müəllim bələdçi (fasilitator) mövqeyində olmalıdır. Qruplara lazım gəldikdə tövsiyələr verməli, qrup üzvlərinin fəaliyyətini istiqamətləndirməlidir. Məlumat mübadiləsi və müzakirəsi zamanı şagird cavabları dinlənilməli lazım gəldikdə əlavə suallar vasitəsi ilə dəqiqləşmələr aparılmalıdır. Müzakirə zamanı Zeynəb obrazının özünəxas cəhətləri – körpəsini qorumaq üçün yollar axtarması, bir ana kimi fədakarlığı, tədbirli davranışları və s kimi cəhətlər qeyd edilməlidir. Xüsusi olaraq vurğulanmalıdır ki, hiyləgər, mənfur düşmənlə mübarizədə Zeynəb Azərbaycan qadınına xas olan nəcib, mərd xüsusiyyətləri ilə seçilir və bu xüsusiyətləri ən çətin anda belə qoruyub saxlaya bilir. "Düşmənin də mərdi gərək" deyimi mətnlə əlaqləndirilməli, şagird fikirləri dinlənilməli, erməni xalqına məxsus ikiüzlülük, namərdlik, qəddarlıq və s. kimi cəhətlər diqqət mərkəzinə çəkilməlidir.

Nəticə və ümumilişdirmə mərhələsində əsərin ideyası şagirdlərə aydın olmalıdır. Təhlil dərsinin sonunda əldə olunmuş nəticələr fərziyyələrlə müqayisə edilməli və dərsin əvvəlində qoyulmuş tədqiqat sualına uyğunluğu diqqət mərkəzində saxlanılmalıdır.

Bədii əsərlər xalqımızın tarixini, mənəviyyatını, həyata baxışını, milli-mənəvi dəyərlərini yaşadan ən mötəbər mənbələrdəndir. Əvəzlənən nəsillərin bu mənbələrdən öyrənəcəyi çox şeylər vardır. Bütün bunlar ədəbi əsərləri mükəmməl öyrətməyi, ideya məzmununu, bədii-estetik keyfiyyətini dərindən mənimsətməyi zəruri edir. Buna nail olmaq üçün metodika elmi tədqiqatlarını dərinləşdirməli, məktəbə tutarlı praktik kömək göstərməlidir.

Ədəbiyyat

1. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı. Müəllim. 2016, 452 səh.
2. S.Hüseynoğlu. "Ədəbiyyat dərslərində yeni təlim texnologiyaları: fəal\intetaktiv təlim. Müəllimlər üçün vəasit. Bakı 2009, 200 səh.
3. S.Hüseynoğlu. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Metodik vəsait. Bakı -2019 264 səh
4. Muradov B.H. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı. Maarif, 1992.
5. Ümumtəhsil məktəblərinin V sinif üçün "Ədəbiyyat" fənni üzrə dərslik. "Bakı" nəşr 2017, 207 səh.
6. Ümumtəhsil məktəblərinin V sinif üçün Ədəbiyyat fənni üzrə dərsliyin Metodik vəsaiti "Bakı" nəşr. 2020, 207 səh.

Məhərrəmova G.

XÜLASƏ

Yetişən nəslin təlim-tərbiyəsində məktəbin rolu olduqca böyükdür. Müasir dərsdə yeni təlim texnologiyalarının istifadəsi tələb kimi qarşıya qoyulmalıdır. Bu gün ədəbiyyat dərslərinin səmərəli təşkili yeni təlim texnologiyalarının tətbiqini zəruri edir. Məqalədə E.Hüseynbəylinin "Firuzə qaşlı xəncər hekayəsinin tədrisinə toxunulmuşdur. Hekayənin tədrisi zamanı yeni təlim texnologiyalarından isitifadə dərsin səmərəli təşkilinə imkan yaradır. Proqramda əsərin tədrisinə üç saat nəzərdə tutulmuşdur. Hekayənin tədrisinə məzmun üzrə işin təşkili ilə başlanılmalıdır. Mətnlə ilkin tanışlıq şagirdlərin onu qavramasına imkan yaradır. Hekayənin hansı səviyyədə mənimsənilməsini yoxlamaq məqsədi ilə şagirdlər arasında diskussiya səciyyəli müsahibə aparıla bilər. Tədqiqat sualı ilə əlaqədar olaraq hekayədən müəyyən parçalar seçilməli və şagirdlər tərəfindən oxunmalıdır. Hekayənin məzmunu üzrə işin təşkili bitdikdən sonra dərsin təhlil mərhələsi başlamalıdır. Təhlil üzrə işin təşkli zamanı şagirdlərin fəallığı diqqət mərkəzində saxlanılmalı eyni zamanda müstəqil işləmələri təmin olunmalıdır. Təhlil dərslərində müəllim bələdçi mövqeyni qorumalıdır

Магеррамова Г.

РЕЗЮМЕ

Роль школы в воспитании подрастающего поколения очень велика. Использование новых технологий обучения на современном уроке следует рассматривать как требование. Сегодня эффективная организация уроков литературы требует применения обучающих технологий. В статье затрагивается учение рассказа Э.Гусейнбейли «Кинжал с бирюзой». Использование новых технологий обучения при преподавании истории позволяет эффективно организовать урок. Программа предусматривает трехчасовое обучение работе. Изучение рассказа следует начинать с организации работы над содержанием. Первоначальное знакомство с текстом позволяет учащимся понять его. Среди учащихся могут проводиться дискуссионные интервью для проверки уровня усвоения рассказа.В связи с исследовательским вопросом студенты должны выбрать и прочитать определенные отрывки из рассказа. После организации работы над содержанием рассказа следует приступить к аналитической фазе урока. При организации анализа деятельность студентов должна быть в центре внимания, при этом должна быть обеспечена самостоятельная работа. На уроках анализа учитель должен сохранять руководящую позицию.

Maharramova G.

SUMMARY

The role of school in the education of the younger generation is very large. The use of new learning technologies in the modern lesson should be considered as a requirement. Today, the effective organization of literature lessons makes it necessary to apply new learning technologies. The article touches on the teaching of E. Huseynbeyli's story "Dagger with turquoise". The use of new learning technologies in the teaching of the story allows for the effective organization of the lesson. The program provides for three hours of teachingthe work. The teaching of the story should begin with the organization of work on the content. Allows early learners to understand the text. Discussion interviews can be conducted with students totest their mastery of the story. In connection with the research question, certain passages from the story should be selected and read by the students. After analyzing the content of the story, the analysis phase of the lesson should begin. Students' activity should be kept in focus during the organization of the analysis, while independent work should be ensured. In analysis lessons, the teacher must maintain a guide position.

İsmayılova Xəyalə Əliməmməd qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MOTİVASİYA VƏ ONUN TƏLİM PROSESİNDƏ ROLU

Açar sözlər: *öyrənmə strategiyaları, motivasiya, motivasiya strategiyaları*
Ключевые слова: *стратегии обучения, мотивация, стратегии мотивации*
Key words: *learning strategies, motivation, motivation strategies*

Öyrənənləri yeni bir dilə sövq etmək çoxşaxəlidir və daim dəyişir. Onlar xarici bir dil öyrəndikləri zaman bir sıra amillərlə və problemlərlə üzləşir ki, bu da onlarda demotivasiya yaradır. Bu, sözsüz ki, təlim prosesinə birbaşa təsir göstərir. Xarici dil kimi ingilis dili tədris olunan siniflərində aparılan araşdırmalar aşkar etmişdir ki, müəyyən strategiyalar öyrənənlərin daha pozitiv düşünməsinə yol açır və beləliklə, onlar öyrənmə prosesində daha aktiv və istəkli olurlar. Bu strategiyalara xarici dilin necə tədris olunması ilə yanaşı, həm də tələbələrin hansı üsulla mənimsəyib qavraması da aiddir. Bu proses son illərdə olduqca popular olan müstəqil öyrənmə üslubunu da özündə ehtiva edir. Bununla birlikdə, dil sinfində tətbiq olunan motivasiya strategiyaları hələ də kifayət qədər köhnədir və dəyişən bir cəmiyyətlə əlaqəli deyil.

Motivasiya dil öyrənmə prosesində həlledici bir nüansdır və çoxsaylı anlayışları özündə cəmləşdirdiyi bir çox cəhətdən müəyyən edilmişdir. Motivasiya, ilk novbədə, öyrənənin dili qavramaq üçün nə dərəcədə istək sərgilədiyinin açıq təcəssümüdür. Öyrənmə istəyi olmadan, şagird və ya tələbənin digər yoldaşlarıyla iş birliyi içərisində olması, öz məhsuliyyətini dərk etməsi, və öyrənmə prosesinə tam mənada adaptasiya olması müşkül məsələdir. Dörnyeinin qeyd etdiyi kimi, motivasiya insan davranışını "gücləndirir" və "ona istiqamət verir". Bu, motivasiyanı "davranışı oyada və təhrik edə bilən, davranışa istiqamət və ya məqsəd verən, davranışın davam etməsini təkid edən, müəyyən bir davranışın seçilməsinə və ya üstünlük verilməsinə səbəb olan" kimi izah edən Wlodwoskinin fikirləri ilə uyğunlaşır.Dörnyei'yə görə, "şagirdləri motivasiya etməkdə müəllimin bacarıqları tədrisin effektivliyi üçün mərkəzi amil olaraq görülməlidir". Buna görə müəllimlər tədris prosesinin idarəçiləri kimi qəbul edilir və rollarından biri şagirdlərdə motivasiya yaratmaqdır. Bu, asan bir proses deyil, çünki motivasiya həm fərdi öyrənənin xaricində, həm də xaricində genişləndirilmiş bir sıra amillərdən asılıdır. Bu, asan bir proses deyil çünki, motivasiya fərdin həm daxilində, həm də xaricində yaranan bir sıra amillərdən asılıdır. Bu, müəllimlərin bacarıqlarına böyük tələb qoyur. Bununla yanaşı, motivasiya həm də şagirdlərin müstəqil şəkildə özlərini idarə edə bildikləri əhəmiyyətli bir hadisə kimi təsvir olunur. Müəyyən miqdarda motivasiya həm öyrənmə mühitindən, həm də şagirdin öz daxili aləmindən gəlməlidir. Bu o deməkdir ki, həm müəllim, həm də şagirdlər motivasiyanın artırılmasında birgə fəaliyyət göstərməlidirlər. Tənqidi danışıq analitikləri, sosial psixoloqlar və EFL mütəxəssislərinin əksəriyyəti dil müəllimi və tələbə münasibətlərinin gücə söykəndiyini qəbul edirlər. Bu güc üç əsas növə bölünə bilər: məcburi, mükafata əsaslanan vəmotivləşdirmə. Bu üçüncü növün, tələbə mərkəzli bir strategiyanı əhatə etdiyi nəzərə alınaraq ən operativ və praktik güc əlaqəsi olduğu iddia edilir, yəni şagirdlərin seçimləri və hərəkətləri onların öyrənmələrində birbaşa rol oynayır. Daha çox motivasiyaya sahib bir şagird öyrənmə üçün daha çox məsuliyyət daşıyacaq və daha çox üstünlük verilən bir tələbə sonradan daha çox motivasiyaya sahib olacaqdır. Beləliklə, müstəqil çalışmanın dəstəkləndiyi öyrənmə prosesi, şagird motivasiyasının artırılmasında əsas hərəkətverici qüvvə kimi qəbul edilir.

Motivasiyanın müxtəlif dərəcələri və ya güclü tərəfləri olduğu kimi, fərqli motivasiya növləri də mövcuddur. Bunlara əsas münasibətlər, inanclar və hədəflər aiddir. Motivasiyanın ən təməl səviyyədə iki fərqli qolu ayırd edilir: daxili və xarici. Daxili motivasiya insana ma-

raqlı gəldiyindən və ya insanlar onu əyləncəli hesab etdiyindən tapşırığın yerinə yetirilməsinə istinad etmək üçün istifadə edildi. Xarici motivasiya ifadəsi isə şagirdlərin iş və ya mənfəət əldə etməsi kimi bir nəticə verəcəyini gözlədikləri üçün etdikləri vəziyyətlərə tətbiq edilmişdir. Əvvəlki tədqiqatlar daxili və xarici səbəblərə görə davranarkən təcrübə və performans keyfiyyətinin çox fərqli ola biləcəyini ortaya çıxardı. Daxili motivasiya ilk dəfə 1950-ci illər ərzində heyvan davranışı üzərində eksperimental olaraq nümayiş olundu. Xüsusi olaraq, bəzi heyvanların mükafat və öyrədilmə olmadan yalnızca maraqlara əsaslanan öyrənmə ilə məşğul olduqları göstərilmişdir. Bu davranışlar "aydın şəkildə orqanizmə uyğunlaşma faydaları bəxş etsə də, hər hansı belə bir səbəbdən deyil, əksinə bir insanın bacarıqlarını həyata keçirmək və genişləndirməklə əlaqəli müsbət təcrübələrdən qaynaqlanır". Beləliklə, xarici motivasiya mükafat üçün bir hərəkət həyata keçirmək kimi təyin edilirsə, daxili motivasiyalı fəaliyyətlərdə isə, fəaliyyətin özü mükafat kimi hesab edilir. İnsanlar təbiəti etibariylə hər şeylə maraqlanmağı sevir və doğuşdan öyrənməyə və araşdırmağa hazırdırlar. Bu, idraki, fiziki və sosial inkişafın əsas aspektləridir.

EFL-də daxili motivasiyanın "yüksək keyfiyyətli öyrənmə və yaradıcılığa" gətirib çıxardığı və valideynlər, müəllimlər və siyasətçilər tərəfindən dəstəklənə və ya azaldıla bilən həlledici bir amil olduğu ortaya çıxdı. Şagirdlərin hər hansı bir dili öyrənmək üçün daxili istəkləri varsa, özlərində o motivasiyanı tapır və öyrənmə prosesini özləri idarə edirlər. İnsanların həyata keçirdiyi gündəlik fəaliyyətlərin əksəriyyətində daxili motivasiya əhəmiyyət daşımır.Bu, xüsusilə uşaqlıqdan sonrakı dövrlərdə baş verir, çünki azadlıq getdikcə sosial təsir, tələblər və daha rahat yaşayış istəyi ilə əvəzlənir.

Öyrənənlərin motivasiyası ikinci dilə olan münasibətiylə sıx bağlıdır. Hər hansı dil qrupuna olan münasibət öyrənənin həmin dili qavramasında nə dərəcədə müvəffəqiyyət qazandığına təsir göstərir. Biz dil öyrənənərkən sadəcə bacarəq və sistem əsaslı qaydalar öyrənmirik. Daha doğrusu, dil öyrənmək bizim şəxsiyyətimizlə və şəxsiyyətimizi yeni bir dil vasitəsiylə necə ifadə etdiyimizlə sıx bağlıdır. Buraya özünəməxsus imicdə dəyişiklik, yeni sosial və mədəni davranışların və var olma yollarının mənimsənilməsi daxildir və bu səbəbdən də öyrənənin sosial davranışına ciddi təsir göstərir. Beləliklə, motivasiya sadəcə insanın səriştələrindən və performansa əsaslanan uğurlarından deyil, tətbiq etdiyi ideologiya kimi daha az hiss olunan amillərdən də asılıdır.

Tədqiqatçılar xarici dil öyrənən şagirdlərinmotivasiyasına dair sonrakı araşdırmalarda daha praqmatik mərkəzli bir çağırış üzərində dayandı. Bu, sinif mühitini araşdırmaq və bu mühitin bir hissəsi olmaq üçün xüsusi şagird motivlərini müəyyənləşdirmək demək idi. Dörnyei və Csizer (1998, s.215) sinif mühitində "dil öyrənənləri motivasiya etmək" üçün on faktı irəli sürdü. Bu faktlar aşağıdakı kimi ümumiləşdirilə bilər: 1) müəllimlər davranış baxımından nümunə olmalıdır; 2) rahat sinif mühitini təşkil etmək; 3) müəllim və şagird arasındakı sağlam münasibətləri qorumaq; 4) şagirdlərin hörmətini artırmaq; 5) dil dərslərinin düşündürücü olmasına əmin olmaq; 6) öyrənmə prosesini öyrənənlər üçün fərdiləşdirmək; 7) şagirdləri müstəqil işə təşviq etmək; 8) tapşırıqları aydın şəkildə təqdim etmək; 9) şagird hədəflərini artırmaq; 10) L2 mədəniyyətini təbliğ etmək;

Bir çox tədqiqatçı, tələbələr üçünmüxtəlif öyrənmə üslublarına cavab verən bir sıra materialların lazım olduğunu və bunun motivasiyanın inkişafında və təşviq edilməsində əsas amil olduğuna dair eyni nəticəyə gəlir.Dərslər tələbə mərkəzli olmalıdır və bu, göstərildiyi kimi birgə öyrənmə və texnologiyanın istifadəsi kimi yanaşmalar vasitəsilə idarə oluna bilər. Tələbələrin hədəf dilə olan müsbət münasibətlərini stimullaşdırmaq da müxtəlif strategiyalar sayəsində əldə edilə bilən əsas amildir.

Motivasiya ədəbiyyatının artmasına və motivasiya strategiyalarının təbliğindəki mövcud tendensiyaya baxmayaraq, hələ də kommunikativ tədrisə və ünsiyyətli öyrənmə yolu ilə motivasiyanın necə əldə olunmasına yönəlmiş bir araşdırma çatışmazlığı qalmaqdadır. Öyrənənlərə "sərbəst qarşılıqlı əlaqə qurmaq və bir-birlərinin səhvlərini öyrənmək imkanlarını"

təmin etmək, bu spesifik sahədəki yeganə tədqiqat işi kimi görünsə də, sinif otaqları və məzmunun tədrisinə daha çox diqqət yetirilməsi məqsədyönlüdür.

Beləliklə, bu faktorların əlaqəsinin gələcək tədqiqatlarda araşdırılması təklif olunur. Gələcək tədqiqatların mümkün bir başqa sahəsi də şagirdlərin motivasiyası və motivasiya strategiyaları üçün ən yaxşı təcrübələrə dair bir dil müəllimi təlim modulu inkişaf etdirmə potensialının araşdırılması olacaqdır. Üstəlik, L2 müəllimləri üçün bu təklifin həyata keçirilməsini təmin etmək üçün daha çox sərait yaradılmalıdır.

Bir sıra tədqiqatlar universitet tələbələrinin bəzi materialların çoxluğundan və həqiqiliyin olmamasından şikayətləndiklərini ortaya qoydu. Bu tələbələrin çoxu tələb etdikləri bəzi qabiliyyətlərin bütün bir universitet semestrində deyil, işdə öyrədilə biləcəyini iddia etdi. Dil tədrisi bu səbəbdən şagirdlərin motivasiyasını qorumaq üçün potensial karyeralarına, gələcək istəklərinə və gələcək vəziyyətdəki tələblərinə cavab verməlidir. İnteraktiv tədris metodları və orijinal dil istifadəsi anlama və ünsiyyət qabiliyyətlərini artırmaq üçün çoxsaylı hallarda göstərilmişdir.

Tədqiqatlar göstərir ki, əyləncə və tələbə müdaxilələrindən istifadə edən interaktiv dərslər vasitəsiylə müəllimlər öyrənənlərin ünsiyyət səriştələrini başa düşmək və inkişaf etdirmək ehtiyaclarını daha çox dərk edir. Ümumiyyətlə, şagirdlər özlərində yalnız ünsiyyətcil və mənalı təlim prosesinə rəhbərlik etmək üçün motivasiya yarada bilərlər. Bundan əlavə, müəllimlər və siyasətçilər motivasiyanı yalnız başlanğıc və ya bitiş nöqtəsi olan deyil, davamlı bir proses kimi həyata keçirməlidirlər.

Ədəbiyyat

1. Dörnyei Z. (1994) Motivation and motivating in the foreign language classroom. The Modern Language Journal, 78(3), 273-284.

2. Gardner's Socio-educational Model. "A main feature of the socio-educational model is motivation" (Gardner, 2006, p. 242).

3. Gardner R.C. (1996) Motivation and second language acquisition: Perspectives. Journal of the Canadian Journal of Applied Linguistics, 18(2): 19-42.

4. Oxford R.L. &Amerstorfer C.M. (eds.), (2018) Language learning strategies and individual learner characteristics: Situating strategy use in diverse contexts. BloomsburyPublishing.

5. Ryan R.M., & Stiller J. (1991) The social contexts of internalization: Parent and teacher influences on autonomy, motivation and learning. In Pintrich, P. R. &Maehr, M. L. (Eds.), Advances in motivation and achievement: Vol. 7, Goals and self-regulatory processes. Greenwich, CT: JAI, (pp. 115-149).

Исмайлова Хаяла

Мотивация и ее роль в процессе обучения

РЕЗЮМЕ

Учащиеся, сталкивающиеся с трудностями при изучении английского языка из-за ряда факторов и проблем, часто теряют мотивацию к обучению. Это оказывает прямое влияние на весь процесс обучения. Исследование мотивации в классе EFL показало, что определенные стратегии могут побудить учащихся мыслить более позитивно и, таким образом, быть более мотивированными в процессе изучения языка. В этой статье критически обсуждаются типы стратегий мотивации в классе EFL и их рост популярности. Вслед за этим в нем критически рассматриваются способы, в которых стратегии мотивации все еще отсутствуют, и, следовательно, представлены некоторые подходы к их более эффективному продвижению с точки зрения учащихся, учителей и политиков. Наряду с конкретными рекомендациями по дальнейшим исследованиям мотивации L2, в заключение в статье содержится призыв к принятию ряда мотивационных стратегий, которые могут улучшить изучение иностранного языка учащимися.

Ismayilova Khayala

Motivation and its role in the learning process

SUMMARY

Students who are having trouble learning English due to a variety of factors and issues are frequently demotivated to learn. This has a direct effect on the learning process as a whole. Certain strategies can encourage learners to think more positively and thus be more motivated in their language learning process, according to research into motivation in the EFL classroom. This paper critically examines the various types of motivation strategies used in EFL classrooms, as well as their growing popularity.Following that, it critically examines how motivation strategies are still lacking and, as a result, proposes some strategies for students, teachers, and policymakers to better promote them. The paper concludes by recommending a variety of motivational strategies for improving student foreign language learning, as well as specific recommendations for future research on L2 motivation.

İsmayılova Xəyalə Əliməmməd qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XARİCİ DİLİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARDAN İSTİFADƏ

Açar sözlər: *metod, innovasiya, tədris metodlarının səmərəliliyi*
Ключевые слова: *методы, инновация, эффективность методов обучения*
Key words: *methods, innovation, efficiency of teaching methods*

Müasir cəmiyyətdə xarici dillər peşəkar təlimin vacib bir hissəsinə çevrilmişdir. Müxtəlif sahələrdə mütəxəssislər yüksək səviyyədə dil bilikləri ilə maraqlanırlar, çünki bu məsələlərin uğurlu həllinə və peşəkar böyüməyə təsir göstərir. Bir çox sahədə xarici tərəfdaşlarla əlaqə qurmağa ehtiyac vardır.

Uğur və hədəfə çatmaq tətbiq olunan metodlardan və təhsil verən kadrların keyfiyyətindən asılıdır. İnformasiya texnologiyalarından və müasir tədris metodlarından istifadə etmək bacarığı yeni materialın sürətli başa düşülməsinə kömək edir. Müxtəlif texnikaları birləşdirərək müəllimlər xüsusi təhsil proqramı tərtib edə bilərlər. Bunu nəzərə alaraq müəllimlər və tələbələr xarici dil tədrisinin müasir metodları ilə tanış olmalıdırlar. Bundan əlavə, məqsədlərinə çatmaq üçün ən təsirli texnikaları seçə bilərlər.

"Metod" termini iki əsas mənaya malikdir: 1. Hədəfə müəyyən bir yol, nəticəyə çatmaq deməkdir, 2. Elmin inkişafının müxtəlif dövrlərində hökm sürən tam metodik sistem və təlim prosesinin əsas istiqaməti. Müasir mərhələ xarici dil tədrisi metodlarının diqqətlə seçilməsi ilə xarakterizə olunur. Bu gün xüsusi diqqət müasir informasiya texnologiyaları və faktiki tendensiyalara verilir. Müxtəlif sahələrdə mütəxəssislərin hazırlanması zamanı ən təsirli metodlar, texnikalar və vasitələr seçilir.Alimlərin fikrincə, ən vacib hədəf ikinci dərəcəli dilin şəxsiyyət səviyyəsində formalaşmasıdır. Tələbələr yeni bir dili tamamilə yeni bir səviyyəyə qaldırmalıdırlar. Bununla yanaşı, qavrayışdakı səhvlərin qarşısını almaq üçün ikinci dili ana dilindən ayırmaq vacibdir.

İnnovativ metodların seçimi zamanı aşağıdakı meyarlar nəzərə alınmışdır:

- Tələbələr üçün rahat və dəstəkləyici bir atmosferin yaradılması, təbii marağın təşviqi və yeni xarici dil öyrənmək istəyi.
- Şifahi, yazılı və yaradıcılıq qabiliyyətlərini stimullaşdırmaq üçün təhsil prosesindəki duyğuların, hisslərin, təcrübələrin cəlb edilməsi.
- Təhsil prosesində idraki yanaşmadan istifadə.
- Dil ilə emosional və fiziki imkanlar səviyyəsində təkbaşına işləmək.

Müxtəlif iş formaları bu hədəflərə çatmağa kömək edəcəkdir. Praktik təcrübə tələbənin şəxsiyyət və maraqlarının xarici dil anlayışının keyfiyyətinə birbaşa təsir etdiyi qənaətinə

gəlməyə imkan verir. Bunun üçün müxtəlif texnika və öyrənmə vasitələrindən istifadə etmək vacibdir. 20-ci əsrin sonlarına qədər pedaqogikada bir çox maraqlı və təsirli metod və yanaşma yaranmışdır. Alimlər xarici dil tədrisi metodikasını zənginləşdirdilər, buna görə də mürəkkəb və çoxşaxəli bir elm halına gəldi. Beləliklə, xarici dillərin tədrisinin yenilikçi metodlarına aşağıdakıları misal göstərmək mümkündür:

➢ ***Problem metodu***

Bir neçə onilliklər ərzində təhsil sistemində əsasən avtoritar yanaşma ilə təhsildə üstünlük təşkil etmişdir. Nəticədə, tələbələr nadir hallarda təşəbbüs göstərən passiv obyektlər rolunu oynadılar. Hal-hazırda ön planda vəziyyəti dəyişdirmək və tələbələri prosesə cəlb etmək üçün hazırlanmış şəxsiyyət yönümlü bir təhsil vardır. Aparıcı tədqiqatçılar problem metodundan istifadə edərək təlim prosesini təşkil etməyin bir neçə əsas yolunu müəyyənləşdirdilər: 1)Monoloji; 2)Dialoqik; 3)Tədqiqat; 4)Mülahizə; 5)Evristik; 6)Proqramlaşdırılmış.

Monoloji fəaliyyətdə çox vaxt tələbələrə yeni bir lüğət və bilinməyən məlumatların olduğu yeni bir mətn verilir. Onlar fikirlərini ifadə etdikləri və yeni faktlar ortaya qoyduqları bir hekayə və ya inşa yazırlar. Dialoqik fəaliyyətə suallara cavab verməli olan müəllimlə şagirdlər arasında dialoqun qurulması daxildir. Bunun üçün yeni mətndən məlumatlar istifadə edilir.Təhsilin növbəti mərhələsi düşüncə fəaliyyətidir. Şagirdlər müəyyən nəticələr verən təqdimatlar yazırlar. Bu, məntiq və mülahizələrin yoxlanılmasına və bütövlükdə mətnin düzgün başa düşülməsinə imkan verir.Evristik tapşırıqlar, tələbələrin özləri yeni bir qayda və ya qanunun bir növ kəşf etməsi lazım olduğu xüsusi bir fəaliyyət formasıdır. Məsələn, mətndəki felin və ya zamanın xüsusi istifadəsini müəyyən edə bilərlər.Tədqiqat tapşırıqları daha yüksək bir performans səviyyəsidir. Şagirdlərdən müstəqil olaraq yeni hadisə və mahiyyətləri üzə çıxarmaq tələb olunur. Dərslərin xüsusi bir təşkil forması olaraq təcrübə, hesabatlar, sorğular, məlumatların toplanması, faktların təhlili və s. seçmək mümkündür.

➢ ***Kommunikativ metod***

Ünsiyyət xarici dillərin inkişafında mühüm rol oynayan fəaliyyətlərdənbiridir. Tələbə yeni bir dildə ünsiyyət qurmağı bacarmalıdır. Təlimdə nitq bacarıqlarının formalaşmasına və ünsiyyət qabiliyyətinin inkişafına kifayət qədər diqqət yetirilməlidir. Ünsiyyət həmişə uyğunluğu təmin etmək üçün bir sıra şərtlərlə müşayiət olunur: Hər bir insanın fərdi xüsusiyyətləri; Nitqə üstünlük vermək; Praktiklik; Kontekstuallıq; Yenilikçilik.

Bu şərtlərə tabe olaraq, ünsiyyətdən danışa bilərik. Əks təqdirdə, ünsiyyətin mümkünlüyü sual doğuracaqdır. Öyrənərkən bu məsələlərin həllinə ehtiyac duyulur.Tələbələr bu metodla tədricən öz bacarıqlarını inkişaf etdirməyin müxtəlif mərhələlərini keçirlər. Gələcəkdə əldə etdikləri bacarıqlardan istifadə edərək təkbaşına dialoq qurmağı bacarmalıdırlar. Öyrənənlərin ünsiyyət fəaliyyətini artırmaq məqsədilə dərsə başlamazdan əvvəl ümumi sual-cavab etmək mümkündür: “Necəsiniz? Ayın neçəsidir? Hava necədir? Bundan əvvəl hansı mövzuları etmisiniz?” tipli suallar bunlara misal oluna bilər. Bənzər bir vəziyyət yeni materialın izahı zamanı da baş verir. Müəllim mütəmadi olaraq öyrənilən mövzu ilə bağlı suallar verməli, hər bir dinləyicinin cavab verməsini təklif etməlidir. Bu sayədə iki əsas problem həll olunur: Yeni lüğətin mənimsənilməsi və dil bacarıqlarının inkişaf etdirilməsi.Bir çox mütəxəssisə görə, dialoq və monoloqların inkişafı üçün nitq spontan olmalıdır. Hazırlıqsız hər hansı mövzü barəsində danışmaq və ya suallara cavab vermək xarici dil öyrənən tələbələrin nitqlərinin inkişafına yardımçı ola bilər.

➢ ***İnteraktiv metod***

Hazırda interaktiv təlim tapşırıqları geniş istifadə olunur və yaş qrupundan asılı olaraq yüksək effektivlik nümayiş etdirirlər. Bu cür tapşırıqlara aiddir: Danışığa hazırlıq; Komandalarda qrup işi (dəyirmi masalar, müzakirələr, mini konfranslar və s.); Müxtəlif oyunlar; Audio və video materialların istifadəsi.

Danışığa hazırlıqmərhələsində müəllim və şagirdlər arasında bir mövzuya giriş etməyə imkan verən bəzi dialoqlar yer ala bilər. Bu mərhələ, həmçinin, dil bacarıqlarına və lüğət tək-

rarına yiyələnməyə də xidmət edir. Spontan oyunlar, teatr tamaşaları, mübahisəli dialoqlar və s. istifadə oluna bilər. Danışıq və digər bacarıqların inkişafı üçün bugünlərdə audio və video materiallardan geniş vüsətdə istifadə olunur. Onlar yeni məlumatlar əldə etməyə, mətnləri dinləməyə və tələffüz etməyə imkan verirlər. Dərslərdə maqnitofonlar, interaktiv lövhələr, proyektorlar və müxtəlif multimedia avadanlıqlarından istifadə olunur. Bu, xarici dil öyrənmə prosesində müxtəlifliyi təmin edir.

Ədəbiyyat

1. Bocharova OV, Kasharnaya SM. The use of electronic textbooks in the teaching of subjects: Guidelines for teachers of UNPO. Kurgan: IPKiPROofKurganRegion; 2008

2. Galskova ND. Modern methods of foreign languages teaching. Moscow: ARKTI; 2003.

3. Golovko EA. Information and communication technologies as a means of modeling socio-cultural space of foreign language learning. Foreign Languagesat School: Scientiicand Methodical Journal. 2007; 8(1):60-6.

4. Ur. P. 1996. A course in Language Teaching Cambridge: Cambridge University: Cambridge University Press.

5. Richards D., Rogerds G. (1995). Approaches and methods of language teaching. CambridgeUniversityPress. 171 p.

6. Watkins P. (2018). Teaching and developing reading skills. Cambridge Universitypress. 327 p.

7. Jeremy Harmer. 2007. How to Teach English. Harlow: Pearson Education Limited.

Исмайлова Хаяла

Использование инновационных методов в обучении иностранным языкам

РЕЗЮМЕ

Доказано, что традиционные исследования сосредоточены только на передаче и сохранении знаний, навыков и способностей и не работают должным образом. Современное обучение языку направлено на формирование мультикультурной личности, способной к самоанализу и систематизации новых знаний. Для этого в последние годы широко используются культурологические подходы. Также информационные и компьютерные технологии создают условия для самообразования.

Инновационные методы - неотъемлемая часть модернизации всей системы. Учителя должны быть знакомы с самыми передовыми подходами, а затем комбинировать их в учебном процессе.

Ismayilova Khayala

Use of innovative methods in Foreign Language Teaching

SUMMARY

It has been proven that traditional research focuses only on the transfer and retention of knowledge, skills, and abilities, and does not perform adequately. Modern language teaching is aimed at the formation of a multicultural personality capable of self-analysis and systematization of new knowledge. For this purpose, culturological approaches have been widely used in recent years. Also, information and computer technology create conditions for self-education.

Innovative methods are an integral part of the modernizationof the whole system. Teachers need to be familiar with the most advanced approaches and then combine them in the teaching process.

Nurəliyeva Leyla
ADPU

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRƏ YAZI BACARIQLARININ ÖYRƏDİLMƏSİNDƏ MÜASİR TEXNOLOGİYALARIN ƏHƏMİYYƏTİ

Açar sözlər: *ingilis dili, tələbə, yazı, bacarıq, müasir, texnologiya, kompüter*
Ключевые слова: *английский, студент, письмо, навыки, современный, текстология, компьютер*
Key words: *english, student, writing, skills, modern, technology, computer*

"XXI əsr kompüter əsridir, dövrümüz isə texnologiyalar dövrüdür" kimi cümlələrə gündəlik həyatda tez–tez rast gəlinir. Çünki artıq kompüterin tətbiq olunmadığı bir sahə tapmaq qeyri mümkündür. Kompüterdən tibbdə, mühəndislikdə və bir çox başqa sahələrdə geniş istifadə olunur. Artıq XXI əsrdə savadlılıq anlayışı öz mənasını genişləndirmişdir. Keçən əsrlər savadlı yazmaq və oxumaq bacarıqları ilə sərhədlənirdisə, indi artıq ona minimal kompüter biliklərinə sahib olmaq da əlavə olunub. Gündəlik həyatımızda biz kompüterlərdən müxtəlif məqsədlər üçün istifadə edirik, lakin bu zaman bizdən kompüteri mükəmməl bilmək tələb olunmur. Bizə yalnız minimal kompüter bilikləri gərəklidir. Buraya kompüterdə mətn yığmaq, e-poçt ünvanına daxil olmaq, gələn ismarıcları oxumaq, cavablandırmaq, veb-brauzerlərdə axtarış etmək və s. daxildir. Təbii ki, həyatımızın demək olar ki, hər bir sahəsinə tətbiq olunan kompüterlər, təhsil sahəsindən də yan keçə bilməzdi. Əgər dövr bizdən kompüter biliklərinə sahib olmağı tələb edirsə, bu ilk növbədə təhsildə öz əksini tapmalıdır. Kompüterin təhsilə cəlb olunması ilə kompüterlə dil tədrisi də təhsildə öz əksini tapdı və kompüterlə dil tədrisi və ya kompüterə əsaslanan dil tədrisi metodikaya gətirildi.

Yaşadığımız dövrdə demək olar ki, texnologiya artıq bütün sahələrə tətbiq edilir. Daim inkişaf edən texnologiyanın təhsil sahəsinə tətbiqi də ən önəmli məsələlərdən biridir və ingilis dilinin tədrisində də İKT-lərdən istifadə olunması çox aktual bir mövzudur. Lakin bugündə dil tədrisində İKT-lərdən istifadə edilməsi ilə bağlı öz həllini gözləyən bir çox məsələlər vardır. Bu məsələlərdən ən önəmlisi İKT-lərdən istifadə edilərək tədris olunan ingilis dilinin ünsiyyət vasitəsi kimi inkişaf etdirilməsidir. Bu səbəbdən də bugün ingilis dilinin tədrisində kommunikativ dil təlimi metodu əsas hesab olunur. Təhsildə dilin ünsiyyət vasitəsi kimi tədris edilməsi ön plana çəkilir. Müasir ünsiyyətin ən yaxşı vasitəsi isə İKT-lərdən istifadədir. Demək olar ki, təlim prosesində artıq əksər müəllimlər İKT-lərdən məharətlə istifadə edirlər. Bu cür vasitələrdən istifadə edilməzsə, yeni nəsli ənənəviüsullarla keçilən dərslərə cəlb etmək çox çətin olar. Bu məsələlərin ən önəmli həlli yolu isə, dil dərslərini müasir texnologiyalarla zənginləşdirməkdir. (1, s.3)

İnternet texnologiyalarından istifadə edərək ali təhsil müəssisələrində yazı bacarıqlarını müəyyənləşdirmək üçün əvvəlcə yazı tərifləri tahlil etmək lazımdır. Elmi ədəbiyyatda yazı haqqında bir çox terminlər var. Yazmağı öyrənmək təkcə xarici dillərin tədrisi metodikasında deyil, dilçilik və psixologiyada da öyrənilir. Dilçilikdə yazı dilin qrafik görünüşü kimi başa düşülür və yazı prosesi şifahi nitq ünsiyyətinin əlavə vasitəsi kimi qəbul edilir. Xarici dillərin tədrisi metodikasında yazı tələbələr tərəfindən xarici dilin qrafika və orfoqrafiya sistemlərini, nitq və dil materialını daha yaxşı əzbərləmək və birləşdirmək üçün və şifahi nitqi mənimsəmədə köməkçi olaraq yazı prosesi təyin edilir. Psixologiyada yazı nitq səsləri, hərflər və nitq hərəkətləri arasında bir əlaqə olduğu qarışıq bir proses kimi qəbul edilir. Elmi ədəbiyyatda "yazı" və "yazılı nitq" iki termin olduğundan, yalnız yazı deyil, həm də yazılı nitqi izah etmək lazımdır. Əgər yazı qrafik işarələr sistemidirsə, yazılı nitq düşüncələri yazılı şəkildə ifadə etməyə yönəlmiş kompleks yaradıcılıq fəaliyyətidir. G.V.Roqova, yazmağı mürəkkəb nitq bacarığı, xarici dilin qrafik və yazım sisteminə yiyələnmə obyekti, yazılı nitq fikrini yazılı şəkildə ifadə etmə prosesi kimi təyin edən oxşar bir spesifik nitq fəaliyyət növü olaraq təyin edir.

Tələbələrin kağız və qələmdən İKT istifadəsinə keçməsi, qarşılıqlı əlaqə və öyrənmə üçün yeni imkanlar yaradır, çünki ənənəvi ünsiyyət yollarını dəyişdirir, daha yaxşı müəllim-tələbə münasibətlərini açır, əsasən tələbələr texnoloji cəhətdən daha ustadırlar. Beləliklə, tələbələrin yaxşı bildikləri vasitələrdən istifadə etməkdə rahat olduqları bir fəaliyyətin və ya tapşırığın təbliğindən faydalanmaq vacibdir. Bundan əlavə, tələbələrin lüğət və qrammatika nümunələrini genişləndirərək və öz templəri ilə hərəkət etmələrini təmin edərək mövcud məlumatlarını artırır.(2, s.5)

Sinifdə kompüter istifadəsinin bir sıra səbəbləri var; məsələn, test etmək, multimedia məzmunu ilə işləmək, orijinal materialdan istifadə etmək və s. Bu üstünlüklər müəllimlərin pedaqoji strategiyalarının imkanlarını genişləndirə və tələbələri dili özü öyrənməyə sövq edə bilər. Sinifdə kompüterdən istifadə etmək, müasir texnologiyalar vasitəsilə xarici dili öyrənmək müəllimlər və tələbələrin mənalı və cəlbedici bir şəkildə əlaqə qurmasına imkan yaradır. Hal-hazırda kompüter texnologiyası dil biliklərinin inkişafı və təkmilləşdirilməsi üçün bir sıra üstünlüklər verir. Məsələn, öyrənənlərin orijinal materialla maraqlı və mənalı bir şəkildə qarşılıqlı əlaqə quraraq dil bacarıqlarını inkişaf etdirməsinə imkan yaradır. Həm də ən təsirli yazı öyrənmə vasitələrindən biridir. Məsələn, Cunningham tələbələrinin söz işləmə proqramından istifadə etdikləri zaman yazı siniflərini daha məhsuldar tapdıqlarını, buna görə tələbələrinin 88% -i yazı bacarıqlarını inkişaf etdirdiklərini və qrammatika, lüğət və dil strukturlarını daha dərindən öyrənməyə kömək etdiyini göstərir.

İngilis kompüter sinfinin ənənəvi sinifdə istifadəsi əlavə vasitələr ilə dil öyrənməyi təmin edir, çünki tələbələr kompüter işində yüksək dərəcəyə malikdirlər və faydalı onlayn veb səhifələrdə necə hərəkət etməyi bilirlər, bu da İKT-nin dizayn və inkişaf tədrisində müsbət təsirini göstərir. Ali təhsil şöbələrində müəllimlər, idarəedicilər və siyasətçilər tələbələri rəqəmsal vətəndaşlıq vəziyyətlərindən irəli gələn bilik səviyyəsinə qaldırmaq üçün dil tədrisi üçün İKT istifadəsini təşviq etməlidirlər. Onlayn yazı çarxı platformasının faydası tələbələrin ingilis dilində yazma qabiliyyətini artırır. Planlaşdırma mərhələsi tələbələrin söz ehtiyatlarını genişləndirməsinə imkan verir; bu, tələbələrə layihənin dizayn mərhələsində inkişaf etdiriləcək çərçivələri yaratmağa kömək edən əsas konsepsiyalardan, sadə və ya mürəkkəb cümlələrdən istifadə edərək fikirlərini çatdırmağa şərait yaradır. Müəllimlər tələbələrə yazı prosesinin mərhələlərini izləməyi öyrətməklə sinifdə yazı vərdişlərini inkişaf etdirməlidirlər ki, fikirlərini çatdırarkən məntiqi ardıcıllıqlara və cümlədə söz sırasına riayət edərək yazı üslublarını inkişaf etdirsinlər. Eynilə, müəllimlər də İKT yazı prosesinin funksiyalarınıtələbələrə ingilis dilində yazmağı tövsiyə etməlidirlər. Tələbələr bu yolla həm yeni texnologiyaları, həm də ingilis dilini mənimsəmiş olarlar. Onlayn platformalar kimi İKT vasitələri dətələbələrə məntiqli fikirləşmək və xarici dil bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır. Tələbələrin yazı bacarıqlarını müstəqil inkişaf etdirmək və onlara müstəqil işləyə bilməsi üçün bütün təhsil müəssisələrində İKT əsaslı tədris və təlim metodoloji strategiyalarının EFL tədris planına daxil edilməsini çox tövsiyə edirlər. (3, s.9)

Ədəbiyyat

1. Bünyatova F., Abdulla B. Təlim və Tərbiyədə İnteraktiv Texnologiya. Bakı 2000, səh.85
2.Barnett, M. (1992). Writing as a process. The French Review, 63(1), 31-44.
3. Tribble, C. (1996). Writing. Oxford, United Kingdom: Oxford University Press.

Нуралиева Л.

Важность обучения студентов навыкам письма при обучении английскому языку

РЕЗЮМЕ

Внедрение технологических ресурсов, таких как компьютер, видеолуч, магнитофоны и сети, повышает интерес студентов, их энтузиазм, понимание языка и владение им. Эти виды ресурсов побуждают студентов взаимодействовать с языком интересным и различным образом, помогая им легко понять смысл. Кроме того, использование текстового материала, изображений, видео и аудио на уроках EFL, ориентированных на

письмо, приводит студентов к большим достижениям; реализация таких стратегий, как предсказание и связывание слов, помогает им изучать лексику, грамматику, синтаксические правила и семантические принципы. Использование этих ресурсов настоятельно рекомендуется для мотивации, вовлечения и активизации знаний студентов на всех уровнях образовательной системы. Онлайн-инструменты помогают студентам обрабатывать информацию и репетировать языковые формы в рамках различных подходов в соответствии с языковыми навыками, например колесо процесса письма. Эти инструменты ИКТ повышают интерес студентов к иностранному языку осмысленно и привлекательно, позволяя им взаимодействовать с языком в контексте.

Nureliyeva L.

The importance of teaching writing skills to students in teaching English

SUMMARY

The implementation of technological resources such as computer, video beam, tape recorders, and networks increases students' interest, enthusiasm and language understanding and command. These kinds of resources encourage students to interact with the language in an interesting and different way assisting them to grasp meaning easily. Moreover, the use of text material, images, videos, and audios in EFL lessons focused on writing leads students to more achievements; the implementation of strategies such as prediction and linking words help them learn vocabulary, grammar, syntactic rules, and semantic principles. The use of these resources is strongly suggested to motivate, engage, and activate students' knowledge at all levels in the educational system.Online tools help students process information and rehearse language forms within different approaches according to language skills, for example the writing process wheel. These ICT tools raise students' interest in the foreign language in a meaningful and engaging manner, allowing them to interact with the language in context.

Abbasova Nigar
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Rəyçi: Faidə İsayeva (f.ü.f.d., dosent)

MÜASİR TƏDRİS METODLARININ İSTİFADƏSİ ZAMANI QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR

Açar sözlər: *kurikulum, müasir təlim üsulları, innovativ metodlar, təhsil sistemi, inteqrasiya, bacarıq, qabiliyyət, kommunikativ vərdişlər*

Ключевые слова:*куррикулум, современные методы обучения, инновационные методы, система образования, интеграция, умение, способность, коммуникативные привычки*

Key words:*curriculum, modern teaching methods, innovative methods, education system, integration, skill, ability, communicative habits*

İnkişaf etmiş dövlətlərin təcrübəsi bunu deməyə əsas verir ki, cəmiyyətin inkişaf tendensiyası təhsilin sisteminin səviyyəsindən, əldə edilmiş biliklərin praktikada tətbiqindən birbaşa asılıdır. Buna görə də tərəqqi etmiş ölkələrdə təhsil dövlət üçün olduqca vacib məsələ olub, ölkə başçılarının və ictimaiyyətin hər zaman diqqət mərkəzindədir. Məhz hazırda ingilis dilinin mənimsənilməsi, tələbələrin sadəcə şəxsi marağı olmayıb, həmçinin, valideynlərin meyl və arzuları diqqətə alınmaqla ölkənin təhsil siyasəti və millətin gələcəyi ilə əlaqəlidir. Onların təlim-tərbiyəsinə, sağlamlığına düzgün münasibət bəşəriyyətin aydın sabahının, parlaq gələcəyinin təminatıdır. XXI əsrdə yaşayacaq nəsillərin təlim-tərbiyəsinin, sağlamlığının, xoşbəxt həyatının təməli bugünümüzdən başlayır.

Bildiyimiz kimi, ölkəmizin təhsil sistemi inkişaf etmiş ölkələrin təhsil sistemi ilə davamlı inteqrasiya prosesindədir. Bu isə öz növbəsində dillərin tədrisi prosesinin dil öyrənənlərin bilik səviyyəsi, maraq və ehtiyaclarının nəzərə alınaraq təşkil edilməsini təkidlə tələb edir. Müasir təlim metodları tələbənin öyrədilməsini, müəllim tərəfindən biliklərin birbaşa tələbələrə ötürülməsini deyil, lazımı bilik və bacarıqların təlim prosesində fəal şəkildə iştirak edən tələbələr tərəfindən öyrənilməsini nəzərdə tutur. İngilis dilini xarici dil kimi öyrənən tələbələrə dil və nitq vahidlərinin funksional-yönümlü, kommunikativ-yönümlü təlimindən bəhs edərkən, tələbələrin sadəcə öyrədilməsindən deyil, həmçinin tələbələri ingilis dilində ünsiyyət prosesinə cəlb etməklə, onlarda dil bacarıqlarının inteqrativ şəkildə, yəni danışıq, eşidib-anlama, oxu və yazı bacarıqları ilə eyni vaxtda formalaşdırılmasını nəzərdə tutur. Bu isə öz növbəsində ingilis dilinin tədrisi metodikasında mövcud olan və dərs prosesini kifayət qədər səmərəliləşdirən "learning by doing", yəni hər hansı hərəkəti icra etməklə öyrənmək prinsipinin məqsədyönlü, sistemli şəkildə həyata keçirilməsi deməkdir.

Məlumdur ki, təhsil müəssisələri cəmiyyətin sosial sifarişini yerinə yetirməlidir: şagirdləri dərin və hərtərəfli biliklərlə təmin etməli, onlarda bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik olan şəxsiyyət yetişdirməlidir. Məhz bütün bunları nəzərə alaraq yuxarıda söylənilən problemlərin səmərəli həlli üçün ümumtəhsil məktəblərində dünya standartlarına cavab verə biləcək yeni pedaqoji və metodik yanaşmalar, yeni metodik düşüncə tərzi lazımdır.

Açıq cəmiyyətdə səmərəli vətəndaşlığa hazırlaşmaq şagirdlərdən mühüm idrak qabiliyyəti tələb edir, onlar öz fikrini formalaşdırmağı, təcrübə və düşüncədən məna çıxarmağı, məntiqi arqumentlər tapmağı, fikirlərini aydın və inamla ifadə etməyi bacarmalıdırlar. Amma vətəndaşın formalaşması üçün təkcə bu qabiliyyətlər kifayət deyil, sosial sahədə zəruri olan münasibət və qabiliyyətlər var ki, bunlar şagirdləri gələcəkdə dəyərli vətəndaş olmağa istiqamətləndirir.

Əgər biz istəyiriksə uşaqlar dediyimizi etsinlər, ancaq onlara özləri bildiyi kimi hərəkət etməyə və fikirləşməyə imkan vermiriksə, demək, yaşadığımız sistemin nöqsanlarını aradan qaldırmaqda və həqiqi demokratik ideyalara çatmaqda özümüz maneələr yaradırıq. Dövlətimiz azadlıq üzərində qurulmuşdur, amma bu fəaliyyətlə biz sabahkı dövlətimiz üçün azadlığı məhdudlaşdırmış oluruq. Məktəbdə uşaqlara elə bir azadlıq verilməlidir ki, onlar sabah idarəetmə işində çalışanda azadlığın nə olduğunu bilsinlər.

Şagirdlərdə özünə inam hissi onda yaranır ki, onlara sinfin və dərsin təşkilində iştirak etməyə icazə verilir, öyrənmədə sərbəstlik verilir və onların fikirləri ictimai müzakirəyə səbəb olur. Bununla yanaşı, müasir təlim metodlarından və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və müəllimlə şagird arasında, şagirdlərin öz aralarında və məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan yaradır. Hər bir müəllim, diqqətlə və ağılla, həmin nəzəriyyələrdən irəli gələn tədris üsullarından istifadə edərək səmərəli öyrənmə və şagirdlərin təhsildə təşəbbüskarlıq göstərməsi üçün təlimat proqramı hazırlaya və tətbiq edə bilər. Müasir təlim metodlarından və İKT-dən istifadə cəmiyyətin dəyərli vətəndaşları olmağa hazırlaşan, fəal və hər şeylə maraqlanan şagirdlərin təhsil aldığı siniflərin yaradılmasında müəllimlərə yol göstərəcəkdir. Bu isə dünyanın hər yerində təfəkkürə üstünlük verən müəllimlərin heç vaxt bitib-tükənməyən axtarışları deməkdir.

Dərsin əhəmiyyəti təkcə onun məzmunu ilə deyil, həm də forması ilə şərtlənir. Dərs həm də düşünməyi öyrətdiyinə görə faydalıdır. Dərs o zaman fayda gətirir ki, şagirdlərdə canlı maraq, kəskin reaksiya doğursun, onları diskussiyaya girməyə, materiala uyğun hərəkətə sövq etsin. Bu cür dərs təkcə canlı və maraqlı keçməklə qalmayacaq, o həm də şagirdlərə bütün ömürləri boyu onlar üçün faydalı olacaq sərbəst düşüncə vərdişləri aşılayacaqdır.

Xarici dilin yeni təlim proqramları vasitəsilə tədrisində onun kommunikativ vərdişlərin formalaşmasına kömək edən müasir məzmuna, təlimin yüksək səviyyədə təşkilinə və nəticədə əldə edilmiş bacarıqların meyarlara uyğun qiymətləndirilməsinə, yəni dəyərləndirilməsinə

xidmət etməsi qeyd edilir. Aparılmış müşahidələr bunu deməyə dəlalət edir ki, təlim prosesində sadəcə oxu və yazı qabiliyyətlərinin ənənəvi tətbiqi metodu hələ də davam etməkdədir. Xarici dil fənn kurikulumunda bir sıra müxtəlif metodiki nəzəriyyələrə və fəlsəfi cərəyanlara əsaslanan təlim yanaşmaları siyahı formasında qeyd olunsa da, onların mənşəyi haqqında məlumatlara geniş yer verilmir, hansı təlim fəaliyyətlərinin kommunikativ vərdişlərin inkişaf etdirilməsində səmərəli olması aydın izah edilmir. Bununla yanaşı, müəllimlərin bu metod və üsulları nə üçün istifadə etməli olduqları qeyd edilmir. Xarici dil fənn kurikulumu bir dövlət sənədi olaraq müəllimin gündəlik dərs proqramı sayıla bilməz, belə ki, siniflər üzrə göstərilmiş standartlar, tədris metodologiyaları ümumi xarakterə malikdir. Eyni zamanda siniflər üzrə təlim proqramları isə sadəcə ümumi və işlənilməmiş xarakter daşıyır. V-IX siniflər üçün tərtib edilmiş kiçik həcmli proqram nümunələri sadəcə dərsliklərə uyğun olaraq hazırlanır və burada standartların, mövzuların, inteqrasiya standartlarının, vəsaitlərin və qiymətləndirmə üsullarının qeyd olunmasına baxmayaraq bu, müəllimlərə işin metodik tərəfini aydın izah etmir.

Əksər hallarda xarici dil müəllimləri müxtəlif dil səviyyəsinə malik tələbələrə eyni təlim prosesində dərs keçməli olurlar. Belə təşkil olunmuş siniflərdə tələbələr mənimsəmə qabiliyyətinə təsir edən bir çox faktorlara əsasən bir-birindən seçilirlər. Belə ki, onlar dil öyrənmədə istifadə etdikləri müxtəlif metod və səriştələrinə, maraq dairələrinə və qazandıqları təcrübələrinə görə bir-birindən fərqlənirlər. Sadalanan xüsusiyyətlər təlim prosesində həm dili tədris edən müəllim, həm də dil öyrənən tələbələr üçün müəyyən problemlər yaradır. Məsələn, ilk olaraq yoldaşlarından bir qədər zəif dil bacarıqlarına malik olan tələbələr onlara verilən tapşırığı doğru yerinə yetirə bilmədikdə özlərini məyus hiss edə bilər və dərsə olan maraqları azalar. Yoldaşları ilə müqayisədə nisbətən güclü olan tələbələr isə zəif tələbələrlə eyni dərs mühitində dil öyrənməkdən yorula və bəzən hətta qarşıya qoyulan məqsədə nail olmaq üçün öz potensial imkanlarından lazımı qədər istifadəyə ehtiyac hiss etmədiklərindən həvəsdən düşə bilərlər. Müəllim belə halla qarşılaşdıqda əsas vəzifəsi tələbələrinin bilik səviyyəsindən asılı olmayaraq hər birinin diqqətini dərsə cəlb etməklə onların ehtiyaclarının təmin edildiyi bir dərs mühiti təşkil etməkdir.

Beləliklə, yuxarıda vurğulanan səbəbləri nəzərə alaraq belə bir ümumiləşdirmə edə biləik ki, müxtəlif dil səviyyəsinə malik tələbələrin cəmləşdiyi siniflərdə dərs keçmək müəllimdən böyük ustalıq və məharət tələb edir. Belə ki, müasir üsul və yanaşmalardan istifadə edərək tələbələrinin müəyyən dil qabiliyyətlərini, dərs gözləntilərini, üstün tutduqları öyrənmə üslubu və ehtiyac sahələrini dərslərində əks etdirən müəllim öz siniflərində mükəmməl bir dərs təşkil edə biləcək.

Ədəbiyyat

1. Ç.Templ, K.Meredit, C.Stil: Uşaqlar necə dərk edir? İlkin Prinsiplər. Açıq Cəmiyyət İnstitutu Yardım Fondu – Azərbaycan, 2000
2. Ç.Templ, K.Meredit, C.Stil: Tənqidi təfəkkürün gələcək inkişaf üsulları. Açıq Cəmiyyət İnstitutu Yardım Fondu – Azərbaycan, 2000
3. X.Qədimova "İnteraktiv təlim metodları və onların yolları", Bakı-2003
4. Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda Respublika elmi-praktiki konfransının tezisləri, 2017, səh. 10
5. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006, səh. 132
6. Bünyadova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı 2000, səh. 85

Аббасова Н.

Проблемы использования современных методов обучения

РЕЗЮМЕ

После детального изучения различных методов обучения мы не можем сказать, какой педагогический способ обучения лучше. Учителя внедряют различные инновационные идеи, чтобы объяснить содержание учащимся. Кроме того, в обязанности учителей входит обучение студентов подходящими и современными методами. По этому долг учителя-сделать шаг к принятию современных методов обучения. Для обеспечения качественного образования необходимо сочетание квалифицированного преподавателя и инновационных методов обучения. Чтобы студенты были готовы не только с теоретическими знаниями, но и с практическим опытом изучения предметов встретиться лицом к лицу с миром и посоревноваться со своими конкурентами.

Короче говоря, включение современных методов обучения в это время необходимо, так как оно противостоит идее традиционных форм повторения и запоминания учебного плана для обучения студентов. Для развития навыков принятия решений, решения проблем и критического мышления лучше всего подходят современные методы обучения. Новые способы обучения делают студентов более продуктивными и поощряют их к сотрудничеству.

Abbasova N.

Challenges in the use of modern teaching methods

SUMMARY

After a detailed study of different teaching methods, we can't say which pedagogical way of teaching is better. Teachers are introducing different innovative ideas to explain the content to learners. Also, it is the responsibility of teachers to teach students with suitable and modern methods. So, it becomes the duty of a teacher to take a step towards accepting modern methods of teaching. To provide a sound education, there should be an amalgamation of a skilled teacher and innovative ways of teaching. So that students will be ready with not only theoretical knowledge but also with practical experience of subjects to face the world and compete against their competitors.

As a result, the inclusion of modern teaching methods in this time is necessary as it opposes the idea of traditional forms of repetition and memorisation of the syllabus to educate students. To develop decision-making skills, problem-solving skills, and critical thinking ability, modern teaching methods are best suited. The new ways of teaching make students more productive and encourage them to collaborate.

Abbasova Nigar
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Rəyçi: Faidə İsayeva (f.ü.f.d., dosent)

XARİCİ DİLİN TƏDRİSİNDƏ MÜASİR METODLAR

Açar sözlər: *motivasiya, vizual təqdimat, innovativ təhsil, kommunikativ metod, qrup işi, test, sual-cavab, kompüter, ünsiyyət*

Ключевые слова: *мотивация, визуальное представление, инновационное образование, коммуникативный метод, групповая работа, тест, вопрос и ответ, компьютер, коммуникации*

Key words: *motivation, visual presentation, innovative education, communicative method, group work, test, question and answer, computer, communication*

Xarici dillərin tədrisi digər humanitar fənlərin tədrisindən özünün spesifikliyi ilə seçilir. Xarici dilin öyrədilməsinin effektivliyinin artırılması müasir tədris sisteminin qarşısında duran

əsas vəzifələrdəndir. Buna əsasən xarici dilin öyrənilməsinin intensivləşdirilməsi müasir tədris metodologiyasının və texnoloji avadanlıqların – kompüter, audio-video texnikasının, elektron vəsaitlərin müntəzəm istifadəsini tələb edir.

Hazırda dünyanın inkişaf etmiş bir çox ölkələrinin ali və orta təhsil müəssisələrində uğurla həyata keçirilən kommunikativ yanaşmanın ölkəmizdə də xarici dillərin tədrisi sisteminə tətbiq edilməsində müəyyən işlər aparılır. Bildiyimiz kimi, kommunikativ yanaşmanın əsasını təşkil edən prinsiplər aşağıdakılardır: kommunikativlik, tələbə-yönümlülük, interaktivlik. Qeyd edilən bu prinsiplər bir-biri ilə sıx bağlıdır və bir növ vəhdət təşkil edir. Müasir dövrün tələblərinə uyğun olaraq təlim prosesi tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Belə ki, təlim prosesi tələbələrin ehtiyac və tələbatlarını, onların məqsədlərini, maraq dairələrini, yaş və bilik səviyyələrini, xüsusi bacarıqlarını nəzərə almaqla təşkil edilməlidir. Bu tələbə-yönümlülük prinsipinin əsas şərtləridir və bunlar təlim prosesinin tamamilə yeni tərzdə keçirilməsini təmin edir.

Metodik ədəbiyyatların analizi də göstərir ki, ənənəvi birtərəfli tədris kommunikativ-interaktiv tədris metodologiyası ilə əvəzlənməlidir. Ənənəvi metodda müəllim öz işini izah etmək, tapşırıq vermək və yoxlamaq üzərində qurur, şagird-müəllim ünsiyyəti birbaşa deyil, dolayı şəkildə həyata keçirilir. İnteraktiv metod zamanı isə müəllim bilavasitə şagirdlə ünsiyyət yaradır, şagird isə əsas funksional fiqura çevrilərək bacarığını ifadə etmək imkanı qazanır. Bu zaman şagird dil baryerlərini daha rahat aşır, onda yad dildə danışmaq utancaqlığı zamanla aradan qalxır, nəticədə, dərs vaxtı həm də real situasiyaların məşqinə imkan yaranır.

Dərs vəsaiti olaraq audio-video texnikasından istifadə, danışaraq göstərə bilmək şagirdləri dərsə daha həvəs və maraqla yanaşmağa sövq edir. Bu da bir həqiqətdir ki, şagird həvəsi olmadığı işi görmək istəmir və ya "mən bunu qavraya bilmirəm" deyərək yanlış fikirlərlə dərsdən soyuyur. Bu cür şagirdləri dərsə qazandırmaq üçün təkcə şagird-müəllim ünsiyyətini qurmaqla kifayətlənməməli, eyni zamanda şagirdlərin öz aralarındakı kommunikasiyanı gücləndirmək lazımdır. Bunun ən yaxşı yolu müəyyən oyunlar təşkil etmək, şagirdlərə rollar vermək, birgə mahnılar oxumaq, hər kəsi müzakirələrdə iştiraka cəlb etməkdir. Müasir tədris metodu yeni dərslərin müəllim tərəfindən xarici dildə tanış sözlərlə, keçilmiş dil formulları, qrammatik konstruksiyalar, mimika və jestlərlə yanaşı, şəkillər və digər vizual təqdimat vasitələri ilə də aparılmasını tələb edir. Belə metodlardan biri də kommunikativ metoddur. Bu metod nitqi (yazılı və şifahi) inkişaf etdirir. İnkişaf etmiş nitq şagirdlərdə səlis danışmaq qabiliyyəti formalaşdırır, qrammatika həmin danışıq prosesində öyrədilir. Əvvəlcədən sözlər öyrənmiş şagirdlər bildikləri formullarla cümlə qurur, sonra isə müəllim cümlələrə yeni qrammatik qaydaları tətbiq etməklə düzəlişlər edərək həmin qaydaları şagirdlərə öyrədir.

Xarici dilin öyrədilməsində müasir təlim dedikdə, tədris zamanı müəllimin sərgilədiyi pedaqoji ustalıq, qabiliyyəti də nəzərdə tutulur. Müəllim dərs otağında lazımı şərait yaradıb tələbələrin individual mühakimələrinə müəyyən vaxt ayırırsa, tədris edilən hər mövzunun formasına uyğun priyomlardan, fəallıq və interaktivliyin təmin edilməsindən, tədqiqat suallarından istifadə edirsə, demək olar ki, o, dərsi innovativ tələblər əsasında qurmağı bacarır. Dərslərdə tez-tez qarşılıqlı sual-cavab və testlərdən istifadə interaktiv metodun üstünlüklərindən biridir. Bütün şagirdləri bu prosesə cəlb edərək onlar arasında rəqabət mühiti yaratmaqla həm öyrətmək, həm də ünsiyyət maneələrini aradan qaldırmaq olar. Şagirdlərin həvəsləndirmələrə meyilli olduğunu nəzərə alaraq, hər pedaqoq öz xüsusi kiçik mükafatlandırma metodlarını tətbiq edə bilər və bu, sərbəstdir. Təki şagirdlər öz fikirlərini xarici dildə ifadə etməkdən çəkinməsinlər, onlar tələb olunan cavabı verə bilsinlər. Müəyyən komanda yarışları təşkil etmək, şagirdləri qruplara bölərək onların hər birinin özünü komandanın vacib elementi kimi hiss etməsinə imkan yaratmaq da yeni təlim metodları sırasındadır.

Xarici dili yaxşı öyrənmək üçün təkcə məktəb proqramı və sinif dərslikləri ilə kifayətlənmək düzgün deyil. Bunun üçün müəllim mütəmadi olaraq öz üzərində işləməli, mövzuya uyğun əlavə ədəbiyyat və ya kitablardan istifadəni bacarmalıdır.Öyrənmək, təbii ki, müəyyən

vaxt və əmək sərfi tələb edir. Amma effektiv metodlarla bu işi əyləncəli və maraqlı şəkildə həyata keçirmək daha səmərəli və bəhrəli olar. Bunun üçün şagirdlərə dərs və dərsdənkənar məşğələlərdə aşağıdakıları məsləhət görmək məqsədəuyğundur: xarici dildə kitablar oxumaq, sadə yazılardan, uşaq kitablarından (şəkilli, illüstrasiyalı) istifadə etmək. Bütün bunlar ona xidmət edir ki, oxu prosesi həvəslə həyata keçir, hər söz üçün lüğət axtarmağa ehtiyac qalmır, oxuduqca məlum sözlər əsasında ümumi məna çıxarmaq bacarığı yaranır. Vacib hallarda, yəni sözləri aid olduğu ifadələrə uyğun şəkildə qavramaq üçün lüğətə baxmaq məqbuldur. Bu zaman öyrənmə prosesinin çətinliyi aradan qalxacaq və sözlər daha yaxşı yadda qalacaq. Xarici dildə filmlərə baxmaq da effektlidir. Başlanğıcda yaxşı olar ki, filmlərə alt yazılarla baxılsın. Xarici dildə xəbərlərə baxmaq, musiqi dinləmək də dil öyrənmənin effektiv üsullarındandır.

İngilis dilinin tədrisində İKT-dən düzgün istifadə edilməsi tədris prosesinə yeniliklər gətirməklə yanaşı öyrənənlərin bilik almağa marağını artırır, onları daha motivasiyalı edir, müəllimin məşğələyə hazırlıq prosesini asanlaşdırır. Tələbələr əvvəllər fənnlərə dair məlumatları tədris vəsaitlərindən, dərsliklərdən televiziya verilişlərindən alırdısa artıq bunları internet, elektron kitab və s. əvəz edir. Dil dərslərində İKT-dən elə istifadə etmək lazımdır ki, öyrənənlər dərs prosesində fəal iştirak etsinlər, öz əməyinin bəhrəsini görsünlər və özlərini qiymətləndirə bilsinlər. Tədris materiallarının seçimində əsasən sistemlilik, ardıcıllıq, əlçatanlıq, fərqli yanaşma, elmilik kimi əsas didaktik prinsiplər nəzərə alınmalıdır. Lakin universitetlərdə tədris materiallarının öyrənilməsinə ayrılan vaxt məhduddur. Artıq bu cür problemlərin olması tədris prosesində müasir texnologiyalardan və innovativ təhsil metodlarından istifadəni vacib amil kimi ortaya qoyur. Əgər əvvəllər müəllimlər informasiyanın əsas mənbəyi hesab olunurdularsa, hal-hazırda onlar informasiya ilə tələbə arasında vasitəçi rolunu oynayırlar. Onlar öz tələbələrinə informasiya ilə işləmə metodlarını öyrətməlidirlər. Bütün bunları nəzərə alaraq ali təhsilin həmçinin pedoqoji təhsilin məzmun və texnologiyasını təkmilləşdirmək lazımdır. [2, səh 42].

İlk baxışdan təhsildə İKT-dən istifadə çətin və mürəkkəb görünsə də, lakin bu belə deyil. İKT dərs prosesini sadələşdirir, onu daha da asanlşdırır, dərsi daha maraqlı, dinamik və çevik edir. Bu sözləri məhşur çin fəlsəfəsinin deyimi ilə tamamlayaq:

Desən – unudaram,
Göstərsən – yadda saxlayaram,
Məni cəlb edə bilsən – başa düşərəm.

Tələbələr indi kompyuterlərdə yalnız qrammatik tapşırıqlar etməkdənsə, ondan ünsiyyət vasitəsi kimi istifadə edərək dil bacarıqlarını inkişaf etdirməyi daha üstün tuturlar. Dil öyrənmədə kommunikasiyanın əsas vasitə olması hələ də bir çox mübahisələr doğurur. Lemkeyə istinad etsək deyə bilərik ki, əsas məsələ texnologiyanı texnologiya xatirinə, tapşırığı da tapşırıq xatirinə etmək demək deyil, əsas məsələ fikri kommunikativ məqsədə yönəldərək onu müxtəlif yollarla istifadə edə bilməkdir. [3, səh 111]

Ədəbiyyat

1. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. ARTPİ-nin elmi əsərləri, 2006, səh 132

2. Veysova Z. Fəal/ interaktiv təlim. Bakı 2007, səh 77

3. Lemke, J.L. Metamedia Literacy: Transforming meanings and media. In D.Reinking, M.Mckenna, L.Labbo, & R.D.Kieffer (Eds). Handbook of literacyand technology: Transformations in a post-typographic world (pp.283- 301). Hillsdale, NJ: Erlbaum, 1998, 19p

4. Richards J.C., Rodgers T.S. Approaches and Methods in Language Teaching . Cambridge University Press, 2001, 270p

5. Xarici dilin tədrisində müasir metodlar, http://www.serqqapisi.az/index.php/humanitar/elm-v-t-hsil/2551-kharidzi-dilin-oeyraenilmaesindae-muasir-metodlar.html

6. British Council, Innovations in learning technologies for English language teaching. British Council 2013, 43p.

Аббасова Н.

Современные методы обучения иностранному языку

РЕЗЮМЕ

Было доказано, что традиционные исследования направлены только на передачу и поддержание знаний, навыков и способностей и не демонстрируют адекватных результатов. Современное языковое образование направлено на формирование поликультурной идентичности, с навыками самоанализа и систематизации новых знаний. Для этой цели используются компетентностный и культурологический подходы. Информационные и компьютерные технологии могут повысить эффективность и создать условия для самостоятельной работы.

Инновационные методы являются неотъемлемой частью модернизации всей системы. Учителя должны ознакомиться с наиболее прогрессивными подходами, а затем объединить их и использовать в работе. Большинство учителей сегодня активно развивают эти технологии, потому что это касается вопроса профессионализма и развития карьеры.

Abbasova N.

Contemporary methods in teaching foreign language

SUMMARY

It has been proven that traditional studies directed only to the transfer and maintenance of knowledge, skills and abilities, and do not demonstrate adequate performance. Modern language education aimed at the formation of a multicultural identity, with the skills of self-analysis and systematization of new knowledge. For this purpose, used competence and culturological approaches. Information and computer technology can improve efficiency and create the conditions for self-study.

Innovative methodis an integral part of the modernization of the whole system. Teachers should familiarize themselves with the most progressive approaches and later combine them and use in work. Most teachers today are actively developing these technologies, because it concerns the issue of professionalism and career development.

Ələkbərli Səkinə Cəfər qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNGİLİS DİLİ LÜĞƏT TƏRKİBİNİN KOMMUNİKATİV KOMPETENSİYANIN FORMALAŞDIRILMASI KONTEKSTİNDƏ TƏDRİSİ

Açar sözlər: *lüğət , kommunikativ kompetensiya, kontekst, motivasiya*

Ключевые слова: *словарный запас, коммуникативная компетентность, контекст, мотивация*

Key words: *vocabulary, communicative competence, kontext, motivation*

Son zamanlar AvropaTəhsil Sisteminə inteqrasiya prosesində olan Azərbaycanda xarici dillərin, o cümlədən də ingilis dilinin tədrisi sahəsində ciddi islahatlar aparılır. Avropa Təhsil Məkanında mövcud olan standartlara uyğun olan xarici dil müəllimi dünyada xarici dillərin sahəsində baş verən dəyişikliklərdən xəbərdar olmalı, innovativ metod və üsulları xarici dillərin tədrisinə tətbiq etməyi bacarmalıdır. Qloballaşma dövründə ingilis dilinin tədrisində əsas məqsəd öyrənilən dildən funksional yönümlü, sərbəst və yaradıcı şəkildə istifadə etməklə kommunikativ niyyətlərə nail olmaq qabiliyyətinə yiyələnməkdir [7; 5; 8]. Bu günədək kommunikativ dil təlimi sahəsində əldə edilmiş uğurlara baxmayaraq, problemin bir çox aspektlərinin tədqiq edilməsinə hələ də ehtiyac duyulur. Leksik bacarıqların kommunikativ

kompetensiyanın formalaşdırılması kontekstində inkişaf etdirilməsi dövrün aktual məsələlərindən hesab olunur.

Ötən illər ərzində dərc edilmiş metodiki ədəbiyyatlardalüğət tərkibinin tədrisi probleminə müxtəlif səviyyələrdə müraciət edilmişdir. Allen F.,Brin M., İsmayılova D., Hüseynzadə G., və başqa metodist-alimlər problemə müraciət etmiş və onun müxtəlif aspektlərini araşdırmışlar [4, 23-24; 6, 89-112; 2; 3].Azərbaycanlı alimlərin xarici dillərin tədrisi sahəsində olan tədqiqat işlərinin milli auditoriya üçün olduqca boyük əhəmiyyətinə baxmayaraq, həmin əsərlərdə ingilis dili lüğət tərkibinin kommunikativ kompetensiyanın formalaşdırılması kontekstində tədrisi problemi geniş şəkildə tədqiqedilməmişdir.

İngilis dilində leksik bacarıqların kommunikativ yönümlü formalaşdırılması və inkişaf etdirilməsini təmin etmək məqsədilə tələbələr kommunikasiya prosesinə fəal iştirakçı qismində cəlb edilməli, onlarda mənimsənilmiş leksik vahidlərdən qüsursuz, yaradıcı və kommunikativ situasiyalarda adekvat şəkildə istifadə etməklə kommunikativ niyyətlərinə nail olmaq qabiliyyəti formalaşdırılmalıdır.Leksik bacarıqların formalaşdırılması istiqamətində aparılan iş autentik mətnlər əsasında tərtib edilmişkommunikativ yönümlü, funksional yönümlü, interaktiv xarakterli çalışma və tapşırıqlar üzərində təşkil edilməli və məqsədyönlü, sistemli, mərhələli şəkildə həyatakeçirilməlidir.

"Kommunikativ kompetensiya" termini ilk dəfə olaraq D.Haymz tərəfindən istifadə edilmişdir [9].Kommunikativ kompetensiya əsas dörd komponentdən ibarətdir: qrammatik (linqvistik), diskursiv, sosiomədəniməstratejikompetensiya.Onu daqeyd etmək lazımdır ki, xaricidillərin,o cümlədəndə, ingilis dilinin tədrisində iki əsas istiqamət mövcuddur: *kommunikativ-yönümlü təlim və qrammatik-yönümlü təlim*. Mənimsənilməli olan leksik vahidlərin, qrammatik və intonasiya strukturlarının, eləcə də nitq modellərinin kommunikativ yönümlü mənimsənilməsini nəzərdə tutan təlimin əsasında kommunikativlik, tələbəyönümlülük, funksionallıq prinsipləri durur. Kommunikativ yönümlü təlimdə irəli sürülən əsas məqsəd mənimsənilmiş linqvistik vahidlərdən və nitq modellərindən qüsursuz, sərbəst, kreativ və kommunikasiyanın baş verdiyi situasiyayaadekvat şəkildə istifadə etmək bacarıqlarının dil öyrənənlərə aşılanmasıdır. Söz və söz birləşmələrinin, qrammatik vahidlərin və intonasiya strukturlarının, səs və səs birləşmələrinin, nitq nümunələrinin kontekst daxilində deyil, kommunikasiya prosesində təcrid olunmuş şəkildə təqdim edilməsinə və mənimsənilməsinə üstünlük verən qrammatik yönümlü təlimdə diqqət mərkəzində dil üzrə linqvistik biliklərin tələbələr tərəfindən mənimsənilməsidir. Burada başlıca vəzifə xarici dildən ünsiyyət vasitəsi kimi istifadə etmək deyil, dahaçoxnəzəri biliklərin, qaydaların mənimsənilməsidir.

Kommunikativdiltəlimitələbələrdə kommunikativ kompetensiyanın əsas komponentləri olan linqvistik, diskursiv, sosiomədəni və strateji kompetensiyaların müasir dövrün tələblərinə uyğun səviyyədə mənimsənilməsini nəzərdə tutur. Burada prioritet məqsəd mənimsənilmiş linqvistik biliklərin praktikaya tətbiq edilməsi, o cümlədən də, mənimsənilmiş leksik vahidlərdən müxtəlif nitq situasiyalarında istifadə etmək bacarıqlarının formalaşdırılmasıdır.

İngilis dili lüğət tərkibinin tədrisi baxımından mövcud vəziyyətin öyrənilməsi onu deməyə əsas verir ki, bir çox hallarda leksikanın tədrisi ənənəvi yollarla həyata keçirilir. Söz və söz birləşmələri, eləcə də mənimsənilməli olan ifadələr əksər hallarda kontekst daxilində deyil, təcrid edilmiş, kommunikasiyadan kənar şəkildə tələbələrə təqdim edilir və öyrənilir. Bu isə dil təliminin növbəti pillələrində leksik bacarıqların yaradıcı nitq fəaliyyətində, spontan şəkildə baş verən kommunikasiya prosesində inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün bazanın yaradılmasını təmin edə bilmir. Leksik vahidlərin məhz, müxtəlif nitq fəaliyyəti növlərində istifadə edilməsi tələbələrdə "düzgün" və"çevik" leksik vərdişlərin formalaşdırılmasını təmin edə bilər. Tələbələrin rast gəldikləri problem və çətinlikləri aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1. Təlim prosesinin, o cümlədən də, leksikanın tədrisi prosesinin tələbələrin ehtiyac və tələbatlarını, meyl və maraqlarını, onların yaş və fərdi xüsusiyyətlərini, dil sahəsində olan

bilik, vərdiş və bacarıqların səviyyəsininəzərəalmadanqurulması;

2. Dilin leksik aspektinin təcrid edilmiş şəkildəöyrədilməsi;

3. Dilin, o cümlədən də leksikanın mənimsənilməsi prosesini çətinləşdirən və bu prosesə mənfi təsir göstərən dildaxili və dillərarası interferensiya;

4. İngilis dilinin ixtisas dili kimi tədris edildiyi dil fakültələrinin aşağı kurslarında təlim prosesində autentik materialların lazımi səviyyədə istifadəedilməməsi;

5. İngilis dilinin xarici dil kimi təlimi prosesində informasiya- kommunikasiya texnologiyalarından düzgün istifadəedilməməsi;

6. Sinifdə tələbə-müəllim münasibətlərinin günün tələbləri səviyyəsində təşkil edilməməsi, tələbəyönümlülük prinsipinə riayət edilməməsi;[1,12].

Dilöyrənənlərinehtiyacvətələbatlarının nəzərə alınmasında ən vacib tələblərdən biri hesab edilən kommunikativlik, interaktivlik və tələbəyönümlülük prinsipləriüzərindəqurulan, dövrüntələblərinəcavabverənməhz, kommunikativ yanaşmadır[2; 3].

Müşahidələr və təcrübə onu deməyə əsas verir ki,ingilis dilini ixtisas dili kimi öyrənən tələbələr ayrı-ayrı leksik vahidləri və söz birləşmələrini öyrəndikləri halda, onlardan kommunikasiya prosesində istifadə etməkdə çətinlik çəkir, bir çox hallardaonlardan düzgün, sərbəst, yaradıcı və adekvat şəkildə istifadə etməyi tələb edən çalışmavə tapşırıqları yerinə yetirə bilmirlər. Tələbələr ayrı-ayrı sözlərin mənalarını bilir, misallar gətirir, tərkibində yeni sözlər olan cümlələri ingilis dilindən Azərbaycan dilinə və əksinə, tərcümə edərkən elə də çətinlik çəkmirlər, lakin həmin leksik vahidlərin nitq prosesində, xüsusilə də yaradıcı, spontan şəkildə baş verən ünsiyyət prosesində istifadə edilməsinə gəldikdə, çoxsaylı problem və çətinliklər üzə çıxır. Çox vaxt tələbələr yeni söz və söz birləşmələrinə deyil, yaxşı mənimsədikləri və dəfələrlə istifadə etdikləri leksik vahidlərin işlədilməsinə üstünlük verirlər.

Təəssüflə qeyd edilməlidir ki, bu gün tələbələrin əksəriyyəti xarici dildə oxumağa heç də meylli deyillər. Bu isə bilavasitə onların dil və nitq imkanlarınaolduqca mənfi təsir göstərən ən önəmli amillərdəndir. Tələbələrdə ingilis dilinin ixtisas dili kimi öyrənilməsinə motivasiyanın olmaması, tələbə-müəllim münasibətlərinin düzgün qurulmaması, ingilis dilini ixtisas dili kimi tədris edən müəllimin təlim prosesində öz rolunu və məsuliyyətini düzgün dərk etməməsi, ixtisas dili dərslərində motivasiyaedici, tələbələri stimullaşdıran, onları dili öyrənmə prosesinin fəal iştirakçıları qismində təlim prosesinə cəlb edilməməsi ilə nəticələnir.

Leksikanın kommunikativ yönümlü tədrisinə yönəldilmiş kommunikativ yönümlü, funksional yönümlü çalışma və tapşırıqlar sistemini hazırlayaraq müvafiq vərdiş və bacarıqların təcrid edilmiş halda, sonra isə inteqrativ şəkildə, yəni kommunikasiya prosesində formalaşdırılması və inkişaf etdirilməsi olduqca məqsədəuyğundur. Xüsusi çətinlik törədən leksik vahidlərin kommunikativ blok kimi cümlə daxilində təqdim edilməsi tələbələrdə leksik bacarıqların inkişaf etdirilməsinə xidmət edir. Leksik bacarıqların formalaşdırılmasında leksikvahidlərin kombinatorika mexanizminin mənimsənilməsini təmin edə bilən amilləri də nəzərə almaq lazımdır. Çox vaxt Azərbaycan dilində mənimsənilmiş kombinatorika mexanizminin avtomatik olaraq ingilis dilinə köçürülməsi halları müşahidə edilir.

Beləliklə, leksik bacarıqların kommunikativ kompetensiya kontekstində formalaşdırılması və inkişaf etdirilməsi prosesi məqsədyönlü, sistemli, mərhələli şəkildə, asandan çətinə, sadədən mürəkkəbə doğru prinsipinə, eləcə də kommunikativlik, interaktivlik, tələbəyönümlülük prinsiplərinə riayətedilməklə həyata keçirilməli, tələbələr isə təlim prosesinin obyeki kimi deyil, daha çox bu prosesin subyekti kimi çıxış etməlidirlər.

Ədəbiyyat

1. Cavadova P.A.(2018). İngilis dilinin leksikasının tədrisində tələbələrdə kommunikativ kompetensiyanın formalaşdırılması (I və II kurslar) Ped.f.d. dis.avtoref. Bakı. 28 s.

2. Гусейнзаде Г.Д. (2011). Обучение речевой коммуникации на иностранном

языке. Баку, с. 78-79.
3. Исмайлова Д.А. (2002).Методика обучения диалогической речи современной английского языка на начальных курсах языковых вузов(I и II курсы) Баку,
4. Allen, F.P.(1983).”A Three-Level Curriculum Model for Second Language Education”, Canadian Modern Language Review 40: 23-43;
5. Allright R.G.(1984). The Importanceof Interaction in Classroom Language Learning. Applied Linquistics, p. 156-158;
6. Breen, M.P. and Candlin, C.N. (1980). TheEssentials of a Communicative Curriculum in LanguageApplied Linguistics, 1980, v.1(1), p.89-112;
7. Cook G.Y.(2003). Applied Linquistics. Oxford: Oxford University Press, p.18-204;
8. Carter R.and Mc.Carthy, M.(1988). Vocabulary and Language Teaching. London: Longman,
9. Hymes.D. (1972). On Communicative Competence. New York: Peanguin Books, 293 p.

Алекберли Сакина

Обучение английскому словарному запасу в контексте формирования коммуникативной компетентности

РЕЗЮМЕ

Целью статьи является подчеркнуть важность изучения словарного запаса как неотъемлемой части обучения иностранному языку. Лексические знания имеют решающее значение для коммуникативной компетенции и для овладения вторым / иностранным языком, а отсутствие словарного запаса является препятствием для обучения. В статье рассматриваются коммуникативные способы преподавания словарного запаса английского языка и устранения существующих проблем, сосредоточенных на способности продуктивно, творчески и адекватно использовать языковые единицы в более чем одном контексте. Учителя должны обратить внимание на тип словарного запаса, уровень и характеристики учащихся, а также ценность техник для учащихся.

Alakbarli Sakina

Teaching english vocabulary in the context of communicative competence formation

SUMMARY

Thearticleaims to highlight the importanceof vocabulary learningas an essential part in foreign language teaching. Lexical knowledge is central to communicative competenceand to theacquisition of a second/foreign languageand lack of vocabulary knowledge is an obstacle to learning.Thearticle deels upon the communicative ways of teaching English vocabulary and eliminating theexisting problems focusing on theability of using the linguistic units productively, creatively and adequately in more than one context.Teachers need to notice the typeof vocabulary, the students’ level and characteristics, and also the valueof the techniques for the learners.

İbrahimova Rəna
ADPU

İNGİLİS DİLİ FAKÜLTƏSİ TƏLƏBƏLƏRİNƏ KOMMUNIKATİV YÖNÜMLÜ TƏLİM YOLLARI

Açar sözlər: *ünsiyyət, kommunikativyönümlü,vərdişlər, tələbə, təlim, dil, yanaşma, metod, fəaliyyət, kompetensiya*

Ключевые слова: *коммуникация, коммуникативно-ориентированный, навыки, студент, обучение, язык, подход, метод, деятельность, компетенция*

Key words: *communication, communication-oriented, skills, student, teaching, language, approach, method, activity, competence*

Müasir dövrdə cəmiyyət mütəmadi olaraq sosial, iqtisadi və siyasi aspektlərə təsir edən sürətli və dərin dəyişikliklərlə üzləşirlər. Cəmiyyətimizin bütün sahələrində baş verən bu dəyişikliklər təhsil sahəsində, o cümlədən orta və ali təhsil müəssisələrinin xarici dil tədrisi sahəsində mühüm dəyişikliklərə səbəb olmuşdur.

Bildiyimiz kimi, son bir neçə onillik ərzində Azərbaycan da daxil olmaqla, inkişaf etməkdə olan ölkələrdə ingilis dilinə olan maraq dayanmadan artmaqdadır. Çünki qloballaşan dünyada ingilis dili daha yaxşı təhsil almaq, yüksək məvacibli iş imkanları əldə etmək və karyera pillələrində yüksəlmək üçün əsas şərtlərdən biridir.

Qlobal dil kimi üstünlük təşkil edən ingilis dilində rabitəli və sürətli danışıq fəaliyyəti son vaxtlar metodiki ədəbiyyatda ən çox öyrənilən sahədir. Hazırda bu sahədə yaranan problemlərə marağın artdığı müşahidə olunmaqdadır [1, s.85]. Yeni problemlər isə xarici dillərin, o cümlədən ingilis dili tədrisinin bütün pillələrində yeni yanaşma və təlim metodlarının yaradılmasını, eyni zamanda tətbiqini zərurətə çevirir.

Bu gün Avropa təhsil sisteminə inteqrasiya edən respublikamızın təhsil sistemində cəmiyyətimizin ehtiyac və tələblərinə uyğun kommunikativyönümlü təhsil sistemi formalaşmaqdadır. Xarici dillərin, xüsusilə də ingilis dilinin kommunikativ-yönümlü təlimi hal-hazırda peşəkar mütəxəssislərin hazırlığında olduqca perspektivli, səmərəli, müasir dövrün tələblərinə tam uyğun olan, əsas və aparıcı istiqamət hesab olunur.

Kommunikativyönümlü təlim dilin aspektləri olan fonetika, leksika və qrammatika ilə bağlı təlim materiallarının praktik mənimsənilməsini, tədris prosesində tələbələrin fəal, yaradıcı, təşəbbüskar iştirakçı qismində cəlb edilməsini və onlarda müvafiq ünsiyyət bacarıq və vərdişlərinin interaktiv şəkildə formalaşdırılması və inkişaf etdirilməsini təmin edir və tələbələrə təlimin məqsədini anlamağa, daha yüksək nailiyyətlər əldə etməyə kömək edir.

İxtisas dili ingilis dili olan mütəxəssisin yüksək keyfiyyətli hazırlığı ingilis dilinin kommunikativ yönümlü tədrisinə müxtəlif metod və yanaşmaların kompleks tətbiqi olmadan mümkün deyildir.

İngilis dili daxil olmaqla, xarici dillərin tədrisində kommunikativ yanaşma simulyasiya edilmiş nitq fəaliyyəti dərslərində ünsiyyət vasitəsi kimi dil tədrisini ardıcıl, sistemli şəkildə həyata keçirən tədris üsuludur. Kommunikativ yanaşma müvəffəqiyyətli dil təliminin real mənanın ötürülməsinin zəruriliyi ilə baş verməsi ideyasına əsaslanır.

Xarici dil tədrisində kommunikativ yanaşmanın əsas müddəaları elm adamları tərəfindən müxtəlif yollarla şərh olunur.

İngiltərəli professor V.Litlvud belə hesab edir ki, kommunikativ yanaşma dilə daha geniş baxış açır və xüsusilə, bu yanaşma bizi dili yalnız onun strukturu baxımından deyil, həm də yerinə yetirdiyi kommunikativ funksiyaları baxımından da nəzərdən keçirməyə məcbur edir. Görkəmli professor eyni zamanda izah edir ki, kommunikativ yanaşma dilin öyrənilməsində olduqca geniş bir perspektiv açır, yəni öyrənənlərə xarici dilin srukturunun manipulyasiyanı necə tədris etməyin kifayət ol-madığını daha aydın başa düşməyə vadar edir [3, s.x].

Avstraliyalı dilçi-alim D.Nunana görə bütün kommunikativ yanaşmaların əsasını təşkil edən əsas prinsip ondan ibarətdir ki, öyrənənlər yalnız emprik dünya haqqında qrammatik cəhətdən düzgün, mülahizəli fikirləri ifadə etməyi deyil, həmçinin qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün dildən istifadə etmək qabiliyyətini inkişaf etdirməyi öyrənməlidirlər [5, s.25].

Riçard və Rocers isə qeyd edirlər ki, kommunikativ yanaşma kommunikativ kompetensiyanı dil tədrisinin hədəfinə çevirmək, dil və ünsiyyətin qarşılıqlı asılılığını təsdiqləyən dörd

dil vərdişinin – oxu, yazı, danışma və dinləmənin tədris proseslərini inkişaf etdirmək məqsədi daşıyır [7, s.85].

Yuxarıda qeyd olunan elm adamlarının fikirlərinə əsasən qeyd edə bilərik ki, ingilis dilinin ixtisas və xarici dil kimi tədrisində kommunikativ yanaşma tələbələrin idrak fəaliyyətinin fəallaşmasına, dil maneələrinin aradan qaldırılmasına, kommunikativ kompetensiyalarının formalaşmasına kömək edir, o cümlədən dilin aspektləri olan leksika, qrammatika və fonetika sahəsindəki biliklərin hazır şəkildə təqdim edilməsini deyil, təbii kommunikativ fəaliyyəti prosesində mənimsənilməsi və tək-milləşdirilməsini nəzərdə tutur.

Kommunikativ yanaşma ingilis dilinin xarici dil kimi tədrisində təlim prosesinin mərkəzinə ünsiyyətdə subyekt-subyekt sxemini qoyur, yəni təhsilalan pedaqoq tərəfindən idarə olunan tədris fəaliyyətinin fəal, yaradıcı subyekti kimi çıxış edir və tədris fəaliyyətinin subyekti kimi təlimin mərkəzində olur; tələbələrin təşəbbüskarlığının, yaradıcı axtarış qabiliyyətinin inkişafına kömək edir. Bu təlim sistemi təşkil olunan ünsiyyət fəaliyyətində tələbənin yalnız idrak və yaradıcılığını yox, şəxsiyyətinin fərdi psixoloji, yaş və milli xüsusiyyətlərini, habelə maraqlarını da nəzərə alır. Məşğələlər isə hazır mövzu və ya mətnlərin deyil, gündəlik həyatı əks etdirən real və ya xəyali situasiyaların modelləşdirilməsi, aktual həyat problemlərinin, eləcə də tələbələrin ma-raq dairəsinə daxil olan mövzuların müzakirəsi əsasında qurulur. Kommunikativ fəa-liyyətlərdə tələbələrin tapşırıqları icra edərkən əldə etdiyi nailiyyət onların istifadə etdiyi dilin səlisliyi ilə müqayisədə daha vacib hesab edilir.

Deməli, kommunikativ yanaşmanın əsas məqsədi dildə sərbəst ünsiyyət qurmağı, müxtəlif kommunikativ situasiyalarda adekvat davranmağı öyrətməkdir. Yəni, bu yanaşmada əsas hədəf ünsiyyət zamanı qarşılıqlı fəaliyyət və kommunikativ məqsədə nail olmaqdır.

ADPU-nun "Davamlı təhsil və İnnovasiyalar" şöbəsinin baş mütəxəssisi, pedaqogika üzrə fəlsəfə doktoru F.Hüseynova qeyd edir ki, kommunikativ yanaşma üsulunun əhəmiyyəti onun xarici dil kimi ingilis dilinin yeni məzmuna malik olmasını onun nəzəri əsaslarını və praktiki zərurətini bir-biri ilə əlaqəli şəkildə izah etməsində, dilin yeni metodologiyasında onun mahiyyətini, məqsədini, əsas prinsiplərini, xüsusiyyətlərini müəyyən edərək, onun sistemli şəkildə dildə qazanılması və işlədilməsini müxtəlif strategiyalarla təqdim etməsindədir [1, s.187].

Qeyd etmək lazımdır ki, tədrisdə kommunikativ yanaşma nəticəsində ingilis dili üzrə biliklər geniş mənada sistemli şəkildə ünsiyyət prosesi zamanı formalaşır və həyata keçirilir. İngilis dilinin nəzəri və praktik istiqamətlərdə tədrisi onun inkişafını əks etdirən cəhətlərdən biridir.

Dil tədrisində kommunikativ yanaşma üsulu əsasında kommunikativ kompetensiyalara və dil vərdişlərinə yiyələnmək üçün bir sıra kommunikativ metodlar işlənib hazırlanmışdır.

Müasir dövrün əksər dilçi müəllimləri ingilis dilinin tədrisində kommunikativ metodu ən səmərəli üsul hesab edir və "əvvəlcə qrammatikadan leksikaya, daha sonra möhkəmləndirmə tapşırıqlarına keçid" prinsipi ilə işləyən ənənəvi metodları tənqid edirlər. Onlar süni şəkildə hazırlanan tapşırıqların tələbələrdə ingilis dilini formalaşdırmadığını və onların ənənəvi metodlar vaitəsilə səhv ifadə söyləməkdən çəkinərək susacağını, kommunikativ metodların isə əksinə "tələbələrin dilini açacağını" hesab edirlər.

Onu da qeyd etmək lazımdır ki, kommunikativ təlim metodları tələbəyə tədris prosesində öz fərdi yanaşmasını tətbiq etməsinə şərait yaradır [3, s.94], o cümlədən bu metodlar dilə tələbənin əsas rol oynadığı yaradıcı bir proses kimi yanaşır və onların tətbiqi zamanı bütün ünsiyyət vərdişləri tələbənin səmərəli istifadə edə bilməsi üçün bərabər səviyyədə əldə olunur. Kommunikativ təlim metodları tələbələrin daxili motivasiyasını inkişaf etdirmək, müəllimləri isə təhrikçi və müdaxiləçi yox, motivasiya edən, stimullaşdıran və müşahidəçi etmək məqsədi daşıyır. Həm müəllim, həm tələbə hər tədris planının qərar qəbul etmə mərhələsində yaxından iştirak edir.

Dil fakültələrində ingilis dilinin kommunikativyönümlü təlimin əsas vəzifələri bunlardır:

- Tələbələrin kommunikativ bacarıqlarını aşkarlamaq və ünsiyyət vərdişlərini formalaşdıraraq inkişaf etdirmək;
- İngilis dilini məhz bir ünsiyyət vasitəsi kimi istifadə edə bilməyi öyrətmək;
- Tələbələrə ingilis dilini daimi öyrənmə obyekti kimi deyil, müasir dövrün tələblərinə uyğun əlverişli və zəruri ünsiyyət vasitəsi kimi təqdim etmək;
- İngilis dili öyrənməyin həddindən artıq çətin olduğunu təsdiq edən stereotipləri yox etmək;
- Tələbələr arasında nitq fəaliyyəti və ünsiyyət təcrübəsi vasitəsilə dil baryeri-ni aradan qaldırmaq.

Beləliklə, xarici və ixtisas dili kimi ingilis dilinin kommunikativyönümlü təlim prosesi məqsədlərdən asılı olaraq, müxtəlif situasiyalarda ünsiyyət vasitəsi kimi praktik nitq vərdişlərini inkişaf etdirməyə yönəldilmişdir. Belə olduqda kommunikativlik biliklərin bacarıq, vərdiş və səriştə ilə əlaqəsini, ümumi təhsil və tərbiyə məsələlərinin məzmununu, həmçinin tədris metodlarının adekvat seçimini, bir sözlə təhsilin bütün sahələrini özünə tabe edən metodik bir prinsip kimi çıxış edir. Həmçinin bütün tədris fəaliyyətinin təşkili, ünsiyyət subyektlərinin kommunikativ fəaliyyətinin özü-nəməxsus xarakteri, onların bir-birinə münasibətləri və qarşılıqlı fəaliyyəti, ünsiyyət fəaliyyətinin forması, müəyyən məna daşıyan ünsiyyət prosesi, ünsiyyət fəaliyyətini təmin edən dil vasitələri sistemi, nitq vasitələrinin mənimsənilməsinin və istifadəsinin funksional xarakteri və evristiklik (yeni biliklər əldə etmək, əvvəllər məlum olmayan hər hansı xüsusiyyətləri və ya qanunauyğunluqları aşkarlamaq bacarığı) kimi ünsiyyətin əsas parametrlərinin modelləşdirilməsi əsasında qurulur.

Ədəbiyyat

1. Hüseynova F. İngilis dilində kommunikativ yanaşmanın tədris proqramlarında inkişaf etdirilməsi yolları // Dil və ədəbiyyat, Cild 8, №1 / ADPU – Davamlı təhsil və İnnovasiyalar şöbəsinin b/müt., ped.f.d-nun elmi məqaləsi. – Bakı: ADU nəşriyyatı, – 2017. – s. 183-188.
2. Quliyeva N.R. Ali təhsil müəssisələrində xarici dilin kommunikativyönümlü tədrisi // Elmi əsərlər, cild 85, №7 / ADİU-nin b/m-nin elm məqaləsi. – Bakı: –2018. – s. 156-159.
3. Littlewood W. Communicative Language Teaching. – Cambridge University Press, – 1981. – 108 p.
4. Littlewood W. Communicative Language Teaching: An Expanding Concept for a Changing World // Hinkel Eli: Handbook of Research in Second Language Teaching and Learning. – Vol. II, Routledge Taylor & Francis Group, – 2011. – p. 541-557.
5. Nunan D. The Learner-Centred Curriculum: A study in second language teaching. – Cambridge University Press, – 1988. – 196 p.
6. Richards J.C. Communicative Language Teaching Today. – Cambridge University Press, – 2006. – 47 p.
7. Richards J.C., Rodgers T.S. Approaches and Methods In Language Teaching. – Cambridge University Press, – 3rd edition, – 2014. – 410 p.

Ибрагимова Р.

Коммуникативно-ориентированные пути обучения студентов факультета английского языка

РЕЗЮМЕ

Результаты нашего исследования, направленного на обучение английскому языку в рамках коммуникативно-ориентированного обучения, позволяют говорить о том, что в настоящее время в методике преподавания иностранных языков, в том числе английского, преобладает коммуникативно-ориентиро-ванное обучение, а коммуни-

кативные подходы и методы являются интерес-ными и эффективными. Потому что в ее основе лежат идеи коммуникативной лингвистики, приобретения языковой культуры и навыков свободного общения в процессе межкультурного общения, что и определяет основную цель обучения иностранному языку, то есть концепцию развития личности.

Если мы хотим, чтобы студенты, изучающие английский язык с профессиональными целями на языковых факультетах, свободно, безупречно, творчески и ситуативно использовали язык своей специальности, формировали и развивали у них высокий уровень коммуникативных навыков, то в системе высшего образования в обязательном порядке должны быть внесены изменения, дающие положительные результаты, то есть предпочтение должно отдаваться преподаванию коммуникативно-ориентированного обучения. Применение коммуникативно-ориентированного обучения при обучении английскому языку может особенно способствовать приобретению нашими учащимися навыков свободного общения по коммуникативному использованию языка в различных ситуациях.

Ibrahimova R.

Communication-oriented ways of teaching students of the English faculty

SUMMARY

The results of our research aimed at teaching English in the framework of communication-oriented learning suggest that currently the methodology of teaching foreign languages, including English, is dominated by communication-oriented learning, and communicative approaches and methods are interesting and effective. Because it is based on the ideas of communicative linguistics, the acquisition of language culture and free communication skills in the process of intercultural communication, which determines the main goal of teaching a foreign language, that is, the concept of personal development.

If we want students studying English with professional goals in language faculties to use the language of their speciality freely, flawlessly, creatively and situationally, to form and develop a high level of communication skills, then changes must be made in the higher education system that give positive results, that is, preference should be given to the teaching of communication-oriented learning.The use of communication-oriented learning in teaching English can especially contribute to the acquisition of our students' free communication skills in the communicative use of the language in various situations.

İbrahimova Rəna
ADPU

İNGİLİS DİLİ FAKÜLTƏSİNİN BİRİNCİ KURS TƏLƏBƏLƏRİ ÜÇÜN ÜNSİYYƏT VƏRDİŞLƏRİNİN TƏDRİSİNDƏ MOTİVASİYANIN ROLU

Açar sözlər: *ünsiyyət, vərdişlər, motivasiya, fəaliyyət, tələbə, müəllim, dil, təlim*

Ключевые слова: *коммуникация, навыки, мотивация, деятельность, студент, преподаватель, язык, обучение*

Key words: *communication, skills, motivation, activity, student, teacher, language, teaching*

Ali məktəbdə təhsil dövrü davranışın şüurlu motivlərinin gücləndiyi, məqsəd ardıcıllığının, qətiyyət və tənqidliyin, müstəqillik və təşəbbüskarlıq kimi xarakter əlamətlərinin möhkəmləndiyi dövrdür [1, s.435].

V.Litlvud qeyd edir ki, inkişaf prosesləri tələbənin daxilində baş verdiyi üçün onlara kömək edən və ya mane olan ən əsas amil tələbənin psixoloji vəziyyətidir [8, s.93]. Bu baxımdanünsiyyət vərdişlərinin tədrisi zamanı qarşıya çıxan çətinliklərin həlli yollarından biri

ingilis dili fakültəsi tələbələrinə pedaqoji və psixoloji dəstək olmalıdır. Bu dəstək, xüsusilə I kurs tələbələrinin ali təhsil mühitinə uyğunlaşmasında tətbiq edilməlidir. Çünki tanış olmayan yeni mühit və kollektiv həyəcanı, yeni tədris prosesinin müxtəlif tələbləri, həmyaşıdları ilə ünsiyyət çətinlikləri kimi bir çox problemlər I kurs tələbələrində özünə və öz gücünə inamsızlığa, küskünlüyə, aq-ressiyaya, ruh düşkünlüyünə səbəb olur. Bu da tələbənin seçdiyi ali təhsil müəssi-səsindəki tədris prosesinin tam hüquqlu iştirakçısına çevrilməsinə mane olur və nəticədə onun təlim fəaliyyətində neqativ məzmunlu dəyişikliklər təzahür edir.

Tələbələrin ali təhsil mühitinə uğurla uyğunlaşması onun bir şəxs və gələcək mütəxəssis kimi daha da inkişaf etməsinin təməlidir və fərdi rəqabət qabiliyyətinin formalaşmasına, onlarda tədris məqsədi kimi qarşıya qoyulan dil üzrə ünsiyyət bacarıq və vərdişlərinin aşılanmasına və inkişaf etdirilməsinə kömək edir. I kurs tələbələrinin ali təhsil mühitinə uyğunlaşması zamanı qarşılaşdığı çətinliklərdən əsas çıxış yolu tələbənin motivasiya yolu ilə həvəsləndirilməsidir.

Tədris motivasiyası həmişə fərdidir, yəni hər bir tələbə öz tələbatlarının təmin olunması ilə əlaqədar onu fəaliyyətə təhrik edən fərdi motivlər sisteminə – motivasiyaya malikdir. Bu onu təlim fəaliyyətinin fəal iştirakçısı olmağa, onda oxumağa maraq və tədrisin məqsədini başa düşməyə meyil oyadır.

Təhsil fəaliyyətini əsasən iki növ motiv xarakterizə edir: nailiyyət və idrak moti-vi. Təlimdə nailiyyət motivasiyası idrak və peşə motivasiyasına tabedir. İdrak motivi isə insanın əqli fəaliyyətinin təbiətinə uyğun olaraq, onun təlim və idrak fəaliyyətinin əsasını təşkil edir. Bu fəaliyyət problemli situasiyada ortaya çıxır və tələbələrlə müəllimin düzgün qarşılıqlı əlaqəsi və münasibəti zamanı inkişaf edir.

T.İ.Skripnikova Sovet psixolinqvistika məktəbinin "atası" və nitq fəaliyyəti nəzəriy-yəsinin banisi A.A.Leontyevə [4, s.26] istinad edərək qeyd edir ki, fərdi fəaliyyət hərəkəti motiv ilə başlayır; əvvəlcə nəzərdə tutulmuş məqsədə nail olmaq nəticəsi ilə başa çatır; ortada isə bu nəticənin əldə edilməsinə yönəlmiş dinamik hərəkət və əməliyyat sistemi dayanır. Hərəkət və əməliyyatlar nitq fəaliyyətinin əsas struktur komponentləridir [5, s.50].

Əgər dil öyrənən dildən ünsiyyət vasitəsi kimi istifadə edə bilirsə və onun yerinə yetirilməsinin şərtlərini (məsələn, qaydanı) başa düşürsə, o nitq əməliyyatını yerinə yetirir. Amma nitq əməliyyatı müəyyən məqsədlə həyata keçirildikə, o artıq nitq hə-rəkətinə çevrilir. Motiv yarandıqda isə, nitq əməliyyatı xarici dildə nitq fəaliyyətinə çevrilir. Əsas məqsəd ondan ibarətdir ki, mürəkkəb nitq hərəkətlərinin tərkibinə daxil olan hər bir nitq əməliyyatı avtomatik hala gələnə qədər hərəkət səviyyəsində işlənil-məlidir.

Motivlər dedikdə, tələbələri ali məktəbdə təhsilin məzmununu fəal mənimsəmə-yə sövq edən amillər sistemi başa düşülür. Motivlər ali məktəbdə də, orta məktəbdə olduğu kimi, pedaqoji prosesin başlıca hərəkətverici qüvvələridir [1, s.462].

İ.A.Zimnyaya [2, s.57] və A.A.Leontyev [4, s.208] qeyd edirlər ki, təfəkkür istəklərimizi, ehtiyaclarımızı, maraqlarımızı, meyllərimizi, duyğularımızı və hiss-həyəcanımızı əhatə edən şüurumuzun motivasiyaedici sahəsindən yaranır.

C.Harmer hesab edir ki, əsl motivasiya hər bir fərdindaxilindən, dil öyrənənlərin özlərindən qaynaqlanır və müəllimin əsas məqsədlərindən biri onların motivasiyasını davam etdirmələrinədəstək olmalıdır [6, s.20-21]. P. Ur isə vurğulayır ki, dil öyrənənin motivasiyası tədris və təlimi son dərəcə asan, daha xoşagələn və məhsuldar edir [9, s.274].

Onu da qeyd etmək lazımdır ki, motivasiya həm tələbə, həm də müəllimin təlim prosesində qarşılaşdığı çətinliklərin öhdəsindən gəlmək üçün bir ümid işığıdır, o cümlədən təlimin müvəffəqiyyətlə tamamlanmasına zəmin yaradır.

I kurs tələbələrində tədrisə maraq oyatmaq və motivasiya yaratmaq, eyni zamanda tapşırıqlar vermək və tələb etmək sonrakı illərin tələbələrinə nisbətən daha asandır. Çünki onlarda orta məktəb illərindən intizamlı icraya tabe olmaq ənənəsi hələ də mövcud olduğu

üçün tələbələr müəllimin verdiyi tapşırıqlara məsuliyyətlə yanaşırlar və təlim fəaliyyətinin müxtəlif növləri ilə daha həvəslə məşğul olurlar.

A.A. Leontyev qeyd edir ki, ünsiyyət vərdişini formalaşdırmaq tələbənin ifadəni düzgün qurmasını və tətbiq etməsini təmin etmək deməkdir [3, s.221]. Ünsiyyət vərdişlərinin inkişafının ən nəzərəçarpan xüsusiyyətlərindən biri onun məhz tələbənin daxilində təzahür edən proseslər nəticəsində, yəni tələbələrin yalnız motivasiyası zamanı, öz şəxsiyyətini ifadə edə bildikləri və ətrafdakı insanlarla ünsiyyət qura biləcəkləri təqdirdə baş verməsidir. Bu səbəbdən, tələbələrin təlim fəaliyyəti dəstəkləyici öyrənmə mühiti şəraitində təşkil olunmalıdır. Yəni, istər I kursun, istərsə də digər kursların tələbələri müəllimin həqiqətən onları dəstəklədiyini və təqdir etdiyini hiss edərsə, tələbələröyrənmək üçün daha çox motivasiya olurlar. Eyni zamanda müəllim psixoloji daxil olmaqla, bütün amilləri nəzərə alaraq və tələbələrin yaradıcılıq qabiliyyət və ünsiyyət vərdişlərinin üzə çıxmasına imkan verən tədris formaları və üsulları seçərək onlara psixoloji maneəni aşmağa kömək edə bilər.

Həm I, həm də digər kursların tələbələrinin ünsiyyət vərdişlərinin inkişafına mane olan digər səbəb xarici dildə ünsiyyət prosesində səhv etmək və həmyaşıdları arasında gülməli, bacarıqsız görünmək qorxusudur. Müəllim bunu aradan qaldırmaq üçün tələbələrə uğursuzluqlara fikir verməməyi, əksinə onlardan nəticə çıxarmağı, başqalarının tənqidi düşüncələrindən təsirlənməməyi və hər bir kiçik müvəffəqiyyətə sevinməyi öyrətməlidir. Belə ki, tələbələrin sonrakı müvəffəqiyyətləri onları ilk uğurlar kimi motivasiya etmir.

Professor D. İsmayılova vurğulayır ki, müəllim səhvlərin təlimin təbii bir hissəsi olduğu mövqeyini saxlamaqda davam etdirsə,onların mənimsəmə üsullarının qeyri-mükəmməl olmasına baxmayaraq, o tələbələrin tədris olunan dildən istifadə etmələrinə imkan verən münbit şərait yaradacaq [7, s.106].

Təbii ünsiyyət tədrisinin çatışmazlıqlarından ən mühümü müəllimin dərs məşğələləri zamanı tələbə ilə ünsiyyət qurarkən, ilk növbədə, qarşısındakının tələbə, tələbənin isə müəllim olduğunu unutmaması, onların ünsiyyətinin mahiyyətcə təlim xarakteri daşıması, bir-birlərini həmsöhbət kimi görməməsi, onlar üçün bir-birilə ünsiyyət qurmağın maraqsız olması və tələbənin müəllimin hər hansı bir hərəkətinin ona nəyisə öyrətməyə yönəldiyini gözləməsidir. Nəticədə, müəllim tələbə ilə gözlənilmədən təlim prosesi ilə heç bir əlaqəsi olmayan bir ünsiyyət qurmağa çalışdıqda isə, gerçəklik ilə gözləntilər arasındakı ziddiyyət ona ingilis dilində müstəqil şəkildə ünsiyyətə girməyə mane olur. Bu maneəni müəllim tələbələr üçün təbii nitq situasiyalarının yaradılması şəraitini təmin etməklə və daima onlarla məşğul olmaqla aradan qaldıra bilər. Müəllim təbii nitq situasiyalarını yaradarkən, tələbə təlim fəaliyyəti ilə məşğul olduğunu hiss etməməlidir.

Deməli, güclü xarici motivasiya amili olan müəllim tələbələrin tədris prosesində fəallığının təmin edilməsində və həvəsləndirilməsində mühüm rol oynayır. Eyni zamanda tələbələrin motivasiyası birbaşa onların qarşılarına qoyduqları məqsədlərə çatma istəyi, özlərinin maraqları və daxili ehtiyacları ilə bağlıdır.

Beləliklə, tələbələr kommunikativ-idrak fəaliyyətlərinin nəticələrinin məhsuldar və yüksək olması məqsədi ilə daim motivasiya edilməlidir. Belə ki, düzgün qurulmuş motivasiya tələbələri fəal şəkildə dərsə cəlb edir, onların dərsə, mövzuya olan maraq-larını, o cümlədən tədris prosesinin səmərililiyini artırır.

Ədəbiyyat

1. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası: magistratura pilləsi üçün dərslik. – Bakı: Nurlan, – 2007. − 568 s.

2. Зимняя И.А. Лингвопсихология речевой деятельности. – М.: Московский психолого-социальный институт, – 2001. – 432 с.

3. Леонтьев А.А. Основы психолингвистики: Учебник для студ. высш. учеб. заведений. – 4-е изд. испр. – М: Смысл, Издательский центр «Академия», – 1999. – 288 с.

4. Леонтьев А.А. Язык, речь, речевая деятельность. − М.: Просвещение, 1969. 214 с.
5. Скрипникова Т.И. Теоретические основы методики обучения иностранным языкам: Учебно-методическое пособие. − Владивосток: ДВФУ, – 2017. – 137 с.
6. Harmer J. How to teach English. – UK: Pearson Education Limited, – 6th edition, – 2010. – 288 p.
7. Ismailova A.D. Teaching English as a Foreign Language: Textbook. – Baku: Moutarjim, – 2011. – 316 p.
8. Littlewood W. Communicative Language Teaching. – Cambridge University Press, – 1981. – 108 p.
9. Penny Ur. A Course in Language Teaching: Trainee Book. – UK: Cambridge University Press, – 17th edition, – 2009. – 375 p.

Ибрагимова Р.

Роль мотивации в обучении коммуникативным навыкам студентов первого курсафакультета английского языка

РЕЗЮМЕ

Мотивация-это результат внутренних устремлений человека, его интересов и осознания необходимости изучения предмета.При организации обучения иностранному языку в вузе необходимо учитывать мотивы учебной деятельности студентов. Как известно, передача знаний от учителя к ученику не может быть эффективной без активности самого ученика. Мотивация обучения является необходимой составляющей процесса успешного овладения иностран-ным языком.

Как правило, приступая к изучению иностранного языка, студенты проявляют повышенный интерес к предмету. В дальнейшем их интерес можетослабеть или вообще пропасть. По-видимому, причина ослабления интересазаключается в неправильном понимании обязанности учения. Некоторые студенты полагают, что задача преподавателя – передать знания. Но нельзя обязать человека познавать что-то, если он не осознаёт и не воспринимает себяв качестве главного действующего лица процесса обучения.

Есть такая пословица: “Можно пригнать коня на водопой, но пить его не заставишь, т.е.не всего можно добиться силой.”

Ibrahimova R.

The role of motivation in teaching communication skills for the first-year students of the English faculty

SUMMARY

Motivation is the result of a person’s inner aspirations, interests, and awareness of the need to study the subject.When organizing foreign language teaching at a university, it is necessary to take into account the motives of students’ educational activities. As you know, the transfer of knowledge from the teacher to the student cannot be effective without the activity of the student. Motivation of teaching is a necessary component of the process of successful mastering of a foreign language.

As a rule, when students start learning a foreign language, they show an increased interest in the subject. In future, their interest may weaken or disappear altogether. The reason for the weakening of interest seems to be a misunderstanding of the duty of teaching. Some students believe that the task of the teacher is to transfer knowledge. But you cannot oblige a person to learn something if he does not realize and does not perceive himself as the main actor in the learning process.

There is such a proverb: “You can take a horse to the water but you cannot make him drink.”

Yusubova Ayişə
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XARİCİ DİLİN TƏDRİSİNDƏ PEDAQOJİ TEXNOLOGIYALAR

Açar sözlər: *yeni informasiya texnologiyaları, pedaqoji texnologiya, müstəqil iş, dil sosial şəbəkələri*

Ключевыеслова: *новые информационные технологии, педагогическая технология, самостоятельная работа, языковые социальные сети*

Key words: *new information technologies, pedagogical technology, independent work, language socialnet works*

Son vaxtlar "pedaqoji texnologiyalar" anlayışı pedaqoji leksikonda daha ox aktuallıq kəsb edir. Pedaqoji texnologiya - tədris üsullarını, metodlarını təyin edən psixoloji və pedaqoji münasibətlərin məcmusu, pedaqoji prosesin təşkilati və metodiki vasitəsidir. Tədris texnologiyası didaktik sistemin ayrılmaz tərkib hissəsidir.

Təhsil praktikasında "pedaqoji texnologiya" konsepsiyası üç iyerarxikaya tabe səviyyədə istifadə olunur:

✓ ümumi pedaqoji səviyyə: ümumi pedaqoji texnologiya müəyyən bir bölgədə, təhsil müəssisəsində, təhsilin müəyyən bir mərhələsində ayrılmaz təhsil prosesini xarakterizə edir;

✓ özəl metodoloji səviyyə: fənn pedaqoji texnologiyası, sinif, müəllim çərçivəsində müəyyən təlim və təhsil məzmununun həyata keçirilməsinin metod və vasitələrinin məcmusu;

✓ yerli (modul) səviyyə: təhsil prosesinin ayrı-ayrı hissələrinin texnologiyasını, xüsusi didaktik və təhsil vəzifələrinin həllini təmsil edir (fərdi fəaliyyət texnologiyası, konsepsiyaların formalaşması, təlim texnologiyası).

Xarici dil müəllimləri öz işlərində tədrisin yeni formalarından istifadə edirlər(oyun texnologiyası, problemli təhsil texnologiyası, əməkdaşlıqda təlim, layihə texnologiyası).

Oyun texnologiyaları. Oyun tələbə üçün təbii öyrənmə formasıdır. Pedaqoji oyun mühüm əlamətə malikdir-tədrisin dəqiq ifadə edilmiş məqsədi və ona uyğun pedaqoji nəticə, hansı ki, aydın şəkildə əsaslandırıla bilər və tədris-idrak istiqaməti ilə səciyyələnir. Oyun texnologiyalarının bir neçə motivləri var:

Ünsiyyət motivləri: Tələbələr problemləri birgə həll edərək, oyunda iştirak edərək, ünsiyyət qurmağı, yoldaşların fikirlərini nəzərə alırlar. Oyun zamanı birgə emosional təcrübə tələbə münasibətlərinin möhkəmlənməsinə kömək edir.

Mənəvi motivlər:Oyunda hər bir tələbə özünü, biliklərini, bacarıqlarını, xarakterini, iradəli xüsusiyyətlərini, fəaliyyətinə, insanlara münasibətini göstərə bilər.

İdrak motivləri: Bu motivlər tələbənin məqsədə (qələbəyə) nail olmaq və məqsədə nail olmaq yolunu bilmək üçün stimullaşdırır (daha çox bilmək lazımdır).

Problemli təhsil texnologiyası-problemlərin həlli, tələbələrin şəxsi təcrübə və biliklərinin təhlili, problemlərin aradan qaldırılması, tədris tapşırığının strukturunda istiqamətləndirmə, sualların, şərtlərin, məlum və məlum olmayan şərtlərin ayrılması, mümkün səbəb və nəticələr, hadisələrin dinamikası, hipotezlərin irəli sürülməsi ehtimallarının qurulması vasitəsilə həyata keçirilən texnologiyadır (mətnlərlə işləyərkən).

Problemin həlli ilə, bir tələbənin biliklərindən necə istifadə edə biləcəyini və nə qədər uğurlu olduğunu müəyyən edə bilərik.Tədris materialları üzərində işləyərkən tələbələr qruplara bölünürlər. Qrupun hər bir iştirakçısı öz mövzusu üzrə material tapır və digər tələbələrlə informasiya mübadiləsi aparır.

Təhsil alanlar özləri maraqlıdırlar ki, onların yoldaşları öz vəzifələrini vicdanla yerinə yetirsinlər, çünki bu, onların yekun qiymətləndirməsinə təsir göstərə bilər. Hər kəs ayrı-

ayrılıqda və bütün komanda bütövlükdə mövzu üzrə hesabat verir. Yekun mərhələdə komanda iştirakçıları bu mövzu ilə bağlı sualları cavablandırırlar.

Şəxsiyyətyönümlü təhsili təmin edən texnologiyalardan biri layihə metodudur, çünki o, praktiki olaraq digər müasir texnologiyaları, məsələn, əməkdaşlıqda təlim kimi texnologiyaları da özündə cəmləşdirir.

Layihə metodikası – müəllimin tədris prosesində peşəkar qabiliyyətinin inkişaf etdirilməsi imkanlarından biridir və təlimin effektivliyinə istiqamət verən ən effektiv metodlardan biridir.Təlimin layihə texnologiyası təhsilalanın motivasiya sahəsinə fəal təsir göstərir.

Layihə üzərində işləyərkən tələbələr əməkdaşlıq etməyi öyrənirlər, bu isə onlarda qarşılıqlı yardım, arzu və bacarıqlar kimi mənəvi dəyərlər tərbiyə edir, təhsilalanların yaradıcılıq qabiliyyəti və fəallığı formalaşır.

Layihə texnologiyası ümumi ünsiyyət və sosial davranışın ümumi mədəniyyətini formalaşdırır və təkmilləşdirir və tələbələrdə xarici dilin praktiki öyrənilməsinə gətirib çıxarır.

Layihələr-fənnin mənimsənilməsinin ən uğurlu formalarından biridir və tələbələrin nitqyazma fəaliyyətini stimullaşdırır, ona canlı maraq və sağlam həyəcan gətirir.Layihə metodunda onun mövcud bilik və bacarıqların aktuallaşmasına, fərdi və ictimai əhəmiyyətli nəticələrin formalaşmasına, müəllim və tələbələrin işgüzar əməkdaşlıq mühitinə istiqamətləndirilməsi diqqəti cəlb edir.

Dərslərdə fonetik, qrammatik, leksik, imla oyunlarını tətbiq etmək müxtəlif dilçilik bacarıqlarını inkişaf etdirir: dinləmə, danışma, oxu, yazı. Müsbət emosiyalar materialın mənimsənilməsini asanlaşdırır, yorğunluğu azaldır, dərsdə psixoloji vəziyyətiyaxşılaşdırır.

Ədəbiyyat

1. Селевко Г.К., Современные образовательныет ехнологии: Учебное пособие. – М.: Народное образование, 1998. – 256 с

2. Здоровье сберегающие технологии, http://www.zpzr.ru/healthcare_education/4170.html

3.https://infourok.ru/kursovaya-rabota.

Юсубова А.

Педагогические технологии в преподавании иностранного языка

РЕЗЮМЕ

Широкое применение инновационных технологий способствует повышению качества обучения студентов, познавательной активности и учебной мотивации. Считаю результатом использования современных образовательных технологий: стабильность качества знаний по предмету, 100% обучения; используемые технологии позволяют планировать педагогическую работу, направленную на достижение цели современного образования – развитие личности студента, выявление его творческих возможностей, сохранение физического и психического здоровья и, конечно же, повышение качества знаний. Сейчас иностранный язык воспринимается как способ познания окружающего мира и способ самосовершенствования.

Yusubova A.

Pedagogical technologies inteachingforeignlanguage

SUMMARY

The widespreaduse of innovative technologies contributesto improvingthe quality of students' learning, cognitiveactivity, and learningmotivation. I considertheresult of using modern educational technologies: stability of thequality of knowledgeinthes ubject, 100% of training; thetechnologiesusedallowyouto plan pedagogical workaimed at achieving the goal of modern education-the development of the student's personality, identifying his creativeabilities, maintainin gphysical and mentalhealth, and, of course, improving the quality of knowledge. Now a foreignlanguageisperceived as a way of learningthe worldaroundus and a way of self-improvement.

Yusubova Ayişə
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ (İKT) İSTİFADƏSİ

Açar sözlər: *İKT ingilis dilinin tədrisi, internet, kompüter*
Ключевыеслова: *ИКТ, обучение английскому языку, интернет, компьютер*
Key words: *ICT, English Language Teaching, internet, computer*

Dil öyrənmək və öyrətmək mürəkkəb bir proses hesab olunur. Belə bir mürəkkəbliyi sadələşdirməküçün, yaxşı tədris vəsaitləri mövcud olmalıdır. İnternetin son dövrlərdə inkişafı həyatımızın bütün sahələrində texnoloji inqilaba səbəb oldu və tədricən daha etibarlı dil öyrənmə vəsaitinə çevrildi. Müasir dövrdə, İKT xarici dillərin tədrisində və öyrənilməsində geniş istifadə olunur. İKT təlim-tədris prosesinin kəmiyyət və keyfiyyətinənəzərə çarpan dərəcədə təsir göstərir.

Konkret baxımdan, İKT dinamik, interaktiv və cəlbedici məzmunu ilə tədrisi inkişaf etdirəvə fərdi təlim üçün real imkanlar təmin edə bilər. Müasir sinif mühiti, texnologiya səbəbiylə əvvəlki ənənəvi mühitdən çox fərqlənir. Məqalədə İKT-nin təlim prosesində necə əhəmiyyətli rola malik olduğundan bəhs edilir.

Təhsildə İKT-nin əhəmiyyətini tam dərk etmək üçün onun mənasını bilmək lazımdır. İKT informasiya və rabitə texnologiyası mənasını verir. İKT Məlumatın ötürülməsi, yaradılması, yayılması və idarə olunması üçün istifadə olunan fərqli texnoloji vəsaitlər və mənbələr dəsti kimi müəyyən edilmişdir.

Danielsə (2002) görə, informasiya və kommunikasiya texnologiyası (İKT) müasir cəmiyyətin əsas qurucu hissələrindən biri hesab olunur. İndi bir çox ölkələr İKT-ni və onun bacarıq və anlayışlarını təhsilin əsas hissəsi kimi qəbul edirlər. Ancaq qloballaşma insan həyatının hər sahəsində böyük dəyişikliyə səbəb oldu və buna görə də təhsil istisna deyil. (2.34)

Təhsildə İKT-nin istifadəsi daha çox tələbə yönümlü öyrənmə şəraitinə yol açır. Lakin dünya sürətlə rəqəmsal mediaya və məlumata keçdikcə təhsildə İKT-nin rolu getdikcə daha da böyüyür.

İKT, kompüter, periferik qurğular, media, çatdırılma sistemləri və proqram təminatı daxil olmaqla kompüter texnologiyalarının istifadəsini əhatə edir. Bununla birlikdə, İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) bütün həyatımızda qəbul edilmiş bir elementdir və təhsildə mühüm roloynayan mərkəzi bir xüsusiyyətə malikdir.

Təlim-tədris prosesində İKT vasitələri. İKT vasitələri 2 yerə bölünür: İnternet vasitəsilə öyrənmə və internetdən kənar vasitələrdən istifadə etməklə öyrənmə.(4)

İnternetdən kənar vasitələlərdən istifadə etməklə öyrənməyə televiziya, radio, film, proyektor və dil laboratoriyaları daxildir.

İnternet vasitəsilə öyrənməyə isə Youtube, smart telefon, İpod, Skype və s. daxildir.

Radio və televiziya dilin mənimsənilməsində əhəmiyyətli rola malikdir.Radio vasitəsi ilə müəllimlər öz tələbələrini görkəmli natiqlərin mühazirələrinidinləmələrinitəmin edə bilər.Televiziya səsli vizual simulyasiyanı təmin edir, dinamikdir və üz ifadəsi ilə yanaşı linqvistik ifadələr də ehtiva edir.(1.13)

Filmlər ağıllı və bacarıqlı müəllimin əlindəki ən güclü vasitədir. Filmlər tələbələrin marağını artırır və öyrənilən materialların yadda saxlanmasına kömək edir. Filmlər faktları, hərəkət bacarıqlarını və əsas məlumatları ifadə etmək və tələffüzün düzgün şəkildə yerinə yetirilməsi üçün istifadə olunur.

Dil laboratoriyası müasir texnoloji tədris vasitələrindən biridir. Dil laboratoriyasında tələbələr səsləri dinləyə və istifadə olunan fərqli vurğunu başa düşə bilən, danışmağı bacaran və hətta səslərini yaza biləcəkləri kimi çox cəhətlərə malikdir. Tələbələrin tələffüz səviyyəsi standart materialları dinləməklə düzəldilə bilər. Dil laboratoriyası yalnız nəticə yönümlüdür

və ingilis dilini öyrənmə prosesini zənginləşdirir. Son tendensiyalarda yalnız audiolar deyil, video, flaş əsaslı oyunlar, internet də laboratoriya materiallarına daxil edilmişdir. Dil laboratoriyası ənənəvi sinif otağından daha asan bir atmosfer yaradır.

Ənənəvi bir tədris metodu olan proyektorlardan geniş istifadə olunur, bu cür multimedia yüksək keyfiyyətli təlimatı təmin edir. Konteksti böyük sinifə göstərmək üçün vacib bir vizual yardımdır.

YouTube, sinifdə istifadə edilə bilən orijinal video materialı tapa və paylaşa biləcəyəmiz bir platformadır.Vikipediyada deyilir: "YouTube, istifadəçilər video yükləyə və paylaşa biləcəyi və onları MPEG-4 formatında görə biləcəyi bir video paylaşma saytıdır. (4)

Tələbələr müəllimləri və dostları iləskype vasitəsilə vizual olaraq ünsiyyət qura bilərlər.. Eyni zamanda, ana dilində danışan xarici vətəndaşlarla da ünsiyyət qurmaq olar. Beləliklə həm kommunikasiya bacarıqları həm də tələffüzün bərpa olunmasını təmin etmək mümkündür.

Şagirdlər cib telefonlarında lüğətdən istifadə edərək yeni sözlər axtara və öz söz ehtiyatlarını zənginləşdirə bilərlər. Axtardıqları sözün yazılışını, tələffüzünü və hansı məqamda istifadəsini öyrənə bilərlər.

Multimedia qurğularından biri olan İpodlar istifadəçilərə tələbə uyğun olaraq mətnlər, şəkil, audio və video yazıları yaratmaq, çatdırmaq, mübadilə etmək üçün imkanı verir. Bununla yanaşı, tələbələr nitqlərini, tələffüzlərini və s. dinləyə bilər. Beləliklə, ipodlar ingilis dilini öyrənənlərə dinləmə, tələffüz, lüğət, qrammatika və yazı işlərini yaxşılaşdırmaq imkanı verir.

İKT ingilis dilinin 4 əsas aspektini əhatə edir – yazı,oxuma, danışmavə dinləmə.Təlim-tədris prosesinin müasir üsulu informasiya və kommunikasiya texnologiyasından (İKT) asılıdır.(2.23)

Ədəbiyyat

1. Afrin N. “Integrating Computer Assisted Instructioninthe EFL
2. Daniels J.S. (2002) “Foreword” inInformation and Communication Technologyin Education
3. Yusuf M.O. (2005). Information and communicationineducation:
4.www.unescobkk.org/education/ict (2007).

Юсубова А.

Использование ИКТ в преподавании английского языка

РЕЗЮМЕ

В настоящем обзоре изучается использование средств ИКТ в преподавании и изучении английского языка. Поскольку традиционные подходы и методики взаимосвязаны с новыми технологиями обучения английскому языку, представляется нецелесообразным сохранять их часть. С помощью этих инструментов ИКТ, которые свободно доступны в интернете, можно сделать обучение второму языку плодотворным. Это становится полезным для преподавания иностранного языка в руках творческих и знающих учителей языка. Теперь преподавание английского языка вступило в период оценки, когда новые изобретения входят в нашу повседневную деятельность. Вышеупомянутые элементы оказывают влияние на процесс обучения, особенно в английском языке.

Yusubova A.

The use of ICT in teaching english

SUMMARY

This study review explored the use of ICT tools in teaching and learning of English. Since conventional approaches and the methodologies are interlinked with the novel technologies to teach English language, it seems impractical to keep them part. With the help of these ICT tools which are available freely on the internet, can make the second language teaching a fruitful one. It becomes beneficial for teaching a foreign language in the hands of creative and knowledgeable language teachers. Now ELT has come into the period of evaluation where new inventions are entering into our day to- day activities. The elements

which are aforementioned are making impacts in the pathway of learning particularly in the English language.

Əsədova Aynur Elşən qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ OXU BACARIQLARININ AŞILANMASI

Açar sözlər: *oxu, vərdiş, tələbə, mətn, məzmun, dil, təlim, bilik*
Ключевые слова: *чтение, привычка, студент, текст, содержание, язык, учение, знание*
Key words: reading, habit, student, text, content, language, teaching, knowledge

Müasir dövrdə çoxdillilik olduqca vacibdir. Qısa zamanda iş tapmaq imkanları ilə yanaşı xarici dildə danışmağı bacarmaq insanlarla daha real əlaqə saxlamağa və müxtəlif mədəniyyətlər, yerlər və həyat tərzləri haqqında bilikli, məlumatlı olmağa kömək edir. Bu mənada ingilis dilinin özünəməxsus yeri var.

Bugün dünyada 6500-dən çox dil olduğu halda nə üçün biz ingilis dilini seçirik? Çünki ingilis dili dünyada ən çox danışılan üçüncü dil kimi 118-dən çox ölkədə danışılır və tədris olunur, eyni zamanda ticarət və diplomatiya dili kimi də istifadə olunur. İngilis dili 53 ölkədə rəsmi dildir və 400 milyon insan tərəfindən ana dili kimi istifadə olunur.

Beləliklə, ölkəmizdə də dünya dövlətləri ilə hərtərəfli əlaqələrin inkişaf etdiyi dövrdə əsas ünsiyyət dili kimi qəbul edilmiş ingilis dilinin öyrənilməsi məsələsi xüsusi əhəmiyyətkəsb edir. Buna görə də ölkəmizdə ingilis dilinin tədrisinə xüsusi önəm verilməlidir.

İngilis dilinin tədrisində tələbələrin ən vacib hesab etdiyi fəaliyyət növlərindən biri də oxu təlimidir [3,s.10]. Bəs oxu nəyə deyilir? Oxu insanın nə oxuduğunu başa düşməsi prosesidir. Oxu sadəcə öyrətmək, öyrənmək və ya tətbiq etmək deyil. O, insanın müəyyən bir mətni oxuduğu müddətdə və sonrasında baş verən fəal, interaktiv, məqsədli bir prosesdir. Tədris prosesində oxuyub anlama hər bir dərsin məqsəd və vəzifələri ilə yanaşı, bu məqsədlərin reallaşdırılma strategiyaları ilə sıx bağlıdır[3,s.4].

İstənilən dildə, eyni zamanda ingilis dilində oxumağın məqsədi eynidir: öyrənmək və oxudan zövq almaq. Ancaq tədris prosesində oxu təliminin əsas məqsədi qrammatik strukturların və leksik vahidlərin kontekst daxilində təqdim edilməsi və mənimsənilmiş biliklərin möhkəmləndirilməsidir [7,s.88-89]. Oxu prosesində vacib məqamlardan biri oxu üçün düzgün mətnlərin seçilməsidir. Belə ki, oxu mətnlərinin seçilməsində bir sıra prinsiplərə əməl etmək lazımdır. Mətnlər xarici dili öyrənən tələbələr üçün maraqlı olmalı, onların yaş səviyyələrinə, bilik səviyyələrinə, ehtiyac və tələbatlarına uyğun olmalıdır. İxtisası dil olan fakültələrdə istifadə edilən mətnlər autentik olmalı, onlar dil fakültələrində təhsil alan tələbələrin leksik və qrammatik potensialını zənginləşdirmək imkanları baxımından əhəmiyyət kəsb etməlidir [8,s.33-42]. Tələbələr üçün maraqlı olan oxu materiallarının seçilməsi onlarda oxuya maraq və motivasiya yaradır və tələbələri şüurlu şəkildə oxu prosesinə cəlb edir.

Deməli oxu təlimində vacib olan iki məsələdən biri oxu materiallarının seçilməsi, digəri isə tələbələri oxu prosesinə cəlb etməkdir. Tələbələrin oxu prosesinə cəlb edilməsi dedikdə onların könüllü, fəal, təşəbbüskar oxucu kimi cəlb edilməsi nəzərdə tutulur. Buna əsasən demək olar ki, bu iki məsələ bir-birilə sıx bağlıdır. Belə ki, oxu üçün seçilmiş mətnlər maraqlı olmadıqda tələbələr öz arzusu ilə deyil, məcburiyyət qarşısında qalaraq oxuyurlar. Bu isə təlimin keyfiyyətinə olduqca mənfi təsir göstərir.

Müəllim ingilis dili fakültəsində təhsil alan azərbaycanlı tələbələridüzgün istiqamətləndirməlidir. Onlara fərdi oxu ilə bağlı tapşırıq verərkən diqqətli olmalıdır. Belə ki, onlara çatdırmalıdır ki, tələbələr oxuduqları mətnin əsas məzmununu başa düşərsə, naməlum sözlərin tapılmasına heç bir ehtiyac qalmaz. Bu da onların işini xeyli aşanlaşdırar, müvafiq lüğətlərdən istifadə etmədən mətnin məzmununu və ideyasını düzgün qavramaq qabiliyyətinə malik olmağını təmin edər.

Oxuyub – anlama prosesinin düzgün təşkili və səmərəliliyini təmin etmək üçün əsas üç fəaliyyət növünü qeyd etmək lazımdır:

- Oxudan əvvəl baş verən fəaliyyət növləri
- Oxu zamanı yerinə yetirilən fəaliyyət növləri
- Oxudan sonra həyata keçirilən fəaliyyət növləri [3,s.64]

Oxudan əvvəl baş verən fəaliyyət növləri dedikdə tələbələrin diqqətinin mətnin başlığına, əsas mövzu ilə əlaqəsinə, oxu mətninin növünə, mətnin məzmunu ilə tanışlıq dərəcəsinə və s. kimi məqamlara cəlb edilməsi nəzərdə tutulur.

Oxu prosesində tələbənin diqqəti məzmunun açılması, uyğunlaşdırma, suallara cavab, müqayisə etmə, qeyd götürmə, müstəqil fikir yürütmə və öz fikirlərini sərbəst şəkildə əsaslandırma kimi məsələlərə yönəldilir.

Oxudan sonrakı mərhələ əvvəlki iki mərhələyə nisbətən daha həlledicidir. Belə ki, bu mərhələdə tələbələr artıq müstəqil fikir yürüdür, suallara cavab verir yaxud verilmiş cavablara uyğun sual seçir, müqayisələr edir, yeri gəldikdə mətnlə bağlı məsləhətlər verir.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, oxu tələbələrin öyrənməsi və inkişafının vacib bir hissəsidir. Savadlarını, dil və tələffüz bacarıqlarını inkişaf etdirməyə kömək etməklə onların gələcək uğurlarını təmin etmək mümkündür.

Ədəbiyyat

1. Arif Nəzərov. Müasir təlim texnologiyaları. Bakı, 2012
2. Ağazadə N.A. Xarici dillərin tədrisi metodikası və dilçilik. Bakı: 1974
3. Bağırova V.S. Ali ixtisas məktəblərində kommunikasiya-yönümlü oxunun tədrisi. Bakı: 2014
4. Верещагин Е.М. Психолингвистическая проблематика теории языковых контактов // Вопросы языкознания. М., 1967, N6
5. Allwright, R.L. The importance of interaction in classroom language learning// Applied Linguistics 1984
6. Breen M.P. How would we recognize a communicative classroom? // B.Coffey (ed) Teacher Training and the Curriculum. London: the British Council, 1983
7. Larcen-Freeman, D. Techniques and principles in language teaching. New York: Oxford University Press, 1986
8. Larcen-Freeman, D. On the need for a theory of language teaching // Georgetown University Round Table on Language and Linguistics, J.T.Alatis (ed) Wash. DC.: Georgetown University Press, 1990

Асадова А.

Внедрение навыков чтения при обучении английскому языку

РЕЗЮМЕ

Цель статьи – при обучении английскому языку привить самые существенные навыки чтения из 4 – х навыков, подчеркивать их пути. Чтение играет особую роль в обучении любому языку, включая английский. В статье рассматриваются вопросы, которые важны для правильного преподавания навыков чтения – подбор правильных текстов, правильное вовлечение учеников в процесс чтения и роль учителей в этом процессе. Учителя должны обратить внимание на правильное усвоение навыков чтения. Потому что очень важно как для правильного понимания текстов, так и для выражения смысла.

Asadova A.

Inculcation of Reading Skills in English Language Teaching

SUMMARY

The purpose of the article is to highlight the ways to inculcate reading skills that are very important among 4 skills in English language teaching. Reading has a special role in the

teaching of any language including English. The article deals with issues – selection of correct texts, proper involvement of students in the learning process and roles of teachers in this process that are important for the proper implementation of reading skills. Teachers should pay attention to the correct acquisition of reading skills. Becausereading is essential for both correct acquisition of the texts and expression of meaning.

Əsədova Aynur Elşən qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNGİLİS DİLİNDƏ OXU VƏRDİŞLƏRİNİN AŞILANMASI ZAMANI YARANAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Açar sözlər: *oxu, dekodlaşdırma, anlama, səs, problem, fonem, dil təcrübəsi, proses*
Ключевые слова: *чтение, расшифровка, понимание, звук, проблема, фонема, языковой опыт, процесс*
Key words: *reading, decoding, understanding, problem, phoneme, language experience, process*

Tələbələrdə güclü oxu vərdişlərinin inkişafı hər bir təhsil müəssisəsinin əsas hədəflərindən biridir. Tələbələr oxumaqla söz ehtiyatlarını genişləndirir və dünya haqqında məlumat əldə edirlər. Oxu həm də xarici dilin öyrənilməsində vacib olan digər bacarıqların – tələffüz və yazı bacarıqlarının inkişaf etdirilməsində açar rolunu oynayır. [1, s.8 – 10]

Hər tələbə eyni dərəcədə oxu vərdişlərinə yiyələnmir. Oxu, əlifbanın öyrənilməsi və fonemik məlumatlandırmanın artırılması da daxil olmaqla, oxu öncəsi bacarıqların mənimsənilməsi ilə başlayır. Sürətli və səmərəli bir oxucu olmaq sinif əsaslı dərslər üçün vacibdir, eyni zamanda ev tapşırıqlarına cavab vermək və standart imtahanlarda yaxşı nəticə göstərmək üçün vacibdir.

Əslində əksər müəllimlər və tələbələr oxu prosesinin harda və niyə zəiflədiyini bilmək istəyirlər. İstənilən sahədə problemlər baş verir, o cümlədən oxu prosesində də. Oxu, dekodlaşdırma, anlama ilə bağlı olan problemlər bir sıra metodistlərin fikrinə görə oxu prosesində rast gəlinən əsas problemlərdir.

Dekodlaşdırma problemləri:

Dekodlaşdırma sözün ayrı – ayrı fonemlərə bölünməsi və həmin fonemlər əsasında tanınması prosesidir. Məsələn, təcrübəli tələbələr “bag” sözündəki “buh”, “aah”, “guh” səslərini ayıra bilirlər. Ancaq oxu ilə bağlı çətinliyi (dekodlaşdırma çətinliyi) olan tələbələr bu səsləri fərqləndirə bilmirlər.[8, 28 – 30] “Buh”, “aah” və “guh” səsləri onlar üçün “bag” sözü ilə müqayisədə mənasız səslənə bilir. Dekodlaşdırma ilə bağlı çətinliklər aşağıdakılardır:

- Rabitəsiz oxu
- Hərflərlə təmsil etdikləri səslər arasında qarışıqlıq
- Asta şifahi oxu dərəcəsi (sözbəsöz oxu)
- Oxuyarkən durğu işarələrinə məhəl qoymamaq
- Sözləri səsləndirməklə bağlı çətinliklər
- Kontekstdən kənar sözləri tanımaqla bağlı çətinliklər

Anlama ilə bağlı problemlər:

Oxu prosesində hərf və söz tanımaqdan ifadə, cümlə və abzas səviyyəsində mənanı anlamağa qədər çox şey var. Elementar səviyyəli tələbələr bilmədikləri və ya səhv dekodlaşdırma səbəbindən tanımadıqları bir sözlə qarşılaşdıqda həmin hissəni ötürürlər. Bir mətn sətrində boşluqlar nə qədər çox olsa, məna düzəltmək bir o qədər çətin olur və bu da tələbələrin oxu prosesinə marağının azalmasına səbəb olur. Bu səbəbdən zəif anlama tələbələrin dekodlaşdırma ilə bağlı çətinlikləri olduğu, məhdud söz ehtiyatına malik olduğu və yaxud çox yüksək səviyyədə olan mətni oxumağa çalışdığı zaman ortaya çıxa bilər. [4, s. 48]

Anlama dekodlaşdırılmanın mənimsənilməsindən asılı olan bir prosesdir. Dekodlaşdırma ilə bağlı problemləri olan tələbələr üçün nə oxuduğunu anlamaq və xatırlamaq olduqca çətindir. Çünki ayrı – ayrı sözləri anlamaq cəhdləri çox yorucu olduğundan , tələbələrin anlama üçün heç bir mənbələri qalmır. Anlama ilə bağlı çətinliklər aşağıdakılardır:

- Verilmiş mətndəki ideyaları əlaqələndirməklə bağlı çətinliklər
- Oxu zamanı diqqətin pozulması
- Sözlərin və cümlələrin mənası ilə bağlı qarışıqlıq
- Mətndə olan məlumatların buraxılması və ya xırda detallardan vacib məlumatların ayrılması ilə bağlı çətinliklər [2, s. 124 – 128]

Oxu prosesi zamanı yaranan problemləri həll etmək üçün bir sıra təkliflər irəli sürülmüşdür. Oxu ilə bağlı çətinliklər verilmiş materialların və yaxud bacarıqların kiçik bölmələrə bölünməsi yolu ilə həll oluna bilər. Tələbə hər bölməyə cavab verdikdən sonra düzgün olub – olmadığını görmək üçün cavaba istinad edir. Verilən materiallar jurnal, dərslik və ya iş dəftəri ola bilər. Hər dəfə cavab verdikdən sonra tələbə onun düzgün olub – olmadığını yoxlayır. Beləliklə tələbələrə səhv etdikləri zaman səhvlərini düzəltmək üçün şərait yaradılır.

İngilis dili müəllimləri eyni zamanda, tələbələrin dil təcrübəsini də nəzərə almalıdırlar. Bu məqamlardan bəziləri aşağıdakılardır:

- Tələbələrin şifahi ifadəsi onların ətraf mühitə həssaslığına əsaslanır
- Bir çox fəaliyyət, təcrübə və vasitələr tələbələrin ünsiyyət bacarıqlarını inkişaf etdirir
- Bir uşağın şifahi dildə ifadə edə biləcəyi bütün təcrübələr oxunun inkişaf etməsindən gələn bir xammaldır. [4, s. 3 – 5]

Oxu prosesində tələbələrin rastlaşdığı problemlərdən biri də oxuya ayrılan vaxtın düzgün bölünməsi, oxu müddətində onların fəallaşdırılması məsələsidir. Bu məqsədlə onlara nəqli fəaliyyəti gücləndirən sualların verilməsi, suallar ətrafında tələbələrin fəallığının təmin edilməsidir.[8,s.10] Növbəti mərhələlərdə tələbələr onlar üçün hazırlanmış tapşırıqları yerinə yetirməli, bu işi sistemli şəkildə həyata keçirməlidirlər. Bu zaman müxtəlif fəaliyyət növlərindən istifadə edilməli, aşağıdakı ardıcıllıq gözlənilməlidir: mətn üçün açar sözlərin seçilməsi, mətndəki qrammatik qaydaların tətbiq edilməsi, tapşırıqların işlənməsi.

Bütün deyilənləri belə ümumiləşdirə bilərik ki, oxu təliminin əsasını dərs vaxtından səmərəli istifadə təşkil edir. Oxunun dərs vaxtında, eyni zamanda dərsdənkənar vaxtlarda həyata keçirilməsi, tapşırıqların məqsədyönlü verilməsi, sualların tərtibi, onların cavablarının müəllim tərəfindən yoxlanılması və nailiyyətlərin qiymətləndirilməsi əsas şərtlərdəndir.

Ədəbiyyat

1. Barsuk R.Y. Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri. Bakı: Maarif, 1967

2. Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Metodik tövsiyə. Bakı, 2003, 145 s.

3. Tahirov A.T., Salayeva Ə.N. İngilis dilinin tədrisi metodikası. Bakı: Maarif, 1978, 211 s.

4. Шульман Э.А. Основы эксперимента в методике обучения иностранными языкам. Воронеж: 1971.

5. Alderson, J.C. (2000). Assessing reading. Cambridge: University Press

6. Dillon, J.T. Duration of response to teacher questions and statements. Contemporary Educational Psychology

7. Halliday A. The House of TESEP and the Communication Approach: The Special needs of English Language Education // ELT Journal, 1994, v. 48 (1).

8. West M. Teaching English in Difficult Circumstances. London: Longmans, Green and Company, 1953.

Асадова А.

Проблемы, возникающие при приобретении навыков чтения на английском языке, и способы их решения

РЕЗЮМЕ

Цель данной стати – осветить проблемы, возникающие при формировании навыков чтения, и способы их решения. В процессе чтения возникают проблемы, связанные с пониманием и декодированием. Кроме того, одна из проблем, возникающих в процессе чтения, связана со временем, отведенным на чтение. Решение всех этих задач – одно из важнейших условий правильной организации процесса и безупречного его формирования у учеников. В статье постарались прояснить именно эти вопросы.

Asadova A.

Problems arising during the inculcation of reading skills in English and their solutions

SUMMARY

The purpose of the article is to highlight the problems and their solutions that arise during the inculcation of reading skills. There are several problems arise during reading process which are related to comprehension and decoding. In addition, one of the problems encountered in the reading process is related to the time alloted for reading. The solution of these problems is one of the most important conditions for the proper organization and perfect inculcation of reading process to the students. In this we try to clarify these issues.

Nurəliyeva Leyla
ADPU

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN YAZI BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Açar sözlər: *xarici dil, şagird, yazı, bacarıq, inkişaf, metod, müəllim, innovasiya*

Ключевые слова: *иностранный язык, студент, письмо, навыки, развитие, метод, учитель, инновация*

Key words: *foreign language, student, writing, skills, development, method, teacher, innovation*

Xarici dillərin tədrisi digər humanitar fənlərin tədrisindən özünün spesifikliyi ilə seçilir. Ənənəvi yanaşmaya görə, bu cür spesifiklik ilk növbədə xarici dil dərslərinin yeni məzmun verməkdən daha çox mövcud fikirləri yeni işarələr sisteminə çevirməyə xidmət etməsindən irəli gəlir. Xarici dillərin tədrisinin digər spesifikliyi isə dərslərin əvvəlki bilgilərə söykənməsi, digər mövzularla əlaqəlidir ki, bu da onları dəqiq fənlərə yaxınlaşdırır.

Xarici dilin tədrisi zamanı şagirdlərdə dilin komponentlərinin (tələffüz, lüğət və qrammatika) və dil bacarıqlarının (oxu, yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi diqqət mərkəzində durur və qiymətləndirmə də müvafiq olaraq bu meyarlarla həyata keçirilir. İngilis dilinin tədrisində ilk növbədə yeni sözlərin kontekstdə öyrənilməsinə (düzgün tələffüz və cümlədə düzgün istifadə qaydaları izah edilmək şərtilə bilinməsi vacib olan minimum qrammatika) və oxu bacarıqlarının inkişaf etdirilməsinə (bu həm yazını inkişaf etdirir, həm lüğət və qrammatikanın təkrarını daha mənalı edir və s.) önəm verilir. Dil sözlərdən ibarətdir, tələffüz və qrammatik qaydalar sözlərdə maddiləşir, sözləri bilmədən danışmaq və eşitdiyini anlamaq qeyri-mümkündür. Oxuya gəldikdə isə, onun bir faydasını vurğulamaq daha düzgün olardı: “Oxumağı öyrənirik ki, öyrənmək üçün oxuyaq”.

Xarici dil öyrənmənin müxtəlif yolları vardır. Müəllim şagirdlərə xarici dil öyrədərkən onların bacarıqlarının inkişafına mühüm önəm verməlidir. Xarici dil öyrənərkən və ya

öyrədərkən dörd əsas bacarıq nəzərə alınmalıdır. Bunlara oxu, yazı danışıq, dinləmə bacarıqları aiddir.

Yazı - burada tədris produktivləşməyə əsaslandırılır. Oxuya uyğun olaraq, ibtidai pillədə yazı bacarığının inkişafı başqa yolla həyata keçirilir, çünki şagirdlər hələ də yazı yazmaqda çətinlik çəkirlər. Bunu nəzərə almaqla ibtidai pillədə tədrisin birinci ilində xüsusi diqqət yazı bacarıqlarının formalaşdırılmasına yetirilir. Şagird hərfləri, öyrəndikləri sözləri yazır; hərfləri birləşdirmək texnikasına sahib olur. İlkin mərhələdə produktivləşmə darıxdırıcı olmasın deyə, vacibdir ki, şagirdlərə çoxrəngli, həvəsləndirici və ən əsası, məzmunlu mətnlər təklif edilsin. (Məs.: sevdiyi yemək, kitab, film və s. haqqında yazır). Yazılı produktivləşmə oxu bacarığının, eyni zamanda dil materialının yadda saxlanılmasına dəstək göstərir. (3, s.357)

Bəs müəllim şagirdləri yazmağa necə həvəsləndirə bilər? Yazılı hadisələr onların ehtiyac və maraqlarına yönəldilməlidir. Mümkün olduqda onlar real həyatla əlaqələndirilməlidir. Hazırkı işimizdə müəllimlərin bu mövzuda biliklərinin artırılmasına kömək etmək üçün yazı bacarıqlarının inkişafı haqqında faydalı məlumat verməli və bu məqsədlə tədris üçün bəzi praktik fikirlər təqdim etməliyik. Fikrimizcə, praktik təlim ideyası müəyyən dərəcədə cəlbediciliyi, marağı, real həyatda uyğunluğu ilə xarakterizə olunan və ətraf mühiti, konteksti və hər şeydən əvvəl tələbələrin ehtiyac və maraqlarını nəzərə alaraq yaxşı bir fikirlə əlaqəlidir. Buna görə müəllimlər yazının effektiv olması üçün necə öyrətməyi bilməlidirlər. Digər tərəfdən, şagirdlər qrammatika qaydalarını öyrənməlidirlər, mümkün qədər orijinalda ingilis dilini eşitməli və oxumalı, söz qeydlərinə gündəlik baxmaq və yazı bacarıqlarını inkişaf etdirmək üçün digər zəruri hərəkətlər etməlidirlər. Cəmiyyətin hazırki inkişaf səviyyəsində insanların iqtisadiyyat, təhsil, biznes, mədəniyyət və incəsənət sahələri üzrə ünsiyyət yaratmaq tələbatları xeyli artmışdır. Belə bir vəziyyətdə bu və ya digər xarici dildə yazı bacarıqlarına yiyələnmədən keçmək mümkün deyildir. Bu mənada ümumtəhsil məktəblərində xarici dil təliminin mühüm bir istiqamətini yazı vərdişlərinin formalaşdırılması təşkil edir. Buna görə də şagirdlərə müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsi ilə ünsiyyət qurmaq, həyati tələbatlarla bağlı yazı bacarıqlarını mənimsətmək zəruri hesab olunur.

Şagird yazı prosesində bir çox bacarıqlara yiyələnir: əməli yazı bacarıqlarını nümayiş etdirir; müasir informasiya və kommunikasiya texnologiyaları vasitəsilə ünsiyyət qurur; həyati tələbatlarla bağlı yazı bacarıqlarını nümayiş etdirir; yazı prosesində hərf və hərf birləşmələrindən düzgün istifadə edir; öyrəndiyi sözlərdən istifadə edərək sadə kiçikhəcmli yazılı mətn qurur; sadə əməli yazı nümunələri (afişa, dəvətnamə, elan, məktub və s.) hazırlayır. (3, s.405)

Yazı fəaliyyəti üzrə məzmun xətlərinə əsasən şagirdlər akademik yazı və mediasiya bacarıqları (təşkil etmək, sözləri seçmək, ardıcıl sıraya düzmək, cümlə quruluşuna riayət etmək, aydınlaşdırıcı fakt və arqumentlərdən istifadə etmək və nəticəyə gəlmək) qazanırlar. Yazı fəaliyyəti üzrə məzmun xətlərinə əsasən şagirdlər sosial və kommunikativ vərdişlərə (esse, layihə, məktub, dəvətnamə və s.) yiyələnirlər, planlaşdırma, təhliletmə, izahetmə, ümumiləşdirmə bacarıqları qazanırlar və yazı vasitəsilə fikirlərinin dəyərləndirilməsinə nail olurlar, dünyəvi əlaqələrdə, onlayn layihələrdə fəal iştirak edirlər. Yazı daha ciddi və dilin qanunlarına tabe olan bir fəaliyyət növü kimi başa düşülür. Şagirdlər yazı vasitəsilə öz fikirlərini daha geniş ifadə edirlər, qrammatik modellərdən və birləşmələrdən istifadə edərək eşitdiklərini düzgün yazırlar, sərbəstliyi, plan tərtib etməyi, yeni proyektlər qurmağı, müxtəlif yazı nümunələrini tərtib etmək bacarığını əldə edirlər. Orta məktəbdə yazı fəaliyyəti texnologiyası bunlardır: təsviri yazılar; hekayə, nağıl və şəkil üzrə yazılar; analitik yazılar; arqumentli yazı; layihə yazıları; məktublar; məruzələr. Təsviri yazılarda şagirdlər təbiət, bu və ya digər həyat hadisələrini özünəməxsus tərzdə təsvir edir, bu zaman öyrəndiyi yeni söz və ifadələrdən, cümlə modellərindən istifadə edir, fikirlərini obrazlı ifadələrdən istifadə etməklə bildirir. Hekayə, nağıl və şəkil üzrə yazılar: buraya macəra, nağıllar, fantaziya, tarixi hadisələr, sirli

hekayələr, elmi xəbərlər aiddir. Şagirdlər filmə tamaşa edib, yaxud başlarına gələn macəra haqqında öz fikirlərini yazırlar. Analitik yazılar: bunlara ilkin

və orta səviyyəli yazı bacarıqları əsasında mətndə səbəb və onun nəticələri, müqayisə və ziddiyyəti, əsas ideya və kiçik detallar haqqında olanlar daxildir. Belə yazılarda şagirdlər özləri təhlil xarakterli fikirlərini müxtəlif formalarda (beyin xəritəsi - "Mind Map", qrafik cədvəllər - "Graphic tables", diaqramlar - "Diagrams") ümumiləşdirməklə ifadə edirlər. Arqumentli yazı hər hansı bir müəllifin fikrindən, statistik məlumatdan, sitatlardan istifadə olunmaqla hazırlanmış yazıdır. Belə yazılarda görkəmli şəxslərin kəlamlarından, sitatlardan istifadə edilir. Üç əlaqəsiz əşya üsulu ilə şagirdlər əlaqəsi olmayan üç əşyanın adını lövhədə yazır və onları bir hekayədə əlaqələndirirlər. Qruplar bir-birlərinə yazdıqlarını oxuyur və səhvləri düzəldirlər. Bu strategiyalar şagirdlərdə düşüncə, qavrama, yaradıcılıq, əlaqələndirmə, müqayisə etmə kimi bacarıqların formalaşmasına imkan yaradır. Səhvlərlə yazı qrammatik bazanı möhkəmləndirən yazı texnologiyalarındandır. Bu üsulda şagirdlər hər hansı bir mətndə verilmiş səhvləri düzəldərək qrammatik biliklərini yada salır və yazı bacarıqlarını inkişaf etdirirlər. Cümlə tamamlama texnologiyası ilə şagirdlərin həm mətn haqqında sərbəst tənqidi təfəkkürü, həm də ətrafdakılar haqqında düşüncələri əks olunur. Şəkli yada sal yazı texnologiyası istifadə zamanı müəllim mövzu üzrə hər hansı bir şəkli 1-2 dəfə ani nümayiş etdirir və şagirdlər şəkildə gördüklərini yazırlar. Bəzən müəllim mövzuya aid müxtəlif obyektləri bir yerə toplayır, şagirdlər gördüklərindən yadda qalan obyektləri xatırlayaraq onların haqqında yazırlar. Xarakterlər xəritəsi (Characterising map) texnologiyasından istifadə zamanı şagirdlər mətn haqqında bildiklərini diaqramlar üzərində yazırlar. (4, s.50)

Beləliklə, müəllim şagirdlərdə yazı bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif vasitə və metodlardan istifadə edir. Müəllim bu metodları seçərkən şagirdlərin yaş və inkişaf səviyyələrini nəzərə almalıdır. Müəllim ibtidai sinif şagirdlərində xarici dilə həvəs oyatmalı və müasir təlim texnologiyalarından istifadə etməlidir. Dərsi maraqlı və öyrənmənin keyfiyyətini artırmaq üçün müxtəlif təlim oyunlarından da istifadə edə, həmçinin sinifdə qrup və cütlərlə işlər də tərtib edə bilər. Tədris zamanı şagirdlərin maraq və arzularının nəzərə alması çox önəmlidir.

Ədəbiyyat

1. Harmer J. (2015) How to Teach Writing. England: Pearson Education Limited.

2. Hedge T. (1988) Writing. Oxford: Oxford University Press.

3. Klein P.D., Piacente-Cimini, S. and Williams, L.A. (2007). "The role of writing in learning from analogies". Learning and Instruction, Vol.17, pp. 595

4. Mandal R.R. (2009) "Cooperative Learning Strategies to Enhance Writing Skill". 5.The Modern Journal of Applied Linguistics. Vol.1, No.2, pp. 95-102.

6. McArther T. (1992). The Oxford Companion to the English Language. Oxford and New York: Oxford University Press.

Нуралиева Л.

Развитие письменных способностей учащихся в обучении иностранных языков

РЕЗЮМЕ

В общем, письмо - очень важный навык. Его важность выделяется тем фактом, что он служит важным инструментом для реализации различных потребностей человеческой жизни. Помимо этих вопросов, он также играет важную роль в развитии языка. Это помогает в продвижении обучения и критического мышления учащихся. Это улучшает обучение тем или иным способом. В дополнение к его важности для обучения, он также рассматривается как очень полезная помощь для обучения и для учителя. Это помогает учителям в выполнении их деятельности и практики. Это также помогает выполнять рефлексивное обучение. Таким образом, это важно для общения в целом, для языка, а также для обучения и преподавания. Из-за важности письма, обучения и преподавания такой навык стал очень важной потребностью. Тем не менее, написание инструкции связано с различ-

ными проблемами, вытекающими из разных точек зрения, которые связаны с написанием. Эти проблемы связаны с различными факторами. Они связаны лингвистическими и культурными особенностями, учащимися, учителями и учебным контекстом.

Nureliyeva L.

Development of students' writing skills in teaching foreign languages

SUMMARY

In sum, writing is a very important skill. Its importance singles out from the fact that it serves as an essential tool for realizing different necessities in human life. Apart from these issues, it also plays an important role in language development. It helps in promoting learning and the learners critical thinking. It enhances learning in a way or another. In addition to its importance for learning, it also regarded as a very useful aid for teaching and for the teacher. It helps teachers in fulfilling their activities and practices. It also helps to fulfill reflective teaching. So, it is important for communication in general, for language, and for learning and teaching. Because of the importance of writing, learning and teaching such a skill has become a very crucial need. However, writing instruction involves different challenges resulted from different perspectives that are involved in writing. These challenges are related to different factors. These are related to the linguistic and the cultural backgrounds, the learners, the teachers, and the teaching context.

Zeynalova Sevinc İlham qızı
ADPU, magistrant
Elmi rəhbər: dos.Aybəniz Həşimova

İBTİDAİ SİNİFLƏRDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ROLU

Açar sözlər: *İKT vasitələri; təhsilin inkişafı; ağıllı lövhə; yüksək texnologiya; ibtidai sinif; müasir təhsil; distant təhsil*

Ключевые слова: *инструменты ИКТ, развитие образования, интерактивная доска; современное образование; дистанционное обучение*

Key words: *ICT tools, education development, interactive whiteboard; modern education; distance education*

Müasir insan yaşadığı mühitdə bir çox saysız məlumatla əhatə olunmuşdur.Hər il ötdükcə daha çox inadla kompüter və bununla birlikdə informasiya texnologiyası həyatımızın ayrılmaz bir parçasına çevrilir. "İnformasiya və kommunikasiya texnologiyaları məlumatın toplama, saxlama, işlənməsi,istehsalı və ötürülməsi üçün insanlar tərəfindən istifadə olunan cihazlardır ", Buna əsaslanaraq deyə bilərik ki, İKT müəllimin praktik fəaliyyətində əsas rol oynayır. Hal-hazırda şagirdlərin təhsil fəaliyyətində İKT-nin istifadəsinin rolunun üstünlüyünü başa düşmək elə də çətin deyil.

Təhsil əsasən insan amilindən asılıdır:

a) müəllim və onun peşəkarlığı;

b) şagird və onun tədqiqatçılığı

Təhsilin müasir cəmiyyətin ehtiyacları səviyyəsinə çatdırılması prosesində əsas bunlar rol oynayacaqdır:

ü müəllim heyətinin İkt-dən istifadə vərdiş səviyyəsi, istifadə etmək istəkləri;

ü peşəkar fəaliyyətlərindəki müasir texnologiyalar;

ü şagirdlərin komputer savadlılığı.

İnformasiya texnologiyaları həm müəllimə,həm də şagirdə onların inkişaf etməsi üçün unikal bir fürsət təqdim edir. Uşaq və yeniyetmələrin informasiya məkanının inkişafı və genişləndirilməsi müəllimi əvvəllər bilinməyən yeni anlayışlara yiyələnərək şagirdlərlə birlikdə

işləməyə, əməkdaşlığa təşviq edir. Vurğulayım ki, sinifdə kompüter texnologiyalarından istifadə yalnız təhsilin keyfiyyətinə təsir edən amil deyildir. Həmçinin müəllimin peşəkar bacarıq və inkişaf səviyyəsini avtomatik olaraq artırır. Müasir texnologiyaların pedaqoji sahəyə tətbiqi fəaliyyəti sadəcə bir zərurət deyil, eyni zamanda şüurlu bir proses olmalıdır. Bu sahədə müəllim davamlı olaraq təhsilə və özünütəhsilə cəlb olunmalıdır. Komputer avadanlığı və proqramlarından istifadə, ibtidai müəllimlərin istəyinə görə yox , cəmiyyətin ehtiyaclarına və problemlərinə uyğun olaraq dəyişdirilməsi məsləhətdir. "Statistik veb saytına görə, ibtidai sinif müəllimlərinin yarıdan çoxu komputerlərə müsbət münasibət bəsləyir, yeni İKT vasitələrinə maraq göstərir, öz təcrübələrində onlardan istifadə edirlər. Bunların arasında həm gənc müəllimlər (5 ilə qədər iş stajı) həm də təcrübəçi müəllimlər vardır".[4]

İnformasiya texnologiyalarında istifadə müəllimin işini asanlaşdırır. İKT vasitələri distant(məsafədən) təhsilin əsasını təşkil edir.İnformal təhsil zamanı bacarıq və vərdişlərin əldə olunmasında , peşəkar ünsiyyət, yüksək təcrübə qazanmaqda əvəzsiz rol oynayır. Danılmazdır ki, komputer yaşayan bir müəllimi əvəz edə bilməz. Müəllim əməyi, onun peşəkarlığı təlim-tərbiyədə əvəzsiz rol oynayır. İnfomasiya texnologiyaları isə onun işini asanlaşdırır. Uşaqların maraq və ehtiyyacını qarşılayır. Əyani vasitələrin tərtibi ilə materialın asanlıqla qavranılmasını təmin edir. Buna görə "İbtidai siniflərdə İnformasiya Kommunikasiya Texnologiyalarından istifadənin rolu " mövzusunu seçdim.

"Son zamanlar texnologiya sahəsində olan inkişaf təhsil sektoruna da təsir etmişdir. Müasir komputer,planşet və smartfonlardan tədris məqsədilə dərs otaqlarında istifadə edirlər. Hətta texniki cəhətdən daha da şəraitli məktəblərdə internet üzərindən onlayn şəkildə görüş-dərslər keçirərək distant dərslər apararaq yüksək texnologiyalardan istifadə edilir. Bu dərsin sürətini,əyaniliyini,praktikliyini artırır."[1]

Bu müstəvidə deyə bilərik ki,təhsil prosesində İKT-nin istifadəsi aşağıdakılara imkan verir:

• təhsil effektlərini artırmaq;
• təhsilin assimilyasiya keyfiyyətini artırmaq;
• tələbələrin fərdi təhsil trayektoriyalarını qurmaq;
• təlim müddətində hazırlıq səviyyələri müxtəlif olan şagirdlərə fərqli yanaşma tətbiq etmək;
• eyni zamanda fərqli qabiliyyətli şagirdlərlə fəaliyyət və onlara verilən

Imkanlar. Müəllif

İbtidai siniflərdə tədris materialının hazırlanması və təqdim edilməsi üçün ən uğurlu formalardan biri dərslərdə multimedia təqdimatlarının yaradılmasıdır. Üstəlik, təqdimat müəllimə müəyyən bir sinif, mövzu, mövzunun xüsusiyyətlərinə əsaslanan təlim materialını müstəqil şəkildə planlaşdırmağa imkan verir. Maksimum öyrənmə effektinə nail olmaq üçün dərsi qurmağa imkan verir. Təhsilddə interaktiv texnologiyaların istifadəsi adi hala çevrilir. İnteraktiv lövhələr kimi interaktiv avadanlıqlar yaradılır. Şagirdlər bilik əldə edir və problemlərinin yaradıcı həllinə nail olurlar. Bu da onların davamlı motivasiyasına təsir edir. Mücərrəd düşüncələri inkişaf etdirir. Bu texnologiyalar vasitəsilə təqdimatlar hazırlayır, onları nümayiş etdirir, modellər yaradırlar. Şagirdləri təlimə cəlb etməklə materialın mənimsənilməsini, dərsin tempini və gedişatını yaxşılaşdırmaq olar. Elektron lövhə uşaqlara lövhədəki qorxu və utancaqlığı aradan qaldırmağa kömək edir. Diqqəti təlimə cəlb edirlər. Sinif passiv qalmır. Komputerdə olan hər verilən interaktiv lövhədə göstərilir. Məsələn, obyektləri və yazıları hərəkət etdirə, müxtəlif fiqurlardan, diaqramlardan, mətnlərdən və sxemlərdən istifadə edirlər. Lazım olan şəkillər və rənglərdən seçim edirlər. Beləliklə, müəllim ilə şagirdlərə dərsi birlikdə modelləşdirmək imkanı verir. İnteraktiv təlim metodları ilə işləyərkən,təlimdə İKT texnologiya vasitələrindən istifadə edərkən şagirdlərin diqqətinin cəmlənməsinə, öyrənmə materialının daha sürətli mənimsənilməsinə və nəticədə hər bir şagirdin irəliləməsinə nail olunur , bu da səviyyəni keyfiyyətcə artırır.

Ədəbiyyat

1. İ.Həsənov, A.Rüstəmova, N.Babayeva. "Kurikulum, Metodika və Pedaqogika", №60, 2020

2. Стадник М.В. Использование медиауроков для развития мышления младших школьников. Библиотека сообщества учителей начальных классов. Образовательный портал «Сеть творческих учителей», 2008.

3. Захарова Н.И. Внедрение информационных технологий в учебный процесс. Журнал «Начальная школа» № 1, 2008.

4. Учебные материалы: уроки, картинки, виджеты. [Электронный ресурс]. Режим доступа: http://www.smartboard.ru/ (дата обращения 15.06.20

РЕЗЮМЕ

В статье исследуется роль дистанционного образования, инструментов ИКТ, сущности и содержания современной системы образования. Стало очевидным важность использования инструментов ИКТ. При работе с интерактивными методами обучения, с использованием ИКТ-технологий в обучении концентрация студентов концентрируется, учебный материал усваивается быстрее, и в результате каждый ученик прогрессирует, что повышает уровень качества.

SUMMARY

The article examines the role of distance education, ICT tools, the essence and content of the modern education system. The importance of using ICT tools has become apparent. When working with interactive teaching methods, using ICT technologies in teaching, the concentration of students is concentrated, the educational material is assimilated faster, and as a result, each student progresses, which increases the level of quality.

Həsənova Ramiyyə Ayaz qızı
Elmi rəhbər: dos. İsmayılova Mehriban Cəlal qızı

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ TƏFƏKKÜRÜN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *kiçik yaşlı məktəbli, təfəkkür, inkişaf, düşüncə, yaddaş, nitq*
Ключевые слова:*младшие школьники, мышление, развитие, мысль, память, речь*
Key words: *primary schoolchildren, thinking, development, thought, memory, speech*

İbtidai məktəb çağının başlanğıcında bir uşağın psixi inkişafı kifayət qədər yüksək səviyyəyə çatır. Bütün psixi proseslər: *qavrayış, yaddaş, düşüncə, təfəkkür, təxəyyül, nitq*-artıq uzun bir yol keçmişdir. Uşaqların müxtəlifyönümlü fəaliyyətini təmin edən bu fərqli idraki proseslər bir-birindən təcrid olunmur, əksinə, mürəkkəb bir sistem əmələ gətirir və hər biri bir-biri ilə möhkəm əlaqədə olur. Bu əlaqələr, təbii ki, uşaqlıq dövründə dəyişir. Ancaq müəyyən perioddan sonra proseslərdən biri ümumi zehni inkişaf üçün aparıcı rol alır.

Psixoloji tədqiqatlar göstərir ki, məhz, təfəkkür bu psixoloji proseslər içərisində qalan digərlərin inkişafına böyük təsir göstərir.

Təfəkkür, qarşıya qoyulmuş hər hansı bir vəzifənin əldə etdiyimiz elmi biliklərə və ictimai təcrübəyə əsasən həll edilməsi və müəyyən nəticələr əldə edilməsi prosesidir. Təfəkkürün formaları həm də psixologiyanın öyrənmə obyektidir. Psixologiyada 3 təfəkkür forması ayırd edilir: məfhum, hökm və əqli nəticə və ya istidlal.

Məktəbəqədər dövrün sonundan uşaqlarda deyilmiş fikrin məntiqini başa düşməyi və sözləri təhlil etməyi nəzərdə tutan şifahi-məntiqi təfəkkür inkişaf etməyə başlayır. Bu özünü ən azı 2 mərhələdə göstərir:

1. Birinci mərhələdə uşaq obyekt və hərəkətlərlə bağlı sözlərin mənalarını və problem həll edərkən onları necə istifadə edəcəyini öyrənir.

2. İkinci mərhələ bir qayda olaraq, təhsilin erkən dövrünə təsadüf edir. Bu mərhələdə uşaqlar münasibətləri göstərən bir dərketmə sistemini, məntiqi düşünmə qaydalarını öyrənirlər.

Şifahi-məntiqi düşüncə, hər şeydən əvvəl, düşüncə prosesinin özündədir. Praktik-məntiqi təfəkkürdən fərqli olaraq, şifahi yolla həyata keçirilir. Kiçik məktəbli özü bildiyi üsul və qaydalarla hökmləri verməli, seçimlər etməli, lazımi münasibətləri qurmalı, analitik təhlillər etməlidir. Lazımi predmetləri məntiqi düşüncə qabiliyyətinin köməyi ilə müqayisələr etməli, ümumiləşdirmələr aparmalı və yaxud da qruplaşdırmalar etməli və son mərhələdə isə yekun nəticələr əldə etməlidir.

Lakin bununla bərabər, kiçik yaşlı məktəblilərin təfəkkürü hər nə qədər özünəməxsus olsa belə, buna baxmayaraq, hələ də özünün ən yüksək səviyyəsinə çatmamışdır. Elmi ədəbiyyatlarda bu barədə oxuyuruq: "Kiçik yaşlı məktəblilərin təfəkküründə konkret və emosionallıq hələ də geniş yer tutur. Onlar müxtəlif müqayisələr, sadə şəkildə ümumiləşdirmələr aparmağa və nəticələr çıxarmağa, məsələ həll etməyə, bir sözlə, düşünməyə qabildirlər. Lakin bilik ehtiyatları və təcrübələri az olduğu üçün uşaqlarda hələ təfəkkür tələb olunan səviyyədə deyildir. Bu yaş qrupunda uşaqlar şəkillər, rənglər, səslər və duyğularla düşünürlər."

İlk zamanlar əyani-əməli təfəkkür özünübüruzə versə də əyani-obrazlı təfəkkür üzrə keçid yaranır, sözlü məntiqi təfəkkürün təşəkkülü üçün müvafiq zəmin yaranır.

Kiçik məktəb yaşının əvvəlləri hələ də ümumiləşdirmə ilə müqayisə halında zahiri əlamətlər üstün sayılır. Getdikcə önəmli əlamətlər üzrə ümumiləşdirmə ilə müqayisəyə meyillilik artır. Kiçik yaşlı şagirdlərdə mücərrədləşdirmədə perseptual və konseptual səviyyə inkişaf etməklə, onların idraki fəaliyyətində əhəmiyyətli rol oynayır.

Bəzən kiçik yaşlı məktəblilər məfhumun əsas əlamətini deyil, ikinci dərəcəli əlamətlərini yadda saxlayır və ona istinad edirlər. Beləliklə, məfhumun məzmunu qeyri-mühüm əlamətlər hesabına genişlənir. Bu genişlənmə qavrayış çərçivəsindən o qədər də kənara çıxmır. Yəni, kiçik yaşlı məktəbli qavradığı əlamətlərə istinad edəcək, qavramadığı əlamətləri ümumiləşdirməkdə çətinlik çəkəcəkdir. Bu zaman müəllimin mühüm olan və ya mühüm olmayan əlamətləri şagirdə izah etməli, onları fərqləndirməyi öyrətməlidir.

Kiçik məktəb yaşı dönəmində uşaqlarda təfəkkürün xüsusiyyətləri inkişaf etməkdədir. Prof. Ə.Bayramovun tədqiqatlarından məlum olur ki, əlverişli zəmin yaradıldıqda, habelə I-II sinif şagirdləriidrak obyektlərinin mənasını başa düşə bilir, oradan bir sıra nəticələr çıxarmağa, yalnışları, uyğunsuzluqları tapmağı, onları yaradan səbəblər haqda müəyyən mülahizələr deməyə qabil olurlar. Bununla da kiçik məktəb yaşlı şagirdlərin hamısı eyni şəkildə müstəqil və tənqidi fikirləşə bilmirlər. Bu sahədə uşaqlar arasında müəyyən fərdi fərqlər özünü büruzə verir. Prof. Ə.Bayramovun tədqiqatlarının çoxu kiçik məktəbli uşaqları təfəkkürün tənqidiliyinin fəaliyyət xüsusiyyətlərinə əsasən aşağıdakı qruplara bölməyə imkan vermişdir:

1) *heç bir təhrik olmasa belə tənqidi fikirləşən şagirdlər*- Belə şagirdlər heç bir təhrik olmasa da, sərbəst şəkildə öz idrak obyektləri üzrə tənqidi yanaşır, burada olan qüsurlar və uyğunsuzluqları görə bilirlər.

2) *qismən təhriklə tənqidi fikirləşən şagirdlər*- Belə şagirdə ancaq idrak obyekti üzrə qüsur yaxud çatışmazlıq olduğunu dediyi zaman onu asanlıqla müəyyən edə və düzəldə bilir.

3) *tam təhriklə tənqidi fikirləşən şagirdlər*- Belə şagirdlər ancaq onlara nədə yalnış etdiklərini bildirdiyi zaman qüsurları müəyyən edə və aradan götürə bilirlər.

4) *heç cür təhriklə də tənqidi düşünməyən şagirdlər*- Belə şagirdlərdə təfəkkürün ümumi inkişaf etməsidigərlərinə nisbətən daha aşağı səviyyədə olur.

Ümumiyyətlə, məfhumların məzmununu mənimsəmək üçün şagirdlər müəyyən biliklər əldə etməli və yalnız bundan sonratəfəkkür "süzgəc"indən keçirməlidirlər. Ancaq bununla belə, onların məntiqi təfəkkürü inkişaf cəhətdən müvafiq səviyyədə olmalıdır.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 1989.

2. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı, 1967.
3. Həsənov A., Ağayev Ə. Pedaqogika (Dərslik), "Nasir " nəşriyyatı, 2007.
4. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası, Bakı, 1976.
5. Talıbov Y.R., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Bakı, 1993.

Особенности развития мышления у младших школьников

РЕЗЮМЕ

Различные процессы в психологическом развитии у детей начальной школы обеспечивают разные виды деятельности для детей: восприятие, память, мышление, мысль, воображение, речь. Самым важным из них является мышление. Только мышление может оказывать большее влияние, чем другие психические процессы. Данная статья посвящена мышлению и его особенностям развития.

The characteristics of intellection developmentat primary schoolchildren

SUMMARY

Different processes in the psychological development of primary school children provide different types of activities for children: perception, memory, thinking, thought, imagination, speech. Only thinking can have a greater effect than other mental processes The most important of these is intellection. This article is devoted to intellection and its developmental features.

Vahidzadə Səkinə Mətləb qızı
Elmi rəhbər: b/m., p.ü.f.d. Mənsurə İsmayılova

PEDAQOJİ PROSESDƏ MÜƏLLİMİN İNNOVATİV FƏALİYYƏTİ

Açar sözlər: *innovasiya, innovativlik, innovativ müəllim*
Ключевые слова: *инновация, инновационный, инновационный педагог*
Key words: *innovation, innovative, innovative teacher*

İnnovativlik ümumi mənada yeniliklərə açıq olmaq deməkdir. İnnovativlik ayrılıqda müzakirə olunan bir anlayış deyil. Biz adətən innovasiya anlayışını bilik anlayışı ilə birlikdə müzakirə edirik. Bilik və innovasiya arasında qarşılıqlı əlaqə vardır. Bilik yeniliyin təməlini təşkil edir. İnnovativlik yuxarıdakı izahlar əhatəsində yeniliyə, dəyişimə, inkişafa açıq olmaq kimi izah oluna bilər. İnnovativlik iqtisadiyyatda, texnologiyada, tibb və təhsil sahələrində inkişaf üçün əvəzedilməzdir. Təhsil yolu ilə fərdlərin innovativlik bacarıqları və yeniliyə qarşı münasibətlərini inkişaf etdirmək mümkündür. İnnovativlik vasitəsilə də yeni və daha effektiv öyrətmə metodları və texnologiyaları yaratmaq olar.

Qloballaşan dünyada elm və texnologiyada meydana çıxan fərqlər, fərd və cəmiyyətin tələb və ehtiyacların dəyişməsi innovativ fəaliyyət, yenilik tələb edir. Yeni bir fikrin, yeni bir məhsulun meydana çıxmağında ən vacib amil fərddir. Bu mənada yenilikləri meydana çıxaran şəxsin təhsili də vacib rol oynayır. Yeni fikri, yeni məhsulu iqtisadi, cəmiyyət üçün əhəmiyyətli bir şeyə çevirəcək şəxslərin yetişdirilməsi təhsil sistemimizin əsas məqsədlərindən biridir. Bu vəzifəni həyata keçirmək işi təhsil sisteminin bələdçisi, fasilitatoru olan müəllimlərin üzərinə düşür.

Son dövrlərdəki müşahidələr XXI əsr müəllimlərinin yeniliyə münasibətlərinin yüksək səviyyədə olduğunu göstərir. Müəllimlərin innovativ fəaliyyət səviyyələri cins, yaş, ailə vəziyyəti, təhsil səviyyəsi, təhsil müəssisəsindəki işləmə müddəti, xarici dil bilmə səviyyəsi ilə ölçülmür. Bu fərqlər adətən özünü pedaqoji iş təcrübəsi və mütaliə etmə vəziyyətinə əsasən görülür. Müəllimlik peşəsinə yeni başlayan gənc müəllimlərin uzun illər bu sahədə təcrübəsi olan müəllimlər ilə müqayisədə yeniliyə daha açıq olduqlarını görürük.

Təhsil sisteminin ən təməl iştirakçısı olan müəllimlər pedaqoji prosesi istiqamətləndirən əsas amildir. Cəmiyyətin inkişafında əsas rol sahibinin müəllimlik peşəsi olduğunu rahatlıqla deyə bilərik.

Ümumitəhsil pilləsinin ilk səviyyəsi olan ibtidai təhsili təhsil sisteminin təməlini təşkil edən əsas amil hesab edə, ibtidai sinif müəllimlərini cəmiyyətimizin təməl daşlarını müəyyən bir ahəng içərisində düzən mühəndislərə bənzədə bilərik. Düzgün təməllərə dayanan sağlam bir cəmiyyətə sahib ola bilmək üçün, səriştəli sinif müəllimləri yetişdirmək üçün təhsil sistemimizi təşkil edən hər bir komponentin davamlı izlənilməsi, qiymətləndirilməsi həm bugünkü, həm də gələcəkdəki təhsilimizin inkişafında mühüm rol oynayır. Bu cəhətdən sinif müəllimlərinin də daim özlərini yeniləmələri, yeniliyi izləməli və qəbul etməli, onlardan təhsil sistemimizə uyğun gələnləri öz işinə inteqrasiya etdirməlidir.

Müəllimin innovativ fəaliyyəti təkcə şagirdlərin deyil, həmin müəllimin işlədiyi təhsil müəssisəsinin də inkişaf etməsinə kömək olur. Ancaq, bildiyimiz kimi fərdin davranışı, fəaliyyəti özünə təsir etməklə qalmır, onun içində olduğu mühitə də müsbət və ya mənfi olmaqla təsir edir. İnsanların baş verən hadisələri mənimsəmələri bir-birindən fərqli və mürəkkəbdir. İnnovasiya daim etibarlılığı davam edən bir proses olub. Hər insan yaradılışında fərdi fərqliliklərlə dünyaya göz açır və xarakter formalaşması ilə birlikdə yeni fərqliliklər də özünü göstərir. İnsanlar arasındakı bu fərqlər onların ehtiyac və maraqlarını müəyyən etdiyi kimi yeniliyə münasibətlərini də müəyyən edir. Yəni, bəzən müəllimin hər hansı bir mövzuda innovativ fəaliyyəti şagirdin maraqlarına cavab vermədiyi üçün onun təhsilinə müsbət təsir göstərməyə bilər. Bu baxımdan müəllim şagirdlərinin fərdi xüsusiyyətlərini nəzərə almalı, öz fəaliyyətinin uğurlu nəticələnməsi üçün işini şagirdlərin ehtiyac və maraqlarına uyğun şəkildə qurmalıdır.

Dövrümüzdə mövcud olan təhsil müəssisələri dövlət tərəfindən təhsilə verilən tələblərə, standartlara çatmaq üçün səmərəli fəaliyyət planı yaratmalıdır. Təhsilin qarşısında duran məqsədlərə çatmaq üçün bəzi faktorlara ehtiyac vardır. Bu faktorlar içində ən önəmli olanın insan olduğunu asanlıqla deyə bilərik. İnsan əlçatanlığı asan, lakin anlamaq və yönləndirməyin çətin olduğu bir neçə faktoru özündə birləşdirən bir varlıqdır. Bu səbəbdən təhsil, təlim, tərbiyə proseslərinin mərkəzində insan faktoru durur. Bu proseslər hər bir insanı ahəngdar inkişaf etdirməyə səy göstərir. Bu məqsədləri də yerinə yetirmək kimi mürəkkəb və məsuliyyətli iş müəllimlərin üzərinə düşür. Qarşıya qoyulmuş məqsədə çatmaq, hərtərəfli inkişafa malik insan yetişdirmək müəyyən qədər də innovasiyaya yönləndirmə ilə əlaqədardır.

Müəllimin innovasiya anlayışı və innovativ fəaliyyəti məktəbin yenilikləri mənimsəməsi və təhsildəki innovasiyaların nə dərəcədə uğurlu olmasından asılıdır. Müəllimin özünüinkişaf səviyyəsi təhsildə meydana çıxan yeniliklərə necə reaksiyalar verməsi ilə ölçülür. Müəllim təhsilin keyfiyyətini artıran ən vacib faktordur.

Dünya təhsil sistemlərini nəzərdən keçirdikdə təhsil, təlim sistemlərinin keyfiyyəti bu sistemlərin özlərinin düzgün qurulması ilə birlikdə müəllimin səriştəli mütəxəssis olması ilə əlaqədardır. Müəllim yeniliklərə, texnologiyaya, əməkdaşlığa, öyrənməyə hər zaman açıq olmalıdır.

Ədəbiyyat

1. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası: Monoqrafiya. Bakı: Elm, 2010.
2. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı- “Elm və təhsil”-2020.
3. Uluslararası sosyal araştırmalar dergisi.Cilt 13, sayı 70, Nisan 2020.
4. Yenilikçi öğretmen özellikleri: bir ölçek geliştirme çalışması. Uşak Universitesi Eğitim Araştırmaları Dergisi, 2018.

Педагог-новатор в педагогическом процессе

РЕЗЮМЕ

Таким образом, успех нововведений в образовании во многом зависит от поведения и понимания учителя. Важнейшим фактором повышения качества образования и

обучения является учитель. Подготовка учителей напрямую влияет на образование и качество образования. Поскольку существует взаимосвязь между успеваемостью учителя и успеваемостью ученика, тот факт, что учитель является хорошим специалистом, положительно влияет на достижения ученика. Использование учителем новых инновационных методов повышает ответственность ученика за обучение.

Innovative teacher in the pedagogical process
SUMMARY

Thus, the success of innovations in education depends largely on the behavior and understanding of the teacher. The most important factor in improving the quality of education and training is the teacher. Teacher training has a direct impact on education and the quality of education. Since there is a correlation between the teacher's performance and the student's learning achievements, the fact that the teacher is a good specialist has a positive effect on the student's achievements. The teacher's use of new, innovative methods increases the student's responsibility for learning.

Vahidzadə Səkinə Mətləb qızı
Elmi rəhbər: b/m., p.ü.f.d. MənsurəİsmayılOva

PEDAQOJİ SİSTEMDƏ İNNOVASİYA ANLAYIŞI

Açar sözlər: *innovasiya, yenilik, təhsildə innovasiya, pedaqoji innovasiya*
Ключевые слова: *инновации, инновации в образовании, педагогические инновации*
Key words: *innovation, innovation in education, pedagogical innovation*

Sürətlə dəyişən dünyada cəmiyyətdə baş verən dəyişikliklər təhsil sahəsindən yan keçmir, təhsilin yenidən təşkilinə, cəmiyyətin ehtiyac və tələblərinə uyğun hala salınmasına ehtiyac yaradır. Təhsilin yenidən təşkil edilməsi kəmiyyət əsaslı deyil, keyfiyyət əsaslı olmalıdır.

Hər bir müstəqil dövlət üçün təhsil siyasəti önəmli yer tutur. Dövlətlər gələcəkləri, rifahları naminə cəmiyyətdə təhsilli şəxslərin, səriştəli, ixtisaslaşmış mütəxəssislərin çoxluğuna önəm verir, təhsilin hər bir pilləsinin, bu pillələri təşkil edən hər bir səviyyənin yeniləndirilməsi, təkmilləşdirilməsinin qayğısına qalır. Təhsilindən razı qalan millət inkişafından geri qalır. (1)

Ölkəmiz dünyada baş verən qloballaşma prosesindən kənarda qalmamış, əhalinin, məlumatların, kapitalın dünya səviyyəsində dəyişməsinə təsir göstərmişdir. Qloballaşma bütün fəaliyyət sahələrinə, o cümlədən, təhsilə təsir göstərir. Dövrümüzdə qlobbaşmanın təhsil sahəsinə təsirləri nəticəsində Vahid İnformasiya Təhsil Məkanı yaranır. Gələcəkdə müasir tələbləri qarşılamayan təhsil sistemləri mövcud rəqabətə davam gətirə bilməyib, yerini transmilli təhsil sistemlərinə verəcəklər. Qloballaşma üçün əsas səbəb yeniliklər, müasir informasiya texnologiyalarının meydana çıxması və tədricən yayılmasıdır.

İstər təhsil sahəsində, istərsə digər sahələrdə yeniliklərdən bəhs edərkən tez-tez innovasiya anlayışına rast gəlirik. “İnnovasiya” sözü latın sözü olub, “innovato” sözündən yaranmışdır. Yenilik, yaxşılaşma mənalarını verir. Termin kimi ilk dəfə XIX əsrdə işlənməyə başlamışdır. Bu termin əvvəllər iqtisadiyyat sahəsi ilməlaqədar olub, iqtisadi innovasiya kimi işlənirdi. XX əsrin əvvəlində Avstriya iqtisadçısı Yozef Şumpeterin “The Theory of Economic Development” (1934) - İqtisadi İnkişaf Nəzəriyyəsi əsərində işlənən termin sonra digər elm sahələrinə sirayət etdi. İnnovasiya hər hansı bir prosesə səmərəli yeniliyin tətbiq edilməsi,yeni kəşf və ixtiraların nəticəsidir. İnnovasiya deyəndə təlim, tərbiyə prosesləri və bu proseslərin gedişi və nəticələrini yaxşılaşdırmaq məqsədi ilə yerinə yetirilən yenilik nəzərdə tutulur. Pedaqoji innovasiyalar pedaqoji prosesin daxili ehtiyatları hesabına baş verir.

Yəni pedaqoji prosesə daxil olan hər şeyə innovasiya deyə bilmərik. İnnovasiya pedaqoji prosesdə tam halda olan ideyalar, proses, vasitə və nəticələrdir. Pedaqoji sistemdə innovasiya çox əhəmiyyətli və aktual bir mövzudur. İnnovasiyalar düzgün, hərtərəfli təhlil olunmalıdır. Son illərdə təhsil prosesində bir sıra dəyişikliklər nəzərə çarpır. Ölkəmizdə təhsilin yeni hüquqi-normativ bazası müəyyən olunmuş, yeni məktəblər istifadəyə verilmiş, təhsildə dövlət standartları, qiymətləndirmə mexanizmləri yaradılmışdır.

Pedaqoji proses pedaqoji sistemdə baş verir. Pedaqoji sistem ona daxil olan komponentlərin vahidliyidir. Əgər həmin komponentlərin vahidliyi lazım olan limiti aşarsa, sistem dağılaraq yerini yeni komponentləri olan başqa bir sistemə verər. İstənilən bir pedaqoji prosesin tərkibi qarşılıqlı əlaqədə olan komponentlərin cəmindən təşkil olunur. Bu komponentlərə daxildir:

1) Təhsilalanlar;
2) Təlim və tərbiyənin məzmunu və məqsədləri;
3) Təhsilverənlər;
4) Təlim, təhsil-tərbiyə prosesləri;
5) Təhsilverənlər;
6) Təlimdə istifadə olunan metodlar;
7) Təlim və təhsil-tərbiyənin təşkili formaları. (2)

Bu komponentlərin hər biri bir-biri ilə qarşılıqlı əlaqədədir və prosesin gedişi, nəticəsi bu əlaqə və qarşılıqlı fəaliyyətin necəliyindən asılıdır. Əlbəttə, pedaqoji sistemin uğurlu olması üçün bir əsas da bu prosesdə istifadə olunan texnologiyalardır. Texnologiyanın doğru tətbiqi özü ilə birlikdə keyfiyyəti də gətirir.

Pedaqoji sistemin inkişafı intensiv və ekstensiv olmaqla iki yolla baş verir. İntensiv təkmilləşmə fransız sözü olan "intensif" sözündən alınmışdır. Bu sözgüclənmək, məhsuldarlığı artırmaq mənalarını verir. Ekstensiv yol isə latınca uzatmaq, genişlənmək mənalarını verən "extensivus" sözündən götürülmüşdür. İntensiv yolla inkişaf deyəndə pedaqoji sistemin öz daxili ehtiyatı hesabına inkişaf etməsi başa düşülür. Ekstensiv yol isəəksinə inkişaf üçün xarici qüvvələrin, yeni metod və vasitələrin istifadəsi nəticəsində baş verir.

Şərq və Qərb pedaqoji sistemini müqayisə etsək deyə bilərik ki, Avropada məktəb ekstensiv inkişaf yolu ilə təkmilləşir. Qərb məktəbi pedaqoji prosesin bir çox sahələrində yenidənqurmalar aparır. Məsələn, bəzən vaxt bölgüsü yenidən qurulur, təlimdə differensiallaşma prinsipi əsas götürülür. Bu zaman qarşıya belə bir sual çıxır "bu tədbirlər pedaqoji sistemin keyfiyyətini qaldırırmı?" Ancaq bu sualın tam, dolğun cavabı hələlik yoxdur. Pedaqoq və ekspertlər hələ ki bu mövzuya şübhə ilə yanaşırlar.

Bəzən pedaqoji sistemdə intensiv və ekstensiv innovasiyaların inteqrasiyasına da rast gəlinir. Bu inteqrasiya tələb edir ki, inkişafa səbəb olacaq ehtiyatlar tədqiq olunmalıdır. Pedaqoji prosesin keyfiyyətini daxili və xarici ehtiyatların birlikdə tətbiqi yaxşılaşdıra bilər.

Ədəbiyyat

1. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası: Monoqrafiya. Bakı: Elm, 2010.
2. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı,"Elm və təhsil"-2020.
3. Uluslararası sosyal araştırmalar dergisi.Cilt 13, sayı 70, Nisan 2020.

РЕЗЮМЕ

Основная цель применения инноваций - стимулировать обучение в учебном процессе. Вызвать интерес к обучению; увеличить объем материала, который необходимо усвоить учителям на уроках; увеличить скорость обучения, минимизировать потерю времени и т.д. Из-за того, что не удается найти новые методы решения этих задач, специалисты часто критикуют традиционную педагогику и считают более целесообразным создание новой, современной науки для решения проблем.

SUMMARY

The main purpose of the application of innovations is to stimulate learning in the educational process, ie to arouse interest in learning; to increase the amount of material to be mastered by teachers in the classroom; increase the speed of training;minimize time loss. Because of the failure to find new methods to solve these problems, experts often criticize traditional pedagogy, and consider it more expedient to create a new, modern science to solve problems.

Hüseynli Səadət Rəhbər qızı
İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, I kurs magistrantı
Elmi rəhbər: dos. S.C.Tağıyeva

İBTIDAİ SİNİFLƏRDƏ ÖYRƏDİLƏN HƏNDƏSİ FİQURLAR, TƏSVİRLƏRİ VƏ XASSƏLƏRİ

Açar sözlər*: ibtidai sinif, həndəsi fiqurlar, forma, xassə, metod, təsvir.*
Ключевые слова: *начальная школа, геометрические фигуры, форма, свойство, метод, описанный*
Key words*: primary school, geometric figures, shape, property, method, description*

İbtidai sinifdə tədris olunan riyaziyyat fənninin "Həndəsə" bölməsi özünəməsus xüsusiyyətlərinə görə çox fərqlənir. Çünki, şagirdlər ətraf aləmdə müşahidə etdikləri konkret obyektləri mücərrədləşdirməyi və müvafiq şəkildə düşünməyi bacarmalıdırlar. Ənənəvi ibtidai məktəb tədrisin riyaziyyat fənninin hər pilləsində həndəsi fiqurlara həsr olunmuş bölmə mövcuddur. İbtidai sinif riyaziyyat fənnində həndəsi məzmunun öyrənilməsinin əsas vəzifələrindən biri də şagirdin məkan təsəvvürünün inkişafı, müşahidə, müqayisə, ümumiləşdirmə, təhlil və mücərrəd etmə qabiliyyətidir. İkinci vacib vəzifə şagirdin həndəsi formaları bir pərgar və günyə istifadə edərək ölçmə və qurma praktik bacarıqlarını inkişaf etdirməkdir [2]. İbtidai siniflərdə riyaziyyat fənnində tədris olunan həndəsi fiqurlar bunlardır: xəttlər, bucaqlar, düzbucaqlı, üçbucaqlı, dördbucaqlı, kvadrat, çevrə, dairə və s.

İbtidai təhsilin ilkin mərhələsində, yəni 1-ci sinif şagirdlərinə riyaziyyat fənninin tədrisi zamanı üçbucaq, dairə, kvadrat, düzbucaqlı tədris olunur. Şagirdlərə adıçəkilən fiqurların tərəfləri və təpələri öyrədilir. Tapşırıqlarla isə şagirdlərpraktiki olaraq fiqurların formasına uyğun əşyaları tapmaqla, həndəsi fiqurlar barədə öyrənirlər.

Üçbucaq 3 tərəfi və 3 təpəsi olan həndəsi fiqurdur:



Düzbucaqlının qarşı tərəfləri bərabərdir, onun 4 tərəfi və 4 təpəsi olur:



Bütün tərəfləri bərabər olan düzbucaqlıya kvadrat deyilir. Kvadratın da 4 tərəfi və 4 təpəsi olur:

1-ci sinifdə şagirdlərə dairə təpəsi olmayan həndəsi fiqur kimi izah olunur:



Eyni zamanda 1-ci sinifdə şagirdlərə fəza fiqurları olan konus, kürə, kub, kuboid, silindr və s. ilə bağlı tapşırıqlarla fiqurların formasına uyğun əşyaları tapmaqla, fiqurlar barədə məlumat verilir,



2-ci sinifdə şagirdlərə bucaqlar tədris olunur. Bucaq iki şüa və bir təpəyə sahib olan həndəsi formadır. Şagirdlərə bucağın düz, iti və kor növü öyrədilir. İti bucaq düz bucaqdan kiçik, kor bucaq isə düz bucaqdan böyükdür. Habelə, bucaqların təpələri və tərəfləri izah olunur.



Düz bucaq **İti bucaq** **Kor bucaq**

Eyni zamanda, 2-ci sinifdə şagirdlərə həndəsi fiqurların üzünün, təpəsinin və tilinin necə müəyyən olunması izah olunur və tapşırıqlarla əldə olunan biliklər təkmilləşir.

3-cü sinif şagirdlərinə düz xətt, parça və şüa tədris olunur. Düz xətt, başlanğıcı və sonu olmayan, hər iki tərəfə sonsuz uzanan xəttdir:

Parça isə düz xəttin bir hissəsi olaraq, başlanğıcı və sonu vardır:

Şüanın isə başlanğıc nöqtəsi olur və bir istiqamətdə sonsuz uzanır:

Habelə, 3-cü sinifdə şagirdlərə parallel düz xəttlər (parallel düz xətlər kəsişmir), perpendikulyar düz xəttlər (iki düz xətt kəsişdikdə, bucaq əmələ gəlirsə, bu xətlər perpendikulyar düz xəttlərdir) haqqında məlumatlar tədris edilir.

Tərəfləri düz xətt parçalarından ibarət olan həndəsi fiqurlara çoxbucaqlı deyilir. Onlar bucaqlarının sayı ilə adlandırırlar. Çoxbucaqlının tərəflərinin və bucaqlarının sayı bərabər olur.



Çoxbucaqlının 3 tərəfi və 3 bucağı var.

Çoxbucaqlının perimetri bütün tərəflərinin uzunluqlarının cəminə bərabərdir. Nümunədəki çoxbucaqlının perimetrini hesablayaq (rəqəmlər şərti olaraq götürülüb): 3sm+5sm+6sm=14 sm.

3-cü sinif riyaziyyat fənnində 1-ci sinifdə tədris olunan üçbucaqlı və dördbucaqlı haqqında daha geniş məlumat verilir. Burada bütün tərəflərinin uzunluğu müxtəlif olan müxtəliftərəfli üçbucaq, bütün tərəflərinin uzunluğu bərabər olan bərabərtərəfli üçbucaq, iki tərəfinin uzunluğu bərabər olan bərabəryanlı üçbucaq və bucaqlarından biri düz bucaq olan düzbucaqlı üçbucaq haqqında məlumat verilir. Dördbucaqlılar, yəni düzbucaqlı, kvadrat, romb, paraleloqram və trapesiya haqqında ətraflı məlumatlar izah edilir.Habelə, fəza fiqurlarının təpələri (tillərin kəsişdiyi nöqtə) və tilləri (iki üzün kəsişdiyi xətt), onların açılışı tədris olunur.

4-cü sinifdə şagirdlərə bucağın işarəsi "∠" və (°) ilə ölçülməsi tədris olunur. Bucaq yalnız təpə nöqtəsini göstərən hərflə adlandırılır. Transportirdən bucaqları ölçmək və qurmaq üçün istifadə edilir.

Eyni zaman dadördbucaqlıların, yəni düzbucaqlı, kvadrat, romb, paraleloqram və trapesiyanın tərəfləri, təpələri və bucaqları izah olunur. Məsələn:



Düzbucaqlının tərəfləri: KL, FM, LF, MK.

Düzbucaqlının təpələri: K,L,F,M.

Şagirdlərə 4-cü sinifdə üçbucaqlının tərəfləri, təpələri və bucaqları izah olunur. Məsələn:



Üçbucağın tərəfləri: EF, FG, EG.

Üçbucağın təpələri: E, F, G.

4-cü sinifdə isə çevrə və dairə haqqında daha ətraflı tədris olunur. Çevrənin bütün nöqtələri mərkəz adlanan nöqtədən eyni məsafədədir və o pərgarın köməyi ilə çəkilir. Çevrənin mərkəzini onun istənilən nöqtəsi ilə birləşdirən düz xəttəradius, çevrənin istənilən iki nöqtəsini birləşdirən düz xəttə vətər, çevrənin mərkəzindən keçməklə onun istənilən iki nöqtəsini birləşdirən düz xətt diametr deyilir.

Habelə, 4-cü sinifdə şagirdlərə fiqruların hərəkətləri dönmə, əksetmə, sürüşmə öyrədilir. Fiquru nər hansı bir nöqtəsini tərpənməz saxlamaqla bu nöqtəətrafında döndərərək yerini dəyişmək mümkündür. Düz xəttə nəzərənfiquruəksetdirməklə yerini dəyişmək olar.Fiquru düz xətt boyunca istənilən istiqamətəsürüşdürməklə də yerini dəyişmək olur. Bu hərəkətləri icra etməklə fiqurlardan müxtəlif kompozisiyalar yaratmaq olar.

İbtidai siniflərdə riyaziyyat fənninin proqramına daxil edilmiş və diqqətlə seçilmiş tapşırıqlar sistemində həyata keçirilən həndəsi materialın xüsusi məzmunu kifayət qədər tam həndəsi təsvirlər sisteminin (həndəsi fiqurların şəkilləri, elementləri, fiqurlar arasındakı münasibətlər, elementlər daxil olmaqla) formalaşmasına yönəldilmişdir. Bu əsasda şagirdlərin məkan təmsilçiliyi və təxəyyülü formalaşır, onların nitqi və düşüncəsi inkişaf edir, vacib praktik vərdişlər formalaşdırmaq üçün məqsədyönlü iş təşkil olunur [1].

Ədəbiyyat

1. M.Ə.Alışov. Həndəsi biliklərin bünövrəsi ibtidai siniflərdə qoyulur, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" Bakı, ARTNARTPİ 2007-ci il, №1

2. M.Ə.Alışov. Həndəsənin hazırlıq kursunun tədrisi problemləri və onların həlli yolları, Bakı "Elm" 2009-cu il, Monoqrafiya

3. Аргунов Б.И., Балк М.Б., 1) Элементарная геометрия, «Просвещение», М., 1966; 2) Геометрические построения на плоскости, М., 1957.

4. 70. Балк Г.Д., О применении эвристических приемов в школьномпреподавании математики, Мвш, 1969, №5.

Геометрические фигуры преподают в начальной школе, описания и свойства

РЕЗЮМЕ

Особое содержание геометрического материала, включенного в программу обучения математике в начальной школе и реализованного в системе тщательно подобранных заданий, направлено на формирование достаточно полной системы геометрических представлений (включая изображения геометрических фигур, элементов, взаимосвязей между фигурами, элементами). На этой основе формируются пространственное представление и воображение учащихся, развиваются их речь и мышление, организуется целенаправленная работа по формированию важных практических навыков.

Geometric figures taught in primary school, descriptions and properties

SUMMARY

The special content of geometric material included in the curriculum of mathematics in primary school and implemented in a system of carefully selected tasks is aimed at forming a fairly complete system of geometric representations (including images of geometric figures, elements, relationships between figures, elements).On this basis, students' spatial representation and imagination are formed, their speech and thinking develop, and purposeful work is organized to form important practical skills.

Quliyeva Nərminə
İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı
Elmi rəhbər: Dos.Balaşov Q.Q.

MƏNTİQİ ÇALIŞMALAR VƏ DİDAKTİK OYUNLAR VASİTƏSİLƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ MƏNTİQİ RİYAZİ TƏFƏKKÜRÜN İNİKŞAF ETDİRİLMƏSİ

Açar sözlər: *məntiq,məntiqi təfəkkür,didaktik oyunlar,elmilik prinsipi*

Ключевые слова: *логика, логическое мышление, дидактические игры, научный принцип*

Key words: *logic,logical thinking,didactic games,scientific principle*

Məntiqi riyazi təfəkkürün formalaşmasında mühakimə və dərketmə qabiliyyətlərinin yüksəlməsində riyaziyyatın müstəsna rolu vardır. Riyazi məntiq çalışmalar şagirdlərin məntiqi cəhətdən mühakimə yürütmək, məsələlərdən qabaqcadan anlaşıqlı olmaq və onların riyazi qavrama qabiliyyətlərini tam şəkildə inkişaf etdirir. Məntiqi riyaziyyat ibtidai sinif şagirdlərinin bir şəxsiyyət kimi formalaşmasına güclü təsir edən bir xarakterin, mənəvi keyfiyyətlərin formalaşmasında mühüm rol oynayır. İbtidai sinif şagirdlərinin riyazi hazırlığının gücləndirilməsi ilə yanaşı onların riyazi təfəkkürünün inkişaf etdirilməsi də riyaziyyat fənn kurikulumunun qarşısında duran əsas vəzifələrindən biri sayılır. İbtidai sinif riyaziyyat dərs prossesinin

effektli və səmərəli olmasında riyazi məsələlərin əyləncəli üsullardan istifadə etməklə həlli, həmçinin qoyulan riyazi problemləri qrup halında araşdırmaq, müstəqil fikir söyləmək, dərin düşünmək və azad fikirləşmək imkanı əldə olunmalıdır. Şagirdlərin riyaziyyat dərsinəolan marağını artırmaq üçün nəinki düzgün, habelə maraqlı dərslər təşkil etmək olduqca faydalıdır. Riyazi və didaktik oyunlar elə bir təlim növüdür ki, burada ibtidai sinif şagirdləri fəal və yaradıcı şəkildə cəmiyyətin davranış qaydalarını və normalarını, insanların əməyə, ictimai əmlaka münasibətini, insanlar arasında qarşılıqlı münasibətləri dərindən öyrənirlər.

Böyük pedaqoq alim K.D.Uşinskinin fikrinə görə uşaqların ümumi və psixi sağlamlığını müəyyən etmək üçün onların müxtəlif oyun növlərinin müşahidə edilməsi olduqca əhəmiyyətlidir. Didaktik oyunlar əsasən 3 yerə ayrılır: oyuncaqla (müxtəlif əşya) ilə oynanan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cüt şəkilli kart) oyunlar.Məntiqi didaktik oyunlardan istifadə etmək ibtidai sinif şagirdlərində yaddaş, diqqət və məntiqi təfəkkürün inkişafına böyük köməklik göstərir. Rollu oyunlar oynayarkən şagirdlər hər hansı bir obrazı canlandırır, öz təəssüratlarını üzə çıxarırlar. İbtidai sinif şagirdləririyazi didaktik oyunlar zamanı müxtəlif növ rolları yerinə yetirərkən müxtəlif məntiqi fəaliyyətlərin bütün aspektlərini əhatə etməyə çalışırlar ki, bu da öz növbəsində onların məntiqi düşüncə qabiliyyətlərini inkişaf etdirməyə, başqa şagird yoldaşlarının fikrini qəbul etməyə köməklik edir. Didaktik və məntiqi riyazi oyunların müxtəlifliyi ibtidai sinif şagirdləri üçün daha maraqlı və geniş imkanlar yaradır. Bilirik ki, əsasən:

• didaktik oyunlardan riyaziyyat və ana dili;
• rollu oyunlardan ana dili, həyat bilgisi və tarix;
• mütəhərrik oyunlardan fiziki tərbiyə və həyat bilgisi fənlərində geniş istifadə edilir.

Riyaziyyatın tədrisindədidaktikanın elmilikprinsipi əsas və mühüm yer tutur.Burada, əsasən şagirdlərdə empirik təfəkkürün inkişafı nəzərdə tutulur ki, bu da şagirdlərdə ümumi intellektual bacarıqlarının: analiz, sintez, ümumiləşdirmə, xüsusiləşdirmə və s. formalaşdırılması zəruriyyəti kəsb edir və daha çox problemin (oyunla baglı)dərk olunmasına yardımçı olur. Riyaziyyatın tədrisi metodikası fənninin tədrisi zamanı biz öyrəndiyimiz bu və ya digər riyazi anlayışları, qanun vəqanunauyğunluqlarıvə s. şagirdlərə mükəmməl öyrətməyə çalışırıq. Riyaziyyatın tədrisi metodikası bir çox elmi sahələrlə əlaqədardır ki, onlardan aşağıdakıları qeyd etmək olar: azərbaycan dili, fizika, biologiya, həyat bilgisi və s. Riyazi məntiq elmi ibtidai sinif şagirdlərinin məntiqi təfəkkürünü,onların yaddaşını, diqqətini, təxəyyülünü, müşahidəçiliyini, iradəsini müstəqilliyini və s. inkişaf etdirir.İlkin mərhələ kimi riyazi məntiqi təfəkkürün inkişafı zamanı şagirdlərdə sadə riyazi təsəvvürlərin formalaşdırılması başlanğıc pillə kimi əsas yer tutur. İnkişaf etdirici tapşırıqlarvə didaktik oyunlar şagirdlərin məntiqi təfəkkürünün inkişafına olduqca müsbət təsiredir. Burada şagirdlər zaman, məkan,ölçü, forma, miqdar, rəqəmlər və hesablama kimi biliklərə yiyəlnirlər. Riyazi məntiqi çalışmalar (oyunlar) riyaziyyatın şüurluluq və fəallıq, sistemlilik və ardıcıllıq prinsiplərini özündə tam əks etdirir. Bu məqsədlə sadə məntiqi çalışmalardan ilkin mərhələ kimi istifadə etmək olduqca faydalıdır. Şagirdlərdə məntiqi təfəkkürün inkişaf etdirilməsi üçün riyaziyyatın tədrisində çalışmalar (oyunlar) şagirdlərin yaş və psixoloji səviyyələrinə uyğun seçilməlidir. Onlar ibtidai sinif şagirdlərində riyaziyyat təlimində lazımi bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə böyük imkanlar yaradır. İbtidai siniflərdə müasir riyazi təlim vasitələrinin əsasını məntiq, intellektual oyunlar və fənlərarası əlaqə (inteqrasiya) təşkil edir. Riyazi məntiqi oyunlar və çalışmalar inteqrativliyi tam təmin edir, ibtidai sinif şagirdlərinin real həyatla əlaqəsini gücləndirir və şagird təxəyyülünün inkişafını sürətləndirir. Müasir əyani vasitələr əsasında qurulan ibtidai sinif riyaziyyat dərsləri öz rəngarəngliyi ilə seçilir. İbtidai məktəb şagird təfəkkürünün inkişafında müxtəlif növ məntiqi çalışmalar və oyunların xüsusi rolu və əhəmiyyəti vardır, Bu riyazi və məntiqi çalışmaların (oyunların) inteqrativliyini təmin edir və onların real həyatla əlaqəsini gücləndirir.

Ədəbiyyat

1. Cəbrayılov İ. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Bakı, 2011.
2. Riyaziyyatın tədrisi metodikası (xüsusi metodika). I hissə (dərs vəsaiti). Bakı: "Tİ-MEDİA" şirkətinin mətbəəsi, 2008
3.Əhmədovİ.Q.,Adıgözəlov.A,S.İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi mtodikası, Bakı-2001,
4.HəmidovS.S.,MəcidovaA.Ə.Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası, Bakı-ADPU-2016.

İnternet resursları:

1.http://www.tipii.edu.az/noduploads/document/riyaziyyat-fanninin-oyunlar-vasitasila-tadrisi-metodik-vasait.pdf
2.http://anl.az/el/q/qe_rtu.pdf
3.https://www.muallim.edu.az/news.php?id=694
4.http://riyaziyyatportali.blogspot.com/2015/10/riyaziyyat-drslrind-ylncli-msllrdn.html
5.http://lsu.edu.az/new/imgg/konfrans%202018,%2021%20dekabr.pdf
6.https://www.muallim.edu.az/news.php?id=3828
7.http://azedu.az/az/news/17213
8.https://www.researchgate.net/profile/Rahil_Najafov3/publication/338482919_The_ways_of_forming_student%27s_personality_in_teaching/links/5e171c364585159aa4c07778/The-ways-of-forming-students-personality-in-teaching.pdf

SUMMARY

The article deals with the development of logical thinking, the development of students' thinking skills and intellectual levels, the formation of more meaningful, detailed knowledge and skills, independent thinking. The logic is that everyone should be able to think correctly and draw smart conclusions. To think is to argue within itself. The answers to the questions are the logic itself. By creating cognitive activity in students, the teacher serves to improve motivation, correctly chosen teaching methods, working styles, as well as logic and thinking.Mathematics has a special role in the formation of student personality.It is considered an indispensable tool for intellectual development in education.Logic serves to improve students' thinking, increase their thinking skills and intellectual levels, create more meaningful and detailed knowledge and skills, and independent thinking.

Quliyeva Nərminə
İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs tələbəsi
Elmi rəhbər: dos.Balaşov Q.Q.

MƏNTİQİ RİYAZİ TƏFƏKKÜRÜN MƏZMUNU VƏ MAHİYYƏTİ HAQQINDA

Açar sözlər: *məntiq, məntiqi təfəkkür, idrak fəallığı, formal məntiq*
Ключевые слова: *логика, логическое мышление, познавательная деятельность, формальная логика*
Key words: *logic, logical thinking, cognitive activity, formal logic*

İbtidai sinif şagirdlərinin bir şəxsiyyət kimi formalaşmasında və inkişafında məntiqi riyazi təfəkkürün çox mühüm rolu vardır. Məntiqi riyazi təfəkkür insanlara bütün sahələrdə yardımçı olur. Məntiqi riyazi təfəkkür şagirdlərin elmi biliklərə dərindən və tam şəkildə yiyələnməsində mühüm rol oynayır. Məntiq şagirdlərin düşünmə qabiliyyətini və intellektual səviyyəsini yüksəltməyə olduqca böyük köməklik göstərir, onların bilik, bacarıq və vərdişlərinin daha məzmunlu və ətraflı formalaşmasına xidmət etmiş olur.Motivasiya, riyaziyyatdan öyrədiləcək mövzuya uyğun düzgün seçilmiş təlim üsullar və vasitələri, riyazi iş formaları özü

də məntiqi təfəkkürün inkişafına xeyli dərəcədə köməklik edir. Bilirik ki,məntiq insan təfəkkürü və onun inkişafı haqqında bir elmdir. Bu elmin yaradıcısı və banisi məşhur yunan filosofu Aristotel olmuşdur. Aristotel yaratdığı məntiq elmini "loqika" adlandırmışdır. Eyni zamanda məntiq hər bir insanın düzgün düşünə bilməsi və ağıllı nəticələr çıxarmasıdır. Düşünmək, fikirləşmək özü-özlüyündə mübahisə etmək deməkdir. Verilən sualların düzgün cavabları məntiqin elə özüdür. Məntiq elmi şagirdlərin təfəkkürünü hərtərəfli inkişaf etdirir. Riyazi məntiq ibtidai sinif şagirdlərinin düşünmə qabiliyyətlərini və intellektual səviyyələrini yüksəltməyə, həmçinin onların bilik, bacarıq və vərdişlərinin daha məzmunlu, ətraflı formalaşmasına, onların müstəqil riyazi fikir yürütmələrinə xidmət edir. Məntiq həmçinin təfəkkürün forma və qanunlarını öyrənən bir fəlsəfi elmdir. Məntiqin predmeti təfəkkürün tarixən yaranmış forma və üsullarıdır ki, idrakın nəticələrinin həqiqiliyi də bunlardan çox aslıdır. Buradan bizə aydın olur ki, təfəkkürün idrakda rolunu açmaq, təfəkkürün formaları və qanunlarını, ona aid olan anlayışları izah etmək, məntiqin predmetini başa düşmək üçün bu elm öyrənmək bizə son dərəcə vacibdir. Təfəkkürün forma və qanunları, üsulları və prinsipləri məntiqin predmetini təşkil edir. Və onların vasitəsilə insanlar ətraf aləmdə baş verən ən mühüm hadisələrin yaranma səbəblərini öyrənə bilir və bu hadisələrin gələcək inkişafını hərtərəfli şəkildə izləyirlər. Bu səbəbdən təfəkkürü öyrənən və idrakın metodu kimi çıxış edən məntiq elmi fəlsəfənin mühüm bir tərəfi kimi çıxış edir. Təfəkkür anlayışı- mühakimə və əqli nəticə formalarında insan şüurunda ətraf aləmin əks etdirilməsi prosesidir. Təfəkkürün növləri bir-birindən idraki əhəmiyyətinə görə fərqlənirlər. Hafizədə mahiyyətcə ümumiləşdirmə səviyyəsinə və müxtəlif səviyyəli fikirlərin fərqləndirilməsinə görə təfəkkür növlərə ayrılır: praktik anlayışlar təfəkkürü, obrazlı təfəkkür, praktik əyani obrazlı təfəkkür, əyani - əməli təfəkkür ola bilir. Nəzəri təfəkkür, öz predmetinin qanunauyğunluqlarını açan yüksək bir təfəkkür növüdür. O verilmiş məsələnin həllini əvvəldən sona kimi hazır biliklərin hesabına fikrən yerinə yetirir. Nəzəri anlayışlar təfəkkürü isə elmi nəzəri tədqiqatlar üçün olduqca xarakterikdir. Onlar arasındakı fərq isə nisbidir. Nəzəri obrazlı təfəkkür, anlayışlar təfəkküründən obrazların istifadəsinə görə fərqlənirlər. Hər hansı təfəkkür az və çox dərəcədə əyani hissi obrazlarla qarışır.Anlayışlar və obraz - təsəvvürlər bu təfəkkür növündə ayrılmazdır. İnsan təsəvvürlərsiz ancaq anlayışlarla hissi əyanilikdən uzaq fikirləşə bilməz, o, həmçinin təkcə hissi-əyani obrazlarla, anlayışlarsız da fikirləşə bilməz. Təsəvvür və anlayışlar nəinki bir-biri ilə bağlıdır, həmçinin bir-birindən həmçinin fərqlidir. Vahid təfəkkür daxilində bir tərəfdən əyani, digər tərəfdən abstrakt nəzəri təfəkkürü bir-birindən fərqləndirirlər. Nəzəri anlayışlar və nəzəri obrazlı təfəkkür həmçinin yanaşı mövcuddurlar.Bu təfəkkür formaları biri digərini qarşılıqlı tamamlayır, qarşılıqlı əlaqədə olan varlığın müxtəlif tərəflərini aşkarlayırlar. Əyani obrazlı təfəkkür fikri proseslərlə fikirləşən insanın ətraf aləmi qavraması ilə birbaşa sıx bağlıdır və onsuz icra olunmur. İnsanlarfikri hiss və fikri proseslərlə gerçək aləmə bağlanırlar. Qısamüddətli və operativ hafizədə təmsil olunan obrazlar təfəkkür üçün olduqca zəruridir. Təfəkkürün bu növündən insan istifadə etdikdə o, bu zaman qavradığı cisim və hadisələrin, icra etmiş olduğu praktik işin surəti əsasında fikirləşir. Bağça yaşlı uşaqlarda təfəkkürün bu növü özünü açıq və tam şəkildə göstərir.Nəzəri obrazlı təfəkkür uzunmüddətli hafizədən əldə edilir və sonra dəyişir. Bu təfəkkür məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlara çox xasdır. Həmçinin praktik fəaliyyətlə məşğul olan yaşlı insanlara da bu təfəkkür növü xasdır. Formal məntiqi qanunlar dedikdə, ona müəyyən forma və məzmun verən fikrin(zehnin) elementləri arasındakı struktur məna əlaqələri nəzərdə tutulur ki, bunun vasitəsilə də fikrin məzmunu tam ifadə olunur.Təfəkkür forması praktik fəaliyyətdən kənara çıxa bilmir, o,həmin fəaliyyətin icrası prosesində baş verir. Bu cür təfəkkürü praktik təfəkkür də adlandırırlar. Bəşəriyyətin tarixi inkişafı prosesində ilk öncə əyani- əməli təfəkkür özünü göstərir. Üç yaşına qədər olan uşaqlarda da təfəkkür əsasən əyani-əməli xarakter daşıyır. Mücərrəd təfəkkür isə təfəkkürün ən yüksək inkişaf etmiş bir növüdür. Uşaqların məktəbyaşı dövründə ilk dəfə mücərrəd təfəkkür yaranır və inkişaf edir. Mücərrəd təfəkkür mücərrəd məvhumlar əsasında baş verir. Bu cür

təfəkkür növü eyni anda baş verir və inkişafın səviyyələri kimi özünü biruzə verir. Praktik təfəkkürün işi xüsusi konkret məsələ həllinə yönəldiyi halda, nəzəri təfəkkür isə ümumi qanunauyğunluqların həllinə istiqamətlənir. Təfəkkür insanların praktik fəaliyyəti prosesində həyata keçrilən gerçəklikdəki predmet və hadisələrin ümumiləşmiş, vasitəli, mücərrəd və məqsədə uyğun formada beynimizdə inikasıdır. Təfəkkürün məzmunu bizi əhatə edən reallıq haqqında bütün fikirlərimizin zənginliyidir, onun predmet və hadisələri barədə konkret biliklərdir. Təfəkkürün məntiqi forması isə fikirlərin strukturudur,o nun elementlərinin əlaqəsi üsuludur. Təfəkkür mühüm, zəruri, daxili, sabit və təkrar olunan əlaqə və münasibətlərin məcmuudur. Təfəkkür varlığın qanunauyğunluqlarının şüurumuzda ümumiləşmiş bir inikasıdır, başqa sözlə, insan beynində şəkli dəyişilmişvə düzəldilmiş dərkedici təfəkkürün ümumi prinsipləridir. Beləliklə, predmet və hadisələrin düzülüş və əlaqələri elə fikrin qayda və əlaqələrini müəyyən edir.

Ədəbiyyat

1. M.M.İsrafilov – "Məntiq kursu". Bakı, "Turan" nəşriyyatı 2001

2. Z.C. Hacıyev – "Məntiq". Bakı, "Təhsil" NPM, 2011

3.Riyaziyyatın tədrisi metodikası (xüsusimetodika). I hissə (dərs vəsaiti). Bakı: "TİMEDİA" şirkətinin mətbəəsi, 2008

İnternet resursları:

1.http://elibrary.bsu.az/kitablar/878.pdf

2.elibrary.bsu.az/books_80/N_47.pdf

3.http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=64

4.http://riyaziyyatportali.blogspot.com/2015/10/riyaziyyat-drslrind-ylncli-msllrdn.html

5.http://lsu.edu.az/new/imgg/konfrans%202018,%2021%20dekabr.pdf

6.https://www.muallim.edu.az/news.php?id=3828

7.http://azedu.az/az/news/17213

8.https://www.researchgate.net/profile/Rahil_Najafov3/publication/338482919_The_ways_of_forming_student%27s_personality_in_teaching/links/5e171c364585159aa4c07778/The-ways-of-forming-students-personality-in-teaching.pdf

10.http://adpk.edu.az/adpk/upload/Library/Srtfm_d%C9%99rslik_2018_(1).pdf

11.https://rezonanss.com/formal-m%C9%99ntiq/

SUMMARY

The article captures the process of reflection in the human mind of the world that surrounds judgment and the mental outcome of thought and forms and laws of logical thinking, logical processes performed on them.It is of special cognitive importance to follow the law in making correct generalizations and conclusions in the trial process.Thinking, which is a logical reflection of the objective world in our minds, is not a chaotic, spontaneous form, but a reflection in our brain in a legitimate way.This idea means that ideas also include objectively legitimate connections.The logical correctness of judgment requires in our minds a precise reflection not only of objective relations, but also of the laws of thought.

Mirzəli Elnarə Suqrət qızı
İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı
Elmi rəhbər: ped.ü.f.d., dos. Cəbrayılov Bəyəmməd Saday oğlu

İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSAS FUNKSİYALARI

Açar sözlər: *ibtidai sinif, riyaziyyat fənni, şagird nailiyyətləri, qiymətləndirilmə, funsiya*

Ключевые слова: *начальная школа, математика, успеваемость учащихся, оценивание, функция*
Key words: *primary school, mathematics, student achievement, assessment,function*

Təlim-tərbiyə prosesinin vacib elementlərindən biri şagird nailiyyətlərinin qiymətləndirilməsidir. Riyaziyyat fənni üzrə ibtidai sinif şagirdlərin nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi təlim prosesinin vacibhissələrindən biridir. Bu komponent tədris prosesinin digər komponentləri ilə birlikdə (məzmunu, metodları, vasitələri, təşkili formaları) cəmiyyətin müasir tələblərinə, pedaqoji və metodoloji elmlərə, məktəbin ilk pilləsində təhsilin əsas prioritetlərinə və hədəflərinə cavab verməlidir.

Müəllim şagirdlərlə öz işini yoxlamaq və qiymətləndirmək üçün qiymətləndirmə və nəzarət alətlərinin yaradılması istiqamətində sistemli, ardıcıl iş görməlidir [1].

İbtidai sinifdə şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsinin əsas funksiyaları aşağıdakılardır:

1. Sosial funksiya cəmiyyətin ibtidai məktəb yaşındakı uşaqların hazırlıq səviyyəsinə olan tələblərində özünü göstərir. Bu vəziyyətdə təhsil, şagirdin emosional və iradəli şəxsiyyət sahələri tərəfindən formalaşmış, şagirdin inkişaf səviyyəsini, tərbiyəsini və şüurunu əhatə edən geniş konsepsiya kimi istifadə olunur. Nəzarət zamanı şagirdlərin əldə etdikləri bilik, bacarıq və vərdişlərin dövlət tərəfindən müəyyən edilmiş standartlara uyğunluğu yoxlanılır.

Qiymətləndirmə bu uyğunluğun səviyyə və keyfiyyət göstəricisi kimi meydana gəlir (əla, yaxşı, kafi, qeyri-kafi və s., eyni zamanda səviyyələr üzrə I, II, III və IV). Beləliklə, nəticədə müəllim üçün monitorinq və qiymətləndirmə sistemi təhsilin vəziyyəti və problemləri barədə cəmiyyəti (şagirdləri, müəllimləri, valideynləri və s.) və dövləti xəbərdar etmək üçün bir vasitədir. Bu, yaxın və uzaq perspektivlərdə təhsilin inkişaf istiqamətlərini proqnozlaşdırmaq, təhsil sistemində lazımi düzəlişlər etmək, həm şagird, həm də müəllimə lazımi kömək göstərmək üçün əsas verir.

2. Təhsil funksiyası öyrənmənin gözlənilən effektini faktiki ilə müqayisə etməyin nəticəsini müəyyənləşdirir. Müəllim tərəfindən tədris materialının şagirdlər tərəfindən mənimsənilməsinin keyfiyyəti müəyyən edilir. Biliklərin tamlığı, əldə edilmiş bilikləri qeyri-standart vəziyyətlərdə tətbiq etmək bacarığı və ən uyğun vasitələri seçmək bacarığı təhsil tapşırığını yerinə yetirmək, akademik fəaliyyətin dinamikası, həm məktəb həyatı üçün, həm də ondan kənarda tələb olunan şəxsiyyət keyfiyyətlərinin formalaşması, əsas zehni əməliyyatların inkişaf dərəcəsi (analiz, sintez, müqayisə, ümumiləşdirmə) qurulur. İşdəki problemli sahələri müəyyənləşdirmək, uğurlu metodları tətbiq etmək, təlimin hansı məzmununun genişləndirilməsini və hansının tədris planından çıxarılmasını təhlil etmək mümkün olur.Şagirdin tərəfindən onun təhsil fəaliyyətinin spesifik nəticələrinin nə olduğu müəyyənləşdirilir. Möhkəm, şüurlu şəkildə öyrənilən və təkrarlanmağa ehtiyac duyulan təhsil fəaliyyətinin hansı tərəfləri formalaşmış və hansının formalaşmasına ehtiyac aşkarlanır.

3. Tərbiyə funksiyası öyrənmə üçün müsbət motivlərin formalaşması və özünənəzarətə hazır olmağın şagirdlərin qiymətləndirilməsini və narahatlığını aradan qaldırmaq üçün əsas amil kimi nəzərə alınmasında ifadə olunur. Düzgün təşkil olunmuş nəzarət və qiymətləndirmə məktəblilərin test qorxusunu aradan qaldırır, narahatlıq səviyyəsini azaldır, düzgün hədəf münasibətlərini formalaşdırır və onları müstəqilliyə, fəaliyyətə və özünə nəzarətə istiqamətləndirir.

4. Emosional funksiya hər hansı bir qiymətləndirmə növünün (qiymətlər daxil olmaqla) müəyyən bir emosional fon yaratması və şagirdin müvafiq emosional reaksiyasına səbəb olması ilə təzahür edir. Həqiqətən də qiymətləndirmə ilham verə bilər, çətinliklərin öhdəsindən gəlməyə yönəldilə bilər, dəstək verə bilər, eyni zamanda əsəbiləşdirə bilər, "geridə qalmış" kimi qeydiyyatdan keçə bilər, böyüklər və yaşıdları ilə əlaqəni kəsə bilər. Təlim nəticələrini yoxlayarkən bu ən vacib funksiyanın həyata keçirilməsi müəllimin emosional

reaksiyasının şagirdin emosional reaksiyasına uyğun olmasıdır (onunla sevin, onunla kədərlən) və müvəffəqiyyətə istiqamətləndirməlidir. Bu müddəa ibtidai təhsil pedaqogikasının əsas qanunlarından biri ilə uyğundur - kiçik şagird müvəffəqiyyətdən dərs almalıdır. Müvəffəqiyyət və emosional rifah vəziyyəti, şagirdin müəllimin qiymətləndirməsini sakitcə qəbul etməsi, səhvləri onunla birlikdə təhlil etməsi və aradan qaldırılması yollarını göstərməsinin ilkin şərtidir.

5. Məlumat funksiyası planlaşdırma və proqnozlaşdırma diaqnozunun əsasını təşkil edir. Əsas xüsusiyyəti, uğursuz nəticələrin səbəblərini təhlil etməkdir. İzləyici tərəfdən təhsil prosesini yaxşılaşdırmağın konkret yollarını qeyd etmək bacarığıdır. Bu təlim prosesi həm müəllim, həm də şagirdin maraqlarına uyğundur.

6. İdarəetmə funksiyası şagirdin özünə nəzarətinin inkişafı, fəaliyyətini təhlil etmə və düzgün qiymətləndirmə bacarığı və müəllimin qiymətləndirməsini adekvat qəbul etmək üçün çox vacibdir. İdarəetmə funksiyası müəllimə pedaqoji prosesin təşkilindəki boşluqları və çatışmazlıqları fəaliyyətində düzəltməyə kömək edir.

Ş.A.Amonaşvillinin fikrincə, müəllim yeni fənni müasir standartla müqayisə etmək və bu fənndə yaxşı və pis tərəflərini tapmaq üçün uşaqlara qiymətləndirmə standartlarını aşılamalıdır [2]. Bu istiqamətdə müəllimlər və metodistlər nəzarət və qiymətləndirmə fəaliyyətinin forma və metodlarını təkmilləşdirmək üçün həmişə çalışmalıdırlar.

NƏTİCƏ

Təlim prosesində vacib bir əlaqə məktəblilərin bilik və bacarıqlarına nəzarət, habelə onların qiymətləndirilməsidir. Təhsil işinin effektivliyi onun necə təşkil olunmasından və nəyə yönəlməsindən asılıdır. Qeyd olunan funksiyalar qiymətləndirmənin keyfiyyətinin və şagirdlərin nailiyyətlərinin yüksəldilməsinə, təlimin səmərəliliyinin artırılmasına, təhsilin hərtərəfli inkişafına səbəb olur. Buna görə də məktəb praktikasında nəzarətin təşkili metodlarına, məzmununa və işarələnməsinə ciddi diqqət yetirilməlidir.

Ədəbiyyat

1. Cəbrayılov B.S. Riyaziyyatın tədrisi metodikasının aktual problemləri (İbtidai sinif müəllimliyi ixtisası magistrantları üçün dərs vəsaiti)Bakı, ADPU, 2019
2. Амонашвили Ш.А. Обучение. Оценка. Отметка . М.: Знание, 2001

İbtidai siniflərdə riyaziyyat fənni üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas funksiyaları

XÜLASƏ

Qiymətləndirmə sistemi yalnız bir məqsəd ilə məhdudlaşa bilməz. Müəyyən akademik mövzuda təkcə biliklərin mənimsənilməsini, bacarıqların inkişafını yoxlamaq deyil. Daha vacib bir sosial vəzifə qoyur ki, du da məktəblilərdə özlərini yoxlamaq və idarə etmək, fəaliyyətlərini tənqidi qiymətləndirmək, səhvləri və onları aradan qaldırmaq yollarını tapmaq bacarığını inkişaf etdirməkdir. Buna görə müəllimin qiymətləndirmə fəaliyyətinin uşağın məsuliyyət və öz problemlərinin öhdəsindən gəlmək bacarığı hissi inkişaf etdirməsi vacibdir. Hər qiymətləndirmə ilk növbədə şagirddən mütləq müsbət reaksiyalı stimul olmalıdır.

Основные функции оценки достижений учащихся по математике в начальных школах

РЕЗЮМЕ

Система оценки не может ограничиваться одной целью. Это не только тест на получение знаний и развитие навыков по определенному учебному предмету. Еще более важная социальная задача - развить у студентов способность контролировать себя и управлять собой, критически оценивать свою деятельность, находить ошибки и

способы их исправления. Поэтому важно, чтобы оценочная деятельность учителя развивала у ребенка чувство ответственности и способность справляться с собственными проблемами. Каждая оценка в первую очередь должна быть положительным стимулом со стороны ученика.

Main functions of assessment of student achievements in mathematics in primary schools

SUMMARY

The evaluation system cannot be limited to one goal. It is not only a test of knowledge acquisition and development of skills in a certain academic subject. An even more important social task is to develop students' ability to check and manage themselves, critically evaluate their activities, and find mistakes and ways to correct them. Therefore, it is important that the teacher's assessment activity develops the child's sense of responsibility and ability to cope with their own problems. Each assessment must first be a positive stimulus from the student.

Mirzəli Elnarə Suqrət qızı
İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı
Elmi rəhbər: ped.ü.f.d., dos. Cəbrayılov Bəyməmməd Saday oğlu

İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *ibtidai sinif, riyaziyyat fənni, şagird nailiyyətləri, qiymətləndirilmə*
Ключевые слова: *начальная школа, математика, успеваемость учащихся, оценивание*
Key words: *primary school, mathematics, student achievement, assessment*

Şagird nailiyyətlərinin qiymətləndirilməsi təlim-tərbiyə prosesinin vacib elementlərindən biridir. Yeni Təhsil Konsepsiyasında (Milli kurrikulum) bu məsələyə önəmli diqqət verilmişdir.

Qiymətləndirmənin necə həyata keçirilməsindən asılı olaraq şagirdin təlimə münasibəti, tədris fənninə marağı və müstəqilliyi formalaşır. Qiymətləndirmənin rolu müəllim-şagird münasibətlərindən kənara çıxır – təlimin forma və metodlarının səmərəliliyinin, dərslik və metodik işləmələrin keyfiyyətinin və təlimin məzmununun monitorinqini aparmağa imkan verir [1].

Qiymətləndirmənin didaktik məqsədlərindən və keçirilmə vaxtından asılı olaraq növləri aşağıdakılardır:

1. İlkin qiymətləndirmə (diaqnostik);
2. Cari qiymətləndirmə (formativ);
3. Yekun qiymətləndirmə (summativ).

İlkin qiymətləndirmə (diaqnostik) rübün və ya ilin əvvəlində şagirdlərin fənn, bölmə, mövzu üzrə hansı səviyyədə olduğunu aid etmək üçün aparılır. Beləliklə, müəllim hər bir şagirdlə işin hansı istiqamətdə aparılacağını müəyyən edir. Bununla da, fəaliyyətini bu istiqamətdə qurur. Şagirdlərin bilik və bacarıqlarının ilkin səviyyəsinin müəyyənləşdirən diaqnostik qiymətləndirmə hər bir şagirdin potensial imkanlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir. Diaqnostik qiymətləndirmə nəticəsini şagirdləri həvəsdən salmamaq üçün qiymətləndirməmək olar. Bunun məqsədi ondan ibarətdir ki, şagird gələcək tədris fəaliyyətini müəyyən edə bilsin, həm də onda öyrənməyə maraq yaransın.

Cari qiymətləndirmə (formativ) müəllim tərəfindən hər bir şagirdin fəaliyyəti üzərində sistemli nəzarətinin nəticəsidir. Onun məqsədi şagirdin biliklərinin səviyyəsi və tədrisin keyfiyyəti haqqında obyektiv məlumatın müəyyən olunmasıdır. Tədris müddətində cari

qiymətləndirmə müəllimin fəaliyyəti ilkin qiymətləndirmədə olduğundan fərqlidir. Yəni cari tədris fəaliyyətinə görə verilən qiymət dəyişən olub, təkrar cavabla düzəldilə bilir. Formativ qiymətləndirmə şagirdin qəbul edilmiş standartların reallaşmasına yönələn irəliləmələrini, geriləmələrini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq, təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır.

Yekun qiymətləndirmə (summativ) standart və ya standartlar qrupu üzrə müəyyən edilmiş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduğunu ayırd edir. Summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə yekun vurmaqla, müvafiq məzmun standartlarına uyğun qiymətləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır.

Qiymətləndirmənin əsas prinsipləri aşağıdakılardır:

1. Məqsədəuyğunluq;
2. Nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
3. Toplanmış məlumatların müvafiqliyinin və etibarlılığının təmin edilməsi;
4. Qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
5. Tədris-təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin təmin olunması və inkişaf etdirilməsi. [2].

Qiymətləndirmənin yekun qiyməti riyaziyyat fənni üzrə toplanmış qiymət əsasında formalaşır. Eyni zamanda, yığılmış qiymətləndirmə bütün planlaşdırılmış nəticələrin icrasını, eləcə də təhsil müddətində şagirdlərin təhsil nailiyyətlərinin dinamikasını xarakterizə edir. Qiymətləndirmə bəzən tədqiqat xarakteri daşıyır və tədris ili ərzində mütəmadi təşkil olunur. Tədqiqatın nəticələri əsasında şagirdlərə dəstək üsulu hazırlanır. Belə qiymətləndirmənin ibtidai siniflərdə aparılmasının başlıca səbəbi təhsilin ilkin pilləsində keyfiyyət göstəricilərinin müəyyən edilməsidir. Müəllimin fəaliyyətində sinif fəaliyyətini təşkil etmək bacarığı, şagirdlərə dərs vermək metodları və üsulları, üslubu və ünsiyyət texnikalarına nəzarət olunur [3].

Qiymətləndirmədə məqsəd təkcə hər hansı bir fənn üzrə bilik, bacarıq və vərdişlərin əldə olunmasını yoxlamaq deyil, şagirdlərdə özünənəzarət və nəzarət bacarığını, öz fəaliyyətini izləmək, səhvləri aşkara çıxarmaq və onların aradan qaldırılması yollarını axtarıb tapmaq bacarığını inkişaf etdirməkdir.

Təlim prosesinə "nəzarət" anlayışına bir sıra mütəxəssislər (Y.K.Artişeva, M.M.Balaşov, L.Y.Joqlo, A.V.Zaxarova, A.K.Markova, O.V.Onopriyenko və b.) şagirdlərin fərdi, birgə fəaliyyətinin təşkili və idarə olunması vasitəsi kimi baxırlar və bu vasitənin öyrənənlərin bilik və vərdişlərinin aşkara çıxarılmasına, ölçülməsinə və qiymətləndirilməsinə xidmət etməsini qeyd edirlər. Digər mütəxəssislər isə nəzarətə şagirdlərin bilik, bacarıq və vərdişlərindəki boşluq, çatışmazlıq və səhvlərin aşkara çıxarılmasına yönəlmiş fəaliyyət kimi baxır və öyrənirlər.

Qiymətləndirmə məqamında şagird üçün müəllimin münasibəti, onun baxışı, vokal mimikası, sözlərin emosional konteksti və s. bəlkə də qiymətdən daha çox əhəmiyyət kəsb edir. Qiymətləndirmə təhsil prosesinin bütün digər komponentləri kimi müəyyən funksiyaları yerinə yetirir. Qeyd edək ki, qiymətləndirmə funksiyalarını yalnız müəllim həyata keçirir. Dərslikdəki istinad materialı, eləcə də

tədris vasitələri özünü qiymətləndirmə üçün əlverişli şərait yaradır. Yalnız müəllim həqiqi qiymətləndirməni həyata keçirə bilər.

NƏTİCƏ

Təlim nəticələrini izləmək və qiymətləndirmək üçün dörd illik bir ibtidai məktəbdə ibtidai sinif müəlliminin fəaliyyəti üçün müasir tələbləri nəzərə alaraq, metodoloji proqramlar hazırlanır. İbtidai sinif şagirdlərinin nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi müəllimin pedaqoji fəaliyyətinin vacib vəzifələrindən biri, həm də prosesin öyrənilməsinin çox vacib bir hissəsidir.

Düzgün qiymətləndirmə, qiymətləndirmə zamanı əvvəlcədən müəyyən olunmuş və şagirdlərin nəzərinə çatdirilmiş qiymətləndirmə meyarlarından istifadə olunması, həmdə şagirdlərin riyaziyyata olan marağının artmasına və beləliklə də təlimin səmərəliliyinin artırılmasına səbəb olur.

Şagirdlər qiymətləndirmə prosesində biliyindəki çatışmamazlıqları bilir və onların aradan qaldırılması üzərində işləyir. Eyni zamanda onlarda meyarlara söykənərək verdikləri qiyməti əsaslandırmaq bacarığı formalaşır.

Ədəbiyyat

1. Cəbrayılov B.S. Riyaziyyatın tədrisi metodikasının aktual problemləri (İbtidai sinif müəllimliyi ixtisası magistrantları üçün dərs vəsaiti) Bakı- ADPU – 2019

2. Adıgözəlov A. Ümumtəhsil məktəblərində riyaziyyatın metodikası (Riyaziyyat təliminin nəzəri əsasları, dərs vəsaiti). Bakı, ADPU, 2017

3. Демидова М.Ю., Иванов С.В., Карабанова О.А. и др. «Оценка достижения планируемых результатов в начальной школе» Часть 1, изд. «Просвещение», 2009

İbtidai siniflərdə riyaziyyat fənni üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi

XÜLASƏ

Təhsil fəaliyyətindəki qiymətləndirmə müəllimə və şagirdə tədris materialını mənimsəmə səviyyəsini və problemləri, habelə fərdi və qrup halında metodiki işləri müəyyənləşdirməyə imkan verir. Müəllim tərəfindən şagirdin biliyinin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsinin əsas məqsədi şagirdlərin proqram materialını mənimsəməsinin keyfiyyətini - riyaziyyatda standar nəzərdə tutulmuş bilik və bacarıqlara yiyələnmə səviyyəsini müəyyən etməkdir. Sadaladıqlarımıza əsaslanaraq bildiririk ki, müəllimin təlimin ilk vaxtından hər şeyə tam nəzarəti etməsi məsləhətdir. Bu nəzarət uşaqların riyaziyyata hazırlıq səviyyəsini (aşağı, orta və yüksək) müəyyənləşdirməyə və materialları uğurlu mənimsəməyə mənfi təsir göstərən boşluqları aradan qaldırmağa kömək edəcəkdir.

Оценка достижений учащихся по математике в начальной школе

РЕЗЮМЕ

Оценка учебной деятельности позволяет учителю и ученику определить уровень и проблемы усвоения учебного материала, а также индивидуальной и групповой методической работы. Основной целью педагогического контроля и оценки качества знаний студентов является определение качества усвоения студентами программного материала - уровня усвоения стандартных по математике знаний и умений. Исходя из вышеизложенного, рекомендуется, чтобы учитель взял на себя полный контроль с самого начала обучения. Такой мониторинг поможет определить уровень подготовленности детей к математике (низкий, средний и высокий) и устранить пробелы, негативно влияющие на успешное усвоение материалов.

Evaluation of student achievements in mathematics in primary schools

SUMMARY

Assessment of educational activities allows teachers and students to determine the level and problems of mastering the teaching material, as well as individual and group methodological work. The main purpose of the teacher's monitoring and evaluation of the quality of students 'knowledge is to determine the quality of students' mastery of the program material - the level of acquisition of knowledge and skills that are standard in mathematics. Based on the above, it is recommended that the teacher take full control of everything from the beginning of the training. This monitoring will help to determine the level of readiness of

children for mathematics (low, medium and high) and to eliminate gaps that negatively affect the successful mastery of materials.

Abdullayeva Nigar Hüseyn qızı
ADPU, İbtidai sinifdə tədrisinin
metodikası və metodologiyası, 2-ci kurs magistrantı
Elmi rəhbər: Məmmədova İsmət

MİLLİ KURİKULUMLARIN STRUKTURU,VƏZİFƏSİ VƏ PRİNSIPLƏRİ

Açar sözlər: *tədqiqat, tədqiqatçı, metod, təfəkkür*
Ключевые слова: *исследование, исследователь, метод, образование, учебная программа*
Key words: *research, researcher, method, education, curriculum*

"Kurikulum" latın sözü olub, mənası "kurs", "yol" deməkdir. Xarici pedaqoji ədəbiyyatlarda göstərildiyi kimi, kurikuluma aid biliklərin təşəkkül tapması və inkişaf etməsi üçün 30 ilə yaxın bir vaxt sərf olunmuşdur. 1918-ci ildə ilk kurikulumlar yaranmışdır. Artıq ötən əsrin 60-70-ci illərində dünyada, xüsusən ABŞ-da kurikulum ideyaları genişlənmiş, bir nəzəriyyə kimi formalaşmışdır. Kurikulum hərəkatı kimi genişlənən bu təhsil dalğası dünyanın inkişaf etmiş ölkələrində də yayılmış, mütərəqqi təhsil təcrübəsi kimi özünün təsdiqini daha geniş miqyasda tapmışdır.

Azərbaycanda kurikulum termini ötən əsrin 90-cı illərinin sonundan etibarən istifadə olunmağa başlamışdır. İlk vaxtlar "təhsil planı" kimi tərcümə olunaraq istifadə edilsə də, sonralar araşdırmalarda kurikulum kimi işlənmiş, son illərdəki hüquqi-normativ sənədlərin dilində də eyni ilə həmin anlayış saxlanılmışdır.

Kurikulumun mahiyyəti haqqında yanaşmalar müxtəlif olmuşdur. Hər kəs öz ölkəsinin ehtiyacları baxımından ona yanaşmış, hazırladığı nümunələrdə zəruri tələbatları nəzərə almışdır. Azərbaycan pedaqoji fikrində isə bu belə qəbul olunmuşdur: "Kurikulum təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir" (Ümumi təhsil sistemində dərslik siyasəti. Azərbaycanın təhsil siyasəti (1998-2005), II kitab. Bakı, "Təhsil", 2005). Azərbaycan Respublikasının Təhsil Qanununda bu anlyış bir daha konkretləşdirilmişdir: "Təhsil proqramı (kurikulum) – təhsilin hər bir pilləsi üzrə təlim nəticələri və məzmun standartlarını, tədris fənlərini, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən dövlət sənədi" ("Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, "Hüquq ədəbiyyatı", 2009).

Göründüyü kimi, kurikulumlar mahiyyət etibarilə iki mühüm cəhəti əhatə edir. Əvvəla, təhsil sahəsində olan fəaliyyətlər (müəllim, şagird fəaliyyətləri nəzərdə tutulur) əhatə olunur. İkincisi, kurikulum konseptual xarakter daşıyır. Təhsil kurikulumları cəmiyyətin tələbatına uyğunluq baxımından təklifyönümlü və tələbyönümlü olur. Hazırda müstəqil Azərbaycan Respublikasının təhsil sistemi digər prinsiplərlə yanaşı, həm də demokratik və humanist prinsiplər üzərində qurulur. Onun nəticəsidir ki, Azərbaycanda tələbyönümlü kurikulumların yaradılması istiqamətində iş aparılır. Artıq ölkəmizin tarixində ilk dəfə olaraq belə kurikulumlar hazırlanmışdır. 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş, 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" adı ilə təkmilləşdirilmişdir. Ümumi təhsilin fənn kurikulumları Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə təsdiqlənmiş, pedaqoji ictimaiyyətin istifadəsinə verilmişdir.

Azərbaycan təhsil sistemində "kurikulum" yeni bir anlayışdır və o, təlim prosesi ilə bağlı bütün fəaliyyətlərin təşkilini və həyata keçirilməsini əks etdirən konseptual sənəd kimi

başa düşülür. İslahat çərçivəsində elə bir konseptual sənəd hazırlanır ki, özündə təhsilalanlar üçün zəruri kompetensiyaları, məzmun və qiymətləndirmə standartlarını, hazırkı tədris planı və proqramlarını, şagirdə və onun hazırlıq səviyyəsinə verilən tələbləri, hər bir dərsin konkret inkişafetdirici məqsədlərini, metodik təminatı, dəyərləndirmə modelini, texniki təchizatını və s. təsvir etsin, müəllim və məktəb qarşısında duran vəzifələri və onların konkret həlli yollarını göstərsin.

Kurikulum müasir dərs modelinin əsas çərçivələri üzrə fənlər kursunun hər bir bölməsinin məqsədini, məzmununu, tədris-təlim fəaliyyətini, nailiyyətlərini, onların qiymətləndirilməsini əks etdirir.

Kurikulum islahatını zəruri edən səbəblər.

1. Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması;
2.Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid;
3.Dünya təhsil sisteminə inteqrasiya;
4.İnformasiya əsrinin tələbləri;
5.Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması;
6.Mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi;

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası - Milli Kurrikulumu (bundan sonra Milli Kurrikulum) konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurrikulumlarının strukturunu əhatə edir.

Milli Kurrikulum ictimai-siyasi, mədəni və sosial həyatın qloballaşdığı və universallaşdığı, informasiya-kommunikasiya texnologiyalarının rolunun artdığı, rəqabətin gücləndiyi müasir dövrdə hər bir şəxsin istedad və qabiliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq, müstəqil qərarlar qəbul etməsi üçün onun zəruri təhsil səviyyəsinə və bacarıqlara malik olmasına, cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsi olan insanın formalaşdırılmasına və problemlərin həllinə yyöyyönəlmişdir. Uşaqlar artıq dərsi özləri qavramaları,müəllimin yalnız nəzarətçi rolu üstün tutulur. Milli Kurrikulum bilavasitə aşağıdakı funksiyaların reallaşdırılmasına xidmət edir:

- Müəllimin təhsil verməsi deyil,uşaqların özü qavraması.
- ümumi təhsilin pillələri, bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin və ardıcıllığın təmin edilməsi;
- fənlərin məzmununun cəmiyyətin tələbatına uyğun daim təkmilləşdirilməsi və yeniləşdirilməsi;
- təlim texnologiyalarının çevikliyi və interaktivliyinin təmin olunması;
- nəticəyönümlü fənn kurrikulumlarının hazırlanıb tətbiq olunması;
- təlim mühitinin, təhsil fəaliyyətinin səmərəliliyinin, təlimin inkişafetdirici və qabaqlayıcı xarakterinin, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik prinsip əsasında müəyyənləşdirilməsinin təmin olunması;
- şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və stimullaşdırılmasının təmin edilməsi.

Milli Kurrikulum aşağıdakı ümumi prinsiplərə istinad olunmaqla hazırlanmışdır:

- milli və ümumbəşəri dəyərlərin nəzərə alınması;
- ümumi inkişafı, meyil və maraqları nəzərə alınmaqla bütün şagirdlərə əlverişli təlim şəraitinin yaradılması;
- tələbyönümlülük;
- nəticəyönümlülük;
- şagirdyönümlülük;
- inteqrativlik.

Ədəbiyyat

1. F.A.Rüstəmov. Pedaqogika fənn kurikulumu. Elm və təhsil, 2014
2. Veyzova Z.V. Fəal interaktiv təlim. Bakı, 2007
3. Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, 2010
4. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. Bakı "hüquq ədəbiyyatı" 2009
5. N.Süleymanova. Təhsilin əsasları. Bakı, 2014
6. R.Hüseynzadə. Təhsilin humanistləşdirilməsi demokratikləşdirilməsi. Bakı, 1997
7. Azərbaycan Respublikası təhsil sahəsində islahat proqramları. Bakı, 1999
8. Azərbaycan Respublikasının ümumi təhsilin konsepsiyası (milli kurikulum) 2008 №1
9. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası. Bakı, 2009
10. Abbasov.Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. Bakı, 2007
11. Y.Ş.Kərimov. Təlim metodları. Bakı, 2009
12. Akif Nəzərov. Müasir təlim texnologiyaları
13. Əjdər Ağayev. Təlim prosesi: ənənə və müasirlik

SUMMARY

The Concept of General Education in the Republic of Azerbaijan - National Curriculum (hereinafter referred to as the National Curriculum) is a conceptual framework document of general education learning outcomes and content standards, subjects envisaged at each stage of general education, number of weekly lessons and extracurricular activities, organization of pedagogical process, training covers the structure of subject curricula, the basic principles of assessment and monitoring of achievements.

Given the globalization and universalization of socio-political, cultural and social life, the growing role of information and communication technologies, and the increasing competition, the National Curriculum has the necessary level of education and skills for independent decision-making. It is aimed at the formation of a person, who is the main driving force of the development of society, and the solution of problems.

Teyibova Günay Əhməd qızı
ADPU, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, I kurs magistrantı
Elmi rəhbər: Dos. Balaşov Q.Q.

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLƏRİNDƏ FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: *riyaziyyat, inteqrasiya, fənlərarası, fəndaxili, əlaqə*
Ключевые слова: *математика, интеграция, междисциплинарный, контакт*
Key words: *math, integration, interdisciplinary, contact*

Təhsilimizin inkişafı üçün fənlərin tədrisi zamanı fənn müəllimləri yeni prinsiplərdən istifadə etməyə çalışırlar.İnteqrasiya da belə prinsiplərdən biridir. "İnteqrasiya" terminindən XX əsrin sonundan fəal istifadə olunmağa başlanmışdır.

İnteqrasiyada şagirdlərin maraqları, ehtiyacları nəzərə alınır. "Azərbaycan Respublikasında ümumi təhsilin Milli kurikulumuna" əsasən inteqrasiyanin 3 növündən istifadə olunur:

1) fənnüstü inteqrasiya;
2) fəndaxili inteqrasiya;
3) fənlərarası inteqrasiya.

Fənnüstü inteqrasiyada şagirdlərin məktəbdə öyrəndikləri biliklərin, məktəbdə öyrənilən müxtəlif fənlərin həyatla əlaqəsi geniş şəkildə yaradılır. Məhz bu inteqrasiya, digər inteqtasiyalar arasında ən yüksək səviyyədədir.

Fəndaxili inteqrasiyada bu və ya digər fənnə aid anlayışların, biliklərin, metodların başqa bir fənnin tədrisində istifadəsini nəzərdə tutur.

Fəndaxili inteqrasiya 2 növə ayrılmışdır:

1. Üfiqi inteqrasiya - burada fənn üzrə məzmun xətləri əlaqələnir;

2. Şaquli inteqrasiya - əsasən sinifdən - sinfə keçdikcə mürəkkəbləşən məzmun xətləri sıx şəkildə bir-biri ilə əlaqələndirilir.

İnteqrasiya nəticəsində dərsdə vaxta qənaət olunur, şagirdlər artıq yüklənmir, təkrara yol verilmir, tədris materialının yığcamlığı təmin olunur. Şagirdlər az vaxt içində çox, həm də bir-biri ilə əlaqəli bilikləri mənimsəyirlər. Bu məqsədlə uşaqları əsasən inteqrativ bilikləri öyrənməyə hazırlayan fənlərarası əlaqəyə geniş və hərtərəfli yer verilməlidir.

Fənlərarası əlaqənin daha effektiv təmin olunmasının özü fənn müəllimindən də çox asılıdır. Belə ki, müəllim ayrı-ayrı fənlər üzrə həmin fənnin proqramına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin üsul və vasitələrini daha dərindən tam şəkildə bilməlidirlər.

Fənlərarası əlaqə zamanı tədris olunan hər bir fənn şagirdlər tərəfindən daha yaxşı mənimsənilir,burada bir neçə fənn üzrə bilik, bacarıq, vərdişlər təkrarlanır və sonda nəticə olaraq biliyin şagirdlər tərəfindən sistemli mənimsənilməsi tam təmin edilir.

Fənlərarası əlaqədən düzgün və ardıcıl istifadə edilməsi tədrisin səviyyəsini daha da yüksəldir və inkişaf etdirir. Eyni zamanda şagirdlərin məntiqi təfəkkürü inkişaf edir, dünyagörüşləri artır.

Günümüzdə ibtidai təlim dövrü şagirdlərin həyatının çox əhəmiyyətli mərhələlərindən birini təşkil edir. Bu təlim dövründə də fənlərin tədrisi bir-biri ilə geniş və sıx şəkildə əlaqəli olmalıdır.

Məsələn, ribtidai məktəbin iyaziyyat dərslərində digər fənlər üzrə biliklərdən daha məqsədyönlü istifadə etdikdə şagirdlər həyatla, digər fənlərdən öyrəndikləri biliklərlə əlaqələndirilən riyazi anlayışları daha yaxşı və hərtərəfli şəkildə başa düşürlər. Düzgün dərk etmə dünyagörüşün formalaşmasına müsbət təsir göstərir.

Müəllim fənlərarası əlaqəni yaradarkən şagirdlərin fərdi və yaş xüsusiyyətlərini, onların mövcud bilik, bacarıq və vərdişlərinin səviyyəsini, onların fiziki, fizioloji və psixoloji xüsusiyyətlərini mütləq nəzərə alınmalıdır.

İbtidai siniflərdə şagirdlərin bu və ya digər xüsusiyyətlərinin nəzərə alınmasını təlimi bəsitləşdirmək və ya şagirdlərin səviyyəsinə endirmək kimi başa düşmək düzgün olmazdı. Hər bir verilən məsələnin qoyuluşu, tapşırığın ifadəsi şagirdlər üçün tam aydın olmalı, problemin məzmunu isə şagirdləri düşündürməyə, iradi səy göstərməyə, diqqətli olmağa sövq etməlidir.

İbtidai siniflərdə riyaziyyatın tədrisində fənlərarası əlaqənin reallaşdırılması təfəkkür prosesi ilə əlaqədar olduğu üçün problem pedaqoji-psixologiyaya əsaslanaraq tədqiq edilməlidir. Bundan əlavə riyaziyyat fənnini, Oxu, Ana dili, Azərbaycan dili, Həyat bilgisi və digər başqa fənlərlə əlaqəli tədris etdikdə olduqca daha səmərəli nəticə almaq mümkündür. Bu zaman qeyd edək ki, şagirdlərin fərdi xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.

İbtidai siniflərdə riyaziyyat təlimində fənlərarası əlaqə şagirdlərin riyazi təfəkkürünün inkişafına güclü təsir etdiyi üçün ibtidai sinif müəllimlərinin qarşısında yeni mühüm tələblər qoyulur.

Müəllim nəzərə almalıdır ki, məktəbə ilk qədəm qoyan şagirdlər sistemli biliklərə malik deyildirlər. Onlar sadə riyazi anlayışlar və təsəvvürlərlə ilk təlimə başlayırlar. Bütün bunları təlimə yeni başlayan ibtidai sinif şagirdləri üçün ilkin biliklər sistemi adlandıra bilərik. Ona görə də şagirdlər əldə etdikləri riyazi bliklərin düzgünlüyünü və reallığını təmin etmək üçün hökmən bu ilkin biliklərə istinad edirlər və ondan yararlanırlar.

Bu söylənilən fikirləri nəzərə alaraq ibtidai siniflərdə riyaziyyatın tədrisi zamanı fənlərarası əlaqənin təmin olunması barədə belə bir yekun elmi nəticə çıxara bilərik: İbtidai sinif şagirdlərinəriyaziyyatın öyrədilməsində digər fənlər üzrə biliklərdən daha səmərəli və geniş istifadə imkanları yaradılmalıdır. Bu imkanlara dayanaraq ibtidai sinif şagirdlərində müvafiq bilik, bacarıq və vərdişlərigeniş şəkildə formalaşdırmaq olar.

Şagirdləri 1-ci sinifdə riyaziyyatın ilk dərslərindən başlayaraq fənlərarası əlaqəyə hazırlamaq lazımdır.

Şagirdlərdə sadə riyazi hesablamalar zamanı onlarda digər fənlərə də aid sadə təsəvvürlərdən istifadə etməyə ehtiyac yaratmaq olar. Bu ehtiyacı təmin etmək üçün şagirdlər özlərinin digər fənlərə aid öyrəndikləri biliklərinə müraciət etməyə və ondan istifadəyə məcbur olurlar. Görürük ki, bunsuz keçinmək mümkün deyil.

İbtidai məktəbdə riyaziyyatın tədrisi zamanı digər fənlərə aid biliklərə istinad edərək şagirdlərdə müxtəlif bilik, bacarıq və vərdişlər formalaşdırmaq olduqca faydalı və əhəmiyyətlidir. Riyaziyyatın tədrisinin başqa yaxın fənlərlə əlaqələndirilərək tədris olunmasına elə ilk dərslərdən başlamaq lazımdır.

Kurikulum islahatının əsas məqsədi gənc nəslin hərtərəfli bilik və bacarıqlara malik vətəndaş kimi formalaşdırılmasıdır. Odur ki, riyaziyyat dərslərində müxtəlif dərs mövzularının yeri gəldikcə ədəbiyyat və tarix fənləri ilə əlaqələndirilməsi şagirdlərin fəallığını artırar, onların qavrama qabiliyyətlərini xeyli gücləndirmiş və dünyagörüşlərini zənginləşdirmiş olar. Riyaziyyat fənninin azərbaycan dili fənni ilə inteqrasiyası şagirdlərin nitqinin və yaradıcı qabiliyyətlərinin inkişafına da olduqca müsbət təsir göstərir. Q.Qaliley yazırdı: "Dünya riyaziyyat dilində yazılmış bir kitabdır, bunu ancaq həmin dilə yiyələnənlər öyrənə bilər".

Sonda qeyd edək ki, ibtidai siniflərdə riyaziyyatın tədrisi zamanı inteqrasiyanın müxtəlif növlərindən lazımi şəkildə istifadə olunması tədrisin keyfiyyət və səmərəsini artırır.

Ədəbiyyat:

1. Riyaziyyat təlimi prosesində fənlərarası əlaqələrin reallaşdırılması, 2011, (Şəlalə Bəhlul qızı Binnətova)
2. Fənlərin inteqrasiyası, 2013 (M.Həsənov, Ş.Ağayev, V.Məmmədova, Y.Fərzəliyeva)
3. Kurikulum bələdçisi, 2019 (Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadova, K.R.Quliyeva, İ.H.Sultanova, S.E.Cavadova)
4. Fəal/İnteraktiv təlim, 2007 (Z.Veysova)

İnternet resursları:

1. http://serqqapisi.az/index.php/humanitar/elm-v-t-hsil/4986-taehsildae-intezhrasiya
2. www. inf - math.narod.ru
3. www. mathematiks.ru
4. www.webmath.exponenta.ru
5. http://www.anl.az/down/meqale/az_muellimi/az_muellimi_aprel2009/77191.htm

SUMMARY

The National Curriculum places special emphasis on interdisciplinary and interdisciplinary integration in education. Integration of knowledge from different fields about the world in the student's mind. Interdisciplinary integration involves the use of concepts and methods related to one subject in teaching another, it is a synthesis of common knowledge and skills covered by several subjects. This integration serves to make logical connections between different disciplines. This process increases the effectiveness of the learning process by ensuring that the same skills are further developed with different subjects

Teyibova Günay Əhməd qızı
ADPU, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı
Elmi rəhbər: Dos. Balaşov Q.Q.

III SİNFİN RİYAZİYYAT FƏNNİNİN TƏLİMİNDƏ FƏNLƏRARASI VƏ FƏNDAXİLİ İNTEQRASİYADAN İSTİFADƏ

Açar sözlər: *riyaziyyat, təlim, fənlərarası, inteqrasiya*

Ключевые слова: *математика, обучение персонала, междисциплинарный, интеграция*
Key words: *math, training, interdisciplinary, integration*

Təlimdə inteqrasiyadan istifadə olunması ətraf aləm haqqında biliklərin düzgün və sistemli şəkildə dərk olunmasına köməklik göstərir. Milli Kurikulum təlimdə fəndaxili və fənlərarası inteqrasiyaya xüsusi əhəmiyyət verməyi bizdən tələb edir.

Təcrübələr göstərir ki, riyaziyyatın tədrisində inteqrasiya üsullarından düzgün və səmərəli istifadə etməsək təlimdə istənilən müsbət nəticəni əldə edə bilmərik.

İbtidai siniflərdə riyaziyyatın tədrisində fəndaxili inteqrasiyadan geniş istifadə olunur. Buradaki fəndaxili inteqrasiya konsentrik prinsiplərə əsaslanan spiralvari quruluşa malikdir.

Fənlərarası inteqrasiya isə müxtəlif fənlərə aid ortaq bilik, bacarıq və vərdişlərin sintezi olmaqla, müəyyən bir fənnə aid anlayışlardan, eləcə də metodlardan başqa bir fənnin tədrisində analoji qaydada istifadə olunmasıdır.

İnteqrasiya latın dilində "integer" sözündən götürülüb mənası bütöv, bütövləşmə deməkdir. Bu baxımdan qeyd etməliyik ki, tədris olunan fənlərin hamısının biri-biri ilə əlaqə imkanına malik olduqları üçün onlar birləşərək təhsildə sistem əmələ gətirirlər.

İbtidai məktəb riyaziyyat təlimi prosesinin inkişafı ilə bağlı olaraq məktəblərimizin ibtidai siniflərində müasir dövrün tələblərinə uyğun olaraq təlim zamanı fənlərarası və fəndaxili inteqrasiya nümunələrindən geniş istifadə olunur.

Sual ; Bəs III sinif riyaziyyat təlimində fənlərarası inteqrasiyadan necə istifadə olunur?

III sinfin riyaziyyat dərsliyində fizika və həndəsəyə aid müxtəlif maraqlı məsələlər verilmişdir. Eyni zamanda ölkəmizin coğrafiyasını öyrədən məsələlərədəburada yer verilmişdir. Dərsliklərdə işğal olunmuş ərazilərimizi xatırladantapşırıqlara da rast gəlirik. Bu isə şagirdlərdə vətənpərvərlik hisslərini yaradır.Buradan da belə nəticəyə gələ bilərik ki, ibtidai siniflərin müxtəlif fənn təlimlərində olduğu kimi III sinfin riyaziyyat təlimində də fənlərarası və fəndaxili əlaqələrdən geniş istifadə olunur. III sinifdə riyaziyyat təlimi zamanı Riyaziyyat fənni digər Ana dili, Həyat bilgisi, Texnologiya, Təsviri incəsənət, İnformatika fənnləri ilə uğurla və tam şəkildə əlaqələndirilmişdir.

Məsələn, III sinif riyaziyyat dərsində "Simmetriya" mövzusunda istifadə olunan və oluna biləcək fənlərarası inteqrasiya nümunələrinə baxaq.

Bilirik ki, fəal təlimdə dərsin əsasən 7 mərhələsinin olduğu hamımıza yaxşı məlumdur: Bunlar: Motivasiya, tədqiqatın aparılması, məlumatın mübadiləsi, məluatın müzakirəsi və təşkili, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə, qiymətləndirmə və refleksiyadır.

"Simmetriya" mövzusunun tədrisi zamanı biz məsələn, motivasiyada fənlərarası inteqrasiyadan istıifadə edə bilərik. III sinfin riyaziyyat dərsində həyat bilgisi dərsliyində verilmiş "Canlılar aləmi" mövzusu ilə inteqrasiyasının qurulması şagirdlər üçün olduqca faydalı və maraqlı olar.

Burada şagirdlərdən canlıların hansı növlərini tanıdıqları soruşulur. Verilən cavablardan sonra şagirdlərə ortadan qatlanmış simmetrik yarpaq şəkli təqdim olunur və şəkildəkinin hansı canlıya aid olduğu soruşulur. Şagirdlər mövzu ilə hələ II sinif riyaziyyat təlimindən tanış olduqları üçün onlardan dogru cavablar alındıqdan sonra simmetriyanın nə olduğu bir daha yada salınır: "Uşaqlar biz bilirik ki, simmetriya xətt boyunca əşyanı (fiquru) qatladıqda onun hissələrinin üst-üstə düşməsidir. Gəlin biz götürdüyümüz yarpaqlarımızı ortadan qatlayaq və onda özümüz görəcəksiniz ki, yarpaqlarda simmetriya yaranır. Bunu birlikdə yoxlayaq". Şagirdlər yarpaqları qatlayır və özləri simmetriyanın mahiyyətini tam və dəqiqliklə dərk edirlər. Sonra müəllim sinfə üzünü yenidən tutur və soruşur: "Uşaqlar, bəs hər şeyin(fiqurun) simmetriyası varmı?"

Şagirdlərdən bəziləri bəli, bəziləri isə xeyr söyləyirlər. Sonra müəllim deyir ki, gəlin özümüz nəzər salaq verilmiş əşyalara. Görək, bu əşyalarımızı qatlayanda onlar üst-üstə düşürlərmi?Sonra şagirdlər dogru nəticəni söyləyirlər.

Başqa bir nümunəyə baxaq. Tədqiqatın aparılması mərhələsində sinifdəki şagirdlər 4 qrupa bölünür. 1-ci qrupa yarı hissəsi çəkilmiş meyvələr, 2-ci qrupa yarı hissəsi şəkilmiş heyvanlar, 3-cü qrupa yarı hissəsi çəkilmiş insanlar, 4-cü qrupa isə yarı hissəsi çəkilmiş həndəsi fiqurlar verilir və şagirdlərdən onların tamamlanması (bütövləşməsi)istənilir. Bununla da müəllim təsviri incəsənət dərsi ilə əlaqə yaratmış olur.

Biz təkcə dərsin bu iki mərhələsində yox, dərsin digər mərhələlərində də fənlərarası və fəndaxili əlaqəni yarada bilərik.

III sinfin riyaziyyat dərsliyinə nəzər salsaq burada da "simmetriya" mövzusunda verilən tapşırıqlarda Ana dili, Təsviri incəsənət, Texnologiya və s. fənlərlə inteqrasiya yaradılıb istifadə olundugunu görərik.

Bu cür fənlərarası və fəndaxili inteqrasiyalardan istifadə şagirdlərdə bilik,bacarıq və vərdişlərin daha dərindən dolğun formalasmasına şərait yaradır.

Müxtəlif fənlər və mövzular arasındakı əlaqələrin müəyyənləşdirilməsi və bu əlaqələrin fənlərarası anlayış və bacarıqların formalaşdırılmasında ustalıqla istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Təkcə III sinifdə yox, digər siniflərdə də bu proses diqqətlə və incəliklə qurulmalıdır ki, şagirdlərdə yanlış təsəvvürlər yaranmasın və şagirdlərin riyazi məntiqi təfəkkürü tam inkişaf etmiş olsun.

Ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları, Bakı, Təhsil, 2008, 480 s.

2. N. A. Sadıxov, S. S. Həmidov, Riyaziyyatın tədrisi metodikası (1 – 3 siniflər), Bakı, 1979, 96 s.

3. Qəhrəmanova N.M., Əsgərova C.S., Riyaziyyat II sinif üçün dərslik, Bakı, Altun kitab, 2009, 144 s.

4. Qəhrəmanova N.M., Əsgərova C.S., Riyaziyyat II sinif. Müəllim üçün metodik vəsait, Bakı, Altun kitab, 2009, 128 s.

5. Qəhrəmanova N.M., Əsgərova C.S., Qurbanova L.X., Riyaziyyat III sinif üçün dərslik, Bakı, Altun kitab, 2010, 152 s.

6. Qəhrəmanova N.M., Əsgərova C.S., Riyaziyyat III sinif. Müəllim üçün metodik vəsait, Bakı, Altun kitab, 2010, 168 s.

XÜLASƏ

III sinfin riyaziyyat təlimi yeni təlim prinsiplərinə uyğun qurulmuşdur. Burada fənlərarası inteqrasiyadan geniş istifadə olunması şagirdlərdə tədris zamanı daha dolğun təsəvvürlərin yaranmasına səbəb olur. Bununla da riyaziyyatın təlimi prosesində daha uğurlu nəticələr almaq mümkün olur. Eyni zamanda şagirdlər bütün fənlərin biri–biri ilə əlaqəli olduğunu düzgün başa düşürlər.

Fənlərarası inteqrasiyadan riyaziyyat təlimi zamanı düzgün istifadə etmək lazımdır ki, təlim zamanı müsbət nəticələr əldə etmək mümkün olsun.

РЕЗЮМЕ

Тренинги для 3 класса организованы в соответствии с новыми принципами обучения. Широкое использование междисциплинарной интеграции помогает студентам развить более полное представление об обучении. Тем не менее, в процессе обучения можно получить более успешные результаты. Между тем студенты понимают, что все предметы взаимосвязаны, и для достижения положительных результатов обучения необходимо успешно использовать междисциплинарную интеграцию.

SUMMARY

Trainings for grade 3 are organized in line with new learning principles. The widespread usage of interdisciplinary integration assists students to develop a fuller view of learning. Nonetheless , it is possible to get more successful consequences in the learning process.

Meanwhile, students comprehend that all subjects are interconnected and interdisciplinary integration should be utilized successfully to reach positive learning outcomes.

Mustafazadə Həbibə
ADPU-nun magistrantı
Elmi rəhbər: prof.F.A.Rüstəmov

İBTİDAİ SİNİFLƏRDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ

Açar söslər: *təlim, tərbiyə, ibtidai sinif, bayraq*
Ключевые слова: *обучение, образование, начальная школа, флаг*
Key words: *training, education, primary school, flag*

İbtidai siniflərdə şagirdlərin vətəndaş təhsilini həyata keçirərkən təlim prosesində bir sıra şərtlərə əməl olunmalıdır. Bunlar aşağıdakılardır:

1. Təlim materialı asandan çətinə, sadədən mürəkkəbə prinsipi əsasında obyektiv aləmi düzgün əks etdirməli və şagirdlərin səviyyəsinə müvafiq olmalıdır.

2. Təlim prosesində tətbiq olunan təlim üsulları və qaydaları uşaqların psixi inkişafını təmin etməlidir.

3.Müəllim təlim prosesini diqqətlə izləməli, müsbət keyfiyyətləri rəğbətləndirməli, mənfi cəhətləri isə aradan qaldırmağa çalışmalıdır.

4.Müəllim şagirdlərin inkişaf səviyyəsini müəyyənləşdirib tənzimləməli, şəxsiyyətin intellektual, sosial və mənəvi inkişafının həyata keçirilməsində fasiləsizliyi nəzarətdə saxlamalıdır.

Qabaqcıl müəllimlər təlim prosesində təkcə şagirdlərə nəzəri məlumatlar verməklə kifayətlənmir, onları fəallaşdırmaq üçün müxtəlif metodlardan istifadə edirlər. Təcrübə göstərir ki, müəllimin nəzəri məlumatından sonra şagirdlərlə müsahibə aparılması müsbət nəticələr verir. Bu halda şagirdlərin təfəkkür əməliyyatlarına cəlb olunması onların idrak fəallığını artırır, yeni məsələləri, xüsusilə vətəndaş təhsili ilə bağlı məsələləri öyrənməyə həvəsi, meyli, marağı güclənir. Bu baxımdan qabaqcıl ibtidai sinif müəlliminin keçirdiyi müsahibələrdən birinin nümunəsini təqdim edirik:

M: Kim deyə bilər, vətəndaş təhsili deyəndə nə başa düşürsünüz?

Ş: Vətəndaş təhsili insanın bilik qazanması prosesidir. Bizim bir vətəndaş kimi yetişməyimizdə lazım olan bilik mənbələri buna xidmət edir.

M:Heydər Əliyevin fəaliyyətində vətəndaş təhsilini necə görürsünüz?

Ş:Heydər Əliyev bizim ulu öndərimiz, ümummilli liderimizdir. Onun özü vətəndaş təhsilinə yiyələnmiş ilk böyük azərbaycanlıdır. Onun bizə göstəriş və məsləhətləri budur ki, gərək hər birimiz vətənimizi, dövlətimizi sevək.

M: Vətəni, dövləti sevmək üçün nə etmək lazımdır?

Ş: Vətəni, dövləti sevmək üçün, əvvəlcə onun tarixini öyrənmək lazımdır. Əgər ulu babalarımızın keçdiyi tarixi zəfər yoluna bələd olmasaq, xalqımızın başına gətirilən faciəli hadisələrdən xəbərsiz olsaq, onda vətəni, dövləti sevə bilmərik?

M: Vətəni, dövləti sevmək məktəblilərə, gənclərə nə üçün lazımdır?

Ş: Biz vətənsiz, dövlətsiz xalq, millət ola bilmərik. Bu sevgi hissi bizi torpağa bağlayır. Bizim ulu babalarımız bu torpaqları qorumaq üçün canlarından keçiblər, bu ərazilər babalarımızın bizə mirası, yadigarıdır. Atalar deyiblər ki, əmanətə xəyanət olmaz. Bu sevgi bizi yaşadır,

gələcəyə səsləyir, oxumağa, qurub yaratmağa çağırır. Fikrimizcə, təhsil bizim həm də kimliyimizi, vətəndaşlığımızı, insan, millət kimi keyfiyyətlərimizi dərk etməyə kömək edir.

M: Şəhidlər Xiyabanını nə üçün müqəddəs yer hesab edirik?

Ş: Şəhidlər Xiyabanında bizim azadlığımız uğrunda şəhid olmuş insanlar dəfn olunublar. Biz bilirik ki, Məhəmməd Peyğəmbər də şəhidliyi qəhrəmanlığın zirvəsi hesab etmişdir. Onların da vətən, torpaq sevgisi güclü idi.

Müəllim sonda şagirdlərin cavablarını ümumiləşdirərək qeyd edir ki, vətəndaş təhsili əslində insanın bütün ömrü davam edir. Mənəvi əxlaqi keyfiyyətlərə yiyələnmək, vətəni, dövləti sevmək, onu daim qorumaq, insan hüquq və azadlıqlarını mənimsəmək, cəmiyyətin inkişafına xidmət edən fəaliyyət sahələri ilə məşğul olmaq vətəndaş təhsilinə şamil edilə bilər. Burada son nəticə insanın şəxsiyyət kimi formalaşmasıdır. Yəni görülən hər bir tədbir, qazanılan mənəvi keyfiyyətlər, təhsilin məzmunu buna yönəldilir. Ona görə də vətəndaş təhsilini dar, məhdud çərçivədə başa düşmək düzgün deyil.

Təcrübə göstərir ki, təlim prosesində vətəndaş təhsili məsələlərinə bu aspektdən yanaşdıqda şagirdlərin təlim - tərbiyəsində uğurlu nəticələr əldə etmək mümkün olur. Hələ kiçik yaşlı məktəbli olsalar da, onlar vətənin, vətəndaşlığın mahiyyətini anlayaraq cəmiyyətin, dövlətin inkişaf perspektivlərinə nəzər salır, öz üzərlərinə düşən məsuliyyəti dərk edir, hətta, öz yoldaşları arasında geridə qalanlara kömək göstərir, onların fəallığına çalışırlar.

İbtidai siniflərdə şagirdlərdə vətəndaş təhsilinin həyata keçirilməsində hər bir fənnin öz yeri, özünəməxsus cəhətləri vardır. Lakin "Oxu" fənni digər fənlərdən bir sıra cəhətlərinə görə fərqlənir. Əvvəla, ona görə ki, vətəndaş təhsilinin məzmununda daha çox humanitar biliklər əks edildiyindən "Oxu" fənninin tədrisi buna geniş imkanlar açır.

İbtidai sinif şagirdlərinin vətəndaş təhsilində hüquq tərbiyəsi xüsusi yer tutur. Təcrübə göstərir ki, vətəndaş yetkinliyinin təmin olunmasında, şəxsiyyətin formalaşdırılmasında vətəndaş təhsilinin mühüm komponentlərindən biri kimi hüquq tərbiyəsinin böyük rolu vardır.

Uşaq hüquqlarının öyrədilməsi prosesində aşağıdakı amillər diqqət mərkəzində saxlanılır:

1. Vəzifə, tapşırıqların bölgüsündə ədalətlilik;
2. Qızlarla oğlanlar, müxtəlif təbəqələrə mənsub şəxslər arasında bərabərlik;
3. Başqa mədəniyyətləri, dini görüşləri dərk etmək, onlara hörmətlə yanaşmaq, yəni dözümlülük;
4. İnformasiyanı qəbul etmək, sərbəst nəticə çıxarmaq və s. baxımdan müstəqillik;
5. İnam, yəni özünə və başqalarına inam, sözlə əməlin vəhdəti;
6. Əməkdaşlıq, iş birliyi.

Müəllimlər nəzərə almalıdırlar ki, şagirdlərin uşaq hüquqları ilə tanışlığı onları müstəqil, geniş dünyagörüşlü, tənqidi təfəkkürə malik olmağa, vətəndaş təhsilinə keçməyə yönəldilir. Bəzi qabaqcıl müəllimlər ana dilinin, yaxud fakültativ üçün nəzərdə tutulmuş saatların hesabına insan hüquqlarına xüsusi dərs həsr edirlər.

İnsan hüquqları dərslərinə əvvəlcədən hazırlıq işləri görülür. Vərəq, şəkil, yapışqan, rəngli karandaş və s. götürülür, partaların yerini dəyişmək üçün vaxt nəzərə alınır.

Təlim prosesində vətəndaş təhsili sahəsində uğurlu nəticələr əldə etmək üçün aşağıdakı prinsiplərə əməl olunması məqsədəuyğun hesab edilir:

1. Şagirdlərə təzyiq göstərilməməsi;
2. Onlara hörmətlə, məhəbbətlə, qayğı ilə yanaşılması;
3. Yaradıcı müəllimdən yaradıcı şagirdə doğru;
4.Şagirdlərin ikinci dərəcəli məlumatlarla, artıq informasiya ilə yüklənməməsi.

Müəllimlərin belə bir metodla dərsi təşkil etməsi ilk növbədə şagirdlərin əhvali-ruhiyyəsini tənzimləyir, onlar dərsdə çox fəal olur, müstəqil hərəkət edir, bilikalma, təhsillənmənin nə qədər böyük əhəmiyyət daşıdığını öyrənir, mənəvi - əxlaqi keyfiyyətlərə yiyələnirlər. Mənəvi- əxlaqi keyfiyyətlər isə, o cümlədən inam, əqidə, böyüyə hörmət, müstəqillik, insan hüquq və azadlıqlarının dərindən dərki son nəticədə şagirdlərin vətəndaş təhsili sahəsində

böyük irəliləyişlər əldə etmələri ilə yekunlaşır. Bu da bütovlükdə şagird şəxsiyyətinin formalaşması prosesi kimi göstərilə bilər.

Ədəbiyyat

1.Ağayev Ə. Ə. Vətəndaş təhsili günümüzün zəruri tələbidir. // "Azərbaycan məktəbi" jurnalı, 2004,№1, s.100-108

2. Ağayev Ə. Ə. Vətəndaş olmağa borclusan. Bakı: Maarif, 1979, 84 s

3.Əhmədov H. H. Azərbaycan Respublikası Konstitusiyasında təhsil və tərbiyə məsələləri. Bakı, 1998, 88 s.

Mustafazadə Həbibə

İbtidai siniflərdə vətəndaşlıq tərbiyəsinin həyata keçirilməsi

XÜLASƏ

Məktəbli şəxsiyyətinin formalaşdırılmasında onun vətəndaşlıq keyfiyyətləri mühüm yer tutur. Məktəbəqədər təhsil dövründən başlayaraq uşaqlarda vətəndaşlıq hissinin formalaşdırılmasına başlanılmalı, ibtidai siniflərdə bu proses davam etdirilməlidir. Məqalədə ibtidai siniflərdə təlim prosesində vətəndaşlıq tərbiyəsinin nəzəri və praktik məsələləri araşdırılır. Təlim prosesində vətəndaş təhsili sahəsində uğurlu nəticələr əldə etmək istifadə edilən prinsiplər göstərilir.

Мустафазаде Хабиба

Осуществление гражданского образования в начальных классах школе

РЕЗЮМЕ

Его гражданские качества играют важную роль в формировании личности школьника. Начиная с дошкольного образования, нужно начинать формирование у детей чувства гражданственности, и этот процесс следует продолжить в младших классах. В статье исследуются теоретические и практические вопросы гражданского образования в процессе обучения в начальной школе. В учебном процессе показаны принципы, используемые для достижения успешных результатов в сфере гражданского образования.

Mustafazadeh Habiba

Implementation of civic education in primary school

SUMMARY

His civic qualities play an important role in the formation of the student's personality. Beginning with preschool education, building a sense of citizenship in children should begin, and this process should continue in the lower grades. The article examines the theoretical and practical issues of civic education in the learning process in primary school. The educational process shows the principles used to achieve successful results in the field of civic education.

Həsənova Nailə İsaxan qızı

ADPU, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı

NƏTİCƏYÖNÜMLÜ STANDARTLAR ƏSASINDA HAZIRLANMIŞ ANA DİLİ TƏLİMİNİN MƏZMUNU

Açar sözlər: *dinləyib-anlama və danışma, oxu, yazı,dil qaydaları*
Ключевые слова: *прослушивание и речь, чтение, письмо, языковые правила*
Key words: *listening and speaking, reading, writing, language rules*

Ana dili kurikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd hazırlanarkən cəmiyyətimizin ehtiyac və tələbatları, şagirdlərin imkanları, meyil

və maraqları nəzərə alınmışdır. Burada fənn üzrə ümumi təlim nəticələri, məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar və qiymətləndirmə məsələləri əhatə edilmişdir. Ana dili fənn kurikulumu - şagirdlərin nəzəri məlumatlarla yüklənmələrinə deyil, təhsilin müasir inkişaf tendensiyalarını nəzərə almaqla biliklərin tətbiqinə, həyati bacarıqların aşılanmasına istiqamətləndirilmişdir. Ana dili təliminin məzmunu nəticəyönümlü standartlar əsasında hazırlanmışdır. Məzmun standartları hazırlanarkən şagirdlərin idraki, informativ-kommunikativ fəaliyyətlərinin əhatə olunması, düşünmə, emosional bacarıqlarının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Ana dili fənn kurikulumunda fənnin təliminin əsas məqsədi belə ifadə olunmuşdur: "ümumtəhsil məktəblərində ana dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir". İbtidai təhsil pilləsində - əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur. Bütün bunlar nəzərə alınmaqla və ana dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq təhsilin bütün pillələri üzrə aşağıdakı məzmun xətləri təyin edilmişdir.

· Dinləyib-anlama və danışma
· Oxu
· Yazı
· Dil qaydaları

1) Dinləyib-anlama və danışma - bu məzmun xətti danışanı dinləyə bilmək, onun fikrinə münasibət bildirmək, müxtəlif informasiya mənbələrindən alınan məlumatlardan bəhrələnmək, əsas ideyanı 2-ci dərəcəli məsələlərdən seçmək, fikrini inandırıcı şəkildə təqdim etmək bacarıqlarının formalaşdırılmasını təmin edir.

2) Oxu - şagirdlərin dil duyumunun inkişafını, fikrin ifadə olunmasında sözün məna xüsusiyyətlərinin, cümlə və mətnin rolunun anlaşılmasını, lazımi vərdişlərin məqsədyönlü şəkildə təkmilləşdirilməsini, dilin gözəlliyinə, üslubi imkanlarının zənginliyinə şagirdlərin maraq və məhəbbətinin formalaşmasını təmin edir.

3) Yazı - Yazı şagirdlərin duyğu və düşüncələrinin dil normalarına uyğun qaydada nəqli, təsviri və mühakimə xarakterli rabitəli mətn formasında ifadəsini təmin edir.

4) Dil qaydaları - Bu məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yığcam, sadə, aydın qayda və şərhlər formasında şagirdlərə çatdırılmasını, orfoqrafiya qaydalarına riayət edilməsini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir.

Dinləyib anlama və danışma: ünsiyyətin ən mühüm şərtidir. I sinifdə müşahidələr göstərir ki, müəllim danışarkən, çox diqqətlə müəllimə baxan uşaq daxilən başqa şeylər haqqında düşündüyündən onun dediklərini anlamır. Deməli, dinləmək eşitmək deyil. Ona görə də, şagirdlərə dinləmək, danışana diqqətlə qulaq asmaq, onun mahiyyətini başa düşmək tərbiyə olunmalıdır. Dinləmək bacarığına yiyələnən uşağı nə isə narahat edir, sual verməli, nəyi isə aydınlaşdırmalı olur. Belə bir halda uşağın diskussiyaya qoşulmasına şərait yaratmaq lazımdır. I sinifdən etibarən şagirdlərə dinlədiyi fikrə münasibət bildirməyi, ona tənqidi yanaşmağı, müstəqil fikir söyləməyi, mövqeyini müdafiə etməyi öyrətmək lazımdır. Belə bir bacarıq onlara düşdükləri situasiyadan asılı olaraq müəyyən ideyanı inkişaf etdirmək vərdişi aşılayır. Dinləyib- anlama prosesində şagird şifahi nitq bacarıqlarına yiyələndiyini nümayiş etdirməlidir. O, oxuduqları, gördükləri, eşitdikləri, başına gələn əhvalatlar, maraqlı hadisələr haqqında ədəbi dilin normalarına uyğun şəkildə danışmağı öyrənməlidir. Bu məqsədlə müxtəlif vasitələrdən istifadə olunmalıdır. I sinifdə sadə seriya şəkillərdən başlayaraq tədricən mürəkkəb seriya şəkillər, süjetli şəkillər üzrə, tək əşya üzrə nəqletmə bacarığının verilməsinə nail olmaq lazımdır. Belə vərdişlər uşaqları ətraf aləm üzərində müşahidə əsasında sərbəst nəqletməyə

hazırlayır. Dinləyib anlamada mühüm anlardan biri qaradinməz uşağın da dialoqa qoşulmasıdır. Uşağın dialoqa qoşulması, dialoji nitqə yiyələnməsi, dialoqun daha məzmunlu, maraqlı, canlı olmasını, onun gedişinin dəyişməsini təmin edir. Müasir dövrdə insanlar arasında ünsiyyət, mədəniyyətin səviyyəsinin yüksəldilməsi şəxsiyyətin formalaşmasının mühüm şərtlərindən hesab olunur. Kurikulumda bununla əlaqədar nitq etiketlərindən istifadə bacarıqları nəzərdə tutulub. Düşdüyü situasiyadan asılı olaraq nitq etiketləri (günün müxtəlif vaxtlarında adamla görüşərkən salamlaşmaq, qonağı qəbul etmək və yola salmaq, yoldaşını ad günündə təbrik etmək, hədiyyəni təqdim etmək, xəstədən hal-əhval xəbər almaq, üzr istəmək, təşəkkür etmək və s.) seçmək nitq mədəniyyətinin mühüm şərtlərindən biridi. Kurikulumda oxu təliminə xüsusi yer verilmişdir. Oxu təhsilin bünövrəsi, hərəkətverici qüvvəsidir. Oxumağı bacarmayan şagird bütövlükdə təhsil ala, inkişaf edə bilməz. Kurikulumda oxu təlimi prosesində də ana dilinin tədrisinin başlıca prinsipi olan nitq inkişafına xidməti ön plana çəkilir. Şagirdlərin rastlaşdıqları əşya və hadisələri adlandırmaq, oxşarlarını müqayisə etmək, onlara aid müstəqil misallar gətirmək, yeni sözlərin mənasını anlamaq, onlardan və terminlərdən yerində istifadə etmək tələb olunur. Burada leksik işlərə də xüsusi əhəmiyyət verilir. Şagirdlər yaxınmənalı sözlər (geniş-enli, təzə-yeni, hündür-uca-yüksək, gözəl-göyçək-qəşəng, balaca-kiçik-körpə və s.), əksmənalı sözlər (gecə-gündüz, pis-yaxşı, acı-şirin, köhnə-təzə, yad-doğma və s.), çoxmənalı sözlər (yer- yer kürəsi, sahə, oturacaq, dərəcə və s.), omonimlər (qaz- quş, yanacaq, yeri qazmaq; çay- bitki, içki, su mənbəyi və s.) kimi sözlərin hesabına da lüğət ehtiyatını zənginləşdirirlər. Oxu təliminin əsası şagirdlərin oxu texnikasına yiyələnmələri ilə başlanır. Nitq səslərini düzgün tələffüz etməyi, onların yazılı işarələrini (hərflərini) fərqləndirmədən oxu texnikasına yiyələnmək mümkün deyil. Hərfləri birləşdirib hecaları, hecaları birləşdirib sözləri, sözləri birləşdirib cümlələri oxumağı öyrənən birincilər əlifba təliminin axırınadək bütöv sözlərlə (çətin sözləri hecalarla) oxumağı bacarırlar. Bu bacarıq oxu vərdişlərinin (düzgün, sürətli, ifadəli, şüurlu) formalaşmasına şərait yaradır.I sinifdən etibarən elmi-kütləvi materialları bədii materiallardan fərqləndirməyə başlayan şagirdlər sonralar onların növlərini (tarixə, biologiyaya, coğrafiyaya, astronomiyaya, sosiologiyaya aid və s.) ədəbi əsərlərin janrlarını, xüsusiyyətlərini fərqləndirməyi öyrənirlər. I-II siniflərdə maraqlı mətnlərin ("Ayı və şir", "İki yoldaş" və s.) şəkilli planının tutulması üzrə iş böyük maraq doğurur. Onlar mətni bitmiş hissələrə ayırır, hər hissəyə aid necə şəkil çəkməyin mümkün olduğunu nəql edirlər. Onların xəyalən çəkdikləri seriya şəkillər ardıcıl düzüldükdə uşaqların zehnində mətnin məzmunu canlanır. Mətnlərin mənaca bitkin hissələrə ayrılması, hissələrə başlıqların verilməsi, hissələr arasında məna əlaqələrinin müəyyənləşdirilməsi şagirdləri müstəqil plan tərtib etməyə, ona yaradıcı xarakter verməyə istiqamətləndirir. Bu prosesdə mətndəki başlıca fikrin (ideyanın) müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilir. Kurikulumda yazıya da geniş yer verilmişdir. Burada, ilk növbədə, yazı texnikasından söhbət açılır. Savad təlimi dövründə hərflərin elementlərinin yazılması üzrə məşq, onlara istinadən hər bir hərfin sətir xəttində haradan başlayıb, harada qurtarması (konfiqurasiyası), hündürlüyü, eni, onların hecalar, sözlər daxilində sonra gələn hərflərlə necə bitişdirilməsi üzrə iş çox mühüm əhəmiyyət kəsb edir. Sonra hərflər və sözlər arasında məsafənin, sətir xəttində meylin gözlənməsi bacarıqları yaradılır. II sinifdən hərfləri genetik prinsipə əsasən (elementlərinin oxşarlığına görə) qruplaşdırmaq, şagirdlərin səliqəli, təmiz, sürətlə, sərbəst yazmaq vərdişlərinə yiyələnmək tələb olunur. Yazının tətbiqi digər xarakterli yazılarda kalliqrafiya qaydalarından əlavə orfoqrafiya, punktuasiya normalarına əməl olunmasını tələb edir. Savadlı yazının təmin olunmasına maneə törədən cəhətlərdən biri mətndə yazılışı çətin sözlərin, terminlərin işlənməsidirsə, digəri orfoepiya normaları arasında əhəmiyyətli dərəcədə fərqin olmasıdır. I sinifdə yazılışı tələffüzündən fərqlənməyən sözlərdən ibarət mətnlər üzrə işin getməsi şagirdlərin yüklənmələrinin qarşısını alır. Sonralar tədricən mətnlərin məzmununa yazılışı tələffüzündən fərqlənən sözlər, mənaca çətin söz və terminlər daxil edilir. Yazının növünə görə fərqlər də nəzərə alınmalıdır. Aşağı siniflərdə (xüsusilə I sinifdə) daha çox üzündənköçürmə, görmə imladan, tədricən öyrə-

dici imlanın lüğət üzrə, xəbərdarlıqlı, izahlı, sərbəst, yaradıcı növlərindən istifadə olunması məsləhət görülür. Bütün bunlar sistemlə yerinə yetirildikdə şagirdlər yoxlama imla yazarkən çətinlik çəkmirlər. Yazının tətbiqinin üçüncü olan mərhələsi yaddaşa əsasən (əzbər) yazıya kurikulumda xüsusi yer verilir. Kiçikhəcmli sadə şeirlərin yazılması ilə başa çatır. Bütün bunlar şagirdləri yaradıcı yazılar (ifadə, inşa, əməli yazılar) yazmağa hazırlayır. Şagirdlər sadə, anlaşılan mətnlər oxuduqdan sonra yadda saxladıqlarını öz sözləri ilə ifadə edirlər. Belə ifadələrə yaradıcı xarakter vermək üçün mətndə şəxsləri, hadisənin başvermə yerini, vaxtını dəyişmək, əvvəlinə və axırına əlavə etmək tələb oluna bilər. Şagirdlər sadə əşyalar, seriya şəkillər, süjetli şəkillər üzrə inşa yazırlar. Belə inşaların məzmunu əşya və şəkillər tərəfindən diktə olunduğundan şagirdləri tezliklə, daha müstəqil fəaliyyətə (təbiət üzərində müşahidə əsasında inşa yazmağı) yönəltmək tələb olunur. Nəhayət, təsvir, nəqli xarakterli inşalardan fərqlənən, mühakimə elementləri olan, tədricən mühakimə xarakterli (sərbəst mövzuda) inşaların yazdırılması məsləhət görülür. Dilimizin qrammatikasının sistemi haqqında aydın təsəvvür yaratmaq, ardıcıllığı gözləmək məqsədilə şagirdlərin savad təlimi dövründə öyrəndikləri səs və hərfin fərqləndirilməsi, böyük hərflərin sətri hərflərdən fərqləndirilməsi də daxil edilib.Dodaqlanan və dodaqlanmayan, kar və cingiltili samitlərin fərqləndirilməsi üzrə vərdişlər oxu, tələffüz normalarının öyrənilməsinə xidmət edir. Bu dövrdə şagirdlərə fonetik təhlilin öyrədilməsi son dərəcə vacibdir. Əlifba sırasının əzbərlənməsi sorğu kitablarından, lüğətdən istifadə etmək vərdişi yaradır. Kurikulumda şagirdlərə erkən suallara əsasən sözləri qruplaşdırmaq, əşyanın adını, necəliyini, hərəkətini bildirən sözlər - əsas nitq hissələrini, onları köməkçi nitq hissələrindən fərqləndirmək, suallar əsasında onları dəyişmək (hallandırmaq, zamana, şəxsə görə dəyişmək bacarıqları, həmçinin cümlə, onun növləri, baş üzvlər, onların ikinci dərəcəli üzvlərdən fərqi, cümlənin intonasiyaya görə fərqləndirilməsi və s.) üzrə bacarıqlar verilir.Məsələn, I sinfin sonunda məzmun standartlarına görə şagird:

- Dinlədiyi fikri anladığını nümayiş etdirir.
- Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.
- Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.
- Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir.
- Yazı texnikasına və ilkin yazı bacarıqlarına yiyələndiyini nümayiş etdirir.

Ədəbiyyat

1. Abdullayeva G.A.İbtidai siniflərdə oxu dərslərində bədii əsərlərin dili üzərində işin təşkili. Bakı :2004.46s.

2.Dəmirçizadə Ə.Ə. Müasir Azərbaycan dili.Azərbaycan dilinin üslubiyyatı.Bakı Azərnəşr1974.380s.

3.Kərimov Y.Ş.İbtidai siniflərdə şagirdlərin nitqinin obrazlılığının üzərində işin təşkili. Azərbaycan dili və ədəbiyyat tədrisi.1966.N-2.s17-22.

4. Azərbaycan dili (3-cü sinif) Müəllim üçün metodik vəsait. Bakı Altun Kitab. 2010.232səh.

5.Azərbaycan dili (4-cü sinif) Müəllim üçün metodik vəsait. Bakı Altun Kitab. 2011.240səh.

SUMMARY

The content of each subject is determined by the content standards set in the subject curriculum. Textbooks are developed based on content standards, assessment standards and assessment tools, as well as other teaching aids (eg, teaching aids, didactic materials) are developed on their basis. All this serves to achieve these standards. Each subject curriculum includes content standards and strategies used to master them, as well as examples of relevant assessment standards for assessing learning outcomes, knowledge and skills acquired.

Həsənova Nailə
ADPU, İbtidai sinfin tədrisi metodikası və metodologiyası, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d Esmira Məmmədova

İBTİDAİ TƏHSİL SƏVİYYƏSİNDƏ ANA DİLİNİN TƏDRİSİ ÜZRƏ KURİKULUMUN XARAKTERİK CƏHƏTLƏRİ VƏ ELMİ-TƏTBİQİ ƏSASLARI

Açar sözlər: *təhsil,rabitəli nitq , ibtidai sinif şagirdləri*
Ключевые слова: *образование, связная речь,маленький школьник*
Key words: *education, coherent speech, small student*

Azərbaycanda aparılan ictimai, iqtisadi və mədəni dəyişikliklər onun müstəqil bir ölkə kimi sürətlə, inkişaf etdirilməsinə yönəlmişdir. Artıq on ildən çoxdur ki, Azərbaycanın təhsil həyatında uğurlu təhsil islahatları həyata keçirilir. Təhsilin bütün pillələrində, o cümlədən ümumi təhsildə köklü dəyişikliklər aparılır. Təhsilin bütün səviyyələrində qlobal dünyanın tələblərinə uyğun standartların, pedaqoji texnologiyaların, idarəetmə və qiymətləndirmə mexanizmlərinin hazırlanması istiqamətində tədbirlər görülür. Ölkəmizin təhsil siyasətinə uyğun olaraq bu işlərin uğurla həyata keçirilməsi, Azərbaycan cəmiyyətinin inkişaf etdirilməsi baxımından daha da təkmilləşdirilməsi hazırkı dövrün ən məsul və ciddi vəzifələrindən hesab edilir. Ümumi təhsil pilləsinin ibtidai təhsil səviyyəsində də həyata keçirilən dəyişikliklər dövrün tələbinə uyğun şəkildə aparılır.

İbtidai təhsildə ana dilinin tədrisinin elmi–nəzəri problemlərini lazımi səviyyədə öyrənmək üçün hökmən mövcud durumun araşdırılmasına ehtiyac duyulur. Ona görə də hər hansı bir nəzəri problemi bu və ya digər dərəcədə araşdırmaq istəyən tədqiqatçı məsələnin mövcud vəziyyətini müəyyənləşdirməklə ümumi mənzərəyə aydınlıq gətirir və fikirlərini daha inamlı və inandırıcı ifadə etmək üçün imkan qazanır. Bu mənada biz də ibtidai təhsildə ana dilinin mövcud vəziyyətini aydınlaşdırmaq üçün məsələyə bir neçə istiqamətdən yanaşmağı faydalı hesab etdik. Bunun üçün aşağıdakı məsələlər ətrafında fikir mübadiləsi apar-maqla problemə aydınlıq gətirməyə çalışdıq:

- ibtidai təhsilin məzmunu;
- ibtidai təhsilin tədris planında yeri;
- ibtidai təhsilin kurikulumu.

İbtidai təhsilin məzmununa məqsəd, nəticələr və fənlər daxil edilmişdir. Məqsədlər aşağıdakılardan ibarətdir:

- "uşaqlarda oxu, yazı və hesablama vərdişləri yaratmaq və möhkəmləndirmək;
- uşaqlara insan, cəmiyyət, təbiət və onlar arasındakı qanunauyğunluqlar haqqında ilkin həyati biliklərin verilməsini təmin etmək;
- uşaqlarda məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq, istedadlı uşaqların erkən yaşdan üzə çıxarılması və inkişafını təmin etmək;
- uşaqlara həssaslıq, estetik və bədii zövq, əxlaqi-mənəvi keyfiyyətlər, fiziki mədəniyyət və özünəxidmət bacarıqları aşılamaq" (1, s.132).

Adətən ənənəvi təhsil proqramlarında konkret məqsədlər göstərilmir, lakin məzmun verilir, məzmunun reallaşdırılması üçün konkret məqsədlərin müəyyənləşdirilməsi tövsiyə olunur. İbtidai təhsilin məzmununa daxil edilmiş məqsədlər də çox düzgün olaraq əvvəlcədən müəyyənləşdirilmişdir. Göründüyü kimi, bu məqsədlərdə ən zəruri həyati bacarıqlar, təbiət və cəmiyyətə aid biliklər, təfəkkür elementlərinin formalaşdırılması, hissi-emosional və fiziki inkişafla bağlı keyfiyyətlər əhatə edilmişdir. Bu məqsədlərdən doğan və bilavasitə onlarla əlaqəliliyi aydın şəkildə göstərən nəticələr verilmişdir. İbtidai təhsil üzrə belə ümumi nəticələrin sayı ondur.

Araşdırmalar onu göstərir ki, nəticələrin hansı prinsiplərə və ya tələblərə əsasən seçildiyi məlum deyildir. Orada yalnız ənənəvi təcrübəyə istinad olunmuş və bu nəticələr müəllimlərin bəzi empirik qənaətləri əsasında formalaşdırılmışdır. Həmin nəticələrdə struktur və məzmun cəhətdən mürəkkəblik nəzərə çarpır. İbtidai təhsilin yeni məzmununun maraqlı xüsusiyyətlərindən biri də tədrisi nəzərdə tutulan həmin fənlərin əsaslandırılması və onlara aid nəticələrin verilməsidir.

Fənnin əsaslandırılması onun əhəmiyyətlilik dərəcəsini, zəruriliyini ifadə edir. Bu isə fənnin təsadüfi seçilmədiyini, onun artıq təlim yükünə çevrilmədiyini və şagirdlərin inkişafında nə dərəcədə praktik rol oynadığını aydın şəkildə göstərir.

Məsələn, ana dili fənninin əsaslandırılması belədir: ”Fənnin əsaslandırılması əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq olunması, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, əxlaqi- mənəvi dəyərləri, milli adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur” (1, s.134)

Əslində isə fənnin əsaslandırılması zamanı ona aid bilik və bacarıqlardan həyatın hansı sahələrində istifadə olunması, şagirdin praktik olaraq onu harada tətbiq etməsi müəyyənləşdirilməli və onlara istinad olunmalıdır. Bu, fənnin zəruriliyini ifadə etməklə onun daha inandırıcı təqdim olunmasına kömək edə bilər.

Heç şübhəsiz, burada bir təhsil pilləsi səviyyəsində ümumi yanaşma tərzindən istifadə olunur. Bu yanaşma ümumi milli səviyyədə fənnin müəyyən pillə üçün əhəmiyyətlilik dərəcəsini ifadə edir. Yuxarıda qeyd olunduğu kimi, ibtidai təhsilin məzmunu nəticələr formasında ifadə edilir. Bunlar təhsil pilləsinin sonu üçün müəyyən olunmuş nəticələrdir. İlkin yanaşmada həmin nəticələr inteqrativ xarakter daşıyır və ibtidai təhsilin sonunda milli standartlar səviyyəsində təqdim olunur.

Araşdırmalar qənaətə gəlməyə imkan verir ki, “Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)” sənədində ümumi ibtidai təhsilin bölməsində nəticələr ayrı- ayrı fənlər üzrə sahələrə aid anlayışların nəzəri və praktik cəhətdən formalaşmasına yönəldilmişdir. Şagirdlərin intellekt səviyyəsinin yüksədilməsinə, idrak fəaliyyətinə dair bacarıqların formalaşdırılmasına zəif diqqət yetirilmişdir. Bütün bunlar aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir.

1. ibtidai təhsilin məzmunun yaradılması sahəsində Azərbaycanda zəngin təcrübə toplanmışdır.
2. ”Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)” sənədində verilmiş ibtidai təhsilin məzmununda ibtidai təhsilin məqsədləri, ümumi təlim nəticələri, bu pillə üzrə fənlər, onların əsaslandırılması, ümumi nəticələr əhatə edilmişdir.
3. bəzi məqsəd və nəticələrin arasında uyğunsuzluğun olması, nəticələrin ibtidai təhsil səviyyəsi baxımından qeyri-konkretliyi, şagirdlərin intellekt səviyyəsinin, idrak fəallığının inkişaf etdirilməsi ilə zəif əlaqəliliyi ibtidai təhsilin məzmununun bilavasitə elmi–nəzəri problemlərinin müasir səviyyədə həll olunmaması ilə bağlıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) // Kurikulum. Bakı, 2008, № 1 s.131-150.
2. Abbasov Ə.M. Ümumtəhsil kurikulumlarının hazırlanması üzrə tədqiqatların nəticələri barədə // Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2009, №1, s. 9-11.
3. Xudiyeva G.S. Ana dili kurikulumunun xarakterik xüsusiyyət- ləri // Kurikulum. Bakı, 2008, № 2, s. 48-53.
4. Kərimov Y.Ş. Ana dili kurikulumu: standartları və alt- standartları // İbtidai məktəb və məktəbəqədər tərbiyə. Bakı, 2007 № 4, s. 15-24.

5. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.

XÜLASƏ

Azərbaycanda həyata keçirilən təhsil islahatları onun bütün mərhələlərində də dəyişikliklər aparmaqla yeni bir sistemin yaradılmasına yönəldilmişdir. Xüsusən yeni təhsil siyasətinə uyğun tətbiq olunan konsepsiyanın, yeni kurikulumların hazırlanması, ibtidai təhsilə dair fikir və mülahizələrin formalaşdırılması zəruri hal kimi dəyərləndirilir. Ana dili kurrikulumu şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onları həyata hazırlayır, fəaliyyət və inkişaf bacarıqlarını genişləndirir

РЕЗЮМЕ

Реформы образовани в Азербайджане направлены на создание новой системы путем внесения изменений на всех этапах. В частности, считается необходимым разработка концепции, новых учебных программ и формирование взглядов и мнений о начальном образовании в соответствии с новой политикой в области образования. Учебная программа на родном языке развивает творческие способности учащихся, подготавливает их к жизни, расширяет их активность и навыки развития.

SUMMARY

Education reforms in Azerbaijan are aimed at creating a new system by making changes at all stages. In particular, the development of the concept, new curricula, and the formation of views and opinions on primary education in accordance with the new education policy are considered necessary.The mother tongue curriculum develops students' creative abilities, prepares them for life, and expands their activity and development skills.

Daşdanova Səlbinaz Mehman qızı
Elmi rəhbər: b\m, p.ü.f.d.İsmayılova M.

ŞAGİRDLƏRİN KOMPÜTER SAVADLILIĞININ ARTIRILMASININ ZƏRURİLİYİ

Açar sözlər: *kompüter, savadlılıq, kompüter savadlılığı, texnologiya, şagirdlər*
Ключевые слова: *компьютеры, грамотность, компьютерная грамотность, технологии, студенты*
Key words: *computers, literacy, computer literacy, technology, students*

Kompüter texnologiyası XXI əsrdə gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir. Həyatın müxtəlif sahələrində kompüterlərin istifadəsi müasir insanların həyat tərzində və peşə fəaliyyətlərində dəyişikliklərə səbəb olur. Hal-hazırda ölkə cəmiyyətinin ümumi informasiyalaşdırılması - elektron hökumət xidmətlərinin yayılması, elektron təhsil, elektron kitabxanaların yaradılması bütün yaş və sosial qruplarında kompüter bacarıqlarının olmasını tələb edir. XX əsrin 70-80-ci illərində kompüterlərin təlim texnologiyasına daxil olması nəticəsində yeni təlim texnologiyasının əsasının qoyulması, kompüter təliminin əsasında kompüterlərdən istifadə etməklə proqramlaşdırılmış təlimin dayanması "təlimin kompüter texnologiyası"nın artıq "informasiya texnologiyaları" ilə əvəz olunması diqqəti cəlb edirdi. Bu mənada şagirdlərin kompüter savadlılığının formalaşdırılması müasir təhsilin ən aktual vəzifələrindən biridir, çünki cəmiyyətin hazırkı inkişaf mərhələsi təhsilin kompüterləşdirilməsi və informasiyalaşdırılması ilə xarakterizə olunur. Çox vaxt kompüter savadlılığı fərdi kompüterlə işləmək bacarıqlarına yiyələnmək kimi başa düşülür. Unutmaq olmaz ki,buraya kompüter vasitələrindən, xüsusən də elektron poçtdan istifadə etmək bacarığı; elektron mətn, cədvəllərlə işləmə bacarığı; təqdimatlar və məlumat bazaları yaratmaq bacarığı da daxildir. Çox vaxt "savadlılıq" kateqoriyası bəzilərinin bir sıra bilik, bacarıq və vərdişlərin mənimsənilmə dərəcəsi kimi başa düşülür. Savadlılıq tarixən dəyişkəndir, artdıqca genişlənməyə meyllidir və fərdin inkişafı üçün sosial tələblərdən biridir. B.S.Gerşunskiyə görə, savadlılıq insana müəyyən başlanğıc

imkanları təqdim edir. Savadlı insan, ilk növbədə, hazırlıqlı bir insandır. Əgər savadlılıq tələbatı tarixən qrafik yazı sistemlərinin yaranması ilə əlaqələndirilirsə, onda kompüter savadlılığının yaranması kompüter qurğuları, onların insan fəaliyyətinin müxtəlif sahələrində (elm, təhsil, mədəniyyət, istehsal, tibb və s.) kütləvi paylanması və tətbiqi ilə əlaqədardır. Kompüter savadlılığının daha inkişaf etmiş anlayışlarından biri də İngiltərə məktəblərində qəbul edilmiş bir anlayışdır. Əsas məzmunu belədir: Kompüter savadlılığı bir hesablama sisteminin nə olduğunu anlamaq; kompüter terminlərinin lüğətindən istifadə etmək; zəruri hallarda kompüterlərlə işləmək bacarığı; kompüter texnologiyalarının istifadəsi barədə, sənaye, iqtisadiyyat və digər sahələrdə məlumatların işlənməsinin müasir metodları, kompüterlərin istifadəsinin sosial aspektləri barədə biliklər toplusudur.

"Azərbaycanda Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013 dekabr) da kompüter savadlılığının, İKT avadanlıqlarından istifadənin vacibliyi vurğulanaraq strateji hədəf kimi qarşıya qoyulur:"Dördüncü strateji istiqamət müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir."

Şagirdlərin kompüter savadlılığını artırılmasının vacib cəhətləri çoxdur. Müasir dövrdə kompüter bilikləri olan şagirdlər müstəqil şəkildə öz fəaliyyətini istiqamətləndirə bilir , həmçinin müstəqil olurlar. Yəni istinad və istifadə edəcəkləri mənbələri özləri təyin edir. İndiki dövrdə multimedia proqramları ancaq sinifdə istifadə olunan resurslar olaraq məhdudlaşmır. Onlar şagirdlərin işlərinin zənginləşməsində və maraqlarının cəlb edilməsində xüsusi əhəmiyyət kəsb edir. Şagirdlər kompüterlər vasitəsilə ilə fərdi şəkildə öyrənir, öz fikir və mülahizələrini yoldaşları və digər öyrənənlərlə paylaşır. Yəni kompüterlər həm də ünsiyyət vasitəsi kimi çıxış edir. "Öyrənənlərin fərdi anlayışları və təcrübələri kurikulumun məzmunu ilə müqayisə edilməlidir. Şagirdlərə fərdi anlayışlarının düşüncə tərzlərini aydınlaşdırmaqla müəllimlər şagirdlərin əvvəlki təcrübələrinin onların cari fəaliyyətlərinə təsirini müəyyənləşdirə bilər və şagirdlərin yeni təcrübələr vasitəsilə təhsillərini inkişaf etdirilməsinə köməklik edə bilər.

Kompüterlərdən həmçinin fəal xarakterli işlərdə ;

•məlumatların və resursların toplanması;

•həmkarlarla söhbət

•çətin məsələlərin həlli və ya mühakimə yürütmək prosesində istifadə oluna bilər." (2, s.57)

Məsələn , e-poçt vasitəsilə onlayn söhbət etmək fəal əməliyyatdır və bu növ müzakirələr adətən sürətli mühakimə yürütməyi tələb edir. Bunlar bizə ideyalar haqqında düşünmək və öz anlayışlarımızı yoxlamaq imkanı verir. (2,s.58)

Təlim prosesində kompüterdən istifadə birgə öyrənmə prosesini və öyrənənlər arasında əməkdaşlığı yüksələn xətlə irəlilədə bilir, həmçinin onların müəllimdən asılılığını da azaldır. Çünki bu texnologiya şagirdlərə məlumatları toplamaq və idarə etmək imkanı verir və onlarda yüksək səviyyəli mühakimə yürütmək bacarıqlarını inkişaf etdirir. "Şagirdlər həyatla bağlı olan məlumatları topladıqca, əldə etdikləri nəticələri məktəbdən xaricdə olan öyrənənlərlə paylaşdıqca və bu nəticələri dərc etdikdə onların bu prosesdə rolu genişlənir və şagirdlər başqalarının əməyinin məhsullarını araşdıran şəxsdən öz şəxsi fəaliyyətini tərtib edən , materialları təchiz edən və dərc edən şəxsə çevrilir" (2, s.59).

Təhsil prosesində informasiya-kommunikasiya texnologiyalarından (İKT) səmərəli istifadə müasir təhsilin aktual problemidir. Multimedia texnologiyalarından istifadə edərkən bilik müxtəlif qavrayış kanalları (əyani, eşitmə) yolu ilə əldə edilir, buna görə daha yaxşı

mənimsənilir və daha uzun müddət yadda qalır. İKT ilə müasir pedaqoji texnologiyaların inteqrasiyası marağı stimullaşdırır, mövzuları öyrənmək üçün motivasiya üçün şərait yaradır, öyrənmə və özünütəhsilin səmərəliliyinin artırılmasına və təhsilin keyfiyyətinin yüksəlməsinə kömək edir. Təhsil prosesində informasiya texnologiyalarından istifadə aşağıdakılara kömək edir:

- Təhsilin keyfiyyətinin artırılması;
- Şagirdlərin idrak fəaliyyətinin səmərəli təşkili və yüksək səviyyədə motivasiya, təhsil fəaliyyətinə maraq formalaşdırılması;
- Təhsil prosesinin fərdiləşdirilməsi və fərqləndirilməsi üçün məhdudiyyətsiz fürsətlərin yaranması ilə əlaqədar olaraq hər bir şagirdnin öz təhsil trayektoriyasının inkişafı;

Kompüter tədris prosesini genişləndirmək üçün şərait yaratmağa imkan verir: təlimin məzmununu, metodlarını və təşkilati funksiyalarını yaxşılaşdırır. Kompüterin geniş imkanları vardır, o mövzu üçün yüksək keyfiyyətli proqram seçiminə, fərdi kompüterin sinifdə istifadəsinə, tədris prosesinin aktivləşdirilməsinə, şagirdlərin gizli zəkalarını və yaradıcılıqlarını həyata keçirmələrinə kömək edir. Kompüter videolarının və nümayiş təqdimatlarının sistematik istifadəsi təxəyyül, mücərrəd düşüncəni inkişaf etdirir, öyrənilən tədris materialına və bütövlükdə mövzuya marağı artırır. Təlim proqramlarında yalnız statik məlumatları deyil, rəng, qrafika, titrək effektindən istifadə edərək dinamiklərdə müxtəlif dil hadisələrini nümayiş etdirən cədvəllər, diaqramlar, istinad qeydləri şəklində müxtəlif təqdimat formalarından istifadə edilə bilər. İKT-nin səriştəli, əsaslandırılmış istifadəsi təhsilin keyfiyyətinin səmərəliliyinin artmasına və şagirdlərin əsas və fənn səriştələrinin formalaşmasına kömək edir. Təqdimatda diaqramların, cədvəllərin qurulması vaxta qənaət etməyə, materialı daha estetik dizayn etməyə imkan verir. Sonrakı yoxlama ilə tapşırıqlar şagirdlərin diqqətini aktivləşdirir, orfoqrafik sayıqlıq yaradır. Krossvordların, illüstrasiyaların, rəsmlərin, müxtəlif əyləncəli tapşırıqların, testlərin istifadəsi, dərsə marağı artırır, daha maraqlı edir. Testlərin istifadəsi müəllimin vaxtına qənaət etməklə yanaşı, şagirdlərin də bilik və bacarıqlarını özləri qiymətləndirmələrini təmin edir. İnformasiya texnologiyaları təhsil məlumatlarını təqdimetmə imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, şagirdlərin öyrənmə motivasiyasını əhəmiyyətli dərəcədə artıra bilər, qabiliyyətlərinin ən geniş şəkildə açıqlanmasına kömək edir, zehni fəaliyyətini artırır.

Nəticə etibarı ilə qeyd edə bilərik ki, təhsil prosesində kompüterdən istifadə təhsil vəzifələrinin qoyulması və həyata keçirilməsi prosesinin idarə edilməsi imkanlarını artırır, təhsil prosesinin idarə edilməsində çevikliyi təmin edərkən şagirdlərin fəaliyyətinə nəzarəti keyfiyyətcə dəyişdirməyə imkan verir. Kompüter şagirdlərdə düşüncənin formalaşmasına da kömək edir.

Ədəbiyyat

1. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006
2. Əliyeva F.A ,Məmmədova.Ü.R.Müasir təlim texnologiyaları.Bakı ,2015
3. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadova, K.R.Quliyeva, İ.H.Sultanova, S.E.Cavadova. Kurikulum bələdçisi. Bakı, 2019
4. Kərimov Y.Ş .Təlim prosesində yeni texnologiyalar. Bakı:Mürtəcim,2011
5. ”Kurikulum” jurnalı,2018,No1-4
6. Mehrabov A. Pedaqoji texnologiyalar. Bakı-2006
7. Nəzərov A. Təhsilin müasir problemləri.Bakı ,2010
8. Зайцев В.С. Современные педагогические технологии. Челябинск: ЧГПУ, 2012

РЕЗЮМЕ

В результате использование компьютеров в учебном процессе повышает возможности управления процессом постановки и выполнения учебных задач, позволяет качественно изменить контроль за деятельностью обучающихся, обеспечивая гибкость

в управлении учебным процессом. Компьютер также помогает студентам сформировать мышление.

SUMMARY

As a result, the use of computers in the educational process increases the ability to manage the process of setting and implementing educational tasks, allows you to qualitatively change the control over the activities of students, while providing flexibility in the management of the educational process. The computer also helps students develop thinking.

Əsədova Rita
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ONLİNE TƏHSİL VƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ

Açar sözlər: *təhsil, distant təhsil, online təhsil, texologiyalar, komanda, teams platforması*

Ключевые слова: *образование, дистанционные образование, онлайн образование, технологии, команды, платформа Teams*

Key words: *education, distance education, onlayn education, technology, team, platform Teams.*

Son onilliklərdə bütün fəaliyyət sahələrində elmi-texniki tərəqqi müşahidə edilmişdir. Təhsil də bu gün çox vacib olan bir istisna deyil. Təhsil sahəsi yüksək sürətlə inkişaf edən ən qabaqcıl və yenilikçi sahələrdən biridir. Təhsil sahəsi yenilikçi bir mühitin yaradılmasında və bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında əhəmiyyətli rol oynayır. Təhsildə yeniliklər tədris prosesində informasiya texnologiyalarından (İT) istifadənin artmasına, elektron və məsafədən təhsil elementlərinin tətbiqinə doğru inkişaf edir.

Təhsil - insanın tərbiyə və təlim sistemi, eləcə də əldə edilmiş bilik, bacarıq, münasibət, dəyərlər, funksiyalar, təcrübə və kompetensiyaların məcmusudur. Geniş anlamda təhsil dedikdə ağlın formalaşma prosesi, insanın şəxsi xüsusiyyətləri və fiziki qabiliyyətləri başa düşülür. Təhsil-sosial və tarixi təcrübənin, bilik, bacarıq, vərdişlərin ənənəvi olaraq ötürülməsi və mənimsənilməsinin təşkili prosesidir.

Bir fərd kimi insanın təcrübəsi onun ölümündən sonra belə itmir.Əksinə insanın inkişaf etmiş ağlı və ünsiyyət qabiliyyətləri sayəsində cəmiyyətdə artır. Təcrübənin toplanması nəticəsində mədəniyyətin yaranmasına gətirib çıxarır. Mədəniyyət isə bir şəxsin yox,ümumi cəmiyyətin təcrübəsidir. Təhsil də mədəniyyətdə yığılmış təcrübələrin yeni nəsillərə ötürülmə prosesidir. Təhsil prosesi təhsil müəssisələri vasitəsilə həyata keçirilir. Bu təhsil müəssisələrinə uşaq bağçaları,məktəblər, kolleclər, ali məktəblər və digər təhsil müəssisələri, bundan əlavə özünütəhsil imkanları və internetin geniş imkanları da aiddir. Ümumiyyətlə adi mənada təhsil dedikdə şagirdlərin müəllim tərəfindən öyrədilməsi ilə məhtudlaşması nəzərdə tutulur. O yazmağı və oxumağı öyrətməkdən, riyaziyyatdan, tarixdən və digər elmlərdən ibarətdir. Astrologiya, hüquq, coğrafiya, zoologiya kimi xüsusi ixtisaslardakı müəllimlər yalnız bu fənləri tədris edə bilər. Təhsilin ixtisaslaşması təhsilalanların yaşı artdıqca artır Hətta xüsusi peşə ixtisasların da tədrisi vardır. Məsələn buna sürücülük peşəsini göstərmək olar. Peşəkar təhsil müəyyən peşə və ixtisaslar üzrə əldə edilmiş bilik, bacarıq, pedoqoji səriştələtin müşayiəti ilə şəxsiyyətin peşəkar formalaşması və inkişafı prosesidir. Təhsil müəssisələrində və ya xüsusi təhsil müəssisələrində təhsil almaqdan əlavə özünütəhsil ilə, internet ilə, muzeylərə səyahət ilə və ya şəxsi təcrübə yolu ilə də təhsil almaq olur. Həm ümumi həm də xüsusi təhsilin səviyyəsi cəmiyyətdəki istehsalatın tələbləri, elm, texnika, cəmiyyətin mədəniyyəti, həm də ictimai münasibətlərlə müəyyən edilir. Təhsil ilə bağlı dahi alimlərin bir çox fikirləri vardır. Dahi alim Pifaqor təhsil ilə bağlı belə demişdir:”Təhsili başqaları ilə paylaşmaq və

başqa insanlara vermək olar,lakin özü itirilmir". Ümumiyyətlə insanları ilə heyvanlardan, azad doğulanları kölələrdən, filosofları sadə insanlardan fərqləndirən məhz təhsildir.

Azərbaycanda da digər inkişaf etmiş ölkələrdə olduğu kimi təhsilə çox önəm verilir. Azərbaycanda ümumi təhsil müəyyən proqram yəni "Kurikulum" əsasında aparılır. Müəyyən pillələrə əsasən həyata keçirilir.Hər pillə də özünəməxsus səviyyələrə ayrılır. Bu pillələr aşağıdakılardır:

- Məktəbəqədər təhsil
- Ümumi təhsil-ibtidai,orta,tam orta təhsil səviyyələri
- Peşə təhsili-ilk peşə, texniki peşə, yüksək texniki peşə təhsili səviyyələri
- Orta ixtisas təhsili
- Ali təhsil –bakalavr, magistr, doktorantura təhsili səviyyələri

Artıq uzun müddətdir ki, pandemiya ilə əlaqədər olaraq demək olar ki bütün təhsil müəssisələrində təhsil onlayn distant (online)şəklində davam etdirilir. Distant təhsil təhsil sahəsində öz yerini tutmuşdur. Distant (onlayn) təhsil tamamilə komunikasiya texnologiyalarından istifadə edərək həyata keçirilir. Distant təhsil forması müxtəlif distant təhsil texologiyalarla, formalar, metod və vasitələrlə internet şəbəkəsi üzərindən həyata keçilir. Texnologiyanın geniş yayılmış bu tipində müəllim dərs vəsaitlərini şagirdlərə ötürür, daha sonra interaktiv sistemin köməyilə müəllim və şagirdlər arasında əlaqə qurulur. Distant təhsil öyrənmək istəyən lakin vaxtı olamayan insanlar üçün çox yaxşı vasitədir. Eyni zamanda yaşadığı ərazi hüdudlarından çıxmadan digər ölkələrdə təhsil almaq istəyən şəxslər üçün də çox yaxşı vasitədir. Bu şəkildə təhsil alandan sonra alınan diplom digər ölkələrdə olduğu kimi Azərbaycanda da tanınır(müsabiqədən sonra). Distant təhsildə üstün cəhətləri aşağıdakıları göstərmək olar:

- təlimə çəkilən xərclər əhəmiyyətli dərəcədə azalır (binaların icarəsinə, həm müəllimlər, həm də tələbələr üçün təhsil yerinə səyahətə pul xərcləməyə ehtiyac yoxdur);
- inkişaf etdirilmiş sistemdən istifadə edərək bir anda çox sayda insan yetişdirə bilərsiniz;
- müasir vasitələrdən, elektron kitabxanalardan və İnternet resurslarından istifadə etməklə təhsilin keyfiyyətinin artırılması;
- müəyyən bir müddət ərzində yalnız təlimə deyil, həm də birgə effektiv təlimə imkan verəcək bir optimal proqram hazırlamaq mümkündür.

İnterneti istifadə edən distant təhsil texnologiyaların köməyilə həm ali təhsil almaq, həm də mütəxəssislərin ixtisasını artırmaq üçün xüsusi kurslara yiyələnmək mümkündür.Burada bakalavr proqramları üzrə təhsil almaq imkanı var ki, bunun nəticəsində universal profilli bir universitet məzunu oluruq. Sonra magistraturaya daxil olaraq başqa ixtisasa yenidən hazırlaşmaq mümkündür. Bu günə qədər Bakıda 6 ixtisas üzrə distant təhsil həyata keçirilir. Ancaq bu yalnız rus dilində aparılır. Mümkün olduğu təqdirdə Bakı İnnovativ Texnologiyalar Mərkəzi artıq Azərbaycan dilində bir təlim proqramı hazırlamağa başlamışdır. Bu təlimtələbələrə kreditlə təhsil almaq imkanı verir. Bu sistemin çatışmazlıqları var, lakin effektivliyi artıq dünyanın bir çox ölkələrdə praktikada sınaqdan keçirilmişdir və təsdiqlənmişdir.

Distanat və elektron təhsilin nə demək olduğunu müəyyənləşdirə bilərik. Bir çoxu birini digərindən ayırmır. Bu anlayışlar UNESCO mütəxəssislərinin tərifinə görə fərqlənirlər.Belə ki, E-learning (elektron, yəni onlayn təhsil) termini İnternet və multimediya vasitəsi ilə öyrənmə deməkdir. Distanat təhsil isə müəllim və tələbə uzaq məsafədə olduqda bütün materialların ötürülməsi bəzi ünsiyyət vasitələri ilə ötürülməsi və yayımlanması həyata keçirilir. Yəni distant təhsildə elektron təhsildə olduğu kimi müəllim və tələbə arasında daima görüntülü və ya digər formada əlaqə qurulmur.

Distant təhsil tələbi getdikcə artır. Buna səbəb insanın daha az vaxtının olmasıdır. Distant təhsil sayəsində insan istədiyi vaxt təhsili onun üçün rahat bir mühitdə vaxtını itirmədən ala bilər. Distant təhsil haqqında danışarkən, bir çox distant təhsil sisteminin olduğunu qeyd

etmək lazımdır.Hər hansı bir qurum bu sistemi tətbiq etmək istəyirsə, o zaman bu və ya digər distant təhsil sistemini seçmək məsələsi ilə qarşılaşır. Distant təhsil və ya elektron təhsil elementlərindən istifadə edərək öyrənmək üçün bir çox platforma var, ancaq müəyyən bir sayt seçərkən bu və ya digər platformanın tam olaraq nəyin həyata keçirəcəyini özünüz müəyyən bir strategiya və hədəfləri müəyyənləşdirməlisiniz.

Distant və elektron təhsil platformalarının bir çox təsnifatı var. Şərti olaraq, bu sistemləri tətbiqetmə hədəfinin seçilməsi meyarına əsasən, aşağıdakılara bölmək olar:

- məktəblərdə, universitetlərdə distant təhsilin tətbiqi üçün platformalar;
- distant təhsilin bəzi elementlərinin tətbiqi, yəni təhsil prosesinin elektronlaşdırılması üçün sistemlər;
- korporativ təlim üçün platformalar;
- biznes təlimi üçün platformalar.

Elearning industry TOP20-də DTS-ləri iki istiqamətdə liderlik edir: birincisi, istifadəçi təcrübəsi baxımından, ikincisi müştəri təcrübəsinə əsaslanaraq.

Birinci halda, ümumi hesab sistemin istifadə qabiliyyəti, qəbul edilən faydalılığı və istifadəçi rəylərinə əsasən NetPromoterScore (NPS) göstəricisini birləşdirən ağırlıqlı bir alqoritmdən istifadə edərək hesablanır.

İkinci halda, müştəri məmnuniyyəti (CSAT), müştəri səyləri (CEF) və istifadəçi rəyinə əsaslanaraq müştəri gözləntisi (CEX) ballarını birləşdirən ağırlıqlı bir alqoritmdən istifadə edərək ümumi bal hesablanır.Müasir dövrdə distant təhsilin bir çox texnologiyaları vardır:

-video konfrans ; -video mühazirələr;

-səs konfransları; -söhbət sessiyaları;

-kompüter telekonfransları; -veb dərsləri;

-radio rabitə; -TV kanalları.

Hal-hazırda mövcud şəraitlə əlaqədar olaraq demək olar ki, bütün təhsil müəssisələrində təhsil distant-onlayn (elektron) formada davam etdirilir. Bu şəraitdə distant onlayn təhsil platformaların mühüm rolu vardır. Azərbaycanda hazırkı dövrdə ən geniş yayılmış platformalardan biri Teams platformasıdır. Microsoft Teams, qlobal Office 365 buludunda istifadəsi üçün xüsusi hazırlanmış müasir bir platformadır. Microsoft Teams istifadə edərək, müəllim sinifini və ya direktor bütün məktəbi rahat şəkildə idarə edə bilər. MS Teams Office 365-ə daxil edilmişdir. İlk olaraq rəsmi veb saytına daxil olub tətbiqdən necə istifadə etmək istədiyinizi seçməlisiniz: onlayn, masa üstü və ya mobil. Əgər Office 365 lisenziya yoxdursa, qeydiyyatdan keçməlisiniz. Bunun ən rahat və sürətli yolu Gmail hesabını vasitəsilə qeydiyyatdır. Sistemə daxil olanda ilk olaraq məqsədi seçməyi tələb edir. Burada üç məqsəd təqdim olunur:- iş, təhsil, ailə və dostlar. Əgər platformaya daxil olanda dostlarvə ailəseçsək bu halda sistem bizə Skype yükləməyi təklif edəcəkdir. MS masa üstü üçün tətbiqi yükləməyi və ya veb versiyasını istifadə etməyi təklif edəcəkdir. Bu tətbiqi App Store və ya Google Play-də yükləmək olar. Teamsin əsas versiyasını istifadəsi pulsuzdur. Bu versiya aşağıdakılardan təşkil olunur: söhbət, iş və tapşırıqların qruplara bölünməsi, sonsuz sayda istifadəçi əlavə etmək imkanı, bütün komanda üçün 10 GB və istifadəçi başına 2 GB, faylları paylaşma imkanı, 250-dən çox inteqrasiya edilmiş proqram,zənglər və onlayn görüşlər, ekranı paylaşma imkanı, video zəng zamanı və digər funksiyaların fonunu bulanma qabiliyyəti.

Microsoft Teams-in əsas bölməsi komandalardır. Burada komandalara qoşulmaq, kanallar yaratmaq, elanlar vermək, tətbiqetmələrdən və planlayıcılardan xəbərlər yerləşdirmək, faylları və saytları paylaşmaq, sənədlərdə əməkdaşlıq etmək və onlayn görüşlər elan etmək olar. Teams təşkilatınızın içində və xaricində insanlarla komanda yaratmağa imkan verir. Komanda-ümumi bir məqsəd və ya xüsusiyyət ətrafında birləşən insanlar qrupudur. Komandaya qoşulanlar bütün kanalları görə bilir. Təlim prosesini təşkil etmək üçün müəllim tələbələrlə bir komanda yaratmalıdır. Bunun üçün sistemdə Komandalar hissəsinə keçib, oradan Komanda

yarat əmrindən istifadə etmək lazımdır. Daha sonra komandanın tipini seçmək lazımdır. Burada 4 tip təqdim olunur: sinif, peşəkar pedaqoji icmallar, heyət, digər. Sonra Ad hissəsində komandanın adı,Təsviri hissəsində isə komandanın mövzusunu qeyd etmək lazımdır. Bundan sonra komandaya ehtiyac duyduğumuz şəxsləri əlavə etmək lazımdır.

Digər bir məsələ müəllimin dərs vəsaitlərini şagirdlərə təqdim edə bilməsidir.Bunun üçün Komandalardan lazım olan sinifi seçib, "Dəsr vəsaitlərini göndər" düyməsini sıxmaq lazımdır. Daha sonra dərs vəsaitləri bölməsi avtomatik olaraq görünəcəkdir.Bu hissədə qovluqlar yaradaraq ayrı-ayrı qovluqlarda lazımi vəsaitləri saxlamaq olar.Teams komanda daxilində komanda üzvləri arasında mesajlaşma vasitəsilə müzakirə etmək imkanı da verir. Eyni zamanda yazılmış mesajları silmək də mümkündür.

Digər mühüm bir funksiya audio zəng etmək funksiyasıdır. Bu funksiya interaktiv məsləhətləşmələr və monitorinq fəaliyyətlərini təşkil etməyə imkan verir. Səsli zənglərin funksionallığını həyata keçirmək üçün istifadəçinin kompüterinə mikrofon və səs çoxaltma cihazının qoşulduğundan əmin olmaq lazımdır. Bu funksiyanı icra etmək üçün Zənglər hissəsinə daxil olub zəng etmək istədiyimiz şəxsi seçib audio zəng düyməsini sıxmaq kifayətdir. Microsoft Teams, klassik sinif iclaslarına alternativ olaraq veb-seminarlar, video mühazirələr və ya onlayn praktik seminarlar təşkil etməyə imkan verir. Bunun üçün lazım olan komandanı seçib "İclasa başla" düyməsini sıxmaq lazımdır. Sonra açılan pəncərədə "İclası planlaşdır" düyməsini klikləyərək, iclas üçün bir ad daxil edib, iştirakçıları əlavə edib, vaxt təyin etmək lazımdır. Lazım gələrsə, əlavə iclas məlumatlarını daxil edib və Göndər düyməsini sıxmaq lazımdır. İclas planlaşdırıldıqdan sonra komandadakı hər kəs görüşə qatıla bilər. Vaxtı çatanda isə Qoşul düyməsini basıb iclasa daxil olmaq lazımdır. Bu zaman kameranı açaraq görüntülü şəkildə iclas aparılabilər. Eyni zamanda iclası qeydə almaq, lazımi şəxsləri iclasa qoşmaq, hazırlanmış vəsaitləri təqdim etmək və başqa funksiyaları yerinə yetirmək mümkündür.

Müasir dövrdə distant və elektron təhsildə yeni platformaların tətbiqinə başlanılır ki, bunlardan ən müasir olanı Moodle texnologiyasıdır. Platformanın əsas üstünlüyü istənilən yerdə, istənilən vaxt istifadənin mümkünlüyüdür. Bu platforma şagirdin aparat təminatı tələbatını minimuma endirir. Yəni istifadəçi istənilən brauzerlə platformanı aktiv edə bilər. Bu platforma istifadəçiləri "müəllim" və ya "tələbə" kimi fərqləndirmir. İstifadəçi hüquqlarında fərq rol sistemi ilə əldə edilir ki,bu da xüsusi qaydalar toplusu kimi göstərilir. Rollar olaraq administrator, kurs yaradıcısı, müəllim, redaktə hüququ olmayan müəllim, tələbə, qeydiyyatdan keçmiş istifadəçi, qonaq ola bilər.

Tədrisdə yeni üsullar və informasiya texnologiyalar XX əsrin ikinci yarısında informasiya inqilabına səbəb olmuş, distant və onlayn təhsilin sürətli inkişafına təkan vermişdir.

Ədəbiyyat

1. Б.И.Крук,О.Б.Журавлева, Е.Г.Стругова Избранные главы теории и практики дистанционного обучения.
2. Марина Ефимовна, Методика дистанционного обучения,2017г
3. И.И.Боброва,Информационные технологии в реализации дистанционных образовательных программ в гуманитарном вузе,2015г
4. Akif Nəzərov, Müasir təlim texnologiyaları,Bakı 2012.

XÜLASƏ

Azərbaycanda da digər inkişaf etmiş ölkələrdə olduğu kimi təhsilə çox önəm verilir. Distant təhsildə yeni texnologiyaların köməyilə həm ali təhsil almaq, həm də mütəxəssislərin ixtisasını artırmaq üçün xüsusi kurslara yiyələnmək mümkündür. Elektron təhsil elementlərindən istifadə edərək öyrənmək üçün bir çox platformalardanistifadə etmək mümkündü.

Асадова Рита

Онлайн-образование и использование новых технологий

РЕЗЮМЕ

В Азербайджане, как и в других развитых странах, очень важно образование. Получить высшее образование, как и специальные курсы повышения квалификации специалистовможно получить дистанционно с помощью новых технологий. При этом можноиспользовать множество платформ с элементами электронного обучения.

Asadova Rita

Online education and use of new technologies

SUMMARY

In Azerbaijan, as in other developed countries, great importance is attached to education. Distance education with the help of new technologies it is possible to get both higher education and special courses to improve the skills of specialists. It was possible to use many platforms for learning using e-learning elements.

Tağızadə Könül Təhmiraz qızı
Elmi rəhbər: Rəhimə Qurban qızı Cəlilova

IX SİNİF ŞAGİRDLƏRİNƏ PHYTON MÜHİTİNDƏ PROQRAMLAŞDIRMANIN ÖYRƏDİLMƏSİ METODİKASI

Açar sözlər: *ədədlərlə iş, sətirlər*
Ключевые слова: *работа с числами, линиями*
Key words: *working with numbers, lines*

ƏDƏDLƏRLƏ İŞ

Motivasiya:

Dərsin motivasiya hissəsində şagirdlər VIII sinifdən öyrənməyə başladıqları Python proqramlaşdırma dilinin başqa imkanları ilə də tanış olacaqlar. Bundan başqa fərqli məsələlərin həll alqoritmlərini yazmağı öyrənəcəklər. Müəllim mövzulara daxil olan bəzi məsələlərin həllini şagirdlərə informatika.edu.az saytında həll etməyi məsləhət görə bilər, çünki İnformatika dərsi həftədə cəmi 1 saat keçilir,vaxt məhduddur. Həmin Saytda ədədlərə aid olan çoxlu sadə məsələlər yerləşdirilibdir.

VIII sinifdə şagirdlər Python dili ilə tanış olmuş, əsas alqoritmik konstruksiyalardan istifadə etməklə proqram tərtib etmişdilər. Məhs buna görədə dərsi VIII sinifdə öyrəndikləri operatorların yazılışına aid olan suallarla başlamaq daha məqsədəuyğun olardı. Məsələn, "Şərt operatorunun yazılışı nəcürdür?", "Niyə bəzi operatorlar proqramın yazılışnda sağa sürüşdürməklə yazılır?" və s.

Dərsin **"Fəaliyyət"** hissəsində şagirdlər proqramı nəzərdən keçirib suallara cavab verməyə çalışırlar.

```
i = 1
while i <= 10:
      print (i*i)
      i = i + 1
```

Bu proqram ilk on natural ədədin kvadratını hesablayır daha sonra onları bir-bir çapa verir. Burada **print** operatoru sağa sürüşdürməklə yazılır buna görədə o, dövrün gövdəsinə daxil sayılır. Yox Əgər **print** operatoru **while** operatorunanbərabər səviyyədə yazılsaydı, Bu vaxt ancaq i ədədinin 1-ə bərabər olan qiyməti üçün kvadrat hesablanacaqdı və çapa verib dövrdən çıxarardı. Və beləliklə nəticədə i dəyişəninin qiyməti 2 olacaqdı.

Qeyd etmək lazımdırki, yazılmış proqramları kompüterdə yerinə yetirməzdən qabaq onların nəzərdən keçirilib əlnən yerinə yetirilməsi alqoritmin düzgün qurulmasını müəyənləş-dirməyə imkan verir.

Daha sonra şagirdlərə Python proqramlaşdırma dilində hazırlanmış proqramın strukturu haqqında danışılır.

Python dilində proqram kodu adi mətn faylı olur. Bu fayl hərf və rəqəmlərdən, durğu, boşluq və digər simvollardan ibarətdir. Mətn sətirlərə bölünürki, Hər bir Python proqram-laşdırma dilinin operatoru bir vəya bir neçə sətirdə yazıla bilər. **"\"** simvolundan istifadə etməklə bir operatoru bir neçə sətrdə yazmaq mümkündür.

Dərsi izah edərkən müəllimin qabaqcadan **Python 3.4.0**redaktorunu açması daha sonra verilmiş proqram kodlarını yerinə yetirməsi məqsədəuyğndur.

SƏTİRLƏR

Python proqramlaşdırma dilində Sətrlər Mövzusu yaxşı olardıki, 2 akademik saat müddətində keçirilsin. 1-ci dərsdə şagirdlər sətirlər üzərində aparılan əməliyyatlarla tanış olurlar daha sonra sadə proqramlar tərtib edirlər. 2-ci dərsdə isə sətirlərin metodlarınan tanış olurlar, çətinlik səviyyəsi fərqli olan məsələlərin alqoritmlərini qururlar və onların Python proqramlaşdırma dilində proqramlarını tərtib edirlər. Müəllim bu zaman daha məqsədəuyğun hesab etdiyi, və ya müəllim üçün metodik vəsaitdə verilən məsələlərdən istifadə edə bilər.

Mövzuya başlamazdan əvvəl şagirdlərə sətirlərə aid olan suallar vermək mümkündür. Artiq şagirdlər VIII sifdə sətir tipli kəmiyyətlər haqqında məlumat larla tanış olmuşlar. "Proqramlaşdırma dilində sətir nədir?" (simvollar ardıcıllığıdır) "Python proqramlaşdırma dilində rəqəmlərdən ibarət sətir ədəddən nəcür fərqləndirilir?" (birqat və ya ikiqat dırnaq arasında yazılır və sətir kimi emal olunur)

Bundan sonar sətirlər haqqında məlumatlar verə bilər:

Python proqramlaşdırma dilində çox istifadə olunan kəmiyyətlərdən biri sətirlərdir. Sətirlər hər hansı simvolların ardıcıllığıdır. Sətirlər, əsasən, tək dırnaq **(')**işarələri arasında yazılır, lakin bu məqsədlə adi dırnaq **(")**işarəsindən də istifadə oluna bilər, məsələn: 'Açılan hər bir məktəb bir həbsxananın bağlanması deməkdir.', "Nursuz gözə bənzər elmsiz ürək.". Sətir ədədlərdən, hərflərdən, digər simvollardan, eyni zamanda boşluq simvolundan ibarət ola bilər. Sətrləri dəyişənlərə mənimsətmək də mümkündür, məsələn:

a = 'İnformatika ', b = 'Elmi'.

Daha sonra şagirdlərə dərsliyin **"Fəaliyyət"** hissəsində göstərilmiş proqramı Python proqramlaşdırma mühitində yazıb sonra icra etmək təklf olunur. – Proqramda sətr tipli kəmiyyətdən istifadə edilib.Proqramda print operatorlarının nəticələri müxtəlif olacaq.

```
s1 = 'a'
s2 = 'l'
s3 = 'p'
print (s1 + s2 + s3)
print ("a", "l", "p")

>>>
alp
a l p
```

Onları bərabər etməkdən ötrü print operatorunu belə yazmaq olar:

print (s1+ " + s2 + " + s3)

Bundan sonra sətirlər üzərində aparılması mümkün olan əməliyyatlar haqqında danışılır. Yaxşı olar ki, şagirdlərə nəzəri hissə izah edilərkən proyektordan istifadə edilsin.

Ədədlərdə olduğu kimi, sətirlər üzərində də müxtəlif əməliyyatlar aparılır. Məsələn, 2 sətrin cəmi onların bir-birinə "birləşdirilməsindən" əmələ gələn yeni sətirdir.

a = 'İnformatika ', b = 'Elmi'.

>>>c = a + b

>>>print (c)

İnformatika elmi

Sətirlərdə hər bir simvolun dayandığı yerdən asılı olaraq özünün nömrəsi olur. Həmin nömrədən bu simvolun tapılması, və ya sətirdən kəsilib ayrılması üçün istifadə etmək mümkündür. Sətirdə simvolların nömrələnməsi Python proqramlaşdırma dilində 0-dan başlanılır. 2-ci simvolun nömrəsi 1, 3-cünün 2 və belə davam edir. Proqramlaşdırma dilində həmin nömrə indeks adlanır. İndeksə görə sətirdə konkret simvolu müəyyən etmək mümkündür. Məsələn:

>>>a = ' Proqramlaşdırma '

>>>a[5]

' R '

Bundan başqa 2 indeksdən istifadə etməklə sətrin müəyyən bir hissəsini ayırmaq mümkündür. O kəsik adlanır.

>>> a = [0 : 7]

' Proqram '

Sətirlərin kəsilib ayrılması əməliyyatında şagirdlərin diqqətini 2-ci indeksə yönləndirmək lazımdır:bu zaman indeks göstərilsə də, həmin simvol həmin kəsilib ayrılmış sətirdə olmayacaq. Başqa sözlə desək,indeksin mövqeyində duran simvol kəsilmiş hissəyə aid edilmir. Diqqət etmək lazımdır ki, 2-ci indeks olaraq 7 göstərilsə də, həmin bu mövqedəki simvol ayrılmış sətirdə yoxdur. Deməli, 2-ci indeksin mövqeyində duran simvol kəsiyə daxil edlmir. Bu zaman bu indekslərdən hər hansı birini göstərməmək mümkündür. Burada əgər 1-ci indeks buraxılıbsa, Python proqramlaşdırma dili avtomatik olaraq kəsiyə sıfırıncı simvoldan başlayır, yox əgər 2-ci indeks buraxılıbsa, axıra kimi bütün simvolları götürür.

>>>a = [: 7]

' Proqram '

>>>a = [8:]

' aşdırma '

Sətirdəki bütün simvolların sayı (boşluq simvolları daxil olmaqla) sətrin uzunluğu adlanır. Bu vaxt xüsusi **len ()** funksiyası vasitəsi ilə sətrin uzunluğunu müəyyən etmək mümkündür.

>>> len (a)

15

Bildiyimiz kimi, proqram işləyən zaman istifadə olunan bütün verilənlər kompüterin əməli (müvəqqəti) yaddaşında saxlanılır. Proqram digər qaynaqlarda duran verilənlərə xarici verilənlər kimi görür. Verilənlərin xarici mənbələrdən alınması əməliyyatı giriş yaxud daxiletmə, verilməsi əməliyatı isə çıxış adlanır. Sətir tipli kəmiyyətləri ədədi verilənlərdə olduğu kimi klaviatura vasitəsi ilə proqrama daxil etməkdən ötrü **input ()** funksiyasından istifadə edilir.Həmin funksiya daxil olunan kəmiyyəti sətir kimi qəbul edir. Məsələn,

a = input()komandasının icrası vaxtdı klaviaturada **231** ədədini yığıb klavşini basdıqdan sonra a dəyişəni **231** qiymətini yox, **'231'** qiymətini alır:

a = '231'. Buna görə də bəzən kəmiyyətləri bir tipdən başqasına çevirmək lazım olur. Digər proqramlaşdırma dillərində olduğu kimi, Python proqramlaşdırma dilində də həmçinin kəmiyyətləri bir tipdən başqasına çevirmək üçün nəzərdə tutulan müəyyən funksiyalar vardır. Məsələn, ədədi sətrə çevirməkdən ötrü **str()**funksiyasından, sətri ədədə çevirməkdən ötrü isə **int()** funksiyasından istifadə edilir. Məsələn,

>>>int ('231')

231

>>> str (231)

'231'

Verilənləri çap etmək üçün, başqa sözlə desək, çıxışa verməkdən ötrü Python proqramlaşdırma dilində **print()**funksiyası nəzərdə tutulubdur. Bu funksiya köməyi ilə eyni zamanda həm dəyişənlərin qiymətlərini, həm də mətnləri çıxışa vermək mükündür.

```
>>> a = 14
>>> print('Orxanın', a, 'yaşı var.')
Orxanın 14 yaşı var.
```

Bu misalda **print()**funksiyası qiymətlərin hamısın bir sətirdə çıxışa verir, onları bir-birindən ayırmaqdan ötrü aralarına boşluq simvolu artırır. Lakin qiymətləri ayırmaqdan ötrü digər üsullar da vardır. Məsələn, çıxışa verilən qiymətlərin arasına **vergül (,) defis (-)**kimi simvollar da qoymaq mümkündür. Ayırıcı kimi istifadə edilən simvol**sep** parametri köməyi ilə göstərilir (məsələn: **sep = '-'**). Bu zaman əgər **sep = '\n'**olsa, hər bir qiymət yeni sətirdə çap ediləcəkdir.

Print funksiyasında **sep** parametrini izah edərkən nümunədən istifadə etmək mümkündür.

```
>>> a=20
>>> print ('Orxanın', a, 'yaşı var', sep = ' - ')
Orxanın - 20 - yaşı var
>>> print ('Orxanın', a, 'yaşı var', sep = '\n ')
Orxanın
 20
 yaşı var
```

Bütün tip kəmiyyətlər üçün çıxışı daha səliqəli etməkdən ötrü **sep**parametrindən istifadə edilir.

Dərsliyin **"Fəaliyyət-2"** hissəsində şagirdlərə tapşırıq həll etmək təklif olunur. Bu zaman şagirdlər proqram kodunu yazmaqda çətinlik çəkərlərsə, bu vaxt müəllim qabaqcadan alqoritmi izah etməsi lazımdır. Alqoritmi başa düşdükdən sonra proqramın yazılması daha asan başa düşülür. Ancaq bundan sonra kodu yazmaqda şagirdlərə köməklik göstərmək olar. Əgər sinifdə tapşırıqların hamısının həlli çatdırılmasa ev tapşırığı kimi verilə bilər.

```
s = input()
print(s[2])
k = len  (s)
print (s[k-1])
print (s[0:5])
print (s[0:k-2])
print ('Sətrin tek indeksli simvolları çıxışa verilir')
for i in range(0,k//2):
    print(s[i*2+1])
print('Sətrin cut indeksli simvolları çıxışa verilir')
for i in range(0,k//2):
    print(s[i*2])
print ('Sətrin uzunluğu=',k)
```

Mövzunun geri qalan hissəsi 2-ci akademik saatda tədris edilməsi məsləhətdir. Dərsin bu hissəsində obyektin metodlarından bəhs edilir. Yaxşı olarki metodlar şagirdlərin gözü qabağında olsun.Bunun üçün onları vərəqdə çap etmək, və ya proyektorun köməyilə nümayiş etdirmək məqsədəuyğun olar.

Bildiyimiz kimi, hər bir obyektin müəyyən xassələri vardır. İnformatikada bu xassələrin 2 növü ayrılır: hərəkət xassələri və əlamət xassələri. Obyektin əlamət xassələri, sadəcə olaraq, obyektin xassələri, hərəkət xassələri isə obyektin metodları adlanır.

Proqramlaşdırma dillərində hər hansı obyektin metodunu göstərməkdən ötrü xüsusi yazılışdan istifadə edilir: Bu zaman ilk öncə obyektin adı, daha sonra isə onun metodu yazılır,

onları birbirindən ayırmaq üçün isə aralarına nöqtə qoyulur (məsələn: **s1.count(s0), s1.replace(s2,s3)**) Python proqramlaşdırma dilində sətirlərə obyekt kimi baxılır , hər bir obyektdə olduğu kimi onların da öz metodları mövcuddur. Onlardan ən çox istifadə ediləni isə **find** metodudur. Bu metod göstərilmiş sətirdə onun altsətrini tapmaqdan ötrü nəzərdə tutulubdur. Bu zaman axtarılan altsətir tapılsa, metod altsətrin 1 – ci dəfə rast gəlindiyi yerin indeksni qaytarır. Yox əgər axtarılan altsətir tapılmasa, metod -1 qiymətini qaytarır. Məsələn:

```
>>> S = 'Maraqlanıb soruşmaq bilik əldə etməyin yarısıdır.'
>>> print(S.find('bilik'))
20
>>> print(S.find('ar'))
1
>>> print(S.find('kitab'))
-1
```

Find metodunun digər parametrlərində olması mümkündür. S.find (K, x, y) yazılışı S sətrində K alt sətrinin S[x:y] kəsiyində axtarıldığını bildirir. Lakin nəzərə alınmalıdır ki, S.find (K, x, y) metodunun qaytardığı qiymət K alt sətrinin kəsikdəki indeksi yox, S sətrindəki indeks götürülür.

Şagirdlərə soyadlarını və adlarını klaviaturadan daxil edən və onların yerlərini dəyişərək çıxışa verən proqramı yazmaqları tapşırılır:

Bu zaman şagirdlər ilk öncə proqramda təsvir olunacaq dəyişənləri təsvir etməli, sonra məsələnin həll alqoritmini tərtib etməli və sonda proqramı yazmalıdırlar.

```
s = input()
p = s.find(' ')
soyad = s[:p]                # birinci söz - soyad
ad = s[p + 1:]               # ikinci söz - ad
s = ad + ' ' + soyad
print(s)
```

Ədəbiyyat

1. Abdulla Qəhrəmanov. Python proqramlaşdırma dili
2. IX sinif metodik vəsait
3. IX sinif dərslik
4. Programming in Pyhton 3(second edition)

XÜLASƏ

Məqalədə Python proqramlaşdırma dilinin IXsinifdə öyrədilməsi metodikası əks olunub.

Тагызаде Конул Тахмираз гызы

Методика обучения программированию студентов PhytonIX в среде Python

РЕЗЮМЕ

В статье описывается методика преподавания языка программирования Python в IX классе.

Taghizadeh Konul Tahmiraz

Methods of teaching programming to PhytonIX students in the Phyton environment

SUMMARY

This article describes the methodology of teaching Python programming language in class IX .

Yusifova Həvva Mahal qızı
Azərbaycan Dövlət Pedaqoji Universitet
Elmi rəhbər: b/m Ç.M.Həmzəyev

DİSTANT TƏHSİLİN TƏTBİQİ İLƏ BAĞLI METODİK ƏDƏBİYYATIN TƏHLİLİ

Açar sözlər: *distant təhsil, metodika, İKT, elektron, texnologiya*

Ключевые слова: *дистанционное обучение, методология, ИКТ, электроника, технологии*

Key words: *distance education, methodology, ICT, electronics, technology*

Distant təhsilin görünüşü iqtisadi, sosial və texnoloji baxımdan dəyişən şərtlərlə əlaqələndirilir. Daha yaxşı savadlı və daha əhatəli bir təhsilə ehtiyac var. Distant təhsil hər kəsə bütün həyatı boyu öyrənmək imkanı verir. Rabitə vasitələri - poçt, kütləvi informasiya vasitələri və internet onun mövcudluğu üçün lazımdır. Distant təhsil informasiya və kommunikasiya texnologiyalarının inkişafından asılıdır. Ənənəvi təhsilin reallaşdırılması ilə bağlı uyğun metod və texnologiyalar olduğu zaman səmərəli ola bilər.[1]

Distant təhsil təhsil prosesi iştirakçılarının - müəllim və şagirdlərin fiziki cəhətdən ayrıldıqları və fərqli vasitələrlə və müxtəlif vaxtlarda ünsiyyət qurduqları bir təhsil formasıdır. Bu tərifdən distant təhsilin əsas xüsusiyyətlərini fərqləndirə bilərik:[2]

• Müəllim və şagirdlərin məkanda və zamanda ayrılması;

• Müəllim, öyrənənlər və təhsil məzmunu arasında qarşılıqlı əlaqəni həyata keçirmək üçün müxtəlif medianın istifadəsi;

• Müəllim və şagirdlər arasında ikitərəfli ünsiyyətin təmin edilməsi;

Distant təhsilin metodologiyası olduqca fərqlidir. Distant təhsil zamanı şagirdi idarə etmək müəllimin bacarığından aslıdır. Yaradıcı müəllim operativ şəkildə hazır ki,vəziyyətdən yüksək səviyyədə çıxmağı bacarmalıdır. Bunun üçün də online dərslərdə problem yaşamayacağı məlumdur. Müəllimin üzərinə bir çox öhdəliklər düşür.Bunlar aşağıdakılardır:[2]

• Məsafədən aslı olmayaraq təhsil üçün bir çox yeni metodologiyalar formalaşmalıdır,

• Biliklərin qiymətləndirilməsi barədə metodları müəyyənləşdirilməli,

• Əyani tədrisdən yeteri qədər fərqli olduğundan elektron təhsildə təhsilverənlərin və təhsilalanların etik davranış məsələləri müəyyənləşdirilməli,

• Təhsil prosesinin pillələri aydınlaşdırılmalı,

• Öyrənmə prosesinin ardıcıllığı müəyyənləşdirilməli.

Təlim prosesini müəllimdən çox şagirdlər tərəfindən idarə etmək. Distant təhsilin mahiyyətini araşdıraraq ənənəvi təhsildən fərqləndirən xüsusi xüsusiyyətlərini göstərə bilərik :[3]

• Ünsiyyətlilik - məsafəli təhsil insan fəaliyyətinin müxtəlif sahələrində təhsil alan işçilərə cəmiyyətin davamlı dəyişən ehtiyaclarını təmin edir;

• Elastiklik və müstəqillik - məsafədən təhsil zaman və məkandan müstəqil öyrənmək imkanı verir. Öyrənənlər öz templi öyrənməsini müəyyənləşdirirlər.

• Fərdilik - müəllim şagirdlərin xarakterik xüsusiyyətlərinə uyğun olaraq distant təhsil kurslarını fərdiləşdirir. Uzaqdan təhsil üçün uyğun texnologiyalar seçir.

Uzaqdan təhsildə müəllimlərə yeni bir vəzifə verilir. Müəllimin təhsildə əsas fiqur olduğu ənənəvi təhsildən fərqli olaraq - mühazirələri təqdim edir və məzmunun mənimsnilmə dərəcəsinə nəzarət edir, distant təhsildə onun iştirakı tədris prosesinin idarəedici məsləhətçisi və əlaqələndiricisinə qədər azalır. Bütün təhsil prosesinə nəzarət müəllimlər və şagirdlər arasında bölüşdürülür.

Nəticədə öyrənənlər yeni bir rola sahib olurlar. Təhsil prosesinin passiv iştirakçılarından məsafəli təhsildə mərkəzi mövqe tuturlar. Öyrənənlər öyrənmə və hazırlaşma sürətini təyin edənlərdir. Özünə nəzarət və özünü qiymətləndirmə çox vacibdir. Təlimin məzmunu ənənəvi təhsildə istifadə olunmuş və ya distant təhsil üçün xüsusi hazırlanmış materiallardan ibarətdir. Müasir informasiya texnologiyalarının mövcudluğu öyrənmə məzmununun səs, şəkil və video ilə şaxələndirilməsinə imkan verir. Öyrənmə məzmunu dinamikdir - davamlı olaraq yenilənə bilər[4].

Distant təhsil çağdaş cəmiyyətdə getdikcə daha çox yayılmışdır. Formasından və istifadə etdiyi texnologiyalardan asılı olmayaraq təhsilin ayrılmaz hissəsidir. Müəllimlərin niyyətinin mərkəzində şagirdlərin ehtiyacları və onların xüsusiyyətləri var. Öyrənmə məzmununun təqdim edilməsi üçün bir çox müxtəlif yanaşma və tələbələrə çatdırılması üçün texnologiyalar mövcuddur. Bunlar təhsil üçün köməkçi vasitədir və effektivliyini artıra bilər. Distant təhsil kursları

tələbələrin ehtiyacları və profilləri nəzərə alınmaqla diqqətlə planlaşdırıldıqda təsirli olur. Təlim məzmunu onlar üçün faydalı olacaq şəkildə tərtib edilməlidir. Bundan sonra distant təhsil kurslarının həyata keçirilməsi üçün uyğun texnologiyalar seçilir. Müəllimlərin səyləri, diqqətin öyrənmə məzmununun mahiyyətindən onun təqdimatı və çatdırılması üçün texnologiyalara keçmə riskinin aradan qaldırılmasına yönəldilməlidir.

Metodoloji mənbə kimi söylənilən elmi-pedaqoji fikirlər konseptuallıq təşkil edir. Mütəxəssislərimiz tezliklə dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin distant təhsil ilə bağlı təcrübələrini qazanmaqla dahada böyük yeniliklər etmiş olacağıq.

Ədəbiyyat

1. Əhmədov H. (2013), "Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları məqalə", Bakı, "Təhsil" 365 səh.

2. Fazilova İ. (2015), "Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu", Bakı, "Elm" 123 səh.

3. İsmayılov İ., Abdullayev C. (2006), "Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları Tədrisdə onlardan istifadə metodikası", Bakı, "Elm" 520 səh.

4. http://musabiqe.edu.az/upload/iblock/5d3/tehsilde_ikt_muhazire.doc

XÜLASƏ

Hazırkı tədqiqat distant təhsilin mahiyyətindən bəhs edir. Ənənəvi təhsildən fərqləndirən əsas xüsusiyyətləri göstərir. Tədqiqat ayrıca distant təhsilin üstünlük və mənfi cəhətlərini ümumiləşdirir. Söhbət bu təhsil formasının tətbiq olunduğu yeni texnologiyalardan gedir. Tədqiqat eyni zamanda İnternet əsaslı təhsilin geniş yayılmış və artan populyarlığını vurğulayır.

Юсифова Ева Махал гызы

Анализ методической литературы по применению дистанционного образования

РЕЗЮМЕ

В настоящем исследовании обсуждается сущность дистанционного образования. Показаны основные черты, которые отличают его от традиционного обучения. В исследовании также обобщены преимущества и недостатки дистанционного образования. Речь идет о новых технологиях, в которых применяется эта форма обучения. Исследование также подчеркивает широкое распространение и растущую популярность Интернет-образования.

Yusifova Havva Mahal

Analysis of methodical literature on the application of distance education

SUMMARY

The current study discusses the essence of distance education. Shows the main features that distinguish it from traditional education. The study also summarizes the advantages and disadvantages of distance education. It is about new technologies in which this form of education is applied. The study also highlights the widespread and growing popularity of Web-based education.

Rəsullu Turanə Kamran qızı
Azərbaycan Dövlət Pedoqoji Universiteti
Elmi rəhbər: r.ü.f.d. Musayeva.M.A

ÜÇÖLÇÜLÜ PROQRAMLARIN ÜSTÜN VƏ MƏNFİ CƏHƏTLƏRİ. SKETCHUP PROQRAMININ ƏSAS XÜSUSİYYƏTLƏRİ VƏ TƏTBİQİ

Açar sözlər: *üçölçülü modelləşdirmə; kompyuter texnologiyaları; proqramlaşdırma; Sketchup, Google*

Ключевые слова: *трехмерное моделирование; Компьютерные технологии; программирование; Скетч, Гугл*

Key words: *three-dimensional modeling; computer technology; programming; Sketchup, Google*

Giriş

Müasir həyatda kompüter texnologiyalarının istifadəsi əvəzolunmaz bir hal almışdır. Çox saylı problemlərin həllini sürətləndirmək üçün müxtəlif kompüter proqramlarından istifadə edilir. Son zamanlara qədər bütün kompüter avadanlıqları insan üçün yalnız köməkçi bir cihaz idi.

Son dövrlərdə sürətlə inkişaf edən kompüter texnologiyaları bənzərsiz və həcmli obyektlər yaratmağa imkan verdi. Bu gün üçölçülü vizuallaşdırmadan bir çox sahələrdə geniş istifadə olunur. Üçölçülü modelləşdirmə sayəsində mütəxəssislər dəqiqlik tələb edən ən uyğun layihələri hazırlaya bilirlər.

Bu proqramlardan əsasasən memarlıq, daxili dizaynlaşdırma, reklam çəkilişləri, elmi videoların hazırlanması, kompüter animasiyasılaşdırması, fantastik süjetli bədii filmlərin çəkilişi, kompüter oyunlarının hazırlanması, kitab və jurnallar üçün illüstrasiyaların hazırlanması, bədii kompüter qrafikalaşdırılması və xüsusi effektlərin hazırlanmasında istifadə olunur.

Üçölçülü proqramlar yeni nəsil proqramlaşdırmanın əsas hissələrindən biri olmaqla, müxtəlif alətlər dəstindən istifadə edərək üçölçülü obyektlər yaratmağa imkan verən texnika və vasitələrdir. Ümumiyyətlə götürdükdə, üçölçülü təsvirlər ikiölçülü təsvirlərdən bir obyektin (virtual məkanın) modelinin həndəsi proyeksiyasının düzəldilməsi ilə fərqlənir, bu zaman xüsusi proqramlardan istifadə olunur. Nəticədə meydana gələntəsvir-model real aləmdəki obyektlərə (məsələn, bina, şəxs, avtomobil, asteroid) uyğun gələ bilər və ya bu görüntü tamamilə mücərrəd ola bilər.

Niyə üçölçülü proqramlardan istifadə olunur? Hər şeydən əvvəl onlardan obyektlərin daha real bir obrazı, həqiqi aləmin daha canlı nümayişi, mümkün qədər həqiqi görüntüyə uyğun olacaq cisimlərin və ya cisimlər obrazının yaradılması üçün istifadə edilir.

Xüsusi proqramlardan istifadə edərək üçölçülü bir görüntünün yaradılması iki əsas mərhələni əhatə edir: modelləşdirmə və vizualizasiya.

Modelləşdirmə mərhələsində model tərtib olunur. Modelləşdirmənin əsas məqsədi kimi müəyyən tələblərlə cavab verən, daha real model yaratmaq üçün həndəsi çevrilmələrdən istifadə edərək obyektlərin hazırlanması çıxış edir. Növbəti mərhələdə proyeksiya qurulur, yaradılan model fərqli metod və üsullardan istifadə edilərək canlandırılır. Üçölçülü proqram, qrafika və animasiya üzrə hazırda geniş işlər görülür və gələcəkdə bir çox sahələrdə artan inkişaf üzrə onun tətbiqi planlaşdırırlır.

Bu gün üçölçülü proqramlardan istifadə həyatımızın bir çox sahələrində möhkəm yerləşmişdir ki, bunlara:

• tikinti-binaların, obyektlərin, daxili və xarici hissələrinin həcmli təsvirlərinin vizualizasiyası;

• istehsal-obyektin modelləşdirilməsi;

• televiziya-parlaq jurnallarda simulyasiya edilmiş fotolar, videolar, filmlərdə xüsusi effektlər;

• oyun sənayesi-3D animasiya, virtual aləmlərvə kompüter oyunlarının inkişafı;

• çap məhsullarının yaradılması;

• reklam-elektron təqdimatlar və kataloqlar, reklam lövhələri və s. aiddir.

Üçölçülü qrafik yaratmağa imkan verən, yəni virtual reallıq obyektlərini simulyasiya edən və bu modellərə əsaslanan təsvirlər yaradan proqram paketləri çox müxtəlifdir. Son illərdə Autodesk 3ds Max, AutodeskMaya, AutodeskSoftimage, Cinema 3D və s. kimi kommersiya məhsulları bu sahədə sabit liderlərdir.

Hər bir sahədə olduğu kimi üçölçülü proqramlarında istifadəsinin özünün müsbət və mənfi cəhətləri vardır. Məsələn,yuxarıda adları çəkilən proqramların müsbət cəhətləri kimi aşağıdakıları sadalamaq olar:

• Bu peşəkar proqramlar çox populyardır,məsələn, AutodeskMaya film sənayesinin lideridir, Autodesk 3ds max memarlıq vizualizasiyası üçün ən yaxşı proqramlardan biridir;

• Son nəticəni nümayiş etdirən bir ərazinin və ya xarici görünüşün üçölçülü foto modelini yaratmağa imkan verirlər;

• Müxtəlif layihələrin modelləşdirilməsi üçün tələb olunan çox sayda alətə sahibdirlər;

•Sərt və yumşaq cisimləri simulyasiya edə, toxuma davranışını hesablaya bilə, maye təsirlərini təqlid edə bilərlər;

• Üçölçülü modelləşdirmə üçün peşəkar proqramlardan istifadə edən kompüter qrafikası ilə əlaqəli ixtisaslara tələbat artmaqdadır.

Mənfi cəhətlərinə isəaşağıdakılar daxildir:

• bütün proqram seçim paketləri yayımlandığı platformalar tərəfindən dəstəklənmir;

• böyük avadanlıq imkanları tələb edir;

• proqramların yüksək qiyməti vardır;

• çox saylı menyular vardır;

• üçölçülü qrafika ilə işləmək çətindir;

• öyrənmək üçün çox vaxt lazımdır.

Üçölçülü modelləşdirmə ilə məşğul olan pulsuz, istifadəsi asanvə liderlərə alternativ məhsullar da var. Bunlara: Sweet Home 3D, Blender, SketchUp, LEGO Digital Designer və s.aid edilə bilər.

SketchUp (Sketch - eskiz, Up - yuxarı) –bu, 3D modelləşdirmə üçün hazırlanmış bir proqram olaraq, ilk növbədə memarlıq fəaliyyətinə uyğunlaşdırılmışdır. Bu üçölçülü proqram 2006-cı ilin martında Google şirkəti tərəfindən satın alınmışdı. Hal-hazırda proqramın iki versiyası var - pulsuz və pullu. SketchUpPro peşəkar diaqramlar, üslublar, fayllarla genişləndirilmiş əməliyyatlar etmək üçün texniki dəstəyə malikdir. Bununla yanaşı, pulsuz versiyada da çox miqdarda funksionallıq təmin edilir. Google lisenziyasının olması proqramı istənilən qanuni məqsədlər üçün istifadə etməyə imkan yaradır.

SketchUp proqramında əvvəlcədən hazırlanmış ayarların demək olar ki, tamamilə olmaması da daxil olmaqla bir sıra üstünlüklərə malikdir, bu yeni başlayanlar üçün rahatlığı, intuitivliyi, istifadəsinin asanlığını, sürətliliyi, asan öyrənməyi və yüksək iş sürətini təmin edir.

SketchUp-un əsas xüsusiyyətləri:

• İntuitiv və istifadəsi asan interfeysin olması.

• Üçölçülü müstəvidə tanış alətlərin olması (xətkeş, qələm, transportir, silgi).

• Xüsusilə ikiölçülü rastr və üçölçülü qrafika (3ds, dwg, ddf, jpg, png, bmp, psd) formatlarının mübadiləsi.

• Plaginlərdən istifadə etmək imkanı.

• Komponentlərin, materialların və üslubların yenilənə bilən kitabxanaları.

• Müəyyən edilmiş enlik, uzunluq, günün vaxtı və ilinə uyğun olaraq kölgələr qurma bacarığı.

• Digər istifadəçilər tərəfindən yaradılan çoxsaylı hazır skriptlərin yüklənməsi və istifadəsi funksiyası.

• GoogleEarth proqramı ilə tam inteqrasiya.

Bu məhsulun əsas çatışmazlığı yerdəyişmə xəritələri funksiyasının olmamasıdır. Lakin məhsul peşəkar bir 3D qrafika redaktoru və ya oyun səviyyəli redaktor hesab oluna bilmədiyi üçün (belə bir ehtimal mövcud olsa da) və başqa bir hədəf auditoriyasına yönəldildiyi üçün bu funksiyanın paketdə olmaması olduqca məntiqlidir. Belə ki, onun tətbiqi əhəmiyyətli dərəcədə yüksək maddi xərclər tələb edəcək, nəticədə məhsulun son Pro versiyasının qiyməti kəskin şəkildə artmış olacaqdır.

SketchUp üçölçülü proqramı istər Windows XP / Vista / 7/8MacOS X kimi köhnə və istərsə də ən yeni proqram təminatlarında işləyə bilir. Rus dili də daxil olmaqla 12 dildə lokalizasiyaya malikdir.

Proqramın sadəliyini daha yaxşı anlamaq üçün sadə ev modeli hazırlayaq:

Proqramda sadə üçölçülü ev modeli yaradaq. Bunun üçün ilk öncə dördbucaqlı sahəni klikləyirik və mausu işçi sahənin üzərinə gətirərək bizə lazim ölçüdə mausu hərəkət etdirərək dördbucaqlı fiqurunu yadırıq. Alınmış fiquru üçölçülü modelə çevirmək üçün Push/Pull (Push/Pull komponenti Sketchup'da ən çox istifadə edilən kompenentlərdən birisidir. Qısayolu " P " dir. Bu komponent vasitəsi ilə iki ölçülü fiqurlara qalınlıq/yüksəklik vermək funksiyalarına malikdir)

komponentini aktiv etmək lazımdır. Bu zaman mausun işarəsini dördbucaqlının üzərinə gətirib, onu istədiyimiz hündürlükdə və endə üçölçülü fiqura çevirə bilərik. Əgər ev fiquru yaratmaq istəyiriksə, alınmış üçölçülü fiqurun üst hissəsini tam orta hissədən bərabər ölçüdə ikiyə bölmək lazimdir. İlk öncə "*qələm*" alətini akvtivləşdiririk və mausu fiqurun üst hissəsində orta hissəsini göstərən nöqtəyə gətirib, mausu klikləyərək hərəkət etdiririk. Bu zaman düz xətt alınır və bunu evin "dam"-ına çevirmək üçün həmin xətti yuxarı qaldırmaq lazımdır. Bunun üçün köməyimizə *Move* (Move komponenti bir modeli vəya kopyasını bir yerdən bir başqa yerə daşımaq üçün istifadə edilir) komponenti çatır ki, bunun vastəsilə seçdiyimiz xətti yuxarı doğru hərəkət etdiririk. *Paint*-boya alətindən istifadə edərək evin rənglənməsi mümkündür.. Qapı və pəncərələri Nudge, Push / Extrude,Circle, Polygon alətlərindən istifadə edərək çəkə bilərsiniz.Sonda *Save* etdikdən sonra fayl.*skp* formatında saxlanılır.

Nəticə

Aparılan tədqiqatlar nəzəri xarakterli bir sıra ümumiləşdirilmiş nəticələr və tətbiqi asanlaşdıracaq tövsiyələr formalaşdırmağa əsas verir. Üçölçülü qrafika kompüter qrafika hissələrindən biridir, forma və rəngdən istifadə edərək üçölçülü obyektlər yaratmağa imkan verən bir sıra vasitələr toplusudur. Üçölçülü qrafika ilə işləmək üçün peşəkar proqram paketlərinin çox müxtəlif olduğu məlum məsələdir. Autodesk 3dsMax, AutodeskMaya, AutodeskSoftimage, Houdini, LightWave 3D ən məhşur proqramlardandır.

Bununla yanaşı onların yüksək qiymətləri və istifadəsinin qeyri-professionallar üçün mürəkkəbliyi qarşıya çıxan ən əsas əngəllərdən biridir. Bu səbəbdəndir ki, öyrənilməsi və istifadəsi asan,özünün əsas platforması pulsuz olan SketchUp proqramı daha geniş istifadə olunmaqdadır.

Proqramın ana dilimizdə interfeysinin olmaması ən böyük maneələrdən biridir.

Beləliklə Skechtup proqramı üzrə yerdəyişmə xəritələrinin əlavə edilməsi, onun dil interfeyslərinin artırılması proqramın daha da rahat istifadəsinə köməkçi olmuş olacaqdır.

Ədəbiyyat

1. Семакин И.Г., Хеннер Е.К., Шестакова Л.В. Информатика и ИКТ. Профильный уровень. Учебник для 10-11 классов/М.:БИНОМ. Лаборатория знаний, 2012.
2. Петелин А. SketchUp-просто 3D! Книга 1. Практик/ М: ДМКПресс, 2012.
3. Тозик В.Т., Ушакова О.Б.Самоучитель SketchUp/М:БХВ-Петербург,2013.
4. 3D редакторы. Плюсы и минусы. [Elektron resurs].http://habraha-br.ru/post/136350/
5. Лучшие бесплатные программы 3D моделирования [Elektron resurs].http://spin-tires.pro/stati/luchshie-besplatnye-programmy-3d-modelirovaniya

XÜLASƏ

Alətlərin və materialların kompüter modelləri aləmi yaradıcı insanların özünü büruzə verməsi üçün praktiki cəhətdən qeyri-məhdud imkanlar açır lakin bunu kompüter şəraitində qismən reallaşdırmaq mümkündür. Məqalədə üçölçülü modellərin dövrün tələblərinə uyğunluğu, onlar müsbət və mənfi keyfiyyətləri araşdırılmış qarşılıqlı və müqayisəli təhlili aparılmışdır. SketchUp proqramının əsas xüsusiyyətləri xüsusi ilə vurğulanmış, proqramda sadə modelin yaradılması qısa addımlarla izah olunmuşdur ki, buda üçölçülü modellərin tətbiqinin səmərəliliyini və üstünlüklərini özündə əks etdirir.

Расуллу Турана Камран кызы

РЕЗЮМЕ

Мир компьютерных моделей инструментов и материалов открывает для творческих людей практически неограниченные возможности самовыражения, но отчасти это можно сделать в компьютерной среде. Подчеркиваются основные особенности программы SketchUp, создание простой модели в программе объясняется короткими шагами, что отражает эффективность и преимущества применения трехмерных моделей.

Rasullu Turana Kamran

SUMMARY

The world of computer models of tools and materials opens up virtually unlimited opportunities for creative people to express themselves, but this can be done in part in a computer environment. The main features of the SketchUp program are highlighted, the creation of a simple model in the program is explained in short steps that reflect the effectiveness and advantages of the application of three-dimensional models.

Hümbətzadə S.S.

KOLLECLƏRİN İNFORMATİKA KURSUNDA "VERİLƏNLƏR BAZASI"NIN TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *kollec, bilik, bacarıq, vərdiş, tədris, verilənlər bazası, cədvəl, sorğu, forma, verilənlərin axtarışı və çeşidlənməsi*

Ключевые слова: *college, knowledge, skills, ability, teaching, database, table, query, form, data search and sorting*

Key words: *колледж, знания, навыки, способности, обучение, база данных, таблица, запрос, форма, поиск и сортировка данных*

Kompüterlərin insan fəaliyyətinin bütün sahələrinə tətbiq edilməsi nəticəsində "Verilənlər bazası"nın kolleclərin informatika kursunda tədrisi zərurihala çevrilmişdir. Kolleclərin informatika kursunda "Verilənlər bazası"nın tədrisinin məqsədi verilənlər bazası anlayışının, bazanın yaradılmasının öyrədilməsidir. Tədris sonunda sərbəst şəkildə bazada cədvəllər yaratmağı, cədvəllər arasında əlaqələr qurmağı, sorğu, forma və s. yaratmağı öyrənən hər bir tələbəonları öz peşə fəaliyyəti zamanı tətbiq edir.

Kolleclərin informatika kursunda tələbələrdə verilənlər bazası üzrə bilik, bacarıq və vərdişlərin formalaşması üçün tədris planında "Verilənlər bazasının arxitekturası.MS Access-in komponentləri", "Cədvəl strukturunun yaradılması. Verilənlərin tipləri", "Cədvəllər arasında əlaqənin yaradılması", "Verilənlərin axtarılması", "Verilənlərin çeşidlənməsi", "Sorğuların yaradılması", "Formaların yaradılması" kimi mövzuların tədrisi nəzərdə tutulmuşdur.

"Cədvəl strukturunun yaradılması" mövzusunun tədrisi nəticəsində verilənlər bazasında cədvəl strukturunun yaradılmasının müxtəlif üsullarından (cədvəl rejimi, konstruktor rejimi)

istifadə edərək tələbə sərbəst şəkildə cədvəl yaradır, yeni sahələr əlavə edir, sahələr ardıcıllığını və tiplərini dəyişə bilir.

"Cədvəllər arasında əlaqənin yaradılması" mövzusunun tədrisinin yekununda tələbələr MS Access-də "Verilənlər sxemi" dialoq pəncərəsi ilə cədvəllər arasında əlaqə qurmağı öyrənirlər.

"Verilənlərin axtarışı" mövzusun üzrə tələbələr MS Access-də verilənlərin axtarışı üçün nəzərdə tutulmuş arama (Find) komandasında əvəzetmə simvollarının (*, ?, [], [!], #) köməyi ilə, həmçinin verilmiş qiymət əsasında verilənlər bazasında yazının axtarıb tapılması bacarığına yiyələnirlər.

"Verilənlərin çeşidlənməsi" mövzusunun tədrisinin sonunda tələbələr MS Access-də çeşidləmə (Sort) və süzmə (Filter) komandalarının istifadəsi ilə çeşidləməəməliyyatının apara bilirlər.

"Sorğuların yaradılması" mövzusunun tədrisi əsasında tələbələrə sadə və mürəkkəb sorğuların yaradılması, sorğular əsasında sahələr üzərində müxtəlif riyazi əməliyyatların aparılması bacarıq və vərdişləri aşılanır.

"Formaların yaradılması" mövzusunda tələbələr konstruktor pəncərəsində forma yaratmağı, ona başlıq verməyi, bundan əlavə formada idarəetmə düymələrinin yaradılmasını öyrənirlər.

"Verilənlər bazasının" kolleclərdə tədrisi tələbələrdə ixtiyarilayihəüçün bilik, bacarıq və vərdişlərinin yaradılmasını mümkün edir. Belə ki, hər bir tələbənin sonda qazanacağı biliklər bunlardır:

- cədvəllərin yaradılması;
- verilənlərin axtarışı və çeşidlənməsi;
- sorğuların yaradılması;
- sahələr üzərində müxtəlif riyazi əməliyyatların aparılması;
- formaların yaradılması.

Tədrisin sonunda tələbələr öyrəndikləri və təcrübə nəticəsində əldə etdikləri bilikləri öz peşə fəaliyyətində tətbiq etmək vərdişinə yiyələnirlər.

Ədəbiyyat

1. Məzahir İsayev Leyla Mahmudbəyli Füzuli Qurbanov İnformasiya sistemləri və verilənlər bazası (Orta ixtisas təhsili müəssisələrin tələbələri üçün dərslik
2. Məhərrəmov Z.T. Verilənlər bazası. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, 2015. – 436 s.
3. Quliyev V. Verilənlər bazası, Elm, Bakı, 2006.
4. Kərimov S.Q. İnformasiya sistemləri və verilənlər bazası
5. Каратыгин С.А. Access- 97 серия «Без проблем»

XÜLASƏ

Məqalə kolleclərin informatika kursunda verilənlər bazasının tədrisinin əhəmiyyətinə həsr edilmişdir. Məqalə özündə tədris planı üzrə mövzuları, mövzuların tədrisinin məqsəd və vəzifələrini ehtiva edir.

РЕЗЮМЕ

Статья посвящена важности преподавания баз данных в курсе информатики в вузах. В статье представлены темы учебной программы, цели и задачи преподавания тем.

SUMMARY

The article is devoted to the importance of database teaching in college computer science courses. The article contains the topics of the curriculum, the goals and objectives of teaching the topics.

Qasımova Elnarə Elman qızı
Elmi rəhbər: r.ü.f.d Musayeva M.A.

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ TƏDRİSİ METODİKASI

Açar sözlər: *təhlükəsizlik, informasiya-kommunikasiya texnologiyaları, informasiya cəmiyyəti, kriptoqrafiya, simmetrik və asimmetrik kriptosistemlər*

Ключевые слова: *безопасность, информационные и коммуникационные технологии, информационное общество, криптография, симметричные и асимметричные криптосистемы*

Key words: *security, information-communication technology, information sociality, cryptography, symmetric and asymmetric cryptosystems*

Giriş

İnformasiya(məlumat)–gördüyümüz işin ən vacib və dəyərli sərvətlərindən biri və önəmli olanıdır. Günümüz başlayandan bitənə qədər informasiya ilə zəngindir. Gün ərzində beynimiz müxtəlif informasiyalar qəbul edir. Həyatımız qəbul etdiyimiz və ötürdüyümüz informasiyalar üzərində qurulur. İnformasiyanın qəbulunu həyata keçirmək üçün o bizə tam,dəqiq,aydın olmalıdır. Əks təqdirdə informasiya anlaşılmazlığı yarana bilər.

Bəzən informasiya bolluğu səbəbindən bizə lazım olan məlumatı yanlış yerdə axtarışına çıxırıq. Bəzən isə axtarışına çıxdığımız məlumatı unuduruq və axtarış istiqamətimizi dəyişirik. Bu isə öz növbəsində bizim işimizi ləngidir.

Məsələnin qoyuluşu və təhlili

Çox vaxt deyirik ki, kompüter bizim köməkçi silahımızdır. Həqiqətən də kompüterin sayəsində bizi maraqlandıran, düşündürən, təhsilimizdə,iş həyatımızda lazım olan məlumatları əldə edirik. Bəzən bizi bu sual düşündürür:"İnformasiya nə üçün lazımdır?". Bir qrup insanlar belə düşünür ki,informasiya insana ona görə vacibdir ki, o öz həyatında müstəqil qərarlar versin,düzgün seçimlər etsin. Digər qrup insanlar isə düşünürlər ki,informasiya sayəsində onlar biliklər əldə edirlər və həmin bilikləri lazımi yerdə tətbiq edə bilirlər. Bugünki günümüzdə biz tez-tez «İnformasiya təhlükəsizliyi» anlayışı ilə qarşılaşırıq. İnformasiya anlayışı bizim üçün necə önəmlidirsə, eləcə də onun təhlükəsizliyi, müdafiəsi, qorunması anlayışı da o qədər vacibdir. Təhlükəsizliyin ölkəmizdə təmin edilməsi nəzəriyyəsi və praktikası təhlükəsizliyin növlərinin genişləndirilməsi ilə əlaqədar xüsusi aktuallıq qazanır. Hal-hazırda ölkəmizdə bu istiqamətdə müəyyən islahatlar aparılır, qanunlar hazırlanır və bu qanunlar qüvvəyə minir. Hər bir sahədə dövlətimizin müdafiəsi naminə milli təhlükəsizlik, informasiya-kommunikasiya sistemlərinin formalaşdırılması və qorunması üçün müəyyən təkliflər irəli sürülmüş, hətta bu sahədə işlər hələ də davam etmək üzrədir. Bu sahənin növbəti mərhələsində dövlət sirrlərinin lisenziyalaşdırılması, informasiya təhlükəsizlik sistemlərinin sertifikatlaşdırılması prosesi gerçəkləşir. Müasir dövrümüzdə aktual problemlər içərisində cəmiyyətin, insanın və dövlətin informasiya təhlükəsizliyinin qorunması da vardır.İndiki zamanda isə informasiya təhlükəsizliyi anlayışının problemləri hələ də mövcuddur və müəlliflər bu problem üzərində müəyyən işlər aparmaqdadırlar. İnformasiya təhlükəsizliyi pozulduğu zaman sadaladıqlarımızı daha dərindən araşdırmaq mütləqdi: yalan informasiyanın yayıldığı mənbəni axtarmaq, yoxlamaq; mənbənin kim tərəfindən yayılması tapılmalıdır, müəyyən məlumatlar toplanılmalıdır; informasiyanın yalnız başlığını oxumaqla kifayətlənməməli. Araşdırmalara görə sosial şəbəkələr üzərindən yayılan informasiyaların 60% yalan məlumatlardır. Yalan xəbərlər dünyada artıq dövlət siyasətinə təsir edən faktora çevrilib. İnformasiyaların müstəqil şəkildə yoxlanılması yalan xəbərlərin qarşısını alacaq əsas silahdır. İnformasiyanı yaymağın əsas standartı onun obyektivliyi və qərəzsiz olmasıdır. Bu standart

bütün dünyada qəbul olunmuşdur və informasiyanı internetə ötürən şəxs mütləq bu prinsipə əməl etməlidir. İnformasiya təhlükəsizliyi daha çox sosial şəbəkələr üzərindən pozulur. Bu təhlükəsizliyi pozan əsas cəhət isə təbii ki, yalan məlumatların paylaşılmasıdır. Bunun qarşısını almaq isə biz vətəndaşların əlindədir. Düşünürəm ki, bizim necə gündəlik qidalanmaya tələbatımız varsa, eləcə də düzgün, dəqiq, informasiya almağımıza tələbat vardır. Və mən bunu həyatımızla qarşılaşdırsam belə bir təklif irəli sürərəm: necə ki,biz marketə alışverişə gedərkən seçəcəyimiz, alacağımız məhsulların hazırlanması, son işlədilməsi tarixinə nəzər yetiririksə eləcə də alacağımız informasiyanın kim tərəfindən istehsal edildiyinə, hazırlanma tarixinə, internətə hansı məqsədlə yerləşdirildiyinə mütləq fikir verməliyik. Hətta araşdırdımalarıma görə dünya ölkələrində yalan informasiyaların yayılmasına, informasiya təhlükəsizliyinin təmin olunması görə külli miqdarda xüsusi cərimələr tətbiq olunur. Düşünürəm ki, təqdirəlayiq bir addımdır və bunun nəticəsində insanlar nə etdiklərinin, nə üçün bu hala əl atdıqlarının fərqinə varacaqlar. İnformasiya təhlükəsizliyi hər bir dövlət üçün strateji əhəmiyyət daşıyır. Fikrimcə biz informasiya ilə tanış olarkən nəzər yetirməliyik ki, informasiyanı hansı saytdan qəbul edirik. Daha çox hökümət saytlarına müracət etməliyik və yalnız doğru məlumatları busaytlardan qəbul edə bilərik. Yalan məlumatların ardınca getməkdənsə özümüz doğru, dürüst informasiyalar yaratmalıyıq və onları tanıtmalıyıq. Mənim düşüncəmə görə bu addım düzgün addımdır. Tədqiqatlar nəticəsində belə qənaətə gəldim ki, hələ də ölkə əhalisinin bir çox hissəsi informasiyanı televiziya kanalları vasitəsilə qəbul edirlər. Əslində bu doğru bir addımdır, çünki xəbər əhaliyə çatdırılmamışdan öncə tam, dəqiq bir hala gətirilir daha sonra televiziya kanallarına ötürülür. Azərbaycanda müasir informasiya təhlükəsizliyinin mövcud vəziyyətini müəyyən zaman çərçivəsində çoxsaylı dəyişikliyə məruz qalan, yeni texnologiyalar, geosiyası trendlər və.s təsirini xarakterizə etmək olar. İnformasiya təhlükəsizliyi sferasında problemlər çoxşaxəli,müxtəlif istiqamətlidir və vahid həll tələb edir.Ölkəmizdə informasiya təhlükəsizliyinin təmini üçün tənzimləyici və hüquqi baza formalaşdırılıb və bu sahə üzrə müəyyən təkmilləşdirmələr davam edir. Bu sferada cəmiyyətlə əlaqələri nizama salan qanunlar qəbul edilmiş, həyata keçirilmə mexanizmləri formalaşdırılıb və inkişaf etməkdədir. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı müasir dövrümüzdə o qədər geniş yayılmışdır ki, hətta bu səbəb informasiya müharibəsinə belə gətirib çıxarmışdır. İnformasiya müharibəsinin yaranmasına səbəb isə lazımi,vacib məlumatlari düzgün mühafizə etməmək,bir sözlə informasiya təhlükəsizliyi prinsipinə düzgün riayət etməməkdir. Buna misal olaraq, Azərbaycan və Ermənistan arasında yaranmış informasiya müharibəsini göstərmək olar. Bu iki dövlət arasında virtual müharibə 2008-ci ildən bəri özünü göstərməyə başladı. Hər iki tərəf dövləti üçün vacib olan informasiya qaynaqlarını ələ keçirtdi və bununla əsrimizin gündəmdə olan məsələsi informasiya müharibəsini qaldırdılar. Virtual hücumlar getdikcə çoxalmağa başladı. Təbii ki, bu məsələlərin həllinin hüquqi yolları mövcuddur və ölkəmiz hüquqi qanunlar əsasında cinayətkarları cəzalandırdı. Lakin günümüzdə hələ də belə hallarla qarşılaşırıq.

İnformasiya təhlükəsizliyinin təmin edilməsi bir sıra müəyyən problemlərin həllini hərtərəfli tələb edir. Ölkə vətəndaşlarının, cəmiyyətin və dövlətin informasiya sferasında balans prinsipi qanunu təsdiqləmək mütləqdir. Bütün növ informasiya təhlükəsizliyi problemlərinin təmin edilməsi məqsədinə görə onları üç qrupda səciyyələndirmək olar:

- **Hüquqi cəhətdən**–İnformasiya sahəsindəki münasibətlərin nizama salınması üçün tənzimləyici bazanın, problemlərlə bağlı bir sıra normativ və metodoloji sənədlərin yaradılması mütləqdir.
- **Təşkilati-texniki**–cəmiyyətin, dövlətin müxtəlif sahələrində informasiya təhlükəsizliyinin təmin edilməsi və ümumi monitorinq sistemi formalaşana qədər onların sertifikatlaşdırılması informasiya təhlükəsizliyinin ən vacib göstəricilərindən biridir.
- **İqtisadi** – fiziki və hüquqi şəxslərin informasiya təhlükəsizliyinin təmin edilməsi və sığorta sisteminin formalaşmasından əvvəl onların maliyyələşdirilməsi vacib göstəricidir.

İnformasiya təhlükəsizliyi təchizatı və proqramı beş qrupa bölünə bilər:

1. İstifadəçi identifikasiyası və autentifikasiyası;
2. Disk məlumat şifrələmə sistemi;
3. Şəbəkələr üzərindən ötürülən məlumat üçün şifrələmə sistemi;
4. Elektron məlumat doğrulama sistemləri;
5. Kriptoqrafik açar idarətmə sistemi.

İstifadəçi identifikasiyası və autentifikasiyası. Bu sistemdən təsadüfi və qanunsuz girişləri məhdudlaşdırmaq üçün istifadə olunur. Belə sistemlərin işlədilməsinin ümumi alqoritmi şəxsiyyətin fərdi məlumatlarını əldə etmək, onun həqiqiliyini yoxlamaq, daha sonra isə istifadəçiyə sistemlə işləmək bacarığını təmin etməkdən ibarətdir. Aşağıdakı hissələrə ayırmaq olar:

- İstifadəçinin malik olduğu gizli məlumatları, məsələn, parol, gizli açar, fərdi identifikator və s.
- İstifadəçi bu məlumatı xatırlamalıdır və ya bunun üçün xüsusi saxlama vasitələrindən istifadə əlverişlidir.
- İnsanın fizioloji parametrləri, məsələn, barmaq izi, göz bəbəyinin quruluşu və ya davranışını misal göstərmək olar.

Disk məlumat şifrələmə sistemi. İnformasiyanı düşmənə yararsız etmək üçün onu şifrələyirlər, yəni, kriptoqrafiya adlanan metoddan istifadə edirlər. Kriptoqrafiya isə yunan sözü olub , kryptos-gizli , qrafo isə yazı deməkdir. Kriptoqrafiya məlumatların gizli alqoritm və ya açar əsasında orijinal mətnin şifrələmə mətnə çevrilməsi yoludur.

Şəbəkələr üzərindən ötürülən məlumat üçün şifrələmə sistemi. Şifrələmənin iki üsulu mövcuddur: kanal və son (istifadəçi) şifrələmə. Kanal şifrələməsi halında xidmət məlumatları da daxil olmaqla rabitə kanalı üzərindən ötürülən bütün məlumatlar qorunur. Son (istifadəçi) şifrələməsi iki tətbiq arasında ötürülən məlumatların məxfiliyinin qorunmasını təmin edir.

Elektron məlumat doğrulama sistemləri. Şəbəkələr üzərindən məlumat mübadiləsi apararkən sənədin müəllifinin və sənədin özünün təsdiqlənməsi problemi yaranır, yəniməumat doğruluğunun yoxlanılması halları aşkara çıxır. Məlumat doğruluğu üçün isə doğrulama kodu və ya elektron imzadan istifadə olunur. Doğrulama kodu açıq məlumatların xüsusi şifrələməsi yolu ilə əmələ gəlir və şifrələnmiş məlumatların sonunda rabitə kanalı vasitəsilə ötürülür. Doğrulama kodu - gizli açar sahibi olan alıcı tərəfindən açıq məlumatlar alınır və üzərində əvvəllər həyata keçirimiş proseduru təkrarlayaraq təsdiqlənir.Elektron rəqəmsal imza imzalanmış mətnlə birlikdə nisbətən az miqdarda identifikasiya olunmuş məlumatdır. Göndərən şəxs göndərənin gizli açarından istifadə edərək rəqəmsal imza yaradır. Alıcı imzanı göndərənin açıq açarından istifadə edərək təsdiqləyir.

Kriptoqrafik açar idarətmə sistemi. Hər hansı kriptosistemin təhlükəsizliyi istifadə olunan kriptoqrafik açarlarla müəyyən olunur. Təhlükəsiz olmayan əsas idarəetmə vəziyyətində təcavüzkar əsas məlumatları təhvil ala bilər, sistemdəki və ya şəbəkədəki bütün məlumatlara tam giriş əldə edə bilər. Funksiya növlərini idarəetmə açarlarına görə fərqləndirirlər: Nəsil, saxlama və açar paylama. Simmetrik və asimmetrik kriptosistemlər üçün əsas nəsil metodları fərqlidir. Simmetrik kriptosistem açarlarının yaradılmasında təsadüfi seçilmiş aparat və proqram təminatından istifadə olunur. Asimmetrik kriptosistem açarlarının yaradılması daha çətindir, belə ki, düymələr müəyyən riyazi xüsusiyyətlərə malik olmalıdır. Saxlama funksiyası əsas məlumatların təhlükəsiz saxlanması, uçotu və zərərsizləşdirilməsini təşkil edir. Saxlama açarlarının təhlükəsizliyini təmin etmək üçün şifrələnmədə digər açarlardan istifadə olunur.

Nəticə

İşdə aparılan təhlildə aşağıdakı nəticələr göstərilib:

1. Müasir informasiya texnologiyalarının və xüsusən də şəbəkə texnologiyalarının intensiv inkişafı bunun üçün bütün ilkin şərtləri yaradır. İnformasiyanın qorunması, məlumat-

ların daxil edilməsi, saxlanılması, işlənməsi və ötürülməsi üçün istifadə olunan məlumatların və mənbələrin bütövlüyünü, mövcudluğunu və lazım olduqda məxfiliyini təmin etməyə yönəlmiş tədbirlər kompleksidir.

2. Psevdo-təsadüfi say generatoru istifadə edən şifrələmə metodu ən çox kriptoqrafik məlumatların qorunması proqramında istifadə olunur. Çünki proqramlaşdırma çox sadədir və çox yüksək kriptoqrafik gücə malik alqoritmlərin yaradılmasına imkan verir. Bundan əlavə, bu şifrələmə metodunun effektivliyi çox yüksəkdir. Bu metoda əsaslanan sistemlər məlumatları saniyədə bir neçə kilobayta qədər şifrələyə bilər.

Ədəbiyyat

1. Əlizadə M.N., Bayramov H.M., Məmmədov Ə.S. İnformasiya təhlükəsizliyi, Bakı-2016

2. Жогаль А.В. Современные проблемы обеспечения информационной безопасности вРоссии // Контекст и рефлексия: философия о мире и человеке. 2017

3. Вильям Столлингс. Криптография и защита сетей: принципы и практика. М.: Вильямс, 2001

XÜLASƏ

Müasir dövrdə informasiya – kommunikasiya texnologiyalarının sürətli inkişafı informasiya təhlükəsizliyi problemlərinin öyrənilməsinə və tədrisinə geniş yer verir. Halhazırda İnformasiya təhlükəsizliyi anlayışı dünya ölkələrində həmçinin Azərbaycanda ən geniş yayılmış anlayışdır. Bu sahədə yüksək kadr hazırlığı təşkil olunmuşdur. Təhlükəsizliyin təmin olunması bütövlükdə bəşəriyyətin ən əsas və qlobal problemlərindən biridir. İnformasiya təhlükəsizliyi dedikdə informasiya mühitinin əhatə etdiyi bütün sahələr başa düşülür. Nəticə olaraq informasiya təhlükəsizliyi dövlət, iqtisadi, şəxsi tərəfləri əlaqəli şəkildə öyrənilmişdir.

Гасымова Эльнара Эльман

Методы обучения информационной безопасности

РЕЗЮМЕ

Быстрое развитие информационных и коммуникационных технологий в наше время дает широкие возможности для изучения и преподавания проблем информационной безопасности. В настоящее время концепция информационной безопасности является наиболее распространенной в мире, а также в Азербайджане. В этой сфере организована высокая подготовка кадров. Безопасность - одна из важнейших и глобальных проблем человечества в целом. Информационная безопасность - это состояние защиты информации и информационной среды от случайных или преднамеренных природных или техногенных воздействий. В результате информационная безопасность связана с государственным, экономическим и личным аспектами.

Gasimova Elnara Elman

Methods of teaching information security

SUMMARY

Development of the information and communication technologies in modern times is actually for the study and teaching of information security problems. Currently, the concept of information security is the most widespread in the world, as well as in Azerbaijan. High training has been organized in this area and security is one of the most important and global of humanity problems. Information security is the state of protection of information and the information environment accidental influences. As a result, information security is unuted the state, economic and personal aspects of thes problem.

Abdullayeva Aynurə Fuad qızı
Azərbaycan Dövlət Pedaqoji Universitet

KOMPUTER MODELİNİN X SİNİFDƏ TƏDRİSİ METODİKASI

Açar sözlər: *model, modelləşdirmə, obyekt, komputer*
Ключевые слова: *модель, моделирование, объект, компьютер*
Key words: *model, modelling, object, computer*

Komputer günümüzdə informasiya modellərini saxlamaq üçün mühüm vasitədir. Komputer proqramlarında əks olunan modellər *komputer modelləri* adlanır. Şagirdlərin komputer modelləri ilə ilk tanışlığı 10-cu sinifdə yaranır. Bu mövzunun tədrisinə 1 saat vaxt ayrılır. Mövzunun girişində maşın obyektinin kağızda və komputerdə təsvir edilmiş iki modeli təsvir edilib. Müəllim şagirdlərdə ilkin təsəvvürlərin yaranması məqsədilə onların diqqətini həmin modellərə yönəldir. Dərslikdə təqdim edilmiş suallar müəllimlə birlikdə şagirdlərlə müzakirə edildikdən sonra müəllim öncədən hazırladığı təqdimatı şagirdlərə təqdim edir. Təqdimatın ilk slaydında konkret bir gül rəsmi təsvir edilir.

Fəaliyyət olaraq müəllim şagirdlərətəqdimatda göstəriləngülün həm komputerdə Paint proqramı vasitəsilə həm də kağız üzərində rəngli karandaşlarla təsvir etmələrini tapşırır. Bu zaman müəllim sinfi iki qrupa bölür. Qrupun yarısı rəngli karandaşlarla, qalan yarısı isə Paint proqramı vasitəsilə təsviri həyata keçirəcəklər. Hər kəs tapşırığını yerinə yetirdikdən sonra, müəllim şagirdlərə təsvirdəki gülün yarpaqlarından birini silərək müəyyən dəyişiklik etməyi tapşırır. Aydındır ki, bu zaman müəllimin tapşırığını komputerdə işləyən şagirdlər, karandaş və pozanla işləyən şagirdlərdən daha çevik yerinə yetirəcəklər. Bu zaman müəllim şagirdlərin diqqətinə çatdırır ki, komputerdə işləyərkən müəyyən dəyişiklikləri etmək daha rahat olduğundan modellərikomputerdə yaratmaq daha üstün hesab edilir.

Dərsin nəzəri hissəsində isə müəllim təqdimatı davam edərək dərsi mövzunun açar sözlərinə uyğun olaraq izah etməyə başlayır. Bu zaman müəllim qayaüstü rəsmləri göstərərək şagirdlərə izah edir ki, komputer yaranmazdan əvvəl keçmişdə insanlar informasiyanı gələcək nəsillərə ötürmək üçün belə qaya üzərində müxtəlif təsvirlər yaradırdılar. Texnologiya inkişaf etdikcə komputer aləti yarandı və insanlar artıq informasiyanı kağızda yox komputerdə saxlamağa başladılar. Obyektin komputerdəki təsviri həmin obyektin *komputer modeli* adlanır. Bu zaman müəllim xüsusilə vurğulamalıdır ki, hər hansı obyektin komputerdə modelini yaratmaq üçün proqram təminatının olması çox vacibdir. Müəllim şagirdlərə bildirir ki, modelin komputerdə yaradılması prosesinə **komputer modelləşdirilməsi** deyilir. Bundan əlavə olaraq müəllim informasiya modellərinin komputerdə hazırlanmasının 5 mərhələsini də xüsusilə şagirdlərin nəzərinə çatdırmalıdır. Dərsin izahından sonra müəllim komputerdə modelin hazırlanma mərhələsini nümunə üzərində izah etmək üçün aşağıdakı kimi nümunəyə baxır.

İlkin mərhələdə müəllim təsviri informasiya modelini aşağıdakı kimi izah edərək düsturu lövhəyə yazır:

Düzbucaqlı üçbucağın verilmiş katetlərinə əsasən hipotenuzunun tapılması üçün a və b katetlərinin qiyməti verilməlidir. Düstur belə olacaq: $a^2 + b^2 = c^2$

İkinci mərhələdə məsələnin fomallaşdırılmış modeli qurulur.Müəllim bu modeli alqoritmik formada sözlər vasitəsilə göstərərək düsturun altından aşağıdakı ardıcıllığı yazır:

1. *Giriş*
2. *a və b dəyişənlərinin qiymətləri daxil edilir.*
3. *Əgər a və b dəyişənlərinin daxil edilmiş qiymətləri sıfırdan kiçikdirsə 6-cı addıma keçid olunsun.*

4. Əgər a və b dəyişənlərinin daxil olunmuş qiymətləri sıfırdan böyükdürsə növbəti addıma keçid.

5. $c = \sqrt{a^2 + b^2}$ *hesablanır.*

6. Çıxış

Üçüncü mərhələdə məsələnin komputer modeli yaradılmalıdır. Bu zaman müəllim öz noutbukunda məsələni Phyton dilində uyğun proqram təminatında yazaraq proyektor vasitəsiləşagirdlərin nəzərinə çatdırır. Proqram kodu aşağıdakı kimidir:

```
import math
print("a və b emsallarını daxil edin: ")
a = float(input("a = "))
b = float(input("b = "))
if a > 0 and b>0:
 c=math.sqrt(math.pow(a,2)+ math.pow(b,2))
else:
 print("a və b-ni musbet daxil edin")
print(c)
```

Dördüncü mərhələdə isə eksperiment aparmaq üçün müəllim proqramı müxtəlif cür icra edir. Beşinci mərhələdə isə müəllim nəticələri şagirdlərlə birlikdə təhlil edir.

Dərsin "Araşdıraq öyrənək" bölümündə şagirdlərdən $cosx - x^2 = 0$ tənliyinin qrafik üsualla həllinin komputer modelinin qurulması tələb olunur. Bu zaman müəllim şagirdlərə MS Excel proqramında məsələnin modelinin qurulması ilə bağlı istiqamət verib, növbəti dərs üçün qeyd edilmiş məsələnin komputer modelinin qurulmasını ev tapşırığı olaraq verir.

Təlimin nəticəsində şagirdlər komputer modelinin xüsusiyyətlərini, yaradılması mərhələlərini sadalayır və sərbəst şəkildə komputer modelini yaratmağı bacarır.

Ədəbiyyat

1. R.Mahmudzadə, İ.Sadıqov, N.İsayeva, İnformatika: X sinif dərslik, Bakı 2017.
2. R.Mahmudzadə, İ.Sadıqov, N.İsayeva, İnformatika: X sinif metodik vəsait, Bakı 2017.

XÜLASƏ

Bu məqalədə komputer modelləşdirməsinin orta məktəbdə öyrədilməsi metodikası əks olunub.

Абдуллаева Айнура Фуад гызы

Методика обучения компьютерной модели в X классе

РЕЗЮМЕ

В данной статье описана методика обучения компьютерному моделированию в средней школе.

Abdullayeva Aynura Fuad

Methodology of teaching computer model in X class

SUMMARY

This article describes the methodology of teaching computer modeling in high school.

Qocalı Nigar Vahid qızı

COREL DRAW QRAFİK DİZAYN PROQRAMININ TƏDRİSİNDƏ MÜSAİR TƏLİM METODLARIN TƏTBIQ OLUNMASINA METODİK YANAŞMA (10-cu sinif)

Açar sözlər: *komputer qrafikası, Corel Draw*

Ключевые слова: *компьютерная графика, CoreL Draw*

Keywords: *computer Graphics, Corel Draw*

Aktuallıq:Tədrisin təşkilində orta məktəblərdə müxtəlif tətbiqi proqramlar tətbiq edilir. Hazırda müxtəlif funksional məqsədlər üçün öyrədici proqramların yaradılması nəticəsində metodik sahələr inkişaf etdirilir. Pedoqoji və texniki cəhətdən ən optimal variantın tapılması kütləvi tədqiqat tələb edir. Orta məktəblərin X siniflərində tətbiqi proqramların praktikumlarla tədrisi tam məzmunlu nəticə əldə olunmasına yönəlmiş geniş layihələrin hazırlanması üçün nəzərdə tutulur. X siniflərdə maddi texniki baza və ixtisaslı müəllim kadrları olan məktəblərdə tətbiqi proqram paketlərinin tədrisi olduqca effektiv alinir.

Praktik əhəmiyyəti: Bu proqramının əsas istiqaməti corel drawvektor qrafik redaktorlarından istifadə edərək qrafik dizaynın öyrənilməsidir . 10-cu sinif İnformatikanin tədrisi şagirdlərdə informasiyanin muxtəlif mənbələrdən axtarışı, fərdi və kollektiv işin təşkili bacarıqlarının formalaşması istiqamətində qurulmusdur. Dərslikdə təlim materialları 6 tədris vahidində qruplaşmişdir. Əgər mövcud dərsliyə nəzər salsaq 10-cu sinifdə bu tədris vahidinin mövzuları əsasən nəzəri xarakterlidir. Bunların əksəriyyəti qrafik redaktorların növləri və təsnifatına həsr edilmişdir. Bəzi mövzular da praktik xarakter almaq üçün vasitələr düzgün tövsiyə olunmamışdır. Burada şagirdlərin praktik işləməsi üçün məntiqi ardıcıllıq yoxdur. Bu da şagirdlərin həm yaddaşında çətinliklə qalır, həm də dərsə marağı azaldır

Bizim təklif edtiyimiz metodika isə bu çatışmazlığı aradan qaldırmaqla əsasən iki istiqamətlə dərslik tərtiblərinin tövsiyyə etdiyi metodikadan fərqlənir. Birincisi, bizə görə Corel Draw proqramının praktik olaraq öyrədilməsinə hesablanır, ikincisi isə mövzuların məntiqi ardıcıllığına üstünlük verilir. Bu məqsədlə tədris vahidinə ayrılan saatların sayı saxlanılmaqla məzmun praktik məsələlərlə zənginləşdirilir, model hazırlayan bir tətbiqi proqram (Corel Draw) şagirdlərə mükəmməl öyrədilir.Vector qrafik proqramlarda işləməyi öyrənmək elə də asan deyil. Buna baxmayaraq tədris məqsədilə nəzərdə tutulmuş proqramlar da mövcuddur. Belə qrafik redaktorlardan biri də çox əlverişli interfeysə malik **Corel Draw** proqramıdır Beləliklə, birinci olaraq dərsdə dərslikdə olan nəzəri materialdan ən zəruri hissə öyrədilir, sonra isə Corel Draw proqramı haqqında aşağıdakı məlumat verilir.Təsnifata əsasən, hər hansı bir vektor redaktoru nəzərdən keçirildikdə tətbiq oluna bilən təhsil elementləri seçilir və yerləşdirilir.Vektorlu iki ölçülü qrafika redaktoru CorelDRAW-ın öyrənilməsinin məzmunu nəzərə alınaraq təhsil elementlərini aşağıdakı kimi seçib yerləşdirə bilərikğ

1.həndəsi konstruktor:dairə, düzbucaqlı, ellips, qövs, çoxbucaqlı,spiral,və s.

2.obyektlərlə həndəsi əməliyyatlar: obyektlərin seçilməsi, surətinin çıxarılması, silinməsi, fırlanması, əks olunması, miqyaslanması, obyekt doldurulması, obyekt konturu, SD-obyektlərin yaradılması və simulyasiyası üçün interaktiv alətlər və s.

3.dəqiqlik:ölçü vahidləri, təbəqələr, təlimatlar, snaps, üslublar, şablonlar və s

Nəzarətmərhələsində müəllim təlim layihələrini qiymətləndirmək üçün meyarlar təqdim edir. Məsələn, vektor üç ölçülü qrafika üçün təhsil layihəsinin vizual qiymətləndirməsinin 100 ballıq bir sistemdə aparılması tövsiyə olunur, sonra ballar müxtəlif meyarlara görə aşağıdakı şəkildə paylana bilər:

1. **həndəsə(0-20 bal):** səhnədəki bütün obyektlər yaradılmalı, obyektlərin ölçüləri mütənasib olmalıdır;
2. **materiallar (0-20bal):**bütün obyektlərə material verilməlidir;
3. **işıqlandırma (020 bal**): işıqlandırma parametrləri edilməli və məqbul nəticələr verməlidir;
4. **çəkiliş kameraları (020 bal):** çəkiliş kameralarının parametrləri düzəldilməli və məqbul nəticələr verməlidir, səhnə bucağı səhnədəki obyektləri və materialların reallığını maksimum dərəcədə göstərəcək şəkildə olmalıdır;
5. **vizualizasiya (0-20 bal**):vizuallaşdırma verilmiş süjetə mümkün qədər yaxın olmalıdır;
6. **fərdi komponent** (əlavə 0-20 bal).

Özünənəzarət mərhələsi şagirdlərin təlim layihələri üzrə özünü qiymətləndirmə meyarlarını göstərir.

Bu CorelDRAW tədris proqramı, şagirdlərə məktəb işlərinin demək olar ki, hər tərəfini inkişaf etdirmək üçün istifadə edə biləcəkləri və daha sonra karyeralarına tətbiq edə biləcəkləri əsas qrafika və vizual ünsiyyət bacarıqlarını təmin etmək üçün hazırlanmışdır. Bu öyrənmə moduluna müəllimlər üçün dərs planları və orta məktəb şagirdləri üçün təlimatlandırılmış dərslər daxildir. Şagirdlər alət qutusundakı alətləri müəyyənləşdirməyi və Rəng istifadəsi haqqında məlumat əldə edəcəklər və bir obyektə və / və ya konturuna rəng tətbiq etməyin bir neçə yolunu tapacaqlar. Müzakirə üçün təklif olunan mövzular əks rəngə qarşı birbaşa rəngə və bunun RGB və CMYK rənglərinə və ekrana qarşı çap rənglərinə necə aid olduğunu əhatə edir.sonra şagird bir obyektə və / və ya onun konturuna rəng tətbiqetmənin bir neçə üsulunu təyin etməlidir. **Tədqiqat və kəşfiyyat mərhələsinin** sonunda şagird rəng və rəng istifadəsi ilə bağlı bir neçə vacib suala cavab verməlidir.

- Corel DRAW alət qutusundakı bəzi rəsm alətləri hansılardır?
- Alət qutusundakı hansı piktoqramların özləri ilə əlaqəli olduğunu necə izah edə bilərsiniz?
- CorelDRAW-da təqdim olunan fərqli rəng palitraları hansılardır və niyə mövcud olan müxtəlif növlərdən istifadə edirsiniz?.
- RGB və CMYK ilə ekran və çap rəngləri ilə əlaqəsi necədir. Hansı vəziyyətdə RGB-də çap etmək istərdiniz?

Nəticə: Onların hər birinə konkret konsepsiyaların öyrənilməsi və spesifik bacarıqların inkişafı üçün metodoloji üsulların seçilməsinə dair tövsiyələr, həmçinin dərsdə istifadə üçün və yaradıcı bir ev tapşırığı kimi özünü yerinə yetirmək üçün praktik tapşırıqların nümunələri, hər tapşırıq üçün A4 vərəqində təlimatlar verilir. Tədqiqat materialları informatika dərslərində əsas və orta məktəb şagirdləri üçün kompüter qrafikası ilə işləmə bilik və bacarıqlarını dərinləşdirmək və möhkəmləndirmək üçün istifadə edilə bilər. Şagirdlər verilmiş dərs və iş səhifələrindən istifadə edərək alətlər qutusu, düzbucaqlı alət, ellips aləti, əsas şəkillər aləti, istifadəsini araşdırırlar. Müəllim butun bunlari etmək üçün sinifləri qruplara ayırmalı və hər qrupa bu suallar verməlidir. Bundan sonra qruplar tapdiqlarini bütün sinifə geri bildirməlidirlər. Neticədə diskusiya şəklində dersin gedisi davam edir. Şagirdlər daha yaxsi dərsi qavrayırlar.

Ədəbiyyat

1. R.Ə.Mahmudzadə, İ.C.Sadıqov, N. R. İsayeva; dizayner P.Məmmədov; rəssam E.Məmmədov: ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün İnformatika fənni üzrə dərslik /.] Bakı: Bakı nəşr, 2018.

2. Musayəv İ., Əlizadə M. İnformatikanın əsasları, Dərs vəsaiti, Bakı, 2014,

3. Novruzova X.T. İnformatikanin tədrisi mətodikası (1-4-cü siniflər), Dərs vəsaiti, Bakı, ADPU, 2017

4. Ətibar Səyidzadə. İnformatika 2015

5. R.Mahmudzadə, İ.Sadıqov, N.İsayəva. İnformatika – 9 Ümumtəhsil məktəblər üçün dərslik.Bakı “Yaznəşr”, 2016

РЕЗЮМЕ

Знания, привитые студентам при преподавании данной темы, станут основой для дальнейшего развития и совершенствования навыков будущих специалистов в области компьютерной графики.

SUMMARY

The knowledge instilled in students during the teaching of this topic will be the basis for further development and improvement of skills of future professionals in the field of computer graphics.

Kərimli G.Ş.
Azərbaycan Dövlət Pedaqoji Universiteti

BİLİK VƏ EKSPERT SİSTEMLƏRİNİN FORMALLAŞDIRILMASI BÖLMƏSİNİN ÖYRƏNİLMƏSİ METODOLOGİYASI

Açar sözlər: *eskpert sistem, bilik, suni intellekt, informasiya, biliklər toplusu, metodika, müəllim, dərslik*

Ключевые слова: *экспертная система, знания, искусственный интеллект, информация, сбор знаний,методика, учитель, учебник*

Key words: *expert system, knowledge, artificial intelligence, information, collection of knowledge, methodology, teacher, textbook*

Günümüzdə texnologiyanın yararlarını saymaqla bitməz. Bir çox texnoloji alətlər proseslər əl əməyindən istifadəni azaltmış və insanların rahatlığını təmin etmişdir. Hazırda elə sistemlər mövcuddur ki hər hansı bir qeyri-müəyyənlik yarandıqda yaxud məsləhətə ehtiyac olduqda və ya hər hansısa avtomatik əməliyyatın icrasına ehtiyac yarandıqda bu sistemlər insan əli dəymədən bu kimi prosesləri yerinə yetirir. Belə sistemlərdən biri də Ekspert sistemlərdir.

Ekspert sistemlər biliklər toplusunundan istifadə edərək müəyyən qaydalar əsasında ümumi cavab formalaşdıraraq nəticə qaytaran maşınlardır.

Demək ki bir ekspert sistemi yaratmaq üçün mütləq biliklər toplusu olmalıdır.

Ekspert sistemləri hazırki günümüzdə də inkişaf edir. Bir müddətdən sonra bu sistemlərin necə yaranması xüsusiyyətləri və başqa özəllikləri haqqında marifləndirmələr aparılması məsləhət görüldü. Beləki hal-hazırda bu sistemlər məktəblərdə universitetlərdə həm marifləndirici həm də metodiki olaraq öyədilməyə başlanılıb. Ekspert sistemlərə ölkəmizdə məktəblilər üçün olan 11-ci sinif İnformatika dərsliyində rast gəlmək olur.

Metodik olaraq Ekspert sistemləri öyrədilməsini aşağıdakı kimi araşdıraq

Bu mövzunu orta məktəbdə şagirdlərə öyrədilməsi üçün bir neçə mərhələyə ayırmaq olar. Bu mərhələləri nəzərdən keçirək.

1) Bu mərhələdə ilkin olaraq şagirdlərə "ekspert" sözü haqqında bilgiləndirmək lazımdır. Ekspert sözü latınca *expertus* sözündən götürülmüş mənası *təcrübəli* deməkdir. Ekspert – müəyyən olunmuş tam dəqiq məlumatlar toplusu üzrə rəyin hazırlanması, araşdırmaların aparılması, tövsiyələrin verilməsi, qərarların qəbul olunması üçün olan müəyyən sahənin təcrübəli həm də ixtisasını yaxşı bilən mütəxəssisə deyilir. Qisa olaraq ekspert müəyyən bir sahə üzrə maksimum məlumatlı bacarıqlı və təcrübəli mütəxəssisdir.

İkinci hallola bilər ki şagirdlər bu sözün açılışın bilmiş olsun. Bu zaman isə müəyyən suallar verərərək daha çox məlumat verib şagirdlərlə müzakirə edilə bilər. Məsələn bu suallar ola bilər. Ekspertləri ən çox hansı sahələrdə istifadə olunur? Ekspertiza sözünün mənası nədir? Bu sözü deyendə nə başa düşürsünüz?

2) İkinci mərhələdə isə dərsə giriş etmək üçün şagirdlərə bir cədvəl təqdim edə bilərik və onlardan bu cədvəlin məntiqi mühakimələrə əsaslanaraq doldurmalarını yəni cavablandırmalarıistənilir. Bu mərhələ “fəaliyyət”mərhələsi də adlana bilər.

3)

Fakt (bilik)	Qayda	Nəticə
Sadiq su içir.	Bütün canlılar susuz yaşaya bilməz.	*Sadiq susuz yaşaya bilməz.*
Sabir Baharın babasıdır. Bahar Gülbaharın qızıdır.	Əgər A B-nin babasıdırsa və B D-nin övladıdırsa onda D A-nın qızıdır.	*Qızıdır.*
b ədədi sadə ədəddir.	Bütün sadə ədələr 1-ə və özünə	b ədədi özünə bölünür

	bölünür.	
Ağaclar tumurcuqlayır.	*Yaz gələndə ağaclar tumurcuqlamağa başlayır.*	Yaz fəslidir.

4) Üçüncü mərhələ artıq metodist ekspert sistemlər haqqında məlumat verir. Müəllimin məlumat verməsi sinifin səviyyəsindən asılıdır. Yəni bilgiləndirmə sinif səviyyəsinə görə təyin edilir.

Ekspert sistemlərin iki növü vardır: statik və dinamik ekspert sistemləri.

Statik ekspert sistemlərində qoyuluş məsələnin həll edərkən yaranan ətraf aləmdəki dəyişikliklərin nəzərə alınmasının önəmli olmayan sahələrdə işlədilir.İlk praktik olaraq istifadə olunan ekspert sistemləri sistatik olmuşdur. Lakin sonradan zərurət yarandıqca sistatik sistemlərin əlverişli olmadığı görülmüş buna görədə ətraf mühitdəki dəyişiklikləri nəzərə alan dinamik ekspert sistemlərinin yaradılmasına başlanmışdır. Dinamik sistemlərin sistatik sistemlərdən fərqi o idiki, bu sistemlərdə əlavə olaraq iki komponentde malikdir: xarici aləmin modelləşdirilməsi altsistemi və xarici aləmlə qarşılıqlı təsir altsistemi.

Qaydalara əsaslanan ekspert sistemləri ən ilk sistemlərdəndir. Tədqiqatçıların bu sistemi qurmağının çox yayılmış yoludur. Bu sistemlər tədqiqatçılara əvvəlki biliklərlə bütün problemi həll etməyə kömək edir və müxtəlif tədqiqat sahələrinə inteqrasiya olunmuşdur. Ekspert sistemlərin arxitekturasının əsas kompanentləri bunlardır

- Biliklər bazası(Knowledge Base)
- Çıxış mühərriki(Inference Engine)
- İstifadəçi interfeysi(User Interface)

Biliklər bazası.Ümumiyyətlə Bilik nədir? Biliklər bir həqiqət toplusudur. Burada bilikləri (məlumatları) tapşırıq sahəsi ilə əlaqəli məlumatlar və faktlar kimi təşkil olunmalıdır. Həmçinin bilikləri hal-hazırki və keçmiş təcrübənin birləşməsi kimi müəyyən edilir. Biliklər bazası tekrarolunmayan və yüksək keyfiyyətli biliklərdən ibarətdir. Burada mütəxəssislərin biliklər toplusu son dərəcə dəqiq və anlaşıqlı olmalıdır. Bu xüsusiyyət də Süni Zəkada Ekspert sistemin müvəffəq olmasının səbəbidir.

Çıxış mühərriki (Inference Engine). Hər hansı bir nəticə əldə etmək üçün Çıxış mühərriki məlumatı(biliyi) alır və uyğun olaraq yönləndirir. Buradakı proseslər müəyyən qaydalara uyğun gedir.

İstifadəçi interfeysi (User Interface). Bu hissə odur ki ekspert sistem istifadəçi üçün əlverişli olmalıdır. Daha rahat interfeysli ekspert sistemlər istifadəçi tərəfindən rahat başa düşülür və çox sahədə tətbiq olunur.

Ekspert sistemlərin hal-hazırda bir çox numayəndəri vardır **DENDRAL, PXDES,** CLIPS və s.

5) Bu son mərhələdə isə "Araşdıraq-öyrənək" bölməsi adlandıraq burada müəllim şagirdlərə tapşırıq olaraq MYCIN ekspert sistemi haqqında araşdırma edib məlumat toplamağı tapşırır.

Qan infeksiyalarının müalicəsi üçün erkən bir mütəxəssis sistemi və ya süni intellekt (AI) proqramı olan MYCIN. 1972-ci ildə Kaliforniyadakı Stanford Universitetində MYCIN yaradilmağa başladı. MYCIN, xəstələrə bildirilən simptomlara və tibbi test nəticələrinə əsasən diaqnoz qoymağa çalışacaqdı. Proqram, xəstəyə dair əlavə məlumat tələb edə bilər və ehtimal olunan diaqnozu təyin etmək üçün əlavə bir laboratoriya testləri təklif edə bilər, bundan sonra bir müalicə kursunu tövsiyə edə bilər. MYCIN tələb olunarsa, diaqnoz və tövsiyəsinə səbəb olan səbəbi izah edəcəkdir. Təxminən 500 istehsal qaydalarından istifadə edərək, MYCIN, qan infeksiyaları sahəsində insan mütəxəssisləri ilə eyni səviyyədə və ümumi praktiklərdən daha yaxşı səviyyədə işləyirdi.Buna baxmayaraq, ekspert sistemlərinin təcrübələrinin məhdudiyyətləri barədə ümumi bir mənası və anlayışı yoxdur. Məsələn, MYCIN-ə güllə

yarası almış bir xəstənin qan itirərək öldüyünü söyləsələr, proqram xəstənin simptomları üçün bakterial bir səbəb aşkarlamağa çalışacaqdır. Bu sistem, çəkisi və yaş məlumatları təsadüfən köçürülən bir xəstə üçün açıq şəkildə səhv bir dərman dozası təyin etmək kimi absurd kargüzarlıq səhvlərinə də təsir edə bilər.

Qiymətləndirmə. Müəllim təlimin keyfiyyətini ölçmək üçün qiymətləndirmə etməlidir. Bu aşağıdakı meyarlara görə götürülə bilər:

I səviyyə	II səviyyə	III səviyyə	IV səviyyə
Ekspert sistemlərini nümunələrləgöstərməkdə çətinlik çəkir.	Ekspert sistemlərini müəllimin köməyi ilə nümunələrlə göstərir	Ekspert sistemlərini nümunələrlə göstərərkən kiçik səhvlərə yol verir	Ekspert sistemlərini nümunələrlə ətraflı göstərib izzah edə bilir.

Ədəbiyyat

1. X sinif dərslik. (İsmayıl Sadıqov, Ramin Mahnudzadə, Naidə İsayeva)
2. XI sinif dərslik. (İsmayıl Sadıqov, Ramin Mahnudzadə, Naidə İsayeva)
3. https://en.wikipedia.org/wiki/Expert_system

XÜLASƏ

Bu məqalədə ekspert sistemləri haqqında məlumat və ekspert sistemlərin hansı metodlarla orta məktəblərdə öyrədilməsi əks olunmuşdur. Ekspert sistemlər və bilik haqqında məlumat verilmişdir. Daha sonra Bilik və ekspert sistemlərinin öyrədilməsi metodologiyasını əsasən 4 mərhələyə ayrılmışdır və hər mərhələ üçün ətraflı izah verilmişdir. Müəllim bu mərhələlərdən sonra qiymətləndirmə ilə hər bir tələbəyə uyğun qiymət verərək təlimi yekunlaşdırır.

РЕЗЮМЕ

В статье представлена информация об экспертных системах и методах обучения экспертных систем в общеобразовательных школах. Была представлена информация об экспертных системах и знаниях. Затем методика обучения знаниям и экспертным системам делится на 4 этапа, и каждому этапу дается подробное объяснение. После этих этапов учитель завершает обучение, соответствующим образом оценивая каждого ученика.

SUMMARY

This article provides information on expert systems and methods of conducting expert systems in secondary schools. Information on expert systems and knowledge was provided. Then, the methodology of teaching knowledge and expert systems is divided into 4 stages and a detailed explanation is given for each stage. After these stages, the teacher concludes the training by assessing each student accordingly.

Hətəmxanov İsmayıl Roman oğlu
ADPU, magistrant

8-ci SİNİF İNFORMATİKA DƏRSLİKLƏRİNDƏ KOMPÜTER QRAFİKASININ SKETCHUP PROQRAMI İLƏ ÖYRƏDİLMƏSİ METODİKASI

Açar sözlər: *kompüter, kompüter qrafikası, təsvir, üçölçülü qrafika, SketchUp*

Ключевые слова: *компьютер, компьютерная графика, изображение, двухмерная графика, трехмерная графика, SketchUp*

Key words: *computer, computer drawing, description, three-dimensional graphics, SketchUp*

Mövzuya giriş. Müəllim dərsin əvvəlində şagirdlərin nəzərinə çatdırırır ki, bu mövzunu "üçölçülü qrafika" adlı bir mövzu üzərindən izah edəcəm. Bu mövzu üçölçülü təsvirlərin alınmasında və öyrədilməsində mühüm əhəmiyyətəmalikdir.

Dərsin keçirilməsində məqsəd. Bu dərsdə məqsəd kompüterdə üçölçülü təsvirlərin alınma-

sında mühüm əhəmiyyətə malik SketchUpproqramı haqqqında şagirdlərə məlumat verməkdir.

İş üsulu: Mövzu ilə tanışlıq, mövzunun izahı, sual-cavab, təqdimat, kompüterdə iş.

Mənbələr: Microsoft teams proqramı, dərsliklər, metodik vəsaitlər, kompüter, iş vərəqləri, qiymətləndirmə vərəqləri.

Dərsin tipi: Deduktiv formada yəni konkret olaraq öyrənmə prosesinin ümumi biliklərdən istifadə edərək praktiki işə keçirilməsi ilə mövzunun daha yaxşı öyrənilməsi.

Təlimin nəticələri: SketchUp proqramı vasitəsi ilə üçölçülü qrafik təsvirlər çəkmək.

Motivasiya: Şagirdlərə üçölçülü qrafika ilə bağlı yaradıcı-düşündürücü suallar vermək.

Dərsin quruluşu:Müəllim SketchUp proqramının nümunəsində şagirdlərdə üçölçülü qrafika haqqında müəyyən biliklər formalaşdırır, onlara bu proqramın necə istifadə olunması haqqında məlumat verir, proqramdan istifadə edərək 3D təsvirlərin alınmasını nümunə ilə göstərir, şagirdlərdə SketchUp proqramı ilə işləmək qabliyyəti formalaşdırır. Daha sonra müəllim üçölçülü qrafika mövzusunu daha yaxşı öyrənmələri üçün şagirdlərin hər birinə müstəqil olaraq öyrənmək metodunu özlərinin seçməsi imkanını verir. Müəllim dərsin əvvəlində şagirdlərdə olan kompüter qrafikası haqqında bilikləri yada salaraq, fəza fiqurları haqqında şagirdlərdə müəyyən biliklər formalaşdırır. Şagirdlərin bu mövzuda daha geniş və əyani biliklər əldə etməsi üçün onlara üçölçülü təsvirlərin alınmasında geniş yayılan SketchUp proqramı haqqında məlumat verir. Müəllim SketchUp proqramı ilə şagirdlərin praktiki şəkildə tanış olmaları üçün tapşırıq qoyur və bu tapşırığı onlarla birlikdə yerinə yetirir.

1)Hər biriniz kompüterinizə SketchUp proqramını yükləyin, və bu proqram işarəsinin üzərində mausun sol düyməsi ilə iki dəfə vurun.

2)Proqramın əsas elementləri ilə əyani tanış olun. Bu tanışlıq nəzəri materialları mənimsəmək üçün faydalıdır.

3)Sadə praktika üçün proqram alətləri ilə işçi vərəqdə müxtəlif cür təsvirlər çəkin ki, bununla siz proqram alətləri ilə daha tez-tez işləyə biləsiniz.

Bundan sonra müəllim şagirdlərə yaradıcı tipli suallar verilir. Mövzuya aid olan dərs vəsaitlərindən istifadə etməklə, proqramın müxtəlif menyu bəndlərini ayrı-ayrılıqda şagirdlərə əyani şəkildə izah etməklə şagirdlərdə bu proqram haqqında müəyyən qədər biliklər formalaşdırırılır.

Müəllimin dərsin nəticəsi ilə bağlı müşahidəsi. Dərsin sonunda müəllim şagirdlərə SketchUp proqramının alətlərindən istifadə edərək müxtəlif tipli üçölçülü fəza fiqurlarının təsvirini çəkməyi tapşırır.

Qiymətləndirmə meyarları:

1)SketchUp proqramının digər qrafik proqramlardan əsas fərqini göstərmək.

2) SketchUp proqramında nümunə hər bir şagirdin müəyyən bir üçölçülü qrafik təsvir yaratması ilə onların bu mövzunu necə mənimsədiklərini müşahidə etmək.

3)SketchUpproqramında Push alətinin funksiyasını konkret nümunə ilə göstərmək.

Məqalənin aktuallığı: Məqalədə“üçölçülü” qrafika təsvirlərin alınmasında mühüm əhəmiyyətə malik olan SketchUp proqramın öyrədilməsi ilə, kompüter qrafikasının imkanları haqqında şagirdlərə məlumat verilir.

Məqalənin elmi yeniliyi: Kompüterdə SketchUp proqramından istifadə etməklə həcmli riyazi təsvirlərin alınması göstərilir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi: Müəllim SketchUp proqramı vasitəsi ilə şagirdlərə fəza fiqurlarının alınma formasını daha əyani və praktiki şəkildə göstərir.

Ədəbiyyat

1. İsmayıl Sadıqov, Ramin Mahmudzadə, Naidə İsayeva. İnformatika-Ümumtəhsil məktəblərinin 8-ci sinifi üçün dərslik.

2.https://az.wikipedia.org/wiki/%C3%9C%C3%A7%C3%B6l%C3%A7%C3%BCl%C3%BC_komp%C3%BCter_qrafikalar%C4%B1

3. İsmayıl Calallı (Sadıqov), “İnformatika terminlərinin izahlı lüğəti”, 2017, “Bakı” nəşriyyatı, 996 s.

Гатамханов И.Р.

Методика преподавания компьютерной графики по программе SketchUp в учебниках информатики для 8-х классов

РЕЗЮМЕ

В статье преподаватель выбирает свой собственный метод, дает студентам некоторую информацию о компьютерной графике, показывает студентам, как на практике получать трехмерные изображения с помощью программы SketchUp, инструктирует их рисовать различные пространственные фигуры в этой программе, чтобы быть более творческими. Эта тема.

Hatamkhanov I.R.

Methodology of teaching computer graphics with SketchUp program in 8th grade computer science textbooks

SUMMARY

In the article, the teacher chooses his own method, gives students some information about computer graphics, shows students how to get three-dimensional images in practice using the program SketchUp, instructs them to draw various spatial figures in this program to be more creative on this topic.

Həmidli Aytən Əzizağa qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dosent H.A.Cəfərov

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN VALEOLOJİ TƏRBİYƏSİ

Açar sözlər: *valeoloji təhsil, valeoloji mədəniyyət, valeoloji proqram, sağlam həyat tərzinin əsasları, sağlamlığın qorunması.*

Ключевые слова: *валеологическое воспитание, валеологическая культура, валеологическая программа, основы здорового образа жизни, здоровьесбережение.*

Key words: *valeological education, valeological culture, valeological program, basics of healthy lifestyle, health protection*

Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların öz şəxsi sağlamlığına şüurlu münasibət formalaşdırmaq ən ümdə və vacib məsələlərdən biridir. Uşaq sağlamlığı problemi bu gün əvvəlki dövrlərdən daha aktualdır. Son 10-15 ildə gənc nəslin sağlamlığının dinamikası mənfi tendensiyalarla səciyyələnir. Tədqiqatçıların və tibb işçilərinin böyük əksəriyyətinin nəticəsi birmənalıdır: müasir ana və uşaqların mühafizəsini, gənc nəslin sağlamlığının keyfiyyətini yüksəltmək və gücləndirmək üçün hökumətin güclü tədbirlərinə ehtiyac duyulur. Belə olan halda, məktəbəqədər yaşdakı təhsildə sağlamlıqla bağlı addımların atılması dövlət təhsil standartında prioritet istiqamətlərindən birinə çevrilir.

Ümumdünya Səhiyyə Təşkilatının sağlamlığa verdiyi klassik tərifdə sağlamlıq tam zehni, fizioloji və sosial harmoniya vəziyyəti kimi səciyyələndirilir. Bu sosial sifarişin həyata keçirilməsində insan, cəmiyyət, ümumiyyətlə, dünya haqqında mövcud olan bir çox elmlər müəllimin köməyinə gəlir. Bunlardan biri də valeologiya elmidir. Pedaqoji valeologiyanın aparıcı problemi “uşağın sağlamlığını qorumaq, hər bir fərdin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, millətin sağlam formalaşdırılması üçün zəruri pedaqoji şərait yaratmaqdır” [3].

Məktəbəqədər təhsil müəssisələri müxtəlif yaşlı uşaqların valeoloji təhsilinin məqsəd, vəzifə və məzmununu həyata keçirən konsepsiya və texnikanın təkmilləşdirilməsini tələb edir. Məktəbəqədər yaşlı uşaqların zehni, intellektual,

emosional və sosial inkişafının xüsusiyyətləri, valeoloji biliklərin məktəbəqədər təhsilin strukturuna erkən yaşlarından daxil edilməsinə imkan verir.

Valeologiya dərslərində uşaqlar, insanın xarici cismi haqqında öyrənir, müşahidə üçün mövcud olan elementar biliklər əldə edir, xəsarətlər zamanı müdaxilə üçün ilk yardım haqqında biliklər qazanır, təhlükəsizlik davranışlarını və duruşlarını qoruyub gücləndirmə bacarıqlarına yiyəlinirlər.

Məktəbəqədər uşaqların elementar təhlil və sintez qabiliyyətinə malik olmaları üçün ibtidai təcrübələr, valeoloji testlər və tapşırıqlar gərəklidir. Beləliklə, elmi və pedaqoji təcrübədə uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi problemi geniş şəkildə nəzərdən keçirilir. Lakin məktəbəqədər yaşla əlaqəli və məktəbəqədər təhsil müəssisələrinin praktik fəaliyyətində sağlamlığın qorunması və sağlam həyat tərzi haqqında indi daha çox bilgilər əldə etməyi tələb edir.

Uşaqları məktəbəqədər yaşdan valeoloji elmlə tanış etməyin vacibliyini göstərən əsas amillərdən birincisi uşaqlığın məktəbəqədər dövründə, onlarda bir insanın xarakterinin, eləcə də, özünə, ətrafdakı insanlara, mövcud gerçəkliyə qarşı münasibətin formalaşdırılması; ikincisi, əksər məktəbəqədər təhsil müəssisələrində təklif olunan bilik, bacarıq və vərdişlərin müəyyən miqdarda olmasıdır.

Təcrübələr göstərir ki, məktəbəqədər təhsil müəssisələrinə gələn uşaqlar yaşlarıyla əlaqədar olaraq, sağlamlığın nə olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirlər, çünki bu uşaqların sağlamlığa münasibəti hələ yeni formalaşmağa başlayır. Uşaqlar gigiyena normaları və qaydaları ilə kifayət qədər tanış deyillər, gigiyena prosedurlarının necə aparılacağını bilmirlər; davranış bacarıqlarına sahib deyillər. Sağlam həyat tərzi üçün davamlı motivasiya deyil, davamlı pedaqoji dəstək tələb edilir.

Məktəbəqədər yaşlı uşaqlar valeoloji təhsilə çox maraq göstərirlər. Mədəniyyət baxımından gigiyenik prosedurları və fərziyyələrin müşayiəti ilə, bədənlərinin hissələri və məqsədləri ilə maraqlanırlar. Uşaqların özünü tanıma sahəsindəki kəşfləri böyük bir emosional reaksiya doğurur (Mən kiməm? Ailəm kimdir? Nəyi sevirəm? və s.).

Aparılan təcrübələr göstərir ki, məktəbəqədər təhsil müəssisələrində valeoloji mədəniyyətin inkişafı zamanı uşaqlar gigiyena maddələrindən istifadə etməyi öyrənir, gigiyena qaydalarına riayət etməyin vacibliyini anlamağa başlayır; bədənin hissələrini adlandırmağı, məqsədlərini bilməyi, özünün və digər uşaqların soyadlarını, hansı əhval-ruhiyyədə olduqlarını müəyyənləşdirməyi öyrənirlər. Uşaqlar sağlamlıq qaydaları haqqında bilikləri müstəqil olaraq və tərbiyəçinin iştirakı və köməyi ilə öz həyatlarına köçürməyi öyrənirlər. Müşahidələrin nəticələri bu yaşdakı uşaqların sadəcə valeoloji cəhətdən səriştəli olmağı öyrəndiyini və bunu böyük məmnuniyyətlə etdiklərini göstərdi.

Uşaqlar mədəni və gigiyenik bacarıqlarda müstəqillik göstərməyə başlayırlar. Uşaqların özləri və ətraf aləm haqqında fikirləri genişlənir və təhlükəsiz davranış bacarıqları formalaşır. Məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsil müəssisələrinə gəlişi ilə uşaqlar bir çox xəstəliklərin qarşısının alınması üçün qida mədəniyyətinə yiylənmək, yemək mədəniyyətinin əsaslarını bilmək, 2-3 dərman bitkilərinin adını və onların profilaktik əhəmiyyətini bilmək, bəzi profilaktik biliklərin əsaslarını formalaşdırmaq kimi xüsusiyyətlər qazanırlar.

Məktəbəqədər yaşlı uşaqların valeoloji tərbiyəsinin vəzifələrini aşağıdakılar təşkil edir:

- sağlam həyat tərzi üçün aparıcı dəyər və motivasiya kimi sağlamlığa şüurlu münasibət formalaşdırmaq;
- sağlamlıq haqqında biliklərin toplanması, sağlamlığı dəstəkləyən, möhkəmləndirən və qoruyan bacarıqlara yiyələnmək;
- uşağın sağlam həyat tərzi və gözlənilməz vəziyyətlərdə təhlükəsiz davranış problemlərini müstəqil şəkildə həll etmək;
- ibtidai tibbi və psixoloji yardım göstərməyə hazır olmaq.

Eyni zamanda, məktəbəqədər yaşlı uşaqların tədris prosesinə müəyyən valeoloji proqram tətbiq edərkən aşağıdakı şərtlərə riayət etmək lazım olduğu da aşkar edilmişdir:

- Sistematiklik;

- sinifdə uşaqların təşkilinin müxtəlif formalarından istifadə etmək;
- müxtəlif metodlardan istifadə (oyun, problem vəziyyəti və s.);
- mürəkkəblik (valeoloji təhsil ilə yanaşı müxtəlif sağlamlığa qənaət tədbirlərinin hərtərəfli həyata keçirilməsi);
- şagirdlərin valideynləri ilə pedaqoji əməkdaşlıq.

Valeoloji təhsilin və məktəbəqədər yaşlı uşaqlara valeoloji mədəniyyət aşılamaq da vacibdir. Belə ki, fiziki və zehni sağlamlığın təməlinin formalaşmasında məhz məktəbəqədər yaş həlledici olur. Bu sağlam bir nəslin tərbiyəsində əhəmiyyətli rol oynayır.

Ədəbiyyat

1. Brehman I.I.Valeology - sağlamlıq elmi - M., Akademiya, 1990.
2. Derkunskaya V.A. Məktəbəqədər uşaqların sağlamlıq mədəniyyətinin diaqnostikası. M., 2006.
3. Tatarnikova L.G. Pedaqoji valeologiya: Yaradılış. İnkişaf meylləri.1995.

Həmidli Aytən Əzizağa qızı

Məktəbəqədər yaşlı uşaqların valeoloji tərbiyəsi

XÜLASƏ

Fiziki və zehni cəhətdən sağlam cəmiyyət formalaşdırmaq üçün məktəbəqədər müəssisələrdə valeoloji mədəniyyətin inkişafı əsas amillərdən biridir. Valeologiya kömək edir ki, uşaqlar xarici cisim haqqında məlumat əldə etsin, müşahidə bacarığı formalaşsın, davranış və duruşlarını gücləndirsinlər. Bunun üçün valeoloji testlər və tapşırıqlar gərəklidir. Valeoloji mədəniyyətin inkişafı zamanı uşaqlar gigeyna qaydalarını, bədən hissələrini adlandırmağı, nə hiss etdiklərini öyrənirlər.

Гамидли Айтен Азизага

Валеологическое воспитание дошкольников

РЕЗЮМЕ

Развитие валеологической культуры в дошкольных учреждениях - один из ключевых факторов формирования физически и психически здорового общества. Валеология помогает детям узнать об инородных телах, развить наблюдательность и укрепить свое поведение и отношения. Для этого необходимы валеологические тесты и упражнения. В процессе развития валеологической культуры дети изучают правила гигиены, именуют части тела и то, как они себя чувствуют.

Hamidli Aytan Azizaga

Valeological education of preschool children

SUMMARY

The development of valeological culture in preschool institutions is one of the key factors for the formation of a physically and mentally healthy society. Valeology helps children learn about foreign bodies, develop observation skills, and strengthen their behavior and attitudes. This requires valeological tests and exercises. During the development of valeological culture, children learn the rules of hygiene, naming body parts and how they feel.

Əhmədova Maisə Cavid qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, 2 kurs magistrantı

SOSİAL PEDAQOQUN PEŞƏ KEYFİYYƏTLƏRİ

Açar sözlər: *peşə fəaliyyəti, sosial pedaqoq, şəxsiyyət*
Ключевые слова: *профессиональная деятельность, социальный педагог, личность*
Key words: *professional activity, social pedagogue, personality*

Peşəkar sosial-pedaqoji fəaliyyətin mərkəzindəonu icra edən sosial pedaqoq dayanır. Sosial pedaqoqun fəaliyyətinin əsasını geniş, çoxşaxəli, spesifik əsas təməllər, peşəkar səriş-

tələr, şəxsi keyfiyyətlər və xüsusiyyətlər təşkil edir. Sosial-pedaqoji fəaliyyət fərdin ən yüksək dəyər kimi sosial müdafiəsinə imkan verir. Sosial pedaqoji fəaliyyət sosiallaşmada müəyyən çətinlikləri olanların mənəvi, əqli və fiziki sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, hərtərəfli inkişafına zəmin yaradan spesifik bir peşə fəaliyyətidir. Sosial-pedaqoji işin vacib praktik vəzifələri bir insanın sosial rifahını, həyat şəraitini yaxşılaşdırmaq, layiqli və rahat bir yaşayış təmin etməkdir. Belə bir məsuliyyətli işi effektiv və səriştəli şəkildə yerinə yetirmək üçün mütəxəssisin fərdi və mənəvi yönümlü, peşə baxımından zəruri keyfiyyətlərə sahib olan yüksək ixtisaslı bir sosial pedaqoq olması vacibdir.

Sosial pedaqoqun fəaliyyətinin praktiki və humanist istiqamətliliyi sosial -pedaqoji işin təməlini təşkil edir. Sosial pedaqoqun fəaliyyətinin effektivliyini tam müəyyənləşdirən, şəxsiyyətinin ən vacib xüsusiyyətlərini diqqətə çatdıran amillər onun humanist potensiala və peşə kompetentliyinə malikolmasıdır. Sosial pedaqoqun peşə kompetentliyi dedikdə sosial-pedaqoji fəaliyyəti layiqincə yerinə yetirə bilməsi üçün onun nəzəri və praktiki cəhətdən hazırlığı nəzərdə tutulur və bu da onun peşəkarlığı kimi xarakterizə olunur. Sosial pedaqoqun peşə keyfiyyətindən danışarkən üç cəhətə xüsusi diqqət yetirilməlidir: sosial pedaqoqun vəzifə borcu, ona lazım olan mütləq biliklər və peşə tələbləri. Əgər sosial pedaqoq bu üç istiqamətə uyğun bilik və bacarıqlara yiyələnirsə onun peşə fəaliyyəti inkişaf edir.

Qeyd etdiyimiz kimi sosial pedaqoqun peşəkar fəaliyyətinin öz tələbləri var. Onların məzmunu sosial pedaqoqun yerinə yetirdiyi funksiyalardan asılıdır. Uşaqlarla işləyən bir sosial pedaqoq üçün üç mühüm keyfiyyət qrupu ayırd edilir:

1. Əxlaqi
2. Peşəkar
3. Təşkilati

Bu gün səriştəli sosial pedaqoq olmaq psixoloji və pedaqoji düşüncənin son nailiyyətlərini, qabaqcıl və yenilikçi təcrübəni anlayaraq bunu uşaqlarla birgə fəaliyyətdə tətbiq edə bilmək deməkdir.

Sosial pedaqoqun mənəvi yetkinliyinə aşağadakılar daxildir:

1. inam;
2. prinsiplərə sadiqlik;
3. məsuliyyət və vicdanlılıq;
4. ədalət;
5. obyektivlik;
6. dürüstlük;
7. insanpərvərlik;
8. vətənpərvərlik.

Sosial pedaqoq yalnız bir kollektivdə şəxsiyyətlərarası münasibətlər sistemində əlverişli mövqe, uşaqlarla sıx əlaqə qurmağı bilərsə, şagirdlərin hörmətini, inamını, rəğbətini qazanmağı, problemlərin həllində təşəbbüskarlıq və fəallığı inkişaf etdirməyi bacardığı təqdirdə daha effektiv təsir göstərə bilər. Bunu etmək üçün mütəxəssislərin qeyd etdiyi kimi aşağıdakı qruplaşdırılan "sosial və psixoloji keyfiyyətlərə" sahib olmalıdır:

-insanları başa düşmək bacarığı (psixoloji xüsusiyyətləri, güclü və zəif tərəflərini tez və düzgün qiymətləndirmək, düşüncələrinə nüfuz etmək, hissləri, əhval-ruhiyyəni tutmaq, maraqları, imkanları və zehni vəziyyətləri nəzərə alınmaqla məsuliyyət və tapşırıqları paylamaq qabiliyyəti);

- mənəvi və ünsiyyət keyfiyyətləri (həssaslıq, xeyirxahlıq, ədalətlilik, insanlardakı müsbətləri görmə qabiliyyəti və uşağın çatışmazlıqlarına, sadəliyinə və mövcudluğuna, nəzakətliliyinə, ünsiyyətcilliyinə və s.) diqqət yetirmə qabiliyyəti;

-təşəbbüs (uşaqla səmimi təmasda olmaq, adekvat hədəflər qoymaq və onlara çatmağın yollarını təklif etmək, enerjili şəkildə başqalarından dəstək istəmək bacarığı) və s.

Sosial pedaqoqun keyfiyyətlərinin yüksək səviyyədə inkişaf etməsi şagirdlər üçün psixoloji cəhətdən cəlbedici, aydın və anlaşıqlı olmasıdır. Bununla da o, şəxsiyyətlərarası münasibətlər sistemindəki mövqeyini gücləndirmiş olur. Qeyd etmək lazımdır ki, bir mütəxəssisin peşəkarlığı həm fərdin ləyaqətini, həm də şəxsiyyətini - "problem sahəsini" müəyyənləşdirmək, onun inkişafı üçün mümkün variantları proqnozlaşdırmaq, motivasiyaya müsbət təsir göstərmək, özünütərbiyə, özünü inkişaf etdirmə proseslərini aktivləşdirmək qabiliyyətində özünü göstərir.

Sosial pedaqoqun peşə baxımından əhəmiyyətli keyfiyyəti uşağın yerinə yetirdiyi, onun ehtiyaclarını və davranışını böyük ölçüdə müəyyənləşdirən sosial rolları aydınlaşdırmağı bacarmasıdır. Həqiqətən də sosial pedaqoqun işi geniş mənada sosial-pedaqoji fəaliyyət sahəsində fərdin mənəvi sferasının formalaşmasına və inkişafına, həyatda öz müqəddəratını təyinetməsinə şərait yaradan, sosial əhəmiyyətli münasibətlərə yönəlmiş bir fəaliyyət növüdür.

Ədəbiyyat

1. А.Л.Фатыхова. Теоретические и методические основы формирования социально-перцептивной компетентности педагогов / Москва: Высшая школа, 2005. 132с.

2. Н.И. Никитина. Глухова М.Ф. Методика и технология работы социального педагога / Москва: ВЛАДОС, 2005. – 399 с.

3. S.A.Orucova. Sosial pedaqoqun peşə hazırlığının sistemi / Bakı: ADPU-nun mətbəəsi, 2006. – 37 s.

РЕЗЮМЕ

Высокий уровень развития качеств социального педагога в статье делает его психологически привлекательным, близким и понятным для студентов, укрепляет его позиции в системе межличностных отношений. Подчеркивается, что профессионализм специалиста проявляется в умении определять как достоинство, так и личность отдельной «проблемной зоны», прогнозировать возможные варианты ее развития, положительно влиять на мотивацию, активировать самообразование, процессов развития и уметь прояснять социальные роли, которые во многом определяют их поведение. Ведь в широком смысле социально-педагогическая деятельность педагога направлена на формирование и развитие духовной сферы личности, социально значимых отношений в определении собственной жизненной судьбы.

SUMMARY

The high level of development of the qualities of a social pedagogue in the article makes it psychologically attractive, close and understandable for students, strengthens its position in the system of interpersonal relationships. It is emphasized that the professionalism of a specialist manifests itself in the ability to identify both the dignity and personality of the individual "problem area", predict possible options for its development, have a positive impact on motivation, activate self-education, self-development processes. and be able to clarify the social roles that largely determine their behavior. Indeed, in a broad sense, the pedagogue's socio-pedagogical activity is aimed at the formation and development of the individual's spiritual sphere, socially important relations in determining their own destiny in life.

Rüstəmli Aysel
Elmi rəhbər: dos. Tamilla Vahabova

DÜNYADA GEDƏN QLOBALLAŞMANIN TƏHSİLİN QARŞISINDA QOYDUĞU TƏLƏBLƏR

Açar sözlər: *təhsil, cəmiyyət, ölkə, qloballaşma, informasiya, inkişaf*

Ключевые слова: *образование, общество, страна, глобализация, информация, разработка*
Key words: *education, society, country, globalization, information, development*

Qloballaşan dünyada uğurlu olmaq üçün davamlı və yeniliyə açıq, yaradıcı fəal təhsilə ehtiyac var. Hazırki zamanda təhsil sisteminə verilən ümumi tələb onun qloballaşdırılmasıdır. Qlobal təhsil dedikdə Yer kürəsində mövcud olan ölkələrin təhsilinə ümumi baxış, təhsilə inteqrasiya başa düşülür. Dünya təhsilinə inteqrasiya Azərbaycan təhsil sistemində yeniləşmənin və islahatların aparılmasını tələb edir. Müasir dünyada təhsilin rolu günbəgün artır. Yüksək və uğurlu gələcəyə yalnız o ölkələr sahib olacaqlar ki, həmin dövlətin və ictimai təsisatların birgə səyləri təhsilə yeni bir baxış, yanaşma gətirib çıxarsın. Digərləri isə inkişaf edə bilməyib keçmişdə qalacaqdır.

Cəmiyyətin milli və beynəlxalq səviyyədə sərbəst yaşayıb, güclü söz sahibi olmağı üçün qlobal dünyanın tələblərini təmin edə biləcək təsirli təhsil sisteminə ehtiyyacı vardır. İnformasiya və kommunikasiya texnologiyalarındakı sürətli inkişafla birlikdə təhsil, elm və mədəniyyət də eyni zamanda beynəlxalq təsirlərə məruz qalmışdır. Bir çox dillərdə təhsil anlayışı öyrənməyi də əhatə edir. Təhsil və öyrənmə ailədəki təhsil müddətindən başlayaraq bağça, məktəb, peşə, universitet təhsili olmaqla ömür boyu davam edir. Təhsil bilmək, var olmaq və cəmiyyətə inteqrasiya etmək proseslərinin öyrənildiyi sosial və intellektual bir müddətdir. Təhsil tam olaraq insan yetişdirmə prosesidir. İnsan hüquqları sənədlərində təhsil insan şəxsiyyətini hərtərəfli inkişaf etdirən, insan hüquqlarına və azadlıqlarına hörməti gücləndirən bir fəaliyyət kimi göstərilir. Qloballaşmanın müasir mərhələsi, formasiyanın aktivləşməsi ilə xarakterizə olunur. Yəni təhsildə yeni və çevik iqtisadiyyat tipli dünya düzəni. XX əsrin sonu XXI əsrin əvvəllərində bir çox ölkələrdə intellektual elitanın formalaşmasının əsas mənbəyi olan bir neçə qlobal ali təhsil sistemi meydana çıxdı. Dünya sistemləri arasında ən təsirli mübahisəsiz lider ABŞ və Kanadada yaradılan Şimali Amerika ali təhsil sistemidir. ABŞ ali təhsil sistemi həm yerli tələbə həm də ali təhsilə cəlb olunan xarici tələbələrin sayına görə liderdir. Amerika ali təhsil modeli, "Karnegi təsnifatı" adlanan və 1970-ci ildə inkişaf etdirilən universitetlərin tipologiyasına əsaslanır. Əlavə dəyişikliklərdən sonra bu təsnifat aşağıdakı kimidir:

- doktorluq dərəcəsi verən (doktorant) universitetlər;
- magistr dərəcəsi verən universitet və kolleclər;
- bakalavr dərəcəsi verən kolleclər;
- müvafiq dərəcə kollecləri;
- ixtisaslaşmış, tək profilli universitetlər (tibb, mühəndislik, hüquq və s.);
- yerli Amerikalıların Kollecləri.

Heç bir ölkə yaxşı işləyən ali təhsil sistemi və elmi tədqiqatların təşkili olmadan inkişafının və mövcudluğunun, siyasi və iqtisadi müstəqilliyinin mədəni səviyyəsini təmin edə bilməz. Bu səbəbdən bütün ölkələr adekvat milli ali təhsil sistemlərinin qurulması prosesləri ilə maraqlanır. Bu maraqlar qlobal iqtisadi dəyişikliklərə, ali təhsil sistemində yeni beynəlxalq münasibətlərin yaranmasına və dünya proseslərində birbaşa iştiraka səbəb olur.Azərbaycan da bir çox sahələrdə olduğu kimi təhsildə də dünyanın inkişaf etmiş ölkələrinə sürətlə yaxınlaşmaqdadır. 21-ci əsrdə milli səviyyədə ali təhsil sistemlərinin inkişaf tendensiyaları kifayət qədər özünü göstərir. Təhsilimizin qarşısında duran əsas məsələ dünya ölkələrindəki təhsilə inteqrasiya etməklə özünəməxsus xüsusiyyətləri olan təhsil sistemi yaratmaqdır.İstər ümumorta, istərsə də ali təhsilimizin Avropa təhsilinə inteqrasiyası ölkəmizin beynəlxalq aləmdə tanınması, təhsilin keyfiyyətinin yaxşılaşması, dövlətimiz üçün yüksək səviyyəli, ixtisaslı kadrların formalaşması deməkdir. Qloballaşma təhsilimizi inkişaf etdirməklə yanaşı nitqimizi də inkişaf etdirərək lüğətimizə yeni sözlər daxil edir.

Dövrünün görkəmli maarifpərvərlərindən olan Nəriman Nərimanov vaxtilə belə yazıb: "Əgər tarixə nəzər salsanız, yəqin edərsiniz ki, heç bir xalq qılınc və silahla irəli getməyibdir. Hansı millət ki, gedib qabağa, tərəqqi edibdir, yalnız elmin, təhsilin gücünə xoşbəxt olubdur".

Xoşbəxt o xalqdır ki, özünə düzgün yol seçir. Bu yol elm və təhsil yoludur. Bir xalqın inkişaf etməsi üçün bu yoldan daha müqəddəs bir yol yoxdur. Cəmiyyətin hər bir üzvü təhsil sistemi sayəsində inkişaf edir. Dünyada və ölkəmizdə texnoloji inqilab və informasiya cəmiyyətinə keçid vacibdir. Texnoloji dəyişikliyin mərkəzində yaşadığımız cəmiyyətin informasiya cəmiyyəti olduğuna işarə edən kompüterlər, informasiya və multimedia texnologiyaları dayanır. İnsanların həyatına getdikcə daha çox təsir edən texnologiyalar nəticəsində təhsilə tələb daha da artmışdır və təhsil hər zamankından daha çox əhəmiyyət qazanmışdır.

Qloballaşan dünyanın ehtiyaclarını ödəmək üçün təhsil baxımından nəzərə alınması lazım olan bəzi vacib elementlər var:

1) Təhsil ömür boyu davam edən bir fəaliyyət olmalıdır. Sürətlə inkişaf edən texnologiya və artan biliklər qarşısında təhsilin inkişafı həyat üçün təmin edilməlidir. Təhsil müddətində yalnız məlumatlar ötürülməməli, fərdin öyrənmə qabiliyyəti də olmalıdır.

2) Təhsil hər yerdə, həyatın bütün sahələrində olmalıdır. Təhsil imkanları evdə və iş yerində, siniflərdə, internetdə və televiziyada təmin edilməlidir. Təhsil səmərəli təşkil edilməlidir. Təhsil müəssisələri və cəmiyyətin digər qurumları fərdlərin davamlı öyrənmə qabiliyyətini yaxşılaşdırmaq üçün əməkdaşlıq etməlidir.

3) Təhsil tənqidi düşüncə, ünsiyyət və problem həll etmə bacarıqlarına yönəlməlidir. Təhsil prosesi fərdləri yeni problemlər və nöqsanlar yarandıqda açıq və hərtərəfli düşünməyə hazırlamalıdır.

4) Öyrənmə cəmiyyətin inkişafında vacib bir ünsür olduğundan, təhsil ictimai inkişafa bir sərmayə olmalıdır. Cəmiyyətlər maddi kapitala və iqtisadi sahələrə investisiya qoymaqla yanaşı, təhsilə də investisiya qoymalıdırlar. Sosial sərmayə olan təhsil cəmiyyətin həqiqətlərindən təcrid oluna bilməz.

5) Təhsil sistemi şagirdlərə qlobal vətəndaşlıq haqqında məlumat verməlidir. Qloballaşan dünyada fərdlərin, yalnız öz tarixlərini, mədəniyyətlərini və dillərini bilmək kifayət etməyəcək. Qlobal bazar iqtisadiyyatında müvəffəqiyyətlə çalışmaq üçün fərqli insanların dilini və mədəniyyətlərini bilmək tələb olunur. Öz coğrafiyasından kənara çıxa bilməyən şəxslərəqloballaşan dünyada uğur qazanmaq çox çətin olacaq.

6) Təhsil fərdlər və təşkilatlar arasında ortaq olma qabiliyyətini təmin etməlidir. Müasir bilik və bacarıqla təmin olunmuş insan qloballaşmanın əsl görüntüsüdür.

Təhsil - ölkələrin iqtisadi, sosial, mədəni və siyasi infrastrukturuna və dəyərlərinə görə formalaşdırılması lazım olan açıq bir sistemdir. Ümumdünya və milli mədəni dəyərləri bir - birinə alternativ olmaqdan kənarlaşdırıb birgə gücləndirmək çox vacibdir.

Ədəbiyyat

1. Afət Süleymanova – Qloballaşma prosesinin təhsilə təsiri və müəllim fəaliyyətində preventiv tədbirlər. Azərbaycan məktəbi, 2019

2. Humeyir Əhmədov – Qloballaşma, modernləşdirmə və innovasiyalı təhsil sisteminin paradiqması. Azərbaycan müəllimi, avqust 2020

3. Təhsildə Qloballaşma və İKT – Beynəlxalq Elmi – Praktiki konfrans, 17 – 19 may 2008, Bakı – Azərbaycan

РЕЗЮМЕ

Глобализация образования занимает высокое место в международной системе. Глобализация оказывает огромное влияние на развитие национального сознания. Влияние глобализации можно увидеть в любой сфере Азербайджана.

SUMMARY

The globalization of education occupies a high positioan in the international system. Globalization has ahuge impact on the development of national consciousness. The impact of globalization can be seen in all fields in Azerbaijan.

Əfəndizadə Ayşən
Elmi rəhbər: dos. S.M.Musayeva

TEXNOLOGİYA DƏRSLƏRİNDƏ İNTEQRASİYA, İNTEQRASİYANIN ELMİ PEDAQOJİ ƏSASLARI

Açar sözlər: *inteqrasiya, fəndaxili, fənlərarası*
Ключевые слова: *интеграция, междисциплинарный, междисциплинарный*
Key words: *integration, interdisciplinary, interdisciplinary*

Tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın həyata keşirilməsi bilik və bacarıqların daha asan mənimsənilməsi, dərslərin daha maraqlı və məzmunlu təşkili, təhsil alanlarda tədqiqatçılıq, elmlilik meyillərinin inkişafı üçün vacib şərtdir. Fənlərarası inteqrasiya bir neçə fənnin aid olduğu ortaq bilik və bacarıqların sintezidir. Eyni zamanda fənlərarası inteqrasiya bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Texnologiya fənni çoxsahəli fənn olduğundan onun tədrisində fənnlərarası əlaqə daha geniş imkanlara malikdir. Belə ki, həm məzmun xətləri, həm də tədris vahidləri baxımından texnologiya fənninin geniş əhatə dairəsinə malik olduğunu görürük. Emal texnologiyaları, texnika elementləri, məişət mədəniyyəti, qrafika kimi məzmun xətləri eyni zamanda məişət mədəniyyəti, oduncağın emalı texnologiyası, metalların emalı texnologiyası, ərzaq məhsullarının emalı texnologiyası, parçanın emalı texnologiyası, elektrotexniki işlər, konstruksiya materiallarından məmulatların hazırlanma texnologiyası, sadə təmir işləri, elektron texnologiyaları, parçadan hazırlanan məmulatlara qulluq texnologiyası və s. kimi tədris vahidləri texnologiya fənninin tədrisi prosesində fənnlərarası və fəndaxili inteqrasiyanın imkanlarının böyük olmasını bir daha sübut edir.

"İnteqrasiya" termini latın sözü olub, hərfi mənada "yeniləşmək" kimi başa düşülür. İnteqrasiya - müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünün inkişafa istiqamətləndirmək məqsədi ilə təlimin bütün məzmun komponetləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir. Müasir dünyada, bütün sahələrdə olduğu kimi, təhsildə də geniş inteqrasiya zərurəti yaranmışdır. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası sənədində təhsilin inteqrativ kurikulum şagirdyönümlü humanistləşən təhsilin fəlsəfəsidir və təlim strategiyalarının qurulması işində böyük rol oynayır. Qeyd olunan sənəddə ümumi təhsilin pillələri və bu pillələr arasında əlaqə və ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur. İnteraktivlik şagirdlərə ətraf aləmin dərk edilməsinə yaradıcı idraka münasibət bəsləyən subyektlər kimi yanaşılmasına imkan yaradır. Təcrübə göstərir ki, tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi, dərslərin maraqlı və məzmunlu qurulması, uşaqlarda tədqiqatçılıq meyillərinin yaranması üçün vacib şərtdir.

İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə və asıllılığı dərinləşdirməyə xidmət edir. İnteqrasiyanın köməyi ilə şagirdlər öyrəndikləri arasında asıllılığı əlaqəni başa düşür və onlardan şəxsi və ictimai problemlerin həllindən istifadə edir. ABŞ filosofu və pedaqoqu Parker təhsilin inteqrasiyası ilə bağlı qarşımızda duran məsələlərə belə aydınlıq gətirir: "Təhsilin inteqrasiyası məqsəd deyil, strategiyadır. Bu strategiyadan

istifadə etməklə dərs planlarını zənginləşdirmək, şagirdlərin dərk edilməsi imkanlarını dərinləşdirmək və onların ideyaları ümumiləşdirmək bacarığını artırmaq mümkündür.

Müasir dünya təcrübəsində, əsasən 2 növ inteqrasiyadan istifadə edilir.

1. Fəndaxili inteqrasiya
2. Fənlərarası inteqrasiya

Fəndaxili inteqrasiya – müəyyən bir fənnin tədrisində öyrədilən bilik, bacarıqların əlaqələndirilməsi yeni fənn daxilindəki faktların sistemləşdirilməsidir. Bu inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsidə hesab etmək olar.

Fənlərarası inteqrasiya - iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsiplərin sintezidir.Burada inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrənilməsində istifadəsini nəzərdə tutur. Biliklərin inteqrasiyası-şagirdlər əvvəlki bilik, bacarıq və vərdişlərini yeni tətqiqatlar zamanı əsas kimi götürürlər. İnteraktiv kurikulum mühüm tətqiqat suallarının qoyulmasına və onun ətrafında geniş araşdırmalar aparılmasına şərait yaradır. İnteraktiv kurikulum tətbiq edilərkən burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif stuasiyalardan istifadə etmək, araşdırmaları təkmilləşdirilmək olaraq anlamaq lazımdır. Belə kurikulum şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmaqla köməklik göstərir. İnteraktiv təlim şagirdlərin ətraf mühitin müxtəlif aspektlərinin ayrı-ayrı fənlərə aid olan məzmun vasitəsilə geniş tədqiqi təmin edir. Konkret olaraq interaktiv kurikulum aşağıdakılara nail olmaqda müəllim və şagirdlər üçün imkanlar açır:

• Məsələlərə qlobal yanaşmaq;
• Konsepsiyaların (anlayışların) əlaqələndirilməsi;
• Fənlərin və mövzuların birləşdirilməsi;
• Eyni zamanda müxtəlif resurslarda istifadə və s.

İnteraktiv kurikulumun üstünlükləri barədə məşhur pedaqoq Daniel belə yazır:

"Şagirdlər müxtəlif fənlərdən alınan bilik və bacarıqları həyati məsələlərlə əlaqələndirmək imkanı artır".

"Şagirdlər böyük suallar qoymağı və birlikdə əməkdaşlıq edərək bu suallara cavab tapmağın yollarını öyrənirlər".

Fənlərin interaktiv öyrədilməsi ilə bağlı dünyada böyük təcrübə mövcuddur və bu təcrübədən istifadə edərək yerli şəraitdə idealları inkişaf etdirməklə məqsədinizə nail ola bilərik. İnteraktiv kurrikulumun tarixi zamanlara gedir. XIX əsrin sonlarında alman pedaqoqu İ.Herbart bir-biri ilə əlaqəsi olmayan fənlərə daxil olan mövzuların birləşdirilməsi ideasını irəli sürür. Sonralar bu idea əsası C.Dyul tərəfindən qoyulmuş proqressiv təhsil hərəkatının əsas tərkib hissəsinə çevrilir. Həmin zamanlarda mükəmməl interaktiv təlim nümunələri olmadığından bu məsələlər inkişaf etməkdə olan kurikulum anlayışının nəzəri bir məsələ kimi öyrənilir. Artıq XX əsrin sonlarından etibarən məktəbləri təkminləşdirmək proqramlarının həyata keçirənlər interaktiv kurikulumların yardılmasını əsas vəzifə kimi qəbul edirlər. Şagird nailiyyətlərini inkişaf etdirilməsi üçün onların fiziki və idrakı imkanlarına uyğun olan kurikulumların yaradılması məsələsi inteqrasiyanın zəruriliyini artırır.

İnteqrasiyanın daha bir forması fənlər arasında və fənn daxilində mövzular üzrə inteqrasiyadır və ölkəmizdə ümumtəhsil sahəsində bu yönümlü inteqrasiyanın həyata keçirmək qərara alınmışdır. İnteraktiv kurikulum ilə sinonim kimi çox vaxt fənlərarası kurikulum ifadəsi işlədilir. “İnteraktiv kurikulum: mahiyyəti və nümunələr” adlı müəllimlər üçün nəzərdə tutulmuş vəsaitdə müəlliflər xarici ədəbiyyatda əsaslanaraq qeyd edirlər ki, fənlərarası kurrikulum fənninin imkanlarını məhdudlaşdıran məsələləri aradan qaldırır və fənn kurrikulumunun müxtəlif tərəflərinin əlaqələndirməklə geniş sahələrin öyrənilməsinə kömək edir.

Belə ki, interaktiv və ya fənlərarası kurrikulumuna aid olan bütün izahatlar həmin müəlliflər tərəfindən belə qruplaşdırılır: fənlərin birləşməsi, yardıcı fəaliyyətə diqqətin artırılması,

dərslikdən kənar mənbələrdən istifadə konsepsiyalar arasında qarşılıqlı əlaqələr, dəyişkən cədvəllər, şagirdlərin dəyişkən qruplaşdırılması.

Fənlərarası inteqrasiyaya aşağıdakı elementlər daxildir:

1.Mövzuya bir neçə fənn nöqteyi nəzərində yanaşılır.

2.Şagirdlər tərəfindən 4-5 mövzu və ya mühüm sual ətrafından araşdırmalar aparılır.

3. İnteraktiv yanaşma və fəaliyyətlər ənənəvi tədrisə nisbətən şagirdlərin daha çox inkişafına və dərketməsinə kömək edir.

Bəzi fənlərin inteqrasiya imkanları barədə dünya pedaqoqları və filosofları inamla danışırlar. Məsələn, hələ inteqrasiyanın nəzəri bir ideya səviyyəsində olduğu XIX əsrin ortalarında alman filosofu İ.Herbart tarix və coğrafiya fənlərinin birgə tədrisini məqsədə uyğun hesab edirdi. O yazırdı: "Tarix və coğrafiya bizim anlamızda bir çevrə içərisində yerləşir, coğrafiya ərazidir, tarix isə vaxt".

Məktəbdaxili və məktəbdənkənar təlim arasında olan fərqlərin aradan qaldırılmasında və əldə edilən biliklərin həyatla uzlaşmasında inteqrativ təlimin rolu böyükdür.Dünya təcrübəsində inteqrasiyanın 3 səviyyəsini müəyyənləşdirirlər: fəndaxili, fənlərarası və fənlərüstü.

Fənlərarası kurrikulumu planlaşdırmaq üçün aşağıdakı kimi istifadə olunmuşdur:

1. Standartlar seçilir;

2. Məzmun seçilir;

3. Həmin standartalara bu mövzunun köməyi ilə nail olmaq imkanlarını məzh hansı fənlər vasitəsilə gerçəkləşdirmək mümkün olduğu müəyyənləşdirilir;

4. Nəticəyə çatmaq üçün nəyi bilmək və nəyi bacarmaq lazım olduğu müəyyənləşdirir.

Milli kurrikulumların hazırlanması prosesində iştirak edən beynəlxalq məsləhətçilər interaktiv kurrikulumun planlaşdırılmasında istifadə oluna biləcək bir neçə fəndaxili və fənlərarası nümunələr təqdim etmişlər.

Fraqmentli model (fəndaxili) vasitəsilə fundamental sahələr inteqrasiya olunur və onun ən ciddi forması ibtidai təhsil pilləsində həyata keçirilir. İki mövzunun bir dərsdə tədris edilməsi və ya əlaqəli müzakirə edilərək öyrənilməsi az hallarda tətbiq olunur. Bu metodun bəzi çatışmazlığına baxmayaraq, bəzi müəllimlər fərdi və ya kollegial şəkildə kurrikulum mövzusunu öyrənərkən ondan istifadə edir. Bu müəllimlərə öz fənni çərçivəsində daha dərindən öyrənilməli olan məsələləri seçməyi imkan verir.Ardıcıllıq modeli (fənlərarası) müxtəlif fənlərdə oxşar mövzular və bölmələr ayrı-ayrı tədris olunur, lakin onlar elə planlaşdırılır və təşkil olunur ki, əlaqəli konsepsiyalar üçün çərçivə yaranır və onlar bir-birinə uyğunlaşdırılır. Bu cür inteqrasiyanın həyata keçirilməsi üçün kurrukiluma dair sənədlərdə məzmunun balanslaşdırılması vacibdir. Saçaqlı (torşəkilli) model (fənlərarası) fənlərin hamısına eyni vaxtda yanaşmağı nəzərdə tutur. Mədəniyyət, kəşflər, ətraf mühit, vaxt, əmək və s. kimi mövzular ortaq fənlər tərəfindən öyrənilir. Bütün fənlərin bir müəllim tərəfindən tədris olunduğu ibtidai təhsil mərhələsində bu modelin tətbiq edilməsi daha asandır. Fənlərarası inteqrasiya eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin edir. Fənlərarası bacarıqlar bir neçə fənnin məzmunu ilə bağlı meydana çıxır və real həyat situasiyaları üçün faydalı olur. Çünki onlar fənləri əlaqələndirmək üçün təbii vasitə rolunu yerinə yetirir. Fənlərarası bacarıqlar şagirdlərdən mürəkkəb fəaliyyətlərin yerinə yetirilməsini tələb edir.

Ədəbiyyat

1. Regional iqtisadi inteqrasiya: Nəzəriyyə və praktika [Mətn]: monoqrafiya /Ə.Bayramov; elmi red. İ.Ə.Feyzullabəyli, Bakı ,1997

2.Т.И.Кругликов. «Методика преподования технологии с практикумом» учебное пособия для студентов 2010 г.

3.Kurikulumların hazırlanması və tətbiqi məsələləri, 2008

4.F.Əliyeva, İ.Məmmədova. "Müasir təlim texnologiyaları" 2014-cü il

XÜLASƏ

Məqalədə texnologiya dərslərində inteqrasiya, inteqrasiyanın elmi pedaqoji əsasları haqqında məlumat verilir.

РЕЗЮМЕ

В статье представлена информация об интеграции в технологические классы, научно-педагогические основы интеграции.

SUMMARY

The article provides information on integration in technology classes, scientific and pedagogical bases of integration.

Əfəndizadə Ayşən
Elmi rəhbər:dos. S.M.Musayeva

TƏLİMİN MƏRHƏLƏLƏRİ, BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİN FORMALAŞMASI

Açar sözlər: *təlim, bilik, bacarıq, vərdiş, yoxlama, qiymətləndirmə*
Ключевые слова: *обучение персонала, знание, навык, привычка, осмотр, оценка*
Key words: *training, knowledge, skill, habit, inspection, evaluation*

Mənimsənilməsi zəruri olan məlumatların durmadan artdığı hazırki dövrdə təlim fəaliyyətində texniki vasitələrdən istifadə olunması ən səmərəli tədbirlərdən biri kimi nəzərdə tutulur. Bu hər şeydən əvvəl, təlimdə istifadə olunan texniki vasitələrin informasiya mübadiləsi vasitəsilə çevrilir və mənimsəmənin səmərəliliyini artırır. Psixoloji texnologiyalar gizli xarakter daşıyır. Bu konkret insanın psixikasında baş verən əməliyyatlar və hərəkətlərdir. Amma pedaqoji və psixoloji texnologiyalar arasında dəqiq sərhəddi müəyyənləşdirmək olduqca çətindir. Pedaqoji texnologiyalar aşağıdakı kimi təsnif oluna bilər:

1) Təlim texnologiyası; 2) Tərbiyə texnologiyası; 3) İnkişaf texnologiyası;
4) Diaqnostika texnologiyası;

Təlim texnologiyası dedikdə bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür. Tərbiyə texnologiyası dedikdə nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplekti başa düşülür.

İnkişaf texnologiyası ilə sıx əlaqədardır. Psixi inkişaf dedikdə, əqli bacarıqların formalaşdırılması, insan psixikasında hər hansı əməliyyatların çoxalması başa düşülür. Beləliklə, bacarıqların formalaşması harada baş verirsə, orada da psixi inkişaf müşahidə olunur. Əgər biliklərin psixi materialı obyektlərin və ya hadisələrin obrazlarıdırsa, inkişafın psixi proseslərdə həyata keçirilir. Şagirdlərin psixi inkişafı psixi proseslərdə yeni psixi əməliyyatların formalaşdırılmasını nəzərdə tutur.

Hər bir proses özü-özlüyündə hansısa nəticəyə nail olmaq üçün yönəldilmiş hərəkətlərin məcmusunu özündə əks etdirir. Təlim prosesi də şagirdin gerçəkliyi dərketmə yolundakı hərəkəti ilə bağlıdır. Bu zaman uşaqda idrakı və praktik bacarıq və vərdişlər yaranır. O, inkişaf edir, formalaşır.

Təlim prosesi müəllimin fəaliyyəti ilə şagirdin fəaliyyətini özündə birləşdirir. Müəllimin fəaliyyəti öyrətmə, şagirdin fəaliyyəti isə öyrənmə adlanır. Məhz bu iki fəaliyyətin qarşılıqlı əlaqəsi nəticəsində gerçəkliyin dərk olunması prosesi həyata keçir, şagird bilik, bacarıq və vərdişlər sisteminə yiyələnir, onda mənəvi-əxlaqi keyfiyyətlər formalaşır.

Təlim prosesində gerçəkliyin şagird tərəfindən dərk olunması subyektiv xarakter daşıyır. Belə ki, hər bir uşaq yeni biliyi özünün inkişaf və bilik səviyyəsinə, idrak imkanlarına uyğun şəkildə dərk edir.

Təlimin mərhələləri və onların ardıcıllığı belədir:

1) yeni tədris materialının qavranılması;

2) biliklərin, bacarıq və vərdişlərin formalaşması;

3) biliklərin, bacarıq və vərdişlərin möhkəmləndirilməsi və tətbiqi;

4) müvəffəqiyyətin hesaba alınması və qiymətləndirilməsi.

Məlumatı qavramaq üçün psixoloji hazırlıq şagirdin öyrənəcəyi fənnin məqsədini dəqiq və aydın təsəvvür etməsindən ibarətdir. Şagird üçün onun getdiyi yol aydın olmalıdır. Şagirdin qarşısında məqsəd aydın qoyulmazsa, məlumatın qavranılmasının səmərəsi az olar və ya heç olmaz. Ona görə də müəllim məqsədi şagirdlərin nəzərinə çatdırmağa kifayət qədər diqqət yetirməlidir.

Təlimin bu mərhələsində şagirdlər öyrənilən mövzu, qanun və ya qayda ilə ilkin tanış olurlar: onlar öyrənməli olduqları obyektin, anlayışın, qanunun və ya qaydanın əlamətlərini duyurlar; görürlər, eşidirlər, toxunurlar, mümkünsə dadırlar. Qavrama mərhələsində şagirdlər diqqətlərini öyrənilən cisim və hadisələr üzərində cəmləşdirirlər. Bu zaman şagirdlərin həyat təcrübəsi, bilikləri qavrama prosesinə qoşulur, qavranılan obyektlə həyat təcrübəsi tutuş-durulur, oxşar olanlar tapılır, müvafiq qrupa aid edilir, fərqli cəhətlər ayrıc nəzərdən keçirilir.

Qavramada mövcud həyat təcrübəsini xatırlamağın əhəmiyyətini

P.K.Anoxinin bir fikri daha da aktuallaşdırır. Alim isbat edir ki, qavramaya qədər obyekt haqqında əvvəlcədən eşidilmiş və ya oxunmuş məlumat obyektin müvafiq əlamətlərini tez duymağa imkan verir. Bu psixoloji qanunauyğunluqlardan xəbərdar olan müəllim qavrayış mərhələsini lazımi izahatla müşayiət etdirir. Şagird müəllimin rəhbərliyi ilə qavradığı materialı götür-qoy etməli, necəliyinə varmalıdır. Təlimin bu mərhələsində şagird öyrənilən obyektə sadəcə baxmır, görür; o, səsi nəinki eşidir, həm də ona qulaq asır, necəliyini dərk etməyə çalışır; mətni oxumaqla kifayətlənmir, ayrı-ayrı söz və ifadələribaşadüşməkistəyir; tarixişəxsiyyətinnecə hərəkət etdiyinianlamağaçalışır.

Müəllim şagirdlərindiqqətiniaparılantəcrübənin, alınan kimyəvireaksiyanın,

fizikihadisəninmahiyyətinəcəlbedir, bu məqsədləsuallarqoyur, tapşırıqlarverir; çalışırki, yeni tədris materialını şagirdlərşüurlusurətdəqavrasınlar.

Tədris materialını qavramaq və anlamaq hələ onu tam mənimsəmək üçün kifayət deyil. Bundan ötrü əlavə addımlar atılır, tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunması təşkil edilir. Bu məqsədlə müəllim şagirdlərin şüurunu hərəkətə gətirir, onları düşünməyə, fikir yürütməyə vadar edir; onların diqqətini öyrənilən hadisələrdə və cisimlərdə səbəb nəticə əlaqələrinə yönəldir.Təlimin bu mərhələsində şagirdlər idrak əməliyyatları olan müqayisəyə, təhlilə, ümumiləşdirməyə, mücərrədləşdirməyə daha çox müraciət etməli olurlar. Bu səbəbdən də, şagirdlərin bilik və bacarıqları intensiv şəkildə formalaşır. Şagirdlər öz bacarıqlarını işə salırlar, bilik ehtiyatından vəziyyətin tələb etdiyi bilikləri seçib istifadə edirlər.Fərəhli hal kimi göstərilməlidir ki, idrak prosesində nəzəri təfəkkür, məfhumlar səviyyəsində fikir yürütməyin vacibliyini görkəmli Azərbaycan filosofu Bəhmənyar xüsusi qeyd etmişdir. O, isbat edirdi ki, hadisəni görmək hələ onu dərk etmək, başa düşmək demək deyil. Atalar yaxşı demişdir: “Göz görmək, ağıl başa düşmək üçündür”. Təlimdə başlıca məqsəd alınmış məlumatı ancaq yadda saxlamaq deyil, həm də onun əvvəlki məlumatla qarşılıqlı əlaqəsini başa düşməkdir. Şagird müəllimin qoyduğu suallara cavab tapmağı öyrənməlidir.Biliklərə yiyələnmək işində çətinliklərin aradan qaldırılması şagirdin praktikasına yaxşı təsir göstərir, şagirdlərdə öz qüvvəsinə inam yaradır, əmək vərdişləri formalaşdırır, onu müstəqilliyə və yaradıcılığa alışdırır.Hazırda psixoloq və pedaqoqlar şagirdlərin bütün fəaliyyətini əhatə edən biliklərin dörd səviyyəsini müəyyənləşdirmişlər:

1) tanışlıq səviyyəsi;2) biliklər səviyyəsi; 3)bacarıqlar səviyyəsi;4) vərdişlər səviyyəsi.

Əlbəttə, ümumtəhsil məktəblərində təkcə tanışlıq səviyyəsi tələb edilmir. Aydın məsələdir ki, bu və ya digər fənn müəyyən səviyyədə öyrənilməlidir. Belə ki, təbiət və riyaziyyat fənləri, həmçinin dil dərsləri bilik və bacarıqlar səviyyəsində, ədəbiyyat, tarix, ictimaiyyət, coğrafiya fənləri əsasən biliklər səviyyəsində, əmək təlimi isə bilik, bacarıq və vərdişlər səviyyəsində öyrənilməlidir. Məsələn, həndəsəni öyrənmək üçün təkcə teoremləri bilmək kifayət deyildir, eyni zamanda həmin teoremi isbat etmək bacarığına yiyələnmək lazımdır və i.a.

Fənnin məzmunundan və tədris mövzusunun xarakterindən asılı olaraq bilik və bacarıqlar müxtəlif formalarda tətbiq edilir. Ənənəvi didaktik sistemdə nəzarətin müxtəlif növlərindən istifadə olunmuşdur: gündəlik nəzarət, tematik nəzarət, dövrü nəzarət, yekun nəzarət.

Məlum olduğu kimi, ənənəvi və fəal (interaktiv) təlim modelləri bir-birindən qiymətləndirmənin məqsədlərinə, üsul və vasitələrinə, növlərinə, meyarlarına və s. cəhətlərinə görə əsaslı surətdə fərqlənir. Yeni pedaqoji təfəkkürə uyğun qurulan didaktik sistemdə qiymətləndirmə aşağıdakı istiqamətlərdə aparılır: beynəlxalq qiymətləndirmə; milli qiymətləndirmə; məktəbdaxili qiymətləndirmə. Məktəbdaxili qiymətləndirmə aşağıdakı növlər üzrə aparılır: diaqnostik qiymətləndirmə (ilkin səviyyənin qiymətləndirilməsi); formativ qiymətləndirmə (inkişafın izlənməsi); summativ (yekun) qiymətləndirmə. Oxucunun məlumatı üçün qeyd edək ki, müasir qiymətləndirmə növlərin interpretasiyası dərsliyin XV fəslinin məzmununa daxil edilmişdir.Yeri gəlmişkən vurğulayaq ki, müasir qiymətləndirmə:

-təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır;

-cari qiymətləndirmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir;

- tədris prosesinin bütün mərhələlərində tətbiq edilir;

- şagirdin nailiyyəti qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir;

- məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir.

Ümumi təhsilin məzmununun yeniləşdirilməsi, şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində də yeni mexanizmlərin tətbiqini zəruri etmişdir.

Azərbaycanda "qiymətləndirmə" dedikdə, bəziləri bunu təhsilalanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul edirlər. Lakin dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir. Belə düşüncə sovet dövründən qalmış qiymətləndirmə qaydalarından və Azərbaycanda qiymətləndirmə üzrə yeni konsepsiyanın olmamasından irəli gəlir.

"Şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji anlayış kimi təhsil leksikonuna yaxın illərdə daxil olmuşdur. Uzun müddət pedaqoji aləmdə "şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi" anlayışı işlədilmişdir. Bununla belə, qiymətləndirmə dedikdə, bir qayda olaraq, şagirdlərin gündəlik (cari) qiymətləndirilməsi başa düşülmüşdür. Belə qiymətləndirmə növü isə mahiyyət etibarı ilə heç bir əhəmiyyət kəsb etmir. Şagird, məsələn, texnologiya fənnindən dərs ilinin yarısında iki dəfə qiymət almış və onun yarımillik qiyməti həmin iki qiymətin əsasında çıxarılmışdır. Halbuki yarım il ərzində kimyadan xeyli mövzu keçilir. Belə çıxır ki, bütövlükdə yarımillik mövzuların şagird tərəfindən öyrənilib mənimsənilməsi vəziyyəti müəyyən olunmamış qalır.

Məktəbdə müəllim, əsas sima olmaqla kamillik və ədalətlik rəmzidir. Şagirdin bilik, bacarıq və vərdişlərin düzgün qiymətləndirilməsi, yəni, müəllimin ədalətliyi şagirdin tərbiyəsinə böyük təsir göstərir. Təlim prosesinin zəruri komponenti yoxlama və qiymətləndirmədən ibarətdir. Yoxlama – şagirdin bilik və bacarıqları sahələrindəki nailiyyətləri və çatışmamazlıqları müəyyən etmək üçün tədris-tərbiyyə işlərinin gedişinə sistemli nəzarətdir. Qiymətlən-

dirmə - şagirdlərin bilik-bacarığının beş bal sistemi ilə müəyyən edilməsidir. Yoxlama elmi surətdə əsaslanmalı, müntəzəm və ardıcıl aparılmalı, təlimdə şüurluq və fəallığı təmin etməli, əyani və ardıcıl olmalı, şagirdlərdə sabit və möhkəm bilik, bacarıq və vərdişlərin formalaşmasına kömək etməlidir. Şagirdlərin bilik, bacarıq və vərdişlərin yoxlanılması və qiymətləndirilməsi onlarda fənnə, əməyə şüurlu münasibəttərbiyə etməyə imkan verən vasitələrdən biridir.Şagirdlərin bilik, bacarıq və vərdişlərin yoxlanılıb qiymətləndirilməsi onlarda təlim vəzifələrinə məsuliyyət hissi oyadır, onları özlərinə qarşı tələbkar olmağı təhrik edir.

Texnologiya fənn kurikulumu, "Texnologiya" fənninin tədrisində müasir təlim texnologiyalarından istifadə təhsilin inkişafında aktual bir məsələdir. Texnologiya fənni kurikulumunun hazırlanması prosesində cəmiyyətin ehtiyac və tələbləri, şagirdlərin maraq və meylləri, yaş səviyyəsinə uyğun imkanları nəzərə alınmış, onların müxtəlif problemlərin həlli və müstəqil qərarlar qəbul etmələri üçün texnologiya üzrə zəruri təhsil səviyyəsinə, bilik və bacarıqlara malik olmaları diqqət mərkəzində olmuşdur. Texnologiya dərslərində yeni bilikəri müstəqil yiyələnmə üsullarını özündə birləşdirən fəal (interaktiv) təlim texnologiyalarına üstünlük vermək zəruridir belə ki, interaktiv təlim metodları və üsullarının (qruplar, cütlər, rollar, əqli hücum, nəticə və s.) tətbiqi,praktik bacarıqların formalaşması tədris prosesini hər bir şagird üçün əhəmiyyətli və maraqlı edir, dərsdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini xeyli dərəcədə gücləndirir.

Ədəbiyyat

1. A.H.Dəmirov, S.M.Məmmədov, Ş.N.İsmayılov "Yeni təlim texnologiyaları və müasir dərs", Bakı-2007

2. https://azkurs.org/telim-prosesinin-merheleleri-ve-altsistemleri.html "Təlim prosesinin mərhələləri və altsistemləri"

3. https://aztehsil.com/mel/368-tlimin-mrhllri-bilik-bacarq-v-vrdilrin-formalamas.html "Təlimin mərhələləri, bilik, bacarıq və vərdişlərin formalaşması"

XÜLASƏ

Məqalədə təlimin mərhələləri, bilik, bacarıq, vərdiş və şagirdlərin bilik bacarığının hesaba alınması, qiymətləndirilməsi haqqında məlumat verilir.

РЕЗЮМЕ

В статье представлена информация об этапах обучения, знаниях, навыках, привычках и оценка знаний и умений студентов.

SUMMARY

The article provides information on the stages of training, knowledge, skills, habits and the assessment of students' knowledge and skills.

Abbasova İlahə Eyvaz qızı
Pedaqogikanın nəzəriyyəsi və tarixi, II kurs magistrantı

HUMANİTARLAŞDIRMA ANLAYIŞININ MAHİYYƏTİ VƏ MƏZMUNU

Açar sözlər: *humanitarlaşdırma, dərs, fəal, məzmun, fənlər, təhsilalan*
Ключевые слова: *гуманизация, урок, актив, содержание, предметы, педагог*
Key words: *humanization, lesson, active, content, subjects, educator*

Qeyd etmək lazımdır ki, fəal dərsin əhəmiyyəti təkcə onun məzmununda deyil, eyni zamanda formasındadır. Fəal dərs həm də düşünməyi öyrətdiyi üçün də faydalıdır. Araşdır-

malar nəticəsində məlum oldu ki, dərs o zaman fayda verir ki, öyrənəndə canlı maraq, kəskin reaksiya doğursun, onları diskusiyaya girməyə, məzmunla bağlı materiallara uyğun hərəkətə sövq etsin. Bu cür dərs təkcə canlı və maraqlı keçməklə qalmır, o həm də öyrənənlərə bütün həyatları boyu faydalı olan sərbəst düşüncə vərdişləri aşılayır və onların inkişafını təmin edir.

Müasir dərsin planlaşdırılmasından sonra, dərsə qədər, dərs prosesi və dərsdən sonrakı mərhələlərin geniş təhlili aparılmalı, dərsin məzmununa keçmədən əvvəl, mövzunun əhəmiyyəti açıqlanmalıdır. Sualların əksəriyyəti elə seçilməlidir ki, təhsilalanlarda bilik (informasiyanı eşitdiyi formada təkrar etmək bacarığı), anlama (mövzuya dair hər hansı bir fikri öz sözləri ilə və ya hər hansı başqa bir yolla yenidən söyləmək bacarığı), tətbiq etmə (təzəcə öyrəndiyi üsuldan istifadə etməklə, yeni bir tapşırığı həll etmək bacarığı), analiz (mürəkkəb bir ideyanın səbəblərini, nəticələrini və digər tərkib hissələrini tapmaq bacarığı), sintez və qiymətləndirmə kimi bacarıq və qabiliyyətlərin formalaşması təmin olunsun və dərsin düşünmə mərhələsində öyrənənlər özləri üçün müəyyən nəticələr çıxara bilsinlər. Məhz bu səbəbdən də tədris-təlim prosesində müasir dərsin paradiqmalarının həyata keçirilməsində üç əsas prinsip- humanistləşmə, humanitarlaşdırma və informatlaşmanın tətbiqi həmişə nəzərdə tutulmalıdır. Bu prinsiplər tədris-təlim prosesinin, dərsin məzmun baxımından mahiyyətinin dəyişdirilməsini nəzərdə tutur. Təhsildə humanitarlaşdırma bu prinsiplər içərisində ən önəmlisidir. Onun mahiyyətini necə izah edək?

M.Mürşüdlü təhsilin humanitarlaşmasının mahiyyətinə bu cür aydınlıq gətirir:" Humanitarlaşdırma elmi-texniki tərəqqinin indiki yüksək səviyyəsində sırf texniki biliyə yiyələnən insanları ictimai-humanitar biliklər vasitəsi ilə cəmiyyət üçün hazırlamaq, onları şəxsiyyətcə hərtərəfli inkişaf etdirməklə elmi-texniki nailiyyətlərin əxlaqi-mənəvi bazaya söykənməsinə nail olmaq məqsədini daşıyır."(2)

Müasir dövrdə Milli təhsil sisteminin əsasında demokratikləşmə, humanistləşdirmə, humanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə kimi vacib prinsiplər durur. Təhsildə humanitarlaşdırma- təhsilin məzmununa yeni baxış, tədris edilən fənlərdə bəşəri dəyərlərə geniş yer verilməsi, milli-mədəni, tarixi dəyərləri dərindən öyrənməklə dünyəvi dəyərlərdən bəhrələnməyin əsas götürülməsi, bunların şəxsiyyətin inkişafının vacib şərti hesab edilməsidir.

Humanitarlaşdırma əslində humanistləşmənin vasitəsi olub, təbii-texniki mədəniyyətin humanitarlaşmasının təmin olunmasında istifadə edilir. Təhsilin humanitarlaşması, eyni zamanda humanitar problematikaya, humanitar mədəniyyətə dönüşdür. Bu təkcə humanitar fənlərin öyrədilməsi deyil, həm də ümumelmi və ümumtexniki fənlərin məzmununda olan humanitar dəyərlərin istifadəsi hesabına təhsilin təbii-texniki və sosial-humanitar hissələri arasında müvafiqliyin saxlanılmasından ötrü təlim prosesinin yenidən qurulmasıdır.

A.Mehrabov belə hesab edir ki,"bu prinsip tədris-təlim prosesinin, dərsin mahiyyətcə dəyişdirilməsini nəzərdə tutur. Fəlsəfi və didaktik səviyyədə dərs prosesinin humanitarlaşdırılması hər hansı fənnə aid tədris materialında ümumbəşəri dəyərlərin və öyrənənə (şəxsiyyətə) aid mənəvi keyfiyyətlərin onun özünə yönəldilməsi mahiyyətinin olmasını tələb edir."(3) Humanitarlaşdırma, əslində humanistləşmənin vasitəsi olub, təbii-texniki mədəniyyətin humanitarlaşmasının təmin olunmasında istifadə edilir. Bu halda öyrənənin idrak fəaliyyətinin xarakteri dəyişir, tədris materialının məzmununun yalnız yadda saxlanılmasına deyil, həm də onun mahiyyətinin qavranılmasına yönəlir.

Humanitarlaşdırma, dərsin əsas məqsədini müəyyən edən, onun məqsədinə gətirilən öyrənənin inkişaf etdirilməsi ilə sıx bağlıdır. Ənənəvi dərsdə tədris fənləri həm məqsəd, həm də məqsədə nailolma vasitəsidir. Bu isə öyrənəni idrak fəaliyyətindən uzaqlaşdırır, onun inkişafını ləngidir, faktları, hadisələri, qanun və qanunauyğunluqları dərk etmədən əzbərləməyə sövq etdirir. Öyrədənin fəaliyyətinin səmərəliliyi təkcə öyrənənin qazandığı bilik və bacarıqların səviyyəsi ilə deyil, həmçinin onların şəxsi keyfiyyətlərinin inkişaf səviyyəsi ilə ölçülür. Demokratik cəmiyyətdə məktəbdə tədris-təlim və dərs prosesinin başlıca vəzifəsi öyrənənin bütöv şəxsiyyət kimi inkişafına nail olmaq və onu sonrakı həyata hazırlamaqdır. Bütün bu

məsələlərin həllində humanitarlaşma prinsipi xüsusi rol oynayır və öyrədəndən tədris etdiyi fənni fəlsəfi, kulturoloji, pedaqoji-psixoloji və elmi cəhətdən təhlil etmək bacarığı tələb edir.

Onda nəticə olaraq humanitarlaşma ilə bağlı fikirlərimizi aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1. Humanitarlaşdırma əsrimizin ilk onilliklərində meydana çıxmış bir ideyadır.
2. Humanitarlaşdırma başlıca olaraq təhsilin məzmununda: tədris planı, proqramı və dərsliklərdə, təlimdə öz həllini tapır.
3. Humanitarlaşdırma elmi-texniki tərəqqinin indiki yüksək səviyyəsində sırf texniki biliklərə yiyələnən insanları ictimai-humanitar biliklər vasitəsi ilə cəmiyyət üçün hazırlamaq, onları şəxsiyyətcə hərtərəfli inkişaf etdirməklə elmi-texniki nailiyyətlərin əxlaqi-mənəvi bazaya söykənməsinə nail olmaq məqsədini daşçıyır. Qeyd edək ki, humanitarlaşma da humanistləşmə prinsipinə sadiq olaraq tətbiq edilir.
4. Humanitarlaşdırma ona ehtiyac hiss edilən ölkələrdə və təhsil sistemlərində zərurətə çevrilir. Bir növ kadr-insan hazırlığında yol verilmiş deformasiyanı aradan qaldırır, tarazlaşmaya xidmət edir.

Kamil, gələcəyin insanını yetişdirmək hər bir dövlətdə təhsilin qarşısında duran ən vacib, ümdə məsələlərdəndir. İnformasiyanın, biliyin günbəgün artması məktəblərin tədris proqramlarının və dərsliklərinin məzmununa, metodologiyasına yeni yanaşmanı labüdləşdirir.

Ədəbiyyat

1.”Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı, Hüquq ədəbiyyatı, 2010, 80 səh.

2. Mürşüdlü M.Təhsilin humanitarlaşması:proqram və dərsliklər.https://www.muallim.edu.az/news.php?id=5753

3.Mehrabov A. Müasir və ənənəvi dərsin paradiqmaları.https://aztehsil.com/kurikulum/373-masir-v-nnvi-drsin-drsin-paradiqmalar-abdulla-mehrabov.html

4.İsmayılova T. Kurikulum, yeni təlim texnologiyaları.Dərs vəsaiti.Bakı, Mütərcim, 2020, 296 səh.

5.Mehrabov A. O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007, 502 səh.

Abbasova İlahə Eyvaz qızı

Humanitarlaşdırma anlayışının mahiyyəti və məzmunu

XÜLASƏ

Elmi məqalədə tədris-təlim prosesinin, dərsin məzmun baxımından mahiyyətinin dəyişdirilməsinə xidmət edən humanitarlaşma prinsipinin mahiyyətinə aydınlıq gətirilmişdir. Bu məqsədlə ayrı-ayrı pedaqoqların fikirlərinə istinad olunaraq humanitarlaşma prinsipinin tədris prosesində mövqeyi açıqlanmışdır.

Аббасова Илаха Эйваз кызы

Сущность и содержание концепции гуманизации

РЕЗЮМЕ

В научной статье разъясняется сущность учебно-познавательного процесса, принцип гуманизации, служащий изменению сути урока в содержательном плане. Для этого, ссылаясь на мнение отдельных педагогов, была озвучена позиция принципа гуманизации в учебном процессе.

Abbasova Ilaha Eyvaz gizi

The essence and content of the concept of humanization

SUMMARY

The scientific article clarifies the essence of the teaching-learning process, the principle of humanization, which serves to change the essence of the lesson in terms of content. For this

purpose, referring to the views of individual educators, the position of the principle of humanization in the teaching process was announced.

Əliyeva Elvina Mais qızı
ADPU, I il magistrant
Elmi rəhbər: p.ü.f.d., dos. Z.İ.Vəliyeva

UŞAQLARIN ƏMƏK VƏ OYUN FƏALİYYƏTİNDƏ TEXNOLOJİ BİLİKLƏRİN AŞILANMASI

Açar sözlər: *texnoloji biliklər, oyun, əmək fəaliyyəti, məktəbəqədər yaş dövrü*
Ключевые слова: *технологические знания, игры, трудовая деятельность, дошкольный возраст*
Key words: *technological knowledge, games, labor activity, preschool age*

Texnologiya məktəbəqədər yaşlı uşağın əməyinin növləri ilə tanış edən əmək qabiliyyəti üsuludur. O, uşaqları yaşlıların əməyini sevdirir, təkmilləşdirir, əmək prosesində uşaqlar arasında qarşılıqlı münasibəti və s. tərbiyə edir.

Texnoloji bilik uşaqları əmək bacarıq və vərdişləri aşılanmaqla texniki təfəkkürü və qabiliyyətləri inkişaf etdirir. Eyni zamanda fiziki və zehni cəhətdən sadə şəkildə inkişaf etdirib, peşələrə olan marağı artırır, yaşına uyğun alətlərlə düzgün davranmağı öyrədir.

Məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növləri kimi əmək və oyun onların hərtərəfli inkişafında mühüm rol oynayır. Uşaqlarda oyunların məzmunu çox vaxt əmək prosesinin təsvirinə yönəlir. Uşağın əşyalara hərəkətləri məktəbəqədər yaş dövründən başlayır, oyun xarakteri daşıyır, lakin bu, oyunla əməyi eyniləşdirmir.

Hələ vaxtilə Y.A.Komenski deyirdi ki, külək, oksigen olmadan odun yanmadığı kimi, oyun olmadan da uşaq böyüyüb inkişaf edə bilməz. Uşaqların oyun prosesindəki hərəkətləri çox vaxt onların yaşlılarda müşahidə etdikləri bu və ya digər əmək prosesinin, məsələn, yemək hazırlanmasının qab-qacağın yuyulmasının, otağın yığışdırılmasının, paltar yuyulmasının təsvirinə yönəldilir. Bütün bunlar uşağın yaşlıları təqlid etmək arzusunu bildirir. Bu arzunu uşaqlar oyun situasiyasında həyata keçirirlər: guya qab yuyur, xörək hazırlayırlar və s.

Əmək və oyun uşaq həyatının akademiyasıdır. Bu fəaliyyət növləri uşaq həyatının bütün dövrləri üçün vacib fəaliyyətdir. Oyun bir uşaq üçün heç zaman boş vaxtın doldurulması üçün olan fəaliyyət deyildir. Uşaqlar əmək və oyunu sadəcə xoş vaxt keçirmək və ya məşğul olmaq üçün oynamamalıdır. Onlar uşaq şəxsiyyətinin formalaşdırılmasına xidmət etməlidir. Bu səbəbdən də oyun uşaqlar üçün təbii öyrənmə və əylənmə üsuludur. Uşaqların təbiəti, böyüklərin əmək fəaliyyətini, cəmiyyətdə baş verən hadisələri dərk etmələrində oyunlar, yaradıcı düşünmə qabiliyyətlərinin inkişafında önəmli bir yer tutur.

Əmək və oyun prosesində uşaqlar maraqlandıqları hadisələri reallaşdırmağa çalışır ki, bu da onların təxəyyülünü inkişaf etdirir. Bu cür təxəyyül gücü uşaqların sonrakı, həyatına, insanlara, hadisələrə və özlərinə olan baxışın formalaşmasına şərait yaradır. Uşaq əmək və oyunlarının son dərəcə sosial olduğunu söyləyən Piaje, oyunu uşaqlar üçün sosial bir davranış şəkili olaraq göstərməklə bərabər, sosial bacarıqların qazandığı bir vasitə olaraq dəyərləndirmişdir. Lakin belə anlar olur ki, bu "guya" əmək prosesinin real planına çevrilir.

Məktəbəqədər dövrdə uşaq vaxtının çox hissəsini oynamaqla keçirir, bəzi xırda əmək vəzifələri (balığın suyunu dəyişmək, balıqlara yem vermək, oyuncaqları səliqəyə salmaq, müstəqil yemək və geyinmək və s.) yerinə yetirir. O, əmək işlərini çox vaxt oynaya-oynaya görür.

Oyun və əməyin rolunu nəzərə alaraq, onun təşkil edilməsində, həyata keçirilməsində nəzarətçi, istiqamətverici rol oynamaq yaşlıların, xüsusilə valideynlərin borcudur. Bəzi valideynlər uşaqların əmək və oyunlarına bir o qədər əhəmiyyət vermir, onu başlı – başına buraxırlar. Bu və ya digər çətinliyə rast gəldikdə valideynə müraciət edən uşaq bəzən belə xoşagəlməz söhbətlər eşidir: "Məndən əl çək, görmürsən işim var, necə bilirsən elə də oyna".

Uşaqlar oyun zamanı əmək adamlarının işini təqlid edirlər, məsələn, “Mağaza” oyununda “alıcılar” uşaqlar çalışırlar ki, “növbəyə" dursunlar. Satıcılar: “Buyurun”, “Nə istəyirsiniz?”, alıcılar isə “Sağ olun”, “Çox razıyam” və s. kimi ifadələr işlətməklə mədəni davranış qaydalarına yiyələnirlər.

Təcrübə göstərir ki, belə kollektiv oyunlar uşaq mənəviyyatına güclü təsir etməklə onlarda bir–birinə qayğılı münasibət, əməksevərlik, birgəyaşayış qaydalarına riayət etmək kimi müsbət keyfiyyətlər aşılayır.

Gənc nəsildə tərbiyə etməli olduğumuz əməksevərlik təkcə yeməyə, geyimə, mənzilə olan maddi tələbatın ödənilməsi vasitəsi kimi deyil, həmçinin yeni dünyanın insanları arasında yeni münasibətlərin bərqərar olmasını təmin edən əsas yoldur.

Böyük və məktəbəhazırlıq qrupunun uşaqları artıq bilməlidirlər ki, bizim vətənimizdə bütün əmək növləri yaxşı və faydalıdır, xalqın xeyrinədir. Əmək qəhrəmanlıq və şərəf işidir. Adamı ucaldan, ona şöhrət qazandıran yaradıcı əməkdir.

Uşaqları psixoloji cəhətdən əməyə hazırlamaq bu və ya digər uşaqlarda onların hissinə və şüuruna təsir göstərmək zəhmət adamlarının əməyinə hörmət, vətənə məhəbbət tərbiyəsinin əsasını təşkil edir.

Bütün bunlardan aydın olur ki, əmək prosesində uşaqlarda nəinki əməksevərlik kimi yüksək əxlaqi keyfiyyətlər yaranır, həm də başqa adamlara düzgün münasibət tərbiyə olunur ki, bu da əxlaq tərbiyəsində böyük əhəmiyyətə malikdir.

Məktəbəqədər dövrü oyun dövrü adlandırır, lakin məktəb dövrünü iş ilə əlaqələndirir. Uşaq hər gün dərsə gedib hazırlaşır, ictimai-faydalı əməyə qoşulur, əməyə məsuliyyətlə hazırlaşır, lakin bu dövrdə də oyunu sevir, oynamaq istəyir.

Əmək prosesində həmişə məqsəd qoyulur, ona nail olmaq üçün vasitələr axtarılır, hərəkətlərin ardıcıllığı düşünülür və nəhayət, nəticə əldə edilir. Əmək prosesi realdır, burada güman edilən situasiya yoxdur, çünki uşaq fəaliyyət zamanı dəyişdirə biləcəyi real əşyalarla iş görür.

Oyunda uşaqlar xüsusi yaradılan oyun şəraitində yaşlıların fəaliyyətini və onların arasındakı münasibəti təsvir edirlər. Bu şərait üçün əmək prosesində yaşlıların istifadə etdikləri, əsl əşyaları əvəz edən müxtəlif oyuncaq əşyalardan istifadə olunması xarakterikdir.

Oyun heç bir zahiri nəticə vermir, lakin uşaqlara sevinc gətirir, ləzzət verir.

Əmək və oyun prosesində pedaqoq və uşaqlar arasındakı qarşılıqlı münasibətlər müxtəlif şəkildə formalaşır.

Oyunu bir fəaliyyət kimi uşaq özü inkişaf etdirir. Pedaqoq oyuna rəhbərlik edərkən uşağın fikri və marağı ilə hesablaşır, özü isə heç də həmişə oyunun iştirakçısı olmur, onun oyuna bilavasitə müdaxiləsi heç də həmişə lazım deyil.

Burada uşağın fikrinin, ideyasının inkişafı aparıcı əhəmiyyətə malikdir. Səylərin sərf edilməsi, nəticənin əldə edilməsi uşağın arzusu, oyuna olan marağı ilə şərtləşir. Oyun ya fərdi surətdə, ya da başqa uşaqlarla ünsiyyətdə keçir. Bu ünsiyyət ya fikrin vahidliyi, ya da uşaqların şəxsi rəğbəti əsasında yaranır.

Uşaq bağçasındakı uşaqların müxtəlif cür təşkil edilmiş əməyi çox vaxt kollektivin tələbatının ödənilməsinə yönəldilir. Hətta uşağa verilən fərdi tapşırıq belə, kollektivə xidmət etmə məqsədi daşıyır.

Oyunla müqayisədə əmək prosesində uşaqlar səylərini ümumi nəticənin alınmasına yönəldir.

Kiçik yaş qruplarında uşaqlarla aparılan əmək tərbiyəsinə xüsusi olaraq əhəmiyyət verilir. Onların əmək tərbiyəsinin məzmunu əsasən özünəxidmətdən ibarətdir. Özünəxidmət vərdişlərindən istifadə edərkən bəzi hallarda oyun situasiyasından istifadə edilir.

Uşaqlarda alətlərlə işləmək vərdişlərinin hələ formalaşmadığı, əmək prosesi xarakterinin özü hələ uşaqlara məlum olmadığı alətdən istifadəyə aid isə aydın göstəriş verilmədiyi hallarda əmək fəaliyyəti deyil, oyun fəaliyyəti üstünlük təşkil edir.

Uşaqlar alətlərlə: çəkiç, qayçı, fırça və materialla (kağız, ağac, katonla) praktik iş priyomlrına yiyələnmədən materialı əldə edərək və fəallıq göstərərək bu materialla iş görməyə

çalışırlar. Bu iş öz məzmununa görə prosessual oyun xarakteri daşıyır, yəni uşaqlar səsləri ritmik surətdə növbələyərək çəkiclə stolu taqqıldadır, stolun üzərinə mıxları sıra ilə düzür, sonra isə onları diyirlədirlər və s.

Bu, təmamilə qanunauyğundur. Uşaqlar əmək üçün olan materiallar və alətilərin və keyfiyyətlərini bilmədən onlardan oyuncaq kimi istifadə edirlər. Oyundakı hərəkətlərin şərtliyi həmin yaşlı uşağın hadisələri ümumiləşdirmək, bir əşyada digər əşyanı təsəvvür etmək qabiliyyəini göstərir ki, bu da uşağın oyun fəaliyyətinin inkişafı üçün olduqca mühümdür. Lakin uşaqların əmək fəaliyyəti inkişafının ilk mərhələrində əmək alətləri və əşyalarına müəyyən qədər oyun münasibəti bəslənirdisə, gələcəkdə bu, əməyə düzgün münasibətin formalaşmasını tormozlandırır, hərkətlərin dəqiqliyinin inkişafına, zəruri əmək vərdişlərinin tərbiyəsinə, nəticənin əldə edilməsinə mane olur. Ona görə də uşaqların yalnız oyun fəaliyyəti ilə məşğul olması əmək tərbiyəsini də ləngidir. Pedaqoq yerinə yetiriləcək tapşırığın xarakterini, məqsədini aydın surətdə onlara izah etməli, material və alətlərdən necə istifadə edilməsi haqqında göstəriş verməlidir.

Uşaqlar alətlərlə işləmə vərdişlərinə yiyələndikdə və materialdan praktik surətdə istifadə etməyi öyrəndikcə prosessual oyun hərəkətləri getdikcə az müşahidə edilir, oyun və əməyin qarşılıqlı münasibəti dəyişir. Uşaqlar alət və materialın xassələrini və əldə etmək istədikləri nəticə arasındakı müəyyən asılılığı təyin etməyə başlayır, əllərindəki alətlə işləyərkən ondan lazımi yerdə istifadə edirlər.

Məqalənin aktuallığı: müasir təhsilin ən mühüm xüsusiyyətlərindən biri həyati bacarıqlara malik vətəndaş tərbiyəsidir. Bununçün uşaqlarda texnoloji biliklərin formalaşdırılması mühüm məna kəsb edir. Oyun və əmək fəaliyyətinin köməyilə uşaqlarda texnoloji biliklərin formalaşdırılması məqalənin aktuallığını şərtləndirir.

Məqalənin elmi yeniliyi: müasir pedaqoji üsullarla uşaqlarda texmoloji biliklərin aşılanması yollarını irəli sürmək məqalənin elmi yeniliyini təşkil edir.

Məqalənin nəzəri və praktik əhəmiyyəti: məqalədən məktəbəqədər təlim-tərbiyə ixtisasında təhsil alanlar- magistrant və bakalavriat səviyyəsinin tələbələri faydalana bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu /Azərbaycan müəllimi /. Bakı: 2012. 5 sentyabr.
2. Azərbaycan Respublikasının Məktəbəqədər təhsil proqramı. Bakı 2014. s. 93
3. Cəfərova L.K. Məktəbəqədər təhsilin yeniləşməsi, "Məktəbəqədər və ibtidai təhsil" 2010, s. 15.
4. Dostuzadə D.Ə.İbtidai siniflərdə əmək təliminin təsviri sənətlə əlaqəsi. Bakı, 2002. s, 64.
5. Əliyeva S. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı: 2010, s. 2.
6. Həsənova P.M. Məktəbəqədər müəssisələrdə uşaq əməyinin təşkilinə müasir yanaşmalar. Bakı 2017, s, 39.
7. İlyasov M. Pedaqogikanın texnologiyaları. Bakı: 2005, s. 325.
8. Orucov Z.H. və b. Texnologiya (əmək hazırlığı) Bakı, 2006, s,
9. Məktəbəqədər yaşlı uşaqların əməkdə tərbiyəsi. Bakı: 1989, s, 208.
10. Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların inkişafının izlənilməsi və dəyərləndirilməsi. ADPU – "Musiqi elmi və mədəniyyət" jurnalı, 2018.
11. Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların yaşlıların əməyi ilə tanışlığında vətənə məhəbbət tərbiyəsi. Bakı 1993, s. 182.
12. Vəliyeva Z.İ. Texnologiya və onun tədrisi metodikası (proqramı) Bakı, 2015,s.23.

XÜLASƏ

Elmi araşdırmalar onu deməyə əsas verir ki, uşaqlara texnoloji biliklərin formalaşdırılması hələ məktəbəqədər yaş dövründən başlanılmalıdır. Uşaqlarla bu istiqamətdə işlərin

aparılması oyun və əmək fəaliyyəti yolları ilə həyata keçirilə bilər.

Şıxıyeva Əfsanə
ADPU, Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası
II kurs magistrantı

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜXTƏLİF ÖLKƏLƏRİ XARAKTERİZƏ EDƏN TƏHSİL PİLLƏSİ KİMİ

Açar sözlər: *məktəbəqədər pedaqogika, uşaq tərbiyəsi,ölkələrin təhsil sistemi,sosial - pedaqoji yanaşma*

Ключевые слова: *дошкольная педагогика, воспитание детей, системы образования стран, социально-педагогический подход*

Key words: *preschool pedagogy, child rearing, education system of countries, socio-pedagogical approach*

Qədim dünya tarixinə nəzər salsaq görərik ki, insanlar oxu və yazının nə olduğunu dərk etmədiyi bir zamanda belə uşaqların tərbiyəsinə xüsusi diqqət yetirirdilər. Tarixən ailənin uşağa, onun tərbiyəsinə münasibəti milli-etnik və mədəni dəyərlər əsasında formalaşmışdır. Uşağın dünyaya gəlməsi, onun ağıl, kamal sahibi olması, bir sənətə yiyələnməsi, ləyaqətli insan olaraq formalaşması hər bir valideynin həyat amalını təşkil etmiş, uşağın tərbiyəsində başlıca istiqamətə çevrilmişdir.

Hesab edirəm ki, böyüməkdə olan nəslin tərbiyəsində təhsil böyük rol oynayır. Ümumiyyətlə, insan tərbiyəsi, onun getdikcə kamilləşməsi, cəmiyyət üçün dəyərli şəxsə çevrilməsi hər bir dövrdə pedaqoq-alimlərin tədqiqat obyekti olmuş, tərbiyəetmə fəaliyyətinə insanın dünyaya gəldiyi ilk günlərdən, hətta ana bətnində olarkən başlanmasının vacibliyini tutarlı faktlarla sübuta yetirmişlər. Uşaqların erkən vaxtlarından tərbiyə olunmasını həyata keçirən xüsusi müəssisələrin olmadığı bir dövrdə bu vacib məsələ bilavasitə ailələrdə yerinə yetirilmişdir.

Zaman ötdükcə insanların məşğulluğunun getdikcə artması məktəbəqədər müəssisələrin yaradılması zərurətini meydana çıxarmışdır. Məktəbəqədər təhsil müəssisələrinin tarixi XIX əsrdə Almaniyada yaşamış pedaqoq Fridrix Frebelin adı ilə bağlıdır. O, 3-7 yaşlarında uşaqların idraki, fiziki və sosial baxımdan inkişafını təmin edən oyunlardan ibarət kurikulum tərtib etmişdir. Onun bu ideyasında əsas məqsəd uşaqları məktəbə hazırlamaqdan ibarət idi.

Zaman keçdikcə dünya ölkələri belə təhsil proqramlarının faydasını müşahidə etdikcə, məktəbəqədər tərbiyə prosesi tədricən İngiltərə, Kanada, Amerika Birləşmiş Ştatlarında və digər ölkələrdə tətbiq edilməyə başlandı. Sonralar bu hadisə təhsilin ayrılmaz hissəsi kimi bütün dövlətlər və cəmiyyətlər tərəfindən qəbul edildi.

Ölkəmizdə məktəbəqədər təhsilin tarixi 1907-ci ildən başlanmışdır. Qeyd etdiyim ildə ilk dəfə olaraq Bakının Bayıl qəsəbəsində xanım Alisa Radçenko tərəfindən uşaq tərbiyə müəssisəsi təşkil edilmişdir. Burada əsas hədəf kimi uşaqların fiziki, bədii, əxlaqi və əqli inkişafı müəyyənləşdirilmişdi. Sonrakı dövrlərdə məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsi genişləndirildi və Azərbaycanın müxtəlif şəhər və rayonlarında yeni məktəbəqədər təhsil müəssisələrinin təşkilinə başlandı. Ölkəmizdə məktəbəqədər müəssisələrin inkişafı Azərbaycanın müstəqillik illərinə təsadüf edir.

Avropada isə məktəbəqədər təhsil böyük əhəmiyyət kəsb edirərək sosial xidmətlər qrupuna daxil edilir və Avropa İttifaqının siyasətinin hədəflərindən biridir. Avropa İttifaqına daxil olan dövlətlər üç yaşadək olan bütün Avropa uşaqlarının üçdə birinin və bütün üç-altı yaşlı uşaqların 90 faizinin məktəbəqədər keyfiyyətli təhsillə əhatə olunmasını hələ 2010-cu ilədək vəzifə olaraq qarşıya qoymuş, 2020-ci ilədək isə uşaqların məktəbəhazırlıq təhsilinə cəlbolunma göstəricisinin yüksəldilməsini təklif etmişdilər. Göründüyü kimi, bütün dünyada məktəbəqədər təhsil və onun inkişaf etdirilməsi ilə bağlı məsələlər öz aktuallığını saxlayır.

Bütün qeyd olunanların fonunda ortaya bu suallar çıxır: 1) məktəbəqədər təhsil müəssisələrinə nəyə görə uşaqların cəlb edilməsi bu qədər zəruridir? 2)cəmiyyətə və uşaqlara məktəbəqədər təhsil nə verir? Tədqiqatlar göstərir ki, məktəbəqədər təhsil müəssisələrində tərbiyə almış uşaqlar istər idraki, emosional, istərsə də fiziki baxımdan ümumi təhsil müəssisələrində təhsilə daha hazırlıqlı olurlar. Burada uşaqlara kiçik problemlərin həllinə nail olmaq üçün müstəqil şəkildə çalışmaq, idraki və emosional, habelə fiziki fəaliyyətdə olmaq öyrədilir. Məktəbəqədər təhsil müəssisələrinə sosial bacarıqlar və davranış problemləri ilə gələn uşaqlarda bir müddət sonra bunların aradan qaldırıldığı müşahidə edilir.

İnsanlar doğulduqları andan etibarən müxtəlif səbəblərdən fərqli sosial təbəqələrə mənsub olmuş olurlar. Bu da dünyaya gələn körpələrin səviyyəcə maddiyyatları və intellektləri müxtəlif olan ailələrdə formalaşmasına gətirib çıxarır. Ailələrin müəyyən maddi, mənəvi çətinlikləri olmasına baxmayaraq övladlarının fiziki və psixi baxımdan sağlam inkişafı, tərbiyəsi və təhsilinə xüsusi diqqət ilə yanaşırlar. Bəzən də təəssüflə qeyd edə bilərəm ki, bu proses əksinə baş verir. Uşaqların təhsilinin lazımi səviyyədə təşkil edilməməsi onun gələcək inkişafında müxtəlif ciddi problemlər yaradır. Belə sosial fərqliliyin uşağın sağlamlığına və şəxsiyyət olaraq tərbiyəsinə mənfi təsirlərini aradan qaldırmaq üçün məktəbəqədər təhsil müəssisələrinə uşaqların cəlbi faizini yüksəltmək ciddi vəzifə kimi gündəmdə dayanır.

Məktəbəqədər təhsil dövlətlərə nə verir? Bu təhsil dövründə uşaqların fiziki, sosial və idraki inkişafının düşünülmüş şəkildə təşkili onun bütün gələcək taleyinə öz təsirini göstərir. Hesab edirəm ki, məktəbəqədər təhsil nə qədər mükəmməl olarsa təhsilin növbəti mərhələsində uşağın nailiyyət göstəricilərinin yüksəldilməsi və gələcəkdə fərd olaraq onun öz sosial, iqtisadi ehtiyaclarını təmin edən vətəndaş olaraq formalaşmasında böyük rol oynayır. Belə vətəndaşları olan dövlətin isə yoxsulluq səviyyəsi aşağı düşür, insanların maddi rifahı və təhlükəsizliyi təmin edilir. Bütün göstərilənlər dövlətin və dövlətçiliyin qüvvətlənməsinə xidmət edir.

Nəticə etibarilə düşünürəm ki, uşaqların təhsilinə erkən yaşlarından qoyulan məbləğlər iqtisadi və sosial baxımdan gələcək üçün daha ümidverici yüksək faydalılıq əmsalına malikdir. Başqa sözlə, tədqiqatlar göstərir ki, kiçik yaşlarından uşağın inkişafına xərclənən vəsait sonradan dəfələrlə artıq gəlir gətirə bilir. Məktəbəqədər təhsil vasitəsilə uşaqlar arasında bərabərlik imkanlarının yaradılması sonradan cəmiyyətin müxtəlif sosial təbəqələri arasında fərqlərin azalmasına gətirib çıxarır.

Bugünkü təhsilə baxdığımızda haradan gəldiyimiz daha asan başa düşülə bilər. Bəllidir ki, əhəmiyyətli irəliləyişə baxmayaraq hələ də həll olunmamış bir çox problemimiz var. Anaların, ataların, müəllimlərin, şagirdlərin və bir çox insanın təhsillə bağlı şikayətləri, gözləntiləri və fikirləri var. Təhsildə axtarışlar var, müvəqqəti olmamalı, davamlı xarakter almalı və yayılmalıdır. Bu işin məqsədlərindən biri də sosial tədqiqatlar sahəsində bu axtarışların sistematik şəkildə elmi əsaslarla davam etdirilməsi və hədəf auditoriyaya çatdırılmasıdır.

Təhsil, bir ölkənin dünyadakı yeniliklərlə ayaqlaşma qabiliyyətinə qatqı verməklə yanaşı, cəmiyyətin yaşaması üçün də vacib bir vasitədir. Digər ölkələr hazırda inkişaf etmiş olan ölkələrdəki dəyişiklikləri nəzərə alaraq təhsil sistemlərini davamlı inkişaf etdirməlidirlər. Bu inkişaf etmiş ölkələrdə artıq tətbiq edilən vasitələri olduğu kimi götürmək və istifadə etmək kimi qəbul edilməməlidir.

Ölkələrin əsas məqsədi öz yerli təhsil sistemlərini inkişaf etdirmək olmalıdır. Məqsəd yeni və yaradıcı təhsili inkişaf etdirmək üçün inkişaf etməkdə olan müqayisəli təhsil sahələrindən istifadə etmək və ilk növbədə bu sahədə görülən işlərin yaxşılaşdırılmasına xidmət etməkdir. Müqayisəli təhsil, xüsusilə yeni bir təhsil sahəsi olsa da 21-ci əsrdə sürətlə inkişaf etdi və dünya təhsil sistemlərinin formalaşmasında rol oynadı. Ölkəmiz üçün müqayisəli təhsil, digər ölkələrin təcrübələrindən bəhrələnərək yeniliklərin daha nəzarətli (öncədən proqnozlaşdırılmış) və əsaslı olmasına kömək edə bilər. Bu işin məqsədi müxtəlif ölkələrin təhsil sistemlərini mümkün qədər ətraflı şəkildə ortaya qoymaqdır. Bu məqsədlə ölkələrin; tarixi

inkişafı, hədəfləri, prinsipləri və mövcud vəziyyəti baxımından ümumiyyətlə təhsil sistemi, məktəbəqədər təhsil sisteminin quruluşu və təhsil addımları (məktəbəqədər təhsil, icbari təhsil, orta təhsil, ali təhsil, özəl təhsil), bundan başqa təhsil idarəetməsi (Təhsil nazirliyi, məktəb rəhbərliyi, təhsilin maliyyələşdirilməsi və təhsil yoxlanışı) və müəllim hazırlığı sistemləri bu sistemə daxil edilməli və ciddi şəkildə araşdırılmalıdır.

Ümumiyyətlə təhsil, insanların davranışlarını müəyyən hədəflərə uyğun olaraq dəyişdirmək, inkişaf qanunlarını və prinsiplərini araşdırmaq, həmçinin bir çox texnikanı inkişaf etdirməyə malik olan bir elm sahəsidir. Bəşər tarixinə qədər qədim bir elm sahəsi olan təhsil "fərddə davranışın dəyişməsi prosesi" olaraq təyin edilir.

Təhsilin ilk pilləsi olan "məktəbəqədər təhsil" uşaqlarımızın şəxsiyyət olaraq formalaşmasında əhəmiyyətli bir rol oynayır; fiziki, psixi, sosial mənada zehni və dil inkişafı böyük ölçüdə tamamlanır, şəxsiyyət formalaşır və uşağın daim dəyişdiyi bir prosesi əhatə edir.

Məktəbəqədər təhsilin ümumi məqsədləri: uşaqların bədəni, ağlı və təfəkkürü,yaxşı vərdişlərinin inkişafı təmin etmək; onları ibtidai təhsilə hazırlamaq; əlverişsiz mühitdən və ailələrdən olan uşaqlar üçün ümumi bir tərbiyə mühit yaratmaq; uşaqların düzgün dil inkişafı və yaxşı danışmasını təmin etməkdir.

Dünya ölkələrində uşaqlara qayğı və inkişafın ətraflı və hərtərəfli təsvirini vermək mümkün deyil. Bunun ən azı iki əsas səbəbi var. Birincisi, uşaq baxımının əhəmiyyətli bir hissəsi rəsmi xarakter daşımır və heç bir statistikada görünmür. İkincisi, uşaq baxımı yalnız qayğı və inkişaf üçün milli və beynəlxalq təşkilatların diqqətindən qaçmır, həm də milli iqtisadi hesablamalarda məhsuldar bir fəaliyyət kimi görünmür. Daha mütəşəkkil proqramlar arasında da müxtəliflik o qədər böyükdür ki, heç bir statistika bu sahəni tam şəkildə çatdıra bilməz.

Sahəni lazımı səviyyədə əhatə etmək üçün yalnız fəaliyyət göstərən mərkəzlərin sayı barədə məlumatları deyil, həm də ev ziyarətləri, valideyn təhsili proqramları, qadınların uşaq baxımı, cəmiyyətə qayğı və inkişaf proqramları və əlillər üçün proqramları daxil etmək lazımdır.Bundan əlavə, inkişafa həqiqətən bütöv bir yanaşma varsa, bütün sağlamlıq və qidalanma, erkən qayğı və təhsil proqramları əhatə olunmalıdır. İcma, regional və milli səviyyədə işləyən müxtəlif dövlət və özəl təşkilatların inkişafın fərqli aspektlərini vurğulayan proqramlardan məsul olduqlarını nəzərə alsaq, bu, həqiqətən çətinləşir.

Belçika

Məsələn, Belçikada dörd əsas proqram həyata keçirilir.0-6 yaşlı uşaqlar üçün “tam uşaq bağçası”, 2-6 yaşlı uşaqlar üçün “tam uşaq bağçası”, 5-6 yaşlı uşaqlar üçün “uşaq bağçası”, yenə də 2-6 yaşlı uşaqlar üçün daha az yayılan bir uşaq bağçası forması “təcili yardım 0-6 yaş arası "təcili uşaq bağçaları" var. Bunlara əlavə olaraq özəl müəssisələrdə 0-6 yaş arası "uşaq parkları" və "uşaq baxımı mərkəzləri" mövcuddur. Müəllimlər üçün milli tədris proqramı yoxdur. Müəllimlər məktəbəqədər ixtisaslaşma üçün bir il əlavə təhsil alırlar.

Belçikada məcburi təhsilə başlama yaşı 6-dır. Müəllimlər bu peşəyə yiyələnmək üçün ali təhsil institutundan məzun olmalıdırlar. Məktəbəqədər uşaqların təhsil nisbəti təxminən 95% -dir. Belçika federal bir dövlət olduğu üçün təhsil sistemində əyalət, bölgə, kommun və Katolik kilsəsi tərəfindən dəstəklənən təşkilatlar var. Uşaq bağçaları pulsuz və istəyə bağlıdır. Dərslər ümumiyyətlə yaş qrupuna görə bölünür.

Danimarka

Danimarkada 0-10 yaş arası uşaq sahibi olan anaların 76%-i evdən kənarda işlədiyindən, bu haqda müxtəlif qanunlar qəbul edilərək ölkədə ailələrin və uşaqların rifahı üçün imkanlar təmin edildi. Yerli hökumətlər uşaq baxımını təmin etmək, idarə etmək və nəzarət etməkdən məsuldur. Tam gün işləyən uşaq bağçalarından fərqli olaraq yaş qrupları üçün mərkəzlər, məktəbdən sonrakı proqramlar və gündüz qayğı mərkəzləri var. Danimarkada icbari məktəbə başlama yaşı isə 6-dır. 3-6 yaş arası təhsil nisbəti təxminən 100% -dir. Müəllimlər peşə ali təhsil institutunu bitirməlidir.

Avstraliya

Aparılan araşdırmalara görə, Avstraliyada 3-5 yaşlı uşaqların 32%-i yarım günlük məktəbəqədər təhsil müəssisəsinə, 20%-i özəl uşaq baxımı mərkəzlərinə üz tutur. Avstraliyada uşaq bağçaları 1820-ci ildən bəri fəaliyyət göstərməyə başlamış və Montessori, Pestalossi və Frabelin fikirləri nəzərə alınaraq proqramlar hazırlanmışdır. Ölkədə məktəbəqədər təhsil məcburi deyildir. Təhsilin bu növündə əsas hədəflər: savadlılıq, nitqin inkişafı, mənəvi və fiziki tərbiyənin inkişafı olaraq müəyyənləşdirilmişdir.

6 yaş məcburi məktəbə başlama yaşıdır. Hər sinifdə müəllim və köməkçi müəllim var. Müəllimlərin mütəxəssis dərəcəsi olmalıdır, onlar tam gün və həftədə 40 saat işləyirlər. Hər sinifdə maksimum 25-28 uşaq ola bilər, siniflər eyni yaş və qarışıq yaş qruplarından ibarət ola bilər.

Yeni Zenlandiya

Yeni Zelandiya uşaqların inkişafı təkcə, uşaq bağçaları ilə kifayətlənmir. Bunun üçün əlavə olaraq yerli dil və mədəniyyətin öyrədildiyi mərkəzlər, oyun mərkəzləri, uşaq baxımı mərkəzləri, ev əsaslı xidmətlər, icma oyun qrupları və xəstəxanalardakı oyun otaqları kimi təhsil müəssisələri və ya sahələri var. Beş yaşdan kiçik uşaqların təxminən 56% -i bu təhsilə qatılır.

3-5 yaşlı uşaqların qatıldığı bağçalarda azyaşlılar həftənin üç günü günortadan sonra, yaşı nisbətən yuxarı olan uşaqlar isə həftənin beş günü səhər gəlirlər. Tədris prosesində iştirak edən bütün müəllimlərin sahə üzrə diplomları olmalıdır. Məktəblərdə ailələrin iştirakçılığı ilə komitələr təşkil olunur. Hər uşaq bağçasının öz valideyn dərnəyi yaxud komissiyası olur, lakin idarəetmə məsuliyyəti milli birliyin nəzdindəki regional məktəbəqədər təhsil təşkilatının üzərinə düşür.

Finlandiya

Finlandiyada məktəbəqədər təhsil haqqında məlumat verməzdən əvvəl ümumiyyətlə ölkənin təhsil sistemi haqqında məlumat vermək istərdim. Finlandiya təhsil sistemindəki İEÖ ölkələri arasında ən yaxşı təhsil sistemlərindən olduğu üçün dünya çapında KİV-lərində tez-tez işıqlandırılmışdır.

Bu ölkədə təhsilin ümumi məqsədi əhali arasında bərabərliyi təmin etmək və bütün gəncləri sosial inkişafları üçün zəruri olan bilik və bacarıqlarla təchiz etməkdir. Təhsilin nəticələri arasında insanların yaşayış səviyyəsinin və keyfiyyətinin yaxşılaşdırılması da var. Ölkənin ümumi təhsil siyasətləri parlament tərəfindən müəyyən edilir.

Ölkədə məktəbəqədər, əsas təhsil və orta təhsil səviyyələri pulsuzdur. Bütün şərtlər ana dilinə, cinsinə, iqtisadi vəziyyətinə, yaşayış yerinə və yaşından, sosial təbəqəsindən asılı olmayaraq fərdi şəxslərin xüsusi ehtiyaclarına uyğun olaraq təmin edilir. Şagirdlərin nəqliyyat xidməti, yeməkləri, məktəb dəftərxana ləvazimatı, kurs və köməkçi kitabları dövlət tərəfindən təmin edilir.

Finlandiya təhsil sistemində 0-6 yaş arası uşaqlar ilkin olaraq məktəbəqədər təhsilə cəlb edilirlər. Məktəbəqədər təhsil xidmətləri əlavə olaraq özəl məktəbəqədər təhsil müəssisələri (qayğı mərkəzləri, evdə qulluq, oyun qrupu fəaliyyətləri) və yerli rəhbərliklər tərəfindən təmin edilir. Məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlərdən 3 illik lisenziya tələb olunur. Finlandiyada məcburi təhsilə başlama yaşı 7-dir.

Burada da F.Frabelin təhsil anlayışından istifadə edərək məktəbəqədər təhsil proqramı yaradılmışdır. Məktəbəqədər təhsil Təhsil və Mədəniyyət Nazirliyi tərəfindən idarə olunur. Ölkənin məktəbəqədər təhsil proqramında əsas öyrənmə sahələri aşağıdakılardır:

- ✓ Dil və qarşılıqlı əlaqə
- ✓ Riyaziyyat
- ✓ Etika və fəlsəfə
- ✓ Ətraf mühit və təbii tədqiqatlar
- ✓ Sağlamlıq
- ✓ Fiziki və mənəvi inkişaf

Artıq birmənalı şəkildə başa düşülməlidir ki, məktəbəqədər təhsil uşağın dünyanı dərk etməsində, inkişafında kömək və dayaqdır. Bu ölkələrin məktəbəqədər təhsilinin əsasında şəxsiyyətyönümlü sosial-pedaqoji yanaşma durur. Respublikamızda belə situasiyanı inkişaf

etmiş ölkələrin təcrübəsini (məsələn, Finlandiya, Belçika və s.) öyrənməklə, milli xüsusiyyətlərimizi əsas götürməklə dəyişmək olar.

Məqalənin elmi yeniliyiolaraq müasir məktəbəqədər təhsil modellərinin və pedaqoji texnologiyaların təlim prosesinin gedişatının səmərəli, nəticəyönumlü, uşaqların potensialının üzə çıxarılması və təhsilin daima yeniliyə doğru irəliləməsini qeyd edə bilərik.

Ədəbiyyat

1. Abbasov A.Pedaqogika.Bakı,2007.
2. Durmuş Aslan Farklı ülkelerde Okul öncesi eğitim
3. Доступность дошкольного образования-И. В. Абанкина, Л. М. Филатова
4. Kazımov N. ”Məktəbəqədər pedaqogikası”Bakı 2009

Məktəbəqədər təhsil müxtəlif ölkələri xarakterizə edən təhsil pilləsi kimi

XÜLASƏ

Müxtəlif ölkələrdə məktəbəqədər təhsilin inkişafındakı əsas tendensiyalar təhlil edilmiş və əlaqəli məsələlərə əsaslı yanaşma təklif edilmişdir. Məqalədə uşaq tərbiyəsi, təhsil modeli araşdırılır və mövcud yanaşmaların hər birinin əsas nəticələri göstərilir. Mövcud məktəbəqədər təhsil proqramlarının ümumi təhlili verilir və onların uşaqların yaşa olan inkişafına təsiri müzakirə olunur. İnkişafa yönəlmiş məktəbəqədər təhsilin əhəmiyyətini və xüsusi rolunu vurğulanmışdır. Digər ölkələrdəki təhsil, müəllimlərin hazırlanması və s. məsələlər müzakirə olunur.

Шыхыева Афсана

Дошкольное образование как уровень образования, характерный для разных стран

РЕЗЮМЕ

Проанализированы основные тенденции развития дошкольного образования в разных странах и предложен обоснованный подход к их решению. В статье исследуется модель воспитания и обучения детей, показаны основные результаты каждого из существующих подходов, дается обзор существующих программ дошкольного образования и обсуждается их влияние на возрастное развитие детей. Подчеркнута важность и особая роль дошкольного образования, ориентированного на развитие. Обсуждаются образование в других странах, подготовка учителей и т. д.

Sikhiyeva Afsana

Preschool education as a level of education that characterizes different countries

SUMMARY

The main trends in the development of preschool education in different countries are analyzed and a well-founded approach to their solution is proposed. The article examines the model of upbringing and teaching children, shows the main results of each of the existing approaches, gives an overview of existing preschool education programs and discusses their impact on the age-related development of children. The importance and special role of development-oriented preschool education was emphasized. Education in other countries, teacher training, etc. are discussed.

Bayramova Həcər Cavid qızı
ADPU, Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası,
II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d. P.Həsənova

UŞAQLARIN MƏKTƏBƏ HAZIRLANMASINDA İKT-DƏN İSTİFADƏ

Açar sözlər: *məktəbəqədər, texnologiya, uşaq*
Ключевые слова: *дошкольная, технологии, образование*

Key words: *pre-school, technology, child*

İnformasiya texnologiyaları düzgün seçilmiş (və ya tərtib olunmuş) tədris texnologiyaları ilə birlikdə tətbiq edildiyi təqdirdə tədris və tərbiyənin yüksək səviyyədə qurulması prosesi baş verir. İnformasiya texnologiyaları uşaqların həm təhsilində,həm də fərdi inkişafında mühüm rol oynayır.

Təhsilin informasiyalaşdırılması tərbiyəçi-müəllimlər üçün tərbiyə, təhsil və islah proseslərinin yenilikçi ideyalarının gücləndirilməsinə və həyata keçirilməsinə yönəlmiş yeni metodiki inkişafların pedaqoji təcrübəyə geniş tətbiqi üçün yeni imkanlar açır. Son vaxtlar informasiya və kommunikasiya texnologiyaları (İKT) tərbiyəçi-müəllimlər üçün tədris və islah işlərinin təşkilində vasitəçi rolunu oynamışdır.

İnformasiya texnologiyalarından istifadə tərbiyəçi-müəllimə uşaqlara bilik vermək motivasiyasını artırmağa kömək edəcək və bir sıra müsbət nəticələrə səbəb olacaqdır: [1, 35]

• Uşaqların məcazi və konseptual bütövlüyü və emosional rənglənməsi ilə biliklə zənginləşdirilməsi;

• Məktəbəqədər yaşlı uşaqlar tərəfindən materialın mənimsənilməsi prosesinin asanlaşdırılması;

• Bilik mövzusuna canlı bir maraq həyəcanı;

• Uşaqların ümumi dünyagörüşünün genişləndirilməsi;

• Tərbiyəçi-müəllimin məhsuldarlığını artırmaq.

Məktəbəqədər və məktəbə hazırlıq dövründə uşaqlara təsviri fəaliyyət məşğələsində printerdə böyük çap şəklində məlumatları təqdim etmək üçün kompüter təqdimatı slayd filmlərindən istifadə etmək daha məqbuldur. Multimedia təqdimatlarının istifadəsi uşaqların fəallığı üçün əla vizual yardım və nümayiş materialıdır. Məsələn, bu təqdimatların riyaziyyat, musiqi, ətraf aləmlə tanışlıqda istifadəsi, cisimlərin əlamətlərini və xüsusiyyətlərini araşdırarkən,və vizual olaraq vurğulayarkən uşaqların aktivliyini təmin edir, obyektiv dünyada vizual qavrayış, müayinə, keyfiyyət, kəmiyyət və fəza-müvəqqəti əlamətləri vurğulayır. Vizual diqqət və vizual yaddaş inkişaf edir. Hərəkət, səs, animasiya uzun müddət uşaqların diqqətini çəkir və öyrənilən materialla maraqlarını artırmağa kömək edir. Məşğələnin yüksək dinamikası materialın səmərəli mənimsənilməsinə, uşaqların yaddaşının, təxəyyülünün və yaradıcılığının inkişafına kömək edir. Bu məşğələləri təşkil edərkən vacib bir qayda onların keçirilmə tezliyidir. Dərslər həftədə 1-2 dəfə, uşaqların yaşından asılı olaraq 10-15 dəqiqə birbaşa PC fəaliyyəti üçün keçirilməlidir.

Məktəbəqədər təhsil müəssisələrində İKT-nin istifadəsi həm siniflərin özləri, həm də bütün rejimi bütövlükdə uşaqların yaşına və sanitar qaydaların tələblərinə uyğun olaraq diqqətlə təşkil etməyi tələb edir. Kompüterlər və interaktiv avadanlıqlar işlədikdə otaqda xüsusi şərtlər yaranır: rütubət azalır, hava istiliyi yüksəlir, ağır ionların miqdarı artır və uşaqların əllərində elektrostatik gərginlik artır. Döşəmə antistatik olmalıdır və xalça və xalıların istifadəsinə icazə verilmir.

İnformasiya texnologiyalarının tətbiqinin ənənəvi tədris vəsaitlərindən üstünlükləri var: [17.28]

1. İKT, məlumatları daha sürətli ötürdükləri üçün elektron tədris vasitələrinin istifadəsini genişləndirməyə imkan verir.

2. Hərəkət, səs, animasiya uzun müddət uşaqların diqqətini çəkir və öyrənilən materialla maraqlarını artırmağa kömək edir. Dərsin yüksək dinamikası materialın səmərəli mənimsənilməsinə, uşaqların yaddaşının, təxəyyülünün və yaradıcılığının inkişafına kömək edir.

3.İKT əlil uşaqlarla işləmək üçün əlavə bir fürsətdir.

4.Məktəbəqədər uşaqların vizual-məcazi düşüncəsi nəzərə alınmaqla, çox vacib olan materialın qavranılmasına və daha yaxşı əzbərlənməsinə kömək edən vizuallaşdırma təmin edir. Buraya üç növ yaddaş daxildir: vizual, eşitmə, motor

5.İnformasiya texnologiyalarının istifadəsi uşaqları tədqiqat fəaliyyəti, o cümlədən özləri və ya valideynləri ilə birlikdə internetdə axtarışa təşviq edir;

Adi texniki tədris vasitələrindən fərqli olaraq, informasiya və kommunikasiya texnologiyaları hazır, ciddi seçilmiş, düzgün şəkildə təşkil olunmuş biliklərlə uşağı təmin etməklə yanaşı, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə və uşaqların məktəbə hazırlanmasında vacib olan müstəqil yeni biliklər əldə etmək qabiliyyətinə imkan verir.

Ədəbiyyat

1. Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, 2005.

2. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 səh

3. Mikheeva, E.V. Məktəbəqədər uşaqların müasir tədris texnologiyaları / E.V.Mixeeva. – Volqoqrad: Müəllim, 2014. – 223

Uşaqların məktəbə hazırlanmasında yeni təlim texnologiyalarının rolu

XÜLASƏ

Məktəbəqədər təhsil müəssisələrində uşaqların məktəbə hazırlanmasında İKT-dən istifadə tədris prosesini əhəmiyyətli dərəcədə zənginləşdirməyə və effektivliyini artırmağa imkan verir.

Роль новых технологий обучения в подготовке детей к школе

РЕЗЮМЕ

Использование ИКТ при подготовке детей к школе в дошкольном образовании позволяет существенно обогатить учебный процесс и повысить его эффективность.

The role of new learning technologies in preparing children for school

SUMMARY

The use of ICT in the preparation of children for school in preschool education allows to significantly enrich the learning process and increase its effectiveness.

Novruzova Həlimə
Texnologiya fənninin tədrisi metodikası və metodologiyası
Naxçıvan Dövlət Universiteti

MÜASİR TƏLİM FORMALARININ MAHİYYƏT VƏ MƏZMUNU

Açar sözlər: *təlim, işçi, vərəq, tədqiqat işi, qabarıq, təqdimat, sual, maraq, sinif, xəyal, dialoq, təlim formaları, tədqiqat, üsul*

İnteraktiv təlim prosesində biliklər hazır formada şagirdlərə təqdim olunmur. Şagirdlər biliyi tədqiqat üsulu ilə əldə edirlər. Müəllim biliyi ötürən rolundan imtina edir və bələdçi vəzifəsini (fasilitator) daşıyır. İnteraktiv sözünün mənasında da kiminlə, nə ilə dialoqa, qarşılıqlı əməkdaşlığa girmək dayanır. Fəal təlim anlayışı isə sinfin, auditoriyanın passiv, seyrici olmamasına işarədir. Bu təlim prosesində sinif (auditoriya) qrup və çütlər formasında problemin həlli üsullarına dair axtarışa çıxarılır, qruplar əldə olunmuş nətiçələri işçi vərəqlərində qeyd edir, sonra onun təqdimatını həyata keçirirlər.

Motivasiya təhrik etmə deməkdir. Yəni şagirdlərin (auditoriyanın) təlim-dərketmə marağını problemin həllinə doğru fəal, canlı şəkildə istiqamətləndirir. Onun digər vəzifəsi isə tədqiqat sualını ortaya qoymağa şərait yaratmaqdır. Məhz bu tədqiqat sualı ilkin fərziyyələr

irəli sürməyə və tədqiqat işlərini təşkil etməyə imkan yaratmış olur. Tədqqiqat sualı tədqiqat isinin həyata keçirilməsini tələb edir. Tədqiqat işlərinin nəticələri işçi vərəqlərində qeyd edilir və təqdimatlar həyata keçirilir. Sonra təqdim olunan məlumatlar təşkil və təsnif olunur. Alınan qənaətlər ilkin fərziyyələrlə müqayisə olunaraq nəticələr çıxarılır. Sonra isə alınmış nəticələrin tətbiqi barədə işlər yerinə yetirilir. Təlimin interaktiv xarakteri balaca qruplarda ya da cütlük səklində daha qabarıq formada təzahür edir.

Qrup şəklində iş – bu, kiçik qrupda 3-6 nəfərdən təskil edilmiş şagirdin hansısa problemin həllinə yönəldilmiş birgə, uzlaşdırılmış fəaliyyətidir. Təlimin qrup forması fəal təlim "müəllim-şagird" dialoqundan imtina olunmasını və "müəllim-qrup-şagird" üçlüyünün qarşılıqlı münasibətlərinə keçməyi nəzərdə tutur.

Müəllim yeni materialı başa salır və sonra qruplara onu möhkəmləndirməyi, bütün detalları ilə dərk edib anlamağı tövsiyə etməkdədir. Bu vaxt şagirdlərin fəaliyyətlərinin istiqamətində iş təşkil olunur.

Qruplarda şagirdlərin tədqiqatçılıq işlərilə məşğul olmaları da təlim metodlarının müxtəlifliyinə daxildir. Bu üsulla işləyəndə şagirdlər ya fərdi şəkildə müstəqil, ya da qrupda 4-6 nəfər olmaqla birlikdə fəaliyyət göstərirlər. Beləliklə, hər kəs öz əməyini ümumi işə xidmət etməyə tabe edir. Nəticədə, hər bir məktəbli tərəfindən yerinə yetirilmiş tapşırığa əsasən bütün sinif kollektivi qarşısında müzakirəsi keçirilən vahid məruzə hazırlanır.

Qrup formasında təlimin ayrı-ayrı differensiasiya formaları vardır. Birinci, sinif tərkibinə görə balaca və çevik qruplara ayrılır və onların hər biri təlim materialına müxtəlif üsullarla yiyələnməkdədir. İkinci halda, qruplar eyni bir problemi fərqli materiallar əsasında öyrənir, onu fərqli nöqteyi-nəzərdən qiymətləndirirlər. Bundan əlavə, qruplarda isin təskilinin 3 variantını fərqləndirmək mümkündür:

1. Bütün qruplar muxtəlif təlim materialı əsasında tapşırılmış mövzu üzərində işləyirlər.
2. Əgər material vacib əhəmiyyət kəsb edirsə və ya qruplar bölüşdürülmək üçün kifayət qədər böyük deyildirsə, onda butün qruplar ondan eyni vaxtda bəhrələnirlər.
3. Qruplar ardıcıl şəkildə bir-birlərini əvəzləməklə eyni bir material əsasında işləyirlər.

Cütlük şəklində iş. İşin bu forması zamanı şagirdlər cüt-cüt işləyirlər ki:

- hər hansı bir tapşırığın, qərarın, problemin yerinə yetirilməsində bir-birinə kömək etsinlər,
- işlərinin (sinif ya da ev tapşırıqların) nəticələri barədə fikir mübadiləsi aparsınlar,
- qarşılıqlı qiymətləndirmə, qarşılıqlı yoxlama keçirsinlər.

Fəal təlim metodlarının tətbiqi ilə şagirdlərə müstəqil düşünmək, sərbəst işləmək, problemin həllinə dair fikir söyləmək, münasibət bildirmək, qərar qəbul etmək, fərziyyələrini bildirmək, yaradıcı fəaliyyət göstərmək, məntiqi, tənqidi təfəkkürünü inkişaf etdirmək imkanları yaradılır.

Şagird yaradıcı fəaliyyətində istedadını, xüsusi qabiliyyətlərini göstərir. Müəllim həmin qabiliyyətləri izləyir, onların lap da inkişaf etdirilməsi istiqamətində iş aparır. Problemin həlli baxımından qruplarla, cütlərlə və fərdi iş formaları daha səmərəlidir. Fəal təlim metodlarının tətbiq edərkən məktəblilərin bərabər fəaliyyəti təşkil edilir. Qrupda, cütlərdə birləşmiş şagirdlər birlikdə işləyir, qarşılıqlı əlaqədə olur, bir-birinə yardım edir, əməkdaşlıq edir, bacarıq ilə vərdişləri hazır formada deyil, müstəqil formada müəyyən edərək mənimsəyirlər. Həmçinin öz fikirini doğru əsaslandırmaq və dəyərləndirmək bacarığına sahib olurlar. Fəaliyyət prosesində şəxsiyyətin qabiliyyəti inkişaf etməkdədir. Təlim texnologiyalarının çağdaş isti-qamətləri məktəblilərin hərtərəfli inkişaf etmiş şəxsiyyət olaraq formalaşmağına və inkişafına istiqamətləndirilmişdir. Bu şəkildə formalaşan şəxsiyyət öz yaradıcı qabiliyyətini fəal şəkildə həyata keçirməyi bacarır. Fəal təlim üsulları ilə işləyən hər bir müəllim şəxsiyyətin formalaşmağında aşağıda göstərilənləri təmin etməlidir:

- müəllim-şagird əlaqələri qarşılıqlı əməkdaşlığa çevrilməli;
- tədris prosesində demokratik əsaslara üstünlük verilməli;

- şagirdlərin fərdi xüsusiyyətlərini, meyil ilə maraqlarını nəzərə almaqla təhsil prosesinin diferensiallaşmağına üstünlük verilməli;

- şagirdlərin əqli və praktik fəaliyyəti ilə əlaqəli qabiliyyətlərinin formalasmağı ön plana çəkilməli;

- dərs məqsədyönlü və inkişafetdirici xarakter daşımalı;

- fəal təlim üsullarından-əqli hücum, rollu oyun, müzakirə, cütlərlə iş, qruplarla iş və s. istifadə olunması.

Qruplarla və cütlərlə işləmək isə onlara lap çox ünsiyyətdə olmaq imkanı verir. Nəzərə almaq zəruridir ki, şagirdlərə sərbəst olmaq üçün yer və fürsət lazımdır. Balaca qruplarla iş zamanı uşaqlar lap sərbəst olur, tapşırığın həlli prosesinə hər kəs öz töhfəsini verməyə çalışır, bir-birləri ilə mübahisə edir, biri o birinin cavabını dinləyib müzakirə edir, təsdiq və təkzib edirlər ki, bu da onlarda təfəkkür prosesini fəallaşdırır, həm də həyatda vacib olan kollektivlə işləmək bacarıq və vərdişləri aşılayır. Qruplarla və cütlərlə is uşaqlara fikir mübadiləsi etməyə, yaradıcı olmağa şərait yaradır, dərs prosesinə temp ilə rəngarənglik gətirir. Bütöv siniflə, xüsusilə şagirdlərin sayının çox olduğu siniflə işləmək daha çox diqqət tələb etməkdədir və bu zaman hər bir şagirdə fərdi yanaşmaq olmur. O səbəbdən də qruplar və cütlərlə işə daha çox yer ayırmaq mütləqdir. Ancaq bu işi düzgün təşkil etmək çox vacibdir.

Qruplarla və cütlərlə isə başlamazdan əvvəl əmin olmaq gərəkdir ki, uşaqlar nə etmək lazım olduğunu dəqiq bilirlər. Uşaqlara vərilən tapşırığın məqsədi aydın olmalıdır, uşaqlar bilməlidirlər ki, müəllim onlardan nə gözləyir. Tapşırıq elə seçilməlidir ki, nəticəsi praktik olsun. Dərs prosesində bəzi uşaqlar tapşırığı digərlərindən tez yerinə yetirirlər. Bu zaman qısa əlavə tapşırıqların verilməsi yaxşı olar. Kiçik qruplar özlərini adlandıra bilərlər: bu, rəng, gül və ya heyvan adı ola bilər. Vaxtaşırı qrupları yenidən formalaşdırarkən yeni ad seçilə bilər.

Fəal təlimin ənənəvi təlimdən ən üstün cəhəti uşaqların problemli situasiya zamanı idraka əsaslanmaqla müstəqil şərh yürütmək bacarıqlarıdır. Qruplarla iş şəkili də bu təlimin ən üstün formasıdır. Bu formada şagirdlər əməkdaşlıq edərək bir-birindən öyrənir və onların kollektivdə işləmək, bərabər fəaliyyət bacarıqları inkisaf edir. Qrupla is formasının üstün cəhətlərindən birincisi, şagirdlərin təlim fəaliyyətinə lap fəal qoşulmağıdır. Bu vaxt müəllimlə birgə iş yerinə yetirilir, biliklər tətbiq edilir.

İkincisi, şagirdlər öz yoldaşları ilə birgə fəaliyyətdə olur, digərlərinin fikir və rəylərinə münasibət bildirirlər. Bir-birini yaxşı anlamaq üçün deyilənlərə diqqətlə dinləyərək suallar verir, müxtəlif fikirlər söyləyirlər. Lazım gəldikdə yoldaşdan kömək etməyi xahiş edir və başqalarına köməyini əsirgəmirlər. Qrupla iş formasında şagirdlərdə bu cür dəyərli bacarıq ilə vərdişlər yaratmaqla onların istedadı, xüsusi qabiliyyətləri aşkara çıxır.

Üçüncü, bu təlim forması istedadlılar üçün daha əhəmiyyətli olur:

• İstedadlı uşaqlar xüsusi bacarıqlarını bütün sinfin fikirini cəlb etmədən göstərə bilirlər, burada rəqib kimi yox, başqalarının "müəllimləri" kimi qəbul olunurlar. Müəyyən edilmişdir ki, belə hallarda şagirdlər öz dostlarından böyük dəstək alırlar;

• Qruplarla iş zamanı uşaqlar özlərini daha sərbəst aparırlar. Sinifdə adətən gözə çarpmayan şagird belə, burada öz biliyini çəkinmədən nümayiş etdirə bilir.

Cavab verməyə çəkinən şagird qrup işi sistemində böyük dəstək alır. 3-4 uşaqdan ibarət olan qrupda, özünü sərbəst aparmağa çəkinən şagird cavab vərərkən mustəqillik nümayiş etdirir, biliyinə, bacarığına inamı artırır. Hətta zəif şagirdlər belə, hansısa bir bacarığını nümayiş etdirir.

Qruplarda iş prosesi şagirdlərin məsuliyyətli fəaliyyətinə, yaradıcı işinə stimul yaradır, bilik yarışına təməl olur. Qrup elə formalaşdırılmalıdır ki, onlara bir necə hissədən ibarət çalışma vərilən zaman hər bir şagird öz güclü tərəfini göstərə bilsin. İmkan vərilməlidir ki, onlar mövzu ilə bağlı şeir yazsınlar, şəkil çəksinlər, hekayə qursunlar, səhnəçik, əyləncəli oyunlar təşkil etsinlər.

Problemin həllinə yönəlmiş forma və metodların tətbiqi dərsi zənginləşdirir, istedadlı şagirdləri üzə cıxarır və onların inkişafına şərait yaradır. Tədrisin belə təşkili təlimin keyfiy-

yətini yüksəldir, şagirdlərin bilik və intellekt səviyyəsini inkisaf etdirir. Dərslərdə fəal təlimin qruplarla, cütlərlə iş, beyin həmləsi, venn diaqramı, bibo cədvəli və s. kimi üsullarından istifadə uşaqlarda fəallıq əmələ gətirir, onlara əməkdaşlıq, kollektivçilik, bir-birinin fikirlərinə hörmət etmək, etiraz ilə təkliflərini, müstəqil yaradıcı fikirlərini demək imkanlarını çoxaldır, onların təfəkkürünü lap da inkişaf etdirir, məktəblilərdə bir-birinə hörmət ilə özlərinə inam hissi lap da güclənir.

Fəal təlim üsulları, həmçinin dərsdə fənlərarası bağlılıqların yaradılmağına, uşaqlarda başqa fənlərə marağın güclənməyinə səbəb yaradır. Fəal təlimdə motivasiyanın doğru qurulmağı, tədqiqat sualının qoyulmağı ən çox da mühim məqamdır. Bu, uşaqlarda fikirləşdikləri problemin həllini tapmaq, qarşıya qoyulan məqsədə nail olmaq, istədiyinə nail olmaq kimi yüksək bacarıqlar formalaşdırmaq üçün zəmin yaradır. Qurulmuş motivasiya, hər bir tədqiqat sualı uşaqların anlaya biləcəyi şəkildə olmalı, öz düşüncə tərzlərini nümayiş etdirmələrinə şərait yaratmalıdır.

Ədəbiyyat

1. S.Musayeva. "Politexnik praktikumların peşə hazırlığında əhəmiyyəti", Baki-2001, ADPU-nun.fal,səh.105-107.

2. S.Musayeva. "Texniki-texnoloji movzularm tədrisində peşə maraqlarının formalaşdırılması", ADPU-nun.N23, Baki-2003,səh.274-276.

3. Müseyib İlyasov. "Politexnik praktikumları peşə hazırlıgında əhəmiyyəti", ADPU-nun xəbərlari N21, Baki-2001,sah.105-107.

5."Sagirdlərin peşə seçməyə hazırlanması. Monoqrafiya", Bak1-Elm, 2009,

Müasir təlim formalarının mahiyyəti və məzmununun xülasəsi

XÜLASƏ

Məqalədə əsasən motivasya olunma əsas şərtlərdən biri kimi ön plana çıxarılaraq göstərilmişdir. Burada təlimin qurup forması fəal təlim "müəllim-şagird" dialoqundan imtina olunmaqla "müəllim-qurp-şagird" üsulunu qarşılıqlı sürətdə keçməklə əsas olduğunu qəbul edərək tövsiyyə olunur.

Həmçinin metodların hansı formada şagirdlərə catdırılması həmişə diqqət mərkəzində olmağı xüsusi vurğulanır. Şagirdlərə verilən tapşırıqlar aydın formada dəqiq və səlis olmalıdır.

Summary of the essence and content of modern forms of education

SUMMARY

According to the article, motivation is one of the main conditions. Here, the group form of learning is recommended, recognizing that active learning is the key, rather than the teacher-student dialogue, rather than the teacher-group-student approach.

It also emphasizes that the form in which the methods are delivered to students is always the focus. Assignments given to students should be clear, precise and fluent.

Novruzova Ləman Cəbrayıl qızı

MÜASİR TƏLİM ÜSULLARI

Açar sözlər: *təlim, təlim üsulları, təhsil sistemi, inteqrasiya, motivasiya, interaktivlik, əməkdaşlıq*

Ключевые слова: *обучение, методика обучения, система образования, интеграция, мотивация, интерактивность, сотрудничество*

Key words: *training, teaching methods, education system, integration, motivation, interactivity, cooperation*

Ölkəmiz dünyaya sürətlə inteqrasiya edir. Ölkəmiz təhsil sahəsində dünya ölkələrinə inteqrasiya etməklə təhsildə baş verən yenilikləri təhsil alanlara çatdıra bilirlər. Elmdə baş verən yeniliklər istər təhsil alanlar üçün istərsədə təhsil verənlər üçün böyük əhəmiyyət kəsb edir.

Heç bir cəmiyyət təhsil sistemi olmadan inkişaf edə bilməz.Təhsil sistemi cəmiyyətin inkişafınında ən başlıca rol oynayır.

Bildiyimiz kimi,təlim metodlarının əsas funkisiyaIari mövcuddur. Bu funkisayalara təlimedici, tərbiyəedici və inkişafetdirici funksiyalar daxildirm. Indiki dövrdə təhsil alanlarla təhsil verənlər arasında əməkdaşlıq xüsüsi rol oynayır. Tehsil verənlər və təhsil alanlar hər zaman yeniklərə açıq olmalıdırlar. Hər bir müəllim tədris etdiyi fənni şagirdə sevdirməyi bacarmalıdır. Hər bir müəllim gənc şəxsiyyətin memaridir.Müəllimlər cəmiyyətin etibar etdiyi şəxsdirlər. Müəllim öz ixtisasına nə qədər dərindən yiyələnsə bir o qədər şagirdlərə fənni düzgün şəkildə dədris edər.

Müasir dövrdə təlim prosesində müəllim xüsüsi yer tutur. Təlim pedaqoji prosesdir. Təlim təhsil alanlarin bilik,bacarıq və vərdişlərə yiyələnmədidir. Təlim prosesində təhsil alan və təhsil verən arasında əks əlaqə, əməkdaşlıq yaranir. Təlim prosesində əməkdaşliq təhsil alanların potensialının artmasına səbəb olur. Əvvəllər təhsil alanlar passiv formada idi. Müəllimlər informasiyanı şagirdə ötürür şagird isə informasiyanı qəbul edirdi. Dərs əsasən passiv xarakter daşiyir, əzbərçiliyə yol verirdi. Müasir dövrdə təhsil alanlar dərslərdə əməkdaşlıq edərək aktiv şəkildə dərslərdə iştirak edirlər. Təhsilverən fənni tədris etsə də təhsil alan dərsə qarşı laqeyt olarsa heçbir fayda verməyəcəkdir. Təhsilalanda öyrənmə arzusu olmalidir. Təlim təhsil verən və təhsilalan tərəfindən həyata keçirilən iki tərəfli prosesdir.

Müasir dövrdə təhsilalanlar təhsil verəni dinləməyi bacarmalıdırlar. Məsələn: Dərs zamanı müəllim motivasiya yaradardir, şagir dinləməyi bacararsan motivasiyanın məqsədini anlamış olacaq. Hər bir şagird motivasiya uyğun olaraq müxtəlif fikirlər deyə bilərlər.

Müasir təlim üsullarından istifadə etməklə şagirdlərdə fəallıq yaratmaq mümkündür. Təlim üsulları şagirdlərdə interaktivlik yarada bilir.Interaktiv təlim üsulları şagirdlərdə əməkdaşlıq yaradır,nitq qabiliyyətini və bir çox fəaliyyəti inkişaf edir.

Müasir dövrdə şagirdlər qazanılan bilikləri axtarışlar və kəşflər hesabına mənimsəyə bilirlər. Şagirdlər müstəqil şəkildə axtarışlar, əməkdaşlıq, informasiya mübadiləsi və müzakirəsi edərək yeni məlumatlara yiyələnə bilirlər.

Müasir təlim üsullari dərsin keyfiyyətini artırmağa çox böyük yardımcıdır.Əvvələr şagirdləri iki bilik mənbəyi(müəllim və dərslik)qane edirdisə,indi həmçinin çox saylı məlumat mənbələri onların diqqətini cəlb edir.Müəllim və şagirdlər arasında əks əlaqə yaradilirılır.



Bir çox müasir təlim üsulları mövcuddur.Müasir təlim üsullarından bəzilərini nəzərdən keçirək.

Venn diaqramı: Bu üsul kəsişən iki dairə əsasında qurulur.Dairənin kəsişən hissəsində ortaq əlamətlər yazılmalıdır. Məsələn, şagirdlərə VIII sinifdə kimya fənnindən dtədris olunan "Turşular" mövzusunu keçərkən, sulfat turşusunun və nitrat turşusunun oxşar və fərqli cəhətləri soruşulan bilər.



Venn dioqraminda oxşar olan hissəsinə :Hər iki turşu oksigenli turşudur.

Hər iki turşu normal duz əmələ gətirə bilir. Fərqli hissəsində (Sulfat turşusuna aid) iki əsaslı turşudur,turşduz əmələ gətirə bilir,bəzi duzları suda həll olmur, çöküntü əmələ gətirir. Nitart turşusuna adı hissəyə: Bir əsaslı turşudur, yalnız normal duz əmələ gətirir.Turş duz əmələ gətirmir. Bütün duzları suda həll olur.

Təqdimat üsulu: Müasir dövrdə istifadə olunan mühüm üsullardandir. Müəllim sinifdə şagirdləri qruplara bölə bilər. Hər qrupa müəyyən ad vermək mümkündür. Müəllim ilk öncə təqdimatın növünü və keçirilməsi qaydası ilə sinifdəki şagirdləri təlimatlandirir. Hər qrupun öz aralarında əməkdaşlıq etməklə təqdimatların hazırlayır. Təqdimatlarini müxtəlif formada hazırlaya bilərlər. Sonda Hər qrupun təqdimatı dinlənilir və müzakirə olunur.Şagirdlər təqdimatı hazırlayarkən, həmçinin təqdimatı müzakirə edərkən onlarda əməkdaşlıq,ünsiyyət

Bu metodun fərqliliyi ondadir ki, şagird tədqiqatın nəticəsinə uyğun olaraq müxtəlif yolla təqdim edə bilir.

Karusel:Müəllim dərsdən əvvəl seçilmiş mövzuya uyğun olaraq ağ kağızda(batman) suallar yazir. Dərs zamanı şagirdlər qruplara bölünür. Dərs zamanı müəllim bu kağızı şagirdlərə verir. Kağiz saat istiqamətində bütün qruplara ötürülür. Hər qrupda şagirdlər əməkdaşlıq edərək fikir bölüşür,informasiya mübadiləsi aparırlar. Dərs zamanı bitənə qədər hər qrup öz fikirlərini vərəqdə suallara uyğun olaraq qeyd edirlər. Sonda bütün fikirlər ümumiləşdirilirvə müzakirə edilir. Bu metod digər metodlardan olduğu kimi, şagirdlərdə əməkdaşlıq fəaliyyətinə böyük təsir göstərir.

BiBÖ-(nəyi bilirik, nəyi bilmək istəyirik, nəyi öyrəndik və nəyi öyrənməliyik).Bu metod şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yarada bilir, mövzu, problem barədə düşünür, idrak fəallığı yaranır.Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağidaki hissələri qeyd edir."Nəyi bilirik", "Nəyi bilmək istəyirik", "Nə öyrəndik və hələ nələri öyrənməliyik".

Şagirdlər öncədən mənimsəmiş olduqları bilikləri nəzərdən keçirirlər və öyrənmək, cavabını tapmaq istədiyi məsələləri sualları müəyyənləşdirirlər. Bu məqsədlə müəllim özü və ya şagirdlər cütlər, qruplar halında mətni oxuyur.

Cütlər və ya qruplar mövzu barəsində öncədən onlara məlum olan biliklərinə dair qeydlər aparırlar. Mətn oxunub bitdikdən sonra müəllim ikinci sütundak(nəyi bilmək istəyirik) suallara qayıdır, mətndə sualların cavabları verilibsə, onları üçüncü sütunda qeyd etməyi tapşırılir (Çünki,yeni bir informasiya qəbul etdilər və öyrəndilər).

Şagirdlərin qeydləri dinlənilir, daha düzgün, lazım olan cavablar, uyğun olan sütunlara qeyd olunur. Şagirdlər əvvəlki bilikləri ilə sonrakı bilikləri müqayisə edilərək nəticə çıxara bilirlər.

Ədəbiyyat

1.R.Y.Əliyev, Ə.T.Əzizov. Kimyanij tədrisi metodikası. 1ci və 2ci hissə.Baki Universiteti nəşriyyati.Baki 2005

2.Rəcəb Əliyev, Əyyub Əzizov. Kimyanin tədrisinin prinsipləri, üsulları və priyomlari. Baki nəşriyyatı Universiteti. Baki 2002

3.Rəcəb Əliyev, Əli Əhmədov. Kimya tədrisi üsullarının bəzi məsələləri .Bakı 2002

4.R.Y.Əliyev .Kimya tədrisi üsulların məsələləri.APİ nəşriyyati,Baki 1987

5.R.Babayev.7ci və 8ci siniflərdə kimyada laboratoriya işlərinin təşkili və keçirilməsi. "Maarif" nəşriyyati.Baki 1976
6Ə.N.Xəlilov ,Ə.T.Əzizov.Kimya tədrisi üsulu praktiumu.Baki 2008
7.Aysəba Məmmədova.Kimyanin tədrisində müasir təlim texnologiyalari.Baki,2012
8.Nəzərov.A.M Müasir təlim texnologiyalari.Baki,ADPU 2017
9.Vaqif Abbasov,Mütəllim Abbasov və başqaları.Ümumitəhsil məktəblərinin 7,8,9cu sinifləri üçün dərslik

İbrahimova S.H.
Magistr
Elmi rəhbər: G.Şadlinskaya

İNTERAKTİV ÖYRƏDİCİ TAPŞIRIQLARIN MÜXTƏLİF FORMALARININ BİLİYİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Açar sözlər: *tapşiriq, müqayisə, qiymətləndirici, fəal təlim, kimya, interaktiv forma*
Ключевые слова: *задание, сравнение, оценивающий, активное обучение, химия, интерактивная форма*
Key words: *assignment, comparison, evaluator, active learning, Chemistry, interactive form*

Fəal təlim zamanı istifadə olunan metodlar təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Təlimin, o cümlədən kimya fənni təliminin səmərəli keçməsi onun hansı formada təşkil olunmasından çox asılır. İnteraktiv öyrədici tapşırıqlardan və onların muxtəlif formalarından geniş istifadə olunur [1.]

Təlimin interaktiv forması fəal əlaqə tələb edir ki, iş prosesində müxtəlif üsullardan istifadə olunmaqla şagird-müəllim, müəllim-şagird əlaqələrinin intensivliyiartsın və məqsədə doğru daha inamlı hərəkət yarana bilsin. [1.]

Kimyanın tədrisində istifadəsi əlverişli olan fəal təlim üsullarından biri də **Klaster-şaxələndirmə** üsuludur. Bu üsul hər hansı mövzuüzərində düşünməyə istiqamətləndirən üsuldur. Bu üsulun tətbiqi mövzunun öyrənilməsindən əvvəl şagird təfəkkürünə təkan vermək, onlarda mövzuya maraq oyatmaq, şagirdin dünyagörüşünün hüdudlarını üzə çıxarmaq, fənlərarası əlaqə yaratmaq kimi fəaliyyət növlərinəimkan yaradır.[2.]

Şaxələndirmə metodunu tətbiq etmək üçün aşağıdakılar tələb olunur:

- Şaxələndirmə metodu ona uyğun mövzuya tətbiq edilməlidir.
- Şagirdlər şaxələndirmə prosesini aydın şəkildə təsvir təsəvvür etməlidirlər.
- Mövzunu açmaq üçün onun daxilində ikinci dərəcəli mövzuların qrup daxilində fərdlərə paylanması təmin edilməlidir.
- İştirakçıların qrup daxilində hazırladığı şaxələndirmələrin qrupda birləşdirilməsinə nəzarət edilməlidir.[3.]

Suallar- Müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayışla bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlər xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Sonda alınan klaster müzakirə edilir və ümumiləşdirilmə aparılır və bu mərhələdə aparıldığı üçün daha maraqlı olur. Tənqidi təfəkkür, qavradığı məlumatın şagird tərəfindən yoxlanılması, qiymətləndirilməsi, inkişaf etdirilməsi və tətbiqi prosesi getdikcə inkişaf edir. Faktların yadda saxlanması və müəyyən ideyaların anlaşılması prosesi tənqidi təfəkkürün ilk şərtlərindən biridir. [1.]

Ənənəvi metodlar adətən anlama prosesinin birinci mərhələsi ilə kifayətlənir. Lakin çalışıb sonrakı mərhələlərə də keçmək lazımdır. Tənqidi təfəkkürdə yaradıcı təfəkkürün bir

çox elementləri vardır. Blum taksonomiyası deyilən interaktiv üsul məhz idrak prosesinin səviyyəsini nəzərə alaraq onun qurulması metodikasını təmin edir:

Hafizəni yoxlayan suallar (formal səviyyəli sual) – məlumatın xatırlanmasını nəzərdə tutur.

Qiymətləndirici suallar. Bu tipli sualların qoyuluşu şagirdlərdə rəy və mühakimə yürütmək bacarığını formalaşdırır. Qiymətləndirici suallar müəyyən bir fakta, prosesə görə lehinə, yaxud əleyhinə mühakimə yürütmək tələb edir. «Yaxşıdır, yoxsa pis? Niyə?» kimi suallar qoyula bilər.

Analizedici suallar. Belə suallar ümumi anlayışların kiçik hissələrinin nəzərdən keçirilməsini nəzərdə tutur.Alınmış informasiyanı hissə-hissə analiz etməyə imkan verir.Məsələn, «O nədən ibarətdir?»kimisuallarqoyulabilər.

Sintezedici suallar. Qeyri-adi, orijinal formada qoyulmalıdır. Məsələn, «Təsvir et, müqayisə et, o nə ilə oxşar və ya fərqlidir?» kimi .

Tətbiqi suallar. Belə suallar problemin həll etməyə, ümumiləşdirmə aparmağa imkan yaradır. Tətbiqi suallar şagirdlərə problemləri həll etmək imkanı verir. Aldıqları informasiyanı nə dərəcədə qəbul etdiklərini və əlaqədar problemləri necə həll etdiklərini müəyyən etmək olar. «Ondan necə istifadə edə bilirsiniz?» kimi suallar qoyula bilər. [3.]

Çevirməvəinterpretasiyasualları. Belətərzdəqoyulansuallar informasiyanın yeni formalara çevrilməsini nəzərdə tutur. İdeyalar arasında qarşılıqlı əlaqə yaratmaq imkanı verir. Məsələn: «O sizə nəyi xatırladır?» kimi sual qoyula bilər. Çevirmə suallar şagirddən informasiyanın formasını dəyişməyi tələb edir.İnterpretasiya sualları şagirdlərə faktlar, təriflər və dəyərlər arasında əlaqəni tapmaq üçün verilir.Suallara cavablar sadədən mürəkkəbə doğru ardıcıllıqla verilməlidir. Belə müxtəlif tərzdə qoyulan suallardan daima istifadə etmək lazımdır.

Suallar dərs prosesində tədqiqatların səmərəli qurulmasını da stimullaşdırır və şagirdlərin idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayının 4-5 arasında olması məqsədə uyğundur.Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, məzmunlu və mövzu ilə bilavasitə əlaqəli olmalıdır.

Oksidləşmə-reduksiya reaksiyaları mövzusunu tədris edərkən ;Tədqiqat sualı qoyulurki-Elektron nədir ,Oksidləşdirici nədir ,Reduksiyaedici nədir ,Oksidləşmə reduksiya reaksiyaları nə zaman bizə kömək edir nəyə görə bu mövzunu öyrənməliyik.Bütün bu suallara əsasən mövzu öyrənilir.[4,5,6,7]

İkinci bir üsul kimi **Venn diaqramı üsulunu** təqdim edə bilərik.Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır;

1.Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.

2.Kəsişən dairələr çəkilir –ortada yazmaq üçün yer saxlanılır.

3.Birinci və ikinci dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.

4.Şagirdlər təlimatlandırılır.

5.Müqayisə olunan obyektlər təsvir edilir fərqli cəhətlər sağ və sol tərəfdə oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur.

6.Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

Əşya və hadisələri müqayisə etmək onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur.

Azot və Amonyak mövzusunu tədris edərkən bu üsuldan istifadə edib Azotun və amonyakın oxşar və fərqli cəhətlərini daha tez zamanda şagirdlərin öyrənə bilməsini müşahidə etmək olar.[4,5]

Eyler-Venn diaqramına uyğun ifadələri müəyyən edin:



Azot qazı və Amonyak
1.Litiumla ilə adı şəraitdə reaksiyaya daxil olur.
2.Molekulunda polyar kovalent rabitə sayı 3-ə bərabərdir.
3.Molekulunda qeyri-polyar kovalent rabitə sayı 3-ə bərabərdir.
4.Azot atomu üç valentlidir.
5.Xlorid turşusu ilə reaksiyayya daxil olur.
Cavablar-
Azot aiddir -1,3
Həm azot, həm də amonyaka aiddir -4
Amonyaka aiddir-2, 5

Ədəbiyyat

1. E.Pometyn İnteraktiv təlimensiklopediyası Bakı-2010.
2. A.Məmmədova Ümumi təhsil kurikulumunun əsasları Bakı-2016.
3. İnternet məlumatları.
4. 9-cu sinif məktəb dərslik
5. 9-cu sinifmetodiki vəsait
6. 8-ci sinif dərslik

XÜLASƏ

İnteraktiv öyrədici tapşırıqların müxtəlif formaları məsələn, Venn diaqramı-Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur. Klaster (şaxələndirmə)-Müəllim tərəfndən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yazılmış anlayış ilə bağlı söz və ya ifadələr söyləmək şagirdlərə tapşırılır. Mərkəzdə yazılmış anlayışdan başlayaraq hər növbəti söz onunla əlaqəli sözlər xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur.Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır biliklərin öyrənilməsinə müsbət təsir göstərir.

РЕЗЮМЕ

Различные формы интерактивных учебных задач, такие как диаграммы Венна, используются для сравнения объектов или событий и выявления их сходства и различий.Кластеризация (диверсификация) - учитель рисует круг на доске или листе и просит учащихся произнести слова или фразы, относящиеся к концепции, написанной в центре.Начиная с концепта, написанного в центре, каждое последующее слово соединяется линиями со словами, относящимися к нему.Рекомендуется до окончания времени записать как можно больше идей и согласовать их, по истечении которого полученный кластер обсуждается и резюмируется, что положительно сказывается на изучении знаний.

SUMMARY

Different forms of interactive learning tasks, such as Venn diagrams, are used to compare objects or events and to identify their similarities and differences. Clustering (diversification) - The teacher draws a circle on the board or worksheet and asks students to say words or phrases related to the concept written in the center.Starting with the concept

written in the center, each subsequent word is connected with the words related to it by lines.It is recommended to write down as many ideas as possible before the end of the time and to coordinate them. After the end of the time, the obtained cluster is discussed and summarized, which has a positive effect on the study of knowledge.

Məmmədova Ayişə Sərvər qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MÜASİR DÖVRDƏ KİMYA DƏRSLƏRİNDƏ İNTEQRASİYANIN ƏHƏMİYYƏTİ

Açar sözlər: *interaktiv, informasiya texnologiyası, tədqiqat, elektron dərslik, praktiki, laboratoriya*

Ключевые слова: *интерактивный, информационные технологии, исследования, электронный учебник, прометан, практический, лаборатория*

Key words: *interactive, information technology, research, electronic textbook, practical, laboratory*

Müasir dövrdə qloballaşma prosesinin və inteqrasiya prosesinin sürətləndiyi bir zamanda ictimai-siyasi sahələrdə və eyni zamanda təhsil sahəsində gedən dəyişikliklər şagirdlərin, tələbələrin bacarıqlarının yüksək səviyyədə inkişaf etməsinə gətirib çıxarır.

Təbiət elmləri arasında olduqca mühüm əhəmiyyət malik olan sahələrdən biri də kimya elmidir.

Kimyanin tədrisi prosesində şagirdlərə diqqət və hafizəni olduqca inkişaf etdirə biləcək biliklər verilir. Bəs biz deyə bilərik ki, XXI əsrdə biz müasir dövr tələbələrindən nəyi gözləyirik ?

Məktəb kimya kursunun tədrisində əsas məqsəd şagirdlərdə yeni tədrisin tələblərinə uyğun olan və praktiki tələb edilən bacarıqların formalaşdırılması, inkişafı və düzgün vərdişlərin aşılanmasıdır. Şagirdlərin kimya dərslərində bu tələblərin və vərdişlərin inkişaf etməsinə nail olması kimya tədrisinin ən mühüm məsələsidir. Əgər şagird düzgün düşünə bilməzsə bilik qazana bilməzlər. Şagirdlərin fənni düzgün başa düşməsində müəllimin də əvəzsiz rolu vardır. Çünki hər bir izah,şagirdin fənni düzgün qavramasına səbəb olacaqdır. Müəllim elmi aydın başasalan, şagird və tələbələrinə həssas yanaşan, analitik ideyaları olan və bu ideyaları yaxşı çatdıra bilən bir müəllim olmalıdır. Yaxşı müəllim o müəllimdir ki,şagirdlərə təlim zamanı düzgün bilik versinvə şagird bu qazandıqları bilikləri gələcəkdə bacarığa çevirib və praktikada düzgün tətbiq edə bilsinlər. Tələbələr mənimsədikləri biliklərin möhkəmləndirilməsi uçun müxtəlif üsullardan və metodlardan istifadə edərək biliklərini daha da möhkəmləndirirlər.

Bəzi pedaqoqlar şagirdləri subyekt kimi görur və bunu belə qəbul edirlər.Müəllim elm verən və şagird elmi öyrənən tərəfləri arasında sosial əlaqə şəxsi və fərdi biliklər yaradıcı və emosional təcrubələri ilə böluşmə prosesi zamani yaranır.

Kimya kursu geniş bölmə olduğundan onun tədrisi üçün genişləndirilmiş dərs saatları tələb edilir ki, bu da proqramı daha yaxşı qavramağa səbəb olur. Hər şagirdin dərketmə və qavrama səviyyəsi müxtlifdir. Müəllim dərsi eyni cür tədris etsə də dinləyən qavrama səviyyəsinin müxtəlifliyindən hər biri müxtəlif dərəcədə biliyə yiyələnəcəkdir. Şagirdlərin anlama qabiliyyəti müxtəlif olduğundan kursun tədrisi zamanı müəllim şagirdlərin hər birininə fərdi olaraq, yəni ayrı-ayrılıqda bir fərd kimi yanaşır tədris prosesində şagirdlərdə yeni bacariqlar formalaşır, zehni inkişaf edir.

Düzgün qurulmuş şagird, tələbə-müəllim münasibətləri şagirdlərin təlimə marağının artmasında vacib rol oynayır. Qarşılıqlı ünsiyyət prosesi zamanı şagirdlərin fəallığı artır.

Müəllim həmçinin dərsin tədris prosesi zamanı yeni asan və asan qavranılan təlim üsulu tapmalıdır ki, şagirdlərin zehninə birbaşa təsir göstərə bilsin.

Məktəb kimya kursunu yaxşi mənimsəyən şagird praktiki həyata keçdikdə daha çətinlik çəkməyəcək, gələcəkdə işlədiyi sahənin proseslərini tez mənimsəyib və istehsalatın səmərələşdirmək üsulunu tapa biləcəkdir.

Kimyanın tədrisi prosesində şagirdlərə tədris edilən mövzu ilə bağlı mövzu testləri, mövzuya aid məsəl həlli, həmçinin müstəqil və dərsdənxaric işlərin aparılması prosesləri ilə şagirdlərdə tədqiqatçılıq keyfiyyətlərinin formalaşdırılması mümkündür.

Şagirdlərin apardığı praktiki təcrübələri zamanı praktik vərdişlər formalaşır ,onların gələcəkdə tam bir mütəxəssis kimi habelə, tam bir kimyaçı kimi yetişməsində böyuk rol oynayır. Müəllim şagirdlərin müstəqil bir fərd və şəxsiyyət kimi formalaşmasında və yaradıcı fəaliyyət göstərməsində olduqca mühüm rol oynayır.

Təhsilin inkişaf strategiyasında mühüm irəliləyişlərə nail olan ölkələrin təcrübəsi göstərir ki, müasir təlim texnologiyalarından, fəal-interaktiv təlim metodlarından peşəkarcasına istifadə edə bilən, yaradıcı düşüncə tərzini inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə ala bilən müəllim keçirilən dərsin tədrisi zamanı təlim məqsədlərinin düzgün reallaşdırılması zamanı daha yüksək nəticələr əldə ediləcəkdir.

Kimya kursunun şagirdlərə çatdırılması zamanı onların daha yüksək nəticə əldə etməsi üçün tədris zamanı hər bir fənn maksimum şəkildə bir-biri ilə əlaqələndirilməli, eyni zamanda təlim prosesi təcrübə və inteqrativ əsaslığa malik olmalıdır. Çünki, müasir təlimdə inteqrativlik dərslərin əlaqəli tədrisinin başlıca açarı hesab edilir.

Inteqrasiya prosesinin həm fəndaxili, həmdə fənlərarası növləri mövcuddur. Bu inteqrasiya modellərindən fənlərin məzmunun şagirdlərə çatdırılması, onlarda düzgün bacarıqvə vərdişlərin formalaşdırılması, öyrənmə prosesinə maraq yaradılması, şagirdin dünya görüşünün inkişaf etdirilməsi və eyni zamanda şagirdlərin dərsin gedişi zamanı daha fəal olması məqsədi ilə də istifadə olunur. Mütəxəssislər ümumtəhsildə inteqrasiyanın aparılmasının elmi və metodik araşdırmaların təşkilini istisna etmədən praktik fəaliyyətin nəzəri-pedaqoji əsaslarının öyrənilməsini olduqca vacib sayırlar. İndi isə inteürasiyanın əsas mahiyyətinə və nədən ibarət olduğuna nəzər yetirək .

Şagirdlərdə müxtəlif qabiliyyət və yönlərin vaxtında üzə çıxarılması, möhkəmləndirilməsi və eyni zamanda verilmiş materialın şüurlu sürətdə mənimsədilməsi və onların idrak qabiliyyətlərinin inkişaf etdirilməsi üçün təlimin inteqrasiyası olduqca vacibdir. “Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)”nda təhsilin inteqrativliyi əsas prinsip kimi nəzərdə tutulubdurdur.

Milli kurikulum təhsildə fəndaxili və fənlərarası inteqrasiyaya xüsusi önəm verir. Müxtəlif sahələr üzrə biliklərin inteqrasiyası şagird təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşün formalaşmasına olduqca böyük kömək edir.

Fənlərarası inteqrasiya bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etməklə təlim prosesinin səmərəliliyinin artırılmasına şərait yaradır. Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə, əlaqə deyil, inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə şərait yaradır. Müəllimlər pedaqoji prosesdə ondan daha səmərəli qaydada istifadə etmək imkanı qazanırlar. Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır.

Kimyanın tədrisi prosesində aparılan eksperimental məsələlər, nümayiş təcrübələri, praktiki işlər və laborator təcrübələr şagirdlərdə kimyaya aid biliklərin mənimsənilməsi və geniş dünyagörüşünün formalaşdırılmasını təmin etməklə yanaşı onlar üçün zəruri olan bacarıq və vərdişlər də aşılayır.

Buna görə də hər bir müəllim kimya dərslərində imkan daxilində nümayiş və laboratoriya təcrübələrinən bacardığı qədər geniş istifadə etməlidir.Təcrübə işlərində hər hansı axtarış işinin yerinə yetirilməsi şagirdlərin biliyinin ümumiləşdirilməsinə onların praktiki həyata hazırlanmasına yaxından köməklik göstərir. Eyni zamanda şagirdlər arasında yaradıcılıq münasibətlərin fəallaşdırılması və yoldaşlıq münasibətlərin inkişaf etdirilməsi üçün laborator təcrübələr vasitəyə çevrilir.

Bütün məktəblərdə şagirdlərin bəzilərində kimya fənninin tədrisi prosesindən olduqca çətinlik çəkir. Bunun əksinə isə, fənni sevən şagirdlərin sayi nisbətən azlıq təşkil edir. Bu hadisə isə kimya müəllimi üçün çətinlik yaradır və buna görədir ki ,ilk növbədə fənnin tədrisində məqsəd şagirdlərdə bu fənnə maraq yaratmaqdır ki, tədris prosesində keyfiyyət artsın və yüksək nəticə əldə edilə bilsin.

Ədəbiyyat

1.1.Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: "Mütərcim", 2006,370səh.

2.Əliyev R. Kimya tədrisi üsulunun bəzi məsələləri. Bakı: Poliqraf Nəşriyyatı, 1987, 162 s.

3.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı: Aspoliqraf Nəşriyyatı, 2013, 168 s.

Qasımova Kəmalə Mahir qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: k.ü.f.d., dosent Məmmədova Aysəba Zakir qızı

TƏHSİLALANLARIN BACARIQ VƏ VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASINDA KİMYA EKSPERİMENTİNİN ROLU

Açar sözlər: *eksperiment, kurikulum, laboratoriya təcrübələri, praktik iş virtual eksperiment, maddə, fiziki və kimyəvi hadisə, konstruktiv və intellektual bacarıqlar*

Ключевые слова: *эксперимент, курикулум, лабораторные испытания, виртуальный эксперимент практическая работа, вещество, физико-химическое событие, конструктивные и интеллектуальные навыки*

Key words: *experiment, curriculum, laboratory experiments, virtual experiment of practical work, item, physical and chemical event, constructive and intellectual skills*

Müasir təhsil sistemində qarşıya qoyulan əsas məqsədlərdən biri təhsilalanlara təkcə bilik vermək yox, həmçinin onların vacib praktik bacarıq və vərdişlərə yiyələnmələrinə nail olmaq lazımdır. İstər ümumtəhsil, istərsə də orta peşə-ixtisas təhsili üzrə təhsilalanların bacarıq və vərdişlərinin inkişaf etdirilməsində kimya eksperimentinin rolu böyükdür. Hazırda tədrisdə istifadə edilən kimya fəni kurikulumunun məzmun xətlərindən birinin "Eksperiment və modelləşdirmə" kimi verilməsi də bu işdə hər iki metodun vacibliyini göstərir [1]. Təhsilalanlar dedikdə ümumtəhsil məktəbləri üçün şagirdlər, orta peşə-ixtisas təhsili (kolleclər) üçün isə tələbələr nəzərdə tutulur.

Kimya eksperimentinin tədris metodu kimi dəyərləndirilməsi onun imkanlarının əhatəliliyindən irəli gəlir Təlim-tədris-tərbiyə prosesində kimya eksperimentinin müxtəlif növlərindən istifadə etməklə təhsilalanlarda gələcək fəaliyyətləri üçün vacib olan bacarıq və vərdişlər formalaşdırmaq mümkündür.

Kimya eksperimentinin müasir sisteminə aşağıdakıları aid etmək olar [2-4]:

- Nümayiş təcrübələri
- Laboratoriya təcrübələri
- Praktik iş

- Eksperimental məsələ həlli
- Tədqiqat xarakterli eksperiment
- Virtual eksperiment
- Ev eksperiment
- Əyləncəli eksperiment

Nümayiş təcrübələri əsasən yeni materialın öyrənilməsi zamanı maddələr, hadisələr və proseslər barədə konkret təsəvvür əldə etmək və sonra kimyəvi anlayışları formalaşdırmaq məqsədilə şagird və tələbələrin iştirakı ilə müəllim tərəfindən aparılır. Nəzəri məlumatların təcrübə vasitəsilə əyani şəkildə göstərilməsi nəticəsində təhsilalanların idrak fəaliyyətlərinin inkişaf etdirilməsi ilə onların mövzuya aid tədris materialını tam mənimsənilmələrinə nail olmaq mümkündür.

Laboratoriya təcrübələri müstəqil iş üsullarına aiddir və yeni bilik və bacarıqların mənimsənilməsinə xidmət edir. Bu təcrübələr dərsin istənilən mərhələsində aparıla bilər. Tələbələr təcrübələri müstəqil olaraq aparırlar və onlarda eksperimental bacarıq və vərdişlər formalaşır. Laboratoriya təcrübələri maddələrin fiziki, kimyəvi xassələrinin öyrənilməsi, eləcə də nəzəri biliklərin konkretləşdirilməsi ilə yeni biliklərin əldə olunması məqsədi ilə aparılır. İcra edilən əməliyyatlar müəyyən qədər tədqiqat xarakteri daşıdığına görə məktəblilərin idrak fəaliyyəti inkişaf edir. Laboratoriya təcrübələrinin fərdi iş formasında aparılması məqsədə uyğundur. Belə olduqda hər bir icraçının müstəqilliyi, fəallığı təmin olunur.

Praktiki iş də müstəqil işə aid olmaqla hər hansı bir bölmənin sonunda bilik və bacarıqların möhkəmləndirilməsi məqsədilə aparılır. Praktiki işin icrasında məktəblilərdə eksperimental bacarıq və vərdişləri bir daha təkmilləşir və formalaşır. Kimya eksperimentinin bu növü bir dərs saatında yerinə yetirilir və müəllim əvvəlcədən tələbələrə evdə öyrənmək üçün müvafiq tapşırıqlar verir. Bu baxımdan da praktiki iş tamamilə müstəqil olaraq yerinə yetirilir, müşahidə edilən hadisə və proseslərin nəticələrinə aid hesabat tərtib olunur. İlk növbədə məktəblilər bir daha təlimatla tanış olurlar və müəllim eksperiment üçün qoyulan tələblərə riayət olunmasına nəzarət edir.

Eksperimental məsələ həlli də müstəqil iş üsullarına aiddir. Bu işdə tələbələrin özlərinin müstəqil seçimi ilə müəyyən məsələlərin eksperiment vasitəsilə həlli tələb olunur. Bu zaman onlar nəzəri biliklərini fəal olaraq tətbiq etməklə yanaşı, təcrübələri aparmaq bacarığına da malik olmalıdırlar. Eksperimental məsələnin əsas məqsədi müxtəlif tədqiqatlar üçün vacib olan nəzəri biliklərin praktikaya tətbiqi ilə əlaqədar tapşırıqlar sistemi hazırlamaq və eləcədə, eksperimental bacarıq vərdişlər müəyyənləşdirməkdən ibarətdir. Laboratoriya təcrübələri və praktik işlərdən fərqli olaraq eksperimental məsələ həlli kimyanın tədrisinin bütün müddətlərində, hər bir dərsdə eləcə də ev şəraitində yeni materialın öyrənilməsi, möhkəmləndirilməsi və biliklərin yoxlanılması məqsədilə yerini yetirilə bilir. Bu işin icrasını fərdi, qruplarla və kollektiv formata təşkil etmək olar.

Eksperimental məsələ həllini məzmunca aşağıdakı kimi qruplaşdırmaq olar.

Tapşırıqlar :

- Fiziki və kimyəvi hadisəni müşahidə etmək və mahiyyətini izah etmək.
- Maddənin sintezini həyata keçirmək və baş verən reaksiyanın getməsi şəraitini müəyyənləşdirmək.
- Maddələri tanımaq və onların xarakterik xassələrini şərh etmək.
- Maddələrin keyfiyyət tərkibini müəyyənləşdirmək və onlarının xassələrini xarakterizə etmək.
- Verilən maddədəki kənar qarışığı müəyyən etmək və bu məqsədlə hansı üsulun seçilməsi səbəbini aydınlaşdırmaq.
- Maddənin qarışıqlardan təmiz halda ayırmaq və bu zaman hansı ayrılma üsulunun seçilməsinin səbəbini aydınlaşdırmaq.

- Maddələrin təsnifatını mükəmməlləşdirmək və onların hansı əlamətlərə görə təsnif edilməsini aydınlaşdırmaq.
- Xarakterik reaksiyalar aparmaq və onların özünəməxsusluğunu izah etmək.
- Müxtəlif kütlə nisbətlərində məhlullar hazırlamaq və hazırlanma qaydasını izah etmək.
- Yerinə yetirilməsi dərin bilik, mükəmməl bacarıq və vərdiş tələb edən kombinə edilmiş (qarışıq) məsələlər.

Eksperimental məsələlər keyfiyyət və eksperimental-hesablama məsələləri kimi təsnif edilir.

Keyfiyyət məsələləri təcrübə yolu ilə həll edilir, bu halda kəmiyyət göstəriciləri və riyazi hesablama aparmaq tələb olunmur. Eksperimental-hesablama məsələ həllində təcrübələrin aparılması ilə yanaşı, alınan nəticələrin riyazi hesablanması əməliyyatı da həyata keçirilir.

Tədqiqat xarakterli eksperimentdə əsas məqsəd təlim-tədris-tərbiyə prosesində daxili motivasiyanı yüksəltmək və idrak marağı inkişaf etdirməkdir. Bu tip eksperimenti həm dərsdə, həm də dərsdən kənar tədbirlərdə həyata keçirmək olar.

Virtual eksperiment təcrübələrin təlimin müasir texniki vasitələri ilə nümayiş etdirilməsidir. Təhlükəli kimyəvi təcrübələrin laboratoriyada aparılmasına imkan olmadıqda, reaktiv və avadanlıqlar çatışmadıqda bu eksperiment növündən istifadə etmək səmərəlidir.

Ev şəraitində əldə edilməsi asan olan reaktiv və avadanlıqlardan istifadə edilməklə məktəblilərin müstəqil olaraq apardıqları təcrübələr toplusu ev eksperimenti kimi adlandırılır.

Əyləncəli eksperiment – idraki marağı artırmaq üçün müəyyən məqsədi və ümumiliyi olan eksperimentlər sistemidir. Əsas məqsədi – geniş əyləncəli nümayiş təcrübələrindən istifadə etməklə kimya elmi ilə tanışlıq, təhsilalanların kimyanı öyrənmələrinə maraqlandırılmasıdır.

Bütün növ eksperimentlərin aparılması üçün əyanilik, sadəlik, təhlükəsizlik, etibarlılıq və s. kimi tələblərə əməl olunmalıdır.

Kimya eksperimentinin aparılması nəticəsində təhsilalanların yiyələndikləri bacarıq və vərdişləri aşağıdakı kimi qruplaşdırmaq olar [5]:

1. Təşkilatı bacarıq və vərdişlər:
- eksperimentin planlaşdırılması;
- reaktiv və avadanlıqların seçilməsi;
- işin icrası zamanı vaxta, metod, vasitə və qaydalara düzgün əməl edilməsi;
- özünənəzarətin olması;
- iş yerinin təmizliyi və səliqəliliyi;
- İş prosesində müstəqillik.
2. Texniki bacarıq və vərdişlər:
- reaktiv və avadanlıqlarla davranmaq;
- hazır hissələrdən cihaz quraşdırmaq;
- kimyəvi əməliyyatları yerinə yetirmək;
- təhlükəsizlik texnikası qaydalarına riayət etmək.
3. Ölçmə bacarıq və vərdişləri:
- maye və qazların həcminin ölçülməsi;
- müxtəlif növ tərəzilərdə maddələrin çəkisinin təyin edilməsi;
- mayelərin sıxlıq və temperaturlarının təyini;
- ölçmələrin nəticələrinin müəyyənləşdirilməsi.
4. İntellektual bacarıq və vərdişlər:
- eksperimentin məqsədinin dəqiqləşdirilməsi və vəzifəsinin müəyyənləşdirilməsi;
- fərziyyələrin irəli sürülməsi;
- malik olduğu biliklərindən istifadə edə bilməsi;
- müşahidə edilən hadisə və proseslərin təsviri;
- eksperimentin nəticələrinin təhlili;

- səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi;
- nəticələrin ümumiləşdirilməsi.

5. Konstruktiv bacarıq və vərdişlər:

- avadanlıq, cihaz və qurğuların təmiri;
- avadanlıq. cihaz və qurğuların təkmilləşdirilməsi;
- müvafiq avadanlıq, cihaz və qurğuların hazırlanması;
- avadanlıq, cihaz və qurğuların sxem və şəkil formasında qrafiki təsviri.

Sadalanan bacarıq və vərdişlər kimyanın tədrisi prosesinin müvafiq mərhələlərində müxtəlif xarakterli eksperimentlərin həyata keçirilməsi zamanı əldə edilir.

Ədəbiyyat

1. M.M.Abbasov, A.H.Əliyev, M.S.Fərəcov, V.S.Əliyev. Ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu) (VII-XI siniflər üçün) "Kimya məktəbdə jurnalı" 2-3 (46-47) 2014, s. 4-148.
2. R.Y.Əliyev, Ə.T.Əzizov "Bakı Universiteti nəşriyyatı" II hissə, 2006, 393 s.
3. Ə.N.Qurbanov, A.Z.Məmmədova, G.V.Şadlinskaya. Kimyanın tədrisi metodikası. Bakı, 2014, 461s.
4. С.С.Космодемьянская, С.И.Гильманшина. Методика обучения химии. Казан 2011, 135 с.
5. https://infourok.ru/soobschenie-po-teme-himicheskiy-eksperement-v-shkole-2371127.html

РЕЗЮМЕ

В статье кратко изложена сущность видов химических экспериментов и представлена информация об их роли в формировании навыков и привычек обучаемых. Отмечено, что любой тип химического эксперимента, который проводится должным образом с соблюдением требований, несет исключительную важность для развития познавательной активности учащихся и формирования у них навыков и привычек. Наконец, дается система навыков и привычек, приобретенных студентами в ходе химического эксперимента.

SUMMARY

The article briefly describes the nature of the types of chemical experiments, and provides information on the role of trainees in shaping their skills and habits. It is noted that every kind of chemistry experiment, properly organized with the appropriate requirements, is of exceptional importance for the development of cognitive activities of students and their skills and habits. Finally, a system of skills and habits acquired by students during the chemistry experiment is given.

Məmmədəlizadə Fərid Rizvan oğlu
Elmi rəhbərlər: dos. Sona İmanova

AZƏRBAYCAN VƏ ESTONİYADA KURİKULUM TƏLİM METODU VASİTƏSİLƏ COĞRAFİYANIN TƏDRİSİNİN TƏŞKİLİNİN QURULUŞ VƏ MƏZMUNCA MÜQAYİSƏLİ TƏHLİLİ

Açar sözlər: *kurikulum, coğrafiyanın tədrisi metodikası, müqayisəli təhlil*

Ключевые слова: *куррикулум, методике преподавания география, сравнительный анализ*

Key words: *curriculum, methodology of teaching geography, comparative analysis*

Müqayisəli metodla aparılan araşdırılmalarda əsas nüans müqayisə tərəflərini əvvəlcə aydınlaşdırmaq və müqayisə üçün düzgün zəmin yaratmaqdır. Biz bu məqalədə iki ölkənin

milli coğrafiya kurikulumlarını məzmunca və quruluşca müqayisə edəcik. Bunun üçün də məqaləni 3 başlıq altında yazmağı daha optimal hesab edirik:

1) Azərbaycanda coğrafiya kurikulumunun qısa tarixi, məzmunu, strukturu;
2) Estoniyada coğrafiya kurikulumunun qısa tarixi, məzmunu, strukturu;
3) Məzmun və quruluşca müqayisə olunankurikulumlardan çıxan nəticələr və onların coğrafiyanın tədrisinin təşkilindəki rolu.

Kurikulumlar məzmunca və strukturca dünyada tətbiq olunan ölkələrdə bir xeyli fərqlər özündə ehtiva edir. Bunun səbəbi ölkələrin milli təhsil siyasəti, kulturoloji xüsusiyyətləri, regional və məhəlli xüsusiyyətləri və s. Müqayisə olunan bu iki ölkənin kurikulum təlim metodunu tətbiqetmə xüsusiyyətləri, kurikulum tarixçəsi, kurikulum sənədlərinin məzmunu və quruluşu bir-birindən fərqlənir.

1) Azərbaycanda coğrafiya kurikulumununqısa tarixi, məzmunu, strukturu, Azərbaycan Respublikasının Ümumtəhsil orta məktəblərini üçün coğrafiya fənni üzrə təhsil kurikulumu (**VI-XI siniflər)** 2013-cü ildə yaradılmışdır. Kurikulumun quruluşu 3 hissədən ibarət olub, biz bu məqalədə "coğrafiya təliminin məzmunu"ndan danışacağıq. **Coğrafiya təliminin məzmunu özlüyündə 6 hissədən ibarətdir:**

1) Ümumi təlim nəticələri
2) Məzmun xətləri
3) Məzmun xətləri üzrə təlim nəticələri
4) Fəaliyyət xətləri
5) Məzmun standartları
6) Fəndaxili və fənlərarası inteqrasiya

Bizim bu məqalədə müqayisə obyektlərimiz məzmun xətləri və məzmun standartları olduğu üçün əvvəlcə, onları qeyd etmək lazımdır. Coğrafiya fənni üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün məzmun xətləri aşağıdakı kimi müəyyən edilmişdir: Coğrafi məkan - Təbiət - Cəmiyyət

Azərbaycanda orta məktəblərdə iki pillə - ümumi orta təhsil səviyyəsi (1-9) və tam orta təhsil səviyyəsi (10-11) vardır. Bu səbəblə məzmun xətləri üzrə təlim nəticələri hər ikisi üçün fərqlidir. Azərbaycanda coğrafiya dərsləri 6-ci sinifdən başlayaraq, 11-ci sinifə qədər davam edir. Əvvəlki, dərsliklərin quruluşu ilə indiki dərsliklər bir-birindən kəskin fərqlənir. Yeni dərsliklərə dövrün tələbinə uyğun olaraq, yeni məlumatlar daxil edilir və kurikulumun məzmunu tətbiqi aydınca hiss olunur.

Ümumilikdə, 3 məzmun xətlərinə uyğun olaraq, 6 əsas standart var. Onlardan 3-ü "Coğrafi məkan" məzmun xəttinin, 1-i "Təbiət" məzmun xəttinin, 2-si isə "Cəmiyyət" məzmun xəttinə aiddir. Əsas standartlardan əlavə alt standartlar da var. Əsas standartlardan fərqli olaraq, alt standartlar siniflər üzrə dəyişiklik edir. Lakin əsas standartlar dəyişmir. Bu əsnada onu vurğulamaq lazımdır ki, köhnə dərsliklərdə məzmun xətləri və standartları bəzi siniflərdə ümumiyyətlə, olmaya bilirdi. İndiki dərsliklərdə bütün əsas standartlar hər bir sinif üzrə öz yerini tutur.

Ümumilikdə, Azərbaycanla bağlı hissəni yekunlaşdıraraq, onu demək olar ki, məzmun xətləri dediyimiz bu quruluş azərbaycanlı məktəblinin coğrafi biliyini, dünyagörüşünü gələcək perspektivlər üçün yetərincə əhatə edir. Hər kəs akademik yöndə coğrafi sahələr üzrə davam etməsə belə, ümumitəhsil prinsiplərinə uyğun olaraq, şagird lazımi coğrafi bilikləri ala bilir. Düzdür, dərsliklərə əlavə olunmalı və çıxarılmalı nüanslar ola bilər. Bunun üçün məqalədə növbəti olaraq, Estoniyanın milli coğrafi kurikulumu haqqında məlumatlar verildikdən sonra, hər iki ölkənin bir-birindən nələr mübadilə edə biləcəkləri haqqında müqayisəli-analitik bir dəyərləndirmə olacaq.

2) Estoniyada coğrafiya kurikulumunun qısa tarixi,məzmunu və quruluşu

Estoniya da Azərbaycan kimi post-sovet ölkəsidir və tarixi-inkişaf yolunda eyni çətinlikləri çəkmişlərdir. Sovet təhsil sistemi və coğrafiya dərslərinin quruluşu hər iki ölkə üçün

ilkin mənbə olmuşdur. Lakin müstəqillikdən sonra Estoniya sürətlə elmi, mədəni, texnoloji inqilablar edə bilmişdir. 1996-cı ildə milli kurikulumlar yaranmağa başladı. Təbii ki, yaranma və tətbiq məsələsi hər zaman fərqli olmuşdur. Kurikulumlar zamanla təkmilləşdilər. 2002-ci ildə ilk milli kurikulum sənədləri yaranmağa başladı. 2010-ci ildə yaranan "yeni milli kurikulum" (Gümnaasiumiriiklikõppekava, 2010) yeni dəyişikliklər əmələ gətirdi. Bizdən fərqli olaraq, Estoniyada orta təhsil 12 illikdir və 1-dən 9-a qədər "basiceducation" (põhiharidus) adlanır. Daha sonra şagirdin seçimindən və qiymətləndirməsindən asılı olaraq, "generalup persecondary schools" (10-12) (ümumi üst-orta məktəblər) və ya "vocational schools" (peşə məktəbləri) lara davam edə bilər. Bunun üçün də Estoniyada iki kurikulum mövcuddur:

1) Nationalcurriculaforbasicschools (06.01.2011)
2) Nationalcurriculaforuppersecondaryschool (06.01.2011)

Hər iki kurikulum sənədinin 4-cü əlavəsində (Appendix 4) "Təbiət elmləri" bölməsi yer tutur. Bu əlavə özündə 4 disiplini əhatə edir: Biologiya,Coğrafiya,Fizika,Kimya.Şagirdlər 1-ci sinifdən 7-ci sinifə qədər Təbiət elmlərinə aid ümumi bilikləri qazandıqdan sonra təməl məktəblərin (basicschools) 3-cü pilləsində (7-9-cu siniflər) Coğrafiya və Biologiyanın tədrisinə başlayırlar.

Kurikulum sənədinin 4-cü əlavəsinin 2.3-cü hissəsi "Coğrafiya" ilə bağlıdır.

Coğrafiya hissəsi ibarətdir:

2.3.1 - Learning and EducationalObjectives (Təlim və Təhsil hədəfləri)

2.3.2 - Subjectdescription (Mövzu təsviri)

2.3.3 - Learning and EducationalOutcomesinthe 3rd Stage of Study (Tədrisin 3-cü pilləsində təlim və təhsil nəticələri)

2.3.4 - LearningOutcomes and LearningContentinthe 3rd Stage of Study (Tədrisin 3-cü pilləsində təlim nəticələri və məzmunu)Eston məktəbliləri 9-cu sinifi bitirdikdən sonra növbəti 3 illik "General uppersecondaryschools" (Ümumi üst-orta məktəblər) davam edə bilirlər. Üst-orta məktəblərin kurikulum proqramı sənədi təməl orta məktəblərdən fərqlidir.

3) Məzmun və quruluşca müqayisə olunan kurikulumlardan çıxan nəticələr və onların coğrafiyanın tədrisinin təşkilindəki roluTədrisin təşkili bir çox parametrlərdən asılıdır. Bura infrastrukturdan tutmuş, təlim metoduna qədər hər şey daxildir. Bu məqalənin imkanları daxilində biz hər iki ölkənin kurikulum təlim proqramlarını necə tərtib etdiklərini qısa bir formada qeyd etdik. Bu təlim proqramının məzmun və quruluşunun fərqli cəhətləri hər iki ölkənin şagirdləri üçün fərqli təlim nəticələri yarada bilir. Əvvəlcə, onu qeyd etmək istəyirəm ki, hər iki ölkədəki kurikulumlarnəticəyönümlüdür. Lakin, tətbiqolunmada yaranan problemlərdən ötrü (bunlardan ən əsası müəllimlərin kurikulum təlim metodunu bilməmək-ləri) nəticəyönümlü olan bu kurikulum proqramları bəzən yetəri nəticə verə bilmir.

Bu problem ayrıca bir məqalənin mövzusudur. Biz burda iki ölkənin coğrafiya kurrikulumlarını müqayisə edəcik.

Hər iki kurikulum proqramları haqqında tanışlıqdan sonra, ilkin olaraq, onu görürük ki,həm quruluşca, həm də məzmunca ortaq və ortaq olmayan cəhətlər vardır. Bizdəki "Ümumi təlim nəticələri" onların "Təlim və təhsil hədəfləri" və "Tədrisin müvafiq pillələrində təlim və təhsil nəticələri" punktları ilə oxşarlıqları eynidir. Hər iki punktda şagirdin müvafiq sinifləri bitirdikdən sonra hansı coğrafi bilik və bacarıqları qazana biləcəyindən bəhs edir.Eyni şəkildə bizim kurikulumlarda da ümumi orta və tam orta məktəblərin ümumi təlim nəticələri ayrı-ayrı qeyd olunur. Estoniyada da yuxarıda bəhs etdiyimiz kimi iki ayrı kurikulum sənədi vardır və müvafiq olaraq, təməl məktəblərlə ümumi yüksək-orta məktəblərin coğrafiya kurikulumlarında ümumi təlim nəticələri fərqlidir.

"Mövzu təsviri" bölümü birbaşa hansısa punktumuzla uyğunluq daşımasa da , burada coğrafiyanın fənlərarası inteqrasiyasından və coğrafiyanın ümumilikdə, təsvirindən söhbət açmaq olar. 2.3.4 punktu bizim məzmun standartları punktuna oxşasa da, burada müvafiq 3 sinif üzrə (7-9) kurs bölgüsü olmadan bütün tədris vahidləri verilir.Tədris vahidləri təlim nəticələri, təlimin məzmunu, anlayışlar və praktiki iş və İKT-dən istifadə punktlarına bölünür.

Lakin, “general uppersecondaryschools”lar üçün bizdəki kimi məzmun xətləri və standartlarına oxşar bir tipologiyadan bəhs etmək olar. Burda “course” termini işlədilmişdir və yüksək-orta məktəblərdə coğrafiya təlimi 3 kursa bölünür: “population and economy” (əhali və iqtisadiyyat,), “systemEarth” (Yer kürəsi sistemi), “nationalresources and theirmanagement” (təbii resurslar və onların menecmenti)

Bu 3 kurs başlığı altında “basicschools”larda gördüyümüz kimi tədris vahidləri verilir.

1)Əhali və iqtisadiyyat:

coğrafiyanın tarixi və metodları,qloballaşmanın və sosiumların inkişafı,əhali,məskunlaşmalar,qlobal iqtisadiyyatda dəyişikliklər

2)Yer kürəsi sistemi

Giriş, litosfer,atmosfer, hidrosfer, biosfer

3)Təbii resurlar və onların menecmenti

Kənd təsərrüfatı və ətraf mühit problemləri,meşəmenecmenti,meşəçilik və ətraf mühit problemləri,enerji və ətraf mühit problemləri

Və burda gördüyünüz hər bir mövzu başlığı üçün təlim nəticəsi, məzmunu, anlayışlar, praktiki iş və İKT-dən istifadə punktları var.

Ümumiyyətlə, qeyd etmək istəyərdik ki, Estoniyada bizdəki anlamda “məzmun xətləri və məzmun standartları anlayışı” yoxdur. Bizdə kurikulum sənədində həm sinif üzrə təlim nəticələri, həm hər bir sinif üçün məzmun xətləri üzrə məzmun standartları və alt-standartları verilir. Eləcə, metodik vəsaitlərdə hər bir tədris vahidi üçün və mövzu üçün ayrıca alt standartlar verilir. Bizdəki kimi məzmun xətti anlayışı formalaşmadığı üçün siniflər üzrə Estoniyada hansı məzmun xətlərinin və məzmun standartlarının olması qeyri-müəyyən müqayisə kimi yaranır.

Quruluşları müqayisə olunan kurikulumlardan çıxan əsas nəticələr:

1) Coğrafiya təlimin məzmununda ümumi təlim nəticələri hər iki kurikulum üçün mövcuddur.

2) Coğrafiya təliminin məzmununda Estoniyada məzmun xətləri və məzmun xətləri üzrə təlim nəticələri ayırd edilməmişdir, bunun əvəzinə tədris vahidləri qeyd olunmuş və hər bir tədris vahidi üçün məzmun və nəticələr formalaşdırılmışdır.

3) Fəaliyyət xəttləri Estoniya “Milli Kurikulum”unun Coğrafiya əlavəsində formalaşmamışdır.

4) Məzmun standartları daha çox tədris vahidlərinin “təlim məzmunu” və “təlim nəticəsi” punktlarına uyğun gəldiyi təqdirdə belə, konkret qarşılığını ala bilmir.

5) Fənlərarası və fəndaxili inteqrasiya Eston “Milli Kurikulum”unun Coğrafiya əlavəsində “Mövzu təsviri” bölməsində qeyd olunur.

6) Estoniyada hər bir tədris vahidi üçün tətbiq olunan İKT-dən istifadə punktu bizim kurikulumdaheçbir standart formasında təşəkkül tapmır.

Quruluşun hər bir ölkədə fərqli-fərqli olmağı çox təbii prosesdir. Əsas məsələ, məzmunla bağlıdır. Coğrafiya təlimin məzmunu iki ölkədə də öyrənilən tədris vahidlərini qarşılaşdırası olunanda bəzi fərqlər ortaya çıxa bilir.

Tədris vahidləri bizə coğrafiyanın siniflər üzrə məzmunu haqqında məlumat verir. Məzmun xətləri və onun standartlarının hər sinifdə yer alması üçün eyni tip tədris vahidləri bir neçə sinifdə müxtəlif ağırlıq dərəcələrində qeyd olunur. Estoniyanın təqdim olunan tədris vahidləri bizə Azərbaycanın bir öncəki nəsil coğrafiya kitablarının məzmununu xatırladır. Bizdə indi kurikulum təlim metodundakı məzmun xətlərinin paylanması prinsipi üstün tutulduğu halda analoji məzmun xətləri ilə davam etsək, görərik ki, Estoniyanın tədris kitabları müvafiq məzmun xətləri və standartlarını hər bir sinifdə təkrarlamır. Bizim əvvəlki dərsliklərdə tendensiya hər bir sinif üzrə ayrı bir disiplini ələ almaq idisə, indi bir disiplini müxtəlif siniflərə müxtəlif ağırlıqlarda paylama ilə özünü büruzə verir.

Məzmunları müqayisə olunan kurikulumlardan çıxan nəticələr:

1) Məzmun cəhətdən fərqli olan Estoniyada coğrafi mövqe və iqtisadi olaraq vacib olan meşəçilik və meşələrin idarə olunması tədris vahidlərində daha qabarıq hiss olunur.

2) Estoniya Azərbaycandan fərqli olaraq, Avropa Birliyi və Şengen zonası ölkəsi olduğu üçün həm fiziki-coğrafi, həm də iqtisadi-sosial-coğrafi mövzularda Avropa ilə Estoniyanı paralel şəkildə tədris vahidlərinə salmışdır.

3)Estoniya dünyanın İKT ölkəsidir və bizim analizimizdə tədris vahidlərində komputer-əsaslı texnologiyların və xüsusən CİS dərslərinin tədris vahidlərində rolu çox genişdir.

4) Ümumilikdə, məzmun olaraq, Estoniyada coğrafiya təlimi daha konkretdir, Azərbaycanda daha çoxşaxəlidir.

5) Azərbaycanlı şagird təlimin məzmunun nəticəsi olaraq, dünya ölkələrini daha çox öyrənir, nəinki eston şagirdlər.

6) Coğrafi kəşflər dövrü,ekspedisiyalar bizim kurikulumda daha qabarıq verilir, Estoniyada bu mövzular daha az işlənilib.

Ədəbiyyat

1)"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)"

2)Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (VI-XI siniflər)

3) N.S.Süleymanova . Coğrafiyanın tədrisi metodikası. Bakı. 2011

4) Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı. 2008

5) Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. 2009

6) Oqtay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı .2013

7) HayatiDoğanay. Coğrafyaöğretimyöntemleri. İstanbul .2002

8) Mary Cawley (1998) Geography Under ThreatinIrishSecond-level Education, International ResearchinGeographical and EnvironmentalEducation, 7:1, 5-13

9)Appendix 4 of RegulationNo 2 of theGovernment of theRepublic of 6 January 2011 NationalCurriculumforUpperSecondarySchools

10)Appendix 4 of RegulationNo. 1 of theGovernment of the Republic of 6 January 2011 National Curriculum for BasicSchools

11)TallinnaLäänemereGümnaasium. Предметная программа по географии III школьной ступени

12)Holisticapproachtogeography as basisforsuccessfulcurriculainEstonia. Jüri Roosaare*, TõnuOja, ÜlleLiiber&ÜlleVannas . Catling, S. &Taylor, E. (Eds.) Proceedings of the IGU-HERODOT conference, April 10-12 2007, Institute of Education, London: 279-285

13) "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçilari üçün təlim materialları. Xəzər Universiteti.2012

14) ÜlleLiiber and JuriRoosaare.TheNewRole of Geography and the Consequent Requirementsfor a NewCurriculuminEstonia

15)Thedevelopment of education. Nationalreport of EstoniabyMinistry of Education. August 2011

16)Müdafiə Mahmudov. Dünyada təhsil sistemləri. Bakı. 2013

17)И.Н.Шарухо. Методика преподавания географии. Могилев.2004

Hüseynli Dürrə Səfər qızı
Elmi rəhbər: dos.Alxasov O.K

COĞRAFİYANIN TƏDRİSİNDƏ ONLINE DƏRSLƏRİN ROLU

Açar sözlər: *online, digital, hibrid, vizual, pandemiya*
Ключевые слова: *онлине, дижитал, гибридные, визуально, пандемия*
Key words: *online, dijital, hybrids, the visual, the pandemic*

Çağdaş dünyamızda təhsildə dəyişikliklər nəticəsində artıq, yeni bir dövrə qədəm qoymuşuq. Bu dövr "digital dövr" adlanır. Digital dövrün tələblərindən biri də tədris prosesinin uzaqdan idarəedilməsi və "online" platformaya keçməsidir. Bu prosesin dünyanın müxtəlif ölkələrində müxtəlif zamanlarda olmuşdur. Dünyanın aparıcı dövlətləri hələ illər əvvəl ənənəvi təhsilin nə vaxtsa rentabelliyinin azalacağını görüb, dərslərin "online" formada keçirilməsi üçün bir çox cəhdlər etmişdir.

Dərslərin online keçirilməsi özlüyündə bir çox zərurətlər əmələ gətirmişdir. Bu zərurətlərdən biri tədris edənlərin elekton informasiya biliklərinin təkmilləşməsi olmuşdur. Ənənəvi formada viuzal olaraq əksikliklər yaşansa da, İKT resursları sayəsində dərslərdə vizuallaşma əmələ gəlmişdir. Coğrafiya dərsləri də bu məsələdə öz payını almışdır. Coğrafi proseslərin vizuallaşması "online dərslər" ilə seçim yox, bir zərurət olmuşdur. Axtarış sistemlərində bütün növ coğrafi təsvirlər üçün yetərli informasiya vardır. Bu informasiyalar audio-video, şəkil və s. formatda ola bilər.

Son bir ildə pandemik hadisə ilə əlaqəli olaraq, bütün dünya təhsil sistemi, eləcə də, Azərbaycanda təhsil "online" rejimə keçmişdir. Təhsildə bu qəfil dəyişikliklər bir çox hazırlıqlar tələb etsə də, bir başqa mənada dərslərin keyfiyyətinə təsir etmişdir. Artıq, mətnlərdən daha çox vizuallıq ortaya gəlmişdir. Bu vizuallıq nəticəsində coğrafi hadisələri daha yaxşı anlamaq mümkün olmuşdur. Biz vizual olaraq, coğrafi təbəqələri, yerin günəş ətrafındakı hərəkətini, relyef proseslərini, atmosfer hadisələrini, hidroloji prosesləri, torpaq əmələgəlməni, biocoğrafi prosesləri, rayonlaşmaları, ekoloji prosesləri, okean cərəyanlarını, ölkələri, materiklərin hərəkətini, müxtəlif landşaft qurşaqlarını və s. coğrafi hadisələri vizaul olaraq göstərə bilərik. Vizual materialların geniş həcmi vardır. Bunun üçün, əslində, proqramlar yaradılmışdır. Bu gün coğrafiya dərslərində bu alətlərdən istifadə olunur. Ənənəvi metodlarda statik şəkillərlə izah olunmağa çalışılan proseslər, indi hərəkətlənməyə başlayıb.

Online dərslərin başqa bir xüsusiyyəti ondan ibarətdir ki, tədris prosesi saxlanıla bilər və daha böyük kütlələrə çata bilər. Pandemiya dövrü əslində, bütün bu gedişatı sürətləndirməyə yardım etdi. Görünən odur ki, coğrafi dərslər bucür davam etdiyi təqdirdə yeni nəsil artıq, ənənəvi dərslərlə böyümüş nəsli geridə qoyacaq və daha nəticəyönümlü təlim prosesləri olacaq.Coğrafiyanın predmetinin məzmunu "online" dərslər üçün ən optimal hesab edilir. Xəritələşmə prosesi və digərləri artıq kağız üzərindən digital formaya keçmişdir. Hər bir məsələdə olduğu kimi coğrafiya dərslərinin online rejimə keçməsi çətinliklərlə baş vermişdir. Müəllimlərin hazırlıqsızlığı, yetərli təqdimatların olmaması və coğrafi alətlərdən istifadə bacarıqlarının təcrübəsizliyi bu məsələyə mane olmuşdur. Bir çox müəllimlər bununla bağlı informasiya texnologiyaları bacarıqlarını artırmaq üçün əlavə pedaqojik köməkliklər almışdır.

Bundan başqa, aydın olur ki, universitet təhsilinin bəzi cəhətləri, o cümlədən tələbələrin həmyaşıdları ilə və professorlarla qarşılıqlı əlaqəsi, yataqxanada tələbə həyatı və tələbə oyunları məhdudlaşdırıla bilməz. Buna görə də universitetlər və kolleclər son vaxtlar dərslərin "online" və "offline" keçirildiyi hibrid təhsili tətbiq etməyə başladılar. Bu yeni tendensiya bizə "hibrid" təhsilin yeni dövrünü təsəvvür etməyə imkan verir, burada "onlayn" (təmassız) təhsilin və "oflayn" (təmaslı) siniflərin ən yaxşı imkanları müəllimlərə və tələbələrə ən yaxşı tədris və tədris təcrübəsini təmin etmək üçün optimallaşdırılıb. Məsələn, internetin və onlayn tədris platformalarının potensialından istifadə edərək təhsil müəssisələri öz resurslarını milyonlarla tələbənin daha ucuz təhsilə girişini genişləndirmək üçün optimallaşdıra bilər.

Bundan əlavə, tədris və təhsilimizi dəyişməliyik; mədəniyyətin dəyişməsi və professorlar, müəllimlər, tələbələr və valideynlər üçün stimulların yaradılması üzərində inadla çalışmalı, yeni eranın tələblərinə uyğun olaraq təhsilin biznes modellərini dəyişdirməliyik. Buna görə də biz hökumətlərə və maraqlı tərəflərə texnologiya üçün əlverişli şərait yaratmağa kömək edən siyasətə diqqət yetirməyi təklif edirik ki, bu da hazırkı onlayn tədris və tədris təcrübəsinin sinonimidir. Nəticədə bu, "hibrid" təhsillə bağlı sosial etimad və razılığın inkişafına səbəb ola bilər.

İkincisi, onlayn təhsil infrastrukturunu dəstəkləyən siyasət aparmaq lazımdır - məsələn, platforma, qurğular, sistemli və sosial dəyişikliklərə yönəlmiş siyasətlə yanaşı internetə qoşulmaq təmin olunmalıdır. Sonuncular onlayn təhsil sahəsində tələbələrin, müəllimlərin və məktəb heyətinin hazırlanması üçün tədris proqramlarının tətbiqi, universitet sistemlərinin islahatı və müəssisələrin əməkdaşlığının təşviqi kimi imkanların genişləndirilməsini əhatə edir.

Ədəbiyyat

1) "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)"

2) Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı (VI-XI siniflər)

3) N.S.Süleymanova . Coğrafiyanın tədrisi metodikası. Bakı. 2011

4) Nəzər Eldarov. Coğrafiyanın tədrisi metodikası. Bakı. 2008

5) Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. 2009

6) Oqtay Alxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı .2013

Hüseynli Dürrə Səfər qızı

Elmi rəhbər: dos.Alxasov O.K.

COĞRAFİYA DƏRSLƏRİNDƏ İKT VƏ ELEKTRON DƏRSLİKLƏRİN ROLU

Açar sözlər: *keyfiyyət, inkişaf, texnologiya, priyom, fəallıq*

Ключевые слова: *качество, развитие, технология, способ, активностъ*

Key words: *quality,development, technology, actineness*

Müasir qloballaşma dövründə elm və texnikanın sürətlə inkişafı təhsil prosesinden də təsirsiz ötüşməmişdir. Bu isə öz növbəsində məktəblərin və müəllimlərin qarşısında yeni tələblər qoyur. İnformasiya və kommunikasiya texnologiyalarından istifadənin geniş vüsət almasını əsas tutaraq ölkəmizdə bu sahənin inkişafına dövlət nəzarəti tətbiq edilmişdir. Bu istiqamətdə bir sıra ciddi addımlar atılmış və bu istiqamət dövlətin təhsil siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Bu məqsədlə 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sərəncam ("Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı") imzalanmışdır. Proqramda qarşıya qoyulmuş məqsədə çatmaq üçün tədris prosesində Azərbaycan dilində istifadə olunan müasir elektron tədris materiallarının, elektron dərsliklərin, elektron kitabxananın, rəqəmli tədris resurslarının işlənib hazırlanması, yayılması və tətbiq edilməsi kimi bir sıra vəzifələrin həyata keçirilməsi zəruridir. Proqramın əsas məqsədi şagirdləri informasiyalaşdırılmış cəmiyyətə hazırlamaqdır.

Ölkəmizdə bu sahədə həyata keçirilən işlərdən biri də 2010-cu ilin "Təhsildə İKT ili" elan olunmasıdır. Bununla bağlı olaraq müxtəlif konfranslar, seminarlar, stimullaşdırıcı və həvəsləndirici aksiyalar, müsabiqələr təşkil olunmuşdur.

Elektron təlim vasitələrinin tətbiqi müasir təhsil sisteminin, ölkəmizin intelektual və elmi potensialının inkişaf etdirilməsində əsas amillərdən biridir. Bunu nəzərə alaraq müxtəlif işlər həyatə keçirilir:

- Təhsil müəsisələrinin bütövlükdə kompyuterləşməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilir,məktəblər lazımi avadanlıqlarla (elektron lövhə, proyektor və s.) təmin olunur.
- Təhsil Nazirliyi tərəfindən informasiya və kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının formalaşdırılması, həmçinin İKT baca-rıqlarının təkminləşdirilməsi məqsədi ilə xüsusi kurslar təşkil edərək pedaqoji işçiləri bu işə cəlb edir.

• Şagirdlərin İKT-dən istifadə imkanlarının səmərəliliyini artırmaq məqsədi ilə elektron dərsliklərin hazırlanması və s.

Danılmaz həqiqətdir ki, dövrümüzdə şagirdlərin böyük əksəriyyətinin İKT bacarıqları müəllimlərdən daha çoxdur. Bu isə öz növbısində müəllimin qarşısında yeni tələblər qoyur. Müəllim təkcə coğrayiyaya aid olan nəzəri biliklərə, pedaqoji və psixoloji qabiliyyətlərə yiyələnməklə kifayətlənməməli, həmçinin İKT bacarıqlarına da yiyələnməli, coğrafiya fənninin strukturuna və məzmununa uyğun olan, şagirdlərin yaş və fərdi psixoloji xüsusiyyətlərini nəzərə alan, eyni zamanda onların inkişafını təmin edən texnologiyaları seçərək tədris prosesində istifadə etməyi bacarmalıdır. O, eyni zamanda dərs prosesində şagirdlərin də İKT bacarıqlarını inkişaf etdirməli, informasiya bolluğu dövründə onları düzgün istiqamətləndirməli, məlumat əldə etmənin asan və səmərəli yollarını göstərməlidir. Təcrübələr göstərir ki, İKT-dən istifadə olunaraq qurulan dərs modeli məktəbin pedaqoji heyyətindən kopyuter texnologiyalarını, bir sıra proqramları, metodikanı və şagirdlərlə səmərəli iş üsullarını bilməyi, sistematik iş aparmağı tələb edir. Bütün sadalananlar təlim məqsədlərinə yönəldilməli, səmərəli və məqsədyönlü olmalıdır.

Bu gün coğrafiya dərslərində elektron dərsliklərdən istifadəyə maraq artmaqda davam edir. Elektron dərsliklər şagirdlərə coğrafi bilikləri elektron şəkildə əldə etməyə, öyrənmə prosesində aktiv şəkildə fəaliyyət göstərməyə imkan verir. Artıq şagirdlər dərs prosesində yalnız izləyici deyil, həm də yeni informasiyanı əldə etməyə səy göstərən, öz qabiliyyətlərini, bacarıqlarını qiymətləndirə bilən müstəqil şəxsiyyətdir. Eyni zamanda elektron dərsliklər şagirdlərin öyrənmə prosesini asanlaşdıraraq daha yadda qalan və maraqlı edir. Təlim prosesində onlara daha böyük imkanlar yaradır. Bu tip dərsliklər böyük həcmdə təlim və tədris materiallarını əhatə etməklə yeni tədris metodlarının daha da zənginləşməsinə, inkişaf etməsinə, kömək edir.

Elektron dərsliklərdən distant təhsildə istifadə olunması da əlverişli vasitə hesab olunur. Xüsusilə bütün dünyanın "Covid-19" pandemiyası ilə mübarizə apardığı bir dönəmdə e-dərsliklər və İKT-dən istifadə imkanları müəllim və şagirdlərin biliklərin ötürülməsində və əldə edilməsində effektiv köməkçisi olmuşdur. Şagirdlər bu dərsliklər vasitəsi ilə bilikləri mənimsəyərək bilik əldə etmədə fasiləsizliyə nail olurlar.

Həmçinin e-dərsliklər görmə imkanları məhdud şagirdlər üçün də yeni biliklərin əldə edilməsində geniş imkanlar yaradır. Elektron dərsliklərə daxil edilmiş müxtəlif məzmuna malik səsli materiallar bu qrup şagirdlər üçün əvəzsiz köməkçidir.

Coğrafiya multimediya dərsliklərinin təlim prosesində istifadə olunması şagirdlərin məlumat və çıxışların hazırlanmasına, differensial yanaşmanın hıyata keçirilməsinə, coğrafiyanın dərinləşdirilmiş öyrənilməsinə imkan yaradır.

Şagirdlər dərsliklərdən istənilən yerdə, fərdiləşmiş şəkildə istifadə edə bilirlər. Ənənəvi dərsliklər 4 ildən bir çap olunduğu halda şagirdin həmişə yeni elektron dərsliyi olur, köhnəlmir, sıradan çıxmır, gigiyenik cəhətdən də ziyansızdır. Elektron dərsliklərin tətbiqi iqtisadi baxımdan da əlverişlidir. Belə ki, hər il kağız daşıyıcılarla dərsliklərin çap olunması külli miqdarda vəsait tələb edir.

Onu da qeyd etməliyəm ki, bu gün elektron dərsliklərdən istifadə metodikası yetərincə öyrənilməmiş və bu sahədə işlər davam etdirilir. Bu dərsliklərin məzmununun zənginləşdirilməsinə böyük ehtiyac var. Zənginləşdirmə məqsədi ilə dərsliklərə mövzu ilə əlaqəli , yüksək keyfiyyətli animasiyalar, videomateriallar, şəkil, səsli və digər növ materiallar əlavə olunur.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)"
2. N.S.Süleymanova . Coğrafiyanın tədrisi metodikası. Bakı. 2011
3. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. 2009
4. OqtayAlxasov. Coğrafiyanın tədrisi metodikası. Bakı. 2013

Zeynalov İlyas Aqil oğlu
ADPU, II kurs magistrant
Elmi rəhbər: dos.S.H.İmanova

COĞRAFİYA DƏRSLƏRİNDƏ DİYARŞÜNASLIQ MATERİALLARINDAN İSTİFADƏ EDİLMƏSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *diyarşünaslıq, təlim-tərbiyə, diyarşünaslıq prinsipi*
Ключевые слова: *этнография, образование, принцип этнографии*
Key words: *ethnography, education, the principle of ethnography*

Tədqiq edilən mövzu coğrafiyanın tədrisində diyarşünaslıq prinsipinin həyata keçirilməsi ilə bağlıdır. Məktəbdə diyarşünaslıq prinsipinin tətbiqi nəticəsində şagird və müəllim biliklərini artırmaqla yanaşı əhali, təsərrüfat və təbiətlə daha yaxından tanış olur, yerli müəssisə və təşkilatları öyrənirlər.

Diyarşünaslıq işlərinin aparılması nəticəsində şagirdlər tədris materialını daha fəal mənimsəyir, bu zaman daha müstəqil şəkildə fəaliyyət göstərirlər, həyat üçün lazımlı olan bir çox bacarıqlara yiyələnirlər, nəticədə təbiət və ictimai hadisələr, obyektlər şagirdlər tərəfindən daha yaxşı mənimsənilir.

Diyarşünaslıq işlərinin sistemli şəkildə, daim aparmaq lazıdır. Bu işlərin nəticəsində şagirdlərdə müşahidəçilik, təfəkkür, kollektivçilik kimi keyfiyyətlərin formalaşmasına səbəb olur. Coğrafiyanın tədrisində diyarşünaslığın əsas xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1) Coğrafiyanın tədrisinin bizə məlum olan prinsip üzərində qurulmasına imkan verir – məlumdan naməluma, yaxından uzağa prinsipi.

2) Təbiət və cəmiyyət hadisələrini daha yaxşı mənimsənilməsinə şərait yaratmaq mümkün olur – coğrafiyanın praktik istiqamətinə nail olunur, təbiəti mühafizə işlərinin təşkilinə, peşəyönümünün həyata keçirilməsinə və s.

3) Şaridlərdə geniş dünyagörüşünün formalaşdırılmasına, onların vətənpərvərlik ruhunda tərbiyəsinə, təbiətə qayğıkeş münasibətlərinin inkşafına imkan yaranır.

Təlim-tərbiyə prosesinin formalaşdırılmasında diyarşünaslığın əsas amillərini aşağıdakı kimi qruplaşdıra bilərik:

a) diyarşünaslıq materiallar məktəblilərin idrak maraqlarının yüksəldilməsi vasitəsidir, təbiət və cəmiyyət hadisələrinin mənimsənilməsində səbəb-nəticə əlaqələrinin dərindən qavranılmasında mühüm rol oynayır;

b) təlimin həyatla əlaqəsinin həyata keçirilməsində praktik rola malikdir;

c) təbiət və sosial obyekt və hadisələrə müşahidələrin təşkil edilməsinə imkan verir ki, bu da tədris işində istifadə olunur;

d) doğma diyara tədris və proqramdankənar ekskursiyalar təşkil etməyə, görüşlər, olimpiada, konfrans və s. tədbirlər keçirməyə səbəb olur.

Diyarşünaslıq da təlim-tərbiyə prosesinin ümumi prinsiplərinə əsaslanır. İstər tədris və istərsə də sinifdənkənar diyarşünaslıq işləri bir-biri ilə sıx qarşılıqlı, sıx əlaqədardır.

İlk növbədə diyarşünaslıq işlərinin aparılmasında kompleks yanaşma prinsipini qeyd etmək lazımdır. Yəni şagirdlərin yaşadığı ərazinin öyrənilməsində bu yerlərin tarixi, təbiəti, təsərrüfatı, etnoqrafiyası, incəsənəti və s. tam, bütöv şəkildə nəzərdən keçirilməlidir.

Diyarşünaslıq məsələlərinin tədqiqində digər prinsip kimi sistemlilik və fasiləsizlik prinsipi qeyd edilməlidir. Yəni bu prinsipi belə başa düşməliyik ki, şagirdlərin öz diyarları (rayonları) haqqında bilikləri və bacarıqları ardıcıl şəkildə inkişaf etdirilərək daha da dərinləşdirilməlidir. Bu tipli tədbirlər il boyu, müəyyən edilmiş plana uyğun olaraq həm dərs, həm də dərsdənkənar tədbirlər şəklində davam etdirilməlidir. Bu biliklərə sonradan dərs prosesində

müraciət etməklə şagirdlər daha inamlı olur, dərsə maraq yaranır və s. psixoloji hisləri keçirirlər.

Coğrafi diyarşünaslığı məktəbində müm prinsipinin biri də axtarış-tədqiqatçılıq prinsipidir ki, bu işlər məktəbliləri yeni biliklər əldə etməyə, tədqiqat prosesinə qoşulmağa sövq edir.

Nəticədə şagirdlərin idrak maraqları inkişaf etdirilərək formalaşdırılır, onlar tədrisən elmi tədqiqatın mərhələlərinə yiyələnir, elmi metodlarla tanış olurlar. Əldə olan materialları təhlil etməklə yeni elmi biliklərlə silahlanmaq tədrisin qarşısında durab ən mühüm vəzifələrdən biridir.

İctimai faydalı işlərin görülməsinə maraq yaradılması da diyarşünaslığın tətbiqinin vacib priniplərindən biridir. şagirdlər diyarşünaslığın köməyi ilə məhəldə, rayonda keçirilən faydalı tədbirlərə, işlərə qoşulur, ictimaiyyatçı olurlar. Bu da özülüyündə diyarşünaslığın başqa bir prinsipini – peşəyönümlü istiqamətini yaradır. İctimai işlərlə tanışlıq məktəblilərin müxtəlif sənət adamları ilə tanışlığını, onların gələcək peşə sahələri ilə tanışlığına səbəb olur. Məktəblərdə təşkil olunan diyarşünaslıq muzeyləri məhz peşəyönümlü xarakteri alır.

Diyarşünaslıq tədbirlərinin başqa yönümü təbiəti mühafizə işlərinin ön plana çəkilməsi ilə bağlıdır. Bu mənada coğrafiya fənninin öz məzmununun əhəmiyyəti həll edici rol oynayır. Təbiət mühafizə işləri şagirdlərin ekeoloj tərbiyəsinin formalaşdırılmasına səbəb olur.

Hələ ibtidai siniflərdə "Ana dili", "Həyat bilgisi" dərslərində təbiət və ətraf aləm haqqında əldə oluna biliklərin davamı "Coğrafiya" kurslarında uğurla davam etdirilir. Bu vəzifənin həyata keçirilməsinin başlıca şərlətrini aşağıdakı kimi göstərmək olar:

a) diyarşünaslıq xarakterli mövzu və bölmələrin öyrənilməsin məqsədyönül və metodik cəhətdən uğurlu həlli;

b) təlim prosesində diyarşünaslıq yanaşmanın sistemli və ardıcıl olaraq həyata keçirilməsi və dərsdənkənar məşğələlərin təşkili

c) məktəblilərin öz yaşadıqları yerlərdə təbiət proseslərinə, insanların əmək və təsərrüfat fəaliyyətlərinə müşahidələrinin təşkilinə nail olunur.

Ədəbiyyat

1. Alxasov O. Coğrafiyanın tədrisi metodikası. Bakı, 2013
2. Coğrafiya 6-cı sinif üçün dərslik. Bakı nəşriyyat 2017
3. Coğrafiya 6-cı sinif üçün vəsait. DİM "Abituriyent", 2018
4. Veysova Z. Fəal (interaktiv) təlim. "Müəllimlər üçün vəsait". Bakı, 2007

Tağıyeva Şahnaz Heydər qızı
Magistrant
Elmi rəhbər: s.e.ü.f.d. Sadıqov Rəşad Əsəd oğlu

SOSİAL İNNOVASİYALARIN YARANMASI VƏ ONLARIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər:*sosial innovasiyalar, sosial yenilik, texnoloji yenilk, sosial problemlər*

Ключевые слова: *социальные инновации, социальное новшество, технологичесоее новшество, социальные проблемы*

Key words: *social innovations, social innovation, technological innovation, social problems*

"İnnovasiya" termini latın dilində "innovato" sözündən olub, "yenilənmə" və "yaxşılaşma" deməkdir. "Sosial innovasiya" anlayışı şüurlu şəkildə təşkil edilmiş bir yenilik və ya dəyişən social şərtlərə uyğun olaraq cəmiyyətin inkişafında müəyyən bir mərhələdə formala-

şan və social sahədə effektiv müsbət dəyişikliklərə yönəlmiş social texnologiya praktikasında yeni bir hadisə kimi müəyyən edilə bilər [4].

Sosial yenilik sosial-iqtisadi islahatlar və yaşanan inqilablar, dəyişikliklərlə cəmiyyətlərin, dövlətlərin, imperiyaların yeni modelləri ilə əlaqələndirilir. Sosial yenilik tarixən insan inkişafının xüsusi bir hissəsini təşkil edir. Ümumiyyətlə yenilik inqilabçı, dağıdıcı təsirə də malikdir.

Qeyd edək ki, innovasiya anlayışının nəzəri istiqaməti qədimdən başlayır və bu günə qədər davam edir. Qədim dövrlərdən XX əsrə qədər "yenilik" anlayışı bu və ya digər şəkildə social dəyişikliklə sıx əlaqəli idi. Müasir anlayış kimi isə "yenilik" ifadəsi çox vaxt texnoloji yeniliklərlə əlaqələndirilir. Belə ki, social yenilik nəzəriyyəsinin tarixi texnoloji yenilikdən daha qədimdir.

Bu gün dünyada bir çox innovativ texnolgiyalar tədbiq olunur. Belə texnologiyaların tədbiqi bu sahənin öyrənilməsinə, yenilənməsinə və optimallaşdırılmasına yönəlmiş prosedur şəkildə qurulmuş texnika və metodlar toplusudur. İnnovativ sosial texnologiyalar cəmiyyətdə sosial həyatın müxtəlif sahələrində keyfiyyətcə dəyişikliklərə, cəmiyyətdəki maddi və digər mənbələrdən səmərəli istifadəyə səbəb olan bu cür təşəbbüslərin həyata keçirilməsinə yönəlmiş metodlar, innovativ fəaliyyət üsullarıdır. İnnovativ sosial texnologiyalar xüsusilə əqli və fiziki cəhətdən sağlamlıq imkanları məhdud şəxslər üçün əhəmiyyətlidir. Həmçinin belə innovativ texnologiyalar insanların sosial həyatını yaxşılaşdırmaq məqsədi daşıyır. Buna misal olaraq "Safari Seat" adlı əlil arabaları, autizim xəstəliyindən əziyyət çəkən uşaqlar üçün hazırlanmış ağıllı oyuncaq "Leka", eşitmə problemi olan insanlar üçün təhlükə detektoru "Sound Sense" adlanan cihaz, sağlamlıq imkanları məhdud şəxslərin qidalanması üçün "Liftware" adlı robort-qaşıq və s göstərmək olar.[5]

Belə demək mümkündür ki, zamanla sosial yeniliyin cəmiyyətdəki problemlərin həll edilməsinə göstərdiyi təsir bu sahəyə diqqətin yönəlməsinə şərait yaratmışdır.

Sosial yenilik ilk dəfə 1960-cı illərdə Avstriyalı alim Peter Drucker və Britaniyalı sosioloq, sosial fəal Michael Young (Açıq Universitetin və digər təşkilatların qurucusu) kimi müəlliflərin əsərlərində geniş müzakirə olunmağa başlamışdır.[6]Artıq XVII-XVIII əsrlərdə bir çox sənəddə "yenilik" sözündən istifadə edilmişdir. Həmçinin bu dövürdə yenilik siyasi inqilablarla eyniləşdirilmişdir. Bunun əsas səbəbi 1649-cu ildə İngiltərədəki siyasi inqilab olmuşdur və 1789-cu ildən sonra qəddar Fransız İnqilabı "yenilik" terminini xarakterizə etmişdir. Həmin dövürdə həm dini liderlər, siyasətçilər, həm də, filosoflar, tarixçilər yeniliyi qəfil və şiddətli dəyişikliklərlə əlaqələndirmişdilər.

Bu termin1870-ci illərdə fransız yazıçılarının əsərlərində də yer almışdır.[6] Qeyd edək ki, sosial yeniliyin mövzuları və konsepsiyaları bu proseslərdən çox əvvəl mövcud idi. Buna misal olaraq həmin dövrdə Benjamin Franklin cəmiyyətlərin sosial təşkilatında gündəlik problemlərin həllinə kömək edə biləcək kiçik dəyişikliklərdən bəhs etməsini, həmçinin həmkarlar ittifaqı hərəkatının qurucusu Robert Ouven kimi XIX əsrin bir çox radikal islahatçısının sosial sahədə yeniliyi təbliğ etməsini göstərə bilərik. Həmin dövrdə bütün sosioloqlar da dərin sosial dəyişikliklərdən bəhs edirdilər.

XIX əsrdən isə "sosial yenilik" ifadəsi istifadə edilməyə başlamışdı. 1858-ci ildə ingilis iş adamı, iqtisadçı və təhsil islahatçısı Villiam L.Sarqant "Sosial novatorlar və onların sxemləri" əsərini nəşr etdirmişdir. Bu çərçivədə Sarqant üçün sosial yeniliklər sosializmə aparan yeniliklər idi. Bir il sonra fransız F.Guizot "Xatirələr" əsərini nəşr etdirmişdir. Daha sonra bu cür müzakirələr nəticəsində sosial yeniliklər sosial islahatlarla əlaqələndirilmişdir.[6]

Əvvəlcə sosial yeniliyi hökumətin əksəriyyəti və hakimiyyətdəki dini liderlər üçün arzuolunmaz olan utopik sosialist dəyişikliklərə bağlamış və daha sonra bu konsepsiyanı sosial islahatlarla əlaqələndirməyə başlamışlar.

Qeyd edək ki, innovasiya ilə bağlı müxtəlif mütəfəkkirlərin fərqli fikirləri vardır. Platon bu termini cəmiyyətə təsirlərini göstərən oyun və musiqi kimi mədəni yeniliklərə diqqət

yetirmək üçün istifadə etmişdir. Aristotel isə siyasi, konstitusiya dəyişikliklərini əks etdirərək kiçik bir dəyişikliyin belə yeniliyə səbəb olduğu fikrini irəli sürmüşdür.

Bu sahədə anlayışların aydınlaşdırılması, təsnifat əlamətləri ilə bağlı yeniliklərin kateqoriyalı aparatının öyrənilməsi, bu cür elm adamlarının əsərlərində yenilik proseslərinin təkamülü və mahiyyətinin dərk edilməsində N.D.Kondratyev, E.Mansfield, R.Solou, M.Porter, B.Tviss, R.Foster, J.A.Şumpeter və başqaları rol oynadı.

Sosial yenilik nəzəriyyəsinin formalaşması J.A.Şumpeterin adı ilə bağlıdır. O, iqtisadi böyümə müddətinin "yeni qaynaqlar birləşməsinə" əsaslanan, daha sonra "yenilik" olaraq təyin etdiyi tam bir nəzəriyyə təklif etmişdir. Şumpeter cəmiyyətin şüurlu ehtiyacını ifadə edən “sosial dəyər” terminini də xüsusi qeyd edir. Özünün "yaradıcı məhv" konsepsiyasında cəmiyyətin inkişafının sosial dəyərin mərkəzi yerdə olduğu bir iqtisadi sistemə yönəldilməsini bildirir. Şumpeterin anlayışları ilə sosial dəyər anlayışı arasında açıq bir əlaqə mövcuddur.

Daha sonra XX əsrdə önə çıxan bir çox yenilik nəzəriyyələrin cəmiyyətin üzləşdiyi problemləri həll etməyə yönəlməsi sosial yeniliklərin dünyaya yayılmağa başlamasına səbəb olmuşdur. Müxtəlif ölkələr, tədqiqat təşkilatları, şirkətlər və ya müstəqil təşkilatlar bu istiqamətdə işlər görməyə başlamışdır.

Sosial yenilik fikri son zamanlar siyasi, iqtisadi, sosial inkişafın istiqamətləndiricilərindən birinə çevrilsə də, kökləri 1990-cı illərdən başlayır. Sonralar isə Avropa Sosial Fondunun Təşəbbüsləri, “NOW”, “ADAPT”, “HORIZON”, eləcə də, “LİDER” və digərləri dövlət, özəl sahə və vətəndaş cəmiyyəti arasındakı sərhədlərin bəzən pozulduğu sosial siyasətə yeni bir yanaşmanın müjdəçisi oldu [6]. Bu yanaşma təhsil və səhiyyə sahələrinə də aiddir. Onun yayılmasına Avropa Birliyi idarəetmə sistemindəki dəyişikliklər və informasiya texnologiyalarının inkişafı da kömək etmiş oldu.

Bu gün ölkəmizdə də sosial iş sahəsində bir çox işlər görülür. Sosial sahədə dövlət siyasətinə əsasən hazırda ölkədə bir çox mərkəzlər, agentliklər fəaliyyət göstərərək əhalinin müxtəlif sosial problemlərinin həllində onlara köməklik edir. [1] Məsələn, “DOST” agentliyi və “ASAN xidmət” mərkəzləri bütün dünyanı əhatə edən pandemiya dövründə yardıma ehtiyacı olan insanlara xüsusi qayğı göstərir. [3] Bu işdə həmin mərkəzlərdə çalışan könüllülərin fəaliyyəti də danılmazdı. [2] Həmçinin sağlamlıq imkanları məhdud insanlar üçün dünyada tədbiq olunan texnologiyaların ölkəmizə gətirilməsi, onların inkuliziv təhsilə cəlb olunması və s istiqamətdə də işlər aparılır.

Qeyd edək ki, bütün sosial yeniliklər cəmiyyətin xeyrinə yönəlmiş fəaliyyətin mərkəzi elementidir. Müasir dövrdə sosial innovasiyaların tətbiqi bir çox problemlərin həllində insan həyatında əhəmiyyətli rola malikdir. Bu gün dünyada insanların sosial həyatını yaxşılaşdırmaq, sosial müdafiəni həyata keçirmək və fiziki və əqli qüsurlu insanların ehtiyaclarını ödəmək üçün müxtəlif sosial yeniliklər tətbiq olunur. Bu həm də, belə insanların cəmiyyətə adaptasiyasına və psixoloji olaraq sağlamlığına şərait yaradır.

Ədəbiyyat

1. “ASAN xidmət”, “ASAN xidmət” mərkəzi açıldı, https://asan.gov.az/az/media/news/asan-xidmet-merkezi-acildi/29.12.2012.

2. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, https://president.az/articles/35533 /30.12.2019.

3. Azərbaycan Respublikasının Prezidenti, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərman, https://president.az/articles/31039/ 10.12.2018.

4. Mehdiyev Ə., İnnovasiya fəaliyyəti, https://huseynovablog.files.wordpress.com/2016/06/innovasiya-fealiyyeti.pdf

5. Ревадзе Д., Хайтек, 15 удивительных социальных инноваций 2016 года,https://hightech.fm/2016/12/19/social-good-innovations-2016/ 19.12.2016.
6. Шаймарданова В.М., Губина Н.В., Студенческий научный форум – 2015, Социальные инновации: история зарождения и современный опыт.

РЕЗЮМЕ

Следует отметить, что все социальные инновации являются центральным элементом деятельности, направленной на благо общества. Применение социальных инноваций в наше время играет важную роль в решении многих проблем в жизни человека. Сегодня в мире внедряются различные социальные инновации для улучшения социальной жизни людей, реализации социальной защиты, удовлетворения потребностей людей с физическими и умственными недостатками. Это также позволяет таким людям адаптироваться в обществе и быть психологически здоровыми.

SUMMARY

It should be noted that all social innovations are a central element of activities aimed at the benefit of society. The application of social innovations in modern times plays an important role in solving many problems in human life. Today, various social innovations are applied in the world to improve the social life of people, to implement social protection, to meet the needs of people with physical and mental disabilities. It also allows such people to adapt to society and to be psychologically healthy.

Allahverənova Sənubər Natiq qızı
ADPU, "Tarix fənninin tədrisi metodikası və metodologiyası", II kurs magistrantı
Elmi rəhbər: dos.A.Y.Piriyeva

ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASINDA DÖVLƏT RƏMZLƏRİMİZDƏN İSTİFADƏNİN MAHİYYƏTİ

Açar sözlər: *vətən, vətənpərvərlik, dövlət rəmzləri, şagird, müəllim*
Ключевые слова: *родина, патриотизм, государственные символы, ученик, учитель*
Key words: *homeland, patriotism, state symbols, student, teacher*

Vətənpərvərliyi başa düşmək və onu şagirdlərdə formalaşdırmaq üçün ilk növbədə Vətən haradan başlayır? sualına cavab tapmaq və şagirdlərə izah etmək lazımdır. Bu suala indiki dövrə qədər müxtəlif cür cavablar verilmişdir. Vətən anlayışı insanlar üçün fərqli mənalar verir. Vətən sadəcə torpaq parçasından ibarət deyildir. Vətən torpağın altındakı şəhidlərin və əcdadlarımızın əbədi yuxuda olduğu müqəddəs bir torpaqdır. Hər şeydən öncə Vətən bir millət üçün müstəqilliyin simvoludur. Vətənpərvərlik nədir sualına gəlincə isə, bir çox insan vətənpərvərliyi özlərinin nöqteyi-nəzərindən təsvir edirlər. Ümumilli liderimiz Heydər Əliyev vətənpərvərliyi mənəviyyatla əlaqələndirir, vətən sevgisi olmayan insanın mənəviyyatsız olduğunu vurğulayırdı.[4,s.17]. Qazi Mustafa Kamal Atatürk vətən sevgisini vətənə xidmətlə ölçülə biləcəyini qeyd etmişdi. Sosioloq Gustave Le Bon isə vətən sevgisi olmayan xalqların tarixdə yox olmaya məhkum olduqlarına diqqət çəkmişdir. Jan Jak Russo vətəndaşlıq və vətənpərvərlik anlayışına fərqli formada yanaşır. Onun fikrincə, vətənpərvərlik insanda özözlüyündə yaranır və insanları daha yaxşı vətəndaş olmaq üçün çalışmağa sövq edir. Vətəndaşlıq isə daha şüurlu bir hiss olub, insanda iradənin təzahürüdür. [3,s.1305].

Vətənpərvərlik çox geniş bir anlayışdır. Vətənpərvərlik mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, göylərdə dalğalanan bayrağı, danışdığımız dili, yaşadığımız və

yaşatdığımız mədəniyyəti sevməkdir. Vətənpərvərliyi bəzən sadəcə cəbhədə savaşmaq, orduda xidmət olaraq başa düşürlər. Lakin Heydər Əliyevin sözləriylə desək, vətənpərvərlik sadəcə cəbhədə, orduda xidmət deyil, Vətəni sevmək, torpağa bağlı olmaq, sadiq olmaq, vətənpərvərlik budur.

Vətənpərvər gənclərin yetişdirilməsi isə yalnız dünən, bu gün üçün deyil hər zaman aktual məsələlərdəndir. Çünki dövlətimiz, ölkəmiz, xalqımız var olduqca hər zaman tarixi-mizi, dilimizi, mədəniyyətimizi, adət və ənənələrimizi dərindən bilən, onları dünyaya tanıdan gənclərə ehtiyac olacaq. Biz artıq ərazi bütövlüyümüzü bərpa etdik, azad və müstəqil ölkənin vətəndaşları olaraq hər birimizin əsas vəzifəsi Vətəni sevmək, Vətəni qorumaq, onun tarixini, mədəniyyətini öyrənmək və öyrətməkdir. Məhz buna görədir ki, şagirdlərin vətənpərvər ruhda tərbiyə olunması təhsil siyasətinin, təhsil qanunun ən vacib məsələlərindəndir. Vətənpərvərlik dedikdə ağıla gələn ilk əlamət, ilk simvol məhz dövlət rəmzləridir. Bu yalnız Azərbaycanda deyil, dünyanın bir çox inkişaf etmiş ölkələrində də müşahidə olunur. ABŞ, Kanada, Sinqaur, Çin, Türkiyə kimi qabaqcıl ölkə məktəblərində vətənpərvərliyin təbliği üçün dövlət rəmzlərinin istifadəsi dəyişilməyən qanunlardan biridir.

Şagirdlər bilməlidir ki, respublikamızın dövlət rəmzləri Dövlət bayrağı, Dövlət gerbi və Dövlət himnidir.[1]. Ümumtəhsil məktəblərində çalışan hər bir müəllim şagirdlərə dövlət rəmzlərimizi göstərməli, onların mahiyyətini, mənasını, əhəmiyyətini izah etməli, bu bayraq, bu torpaq üçün canından keçən insanları nümunə göstərməlidir. Dövlət rəmzləri xalqımızın, ölkəmizin keçdiyi tarixi yolu, dövlətçilik ənənələrimizi əks etdirdiyi üçün şagirdlərdə vətənpərvərliyin formalaşdırılması üçün təməl vasitələrdəndir. Şagirdlər bilməlidir ki, Dövlət bayrağı üç müxtəlif göy, qırmızı və yaşıl rənglərdən, qırmızı rəng üzərində təsvir edilimiş ay və ulduzdan ibarətdir. Bu üç rəngli bayraq AXC dövründə qəbul edilmiş və M.Ə.Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməyəcəkdir" sözləri ilə bütün dünyada öz sübutunu tapmışdır.[5,s.299]. Bayrağımızdakı mavi rəng türkçülüyü, qırmızı rəng müasirliyi, yaşıl rəng isə islamlığı bildirir. Aypara və səkkizguşəli ulduz türklərin tarixində çox qədim zamanlardan mövcuddur. Belə ki, aypara İslam rəmzi olaraq göstərilir, səkkizguşəliulduz isə günəş rəmzi olaraq təsvir edilmişdir. Aypara və səkkizguşəli ulduz haqqında müxtəlif versiyalar olsada ən geniş yayılan məhz bunlardır.[2,s.85].

Dövlət gerbimiz palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Gerbdəki qalxan Şərq xalqlarlarından biri olduğumuzu vurğulayır. Azərbaycanın isə özünü müdafiə etmək qüdrətini bildirir. Buradakı alov "Odlar Yurdu"nu bildirir. Sünbül vətənimizin bərəkətliliyini, bolluğunu, çörəyə olan müqəddəs münasibətimizi, palıd isə milli-hərbi qüdrətimizi bildirir. Gerbdə günəşin ağ rəngdə təsvir edilməsi xalqımızın barış tərəfdarı olduğuna, Azərbaycanın sülhsevərliyinə işarədir. [4,s.38]. Başqa sözlə desək, gerbimizdə təsvir edilən simvollar dövlətçiliyimizi, milli adət-ənənələri, ümumbəşəri dəyərləri bildirir.

Azərbaycan Respublikasının Dövlət himni müstəqilliyimizin musiqi və sözlə ifadə edilən rəmzidir. Himnimizin müəllifi dahi bəstəkar Üzeyir Hacıbəyov, sözlərinin müəllifi isə böyük şairimiz Əhməd Cavaddır.[4,s.52]. Göründüyü kimi dövlət rəmzlərimizin hər biri bizim adət-ənənələrimizin, dövlətçiliyimizin, tariximizin göstəricisidir, heç bir rəmz, heç bir simvol tariximizi belə əks etdirə bilməz. Məhz buna görədir ki, dövlət rəmzlərinin təbliği sadəcə təhsil müəsisələrində deyil, istənilən sahələrdə geniş yayılmışdr. Cəmiyyətdə hər şey təhsildən başladığı üçün əsas diqqət təhsil müəsisələrinə yönəlmişdir. Dövlət rəmzlərinin təbliğ olunması, şagirdlərdə hörmət, sevgi, vətənpərvərlik kimi humanist duyğuların formalaşdırılması üçün bu gün bütün dərsliklərdə dövlət rəmzlərimizin təsviri göstərilmiş, ümumtəhsil məktəblərinin xüsusi guşəsində dövlət rəmzlərimiz, onların mənası, ümumilli liderimiz Heydər Əliyevin rəmzlərimiz haqqında söylədiyi dəyərli fikirlər həkk olunmuşdur. Bunlardan əlavə şagirdlər sinif otağının divarlarında da rəmzlərimizə rast gəlirlər. Bütün bunlar dövlət

rəmzlərimizin nə dərərcədə əhəmiyyətli olduğunu, onun şagirdlərdə göstərdiyi təsiri sübut edir. Şagirdlərə dövlət rəmzləri haqqında danışmaqla kifayətlənmək olmaz, şagirdlər bilməlidir ki, onların hər bir əməlində, hərəkətində bu sevgini, hörməti bildirməlidir.

Dövlət rəmzlərimiz Azərbaycan Xalq Cümhuriyyətinin qoyduğu mirasdır, dövlətçilik dəyərləridir. Onların yaşadılması, qorunması, gələcək nəsillərə ötürülməs, gənclərin bu ruhda tərbiyə olunaraq inkişaf etdirilməsi Azərbaycan dövlətinin müqəddəs vəzifəsidir. Biz də bu ölkənin vətəndaşları olaraq dövlət rəmzlərimizə hörmət və ehtiramla yanaşmalı və bunu bütün vətəndaşlardan tələb etməliyik. Bu günün şagirdi gələcəyin şəxsiyyətidir, ona görə də dövlət rəmzlərinin mahiyyətinin və mənasının şagirdlər arasında təbliğ edilməsi yetişməkdə olan gənc nəslin bayrağa, gerbə, himnə hörmət və sevgi ruhunda tərbiyə olunması milli həmrəyliyin formalaşmasına, vətənpərvərlik ruhunun yüksəlməsinə xidmət edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. Əhmədov S.Ə., Məmmədov V.S " Azərbaycan Respubikasının Dövlət bayrağı", Bakı, 2010, s.156.
3. Mehmet Elban "Tarih eğitimi ve vatanseverlik üzerine bazı düşünceler", Türkiye, Uluslararası türkçe, edebiyyat, kültür, eğitim dergisi, sayı 4\3, 2015, s.1302-1309.
4. Mərdanov M., Quliyev Ə. "Azərbaycan Respublikasının dövlət rəmzləri", Bakı, Çaşıoğlu 2001, s.272.
5. Yaqublu N. "Məmməd Əmin Rəsulzadə ensiklopediyası", Bakı, 2003, s.506.

XÜLASƏ

Məqalədə vətən, vətənpərvərlik anlayışlarına aydınlıq gətirilmiş, dövlət rəmzlərimizin məna və mahiyyəti vurğulanmışdır. Şagirdlərin vətənpərvərlik ruhunda yetişdirilməsi üçün dövlət rəmzlərinin imkanlarından, onların şagidlərdə formalaşdırdığı tərbiyəvi hisslər qeyd edilmiş, dövlət rəmzlərinin təbliğində təhsilin rolundan bəhs edilmişdir.

Аллахверанова С.

Суть использования нашей государственной символики в формировании патриотического воспитания школьников

РЕЗЮМЕ

В статье разъясняются понятия отечества и патриотизма, подчеркивается значение и сущность наших государственных символов. Отмечены возможности государственной символики для воспитания студентов в духе патриотизма, воспитательные чувства, которые они формируют у студентов, обсуждена роль образования в продвижении государственной символики.

Allahveranova S.

The essence of the use of our state symbols in the formation of patriotic education in students

SUMMARY

The article clarifies the concepts of homeland and patriotism, and emphasizes the meaning and essence of our state symbols. The possibilities of state symbols for the upbringing of students in the spirit of patriotism, the educational feelings they form in students were noted, the role of education in the promotion of state symbols was discussed.

Həsənzadə Damla Sevindik qızı
Azərbaycan Dövlət Pedaqoji Universitet, magistrant
Rəyçi: t.ü.f.ddos, S.X.Məmmədova

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİXİN TƏDRİSİNDƏ DEMOKRATİYA VƏ HUMANİZM PRİNSİPLƏRİNDƏN İSTİFADƏ NÜMUNƏVİ VƏTƏNDAŞIN TƏRBİYƏ EDİLMƏSİNİN MÜHÜM VASİTƏSİ KİMİ

Açar sözlər: *təhsil, tərbiyə, demokratiya, humanizm, prinsip*
Ключевые слова: *образование, воспитание, демократия, гуманизм, принцип*
Key words: *education, educate, democracy, humanism, principle*

Humanizm və demokratiya ümumiyyətlə təhsildə, tərbiyədə və içtimaihəyatda baş verən dəyişikliklərlə müəyyənləşir. Bu anlayışların tarixi qədim dövrlərə gedib çıxır. Qədim dövrdən günümüzədək olan dövrdə humanizm və demokratiya müxtəlif pedaqoqların, filosofların fikirlərində, fəaliyyətlərində öz əksini tapmışdır. Qədim dövr humanizmini Aristotel, Demokrit, Epikür, Lukressi, Perkl, Sokrat, və ya Konfusininbaxışlar sistemində aydın görmək mümkündür. Klassik humanizmi- İntibah dövrün humanizmini isə Bekon, Bokkacco, Monten, Tomas Mor, Rotterdamlı Erazmkimi mütəffəkirlərin əsərlərində inkişaf etdirilmişdir. Azərbaycanda Nizami Gəncəvi yaradıcılığı ilə on ikinci əsrdə humanist ideyalı yaradıcılıq özünün zirvəsinə çatıb. Sonrakı dövrlərdə şair və filosof Imadəddin Nəsiminin yaradıcılığında, daha sonra isə Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və s. görkəmli şəxsiyyətlərin əsərlərində geniş yer verilir.Bu onu göstərir ki, müxtəlif dövrlərdə humanizm dövrün əsas tələbinə çevrilmiş və təbliğ edilmişdir.

Müasir dövrdə hərtərəfli inkişafa nail olmaq üçün qarşımızda iki əsas obyekt durur: şəxsiyyət və cəmiyyət. Şəxsiyyətin inkişafına şərait yaratmasaq güclü bir cəmiyyətin yaranması qeyri-mümkündür. Uşaq kiçik yaşlardan ailədə, mühitdə müxtəlif təsirlərə məruz qalır, şəxsiyyətin formalaşması elə məhz bu dövrdən başlasada, onun əsas inkişafı məktəb dövründə baş verir. Məhz buna görə də Azərbaycan Respublikasının "Təhsil Qanunu"nda şəxsiyyətin hərtərəfli inkişafını təmin edən müddəalar ön plana çəkilmişdir. Bu qanunda demokratiya və humanizm prinsipləri təhsil və tərbiyə sistemində əsas kimi götürülür. Bu qanunda olan müddəaları əsas tutaraq təhsilalanlara demokratiya və humanizm prinsiplərini aşağı siniflərdən aşılamaq olduqca vacib məsələdir. Çünki, şagirdlərdə davranış qaydaları, onların mənəvi mədəniyyəti erkən yaşlardan formalaşmağa başlayır. Bu prinsipləri reallaşdırmaq üçün digər humanitar fənlərlə yanaşı tarix dərsində də həmin məsələlərə geniş yer verilməli və tətbiq edilməlidir. Şagirdlərin təlim-tərbiyəsi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanmalı, demokratik xarakterdə aparılmalı, onlara milli mənlik, vətəni sevmək, xalqının layiqli övladı olmaq hissi aşılamalıdır [1.s50]. Dərs prossesindədemokratiya və humanizm prinsiplərindən istifadə müəllim-şagird əməkdaşlığından asılıdır. Bu halda şagird özünütəkmilləşdirmənin yaradıcısı kimi çıxış edir. Müəllim isə öz növbəsində şagird üçün yaxşılıq, xeyirxahlıq, ədalət nümunəsi kimi çıxış edir. Müəllim şagirdlərdə mənəvi mədəniyyətin və əxlaq normalarının tərbiyə edilməsinə çalışmalıdır. Eyni zamanda şagirdlərin tərbiyəsini ən yaxşı Azərbaycan ənənələri əsasında təşkil etməlidir. Bəs bütün müəllimlər bu prinsipləri aşılaya bilərmi? Müəllim özü demokratik cəmiyyətdə yaşamasa, humanist xarakterə malik olmasa şagirdlərə bunu aşılaya bilməz. Əgər müəllim müəllim-şagird əməkdaşlığı yarada bilmirsə, müxtəlif mövzularda bərabərtərəfli ünsiyyət qura bilmirsə, təşkilatçılıq qabiliyyəti yoxdursa, o zaman müəllimin tətbiq etmək istədiyi bu prinsiplər sadəcə kağız üzərində qalacaq. Müəllimin işi sadəcə elmi biliklər verməkdən ibarət deyil, müəllim gələcək cəmiyyətimizin hərtərəfli inkişaf etmiş gənclərini yetişdirir. Müəllimin vəzifələri qədər onun şəxsi keyfiyyətləri də vacibdir. Bu keyfiyyətlərə xeyirxahlıq,səbr, mədəniyyət, düzgünlük, ədəb, həssaslıq, ədalət, təmkin, ləyaqət,

vətənpərvərlik və s. misal göstərə bilərik. Düzdür, müəllim öz ixtisasını mükəmməl bilməli, dərsi şəgirdlərə mənimsətməyi bacarmalıdır və s. ancaq təlim prossesindəmüəllin öyrətdiyi biliklərlə yanaşı onun xarakteri, davranışı şagirdlərdə demokratiya və humanizm meyillərinin formalaşmasına təsir edir.

Humanizm prinsipi təhsilalanlarınxeyirxah insani davranışlarının formalaşması üçün daxili stimullarının inkişafına kömək edəcək şəkildə müəyyənləşdirilməlidir. Gənc nəsildə özünə inam, əməyə qarşı sevgi, xoş rəftar, insanlara (eləcə də, canlılara) məhəbbət formalaşdırmaq humanizm prinsipinin mahiyyətini təşkil edir. Müasir cəmiyyətimizin vətəndaşları yüksək insani keyfiyyətlərə malik olmaqla bərabər, insan insana dosd, yoldaş və qardaş olmalıdır. Təlim prossesində sadaladığımız xüsusiyyətlərlə bərabər şəgirdlərdə vətənpərvərlik, öz vətəninə sevgi və s. aşılanmalıdır. Dərs şagirdlərin mənəvi inkişafına, əxlaqca təkmilləşməsinə, insanpərvərlik, əməksevərlik ruhunda yetişməsinə xidmət göstərməlidir [3.s.9]. İndi şagirdlərin demokratik ruhda tərbiyə edilməsi, gələcəkdə demokratiyamızın güvənli əllərdə olması deməkdir. Dərs prosesində birgə təşkil olunmuş iş yoldaşlıq, əməkdaşlıq, qarşılıqlı dəstək, şagirdlərin bir-birinə eləcə də, müəllimin şagirdə yardımı şagirdlərin şüurunda humanist və demokratik dəyərləri formalaşdırır. Müəllimin şagirdləri tədqiqatçılığa həvəsləndirməsi, onları azad tədqiqatçılığa meyyilləndirməsişəgirdləri azad fərd, şəxsiyyət olaraq inkişaf etdirir, onlarda özünə inam yaradır. Demokratiaya təlimi təhsilalanlarınazqd, tənqidi düşüncəsini, hər şeylə maraqlanmağını, diskussiya meylini inkişaf etdirməlidir. Artıq şagirdlər öz fikirlərini çəkinmədən ifadə etməyi öyrənirlər, öz hərəkətlərini, eləcə də, çevrəsində olan insanların hərəkətlərini təhlil edib mənfi və müsbət tərəflərini görməyi bacarırlar. Bu şagirdlərin məsuliyyətini artırır, bu isə şəxsiyyətin öz müsbət tərəflərini ortaya çıxarması deməkdir.

Dərs prossesində şagirdlərin fərdi və yaş xüsusiyyətlərinin nəzərə alınması vacibdir, ancaq yetərli deyil. Təlim və tərbiyyənin həyata keçdiyi bir mühit də bunlar qədər önəmlidir. Təlim və tərbiyənin həyata keçirildiyi mövcud şərait nəzərə alınmasa həyata keçirilən vahid tədbirlər lazımi nəticəni verməyəcək. Təlim prossesi yalnız o vaxd keyfiyyətli və səmərəli ola bilər ki, müəllim nəticəni əvvəlcədən görə bilsin. Təhsilin məqsədi dövlətin hazırki sosial-iqtisadi və siyasi durumuna, ideologiyası və siyasətinə müvafiq olaraq müəyyənləşdirilməlidir [2.s16]

Humanizm olduqca geniş anlayışdır, araşdırılan cəhətlərlə yanaşı, həmçinin, mənəvi dəyər kimi cəmiyyət həyatında əxlaqi münasibətlərin təzahürü kimi çıxış edir. Bu onu göstərir ki, humanizm həm əxlaq normasıdır, həm də mənəvi dəyərdir.

Ümumtəhsil məktəblərində təhsilalanların tərbiyə prossesinin formalaşmasında, həmçinin, davamlı olaraq sonrakı dövrlərdə də ailə və məktəb arasında qarşılıqı əlaqənin olması zəruridir. Şagird ailədə formalaşmağa başlayır, bu formalaşma məktəb dövründə də davam edir. Bu dövr çox uzun bir müddət, on bir il davam edir. Həmin müddət şagird şəxsiyyətinin formalaşması üçün, olduqca yetərlidir. Bu dövrü düzgün qiymətləndirməklə, təlim-tərbiyə prosesini keyfiyyətli, səmərəli təşkil etməklə və eyni zamanda ailə və müəllim birliyi əsasında istənilən nəticəni əldə etmək olar.

Gələcək cəmiyyətimizin necə formalaşacağı, gələcəyin qurucuları olan gənc nəslin hazırki dövrdə necə inkişaf etdirilməsindən, təhsil sistemimizdən asılıdır. Unutmaq olmaz ki, bir şagirdin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi yetişdirilməsi, onun demokratik və humanist ruhda tərbiyə edilməsi gələcək Azərbaycanın inkişafı deməkdir.

Ədəbiyyat

1. Rzayev O.H, Məmmədov S.M, İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Bakı, 2010.
2. Əsgərov Ş. Təhsilimiz dünən, bu gün və sabah. Bakı , 2000.
3. Məmmədov M.S. Tarixin tədrisinin aktual problemləri. Bakı,2015.

XÜLASƏ

Məqalədə ümumtəhsil məktəblərində şagirdlərdə demokratiya və humanizm prinsiplərinin formalaşdırılmasının əhəmiyyəti araşdırılmış, müxtəlif fikirlər irəli sürülmüşdür.

Гасанзада Дамла Севиндик кызы

Использование принципов демократии и гуманизма в преподавании истории в среднейшколе как важное средство воспитания образцовых граждан

РЕЗЮМЕ

В статье исследуется важность формирования принципов демократии и гуманизма у учащихся общеобразовательных школ, выдвигаются различные позиции.

Khasanzada Damla Sevindik gızı

The use of the principles of democracy and humanism in the teaching of history in secondary schools as an important means of educating exemplary citizens

SUMMARY

The article examines the importance of the formation of the principles of democracy and humanism in students in secondary schools, and puts forward various ideas.

Yusifli Yeganə Ehtiram qızı
Azərbaycan Dövlət Pedaqoji Univeristeti
Elmi rəhbər: t.ü.e.d., dos.S.M.Seyidova

ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ İNTERAKTİV TƏLİM METODU İLƏ KEÇİRİLƏN DƏRSİN SƏCİYYƏVİ XÜSUSİYYƏTİ

Açar sözlər: *İKT, təfəkkür, problemli situasiya, tədqiqatçı, mühazirə dərsləri, bələdçi, fəal təlim*

Ключевые слова: *ИКТ, мышление, проблемная ситуация, исследователь, лекции, руководство, интерактивное, обучение*

Key words: *İCT, thinking, problematic situation, researcher, lecture classes, guide, active learning*

Məlum olduğu kimi interaktiv təlim metodları ən yeni texnologiyalardan biri sayılır. Təlim texnologiyası deyəndə pedaqoji prosesdə təlimin ən yeni və ən səmərəli metodlarından, priyom, tərz və vasitələrindən istifadə etməklə yüksək elmi-intellektual səviyyəyə və nümunəvi mənəvi-əxlaqi normalara malik olan şəxsiyyətin yetişdirilməsi nəzərdə tutulur.

İnteraktiv təlim bilik, bacarıq, təcrübə və vərdişlərə yiyələnməyə,cəmiyyətin vətəndaşları üçün zəruri sosial və intellektual təfəkkürün, müstəqil çalışma, müstəqil düşünmə bacarıqlarının inkişafına kömək edən və demokratik üsullarla aparılan təlim prosesidir.

"İnteraktiv" latın sözü olub, iki mənada təqdim olunur. Birincisi "intero" şəklində, yəni "daxili", "içəri" mənasında, ikincisi isə "internaşin" şəklində yəni "ara", "qarşılıqlı əlaqə", "dialoq" "beynəlxalq" mənasında işlədilir. "Aktiv" və ya "akt" sözü isə beynəlxalq status almış "activation" sözündən olub, "fəaliyyət", "fəal", "fəallıq", "fəallaşmaq" mənasında işlədilir. Demək, "İnteraktiv" "qarşılıqlı əlaqə", "anlaşma", "əməkdaşlıq", "dialoq" deməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur.

Qeyd etdiyimiz bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, "interaktiv" sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir tələbənin öz müstəqil fikri, düşüncəsi və ideyası olur və hər bir zəif tələbə də fəallaşır. Bütün bunlar da, heç şübhəsiz, təlim

keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, tələbələrin mənimsəmə keyfiyyətini artırır.

İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar. İnteraktiv təlim üçün aşağıdakı cəhətlərsəciyyəvi ola bilər:

-müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması;

-problemin həlli prosesində tələbələrin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;

-tələbələr üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Yeni yanaşmanın mahiyyəti ondan ibarətdir ki, təlim prosesi tələbələrin yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün müntəzəm şəkildə inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib.

Bunu da qeyd edə bilərik ki, interaktiv təlim prosesində tələbənin mövqeyi - "kəşf edən", "tədqiqatçı", araşdırıcı" mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən, bunları müstəqil tədqiqat prosesində həll edir. Tələbələr təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər. Eyni zamanda interaktiv təlim prosesində müəllim də müəyyən problemə müxtəlif müstəvidən baxmaq bacarığına yiyələnir, fəlsəfi baxımından daha da zənginləşir, o daha dözümlü olur və öz hərəkətlərini və düşüncə tərzini yenidən təhlil etməyə məcbur olur [1, s.364].

İnteraktiv metodlarla qurulan dərs ənənəvi dərsdən onunla fərqlənir ki, burada təhsilalanlar özləri biliyi əldə edir, müstəqil çalışaraq, axtararaq bilik qazanır. Tələbələr təlim prosesinə fəal cəlb olunurlar. Müəllim isə daha çox istiqamət, məsləhət verir, o bələdçi rolunu oynayır. Auditoriyadakı iqlim tələbələrin sərbəstləşməsinə, müstəqilliyinə, fəallığına səbəb olur, onlar öz fikirlərini sərbəst söyləyə bilirlər. İnteraktiv dərsin dəqiq strukturu var və qarşıya qoyulan məsələləri həll etməyə imkan verir,tələbələr biliklərə yiyələnir, tədris proqramı zərər çəkmir.

İnteraktiv təlimin əsas üstünlüyü - real idrak motivasiyasının (biliklərə yiyələnmək həvəsinin) yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində tələbələrin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bilgilər "hazır" şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır.

Digər diqqət etməmiz lazım olan məsələ isə, əgər tələbə öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və möhkəm mənimsəyir [2, s.39].İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi tələbələrin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Belə olan halda təlimin səmərəliliyi (daha qısa müddətdə daha çox informasiyanı mənimsəmək imkanı) xeyli artır. Bunun aşağıdakı səbəblərini göstərmək olar:

-tələbələrin idrak fəaliyyəti və təlim motivasiyası hesabına;

-təfəkkürə əsaslanaraq biliklərin müstəqil, məhsuldar və yaradıcı şəkildə əldə edilməsi və mənimsənilməsi sayəsində

Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu müəllim üçün dərsin keyfiyyətini artırmaqda vacib vasitədir. Bu metod tələbələr üçün dərsi çox maraqlı və cəlbedici edir. Fəal interaktiv təlim həm təlimin məzmununun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, tələbələrin dərketmə fəaliyyətini daha da fəallaşdırır. Tələbələrin öyrənməyə həvəsi və nailiyyətləri artdıqca, müəllimin də fəaliyyəti yüngülləşir. Lakin bu o demək deyil ki, müəllimin zəhməti azalır. İnteraktiv təlim əslində dərsin hazırlanması və idarə edilməsi

üçün müəllimdən böyük zəhmət, işgüzarlıq və yaradıcılıq tələb edir.İnteraktiv üsullardan istifadənin səmərəliliyi üçün müəllim bunlara mütləq diqqət yetirməlidir [3, s.365].

1) Təlim materialını hərtərəfli öyrənməli vədərsi təfərrüatı ilə planlaşdırmalı

2) İnteraktiv üsulları tətbiq edərkən tələbələrə vaxt verməlidir ki, onlar tapşırığı yaxşı başa düşsünlər

3) Hər bir tələbənin bacarıqları və iş tempi nəzərə alınmlıdır, müəllim interaktiv tapşırığı tam başa salmayınca növbəti mərhələyə keçməməlidir

4) Dərsin sonunda tələsmədən tapşırığın nəticələri müzakirə edilməlidir

Bunu da qeyd edək ki, interaktiv təlim metodlarından hər bir mövzunun tədrisində istifadə etmək məsləhət görülmür. Dərsdə qarşıya qoyulmuş məqsəd, tələbələrə veriləcək bilik, bacarıq və vərdişlərin məzmunu, xarakteri, inteqrasiya imkanları, tələbələrin hazırlığı, yerli şərait, ali məktəbin maddi bazası və s. nəzərə alınmaqla interaktiv priyomlara müraciət edilməlidir.

İnteraktiv metodlarla keçilən dərslərdə tələbələrdə hər şeyi bilmək həvəsi, təşəbbüskarlıq yüksəlir, onların öyrənmə fəallığı, təlimin keyfiyyəti və səmərəliliyi artır, nəticədə mexaniki yaddaş deyil, yaradıcı təfəkkür inkişaf edir.

Ən son tədqiqatların nəticəsi göstərir ki, interaktiv təlim metodları effektiv nəticəni konstruktivizm nəzəriyyəsinə istinad edərək təlimə İKT-nin yaxından tətbiqi ilə verir və öz işləkliliyini daha da səmərəli edir. Psixoloqlar qeyd edirlər ki, informasiya insanın eşitdiklərinin 10%-i, gördüklərinin 50%-i, özü etdiklərinin isə 90%-i həcmində yaddaşında qalır. İKT-nin bu sahədə böyük dəstəyi öyrənənin şəxsi araşdırması zamanı güclü informasiya bankı ilə təmin olunmasındadır (internet, elektron kitablar, test və tapşırıqlar və s.).

Qeyd edə bilərik ki, ümumtəhsil ali məktəbinin müəllimi də hər şeydən əvvəl nümunəvi davranışa və yüksək əxlaqi saflığa malik olmalıdır. Mühaziraçi ixtisasını, onun nəzəri və təcrübi məsələlərini yaxşı bilməlidir. O tələbələrin biliyini, bacarığını və vərdişlərini, eləcə də digər fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bu, ona çıxışını necə qurmağı, mühazirə zamanı özünü necə aparmağı müəyyənləşdirməkdə kömək etməlidir. Mühaziraçinin davranış tərzi, danışığı, çəkdiyi misallar, hərəkətləri cəmiyyətimizin əxlaq normaları çərçivəsində olmalıdır.

Tarix müəllimi mütərəqqi dünyagörüşə, əqidə yetkinliyinə, yüksək siyasi mədəniyyətə malik olmalıdır. Mühaziraçi yaşadığı dövrün ideologiyası əsasında düşünməyi, mühakimə yürütməyi və tərbiyə etməyi bacarmalıdır. İnteraktiv metodlar müəllimin təkcə başqalarını öyrətməsinə deyil, onun özünün də öyrənməsinə, daha yaradıcı və enerjili pedaqoq olmasına imkan verir.

Məqalənin aktuallığı: İnteraktiv təlim metodunun tədris prosesinə daxil edilməsi təlimdə passivliyin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin, yaradıcılığının formalaşması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya kimi təhsil proqramında göstərilən prinsiplərin həyata keçirməyə imkan verir

Məqalənin elmi yeniliyi: İnteraktiv təlimin əsas şərti dərsin maraqlı qurulması, tələbənin dərs prosesinə fəal cəlb olunmasıdır. Müəllim çalışmalıdır ki, passiv tələbələrdə fəallaşsınlar. Müəllim dərsi elə qurmalıdır ki, təhsilalan dərs boyu axtarışda olsun və öz fikrini sərbəst ifadə edə bilsin. Fəal təlimlə qurulan dərslərin yüksək səviyyədə, maraqlı keçirilməsi üçün həvəsi olan, mənən zəngin müəllim kadrlarının olması çox vacibdir.

Məqalənin praktik əhəmiyyəti: Fəal interaktiv təlimin tətbiq edilməsi müəllimləri təhsilalana yönəlmiş və təhsil islahatlarının prinsiplərinə əsaslanan məqsəd və vəzifələri yerinə yetirməyə, müasir tələblərə cavab verən təlimin məzmununu yaratmağa, obyektiv, çevik qiymətləndirmə sistemi tətbiq etməyə, demokratik, sosial-psixoloji mühit yaratmağa sövq edir.

Ədəbiyyat

1. Kərimov Y.Ş Təlim Prosesində Yeni Texnologiyalar, Bakı 2011, 94 s.
2. Təhsildə Müasir Təlim Metdoları "Həftə İçi" qəzeti 2016, 16 noyabr

3. Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait, Unicef2007, 39 s.
4. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası, Bakı 2011, 364 s.
5. Nəzərov A. Müasir təlim texnologiyaları, Bakı 2012, 35 s.

XÜLASƏ

Məqalədə, tədris prosesində interaktiv təlimin üstünlüyü və səciyyəvi xüsusiyyətləri, ondan istifadənin aktuallığı, interaktiv metodla qurulan dərsin mahiyyəti və ənənəvi təlimdən fərqliliyi və başqa məsələlərə toxunulmuşdur.

Юсифли Е.Э.

Характерная особенность урока, проводимого методом интерактивного обучения в высших педагогических школах

РЕЗЮМЕ

В статье рассматриваются достоинства и недостатки интерактивного обучения в процессе преподавания, актуальность его использования, особенности уроков на основе интерактивных методов и отличия от традиционного образования и другие вопросы.

Y.E.Yusıflı

Characteristic features of the lesson conducted by the method of interactive teaching in higher pedagogical schools

SUMMARY

The article discusses the advantages and disadvantages of interactive learning in the teaching process, the relevance of its use, the features of lessons based on interactive methods and differences from traditional education and other issues.

Məmmədova Aytac Sevindik qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dosent. X.Q.İbrahimova

MÜƏLLİMİN PEŞƏKARLIQ SƏVİYYƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ONUN ŞƏXSİ KEYFİYYƏTLƏRİNİN YÜKSƏLDİLMƏSİNİN YOLLARI

Açar sözlər: *müəllim, peşə, pedaqoji fəaliyyət, pedaqoji proses, şəxsiyyət, qabiliyyət, prinsip, peşəkarlıq*

Ключевые слова: *учитель, профессия, педагогическая деятельность, педагогический процесс, личность, способность, принцип, профессионализм*

Key words: *teacher, profession, pedagogical activity, pedagogical process, identity, ability, principle, professionalism*

Müəllim pedaqoji fəaliyyətin əsas simalarından biri hesab olunur və gənc nəsillərin tərbiyə olunması kimi məsul işi yerinə yetirirlər. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti formalaşır, zənginləşir və inkişaf edir. Müəllim pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, müəllimin üzərinə düşür. Müəllim cəmiyyətdə çox böyük rol oynayır. Müəllim öyrəndiklərini, bir sözlə, yaşlı nəslin təcrübəsini gənc nəsilə ötürür. Görkəmli şəxsiyyətlər müəllimin əməyinə yüksək qiymət vermiş, müəllimi günəşə, bağbana, mühəndisə bənzətmişlər. Cəmiyyətin, millətin gələcəyi müəyyən mənada müəllimin əlindədir. Deyirlər ki, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir: biri milləti mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcəkdir. Bu hal müəllim kadrlarının hazırlığına xüsusi diqqət yetirməyi tələb edir.

Müəllimlik peşəsi deyə bilərik ki, cəmiyyətimizdə kütləvi peşədir. Kütləvi peşə olduğu üçün də,indiki gənclərin müəllimliyə olan maraqları daha da azdır. Müəllimlik peşəsi gərəklidir və nadir peşədir. Bu peşə kütləvi olmaqla bərabər, həm də nadir peşədir. Çünki müəl-

lim çox olsa da, yadda qalan bir-iki nəfər olur. Onlar da həyatımızda böyük rol oynayırlar. Məhz müəllimin sayəsində insanlar əsaslı elm və biliklər qazanır,həyatda özünə doğru yol seçə bilirlər. Müəllim elə bir elm, bilik daşıyıcısıdır ki, onsuz heç bir tərəqqi, inkişaf da ola bilməz. Müəllimlik məsuliyyətli peşədir. Çünki müəllim insan üzərində işləyir və burada səhvə yol vermək olmaz. Bu işdə buraxılmış səhv, nöqsan öz nəticəsini dərhal olmasa da, bir müddətdən sonra hökmən göstərəcəkdir. Müəllim əməyi yeganə səciyyəvi sənətdir ki, özü öz əməyini qiymətləndirir. Yəni uşaqlara verdiyi biliyin nəticəsini özü yoxlayır. Müəllim şagirdlərə bilikləri hazır, mexaniki şəkildə ötürməməlidir. Bu prosesdə münasibətlər ön planda durmalıdır. Yeni məktəb quruculuğunun mühüm şərtlərindən biri müəllimin şagirdə bir şəxsiyyət kimi yanaşması, ona gələcəyin böyük adamı kimi baxmasıdır. Təcrübələr göstərir ki, kiçik məktəblilərin nəzərində ibtidai sinif müəlliminin nüfuzu daha böyükdür. Balacalar müəllimi bir ideal şəxsiyyət kimi sayır. Beləliklə, deyə bilərik ki, yeni, müasir məktəbin yaranmasında müəllimin rolu çox böyükdür. Bu işdə müəllimlərimizdən yüksək peşəkarlıq, dərin bilik və geniş dünyagörüş tələb olunur.

Bu gün müəllimin mənəvi siması hər dövrdə olduğundan daha böyük əhəmiyyət kəsb edir. Yəni dövlət quruculuğu bir çox cəhətdən yeni məktəb quruculuğundan, yeni müəllim kadrlarının hazırlığından başlayır. Elə bir müəllim ki, cəmiyyəti daha işıqlı, daha xoşbəxt günlərə apara bilən nəsillər yetişdirib, tərbiyə edə bilir.Bu cəhətdən hər bir peşənin özünəməxsus prinsipləri olduğu kimi müəllim peşəsinin də özünəməxsus prinsipləri vardır. Hər bir müəllim öz pedaqoji fəaliyyətində həmin prinsiplərə əsaslanmalıdır. Vətənpərvərlik prinsipi müəllimin pedaqoji fəaliyyətinin ən mühüm prinsipi hesab olunur. O, bütün pedaqoji fəaliyyətini, əməyini vətənin qüdrətlənməsi və inkişafına sərf etməlidir. Müəllim öz yetişdirmələrində vətənə böyük məhəbbət və dərin vətən sevgisi aşılamalıdır.Müəllim vətən torpağını yağı düşmənlərdən qorumağı öyrətdiyi kimi, vətənin düşmənlərini də uşaqlara tanıtmalıdır. Müəllim peşəsinin mühüm bir prinsipi peşə fədakarlığıdır. Yəni müəllim öz peşəsi yolunda canını, qanını qoymalı, yetişdirmələrinin səadəti naminə fədakar olmağı bacarmalıdır. Müəllimin fədakarlığı onun daim yenilik həvəsində olması, hər gün çalışmasında, yaradıcı fəaliyyətində mühüm yer tutur. Yəni müəllimlər ilk növbədə uşaqlara münasibətində həmrəy olmalı, onlara vahid tələbkarlıqla yanaşmalıdırlar. Digər bir prinsip isə humanizm prinsipi müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsidir. Müəllim insanları, o cümlədən öz yetişdirmələrini dərin məhəbbətlə sevib hörmət etməlidir. Yalnız sevgi ilə ən çətin, ən acı şeylər uşaqlara öyrədilə və çatdırıla bilər. Humanizm müəllimin uşaqlara hədsiz diqqət və qayğısı, həssaslığıdır. Humanizm prinsipi tələb edir ki, müəllimlər məktəbdə uşaqların rahatlığı qayğısına qalsın, onları döymədən, söymədən, təhqir etmədən təlim və tərbiyə etsinlər.

Humanizmlə bağlı düşmənə nifrət məsələsi də vardır. Düşmənə nifrət etməyi də, insanları sevməyi də öyrətmək lazımdır. Müəllimin humanizmi onun hər bir rəftarında, davranışında, söhbətində, uşaqlara münasibətində özünü göstərməli və o hər zaman mehriban, səmimi olmalı, uşaqların səviyyəsinə enməyi bacarmalıdır.Uşağın ləyaqətinə hörmət etmək müəllimin öz ləyaqətini qat-qat yüksəldir.

Pedaqoji nikbinlik prinsipinə gəldikdə, müəllim peşəsinin ayrılmaz tərkib hissəsidir. Bu prinsip tələb edir ki, müəllim öz şagirdlərinə yüksək nəzərlərlə, onun gələcəyinə böyük ümidlə baxsın. Nikbinlik insanın daxili aləmini ifadə edən bir keyfiyyətdir ki, bu insanın xeyirxahlığını başqası haqqında yüksək və yaxşı fikirdə olmasını, gələcəyə müsbət fikirlərlə yanaşmasını göstərir. Nikbin müəllim öz əməyinin bəhrəsinə inanır. O inanır ki, yetişdirdiyi şagirdlər cəmiyyət üçün faydalı, xeyirli insanlar olacaqlar. Bunun üçün o öz peşəsindən razıdır və o özünü xoşbəxt hiss edir. Bu inam təkcə ona görə vacib deyil ki, müəllim öz əməyindən zövq və həzz alır, bir də ona görə vacibdir ki, müəllimin uşaqlara göstərdiyi inam onları həvəsləndirən, yaxşı oxumağa sövq edən bir mənbə olur.Pedaqoji fəaliyyətdə **müəllimin şəxsiyyəti** böyük əhəmiyyətə malikdir. Başqa peşə sahiblərindən fərqli olaraq müəllimin şəxsiyyəti onun işinə — pedaqoji prosesə bilavasitə təsir göstərir. Müəllim ilk növbədə, öz şəxsiyyəti ilə tərbiyə edir. Təlim-tərbiyə işində müəllimi heç nə əvəz edə bilməz. Öz işinin öhdəsindən uğurla

gəlmək üçün müəllim əsl mənada şəxsiyyət olmalı, özündə müsbət keyfiyyətlər formalaşdırmalıdır. Müəllimin başlıca şəxsi keyfiyyətlərinə bunları göstərmək olar. Müəllim yüksək əqidə, məslək sahibi, müəllim – Vətəndaş olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir. Müəllimlik-vətənpərvərlik peşəsidir. Məhz müəllim uşaqları, gəncləri vətənə məhəbbət ruhunda tərbiyə edir, onları vətənin müdafiəsinə hazırlayır.

Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. O, özündə zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri (düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik və b.) cəmləşdirməlidir. Müəllim tərbiyə işinə özündən başlamalıdır, çünki özündə olmayan keyfiyyəti başqalarına vermək olmaz. Müəllim dərin biliyə, erudisiyaya malik olmalıdır. Bilik müəllimin əsas silahıdır.Y.A.Komenski biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Müəllim fənnini, peşəsini və uşaqları sevməlidir. Müəllim yüksək nüfuz sahibi və uşaqlara nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər.

Müəllim pedaqoji prosesdə əsas sima kimi o zaman çıxış edə bilər ki, o, yüksək peşəkarlığa — pedaqoji qabiliyyətlərə yiyələnmiş olsun. Müəllimin peşə qabiliyyətləri sırasında akademik, didaktik, ünsiyyət, konstruktiv, təşkilatçılıq və iradi-emosional qabiliyyətlər mühüm yer tutur. Akademik qabiliyyət - geniş və dərin biliyə malik olmaqda, elmin son nailiyyətlərini öyrənməkdə və şagirdlərə çatdırmaqda ifadə olunur. Didaktik qabiliyyət-bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə özünü göstərir. Ünsiyyət (kommunikativ) qabiliyyəti- uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiyyət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur.Konstruktiv qabiliyyət -özünün və uşaqların (kollektivin) fəaliyyətini düzgün planlaşdırmaqda, çətinlikləri əvvəlcədən duyub, onları aradan qaldırmağa hazır olmaqda ifadə olunur. İradi-emosional qabiliyyət-müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqda ifadə olunur. Hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

Müəllimlik müqəddəsdir. Müəllimlikdə öz vəzifələrini layiqincə yerinə yetirən insanlar müqəddəsdir.

Müəllimin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsində onun şəxsi keyfiyyətlərinin yüksəldilməsinin yolları

XÜLASƏ

Məqalədə müəllimin peşakar səviyyəsinin inkişaf etdirilməsində onun şəxsi keyfiyyətlərinin yüksəldilməsinin yolları təhlili edilir, ümumiləşdirilir. Bununla bağlı fikirlərə aydınlıq gətirilir. Müəllimin şəxsi keyfiyyətləri haqqında məlumat verilir. Müəllimin peşakar səviyyəsinin inkişaf etdirilməsində müəllimə lazım olan qabiliyyətlər izah edilir.

Пути повышения личностных качеств учителя в развитии его профессионального уровня

РЕЗЮМЕ

В статье анализируются и обобщаются пути повышения личностных качеств учителя в развитии его профессионального уровня. Мнения на этот счет уточняются. Дается информация о личных качествах учителя. Объясняет навыки, необходимые учителю для развития профессионального уровня учителя.

Ways to improve the personal qualities of a teacher in the development of his professional level

SUMMARY

The article analyzes and summarizes the ways to improve the personal qualities of the teacher in the development of his professional level. Opinions in this regard are clarified.

Information is given about the personal qualities of the teacher.Explains the skills a teacher needs to develop a teacher's professional level.

Məmmədova Aytac Sevindik qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dosent.X.Q.İbrahimova

MÜƏLLİMİN PEŞƏKARLIQ VƏ SƏRİŞTƏLİYİNİN FORMALAŞMASINDA YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ

Açar sözlər: *bilik, bacarıq, pedoqji proses, peşəkarlıq, səriştəlik, təhsilalan, inkişaf, şəxsiyyət, təlim, tərbiyə*

Ключевые слова: *знание, навык, педагогический процесс, профессионализм, компетентность, образованный, разработка, личность, обучение персонала, воспитание*

Key words: *knowledge, skill, pedagogical process, professionalism, competence, personality orientation, educated, development, identity, training, upbringing*

Müəllim üçün vacib olan, onun əsas keyfiyyətlərindən sayılan peşəkarlıq və səriştəlik pedaqoji fəaliyyətdəşəxsiyyətin inkişafında onun bir şəxsiyyət kimi formalaşmasında mühüm yer tutur. Müəllimin peşəkarlıq və səriştəliyi dedikdə, müəllimin pedaqoji prosesdə peşəkar olmasını, öz işini peşəkarlıqla yerinə yetirməsi, lazım olan bilik vəbacarıqları təhsilalanlara yaradıcı şəkildə çatdırması, texnologiyalarını bilməsi və dərs prosesinin ən kiçik məqamlarına dərindən yiyələnməsidir.Peşəkarlıq vəsəriştəlilik ayrı-ayrılıqda mümkün deyildir, onlar bir – biri ilə elə sıx bağlı olub, biri digərinin tamamlayır.

Peşəkarlıq və səriştəlilik müəllimin öz işinə məsuliyyətli yanaşması və şagirdlərin şəxsiyyətyönümlülüyünü, nəticəyönümlülüyünü həyata keçirməklə onların idrak fəallığı və təfəkkürünün inkışafına təsir edən bir amil kimi rolu əvəzedilməzdir.

Səriştəlik peşəkar müəllimin öz işini düzgün təşkil etməsidir, yəni müəllim sahib olduğu bilik və bacarıqlarını təhsilalanlara ən lazimi əlverişli üsullarla praktiki fəaliyyətdə səmərəli tədbiq etmək qabiliyyətidir. Səriştəli müəllim qazandığı bilik və bacarığın konkret olaraq fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Peşəkar müəllim müəllimlik işini yaxşı bilən, tədris etdiyi fənnə dərin və hərtərəfli biliklə yiyələnən, təlim-tərbiyə prosesində yeni pedoqoji texnologiyalardan səmərəli istifadə edən, öz işinə bağlı olan bir mütəxəssis hesab olunur. Belə müəllimlər fənnini gözəl bilməklə yanaşı, təhsilalanlara daimayeni biliklərin çatdırılması üçün daimi araşdırmalar aparır, yeniliyə can atıraq pedaqoji prosesə yaradıcı yanaşır və öyrənməyə ehtiyac duyurlar.

Təlim-tərbiyə prosesində problemlərin həllində operativ, çevik metodlardan istifadə edərək fərqli və daha düzgün qərarlar qəbul edirlər. Səriştəli müəllim təkcə bu gün üçün deyil, həm də gələcəyi düşünərək hərəkət edir, planlaşdırdığı işlərin nəticəsini əvvəlcədən görməyi bacarır. Müəllim başlıca olaraq öz mədəniyyəti ilə seçilməlidir. Peşəkar və işinə səriştəli yanaşan müəllim isə peşəkarlıq nümunəsi kimi çıxış edir. Pedoqoji fəaliyyət zamanı müəllim təhsilanlara dəyər verir, onlara bir şəxsiyyət kimi yanaşır. Peşəsinə yaxşı sahib olan müəllim üçün şagirdlərlə, tələbələrlə ünsiyyətdə olmaq elə də çətin deyil, onun təhsilalanlarla ünsiyyəti, nitqi davranışları, mimikası, verbal və qeyri-verbal ünsiyyət formaları nizamlı şəkildə olaraq bir-birini tamamlayır.

Yüksək səriştəyə və peşəkarlığa malik olan müəllim təhsilalanlara proqram mövzularını mənimsətməklə yanaşı, yeni pedaqoji texnologiyalardan istifadə edərək öyrənməyin yollarını öyrətməyi və onlara problemi həll etmə bacarıqalarına, səriştəsinə yiyələnməyə istiqamətləndirir.

Hazırda pedoqoji texnologiyaların çoxluğu müasir müəllimin orta və ali məktəblərdə işləməsindən aslı olmayaraq,bu yeni texnologiyaları öz gündəlik fəaliyyətinə gətirməklə təhsilalanların idrakının inkişaf etdirir, onları pedaqoji prosesin fəal iştirakçısına çevirir.

Təhsil sisteminin inkişaf istiqamətinin başlıca stratergiyası təhsilalanların şəxsiyyətini diqqət mərkəzində saxlamaqdır.Bunun üçün də ilk növbədə təlim-tərbiyəprosesinin təşkilati-struktur vahidi olan dərsin keyfiyyətinin yüksəldilməsinə və dərsə verilən yeni tələblərin

həyata keçirilməsini təmin etmək müəllimin başlıca vəzifələrindəndir.Bu da peşəkar müəllimin yeni pedaqoji texnologiyaları dərsətədbiq etməsindən əsaslı sürətdə asılıdır.

Pedaqoji texnologiyalarla işləmək ustalıq tələb edir. Müəllimlərdə pedaqoji ustalıq əlbəttə ki, eyni dərəcədə ola bilməz. Müəllim öz işini yüksək səviyyədə görmək üçün pedoqoji texnologiya yiyələnməlidir. Yeni təlim texnologiyalarından lazımınca istifadə edən müəllimdə təşkilatçılıq, təlim, perespektiv, kommunikativ, suqqestiv, tədqiqatçılıq, elmi-idraki qabiliyyətlər bərabər sürətdə özünü göstərməlidir. Peşəkar bir müəllim üçün bu qabiliyyətlərin olması müəllimin fənni daha mükəmməl keçməsinə zəmin yaradır. Onu da qeyd etmək lazımdır ki, müəllimin qabiliyyətləri içərisində didaktik və təşkilatçılıq qabiliyyəti aparıcı, qalanları isə köməkçidir qabiliyyətlərdir.

Tədris prosesində təhsilalanların hərtərəfli şəxsiyyət kimi formalaşması üçün pedaqoji texnologiyalardan məqsədəuyğun kompleks şəkildə istifadə edilməsi daha yüksək naliyyətlər əldə etməyə imkan verir.

Təlimin məzmununa uyğun texnologiyaların seçilməsi, onların ardıcıl yerinə yetirilməsi əsasən məqsədəmüvafiq şəkildə həyata keçirilməlidir. Müəllimin pedaqoji texnologiyaların köməyi ilə həm əməyini asanlaşdırmağı bacarmalı, həm də təhsilalanların biliyinin daha yaxşı inkişafı üçün çalışmalıdır. Təlim texnologiyalarının inkişafı göstərir ki, hər bir fənni öyrətmək üçün texnoloji prosesini yaratmaq mümkündür. Pedaqoji texnologiyalar dedikdə, qabaqcadan verilmiş xarakteristikalar üzrə komputer təlimi üçün işlənib hazırlanmış, optimal didaktik proseslər başa düşülür. Praktiki plan hazırlayan zaman peşəkar müəllim yeni təlim texnologiyalarından istifadə zamanı texnoloji cəhətdən hazırlanmış metodlardan, priyomlar sistemindən, tərbiyə işinin metodikasından və metodologiyasından istifadə edir. Təlimin metodları təlimdə müəyyən məqsədə nail olmaq üçün müəllim və təhsilalanların fəaliyyətini nizama salınması qaydasıdır.

Pedaqoji praktikada daha geniş tədbiq olunan şəxsiyyətyönümlü-inkişafetdirici pedoqoji texnologiyalar olaraq əməktaşlıq təlim texnologiyasını, layihələr metodu ilə təlim texnologiyasını, modullu təlim texnologiyasını göstərmək olar. Peşəkar müəllimin formalaşması üçün müəllim əməktaşlıq texnologiyalarından istifadə etməyi bacarmalı, şagirdlərə biliyi kollektivlə birlikdə öyrətmək ideyasını həyata keçirtməlidir. Peşəkarlıq praktika ilə formalaşan bir xüsusiyyətdir və müəllim işinin peşəkarlığına yeni pedaqoji texnologiyalar sanki bir rəng qatır.

Layihələr metodundan müəllim müxtəlif təlim vasitələri, informasiya texnologiyalarından, komputer telekommunikasiya, elektron təlim resursları - baza göstəriciləri, video, multimedia vasitələri, ənənəvi tədris vasitələrindən istifadə etməklə dərsini maraqlı və cəlbedici tədris etməyi bacarır.

Modullu təlim texnologiyalarından istifadə müəllimin peşəkar kimi formalaşmasını, onun qarşıya qoyulan problemlərin həllinə müstəqil olaraq, şagirdlərin müxtəlif mövzular üzrə texnologiyalardan istifadə edərək, onların dərsdə və dərsdənkənar vaxtlarda modullun iş prosesində məqsədlərinə nail olması başa düşülür.

Bugünki pedaqoji texnologiyalardan istifadə həm müəllim üçün, həm də təhsilalanlar üçün biliyin daha asan mənimsədilməsinə şərait yaradır.

Ədəbiyyat

1. Müseyib İlyasov. Müəllim peşəkarliği və pedaqoji səriştəliyinin müasir problemləri. Monoqrafiya “Elm və təhsil” Bakı – 2018
2. Paşayev Ə.,Rüstəmov F .Pedaqogika Bakı- “Elm və Təhsil “-2010
3. İbrahimov F.,Hüseynzadə R. Pedaqogika Bakı ,2012
4. Kazımov N. Məktəb pedoqogikası .Bakı :Çaşıoğlu ,2002.

Müəllimin peşəkarlıq və səriştəliyinin formalaşmasında yeni pedaqoji texnologiyalardan istifadə

XÜLASƏ

Məqalədə müəllimin peşakarliq və səriştəliyinin formalaşmasında yeni pedaqoji texnologiyalardan istifadə ilə bağlı müxtəlif fikirlər təhlil edilir, ümumiləşdirilir. Peşəkar və

səriştəli müəllimin xüsusiyyətlərindən danışılır. Yeni pedaqoji texnologiyalardan istifadə edən müəllimin malik olduğu bacarıqlar izah edilir.

Использование новых педагогических технологий в формировании профессионализма и компетентности учителя

РЕЗЮМЕ

В статье анализируются и обобщаются различные взгляды на использование новых педагогических технологий в формировании профессионализма и компетентности учителя. Обсуждаются характеристики профессионального и компетентного учителя. разъясняются навыки учителя, использующего новые педагогические технологии.

Use of new pedagogical technologies in the formation of professionalism and competence of the teacher

SUMMARY

The article analyzes and summarizes various views on the use of new pedagogical technologies in the formation of professionalism and competence of the teacher. The characteristics of a professional and competent teacher are discussed. the skills of a teacher using new pedagogical technologies are explained.

Əliyeva Lamiə Rəis qızı
Magistrant
Azərbaycan Dövlət Pedoqoji Universiteti

İNTERAKTİV VƏ FƏAL TƏLİM METODLARI

Açar sözlər: *tədris prosesində multimedia texnologiyalarından istifadə, fəal təlim sessiyaları*

Ключевые слова: *использование мультимедийных технологий в учебном процессе, активные занятия*

Key words: *use of multimedia technologies in the teaching process, active learning sessions*

Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar, milli qurumlar, müasir təlim metod və texnologiyalarının təbliği müəllimlər arasında yayılması ilə əlaqədar 10 ildən artıqdır ki, seminarlar, mühazirələr, layihələr keçirirlər. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar yaradıcılığı, müstəqilliyi inkişaf etdirməklə yanaşı, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasibətini, mənəvi dünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir.

Tədris prosesində təlimin keyfiyyətinin artırılması məqsədilə tətbiq olunan interaktiv metodlarından istifadə zamanı İKT və digər vasitələr əhəmiyyətli rol oynayır. İnformasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi müxtəlif dərs formalarının həyata keçirilməsinə və onların istifadə olunması üçün pedaqoji şərtlərin formalaşdırılmasına imkan vermişdir. Belə ki, tətbiq edən müəllimin bu sahə üzrə müəyyən bacarıq və vərdişlərinnin olması,internet resurslarına və multimedia vasitələrinə uyğun olan təhsil şəraitinin yaradılması, tədris olunan fənnin (və ya mövzunun) məzmununun müfəssəl şəkildə çatdırılmasına nail olunması zəruri tələblərdir.

Multimedia təqdimatlar etmək üçün güclü bir vasitə olmaqla yanaşı, bu sahədə misilsiz üstünlüklər təqdim edir. Təhsil və eyni zamanda şagirdlərin mövzularını ətraflı bir şəkildə öyrənməklərinə imkan verir. Texnologiya mütləq təhsili idarə etmir. Bu rol tələbələrin öyrənmə ehtiyaclarına aiddir. İndiki və kiçik faydalar: vaxt qənaəti, aydınlıq, görüntü, materialın təqdimat formalarının sürətli dəyişməsi, onların yığılması və elektron qoruma. Multimedia məsafədən və fərdi

öyrənmə tərzinə uyğunlaşdırılmalı və müəllimlər ilə tələbələr arasında əməkdaşlığı artırmalıdır. Multimediya ilə məlumatlar daha təsirli bir şəkildə öyrənilə bilər və təsirli ola bilər.

Təhsil materialının multimedia təqdimatı şəklində təqdim edilməsi təlim müddətini əhəmiyyətli dərəcədə azaldır. Dərsdə belə anların aparılması şagirdləri yeniliyə cəlb edir. Bu kimi dərslər aşağıdakı didaktiki tapşırıqları tamamlamağa kömək edir:

1. mövzu ilə bağlı əsas bilikləri birləşdirmək;
2. əldə edilmiş bacarıqları sistemləşdirmək;
3. özünə nəzarət bacarıqlarını inkişaf etdirmək;
4. ümumiyyətlə öyrənmək üçün motivasiya formalaşdırmaq (xüsusilə müəyyən bir mövzu);
5. tələbələrə tədris və metodiki kömək göstərmək.

Təhsil müəssisələrində kompüter texnologiyalarının gələcəyi birbaşa onların ilkin dövrünün nə qədər yaxşı düşünülməsindən asılıdır.

Belə nəticəyə gəlmək olar ki, dərsin mövzusu nə qədər mürəkkəb və ya darıxdırıcı olur-sa-olsun, mövzuya diqqət olacaqdır. Ekranda tədris materialı illüstrasiyalar, musiqi və digər effektlərlə təqdim edilərsə şagird üçün maraqlı olacaqdır.

İkinci addım müəllimin dərslərdə təqdimat yaratmaq texnologiyasına yiyələnməsidir. Təcrübəniz varsa, dərs üçün son dərəcə sürətli slaydlar düzəldə bilərsiniz. Çox əlverişlidir. Müəllim zərurətdən uzaqlaşır birbaşa dərsdə vaxta qənaət edir.

Fəal təlim metodu dedikdə isə kompüter dəstəyi ilə təlim sessiyasılarının aparılması nəzərdə tutulur. Kompüter dəstəyi ilə təlim sessiyalarına aşağıdakılarını nümunə göstərmək olar:

Məkan: kompüter sinfi;həmişə 2-3 kompüterin olduğu bir sinif (şagirdlər kompüterlərdə qrup şəklində və ya növbə ilə işləyirlər).

Bu cür təlim sessiyalarında tələbələr bir dərslik (mətn materialı, şəkillər) ilə işləyir, eyni zamanda praktik tapşırıqlar, təlim və nəzarət xarakterli tapşırıqlar yerinə yetirirlər. Dərsin belə bir təşkili ilə müəllim şagirdlərin bilik səviyyəsini təhlil etmək və onlara obyektiv qiymət vermək, habelə məlumatdakı boşluqları müəyyən etmək imkanına malikdir.Multimedia texnologiyalarının tətbiqi ilə yaradılan elektron dərsliklərdə aşağıdakı tələbləri nəzərə almaq lazımdır.

Motivasiya- dərs prosesinin əsası olub, dərsi bütövlükdə dəstəkləməlidir.

Bəhs olunan mövzular daha aydın və dəqiq ifadə edilməlidir.

Materialın yadda saxlanılmasında daha əlverişli imkanların yaradılması.

Təlim sessiyasına aşağıdakılar daxildir:

- kompüter testi üçün təlim sessiyaları (kompüterdə fərdi işi nəzərdə tutur);
- təlim və ya dizayn üzrə təlim sessiyaları (tələbələr fərdi və ya qrup şəklində kompüterdə işləyirlər).

Bu cür təlim sessiyalarında, bir qayda olaraq, müəyyən bir problemin həllinə imkan verən bir kompüter mühiti istifadə olunur. Məsələn, riyaziyyat dərslərində müəyyən tipli problemlərin həlli üçün simulyator və ya həndəsi məsələlərin modelləşdirilməsi üçün bir mühit ola bilər.

İnformatika ilə inteqrasiya olunmuş bir təcrübə.

İnteqrasiya olunmuş təlim sessiyalarının şagirdlərin kompüterlərə giriş imkanları olan bir kompüter laboratoriyasında aparılması tövsiyə olunur. Bu cür təlim sessiyalarında müəyyən bir prosesi simulyasiya etmək və lazımi hesablamaları etdikdən sonra nəticə çıxarmaq məsləhətdir. Belə bir təlimin bir fənn müəllimi və bir kompüter elmləri müəllimi tərəfindən aparılması tövsiyə olunur. Fənn müəllimi vəzifə qoyur, tələbə ilə birlikdə aralıq və yekun nəticələri təhlil edir, nəticə çıxarır. Kompüter elmləri müəllimi şagirdlərə prosesin riyazi modelini qurmağa və bu model üçün lazım olan bütün hesablamaları aparmağa kömək edir.

İnternet mənbələrindən istifadə edərək ənənəvi təcrübə.

Belə bir təhsil dərsində fləş kart daşıyıcılarda (dərsliklər, təlimat kitabları, oxu kitabları, problemli kitablar, lüğətlər, məlumat kitabları, testlər, simvolik əşyalar, statik və dinamik modellər və s.) və təhsil İnternet mənbələri lazımdır.

Şadirdlərin gücü ilə videoroliklərin yaradılma metodikasının tətbiqi haqqında ayrıca danışmaq lazımdır. Onların yaradılması dolğun layihə fəaliyyətidir. Bu zaman uşaqlar, hədəfi müəyyən etməyi, komandada işləməyi, öz fəaliyyətini qiymətləndirməyi və onun nəticələrini göstərməyi öyrənirlər.

Video-texnologiyalardan istifadəni digər təlim metodlarından əhəmiyyətli fərqləndirən nədir?

- İnternet şəbəkə olduqda videorolik formatında olan dərs materialı istənilən vaxt, istənilən nöqtədən əlçatandır;
- materiala istənilən qədər baxmaq olar;
- video aksentlərin qoyulmasına və dərs materialının «mənasını idarə etməyə» imkan verir;
- tədrisdə videonun tətbiqi dərsdə virtual iştirak effektinə nail olmağa kömək edir;
- video texnologiyalar dərsdə təhlil üçün istənilən vəziyyəti, istənilən süjeti modelləşdirməyə imkan verir.

Ədəbiyyat

1. http://sch169.minsk.edu.by/ru/main.aspx?guid=24361
2. file:///C:/Users/HP/Downloads/multimediaeducation2_08%20(1).pdf
3. Андерсен Бенм Б.Мультимедиа в образовании [Текст] / Камня ван Ден Бринк. - М.: Дрофа, 2007.-224с.-.İSBN: 978-5-358-00594-5.
4. https://pedsovet.su/metodika/5996_aktivnye_i_interaktivnye_metody_obucheniya

XÜLASƏ

Təhsil prosesində interaktiv multimedia texnologiyalarının istifadəsi, sinifdəki kompüter mühiti, İnternet resurslarından istifadə.

РЕЗЮМЕ

Использование интерактивных мультимедийных технологий в учебном процессе,компьютерная среда на учебных занятиях, использование Интернет-ресурсов.

SUMMARY

The use of interactive multimedia technologies in the educational process, the computer environment in the classroom, the use of Internet resources.

Abdullayeva Nurlanə Cəlal qızı
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNTERAKTİV TƏDRİS METODU İLƏ PROQRAMLAŞDIRMANIN ÖYRƏDİLMƏSİ TEXNOLOGİYASI

Açar sözlər: *Scratch proqramlaşdırma dili, ibtidai təhsil, sinifdə tədrisin təkmilləşdirilməsi,interaktiv təlim metodları*

Ключевые слова: *язык программирования Scratch, начальное образование, совершенствование обучения в классе, интерактивные методы обучения*

Key words: *Scratch programming language, primary education, improvement of classroom teaching, interactive teaching methods*

XXI əsrin səriştələri baxımından qlobal bir cəmiyyətdə informasiya əsrində yaşamaq üçün lazım olan bacarıqlara ehtiyacımız var və bunlar kompüter, informasiya texnologiyaları, media və informasiya savadlılığı bacarıqlarıdır. Ornelas-Marques and Marques (2012) bacarıqların XXI əsr üçün əhəmiyyətinə işarə etmişdilər. Papadopoulos və Tegos kompüter elmləri

təhsili sahəsindəki araşdırmaların ön plana çıxdığını bildirdi bir çox tələbənin problem həll etmə və hesablama düşünmə qabiliyyətlərindən məhrum olduğunu vurğulamışdırlar. Bir çox müəllim hələ də tələbələrə proqramlaşdırma bacarıqları və məntiq öyrətmə prosesidə çətinlik çəkir. Yəni bu çətinliklər tədris metodikamızın sorğulanması haqqında problemə gətirib çıxarır. Proqramlaşdırma üçün Ornelas-Marques and Marques ***Scratch*** proqramlaşdırma dilinin kiçik yaşlarda öyrədilməsi üçün zəmin yaratdılar. Şagirdlərə Scratch kimi bir proqramlaşdırma dilindən istifadəni öyrətmək gələcək nəsil üçün proqramlaşdırma sahəsində ediləcək böyük uğurların başlanğıcı hesab edilirdi. Uşaqlara proqramlaşdırmanı öyrətmə müddətində problem həll etmə bacarıqları onlara mənimsədilirdi. Scratch, interaktiv hekayələr, oyunlar və animasiyaların proqramlaşdırılması üçün istifadə edilə bilən bir proqramdır. Şagirdlərə yaradıcı düşünməyə, sistemli düşünməyə və işləməyə kömək edir. Kompüter proqramında cızma, yenidən istifadə edilə bilən kod parçalarına işarə edir. Asanlıqla birləşdirilə, paylaşıla və uyğunlaşdırıla bilən hissələrdən ibarətdir. Tələbələr hekayələr, oyunlar, incəsənət,musiqi, animasiyalar və daha çox şeyi *Scratch*-dan istifadə edərək yarada bilərlər. ***Scratch*** ABŞ-da MIT (Massachusetts Technology Institute) tərəfindən, 8-16 yaş arası uşaqların istifadəsi üçün hazırlanmış və çox sadə bir interfeysə sahib olan bir proqramlaşdırma dilidir. Ənənəvi proqramlaşdırma dillərindən fərqli olaraq istifadəçi siçan ilə istədiyiniz funksiyaları klikləyib, sürükləyərək animasiyalar, oyunlar və hekayələr yarada bilər. Rəngarəng bir interfeysə sahib olduğu üçün uşaqları animasiya yaratmağa təşviq edir. *Java, C, Python , PHP, Visual Basic* kimi bir çox proqramlaşdırma dillərindən əlavə, Scratch hazır funksiyaları kateqoriyaya ayırır və istifadəsini asanlaşdırır. Bu şəkildə proqramlaşdırma ilə yeni tanış olan insanlar, "if, else, while, for" kimi kompleks kod quruluşlarından və durğu işarələri kimi diqqət tələb edən kod sətirlərindən istifadə etmədən alqoritm quruluşunu qavraya bilərlər. 5-7 yaş arası uşaqlar üçün *ScratchJr* proqramlaşdırma dili olan Scratch'ın sadələşdirilmiş versiyası mövcuddur. Gənclərlə aparılan bəzi tədqiqat işləri nəzərdən keçirildikdə, məktəbəqədər müəllimlərin ümumilikdə proqramlaşdırma dilləri sintaksisini mənimsəməsində çətinlik çəkdikləri üçün hesablama və yaradıcı düşüncəni inkişaf etdirmək, mümkün çətinliklərin öhdəsindən gəlmək üçün Scratch istifadə edərək bir kompüter təcrübəsi kursu yenidən qurulmuşdur. Məktəbəqədər müəllimlərin düşüncə proseslərini platformaya qoymaq məqsədi ilə müəllimlər üçün Scratch proqramından istifadə edilmişdir. Ənənəvi kompüter proqramlaşdırma dillərindən fərqli olaraq, Scratch xidmətə hazırlıq müəllimlərinə proqramlaşdırma dilləri ilə edə bildikləri şeylərə diqqət ayırmalarına kömək yaradırdı. Bundan əlavə, tədqiqatçılar bildirdilər ki, xidmətə hazırlıq müəllimləri Scratch-dan həm pedaqoji, həm də dizayn baxımından istifadə etməlidirlər. Xinogalos tərəfindən ali təhsil üçün aparılmış bir tədqiqat, mikro dünyalarla təməl OOP konsepsiyalarına giriş kontekstində əldə edilən biliklərin sonradan Java-ya ötürülə biləcəyini araşdırmağa yönəldilmişdir. Scratch tərəfindən verilən vasitələrdən istifadə edərək 4 səviyyəli bir kompüter oyunu hazırlanmışdı .Tədqiqatçıların məqsədi, orta məktəb şagirdləri üçün dəyişkən proqramlaşdırma konsepsiyası haqqında öyrənmə mühiti təmin etmək idi. Tədqiqatçılar, proqramlaşdırma prosedurunun sadə əmrlər bloklarının qurulmasından asılı olduğu üçün, interaktiv mühitdə yazmaq əvəzinə, Scratch mühitinin tələbələr üçün faydalı ola biləcəyi qənaətinə gəldilər. Öyrənmə mühitlərini tərtib etmək üçün çox vaxt Scratch-dan istifadə etdilər və şagirdlərin anlayışını, kompüter elminə marağını və tempini dəstəkləmək üçün əhəmiyyət kəsb edən cəhətlərini təcrid etmək üçün iki yüksək səviyyədə işləyən öyrənmə mühitini müqayisə edərək cüt işi ilə fərdi işi qiymətləndirdilər. Tədqiqatçılar "Cüt proqramlaşdırmanın dəstək və iş birliyi olmadan mühitlər üzərində aşkar faydaları var" qənaətinə gəldilər. Belə nəticəyə gəlmək olar ki, bu mühit gənclər üçün güclü bir mənbə ola bilər. Scratch mühitinin potensialını tədqiqatçı müəllimlərin yaradıcı, əyləncəli, fənlərarası tədris proqramı hazırlayaraq praktikada faydalana biləcəkləri və bu yolla şagirdlərin təsəvvürlərini daha mənalı və cəlbedici bir şəkildə ortaya qoya biləcəkləri qənaətinə gəldilər. İndi isə tədqiqat işlərini uşaqların iştirakı olaraq tamamlamaq lazımdır. Tədqiqatçılar görsəlləşdirilmiş proq-

ramlaşdırmanın şagirdlərin problem həll etmə qabiliyyətləri və məntiqi düşünmə bacarıqlarına təsirini araşdırmaq üçün bir iş apardılar. Onların praktikaları bir semestrda Scratch proqramlaşdırma kursu keçən 6-cı sinif şagirdləri idi. Tədqiqatçılar problem həll etmə qabiliyyətlərinə təsirinin, xüsusən proqnozlaşdırma səbəbi ilə əhəmiyyətli olduğunu, məntiqi düşünmə bacarıqları üzərində isə heç bir təsiri olmadığını aşkar etdilər. Proqramlaşdırma öyrənmə və problem həll etmə strategiyalarının inteqrasiyası şagirdin problem həll etmə bacarıqlarını artıra bilər. Problemi həll etmə qabiliyyətinin vacibliyini vurğulayan tədqiqatçılar, ibtidai məktəb müəllimlərinin kompüter savadlılığı kurslarının bir hissəsi olaraq Scratch proqramlaşdırmasını qəbul etmələrini də təklif etdilər. Onlar ibtidai sinifdə daha kiçik yaş qrupunda, yeni başlayanlar üçün proqramlaşdırmaya giriş olaraq, səkkiz həftə ərzində İT kurslarında Scratch istifadəsini qiymətləndirmək üçün bir araşdırma apardılar. Başqa bir işdə tədqiqatçılar uşaqları proqramlaşdırma ilə tanış etmək üçün ibtidai sinifdə oyun qurma alətlərinin, yəni Scratch istifadəsini də araşdırdı. Tədqiqatçılar müşahidəli bir araşdırma apardılar və eyni zamanda Scratch Games üçün kodlaşdırma sxemini təqdim etdilər. Tədqiqatçılar ümumilikdə öyrənənlərin irəliləyiş əldə edə bildikləri və səkkiz həftəlik müddət ərzində bəzi proqramlaşdırma anlayışları qazandıqları qənaətinə gəldilər. Bənzər şəkildə 5-ci sinif şagirdləri tərəfindən konstruktizm yanaşmasına əsaslanan Scratch istifadə edərək kompüter oyunları dizayn etmək və inkişaf etdirmək üçün istifadə etdikləri prosesləri araşdırmaq üçün bir nümunə işi aparılmışdır. Scratch proqramı problem həll etmək üçün cəlbedici və nisbətən istifadəsi asan bir yer olduğunu sübut etdi, eyni zamanda riyazi anlayışları araşdırmaq üçün dəyərli və motivasiyaedici bir proqram mühiti yaratdı. Beləliklə, Scratch mühitinin uşaqlar üçün təhsil faydaları da göz qabağındadır və müəllimlər bu potensialı kurslarında nəzərə almalıdırlar. Onlar şagirdlərin müxtəlif vəziyyətlərə uyğunlaşmaq üçün proqram kodlarını və alqoritmlərini oxumalarına, anlamalarına və dəyişdirməsinə kömək edə biləcək hesablama bacarıqlarının vacibliyini vurğuladılar. Tədqiqatçılar, öyrənmə fenomenini daha dərindən və birbaşa anlamağa vadar edəcək şəkildə proqramlaşdırma bacarıqlarının istifadəsinə inandıqlarını da ifadə etdilər. Arduino, Processing və Scratch adlı üç açıq mənbə alətini birləşdirdilər və tədqiqatçılar bu cəhdin hardware və proqram təminatı arasındakı inteqrasiyanı demək olar ki, cüzi bir vəzifə halına gətirdiyini bildirdi. Şəbəkə və media ilə zəngin bir proqram mühiti olmaq kimi Scratch proqramının güclü tərəflərini dərk edərək öyrənənlərin cizgi hekayələr, oyunlar və interaktiv sənət kimi fərdi mənalı Scratch layihələri üzərində işləyəcəkləri təqdirdə texnoloji səlisliyi, riyazi və problem həll etmə bacarıqlarını inkişaf etdirəcəklərini mümkün hala gətirildi. Scratch-ın iki fərqli hədəf qrupu, yəni uşaqlar və inkişaf etmiş proqramçılar üçün xidmət edib etməyəcəyini müzakirə etmişlər. Tədqiqatçılar, yeni başlayanlar üçün kompüter elmləri kurslarında Scratch tətbiq etmək üçün universitetlər arasında artan tendensiyaya işarə etdilər. Əslində, Scratch proqramı hər iki qrupa xidmət göstərir, çünki fərqli yaş qrupları ilə əlaqəli çox sayda tədqiqat var. Universitetlərə qədər müxtəlif təhsil müəssisələrində Scratch istifadə edilməsini də qeyd edilmişdir. Tədqiqatçılar erkən adaptörlər üçün uğurlu tətbiqlərdən bəhs edir, lakin daha geniş istifadə üçün daha yaxşı təhsil dəstəyi verilməsinin vacibliyini vurğulayırlar. Proqramlaşdırma və ümumiyyətlə kompüterlər haqqında təsəvvürlərin dəyişməsinin vacibliyini də vurğulayırlar. Onlar "rəqəmsal axıcılıq" anlayışını yalnız göz atma və qarşılıqlı əlaqəni deyil, dizaynı və yaradıcılığı da əhatə etməklə genişləndirməli olduğumuzu vurğulayırlar. Yalnız bundan sonra Scratch kimi təşəbbüslər öz potensiallarını doğrultmaq üçün bir şans qazanacaqdır. Uşaqlar və gənclər üçün proqramlaşdırma vasitələrinin cəlbediciliyinin, gənc istifadəçilərin problem həll etmə, işbirliyi və yaradıcılıq kimi XXI əsr bacarıqlarını inkişaf etdirmələrinə kömək etmələri vurğulanır. Proqramlaşdırma bacarıqları və konsepsiyalarının tədrisi prosesində Scratch-ın istifadəsi ilə bağlı çoxsaylı fikirlər və ümidverici tapıntılar var. Buna görə də, 8-18 yaş arası Scratch istifadəsinin şagirdlər üçün müsbət və mənalı tapıntılarla inkişaf etməyə davam etdiyi görünür. Tədqiqatçılar Scratch proqramlaşdırmasının 5-ci sinif şagirdlərinin problem həll etmə bacarıqlarına təsirini araşdırdılar. Üstəlik, 5-ci sinif şagirdlərinin

proqramlaşdırma barədə nə düşündükləri ilə maraqlandılar. Kəmiyyət nəticələrinə görə, Scratch platformasında proqramlaşdırma, ibtidai sinif şagirdlərinin problem həll etmə bacarıqlarında əhəmiyyətli bir fərq yaratmadı. Bu nəticə, Scratch platformasında proqramlaşdırmanın problem həll etmə bacarıqlarına təsir göstərməyəcəyini göstərə bilər. Fərqli bir kontekstdə və tədqiqat dizaynlarında fərqli nəticələr əldə edilə bilər. Tələbələrin problem həll etmə qabiliyyətində özlərinə inamında bir az irəliləyiş oldu. Bu cüzi irəliləyiş bu şərtlər üçün də dəyərlidir. Əslində bu, proqramlaşdırmanın şagirdlərin problem həll etmə bacarıqlarına təsir göstərə biləcəyinə işıq tutur. Diqqətə çatdırılması lazım olan digər bir məqam da şagirdlərin problem həll etmə bacarıqlarına dair özlərini qavrayışının çox aşağı olmasıdır. Tələbələrin problem həll etmə bacarıqlarını inkişaf etdirməsinə kömək etmək üçün yüksək səviyyəli düşünmə tələb edən müxtəlif fəaliyyət və tətbiqetmələrlə dəstəklənməlidir. İbtidai sinif şagirdlərinin düşüncələri nəzərə alındıqda, şagirdlərin proqramlaşdırmanı sevdiklərini və proqramlaşdırma bacarıqlarını yaxşılaşdırmaq istədiklərini açıq şəkildə söyləmək olar. Problem həll etmə prosesində şagirdlərin yarısı bir qədər çətinlik çəkərkən, digərləri çətinlik çəkmirdi. Çoxu problemlərini müxtəlif yollarla həll etməyə çalışdı. Bu tətbiqetmələrin ən sevimli tərəfi bir xarakterə bir əmr vermək, oyun yazmağı öyrənmək, bir proqrama bir dəyişən əlavə etmək, etdiklərini başqaları ilə bölüşmək və öz dünyalarını yaratmaq idi. Ən az sevilən cəhətlər simvollara, blokların silinməsinə, uzun blokların mürəkkəbliyinə, istənilən əmrləri və məhdud simvolları və səhnələri tapmamaq üçün xüsusi effektlərin tətbiq olunmaması idi. Beləliklə tədqiqatçılar tərəfindən də bildirildiyi kimi "Eksperimental olaraq təsdiqlənmiş tədris / öyrənmə yanaşmaları, sənədləşdirilmiş ən yaxşı təcrübələr, öyrənmə mənbələri, tədris proqramı standartları, müəllimlərin peşəkar inkişafı və dəstəyi proqramlaşdırma sahəsində mütəxəssilər yetişdirmək üçün lazımdır.

Ədəbiyyat

1. Süleymanova A. Müasir kuriklumlarda yeni təlim yanaşmalarının tarixi kökləri<<Kurikulum >> jurnalı, 2008 ,№2

2 https://en.wikipedia.org/wiki/Scratch_(programming_language)

3. Ornelas Marques, F., Marques, M.T. (2012). Systemics, Cybernetics and Informatics,

4. Evaluating Scratch to introduce younger schoolchildren to programming, http://scratched.media.mit.edu/sites/default/files/wilson-moffat-ppig2010-final.pdf

XÜLASƏ

Məqaləmdə tədrisdə interaktiv metodların tətbiqi ilə proqramçılar üçün istifadə olunacaq proqramlaşma bilikləri, bacarıqları və proqramlaşdırmanın öyrədilməsindəki təməl bölmələrdən bəhs edilir.

РЕЗЮМЕ

В статье рассматриваются основные разделы обучения программированию, знания, навыки и программирование, которые будут использоваться будущими программистами посредством использования интерактивных методов обучения.

SUMMARY

The article discusses the basic sections in teaching programming knowledge, skills and programming that will be used for future programmers through the application of interactive methods in teaching.

Məmmədli Şəfiqə İmran qızı

İNFORMATİKA DƏRSLƏRİNDƏ VEB PROQRAMLAŞDIRMA DİLİNDƏN İSTİFADƏ MƏZMUNUNUN TƏHLİLİ

Açar sözlər: *informatika, HTML, vebproqramlaşdırma, texnologiya, vebsayt*

Ключевые слова: *информатика, HTML, веб-программирование, технологии, веб-сайт*

Key words: *informatics, HTML, web programming, technology, website*

Son illərdə şəbəkə texnologiyalarının intensiv inkişafı müşahidə olunur, bu sahənin tərkib hissələrindən biri də veb proqramlaşdırmadır. Hər kəs müxtəlif vasitələrdən istifadə edərək bir veb sayt yarada bilər, amma hazırlıq olmadan bunu yüksək səviyyədə etmək çətindir. Mümkün səbəblərdən biri də məktəbdə informatika kursunda yetəri miqdarda material verilməməsidir. Buna görə də vebproqramlaşdırma üçün müasir tələbat şəraitində bu sahədə məktəblilərin bilik səviyyəsini yüksəltmək və bacarıqlarını yüksək səviyyədə təmin etmək lazımdır.

Məktəbdə informatika dərslərində tədris olunan materiallar ən sadə şəkildə təqdim olunur. Veb proqramlaşdırmanın hazırkı inkişaf tempini nəzərə alaraq saytlar yaratmaqda yeni bir bacarıq səviyyəsinə çatmağa imkan verən müasir alətləri öyrənmək lazımdır. Bunun üçün informatika müəlliminin dərs prosesində tədrisi hiper mətn işarələmə dilinin müasir vasitələrini, xüsusən də HTML dilinin yeni versiyalarını əhatə etməlidir. Beləliklə, qeyd edə bilərik ki, "Məktəblilərə saytlar qurarkən veb səhifələr üçün müasir işarələmə dilinin öyrədilməsi" mövzusu aktualdır.

Məktəbdə informatika dərslərində proqramlaşdırma elementlərinin öyrənilməsi hər zaman tədrisin özəyi olmuşdur. Bunun səbəbi orta məktəbdə alqoritmləşdirmə və proqramlaşdırma öyrənilməsinin yalnız bir məqsəd deyil, həm də şagirdlərin düşüncə tərzini formalaşdırmaq üçün bir vasitə olması, onların riyazi qabiliyyətlərinin inkişafına töhfə verməsi və davamlı təhsilin təməlini qoymasıdır [2].

Beləliklə, məqalənin mövzusu xüsusilə aktual görünür, o şagirdlərə VEB proqramlaşdırma dilindən istifadə texnologiyasını öyrətmək məqsədi daşıyır.

Praktiki əhəmiyyət: tədqiq edilən materiallarından məktəbdə informatika və İKT dərslərində və sinifdənkənar işlərdə istifadə edilə bilər.

Elmi yenilik:

1. Proqramlaşdırma tədrisinin metodik sisteminin inkişafında vacib amilin bilik qabiliyyətlərini, motivasiyasını inkişaf etdirməyə imkan verən, layihə tapşırığı kimi, məktəblilər tərəfindən veb programlaşdırma texnologiyalarının inkişafının aşkar olunmuş didaktik potensialının olduğu göstərilir.
2. Şagirdlərin, məktəblilər tərəfindən proqramlaşdırma nəzəriyyəsi və metodologiyasının daha dərin inkişafına kömək edən şəxsiyyətyönümlü və fəaliyyətə əsaslanan təlim yanaşmalarını, fənlərarası əlaqələri və tədrisin tətbiqi yönümünü tətbiq etmək;
3. Məktəblilərin veb proqramlaşdırma öyrətmək üçün inkişaf səviyyələrini, o cümlədən uyğun sadalanan vasitələri aşkarlamaq:

- məktəblilərin öyrənməsi üçün uyğunlaşma,
- proqramlaşdırma növünün unifikasiyası və şagirdlərin qavrama məzmununun fərdiləşdirilməsi,
- proqramlaşdırma dilindəki dövr,
- inkişaf mühitinin aktuallığı,
- proqram tətbiqinin minimum mürəkkəbliyi,
- dinamizm və digərləri daxil olmaqla kompüter programlaşdırmasını seçmə meyarları,
- obyekt yönümlü bir dilin olması da daxil olmaqla inkişaf vasitələri üçün seçim meyarları,
- zəruri proqram strukturlarının tətbiqi üçün vasitələrin mövcudluğu; interfeys; ayırdetmə vasitələrinin mövcudluğu.

Müasir cəmiyyətdəproqramlaşdırma texnologiyalarının istifadəsi məlumat ötürülməsi üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Veb proqramlaşdırma texnologiyalarının və vasitələrinin son dərəcə sürətli inkişafı və tədrisi günümüzdə olduqca vacibdir. Bu dəyişikliyə

cavab olaraq veb inkişaf etdiriciləri cəmiyyətin tələblərinin dəyişən standartlarını nəzərə almalı və proqram təminatına rəhbərlik etməli, həmçinin veb texnologiyalarının əsaslarını mənimsəməlidirlər [5].

Bir çox insan veb texnologiyası dedikdə, istifadəçilərin İnternetdən istifadə edərək birgə fəaliyyətlərinin təşkili problemlərinin həlli üçün texniki, rabitə, proqram metodlarının kompleksi nəzərdə tutulur. Hazırda World Wide Web-də müxtəlif texnologiyalardan istifadə olunur [8].

Qeyd etmək lazımdır ki, məktəbdəki informatika dərsləri və İKT kursunda az və ya çox vaxt veb proqramlaşdırma bölmələrinə ayrılır. Veb texnologiyaları ilə veb saytın idarə edilməsində problemlər istənilən fəaliyyət sahəsində qarşılaşa bilər [2].

Müxtəlif ədəbiyyatları təhlil etdikdən sonra bu mövzuda məktəblilər üçün kifayət qədər tədris və metodiki vəsait hazırlanmadığı və mövcud olanların qismən müasir standartlara cavab vermədiyi qənaətinə gəldik. Məktəb üçün müasir materialların olmamasına baxmayaraq, veb proqramçılar veb proqramlaşdırmanı əhəmiyyətli dərəcədə asanlaşdırmaq üçün müxtəlif vasitələrdən və hazır həll yollarından istifadə ilə bağlı praktik təcrübə inkişaf etdirmişlər.

Veb proqramlaşdırma, dinamik saytların işləməsi üçün proqramların hazırlanmasına yönəldilmişdir. Hal-hazırda həm onlayn, həm də oflayn vasitələrdən istifadə olunur.

İnternetin əsasını HTML tapşırıq dilidir, əsas vəzifəsi sənədin semantik işarəsidir. Veb səhifələr yalnız HTML ilə məhdudlaşmır və HTML sənədindəki elementləri formatlaşdırmaq üçün istifadə olunan HTML ilə paralel olaraq tez-tez kaskad üslub cədvəllərindən istifadə olunur [2].

Kompüter elmləri sırasında veb proqramlaşdırma xüsusi yer tutur. Çox sayda fərqli saytın ortaya çıxması ilə əlaqədar olaraq bir çox dərs müəllifləri bu mövzunun bir çox cəhətlərini məzmuna daxil etməyə çalışırlar.

Bəzi tədqiqatçılar 9-cu sinifdən veb proqramlaşdırma öyrətməyin effektiv olduğunu düşünürlər. Beləliklə, bir çox mənbələrdə veb sayt yaratmağa həsr olunmuş üç üsul araşdırılır.

Əvvəlcə HTML hiper mətn işarəsi dilindən istifadə etmək.

İkincisi, sənədin bir söz prosessorunda hazırlanması və sonra HTML formatında lazım olduqdasaxlanılması.

Üçüncüsü, xüsusi bir proqram - vizual HTML redaktorları və ya veb sayt qurucularından istifadə etmək.

Proqramlaşdırma dillərinin öyrənilməsi müasir məktəb kompüter elmləri kursunun əhəmiyyətli bir hissəsini tutur və təkcə alqoritmik düşüncənin deyil, hətta informasiya texnologiyaları sahəsindən uzaq peşələrdə də tələb olunan müəyyən peşəkar bacarıqların inkişafına kömək edir [8].

Bununla yanaşı, bir çox informatika müəllimi şagirdlər arasında proqramlaşdırma öyrənməyə olan marağın azaldığını qeyd edir. Bu, informatikanın bu hissəsinin mürəkkəbliyi və proqramlaşdırma dillərinin öyrənilməsi zamanı əldə edilmiş biliklərin praktik tətbiqi imkanlarının zəif olması ilə əlaqədardır.

Buna görə, əsas məktəbdə proqramlaşdırma öyrədərkən, öyrənilən dilin seçimi ilə bağlı sual yaranır. Bu da, elm və texnologiyanın müasir nailiyyətlərini öyrənmək istəyən tələbələr arasında proqramlaşdırma tədrisinə olan marağın itirilməsinə səbəb olur. Bu baxımdan, informatika dərslərində proqramlaşdırma tədris edərkən HTML dilindən istifadə etməyi təklif edirik ki, bu da qısaca mürəkkəb proqramlar yazmağı, bütün dizayn mərhələlərində bütövlük və səhvsiz kod üçün yüksək səviyyəli idarəetmə vasitələrindən istifadə edir.

Müasir proqramlaşdırma dilindən əlavə, şagirdlərin idrak maraqlarının inkişafına, tələbələr üçün maraqlı olan təcrübə yönümlü tapşırıqların daxil edilməsi və aktiv oyun tədris metodlarının tətbiqi kömək edəcəkdir.

Bu gün ən populyar proqramlaşdırma tədris metodları yalnız şagirdlərin idrak maraqlarının inkişafına deyil, həm də onların aktiv məqsədyönlü fəaliyyətlərinə, texniki bilik və

bacarıqların real təhsil fəaliyyətində səmərəli tətbiqinə və müstəqil işin düzgün təşkilinə yönəlmişdir [1].

Qeyd etnək lazımdır ki, "veb proqramlaşdırma" konsepsiyası, internet resurslarından istifadə rolları ilə həyata keçirilməsinə yönəlmiş addım-addım problemli bir vəzifə kimi qəbul edilir. Qeyd etmək lazımdır ki, informatika dərslərinin tədrisində özəlliklə veb tapşırığından istifadə etmək üçün onu müşayiət edən veb sayt və ya rəqəmsal təhsil mənbəyi yaradılmalıdır.

Ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin 9 –cu siniflər üçün fənn kurikulumları, 2013
2. Q.Hüseynov və b. informatika tədrisi (orta təhsil pilləsi üçün), 2010.
3. Андреев В.И Тесты оценки знаний и компетенций по курсу «Педагогика»: учебное пособие / В.И.Андреев, И.И.Голованова, Н.В.Телегина –Казань:Центр инновационных технологий, 2010.– 35 с.
4. Босова, Л.Л. Информатика и ИКТ: учебник для 9 класса в 2-х ч. /Л.Л. Босова,А.Ю. Босова. – Москва: БИНОМ. Лаборатория знаний, 2017. –184с.
5. В.В. Малеев. Общая методика преподавания информатики, Воронеж, 2005
6. Е. Я. Яковенко. Компьютер для школьника. Москва, АСТ, 2007
7. Гейн А.Г. Информатика и ИКТ: учебник / А.Г. Гейн,А.И.Сенокосов.– Москва:Просвещение,2017.–336с.
8. Hogan B. HTML5 and CSS3. Web development according to the standards of the new generation / B. Frein. - SPb .: Peter, 2014 .-- 320 p ..
9. Tsurkun I.I. Pedagogy of the modern school: Fundamentals of pedagogy. Didactics: textbook method. allowance / I.N.Tsyrkun, A.I.Andaralo, E.N.Artemenok, A.R.Borisevich et al. - M .: Minsk, 2011. - 384 p.

Mehdizadə Səftər Rövşən oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
İnformasiya Texnologiyaları İnkişafı fakültəsi

REED SOLOMON KODLARI HAQQINDA ÜMUMİ MƏLUMAT

Reed Solomon kodları xəta düzəltmə kodları qrupuna daxil olub İrving Stoy Reed və Gustave Solomon tərəfindən 1960-cı ildə təqdim edilmişdir. Bu kodlar bir çox sahələrdə tətbiq olunmuşdur. Bunların içində cd, dvd, blu-ray disklər, qr kodlar, yüksək sürətli modemlər, DSL kimi peyk rabitəli informasiya ötürmə texnologiyaları daha çox ön plana çıxır. Demək olar ki, bütün ikiölçülü barkodlar (PDF-417, MaxiCode, Datamatrix, QR Code, Aztec Code) Reed-Solomon kodlarıdan istifadə edir. 1977-ci ildə kosmosa göndərilmiş Voyager 1 və Voyager 2 süni peyklərindən ibarət Veyoger programında Reed-Solomon kodlarından istifadə edilməsi bu tip kodların önəminin göstəricisidir. Beləki Yupiter və Saturun planetləri orbitlərində yerləşən bu süni peyklərin göndərdiyi rəqəmsal şəkillərin kodlaşdırılmasında Reed-Solomon kodlayıcısından istifadə edilir. Reed-Solomon kodlarının əsasən 2 forması vardır: əsas və BCH (Bose–Chaudhuri–Hocquenghem). BCH dekodlayıcısı daha sürətli işlədiyindən və əsas formadan daha az yaddaş tələb etdiyindən daha çox istifadə olunur.

Reed-Solomon kodları informasiya blokları üzərində əməliyyat aparır və çoxsaylı xəta aşkar edib düzətlmə xüsusiyyətinə malikdir. İnformasiyaya t=n–k sayda yoxlama simvolları əlavə etməklə t sayda xəta simvollarını aşkar edə və ya t/2 sayda xətalı simvolun yerini müəyyən edib, düzəldə bilər. Burada n informasiya blokunun, k isə mesajın uzunluğudur. Reed-Solomon kodları həmçinin ardıcıl bitlərdə meydana çıxan çoxsaylı xətalar üçün də uyğundur. b+1 sayda ardıcıl bitlərdə meydana çıxan xətalarda maksimum b sayda simvola təsir edə bilər. Bu zaman t-nin seçilməsi kodun strukturundan aslı olaraq dəyişə bilər. Reed-

Solomon kodları ailəsi 3 əsas kəmiyyətlə xarakterizə olunur: əlifba ölçüsünü göstərən q, blok uzunluğunu bildirən n və mesaj uzunluğunu bildirən k, hansı ki, $k < n \leq q$.

Reed-Solomon kodları [n, k, n-k+1] şəkilli kodlardır. Başqa sözlə desək k ölçülü n uzunluqda və Hamming məsafəsi d=n-k+1 kimi olan blok kodudur. Reed-Solomon kodu minimum məsafə dəyəri maksimum qiymətini aldığı halda (Sinqlton sıçrayış) optimaldır. Bu tipdə olan kodlar maksimum məsafə ilə ayrılan kodlar da adlandırılır.

Xəta düzəltmə qabiliyyəti minimum məsafə başqa sözlə desək n-k ilə müəyyənləşdirilir. Əgər xətanın yeri əvvəlcədən bilinmirsə, Reed-Solomon kodu (n-k)/2 sayda xətalı simvolu düzəldə bilir. Bəzi hallardasa xətaların yeri əvvəlcədən bilinir (əlavə məlumat olaraq). Bu halda əvvəlki haldan 2 dəfə daha çox xətaları düzəltmək mümkündür. Bir şərtlə ki, $2E+S \leq n-k$ bərabərsizliyi ödənsin. Burada E xətaların, S isə blokların sayıdır.

Reed-Solomon kodlarının praktik istifadə üçün hallarında 2^m elementdən ibarət olan F fəzasından istifadə olunur. Bu halda hər bir simvol m bit dəyərlə təmsil olunur. Ötürücü informasiyanı kodlanmış bloklar halında göndərir və kodlanmiş bloklardakı simvolların sayı $n=2^m-1$ olur. Beləliklə əgər Reed-Solomon kodu 8 bitlik əməliyyat aparirsa onda hər blokda simvolların sayı 255 olar. Parametrləri

$$(n, k) = (255, 223)$$

Olan kod hər blokda 16 simvol xətanı düzəltmə qabiliyyətinə malikdir.

Reed-Solomon kodlayıcısıını Matlab da tətbiqi aşağıda göstərilmişdir.

```
function [encoded] = rsEncoder(msg, m, prim_poly, n, k)
  % RSENCODER mesajı Reed-Solomon alqoritmi ilə kodlayır
% m simvildakı bitlərin sayıdır
% k mesajın ölçüsü
% məsələn: msg = uint8('Test')
% enc_msg = rsEncoder(msg, 8, 301, 12, numel(msg));
  alpha = gf(2, m, prim_poly);
 msg_padded = gf([msg zeros(1, n - k)], m, prim_poly);
 [~, remainder] = deconv(msg_padded, g_x);
encoded = msg_padded - remainder;
end
function g = genpoly(k, n, alpha)
g = 1;
for k = mod(1 : n - k, n) g = conv(g, [1 alpha .^ (k)]);
end
end
```

Reed-Solomon dekodlayıcısıının Matlab da tətbiqi aşağıda göstərilmişdir.

```
function [decoded, error_pos, error_mag, g, S]=rsDecoder(encoded, m, prim_poly, n, k)
 max_errors = floor((n - k) / 2);
 orig_vals = encoded.x;
 errors = zeros(1, n);
 g = [];
 S = [];
 alpha = gf(2, m, prim_poly);
 Synd = polyval(encoded, alpha .^ (1:n - k));
 Syndromes = trim(Synd);
 if isempty(Syndromes.x)
 decoded = orig_vals(1:k);
 error_pos = [];
 error_mag = [];
```

```
g = [];
S = Synd;
return;
end
r0 = [1, zeros(1, 2 * max_errors)]; r0 = gf(r0, m, prim_poly); r0 = trim(r0);
size_r0 = length(r0);
r1 = Syndromes;
f0 = gf([zeros(1, size_r0 - 1) 1], m, prim_poly);
f1 = gf(zeros(1, size_r0), m, prim_poly);
g0 = f1; g1 = f0;
while true
[quotient, remainder] = deconv(r0, r1);
quotient = pad(quotient, length(g1));
c = conv(quotient, g1);
c = trim(c);
c = pad(c, length(g0));
g = g0 - c;
if all(remainder(1:end - max_errors) == 0)
break;
end
r0 = trim(r1); r1 = trim(remainder);
g0 = g1; g1 = g;
end
g = trim(g);
evalPoly = polyval(g, alpha .^ (n - 1 : - 1 : 0));
error_pos = gf(find(evalPoly == 0), m);
if isempty(error_pos)
decoded = orig_vals(1:k);
error_mag = [];
return;
end
size_error = length(error_pos);
Syndrome_Vals = Syndromes.x;
b(:, 1) = Syndrome_Vals(1:size_error);
for idx = 1 : size_error
e = alpha .^ (idx * (n - error_pos.x));
err = e.x;
er(idx, :) = err;
end
error_mag = (gf(er, m, prim_poly) \ gf(b, m, prim_poly))';
errors(error_pos.x) = error_mag.x;
errors_gf = gf(errors, m, prim_poly);
decoded_gf = encoded(1:k) + errors_gf(1:k);
decoded = decoded_gf.x;
end
function gt = trim(g)
gx = g.x;
gt = gf(gx(find(gx, 1) : end), g.m, g.prim_poly);
end
function xpad = pad(x, k)
```

```
len = length(x);
if (len < k)
xpad = [zeros(1, k - len) x];
end
end
```

Qurbanova Ruhəngiz Ədalət qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İTİF
Rəyçi: dosent Sultanova Axirə

QEYRİ-SƏLİS MƏNTİQƏ ƏSASLANAN PID NƏZARƏTÇİNİN DİZAYNI

Açar sözlər: *qeyri-səlis məntiq, PID nəzarətçi, Euler bucağı, koordinat sistemi*

Bu yazıda öz-özünü tənzimləyə bilən qeyri-səlis PID alqoritmi istifadə edən nəzarət strategiyası, Euler-Nyuton formullarına əsaslanan dinamik model, yol planlanması təsvir edilmişdir.

Euler-Nyuton formullarına əsaslanan riyazi model üçün bu parametrlərdən istifadə edilir.

$\dot{x} = [X, Y, Z, \dot{X}, \dot{Y}, \dot{Z}, \phi, \theta, \Psi, p, q, r]^T$

X, Y, Z mövqe vektorları, Euler bucaqları koordinat oxunda üç müxtəlif istiqamətdə fırlanmanı göstərən bucaqlar olsun. Φ-dönmə bucağı, θ - nəzarət nöqtəsindən yüksəlmə bucağı, Ψ - nəzarət nöqtəsindən kənarlaşma bucağıdır. p, q, r -üç koordinat üzrə bucaq sürətlərini, $\dot{X}, \dot{Y}, \dot{Z}$ isə uyğun olaraq x, y və z andakı ətaləti göstərən əmsallar olsun. Bu başlanğıc parametrlər aşağıdakı şəkildə daxil edilə bilər.

```
%% INIT. PARAMS.
drone1_params = containers.Map({'mass','armLength','Ixx','Iyy','Izz'},...
 {1.25, 0.265, 0.0232, 0.0232, 0.0468});
drone1_initStates = [0, 0, -5, ... % x, y, z
 0, 0, 0, ... % dx, dy, dz
 0, 0, 0, ... % phi, theta, psi
 0, 0, 0]'; % p, q, r
drone1_initInputs = [0, ... % ThrottleCMD
 0, 0, 0]'; % R, P, Y CMD
```

Bütün formullar ətalət çərçivəsində ifadə edilir. Vasitəni simmetrik fərz edirik. Hesab edək ki, kütlə mərkəzi, ağırlıq mərkəzi və quadrotorun gövdəsinin mərkəzi eyni nöqtədə kəsişir. $c(\phi,\theta,\psi)$ $\cos\phi,\theta,\psi$-ni, $s(\phi,\theta,\psi)$ isə $\sin\phi,\theta,\psi$-ni təmsil edir. Müəyyən edilmiş koordinat sistemi üçün R fırlanma matrisi ardıcıl olaraq X_B, Y_B, Z_B bucaqları ətrafında dönüşlər əsasında yaradılan $R_3(\psi), R_2(\theta), R_1(\phi)$ matrislərinin hasili tapılaraq hesablanır. $c(\cdot) = \cos(\cdot), s(\cdot) = \sin(\cdot)$ şərti ödənərsə, ϕ, Θ, Ψ ardıcıllığını alaraq fırlanma matrisini aşağdakı kimi ifadə edə bilərik.

$$R_3(\psi) = \begin{bmatrix} c(\psi) & s(\psi) & 0 \\ -s(\psi) & c(\psi) & 0 \\ 0 & 0 & 1 \end{bmatrix}$$

$$R_2(\theta) = \begin{bmatrix} c(\theta) & 0 & -s(\theta) \\ 0 & 1 & 0 \\ s(\theta) & 0 & c(\theta) \end{bmatrix}$$

$$R_1(\phi) = \begin{bmatrix} 1 & 0 & 0 \\ 0 & c(\phi) & s(\phi) \\ 0 & -s(\phi) & c(\phi) \end{bmatrix}$$

$$R_A = R_3\, R_2\, R_1 = \begin{bmatrix} c(\psi)c(\theta) & s(\psi)c(\theta) & -s(\theta) \\ -s(\psi)c(\phi) + c(\psi)s(\theta)c(\phi) & c(\psi)c(\phi) + s(\psi)s(\theta)s(\phi) & c(\theta)s(\phi) \\ s(\psi)s(\phi) + c(\psi)s(\theta)c(\phi) & -c(\psi)s(\phi) + s(\psi)s(\theta)c(\phi) & c(\theta)c(\phi) \end{bmatrix}$$

$$R = R_B = (R_A)^T = \begin{bmatrix} c(\psi)c(\theta) & -s(\psi)c(\theta) + c(\psi)s(\theta)s(\phi) & s(\psi)s(\phi) + c(\psi)s(\theta)c(\phi) \\ s(\psi)c(\theta) & c(\psi)c(\phi) + s(\psi)s(\theta)s(\phi) & -c(\psi)s(\phi) + s(\psi)s(\theta)c(\phi) \\ -s(\theta) & c(\theta)s(\psi) & c(\theta)c(\psi) \end{bmatrix}$$

İndi isə bu formulları MATLAB-da təsvir edək.

```
function bRi = RPY2Rot(angles)
phi = angles(1);
theta = angles(2);
psi = angles(3);

R_3 = [ cos(psi) sin(psi) 0; -sin(psi) cos(psi) 0; 0 0 1];
R_2 = [cos(theta) 0 -sin(theta); 0 1 0; sin(theta) 0 cos(theta)];
R_1 = [1 0 0; 0 cos(phi) sin(phi); 0 -sin(phi) cos(phi)];

bRi = R_1*R_2*R_3;
end
```

$(\dot{\phi}, \dot{\psi}, \dot{\theta}, \dot{p}, \dot{q}, \dot{r})$ 6 vəziyyət dəyişənləri aşağıdakı fırlanma hərəkət tənliklərindən əldə edilir:

$$\begin{pmatrix} \dot{\phi} \\ \dot{\theta} \\ \dot{\psi} \end{pmatrix} = \begin{bmatrix} 1 & s(\phi)t(\theta) & c(\phi)t(\theta) \\ 0 & c(\phi) & -s(\phi) \\ 0 & s(\phi)\sec(\theta) & c(\phi)\sec\theta \end{bmatrix} \begin{pmatrix} p \\ q \\ r \end{pmatrix}$$

$$\dot{p} = \frac{I_{yy} - I_{zz}}{I_{xx}} \cdot qr + \frac{1}{I_{xx}} \cdot M_1$$

$$\dot{q} = \frac{I_{zz} - I_{xx}}{I_{yy}} \cdot rp + \frac{1}{I_{yy}} \cdot M_2$$

$$\dot{r} = \frac{I_{xx} - I_{yy}}{I_{zz}} \cdot pq + \frac{1}{I_{zz}} \cdot M_3$$

Formulları MATLAB-da bu şəkildə təsvir edə bilərik.

```
 function obj = EvalEOM(obj)
bRi = RPY2Rot(obj.euler);
R = bRi';
% Translational Motions
obj.dx(1:3) = obj.dr;
obj.dx(4:6) = 1 / obj.m * ([0; 0; obj.m * obj.g] + R * obj.T * [0; 0; -1]);

% Rotational Motions
phi = obj.euler(1); theta = obj.euler(2);
obj.dx(7:9) = [1 sin(phi)*tan(theta) cos(phi)*tan(theta);
```

```
0 cos(phi) -sin(phi);
0 sin(phi)*sec(theta) cos(phi)*sec(theta)] * obj.w;
obj.dx(10:12) = (obj.I) \ (obj.M - cross(obj.w, obj.I * obj.w))
end
```

İndi isə sıra PID nəzarətçinin dizaynına gəldi. PID (Proportional Integral Derivative) nəzarətçi sənayedə istifadə edilən ən geniş yayılmış nəzarət alqoritmidir. Adından da göründüyü kimi, PID alqoritmi üç əsas əmsaldan ibarətdir; optimal cavab almaq üçün dəyişən mütənasib, inteqral və törəmə. Bununla birlikdə PID nəzarətçi bəzi məhdudiyyətlərə malikdir. Belə ki, PID nəzarətçi xətti modelə əsaslandığından sistemlərdəki qeyri-xəttilik qeyri-müəyyənliyə və zəif performansa gətirib çıxarır. Başqa sözlə, PID nəzarətçinin qeyri-müəyyənliyi öyrənmə və aradan qaldırma qabiliyyəti yoxdur. Bu səbəbdən öz-özünü tənzimləyə bilən qeyri-səlis parametrlərə əsaslanan PID nəzarətçinin planlanılması təklif edilir. Uyğun olaraq ϕ, θ, Ψ Euler bucaqları üçün PID dəyərlərini daxil edirik.

```
drone1_gains = containers.Map(...
 {'P_phi','I_phi','D_phi',...
 'P_theta','I_theta','D_theta',...
 'P_psi','I_psi','D_psi',...
 'P_zdot','I_zdot','D_zdot'},...
 {0.2, 0.0, 0.3,...
 0.2, 0.0, 0.15,...
 0.8, 0.0, 0.3,...
 10.0, 0.2, 0.0});
```

ϕ, θ, Ψ Euler bucaqları üzrə baş verə biləcək xətalara nəzarət üçün PID nəzarət xüsusiyyətləri işə salınır.

```
properties
 phi_des
 phi_err
 phi_err_prev
 phi_err_sum

 theta_des
 theta_err
 theta_err_prev
 theta_err_sum

 psi_des
 psi_err
 psi_err_prev
 psi_err_sum

 zdot_des
 zdot_err
 zdot_err_prev
 zdot_err_sum
 end
```

Bir PID nəzarət dövründə xəta sıfırlandıqdan sonra çıxış dəyəri sıfırdan fərqli olur. Bunun əsas səbəbi, nəzarətçinin içindəki inteqratorun fəaliyyətidir.

inteqral = inteqral + error * dt (burada dt inteqral zamandır)

çıxış = K_p * səhv + K_i * inteqral + K_d* törəmə

Bu tənlikdən görünür ki, integral müddətin dəyəri sıfır deyil, əksinə səhvin dəyəri sıfırlanır, buna görə də son çıxış dəyəri sabit saxlanılır.

```
obj.phi_err = 0.0;
obj.phi_err_prev = 0.0;
obj.phi_err_sum = 0.0;
obj.theta_err = 0.0;
obj.theta_err_prev = 0.0;
obj.theta_err_sum = 0.0;
obj.psi_err = 0.0;
obj.psi_err_prev = 0.0;
obj.psi_err_sum = 0.0;
obj.zdot_err = 0.0;
obj.zdot_err_prev = 0.0;
obj.zdot_err_sum = 0.0;
```

Sabit nöqtədə $\phi = p, \theta = q, \varphi = r$ şərti ödənərsə, biz müəyyən intervalda işləyən PID nəzarətçini dizayn edə bilərik.

$$T_\Sigma = mg - [K_{P,Z}(\dot{Z}^{cmd} - \dot{Z}) + K_{I,Z}\int(\dot{Z}^{cmd} - \dot{Z}) + K_{D,Z}(\ddot{Z}^{cmd} - \ddot{Z})]$$

$$M_1 = K_{P,\phi}(\phi^{cmd} - \phi) + K_{I,\phi}\int \phi^{cmd} - \phi + K_{D,\phi}(p^{cmd} - p)$$

$$M_2 = K_{P,\theta}(\theta^{cmd} - \theta) + K_{I,\theta}\int \theta^{cmd} - \theta + K_{D,\theta}(q^{cmd} - q)$$

$$M_3 = K_{P,\varphi}(\varphi^{cmd} - \varphi) + K_{I,\varphi}\int \varphi^{cmd} - \varphi + K_{D,\varphi}(r^{cmd} - r)$$

İndi isə MATLAB-da bu tənlikləri təsvir edək.

```
%% CONTROLLER
function obj = AttitudeCtrl(obj, refSig)
obj.phi_des = refSig(1);
obj.theta_des = refSig(2);
obj.psi_des = refSig(3);
obj.zdot_des = refSig(4);

obj.phi_err = obj.phi_des - obj.euler(1);
obj.theta_err = obj.theta_des - obj.euler(2);
obj.psi_err = obj.psi_des - obj.euler(3);

obj.u(2) = (obj.KP_phi * obj.phi_err + ...
obj.KI_phi * (obj.phi_err_sum) + ...
obj.KD_phi * (0 - obj.w(1)));

obj.u(3) = (obj.KP_theta * obj.theta_err + ...
obj.KI_theta * (obj.theta_err_sum) + ...
obj.KD_theta * (obj.theta_err - obj.theta_err_prev)/obj.dt);

obj.u(4) = (obj.KP_psi * obj.psi_err + ...
obj.KI_psi * (obj.psi_err_sum) + ...
obj.KD_psi * (obj.psi_err - obj.psi_err_prev)/obj.dt);
```

Beləliklə PID nəzarətçinin dizaynını yekunlaşdırdıq. İndi quadrotorun hərəkətinin əyani təsviri üçün 3D mühitimizi yaradaq.

```
%% Init. 3D Fig.
fig1 = figure('pos',[0 200 800 800]);
h = gca;
view(3);
fig1.CurrentAxes.ZDir = 'Reverse';
fig1.CurrentAxes.YDir = 'Reverse';
axis equal;
grid on;
xlim([-5 5]);
ylim([-5 5]);
zlim([-8 0]);
xlabel('X[m]');
ylabel('Y[m]');
zlabel('Height[m]');
```



Aşağıdakı təsvir əsasında dornun koordinatlarını və konfiqurasiyasını tamamlayaq.



Şəkil 1. Quadrotorun koordinatı və konfiqurasiyası

```
drone1_state = drone1.GetState();
wHb = [RPY2Rot(drone1_state(7:9))' drone1_state(1:3); 0 0 0 1];
drone1_world = wHb * drone1_body;
drone1_atti = drone1_world(1:3, :);

fig1_ARM13 = plot3(gca, drone1_atti(1,[1 3]), drone1_atti(2,[1 3]), drone1_atti(3,[1
3]), ...
 '-ro', 'MarkerSize', 5);
```

```
fig1_ARM24 = plot3(gca, drone1_atti(1,[2 4]), drone1_atti(2,[2 4]), drone1_atti(3,[2
4]), ...
 '-bo', 'MarkerSize', 5);
fig1_payload = plot3(gca, drone1_atti(1,[5 6]), drone1_atti(2,[5 6]), drone1_atti(3,[5
6]), ...
 '-k', 'Linewidth', 3);
```

Buraya quadrotorun X, Y, Z oxları üzrə və Euler bucaqları üzrə fırlanma hərəkətlərinin istiqamətərini də əlavə edək.

```
fig2 = figure('pos',[800 400 800 600]);
subplot(2,3,1)
title('phi[deg]')
grid on;
hold on;
subplot(2,3,2)
title('theta[deg]')
grid on;
hold on;
subplot(2,3,3)
title('psi[deg]')
grid on;
hold on;
subplot(2,3,4)
title('X[m]')
grid on;
hold on;
subplot(2,3,5)
title('Y[m]')
grid on;
hold on;
subplot(2,3,6)
title('Zdot[m/s]')
grid on;
hold on;
```

Hər t=0.01 saniyə zaman keçdikdə, quadrotorun cari vəziyyətini yeniləmək üçün dataları daxil edək, bununla quadrotoru ilkin vəziyyyətindən çıxarıb, başqa sözlə, koordinatlarını dəyişərək hərəkətini təmin edəcəyik.

```
%% Main Loop
commandSig(1) = -10.0*D2R; %phi
commandSig(2) = 10.0*D2R; %theta
commandSig(3) = 10.0*D2R; %psi
commandSig(4) = 1.0; %zdot
for i = 1:simulationTime/0.01
 %% Take a step
 drone1.AttitudeCtrl(commandSig);
 drone1.UpdateState();
 drone1_state = drone1.GetState();
```

Artıq simulyasiyanın nəticəsinə baxa bilərik.





Soldakı təsvirdə quadrotorun hərəkətini, sağdakı təsvirdə isə quadrotorun hərəkət etdiyi X, Y, Z və bucaq koordinatlarını görə bilərik.

Nəticə

Matlab platformasından istifadə edərək quadrotoru konfiqurasiya etdik, hərəkət koordinatlarını müəyyənləşdirdik, qeyri-müəyyən xətaların qarşısını almaq üçün qeyri-səlis məntiqə əsaslanan PID nəzarətçini dizayn etdik. Model Nyutonun hərəkət tənliklərindən istifadə edilərək əldə edilmişdir. Burada əsas məqsəd PID nəzarətçinin proses zamanı dəyişənləri idarə etmək üçün əks əlaqə mexanizmindən istifadə etməsi və dəqiq, stabil nəzarətçi olmasıdır. PID nəzarətçiyə quadrotorun xətti və fırlanma hərəkətlərini stablizasiya etmək və verilmiş trayektoriyanı minimum enerji və səhvlə başa vurmaq təklif edilir. Özünü tənzimləyən qeyri-səlis PID nəzarətçi vasitəsi ilə idarə olunan inteqrasiya olunmuş motor dinamikasının simulyasiya nəticələri hərəkətin və yol planlamasının mümkünlüyünü göstərir.

Ədəbiyyat

1. Aws Abdulsalam Najm, Ibraheem Kasim Ibraheem: Nonlinear PID Controller Design for a 6-DOF UAV Quadrotor System
2. Deepak Gautam, Cheolkeun Ha: Control of a Quadrotor Using a Smart Self-Tuning Fuzzy PID Controller
3. Muhammad Awais Sattar: Adaptive Fuzzy Control of Quadrotor
4. Salim Jyoti Ohri: FUZZY Based PID Controller for Speed Control of D.C. Motor Using LabVIEW
5. Zhen-Yu Zhao, M. Tomizuka, S. Isaka: Fuzzy gain scheduling of PID controllers
6. A.Visioli: Tuning of PID controllers with fuzzy logic

XÜLASƏ

İnsansız hava vasitəsinin riyazi modelləşdirilməsi və simulyasiyası onun mürəkkəb quruluşu, hərəkətinin dinamikliyi səbəbindən asan iş deyil. Bu yazıda, MATLAB simulyasiya platformasından istifadə edilərək quadrotorun dinamik bir modeli yaradılmışdır. Burada əsas məqsəd dörd rotorlu bir vasitəni maksimum real modelləməkdir. Model daha sonra dörd rotor sisteminin fırlanma bucaqlarını stabilizasiya etmək məqsədilə PID nəzarət sistemi yaratmaq üçün istifadə ediləcəkdir. Bu işdə nəzarət sisteminin qurulması üçün lazım olan verilənlər, nəticələri, qərar qəbuletmə qaydalar bazası və praktiki məsələlər üçün istifadə edilən metodologiya ətraflı şəkildə təsvir edilmişdir.

Hüseynova Ayşə Xəlil qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İTİF
Rəyçi: Əsgərov Taleh

COĞRAFİ İNFORMASİYA SİSTEMLƏRİNDƏ VERİLƏNLƏRİN STRUKTURU

Müəyyən məqsədlər üçün hər hansı bir məkanın və bu məkandakı coğrafi obyektlərin qrafiki təsvirini yaratmaq lazım olduğu məlumdur. Dəqiqliklə araşdırılsa bu prosesin kifayət qədər mürəkkəb olduğunu görmək mümkün olar, çünki burada təsvir olunacaq coğrafi obyektlərin elementləri arasında bir sıra qarşılıqlı münasibətlər mövcuddur. Xəritə üzərindəki xəttlərin bəziləri digərləri ilə birləşərək sahələr və ya çoxbucaqlılar əmələ gətirirlər. Xəttlər qapalı və qeyri-qapalı olaraq iki yerə ayrılır. Çoxbucaqlılar isə fərqli olurlar. Onlar tək halda və ya qonşuluqlu ola bilərlər. Xəritə üzərində bu mümkün qarşılıqlı əlaqələrin variantları həddindən artıq çoxdur. Xəritə üzərindəki bütün nöqtələr, xəttlər və sahələr yer səthində hansısa coğrafi obyekti təsvir edir. Bu coğrafi obyektlər həmin məkandakı digər obyektlərlə qarşılıqlı əlaqəyə malikdirlər. Bütün bunları bilmədən kompüterdə məkan münasibətlərini təsvir və təhlil edən sistem qurmaq qeyri-mümkündür. Coğrafi məkanın təqdimatı üçün iki əsas metoddan istifadə olunur: vektor və rastr. CİS bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən hər iki verilənlər tipi ilə işləmə imkanına malikdir. Hər iki modelin üstün və çatışmayan cəhətləri vardır. Komputerin monitorunda elektron formatda görülən xəritə üç variantda təqdim oluna bilər: rastr, vektor və ağacvari.

Rastr modellərdə obyektlər matrisa ilə fasiləsiz məkan şəklində təqdim edilir. Rastr format zamanı reallıq kvadrat torlar şəklində əks olunur və hər bir kvadrat bir atributiv xassəyə malik olan müəyyən coğrafi sahəni əhatə edir. Rastrın hər bir daması, CİS-də rastr formatında əks oluna bilən ən kiçikölçülü sahəyə uyğun olduğundan belə bir hissəni bəzən, «xəritələşdirmənin minimum elementi», bəzən isə «piksel» (pixel) adlandırırlar. Verilənlər məcmusunun keyfiyyətli olması üçün bu göstərici kiçik olmalıdır və beləliklə CİS-də daha çox miqdarda detallar əks oluna bilər. Buna görə də təhlilin böyük hissəsi rastr qatlarının kombinə edilməsindən ibarət olur.

Rastr təsvirlər hər bir düyümdə neçə pikselin yerləşdiyini göstərən dpi (dot's per inch – hər düyümə düşən nöqtələrin sayı) ölçü vahidi ilə ölçülür. Bu ölçü vahidi nə qədər yüksək olarsa, təsvir də bir o qədər keyfiyyətli və informativ olar. Bu keyfiyyət göstəricisinin artması ilə rastr təsvir üçün tələb olunan yaddaşın da həcmi artır. Ona görə də CİS layihələrdə çox vaxt 200-1200 dpi keyfiyyətli təsvirlərdən istifadə olunur. Lakin istisna hal kimi kosmik və aero şəkilləri qeyd edə bilərik, çünki bu şəkillərdə dpi daha yüksək göstəriciyə malik ola bilər. Rastr formatlar fasiləsiz xassələrlə işləmək üçün optimal hesab olunur və fasiləsiz informasiya qatlarının təsvirində istifadə olunur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bu rastr modellər verilənlərin elementar tərkib hissəcikləri toplusundan ibarət olur və skanerdən keçirilmiş xəritə və şəkillə müqayisə oluna bilər. Ərazinin yüksəkliyini, mailliyini, yamacların ekspozisiyasını, torpaq və bitki örtüyünü, yağıntının miqdarını, ekoloji cəhətdən çirklənmə zonasını və s. xəritələşdirərkən rastr formatından istifadə olunur. Aeroçəkiliş və digər təsviri materiallar rastr formatında saxlanılır. Rastr formatının çatışmayan cəhəti bundan ibarətdir ki, coğrafi obyektin yeri haqqında dəqiq informasiyaya malik olmur. Bunun səbəbi isə odur ki, rastr formatda nöqtələrin dəqiq koordinatları əvəzinə, coğrafi məkanın ən kiçikölçülü kvadratlardan (özəklərdən) istifadə olunur. Rastr formatında nöqtə həmin kiçik kvadratlarda yerləşir, xəttlər isə həmin kiçik kvadratların (özəklərin) sıralanmasından ibarət olmaqla koordinat informasiyasına malik olmurlar. Rastr formatda obyektlər haqqında informasiyaları əlaqələndirmək üçün hər bir rastr kvadratına müəyyən göstəricinin qiyməti verilir və son nəticədə bu qiymətlər obyektin yerini müəyyən edirlər.

Rastr kvadratlarının ölçüsü böyüdükcə o daha çox sahəni əhatə edir, lakin bu zaman rastrın yekun nəticəsi, ayırdetmə qabiliyyəti daha kobud olur. Bu o demək deyil ki, coğrafi obyektin dəqiq yeri haqqında məlumata malik olmadığına görə, rastr formatı pis hesab olunur.

Rastr formatının bir sıra üstünlüklərə malikdir. İlk növbədə, rastr məkan obyektlərini daha asan ifadə etməyə imkan verir. Buna misal olaraq, televizor ekranında şəkillərin keyfiyyətinə baxmaq kifayətdir. Burada rastr kvadratları kimi piksellərdən istifadə olunur və əslində şəkillər rastr formatında olurlar. Bu isə o deməkdir ki, peyk şəkillərinin heç bir dəyişiklik aparmadan asanlıqla CİS-ə ötürülməsi təmin olunur. Rastr formatının əsas çatışmayan cəhətlərindən biri coğrafi obyektlərin yerinin dəqiq göstərilməməsidir. Bu cəhətin nəticəsində məsafə və sahə ölçmələrində dəqiqlik azalır. Digər çatışmayan cəhət isə böyük həcmdə kompüter yaddaşının tələb olunmasıdır, çünki yaddaşda hər bir kiçik rastr özəyi ədədi ölçü kimi əks olunur. Müasir dövrdə kompüterin yaddaş qurğularının imkanları kəskin artdığına görə, artıq bu problem öz aktuallığını itirməkdədir. Yalnız kompüterlərin yaddaşının çox yüklənməsi halında böyük həcmli rastr məlumatlarının emalı vaxtı sürətin kəskin şəkildə azalması baş verir.

Vektor modelində obyektin forması nöqtələrin x, y koordinatı ilə müəyyən edilir, beləki CİS-in köməyi ilə nöqtələr, xəttlər və poliqonlar koordinat cütü vasitəsilə rəqəmsal şəkildə təqdim olunur. Hər bir coğrafi obyekt həndəsi primitivlərdən ibarətdir və istənilən koordinat sistemində ifadə oluna bilər. CİS-də müxtəlif həndəsi primitivlərdən istifadə oluna bilər, lakin nöqtə, xətt, qövs, poliqon kimi elementlər baza rolunu oynayırlar. Hər bir həndəsi primitivi atributiv informasiya ilə xarakterizə edilir və bu atributiv informasiyalar cədvəl, mətn, qrafik, audio və video şəklində ola bilər. Həndəsi primitivlərin məcmusu və onların atributları coğrafi obyekti əmələ gətirirlər. Vektorlu format coğrafi obyektin yalnız həndəsi ifadəsidir. Burada əhəmiyyətli məsələ həndəsi və ya kartoqrafik materialı verilənlər bazasındakı informasiya ilə əlaqələndirməkdən ibarətdir. Başqa sözlə desək, vektor variantında, obyektin öz təsviri deyil, onun haqqında zəruri informasiya saxlanılır və bu informasiya istənilən an həmin coğrafi obyektin ekrana çıxarılmasını xüsusi proqramın köməyi ilə təmin edir. Vektor modelində nöqtələr, xəttlər və poliqonlar haqqında informasiyalar x,y koordinatları şəklində kodlaşdırılır və saxlanılır.

Vektorlu modellərin coğrafi verilənlərinə aid obyektləri tiplərə ayırmaq olar: ölçüsüz obyektlər, birölçülü obyektlər, ikiölçülü obyektlər, üçölçülü obyektlər.

Ölçüsüz obyektlər nöqtə və qovşaqdır. Nöqtə – coğrafi yeri göstərir və bu cür nöqtələr çoxluğundan nöqtə qatı əmələ gəlir. Məsələn, hər hansı bir istinad nöqtəsi, ünvan və ya qazma quyusu x,y coğrafi koordinatları ilə təsvir olunur. Qovşaq – obyektin yerini müəyyən edə bilən kəsişmə nöqtəsi və ya son nöqtədir.

Xətt – dayaq nöqtəsi olmayan birölçülü obyektdir. Vektorlu formatda xəttlər iki və daha çox koordinat cütlüyündən ibarət olur. Müəyyən bir düz hissədə iki cüt koordinat ilə coğrafi obyektin vəziyyətini düzgün əks etdirmək olar. Daha mürəkkəb xəttlər bir neçə döngə nöqtəsina malik olduğundan, hər bir döngə nöqtəsinin koordinatları məlum olmalıdır, yəni, xəttin hər bir düz parçası koordinatla başlayıb koordinatla qurtarmalıdır. Əyri xəttlərin təsviri daha mürəkkəbdir və bu halda, mümkün qədər çox sayda kiçik düz xətt parçasından istifadə etmək lazım gəlir.

Vektorlu çaylar, yollar, boru kəmərləri kimi xətti obyektlər ardıcıl koordinat cütlükləri şəklində (x,y koordinat cütü ilə) əks olunur. Məlumdur ki, vektorlu format coğrafi obyektləri yaxşı ifadə edir, lakin mütləq dəqiqliyə malik deyil. Xəritə üzərində xəttlər müstəqil mövcud olaraq müəyyən informasiyaya malik olmasına baxmayaraq, şəbəkə şəklində olan xəttlər dəsti daha çox informasiyaya malik olurlar, çünki bu zaman hər bir xətt yalnız özünə aid olan informasiya ilə yanaşı xəttlər arasında məkan münasibətlərini əks etdirən əlavə informasiyalara da malik olurlar. Məsələn, yol şəbəkəsi yalnız yolun tipi haqqında informasiyanı deyil, həmçinin də yolda hərəkət istiqamətini də əks etdirə bilər. Bu cür informasiya hər bir yol kəsişməsində dəyişə bilər və yolda ikitərəfli hərəkətin birtərəfli hərəkət istiqamətinə keçidinə qədər nəzərə alınmalıdır. Yol ayırıcıları, qadağanedici işarələr, dönmə işarələri və s. kimi informasiyalar bütün şəbəkə üzrə müəyyən olunmalıdır.

Poliqon və piksel ikiölçülü obyektlərdir.

Poliqon – bu xarakterli obyektlər qapalı olmaqla sərhədlərlə müəyyən olunur. Bunları poliqonal (polygon) obyektlər də adlandırmaq olar. Buna misal olaraq torpaq sahələrinin, ərazi-inzibati vahidlərinin, vilayətlərin, ştatların və s. sərhədlərini göstərmək olar. Poliqonal obyektlər qapalı koordinat dəsti ilə ifadə olunurlar. Yuxarıda, vektor formatlı xətti obyektləri şərh edərkən qeyd etmişdik ki, xətti obyektlər bir koordinat cütlüyü ilə başlayıb, digər koordinat cütlüyü ilə qurtarır. Sahə (poliqon) obyektlər isə eyni koordinatla başlayıb, eyni koordinat ilə qurtarmalıdır, əks təqdirdə kontur qapanmaz və bunu sahə və ya poliqon adlandırmaq olmaz.

Piksel – təsvirin bölünməyən ən kiçik elementidir.

Vektor strukturu əsasında qurulan CİS-lərin üstünlükləri aşağıdakılardır:

- coğrafi obyektlər monitorda müvafiq rənglərlə təchiz olunaraq vizual təsvir olunur;
- ərazinin topologiyası, həmçinin elektrik təchizatı sxemləri, xəttləri, neft və qaz kəmərləri, telekommunikasiya xətləri daha əyani əks etdirilir;
- coğrafi obyektlər tam detallaşdırılır;
- hər hansı obyekti kiçiltmək və ya böyütmək üçün həmin obyektin koordinatlarını dəyişməklə bu proses reallaşdırılır;
- obyektlər üzərində miqyaslama rejimi aparıldıqda təsvir öz keyfiyyətini itirmir;
- az miqdarda yaddaş sərfi tələb olunur. Məsələn, min ədəd primitivdən ibarət olan vektorlu təsvir bir neçə yüz kBaytdan çox olmayan yaddaş sahəsində yerləşir.

Ağacvari struktur coğrafi verilənlərin toplanması və saxlanması üçün istifadə edilir və iyerarxik strukturlu təsvir üsuludur. Ağacvari strukturun əldə olunması üçün ikiölçülü həndəsi fiqurlar (oblast, sahə, təsvir) rekursiv olaraq hissələrə bölünür. Ağacvari struktura əsaslanan modellər CİS-lərdə müvafiq sahələrin hesablanmasını, obrazların tanınmasını, şəkillərin hissələrə bölünməsini təmin edir.

Ədəbiyyat

2. Əsgərov T.K. Coğrafi və ekoloji informasiya sistemləri fənni üzrə laboratoriya işləri. Dərs vəsaiti. Bakı, 2014.
3. Kərimov S.Q. İnformasiya sistemləri. Bakı: Elm, 2008.
4. Quliyev V. Verilənlər bazası. Bakı: Elm, 2006.
5. Məhərrəmov Z. Verilənlər bazası. Dərs vəsaiti. Bakı, 2015.
6. Mehdiyev A., İsmayılov A. Coğrafi informasiya sistemləri. Bakı: Müəllim, 2011.
7. Flangan D. The Definitive guide.USA, 2011.

II BÖLMƏ

TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

İsmayilova Nəzakət Mehman qızı
ADPU, Pedaqogikanın nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər. Ped. elm.dok., prof., Əməkdar müəllim Rüfət Lətif oğlu Hüseynzadə

SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏRİN TƏŞKİLİNDƏ PEDAQOJİ PRİNSİPLƏR

Açar sözlər: *sinifdənxaric iş, pedaqoji prinsiplər, dərnəklər, klublar, bölmələr*
Ключевые слова: *внеклассных работ, педагогические принципы, кружки, клубы, секции*
Key words: *extracurricular activities, extracurricular activities, pedagogical principles, circles, clubs, sections*

Sinifdənxaric və məktəbdənkənar tərbiyə işinin təşkili və müvəffəqiyyətli nəticələr verməsi üçün tərbiyənin ümumi pedaqoji prinsipləri rəhbər tutulmaqla bərabər həm də bu tədbirlərin təşkilinin özünəməxsus pedaqoji prinsplərinə əməl edilməlidir. Pedaqoji prinsipləri hər hansı biri tədbiri təşkil edərkən rəhbər tutulan əsas ideya, nəzərə alınan tələb kimi də başa düşmək olar.

"Humanistlik, demokratiklik, bərabərlik, şəxsiyyətyönümlülülk, şagirdyönümlülük, nəticəyönümlülük, inteqrativlik müasir təhsilimizin ümumi əsas pedaqoji prinsipləridir ki, bunlar pedaqoji prosesin təşkilinin bütün sahələri üçün tətbiq edilir" (1, 125). Bunlarla yanaşı sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində xüsusi olaraq rəhbər tutulan pedaqoji prinsiplər də vardır ki onları aşağıdakı kimi təsnif etmək olar:

1. Sinifdənxaric və məkltəbdənkənar tərbiyə işlərində şagirdlərin maraq və tələbatının nəzərə alınması prinsipi. Bu prinsip tələb edir ki, sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri məktəblilərin maraq və meylinə uyğun təşkli edilsin. Bu cəhətdən müəllim və tərbiyəçilər məktəblilərin maraq və həvəslərini, meylini, tələbatını öyrənməli və buna uyğun olaraq onları sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinə istiqamətləndirməlidirlər.

2. Konüllülük prinsipi. Bu prinsip tələb edir ki, sinifdənxaric və məktəbdənkənar işlər, dərnək və klubların, bölmələrin, fakültətiv məşğələlərin şagirdlər tərəfindən seçilməsinin könüllü xarakter daşıması təmin edilsin. Bu məsələdə müəllim və tərbiyəçilər, sinif rəhbərləri şagirdlər düzgün seçim üçün dəyərli, faydalı məsləhət və istiqamətlər verməli, onları səmərəli fəaliyyətə sövq etdirməlidirlər.

3. Sinifdənxaric və məktəbdənkənar işlərin ictimai istiqmətli olması prinsipi. Bu tələb edir ki, dərnək və klubların işi, bölmələrin fəaliyyəti ictimai xarakterli və ictimai əhəmiyyət kəsb etsin. Bu prinsip tələb edir ki, aparılan işlər insanların rifahına xidmət etsin, tədbirlər elm və texnikanın nailiyyətləri ilə, müasir elmin, texnikanın, incəsənətin, mədəniyyətin inkişafı ilə əlaqələndirilsin.

4.Sinifdənxaric və məktəbdənkənar işlərin təşkilində məkətblilərin təşəbbüssskarlıq, fəallıq və müstəqilliyinin təmin edilməsi prinsipi. Yəni tərbiyə işlərinin təşkilində və məktəblilərin təəşəbbüüskarlığı və fəallığı təmin edilsin, onların müstəıqil fəaliyyəti təmin edilsin.

5. Sinifdənxaric və məktəbdənkənar işlərin təşkilində oyun elementlərindən, əyləncə və romantikadan, emosional situasiyalardan istifadə prinsipi. Bu tədbirlərin təşklində oyun elementlarından istifadə olunmasını tələbə edir.

6.Sinifdənxaric və məktəbdənkənar işlərin həyatla, praktik işlərlə əlaqələndirilməsi prinsipi. Yəni, aparılan işlər müasir həyatımızla. əməli işlərlə, quruculuq işləri ilə əlaqələndirilməlidir. Şagirdlərin dərsdə öyrəndikləri biliklər sinifdənxaric işlərdə, əməli, təcrübi işlərlə möhkəmləndirilsin. Şagirdlərin nəzəri bilikləri praktik işlərlə bağlanmalı və istehsalatda, təcrübə işlərində, təsərrüfat sahələrində, yaradıcı işlərdə tətbiq edilməlidir.

7. Sinifdənxaric və məktəbdənkənar məşğələlrin təşkilində əlverişli, münasib şəraitin yaradılması prnsipi. Yəni tədbirlərin təşklində mühit, şərait, təchizat, avadanlıqlar, yer, məkan nəzərə alınmalıdır.

8. Kiçik yaşlı məktəblilərin sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəb edilməsində məktəblilərin fərdi-psixoloji xüsusiyyətlərinin, istedad və qabiliyyətlərinin nəzərə alınması prinsipi. Bu tələb edir ki, şagirdlərin mövcud qabiliyyətləri, potensial imkanları, istedad və bacarıqları diqqətlə nəzərə alınsın və ona uyğun olaraq işlər təşkil edilsin.

9. Sinifdənxaric və məktəbdənkənar tədbirlərdə vahid tələbkarlıq və şagird şəxsiyyətinə hörmət prinsipi. Yəni şagirdlərə humanist yanaşılması tələb olunur. Sinifdənxaric tədbirlərdə şagirdlər sərbəst və öz arzu istəyi əsasında fəaliyyət göstərməlidirlər.

10. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin məktəblilərin yaş dərəcələrinə, anatomik-fizioloji keyfiyyətlərinin, sağlamlığının nəzərə alınması prinsipi. Hər yaş dərəcəsi üçün müvafiq tədbirlər təşkil edilməsi nəzərə alınmalıdır.

11. Sinifdənxaric və məktəbddənkəanr işlərdə fərdi, cütlərlə, qrup və kollektivlə, kompleks iş formalarının bir birilə əlaqələndirilməsi prinsipi tələb edir ki, keçirilən tədbirin xüsusiyyətinə, məzmununa uyğun olaraq iş forması çeçilsin. Düzgün seçilməyən iş forması işin məzmununa mənfi təsir göstərər, uğurlu nəticə əldə olunmaz .

12. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin təşklində şagirdlərin şəxsi nailiyyətlərinə istinad edilməsi prinsipi tələb edir ki, sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərində uşaqların nailiyyətləri uğurları nəzərə alınsın, onları bu nailiyyətləri artırmağa sövq etdirilsin və əldə edilmiş nailiyyətlər əsasında uşaqlarda stimul və motivasiya yaradılsın.

13. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin sinfin, məktəbin təlim, tədris və ümumi tərbiyə işləri ilə əlaqələndirilməsi prinsipi tələb edir ki,

sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri sinfin və məktəbin ümumi tərbiyə və təhsil işləri ilə müntəzəm olaraq uzlaşdırılmalı, onların işləri təkrar olunmadan, məktəbin, sinfin tərbiyə və təhsil işlərinin keyfiyyətinin yüksəlməsinə istiqamətlənməlidir.

14. Dərsdə əldə edilmiş biliklərin sinifdənxaric və məktəbdənkənar tədbirlərdə tərbiq edilməsi və möhkəmləndirilməsi prinsipi tələb edir ki, təlim prosesində əldə edilmiş biliklər sinifdənxaric və məktəbdənkənar tədbirlərdə tətbiq edilsin.

Göstərilən pedaqoji prinsiplər bir birilə sız bağlıdır və pedaqoji prosesdə, tədbirlərin təşkilində kompleks şəkildə istifadə edilməlidir.

Ədəbiyyat

1. Hüseynzadə R.L., İsmayılova M.C. Tərbiyə işi və onun metodikası. Bakı: ADPU, 2012, 442 s.

2. Qasımova L.N. Orta ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi" (V-IX siniflərin "Ədəbiyyat" və "Azərbaycan tarixi" fənləri üzrə).Pedaqoji elmlər doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2006, 45 s.

3. Mənsimov H.M. Sinif rəhbərinin tərbiyə üzrə işinin şagird şəxsiyyətinin formalaşmasına təsiri. Pedaqogika üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Bakı, 1998, 28 s.

Исмаилова Незакет

Классификация педагогические принципы в организации внеклассных и внешкольных работ

РЕЗЮМЕ

Внешкольная воспитательная работа является составной частью системы образования и воспитания детей, подростков и учащейся молодежи. Она проводится в свободное от учебы время с целью развития интересов и способностей личности, удовлетворения ее потребностей в познании, общении, практической деятельности, восстановлении сил и укреплении здоровья. Внешкольная работа тесно связана с учебно-воспитательным процессом в школе, воспитательной работой по месту жительства и осуществляется преимущественно внешкольными учреждениями. Внеклассная и внешкольная воспитательная работа специфичны по своим целям, задачам, содержанию и методике проведения. Выделяют ряд педагогических принципов ведения внеклассной и внешкольной воспитательной работы которые относиться принцип инициативы и самодеятельности, инициативы и самодеятельности использования игровых форм деятельности учета возрастных и индивидуальных.

İsmailova Nazaket

Pedagogical principles in the organization of extracurricular and extracurricular activities

SUMMARY

Extracurricular educational work is an integral part of the system of education and training of children, adolescents and students. It is carried out in free time from studies with the aim of developing the interests and abilities of the individual, satisfying her needs for cognition, communication, practical activities, restoration of strength and health promotion.

Extracurricular and extracurricular educational work is specific in its goals, objectives, content and methodology. There are a number of pedagogical principles for conducting extracurricular and extracurricular educational work that relate to the principle of initiative and initiative, initiative and initiative of using game forms of activity accounting for age and individual.

İsmayilova Nəzakət Mehman qızı
ADPU, Pedaqogikanın nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər. Ped. elm.dok., prof., Əməkdar müəllim Rüfət Lətif oğlu Hüseynzadə

ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ SİNİFDƏNXARİC TƏDBİRLƏRİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sinifdənxaric iş, mənəvi tərbiyə, vətənpərvərlik tərbiyəsi*

Ключевые слова: *внеклассных работ, нравственное воспитание, патриотические воспитание*

Key words: *extracurricular activities,moral education, patriotic education*

Şagird şəxsiyyətinin formalaşmasında, onların mənəvi, əxlaqi, etik və estetik tərbiyəsində, xüsusilə vətənpərvərlik tərbiyəsində sinifdənxaric tədbirlərin tolu çox böyükdür. Sinifdənxaric işlər məktəblilərin idrak imkanlarını inkişaf etdirir, ictimai fəaliyyətini fəallaşdırır, yaradıcı qabiliyyətlərini artırır, istedad və bacarıqlarını üzə çıxarır, gələcək peşə seçmələrinə əlverişli imkan və şərait yaradır, mənəvi-əxlaqi keyfiyyətlərini, elmi dünyagörüşlərini inkişaf etdirir, biliklərə maraq və məhəbbət tərbiyə edir və vətənpərvərlik hisslərini inkişaf etdirir.

Sinifdənxaric və məktəbdənkənar işlər həmçinin uşaqlarda özlərinə inam formalaşdırır, özünü təsdiqlədir, şüurlu intizam yaradır, mədəni davranış qaydaları, ətraf insanlarla düzgün ünsiyyət və münasibətdə olmaq vərdişləri aşılayır. Mühüm pedaqoji proses kimi, sinifdənxaric və məktəbdənkənar tədbirlərin uğurlu təşkili, şagirdlərin potensial imkanlarının üzə

çıxarılması, keçirilən tədbirlərin təhsilin keyfiyyətinin yaxşılaşdırılamasına təsiri, bir çox cəhətdən onun düzgün idarə olunmasından, pedaqoji əsaslar üzərində düzgün qurulmasından başlayır. Bu barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" 24 oktyatbr, 2013-cü il tarixli sərəncamında xüsusilə göstərilmişdir: "Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir (1).

Sinifdənxaric və məktəbdənkənar tədbirlələrin təşkili, onların əhəmiyyəti, təşkili haqqında Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda (2), Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyasında(3) dəyərli göstərişlər verilmiş, pedaqoq alimlərimiz qiymətli əsərlər yazmış (6) və dissertasiya işləri də müdafiə etmişlər (4,5,7,8).

Qeyd edək ki, sinifdənxaric iş – məktəbin apardığı təlim-tərbiyə prosesinin zəruri tərkib hissəsidir. Bu işi dərsdən əvvəl (əgər dərslər ikinci növbədə keçilirsə), yaxud dərsdən sonra (əgər dərslər birinci növbədə keçilirsə) ya pedaqoji kollektivin üzvləri (məktəbin rəhbər işçiləri, fənn müəllimləri, sinif rəhbərləri və s.) ya da müxtəlif növ şagird özünüidarə təşkilatları, uşaq və gənclər təşkilatının rəhbərləri təşkil edib həyata keçirirlər.

İbtidai siniflərtdən başlayaraq müxtəlif formalı və təmayüllü sinifdənxaric tədbirlər şagirdlərin böyük marağına səbəb olur, onların maraq və meyilləri inkişaf eidr, yaradıcılıq imkanları, dünyagörüşləri daha da genişlənir.

Sinif dərs propsesində şagirdlərin öyrənə bilmədikləri məsələlərə müxtəlif formalı sinifdənxaric məşğələlər vasitəsilə öyrənmək olur ki, bu zaman şagirdlərin bilik və dünyagörüşləri genişlənir. Şagirdlərin bacarıq və qabiliyyətlərinin səviyyəsi, istedadı, tərbiyəlilik səviyyəsi, ümumiyyətlə nəyə qadir olduqları məhz sinifdənxaric işlər prosesində məlum olur.

Sinifdənxaric məşğələlər həmçinin sinif müəlliminə öz şagirdlərini yaxşı tanımaq imkanı verir, onların istedad və qabiliyyətlərini, mənəvi, əxlaqi tərbiyəsini öyrənməyə əlverişli şərait yaradır.

Sinifdənxaric işlərin müxtəlif formaları vasitəsilə keçirilən tədbirlər quru və cansıxıcı olmamamlı, uzun söhbətlərdən, nəsihət və öyüdlər olmamalı, konkret iş, canlı ünsiyyət, dialoq, real tədbirlər, əməli fəalliyyət, fəallıq və təşəbbüskarlıq olmalıdır.

Sinifdənxaric ilərin təşklində mütəşəkkillik, məsuliyyət, dəqiqlik, intizam əsas şərtlərdəndir. Sinifdənxaric işlərin təşkilində sinif müəllimi görəcəyi işin mahiyyətini, məzmununu, plan və ssenarisini əvvəlcədən yaxşı bilməlidir.

Pedaqogikanın nəzəri və təcrübi problemləri ilə məşğul olan mütəxəssilərin bir qrupu sinifdənxaric işlərin əsas funksiyasının dərsdən sonra şagirdlərin asudə vaxtlarının səmərəli keçirilməsi ilə əlaqələndirirlər.

Sinifdənxaric işlərdən bir çox hallarda ayrı-ayrı fənlərin dərsdə geniş şəkildə öyrədilməsi mümkün olmayan problem məsələlərin həllində, müxtəlif janrlı əsərlərin, ifaçılıq keyfiyyətlərinin öyrədilməsində, inkişaf etdirilməsində, sinifdənxaric oxularda istifadə edilir.

Heç şübhəsiz, sinifdənxaric işlərin ən başlıca, mühüm vəzifələrindən biri layiqli vətəndaş, mənəviyyatlı, əxlaqlı insanlar, milli və bəşəri dəyərlərə yiyələnmiş mənəvi zənginliklərə malik, hərətərəfli ahəngdar inkişaf etmiş insan yetişdirməkdir.

Sinifdənxaric işlər şagirdlərin tədris materialları üzərində müəyyən fakt və hadisələri öyrənərkən əldə etdikləri bilik, bacarıq və vərdiş səylərini möhkəmlətməkdə böyük rol oynayır. Belə ki, məktəbdə təşkil olunan müəyyən xarakterik iş priyomlarının, tərbiyələndirici tədbirlərin müstəqil təşkilinə xidmət edən qabaqcıl üsul və tərzlərin tətbiqi sinifdənxaric iş prosesində daha geniş təzahür imkanlarını tapır.

Sinifdənxaric işlər məktəbliyə daha çox müstəqillik verərək, onun müəllimə fərdi yanaşmasını asanlaşdırır. Dərs zamanı məktəblini düşündürən bütün sualları cavablandırmaq vaxt məhdudiyyəti baxımından mümkün olmur. Sinifdənxaric işin dərslə qarşılıqlı təsiri, məktəbli-

nin bilik axtarışında mobilliyinin təmin olunmasına və onun maraqlarının həyata keçirilməsinə kömək edir.

Fənlər üzrə keçirilən sinifdənxaric məşğələlər zamanı məktəblilərin baza bilik və bacarıqları dərinləşib möhkəmlənir, qabiliyyətləri artır, onların idrakı maraqları inkişaf edir, şəxsiyyətləri formalaşır, müstəqil işgörmə səriştələri, İKT bilikləri, ədəbiyyatla işləmək istəkləri artır, onlar kollektivlə birgə ünsiyyət qurma vərdişləri əldə edirlər. Qazandıqları bilik, bacarıq, və vərdişləri onların yaradıcı fəallıqlarının təşəkkül tapmasına və gələcək inkişaflarına müsbət təsir göstərir.

Sinifdənxaric tədbirləri o zaman qənaətbəxş hesab edə bilərik ki, o tədbirlər uşaqlarda nəcib əxlaqi sifətlərin, mənəvi keyfiyyətlərin formalaşmasına kömək göstərsin, təlim-tərbiyə nöqteyi-nəzərindən məzmunlu olsun, məktəbin qarşısında duran təhsilləndirici, tərbiyəedici və inkişafetdirici funksiyaları yerinə yetirsin. Keçirirlən tədbirlər şagirdlərin intizamına, mədəni davranış və rəftarına, şüuruna, tərbiyəlik səviyyəsinə müsbət təsir etməlidir. Buna nail olmaq üçün isə, sinidənxaric işin müxtəlif formalarına davamlı müraciət etməklə, şagirdlər vətənpərvərlik, yoldaşlıq və dostluq, özünə və başqalarına, yaşlılara hörmət, düzgünlük, şəxsi və milli ləyaqət hisslərinin, qayğıkeşlik, cəsurluq, sadəlik, təvazökarlıq, xeyirxahlıq və s. kimi mənəvi, əxlaqi keyfiyyətlərin inkişafının qayğısına qalınmalıdır.

Şagirdlərin tərbiyəlilik səviyyəsinin yüksəldilməsinin mühüm vasitəsi kimi bu gün məktəblilərlə keçirilən sinifdənxaric işlərin əsas məqsədi, onların Vətənə, torpağa, tarixi keçmişimizə, azadlıq və istiqlaliyyətimiz uğrunda yorulmadan mübarizə aparmış xalq qəhrəmanlarımıza, Qarabağ döyüşlərində, Vətən müharibəsində igidlik göstərmiş, qəhrəmanlıq etmiş mərd mübarizlərimizin şücaətləri nümunə göstərilməli, qəhrəman sərkərdələrimizə, igid əsgərlərimizə daim minnətdarlıq hissi yaradılmalı, vətən torpağı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu unudulmamalı, əbədi qəlblərdə yaşadılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.
2. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2009.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Kurikulum, 2008, № 1.,s.131-150.
4. Abdullayeva S.A. Sinifdənxaric tədbirlər yuxarı sinif şagirdlərinin milli mənlik şüurunun formalaşdırılmasının mühüm vasitəsi kimi. Pedaqogika üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Bakı, 1999, 30 s.
5. Axundova A.S. V-XI siniflərdə şagirdlərin biliklərinin möhkəmləndirilməsində təlim xarakterli sinifdənxaric işlərin imkanları. Pedaqogika üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Bakı, 1998, 30 s.
6. Hüseynzadə R.L., İsmayılova M.C. Tərbiyə işi və onun metodikası. Bakı: ADPU, 2012, 442 s.
7. Qasımova L.N. Orta ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyə və təcrübəsi" (V-IX siniflərin "Ədəbiyyat" və "Azərbaycan tarixi" fənləri üzrə).Pedaqoji elmlər doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2006, 45 s.
8. Mənsimov H.M. Sinif rəhbərinin tərbiyə üzrə işinin şagird şəxsiyyətinin formalaşmasına təsiri. Pedaqogika üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Bakı, 1998, 28 s.

Исмаилова Незакет

Специфические особенности патриотические воспитание учащихся в внеклассных мероприятиях

РЕЗЮМЕ

Внешкольная воспитательная работа является составной частью системы образования и воспитания детей, подростков и учащейся молодежи. Она проводится в свобод-

ное от учебы время с целью развития интересов и способностей личности, удовлетворения ее потребностей в познании, общении, практической деятельности, восстановлении сил и укреплении здоровья. Внешкольная работа тесно связана с учебно-воспитательным процессом в школе, воспитательной работой по месту жительства и осуществляется преимущественно внешкольными учреждениями. Внеклассная и внешкольная воспитательная работа специфичны по своим целям, задачам, содержанию и методике проведения.

Ismailova Nezaket

Specific features of patriotic education of students in extracurricular activities

SUMMARY

Extracurricular educational work is an integral part of the system of education and training of children, adolescents and students. It is carried out in free time from studies with the aim of developing the interests and abilities of the individual, satisfying her needs for cognition, communication, practical activities, restoration of strength and health promotion.

Extracurricular and extracurricular educational work is specific in its goals, objectives, content and methodology.

Novruzlu Zərifə
ADPU

DƏRSİN PLANLAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

Açar sözlər: *dərs, plan, məqsəd, öyrənmə, tədris, fəaliyyət, planlaşdırma, müəllim*
Ключевые слова: *lesson, plan, goal, learning, teaching, activity, planning, teacher*
Key words: *урок, план, цель, обучение, обучение, деятельность, планирование, учитель*

Təhsil müəssələrində tədris prosesində yeni təlim texnologiyalarının tətbiqi, dünya təhsil sisteminə inteqrasiya məsələlərinə ciddi yanaşılır. Keyfiyyətli təhsil prosesinin əsas tərkib hissələrindən biri dərsin təşkilidir: onun mərhələləri, təlimin forma, üsul və metodlarıdır; onun qurulması optimal düzgün həllinin tapılmasıdır. Müasir dərsdə müəllim hər bir uşağı görür, onun potensialından maksimum dərəcədə istifadə edir. Müasir dərs bütün iştirakçıların qarşılıqlı inam və etibarı əsasında canlı ünsiyyətdir. Dərs nəinki müəllimin, həm də şagirdin yaradıcılığının nəticəsi olur.

Dövlət standartında xarici dil müəllimlərinin hazırlanmasının əsas məqsədi xarici dillərin tədrisi sahəsində işləmək üçün peşəkar sərişt ələrin formalaşdırılması vurğulanır. Xarici dil müəlliminin peşəkar sərişt əsi, tədris prosesinin optimal təşkili, planlaşdırılması və aparılması, onun təşkili metodları və formalarının düzgün seçilməsi üçün qabiliyyət və hazırlığı əhatə edir. Təhsil prosesinin təşkili metodikası bir müəllimin "tədris fəaliyyəti" və ya xarici dili öyrətmə texnologiyası nöqteyi-nəzərindən təqdim olunur ki, bu da xüsusi öyrənməyə nail olmaq üçün necə öyrədilməli və nəyi öyrətməli olduğuna dair suallara cavab verir. Əsas diqqət "müasir xarici dil dərsi" nin kompleks metodoloji konsepsiyasına yönəldilmişdir. Tədris və metodiki problemlərin həlli, dərs planlarının hazırlanması, mikro tədris, tədris və metodiki oyunlarda iştirak tələbələrin xarici dil müəlliminin pedaqoji funksiyalarının həyata keçirilməsini təmin edən peşə və metodiki bacarıqların əsaslarını mənimsəməsinə imkan verəcəkdir.

Xarici dil tədrisində ən vacib proseslərdən biri də dərs planlaşdırılmasıdır. Dərs planı, "tədris" trayektoriyasını ətraflı təsvir etməsidir. Müəllim sinifə rəhbərlik etmək üçün gündəlik dərs planını hazırlayır. Təfərrüatlar müəllim seçiminə, mövzu və tələbə ehtiyaclarına əsasən

dəyişəcəkdir. Bu, şagirdlərin ünsiyyət qabiliyyətini inkişaf etdirməyin açarıdır. Dərs planı sizə tədris və öyrənmə məqsədlərinizi və onları həyata

keçirmək üçün vasitələrin ümumi bir xülasəsini təqdim edir. Dərs planı, əsas öyrənmə üçün bir struktur təmin edən addım-addım rəhbərdir. Dərs planlaşdırması tədris-öyrənmə sisteminin mühüm və vacib elementidir. Bir dərsi planlaşdırmadan əvvəl sinif üçün öyrənmə nəticələrini təsnif etmək vacibdir. Məqsədimiz, ayrı-ayrı şagirdlərin xarici dil öyrənmələrinə kömək etmək üçün fərqli öyrənmə fəaliyyətlərini təmin etməkdir. Məqsəd və vəzifələr yerinə yetirildikdən sonra planlaşdırılan dərsin şagirdlər tərəfindən başa düşülməsinə əmin olmaq vacibdir. Müəllim şagirdlərin mövzunu asanlıqla başa düşmələri üçün fərqli izah metodları hazırlamalıdır. Metodlara real həyatda nümunələr gətirmək və ya mövzu ilə bağlı hipotetik vəziyyət yaratmaq daxil ola bilər. Müəllimə əvvəlcə əsas biliklərə daha çox diqqət ayırmağa, sonra şagirdləri növbəti addıma aparmağa kömək edə bilər. Müəllimin ayrı-ayrı dərslərə hazırlaşmasında məqsədin mü-əyyənləşdirilməsinin mühüm rolu vardır. Dərsin məqsədini müəyyən etmək aşağıdakıları müəyyən etmək deməkdir: a)dərs zamanı şagirdlərdə formalaş-dırılacaq ideyalar, qanunauyğunluqlar, anlayışlar; b) əvvəllərdə qazanılmış təkmilləşdirilməli bilik və bacarıqlar; c) ilk dəfə veriləcək bilik və bacarıqlar; ç) dərs zamanı aparılacaq tərbiyəvi iş. Dərs planlaşdırma üçün şagirdlərə tədris olunan dərsin məqsəd və vəzifələrini bilmək vacibdir. Müəllim yalnız şagirdləri öyrətmək üçün deyil, həm də dərs sonunda dərslə bağlı səmərəli düşünmələrini təmin etmək üçün hazır olmalıdır. Məqsədlər və hədəflər dərsin bütün açıları ilə bağlı sualları cavablandırmalıdır. Dərs məqsədləri, bu məqsədlərə cavab verəcək fəaliyyət növləri, bu fəaliyyətlərin ardıcıllığı, lazımi materiallar, hər bir fəaliyyətin nə qədər davam edə biləcəyi və şagirdlərin necə qruplaşdırılması haqqında bütün xüsusiyyətləri özündə əks etdirməlidir. Müəllimlər bir fəaliyyətlə digər fəaliyyət arasındakı əlaqələri, cari dərslə keçmiş və gələcək dərslər arasındakı əlaqəni və öyrənmə fəaliyyətləri ilə qiymətlən-dirmə praktikaları arasındakı əlaqəni əks etdirə bilər. Müəllim bu əlaqələri düşündüyündən və əlaqələri şagirdlər üçün açıq hala gətirə bildiyindən dərs onlar üçün daha mənalı olacaqdır. Bütün müəllimlər qabiliyyətindən, təcrübəsindən və təhsil sahəsinin nədən ibarət olmasından asılı olmayaraq düşünülmüş şəkildə hazırlanmış bir dərs planı tələb edir. Dərs planının əhəmiyyəti, bütün tədris prosesinin necə aparılacağına və şagirdlərin onlara ötürülən bilikləri necə anlaya və yadda saxlaya biləcəyinə dair aydınlıq və anlaşma ehtiyacı ilə vurğulanır. Dərs planı müəllimin gün üçün səylərini və mənbələrini sərmayə edə biləcəyi istiqaməti rəhbər tutur. Digər tərəfdən, dərs planlaşdırılması müəllimə şagirdlərdə həyata keçirmək istədiyi məqsədləri yerinə yetirməsi və ya yerinə yetirməsi baxımından həyata keçirdiyi tədris metodunu əks etdirməyə imkan verir. Dərs planları ümumiyyətlə hədəflər, tələblər, mənbələr, prosedurlar və qiymətləndirmə texnikaları kimi vacib komponentlərdən ibarətdir. Effektiv dərs planının hər bir hissəsi şagirdlər üçün öyrənmə prosesinə təsir göstərdiyindən, strateji bir yanaşma ilə onları idarə etmək çox vacibdir.

Dərs planlarını hazırlamaq dərsin vaxtını təşkil edir və müəllimlərə verilmiş vaxtla dərslərin səmərəli keçirilməsinə kömək edir. Dərsin yaxşı planlaşdırılması dərs vaxtının səmərəli istifadəsi ilə nəticələnir. Dərslərin planlaşdırılmasının vacibliyini aşağıdakı kimi ümumiləşdirmək olar: 1. Müəllimlərə öyrənənlərin dərsdə nəyə nail olacağını düşünməyə kömək edir. 2. Fikirlərin, metodologiyanın, materialların və s. təşkili üçün bir çərçivə təmin edir. 3. Dərsin ardıcıl olmasını tənzimləyir. 4. Şagirdlərə müəllimin nələri nümayiş etirdiyini göstərir. 5. Dərsə hazır olmaq müəllimin inamını artırır. 6. Bu zaman yarana biləcək hər hansı bir problemi və ya çətinliyi aşkar etməyə kömək edir. 7. Müəllimlərin fərqli siniflərlə işləmə bacarığını formalaşdırır .

Adi bir dərs planı ümumiyyətlə dərsə aid detallardan, həll ediləcək nəticələrdən və istifadə ediləcək metoddan, həmçinin şagirdləri cəlb etmək və qiymətləndirmək üçün daxil ediləcək material və fəaliyyətlərdən ibarətdir. Dərs planının son hissəsi həm müəllim, həm də şagird nöqteyi-nəzərindən qiymətləndirmə sessiyasından bəhs edir. Planlaşdırma və öyrənmə

fəaliyyətlərindən sonra başa düşülməsini yoxlamaq üçün müəllimin mövzu ilə bağlı bilik və anlayışını yoxlamaq üçün müxtəlif yollarla suallar hazırlaması vacibdir. Şifahi və ya yazılı şəkildə başa düşülməsini yoxlamaq müəllimin qərarıdır. Suallar əvvəlcədən planlaşdırılmalıdır. Müəllim sualları uyğun olaraq tərtib etmək üçün şagirdlərin öyrənməsini planlaşdırdığının fərqində olmalıdır. Ayrıca, məsələnin bilik və anlayışını yoxlamaq üçün fəaliyyətlər planlaşdırıla bilər. Dərs məhsuldar olduqda, yalnız planınıza uyğun gedən hər şeyə işarə etmir, eyni zamanda müəllim və şagirdlərin bir-birlərindən öyrənmələrini təmin edir. Jim Scrivener'in dediyi kimi "Diqqətlə hazırlaşın. Yalnız sinifdə planınızı tədris etməyin, şagirdlərinizi də öyrətməyə çalışın" təlim məqsədlərinizi, öyrənmə hədəflərinizi və onlara çatmağın yollarını müəyyənləşdirin. Nə etmək istədiyinizi və necə etmək istədiyinizi xatırladacaq. Məhsuldar dərs hər şeyin tam olaraq planlaşdırıldığı kimi getdiyi bir dərs deyil, şagirdlərin və müəllimin bir-birindən öyrəndiyi bir dərsdir.

Ədəbiyyat

1. Approaches and methods in Lnguage Teaching by Jack C. Richards and Theoder S. Rodgers.

2. Differentiated Assessment Strategies One Tool Doesn't Fit All by Carolyn Chapman Rita King.

3. Jeremy-harmer-the-practice-of-english-language-teaching

4. How to Teach English by Jeremy Harmer

İnternet resursları

5. www.eln.io/blog/3-reasons-lesson-planning

6. impoff.com/importance-of-lesson-plan/

7. www.tesol.org/docs/default-source/books/14002_lesson-planning_ch-1

8. www.train-aid.co.uk/blog/the-importance-of-lesson-planning

9. elib.gsu.by/bitstream/123456789/3418/1/%D0%9F%D0%BE%D1%81%D0%BE%D0%B1%D0%B8%D0%B5.pdf

10. www.linkedin.com/pulse/importance-lesson-planning-before-delivery-ms-jemi-sudhakar 11. mpbou.edu.in/slm/B.Ed_SLM/bedteb3u4.pdf

Новрузлу З.

Важность планирования урока

РЕЗЮМЕ

Всем учителям необходимо максимально повысить важность плана урока, чтобы повысить качество обучения своих учеников. План урока работает как карта, которая указывает, как освещать различные темы в рамках учебной программы, и служит прекрасным инструментом обучения. Благодаря планированию урока учителя могут понять, что ожидается от урока, и дать ученикам возможность понять свои цели. Чистый и организованный план уроков дает много важных преимуществ. Хорошее планирование позволяет более эффективно преподавать и учиться. Однако в классе может происходить многое, и учителям важно адаптировать свои планы к потребностям учеников.

Novruzlu Z.

The importance of lesson planning

SUMMARY

All teachers need to maximize the importance of a lesson plan to enhance how they educate their learners. A lesson plan works like a map that directs you on how to cover different topics within the curriculum and serves as an amazing tutoring tool. Through lesson planning, teachers can understand what is expected from the lesson and enable the students to understand their objectives. There are many important benefits of having a clean and organized set of lesson plans. Good planning allows for more effective teaching and learning.

However, many things can happen in class, and it is important for teachers to adapt their plans to respond to the students' needs.

Novruzlu Zərifə
ADPU

SİNİFİN İDARƏ EDİLMƏSİNİİN SƏMƏRƏLİLİYİ

Açar sözlər: *sinif, idarə etmək, müəllim, tədris, mühit,sinif, effektiv, davranış, idarçilik*
Ключевые слова: *класс, управление, учитель, обучение, окружающая среда, класс, эффективный, поведение, управление*
Key words: *classroom, manage, teacher, teaching, environment, classroom, effective, behavior, management*

Təhsilin əsas hədəflərindən biri ömür boyu öyrənməyi təşviq etməkdir. Təhsil, öyrənənləri sinifdən kənarda da həyatları boyu öyrənməyə cəlb etməlidir. Beləliklə, şagirdlər arasında öyrənmə inkişaf etdirilməlidir. Təhsil ədəbiyyatında sinifin idarəedilməsi müəllimlərin optimal öyrənməyə kömək etməsində əsas rol oynadığı fikrini dəstəkləyən bir dəlil vardır. Bu işığın içində şagirdlərin sinifdəki davranışlarının səmərəli idarə edilməsinin vacibliyini qiymətləndirməyimiz vurğulanır. Şagirdlərin sinifdəki davranışlarının səmərəli idarə edilməsi çox vacibdir.

Sinifin idarəedilməsi müəllimlərin və təhsil inzibatçılarının təlim üsullarını idarə etmə və tətbiqetmə müddətidir. Sinif idarəçiliyi dərs planlaşdırma, öyrənmə metodikası və şagirdlərin əldə etdikləri müxtəlif öyrənmə bacarıqları kimi təməl anlayışlardan bəhs olunur. Effektiv sinif mühitində qoyulmalı olan öyrənmə məqsədlərini də vurğulayır, tələbələri və mütəxəssisləri bu sahədəki inkişaf etmiş mövzular və yaxın gələcəkdəki konsepsiyalarla təchiz etmək məqsədi daşıyır. Tələbələr və mütəxəssislər üçün bir qaynaq bələdçisi olaraq xidmət etməyi və intizamın böyüməsinə kömək etməyi hədəfləyir. Sinifin idarəedilməsi tədris proqramının hazırlanmasının, ən yaxşı tədris təcrübələrinin inkişaf etdirilməsinin və həyata keçirilməsinin dəstəklənməsindən ötrü çox vacibdir. Sinifin idarəedilməsi müəllimlərin uğurlu bir təhsil mühiti yaratmaq üçün istifadə etdikləri hərəkətlər və istiqamətlər kimi izah edilə bilər.

Müəllim şagirdlərin mümkün ehtiyaclarını proqnozlaşdırmalı və bu ehtiyacları ödəmək üçün ünsiyyət dili fəaliyyətlərini asanlıqla hazırlamalıdır. Fəaliyyətlər elə tərtib olunmalıdır ki, şagirdlər yüksək dərəcədə uğur qazansınlar. Müəllim eyni zamanda sinif daxilində müsbət və dəstəkləyici bir öyrənmə mühitinin yaradılmasında böyük rol oynayır. Müəllim şagirdlər üçün dil modeli olaraq xidmət etməyə hər daim davam edəcəkdir. Şagirdlərin ən çox ünsiyyət quracağı şəxs olaraq qalmaqla yanaşı, müəllimin əsas funksiyalarından biri indi şagirdləri bir-biri ilə mənalı bir şəkildə ünsiyyət qurmağa təşviq etmək yollarını tapmaq və ya icad etmək olacaqdır. Sinif müəllim mərkəzindən çox şagird mərkəzli olur; şagirdlər danışıqların çox hissəsini yerinə yetirirlər və müəllimin vəzifəsi idarəetməni asanlaşdırmaq, məsləhət vermək, kömək etmək və təklif etməkdir. Müəllim dil öyrənmənin asanlaşdırıcısı olmağa doğru irəlilədikdə, şagirdlər müstəqil dil öyrənən olmalarını təmin edəcək bacarıqlara yiyələnirlər. Dil vərdişlərinin müxtəlif vahidlər daxilində davamlı olaraq yenidən daxil edilməsi və nəzərdən keçirilməsi tələbələrin dili tətbiq etmələrinə və mənimsəmələrinə imkan yaradır. Bu spiral yanaşma dil öyrənməsində ideal olsa da, müəllim proqram hədəflərindən xəbərdar olmalı və yerinə yetirilməsini təmin etməlidir. Təlimat və qiymətləndirmə bu məqsədləri əks etdirməlidir. Müəllimin rolu öyrənmənin dizayneri və asanlaşdırıcısıdır. Müəllimlər, daha müstəqil öyrənmək üçün şagirdlərin öz öyrənmə proseslərini idarə etmələrinə və yaşıdları ilə əməkdaşlıq edərək öyrənməsinə şərait yaradır. Eyni zamanda çox istiqamətli öyrənmə imkanları təklif edən layihələr dizayn edirlər. Yaxşı sinif idarəetmə bacarıqlarına sahib olmaq mənəvi vəziyyətinizi artırmağa kömək edir. Daha yaxşı sinif idarəçiliyi müəllimlərə məsuliyyətli insan yetişdirməyə kömək edir. Beləliklə, dərslərini

daha yaxşı idarə edən müəllimlər nüfuzlu olurlar. Bu, şagirdlərə sərbəstlik verdikləri və sinifdəki müəyyən qaydalar, rutinlər və gözləntilər hüdudlarında bu azadlığı həyata keçirmələrini öyrətdikləri deməkdir. Yəni sinifdəki tələbə davranışının sərbəstliyi və nəzarəti arasında bir tarazlıq təmin edirlər. Əslində, effektiv sinif idarəedilməsi effektiv öyrənmənin reallaşması üçün sinifdə qayda-qanun yaratmaqla kifayətlənmir, həm də şagirdin cəmiyyətdə məsuliyyət daşımasına səbəb olacaq dəyərləri də öyrədir. Bunun səbəbi müəllimin şagirdlərində uyğun dəyərlərin formalaşmasında və inkişaf etdirilməsində əsas rol oynadığını düşünməkdir. Sinif idarəçiliyi fəlsəfəsi, şagirdlərimizin səmərəli öyrənməsi üçün məhsuldar bir mühit təmin etmək üçün sinif rutinlərimizi, standartlarımızı və qaydalarımızı idarə edən prinsiplərə və inanclara aiddir. Həmişə xatırlamalısınız ki, sinif idarəetmə üsullarınız və prosedurlarınız problemlərə reaksiya vermək əvəzinə problemlərdən qaçınmağa kömək etməlidir. Zəif idarə olunan sinifdə effektiv tədris baş tuta bilməz. Müəllimlər dərs verməkdə çətinlik çəkirlər və şagirdlər lazım olduqlarından çox az şey öyrənirlər. Bunun əksinə olaraq yaxşı idarə olunan sinif tədris və öyrənmənin inkişaf edə biləcəyi bir mühit təmin edir. Effektiv sinif idarəçiliyinin tələbə müvəffəqiyyətinə təsiri müəllimlərin peşələrini mənimsəmələri üçün lazım olan ən güclü bacarıqlardan biri olduğu müəyyən edilmişdir. Effektiv sinif idarəedilməsi, bir sinif üçün çox vacibdir, çünki sinifdə nizamlı bir mühit qurur və davam etdirir, mənalı akademik öyrənməni artırır və sosial və emosional böyüməni asanlaşdırır, mənfi davranışları azaldır və akademik olaraq məşğul olma müddətini artırır.

Bildiyimiz kimi sinif idarəçiliyi uğurlu müəllim olmağın ən vacib cəhətlərindən biridir. Bu vəziyyətdə sinifin idarə edilməsi tədrisin əsas bacarıqlarından biridir. Tələbələr motivasiyalı olduqda və öyrənməyə marağı olduqda müəllimlər üçün asandır. Sinif idarəçiliyi termininə baxsaq, ümumiyyətlə müəllimlər tərəfindən istifadə olunur və tədris prosesinin təşkilinə xidmət edir. Bu tədris prosesini təsvir edir və eyni zamanda şagirdlərin pis davranışlarının qarşısını almaq üçün istifadə olunur. Ancaq bu sahədəki problemlər və şagirdlərin pis davranışı bəzi müəllimlərin bu peşədən imtina etməsinə səbəb olur. Bunun əsas səbəbi şagirdin mənfi münasibəti, motivasiya və nizam-intizamın olmamasıdı. Bu problemə dair müxtəlif baxış nöqtələrinin təhlili zamanı tədris prosesinə nəzarət, dərsdəki nizam-intizam və sinifin idarəedilməsi tədrisdə səmərəliliyin əldə edilməsində çox vacib rol oynadığını göstərir. Moskowitz və Hayman vurğulayırlar ki, bir müəllim sinifdə nəzarəti itirsə, onda tədris prosesini idarə etmək onun üçün daha çətin olacaq. Bu sahədəki digər mütəxəssisləri öyrənməklə 1988-ci ildə Berlinerə və 1986-cı ildə Brothy və Good-a diqqət yetirə bilərik ki, müəllimin zəif sinif idarəetmə bacarıqlarının səbəb olduğu pis davranışları düzəltmək üçün ayırması lazım olan vaxt sinifdə akademik iştirak nisbətinin azalmasına səbəb olur. Burada göstərir ki, sinif idarəçiliyi effektivdirsə, bu, şagirdləri fəal işə və sinif fəaliyyətində aydın ünsiyyətə cəlb edir. Bu məqamda müəllimdən və şagirdləri necə motivasiya edə biləcəyindən və müəllimin dərsdə istifadə etdiyi səmərəli sinif idarəçiliyindən çox asılıdır, çünki sinif idarəedilməsi motivasiya, nizam-intizam və hörmətlə sıx bağlıdır. Müəllim sinifdə yüksək nüfuza sahibdirsə, müəllimin tədris prosesini idarə etməsinə kömək edəcəkdir. Deməli, müəllimin nüfuzu da sinif rəhbərliyi ilə əlaqəli əsas amillərdən biridir. Ayrıca, Berliner (1988) və Brophy & Good (1986) tərəfindən aparılan tədqiqatlar göstərir ki, müəllimin zəif sinif idarəetmə bacarıqlarının səbəb olduğu pis davranışları düzəltmək üçün aparmalı olduğu vaxt sinifdə akademik iştirak nisbətinin aşağı olması ilə nəticələnir. Tələbə nöqteyi-nəzərindən effektiv sinif idarəçiliyi, davranış və akademik gözləntilərin aydın şəkildə çatdırılmasını və öyrənmə mühitini əhatə edir. Sinifin idarəedilməsi çox vaxt "nəzarət" anlayışı ilə əlaqələndirilir. Yəni sinifin idarəedilməsi intizam tədbirləri görmə və ya nizam-intizam məsələlərini həll etmək fikri ilə müşayiət olunur (Chambers, 2003; Labaree, 2004). Müəllimlər tez-tez bu cür nəzarəti qurarkən nəzarət mexanizmləri kimi qəbul edilir və şagird davranışlarının sinifdə düzgün idarə olunmasını tələb edirlər (Kaufman & Moss, 2010; Putman, 2009). Bu baxımdan müəllimlərin şagirdlərin pis davranışları ilə mübarizə aparmaq və sinif intizamını qurma üsulları, eləcə də şagirdlərin pis davranışlarının tərifləri akademik

araşdırmanın əsas sahələrinə çevrilmişdir (Cakmak, 2008; Reagan & Osborn, 2002; Watzke, 2007). Sinifin idarəedilməsi tez-tez "müəllimlərin şagirdləri mütəşəkkil, nizamlı, fokuslu, diqqətli, tapşırıqda və dərs zamanı akademik cəhətdən məhsuldar tutmaq üçün istifadə etdikləri müxtəlif bacarıq və üsullar" olaraq adlandırılır (Abbott, 2014, s. 72). Doyle (1986, s. 14) ayrıca "sinifin idarəsini davranışla əlaqəli olduğunu, bununla yanaşı daha geniş şəkildə şagirdlərin planlaşdırılması, təşkili və nəzarəti, öyrənmə prosesi və sinif mühitinin yaradılması və saxlanılması ilə əlaqəli olaraq təyin edilə biləcəyini iddia edir."

Sinifin idarəedilməsi bir sənət və elmdir, öz qanun və prosedurlarını nəzərə alır. Müəllim tərəfindən uyğun bir öyrənmə mühiti təmin etmək və istədiyiniz təhsil məqsədlərinə çatmaq üçün istifadə etdiyi davranış nümunələrinin məcmusudur. Sinifin idarəedilməsi , müəllimin şagirdlərin istədikləri davranışları təşviq etməyə çalışdığı və istənməyən davranışlarını aradan qaldırmaq üçün çalışdığı bir sıra fəaliyyətlər olaraq təyin edilə bilər. Sinifin idarəedilməsi müəllimlə şagirdləri və sinif daxilində şagirdlərin özləri arasında müsbət sosial münasibətlər üçün əlverişli bir sinif mühiti yaratmağa və təmin etməyə çalışdığı bir sıra fəaliyyət olaraq təyin edilə bilər. Təsirli tədris strategiyaları və yaxşı sinif tədris planı dizaynı kimi effektiv öyrənməyə təsir göstərən bütün digər vacib məsələlərin hamısının effektiv sinif idarəçiliyi üzərində qurulduğunu düşünmək lazımdır.

Ədəbiyyat

1. Classroom Management in Foreign Language Education: An Exploratory Review1.
2. Classroom Management: A Persistent Challenge for Pre-Service Foreign Language Teachers.
3. Effective classroom management-- the essentials / Tracey Garrett.
4. How to Teach English by Jeremy Harmer
5. The key elements of classroom management by Joyce McLeod, Jan Fisher, Ginny Hoover.

İnternet resursları

1. https://www.edutopia.org/blog/5-priorities-classroom-management-ben-johnson
2. https://www.winginstitute.org/how-important-is-classroom
3. https://www.all-languages.org.uk/research-practice/language-futures/getting-started/teachers/
4. https://courses.lumenlearning.com/educationalpsychology/chapter/why-classroom-management-matters/

Новрузлу З.

Эффективное управление классом

РЕЗЮМЕ

Из анализа можно сделать вывод, что управление классом чрезвычайно важно для обеспечения безопасных и благоприятных условий для эффективного обучения учащихся. Я думаю, что каждый учитель и школа должны уделять много времени управлению своими классами и поведением своих учеников. Исходя из вышесказанного, нет никаких сомнений в том, что важно иметь философию управления классом. Классное руководство; это продолжение возможностей и процессов, порядка обучения, среды и правил, необходимых для создания среды, в которой происходит обучение. Учителя несут ответственность за управление классом в учебной среде. В этом смысле учителя, не обладающие эффективными навыками управления классом, могут оказаться неэффективными в процессе обучения и преподавания.

Novruzlu Z.

Effective classroom management

SUMMARY

It can be concluded from the analysis that classroom management is extremely important in ensuring a safe and favorable condition for students to learn effectively. I think every teacher and school should spend considerable time in managing their classes and

behavior of their students. From the above, there is no doubt that it is important to have a classroom management philosophy. Classroom management; it is the continuation of the opportunities and processes, learning order, environment, and rules necessary for creating an environment in which learning takes place. Teachers are responsible for classroom management in learning environment. In this sense, teachers who do not have effective classroom management skills may be ineffective during the learning and teaching process.

Hüseynli Aytac
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d.,dos.Kəmalə Quliyeva

MƏKTƏB RƏHBƏRLİYİ VƏ MÜƏLLİMLƏR ARASINDA YARANAN PEDAQOJİ MÜNAQİŞƏLƏRİN SƏBƏBLƏRİ

Açar sözlər: *münaqişə, məktəb rəhbərləri, avtoritar üslub, demokratik idarəetmə, pedaqoji kollektiv*
Ключевые слова: *конфликт, руководители школ, авторитарный стиль, демократическое управление, педагогический коллектив*
Key words: *conflict, school leaders, authoritarian style, democratic governance, pedagogical collective*

24 oktyabr 2013-cü ildə qəbul edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması təhsil sistemi qarşısında əsas hədəflərdən biri kimi qoyulur (1). Müasir dövrdə təhsilin bütün parametrlərində, o cümlədən idarəetmədə keyfiyyət təminatına nail olmaq başlıca vəzifə hesab olunur. Bu isə hər bir təhsil müəssisəsində sağlam mənəvi-psixoloji mühit yaradılmasını, yəni məktəb rəhbəri-müəllim, müəllim-şagird, şagird-şagird, müəllim-müəllim və müəllim-valideyn münasibətlərinin düzgün əsasda qurulmasını tələb edir. Məktəbdə hümanist və demokratik dəyərlərəəsaslanan belə idarəetmə sistemi, təbii ki, keyfiyyətli təhsilə də imkan verir.

Qabaqcıl məktəb rəhbərləri kollegial idarəetməni həyata keçirərkən, ilk növbədə, pedaqoji kollektivə arxalanır. Lakin bəzən avtoritar rəhbərliyin elementlərini öz fəaliyyətində əks etdirən məktəb rəhbərlərinə də təsadüf olunur.

Belə ki, onlar istər müavinlərinin, istərsə də müəllimlərin fəaliyyətinə yerli-yersiz müdaxilə edir, onlarla kobud davranır, təhsilverənlərin qanunla müəyyən edilmiş hüquq və azadlıqlarına hörmət etmir və nəticədə pedaqoji kollektivdə narazılıqlara, münaqişələrə meydan verir.

Məktəb rəhbəri dərs bölgüsündə, sinif rəhbərlərinin təyin olunmasında ədalətsizliyə, ayrı-seçkiliyə yol verirsə, narazılıqlar çoxalır, nəticədə məktəbin idarə olunması çətinləşir, uğursuzluqlar artır. İdarəetmə sahəsində aparılmış tədqiqatların araşdırılması göstərir ki, direktor məktəbin fəaliyyəti ilə bağlı vacib qərarları qəbul edəndə kollektivin rəyi ilə hesablaşırsa, əmrlər, göstərişlər vermək əvəzinə, şəxsiyyətlərarası münasibətləri qarşılıqlı hörmət və anlaşma əsasında qurursa, darəetmədə daha optimal variantlardan istifadə edirsə,öz işinin nəticələrini təhlil edib qiymətləndirməyi, çatışmazlıqları aşkar etməyi və onları aradan qaldırmağı bacarırsa, həm də bu işdə əməkdaşların köməyinə arxalanırsa, hər bir müəllimin yaradıcı qabiliyyətləri üçün daha əlverişli şərait yaratmış olur.

Məktəb rəhbərləri müəllimlərin ixtisas səviyyəsini, elmi-metodiki hazırlığını yüksəltmək üçün müəyyən tədbirləri həyata keçirir, onlara tapşırıqlar verir, sinif rəhbərlərinin işinə nəzarət edir, direktoryanı yoxlamalar keçirir. Lakin bəzən müəllimlər öz metodik hazırlıqlarını yüksəltmək üçün heç bir təşəbbüs göstərmir, direktorun tövsiyələrinə etinasızlıq göstərir,

şagird nailiyyətlərinin qiymətləndirilməsində, innovativ texnologiyaların tətbiqində, sinifdənkənar işlərin təşkilində, şagirdlərlə münasibətində qüsurlara yol verirlər.

Təcrübəli məktəb direktoru bu səbəblərə görə müəllimlə münaqişəyə girmir. Əksinə, onunla üzbəüz söhbət edib, ona inandığını, öz üzərində çalışarsa, gələcəkdə öz işinin ustası olan səriştəli, qabaqcıl müəllim olacağını bildirir. Həmçinin yeni təlim metodlarının tətbiqi, şagirdlərin idrak fəallığını artırmağın yolları, tədris materiallarının planlaşdırılması ilə bağlı ona öz məsləhətlərini verir.

Bəzən müəllimlər tərəfindən sənədləşmə işlərində nöqsanlara yol verilir. Məsələn,bir qrup müəllim jurnalların doldurulmasına, şagirdlərin şəxsi qovluqlarının, portfolionun səliqəyə salınması işinə səliqəsiz yanaşır. Bu zaman hər müəllimlə fərdi söhbət etməkdənsə, onlarla seminar təşkil etmək, nöqsanları ümumi şəkildə demək daha çox fayda verər. Nöqsanlar uzun müddət davam edərsə, o zaman təkrar fərdi söhbətlər aparılmasına ehtiyac duyula bilər.

"Təhsil müəssisələrinin səmərəli idarə edilməsində direktorun idarəetmə mədəniyyətinə malik olması çox vacibdir. Məktəb rəhbərləri müəllimlərlə qarşılıqlı münasibətdə pedaqoji etikanın bütün tələblərinə əməl etməli, müəllimlərin şəxsiyyətinə, mənliyinə toxunan heç bir ifadəyə və hərəkətə yol verməməlidir" (2,s.181). Pedaqoji münaqişələr çox zaman məhz bu səbəbdən baş verir və bəzən o qədər kəskinləşir ki, onu aradan qaldırmaq üçün uzun müddət tələb olunur.

Məktəb direktoru ilə müəllimlər arasında münaqişələr müəllimlərin şagirdlər və onların valideynlərilə düzgün ünsiyyət qura bilməməsi nəticəsində də baş verir.

Tədqiqatlardan və məktəb təcrübəsinin öyrənilməsindən aydın olur ki, məktəbdə müəllimləri qane etməyən bir sıra amillər mövcuddur ki, onlar məktəb rəhbərliyi ilə müəllimlər arasında münaqişələrin yaranmasına səbəb ola bilər. Məsələn:

-məktəb rəhbərlərinin pedaqoji kollektiv daxilində baş verən real situasiyaları qiymətləndirə bilməməsi;

-direktorun idarəetmə üslubundan narazılıq;

-məktəb həyatının sərt reqlamentləşdirilməsi;

-müəllimlərin kənar işlərlə həddindən artıq yüklənməsi;

-müəllimin peşəkarlığının yetərincə qiymətləndirilməməsi;

-rəhbərliyin tez-tez dəyişməsi və s.

Həmçinin rəhbərlik də münaqiyə səbəb ola biləcək bir sıra məsələlərlə bağlı müəllimlərə iradını bildirir. Məsələn, müəllim:

-şagirdlərin qiymətini müntəzəm olaraq aşağı salarsa;

-şagirdlərin tədris yükünün normadan artıq olmasına şərait yaradarsa;

-şagirdə münasibətdə etik normadan kənara çıxarsa, ozaman məktəb rəhbərliyi haqlı olaraq müəllimə öz narazılığını bildirməli olur. Lakin rəhbərlik və müəllimlər arasında qarşılıqlı münasibətlərin düzgün tənzimlənməsi nəticəsində bu narazılıqların münaqişəyə çevrilməsinin qarşısı alınır.

Şübhəsiz, tədris müəssisəsinin rəhbəri kollektivdə yaranan münaqişəni müsbət məcraya yönəltməyi bacarmalıdır. Buna görə də onun ən vacib peşə bacarıqlarından biri də konfliktoloji kompetensiyalara yiyələnməsidir. Bu, münaqişə yaratmaq deyil, münaqişəyə təsir göstərmək, konstruktiv metodlar tətbiq etməklə onun həll olunmasına nail olmaq bacarığıdır (3, s.29).

Araşdırmalar göstərir ki, müəllimlər məktəb rəhbərlərinin işgüzar keyfiyyətləri ilə yanaşı həm də onun şəxsiyyətinin hümanist tərəflərini, pedaqoji kollektivin hər bir üzvunə yanaşmasında etik normalara əməl etməsini, mənəvi keyfiyyətlərini daha çox dəyərləndirirlər. Kollektivi düzgün idarə etməyin ən mühüm sirri məktəb rəhbərlərinin nüfuzu ilə müəyyən olunur. Nüfuz isə avtoritar idarəetmə ilə deyil, insanların problemlərinə, ehtiyaclarına həssaslıqla yanaşmaq, onların mənafeyinə hörmət etmək,uğurlarına sevinmək, onların arzu və istəkləri ilə hesablaşmaq sayəsində baş verir.

Kollektivdə əlverişli mənəvi-psixoloji iqlimin formalaşdırılması həm təlim-tərbiyə məqsədlərinə nail olmaq, həm də yaranan hər hansı bir konflikti daha optimal şəkildə həll etmək üçün əhəmiyyətlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. /Xalq qəzeti, 2013, 25 oktyabr

2. İsmixanov M., Bəxtiyarova R. Məktəbin idarə olunması. Bakı, BDU nəşriyyatı, 2012,-236s.

3. Клименских М.В., Ершова И.А. Педагогические конфликты в школе. Екатеринбург, изд-во Уральского ун-та,2015,-76 с.

XÜLASƏ

Məqalədə məktəb rəhbərliyi ilə müəllimlər arasında pedaqoji münaqişələrin yaranma səbəbləri, onların yaranmasına təsir göstərən amillərdən bəhs edilir. Eyni zamanda yaranan münaqişələri aradan qaldırmaq və optimal şəkildə həll etmək üçün istifadə edilən üsullar sistemli şəkildə şərh edilir. Bu işdə direktorun idarəetmə mədəniyyətinə malik olmasının vacibliyi qeyd edilir.

РЕЗЮМЕ

В статье рассматриваются причины педагогических конфликтов между администрацией школы и учителями, факторы, влияющие на их возникновение, а также систематизированы методы оптимального разрешения конфликтов. При этом подчеркивается важность управленческой культуры директора.

SUMMARY

The article discusses the causes of pedagogical conflicts between school administration and teachers, the factors influencing their occurrence. At the same time, the methods used to resolve and optimally resolve conflicts are systematically explained. In this case, the importance of the director's management culture is emphasized.

Kişizadə Türkan Habil qızı
Ümumi Pedaqogika kafedrası, magistrant
Elmi rəhbər: p.ü.f.d. dos. Ə.İ.İsmayılxanova

MƏKTƏBLƏRDƏ APARILAN PEŞƏYÖNÜMÜ İŞLƏRİNİN ÜSULLARI VƏ VASİTƏLƏRİ

Açar sözlər: *peşəyönümü, inteqrasiya, anketləşdirmə, testləşdirmə, maraq, qabiliyyət, bacarıq, vərdiş, üsullar, vasitələr, meyllər, innovasiyalar, elektron dərsliklər*

Bildiyimiz kimi peşəyönümü işlərinin müxtəlif üsullarından və vasitələrindən dünyanın inkişaf etmiş bir çox dövlətlərinin məktəb təcrübəsində intifadə edilmiş və indi də istifadə edilməkdədir. Bu üsullar və vasitələr ənənəvi olduğundan bunların bəzilərindən istifadə edilsə də, bəzilərindən istifadə edlimir. Ancaq aparılan tədqiqatlar və əldə olunan nəticələr onu deməyə əsas verir ki, bu üsulların və vasitələrin hər birinin şagirdlərin peşəyə istiqamətləndirilməsi prosesində öz yeri və rolu vardır.

Peşəyönümü prosesinin əsas üsullarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- şagirdlərlə peşələrlə bağlı söhbətlər aparmaq;
- şagirdlərin şəxsi materiallarının və sənədlərinin öyrənilməsi, valideynlərin, böyük qardaş və bacıların, müəllimlərin və ya tanışların rəyləri və ümumi xarakteristikası;

- şagirdlərin meyl və maraqlarının, bacarıqlarının, imkanlarının aşkara çıxarılması üçün intervülərin alınması, müsahibələrin aparılması;

- şagirdlərin bacarıqlarının, maraq və meyllərinin aşkara çıxarılması üçün anket sorğusunun aparılması;

- şagirdin peşəyə yararlı olmasını, meyl və qabiliyyətini müəyyən etmək üçün test aparmaq;

- şagirdlər arasında peşəseçmə və peşə məsləhəti üçün tibbi müayinələr aparmaq;

İndi isə bu üsulların bütün imkanlarına nəzər salmaq yerinə düşərdi. Şagirdlərin peşəyönümü işində onlarla peşələrə aid söhbətlər aparmaq çox böyük əhəmiyyətə malikdir. Buna peşə maarifi də deyilir. Burada əsas məqsəd odur ki, şagirdlər seçəcəkləri peşələrə dair təsəvvürlərə və geniş məlumatlara malik olsunlar. Ancaq bu ən vacib məqsəd deyil. Şagirdlərə peşələr haqqında məlumatlar verərkən eyni zamanda daha nələr haqqında maarifləndirmə işləri aparmaq lazımdır? Bunlar aşağıdakılardır:

- seçiləcək peşələrin iqtisadiyyat sahələrinə aid təsnifatı;

- hər bir peşənin özünəməxsus xüsusiyyətləri;

- əmək birlikləri, dövlət müəssisələri, istehsalatda əməyin məzmunu və xüsusiyyətləri;

- hansı sahələr üzrə təhsilini davam etdirmək və işə düzəlmə imkanları.

Şagirdlərin bu cür maarifləndirilməsində məqsəd bir tərəfdən onların peşələr haqqında məlumatlarının zənginləşdirilməsini, digər tərəfdən isə peşələrə olan maraqlarını, meyllərini, fiziki və zehni əməyin əsas xüsusiyyətlərini, müxtəlif əməyə və əmək adamlarına hörmət və məhəbbət hissini aşılamaqdır.

Onu da qeyd edək ki, maddi sıxıntı çəkən şagirdlərin də iş tapma imkanları haqda məlumatlar tamamilə səthidir. Bunların da köklü səbəbləri vardır ki, bunlardan biri də ümumtəhsil müəssisələrində peşəyönümü sahəsində aparılacaq işlərin unudulması və yaxud da bəsit aparılmasıdır.

Peşəyönümü ilə əlaqədar müəllimlərlə də müəyyən söhbətlər aparmışıq, onlar da etiraf edirlər ki, məktəblilərin gələcək həyat yolu, onların peşə planları son vaxtlar (yəni qəbul imtahanlarının test üsulu ilə aparılmasından sonra) valideynlərlə birlikdə şagirdlərin özləri tərəfindən müəyyənləşdirilir. Ona görə də burada müəllimlərin köməyinə ehtiyac olmur və yaxud az da olsa müəllimə yaxın olan valideynlər onlarla məsləhətləşirlər. Belə olduqda da peşəyönümü işinin səthi aparıldığı üzə çıxır.

Bəzən şagirdlərə peşəyönümü ilə əlaqəli hansı kitablar, jurnallar, sorğu kitabları, broşürlər oxuduqlarını soruşanda suallarımız cavabsız qalır. Ona görə ki, Azərbaycanda belə mənbələr ya yoxdur, ya da az miqdardadır.

Rusiya Federasiyasında da peşəyönümü sahəsində mühüm işlər aparılır. Rus tədqiqatçılarından professor Q.K.Selevko və O.Y.Solovyova məktəblilərin gələcək həyat yollarını işıqlandıracaq tədris vəsaitləri işləyib hazırlamışlar. Onların tərtib etdikləri "Peşələr aləmi" adlı ensiklopedik vəsait öz əhəmiyyətini indi də qoruyub saxlamışdır. Respublikamızda isə peşəyönümü ilə bağlı bir-iki kitab nəşr etdirilmişdir ki, bunlara da professor Z.Qaralov və Ə.Hüseynovun birgə nəşr etdirdikləri "Bütün peşələr yaxşıdır, istədiyinizi seçə bilərsiniz" adlı kitabı misal göstərmək olar.

Müasir dövrdə Azərbaycan dilində istifadə olunan elektron dərsliklərin, elektron tədris materiallarının, rəqəmsal tədris resurslarının, elektron kitabxanaların, elmi-metodiki nəşrlərin, didaktik və elmi-kütləvi materialların və elmi-metodiki nəşrlərin tədqiqatçılar tərəfindən işlənib hazırlanmasını nəzərdə tutan "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" ölkəmizdə peşəyönümü sahəsində böyük işlərin görüləcəyindən xəbər verir.

Ölkəmizdə peşəyönümü üsulları içərisində ən mühüm olanları aşağıdakılardır: şagirdlərin şəxsi sənəd və materialları, ailə üzvlərinin, müəllimlərin, tanışların rəyi, şagirdlərin xarakteristikası.

Aparılmış təcrübələrin nəticələri onu göstərir ki, peşəyönümü məqsədi ilə məktəblilərə aid bir çox sənədlərin öyrənilməsi faydalıdır:

- şagirdlərin məktəbdə olan şəxsi işləri;
- ayrı-ayrı fənnlər üzrə il boyu aldıqları qiymətlər;
- şagirdin oxuduğu məktəbdə hansı bölmə, klub və dərnək də fəaliyyət göstərdiyi;
- sinif rəhbərinin şagirdlər haqqında yazdığı müsbət və ya mənfi xasiyyətnamə;
- şagirdin ailə vəziyyəti (valideynlərin savadlı və ya savadsız olması, iş yerlərinin mövcudluğu və s.);
- şagirdlərin qabiliyyəti, marağı, yaradıcılığı və s.

Bu cür məlumatlar- şagirdlərin qabiliyyətləri, bacarıqları və maraq dairəsi haqda müsbət materialların toplanması peşəyönümü işində müsbət rol oynayır.

Peşəyönümü işinin digər üsullarından bir neçəsi haqqında da məlumat vermək yerinə düşərdi ki, bunlar da anketləşdirmə və testləşdirmədir.

Anketləşdirmə. Şagirdlərin meyllərinin və maraqlarının müəyyənləşdirilməsində anketləşdirmə üsulundan daha çox istifadə olunur. Qısa müddətdə anketləşdirmə sahəsində şagirdlərin malik olduğu maraqlarını, meyllərini, hansı peşə ilə maraqlandığını, hansı peşə sahibi olmaq istədiyini, peşə motivlərini aşkara çıxarmaq mümkün olur.

Anketləşdirmə vasitəsilə müəyyən məsələlər aydınlaşdırıldığından bu üsulda müəyyən məqsəd olmalıdır. Anketləşdirmə üsulunun əsas xüsusiyyətlərindən biri də odur ki, bu üsulda şagirdlərə veriləcək suallar kompleks xarakter daşımalıdır. Bu suallara şagirdlərin verdiyi cavablar meyllər və maraqlar haqqında konkret təsəvvürlər yaratmalıdır ki, bu cür sorğu zamanı müstəqil şəkildə şagirdlər suallar ətrafında düşünür, verilən suallara yazılı cavablar verirlər. Bu səbəbdən də anketdə şagirdlərə veriləcək suallar düşündürücü olmalıdır ki, onların cavabları konkret və aydın olsun.

Testləşdirmə. Peşəyönümü sahəsində istifadə edilən digər mühüm üsullardan biri də testləşdirmə üsuludur. Şagirdlərin peşəyə yararlı olmasını, onların maraq və meyllərini, bacarıqlarını, qabiliyyətlərini müəyyən etmə prosesində əlverişli üsullardan biri də testləşdirmədir. Testləşdirmə üsulunun ən əlverişli cəhətlərindən biri də odur ki, testdə qoyulan suallar özünün çevikliyi, dəqiqliyi və dərinliyi ilə yeniyetmə və gənclərin meyl və maraqlarını, qabiliyyət və bacarıqlarını daha da dərindən əks etdirmə qabiliyyətinə malikdir.

Testləşdirmə üsulu uzun illərdir ki, dünyanın inkişaf etmiş ən böyük dövlətlərində irimiqyaslı istifadə edilmişdir, lakin Azərbaycanda bu üsula birtərəfli yanaşılmışdır. Birtərəfli deyərkən onu nəzərdə tuturuq ki, testlərdən təkcə məktəblilərin ayrı-ayrı fənnlər üzrə biliklərinin, bacarıqlarının və vərdişlərinin üzə çıxarılmasında istifadə edilmişdir. Şagirdlərin peşəyönümü işlərini müəyyən etmək üçün elə də böyük əhəmiyyətə malik olmamışdır.

Bunun əsas səbəblərindən biri də ölkəmizdə fəaliyyət göstərən pedaqoq və psixoloqlarının peşəyönümü işləri ilə maraqlanmaması və yaxud da bu işə laqeyd yanaşmalarıdır. Bizim ölkədə bu çətin bir proses olsa da, xarici ölkələrdə peşəyönümü prosesinə aid kifayət qədər təcrübə toplanmışdır. Buna misal olaraq Böyük Britaniyanı göstərmək olar. İngiltərədə "Britaniya psixologiya Cəmiyyətləri", "İstehsalat psixologiyası Milli institutu" və digər nəşriyyatlar tərəfindən peşəyönümünə həsr edilmiş testlər çap etdirilmişdir. Çap edilmiş testlər öz funksiyalarına görə belə təsnif olunur:

a- şagirdlərin əqli qabiliyyətlərinin ölçülməsi üzrə aparılan testlər;
b- bilik və vərdişlərin aşkara çıxarılması üzrə aparılan testlər;
c- maraq və meyllərin aşkarlanması üzrə aparılan testlər;
d- bacarıqların aşkara çıxarılması üçün aparılan testlər;
e- şagirdlərin şəxsiyyət keyfiyyətlərinin müəyyən edilməsi üçün aparılan testlər.

Onu da qeyd edək ki, bir və yaxud bir neçə testləşdirmə aparsaq da şagirdləripeşə yararlılığını təyin etmək çətin olar. Buna görə də müxtəlif məzmunlu bir neçə test nümunələrindən istifadə etmək lazımdır.

Ədəbiyyat

1. İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları. Monoqrafiya. Bakı: Elm, 2009, 292 s.
2. İlyasov M.İ.Peşəyönümün əsasları. Bakı: Mütəcim, 2011,s. 324.
3. Quliyeva K.R. Yuxarı sinif şagirdlərinin müəllimlik peşəsinə istiqamətləndirilməsi. Bakı: Nurlan, 2003, 140 s.

Kişizadə Türkan Habil qızı
Ümumi Pedaqogika kafedrası, magistrant
Elmi rəhbər: p.ü.f.d. dos. Ə.İ.İsmayılxanova

İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ MƏKTƏBLİLƏRİN PEŞƏYÖNÜMÜ PROSESİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *qaydens, psixoloji-pedaqoji xidmət, peşəyönümü, agentlik, inteqrasiya, innovasiya, peşəseçmə, kriteriyayönümlü diaqnostika, anketləşdirmə, testləşdirmə*

Yeniyetmə və gənclərin peşə seçməyə hazırlanması prosesi çox qədim tarixə malikdir. Peşəseçmə probleminin ilk təsəvvürləri Qərb ölkələrində meydana gəlmişdir. Dünyanın ən böyük ölkələrindən olan Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya, Fransa, Rusiya, Ruminya, Norveç, İran, Yaponiya və s-də peşəyönümü məsələsi təlim-tərbiyə prosesinin əsas hissəsi hesab edilir. Bu problemin həllinədövlət səviyyəsində şərait yaradılır. İndi isə şagirdlərlə aparılan peşəyönümü işlərinin vacib üç aspektini nəzərdən keçirmək yerinə düşər. Bunlar aşağıdakılardır:

1- Peşəyönümü işlərinə dövlət təminatı;
2- Peşəyönümü işlərində istifadə olunan forma və metodlar;
3- Peşəyönümü işlərinin həyata keçirilməsi yolları.

Bununla əlaqədar böyük ölkələrdə peşəyönümünə rəhbərlik etmək və əlaqələndirmək üçün mərkəzlər yaradılır ki, bunlara da aşağıdakıları misal göstərmək olar:

- İngiltərədə təhsil və elm nazirliyi sisteminə daxil olan Peşə məlumatı və Yönümü Mərkəzi;
- Amerika Birləşmiş Ştatlarında məşğulluq mərkəzləri;
- Almaniyada Əmək və Sosial məsələlər Nazirliyinin tərkibinda fəaliyyət göstərən Federal Məşğulluq İnstitutu;
- Yaponiyada Dövlət Məşğulluq Mərkəzi.

Amerika Birləşmiş Ştatlarının ümumtəhsil müəssisələrində şagirdlərdə şəxsi müxtəlif cür şəxsi keyfiyyətlər yaratmaq üçün onlara müəyyən tərbiyəvi təsirlər göstərirlər. Eyni zamanda onların cəmiyyətə adaptasiyada fəal iştirak etmək üçün "qaydens" adlı psixoloji-pedaqoji xidmət yaradılmışdır.

Bu cür pedaqoji-psixoloji xidmət məktəblilərin təlim müvəffəqiyyətlərini üzə çıxarır, ideoloji və əxlaqi inkişafına nəzarəti gücləndirir, onları müxtəlif peşələri seçməyə istiqamətləndirir.

"Qaydens" nələri özündə birləşdirir?

1- yaxşı oxumaq, sevdiyi peşəni seçmək və şəxsiyyətin hərtərəfli inkişaf etməsi üçün elmi biliklərdən istifadə edərək, xarici aləmi dərk etmək, anlamaq məqsədi ilə şagirdlərə yardım etmə prosesi;

2- gündəlik həyatda istifadə edilən, şagirdlərin meyl və maraqlarını, bacarıq və qabiliyyətlərini müəyyənləşdirmək üçün mütəmadi aparılan məsləhətlər və söhbətlər forması;

3- məktəblilərin müsbət motivlər metodikası;

4- müəllimlərin nəzərdə tutulan vəzifələri yerinə yetirmək məqsədi ilə müraciət etdikləri metodlar.

Hal-hazırda Amerika Birləşmiş Ştatlarının ümumtəhsil müəssisələrində "qaydens"in fəaliyyət strukturunda əsas üç aspekt müəyyənləşdirilmişdir. Bunlar aşağıdakılardır:

- peşəyönümü prosesi;
- tədris- şagirdlərin fənn seçmələrinə kömək;
- sosial-şagird şəxsiyyətinin öyrənilməsi və inkişafına rəhbərlik etmək.

Bəs Fransada bu sahədə hansı işlər həyata keçirilir? Fransada yeniyetmə və gənclərin işə düzəlməsi və peşəyönümü üzrə fəaliyyət göstərən üç milli agentlik mövcuddur. Bunlara Milli Məşğulluq Agentliyi, Peşə İnformasiya və Peşəyönümü Mərkəzini, Təhsil və Peşə İnformasiya üzrə Milli Təşkilatı misal göstərmək olar.

Avropanın ən böyük inkişaf etmiş ölkələrindən biri də Almaniyadır ki, burada da şagirdlərlə aparılan peşəyönümü işləri üzrə mərkəzlər fəaliyyət göstərir. Almaniyada peşəyönümü üzrə fəaliyyət göstərən mərkəz "Məşğulluq üzrə federal institut" adlanır. Gənclərin təhsil almasından peşəyönümü praktikasına keçməsi üç elementi özündə birləşdirir:

1- peşəyönümünə aid informasiyaların əldə edilməsi;
2- peşəyönümü işləri ilə bağlı qərarların qəbul edilməsi;
3- peşələr və ixtisaslar üzrə məzunların bölüşdürülməsi və onların işlə təmin edilməsi.

Üçüncü aspekt üzrə kadrlara olan kəskin tələbatlar əsas götürülür.

Almaniyada isə peşəyönümü işində 50 faiz məsləhətlərə yer verilir. Aparılan tədqiqatlardan da görünür ki, bu ölkədə şagirdlərin 70 faizdən çoxu peşəseçmədə fərdi məsləhətlərə və məsləhətçilərə üçsütlük verirlər.

Yaponiyada bu iş bir qədər də fərqlidir. Orta məktəblərin aşağı siniflərində Dövlət Məşğulluq Mərkəzi şagirdlərə qrup və ya fərdi qaydada peşəyönümü ilə bağlı testlər tərtib edirlər.

İngiltərədə isə şagirdlərlə informasiya xarakterli fərdi və ya qrup halında söhbətlərlə bərabər, müəyyən idarələrə və müəssisələrə ekskursiyalar təşkil edilir ki, bu da peşələrlə bağlı daha çox məlumat almalarına və peşələrlə tanışlığa səbəb olur.

Rusiya Federasiyasının ümumtəhsil müəssisələrində peşəyönümü işlərində şagirdlərə müəllimlər, psixoloqlar, pedaqoqlar, həkimlər, valideynlər və digər peşə adamlarının köməyi ilə tədris prosesində tədris-istehsalat kombinatlarında dərsdənkənar vaxtlarda müəyyən məlumatlar verilir. Şagirdlərin peşələrlə tanışlığı aparılan söhbətlər, müsahibələr, görüşlər, konfranslar, ekskursiyalar vaxtı reallaşdırılır

Amerika Birləşmiş Ştatlarında ümumtəhsil müəssisələrində planlı və mütəşəkkil formada peşəyönümü işlərinin aparılması IX, X siniflərə təsadüf edir. Bu zamanda məsləhətlərdən, sual-cavablardan daha çox istifadə edilir. Son nəticədə şagirdlər haqqında aşağıdakı peşə məsləhətləri hazırlanır:

- uşağın ailəsi haqqında məlumat;
- keçirilmiş tibbi müayinənin cavabı;
- şagirdin təlim müvəffəqiyyətləri;
- şagirdin malik olduğu xarakterik xüsusiyyətləri;
- şagirdin maraqları, meylləri, qabiliyyətləri, bacarıqları;
- şagirdin aldığı qiymətlərin daxil edildiyi dosye və s

Peşələrlə tanışlıq 7-9-cu siniflərdə dərs zamanı və sinifdənxaric vaxtlarda aparılır. Hətta Amerika Birləşmiş Ştatlarının əksər məktəblərində bu işlər tədris planına salınmış, "Peşələr", "Həyatın planlaşdırılması", "Oriyentasiya" adlı kurslar təşkil edilməklə əmək aləmi ilə tanışlıq başlayır.

Amerika Birləşmiş Ştatlarında üç təhsil istiqaməti mövcuddur:

- kolleclərə haqırlığa istiqamətləndirilmiş akademik təhsil;
- işə cəlb etmək üçün praktik bilik verən peşəyönümü təhsili;
- ixtisaslaşmaya hazırlıq məqsədi ilə verilən təhsil.

ABŞ-ın ümumtəhsil müəssisələrində şagirdlərin peşəyönümü işlərinin başlıca məqsədi gələcək karyerasını qurmaqda şagirdlərə şərait yaratmaqdan ibarətdir. Bunun üçün şagirdlərə aşağıdakıları öyrətmək vacibdir:

- özünü tapmaq, özündə olan zəif və güclü tərəfləri anlamaq;
- dünyanı olduğu kimi dərk etmək;

- insanlarla əlverişli münasibət yaratmaq;
- sosial-iqtisadi həyatla tanış olmaq;
- şagirdin fərdi xüsusiyyətlərinə uyğun gələn təlim proqramları seçmək;
- bu cür təlim proqramından maksimum dərəcədə bilik əldə etmək;
- meyl-marağını, bacarıq və qabiliyyətini müəyyən etməyə yardım göstərmək;
- şagirdlərə bu aləmdə özünün fərdi keyfiyyətlərindən düzgün istifadə etməsini öyrətmək.

İngiltərədə peşəyönümü işlərini peşəyönümü üzrə iş aparan əməkdaşlar, peşə məsləhətçiləri və məktəb müəllimləri həyata keçirirlər. Bəs onların vəzifəsi nədən ibarətdir? Bu vəzifələr aşağıdakılardır:

- şagirdlərin gələcək təhsili ilə istehsalat arasında olan əlaqə haqqında onlara məlumat ötürmək;
- qabiliyyətlərinin üzə çıxarılması istiqamətində şagirdlərə yardım göstərmək;
- müxtəlif ixtisaslar və peşələrə yiyələnməyin yollarını və vasitələrini şagirdlərə göstərmək;
- şagirdlərin fərdi xüsusiyyətləri və qabiliyyətlərinə uyğun gələn peşələr haqqında məlumat vermək;
- müxtəlif peşələr və ixtisaslara həsr edilmiş video və kinofilmləri şagirdlərə nümayiş etdirmək;
- şagirdlərlə fərdi və qrup halında söhbətlər aparmaq və onların müxtəlif idarə və müəssisələrə ekskursiyalarını təşkil etmək.

Fransada da peşə məlumatlarının və məsləhətlərinin verilməsi diqqətə alınır. Bu işləri də peşə mütəxəssisləri və müəllimlər aparır. Yaradılmış mərkəzin işçiləri və peşə məsləhətçiləri məktəblilərin peşəyə istiqamətləndirilməsi üzrə proqramlar hazırlayır, aparılan peşəyönümü işlərini əlaqələndirir və valideyn təşkilatlarına və müəllimlərə rəhbərlik edirlər. Mərkəzin məsləhətçiləri şagirdlərlə fərdi iş aparır, onların gələcəkdə ixtisas seçimlərində, peşəyə istiqamətləndirilməsində yardımçı olurlar.

Almaniyada peşəyönümü prosesi şagirdlərlə son iki ildə həyata keçirilir. Peşə məsləhətçiləri və sinif rəhbərləri şagirdlərlə söhbətlər aparır, həm qrup halında, həm də fərdi qaydada peşə məsləhətləri verirlər. Almaniyada peşə məsləhətçisinin iş vaxtının təxminən 50 faizi şagirdlərlə fərdi şəkildə söhbətlər etməyə sərf edilir.

Beləliklə, baxıb görürük ki, inkişaf etmiş dövlətlərdə yeniyetmə və gənclərin peşəyə istiqamətləndirilməsi müxtəlif forma və metodlarla dövlət səviyyəsində aparılır. Dövlətin diqqəti və qayğısı ilə əhatələnmiş olur.

Eyni zamanda müxtəlif tədqiqatçıların təcrübələrindən geniş istifadə olunur ki, bu da peşəyönümü işini yaradıcı şəkildə həyata keçirməyə imkan verir.

Ədəbiyyat

1. İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları. Monoqrafiya. Bakı: Elm, 2009, 292 s.
2. İlyasov M.İ.Peşəyönümün əsasları. Bakı: Mütəcim, 2011,s. 324.
3. Quliyeva K.R. Yuxarı sinif şagirdlərinin müəllimlik peşəsinə istiqamətləndirilməsi. Bakı: Nurlan, 2003, 140 s.

Məmmədova T.Ə.
Magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏLİM, TƏRBİYƏ, TƏHSİL VƏ İNKİŞAFIN QARŞILIQLI ƏLAQƏSİ

Açar sözlər: *musiqi,təlim,təhsil, tərbiyə,inkişaf, proses, kompleks*
Ключевые слова: *музыка, образование, воспитание, развитие, процесс, комплекс*
Key words: *music, training, education, upbringing, development, process, complex*

Musiqi fənni ilə əlaqədar pedaqoji prosesin tamlığı dedikdə, öyrədici, inkişafetdirici, tərbiyəedici, təhsilverici kimi təlim məqsədlərinin kompleks şəkildə həyata keçirilməsi başa

düşülür və həm müəllim, həm də şagird fəaliyyətini tam əhatə edir. Pedaqogika elminin tələblərinə əsasən şagirdlərin öyrədilməsi, inkişafı, təhsil və tərbiyəsi vəhdətdə götürülməlidir.

Öyrədici – öyrənənlərin musiqi dinləmə, fəal iştirakları ilə əlaqəli nəyisə mənimsəmələri nəzərdə tutulur.

İnkişafetdirici – öyrənənlərdə musiqi yaradıcılıq qabiliyyətlərinin, diqqət, qavrama, təxəyyül, təfəkkür və yaddaşın inkişaf etdirilməsi başa düşülür.

Tərbiyəedici – öyrənənlərdə musiqiyə marağın olması, bədii-estetik zövqün, dünyagörüşünün, mənəvi keyfiyyətlərin, ideyalların tərbiyəsi anlaşılır.

Təhsilverici –öyrənənləri dünya musiqi mədəniyyətinin ən yaxşı nümunələriylə tanış etmək nəzərdə tutulur.

Pedaqoji prosesdə fəaliyyətin stimullaşdırılmasına da sistemli formada nəzər yetirilməlidir. Fəaliyyət stimullaşdırılan zaman pedaqoji prosesin səmərəli və keyfiyyətli qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların bütün inkişaf prosesi dəyərləndirilir, nəticədə öyrənənlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur. Musiqi pedaqogikası musiqi sahəsi üzrə tərbiyə, təlim və təhsilin nəzəriyyə və texnologiyası, pedaqoji proseslərin məqsədi, məzmunu, təşkili formaları, metodları, vasitələri, prinsip və qanunauyğunluqları haqqında elmdir.

Pedaqoji proses tam, mürəkkəb və dinamik bir sistemdir. O, həm də, kiçik sistemlərdən ibarətdir: musiqi təlimi prosesi, musiqi tərbiyə-təhsil prosesi, musiqi zövqünün formalaşması prosesi, öyrədənlərlə öyrənənlərin birgə iş prosesi, pedaqoji prosesin baş verdiyi şərait və həyata keçirilməsinin forma və metodlar sistemi və s.Pedaqoji prosesin daxilində olan bütün proseslər vahid məqsədə xidmət edir. Musiqi təlimi prosesinin əsas funksiyası – öyrətmək, təhsil alma prosesinin əsas funksiyası – musiqi təhsili almaq, tərbiyə prosesinin əsas funksiyası – musiqi nümunələri vasitəsilə tərbiyə etmək, inkişaf prosesinin əsas funksiyası – bütün bu deyilənləri inkişaf etdirməkdir. Təhsil - tərbiyəedici və inkişafetdirici funksiyanı da yerinə yetirir. Təlim isə tərbiyəedici, inkişafetdirici və nəzarət funksiyalarını da yerinə yetirir.

Pedaqoji prosesin tamlığı onun sahələri qarşısında vahid məqsədin durması və şəxsiyyətin bütövlüyü ilə təmin olunur. Tərbiyə, təhsil və təlim prosesləri özlərinə məxsus spesifik xüsusiyyətlərə malik olsa da, hamısı ümumi bir məqsədə - şəxsiyyətin ahəngdar inkişafına xidmət edir. Təlimin məzmununda elmi təsəvvürlərin, anlayış və qanunların, bacarıq və vərdişlərin aşılanması aparıcı yer tutur. Lakin təlimin məzmunu eyni zamanda tərbiyə və inkişaf vəzifələrinin həllinə, gənc nəslin ideya-mənəvi tərbiyəsinə kömək göstərir. Tərbiyənin məzmununda şəxsiyyətin inamı, əqidəsi, dünyagörüşü, adətləri böyük önəm kəsb edir.

Pedaqoji prosesin tamlığı müxtəlif cəhətdən təmin olunur. Birinci növbədə, şəxsiyyətin bütövlüyü ilə, təlimdə, tərbiyə və təhsildə, məqsəd və məzmunun vəhdəti ilə hərəkətverici qüvvələrə və qanunauyğunluqlara malik olması ilə tamlıq həyata keçir. Pedaqoji prosesin səciyyəvi cəhətlərindən biri onun mütəhərrikliyi, inkişafıdır. Bunun sayəsində gənc nəslin tərbiyə, təhsil, təlim və inkişaf səviyyəsi dəyişir və təkmilləşir. Pedaqoji prosesi səciyyələndirən cəhətlərdən biri də bu prosesdə ümumi məqsədin, qanunauyğunluq və prinsiplərin, forma və metodların olmasıdır. Pedaqoji prosesin qanunauyğunluqları bu prosesə xas olan davamlı əlaqələrlə - səbəb-nəticə asılılıqları ilə bağlıdır.

Pedaqoji proses əmək prosesidir. O, hər hansı bir əmək prosesi kimi ictimai əhəmiyyəti olan məqsədlərə çatmaq üçün həyata keçirilir. Pedaqoji prosesin subyektivliyi ondadır ki, burada tərbiyəçilərlə tərbiyə olunanların əməyi bir-birinə qoşulur, özünəməxsus qarşılıqlı təsir münasibətləri yaranır. Pedaqoji əməyin obyektinə mürəkkəblik, sistemlilik, özünütənzimləmə xasdır. Bundan başqa, ona keyfiyyət dəyişikliyi və öz-özünə inkişaf da xasdır. Pedaqoji proseslər çoxvariantlı, dəyişkən və təkrarolunmazdır.

Tam pedaqoji prosesə daxil olan təlimdə əsas məqsəd yalnız öyrənənlərin bilikəri mənimsəmələrini təmin etməkdən ibarət deyil, həm də, öyrədilən biliklər vasitəsi ilə onları məqsədyönlü ictimai-faydalı fəaliyyətə sövq etmək, maneələri və çətinlikləri şüurlu formada

aradan qaldırmaq bacarığını formalaşdırmaq, şəxsiyyətin bütövlüyünə şərait yaratmaqdır. Tam pedaqoji prosesə daxil olan proseslərin spesifikliyi onun əsas funksiyalarını müəyyənləşdirən zaman özünü biruzə verir.

Pedaqoji prosesin ümumi metodları fəaliyyətin tamlığı konsepsiyası baxımından müəyyən olunur. Bu metodlar həm təlim, həm də tərbiyə fəaliyyətində özünü göstərir: şəxsiyyətin ağlını, şüurunu formalaşdıran metodlar, zehni və mənəvi fəaliyyəti və davranışı stimullaşdıran və motivləşdirən metodlar; nəzarət, özünənəzarət və özünüqiymətləndirmə metodları. Pedaqoji prosesin təşkili formalarında da ümumi cəhətlər özünü göstərir: həm təlim, həm də tərbiyə prosesində fərdi, qrup və kollektiv formalar tətbiq olunur.

Pedaqoji prosesə xas olan ümumi cəhətlərlə yanaşı, bu prosesə daxil olan sahələrin spesifik cəhətləri, özlərinə məxsus xüsusiyyətləri də vardır. Bu xüsusiyyətlərin nəzərə alınması təlim, təhsil, tərbiyə və şəxsiyyətin inkişafı proseslərini daha keyfiyyətli formada təşkilinə zəmin yaradır. Prosesin spesifikliyi məqsədə nail olmaq üçün seçilən forma və metodlarda özünü aydın şəkildə göstərir. Təlim və tərbiyə üsullarındakı ümumilik pedaqoji prosesin tamlığını təmin edən mühüm amillərdəndir. Yeni tədris materialının qavranılmasına xidmət edən üsullar bu prosesdə tətbiq edilən inandırma üsulları ilə həmahəngdir. Pedaqoji proses daxilən bir-biri ilə bağlı olan proseslərin məcmusudur. Bu proseslərin mahiyyəti ondan ibarətdir ki, burda öyrənilən sosial təcrübə formalaşan insanın keyfiyyətinə çevrilir. O, xüsusi qanunauyğunluqlara tabe olan keyfiyyətcə yeni bir qurumdur. Pedaqoji prosesin daxilində olan proseslər vahid məqsədə xidmət edir.

Təlim, tərbiyə, təhsil və inkişafın qarşılıqlı əlaqəsi, bir-birinə zəmin yaratması pedaqoji prosesin tamlığını möhkəmləndirir, hər bir qol üzrə səmərəliliyini gücləndirir.

Ədəbiyyat

1. Ağayev.M. “Pedaqoji fikir tarixində tərbiyə və təhsil”. Bakı, 2011.
2. Məmmədova.İ. “Musiqi pedaqogikası”. Bakı, 2009.
3. İbrahimov.F. – Hüseynzadə.R. “Pedaqogika”. Bakı, 2012
4. Qədimova.J.H. “Musiqi pedaqogikası: tarixilik və müasirlik”. Bakı, 2012
5. Kəngərli T.Q.“Musiqi pedaqogikası”. Bakı, 2004

Təlim, tərbiyə, təhsil və inkişafın qarşılıqlı əlaqəsi

XÜLASƏ

Zəngin mənəviyyata, yüksək bədii zövqə malik, kamil şəxsiyyət yetişdirilməsi tərbiyəçilərin, metodistlərin, pedaqoqların və müəllimlərin qarşısında duran əsas vəzifələrdəndir. Böyüməkdə olan nəslə musiqi təlim, tərbiyə, təhsilin ardıcıl və sistematik təsiri, Azərbaycan musiqisinin böyük imkanlarından istifadə edərək bədii zövqün aşılanması üzrə işlərdə musiqinin səciyyəvi xüsusiyyətləri nəzərə alınmaqla bu sahə üzrə səmərəli forma, sistem və yollar müəyyənləşdirir. Musiqi pedaqogikası gənc nəslin musiqi tərbiyəsi haqqında elmdir. Musiqi tərbiyəsi,təlimi və təhsili əvvəlcədən hazırlanmış plan əsasında həyata keçirilir. Öyrənənlərin fəaliyyətinin məhsulu musiqi sahəsindəki pedaqoji bilik mənbəyidir.

Мамедова Т.А.

Взаимосвязь обучения, воспитания, образования и развития

РЕЗЮМЕ

Воспитание обладающей богатой духовностью, высоким художественным вкусом зрелой личности – основная задача, стоящая перед воспитателями, методистами, педагогами и учителями. Последовательное и систематическое влияние на возрастающее поколение музыкального обучения, воспитания, образования, с учетом характерных особенностей музыки в работах по воспитанию художественного вкуса с использованием больших возможностей азербайджанской музыки, определяет эффективные формы, системы и пути по данной области. Музыкальная педагогика – наука о музыкальном воспитании

подрастающего поколения. Музыкальное воспитание, обучение и образование осуществляется по предварительно разработанному плану. Продукт деятельности обучающихся – источник педагогических знаний в области музыки.

Mammadova T.A.

Interrelation of training, education, development

SUMMARY

One of the main tasks of educators, methodologists, pedagogues and teachers is to develop a perfect personality with a rich moral character and high artistic taste. Considering the impact of musical education and training on younger generation and specific character of music in inculcating artistic taste in the younger generation by using the great potential of Azerbaijani music, effective forms, systems and ways in this field are developed. Music pedagogy is a science of music education of the younger generation. Music education and training is carried out on the basis of a plan. The product of learners' activity is a source of pedagogical knowledge in the field of music.

Liu Xingxiao
ADPU, Магистратура, История и теория педагогики, II курс
Педагог: .ф.п.п.Велибекова З. Д.д

ВЫБОР ПРОФЕССИИ ДЛЯ КИТАЙСКИХ ШКОЛЬНИКОВ

Açar sözlər: *peşə seçimi, italyan tələbələr*
Ключевое слово: *выбор профессии, итайских школьников*
Key word: *career choice, chinese middle school students*

Основные факторы, влияющие на выбор карьеры учеников средней школы

Карьерный выбор учащихся средней школы формируется под комплексным влиянием множества факторов, в основном субъективных и объективных:

(1) Объективные факторы

1. Политики и правила. В последние годы, в связи с популяризацией образования и углублением реформы системы трудоустройства выпускников, различные ведомства страны издали серию новых политик по трудоустройству учащихся средних школ в новой ситуации. Обучение предпринимательству и другим аспектам уделяется большое внимание и политическая поддержка. И воспользуйтесь соответствующими законами и постановлениями в качестве руководства в сочетании со школьными правилами и положениями о трудоустройстве, чтобы направлять трудовую деятельность колледжей и университетов. Эти политики и постановления, а также соответствующие законы и постановления играют макрорегулирующую роль при приеме на работу выпускников, направляя поведение студентов при приеме на работу в стабильном и стандартизированном направлении и, следовательно, неизбежно повлияют на выбор профессии выпускниками.

2. Социальные потребности. Спрос определяет предложение, а социальный спрос определяет статус занятости выпускников колледжей. Он охватывает состояние рынка труда, спрос и предложение в отрасли, насыщенность талантами в различных регионах и профессиях, а также тенденции развития карьеры в различных регионах. Социальный спрос влияет на направление развития высшего образования, а также на занятость студентов. Он позволяет студентам понять общество и найти точку интеграции между собой и обществом. Играет важную регулирующую роль. Взаимодействие с другими людьми.

3. Семья и социальные отношения. Большинству учеников средней школы не хватает полного понимания общества, их социальный опыт относительно слаб, и на них легко влияют их семьи, родственники, друзья и одноклассники. Согласно недавнему опросу выпускников в Пекине. Выбор профессии учащимся средней школы - это не только личное решение, но и коллективное решение, основанное на социально-экономическом статусе всей семьи.

(2) субъективные факторы

1. Значения. Ценности относятся к внутренним стандартам, которых придерживаются люди, когда они признают и оценивают важность объективных вещей и явлений для себя или для общества. Воплощением ценностей при выборе карьеры являются «профессиональные ценности». Он играет направляющую и решающую роль в принятии решений о выборе профессии учащимися средней школы. Взаимодействие с другими людьми

2. Выбор места обучения. После окончания учебы выпускники могут по-разному выбрать место проживания. Существует три основных типа: трудоустройство, непрерывное образование и незанятость. Это разнообразное направление для получения диплома напрямую влияет на выбор карьеры учащихся средней школы. Взаимодействие с другими людьми

3. Личные предпочтения, идеалы, способности. В процессе выбора карьеры ученики средней школы часто рассматривают собственные интересы и увлечения как важные факторы.

Литература

1. Чэнь Хунцюань. Чжан Шухуа. Содержание планирования карьеры для учащихся средней школы.2003г.

2. Чжэнь Цзюхуа. Планирование карьеры и успешный выбор карьеры для учащихся средней школы . 2008 г.

3. Лю Ибо. Профессиональный учащихся средней анализ школы. 2007 г.

XÜLASƏ

Orta məktəb şagirdlərinin işə qəbulu prosesində, tədricən bazar, dövlət tənzimləməsi, məktəb tövsiyələri və məzunlarla işə götürənlər arasında ikitərəfli seçim ilə məşğulluq mexanizmi formalaşdı ki, bu da Çində təhsilin inkişafına və paylanmanın daha da optimallaşdırılmasına böyük töhfə verdi. Məzunların fərdi inkişafı üçün xarici bir mühitin pulsuz və asan olmasını təmin edən Çindəki insan qaynaqları. Hazırda orta məktəb şagirdlərində “peşə seçmə” düşüncəsi və düzgün metodları yoxdur.

РЕЗЮМЕ

В процессе трудоустройства учащихся средней школы постепенно сформировался механизм трудоустройства с рыночным, государственным регулированием, рекомендациями школ и двусторонним отбором между выпускниками и работодателями, что в значительной степени способствовало развитию образования Китая и дальнейшей оптимизации распределение человеческих ресурсов в Китае, что обеспечивает свободную и непринужденную внешнюю среду для личного развития выпускников. В настоящее время школьникам средней школы не хватает мышления и правильных методов «выбора профессии».

SUMMARY

In the employment process of middle school students, an employment mechanism with market-oriented, government regulation, school recommendation, and two-way selection between graduates and employers has gradually formed, which has greatly promoted the

development of China's education and further optimized the allocation of human resources in China. It provides a free and relaxed external environment for the personal development of graduates. At present, middle school students still lack sufficient thinking and correct methods for "career choice".

Gou Yuyuan
АГПУ, История и теория педагогики, Магистратура, I курс
Педагог: д.ф.п.п. Велибекова З. Д.

ЦЕЛЬ ОБРАЗОВАНИЯ В СРЕДНЫХ ШКОЛАХ КИТАЙСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

Açar sözlər: *Çin, ortatəhsil, hədəflər*
Ключевые слова: *Китай, среднее образование, цели*
Key words: *China, secondary education, goals*

Объектами среднего образования являются молодые люди в возрасте 11, 12-17 и 18 лет. Они находятся в переходном периоде быстрого физического и психологического развития и мутаций, и они переживают быстрое приобретение знаний и навыков, а также мировоззрения и взгляды на жизнь., Критический возраст первоначального формирования ценностей.

1. Цели обучения на этапе низших средних школ

(1) Развивайте учащихся, чтобы они овладели необходимыми культурными, научными и технологическими знаниями и базовыми навыками, обладали определенными способностями к самообучению, практическими навыками, изначально имели научное отношение к поиску истины из фактов и овладели некоторыми простыми научными методами.

(2) Обучать учащихся овладевать базовыми знаниями и правильными методами физических упражнений, развивать гигиенические привычки, иметь здоровое тело, иметь предварительные эстетические способности и формировать здоровые интересы и хобби.

(3) Развивайте учащихся, чтобы они научились заботиться о себе и участвовать в работе по дому в пределах своих возможностей, овладеть некоторыми базовыми знаниями и базовыми производственными и трудовыми навыками, понять здравый смысл поиска работы и иметь правильное отношение к работе и хорошие рабочие привычки.

2. Цели обучения на ступени высших школ

(1) Обучайте учащихся любить Родину, свой народ, Коммунистическую партию Китая и социализм, иметь правильное политическое направление и изначально формировать правильное мировоззрение, взгляды на жизнь и ценности. Дать учащимся возможность обрести чувство социальной ответственности и профессионализма, сформировать идею служения людям, иметь дух преданности социалистической модернизации родины, иметь хорошую идеологическую мораль, цивилизованное и вежливое поведение, а также способности отличать правильное от неправильного и самодисциплину.

(2) Развивайте учащихся, чтобы они овладели базовыми знаниями и базовыми навыками в области общей культуры и науки, которые требуются современному обществу, обладали осознанным отношением к обучению и способностью к самообучению, владели основными методами обучения, обладали духом новаторства и базовой способностью анализировать и решать проблемы.

(3) Воспитывайте у учащихся привычку осознанно заниматься спортом, чтобы у них было здоровое тело и способность поддерживать физическое и психическое здоровье, иметь здоровую эстетическую концепцию и определенные эстетические способности, иметь хорошее качество воли и определенную способность адаптироваться.

(4) Обучать учащихся формировать правильные точки зрения на работу, иметь базовые технические знания и способность к предварительному выбору работы, обладать определенными трудовыми навыками и современными жизненными навыками.

Литература

[1]. Антиповский А.А. Политика в области науки и образования в КНР/Антиповский А.А.Боревская Н.Е., Франчук Н.В. — Москва: Наука, 1980. – 288 с.

[2]. Высшее образование в КНР: ценностный аспект: материалы V Всероссийской науч.-практич. конф. «Кулагинские чтения»: Чита, 23 апр. 2005/ЧитГУ; редкол: Хунхай Ц. (отв. ред.) [и др.]. – Чита, 2005.– С. 174-178.

[3]. Государственный среднесрочный и долгосрочный план реформ и развития образования(2010-2020 гг.) [принят в 2010 г.]– Режим доступа:www.china.org.cn.

[4].Конституция КНР (разработана и принята Всекитайским Собранием Народных Представителей 4 декабря 1982 г) (с учетом поправок в 1988, 1993, 1999, 2004).

[5]. Министерство образования Китайской Народной Республики. Мнение Министерства образования о всестороннем углублении реформы учебной программы и выполнении фундаментальной задачи Лидэ Шурен [Z]. 2014 г.

[6].Ю. Венсен. От трехмерных целей к основной грамотности ［J］. Журнал Восточно-Китайского педагогического университета (научно-педагогическое издание), 2016 г., 34 (1): 11-13.

XÜLASƏ

Çin Xalq Respublikasının bütün təhsil sistemində orta təhsil ilkin və universitet təhsilinin orta mərhələsindədir. O, ilk təhsilin davamıdır və yüksək təhsilin yaxud texniki məktəblərə qəbulun hazırlıq mərhələsidir. Tələbələrin işə hazır olduqları təhsil mərhələsidir. Orta təhsil iki təhsil səviyyəsini əhatə edir: aşağı pilləli orta təhsil və yuxarı pilləli orta təhsil. 1986-cı ildə yayımlanan "Çin Xalq Respublikasının Məcburi Təhsil Qanunu" na əsasən, ölkədə doqquz illik icbari təhsil həyata keçirilir ki, bunun da icbari təhsilin ikinci mərhələsi-ibtidai orta icbari təhsil, orta təhsilin aşağı pilləsinə aiddir. Məcburi təhsil dövlət tərəfindən qanun şəklində təmin edilir. Bütün məktəb yaşlı uşaqlar və yeniyetmələr dövlət, cəmiyyət, məktəblər və ailələr tərəfindən zəmanət verilməli olan milli əsas təhsili qəbul etməlidirlər. Bu, məcburiyyət və ümumbəşərilik xüsusiyyətlərə malikdir. Sosialist modernləşmənin qurulmasında maddi sivilizasiyanın və mənəvi sivilizasiyanın qurulmasında orta təhsil mühüm rol oynayır.

РЕЗЮМЕ

Во всей системе школьного образования Китайской Народной Республики среднее школьное образование находится на промежуточной ступени начального образования и университетского образования. Этопродолжение начального образования и подготовительный этап для поступления в высшие учебные заведения или перевода в другие техшколы. Этап обучения, на котором учащиеся готовятся к трудоустройству. Среднее школьное образование включает два уровня образования: низшая средняя школа и высшая школа. В соответствии с "Законом Китайской Народной Республики об обязательном образовании", принятым в 1986 году, государство вводит обязательное девятилетнее образование, из которых вторая ступень обязательного образования - начальное среднее обязательное образование относится к ступени низших средних школ образование. Обязательное образование предусмотрено государством в форме закона. Все дети и подростки школьного возраста должны принимать национальное базовое образование, которое должно гарантироваться государством, обществом, школой и семьей. Оно имеет характеристики обязательного и универсального. Среднее школьное образование играет

жизненно важную роль в построении материальной цивилизации и духовной цивилизации в строительстве социалистической модернизации.

SUMMARY

In the entire education system of the People's Republic of China, secondary education is at the intermediate stage of primary education and university education. It is the continuation of primary education and the preparatory stage for entering higher education institutions or transferring to other technical schools. Secondary education includes two levels of education at the junior high school stage and senior high school stage. According to the "Law of the People's Republic of China on Compulsory Education" promulgated in 1986, the country implements nine-year compulsory education, of which the second stage of compulsory education-elementary secondary compulsory education belongs to the junior high school stage of secondary education. Compulsory education is stipulated by the state in the form of law. All school-age children and adolescents must accept the national basic education that must be guaranteed by the state, society, schools, and families. It has the characteristics of compulsory and universality. Secondary education plays a vital role in the construction of material civilization and spiritual civilization in the construction of socialist modernization.

Hüseynova Səbinə Fazil qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos.Kəmalə Quliyeva

YENİ QİYMƏTLƏNDİRMƏ TEXNOLOGİYALARININ MAHİYYƏTİ

Açar sözlər: *qiymətləndirmə konsepsiyası, məktəbdaxili qiymətləndirmə, diaqnostik qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə*

Ключевые слова: *концепция оценивания, внутришкольное оценивание, диагностическое оценивание, формирующее оценивание, итоговое оценивание*

Key words: *assessment concept, in-school assessment, diagnostic assessment, formative assessment, summative assessment*

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsilin keyfiyyəti əldə edilən nəticələrin əvvəlcədən müəyyən olunmuş standartlara nisbəti ilə müəyyən edilir. Təhsilin keyfiyyətinin müəyyən edilməsində əsas göstərici şagiridin əldə etdiyi təlim nəticələri və bu nəticələrin obyektiv qiymətləndirilməsidir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi çox geniş və əhatəli prosesdir və bu proses ərzində şagirdlərin fəaliyyətlərinin daim nəzarətdə saxlanması, onların irəliləyişlərinin və geriləmələrinin izlənilməsi məqsədi ilə monitorinqlərin aparılması ciddi tələb kimi qarşıya qoyulur. Həmin monitorinqlərin nəticələri təlim prosesinin optimal qurulmasına və müəllimlərin işinin təkmilləşdirilməsinə aid qərarlar qəbul etməyə şərait yaradır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı ilk müddəalar 30 oktyabr 2006-cı ildə qəbul edilmiş Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) (1, səh.28) adlı sənəddə öz əksini tapdı. İbtidai siniflərdə fənn kurikilumlarının işlənib hazırlanması və tətbiqi ilə əlaqədar olaraq yeni qiymətləndirmə konsepsiyasının qəbul edilməsi zərurəti yarandı.

Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" (2) təsdiq edilmişdir. Bu konsepsiyada bir çox məsələlər öz əksini tapmışdır:

- müasir dövrdə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblər;
- şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri, əsas xüsusiyyətləri;
- əsas qiymətləndirmə növləri;

- qiymətləndirmə standrtları və qiymətləndirmə vasitələrinin hazırlanması;
- məktəbdaxili qiymətləndirmənin mahiyyəti və məzmunu;
- şagird nailiyyətlərinin monitorinqi sistemi;
- kurikulum üzrə qiymətləndirmə;
- buraxılış imtahanları;
- milli qiymətləndirmənin məqsədləri;
- beynəlxalq qiymətləndirmə proqramı üzrə həyata keçiriləcək əsas tədbirlər.

Şagirdlərin təlim nəticələri təhsilin keyfiyyətinin qiymətləndirilməsində əsas göstərici olduğundan həmin nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti müəyyən edən əsas mənbə hesab olunur.

Subyektiv rəylərə əsaslanan ənənəvi qiymətləndirmə ilə müasir qiymətləndirmənin bir sıra fərqli xüsusiyyətləri var. Ənənəvi qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu və şagird yalnız qiymət almaq üçün oxuyurdu, tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilir,əsasən bilik səviyyəsi qiymətləndirilir, qiymətləndirmə standartları mövcud deyil, cari qiymətləndirmə formalizmə gətirib çıxarır. Müasir qiymətləndirmə isə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, tədris prosesinin bütün mərhələlərində aparıla bilər, şagirdin nailiyyətini qiymətləndirir, qiymətləndirmə standartları vardır.

Yeni qiymətləndirmə sisteminin əsasında şagirdlərin təlim fəaliyyətlərinin ardıcıl və sistemli şəkildə qiymətləndirilməsi, nəticələrin təhlili və müvafiq qərarların qəbul edilməsi dayanır. Şagird nailiyyətlərinin qiymətləndirilməsi 3 istiqamətdə aparılır: beynəlxalq, milli və məktəbdaxili.

Beynəlxalq qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirilməsi funksiyalarını yerinə yetirir. Bu qiymətləndirmə 3 ildən bir aparılır və əldə olunmuş nəticələr xarici ölkələrdə təhsil sahəsindəki nailiyyətlərlə müqayisə edilir.

Milli qiymətləndirmə mövcud təhsil proqramlarının real tələbata uyğunluğunu araşdırmağa və onların keyfiyyətini müəyyən etməyə imkan yaradır. Milli qiymətləndirmə təhsilin keyfiyyətinə nəzarəti həyata keçirmək üçün tədris dövrünün sonunda mütəmadi şəkildə, IV və IX siniflərdə 4-5 ildən bir aparılır. Milli qiymətləndirmənin məqsədlərinə təhsil alanların zəif və güclü tərəfləri,ümumi mənimsəmə səviyyəsini üzə çıxarmaq; respublikamızda təhsilin vəziyyəti barədə zəruri məlumata malik olmaq və nəticədə təhsil siyasətini formalaşdırmaq və s. daxildir. "Milli qiymətləndirmənin nəticələrindən istifadə edərək kurikulumun və təlim keyfiyyətinə nəzarətin daha səmərəli formada həyata keçirilməsi yolları araşdırılır" (3.səh.130).

Məktəbdaxili qiymətləndirmə şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqini, şagird fəaliyyətinin təlim standartlarına uyğunluğunu müəyyən edir. Məktəbdaxili qiymətləndirmənin 3 növü var: diaqnostik, formativ, summativ.

Diaqnostik qiymətləndirmə təhsil səviyyəsinin, dərs ilinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədi ilə aparılır.

Formativ qiymətləndirmə şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır.

Summativ qiymətləndirmə təhsilin hər hansı mərhələsində şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Summativ qiymətləndirmənin iki növü var: kiçik və böyük.

Kiçik summativ qiymətləndirmə bəhs və ya bölmələrin sonunda hər altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir.Yarımillik qiymətlər hesablanarkən onun nəticələri nəzərə alınır. Kiçik summativ qiymətləndirmənin vasitələri (tapşırıqlar, yazı işləri və s.) müəllim tərəfindən hazırlanır. Nəticələr, yəni qiymətlər summativ qiymətləndirmənin keçirildiyi tarixdə sinif jurnalına yazılır.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda keçirilir. Bu zaman qiymətləndirmə vasitələri (test və tapşırıqlar) məktəb direktorunun təşkil etdiyi xüsusi komissiya

tərəfindən hazırlanır.Böyük summativ qiymətləndirmə məktəb rəhbərliyi səviyyəsində həyata keçirilir və fənn müəllimi bu prosesdə iştirak etmir. Şagirdlərin illik qiymətləri hesablanarkən böyük summativ qiymətləndirmənin nəticələri nəzərə alınır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) Bakı. 2006, 29 s.

2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. www.-qanun.az/famework/16061

3. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı. Mütərcim, 2007.-184 s

XÜLASƏ

Azərbaycan təhsilinin son illər davamlı inkişafı, dünyanın aparıcı ölkələrinin təhsil sahəsində əldə etdikləri təcrübəsinin öyrənilərək təhsilimizə tətbiqi, bu sahədə qazanılan nailiyyətlərin hər bir ölkə vətəndaşının sevinclə qarşıladığı ən mühüm hadisələrdən biridir desək, bizcə yanılmarıq. Ölkəmizdə təhsil sahəsində aparılan islahatların, əsaslı dəyişikliklərin, həyata keçirilən yeniliklərin bir məqsədi, amalı var: təhsilin keyfiyyətinin yüksəldilməsi, dünyanın inkişaf etmiş ölkələrinin qəbul edəcəyi mütərəqqi və mükəmməl bir təhsil sisteminin yaradılması. Artıq bu sahədə bir neçə mühüm addım atılmaqdadır. Təhsil tariximizdə ilk dəfə olaraq həyata keçirilən yeni qiymətləndirmə sistemi də təhsil sahəsində tətbiq edilən yeniliklərdən biridir.

Yeni qiymətləndirmə çox geniş və əhatəli bir proses olmaqla təhsil sahəsində bütün fəaliyyətlərin "Azərbaycan Respublikasının ümumi təhsil pilləsinin dövlət standartı və proqramları" sənədində müəyyən olunmuş tələblər istiqamətində təkmilləşdirməsinə və bununla da təhsilin keyfiyyətinin yüksəldilməsinə təkan verir.

РЕЗЮМЕ

Мы не ошибаемся, говоря, что устойчивое развитие азербайджанского образования в последние годы, изучение и применение опыта ведущих стран в области образования к нашему образованию, достижения в этой области являются одними из важнейших событий, приветствуемых каждый гражданин. Реформы, фундаментальные изменения и инновации в сфере образования в нашей стране преследуют одну цель и цель: повысить качество образования, создать прогрессивную и совершенную систему образования, которая будет принята развитыми странами мира. В этой области уже делается несколько важных шагов. Впервые в истории нашего образования новая система оценивания является одним из нововведений в сфере образования.

Новое оценивание - это очень широкий и комплексный процесс, который способствует совершенствованию всей деятельности в области образования в соответствии с требованиями, изложенными в документе «Государственные стандарты и программы общего образования Азербайджанской Республики», и, таким образом, улучшает качество образования.

SUMMARY

We are not mistaken in saying that the sustainable development of Azerbaijani education in recent years, the study and application of the experience of leading countries in the field of education to our education, the achievements in this field are one of the most important events welcomed by every citizen. Reforms, fundamental changes and innovations in the field of education in our country have one goal and purpose: to improve the quality of education, to create a progressive and perfect education system that will be accepted by the developed countries of the world. Several important steps are already being taken in this area.

The new assessment system implemented for the first time in the history of our education is one of the innovations in the field of education.

The new assessment is a very broad and comprehensive process that promotes the improvement of all activities in the field of education in accordance with the requirements set out in the document "State standards and programs of general education of the Republic of Azerbaijan" and thus improves the quality of education.

Xaləddinova Aytac Cavid qızı
Elmi rəhbər: b/m, p.ü.f.d. Kərimova F

DAVAMLI İNSAN İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ

Açar sözlər: *davamlı insan inkişafı, qiymətləndirmə, əmsal*
Ключевые слова: *устойчивое человеческое развитие, оценк, соотношение*
Key words: *Sustainable human development, evaluation, ratio*

BMT Dünyanın bütün ölkələri üçün Davamlı İnsan İnkişafının ayrı-ayrı göstəricilərinin müqayisəli tərzdə öyrənilməsi üçün hər il onları təhlil edərkən həmin qiymətləndirməyə əsasən müvafiq hesabatlar dərc edir. Bu, hər şeydən əvvəl ölkədə inkişafın uğur dərəcəsini, onun insanların sosial-iqtisadi vəziyyəti və rifahının yaxşılaşdırılması istiqamətinə yönəldilməsini göstərir. Qiymətləndirmə İnsan İnkişafının əsas göstəricilərinin xüsusi düsturla hesablanmış müvafiq əmsallarına əsasən aparılır. Həmin əmsallar hesablandıqda əsasən ölkə əhalisinin sağlamlıq, təhsil və iqtisadi göstəriciləri nəzərə alınır. Dİİ-nin sağlamlıq göstəricisi kimi uzunömürlülük, bir yaşına qədər olan körpə uşaqlar arasında ölüm və 5 yaşına qədər olan uşaqların çəki, boy və inkişafdan qalma faizi öyrənilir. Təhsil göstəricisi kimi əhalinin orta hesabla neçə illik təhsilə malik olması və 6-23 yaşlı gənclərin neçə faizinin təhsil alması və savadsızlıq dərəcəsi müəyyən olunur. Bu zaman savadsızlığın müasir təsnifata görə qəbul edlmiş hər iki növü - ümumi savadsızlıq (hər hansı fərdin yazıb-oxuma qabiliyyətinə malik olması) və funksional savadsızlıq (fərdlərin bəzi yazılı mətnləri oxuya bilməsinə baxmayaraq onun mahiyyətini dərk edə bilməməsi və yazılı mətnlərdən istifadə zamanı çətinlik çəkməsi) hesablanır.

Davamlı İnsan İnkişafı qiymətləndirilərkən ölkənin iqtisadi göstəricilərindən əsasən adambaşına düşən ümumdaxili məhsul (ÜDM) hesablanır. Bu zaman ölkə üçün əhalinin alıcılıq qabiliyyətini xarakterizə edən xüsusi əmsal - Alıcılıq Qabiliyyəti Prioteti (AQP) nəzərə alınır və ÜDM hesablanarkən həmin göstəriciyə görə ölkələrin müqayisə edilməsinə fikir verilir. Məsələn, İnsan İnkişafı göstəricilərinə görə Dünyada ən tərəqqi etmiş İslandiyada əhalinin ÜDM gəlirinin Lüksemburqdan iki dəfə az olmasına baxmayaraq o, daha yüksək yerdə durur. Ölkə əhalisinin hər bir nəfərinə düşən ÜDM-ə görə İslandiyanın və Avstriyanın eyni göstəriciyə malik olmasına baxmayaraq, Dünya reytinqində İslandiya 2-ci, Avstriya isə 17-ci yeri tutur. Çünki hər iki ölkənin eyni iqtisadi

göstəriciyə malik olmasına baxmayaraq, milli gəlir İslandiya əhalisi arasında Avstriyaya nisbətən daha ədalətli və bərabər bölünür, cəmiyyətin bütün təbəqəsinə eyni dərəcədə xidmət edir. ÜDM gəlirin əhali arasında bərabər, ədalətli bölünməsinə və ümumilikdə isə Davamlı İnsan İnkişafı göstəricilərinə görə Norveç Dünya ölkələri arasında daha yüksək reytinqə malik olmaqla, birinci yerdə durur. Bəzi ÜDM gəliri müxtəlif olan ölkələr arasında da uyğunsuzluq müşahidə edilir. Belə ki, Ekvatorial Qvineyada əhalinin hər bir nəfərinə düşən orta ÜDM gəlirin 20 min ABŞ dolları təşkil etməsinə baxmayaraq, bu gəlirin əhali arasında qeyri-bərabər, ədalətsiz paylanması və sosial qayğılara lazımınca diqqət yetirilmədiyinə görə həmin ölkə dünyanın 177 ölkəsi arasında 121-ci yeri tutur. İqtisadi imkanları eyni olan Qətər və Sloveniya həmin siyahıda müvafiq olaraq 26 və 40-cı yerlərdə durur.

Azərbaycan Respublikasında son illər ölkə iqtisadiyyatının bütün sferalarında aparılan səmərəli, məqsədyönlü islahatlar və regionların sosial-iqtisadi inkişafına göstərilənn dövlət qayğıları ölkəmizin Davamlı İnsan İnkışafı göstəricilərinə görə sürətlə tərəqqi etməsi və yüksək pillədə dayanması üçün böyük zəmin yaratmışdır, respublikamızın yeraltı və yerüstü təbii sərvətlərə, çox zəngin və böyük təsərrüat imkanlarına malik olması bu göstəricilərin daha da artmasına təminat verir.

Davamlı İnsan İnkişafının əsas göstəricilərindən biri də yoxsulluqdur. Yoxsulluq insanı öz imkanlarını həyata keçirməkdən və inkişafdan məhrum edir, arzuedici ideyaları həyata keçirmək, normal həyat tərzi sürmək, sağlam və azad, sərbəst yaşamaq, gündəlik həyat dəyərlərindən faydalanmaq, öz ləyaqətini qorumaq, təhsil almaq və s. imkanlarından məhrum edir, şəxsin bir vətəndaş kimi yetişməsini, siyasi hüquqlarının həyata keçirilməsini məhdudlaşdırır. Yoxsulluqdan əsasən yaşlılar və yeniyetmələr əziyyət çəkir. Yoxsulluqla mübarizənən əsası XX əsrdə şimalı Amerikada və Avropada qoyulmuşdur. Tarixən bütün üsyanlar, inqilabi və dövlət çevrilişləri əsasən yoxsulluq ucbatından baş vermişdir. Tədricən dünyanın bütün ölkələri XX əsrdə bu mübarizəyə qoşulmuşdur. BMT-nin məlumatına görə son 50 ildə yoxsulluq kəskin surətdə azalmışdır. Bunun nəticəsində uşaq ölümü də xeyli azalmışdır. Görülən tədbirlərə baxmayaraq dünyada yenə də ən azı 25% yoxsulluq mövcuddur. Lakın Asiya və Afrikanın müəyyən ölkələrində yoxsulluq daha çoxdur. Hazırda dünyada 1,5 milyarda yaxın insan yoxsul həyat tərzi keçirir.

Azərbaycanda yoxsulluğun azalması haqqında müvafiq tədbirlər görülür. uşaq ölümü azalmış, təhsil yüksəlmiş, hətta inkişaf etmiş ölkələr səviyyəsinə çatmaq üzrədir.

Yoxsulluğun əsas göstəricisi Əhalinin Yoxsulluq Əmsalı (ƏYƏ) olmaqla Dİİ-nın qiymətləndirilməsi zamanı nəzərə alınır. Bu əmsalın hesablanmasında əsasən sağlamlıq, təhsil, uşaqların yaşı, çəkisi, boyu, su və qida ilə təminatı, inkişaf səviyyəsi və s. nəzərə alınır. İnsan inkişafının qiymətləndirilməsində adambaşına düşən gəlir nəzərə alınmalıdır. Hələlik bu gəlir ABŞ dolları ilə qiymətləndirilir.

Davamlı insan inkişafının qiymətləndirilməsi üçün göstərilən vahid əmsalların istifadə edilməsi, ilk növbədə, hər hansı bir ölkədə və yaxud bölgədə bu sahədə mövcud olan vəziyyətin səciyyələndirilməsi üçün əhəmiyyətlidir. Bu məlumat insan potensialının inkişafı naminə müvafiq siyasətin və tədbirlərin həyata keçirilməsinin səmərəliliyi üçün olduqca vacibdir. Digər tərəfdən insan inkişafının qiymətləndirilməsi üçün istifadə olunan ümumi prinsiplər və eyni yolla hesablanan əmsallar beynəlxalq müqayisələrin keçirilməsi üçün imkanlar açır. Belə müqayisələr insan potensialının inkişafı sahəsində dünyada əldə edilmiş ən yaxşı təcrübənin öyrənilməsi və yayılması üçün şərait yaradır.

Ədəbiyyat

1. U.Ələkbərov. Davamlı İnsan inkişafı və ekoloji sivlizasiyanın əsasları. Ali məktəblər üçün dərslik. Bakı, “Təhsil” 2013, 224 s.

2. U.Ələkbərov. İnsan inkişafının əsasları. Ali məktəblər üçün dərslik. Bakı, “Azpoliqraf”, 2016, 280 s.

3. Əsgərov Ə.A., Hüseynov E.M., Hüseynov S.Y., Davamlı insan inkişafı. - Bakı, 2009. – 494 s.

4. S.Y.Hüseynov. Davamlı İnsan İnkişafının strateji istiqamətləri. «Adiloğlu» nəşriyyatı. Bakı. 2003, 264 s.

РЕЗЮМЕ

Использование этих коэффициентов для оценки устойчивого человеческого развития важно, прежде всего, для характеристики ситуации в любой стране или регионе. Эта информация очень важна для эффективности реализации соответствующей политики и мер по развитию человеческого потенциала. С другой стороны, общие принципы, используемые для оценки человеческого развития, и коэффициенты, рассчитываемые

таким же образом, открывают возможности для международных сравнений. Подобные сравнения создают условия для изучения и распространения передового опыта в области человеческого развития.

SUMMARY

The use of these coefficients to assess sustainable human development is important, first of all, to characterize the situation in this area in any country or region. This information is very important for the effectiveness of the implementation of appropriate policies and measures for the development of human potential. On the other hand, the general principles used to assess human development and the coefficients calculated in the same way open up opportunities for international comparisons. Such comparisons create conditions for the study and dissemination of best practices in the field of human development.

Hümbətli Lalə Rövşən qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. Gülşən Novruzova

AZƏRBAYCANDA ÜMUMİ TƏHSİLİN İDARƏ EDİLMƏSİNDƏ NORMATİV HÜQUQİ SƏNƏDLƏRİN TƏTBİQİ ZƏRURİLİYİ

Açar sözlər: *qanun, sənəd, təhsil, hesabat, inkişaf, monitorinq, idarəetmə, keyfiyyət, qiymətləndirmə, rəhbərlik, şura*

Ключевые слова: *закон, документ, образование, отчет, разработка, мониторинг, управление, качество, оценка, лидерство, совет*

Key words: *law, document, education, report, monitoring, management, quality, evaluation, leadership, council*

Ümumi təhsil haqqında Azərbaycan Respublikasının qanunu- Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsaslanaraq, Azərbaycan Respublikasında ümumi təhsilin təşkili və təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ideyalarını, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Təhsildə keyfiyyətin yüksəldilməsi idarəetmənin daha optimal təşkili ilə birbaşa əlaqəlidir. Təsadüfi ola bilməz ki, Azərbaycan Respublikasının təhsil sahəsində Dövlət standartlarında qeyd edilən məqamlardan biri də məhz bu məsələ ilə bağlıdır.Azərbaycanda "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları" 3 iyun 2010-cu ildə qəbul olunmuşdur, 29 sentyabr 2020-ci ildə təkmilləşdirilmişdir.

Ümumi təhsilin idarə olunması üç prinsip əsasında həyata keçirilir. Bunlar- hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi prinsipləridir. Təhsil müəssisəsinin fəaliyyətinin optimal, düzgün və səmərəli planlaşdırılması idarəetmənin keyfiyyətini müəyyən edən önəmli və əsas amillərdən biridir.

Hesabatlılıqdedikdə ümumi təhsil müəssisələrində kollektivin hər bir üzvünün müəyyən edilmiş iş sahəsində olan cavabdehliyinin təmin olunması nəzərdə tutulur. Ümumi fəaliyyətin fasiləsiz və davamlı hazırlanan və müzakirə edilən hesabatlarda öz əksini tapması müəssisədə hər bir fərdin öz vəzifə və funksiyalarına hansı məsuliyyətlə yanaşmasında mühüm rol oynayır. Əgər idarəetmə hesabatlılıqla davam etmirsə orada fəaliyyəti sona qədər və müvəffəqiyyətli şəkildə həyata keçirtmək və ya məqsəd və hədəfə çatmaq mümkün olmayacaqdır.

Məsuliyyətin bölüşdürülməsi prinsipi ümumi təhsilin idarə olunmasında demokratiklik, sistemlilik, şəffaflıq və davamlılıq yaradan əsas amil kimi çıxış edir, ümumi fəaliyyətin nizamlı və sistemli planlaşdırılmasına və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə, çevik nəzarət mexanizminin müəyyən edilməsinə xidmət edir. Hal-hazırki dövrümüzdə təhsil

siyasətinin əsas mahiyyəti, ilkin olaraq , bütün ümumtəhsil sisteminin demokratikləşdirilməsi və humanistləşdirilməsi kimi qeydə alınır, əsas məqam məktəb həyatının idarə olunmasına yönəldilir, ailə və ictimaiyyət təhsilin idarə edilməsində yaxından iştirak edirlər. Lakin bütün bunlara həyatda nəzər salsaq görərik ki, bu, demokratiyaya aparan zahiri əlamətdir. Təhsilin demokratikləşdirilməsi dedikdə ilkin növbədə, şagird şəxsiyyətinin inkişaf etdirilməsinə, hər bir şagirdin maraq vəistəklərinin nəzərə alınaraq, şagirdin özünüreallaşdırması və özünütəsdiqinə, təhsil yolunu müstəqil müəyyən etməsinə, öz qabiliyyətinəuyğun fərdi təhsil proqramını müəyyən etməsinə imkan vermək, dəstək olmaq və şərait yaratmaq lazımdır.Bu, keçmiş idealogiyalardan və stereotiplərdən imtina etməyi, təlimin diferensiallaşdırılması yolunda məktəbi yenidən qurmağı, bununla da istedadlı uşaqların maksimal inkişafına geniş imkan yaratmağı tələb edir. Azərbaycan Respublikasıümumtəhsil məktəbinin nümunəvi əsasnaməsində şagird şəxsiyyətinin ümumiyyətlə, fərdin təbii imkanlarını inkişaf etdirmək, onu elmi biliklərə yiyələndirmək, fiziki, əqli, zehni və intellektual imkanlarını, meyl, maraq və idrak qabiliyyətlərinəzərdə tutaraq, onun şəxsiyyətinin formalaşdırılmasıməktəbin əsas vəzifəsi kimi irəli sürülür.

İnkişafın monitorinqi ümumtəhsil müəssisəsində mövcud olan idarəetmə sisteminin məqsədyönlülük səviyyəsini müəyyənləşdirir. Əsas olaraq isə irəliləyişlərin dinamikasını aşkara çıxarmaqla planlaşdırma və tətbiq mexanizmində lazımi dəyişikliklər aparılmasını təmin edir. Ötən əsrin 90-cı illərindən etibarən təhsil sahəsində aparılan eksperimentlərin, tətbiq edilən yeniliklərin yararlılıq faizinin artırılması, əldə olunan nəticələrin izlənilməsi, öncədən proqnozlaşdırılması və korreksiya edilməsi işlərinin zamanında həyata keçirilməsinə öncəlik verilmişdir. Bu məqsədlə təhsildə qiymətləndirmə və monitorinq mexanizmi tətbiq edilməyə başlanmışdır. "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli qərarı əsasındatəsdiq olunmuşdur. "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nda dövrümüzdə şagird nailiyyətlərinin qiymətləndirilməsinə qoyulan tələblər, qiymətləndirmə mexanizminin vəzifələri, bu sahədə mövcud olan problemlər, sənədin yaradılması üçün zəruri olan səbəblər, əsas qiymətləndirmə növləri, qiymətləndirmə standartlarının və vasitələrinin hazırlanması və s.məsələlər öz əksini tapmışdır. Sənəddə qiymətləndirmə mexanizminə qoyulan tələblərin əsas vəzifəsi, ilkin olaraq, məktəblərimizdə təlim-tərbiyə işlərinin məzmun, forma, vasitə və metodlarını inkişaf etdirməklə təhsilin keyfiyyətini davamlı və əsaslı olaraq optimallaşdırmaqdan, müəllimlərin kreativlik səviyyəsini artırmaqdan və məktəb işlərinin keyfiyyətini bütün olaraq müasir dövrün tələbləri səviyyəsinə qaldıra bilməkdən ibarətdir.

"Təhsil Qanunun"da (maddə 30. bənd 2) qeyd olunduğu kimi, dövlət təhsil müəssisəsinə rəhbərliyi müvafiq icra hakimiyyəti rrqanı tərəfindən təyin edilmiş dövlət təhsil müəssisəsinin rəhbəri (rəhbərliyi) həyata keçirir. Dövlət təhsil müəssisəsinin ali idarəetmə rrqanı Elmi və Pedaqrji şuralardır. Elmi və pedaqrji şuraların yaradılması və fəaliyyəti isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnaməyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən müəyyən olunur.

Pedaqoji şuranın əsasnaməsiAzərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir. Pedaqoji Şura iclaslarında, əsasən, təhsil sahəsində dövlət siyasətinə əsaslanaraq, təlim-tərbiyə prosesinin təşkili və həyata keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmənin inkişaf etdirilməsi, innovativ pedaqoji ideyaların məktəbdə tətbiq edilməsi, müəssisədə sağlam psixoloji mühit və təhlükəsiz şərait yaradılması, maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi ilə əlaqədar olaraq aktual məsələlər, ümumi fəaliyyətin optimallaşdırılması istiqamətində təkliflər və hesabatlar müzakirə edilərək müvafiq qərarlar qəbul edilir.

Ümumtəhsil məktəblərinin ali idarəetmə orqanının pedaqoji şura olmasına baxmayaraq kollegial idarəetməni, demrkratikliyi və şəffaflığı gözləmək məqsədi ilə özünüidarə orqanları fəaliyyət göstərirlər. Bu minvalla, ümumi yığıncaqlar, məktəb şurası, pedaqoji şura, himayəçilər şurası, elmi-metrdiki şura, məktəb icmasi, şagird təşkilatları, qəyyumlar şuraları,

məzun şəbəkələri, özünüaudit qurumları və başqaları yaradılır. Günümüzdə müasir məktəbin təkbaşına idarə olunması metodu inzibati amirliyə yönəlməyə gətirib çıxarır. Məhz buna görə də pedaqoji idarəetmədə məzmun etibarlığı ilə kollegiallığa üstünlük verilir. Kollegiallıq ümumi əhəmiyyətə malik işlərin müəyyən bir qrup şəxslər tərəfindən birlikdə ümumi şəkildə müzakirəsi və həlli mənasını ifadə edir.

Ədəbiyyat

1.“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Kurikulum, 2013, № 4, s. 107-113.

2.“Azərbaycan Respublikasında Ümumtəhsil Sistemində Qiymətləndirmə Konsepsiyası”. Azərbaycan Respublikasının NK-nın 13 yanvar 2009-cu ildə təsdiq edilmiş qərarı. Bakı, 2009, 20 s.

3.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2016. 92 s

4.www.edu.gov.on.ca-Ministry of Education.

XÜLASƏ

Azərbaycanda ümümi təhsil sisteminin başlıca istiqaməti hərtərəfli biliyə, bacarığa, praktik hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşə malik dəyərlər sisteminə sahib olan şəxsiyyət formalaşdırmağa yönəlmişdir. Normativ-hüquqi sənədlərin təhlilindən də göründüyü kimi təhsilin kriteriyalarının aydınlaşdırılması, keyfiyyətin yüksəldilməsi üçün idarəetmənin səmərəli həyata keçirilməsi çox vacib şərtlərdən biridir.

Azərbaycanda ümumi təhsilin idarə edilməsində normativ hüquqi sənədlərin tətbiqi zəruriliyi özlüyündə təhsil sistemində tənzimləmə və idarəetmənin ilkin olaraqbeynəlxalq təcrübə zəminində müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə sxeminin, təhsilin keyfiyyətinin təminatı və idarə edilməsi sahəsi üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

РЕЗЮМЕ

Основное направление системы общего образования в Азербайджане направлено на формирование человека, обладающего всесторонними знаниями, навыками, практической подготовкой, высокой культурой, чувством ответственности, ценностями с прогрессивным мировоззрением. Как видно из анализа нормативно-правовых документов, одним из важнейших условий уточнения критериев образования и эффективного управления является повышение качества.

Необходимость применения нормативных правовых документов в управлении общим образованием в Азербайджане охватывает такие цели, как модернизация регулирования и управления системой образования на основе передового международного опыта, создание ориентированной на результат и прозрачной модели управления в образовательных учреждениях, новые системы информации и отчетности.

SUMMARY

The main direction of the general education system in Azerbaijan is aimed at forming a person with comprehensive knowledge, skills, practical training, high culture, sense of responsibility, values with a progressive outlook. As can be seen from the analysis of normative-legal documents, one of the most important conditions for clarifying the criteria of education and effective management is to improve the quality.

The need for the application of normative legal documents in the management of general education in Azerbaijan covers such goals as modernization of regulation and management of the education system based on international best practices, creation of a result-oriented and transparent management model in educational institutions, new information and reporting systems.

Dadaşova Məsməxanım Əkbər qızı
Elmi rəhbər: b/m, p.ü.f.d. İsmayılova.M

QİYMƏTLƏNDİRMƏNİN NÖVLƏRİ VƏ PRİNSİPLƏRİ

Açar sözlər: *qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, diaqnostik qiymətləndirmə*

Ключевые слова: *оценка, формирующая оценка, итоговая оценка, диагностическая оценка*

Key words: *assessment, formative assessment, summative assessment, diagnostic assessment*

Təlim prosesinin aparılmasında qiymətləndirmənin rolu və əhəmiyyəti həqiqətən də danılmazdır. Qiymətləndirməyə hər zaman pedaqoji sahədə böyük maraq mövcud olmuşdur. Belə ki, qiymətləndirmə aparılarkən onun bir sıra növlərindən istifadə olunur. Hər bir müəllim öz təlim prinsiplərinə uyğun olaraq qiymətləndirmənin növündən istifadə edir və onu formalaşdırır.

Qiymətləndirmə təhsil prosesinin tərkib hissəsi olduğuna görə onun yaranma tarixi də eyniqədimliyə gedib çıxır. Tədqiqatlar göstərir ki, ilk qiymətləndirmə Çində tətbiq olunmuşdur. 587-ci ildən bu ölkədə keçirilməyə başlanmış qiymətləndirmə "Çin imperiya imtahanları" adı ilətanınırdı. Burada dövlət məmuru kimi çalışmaq üçün imtahandan keçmək lazım idi. Şifahi,sonralar həm də yazılı aparılan bu imtahanlar Çində 1905-ci ilədək davam etmişdi.

Qeyd etməliyik ki, təhsilin formalaşdığı ilk dövrlərdən etibarən imtahanlar keçirilmişdir ki, bu da qiymətləndirmənin istifadəsini labüd hala çevirmişdir. Bu zaman Avropa məktəblərinə nəzər salaraq görə bilərik ki, imtahanlar keçirilən zaman şifahi sorğu aparılır və şagirdlərə müəyyən qiymətlər verilirdi. 1792-ci ildən etibarən isə artıq yazılı formada imtahanlar keçirilmiş və qiymətləndirmə aparılmışdır. Yazılı və şifahi formadan asılı olmayaraq qiymətləndirmə təhsilalanların öyrənməsinə müsbət təsir göstərmişdir.

Hal-hazırda müasir dövrün tələbinə uyğun olaraq bütün dünya ölkələrində həmçinin Azərbaycanda da yeni qiymətləndirmə növləri və metodlarından istifadə olunur. XX əsrin əvvəllərindən etibarən təhsil sahəsində inkişafın artması yeni meyillərin formalaşmasına gətirib çıxarmışdır. Günümüzdə ölkəmizin bütün məktəblərində yeni təlim sistemi olan kurikulum tətbiq olunur. Kurikulum təkcə təlim prosesini, öyrətməni deyil həm də nəticələrin alınması, yəni qiymətləndirməni də əhatə edir. Yəni kurikulum bütün bir sistemi tam əhatə edir.

Müasir dövrün təlim prosesində 3 növ qiymətləndirmə mövcuddur ki, bunlara diaqnostik, formativ və summativ qiymətləndirmə aiddir.

Məktəbdaxili qiymətləndirmə milli kurikulumun məzmun standartlarına əsaslanır, şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqinə, şagirdin fəaliyyətinin təhsil standartlarına uyğunluğunun müəyyənləşdirilməsinə və ümumtəhsil pillələri üzrə buraxılış imtahanlarının aparılmasına xidmət edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi standartları gözlənilməklə tədrisin təkmilləşdirilməsi üçün qarşıya məqsədlər qoyur, onlara nailolma istiqamətində əldə edilən irəliləyişləri qiymətləndirir, məktəblərin, qrupların və fərdlərin fəaliyyətlərinin monitorinqini həyata keçirərək nəticələr arasında müqayisələr aparır.

Diaqnostik qiymətləndirmə:Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Məktəbdaxili qiymətləndirmənin bu növünün əhəmiyyəti ondan ibarətdir ki, şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır. Eləcə də, şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir. Diaqnostik qiymətləndirmənin müxtəlif metodları mövcuddur. Bunlara müsahibə, söhbət, müşahidə, tapşırıqlar, valideynlərlə və digər fənn müəllimlərilə əməkdaşlıq aid olunur.

Formativ qiymətləndirmə:Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Formativ qiymətləndirmə müəyyən edilmiş sxemlər üzrə aparılır. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini təmin edir, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır və şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir. Formativ qiymətləndirmənin aşağıdakı üsullrı var: Müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işləri, test tapşırıqları. Formativ qiymətləndirmə iki sxem üzrə həyata keçirilir:Holistik qiymətləndirmə sxemi sürətli qiymətləndirmədir, təlim prosesində məqsədlərə görə müəyyən olunmuş bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa müddətdə ümumi şəkildə dəyərləndirilməsidir. Analitik qiymətləndirmə sxemi şagirdlər üçün nəzərdə tutulan konkret bacarıqların müəyyən olunmuş uzun müddət ərzində ardıcıl izlənilməsi və qiymətləndirilməsidir.

Summativ qiymətləndirmə:Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsidir. Summativ qiymətləndirmə məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir. Summativ qiymətləndirmə zamanı şagirdlərin bilikləri sistemli şəkildə yoxlanılır. Bu zaman müəllimlər yoxlama prosesinin tələblərinə uyğun olan, keçilmiş dərsləri tam əhatə edə bilən suallar və ya tapşırıqlar hazırlamalıdır. Verilmiş tapşırıqlar həm bilik səviyyəsinə həm mental qabiliyyətə həm də maraq və meyllərə uyğunluq göstərməlidir. Yoxlama prosesi müəllimlərlə yanaşı məktəbin digər pedaqoji kadrları tərəfindən də mütləq şəkildə izlənilməlidir. Böyük və kiçik olmaqla summativ qiymətləndirmə iki formada olur. Kiçik summativ qiymətləndirmə hər bölmənin sonunda qazanılmış bacarıq və vərdişlərin yoxlanılması üçün aparılır.

Summativ qiymərləndirmənin üç növü var: şifahi təqdimatlar, testlər və nailiyyətlərin nümayişi.

Şifahi təqdimat dedikdə şagirdin sualları cavablandırması, hazırladığı layihə haqqında danışması, işini təqdim etməsi nəzərdə tutulur. Meyar olaraq təkcə şagirdin bilik səviyyəsi, işin tamlığı və düzgünlüyü deyil eləcə də şifahi danışıq qabiliyyəti, təqdimetmə bacarıqları nəzərə alınır. Həmçinin nailiyyətlərin nümayişi də bu cür bacarıqlara əsaslanır. Testlər üsulu isə ən məşhur və çox istifadə olunan üsullardan hesab olunur. Bu zaman nəzərdə tutulmuş test tapşırıqları həm müəllim həm də daha yüksək təyinatlı pedaqoji kadrlar tərəfindən hazırlana bilər. Hazırlanmış tapşırıqlar isə əvvəlcədən dəfələrlə nəzərdən keçirilməli və səhvsiz olaraq şagirdlərə təqdim edilməlidir.

Qiymətləndirmə aparılarkən müəyyən prinsiplər əsas götürülür ki, bunlar da qiymətləndirmənin əvəzolunmaz amili sayılır. Qiymətləndirilmə zamanı əsas diqqət təkcə informasiyasının mənimsənilməsinə deyil, həm də cəmiyyətin həyatında bir vətəndaş kimi iştirak etmək üçün zəruri olan bacarıqların mənimsənilməsinə yönəldir. Müasir vətəndaş cəmiyyətində bu bacarıqlar fəaliyyətin dörd növündə cəmlənir: tədqiqat; kommunikasiya; qərar qəbulu; fərdi və kollektiv fəaliyyətin təşkili; Bu prinsiplərin ardıcıl həyata keçirilməsi bir-birilə rəqabət aparmamağa, əksinə, əməkdaşlıq etməyə, ümumi mövqe işləyib hazırlamağa imkan verir. Ümumiyyətlə, fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə müəllim etibara, hörmətə əsaslanan əməkdaşlığa hazır olmalıdır.

Ədəbiyyat

1.R.Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı 2010. “Müəllim nəşriyyatı”

2.İ. Cavadov. Təhsildə monitorinq sisteminə dair. Kurikulum. Bakı, 2008, №3

3.M.Mərdanov, R. Ağamalıyev, A.Mehrabov, T.Qardaşov. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, “Çaşıoğlu” 2003

4.Azərbaycan Respublikası ümumtəhsil sistemində Qiymətləndirmə konsepsiyasının təsdiq edilməsi haqqında. 13 yanvar 2009-cu il tarixli 9 nömrəli qərar.

5.A.Mehrabov, İ. Cavadov. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, “Mütərcim”

6.https://aztehsil.com/kurikulum/808-kurikulum-zr-mktbdaxili-qiymtlndirm-diaqnostik-formativ-summativ.html
7.M.Mərdanov. Qiymətləndirmə. www.edu.gov.az

РЕЗЮМЕ

На основе статьи обсуждаются особенности, виды и принципы оценивания. В очередной раз была подчеркнута важность и незаменимость оценивания, являющегося основной ветвью тренировочного процесса.

SUMMARY

Based on the article, the features, types and principles of assessment are discussed. The importance and irreplaceability of assessment, which is the main branch of the training process, was once again emphasized.

Məmmədova Həcər Elşad qızı
ADPU, Təhsildə qiymətləndirmə və monitorinq, II kurs magistrantı
Elmi rəhbər: Əliyev Ramiz

MÜASİR DÖVRDƏ İBTİDAİ SİNİFLƏRDƏ MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏNİN MAHİYYƏTİ, TƏŞKİLİNİN PEDAQOJİ-PSİXOLOJİ ŞƏRTLƏRİ

Acar sozlər: *qiymətləndirmə, keyfiyyət, kurikulum, təlim nailiyyəti, meyarlar*
Ключевые слова: *оценивание, качество, курикулум, учебные достижения, критерии*
Key words: *assessment, quality, curriculum, teaching achievement, criteria*

Qiymətləndirmə sistemindəki islahatlar təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitədir. Yeni qiymətləndirmə sisteminin yaradılması kurikulum və müəllim hazırlığı sahəsində aparılan islahatlarla əlaqəli şəkildə həyata keçirilir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək prosesi kimi qəbul edilir, yəni şagirdlərin nailiyyətlərini izləmək üçün monitorinq aparılır. Məktəblərimizdə fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə ibtidai sinif şagirdlərinin bilik və bacarıqlarının qiymətləndirilməsi zamanı yeni qiymətləndirmə sistemini nəzərə almaq lazımdır.

Təhsilalanların bilik və bacarıqları haqqında məlumatların toplanması, yəni qiymətləndirmə ibtidai təhsil pilləsində diaqnostik, formativvə summativ (kicik və boyuk) olmaqla üç formada həyata keçirilir. Qiymətləndirmənin biri digərinə xidmət edən və bir-birini tamamlayan hər üç növü öz mahiyyətinə uyğun olaraq şagirdlərin bilik və bacarıqlarını standartlara əsasən ölçür.

İbtidai təhsil səviyəsində həyata keçirilən qiymətləndirmə tapşırıqların yerinə yetirilməsinə əsaslanmalıdır. Qiymətləndirmənin əsası tapşırığın yerinə yetirilməsinin keyfiyyəti ilə müəyyən edilir. Qiymətləndirmənin obyektləri isə şagirdlərin yerinə yetirdiyi ev tapşırığı, qrupların işində və diskussiyalarda iştirak, suallar formalaşdırmaq və tədqiqat aparmaq bacarığı ola bilər. Ev tapşırığı müsahibə, sosioloji sorğu aparılmasından, esse (kiçik inşa) yazılmasından, anket hazırlanmasından və i.a. ibarət ola bilər.

İbtidai sinif şagirdləri öz biliklərini və əqli vərdişlərini şifahi, yazılı, vizual, rollu, ya da digər formada təqdimatlar yolu ilə nümayiş etdirə bilərlər. Yaxşı təşkil edilmiş təqdimetmə kiçik yaşlıların biliklərinin və əqli vərdişlərinin yüksək səviyyədə olması deməkdir. Dərslərdə nə qiymətləndirilir?

1. Məzmunun - əsas faktların və terminlərin, səbəb-nəticə əlaqələrinin, nəticə və ümumiləşdirmənin mənimsənilməsi.

2. Təhliletmə vərdişlərinin, öyrənmə bacarığının, digər qrupların baxışlarının, yaxud nöqteyi-nəzərinin başa düşülməsi və i.a.

3. Dəyərlərin formalaşdırılması.

Şagirdlərin qiymətləndirilməsi üçün dəqiq meyarlar işlənib hazırlanmalıdır. Meyarlar bilik və bacarıq, o cümlədən, informasiyanı aydın təqdim etmək bacarığı və məntiqi təfəkkür qabiliyyəti kimi göstəricilərin inkişafını əks etdirməlidir. Şagirdlərin özləri də qiymətləndirmə meyarlarını bilməlidirlər ki, onlardan nə gözlənildiyini təsəvvür etsinlər. Yerinə yetirilmiş ev tapşırığının "əla", "yaxşı", "kafi" qiymətləndirilməsi meyarlarını şagirdlərin özlərinin müəyyənləşdirməsi prinsipial məsələdir. Qiymətləndirmə "əks-əlaqə"nin yaradılmasına kömək etməli, yəni şagirdlərə və müəllimlərə bir-birini daha yaxşı başa düşməkdə yardım göstərməlidir. Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən, onun qruplardakı işinin qiymətindən və müəllimin verdiyi qiymətdən toplanaraq yarana bilər.

Ola bilsin ki, bəzi dərslərdə müəllim tərəfindən biliyin yekun qiymətləndirilməsi nəzərdə tutulmur və qiymət qoymaq tövsiyə edilmir. Lakin onlar kiçik məktəblilərin refleksiya, yəni suallara cavablar, müzakirələr vasitəsilə özünüqiymətləndirməsinə yol açır. Şagirdlərin öz fəaliyyətinin qiymətləndirilməsinə cəlb edilməsi çox vacibdir, çünki bu iş məktəbliləri öz davranışına daha məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivliyin tərbiyə edilməsinə yardımçı olur, öz münasibətlərini düzlük və qarşılıqlı anlaşma prinsipləri əsasında qurmağı öyrədir.Dərsə aşağıdakı suallar yazılmış kiçik anketin köməyi ilə yekun vurmaq mümkündür:

- Dərsdə sizin ən çox xoşunuza gələn nə oldu?
- Daha çox xoşlamadığınız nə idi?
- Vəziyyətin yaxşılaşması üçün nə təklif edirsiniz?

İbtidai siniflərdə şagirdin qrupdakı işini necə qiymətləndirməli?

Müəllim bütövlükdə qrupun aldığı balların miqdarını müəyyən edir. Məsələn, dörd nəfərdən ibarət qrupa 20, üç nəfərlik qrupa 15 bal verilir. Şagirdlər bu balları hər kəsin ümumi naliyyətdəki roluna, verdiyi töhfəyə əsasən (yaş səviyyəsindən asılı olaraq) müstəqil olaraq bölüşdürürlər. Qrupdakı işə görə alınmış ballara sinifdə aparılmış diskussiyada iştirak üçün müəllim tərəfindən verilmiş mükafat balını da əlavə etmək zəruridir. Balların yekunu xüsusi jurnala yazılır. Orijinal cavablara görə daha üç bal vermək olar. Rübün və ilin sonunda balların yekunu reytinq qiymətini təşkil edir ki, bu da ibtidai sinif şagirdlərinin düşünmək və öz fikirlərini şifahi ifadə etmək, diskussiyada təşəbbüsü öz üzərinə götürmək qabiliyyətini əks etdirir. Şagirdlər bir-birinin biliklərini qiymətləndirməklə sinif yoldaşına öz səhvlərini aradan qaldırmaqda kömək edə bilərlər.

Dərslərin qiymətləndirilməsi zamanı əsas diqqət təkcə informasiyasının mənimsənilməsinə deyil, həm də cəmiyyətin həyatında bir vətəndaş kimi iştirak etmək üçün zəruri olan bacarıqların mənimsənilməsinə yönəlir. Müasir vətəndaş cəmiyyətində bu bacarıqlar fəaliyyətin dörd növündə cəmlənir: tədqiqat; kommunikasiya; qərar qəbulu; fərdi və kollektiv fəaliyyətin təşkili.

Qeyd edək ki, şagirdlərin həm fiziki, həm zehni yüklənməsinin qarşısını almaq məqsədilə ibtidai təhsil pilləsində formativ və summativ qiymətləndirmə aparmaq üçün yalnız Təhsil Nazirliyinin təsdiq etdiyi qiymətləndirmə vasitələrindən istifadə edilə bilər. Qiymətləndirmənin göstərilən qaydalar əsasında aparılması üçün müəllimlərlə yanaşı məktəb rəhbərləri də məsuliyyət daşıyır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı uzrə Dovlət Strategiyası. // Azərbaycan məktəbi, 2013, № 5.

2. Təhsil Qanunu. Bakı, 2021.

3. Azərbaycan Respublikasının umumitəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // Kurikulum, 2009, №2.

4. Cabbarov M. Təhsil sistemi milli dəyərlərə və peşəkar kompetensiyalara malik Azərbaycan vətəndaşı yetişdirməlidir. // Azərbaycan məktəbi, 2013, № 5.
5. Novruzov Q., Abbasov Ə. Ənənəvi təhsildən "Düşüncə və təfəkkür məktəbi"nə doğru. // Azərbaycan məktəbi, 2014, № 3.

XÜLASƏ

Məqalədə qiymətləndirmənin müasir aspektləri təhlil edilmişdir. Müasir qiymətləndirmənin məqsədi şagirdlərə "qiymət yazmaq" deyil, onların təlim prosesində idraki, emosional və psixomotor bacarıqlarınının inkişafına təklan verməkdən ibarətdir. Qiymətləndirmə prosesində müəllimlər düzgün vasitələr seçməli və meyarlara uyğun qiymətləndirmə aparmalıdır.

РЕЗЮМЕ

В статье анализируются современные аспекты оценивания. Цель современного оценивания - не «выставлять оценки» учащимся, а стимулировать развитие их когнитивных, эмоциональных и психомоторных навыков в процессе обучения. В процессе оценивания учителя должны выбрать правильные инструменты и провести оценивание в соответствии с критериями.

SUMMARY

The article analyzes modern aspects of evaluation. The purpose of modern assessment is not to "grade" students, but to stimulate the development of their cognitive, emotional and psychomotor skills in the learning process. In the assessment process, teachers must choose the right tools and conduct assessment in accordance with the criteria.

Məmmədova Həcər Elşad qızı
ADPU, Təhsildə qiymətləndirmə və monitorinq, II kurs magistrantı
Elmi rəhbər: Əliyev Ramiz

İBTİDAİ SİNİFLƏRDƏ RƏSMİ QİYMƏTLƏNDİRMƏ KİMİ SUMMATİV QİYMƏTLƏNDİRMƏNİN APARILMASI YOLLARI

Acar sozlər: *qiymətləndirmə, keyfiyyət, kurikulum, təlim nailiyyəti, meyarlar*
Ключевые слова: *оценивание, качество, курикулум, учебные достижения, критерии*
Key words: *assessment, quality, curriculum, teaching achievement, criteria*

Ümumtəhsil məktəblərində şagirdlərə sistemləndirilmiş bilik, bacarıq və vərdişlərin aşılanmasında ümumi təhsilin səviyyələri nəzərə alınmaqla, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə sistemin təkmilləşdirilməsi təhsilimizin konseptual sənədi olan təhsilin inkişafı üzrə Dövlət Strategiyasında başlıca vəzifələrdəndir.Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

İbtidai siniflərdə summativ qiymətləndirmə kiçikməktəblilərin bilik, bacarıq səviyyəsini müəyyənıəşdirməkdə yekun cəmləyici rolunda çıxış edir. Summativ qiymətləndirmə kiçik və böyük summativ qiymətləndirmədən ibarətdir. Kiçik və böyük summativqiymətləndirmə təlim prosesində müəyyən mərhələlərəyekun vurmaqla, müvafiq məzmun standartlarına uyğun qiymətləndirmə standartları əsasında hazırlanmış vasitələrlə şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır. Summativ qiymətləndirmənin nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılmasının müasir sisteminə görə orta ümumtəhsil məktəblərində I siniflərdə summativ qiymətləndirmə həyata keçirilimir. İkinci

sinifdən etibarən KSQ, yalnız IV siniflərdə BSQ həyata keçirilir. Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmələrin sonunda altı həftədən gec olmayaraq keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır.Kiçik summativ qiymətləndirmə vasitələri (tapşırıqlar, yazı işləri və s.) fənni tədris edən müəllim tərəfindən hazırlanır. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Kiçik summativqiymətləndirmənin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xana diaqonalla 2 yerə ayrılır və onun surətində "q" (qaib) yazılır, məxrəci isə boş saxlanılır. Müəllim həmin şagirdlə növbəti 2 həftə ərzində summativ qiymətləndirmə aparır və onun nəticəsini məxrəcdə qeyd edir. Kiçik summativ qiymətləndirmə kiçik "s" hərfiilə işarə edilir və aşağı indeksdə sıra nömrəsi yazılır. Məsələn: s1, s2, s2, ... sn

Böyük summativ qiymətləndirmə vasitələri (test və tapşırıqlar) ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi xüsusi komissiya tərəfindən hazırlanır.

➢Şagird I yarımildə böyük summativ qiymətləndirmədə iştirak etmədikdə, bir ay müddətində onun böyük summativ qiymətləndirmədə iştirakı təmin edilir.

➢Şagird II yarımildə üzrlü səbəbdən böyük summativ qiymətləndirmədə iştirak etmədikdə, II yarımillik qiyməti çıxarılarkən I böyük summativ qiymətləndirmədə aldığı qiymət həm də II böyük summativ qiymət hesab olunur.

➢Şagirdin üzrsüz səbəbdən iştirak etmədiyi II yarımildəki böyük summativ qiymətləndirmənin nəticəsi yarımillik qiyməti çıxarılarkən " 0 " qəbul edilir.

➢Əgər şagird I yarımildə böyük summativ qiymətləndirmədə üzrlü səbəbdən iştirak etməmiş və bir ay müddətində onun böyük summativ qiymətləndirmədə iştirakını təmin etmək mümkün olmamışdırsa, həmin şagirdin II yarımildə böyük summativ qiymətləndirmədə aldığı qiymət I yarımilin qiyməti olaraq hesablanır.

Qiymətləndirmə standartlarının təyin edilməsində imtahana əsaslanan metod vasitəsilə müvafiq siniflər üzrə milli səviyyədə yekun qiymətləndirmə (imtahan) keçirilir, nəticələr təhlil olunmaqla, standartlar təyin edilir.Məsələn:

• minimum - şagirdlərin 90 - 100 faizi tərəfindən nail olunan standartlar;

• yüksək - şagirdlərin ən yaxşı halda 30 faizi tərəfindən nail olunan standartlar.

Qiymətləndirmə standartlarının təyin edilməsində kurikulumyönümlü metoda daha çox üstünlük verilir. Bu metoda görə: qiymətləndirmə standartları milli kurikulumda əks olunmuş nailiyyətlərə uyğun hazırlanır və faktikiolaraq şagirdlərin nəyi bacardıqlarına dair ölçmələrə deyil, mütəxəssis mühakimələrinə əsaslanır. Bütün məktəblərin, müəllimlərin təmsil olunduğu təşkilatların müzakirələri əsasında standartlara düzəlişlər edilir və arzuolunan nailiyyət səviyyələrinə dair ortaq fikir yaranır.

Qiymətləndirmə standartları 4 səviyyə üzrə qiymətləndirmə sxemləri şəklində hazırlanır:

❖Birinci səviyyə - aşağı

❖İkinci səviyyə - orta

❖Üçüncü səviyyə - yüksək

❖Dördüncü səviyyə - ən yüksə.

1 - ci səviyyə ən aşağı, 4 - cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. 1 -ci səviyyə və 2 - ci səviyyə əksər şagirdlər, 3 – cü səviyyə və xüsusilə 4 - cü səviyyə isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək üçün qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:➢qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində testlərin məqsədəuyğunluğu (məhz "nəzər dətutulanı" qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);

➢səmərəlilik üçün hər sinif üzrə nisbətən az (< 10) və nisbətən çox (> 10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi.

Yekun (summativ) testlərdə bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin edilməsi:

❖1 - ci səviyyə üzrə suallar - 20 %

❖2 - ci səviyyə üzrə suallar - 30 %

❖3 - cü səviyyə üzrə suallar - 30 %

❖4 - cü səviyyə üzrə suallar - 20 %

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı uzrə Dovlət Strategiyası. // Azərbaycan məktəbi, 2013, № 5.

2. Təhsil Qanunu. Bakı, 2021.

3. Azərbaycan Respublikasının umumitəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // Kurikulum, 2009, №2.

4. Cabbarov M. Təhsil sistemi milli dəyərlərə və peşəkar kompetensiyalara malik Azərbaycan vətəndaşı yetişdirməlidir. // Azərbaycan məktəbi, 2013, № 5.

5. Novruzov Q., Abbasov Ə. Ənənəvi təhsildən "Düşüncə və təfəkkür məktəbi"nə doğru. // Azərbaycan məktəbi, 2014, № 3.

6. Abbasov Ə. Umumi təhsilin inkişaf perspektivləri. // Azərbaycan məktəbi, 2014.

XÜLASƏ

Məqalədə summativ qiymətləndirmənin müasir aspektləri təhlil edilmişdir. Summativ qiymətləndirmə şagirdlərin yekun qiymətləndirilməsi kimi bütöv tədis ilinin yekun nəticəsidir.Bu nəticə müəllim fəaliyyətinin də göstəricisidir.

РЕЗЮМЕ

В статье анализируются современные аспекты итогового оценивания. Суммативная оценка - это итоговый результат всего учебного года, а также итоговая оценка студентов. Этот результат также является показателем успеваемости учителя.

SUMMARY

The article analyzes modern aspects of summative assessment. Summative assessment is the final result of the whole academic year, as well as the final assessment of students. Thisresultisalsoanindicatorofteacherperformance.

Arifli Nərmin Elşən qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: p.ü.f.d.Məmmədova Ümhani

İBTİDAİ SİNİFLƏRDƏ YENİ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN MAHİYYƏTİ

Açar sözlər: *təlim, keyfiyyət, dəyər, müasir yanaşma, inkişaf, qiymətləndirmə*

Ключевые слова: *обучение персонала, качественный, стоит, современное подход, разработка, оценка*

Key words: *training, quality, worth, modern approach, development, evaluation*

İnsanlar hər zaman mahiyyətindən asılı olmayaraq gördüyü işin müqabilində müəyyən bir dəyərləndirmə gözləyir. Görülən işlərə verilən dəyər işgörəndə gördüyü işin keyfiyyətinə təsir etməkdə müstəsna rol oyanır. Dəyərləndirmə müxtəlif şəkildə həyata keçirilə bilər. Kiçik

yaşlı uşaqlar üçün ilkin dəyərləndirmə valideynləri tərəfindən rəğbətləndirlmə şəklində reallaşdırılır. Elə buna görədir ki, müasir təlimin əsas istiqamətlərindən biri məhz qiymətləndirmə hesab olunur.

"Uşaqlar bizim gələcəyimizdir!" deyən ulu öndərimiz Heydər Əliyevin sözlərini əsas götürərək qeyd edə bilərik ki, uşaqların təhsillənməsinə həm dövlət, həm də cəmiyyət olaraq xüsusi həssaslıqla yanaşmaq əsas vəzifələrimizdən olmalıdır. "Təhsil qanun"umuza görə hər bir şəxsin pulsuz, icbari təhsil almaq hüquqi dövlət tərəfindən təmin olunur. İstər müəllim, istərsə də, valideyn olaraq bizlərin də, əsas vəzifəsi uşaqların düzgün təhsil almasını təmin etməkdir. Azərbaycan Respublikasının təhsil sistemi müxtəlif yaş mərhələlərinə uyğun təhsil pillələri və səviyyələrini müəyyənləşdirmişdir. Ən son qəbul olunan (2019) "Təhsil qanunu"nda təhsilin pillələri və səviyyələri ardıcıl olaraq aşağıdakı kimi verilmişdir:

Təhsil pillələri: Məktəbəqədər, ümumi təhsil, peşə ixtisas təhsili, orta ixtisas təhsili, ali təhsil.

Təhsil səviyyələri: 0-3, 3-5 yaş, məktəbəhazırlıq-ibtidai-ümumi orta-tam orta, ilk peşə-texniki peşə-yüksək peşə, bakalavr-magistratura-doktorantura.

İbtidai təhsil səviyyəsi ümumi təhsil pilləsinin ikinci mərhələsini təşkil edir. 6-12 yaş aralığını əhatə edən bu mərhələ uşaqların gələcəkdə əldə edəcəkləri bilik və bacarıqlar üçün ilkin təməl rolunu oynayır. Bu dövr həm fiziki, həm psixoloji baxımdan şagirdlər üçün həssas, eyni zamanda mürəkkəbliyi ilə seçilir.

Valideynlərindən uzaq qalmaq, oyun fəaliyyətinin məhdudlaşdırılması, müəyyən vaxt müddətində verilən təlimatlar üzrə hərəkət etmək, şagirdlərə daha əvvəl məlum olmayan məsələlərin dərs mühitində öyrədilməsi və s. bütün bu və başqa məsələlər ibtidai sinif şagirdlərinin təlimə marağının azalması və adaptasiyasının uzun müddətli olmasına səbəb olur. Müəllim uşaqları stimullaşdırmaq, təlimə marağını təmin etmək, nailiyyət səviyyəsini yüksəltmək üçün qiymətləndirmədən düzgün şəkildə istifadə etməyi bacarmalıdır, çünki qiymətləndirmə təhsilalanlarla təhilverənlər arasında əks-əlaqəni təmin edən başlıca vasitədir.

2009- cu il 13 yanvar tarixindən Nazirlər Kabinetinin 9 saylı qərarı ilə qəbul edilmiş yeni "Qiymətləndirmə Konsepsiyası" ümumi təhsilin bütün səviyyələrində keyfiyyətə əsaslı surətdə təsir göstərmiş, inkişafa müsbət yönümlü istiqaməti ilə fərqlənmişdir. Bu konsepsiyaya əsasən, qiymətləndirmə mexanizmlərində bır sıra dəyişikliklər baş vermiş, qiymətləndirmə standarları, istiqamətləri, növləri, qiymətləndirmə vasitələri və qiymətləndirməyə qoyulan tələblər kimi çox vacib məqamlar geniş şəkildə araşdırılmışdır. Yeni qiymətləndirmə islahatı qiymətləndirməni milli, beynəlxalq və məktəbdaxili istiqamətlərdə həyata keçirməyə şərait yaratdı. Məktəbdaxili qiymətləndirmə ənənəvidən fərqli olaraq diaqnostik, summativ və formativ növlərdə ölkənin bütün tədris mərkəzlərində tədbiq olunmağa başladı.

İbtidai siniflərdə yeni qiymətləndirmə mexanixmi 2007-ci ildən başlayaraq sistemli şəkildə həyata keçirilişdir. Qiymətləndirmənin istiqamətlərindən daha çox məktəbdaxili qiymətləndirmə ibtidai təhsil səviyyəsindətətbiq edilir. Ölkə səviyyəsində təhsilin ümumi vəziyyətini müəyyənləşdirmək, mövcud problemləri araşdırmaq və həll yollarını tapmaq məqsədilə həyata keçirilən milli qiymətləndirmə ibtidai təhsildə, adətən, 4- cü siniflər arasında keçirilir. 4- cü sinif ibtidai təhsili bitirib ümumi orta təhsilə başlamaq üçün keçid rolunu oynadığından, şagirdlərin bu mərhələdə qazanmış olduqları bilik və bacarıqların səviyyələrini müəyyənləşdirmək həm məktəb üçün, həm də dövlətin təhsilə olan marağı baxımdan əhəmiyyətlidir. Belə ki, 2006-cı ildə 70 seçilmiş məktəb arasında aparılan milli qiymətləndirmə 4-cü sinif şagirdlərinin riyazıyyat və oxu üzrə biliyini ümumi şəkildə müəyyənləşdirməkdə əhəmiyyətli rol oynamışdır.

Beynəlxalq dərəcəli müqayisələr aparmaq, ölkəmizdə olan təhsil səviyyəsini digər ölkələrin təhsil səviyyəsi ilə müqayisəli təhlil etmək, irəliləməni və ya geriləməni izləmək məqsədilə hər 4-5 ildən bir keçirilən yeni qiymətləndirmə istiqaməti- beynəlxalq qiymətləndirmə də, ibtidai təhsil səviyyəsində 4-cü siniflər arasında keçirilir. TİMSS beynəlxalq tədqiqatı

1995-ci ildən etibarən 4-cü və 8-ci siniflərin riyaziyyat və elmi biliklərini araşdırmaq məqsədilə həyata keçirilmişdir. PİRLS 2016 tədqiqatının isə əsas məqsədi 4-cü sinif şagirdlərinnin oxu bacarıqlarını qiymətləndirmək olmuşdur.

Fənn üzrə təlimin hər hansı mərhələsində şagirdlərin ilkin bilik və bacarıqlarının səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılan yeni qiymətləndirmə növü olan diaqnostik qiymətləndirmə ibtidai siniflərdə təlimin keyfiyyətinin izlənilməsi və inkişafı baxımdan olduqca əhəmiyyətli hesab olunur. Diaqnostik qiymətləndirmənin aparılmasında əsas məqsəd şagirdlərin maraq dairəsi, dünyagörüşü,yaşadığı mühit və s. kimi amilləri nəzərə alaraq onlara differensial yanaşmanı təmin etməkdir. Bu qiymətləndirmə məktəb mühiti ili yeni tanış olan şagird və müəllim arasında əlaqələndirici rol oynayır, müəllimin təlimi planlaşdırmasında kömək etmiş olur. Diaqnostik qiymətləndirməni apararkən müəllim müxtəlif üsul və vasitələrdən istifaadə edə bilər. Bunlara: müsahibə, sorğu, tapşırıqlar və s. aid edə bilərik.

Təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarını formalaşdırmağa xidmət edən formativ qiymətləndirmə yeni qiymətləndirmə növləri arasında inkişafın izlənilməsi baxımdan xüsusi rol oynayır. Xüsusilə, kiçik yaşlı məktəblilərinin inkişafını izləmək, daim valideynlə əks-əlaqə yaratmaq, şagirdlərin təlimə olan marağını artırmaq baxımdan formativ qiymətləndirmə müəllimlərin ən yaxın köməkçisi hesab olunur. Fənn müəllimləri bu qiymərləndirməni müxtəlif vasitə və üsullarla həyata keçirə bilərlər. Misal üçün: müşahidə, şagirdlərin yazı işləri, test tapşırıqları və s.

Təhsilin hər hansı mərhələsində şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsi baxımmdan həyata keçirilən summativ qiymətləndirmə itidai təhsil səviyyəsində ümumi orta təhsil səviyyəsi ilə müqayisədə bir qədər fərqli şəkildə həyata keçirilir. Beləki, ibtidai təhsilin birinci sinifləri,ümumiyyətlə, summativ qiymətləndirmədə iştirak etmir, 2-ci və 3-cü sinif şagirdləri böyük summativ qiymətləndirmədə iştirak etməs də, kiçik sumativ qiymətləndirmədə iştirak edirlər. Summativ qiymətləndirmə müvafiq fənlər üzrə müxtəlif vasitəələrlə həyata keçirilə bilər. Məktəblərdə summariv qiymətləndirmə zamanı daha çox test tapşırıqlarından istifadə olunur. Qeyd etmək lazımdır ki, qiymətləndirmənin bu növü rəsmi xarakter daşıyır və jurnalda qeyd olunur.

Ədəbiyyat

1. M.Mərdanov "Təhsil sistemində monitorinq və qiymətləndirmə" Bakı, "Çaşığoğlu" nəşriyyat, 2003.
2. Aztehsil.com/kurikulum/808
3. https://anl.az.com

РЕЗЮМЕ

Образование - основа современного развития. фундамент хорошего образования закладывается в начальном образовании. Оценка - неотъемлемая часть обучения. поэтому особое внимание следует уделить оценке. Новая оценка сыграла ключевую роль в развитии нашего образования. Новая концепция оценивания важна с точки зрения решения проблем. Однако в оценке все еще есть пробелы. Благодаря ориентации государства на образование эти проблемы скоро будут решены.

SUMMARY

Education is the basis of modern development. The foundation of good education must be laid at the primary level. Assessment is an integral part of education. Therefore, special attention should be paid to evaluation. The new assessment reform has played a key role in the qualitative development of our education. The new assessment concept has been important in investigating existing problems. However, there are still some shortcomings in the assessment. The state`s attention to edication will soon find a solution to these problems.

Cahidzadə Təzəgül Mahir qızı
Elmi rəhbər: dos., p.ü.f.d. Əliyeva T.S.

MÜASİR QİYMƏTLƏNDİRMƏ TƏHSİLDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİNDƏ VACİB AMİL KİMİ

Açar sözlər: *təhsil, keyfiyyət, qiymətləndirmə, ənənəvi qiymətləndirmə, müasir qiymətləndirmə*
Ключевые слова: *образование, качество, оценка, традиционная оценка, современная оценка*
Key words: *education, quality, assessment, traditional assessment, modern assessment*

Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat proqramına və Təhsil Sektorunun İnkişaf Layihəsinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti 13 yanvar 2009-cu ildə "Azərbaycan Respublikasının Ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nı təsdiq etmişdir. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqlərinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülmüşdür. Təhsilin keyfiyyətinin dəqiq müəyyənləşdirilməsi və düzgün şəkildə idarə edilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.Şagird nailiyyətlərinin keyfiyyətini aşkar etmək üçün qiymətləndirmədən istifadə olunur. Düzgün şəkildə təşkil edilən qiymətləndirmə prosesi ölkədə təhsilin mövcud keyfiyyət səviyyəsini müəyyən etməyə kömək edir.

Ölkədə qiymətləndirmə konsepsiyası qəbul edilənə qədər ənənəvi qiymətləndirmədən istifadə olunurdu. Ənənəvi qiymətləndirmə aparılma formasına və üsuluna görə müasir qiymətləndirmədən tamamilə fərqlənir. Belə ki, ənənəvi qiymətləndirmə şagirdə rəqəmlə ifadə olunan qiymət yazmaq kimi qəbul olunurdu və şagird yalnız qiymət almaq, jurnalda və ya məktəbli kitabçasında "5" görmək üçün oxuyurdu. Lakin bundan fərqli olaraq müasir qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır. Ənənəvi qiymətləndirmədə cari qiymətləndirmə formalizmə gətirib çıxarırdı. Müəllimin subyektiv rəyinə əsaslanırdı. Müasir qiymətləndirmədə isə cari qiymətləndirmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir. Yəni artıq qiymətləndirmənin məqsədi "qiymət" yazmaq deyil, proqramın tələb etdiyi məzmun standartlarını tam mənimsətməkdir. Burada qiymətləndirmənin obyektivliyi gözlənilir, artıq müəllimlər şagirdləri özlərinin müəyyən etdiyi steorotiplərə əsasən qiymətləndirmir, hər birini öyrəndikləri mövzuya əsasən qiymətləndirir. Bundan başqa ənənəvi qiymətləndirmə tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilirdi. Yəni bu o deməkdir ki, dərsin sonunda müəllim öz jurnalında və yaxud məktəbli kitabçasında rəqəmlə ifadə olunan müəyyən qiyməti yazırdı. Müasir qiymətləndirmədə isə tədris prosesinin bütün mərhələlərində qiymət tətbiq edilir. Yəni, dərsin birinci mərhələsindən başlayaraq sonuncu mərhələsinə qədər müəllim formativ olaraq qiymətləndirməni təşkil edir və müəyyən meyarlara cavab verən şagirdləri dərsin istənilən mərhələsində qiymətləndirir. Bundan başqa ənənəvi qiymətləndirmədə əsasən bilik səviyyəsi qiymətləndirilir, bacarıq, dəyər və vərdişlər isə kənarda qalırdı. Lakin müasir qiymətləndirmədə şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir. Qiymətləndirmə standartları ənənəvi qiymətləndirmədə mövcud deyildi. Kortəbii olaraq müəllimlər özlərinin subyektiv fikirlərinə əsaslanaraq 2-dən 5-ə qədər olan qiymətləndirməni tətbiq edirdilər. Müasir qiymətləndirmədə məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyən edilmişdir. Ənənəvi qiymətləndirməyə nəzər saldıqda və ondakı çatış-

mazlıqları aşkarladıqdan sonra müasir qiymətləndirmə sisteminin yaradılması artıq bir zərurətə çevrildi və islahatlar aparıldı, həmin islahatların nəticəsində bu gün kurikulumla aparılan dərsin qiymətləndirilməsində uğurlaistifadə edilən Qiymətləndirmə Konsepsiyası təşkil edildi. Bu konsepsiyaya əsasən müasir qiymətləndirmənin üç istiqaməti müəyyən edilmişdir: 1.Məktəbdaxili 2. Milli 3. Beynəlxalq. Müvəffəqiyyətli və keyfiyyətli nəticə əldə etmək üçün bu qiymətləndirmə istiqamətlərinin hər biri təhsildə keyfiyyətin idarə olunmasında öz səmərəliliyi ilə fərqlənir.

Məktəbdaxili qiymətləndirmənin üç növü forması vardır: diaqnostik, formativ və summativ. Diaqnostik qiymətləndirmə təhsilalanların güclü və ya zəif cəhətlərinin müəyyənləşdirilməsi və təhlili üçün tətbiq olunan qiymətləndirmədir. Formativ qiymətləndirmə şagirdin təlim fəaliyyətinin daim izlənilməsidir. Bu qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Summativ qiymətləndirmə isə müəyyən mərhələyə-bəhs və ya bölmənin, yarım ilin sonunda yekun vurmaqla, qiymətləndirmə standartlarının səviyyəsində hazırlanmış vasitələrlə şagird nailiyyətlərinin səviyyəsini ölçmək məqsədilə həyata keçirilir.

Milli qiymətləndirmə təhsilin keyfiyyətinə nəzarət etək üçün müəyyən tədris dövrünün sonunda aparılan həyata keçirilən və şagird nailiyyətlərinin qiymətləndirilməsini təmin edən edən sistemdir. Milli qiymətləndirmə 4-cü və 9-cu sinif şagirdləri arasında obyektiv testlər, sorğu vərəqləri və müvafiq təlimatlar vasitəsilə,milli mütəxəssislər tərəfindən aparılır. İlk dəfə 2003-cü ildə aparılmışdır. Milli qiymətləndirmənin məqsədi şagirdlərin nailiyyətlərinin milli qiymətləndirmə sisteminin yaradılması, məzmun və qiymətləndirmə strategiyalarının, təlim strategiyalarının yaradılması üçün təkliflərin hazırlanması idi. COVİD-19 ilə bağlı dünya üzrə pandemiya elan edildikdən sonra Azərbaycanda da təhsil məsafədən təhsil formasına keçmişdir. Bu baxımdan ölkədə təhsilin vəziyyətini öyrənmək üçün19 dekabr 2020-ci il saat 14:00-dan başlayaraq "Virtual məktəb"də fənlər üzrə keyfiyyət dəyişikliklərini dəyərləndirmək məqsədilə milli qiymətləndirmə IV, VI və IX siniflərdə tədris dili, riyaziyyat və ingilis dili fənləri üzrə təşkil edildi. Qiymətləndirmədə iştirak etmək üçün "Virtual məktəb" platformasında "Teams -> General" bölməsindən "Testlər" altbölməsinə daxil olmaq və orada yerləşdirilən tapşırıqlara cavab vermək lazım gəlirdi. Qiymətləndirmə prosesində:IV sinif şagirdlərinə tədris dili üzrə 15, riyaziyyat üzrə 15 və ingilis dili üzrə 10 sual olmaqla, ümumilikdə 40 tapşırıq (qiymətləndirmənin müddəti – 1 saat 20 dəqiqə);VI sinif şagirdlərinə tədris dili üzrə 20, riyaziyyat üzrə 20 və ingilis dili üzrə 20 sual olmaqla, ümumilikdə 60 tapşırıq (qiymətləndirmənin müddəti – 2 saat); IX sinif şagirdlərinə tədris dili üzrə 30, riyaziyyat üzrə 30 və ingilis dili üzrə 30 sual olmaqla, ümumilikdə 90 tapşırıq təqdim olunmuşdur (qiymətləndirmənin müddəti 3 saat). Qeyd edək ki, sistemli tədqiqat şəklində aparılan mill qiymətləndirmənin məqsədi etibarlı məlumatların toplanması, təkliflərin verilməsi, problemlərin həlli üçün konkret istiqamətlərin müəyyənləşdirilməsi idi.

Beynəlxalq qiymətləndirmə tədqiqat xarakterli qiymətləndirmədir və təhsilin keyfiyyətinin beynəlxalq səviyyədə öyrənilməsi, ölkələrarası müqayisələrin aparılması məqsədilə aparılır. Azərbaycanın da iştirak etdiyi qiymətləndirmə proqramlarında şagirdlər beynəlxalq prioritetlər mövqeyindən qiymətləndirilir və tədqiqat nəticələri təhsilin inkişafı üçün müəyyən istiqamətlərin həyata keçirilməsinin vacib olduğunu təsdiq edir. Azərbaycan məktəbliləri təmsiledici məktəblərdən seçilməklə üç beynəlxalq qiymətləndirmə proqramında iştirak etmişdir: PİSA, TİMSS, PİRLS

Azərbaycan – PİSA-2006 tədqiqatı- PİSA tədqiqatında iştirak etməyin əsas səbəbi 15 yaşlı şagirdlərin müasir cəmiyyətdə tam fəaliyyət göstərməsi üçün zəruri olan təhsil,ümumi bilik və bacarıqlara malik olduqlarını aşkara çıxarmaq olmuşdur. 2006-cı ildə keçirilən və Azərbaycan məktəblilərinin də iştirak etdiyi PİSA- 2006 tədqiqatında dünyanın 57 ölkəsindən 400 minə yaxın 15 yaşlı şagirdinin təbiət elmlərinə olan münasibəti və marağı,əldə etdiyi biliklərdən istifadə etmək imkanları qiymətləndirilmişdir. PİSA--2006 tədqiqatının nəticələrinə görə təbiət elmləri hədəf fənn idi və ölkəmiz 382 balla 53-55-ci yerləri, oxu üzrə 353

balla 54-cü,riyaziyyat üzrə qabiliyyətlərin qiymətləndirilməsi baxımından 476 balla 32-35-ci yerləri tutmuşdur. PİSA-2009 tədqiqatında 65 ölkə şagirdləri qiymətləndirilmişdir. Tədqiqatda Azərbaycanın 162 əsas və orta ümumtəhsil məktəbi və peşə liseylərinin 4716 şagirdi iştirak etmişdir. Bu tədqiqatda qiymətləndirmədə iştirak edən ölkələrin oxu üzrə nəticələri maraqlı idi. Azərbaycan şagirdləri oxu savadı üzrə 64-cü yerdə qərarlaşmış və 362 bal; riyaziyyat üzrə 45-ci yerdə olmuş və 431 bal; təbiət üzrə isə 63-cü yeri tutaraq 373 bal toplamışdır. PİSA-2018 proqramında 79 ölkə, o cümlədən Azərbaycan şagirdləri iştirak etmişlər. Bu tədqiqatda həm Azərbaycan,həm də rus bölməsinin şagirdləri qiymətləndirilmişlər. Paytaxt məktəbliləri aprel ayının 2-ci və 3-cü ongünlüyündə və mayda PİSA-2018 tədqiqatında iştirak etmişlər. Azərbaycanı Bakı şəhərində yerləşən 197 ümumtəhsil məktəbindən 15 yaşlı 6827 şagird təmsil etmişdir. Azərbaycan 79 ölkə arasında 69-cu yerdə qərarlaşmışdır.

TİMSS və PİRLS qiymətləndirmə tədqiqatlarında Azərbaycan Respublikası məktəbliləri ilk dəfə 2011-ci ildə iştirak etmişlər.TİMSS 2011 tədqiqatında 63 ölkə (o cümlədən, Azərbaycan) iştirak etmişdir. Azərbaycan məktəblərindən yalnız 4-cü sinif şagirdləri qiymətləndirilmişdir və riyaziyyat üzrə 4-cü siniflər 463 bal toplayaraq 37-ci,təbiət elmləri üzrə isə 438 balla 41-ci yerdə qərarlaşmışdır. TİMSS 2019 (eTİMSS 2019) 24 il ərzində keçirilən qiymətləndirmənin 7-ci tədqiqatıdır. 2019-cu ilin aprel-may aylarında aparılmışdır və Azərbaycan qiymətləndirmə nəticələrinə görə 58 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır. PİRLS 2011 qiymətləndirmə tədqiqatı- 2010-cu ildə Azərbaycan sınaq mərhələsində olmuş, 2011-ci ildə isə ölkəmizin 169 ümumtəhsil məktəbində PİRLS tədqiqatının əsas mərhələsi keçirilmişdir. Tədqiqatda 4882 sayda 4-cü sinif şagirdləri iştirak etmişdir. Azərbaycan məktəbliləri qiymətləndirmədə 462 bal toplayaraq 37-ci yerdə qərarlaşmışdır. Azərbaycan - PİRLS 2016 tədqiqatı -Azərbaycan üzrə təsadüfi seçim əsasında qiymətləndirmə proqramında 170 ümumtəhsil məktəbi, 6 mindən çox dördüncü sinif şagirdi, 340 müəllim və 6 mindən artıq valideyn iştirak etmişdir. PİRLS tədqiqatında testləşmə ilə yanaşı sorğu da keçirilmişdir. Tədqiqatda Azərbaycan məktəblilərinin göstəriciləri 472 bal olmuş və 39-cu yerdə qərarlaşmışlar.

Nəticə olaraq bu qənaətə gəlmək olar ki,müasir qiymətləndirmə təhsildə müsbət dəyişiklikləri aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini,"şagirdin təlim nəticələri" haqqında etibarlı məlumat verilməsini, qiymətləndirmədə yeni yanaşmaların-məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini təmin edir.

Ədəbiyyat

1. Bayramova A.M., Zeynalova N.E. Ümumi təhsilin kurikulumun əsasları. Dərslik. Bakı, "Elm və təhsil", 2017.

2. Məmmədzadə R.H. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Müəllim nəşriyyatı, Bakı-2010.

3. Azərbaycan Respublikasının Ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası, Bakı, 2009

РЕЗЮМЕ

В итоге, можно увидеть как современное оценивание действует на качество образования. Выход из традиционного образования можно назвать и выходом из традиционного оценивания. Принятая новая Современная концепция позволила возвысить качество нашего образования как на национальной, так и на международной арене. Таким образом, основная цель, которой является развитие человеческого капитала нашла более качественное и удобное направление.

SUMMARY

As a result, the impact of modern assessment on the quality of education can be clearly seen. it was considered a departure from traditional education, as well as a departure from traditional assessment. The newly adopted Assessment Conception has made it possible to

improve the quality of our education both nationally and internationally. Thus, the development of human capital, which is the main goal, has taken a more favorable and qualitative direction.

Sadıqova Lalə Xıdır qızı
Elmi rəhbər: b/m, p.ü.f.d. Kərimova F.

TƏHSİLVERƏNLƏRİN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Açar sözlər: *müəllim, diaqnostik qiymətləndirmə, attestasiya*
Ключевые слова: *учитель, диагностическая оценка, аттестация*
Key words: *teacher, diagnostic assessment, certification*

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilverənlərin peşəkarlıq və təhsilalanların sərişt əlilik səviyyəsinin artırılmasına ciddi önəm verilir. Təhsilalanın səviyyəsinin təhsilverənin səviyyəsindən asılı olduğu üçün təhsil müəssisələrində çalışanların peşəkarlıq səviyyəsinin yüksəldilməsi hədəf kimi qarşıya qoyulur. Təhsil sistemində aparılmış çoxlu sayda tədqiqatlar göstərir ki, şagirdlərin nailiyyətlərinə ən çox təsir göstərən müəllimdir. Müəllim tərəfindən idarə olunan tədris prosesinin, təhsil və inkişafın imkanları şagirdin gələcək həyat yoluna əhəmiyyətli dərəcədə təsir edir. Hər bir şagirdinin qabiliyyətinin, yaradıcılığının mükəmməl gerçəkləşdirilməsi üçün müəllimin də şagirdləri kimi hər gün inkişaf etməsi zəruridir. Bu isə, öz növbəsində, müəllimin şəxsi praktiki fəaliyyətinə münasibətini, onun fəaliyyətinin monitorinqini nəzərdə tutur.

Məktəbin, ümumilikdə bütün tipdən təhsil müəssisələrinin əsas vəzifəsi təhsilin keyfiyyətini yüksəltməkdən, keyfiyyətli təhsil verməkdən, bu gün sabahın tələblərinə cavab verən mütəxəssis yetişdirmək üçün əməli fəaliyyət göstərməkdən ibarətdir. Müəllimlərin qiymətləndirilməsi sisteminin başlıca məqsədi müəllimlərin fasiləsiz inkişaf etməsi və peşəkarlığın artırılması yolu ilə şagirdlərin nailiyyətlərinin yüksəldilməsidir. Müəllimlərin qiymətləndirilməsi sistemi məktəbin və tədrisin keyfiyyətinin idarə edilməsinin ən əhəmiyyətli elementidir. Çünki, o, məktəbdə tədrisin və təhsilin keyfiyyətinə və nailiyyətlərə istiqamətlənmiş mühitin yaranmasına, müəllimləri onların fəaliyyətləri haqqında gözlənilən nəticələrlə tanış etməyə, məktəbdə şagirdlərə yönəlmiş tədris prosesinin yaradılmasına, müəllimlərin hesabat vermə öhtəliyinə, sinif otağında şəxsi fəaliyyətinə və şagirdlərin nəticələrinə cavabdehliyin artmasına səbəb olur. Müəllimlərin peşəkar inkişafı tələbatlarının aşkar edilməsinə səbəb olur, qiymətləndirilən, qiymətləndirənlər və müəllimlər tərəfindən şagirdlərin nəticələrinin və müəllimin praktikasına cavabdehliyə, məsuliyyətə şərik olmasına səbəb olur. Fasiləsiz inkişaf və peşəkarlığın artırılması müəllimin fəaliyyətinin monitorinqini, analizini, göstəricilərə əsaslanan və təfərrüatlı-hərtərəfli əks-əlaqənin verilməsini nəzərdə tutur. Dövlət ümumtəhsil müəssisələrində çalışan müəllimlərin, psixoloqların və ümumi təhsil fənlərini tədris edən digər pedaqoji heyətin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması artıq illərdir baş tutur.

Təhsilverənlərin qiymətləndirilməsi sistemi pedaqoqların effektliliyinin artırılmasının ən əhəmiyyətli mexanizmlərdən birini təşkil edir. Hərçənd, onun qeyri-düzgün həyata keçirilməsi zamanı onun varlığı arzuolunmaz nəticələr ortaya çıxara bilər və tədris prosesinə zərər verə bilər. Müəllimlərin qiymətləndirilməsi sistemi müəllimin peşəkar standartına əsaslanmalıdır və peşəkarlaşmanın müxtəlif səviyyələrində olan müəllimlərin identifikasiyasına və qiymətləndirilməsinə imkan verməlidir. Qiymətləndirmə prosesi müəllim üçün faydalı, layiqli əks-əlaqədən ibarət olmalıdır, bunlar isə müəllimin məqsədləri, ehtiyacları və müvafiq peşəkar inkişafının başqa-başqa imkanları ilə əlaqədar olmalıdır. Peşəkar inkişafın imkanları həm peşəkar inkişafın formal-rəsmi tədbirlərini, həm də məktəb bazasında peşəkar inkişafın aktivliklərini və müəllimlərin əməkdaşlığını özündə cəmləşdirməlidir. Müəllimlərin qiymətləndirilməsi prosesində təcrübəli və ekspert müəllimlər iştirak etməlidir. Müəllimlərin diaqnostik qiymətləndirməsindəki məqsədlər müəllimlərin bilik və bacarıq səviyyəsinin test üsulu

ilə müəyyənləşdirilib üzə çıxarılması, bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü normasının optimallaşdırılması, aylıq vəzifə maaşlarının artırılması, nəticələrdən asılı olaraq müəllimlərin inkişafyönümlü təlimlərə cəlb edilməsidir. Müəllim ona həvalə edilmiş işin keyfiyyətinə və nəticələrinə görə hər bir təhsilalanın intellektual, emosional, mənəvi inkişafı üçün məsuliyyət daşıyır. Müəllim pedaqoji etika və əxlaq normalarına riayət edir, müəllimnüfuzunu yüksək tutur, ziyalılıq nümunəsi göstərir.

Müəllimin professionallığının, ustalığının qiymətləndirilməsi metodikası müəllimlərin, habelə tədris müəssisələrinin attestasiyası adlanır. Attestasiyada məqsəd, müəllimin tutduğu vəzifəyə yararlı olub-olmadığını müəyyənləşdirmək və onun kvalifikasiya kateqoriyasını müəyyənləşdirməkdir. Attestasiya zamanı təhsil müəssisəsində təhsilin məzmun və keyfiyyətinin dövlət standartlarına uyğunluğu, tədris plan və proqramlarının yerinə yetirilməsi, təhsil alanların ayrı-ayrı fənləri mənimsəmə səviyyəsi və dövlət imtahanlarının nəticələri, təhsil müəssisəsinin attestasiyası üçün yaradılmış komissiya tərəfindən təhsilalanların biliyinin attestasiyasının yekunları, tədrisin elmi, pedaqoji, elmi-metodik təminatı, pedaqoji kadrların yerləşdirilməsi, onların ixtisas xüsusiyyətləri, təhsil müəssisəsinin tibbi-sosial şəraiti, maddi-texniki bazası, inkişaf dinamikası və s. məsələlər öyrənilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
2. Məktəb bazasında müəllimləri qiymətləndirmə sistemi. Tbilisi-2015.
3. https://edu.gov.az/upload/file/teqdimat/2016/01.pdf
4. https://www.muallim.edu.az/www.old/arxiv/2015/38/03.htm

РЕЗЮМЕ

Система оценки учителей - один из важнейших механизмов повышения эффективности педагогов. Однако его неправильное выполнение может привести к нежелательным последствиям и навредить учебному процессу. Система оценки учителей должна быть основана на профессиональных стандартах учителей и должна позволять выявление и оценку учителей с разными уровнями профессионализма. Процесс оценки должен состоять из полезной, соответствующей обратной связи для учителя, которая должна быть связана с целями, потребностями учителя и различными возможностями для соответствующего профессионального развития.

SUMMARY

The teacher evaluation system is one of the most important mechanisms for increasing the effectiveness of educators. However, its improper implementation can lead to undesirable consequences and damage the teaching process. The teacher evaluation system should be based on the teacher's professional standard and should allow for the identification and evaluation of teachers at different levels of professionalism. The assessment process should consist of useful, appropriate feedback for the teacher, which should be related to the teacher's goals, needs, and different opportunities for appropriate professional development.

Şahlarlı Ayşən
Magistrant
Elmi rəhbər: b/m,p.ü.f.d.Mənsurə İsmayılova

MÜASİR TƏHSİL MÜHİTİ VƏ RƏQABƏTQABİLLİK

Açar sözlər: *müasir, təhsil, mühit, rəqabət,insan kapitalı, inkişaf*

Ключевые слова: *современность, образование, окружающая среда, конкуренция, человеческий капитал, развитие*

Key words: *modern, education, environment, competition,human capital, development*

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə üzvi bağlılığı olmuşdur. Buna görə də böyüyən nəslin maarifləndirilməsi ən qədim fəaliyyətlərdən biri hesab olunur. Ola bilsin ki, bəzi cəmiyyətlər təhsil fəaliyyəti və qurumları üçün kifayət qədər resurs səfərbər edə bilməsin, ancaq hamı təhsilin ictimai həyatda mərkəzi rolunu qeydşərtsiz qəbul edir. Təhsilin əhəmiyyəti bir çox amillərlə bağlıdır. Məsələn, aydındır ki, uşaqlar həyata ilk addımlarını atanda oxunu, yazını və hesabı bilmirlər, yaşadıqları icmanın və toplumun əxlaq normaları və mədəni nailiyyətləri haqqında xəbərsiz olurlar. Peşəkar müəllimlərin səyləri və ailədəki təlim-tərbiyənin, həmçinin müasir dövrdə kütləvi media vasitələrindən və internetdən irəli gələn imkanların sayəsində böyüyən nəsil cəmi bir neçə il ərzində oxumağı, yazmağı, hesablamağı, öz ətraf mühitini, əxlaq-davranış normalarını öyrənir. Bu baxımdan müəllimlər və təhsilalanlar üçün dövrün tələblərinə uyğun olan bir təhsil mühitinin mövcudluğu da geniş imkanlar açır.Təhsil müəssisələrində inkişaf üçün əlverişli bir mühitin yaradılmasının başlıca xüsusiyyətlərindən biri demokratikləşmədir. Bu zaman hüquq, səlahiyyət və vəzifələr təhsil prosesinin bütün iştirakçıları arasında bölüşdürülür. Deməli, müasir dövrün təhsil mühiti hər bir iştirakçının təhsilin inkişafında maraqlı olmasını tələb kimi irəli sürür. Günümüzdə bu mühitin formalaşması üçün təhsil sistemindəyenilikçi fəaliyyətlər-təhsilin məzmununun, iş metodlarının və formalarının yenilənməsi və s. ilə bağlı müxtəlif işlər həyata keçirilir. Təsadüfi deyil ki, təhsil prosesinin bütün iştirakçıları üçün yeniliklərə açıq olan bir mühit yaratmaq həm də təhsil müəssisəsinin fəaliyyətinə yeni yanaşmanın və yeni idarəetmənin müəyyənləşdirilməsini zəruri edir. Aparıcı yer bu halda həm təhsilalanların, həm də müəllimlərin idarəetmə fəaliyyətlərini stimullaşdırmağa verilir. Mənəvi təşviqlərlə yanaşı, maddi mükafatların (təhsilalanlar üçün mükafatlar, yenilikçi təhsil fəaliyyətləri üçün müəllimlərin maaşlarında artım və s.) tətbiq edilməsi də məqsədəuyğun hesab olunur. Artıq nəzarətin də mahiyyəti dəyişir. Yuxarıdan ciddi nəzarət bir qədər özünüidarə rejiminə keçir. Bu son zamanlartəhsil mühitində prioritetlərin kəskin şəkildə dəyişməsi ilə bağlıdır. Müasir təhsil mühitindəbütün subyektlərinqabiliyyətlərinin məqsədyönlü,intensiv və kompleks inkişafı başlıca vəzifələrdən biri hesab olunur. Təhsilin modernləşdirilməsi təhsil müəssisələrini yalnız təhsilalanlar tərəfindən müəyyən miqdarda biliklərin mənimsənilməsinə deyil, həm də şəxsiyyətinin, idrak və yaradıcılıq qabiliyyətlərinin inkişafına yönəldir. Bir sözlə, artıq yeni yanaşmanın təbliğatının aparılması lazım gəlir. Yeni informasiya texnologiyaları da bu istiqamətdə təhsil mühitinin inkişafına kifayət qədər müsbət təsir göstərən amildir. Cəmiyyətin bütövlükdə məlumatlandırılması prosesləri, şübhəsiz ki, müasir təhsil müəssisəsinin praktikasında öz əksini tapmalıdır. Qloballaşan dünya reallıqları ali təhsil sistemində də bir sıra yeni prioritetlərin gündəmə gəlməsi ilə səciyyələnir. Yeni prioritetlərdən bəhs edərkən söhbət universitetlərin sürətlə dəyişən reallıqlara adekvat cavab verməsindən, yüksək rəqabətli, peşəkar, hazırlıqlı tədqiqatçıların hazırlanması sahəsində fəaliyyətini gücləndirilməsindən gedir. Ali təhsildə rəqabətliliyin təmin olunması isə, ilk növbədə, universitetlərdə aparılan elmi tədqiqatların səviyyəsindən, yeni akademik mühitin yaradılmasından, gənc tədqiqatçılar nəslinin yetişdirilməsindən bilavasitə asılıdır. Həmçinin, keyfiyyətin təminatı sistemi kimi akkreditasiya mexanizmlərinin təkmilləşdirilməsi, o cümlədən beynəlxalq akkreditasiyadan keçmiş ali təhsil proqramlarının sayının artırılması, ali təhsil sahəsində tələbə-sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi də aktual mövzu olaraq qalmaqdadır.Elm sahəsində növbəti illərdə də həyata keçiriləcək əhəmiyyətli təşəbbüslərdən biri ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın planlaşdırılmasıdır. Bu baxımdan bir sıra universitetlərdə bu yeniliyin tətbiqi ilə bağlı müəyyən hədəflərə nail olunmalıdır.Universitetin təhsil mühitində rəqabətə davamlı olması onun rəqabətqabiliyyətli insan kapitalına sahib olmasından çox asılı olur.Bu zaman belə bir sual ortaya çıxır.Hazırda bu yenilikləri ölkəmizdə reallaşdıra biləcəklazımi potensiala malik gənc kadrlarımız kifayət qədərdirmi?Zənnimcə,bu məsələ hal-hazırda kadr hazırlığında diqqət yetirilməsi gərəkən əsas və başlıca mövzudur.İşçi qüvvənin kəmiyyət deyil,keyfiyyət baxımından arzuolunan olması

inkişafa xidmət edən amillərdən biri kimi daima diqqət mərkəzində olmalıdır.Yalnız ixtisas üzrə lazımi biliyə yiyələnmək heç də uyğun fəaliyyət sahəsində uğurlu fəaliyyətə zəmanət deyildir.Uğurlu fəaliyyət üçün hər bir gənc kadr hərtərəfli özünüinkişafa can atmalı,daim öz üzərində çalışmalıdır. Əgər əvvəllər yaradıcılıq yalnız bir qrup insanlardan gözlənilirdisə,hal-hazırda bu göstərici hər bir insanın qarşısında duran fundamental inkişaf faktoruna çevrilib.Bu səbəblə də bir çox ölkələrdə cəmiyyətin təfəkkürünün bu prosesə hazır olması üçün müəyyən işlər görülür. Ölkəmizdə də bu istiqamətdə işlərin həyata keçirilməsində hər bir gənc kadr iştirak etməli və qabaqcıl təcrübənin öyrənilməsində həvəskar olmalıdır.Belə olduqda artıq müasir təhsil mühiti hər bir şəxsiyyətin formalaşmasını təmin edən, onun peşə hazırlığı keyfiyyətinin modernləşdirilməsində, yeni müasir təməl bilik, bacarıq və vərdişlərinin formalaşmasında və inkişafında aparıcı rol oynayan şərtlərin qarşılıqlı əlaqəsini əks etdirər. Unutmaq olmaz ki, keyfiyyətli təhsil insanlara öz potensialını inkişaf etdirərək həyata keçirmək, əməyin məhsuldarlığını artırmaq imkanı verir, cəmiyyətdə ədalət və bərabərliyin təmin edilməsi üçün zəmin yaradır. Rəqabətqabilli kadrların üstünlük təşkil etdiyi cəmiyyət insanların ictimai fəaliyyətinə və sosial məsuliyyətinə də yeni tələblər irəli sürür və nəticədə "təhsilli insan" anlayışı da yeni məna kəsb edir. Artıq bütün sahələrdə baş verən sürətli dəyişikliklər, təhsil sahəsində atılan addımların müasir tələblər, eləcə də gələcəyin perspektivləri üzərində köklənməli olduğunu göstərir. Bu isə o deməkdir ki, yeni bilik və bacarıqlar əldə etmək, cəmiyyətimizi, gələcəyimizi qurmaq və qorumaq naminə hər birimiz yetərli qədər səy göstərməliyik.

Ədəbiyyat

1.Bayramov Ə., Əlizadə Ə. Psixologiya. II nəşr. Bakı: Elm, 2002, 357 s.
2.Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı, «Nurlan», 2007, 568 s.
3.Kazımov N. Ali məktəb pedaqogikası. Bakı: Təhsil, 478 s.
4.Paşayev Ə., Rüstəmov F.A. Pedaqogika. Bakı: Çaşıoğlu, 2002, 270 s.
5.Sadıqov F.B. Pedaqogika. Biznes Universitetinin nəşri. Bakı: Elm, 2006, 289 s.
6.Dewey John. Democracy and Education. İntroduction to the Philosophy of Education. Free Press: N9.1997

XÜLASƏ

Müasir dövrün çağırışlarına uyğun olaraq dünyada təhsilin inkişaf tendensiyaları dəyişməkdədir. Hazırda süni intellekt həyatımızın və məişətimizin bütün sahələrinə nüfuz etməkdədir. Cəmiyyət yeni sənaye və texnoloji inqilab ərəfəsindədir və təhsil sistemi bu reallığa hazır olmalı, gənc nəsli müasir dövrdən bir qədər fərqlənəcək gələcək dövrə hazırlamaq üçün onlara yeni kompetensiyalar, və peşələr verməlidir. Dövlət və özəl sektorlar, təhsil müəssisələri və bütün cəmiyyət səylərini bu məqsəd ətrafında cəmləşdirməlidir. Yalnız birgə təşəbbüslər və fəaliyyətlər nəticəsində keyfiyyətli və rəqabətqabiliyyətli insan kapitalı formalaşdırmaqla ölkəmizin tərəqqisinə nail olmaq olar.

РЕЗЮМЕ

Тенденции развития образования в мире меняются в соответствии с вызовами современности. В настоящее время искусственный интеллект проникает во все сферы нашей жизни и быта. Общество находится на пороге новой промышленной и технологической революции, а система образования должна быть готова к этой реальности, дать им новые компетенции, специальности и профессии, чтобы подготовить молодое поколение к будущей эпохе, которая будет кардинально отличаться от современной. Государственный и частный секторы, органы образования, образовательные учреждения и все общество должны сосредоточить свои усилия вокруг этой цели. Только путем формирования качественного и конкурентоспособного человеческого капитала в результате совместных инициатив и деятельности можно добиться прогресса нашей страны.

SUMMARY

In accordance with the challenges of modern times, trends of development of education in the world are changing. At present, artificial intelligence is penetrating into all spheres of our lives and lives. The society is on the eve of a new industrial and technological revolution, and the education system must be ready for this reality, and the younger generation must give them new compartments, specialties and professions to prepare for the future, which will be sharply different from the modern era. The public and private sector, educational institutions, educational institutions and the whole society should concentrate their efforts around this goal. Only through joint initiatives and activities can you achieve your progress through quality and competitive human resources.

Aslanova Hakimə Rəfail qızı
ADPU, I tədris ili magistrantı
Elmi rəhbər: p.ü.f.d. Kərimova Firəngiz Yəhya qızı

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ PEDAQOJİ PROSESİN TƏRƏFLƏRİNİN FƏALİYYƏTİNİN MONİTORİNQİ

Açar sözlər: *monitorinq, qiymətləndirmə, müəllim, şagird, nəzarət, fəaliyyət*
Ключевые слова: *мониторинг, оценка, учитель, ученик, наблюдение, деятельность*
Key words: *monitoring, evaluation, teacher, student, supervision, activity*

Monitorinq ingilis sözüdur və izləmək, müşahidə aparmaq mənasını verir. Bu termin son dövrlərdə sosiologiya, biologiya, iqtisadiyyat və səhiyyə sahəsində daha geniş istifadə olunur. Ötən əsrin 90-cı illərindən etibarən təhsil sferasında aparılan eksperimentlərin, tətbiq olunan yeniliklərin səmərəlilik və effektivlik faizini artırmaq, nəticələrin mütəşəkkil izlənilməsi, proqnozlaşdırılması və inkişafyönümlü işlərin vaxtında aparılması məqsədi ilə monitorinqin təhsil sistemində geniş tətbiq olunmasına başlandı."Təhsildə monitorinq – təhsil sistemi və ya onun ayrı-ayrı komponentlərinin idarəetmənin informasiya təminatı baxımından vəziyyətlərinin müəyyənləşdirilməsinə və onların inkişafının proqnozlaşdırılmasına yönələn məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması sistemidir. " [1;s.35] Başqa cür yanaşsaq, monitorinq hər hansı bir fəaliyyətin irəliləməsi dövri olaraq izləmək, verilənləri və məlumatları sistematik olaraq toplamaq və təhlil etməkdən ibarətdir. Burada dövri izləmə dedikdə, fəaliyyətin xüsusiyyətindən asılı olaraq gündəlik, həftəlik, aylıq, rüblük və illik izləmələr nəzərdə tutulur. Monitorinq hesabına qarşıya qoyulmuş hədəflərin, planlaşdırılmış işlərin nəzərdə tutulduğu kimi həyata keçirilib-keçirilmədiyi müəyyən olunur. Qeyd etdiyimiz kimi, monitorinq dövri olaraq təkrarlanan bir işdir. Monitorinq proseslərin, təcrübələrin və nəticələrin sənədləşdirilməsinə imkan verir ki, buda gərəkli qərarların verilməsində, məktəbin və pedaqoji prosesin idarə olunmasında, şagird fəaliyyətinin istiqamətləndirilməsində əsaslı rol oynayır. Monitorinq vasitəsilə toplanan məlumatlardan təhsilin bütün istiqamətlərində müvafiq olaraq istifadə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, monitorinq və qiymətləndirmə bir-biri ilə qarşılıqlı vəhdətdədir, onları ayrı təsəvvür etmək doğru olmazdı. Monitorinq vasitəsilə əldə olunan məlumatlar qiymətləndirmənin aparılması üçün zəmin rolunu oynayır. Şagirdlərin fəaliyyətinin izlənilməsi zamanı yalnız monitorinqlə kifayətlənmək olmaz, sözsüz ki, qiymətləndirmə mütləqdir. Bu fikrin əksini də fikiləşsək, yanılmarıq. Başqa cür desək, qiymətləndirməsiz monitorinq, monitorinqsiz isə qiymətləndirmə aparmaq mümkün olmaz. Qiymətləndirmə daha çox vaxt və xərc tələb etdiyindən onun monitorinqlə birgə tətbiqi daha faydalı hesab olunur. Monitorinq və qiymətləndirmə fəaliyyətdə müsbət və mənfi dəyişikləri görmək və istiqamətləndimək üçün güclü bir vasitədir.

İlk gündən düzgün təşkil olunmuş, hesabatlılıq və şəffaflığı özündə birləşdirən müəyyən müddət çərçivəsində nəzərdə tutulmuş standartlar əsasında təşkil olunmuş monitorinq təhsilin keyfiyyətinin artırılmasında əsaslı rol oynayır. Təhsildə monitorinqlər əvvəlcədən təyin olunmuş göstəricilərə və hədəflərə çatmaq, davamlı dəyişiklikləri və tərəqqini müəyyən etmək üçün müntəzəm olaraq aparılır. Monitorinqlər xüsusi səlahiyyətli şəxslər tərəfindən mütəşəkkil formada aparılır. Həmin şəxslər fəaliyyətin gedişində olan dəyişiklikləri qeyd edirlər ki, bu da nəzərdə tutulmuş fəaliyyətin uğurla reallaşıb-reallaşmadığını ayırd etməkdə xüsusi rol oynayır. Həmçinin, boşluqları müəyyənləşdirib mütəmadi həllər hazırlamağa da imkan verir.

Ümumtəhsil məktəblərində aparılan monitorinqlərin əsas istiqamətləri sırasında pedaqoji prosesin tərəflərini-müəllim və şagirdlərin fəaliyyəti dayanır. Ümumitəhsil məktəblərində dövlət tərəfindən müəyyənləşmiş standartlar əsasında şagirdlərdə onların ömür boyu inkişaflarını təmin edə biləcəkləri bilik, bacarıq və vərdişlərin formalaşması müasir təhsilin əsas qayəsidir. Ümumi təhsilin hər səviyyəsi üzrə nəticələrin daha yaxşı olması məqsədi ilə «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası »nın hədəf istiqamətlərindən biri də şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi üzrə işin daha da təkmilləşdirilməsi, təhsil müəssisələrində keyfiyyətin monitorinqi və qiymətləndirmə mexanizminin yaradılmasıdır.

"Monitorinq sistemi özündə:

-təhsil pillələrinin bir neçə son ilini əhatə edən müntəzəm və yekun nəticələrin indikasiyası (əksetdirmə);

-öyrənənlərin təlim nəticələrinin toplanması;

-təlim prosesində subyektin öyrənmə dinamikasının qiymətləndirilməsi kimi elementləri birləşdirir. "[2; s.218]

Şagirdlərin fəaliyyətinin monitorinqi onların mövcud bilik səviyyələrinə nəzarət etməyə və təlimi gərəkli istiqmətlərə yönləndirməyə zəmin yaradır.Bundan əlavə, bütün sinifin və hər bir şagirdin problemli cəhətini aşkarlamağa imkan verir. Məhz buna görə də,hər bir tədris ilinin əvvəlində iki həftə ərzində şagirdlərdə ilkin diaqnostika aparmaq məqsədə uyğun hesab olunur. Eyni şəkildə məktəbini dəyişən şagirdlərdə də bu müddətdə monitorinq aparmaq gərəkli hesab olunur. Başlıca məqsəd təlim prosesində yarana biləcək çətinlikləri əvvəlcədən aşkarlamaq və bu çətinlikləri minimum vəziyyətə gətiməkdir. Əlavə olaraq qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərində monitorinqin aparılması sonda siniflərin və ayrı-ayrılıqda şagirdlərin reytinqli qiymətini formalaşdırır, yəni məzunların sonrakı təhsil fəaliyyəti, ümumtəlim bacarıqlarının formalaşması səviyyəsi monitorinqlərin sayəsində məlum olur.

Şagirdlərin təlim fəaliyyətlərinin monitorinqinin aparlması ilə yanaşı, onların psixoloji inkişafları, sağlamlıq vəziyyətləri də təhlil olunur.

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası »nın hədəf istiqamətlərindən biri də təhsilverənlərin peşəkarlığının artırılmasıdır. Bu məqsədlə də hər kəsə məlum olduğu kimi mütəmadi olaraq müəllimlərin sertifikasiyası keçirilir. Müəllimlərin peşəkarlıq səviyyəsi dedikdə onların yalnız ixtisaslarına dair bilikləri və fənnin tədrisi metodikasını yaxşı bilmələri nəzərdə tutulmur. Müəllim həmçinin hərtərəfli bilik və bacarığa sahib olmaqla yanaşı özündə müsbət insani keyfiyyətləri birləşdirməlidir. Dəyişən dövrün tələbinə görə müəllimlər mütəmadi olaraq biliklərini təkmilləşdirməli, özlərində 21-ci əsrin əsas kompetensiyalarını formalaşdırmalıdırlar. Onu da qeyd etmək lazımdır ki, sürətlə inkişaf edən bu dövrdə şagirdləri bu zamanın tələbinə uyğun yetişdirmək üçün müasir dövrün müəllimləri daha çox yaradıcı olmağı bacarmalıdır.

V.M.Antipova, Q.S.Lapteva, D.M.Zembiskiy və b. müəllim fəaliyyətinin pedaqoji monitorinqinin funksiyalarını çoxplanlı hesab etməklə, onun funksiyalarını aşağıdakı kimi qruplaşdırmağı təklif edirlər:

"-pedaqoji kollektivin təhsil-tərbiyə potensialının müəyyənləşdirilməsi;

-müəllimin pedaqoji ustalıq səviyyəsinin vahid pedaqoji tələblərinin müəyyənləşdirilməsi;

-müəllim kadrlarının özünüdərki və şəxsi inkişafına zəruriköməkliyin göstərilməsi;

-müəllimin təlim-tərbiyə prosesinə və innovasiyaların daxil edilməsinə təsir göstərən şəxsi keyfiyyətlərin aşkarlanması;

-müəllim fəaliyyətində müsbət və mənfi tərəflərin aşkarlanması;

-müəllim işinin səmərəliliyinin kriteriyalarının işlənilməsi;

-müəllimin zəruri bilik, bacarıq və pedaqoji ustalıq səviyyəsinin qeydə alınması."

[3; s.117]

Bütün bu xüsusiyyətləri nəzərə alaraq müəllimin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi onun pedaqoji fəaliyyətində yaranan çətinliklərin aşkar edilməsinə və onların aradan qaldırılmasına köməklik edəcəkdir. Başqa bir tərəfdən müəllimin fəaliyyətində müsbət və mənfi tərəflərləri aşkarlamaqla fərdi xüsusiyyətlər fonunda müsbət tərəfləri daha da təkmilləşdirmək, mənfi tərəfləri isə aradan qaldırmaq da mümkündür. Yekun olaraq deyə bilərik ki, pedaqoji monitorinqin nəticələri ciddi şəkildə təhlil olunub korreksiya işləri aparılmalıdır.

Ədəbiyyat

1. Qardaşov T., Cavadov İ. Təhsildə monitorinq sistemi və onun növləri // ARTPİ-nin Elmi əsərləri, 2004, №1, s. 35-38.

2. Rəhimova F. Monitorinq şagird naliyyətlərinin qiymətləndirilmə texnologiyası kimi // ARTPİ-nin Elmi əsərləri, 2012, №4, s. 218-221.

3. Антипова В.М., Лаптева Г.С., Зембицкий В.М. и др. Мониторинг образовательной системы современной школы. Ростов. Изд-во РО ИПК и ПРО, 1999, 230 с.

XÜLASƏ

Məqalədə monitorinq anlayışına, onun xüsusiyyətlərinə toxunulmuş, müəllim və şagird fəaliyyətində monitorinqin əhəmiyyəti və aparılması istiqamətləri, «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın hədəf istiqamətlərinin reallaşmasında monitorinqin vacibliyi xüsusi vurğulanmışdır. Həmçinin, müəllimin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsinin əhəmiyyəti göstərilmişdir.

РЕЗЮМЕ

В статье затрагивается понятие мониторинга, его особенности, важность и мониторинг деятельности учителей и учеников, важность мониторинга реализации целей документа «Государственная Стратегия по развитию образования в Азербайджанской Республике». «Стратегии» особенно выделено. Также была подчеркнута важность оценки профессионализма учителя.

SUMMARY

The article touches on the concept of monitoring, its features,importance and monitoring of teacher and student activitiesdirections, the necessityof monitoring in the implementation of the goals of the « State Strategy on the development of education in the Republic of Azerbaijan»specially highlighted. The importance of assessing a teacher's professionalism was also highlighted.

Cəfərova Nərmin Bayram qızı
ADPU, I tədris ili magistrantı
Elmi rəhbər: p.ü.f.d. Firəngiz Kərimova

İDARƏETMƏ YOLU İLƏ TƏHSİLİN KEYFİYYƏTİNİN VƏ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

Açar sözlər: *təhsilin idarə olunması, təhsilin keyfiyyəti, təhsilin inkişafı, idarəçiliyin səmərəliliyi, monitorinq, qiymətləndirmə, effektiv idarəetmə*

Ключевые слова: *управление образованием, качество образования, развитие образования, эффективность управления, мониторинг, оценка, эффективное управление*

Key words: *education management, education quality, education development, management efficiency, monitoring, evaluation, effective management*

Müasir dünyada qloballaşma prosesləri ölkələrin iqtisadi, siyasi və mədəni fəaliyyətlərinin beynəlxalq inteqrasiya və birləşməyə yönəlməsi - ümumi hədəfləri, hərəkətləri və nəticələri ilə vahid dünya birliyinin formalaşması ilə xarakterizə olunur. Təhsil xidmətlərinin keyfiyyətinə elm, texnologiya və iqtisadiyyatdakı dəyişikliklər təsir göstərir. Müasir reallıqlarla əlaqəli olaraq, təhsil xidmətlərinin keyfiyyətini yüksəltmək, müəyyən elmi sahələri öyrənməyə marağı artırmaq, təhsilin idarə edilməsindəki şərtləri və yanaşmaları gücləndirmək məqsədi ilə yeni təhsil metodları və vasitələrinin inkişafı mühüm məsələdir. Təhsil bu gün də cəmiyyətə yeni biliklər, yeniliklər, elmi kəşflər və texnologiyalar təqdim edən əsas amil kimi çıxış edir. İnnovativ alətlər və texnologiyaların tətbiqi ilə rəqəmsal iqtisadiyyatın intensiv inkişafı mütəxəssislərin yenidən profilləşməsinə gətirib çıxarır ki, bu da təhsil xidmətlərinə tələbatı yaradır, həyat təlimatlarının və bilik əldə etmək yanaşmalarının formalaşmasında rolunu gücləndirir. Qeyd etmək lazımdır ki, bütün sahələrin və fəaliyyətlərin qlobal beynəlmiləlləşmə proseslərinin təsiri təhsil prosesinin həm struktur, həm də funksional elementlərində dəyişikliklərə səbəb olan peşə və ixtisasların bir-birini əvəzləməsinə ehtiyac yaradır. Bu baxımdan müasir şəraitdə olduqca aktual və zəruri olan təhsil xidmətlərinin keyfiyyətini təmin etmək və yaxşılaşdırmaq üçün mövcud idarəetmə yanaşmalarının nəzərdən keçirilməsidir ki, bu da yenilikçi idarəetmə metodlarının tətbiqi və mövcud idarəetmə formalarının təkmilləşdirilməsi olmadan mümkün deyil.

Təhsil idarəetmə sisteminin səmərəliliyinin artırılması da daxil olmaqla, təhsil xidmətlərinin keyfiyyətinin təmin edilməsi məsələsi bir çox yerli və xarici elm adamlarının, iqtisadi elm və təcrübə mütəxəssislərinin diqqət mərkəzindədir.

İdarəçi, qaydalar və siyasətlər hazırlamaq səlahiyyətinə və məsuliyyətinə sahib olan şəxslərə deyilir. İdarəetmə sisteminin müvəffəqiyyətini təyin edən iki komponent səmərəlilik və effektivlikdir. Bu, idarəetmə sistemində istənilən hədəf və məqsədlərə çatmaq üçün istifadəyə veriləcək tədbirlərə istinad edir. Rəhbərlik mövqeyindən çıxış edən şəxslər, digər şəxsləri lazımi istiqamətdə yönləndirməyi təmin etməlidirlər. Səmərəli idarəetməni təşkil edərkən nəticə və hədəflərə yönəlmiş bir sıra inzibati strategiyaların qəbul edilməsinə ehtiyac vardır. Təhsilin idarə edilməsini təhsilin hədəf və məqsədlərinə çatmaq üçün nəzərdə tutulmuş hərtərəfli bir səy olaraq da adlandırmaq olar.

Təhsil sistemi daxilində idarəetmə və inzibati funksiyalar son dərəcə vacib hesab olunur. İdarə heyəti üzvlərindən bütün lazımi sənədləri və qovluqları qorumaq tələb olunur. İdarəetmə sisteminin keyfiyyətini yaxşılaşdırmaq üçün idarə rəhbərlərinin səmərəli bacarıq və qabiliyyətlərə sahib olmaları lazımdır. Texnologiyanın istifadəsi onların vəzifələrini və fəaliyyətlərini uyğun bir şəkildə həyata keçirmələrinə imkan verəcəkdir. Təhsildə keyfiyyət, idarə-etmə sisteminin səmərəliliyi, səlahiyyətli orqanın rəhbərliyindən məktəb rəhbərliyinə qədər idarəetmə sistemindəki hər bir şəxsdən asılıdır. Təhsil müəssisələrində idarəetmə sistemi müxtəlif aspektlərdə tətbiq olunur. Bunlara tədris-öyrənmə metodları, təlimat strategiyaları, mənbələr, kitabxana imkanları, laboratoriyalar, texnologiyalar, infrastruktur, avadanlıq, sivil şərait və ümumi ətraf mühit daxildir.

Təlim metodları hər hansı bir təhsil müəssisəsi, xüsusən də arzu olunan məqsəd və hədəflərə çatmaq üçün olduqca vacib hesab edilir. Direktorlar, tədrisin keyfiyyətinə və tədris metodlarına diqqət yetirərək tədbir və yanaşmaları tədbiq edən şəxslərdir. Məktəb rəhbərləri adamlarla işləməyi bacarmaq, xüsusi idarəetmə bilik və bacarığına yiyələnmək, kollektivdə yaxşı psixoloji iqlim, yoldaşcasına işgüzarlıq şəraiti yaratmaq idarəetmə elminin əsaslarını

öyrənmək, idarə olunan sahəni dərindən bilmək, kütlələri idarəetməyə cəlb etmək kimi keyfiyyətləri özlərində birləşdirməlidirlər. Bütün bu keyfiyyətlər müasir məktəb rəhbərlərində də axtarılmalıdır. Göstərilən keyfiyyətləri məktəb direktoruna verilən tələblər kimi səciyyələndirmək olar. Bununla yanaşı, təhsil işcilərinin müzakirə görüşləri təşkil etmələri və bir-birlərindən fikir və təklif alması tələb olunur. Direktorlar və ya müavinlər digər şəxslər tərəfindən verilən fikir və təklifləri dinləməlidirlər. Tapşırıqların və fəaliyyətlərin işləməsi və ya icrası ilə bağlı böyük qərarlar qəbul edilməli olduqda, rəhbərlərdən müəllimlər və digər üzvlərlə məsləhətləşmələri də tələb olunur. Verilən qərarlar fərdlər üçün, xüsusən də şagirdlər üçün faydalı olmalıdır. Direktorlar, müəllimlər və heyət üzvləri məhsuldarlığı artırmağa və peşəkarlığı təsvir etməyə imkan verəcək tədbirlər və yanaşmaları təcrübədə tətbiq etməyi təmin etməlidirlər.

Təhsilin idarə edilməsinin və pedaqoji fəaliyyətin səmərəliliyi məktəb rəhbərlərinin, müəllimlərin və digər təhsil işcilərinin pedaqoji təhlilin metodikasına yiyələnmələri ilə əlaqədardır. Məktəb rəhbərlərinin fəaliyyətində vaxtında aparılmayan və ya səriştəsiz aparılan təhlil məqsədləri bir çox problemlərlə nəticələnir. Bunlar məqsəd və vəzifələri müəyyənləşdirmə mərhələsində konkretsizliyə, hətta qəbul olunan qərarların əsassızlığına gətirib çıxarır.

Təhsilin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsindəki ünsürlərdən biri də rəhbərlik işində fərdi xüsusiyyətlərin nəzərə alınmasıdır. Pedaqoji kollektivə düzgün rəhbərlikdə onun hər bir üzvünün, hətta şagird kollektivləri üzvlərinin fərdi xüsusiyyətlərini bilib nəzərə almaq çox mühüm əhəmiyyətə malikdir. Bunsuz nə müəllimlər, nə də şagirdlərə obyektiv və konkret istiqamət vermək olar. [2; s.91]

Müəllimlərin direktorlar və ya müavinlər, inzibati heyət üzvləri, həmkarlar və şagirdlərlə əməkdaşlıq və qarşılıqlı əlaqə mühitində çalışması lazımdır. Müəllimlərin başqaları ilə koordinasiya şəraitində işləmələri lazım olan bir çox tapşırıq və fəaliyyət sahələri vardır. Bəzi vacib sahələrə, kurikulum və təlimat sistemlərinin inkişafı, qiymətləndirmə prosedurları, təlim və inkişaf proqramlarının həyata keçirilməsi, yaradıcı fəaliyyətlərin təşkili, problemlərin həlli, qərar qəbul etmə və həmyaşıd müşahidələrində iştirak etmək daxildir.

Təhsil məqsədlərinə çatmaq üçün qarşılıqlı əlaqələrin inkişafı mühüm askpektlərdən biri kimi qəbul olunur. Fərdlər effektiv ünsiyyət bacarıqlarını formalaşdırmalı və təhsil müəssisələrinin digər üzvləri ilə qarşılıqlı əlaqələri inkişaf etdirməlidirlər. Məktəb rəhbərləri üçün məktəblər və icmalar arasında səmimi münasibətləri davam etdirmək çox vacibdir. Bunun səbəbi, strategiya və yanaşmaların cəmiyyətin tələblərinə uyğun olmasıdır.

Təhsilin idarə olunmasının səmərəliyinə təsir edən amillər sırasına təlim və təhsilin, təhsil müəssisəsinin keyfiyyət göstəricilərinin monitorinqi və qiymətləndirilmənin aparılması da aid edilir. Təhsil müəsisəsindəki bir çox prosesin səmərəliyinin obyektiv meyarı kimi məhz təhsilin keyfiyyət göstəriciləri götürülməlidir. Təlim-tərbiyyə zamanı və təhsildə müəyyən keyfiyyətə nail olmaq üçün ilk olaraq, bütün mərhələlərdə görüləcək işlərin planlaşdırılması, idarə olunması və onun monitorinqi və qiymətləndirilməsi aparılmalıdır.

Ədəbiyyat

1. R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova, R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev, Təhsilin idarə edilməsinin bəzi problemləri, Bakı 2008, 238 s.

2. O.H.Rzayev, S.M.Məmmədov, İ.N.İsmayılov, Təhsilin idarə olunmasının əsasları(dərslik), Bakı 2010, 230 s.

3. Ramiz Məmmədzadə, Təhsildə keyfiyyət aparıcı istiqamətlərdə biri kimi, Bakı: "Müəllim" 2010,170 s.

4. https://www.researchgate.net/publication/333660908_Improving_Quality_and_Efficiency_of_Education

5. https://www.researchgate.net/publication/341766306_Modern_Approaches_to_Education_Management_to_Ensure_the_Quality_of_Educational_Services

XÜLASƏ

Məqalənin məqsədi beynəlxalq inteqrasiyanın sürətləndiyi bu dövrdə təhsilin qarşısına qoyduğu hədəflərə çatması üçün təhsil sisteminin qarşısında duran problemləri araşdırmaq, ən səmərəli səkildə bu problemlərin həlli yolunu tapmağın vacibliyini vurğulamaqdan ibarətdir. Məqalədə təhsilin keyfiyyətinin yüksəldilməsində idarəetmə strukturlarının rolu, idarəetmə qaydalarının, habelə idarə heyətinin bu prosesə təsiri şərh edilmiş, idarəetmənin strukturunun düzgün qurulması, onun keyfiyyət ölçüsü haqda nəzəri məsələlərdən bəhs edilmişdir. Həmçinin keyfiyyət və səmərəliliyin artırılması üçün məktəb rəhbərlərinə verilən tələblər, o cümlədən də idarəçi kadrların mütəxəssis kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edən idarəetmə elminə yiyələnmə vacib şərt kimi qeyd olunmuşdur.

РЕЗЮМЕ

Цель статьи - изучить проблемы, стоящие перед системой образования для достижения целей образования в этот период ускоренной международной интеграции, подчеркнуть важность поиска решений этих проблем наиболее эффективным способом. В статье разъясняется роль управленческих структур в повышении качества образования, правила управления, а также влияние правления на этот процесс, обсуждаются теоретические вопросы о правильной структуре управления, его качестве. Также в качестве важного условия были отмечены требования к руководству школ по повышению качества и эффективности, а также овладение управленческой наукой, что важно при формировании управленческого персонала как специалистов.

SUMMARY

The purpose of the article is to study the problems facing the education system in order to achieve the goals of education in this period of accelerated international integration, to emphasize the importance of finding solutions to these problems in the most effective way. The article explains the role of management structures in improving the quality of education, the rules of management, as well as the impact of the board on this process, discusses theoretical issues about the proper structure of management, its quality. Also, the requirements for school leaders to increase the quality and efficiency, as well as the acquisition of management science, which is important in the formation of management staff as specialists, were noted as an important condition.

Mürşüdova Aytac İlham qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: p.ü.f.d.Məmmədova Ümhani

MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏNİN NÖVLƏRİ, QİYMƏTLƏNDİRMƏDƏ İSTİFADƏ OLUNAN METOD VƏ VASİTƏLƏRİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *qiymətləndirmə, təhsil, metod,fəaliyyət,nailiyyət*
Ключевые слова: *оценка, образование, метод, деятельность, достижение*
Key words: *assessment, education, method, activity, achievement*

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və

bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür.Azərbaycan Respublikasının ümumi təhsil sistemində belə bir qiymətləndirmə sistemi yaradılmaqdadır. [5] Yeni qiymətləndirmə sisteminin əsasında şagirdlərin təlim fəaliyyətlərinin ardıcıl və sistemli şəkildə qiymətləndirilməsi, nəticələrin təhlili və müvafiq qərarların qəbul edilməsi dayanır. Şagird nailiyyətinin qiymətləndirilməsi məktəbdaxili, milli və beynəlxalq olmaqla üç istiqamətdə aparılır. Əslində bunlar yeni qiymətləndirmə sisteminə daxil olan və bir-birindən asılı olmadan fəaliyyət göstərən alt-sistemlərdir. Onların arasında ən əhatəli və əhəmiyyətli olan məktəbdaxili qiymətləndirmədir. Məktəbdaxili qiymətləndirmənin əsasını təşkil edən şagird irəliləyişlərinin monitorinqi sistemi dərs ili ərzində şagirdin təlim, müəllimin tədris fəaliyyətini fənn üzrə müəyyən olunmuş təlim nəticələrinin əldə olunmasına istiqamətləndirən və dərs ilinin sonunda hər iki tərəfin fəaliyyətini qiymətləndirməyə imkan verən texnologiya kimi düşünülmüşdür. Milli qiymətləndirmə mövcud təhsil proqramlarının (kurikulumların) real tələbata uyğunluğunu araşdırmağa, onların keyfiyyətini müəyyənləşdirməyə, beynəlxalq qiymətləndirmənin nəticələri isə ölkədə təhsilin keyfiyyətinin digər ölkələrlə müqayisəsinə imkan yaradır. Beləliklə, milli və beynəlxalq qiymətləndirmələrin nəticələri ölkənin təhsil sisteminin təkmilləşdirilməsi üçün əsas məlumat bazası rolunu yerinə yetirir.[4]

"Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" əsasında fənn kurikulumları tətbiq olunan siniflərdə məktəbdaxili qiymətləndirmənin aparılmasını müəyyən edən təlimata sonuncu dəfə 16 iyun 2016-ci ildə dəyişikliklər edilmişdir. Həmin təlimata əsasən ölkədə olan ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmələrdən ibarət olaraq tətbiq edilir.[6]

Məktəbdaxili qiymətləndirmə milli kurikulumun məzmun standartlarına əsaslanır, şagird nailiyyətlərinin və irəliləyişlərinin monitorinqinə, şagirdin fəaliyyətinin təhsil standartlarına uyğunluğunun müəyyənləşdirilməsinə və ümumtəhsil pillələri üzrə buraxılış imtahanlarının aparılmasına xidmət edir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi standartları gözlənilməklə tədrisin təkmilləşdirilməsi üçün qarşıya məqsədlər qoyur, onlara nailolma istiqamətində əldə edilən irəliləyişləri qiymətləndirir, məktəblərin, qrupların və fərdlərin fəaliyyətlərinin monitorinqini həyata keçirərək nəticələr arasında müqayisələr aparır. Məktəbdaxili qiymətləndirmənin üç növü var: 1. Diaqnostik 2. Formativ

3. Summativ[4]

Diaqnostik:Fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Məktəbdaxili qiymətləndirmənin bu növünün əhəmiyyəti ondan ibarətdir ki, şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır. Eləcə də, şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumat almağa imkan verir.

Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir və aparılır. Diaqnostik qiymətləndirmə məqsədinə uyğun olaraq iki formada keçirilir: davamlı və qısamüddətli.

Davamlı diaqnostik qiymətləndirmə, adətən, təhsil səviyyəsinin və dərs ilinin əvvəlində bir neçə dərsin müəyyən hissəsində aparılır. Onun məqsədi sinifdəki şagirdlərin bilik və bacarıqlarının mövcud vəziyyətini öyrənməkdir. Davamlı diaqnostik qiymətləndirmədə müəllim şagirdin bilik və bacarıqlarının daxil olduğu inkişaf sahələrini (idraki, fiziki, sosial-emosional, hərəki) öyrəndiyinə görə daha çox müşahidə üsulundan və bu üsulu reallaşdıran vasitədən – müşahidə cədvəlindən istifadə edir.

Şagird haqqında daha ətraflı məlumat toplamaq üçün valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq üsulundan və sorğu vasitələrindən istifadə edilir.

Qısamüddətli diaqnostik qiymətləndirmə, adətən, tədris vahidlərinin əvvəlində bir dərsin müəyyən hissəsində aparılır.Bu qiymətləndirmənin aparılmasında əsas məqsəd şagirdin fənn üzrə zəruri bilik və bacarıqları haqqında məlumat toplamaqdır.Qısamüddətli diaqnostik

qiymətləndirmədə müəllim şagirdin hər hansı bir bəhs və bölmə üzrə bilik və bacarıqlarını yoxladığına görə tapşırıqvermə, müsahibə, layihə kimi qiymətləndirmə üsullarından və müvafiq olaraq çalışma, şifahi sual-cavab, təqdimat vasitələrindən istifadə edir.

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır.[2-296]

Formativ: Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini təmin edir, şagirdlərin təlim ehtiyaclarının öyrənilməsinə imkan yaradır və şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir. Formativ qiymətləndirmənin aşağıdakı üsulları var: Müşahidə, şagirdlərin şifahi cavabları, şagirdlərin yazı işləri,test tapşırıqları.

Formativ qiymətləndirmə iki sxem üzrə həyata keçirilir:Holistik qiymətləndirmə sxemi sürətli qiymətləndirmədir, təlim prosesində məqsədlərə görə müəyyən olunmuş bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa müddətdə ümumi şəkildə dəyərləndirilməsidir. Analitik qiymətləndirmə sxemi şagirdlər üçün nəzərdə tutulan konkret bacarıqların müəyyən olunmuş uzun müddət ərzində ardıcıl izlənilməsi və qiymətləndirilməsidir. Formativ qiymətləndirmə dərsi müşayiət edən prosesdir. Formativ qiymətləndirmə zamanı müşahidə üsulu və müşahidə vərəqləri vasitəsindən, müsahibə üsulu və şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi vasitəsindən, yazı üsulu və yazı işləri, imla, inşa, esse, ifadə, məsələ, misal həlli vasitəsindən, oxu üsulu və mətnlər vasitəsindən, layihə üsulu, ayrı-ayrı şagirdlərin və ya qrupların hazırladığı təqdimat vasitəsindən istifadə olunur. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil, nəticələr formativ qiymətləndirmə jurnalı və məktəbli kitabçasında şagirdin idraki və hərəki fəaliyyətinin səviyyələrinə uyğun sözlərlə ifadə olunur. Heç bir rəqəm və simvollardan, "mənimsəyir”,"mənimsəmir”, "bilir”, "bilmir”, "yaxşı”, "orta”, "zəif” və digər bu kimi ifadələrdən istifadə olunmur. Müəllim formativ qiymətləndirmədə şagirdin fəaliyyətini bütün dərs boyu izləyir, nəticələri yazmaq üçün dərsin sonunda 6 dəqiqəyədək vaxt ayırır.Formativ qiymətləndirmə jurnalındakı qeydlər məktəbli kitabçasında da yazılır.[1-151]

Summativ:Təhsilin hər hansı mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirməsidir. Summativ qiymətləndirmə məzmun standartlarının mənimsəmə səviyyəsinin etibarlı göstəricisidir. Summativ qiymətləndirmənin üç növü var: şifahi təqdimatlar, testlər və nailiyyətlərin nümayişi. Summativ qiymətləndirmə kiçik, böyük və yekun olmaqla üç yerə ayrılır. Summativ qiymətləndirmə sinfin bütün şagirdləri üçün eyni vaxt ərzində eyni çətinlik dərəcəsinə malik olan qiymətləndirmə vasitələri ilə aparılır. Summativ qiymətləndirmənin aparılması üçün vaxt sualların sayına uyğun olaraq müəllim tərəfindən müəyyənləşdirilir.Qiymətlər şagirdin tapşırıqlara verdiyi düzgün cavabların sayına uyğun müəyyənləşdirilir. Sualların ümumi sayının 10%-nə qədər düzgün cavab verən "1”, 10% daxil olmaqla 20%-nə qədər düzgün cavab verən "2”, 20% daxil olmaqla 50%-nə qədər düzgün cavab verən "3”, 50% daxil olmaqla 80%-nə qədər düzgün cavab verən "4”, 80% daxil olmaqla 100%-nə qədər düzgün cavab verən şagird "5” qiymətlə qiymətləndirilir. Summativ qiymətləndirmə şagird nailiyyətinin rəsmi qiymətləndirilməsidir və nəticələr 5 ballıq qiymət şkalası üzrə (1,2,3,4,5) rəqəmlə ifadə olunur və qiymətlər sinif jurnalına yazılır. Göründüyü kimi söhbət 5 ballıq qiymət şkalasından getsədə əslində 4 ballıq şkala üzrə qiymətləndirmə aprarılır (1 yazılmır). [5] Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmənin sonunda altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır. Böyük summativ qiymətləndirmə yarımillərin sonunda ümumi təhsil müəssisəsinin rəhbərliyinin və ya orada yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır.Yekun summativ qiymətləndirmə buraxılış siniflərində təhsil səviyyələrinin sonunda yekun attestasiya(buraxılış imtahanları) şəklində aparılır. Summativ qiymətləndirmənin nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. [3-99]

Bütün bu dediklerimizi ümumiləşdirsək, belə nəticəyə gələ bilərik ki, qiymətləndirmə təhsil prosesinin ən əsas, mühüm əhəmiyyət kəsb edən hissəsini təşkil edir. Məktəbdaxili qiymətləndirmənin hər üç növü təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir və hər bir müəllim onları düzgün şəkildə həyata keçirməyi bacarmalıdır. Yalnız düzgün təşkil olunmuş dərs prosesində, qiymətləndirmədə, müsbət nəticələr əldə etmək mümkün olar.

Ədəbiyyat

1) Hüseynova Gülər, Kurikulum Pedaqogika,Bakı 2019. (səh 276)
2) Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları, Bakı 2008. (səh 476)
3) Zülfiyyə Veysova,Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi, Bakı 2017. (səh 217)

İnternet resursları:

4) https://aztehsil.com/news/6825-mktbdaxili-qiymtlndirm-sistemi-bizd-v-xaricd-hiss.html
5) http://edu.gov.az/upload/file/monitorunqveqiymetlendirme/cisishlar/monitorinq-ve-qiymetlendirme-tehsilin-keyfiyyeti.pdf
6) https://aztehsil.com/kurikulum/808-kurikulum-zr-mktbdaxili-qiymtlndirm-diaqnostik-formativ-summativ.html

РЕЗЮМЕ

Если мы суммируем все это, мы можем сделать вывод, что оценка является наиболее важной частью процесса обучения. Все три вида оценки в школе служат для улучшения качества образования, и каждый учитель должен уметь правильно их применять. Только в хорошо организованном учебном процессе оценки, положительные результаты могут быть достигнуты.

SUMMARY

Summarizing all of this, we can conclude that discrimination is the most important and important part of the educational process.All three types of in-school assessment serve to improve the quality of education and each teacher must be able to implement them correctly.Only in a well-organized classroom process, assessment, positive results can be achieved.

Dərgahova Ülkər Nadir qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos Gülşən Novruzova

TƏHSİLİN MƏQSƏDİ, MƏZMUNU VƏ VƏZİFƏLƏRİ

Açar sözlər: *məqsəd, məzmun, vəzifə, hərtərəfli inkişaf, şəxsiyyətyönümlülük, prinsip, formalaşma*
Ключевые слова: *цель, содержание, долг, всестороннее развитие, ориентация личности, принцип, формирование*
Key words: *purpose, content, duty, comprehensive development, personality orientation, principle, formation*

Bizim gələcəyimiz təhsillə bağlıdır, sivil ölkələrin inkişafında ən aparıcı rol oynayan bilikdir, elmi-texniki tərəqqidir və biz də təhsilimizi bu istiqamətdə qururuq. Təhsil sahəsində

aparılan islahatların vahıd konsepsiyası, aydın strategiyası və konkret dövlət proqramı hazırlandı. Milli təhsil quruculuğunda yeniləşmə yeni məzmun və struktur dəyişiklikləri ilə müşayiət olundu. Hansı ölkənin ki, təhsili akademik dəyərlər üzərində qurulub, həmin ölkələr beynəlxalq rəqabətlə ayaqlaşa bilən təhsil sahəsində böyük islahatlar aparır.

Təhsil sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarığa, praktiki hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, mütərəqqi dünyagörüşə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaq, soykökünə, Azərbaycan xalqının azadlıq və demokratiya ənənələrinə bağlı olan, xalqının milli, əxlaqi, humanist, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onları qoruyan və daim inkişaf etdirən, ailəsinin, vətənini, millətini sevən və daim ucaltmağa çalışan, ümumbəşəri dəyərlərə yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, demokratikliyinə görə dünyanın ən qabaqcıl ölkələrinin vətəndaşları səviyyəsində dura bilən sağlam yurddaşlar yetişdirmək və bununla yüksək sivilizasiyalı cəmiyyət qurmağa, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan insan tərbiyə etməkdir.

Təhsilin məzmunu dedikdə, müəyən tip tədris müəssisələrində öyrənmək üçün seçilmiş biliklər, bacarıqlar sistemi başa düşülür. Təhsilin məzmunu abstrakt deyil. O, sistemin daxili mahiyyətindən ayrılmazdır. Şagirdlərin təfəkkürünü, idraki maraqlarını formalaşdırmaq, hərtərəfli inkişafını təmin etmək və əmək fəaliyyətinə hazırlamaq ümumi təhsilin məzmunun əsasını təşkil edir. Məzmun təhsilin məqsədlərini həyata keçirməyin vasitəsi olmaqla cəmiyyətin və həm də ayrı-ayrı adamların cari və perspektiv tələbatlarını əks etdirir.

Təhsilin məzmununda elmi nailiyyətlərin implikasiyası (tətbiqi) sahəsində aparılan tədqiqatlar göstərir ki, yeni elmi kəşf və ya yeni sosial ideyanın meydana gəlməsi ilə onun məktəbdə sistemli öyrənilməsi arasındakı vaxt müddəti durmadan azalır. Pedaqoji imkanlar sistemi təhsilin məzmununa məlumatların daxil olmasına yol vermək və ya ona qadağa qoymaq rolunu oynayan tənzimləyicidir. Başa düşmək, anlamaq, mənimsəmək üçün müəyyən inkişaf səviyyəsi lazımdır.

Etiraf edək ki, biz uzun illər təcrübəmizdə hansı bilik, nə qədər bilik verilməsi ilə bağlı yanlışlıqlara yol vermişik. Halbuki təhsilin baş məqsədi bilikləri şagirdə hazır şəkildə vermək yox, bilikləri zəruri minimum həcmdə olmaqla onun şəxsi düşüncəsinin məhsuluna çevirmək və sonrakı müstəqil düşüncələr üçün əsas yaratmaqdır.Başqa sözlə,təhsilin məqsədi məhz bu mühiti yaratmaqdır. Həddindən çox informasiyanı şagirdlərə yaradıcı düşüncənin məhsulu olaraq çatdırmaq olmaz. Müəllimin real səviyyəsi, şagirdin imkanları ilə onların üzərinə qoyulan yük arasında uyğunsuzluq olmamalıdır. Tələb olunan zəruri minumum olmalıdır ki, müəllim şagirdlərin biliklərə yiyələnməsi prosesini fəal, şüurlu, imkan daxilində maksimum müstəqil və yaradıcı proses kimi təşkil etməyi bacarsın. Bu halda bilik praktik fəaliyyətin əsası kimi fəal düşüncə prosesində formalaşar və şagirdlər həqiqətən bu prosesin iştirakçısına çevrilmiş olarlar.

Ədəbiyyat

1. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı, 2000.
2. Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.
3. Azərbaycan Respublikasının Təhsil Qanunu
4. Qaralov Z. Tərbiyə (prinsiplər, məzmun, metodika), I, II, III cild. Bakı, 2003.
5. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, “Elm və təhsil” ,2010

РЕЗЮМЕ

Образование – это процесс облегчения обучение или другими словами, приобретения знаний, навыков, ценностей, убеждений и привычек. Цель обучения- обеспечить всестороннее развитие личности и приобретение соответствующих навыков. Обучение-это инструмент для достижения этой цели. Для достижения этой цели принципиальная

и идеологическая подготовка должна быть основным критерием в образовании. Под содержанием образования понимается объем знаний, навыков и привычек, которые студенты должны приобрести по разным предметам. Обеспечение всестороннего развития содержания образования Закон Азербайджанской Республики “Об образовании” гласит, что главная задача – сформировать человека с прогрессивным мировоззрением, постоянно стремящегося к его развитию

SUMMARY

Education is a process of facilitating learning, or in other words, the acquisition of knowledge, skills, values, beliefs and habits. The purpose of education is to ensure the comprehensive development of the individual, the acquisition of relevant skills. Training is a tool to achieve this goal. To achieve this goal, principled and ideological training should be the main criteria in education. The content of education refers to the amount of knowledge, skills and habits that students need to acquire in different subjects. Ensuring the comprehensive development of the content of education The main task of the Education Law of the Republic of Azerbaijan is to form a person with a progressive outlook and constantly striving to develop it.

Kamilova Aida Kamran qızı
ADPU-nun II kurs magistrantı
Elmi rəhbər: prof.Əliyeva Şəhla

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNİN TƏHSİL MÜHİTİ UŞAĞIN SAĞLAMLIĞININ QORUNMASININ AMİLİ KİMİ

Açar sözlər: *mühit; təhsil mühiti; tələblər; istiqamətlər; xüsusiyyətlər; məktəbəqədər təhsil müəssisəsi; məktəbəqədər yaşlı uşaq; müəllim; sağlamlığın qorunması*

Ключевые слова: *среда, образовательная среда, требования, направления, характеристики, дошкольная образовательная организация, ребенок дошкольного возраста, педагог, здоровьесбережение*

Key words: *environment, educational environment, requirements, directions, characteristics, preschool educational organization, preschool child,teacher, health preservation*

Müasir cəmiyyət məktəbəqədər yaşlı uşaqlardan başlayaraq təhsil sisteminə daha yüksək tələblər irəli sürür. Bu, yalnız bağça məzunu üçün bir sosial sifariş şəklində deyil, həmdə normativ-hüquqi sənədlərdə öz əksini tapıb. Məktəbəqədər təhsilin proqramı (kurikulumu)”na əsasən məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyənin təşkilinin birinci istiqaməti –fiziki inkişaf, sağlamlıq və təhlükəsizlikdir. Uşaq bağçasının təhsil mühiti, ilk növbədə, uşaqların fiziki və zehni sağlamlığının qorunmasına və möhkəmlənməsinə zəmanət verməli, uşaqların emosional rahatlığını təmin etməlidir.

Məktəbəqədər yaşlı uşağın təkcə inkişafına deyil, həm də sağlamlığının qorunmasına məktəbəqədər mühitin qarşısına qoyulan bir sıra şərtləri müəyyən etdik.

Aparıcı şərt olaraq, məktəbəqədər təhsil müəssisələrində təhsil prosesinin ekoloji-valeologizasiyasını müəyyənləşdirdik. Pedaqoji baxımından təhsil subyektlərinin sağlamlığının qorunması imkanlarını və metodlarını öyrənmə prosesində professor N.K.Smirnov “təhsil mühitinin valeologizasiyası”, “təhsil prosesinin valeologizasiyası” anlayışlarını qeyd edib. Təhsil mühitinin bir-biri ilə əlaqəli və bir-birindən asılı komponentlərin məcmusu olduğunu nəzərə alaraq, hər bir komponentin valeologizasiyasından danışmaq lazımdır.

"Təhsil mühiti - uşaq" sistemini təhlil edərkən, təhsil prosesinin həyata keçirilməsi üçün ən əlverişli şəraitin yaradılmasından danışırıq, yəni ətraf mühitin uşağa uyğunlaşdırılması prosesinə üstünlük verilir. Bu ikinci şərtdir.

Məktəbəqədər təhsil müəssisələrin təhsil mühitinində uşağın inkişaf və təlim prosesində subyekt-subyekt qarşılıqlı əlaqəsinin olması şərtdir. A.V.Bruşlinskiy, subyektivliyin insanın bütün keyfiyyətlərindən ən əhəmiyyətlisi olduğunu və inkişaf prosesində aparıcı rol oynadığını söyləyib. A.V.Bruşlinskiye görə yalnız subyektiv mövqeyi olan bir şəxs, özü üçün əhəmiyyətli nəticələr əldə edərək müxtəlif fəaliyyətlərə başlamağı və həyata keçirməyi bacarır.

Məktəbəqədər təhsil müəssisələrində sağlamlığı qoruyan bir mühitin yaradılmasının əsas istiqamətlərin təhlili (Şipnyagova O.V.):

- maarifləndirici (valideynlərə və müəllimlərə uşaqların sağlamlığını yaxşılaşdırma üsulları və metodlarını öyrətmək; sağlam həyat tərzi üçün motivasiya yaratmaq);

-terapevtik və profilaktik (sağlamlığın monitorinqi; ilkin tibbi yardım; peyvəndlər; xəstəliklərin qarşısının alınması; sanitariya və epidemioloji standartların tələblərinin təmin edilməsi, o cümlədən yemək təşkil edərkən, mütəşəkkil təhsil formalarında optimal yükü təyin edərkən; gəzinti müddəti və gündüz yuxusu);

-bədən tərbiyəsi və sağlamlıq (hərəkətliyin rasional təşkili; uşaqların bağçada qalan müddətində rejim, sağlamlaşdırma və sərtləşdirmə prosedurları; valideynlərin iştirakı ilə birgə idman və istirahət fəaliyyətləri);

- korreksiya və inkişafetdirici (nitq inkişafındakı müəyyən çatışmazlıqların düzəldilməsi, loqoped-pedaqog tərəfindən keçirilir; emosional sahənin inkişafı və korreksiya olunması, refleksiv bacarıqların öyrədilməsi, özünə hörmətin, empatiya, idrak və zehni proseslərin formalaşması, pedaqog-psixoloq tərəfindən keçrilir, fərdi və ya qrup formada);

- sağlamlığını qoruyan təhsil fəaliyyəti (sağlamlığın qorunub saxlanılması və inkişaf etdirilməsi; sağlam həyat tərzinə müsbət münasibət)

Təhsil mühiti uşaq bağçasının əsas komponentlərdən biridir. Həyatı qorumaq və uşaqların fiziki və zehni sağlamlığını gücləndirmək məktəbəqədər təhsilin əsas vəzifələrindən biridir. Bu səbəbdən uşağın sağlamlığına zərər verməyən, sağlam həyat tərzi ehtiyacının formalaşmasına kömək edən pedaqoji texnologiyaların tətbiq olunduğu sağlamlığı qoruyan təhsil mühitin yaradılması şərtdir. Sağlamlığı qoruyan texnologiyaların növləri:

-qoruyucu və profilaktik texnologiyalar: uşaqları sağlamlığa mənfi təsirlərdən qorumağa yönəldilmişdir (sanitariya-gigiyena tələbləri, təmizlik, peyvəndlər və s.)

-kompensasiyaedici - zərərsizləşdirmə texnologiyaları: istənilən mənfi təsirləri zərərsizləşdirmək üçün istifadə olunur. (gimnastika, pəhrizin vitaminləşdirilməsi və s.)

-həvəsləndirici texnologiyalar: uşağın bədənindəki öz mənbələrini aktivləşdirməyə imkan verir. (sərtləşmə, fiziki fəaliyyət).

-məlumatlandırma texnologiyaları: sağlamlıq məsələlərində savad səviyyəsini təmin etmək üçün hazırlanmışdır. Məktəbəqədər təhsil müəssisəsinin işində sağlamlığı qoruyan pedaqoji texnologiyaların tətbiqi tədris prosesinin səmərəliliyini artıracaq, müəllimlərin və valideynlərin uşaqların sağlamlığının qorunub saxlanmasına və möhkəmləndirilməsinə zəmin yaradacaq. Kompleks şəklində istifadə olunan sağlamlığı qoruyan texnologiyalar, nəticədə uşaqda sağlam bir həyat tərzi üçün güclü bir motivasiya olacaq.

Ədəbiyyat

1.Məktəbəqədər təhsilin yeni məzmununun xüsusiyyətləri (Metodik tövsiyə) Bakı-2015

2. Кушнина Е.Г. Теоретические и прикладные предпосылки валеологизации образовательной среды в дошкольном образовательном учреждении [Текст] / Е.Г. Кушнина // Сборник научных работ аспирантов и соискателей ЧГПУ. – Челябинск, 2001. – Ч.II. – С. 123-130.

3. Нагавкина Л.С. Валеологические основы педагогической деятельности [Текст] / Л.С.Нагавкина, Л.Г. атарникова. – СПб: КАРО, 2005. – 272 с.

4. Тюмасева З.И. Экология, образовательная среда и модернизация образования [Текст]: монография / З.И.Тюмасева. - Челябинск: ЧГПУ, 2006. - 322 с.

5. Шипнягова О.В. Здоровьесберегающая среда детского сада как условие сохранения психофизического здоровья детей [Электронный ресурс]. – Режим доступа: http://nsportal.ru/detskiy-sad/upravlenie-dou

Камилова А.К.

Образовательная среда дошкольной образовательной организации как фактор здоровьесбережения ребенка

РЕЗЮМЕ

Образовательная среда – один из основных компонентов детского сада. Образовательная среда детского сада должна, прежде всего, гарантировать защиту и укрепление физического и психического здоровья детей, а также обеспечивать эмоциональное благополучие детей. Применение здоровьесберегающих педагогических технологий в работе дошкольного образования повысит эффективность образовательного процесса, создаст для учителей и родителей основу для сбережения и укрепления здоровья детей.

Kamilova A.K.

The educational environment of a preschool educational organization as a factor of health preservation of a child

SUMMARY

The educational environment is one of the main components of kindergarten. The educational environment of the kindergarten should, first of all, guarantee the protection and strengthening of children's physical and mental health, and ensure the emotional well-being of children. The application of health-saving pedagogical technologies in the work of preschool education will increase the efficiency of the educational process, create a basis for teachers and parents to maintain and strengthen the health of children.

Məhərrəmli Çinarə Faiq qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. A.Həşimova

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN İDRAK FƏALİYYƏTİNİ İNKİŞAF ETDİRMƏK ÜÇÜN TEXNOLOGİYALAR

Açar sözlər: *idrak fəaliyyəti, təlim, texnologiya,müşahidə, suallar, proses, interaktiv təlim, təfəkkür fəallığı*

Ключевые слова: *познавательная деятельность,обучение персонала,техника, наблюдение,вопросы, процесс,интерактивное обучение,умственная деятельность*

Key words: *cognitive activity, training, technology, observation, questions, process, interactive learning, thinking activity*

Məlumdur ki, yeni kurikulumların tətbiqi bu gün təlimin nəticələr üzərində qurulmasını və interaktiv formada təşkilini tələb edir. Bu da şagirdlərin həyati bacarıqlar qazanmasına, müasir təfəkkürə malik şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu gün ümumtəhsil məktəblərində təhsilə yanaşma dəyişmişdir. Belə ki,artıq təhsil şagirdlərə təkcə bilik verməyi deyil,onlarda müəyyən bacarıq və vərdişlərin inkişaf etdirilməsini də tələb edir. Yəni, şagirdi

müstəqil həyata hazırlamaq şəxsiyyətyönümlü təhsilin əsas məqsədinə çevrilib. Yeni proqlamlar yalnız sistemin, məzmunun dəyişdirilməsini deyil, həm də şagirdlərdə idrak proseslərinin maksimum dərəcədə inkişaf etdirilməsini vacib bir məsələ kimi qarşıya qoyur. Bu da təsadüfi deyil. Çünki uzun illərdən bəri diqqət başlıca olaraq müəyyən vərdişlərin aşılanmasına yönəlirdi. Nəticədə müəyyən qaydalar,qanunlar şagirdlər tərəfindən o qədər də şüurlu sürətdə mənimsənilmir, dəfələrlə təkrarlar sayəsində mexaniki surətdə əzbərlənilirdi. Buna görə də şagirdlərin hafizəsi az-çox dərəcədə inkişaf etsə də onlarda ən mühüm idrak prosesi olan təfəkkür lazımınca inkişaf etmirdi.Şagird oxunmuş materialdan müəyyən nəticəni çıxartmağı,onu bu və ya digər nöqteyi-nəzərdən qiymətləndirməyi tələb edən suallarla rastlaşdıqda çaşıb qalırdı. Buna görə də hazırkı dövrdə təlim prosesində lazımi elmi məlumatlar verilməklə yanaşı, şagirdlərdə müşahidəçilik, müstəqil və tənqidi düşünmək və s. kimi idrak qabiliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Müstəqil öyrənmək üçün şagirdlər,hər şeydən əvvəl,qarşılarına müəyyən məsələlər qoymaqla, həmin məsələlərin həlli yollarını, üsullarını tapmaq bacarığına malik olmalıdırlar. Bu məqsədlə şagirdlərdə, hər şeydən əvvəl, dərin müşahidəçilik, məsələnin mahiyyətinə nüfuz etmək qabiliyyəti inkişaf etdirilməlidir.Müşahidə çox mürəkkəb bir proses olmaqla yanaşı, həm də şüurlu sürətdə təşkil olunmuş qavrayışdır. Müşahidə həmişə qarşıya müəyyən məqsəd qoymaqla bağlıdır. Yeni proqramın tələbinə görə təbiət hadisələri üzərində müşahidə aparmaq sinif şagirdlərinin gündəlik idrak fəaliyyətinin ayrılmaz hissəsi olmalıdır.

Müşahidə zamanı şagirdlərin fəallığını təmin etmək də zəruridir. Onların fəallığı, əsasən, iki şəkildə özünü büruzə verir: bunlardan biri fikri fəallıqdır. Fikri fəallıq prosesində müxtəlif müqayisələrdən, tutuşdurmalardan, ümumiləşdirmələrdən geniş istifadə edilir. Hərəki fəallıq zamanı isə şagird cisimlə əməli surətdə təmasda olmağa meyil edir; məsələn, əgər müşahidə obyekti mexanizmdirsə, onu hərəkətə gətirməyə, işləmə prinsipini öyrənməyə,onun hissələrinin, bu hissələr arasındakı münasibəti və s. müəyyən etməyə çalışır.

Təlim prosesində şagirdlərin təfəkkürünü fəaliyyətə gətirməkdə müəllimin suallarının böyük əhəmiyyəti var.Bəzi müəllimlər şagirdlərin yaradıcı düşüncəsinə inanmır, onlara həddindən artıq bəsit və heç bir fikri axtarış aparmadan cavab verməsi mümkün olan suallar verirlər. Təcrübəli müəllimlər isə şagirdlərdən tələb edirlər ki, verdikləri hər bir cavabı əsaslandırsınlar,sübutlar gətirsinlər,müvafiq nəticələr çıxarsınlar.

Müəllim suallar vasitəsilə həm şagirdlərin təlim materialını necə mənimsədiklərini yoxlayır, həm də onların biliklərini dərinləşdirir. Suala cavab axtarmaq prosesində hər bir şagirdin fikri fəallığı və müstəqilliyi təzahür edir, sual vasitəsilə şagirdin oxuduğu parçanı şüurlu surətdə mənimsətmək,orada olan fikirləri və bunlar arasındakı əlaqələri başa salmaq, uşağı yeni nəticələrə gətirmək mümkündür.

Təlimin əsas üstünlüyü – biliklərə yiyələnmək həvəsinin yaranmasıdır.Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyyətlərin həlli imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyatların səfərbərliyini təmin edir,idrak fəaliyyətini şövqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır. Bilgilər "hazır" şəkildə deyil, onların müstəqil surətdə kəşfi prosesində mənimsənilir, yəni mənimsəmə prosesi passiv deyil, fəal xarakter daşıyır. Əgər şagird öz istəyinə və öz fəaliyyətinə əsasən yeni bilikləri kəşf edirsə, onda o, dərsə yaradıcı və maraqla yanaşır, əldə etdiyi bilikləri uzun müddətə və möhkəm mənimsəyir. Bütün bunlar şagirdlərin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin və yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Təlim prosesinın emosionallığı şəraitində şagirdlərdə idrak fəaliyyətinə maraq və daxili tələbat yaranır. Bunun üçün biz müəllimlər müxtəlif didaktik metod və üsullardan istifadə etməliyik. Müəllim"müqayisə edin", "ümumiləşdirin", "təhlil edin", "fərqləndirin"kimi produktiv fəallığa təhrik edən suallar hazırlayaraq düşündürməyə vadar edən tapşırıqlar verməlidir.

Bildiyimiz kimi, fəal (interaktiv) təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Fəal təlim müasir prinsiplərə əsaslanmaqla tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur.Bu təlim üçün aşağıdakı cəhətlər səciyyəvidir:

-Müəllim tərəfindən şüurlu surətdə idraki problem situasiyasının yaradılması;

-Problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;

-Şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

Mütəxəssislərin fikrincə, fəal təlimin əsas üstünlüyü ondan ibarətdir ki, şagirdlərin idrak fəallığını artırır, onları düşündürür, müstəqil qərarlar çıxarmağa yönəldir.

Ədəbiyyat

1. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı, 2000.
2. Cabbarov R. Təlim-tərbiyə müəssisələrinin idarə olunması məsələləri. Bakı, 2002.
3. Mehrabov A. Və b. Pedaqoji texnologiyalar. Bakı, 2006.
4. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Bakı, 2008.
5. Nəzərov A. "Müasir təlim texnologiyaları" fənni üzrə proqram. Bakı, 2010. 6. Sadıqov F. Pedaqogika. Bakı, 2006.
6. "Qloballaşma və Azərbaycanda təhsilin aktual problem ləri".Beynəlxalq Elmi-praktik konfransın materialları. Bakı, 2004.

РЕЗЮМЕ

В контексте эмоционального характера учебного процесса студенты проявляет интерес к познавательной деятельности и внутренней потребности. Основная цель учителя сформировать интерес к уроку, чего можно достичь путем чередования простых подходов, интеграции в другие предметы, активность учителя, эмоциональности, рисование интересных фактов и примеров на протяжении всего урока.

SUMMARY

In the context of the emotional nature of the learning process, students develop an interest in cognitive activity and an internal demand. The main goal of the teacher is to form interest in the lesson, which can be achieved by alternating simple approaches, integration into other subjects, the teacher's activity, emotionality, drawing interesting facts and examples throughout the lesson.

Məhərrəmli Çinarə Faiq qızı
ADPU-nun magistrantı
Elmi rəhbər:dos. A.Həşimova

İNKİŞAFETDİRİCİ TƏLİM TEXNOLOGİYALARI

Açar sözlər: *texnologiya, əməkdaşlıq, layihə, təlim, inkişaf, şəxsiyyətyönümlü təhsil, inkişafetdirici*

Ключевые слова: *технологии, сотрудничество, проект, обучение персонала, разработка, личностно-ориентированное образование, разработчик*

Key words: *technology, cooperation, project, training, development, personality-oriented education, developer*

Təhsil məktəblərində geniş yayılmış, lakin şəxsiyyətin hərtərəfli inkişaf etməsində imkanları məhdud olan ənənəvi təlim texnologiyaları XX əsrin sonunda bir çox yaradıcı, yenilikçi pedaqoqlar tərəfindən təhsildə effektiv olmayan, hətta zərərli nəticələr verən texnologiyalar kimi qiymətləndirilməyə başlandı. Bu cür qiymətləndirmə inkişaf etmiş ölkələrdə cəmiyyətin məlumatlılıq səciyyəsinin kifayət qədər yüksək olması ilə qiymətləndirilirdi. Tədris prosesində təhsil alanın hərtərəfli şəxsiyyət kimi formalaşması üçün yeni pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailliyyətlər əldə etməyə imkan verir. Burada məqsədə və təlimin məzmununa uyğun texnologiyalar seçilməsi və onların ardıcıl, qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirmək məqsədəmüvafiqdir. Hazırda müasir pedaqoji praktikada daha geniş tətbiq olunan şəxsiyyətyönümlüinkişafetdirici pedaqoji texnologiyalar aşağıdakılardır:

1) Əməkdaşlıqla təlim texnotexnologiya
2) Layihələr metodu ilə təlim texnologiyası;
3) Modulla təlim texnologiyası.

Son illər tədris prosesində istifadə olunmağa başlayan daha artıq maraq göstərilən təlim texnologiyasının mahiyyəti və məzmunu ilə bir qədər ətraflı tanış olaq:Əməkdaşlıqla (kollektiv) təlim texnologiyası – bu təlim texnologiyasında əsas ideya nəyisə birlikdə yerinə yetirmək yox, birlikdə öyrənməkdir.Kollektiv təlim texnologiyası XX sərin 80cı illərindən ABŞ və İsrail pedaqoqları Ravin və onun şagirdləri tərəfindən işlənmişdir. Bu kollektiv qarşılıqlı təlim texnologiyasının aşağıdakı üstünlükləri vardır:

1)Müntəzəm şəkildə təkrar olunan çalışmalar nəticəsində şagirdlərdə məntiqi təfəkkür və anlama vərdişləri təkmilləşir;

2) Nitq prosesində və görülmüş işlərin müzakirəsi zamanı şagirdlərin fikri fəaliyyət vərdişləri inkişaf edir, əvvəllər qazandığı təcrübə və bilikləri aktuallaşır;

3)Qruplarda işləyən hər bir uşaq özünü sərbəst hiss edir, təlim tapşırıqlarını özünəməxsus tempdə yerinə yetirir;

4)Uşaq həm öz işinin, həm də kollektivin işinin nəticəsi üçün məsuliyyət daşıyır;

5)Uşaqda öz şəxsi keyfiyyətlərini, imkan və qabiliyyətlərini qiymətləndirmək bacarığı formalaşır;

6)Bu informasiyanın bir neçə müxtəlif tərəfdaşla müzakirəsi assosiativ əlaqənin miqdarını çoxaldır. Bununla da mənimsəmə daha da möhkəmlənir;

Layihələr metodu ilə təlim texnologiyası – Layihələr metodu XX əsrin 20-ci illərindən ABŞ-da Con Djui və onun şagirdi Kill Patrin tərəfindən işlənmişdir. Bu metodla fəal təlim əsas şagirdin məqsədəuyğun fəaliyyəti ilə onun şəxsi maraqlarına uyğun qurulmuşdur. Metodun əsas mahiyyəti uşaqların əldə etdikləri biliklərin həyatda onlara lazım olmağını göstərməkdir. Tədris prosesində şagirdə tanış olmayan, onun üçün əhəmiyyət daşıyan, real həyatdan götürülmüş ən vacib problemin həllinə, onun malik olduğu və əldə edəcəyi biliklərdən istifadə etmək öyrədilir.

Müasir pedaqoji texnologiyaların bünövrəsi kimi layihələr metodu-müxtəlif təlim vasitələri və informasiya texnologiyalarından istifadə etməklə reallaşır. Burada həm müasir (kompüter telekommunikasiyaları, elektron baza göstəriciləri, video və multimedia vasitələri, faks, video rabitə), həm də ənənəvi (elm və məlumat kitabları, video yazıları və b.) tədris vasitələrindən istifadə edilə bilər.

Modulla təlim texnologiyası – Təlimdə şəxsiyyətyönümlü konsepsiyanın reallaşdırılması, inkişafetdirici pedaqoji texnologiyaların layihələşməsi və praktikada tətbiqi onların müxtəlif şəraitdə, müxtəlif mövzular üzrə sınaqdan çıxarılmasını, bu sahədə pedaqoji təcrübənin öyrənilməsini tələb edir.

Məktəblərdə tətbiqinə geniş maraq göstərilən yeni pedaqoji texnologiyalardan biri də modulla təlim texnologiyasıdır.Təlimin modul texnologiyası dedikdə, uşaqların müstəqil olaraq dərsdə və dərsdənkənar vaxtlarda modullu iş prosesində konkret təlim məqsədlərinə nail olması başa düşülür.

Görkəmli tədqiqatçı alimlər A.Mehrabov, Ə.Ağayev, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov və b. texnoloji yanaşmanın strukturunu şaquli və üfuqi olmaqla iki yerə bölürlər. Belə texnoloji yanaşmanın şaquli strukturunda bir-birilə əlaqəli – meta, makro, mezo və mikrotexnologiyaları ayırmaq lazımdır.

Matetexnologiya – sosial pedaqoji səviyyədə təhsil sahəsində sosial siyasəti həyata keçirməyə imkan verən ümumpedaqoji (ümumdidaktik, ümumtərbiyə) texnologiyadır.

Makrotexnologiya və ya təhsil sahələri üzrə texnologiya hər hansı təhsil sahəsini təlimtərbiyə prosesinin müəyyən istiqamətini, ümumpedaqoji və ümummetodiki səviyyədə fənnin tədrisi ilə bağlı fəaliyyət sahələrini əhatə edir.

Mezotexnologiya və ya lokal modul texnologiya təlimtərbiyə prosesinin ayrı-ayrı hissələri (modulları), xüsusi, didaktik, metodik və ya tərbiyənin müəyyən bir problem sahəsi ilə bağlı məsələləri həll etmək üçün tətbiq olunan texnologiyadır.

Mikrotexnologiya – pedaqoji prosesin subyektləri arasındakı operativ məsələlərin, qarşılıqlı əlaqələrin, yazı vərdişlərinin həlli ilə bağlı texnologiyadır. Belə texnologiyalara misal olaraq yazı vərdişlərinin formalaşdırılması, subyektin (şəxsiyyətin, tədris prosesinin iştirakçılarının) şəxsi keyfiyyətlərinin korreksiyası üçün treninqlərin təşkili ilə bağlı texnologiyaları göstərmək olar.

Ədəbiyyat

1.Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.

2.Qaralov Z. Tərbiyə (prinsiplər, məzmun, metodika), I, II, III cild. Bakı, 2003.

3.Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, 2005.

4.Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R.
Pedaqoji texnologiyalar. Bakı, 2006.

5.Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Dərs vəsaiti. Bakı, 2008.

6.Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Dərs vəsaiti. Bakı, 2011.

РЕЗЮМЕ

Целесообразное и комплексное использование новых педагогических технологий для формирования учащегося как целостной личности в учебном процессе позволяет достичь более высоких результатов. Здесь рекомендуется выбрать технологии, соответствующие цели и содержанию обучения, и внедрить их последовательно и в заранее установленное время.

SUMMARY

The purposeful and comprehensive use of new pedagogical technologies in the teaching process for the development of the learner(ve ya The student)as a comprehensive personality can lead to higher achievements. Here It is advisable to select technologies that are appropriate to the purpose and content of the training and to implement them consistently and at a predetermined time.

Hacılı Türkan Kamal qızı
ADPU-nun 2 kurs magistrantı
Elmi rəhbər: dos., p.ü.f.d.Tamilla Vahabova

MİQ-də TEST İMTAHANLARININ ÖZƏLLİKLƏRİ

Açar sözlər: *təhsil, test imtahanları, qiymətləndirmə, obyektivlik*
Ключевые слова: *образование, тестовые экзамены, оценивание, объективность*
Key words: *education, test exams, evaluation, objectivity*

Müəllimlərin işə qəbulunun keçirilməsi peşəkar kadrların daha da artmasına səbəb olmuşdur. Miq-də test imtahanlarının özəllikləri bir sıra məqamlarda özünü göstərir. Əvvəllər müəllimlər işə qəbul olmaq üçün müəyyən saxtakarlıqlar edirdilər. Bu zaman biliyi olmayanda işləyirdi.Müəllimlərin işə qəbulu keçiriləndən sonra bu hallara tam son qoyuldu. Testlər ən qədim dövrlərdən müxtəlif məqsədli, mahiyyətli və məzmunlu sınaqlarda istifadə olunmuşdur. Test – insanın zehni inkişafını, bilik və bacarığını yoxlamq üçün standart tapşırıqların yerinə yetirilməsidir. Test imtahanı ən obyektiv şəkildə keçirilən qiymətləndirmədir. Elə buna görə də Təhsil Nazirliyi test imtahanlarını keçirir. Dünya günü-gündən inkişaf edir. Əgər təhsil inkişaf etməzsə, gələcək nəsil inkişaf etmiş dünya ilə ayaqlaşa bilməz. Təhsili isə yaradan, yaşadan müəllimdir. Prezidentimiz İlham Əliyev öz çıxışında belə demişdir: " Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümümi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir." Təhsilimizin inkişafı üçün istedadlı, qabiliyyətli, qabaqcıl və peşəkar müəllimlərə hər zaman ehtiyac var.

Testlə öyrənilən bütün məzmunu əhatə etmək və qiymətləndirmək mümkündür. Müəllimlərin işə qəbulunda test imtahanları 19 fənn üzrə keçirilir. Bir qayda olaraq Miq-də qapalı test tapşırığından istifadə olunur. Test imtahanında istirak edən namizədlərə 40 ixtisas sualı, 20 kurikulum sualı təqdim edilir. Bunun məqsədi odur ki, müəllimlərin ixtisas biliyi ilə yanaşı təlim bilikləri də yoxlanılır. Test tapşırıqlarının məzmunu qəbul edilmiş test formaları çərçvəsində təqdim olunmalıdır. Test tapşırıqlarının məntiqi müəyyənliyi əlaməti əsas test faktorlarından biridir. Miq-də istifadə olunan testlər müəyyən ekspertlər tərəfindən hazırlanır. Daha sonra testlər ekspertizadan, aprobasiyadan keçirilir. Testin keçirilməsi müəyyən vaxt ərzində aparılır. Müəllim namizədlərə 90 dəqiqə vaxt verilir. Bu da müəllimlərin vaxt bölgüsünü düzgün bölüşdürmələri üçündür. Hər bir namizəd bu vaxt ərzində testi bitirməlidir. Testin cavablandırılmasını 90 dəqiqə ərzində tamamlaya bilməyən namizədə əlavə vaxt verilmir. Buna görə də testlər aydın və başa düşülən şəkildə hazırlanır. Qarışıq, uzun tərtib olunan test çox vaxt aparır. Testin yığcam olması zəruri tələbdir. Testin bir özəlliyi isə texnoloji olmasıdır. Test kompüterlərlə keçirildiyi üçün həm müəllimin İKT biliyinin olması bəlli olur, həm də test imtahanı tez və sərfəli şəkildə həyata keçirilir. Test imtahanlarının keçirilməsi sayəsində vakant yerlərin sağlam rəqabət əsasında və peşəkar kadrlar tərəfindən tutulması baş verir. Hər bir müəllim fərdi şəkildə öz kompyuterində testləri cavablandırır. Test imtahanı keçirilərkən köçürmə hallarının olmaması məqsədilə nəzarətçilər tərəfindən müəllim namizədlərə ciddi şəkildə nəzarət edilir. Müəllimlərin biliyi tam şəffaf və obyektiv halda qiymətləndirilir. Əvvəllər insanlar pedaqoji ixtisası bitirsələrdə, müəyyən səbəblərə görə müəllim olmaq istəmirdilər. Düzgün qiymətləndirmə keçirildiyi üçün son illərdə müəllim olmaq istəyən namizədlərin sayı daha da artır. Keçən il 20 mindən artıq müəllim namizədi test imtahanlarında iştirak etmişdir. Testlər həmçinin müəllimləri ənənəvi təhsildən uzaqlaşdırıb, müasir təhsilə yönləndirir. Müasir təhsili bilməyən müəllim test imtahanında çox zəif nəticə göstərir. Bildiyimiz kimi müasir təhsil axtarışlara əsaslanır. Müəllim öz üzərində daima işləməli və yeni biliklərə, metodlara açıq olmalıdır.

Miq-də istifadə olunan testlər adi tapşırıqlar kimi deyildir. Bu testlər müəllimin tədris etdiyi fənn biliyini tam əhatə edir. 40 ixtisas sualı çətinlik səviyyəsinə görə tərtib edilir. Bu testlər nəzəri deyil, daha çox pratiki bilikləri yoxlayır. Müəllimləri düşünməyə vadar edir. Hər bir test 1 balla qiymətləndirilir. Testə salınan bütün tapşırıqlar eyni qiymətləndirilsə də, onların asandan çətinə doğru düzülmələri öz aktuallığını itirmir. Əslində bu namizədlərə öz imkanlarını daha da tam göstərməyə imkan verir. Miq-də keçirilən test imtahanlarının bir özəlliyi də ona görə yaxşıdır ki, müəllimlər imtahan bitdikdən dərhal sonra öz nəticələrini monitorda görə bilirlər. Artıq keçən ildən müəllim namizədlər öz balları ilə yanaşı həm də düz və ya səhv cavablandırdıqları suallara da baxa bilirlər. Həmin sualları görməklə onlar öz zəif yerlərinin haradaolduğunu müəyyənləşdirirlər. Daha sonra bu zəif nöqtələri tam aradan qaldıra bilərlər. Həmçinin öz səhvlərini gördükdə onlar bir daha testin şəffaf keçirilməsinə əmin olurlar.Keçirilən test imtahanın bir özəlliyi də o idi ki, testlər situativ suallar əsasında

hazırlanırdı. Artıq təhsilimiz hafizədən təfəkkürə keçmişdir. Müəllim düşdüyü istənilən situasiyadan anında və düzgün şəkildə çıxmağı bacarmalıdır. Həmçinin şagirdinə də düzgün yol göstərməyi bilməlidir. Test imtahanının keçirildiyi ilk illərdə müəllimlər yaxşı nəticələr göstərmək də çətinlik çəkirdilər. Müəllimlər öz müsahibələrində bildirirdilər ki, müəyyən testlər onlar üçün çətin gəlir. Onlar testi işləməyin düzgün qaydasını bilmirdilər. Lakin bir neçə ildən sonra bu problem də aradan qaldırıldı. Artıq müəllimlər son dövrün obyektiv qiymətləndirmə üsulu olan testi düzgün şəkildə icra etməyi bilirlər. Artıq əksər ölkələrdə işə qəbul üçün test üsulundan istifadə edilir. Test üsulu elə bir vasitədir ki, istedadlı mütəxəssislərin tapılmasını asanlaşdırır. Beləcə ucqar bölgələrdə kadr çatışmazlığını aradan qaldırılıb. Əslində bu çox sevindirici haldır. Artıq gənc namizədlər yüksək bal toplasalar da, şəhər məktəblərini deyil, ucqar kənd məktəblərini vakansiyada seçirlər. Miq-də keçirilən test imtahanları hər il daha da təkmilləşdirilir. Hər il imtahanlarda fərqli və yeni testlərdən istifadə olunur. Test imtahanını uğurla keçən hər bir namizəd müsahibə mərhələsinə buraxılır. Müəllimlik peşəsi ən çətin və şərəfli peşədir. Peşəkar müəllim seçmək heç də asan iş deyil. Savadlı gələcək yaratmaq üçün hər insanı müəllim seçmək olmaz. Miq-in test imtahanları mərhələsi bu işi layiqincə görür. Peşəkar kadrları işə cəlb etmək təhsilin aktual məsələlərindən biridir. Müasir müəllim cəmiyyətin informasiyalaşdırılması ilə, dünyada gedən qloballaşma ilə təhsil modellərinin uyğunlaşdırılması və inteqrasiyası prosesini daim izləməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum)
2. Azərbaycan Respublikasının Təhsil Qanunu
3. Mehrabov A.Müasir təhsilin konseptual problemləriB.,2010
4. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: 2007
5. Təhsil Nazirliyi, Müəllimlərin işə qəbulu

РЕЗЮМЕ

Тесты при приеме на работу учителей – самая объективная оценка. По результатам тестовых экзаменов к обучению привлекаются профессиональные кадры. Знания, навыки и профессиональные способности учителей на всех уровнях системы образования необходимо совершенствовать в соответствии с современными требованиями. Учителя должны поддерживать свой уровень в обществе, постоянно следить за миром в период быстрого развития, работать над собой и быть новаторскими.

SUMMARY

Tests in teacher recruitment are the most objective assessment.As a result test examinations, professional staff is involved in education.Teachers' knowledge, skills and professional abilities at all levels of the education system must be improved in accordance with modern requirements.Teachers must maintain their prestige in society, be constantly on the lookout for the world at a time of rapid development, work on themselves and be innovative.

Əliyeva Gülay Ceyhun qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. T.Hüseynova

MƏKTƏB MÜƏLLİMLƏRİNİN FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏNİN ROLU

Açar sözlər: *müəllim fəaliyyəti, diaqnostik qiymətləndirmə, müəllim peşəkarlığı, fəaliyyətin istiqamətləndirilməsi*

Ключевые слова: *деятельность педагога, диагностическое оценивание, профессионализм педагога, направление деятельности*
Key words: *teacher`s activity, diagnostic evalution, teacher`s professionalism, activity`s routing*

Müasir dövrdə müəllimlərin peşəkarlığına, şəxsiyyətinə və fəaliyyətinə bir sıra tələblər verilir. Bu tələblərin yerinə yetirilməsi müəllim kadrlarının hazırlanmasında məzmunun daha da dərinləşməsini tələb edir. Müəllimin fəaliyyəti və peşəkarlığı ölkənin həyatında baş verən iqtisadi, siyasi, ictimai, mədəni dəyişikliklərlə şərtlənir. Müəllim ictimai-iqtisadi quruluşdan asılı olmayaraq istənilən cəmiyyətdə gənc nəsillərin təlim-tərbiyəsi və təhsili sahəsində dövlət siyasətini həyata keçirir.Müəllim deyərkən xüsusi hazırlıq keçmiş və pedaqoji fəaliyyətlə peşəkarcasına məşğul olan insan nəzərdə tutulur. Əlbəttə ənənəvi təhsil sistemində olduğu kimi müasir dövrdədə müəllimlik fəaliyyətinə verilən bir sıra tələblər mövcüddur.Əgər XXI əsrdə yaşayırıqsa deməli dövrün tələbi ilə uzlaşmaq vacibdir. Dövlətin maddi texniki bazası möhkəmləndikcə,onun əsasını təşkil edən məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə,keyfiyyətcə bir mərhələdən digər mərhələyə yüksəldikcə üstqurumun ən başlıca tərkib hissələrindən, komponentlərindən biri kimi tərbiyənin,təlimin, təhsilin və bütün prosesin aparıcı qüvvəsi olan müəllimin məqsədi və öhdəlikləri dəyişir. Xüsusilə respublikamız müstəqillik qazandıqdan sonra pedaqoji kadrların hazırlığına diqqət daha da artırılmış və bu sahədə əsaslı işlər görülmüş,islahatlar aparılmışdır.Müasir dövrün tələblərinə cavab verən kadrlar formalaşdırmaq məqsədi ilə müəllimin pedaqoji fəaliyyətininvə qiymətləndirilməsi üçün diaqnostik qiymətləndirmədən geniş istifadə olunur. Müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılmasında əsas məqsəd ondan ibarətdir ki, müəllimlərin bilik və bacarıq səviyyəsinin test üsulu ilə müəyyənləşdirilib üzə çıxarılması nəticəsində onların nəticələrindən asılı olaraq müəllimlərin inkişafyönümlü təlimlərə cəlb edilməsi və dövlətin təhsil siyasətinə uyğun kadrlar yetişdirilməsi onun ana xəttini təşkil edir. Bundan başqa bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü normasının optimallaşdırılması, aylıq vəzifə maaşlarının artırılması və maddi rifahının yaxşılaşdırılmasının təmin edilməsidə dövlətin təhsil siyasətinin başlıca istiqamətlərindən biridir. Müəllimlərin Diaqnostik qiymətləndirilməsi Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.10.2015-ci il tarixli 994 nömrəli əmri ilə təsdiq edilmişdir. Ümumi təhsil müəssisələrində işləyən müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılması Qaydaları "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azəbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 24.10.2013-cü il tarixli Sərəncamına uyğun hazırlanmışdır. Diaqnostik qiymətləndirilməyə Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində və xüsusi tipli ümumi təhsil müəssisələrində müəllim-defektoloqlar və gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri, Nazirliyin mərkəzləşdirilmiş qaydada keçirdiyi müsabiqələrin nəticəsi olaraq ümumi təhsil müəssisələrinə iş yerini dəyişən və yeni işə qəbul olunan müəllimlər, iki və daha artıq fənndən tədris aparan müəllimlər cəlb olunurlar. Diaqnostik qiymətləndirilmədə iştirak edərək hər bir bölmə üzrə 10 faizdən aşağı nəticə göstərmiş müəllimlər diaqnostik qiymətləndirilmədən keçmiş müəllim hesab olunmur və peşəkar ehtiyacları nəzərə alınaraq onlar üçün ixtisasartırma təlimləri təşkil olunur. Təşkil olunan ixtisasartırma təlimləri müəllimlərin peşəkarlığının artırılması ,pedaqoji ustalığın müsbət istiqamətdə yönləndirilməsində əhəmiyyət kəsb edir. Bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi nəticəsində müəllim peşəkarlığının yüksəlməsi sayəsində ildən ilə bu peşənin nüfuzu artmaqdadır. Görkəmli çex pedaqoqu Y.A.Komenski göstərirdi ki, uşaqların mənəvi tərbiyəsi müəllimin müsbət nümunəsindən başlıyır. Müəllimin əməyi öz hörmət və pqşəsinə görə, məsuliyyət vəmürəkkəbliyinə görə bütün pqşələrdən fərqlənir.

Ədəbiyyat

1. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı, "Elm və təhsil", 2010
2. M.Mərdanov. "Təhsil sistemində monitorinq və qiymətləndirmə". Bakı, "Çaşıoğlu", 2003
3. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.10.2015-ci il 994 nömrəli əmri ilə təsdiq olunmuş "Müəllimlərin Diaqnostik qiymətləndirilməsi" haqqında qanun
4. Celt colleges " Teacher`s activity and professionalism"

РЕЗЮМЕ

Образование – это наше будущее. Повышение профессионализма педагогов напрямую влияет на нашу жизнь и наше будущее. В результате образовательной политики нашего государства, сегодня обучение в республиканских школах организовано на высоком уровне. Реформы в области образования напрямую связаны с требованиями современной эпохи.Проводимые реформы окажут позитивное воздействие на развитие и направление знаний и навыков.

SUMMARY

Education is our future. Improving the professionalism of educators directly affects our lives and our future. As a result of the educational policy of our state,today the education in the republic schools is organized at a high level. Education reforms are directly related to the demands of the modern age. The ongoing reforms will have a positive impact on the development and direction of the knowledge and skills.

Əliyeva Gülay Ceyhun qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. T.Hüseynova

DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏNİN MAHİYYƏTİ, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Açar sözlər: *diaqnostik qiymətləndirmə, müəllim fəaliyyəti, dövlət standartları, beynəlxalq standartlar, fəaliyyətin qiymətləndirilməsi*

Ключевые слова: *диагностическая оценка, деятельность педагога, государственные стандарты, международные стандарты, оценка производительности*

Key words: *diagnostic assessment, teacher`s activity, state standards, international standards, performance appraisal*

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sistemindən sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Məktəbin, ümumilikdə bütün tipdən təhsil müəssisələrinin əsas vəzifəsi təhsilin keyfiyyətini yüksəltməkdən - keyfiyyətli təhsil verməkdən, bu gün sabahın tələblərinə cavab verən mütəxəssisini yetişdirmək üçün əməli fəaliyyət göstərməkdən ibarətdir. Bu isə həyata keçiriləcək fəaliyyətlərin əsaslandırılmış şəkildə müəyyən olunmasını, ilkin olaraq düşünülmüş fəaliyyət planının (planlaşdırmanın) yaradılmasını tələb edir.Hər birimizə məlumdur ki,təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin

fəaliyyətini də qiymətləndirmək mümkündür. Müəllimin metodik səviyyəsinin yüksəldilməsi isə kqyfiyyəti təmin qdir. Bu məqsədlə respublikada müəllimlərin diaqnostik qiymətləndirilməsinin aparılmasınada xüsusi diqqət yetirilir. Qiymətləndirmənin nəticələrinə əsasən müəllimlərinin hazırki səviyyələrinin müəyyən edilməsi və vəziyyətin yaxşılaşdırılması istiqamətində müəyyən addımlar atılır. Müəllim peşəkarlığınının yüksəldilməsi məqsədi ilə müəyyən kursların təşkili və müəllimlərin inkişafı üçün müəyyən təlimlərin keçirilməsi onların savadlılıq dərəcəsinin yüksəldilməsinə böyük təsir göstərir. Diaqnostik qiymətləndirmənin komponentləri aşağıdakılardır: 1) tədris prosesinin əvvəlində baş verir; 2)effektiv nəticə əldə etmək üçün mövcud vəziyyəti yoxlayır; 3)təhsilverənin güclü və zəif sahələrini müəyyən edir.

Diaqnostik qiymətləndirmələr bir növ ön sınaqdır. Diaqnostik qiymətləndirmə ümumiyyətlə, şəxsin ixtisası ilə bağlı təhsilalma prosesi ərzində əldə etdiyi biliyin barometri rolunu oynayır. Diaqnoz sözü bir vəziyyətin təbiətinin və ya vəziyyətinin təhlili olaraq təyin olunur. Diaqnostik testlər müəllimə (və tələbəyə) yaxınlaşan bir mövzu barədə nə qədər bildiklərini və bilmədiklərini öyrənməyə kömək edir. Bu, müəllimin dərs planlaşdırmasını, öyrənmə məqsədlərini məlumatlandırmağa və az və ya çox vaxt sərf edə biləcəyi sahələri müəyyənləşdirməyə kömək edir. Müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin aparılmasında əsas məqsəd ondan ibarətdir ki, burada müəllimlərin bilik və bacarıq səviyyəsinin test üsulu ilə müəyyənləşdirilib üzə çıxarılır və bunun nəticəsində onların nəticələrindən asılı olaraq müəllimlərin inkişafyönümlü təlimlərə cəlb edilir. Dövlətin təhsil siyasətinə və beynəlxalq standartlara uyğun kadrların yetişdirilməsi onun ana xəttini təşkil edir. Diaqnostik qiymətləndirmədə iştirak edəcək müəllimlərin İKT bacarıqlarının inkişaf etdirilməsi məqsədiylə müxtəlif tədbirlər təşkil olunmuşdur. 2014-cü ildə Bakı şəhərində başlanan diaqnostik qiymətləndirmə mərhələli şəkildə ölkənin digər şəhər və rayonlarını əhatə edib və ümumilikdə 140 minə yaxın müəllimin bilik və bacarıq səviyyəsi qiymətləndirilib. 2014-cü ildə Bakı şəhərinin dövlət ümumi təhsil müəssisələrində işləyən 30 mindən çox müəllim üçün diaqnostik qiymətləndirilmə keçirilmişdir.2016-cı ilin noyabr-dekabr və 2017-ci ilin yanvar ayında keçirilmiş diaqnostik qiymətləndirmənin növbəti mərhələsində digər 26 şəhər və rayon əhatə olundu. Ümumi olaraq, 25693 müəllimdən 28 nəfəri 100% nəticə göstərmişdir. Müəllimlərin diaqnostik qiymətləndirilməsi nəticələrinin onların peşəkar inkişafında rolu danılmazdır. Onlar öz peşə strukturundakı boşluqları müəyyən edir və lazımi tədbirlər görürlər. Bütün bu islahatlar müəllim məsuliyyətini daim artmasına, göstərilən etimada uyğun daha innovativ metodlara üstünlük verilməsinə gətirib çıxarır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.10.2015-ci il 994 nömrəli əmri ilə təsdiq olunmuş "Müəllimlərin Diaqnostik qiymətləndirilməsi" haqqında qanun

2.National Education Association-The role of teacher evaluation

3.National Education Association-Process for teacher assessment anddevelopment

РЕЗЮМЕ

Личность учителя имеет большое значение в педагогической деятельности. В отличие от других профессий, личность учителя оказывает непосредственное влияние на его работу - педагогический процесс. Учитель, прежде всего, воспитывает своей личностью. Ничто не может заменить учителя в образовании. Чтобы добиться успеха в своей работе, учитель должен иметь настоящую личность и развивать положительные качества.

SUMMARY

The personality of the teacher is of great importance in pedagogical activity. Unlike other professions, a teacher's personality has a direct impact on his work - the pedagogical process. The teacher, first of all, educates with his personality. Nothing can replace a teacher in education. In order to be successful in his work, a teacher must have a real personality and develop positive qualities.

Qasımlı Ağcaxanım Rəfail qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos.M.Zamanova

REYTİNQ ANLAYIŞI VƏ MAHİYYƏTİ

Açar sözlər: *reytinq sistemi, tədris ili, tələbə, qiymətləndirmə, komponent, reytinq üstünlükləri*

Ключевые слова: *рейтинговая система, учебный год, студент, оценка, компонент, рейтинговые предпочтения*

Key words: *rating system, academic year, student, evaluation, component, superiority of rating*

Təhsil sahəsində aparılan araşdırmaların əsas istiqamətlərin biri təhsilin effektiv həyata keçirilmə metodlarının işlənib hazırlanmasıdır. Dünya üzrə aparılan bu araşdırmalarda gəlinən əsas fikirlərdən biri təhsilin sistemli getdiyi və şagirdlərin bu sistemliliyi izlədiyi zamankifayət qədər müsbət təsir göstərməsidir. Tədris materiallarınınöyrənilməsi prosesində qeyd etdiyimiz nəzarət olmadığı təqdirdə, öyrəncilər öz biliklərinin real səviyyəsini obyektiv şəkildə ölçə bilmirlər, çatışmazlıqlarını aşkarlayıb inkişaf etdirə bilmirlər.Bu problemin ən verimli həll üsulu reytinq sisteminin tətbiq olunması ilə məktəb fəaliyyətinin qiymətləndirilməsidir, çündi "işləri düzəltməyin ən yabşı yrlu rəqabəti təşviq etməddir: aşağı səviqyəli özünə bidmət edən rəqabət deqil, müdəmməlliyə nail olmaq üçün səq göstərməkdir".D. Carnegie "İnsanları necə dostlaşdırmaq və təsir qtmək olar."Reqtinq insanın keyfiyyətini dəmiyyətcə qiymətləndirməkdir. Buna görə şagirdin tədris reytinqi, insana pedaqoji təsirinin nəticələrinin dəmiyyətcə qiymətləndirilməsidir. Tələbə reqtinqinə aşağıdakı tərif veririd: Reytinq tələbənin müəyyən zaman çərçivəsində topladığı ballar, bu zaman ərzində ekspertlər tərəfindən müəyyənləşdirilmiş xüsusi formulalar vasitəsilə hesablanmış cəmdir."Reytinq" sözünün hərfi tərcüməsi ingilis dilindən "dərəcə" kimi qəbul olunur. Ekspertlər tərəfindən müəyyən edilən reytinq texnalogiyalarına aşağıdakıları göstərə bilərik: laboratoriya işləri, nəzarət, abstraktlar, testlər və s. Uzun zaman ərzində istifadə olunan ölçmə və qiymətləndirmə metodlarından fərqli olaraq reytinq texnologiyası konkret zaman çərçivəsində tələbə qiymətlərinin sıra ilə yekunlaşdırılmasını əhatə edir. Fənlər üzrə hazırkı reytinq balı bütün tədris işlərinin qiymətləndirilməsindən və məktəbdə tətbiq olunan biliklərə nəzarətdən, o cümlədən yalnız tədris planı üzrə işlərdən deyil, həm də olimpiada, müsabiqələrdə iştirak etmək, konfranslarda çıxışlar və s. Əlavə fəaliyyətlərdən ibarətdir. Ümumiyyətlə reytinq tələbələrə sinifdə və ya qrupda hansı sırada olduqlarını bilmələri üçün çox vacibdir. Burada ən problemli məsələ reytinq cədvəlidir. Reytinq sistemi yaradarkən, hər bir akademik işin növlərini müvafiq sayda bal ilə qiymətləndirmək olduqca vacibdir. Bu sistemdən istifadənin müxtəlif növləri mövcuddur. Məsələn bir sıra universitetlər var ki, 500 ballıq şkaladan istifadə edir amma digər bir çox universitetlər 100 ballıq şkaladan istifadə edirlər. Tələbənin hazırkı reytinqi aşağıdakı komponentlərdən ibarətdir:

1.müxtəlif fənlər üzrə qiymətlər
2.nəzarət tədbirləri üçün ballar
3. mükafat fondu xalları
4.müstəqil və tədris tədqiqat işləri üçün ballar.

Belə ki, gördükləri hər bir iş üçün tələbələr qiymətləndirilir.Bu işlər həm məcnuri həmdə qeyri məcburi ola bilər.Dərslərdə iştirak, testlərin, esse, proqramın və ya tədris planının verdiyi layihələrin icrası bunların hər biri tələbələrin qiymətləndirilməsi üçündür. Reytinq sisteminin bor sıra üstünlükləri vardır. Reytinqin üstünlüklərinə aşağıdakılar daxildir:

1.tədris ili ərzində şagirdlərin ritmik sistematik işini təşkil etmək və saxlamaq imkanı;

2.sinifdə davamiyyət və nizam-intizam artır, şagirdlərin dərsə gəlməsi onlar üçün "sərfəli" olur,

3.son sinifin proqnozlaşdırılması, şagirdlər onun nailiyyətinə şüurlu şəkildə yaxınlaşır və nəticədə sistem onlar üçün cəlbedici olur;

4.həm tələbələr, həm də müəllimlər üçün işə yaradıcı münasibətin stimullaşdırılması, öyrənməyə və qiymətləndirilməyə həvəs

5.son sinifdə subyektivliyin azalması, müəllim və tələbə arasındakı əlaqədən asılı deyil

6.məktəbdə böyük rol oynayan rəqabət elementini məktəblilərin həm məcburi, həm də əlavə müstəqil işlərini stimullaşdıran sistemdir

7.təsadüfi bir yekun nişan alma ehtimalını azaltmaq, çünki tələbənin uzun müddət ərzində gördüyü işlər nəzərə alınır.

Ədəbiyyat

1.rating -system.fandom.com “ articles of some education issues”
2.www\ merriam -webster.com\ “ importance of rating in modern education era”
3.www\e-library.az “təhsilimiz dünən bugün sabah”
4.edu.gov.az -Monitori, qiymətləndirmə və təhsilin keyfiyyəti
5.”14-cu Azərbaycan beynəlxalq təhsil sərgisi” EduExpo.az

РЕЗЮМЕ

Рейтинговая система считается первым помощником студентов и школьников, потому что эта система, прежде всего, побуждает их читать и соревноваться. В целом рейтинг - это как оценивать людей. Многие преподаватели высказали свое мнение об этой системе. Что касается перевода слова rating, то это английское слово, означающее «степень». Есть много типов рейтинговых систем. Рейтинги присуждают баллы по различным предметам, наблюдения за событиями присуждают баллы фондов и оценки за учебные работы. Рейтинг предотвращает напрасную трату времени на предварительную работу.

SUMMARY

The rating system is considered to be the first helper of students and pupils, because this system, above all, causes them to read and compete. In general, the rating is how to evaluate people. Many educators have expressed their views on this system. As for the translation of the word rating, it is an English word meaning "degree". There are many types of rating system. Rating points the scores of different subjects, observing events award funds’scores and scores for study works.The rating prevents the waste of pre-work from wasting time.

Qasımlı Ağcaxanım Rəfail qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos.M.Zamanova

UNİVERSİTETLƏRƏ REYTİNQ VERİLMƏSİ KRİTERİYALARI

Açar sözlər: *reytinq sistemi, reytinq kriteriyaları, tələbə, ölçü, universitet üstünlükləri, təlim keyfiyyətləri, tədris, nisbət*

Ключевые слова: *рейтинговая система, критерии оценки, студент, измерение, университетские предпочтения, преподавательские качества, преподавание, соотношение*

Key words: *rating system, rating criteria, student, measurement, university preferences, teaching qualities, teaching, ratio*

Ali təhsilin keyfiyyətinin ölçülməsi, həmçinin problem və çatışmazlıqların müəyyən olunması məqsədilə universitetlərin reytinq sıralaması müəyyən olunur. Bunun üçün xüsusi reytinq indikatorları seçilir və həmin indikatorları üzrə ölçülmüş universitetlərin reytinq cədvəli qurulur. Beləliklə, tələbə və müəllimlər asanlıqla universitetlərin inkişaf səviyyəsini, yerli və beynəlxalq aləmdə nüfuzunu rahatlıqla görə bilərlər. Dünya Universitet Reytinqləri universitet performansını təsirli bir şəkildə əhatə edən altı sadə metrikdən istifadə edərək tərtib edilmiş olduqca uyğun bir metodoloji çərçivədən istifadə edir. Həyat Elmləri və Təbiət Elmləri üzrə ixtisaslaşan qurumların yersiz üstünlüklərə sahib olmaması üçün 2015-ci ildə fakültə sahəsindəki normallaşma tətbiq olunub. Bunu etməklə, illik müqayisələrin qüvvədə qalmasını və lazımsız dəyişkənliyin minimuma endirilməsini təmin etmək hədəflənir. Beləliklə, universitetlər aşağıdakı altı ölçüyə görə qiymətləndirilməyə davam edir:

1. Akademik nüfuz
2. İşəgötürənin nüfuzu
3. Fakültə / Tələbə nisbəti
4.Beynəlxalq fakültə nisbəti
5. Beynəlxalq Tələbə nisbəti

1. Bir təhsil müəssisəsinin gələcək nəsil akademiklərini yetişdirməyə nə dərəcədə sadiq qaldığına dair bir məlumat verməklə yanaşı, aspirant araşdırmaçı tələbələrin də böyük bir hissəsi, məzunlar üçün cəlbedici və inkişaf etdirilməsində təsirli olan ən yüksək səviyyədə tədris edilməsini təklif edir. Bu göstərici doktorantura mükafatlarının həcminin nizam-intizama görə dəyişdiyini əks etdirən bir universitetin unikal mövzu qarışığını nəzərə alaraq normallaşdırılır.

Təşkilati gəlir akademik heyət sayına nisbətdə ölçülür və alıcılıq qabiliyyəti bərabərliyi üçün normallaşdırılır. Bu, bir qurumun ümumi statusunu göstərir və tələbələr və işçilər üçün mövcud infrastruktur və imkanlar haqqında geniş məlumat verir.

2. Tələbələr universitet təhsilini məşğulluq bazarı üçün dəyərli bir hazırlıq ala biləcəkləri bir vasitə olaraq qəbul etməyə davam edirlər. Buradan belə çıxır ki, bu hazırlığı təmin edən qurumların nə qədər uğurlu olduqlarını qiymətləndirmək əsas auditoriyası qlobal tələbə icması olan bir reytinq üçün vacibdir.

3. Təlim keyfiyyəti tələbələr tərəfindən universitetlərin reytinq ortalaması müəyyən olunan zaman onlar üçün ən yüksək göstərici kimi qəbul olunur. Ölçmək çox çətindir, amma müəllim / tələbə nisbətlərinin ölçülməsinin tədrisin keyfiyyəti üçün ən təsirli metrik olduğu müəyyən edilir. Bəhs edilən metrik təşkilatların tələbələrin mühaziraçi və müəllimlərə giriş səviyyəsini təmin edə bilmə dərəcəsini qiymətləndirir və tələbə başına düşən çox sayda müəllim üzvünün hər bir akademik üçün tədris yükünü azaldacağını qəbul edir.

4. Sitatlar hər bir universitetin insan biliklərinin cəminə nə qədər töhfə verdiyini bizə göstərməyə kömək edir: araşdırmalarının fərqləndiyini, digər alimlər tərəfindən seçildiyini və

qurulduğunu və ən əsası qlobal elmi cəmiyyətdə paylaşıldığını izah edirlər. Məlumatlar fərqli mövzu sahələri arasındakı istinad həcmindəki dəyişiklikləri əks etdirmək üçün normallaşdırılır. Bu o deməkdir ki, ənənəvi olaraq yüksək istinad sayı olan mövzularda yüksək tədqiqat fəaliyyəti olan təşkilatlar haqsız üstünlük qazanmırlar.

5-6. Yüksək dərəcədə beynəlxalq bir universitet bir sıra üstünlüklər əldə edir və təqdim edir. Bu, dünyanın hər yerindən müəllim və tələbələri cəlb etmək qabiliyyətini nümayiş etdirir və bu da güclü beynəlxalq markaya sahib olduğunu göstərir. Bu, mahiyyət etibarilə beynəlmiləlləşdirilmiş bir ali təhsil sektorunda fəaliyyət göstərən qurumlar üçün olduqca qlobal bir dünyagörüşü nəzərdə tutur. Həm tələbələrə həm də işçilərə çoxmillətli bir mühit təqdim edərək ən yaxşı təcrübə və inanc mübadiləsini asanlaşdırır. Bunu edərkən tələbələrə beynəlxalq rəğbət və işəgötürənlər üçün getdikcə daha çox dəyər qazanan yumşaq bacarıq ola qlobal məlumatlılıq təmin edir. Bu göstəricilərin hər ikisi ümumi cəmi 5% dəyərindədir. İstisnalar ;

Universitetlər bakalavr tələbələrinə dərs vermədikləri təqdirdə və ya tədqiqat nəticələri 4 il ərzində 1000-dən az müvafiq nəşr təşkil etdikləri təqdirdə, Dünya Universitetləri Sıralamasından xaric edilə bilər.

Ədəbiyyat

1. Mərdanov M. Azərbaycan təhsil sistemi, real vəziyyət , islahat istiqamətləri.
2. internet resurslari :www\ e-qanun.az
3.”14-cu Azərbaycan beynəlxalq təhsil sərgisi” EduExpo.az
4. internet resursları :www\ rating-system.com
5. “The psychology of rating system” -Hacker Noon

РЕЗЮМЕ

Рейтинги устанавливаются студентами и родителями для измерения уровня развития глобальных и местных университетов. Что можно измерить различными метриками. В мировой практике средний рейтинг, который можно измерить по 6 параметрам, играет важную роль в видении и предотвращении существующих проблем в университетах. Рейтинг состоит не из распространения рекламы университетов, а из раскрытия их плюсов и минусов.

SUMMARY

Rankings are set by students and parents to measure the level of development of global and local universities. Which can be measured by various metrics. In the world practice, the average rating, which can be measured by 6 metrics, plays an important role in seeing and preventing the existing problems in universities. The ranking does not consist of the advertising of universities, but reveals their pros and cons.

Həsənova Könül Vasif qızı
ADPU, magistrant
Elmi rəhbər:b/m, p.ü.f.d.İsmayılova Mənsurə

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ, ONLARIN PEDAQOJİ PROSESDƏ ŞAGİRDƏ TƏSİRİ

Açar sözlər: *monitorinq və qiymətləndirmə, Qiymətləndirmə Konsepsiyası, təhsilin keyfiyyəti, pedaqoji proses, müəllim-şagird*

Ключевые слова: *мониторинг и оценка, Концепция Оценки, качество образования, педагогический процесс, учитель-ученик*

Key words: *monitoring and evaluation, Concept of Evaluation, quality of education, pedagogical process, teacher-student*

Səhiyyə, iqtisadiyyat, təsərrüfat, təhsil və s. kimi hər bir sahənin keyfiyyətinin inkişafı, təkmilləşməsi, effektivliyinin izlənilməsi vacib məsələlərdən biridir. Məhz təhsil sahəsinin də

izlənilməsi-monitorinqi hazırda ən aktual məsələlərdən biridir. Təhsilin monitorinqi zamanı müəssisənin idarəedilməsi, infrastrukturu, maddi-texniki bazası, işçi heyəti, pedaqoji prosesin özü və s. nəzərə alınmalıdır. Ümumiyyətlə, təlim-tərbiyə prosesində monitorinq və qiymətləndirmə keyfiyyətin öyrənilməsi baxımından ən önəmli vasitədir. Monitorinq və qiymətləndirmə bir-birilə əlaqəli olub hər ikisi geniş anlayışdır. Həm ölkəmizdə, həm də ölkəmizdən xaricdə bu sistemin daha da inkişaf etdirilməsi üzrə işlər aparılır. Monitorinq və qiymətləndirmənin əsas məqsədi müəllimlərə, təhsil müəssisəsi rəhbərlərinə, şagirdlərə təlim-tərbiyə prosesini, onun vəziyyəti, təhsilin keyfiyyəti haqqında məlumat vermək və bütün bunları daha da təkmilləşdirmək, keyfiyyətini artırmaq imkanı yaratmaqdan ibarətdir.

Monitorinq və qiymətləndirmənin mahiyyətinə, məqsəd və vəzifələrinə ayrı-ayrılıqda nəzər salaq. Monitorinq sözü latın mənşəli söz olub mənası "xəbərdar etmək" deməkdir. İngilis dilində isə "izləmə", "müşahidə aparma" deməkdir. Hələ keçən əsrin 90-cı illərindən başlayaraq təhsildə monitorinq tətbiq olunmağa başlanmışdır. (3, 10) Hər hansı bir fəaliyyət növünün sistemli şəkildə müşahidə edilməsi, izlənilməsi və nəticələrin qeydə alınmasıdır. Müasir dövrdə monitorinq bir çox fəaliyyət sahələrində, həmçinin təhsil sahəsində müvəffəqiyyətlə tətbiq olunan bir texnologiya kimi qəbul olunur.

Monitorinqin 3 əsastərkib hissəsi var. Bunlar məlumatların toplanılması, onların təhlili və bu sahədə görülən tədbirlərdən ibarətdir. Yəni monitorinq zamanı hər hansı bir fəaliyyət sahəsi üzrə obyekt ola biləcək məlumatlar toplanır, bu məlumatlar təhlil olunur, sonda isə ortaya çıxan bütün problemlərin aradan qaldırılması üçün tədbirlər həyata keçirilməyə başlanır. Bu addımlar bir-birilə vəhdət halında olmalı, bir-birini tamamlamalı və sonda qoyulmuş məqsədə nail olmaq lazımdır.

Bildiyimiz kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 Yanvar 2009-cu il qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" təsdiq olunmuşdur. (2, 90) Konsepsiya ümumi təhsilin müasirləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Bu sənəddə qiymətləndirmə sisteminin vəzifələri, xüsusiyyətləri, növləri, Konsepsiyanın yaranmasını zəruri edən səbəblər və s. əks olunmuşdur. Burada qiymətləndirməyə bəzi tələblər qoyulmuşdur ki, bu tələblərin də əsas məqsədi elə təhsilin keyfiyyətinin artırılmasına yönəlmişdir.

Monitorinqlə sıx bağlı olan və adları yanaşı çəkilən qiymətləndirmə - hər hansı bir fəaliyyətin keyfiyyətinin müəyyən göstəricilərə görə öyrənilməsi kimi başa düşülür. Qiymətləndirmə pedaqoji prosesin keyfiyyətini yüksəltməyə, şagirdlərin bilik, bacarıq və vərdişlərə nə dərəcədə yiyələndiklərini müəyyənləşdirməyə imkan yaradır. Qiymətləndirmə vasitəsilə rəhbərlər təhsil müəssisəsi, müəllim və şagirdlərin fəaliyyəti haqqında məlumat toplayır və lazım gələrsə müxtəlif tədbirlər həyata keçirirlər. Qiymətləndirmə və monitorinq bir-birilə bağlı olub, biri digəri üçün şərait yaradır. Məsələn, qabaqcıl təhsil sisteminə malik bir çox ölkələrdə şagird nailiyyətlərinin monitorinqi məktəbin müəllimləri tərəfindən aparılır. Belə ki, tədrisdə geri qalan şagirdlər haqqında məlumat almaq üçün müəllimlər məktəbdaxili qiymətləndirmənin xüsusi növündən - formativ qiymətləndirmədən istifadə edirlər. Beləliklə, heç bir şagird diqqətdən kənarda qalmır.

Gördüyümüz kimi həm pedaqoji monitorinq, həm də qiymətləndirmənin əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək və inkişaf etdirməkdir. Qiymətləndirmə və monitorinqin məqsədlərinə nəzər yetirək:

- ✓ Təhsil sisteminin inkişafını təmin etmək;
- ✓ Təhsilin keyfiyyəti barədə məlumat əldə etmək;
- ✓ Təhsilin müxtəlif səviyyələrinin idarəedilməsi barədə qərarlar qəbul etmək;
- ✓ Təhsil işçilərini, təhsil mütəxəssislərini təhsil fəaliyyətinin şəraiti və nəticələri haqqında məlumatlandırmaq və s.

Monitorinq və qiymətləndirmənin vəzifələrinə diqqət yetirsək onun qarşısında ümumilikdə pedaqoji prosesə nəzarət etmək və onun ayrı-ayrı sahələrinin fəaliyyəti ilə bağlı qərarlar qəbul etmək vəzifəsinin durduğunu görə bilərik.

Monitorinq və qiymətləndirmənin təlim-tərbiyə prosesində rolu çox böyükdür. Bu prosesdə monitorinqin zəif şəkildə həyata keçirilməsi sözsüz ki, bu fəaliyyəti ləng və təsirsiz edir. Müəllimin tədris prosesinə nəzarət edilmədikdə onlar dərsi düzgün və planlı həyata keçirməkdən çəkinirlər. Belə olduqda şagirdlər müəllimlərlə daha az əlaqədə olduqlarını hiss edib dərsə getmək həvəsini itirir və nəticədə davamiyyət azalır. Bir sözlə zəif və düzgün olmayan monitorinq müəllimlərin tədrisinə təsir göstərir, bu isə şagirdlərin keyfiyyətsiz təhsili ilə nəticələnir.

Pedaqoji prosesdə monitorinqin vacibliyindən və onun şagirdlərə təsirindən danışdığımız zaman qiymətləndirmənin də rolundan danışmağı unutmamalıyıq. Pedaqoji prosesin düzgün qurulması, şagirdlərin fəaliyyəti obyektiv aparılan qiymətləndirmədən çox asılıdır. Müəllim qiymətləndirmə aparan zaman şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq bunu həyata keçirməlidir. Belə olduğu zaman hər bir şagirdin özünəməxsus bacarıqları ortaya çıxır. Bu bacarıqlar isə onların gələcək həyatlarını qurmağa kömək edir.

Beləliklə, monitorinq və qiymətləndirmə pedaqoji prosesdəşagirdlər üçün əhəmiyyətli rola malikdir. Bu sistem təhsilin keyfiyyətinin idarəolunmasında, şagirdlərin mükəmməl təhsil almasında, təhsildəki zəif və güclü tərəflərin aşkara çıxarılmasında vacib roloynayır. Dünyanın inkişaf etmiş ölkələrində monitorinq və qiymətləndirmə sistemi böyük aktuallıq kəsb edir. Çünki cəmiyyətin hərtərəfli inkişafı üçün təhsilin keyfiyyəti ən əsas göstəricilərdən biridir. Düzdür, hələ də monitorinq və qiymətləndirmə sistemində müəyyən dərəcədə problemlər var, lakin zamanla bütün bunların aradan qaldırılacağına və təhsilin yüksək səviyyədə inkişaf edəcəyinə inanıram.

Ədəbiyyat

1. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı-2010, 516 s
2. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı-2010, 170 s
3. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı-2003, 416 s
4. Mtetesha, Nicholas. Monitoring and Evaluation in Education. https://www.academia.edu/4942025/Monitoring_and_Evaluation_in_Education

XÜLASƏ

Davamlı inkişaf idarəetmə sisteminin düzgün təşkili ilə əlaqədardır. Bunun üçün monitorinq və qiymətləndirmə sisteminin həlledici roluna inanırıq.Məqalədə monitorinq və qiymətləndirmə anlayışları haqqında məlumat verilmiş, onların məqsəd və vəzifələri aydınlaşdırılmışdır. Monitorinq və qiymətləndirmənin təhsilin keyfiyyətini necə artırması, təlim-tərbiyə prosesində bu sistemin vacibliyi müzakirə olunmuşdur.

РЕЗЮМЕ

Устойчивое развитие зависит от правильной организации системы менеджмента. Мы верим в решающую роль системы мониторинга и оценки для этого. В статье представлена информация о понятиях мониторинга и оценки, разъяснены их цели и задачи. Обсуждались, как мониторинг и оценка могут улучшить качество образования, важность этой системы в образовательном процессе.

SUMMARY

Sustainable development depends on the proper organization of the management system. We believe in the crucial role of the monitoring and evaluation system for this.The article

provides information on the concepts of monitoring and evaluation, clarifies their goals and objectives. How monitoring and evaluation can improve the quality of education, the importance of this system in the educational process were discussed.

İbrahimova Leyla Samir qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. Gülşən Novruzova

İBTİDAİ SİNİFLƏRDƏ FƏNN KURİKULUMLARIN TƏTBİQİNDƏ QİYMƏTLƏNDİRMƏNİN ROLU

Açar sözlər: *qiymətləndirmə, nailiyyət, diaqnostik, formativ, summativ, beynəlxalq qiymətləndirmə*

Ключевые слова: *оценка, достижение, диагностический, формирующий, итоговый, международнайа оценка*

Key words: *evaluation, achievement, diagnostic, formative, summative, international assessment*

"Kurikulum" pedaqoji anlayışdır. Kurikulum islahatlarının nəticəsində Respublika ərazisində tələbyönümlü kurikulumların hazırlanması məqsədilə müəllim, tərbiyəçi, məktəb rəhbəri və təhsil mütəxəssislərinin təmsil olunduğu, eləcə də təhsilləəlaqəli olan cəmiyyət üzvlərinin iştirak etdiyi işçi və ekspert qrupları təlimlərəcəlb olunmuşdur.

Xarakterinə görə, kurikulum şəxsiyyətyönümlü və fənnyönümlü kurikulum olur. Şəxsiyyətyönümlü kurikulumda əsas məqsəd şagirdlərin şəxsi inkişaflarını təmin etməkdir. Fənn kurikulumlarında şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə işin məzmunu bilavasitə bir subyekt kimi təlim alanlara, öyrənənlərə yönəldilmişdir.

Təhsil prosesinin ənvacibkomponentlərindən biri qiymətləndirmədir. Təhsil alanların nailiyyətlərinin, biliklərinin fərqli yollarla dəyərləndirilməsi pedaqoji fəaliyyətin tərkib hissəsidir. Müasir dərsin mərhələlərindən biri olan qiymətləndirmə təlim prosesinin nəticəsini göstərir. Qiymətləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, təhsil alanların nəyi mənimsədiklərini, nələri öyrəndiklərini, nələri edə bildiklərini və onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Qiymətləndirmənin başlıca vəzifəsi müəllimlərin dərsə hazırlığını, dərslərin keyfiyyətini, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənlərin tədrisinin günün tələbləri baxımından yerinə yetirilmə səviyyəsini, şagirdlərin bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək və pedaqoji kollektivin hər bir üzvünə hansı cəhətdən metodik kömək göstərmək lazım gəldiyini aydınlaşdırmaqdır.

Qiymətləndirmə nəticəsinə uyğun olaraq, müəlimin tədris metodundakı səhvlər, çatışmazlıqlar, yaxud şagirdin bilik, bacarıqlarındakı əksikliklər müəyyən edilir. Qiymətləndirmə imkan yaradır ki, yuxarıda sadalanan problemlər müəyyən edilsin vəbərpa edilsin.

Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid nəticəsində kurikulum yaranmışdır. Müasir yanaşmalara uyğun olaraq, məktəbdaxili qiymətləndirmə ilə yanaşı, ölkə üzrə qiymətləndirməyə də yanaşma dəyişmişdir. Yanaşmanın dəyişməsi bu qiymətləndirmənin adından da məlumdur. Milli qiymətləndirmə sahəsində ölkənin təhsil siyasətində inkişafyönlü köklü şəkildə dəyişikliklərin edilməsi durur.

Qiymətləndirmənin üç növü vardır: beynəlxalq qiymətləndirmə, milli qiymətləndirmə və məktəbdaxili qiymətləndirmə.

Beynəlxalq qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirilməsi funksiyalarını beynəlxalq səviyyədə yerinə yetirir. Burada müqayisəetmə tədqiqatları, moni-

torinqlər vasitəsilə aparılır, ölkədə təhsilin vəziyyəti haqqında məlumat əldə etmək, həlli tələb olunan daha əhəmiyyətliproblemləri üzə çıxarmaq, onları araşdırmaq, nəticələri xarici ölkələrlə müqayisə etmək imkanıyaradılır.

Milli qiymətləndirmə təhsilin keyfiyyətinə nəzarət etmək üçün müəyyən ilin, yaxud yarımilin sonunda mütəmadi olaraq həyata keçirilən və şagird nailiyyətlərinin qiymətləndirilməsini təmin edənsistemdir. Xüsusi təmsiledici seçim etməklə, 4-cü və 9-cu sinif şagirdləri arasında obyektiv testlər, sorğu vərəqələri və müvafiq təlimatlar vasitəsiləaparılır vəəldəolunan nəticələr kurikulumun, təlim-tədris prosesinin keyfiyyətinin, təhsildə aparılan digər dəyişikliklərin dəyərləndirilməsinə, təhsilin keyfiyyətinə nəzarətin daha səmərəli həyatakeçirilməsinə xidmət edir.

Məktəbdaxili qiymətləndirmənin üç növü mövcuddur: Diaqnostik qiymətləndirmə, formativ qiymətləndirmə və summativ qiymətlədirmə. Diaqnostik qiymətləndirmə bilik və bacarıqların ilkin səviyyədəqiymətləndirilməsi prosesidir. Diaqnostik qiymətləndirmənin necə keçiriləcəyi fənn müəllimi tərəfindən müəyyənləşdirilir. Diaqnostik qiymətləndirmənin nəticələri isə,rəsmi sənədlərdə qeyd edilmir. Nəticələr təhsil alanın portfoliosunda saxlanılır. İlkin səviyyənin müəyyənləşdirilməsi vəqiymətləndirilməsi şagirdin ilkin biliyini müəyyən edir və təlimin düzgün şəkildə təşkilində müəllimə kömək edir. İlkin səviyyənin qiymətləndirilməsi şagirdlərin sinifdəki fəaliyyətini müqayisə etmək və ya sonrakı inkişafını qiymətləndirmək üçün həyata keçirilir, buna görə də o, əsas psixometrik tələblərə cavab verməlidir.

Formativ qiymətləndirmə hər bölmənin sonunda həyata keçirilir və beləcə, irəliləmə yaxud əgər varsa, geriləmə müəyyən edilir və aradan qaldırılması üçün işlər görülür. Formativ qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir.

Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil. Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına uyğun olaraq aparılır. Məsələn, müəlim şagirdlərə qırmızı, sarı və yaşıl kartlar paylayır. Onlara üçbucaq mövzusu haqqında suallar verir. Bu suallara cavab verdikcə, yaşıl kartı qaldırırlar. Yaşıl kart şagirdə hər şeyin aydın olduğunu bildirir. Sarı kart şagirdin nisbətən mövzudan xəbərdar olduğunu göstərir. Qırmızı kart isə, şagirdin üçbucaq haqqında qaydaları başa düşmədiyini göstərir. Beləcə, həm şagird özünü qiymətləndirir, həm də müəllim dərsi hansı istiqamətdə aparmalı olduğunu başa düşür.

Summativ qiymətləndirmə isə, yarım ilin, tədris ilinin sonunda baş tutur. Summativ qiymətləndirmə kiçik, böyük və yekun qiymətləndirmə olur. Bu qiymətləndirmə məzmun standartlarının mənimsənilmə səviyyəsinin etibarlı göstəricisidir. Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Böyük summativ qiymətləndirmə yarım illərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrinin nəticələri illik qiymətlərinin hesablanmasında nəzərə alınır. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərdə tutulur.

Beləcə, ilkin səviyyənin qiymətləndirilməsi yəni, diaqnostik qiymətləndirmə "Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi?", "Şagirdlər tədris edilmiş materialın hansı hissəsini bilirlər?" suallarına cavab verməyə imkan yaradır.

Formativ qiymətləndirmə"Standartların mənimsənilməsinə doğru şagirdlər kifayət qədər irəliyə bilirlərmi?" sualına cavab üçün şərait yaradır.

Yekun, summativ qiymətləndirmə vasitəsilə isə, "Şagirdlər verilmiş standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə nail olublarmı?" haqqında cavabı aydınlaşdırmaq olur.

Ümumtəhsil müəssisələrində şagird nailiyyətlərinin qiymətləndirilməsi problemi hər zaman aktual məsələlərdən biri olmuşdur. Bu məsələ təhsili idarəedənləri, pedaqoq, psixoloq və meto-

distləri daim düşündürmüşdür. Tanınmış pedaqoq, psixoloq və metodistlərin əsərlərində problemlə bağlı müəyyən fikirlər söylənsə də, bu günədək problem tam həllini tapmamışdır.

Ümumi təhsil sahəsində dünyada üç əsas beynəlxalq qiymətləndirmə proqramı mövcuddur. Bunlar PIRLS, PISA və TIMSS proqramlarıdır. Azərbaycan Təhsil sistemi isə, hər üç proqramda iştirak edir. Proqramların məqsədi müxtəlif yaşlı şagirdlərin bilik və bacarıqlarını ölçərək ölkələr arasında müqayisə aparmaq və hər ölkənin nailiyyətini müqayisəli şəkildə təqdim etməkdir.

İbtidai siniflərdə fənn kurikulumların tətbiqində qiymətləndirmənin rolu çox vacibdir. Çünki, ibtidai təhsil səviyyəsində təməl necə yaxşı qoyularsa, biliklər artdıqca, bacarıqlar daha da mürəkkəbləşdikcə, düzgün əsas üzərində qurulacaqdır. Bu cəhətdən qiymətləndirmənin müsbət tərəfi danılmazdır. Vaxtlı-vaxtında inkişaf səviyyəsini izləmək, inkişafın müsbət yoxsa mənfi xətt üzrə getdiyi görmək, vaxtında lazımi tədbirlər görməyə imkan yaradır.

Ölkəmizdə təhsilin inkişafının müasir mərhələsi təhsil xidmətləri bazarında məktəblərin aralarında kəskin rəqabət şəraitində özünü büruzə verir. Bu da təhsil sferasının sonrakı inkişafına təsir etdiyi kimi təhsil müəssisəsinin bilik statistikasının formalaşmasına da səbəb olur. Təhsil müəssisəsi o zaman müsbət imic sərgiləyə bilər ki, o keyfiyyətli təhsil xidməti nümayiş etdirsin. Mütəxəssislər təhsil müəssisələrinin başlıca müsbət imicinə daha çox işçi-heyətin və rəhbərin obrazını, təhsil xidmətlərinin keyfiyyətini, müəssisə daxilindəki psixoloji komfort tərzi və səviyyəsi, təhsil xidmətlərinin qiymətini və s. aid edirlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası.- Azərbaycan müəllimi qəzeti, 2006, 29 iyul
2. Əhmədov A., Şərifov T., Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi. Kurikulumların hazırlanması və tətbiqi məsələləri: Metodik tövsiyə. Bakı, 2008.
3. Məktəbdaxili qiymətləndirmənin aparılmasına dair tövsiyələr. Azərbaycan müəllimi qəz., 2009, №4
4. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmə.
URL: gakh.edu.gov.az/az/pdf/4726/1497 (05.12.2016)

XÜLASƏ

Şagirdlərin qiymətləndirilməsi onların biliklərini, istedadlarını, düşüncələrini qiymətləndirməyə yönəlmiş həyati bir məşqdir. Şagirdlərin öyrənmə tərəqqisini müəyyənləşdirmək üçün sinifdə tədris olunan məzmunun bir hissəsinin sınaqdan keçirilməsini əhatə edir. Qiymətləndirmə tələbələrin sinif işləri və sinifdən kənar işlərini nəzərə almalıdır.

Qiymətləndirmə təhsilin məqsədlərinə çatdığını və ya etmədiyini müəyyənləşdirən öyrənmənin vacib bir hissəsini təşkil edir. Tələbənin fəaliyyətinə dair vacib qərar qəbul etmək üçün qiymətləndirmə qaçılmazdır. Çox vacibdir, çünki şagirdin sinif performansından asılı olaraq hansı kursda və ya karyerada iştirak edə biləcəyini müəyyənləşdirir.

РЕЗЮМЕ

Оценка учащихся - это жизненно важное упражнение, направленное на оценку их знаний, талантов, мыслей. Она включает в себя тестирование части материала, преподаваемого в классе, чтобы убедиться в успеваемости учащихся. При оценке следует учитывать классную работу учащихся и работу вне класса. Оценка является важной частью обучения, которая определяет, были ли достигнуты цели образования. При принятии важных решений относительно успеваемости ученика оценка неизбежна. Это очень важно, поскольку от него зависит, какой курс или профессия может выбрать студент, в зависимости от успеваемости в классе.

SUMMARY

Assessment of students is a vital exercise aimed at evaluating their knowledge, talents, thoughts. It involves testing a part of the content taught in class to ascertain the students' learning progress. Assessment should put into consideration students' class work and outside class work.

Assessment forms an important part of learning that determines whether the objectives of education have been attained or not. For important decision making concerning the student's performance, assessment is inevitable. It is very crucial since it determines what course or career can the student partake depending on class performance.

Həsənova Leyla İmamverdiyevna
Elmi rəhbər: dos.G.F.Novruzova

İBTİDAİ SİNİF DƏRSLİKLƏRİNİN HAZIRLANMASINA KONSEPTUAL YANAŞMALAR

Açar sözlər: *dərslik, məzmun, bilik, bacarıq, inkişaf, təhsilin keyfiyyəti, muasir dərslik*

Ключевые слова: *учебник, содержание, знания, умения, развитие, качество образования, современный учебник*

Key words: *textbook, content, knowledge, skills, development, quality of education, modern textbook*

Dərslik təhsil məzmununun daşıyıcısı və tədris materialının inkişafına kömək edən və şagirdlərin müstəqil yaradıcılıq fəaliyyətinin əsas bilik və bacarıqlarını inkişaf etdirən tədris vasitəsidir. Dərslik bir mövzunun məzmununun ardıcıl və sistematik şəkildə təqdim olunduğu bir nəşrdir.

Ənənəvi dərsliklər əsasən təhsilin mövzu-bilik paradiqmasına (modelinə) yönəlib və reproduktiv xarakter daşıyırdı. Ənənəvi dərsliklərin içərisindəki fənnin məzmununun uzun, mürəkkəb, daha çox nəzəriyyələrdən ibarət olması, izahı verilməyən elmi terminlərin, təriflərin, rəqəm və faktların həddindən artıq istifadəsi şagirdlərdə bilik və bacarıqların formalaşmasına mane olurdu. Mükəmməl olmayan metodik aparat, motivasiyaedici elementlərin zəif təmsil olunması, mövcud dərsliklərdə materialların təqdimatında monotonluq, onlardan istifadə edən şagirdlərin uğurlu öyrənmə fəaliyyətinə kömək etmirdi.

Yeni nəsil ibtidai sinif dərsliklərinin yaradılması təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir və effektiv təhsil mühiti yaradılması üçün əsas şərtlərdən biridir. Yalnız məlumatvermə funksiyasını yerinə yetirməyən, daha çox fəaliyyətə əsaslanan təlim prosesinin, şagirdlərin müstəqil işinin təşkilinə, fəal, interaktiv və digər müasir təhsil formalarından istifadəyə yönəlmiş dərsliklər və tədris materialları yaratmaq lazımdır.

Müasir məktəb dərsliyi təlimlə həyat və təcrübə arasındakı əlaqəni həyata keçirir, təhsil fəaliyyətində və həyat şəraitindəki bilik və bacarıqları aktuallaşdırır. Bu tələblər müasir məktəb dərsliklərinin hazırlanması üçün bələdçi rolunu oynayır, onların yaradılmasına konseptual yanaşmaları, onlar üçün didaktik, metodoloji tələbləri və tədris nəşrlərinin elmi-pedaqoji ekspertizası meyarlarını əhatə edir.

Müasir təhsildə prioritet istiqamət, səriştəli yanaşmaya keçiddir. Səriştəyə əsaslanan yanaşmanın əsas mahiyyəti, bilik mərkəzli paradiqmadan fəaliyyətə əsaslanan bir sistemə keçid, təlim məqsədlərinin təlim nəticələrinə çevrilməsidir. Tədrisin səriştə modelinə keçməklə ibtidai sinif dərsliyinin də əsas vəzifələri dəyişir:

- elmi dünyagörüşünün formalaşması, XXI əsr insanı üçün zəruri olan şəxsi keyfiyyətlərin inkişafı;

- şagirdlərə elmi bilik vasitələrindən, analitik və tənqidi düşüncə texnologiyalarından istifadə etmələrini öyrətmək;

- şagirdlərin müstəqil öyrənmələrinin öyrədilməsi, təhsil-tədqiqat fəaliyyətlərinin, bacarıqlarının inkişafı.

Müasir ibtidai sinif dərsliyin məzmunu aşağıdakı müddəalara əsaslanır:

- didaktika (mövzu ilə bağlı əsas biliklərin təqdimatı);

- psixologiya (dərsliyin şagirdin psixofizioloji xüsusiyyətlərinə uyğunluğu);

- metodologiya (müəllimə müxtəlif fəaliyyətlər təşkil etməyə imkan verən metodiki aparat).

Müasir ibtidai sinif dərslikləri təkcə mövzunu deyil, həm də bütöv ideyaları, sistematik bilikləri, idraki, praktik, ünsiyyət (komunikativ) və dəyər yönümlü fəaliyyət metodlarını mənimsəmək kimi başa düşülən nəticələrə nail olmağa yönəldilməlidir.

Müasir ibtidai sinif dərsliklərinin xüsusiyyətləri bunlardır:

- bəhs və ya bölmənin əvvəlində qoyulmuş diaqnostik məqsədlərə çatmaq üçün alqoritmlər;

- idrak marağını və öyrənmə motivasiyasını artıran texnikaların üstünlüyü;

- dialoq, dilin populyarlığı, fəal və interaktiv öyrənməyə, şagird ilə "canlı" dildə söhbətə yönəlmək (əks-əlaqə);

- tədris materialının diferensial (fərdi ehtiyacların nəzərə alınması) təqdimatı;

- tədqiqat metodlarından istifadə əsasında şagirdlərin müstəqil təhsil, idrak, yaradıcılıq fəaliyyətlərinə yönəlmiş təlim tapşırıqları sistemi;

- həyati bacarıqları inkişaf etdirən, yaddaqalan müqayisə və bənzətmələrin istifadəsi də daxil olmaqla geniş bir metodoloji vasitə və texnika;

- müəyyən bir akademik mövzunun məzmununun xüsusiyyətləri nəzərə alınmaqla təhsil sahəsindəki üsul və vasitələr;

- nəzarət, qarşılıqlı nəzarət və özünüidarəetmə vasitələri sistemi;

- qarşılıqlı əlaqə, əməkdaşlıq, birgə fəaliyyət və təlim prosesində iştirakçıların istifadəsi üçün mənbələr.

Müasir dərsliklərdə tələblərə cavab verən və təyinatı üzrə təyin olunan komponentlər mövcuddur. Onlar fənlər üzrə "funksional bələdçilərdir" və yalnız tədris materiallarını ehtiva etmirlər, həm də şagirdləri müstəqil bilik axtarışı və özunutəhsilə, özünütərbiyəyə dəvət edirlər.

Müasir dərsliklər məzmunda yeni yanaşmaları hərtərəfli şəkildə əks etdirməlidir:

- təhsil və idrak, inkişafetdirmə, sosiallaşma, motivasiya, gözləntilər xarakteri daşıyan vəzifələrin və fəaliyyət növlərinin diqqətlə seçilməsi;

- şagirdlərin müxtəlif yaradıcılıq fəaliyyətlərinin modelləşdirilməsi;

- şagirdlərin məntiqi, təcrübəyə yönəlmiş, analitik düşünmə bacarıqlarının, onların dil biliklərinin inkişafı üçün imkanlar yaratmaq;

- özünütəhsil bacarıqlarının inkişafına kömək etmək;

- idarəetmə, təşəbbüskarlıq, ünsiyyət və linqvistik səriştələrin inkişaf etdirilməsinə ehtiyacın nəzərə alınması.

Müasir məktəbdə ibtidai sinif dərsliyinin məqsədi sistemləşdirilmiş, didaktik və metodik işlənmiş tədris materiallarını təqdim etməklə, dövlət təhsil standartlarına və fənnin məzmun standartlarına, tədris planlarına uyğun olaraq yenilənmiş təhsil məzmununu açıqlamaqdır. İbtidai sinif dərslikləri məzmun seçiminin didaktik prinsiplərinə uyğun olmalı, tədris məqsədləri sisteminin həyata keçirilməsini, tədris materialının motivasiyalı mənimsənilməsini təmin etməlidir. Müasir dərsliklər elmi dünyagörüşünü, şagird şəxsiyyətinin əxlaqi keyfiyyətlərini formalaşdırma funksiyalarını yerinə yetirir, ona öyrənməyi, mənəvi dəyərlərin formalaşmasını, problemləri həll etmək və müəyyən sosial rolları yerinə yetirməyi öyrədir.

Ədəbiyyat

1. İsmayıl Umudlu. Kitab nəşri bu gün. Bakı. "Əbilov, Zeynalov və oğulları".

2. Ə.Əlizadə. Dərslik - muəllim - dərs. Kurikulum jurnalı, 2010, N4

3. Mərdanov, M.C. H.Əliyev Təhsil millətimizin gələcəyidir. Təhsil xalqımızın bu günü, millətimizin,dövlətimizin gələcəyi üçün ən vacib sahədir. Heydər Əliyevin nitqi. Bakı: Təhsil, 2002

4. S.Xəlilov. Azəbaycanda elm və onun aktual problemləri: Bakı: Oskar, 2010.

5. Ə.Abbasov, Şəxsiyyətyönümlü kurikulumlar əsasında yaradılan dərsliklərin xüsusiyyətləri. Kurikulum 2008, №2

6. Əlizadə Yeni pedoqoji təfəkkürün ana xətti: Təhsilin humanistləşdirilməsi problem. Kurikulum jurnalı, 2013, №2

7. M.C.Mərdanov "Azərbaycan Təhsil Tarixi.- III cild.- Bakı: Təhsil, 2011,

8. M.C.Mərdanov Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu. 9. https://report.az/elm-ve-tehsil-xeberleri/dersliklerin-hazirlanmasi-qaydasi-mueyyenlesdi/

10. "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə təsdiq edilmişdir)

11. "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli Qərarının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmri (Ceyhun Bayramov, Azərbaycan Respublikasının Təhsil naziri 17 iyun 2020-ci il)

XÜLASƏ

Məqalədə müasir məktəb dərsliyi və dərsliyin hazırlanması meyarlarına toxunulur. İbtidai sinif dərsliklərinin hazırlanmasına konseptual yanaşmalar ön plana çəkilir. Məqalədə müəllif dərsliklərlə bağlı əsas məsələlərə diqqətə çatdırır. Müasir məktəbdə ibtidai sinif dərsliyinin məqsədi sistemləşdirilmiş, didaktik və metodik işlənmiş tədris materiallarını təqdim edilməsidir. Dərsliklərin dövlət təhsil standartlarına və fənnin məzmun standartlarına, tədris planlarına uyğun olmasının vacibliyi vurğulanir.

РЕЗЮМЕ

В статье затрагиваются современные школьные учебники и критерии подготовки учебников. Выделены концептуальные подходы к разработке учебников для начальной школы. В статье автор обращает внимание на основные вопросы, касающиеся учебников.

Задача учебника начальной школы в современной школе - представить систематизированные, дидактические и методически разработанные учебные материалы. Подчеркивается важность учебников в соответствии с государственными образовательными стандартами и стандартами содержания предмета, учебных планов.

SUMMARY

The article deals with modern school textbooks and the criteria for preparing textbooks. The conceptual approaches to the development of textbooks for primary school are highlighted. In the article, the author draws attention to the main issues related to textbooks. The task of an elementary school textbook in a modern school is to present systematized, didactic and methodically developed teaching materials.

The importance of textbooks in accordance with state educational standards and standards of subject content, curricula is emphasized.

Cahangirli Aynur
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d.,b/m Şəfiqə Veys qızı Zülfüqarova

MENECMENT MODELİ VƏ MÜASİR İNFORMASİYA VASİTƏLƏRİ

Açar sözlər: *təhsilin idarəedilməsi, təhsil, İKT, texnologiya, informasiya*
Ключевые слова: *управление образованием, образование, ИКТ, технологии, информация*
Key words: *education management, education, ICT, technology, information*

Təhsil bir şəxsin, cəmiyyətin və dövlətin mənafeyi naminə məqsədyönlü bir prosesdir və əldə olunan təlim və tərbiyənin nəticəsidir. Bu məqsədyönlü proses idarə olunmalıdır ki, bu da "təhsilin idarəedilməsi" anlayışının mövcud olduğu deməkdir. Təhsilin idarəedilməsi təhsil sisteminin tam işləməsi və inkişafı üçün təhsil müəssisələri rəhbərlərinin məqsədyönlü fəaliyyətidir. İdarəetmə həm də idarə olunan bir sistemin optimal inkişafı, zəruri pedaqoji şərtlər, metodlar, vasitələr və təsirlərin köməyi ilə məqsədlərə həqiqi nailiyyətinə görə yeni, keyfiyyətcə daha yüksək səviyyəyə keçməsi kimi başa düşülür [1,s.12].

Təhsildə menecment modeli və müasir informasiya vasitələri dedikdə- informasiya-kommunikasiya texnologiyalarından istifadə əsasında təhsil müəssisəsində müsbət dəyişikliklərin real prosesi idarəetmənin elmi sistem əsasında informasiyalaşdırılması prosesinin və işlərin faktiki vəziyyəti üzərində qurulması zərurətinin ziddiyyəti ilə səciyyələnir. İnformasiya texnologiyalarının idarəetməyə tətbiqi informasiya dövrünün düşüncə tərzindən irəli gəlir [2, s.83].

İnformasiya-kommunikasiya texnologiyalarının təhsil müəssisələrinin idarə edilməsinə tətbiqi nəzəriyyəsi və praktikasının təhlili əsas problemlərin aşağıdakı qruplarını müəyyənləşdirməyə imkan verir:

Birincisi, təhsil müəssisəsi də daxil olmaqla, bütün səviyyəli təhsil sistemlərinin informasiyalaşdırılması sisteminə vahid yanaşmanın olmamasıdır. Bunun nəticəsidir ki, təhsil rəhbərlərinə və digər maraqlı şəxslərə malik olan vahid informasiya məkanının olmamasıdır. Mövcud informasiya sistemləri təhsil müəssisəsinin idarə edilməsində vəziyyəti yaxşılaşdırır, lakin təhsil müəssisələrinin idarə edilməsinin informasiyalaşdırılması sisteminə vahid yanaşmanın olmaması planlaşdırma və idarəetmədə qərarların tez və effektiv qəbul edilməsinə mane olur. İnformasiya axınları nizamsızdır, bu da məlumatların və hesabatların təkrarlanmasına səbəb olur və bu, əlavə mənbələr və xərclər tələb edir.

Bütün səviyyələrdə (regional, bələdiyyə, institusional) vahid bir əlaqə yoxdur. Bütün təhsil müəssisələri üçün vahid bir məlumat siyasəti hazırlanmamış və məlumatların etibarlılıq dərəcəsi müəyyən edilməmişdir. Bütün səviyyələrdə (regional, bələdiyyə, institusional) vahid qarşılıqlı əlaqə yoxdur. Bütün təhsil müəssisələri üçün vahid informasiya siyasəti işlənib hazırlanmayıb və informasiyanın etibarlılıq dərəcəsi müəyyənləşdirilməyib.

Vahid informasiya məkanının olmaması səbəbindən region, bələdiyyə və təhsil müəssisəsi arasında real vaxt rejimində informasiya mübadiləsi prosesi çətinləşib. Məsələn, təhsil müəssisəsinin idarə edilməsi sisteminin müxtəlif səviyyələrində və müxtəlif istifadəçilər üçün müxtəlif informasiya növlərinə aydın ehtiyac var, lakin ümumi məlumatların müvafiq bazası yoxdur. Müxtəlif inzibati mərkəzlər özlərini müəyyən informasiya ilə təmin etməyə çalışırlar, lakin nəticədə bu, heç də həmişə tam olmur.

İkinci problem təhsil müəssisələrinin rəhbərlərinin təhsil idarəetmə sisteminin informasiyalaşdırılması sahəsində kifayət qədər məlumatlarının olmamasıdır. Müasir təhsil müəssisələrinin rəhbərlərinin, informasiya və kommunikasiya texnologiyalarının istifadəsinə əsaslanan informasiya idarəetmə sistemlərinin yaradılması və istifadəsi haqqında kifayət qədər biliklərə malik deyil.

İnformasiya-kommunikasiya texnologiyaları sahəsində təhsil prosesi subyektlərinin kifayət qədər səriştəsizliyi, məlumat bazaları və informasiya sistemləri nəzəriyyəsi

sahəsində biliklərin olmaması, məlumatların təhlili və interpretasiyası - bütün bunlar üçüncü problem (səriştəlik problemi) yaradır.

Bundan başqa, təhsil strukturlarının idarə edilməsində yaşlı insanlar üçün psixoloji problemlər də mövcuddur. Bu qrup insan kompüterlərdən az istifadə edir və əldə etdiyi informasiyaya etibar etmir, idarəetmə qərarlarının qəbul edilməsində informasiya-kommunikasiya texnologiyalarının üstünlüklərini dərk etmir.

Menecment modelinin əhəmiyyəti ondan ibarətdir ki,

- informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə təhsil sistemlərinin idarəetmə informasiya modellərinin qurulması ilə bağlı müxtəlif yanaşmaların əsas çatışmazlıqları və üstünlükləri aşkar edilmişdir;
- bütöv konsepsiya işlənib hazırlanmışdır ki, burada bir tərəfdən təhsil müəssisəsinin inkişafının idarə edilməsinin informasiya modelinin layihələndirilməsinin məqsədləri, vasitələri və metodları, digər tərəfdən isə onun praktikada həyata keçirilməsi yolları əks olunmuşdur;
- təhsil müəssisəsinin inkişafının idarə edilməsinin informasiya modelinin qurulması prinsipləri sistemi əsaslandırılmışdır;
- göstərilən müddəalar təhsil müəssisəsinin idarə edilməsinin informasiyalaşdırılması prosesinin bütöv görüntüsü ilə idarəetmə nəzəriyyəsinin pedaqoji aspektlərini zənginləşdirir, müvafiq sahədə yeni tədqiqatların aparılması üçün zəmin yaradır.

Təhsilin idarəedilməsində müasir liderlər yalnız informasiya və kommunikasiya texnologiyaları sahəsində biliklərə sahib olmalı deyil, həm də peşə fəaliyyətlərində tətbiqi üzrə mütəxəssis olmalıdırlar.

Sonda qeyd etmək istəyirəm ki, hazırda informasiya texnologiyaları həqiqətən təhsil idarəetməsinin ayrılmaz hissəsidir. Onların köməyi ilə təhsildə daxili və xarici idarəetmə prosesləri yaradılır: ünsiyyət iştirakçıları arasında vaxtında və tam məlumat mübadiləsi aparılır, idarəetmənin təşkilati prosesi sistemləşdirilir, tədris prosesinin təşkili üçün daha təsirli və müasir yollar yaradılır.

Ədəbiyyat

1. Новые педагогические и информационные технологии в системе образования / Е.С.Полат [и др.]. Москва, 2012. 272 с.

2. Роберт И.В. Современные информационные технологии в образовании: дидактические проблемы, перспективы использования. М.: Школа-Пресс, 1994.-205с.

3. Cabbarov R. Təlim-tərbiyə müəssisələrinin idarə olunması məsələləri. Bakı, 2002. 4. http://www.informatik.az/ 5. http://www.anl.az/

Cahangirli Aynur

Menecment modeli və müasir informasiya vasitələri

XÜLASƏ

Məqalədə təhsildə menecment modeli və müasir informasiya vasitələrinin mənası açıqlanmış,menecment modelinin əhəmiyyəti göstərilmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının təhsil müəssisələrinin idarə edilməsinə tətbiqi nəzəriyyəsi və praktikasının təhlilinin əsas problemləri məsələsi göstərilmişdir. Elmi məqalədə təhsilin idarəedilməsində müasir liderlərin informasiya və kommunikasiya texnologiyaları sahəsində biliklərə sahib olmaları da qeyd olunmuşdur .

Джахангирли Айнур

Модель управления и
современные информационные ресурсы

РЕЗЮМЕ

В статье разъясняется модель управления в образовании и значение современных медиа, важность модели управления. Показаны основные проблемы анализа теории и практики применения информационных и коммуникационных технологий в управлении образовательными учреждениями.

В научной статье также отмечается, что современные лидеры в управлении образованием обладают знаниями в области информационных и коммуникационных технологий.

Jahangirli Aynur

Management model
and modern information resources

SUMMARY

The article explains the management model in education and the importance of modern media, the importance of the management model. The main problems of the analysis of the theory and practice of using information and communication technologies in the management of educational institutions are shown. The scientific article also notes that modern leaders in education management have knowledge in the field of information and communication technologies.

Quliyeva Şəms
ADPU, Menecment (Təhsilin təşkili və idarə olunması), magistrant

TƏLİM VƏ TƏHSİLİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN ELMİ-PEDAQOJİ ƏSASLARI

Açar sözlər: *təhsilin məzmunu, təlim prosesi, təlimin ziddiyyətləri, təlimin üsulları, təlimin funksiyaları, təlimin ünsürləri, təhsilin vahidliyi, kurrikulum*

Ключевые слова: *содержание образования, процесс изучения, противоречия преподавания, методы обучения, функции обучения, елементы обучения, единство образования, куррикулум*

Key words: *educational content, learning process, contradictions of learning, learning methods, learning functions, elements of learning, unity of education, curriculum*

Təlim prosesi şagirdin (tələbənin) idrak yolundakı hərəkəti ilə bağlıdır: o, biliksizlikdən bilikliliyə doğru inkişaf edir. Təlim prosesinin xarakteri, məzmunu və təşkili formaları cəmiyyətin tələbi ilə, elmi-texniki tərəqqinin təsiri ilə müəyyən olunur.

Təlim prosesi özü də inkişaf edir. Bu inkişafın mənbəyi ziddiyyətlərlə bağlıdır.

Təlim prosesinin ziddiyyətləri. Təlim prosesi üçün xarakterik ziddiyyətlər bunlardır: cəmiyyətin artan tələbləri ilə təlim prosesinin real imkanları arasında ziddiyyət; yeni vəzifələrlə təlimin mövcud səviyyəsi arasında ziddiyyət; müəllimin öyrətmə fəaliyyəti ilə şagirdin (tələbənin) öyrənmə fəaliyyəti arasında ziddiyyət; şagirdin (tələbənin) qavraması və anlaması arasında ziddiyyət; mövcud biliklərlə onları tətbiq etmək bacarıqları arasında ziddiyyət və s. Müəllim təlim prosesindəki ziddiyyətləri görməli və onların ardıcıl həllinə nail olmalıdır.

Göstərilən ziddiyyətlərin həll olunması təlim prosesi və onun tərkib hissələrinin (təlimin məzmunu, metod və formalarının) inkişafı və təkmilləşdirilməsinə, şagirdlərin dərin biliklərə, bacarıq və vərdişlərə yiyələnməsinə, zehni inkişafın, fəallıq və müstəqilliyin güclənməsinə səbəb olur.

Təlim prosesinin ziddiyyətlərini nəzərə almaqla müəllim bu prosesi daha səmərəli qurmağa, təlimin qarşısında duran funksiyaları daha müvəffəqiyyətlə yerinə yetirməyə çalışmalıdır.

Təlimin funksiyaları. Təlim üç başlıca funksiyanı yerinə yetirir: öyrətmək, tərbiyə etmək və inkişaf etdirmək.

Təlimin öyrədici funksiyası şagirdləri proqram dairəsində bilik, bacarıq və vərdişlərlə silahlandırmaqda ifadə olunur. Təlimdə həm xüsusi (ayrı-ayrı fənlər üzrə), həm də ümumi (bütün fənlər üçün zəruri olan) bacarıq və vərdişlər aşılanmalıdır. Ümumi bacarıq və vərdişlərə kitabla iş, planlaşdırma, optimal tempdə oxumaq və yazmaq, ifadə və inşa yazmaq, mətni yığcam danışmaq, özünənəzarət bacarıq və vərdişləri daxildir. Belə bacarıqlara yiyələnən şagirdlər uğurla oxuyur, təlimdə az vaxt və qüvvə sərf etməklə daha yüksək nəticələrə nail olurlar.

Təlimin tərbiyəedici funksiyası təlim prosesində şagirdləri tərbiyə etməkdə ifadə olunur. Gənc nəsildə vətənpərvərlik, milli iftixar hissi, humanizm və digər ideya-mənəvi keyfiyyətlər tərbiyə etməkdə, onlara yüksək hisslər aşılamaqda təlim əvəzsiz vasitədir. Tərbiyə funksiyası təlimin məzmunu, təşkili formaları və metodları, müəllimin şəxsi nümunəsi və ünsiyyət prosesi vasitəsilə həyata keçirilir.

Təlimin inkişafetdirici funksiyası təlim prosesində şagirdlərin ümumi inkişafında, psixi proseslərinin təşəkkülündə ifadə olunur. Təlim özlüyündə şagirdlərin diqqətinin, hafizəsinin, təfəkkür və təxəyyülünün inkişafını təmin etmir. Bu inkişafı təmin etmək üçün təlimi xüsusi istiqamətləndirmək lazımdır. Müəllim təlim prosesinin imkanlarından istifadə edərək, gənc nəslin zehni, mənəvi, iradi və emosional inkişafı üçün əlverişli şərait yaratmalıdır.

Real təlim prosesində təlimin hər üç funksiyası vəhdətdə özünü göstərir. Müəllim təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici funksiyalarını qarşılıqlı əlaqədə həyata keçirməklə şagird şəxsiyyətinin formalaşması və inkişafına kömək göstərə bilər.

Təlim funksiyalarının yerinə yetirilməsində müəllim-şagird (tələbə) ünsiyyəti və təlim prosesinin quruluşu da müəyyən əhəmiyyət kəsb edir. Demokratik, qarşılıqlı hörmətə əsaslanan ünsiyyət üslubu, eləcə də təlim prosesinin quruluş ünsürlərinin düzgün təşkili təlim funksiyalarını yerinə yetirmək baxımından böyük imkanlara malikdir.

Təlim prosesinin quruluşu (ünsürləri). Təlim prosesi özünə məxsus quruluşa malikdir. O, fəaliyyətin bütün ünsürlərini özündə əks etdirir. Təlim prosesinin ünsürlərinə təlimin məqsədi, motivləri, məzmunu, vasitə və metodları, təşkili formaları, təlimin nəticələri daxildir. Bütöv təlim prosesində bu ünsürlər qarşılıqlı vəhdətdə özünü göstərir. Təlim prosesinin quruluşunu sxematik olaraq belə ifadə etmək olar:

Təlim prosesi:Təlimin məqsədi, vəzifələri, təlimin məzmunu, təlimin vasitə və metodları, təlimin təşkili, təlimin formaları, təlimin nəticələri.

Təlim prosesinin ünsürləri arasında qanunauyğun əlaqə və asılılıq vardır. Hər bir əvvəlki ünsür özündən sonrakıları şərtləndirir; hər bir sonrakı ünsür özündən əvvəlkilərə istinad edir. Təlimin məqsədi onun məzmununu, onlar birlikdə vasitə, metod və formaları müəyyən edir. Təlimin gedişinə nəzarət məqsədin yerinə yetirilməsinə, fəaliyyəti tənzimləməyə xidmət göstərir. Təlim prosesinin bütün ünsürləri birlikdə son nəticəni təmin edir.

Təhsilin ümumiliyi vahidliyindən ayrılmazdır. Ümumi orta təhsilin vahidliyi əsasən onun məzmununda ifadə olunur.

Hamı üçün zəruri olan bacarıqlara nələr aid edilir? Bu sual tarixdə də müasir şəraitdə də mübahisələrə səbəb olmuşdur. Formal təhsil və dünyəvi təhsil nəzəriyyələrinin əlamətləri indi də bir sıra ölkələrdə qalmaqdadır. Məsələn müasir ABŞ-da , İngiltərə də, Fransada, Norveçdə eyni yaşlı uşaqlar ümumtəhsil məktəblərində müxtəlif proqramlar üzrə oxuyur və bir birindən fərqli bilik və bacarıqlara silahlanırlar. Çünki uşaqlar öz inkişaf səviyyələrinə və maraqlarına görə aşağı siniflərdən müxtəlif qruplara ayrılırlar. Nəticədə şagirdlərin bir qismi əsasən əməli bacarıqlara və vərdişlərə, digər qismi isə nəzəri hazırlığa yiyələnirlər.

İngiltərədə ibtidai məktəbi qurtaran 11 yaşlı uşaqlar müxtəlif məktəblər (qrammatika, texniki və müasir məktəblər) arasında bölüşdürülür. Bu məktəblərdə təhsilin xarakteri və

məzmunu bərabər olmur. Qrammatika məktəbi əsasən dil öyrədir, nisbətən daha dolğun və hərtərəfli hazırlıq verir. Həmin məktəb adətən varlı ailələrin uşaqlarına xidmət edir. Texniki məktəblərdə kənd təsərrüfatına ticarət və texnikaya aid fənlər tədris planının əsasını təşkil edir. Zəhmətkeş balalarını nəzərdə tutan "müasir" məktəblər gənclərə kütləvi peşələr üzrə əməli hazırlıq ümumtəhsil fənlərindən isə sadələşdirilmiş məlumatlar verir. Göründüyü kimi ümumi təhsil məzmunca gənclər üçün vahid hesab edilə bilməz.

Azərbaycan məktəblərində ümumi təhsilin vahidliyi onlara öyrədilən fənlərin təqribən eyni xarakterə və eyni həcmə malik olması ilə səciyyələnir. Bu fənlər 3 əsas qrupa ayrılır: təbiiyyat fənləri, humanitar fənlər və əmək hazırlığına xidmət edən fənlər. Birinci qrupa aid olan fənlər canlı və cansız təbiət haqqında gənclərə zəruri bilik və bacarıqlar verir.

İkinci qrupa aid olan fənlər cəmiyyətin ümumi inkişaf qanunları ilə şagirdləri silahlandırır. Üçüncü qrupa aid edilən fənlər şagirdlərə əmək vərdişləri fiziki keyfiyyətlər və bacarıqlar aşılayır. Bunlar gənclərə birlikdə zəruri olan elmi biliklər verilməsini onlarda idrak fəallığı yaradıcılıq qabiliyyəti, yüksək əxlaqi, fiziki və estetik qabiliyyətlər formalaşdırmağı nəzərdə tutur.

Deməli Azərbaycan respublikasında ümumi orta təhsilin məzmununa insan fəaliyyətinin bütün sahələri üçün zəruri olan biliklər və əmək ünsürləri daxil edilir. Deməli, Milli Pedaqogikaya görə milliyyətindən, dilindən, dinindən, mənşəyindən, yaşadığı yerdən asılı olmayaraq ölkədə məktəb yaşlı oğlan və qızların hamısına insan fəaliyyətinin bütün sahələri üçün zəruri sayılan təqribən eyni biliklərin, bacarıq və vərdişlərin habelə mənəvi keyfiyyətlərin öyrədilməsi ümumi təhsilin vahidliyidir.

Kurrikulum. Azərbaycanda yaranması və tətbiqi

1999-cu ildən bəri Azərbaycanda mərhələli şəkildə ümumi təhsilin məzmununda islahatlar həyata keçirilməyə başlanmışdır. Müxtəlif mərhələlərdə ümumi təhsil pilləsində məzmuna verilən tələbləri əks etdirən sənədlər təsdiq ve tətbiq edilmişdir.

Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasinda ümumi təhsilin konsepsiyasi (Milli Kurikulum) Nazirlər Kabinetinin 30 oktyabr 2006-ci il tarixli 233 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (Kurikulum) Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Kurikulumun mənası və məzmunu

Kurikulum terminin Azərbaycan və Rus dillərində ekvivalenti yoxdur. Lakin bu söz Beynəlxalq səviyyədə təhsil termini olaraq geniş istifadə olunur. Məhz buna görə də bu termin Azərbaycan təhsil işçiləri tərəfindən olduğu kimi qəbul edilmişdir.

Kurikulum mənşəcə latın sözü olub lüğəvi mənası yol, istiqamət deməkdir. Daha sonralar elm və təhsil sahəsində termin kimi işlənməyə başlanmışdır. Azərbaycan pedaqoji terminalogiyasına 90-cı illərin sonlarında daxil olmuşdur.

Kurikulum geniş termindir ve milli təhsilin məqsədlərindən başlayaraq şagirdlərin gündəlik fəaliyyətlərinə kimi olan prosesləri əhatə edir. O təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bilik məsələləri özündə əks etdirən konseptual sənəddir. Bir sözlə təlim prosesini əks etdiren sənəddir.

Kurikulum fənlər üzrə kurikulum siyasəti,tədris və təlim siyasəti, qiymətləndirmə siyasəti, təhsil siyasəti, təhsil almaqda hamı üçün bərabər imkanların yaradılması siyasəti, təhsildə informasiya və kommunikasiya texnologiyaları siyasətini ehtiva edir.

Milli kurikulum müxtəlif xarakterli və eyni zamanda bir-birilə bağlı olan nəticələrdən (sənədlərdən) ibarətdir.

Ədəbiyyat

1.https://kayzen.az/blog/pedaqoq/1167/t%C9%99lim-prosesinin-mahiyy%C9%99ti.html.

2.Sadıqov.F.B Pedaqogika (Təlim, Təhsil, Tərbiyə), Bakı: Bakı Biznes Universiteti, 2006, səh.100,101.

3.https://moderntehsil.blogspot.com/2016/07/kurikulumun-azerbaycanda.html?m=1.

Гулиева Шамс

Учебного процесса и содержания обучения основное резюме

РЕЗЮМЕ

Характер, содержание и организационные формы учебного процесса определяются потребностями общества и влиянием научно-технического прогресса. Содержание обучения важно, чтобы учащиеся приобрели определенные знания, науки и привычки в процессе обучения.

Gulıeva Shams

Main summary of the learning process and the content of education

SUMMARY

The character, content and forms of organization of the learning process are determined by the requirements of society, by the influence of scientific and technical progress. The content of education is important for students to acquire certain knowledge,skills and habits in the learning process.

Quliyeva Şəms

ADPU, Menecment (Təhsilin təşkili və idarə olunması), magistrant

PEDAQOJİ PROSESİN İDARƏ EDİLMƏSİNİN ƏSAS MÜDDƏALARI VƏ ELMİ-NƏZƏRİ PRİNSİPLƏRİ

Açar sözlər: *idarəetmənin prinsipləri, idarəetmənin qanunauyğunluqları, idarəetmədə fəaliyyət, təlimdə rəhbərlik*

Ключевые слова: *принципы управления, закономерности управления, деятельность в управлении, лидерство в обучении*

Key words: *principles of management, regularities of management, activity in management, leadership in learning*

"İdarəetmə" anlayışı ən ümumi, ən universal anlayışlar sırasına daxil edilir. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, idarəetmə yalnız texniki və istehsal sahəsində deyil həm də sosial sistemlər sahəsində (o cümlədən Pedaqoji sistemlər sahəsində) zəruridir. İdarəetmənin elmi əsasını elmi biliklər sistemi təşkil edir. Elmi biliklər sistemi idarəetmə praktikasının nəzəri əsasını təşkil edir. Ümumiyyətlə idarəetmə dedikdə, məqsədəuyğun qərarlar qəbul etməyə, idarə olunan obyekti təşkil etməyə, ona nəzarət etməyə tənzimləməyə yönəldilmiş fəaliyyət düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılması başa düşülür. Bioloji, texniki sosial sistemlər idarəetmə obyekti ola bilərlər. Sosial sistemlərin növlərindən biri ölkə, şəhər rayon və sair miqyasında fəaliyyət göstərən təhsil sistemidir. Təhsil nazirliyi şəhər rayon təhsil şöbələri idarəetmə sisteminin subyektləri kimi çıxış edirlər. Mürəkkəb, sosial, dinamik sistem olan ümumtəhsil orta məktəbi məktəbdaxili idarəetmənin obyektidir. Məktəbdaxili idarəetmə optimal nəticələr əldə etmək üçün tam pedaqoji prosesin iştirakçılarının məqsədyönlü şüurlu qarşılıqlı təsiridir. Tam pedaqoji prosesin iştirakçılarının qarşılıqlı

təsiri aşağıdakı ardıcıl qarşılıqlı əlaqəli fəaliyyətlərdən və funksiyalardan yaranır: işin təhlili, işin məqsədi və planlaşdırılması, işin təşkili, ona nəzarət, nizama salmaq və təshih etmə.

Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır. Menecerin (məktəbi idarə edən) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur.

İdarəetmənin mahiyyətini aşağıdakı prinsiplər tam və hərtərəfli əks etdirir.

1)Kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi 2) idarəetmədə dövlət və ictimai əsasların əlaqələndirilməsi 3)idarəetmədə elmilik nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi 4) idarəetmədə planlılıq 5) idarəetmədə sistemlilik və kompleslilik 6) idarəetmədə planlılıq 7) İdarəetmədə səmərəliliyə yekun nəticələrə Nail olmaq meyli 8) İdarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi 9) İdarəetmədə demokratikləşdirmə və humanistləşdirmə

İdarəetmənin prinsipləri idarəetmənin qanunauyğunluqlarının konkret təzahürü və inikasıdır. Məktəbdaxili idarəetmənin əsas qanunauyğunluqları sırasına mütəxəssislər aşağıdakıları daxil edirlər:

1)İdarəetmə sisteminin səmərəliliyinin idarəetmənin obyekti və subyekti arasında struktur-funksional əlaqələrin səviyyəsindən asılılığı

2)Təhsil tərbiyə işini idarəetmənin məzmun və metodlarının məktəbdə pedaqoji prosesin təşkilinin məzmun və metodlarının xarakterindən asılılığı

3)İdarəetmənin analitik, məqsədəmüvafiq, humanist və demokratik xarakterdə olmasının məktəb rəhbərlərinin müxtəlif növ idarəetmə fəaliyyətinə hazırlığından asılılığı

Müasir təhsil sistemlərinin xüsusiyyətlərindən biri dövlət idarəetmə sistemindən dövlət ictimai idarəetmə sisteminə keçilməsidir. Təhsilin dövlət ictimai idarəetməsinin əsas ideyası təhsil problemlərini həll etmək üçün dövlətin və cəmiyyətin səylərini birləşdirmək, tədris prosesinin məzmununu, forma və metodlarını, müxtəlif tip təhsil müəssisələrini seçməkdə müəllimlərə, şagirdlərə, valideynlərə böyük hüquqlar və azadlıqlar vermək təşkil edir.

İdarəetmənin səmərəli təşkili üçün onun prinsiplərini yaxşı bilmək və onlardan düzgün istifadə etmək lazımdır. Prinsiplər (latınca "prinsipium" - əsas, başlanğıc deməkdir)

Müvafiq qanunları əks etdirən rəhbər ideyalara, tələblərə deyilir. İdarəetmənin prinsipləri idarəetmə fəaliyyətində əsas tutulan başlıca tələblərdir. Mövcud idarəetmə prinsiplərini iki qrupa bölmək olar: təhsil sahəsində dövlət siyasətinin prinsipləri və məktəbin idarə edilməsi prinsipləri.

Təhsil sahəsində dövlət siyasətinin prinsipləri təhsil sisteminin ümumi prinsiplərini əhatə edir. Buraya demokratiklik, humanistlik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, vəhdətlik və daimilik, varislik, liberalizm və inteqrasiya prinsipləri daxildir. Bu prinsiplər bütün təhsil sistemində, o cümlədən məktəbin idarə edilməsində vacib tələblər kimi əsas götürülür.

Məktəbin idarə edilməsinin demokratikləşdirilməsi prinsipi məktəb həyatının bütün sahələrində rəhbərlikdə, ünsiyyət və münasibətlərdə, təlim-tərbiyə prosesinin və məktəbdaxili nəzarətin təşkilində özünü göstərir. Bu prinsipin tətbiq dairəsi geniş, təzahür formaları rəngarəngdir: təhsilin Dövlət və ictimai əsaslarda idarə edilməsi; müəllim və şagirdlərin hüquq və azadlıqlarına hörmət edilməsi, özünüidarə orqanlarının səlahiyyətlərinin genişləndirilməsi; vahid rəhbərlik və kollegiallığın uzlaşdırılması; təhsil müəssisələrinin muxtariyyatının artırılması; demokratik rəhbərlik üslubunun tətbiqi; müəllim, valideyn və şagirdlərin məktəb həyatında fəal iştiraka cəlb edilməsi və s.

Məktəbin demokratikləşdirilməsi idarəetmənin digər bir çox prinsiplərini özündə birləşdirir.

Məktəbi idarəetmənin ikinci qrup prinsipləri təhsil sahəsində dövlət siyasətinin ümumi prinsiplərinə əsaslanaraq onların reallaşmasına, idarəetmənin təkmilləşməsinə və yeniləşməsinə xidmət göstərir. Həmin prinsipləri qısaca nəzərdən keçirək.

1. Dövlət və ictimai əsasların uzlaşdırılması prinsipi. Bu prinsip təhsil sisteminin idarə olunmasında, məktəbə rəhbərlikdə dövlət orqanlarının fəaliyyəti ilə ictimaiyyətin və onu təmsil edən ictimai özünüidarə orqanlarının fəaliyyətini sıx əlaqələndirməyi, onların birgə əməkdaşlığını nəzərdə tutur. Təhsil-tərbiyə işi həm dövlətin, həm də Bütün cəmiyyətin işidir. Buna görə də ictimaiyyət təhsilin idarə olunması işində yaxından iştirak etməlidir. Məktəb təkcə dövlət müəssisəsi kimi yox, dövlət – ictimai müəssisə kimi fəaliyyət göstərməlidir. Gələcəkdə məktəbin ictimai dövlət müəssisəsi, yaxud ictimai müəssisə kimi fəaliyyət göstərməsi də istisna edilmir.

2. Kollegiallıqla təkrəhbərliyin uzlaşdırılması prinsipi. Bu prinsip məktəbə təkbaşına rəhbərlik etməyə yox, bu işə kollegial orqanları, ictimai özünüidarə orqanlarını da geniş cəlb etməyi nəzərdə tutur. Belə olduqda məktəb həyatının hər hansı bir məsələsi hərtərəfli kollektiv təhlil olunur, ümumi qərar qəbul edilir. Mübahisəli məsələlərdə razılıq

(konsensus) əldə olunur. Bu halda qərarların qəbulu zamanı dar şəxsi və qrup maraqları deyil, işin mənafeyi, kollektivin maraqları əsas götürülür və hamı – həm məktəb rəhbəri,- həm də kollektiv ümumi qərar üçün məsuliyyət daşıyır.Belə kollegial idarəetmə olmadan, qərar qəbulunda kollektivin rəyini nəzərə almadan məktəbin idarə edilməsini lazımi səviyyədə həyata keçirmək mümkün deyildi.

3.İdarəetmədə məqsədyönlülük prinsipi. Bu prinsip məktəbə rəhbərliyi məqsədyönlü şəkildə qurmağı, habelə bütün fəaliyyəti, qüvvə və vasitələri qarşıya qoyulmuş məqsədin əldə edilməsinə doğru yönəltməyi nəzərdə tutur. İdarəetmə məqsədyönlü prosesdir: hər sahədə olduğu kimi, burada da hər şey məqsəddən başlayır və onun əldə edilməsi ilə başa çatır. Məktəbə rəhbərlik fəaliyyətinin digər komponentləri - işin məzmunu, vasitə və metodları qoyulmuş məqsəd baxımından seçilməli və onun həyata keçirilməsinə yönəldilməlidir.

4.Elmilik və nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi prinsipi. Bu prinsip məktəbin idarə edilməsini elmi əsasda qurmağı – elmi biliklərdən, xüsusən pedaqogika və psixologiya elmlərinin nəticələrindən yaradıcı şəkildə istifadə etməklə yüksək göstəricilərə nail olmağı nəzərdə tutur. Elmilik nəzəriyyə və praktikanın vəhdətinə əsaslanır: məktəb rəhbərləri nəzəri bilikləri praktikaya tətbiq etməklə təlim-tərbiyə işini daha yaxşı qurmağa çalışdıqları kimi, təcrübədən çıxış edərək yeni pedaqoji ideya və qanunauyğunluqları müəyyənləşdirməyə və onları yenidən praktikaya tətbiq etməyə çalışmalıdırlar. Bu məqsədlə məktəb həyatının müxtəlif sahələrində müntəzəm müşahidələr aparmaq, faktları elmi baxımdan təhlil edib ümumiləşdirmək və nəticələr çıxarmaq vacib şərtdir. Məktəb rəhbərləri nəinki özləri yaradıcılıq göstərməli, eyni zamanda müəllimləri də elmi problemlərin həllinə cəlb etməyə çalışmalıdırlar. Necə deyərlər, məktəb laboratoriya, məktəb rəhbərləri və müəllimlər isə tədqiqatçı olmalıdırlar. Pedaqogika tarixində belə nümunələr çoxdur (Y.A.Komenski, İ.H.Pestalotsi, A.S.Makarenko, V.A.Suxomlinski və b.)

5. Aşkarlıq və şəffaflıq prinsipi. Bu prinsiplər demokratiyanın təzahürü olub, bir-birilə sıx bağlıdır. Aşkarlıq görülən işlərin, aparılan yoxlamaların, müzakirə və qərarların gizlin yox, aşkar şəkildə olmasını, kollektivə vaxtında məlumat verilməsini, nöqsanların ört-basdır edilməməsini nəzərdə tutur. Şəffaflıq isə məktəbin müxtəlif fəaliyyət sahələrinin, xüsusən, maliyyə-təsərrüfat fəaliyyətinin kollektivə, cəmiyyətə açıq olmasında özünü göstərir. O, işlərin vəziyyəti haqqında vaxtaşırı hesabat və informasiyalar verilməsini, habelə müəssisənin ictimaiyyətlə, qeyri-hökumət təşkilatları və KİV-lərlə müntəzəm əlaqələr yaratmasını nəzərdə tutur.

6. İdarəetmədə planlılıq, uçot və nəzarətin vəhdəti prinsipi. Bu prinsip idarəetmə prosesinin bütün mərhələlərini məktəb işini planlaşdırmağı, təşkil etməyi, bu prosesə nəzarət etməyi, işin nəticələrini hesaba almağı və qiymətləndirməyi kompleks halda həyata keçirməyi nəzərdə tutur. Uçot və nəzarət diaqnostika, proqnozlaşdırmalı və əlaqələndirilməlidir, yəni qarşıya çıxan çətinliklər və nöqsanlar, onların səbəbləri vaxtında aşkar edilməli, qarşıya qoyulmuş məqsədlə tutuşdurulmalı {diaqnostika'), lazımi korreksiya işi aparılmalı, gələcəkdə

keyfiyyəti yüksəltmək yolları müəyyən edilməlidir {proqnozlaşdırma). Monitorinq bu əməliyyatları özündə birləşdirən sistemli nəzarət prosesi kimi çıxış edir.

7. Optimallıq prinsipi. Bu prinsip idarəetmə işində konkret şərait üçün ən münasib (optimal) variant seçib tətbiq etməklə səmərəli nəticəyə nail olmağı nəzərdə tutur. Optimallaşdırmanın iki ümumi göstəricisi vardır: a) müəyyən şəraitdə mümkün olan yüksək nəticələr əldə etmək; b) bu nəticələrə az vaxt, qüvvə, vəsait və əsəb gərginliyi sərf etməklə nail olmaq. Əgər idarəetmədə alınan nəticələr bu göstəricilərə uyğun gələrsə, bu halda idarəetmənin optimallığından danışmaq olar. Məktəbi idarəetmənin göstərilən prinsiplərindən başqa mövcud ədəbiyyatda digər prinsiplər də irəli sürülmüşdür:idarəetmədə operativlik, çeviklik, prinsipiallıq, məsuliyyət,varislik, son nəticəyə istiqamətlənmə, konkretlik, əmək bölgüsü prinsipləri və s. Bəzi mənbələrdə isə (Radçenko İ.P.) pedaqoji ənənəyin elmi təşkili prinsipi idarəetmə prinsiplərinin sistemi kimi nəzərdən keçirilir. O, universal prinsip kimi, bir çox prinsipləri özündə birləşdirir. Belə prinsiplərə planlaşdırma, iş üçün əlverişli şəraitin yaradılması, qüvvə və funksiyaların əlaqələndirilməsi, optimallaşdırma, tənzimləmə, nəzarət və uçot, stimullaşdırma və s. prinsiplər daxil edilir.İdarəetmə fəaliyyətində nəzərdən keçirilən prinsiplərə əməl edilməsi idarəetməni müasir tələblər səviyyəsində qurmağa və onun funksiyalarım daha yaxşı yerinə yetirməyə imkan verir.

Məktəb rəhbərləri də həmçinin, təlim prosesinin daim təkmilləşdirilməsinə nail olmalıdırlar. Bu mürəkkəb işdə onlara kömək məqsədi ilə aşağıdakı məsələlərin şərhini (nəzəriyyə və təcrübə əsasında) vacib hesab edirik:

1.Müəllimin dərslərə hazırlaşması işinə rəhbərlik.

2.Müəllimin təlim prosesində şagirdlərdə fəallıq və müstəqillik tərbiyə etməsi işinə rəhbərlik.

3.Müəllimin təlim prosesində keçilmiş materialların təkrarı və möhkəmləndirilməsi işinə rəhbərlik.

4.Müəllimin təlimdə geriləyən və yaxşı oxumayan şagirdlərlə işinə rəhbərlik.

Ədəbiyyat

1. Rzayev O.H., Məmmədov S.M/, İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları, Bakı: ”Mütərcim”2010, səh.9.

2. İsmixanov M., Bəxtiyarova R. Məktəbin idarə edilməsi (dərs vəsaiti), Bakı, 2012, səh.11,12,13,14.

3.https://aztehsil.com/ttudm/999-tlm-prosesnn-tkmlldrlmsn-rhbrlk.html.

Гулиева Шамс

Основное резюме в управлении учебным процессом

РЕЗЮМЕ

Управление учебным процессом осуществляется в соответствии с определенными принципами, положениями и закономерностями государственной политики в области образования. И в процессе педагогической подготовки педагогические руководители также должны совершенствовать учебный процесс.

Gulieva Shams

Main summary in the management of the learning process

SUMMARY

Management of the learning process is carried out according to certain principle, provisions and regularities of the state education policy. And in the pedagogical learning process, pedagogical leaders must also improve the learning process.

Abdullayeva Zeynəb
ADPU, Menecment, magistrant

TƏHSİLİN İDARƏEDİLMƏSİNDƏ MENECMENT İŞİNİN ELMİ-PEDOQOJİ ƏSASLARI

Açar sözlər: *idarəetmə, menecment, təhsil sistemi, pedoqoji menecment*
Ключевые слова: *управление, система образования, педагогический менеджмент, управление*
Key words: *management, education system, pedagogical management, management*

Giriş. İdarəetmə qədim zamanlara aid olan bir anlayış olsa da, bir elm və tədqiqat sahəsi kimi nisbətən yeni öyrənilmişdir. Buna baxmayaraq, tədqiqatcıların hər zaman diqqət mərkəzində olmuşdur. Hətta bir çox elmlərin, xüsusilədə, psixologiya, sosiologiya, politologiya kimi elm sahələrinin mütəfəkkir, alimləri bu sahə ilə maraqlanmış, araşdırmalar aparmış və hələ də aparmaqdadırlar.

Bəs idarəetmə nədir? Sualına aparılan araşdırmalarda, qarşıya çıxan ədəbiyyatlarda bir çox cavablar verilmişdir. Ümumi olaraq belə bir nəticəyə gələ bilərik ki, idarəetmə: Öncədən müəyyənləşdirilmiş məqsəd və vəzifələrə çatmaq üçün əldə olunan qaynaqlardan istifadə edərək şüurlu şəkildə həyata keçirilən bir fəaliyyətdir. (5, 13)

İdarəetmə prosesi dedikdə insan ağlına ilk olaraq- dövlətin, ictimai orqanların idarəsi gəlir. Lakin belə bir məqamı vurğulamaq istəyirəm ki, idarəetmə yalnız bu sahələrlə kifayətlənən termin deyildir. Belə ki, idarəetmə canlı və cansız təbiətin, ictimai həyatın bütün sahələrinə xass olan bir prosesdir. Bundan əlavə şüurlu, yəni sosial idarəetmə vardır ki, buraya cəmiyyətin, ictimai təşkilatların idarəedilməsi daxildir. Təhsilin idarəedilməsi də məhz bu paradiqma arasında öz yerini almaqdadır. Hətta bir çox alim-mütəfəkkirlər bu sahədə müxtəlif fikirlər söyləmişlər. Bu baxımdan L.V.Qoryunova öz tədqiqatlarında idarəetmə anlayışının bütün aspektlərini nəzərə alaraq "pedoqoji idarəetmə" konsepsiyasına belə təsnifat vermişdir: "Pedaqoji idarəetmə - bir sinifdə aparılan və yeni sosial və pedaqoji cəhətdən həyat üçün hazır olan uşağın şəxsiyyətinin inkişafına yönəldilən məqsədlərə nail olmaq məqsədi daşıyan bir müəllimin idarəedici fəaliyyətini şərtləndirir." (6, 18)

Bəzi ədəbiyyatlarda idarəetmə termini ilə bərabər menecment termini, anlayışı da işlədilir. Menecment ingilis sözü olan "menegment" sözündən götürülmüş, əslən "əl, güc" mənasını vermişdir. İlkin olaraq 1866-cı ildə Amerikan alimi tərəfindən iclasda işlədilən bu termin daha sonra bir çox ölkələrdə yayılmış, öz mənasını qazanmışdır.(9, 32)Müxtəlif dillərdə öz əksini tapan bu anlayış hər dildə bir çox mənaları ifadə edir. Ümumi olaraq isə "idarəçi, öndər" mənasında gedir.

Bir çox ədəbiyyatlara müraciət etdikdə görürük ki, bəzi mənbələr idarəetmə termini ilə menecment anlayışını eyniləşdirir. Lakin, düşünürəm ki, eyniləşdirmək düzgün deyildir. Ilk olaraq, idarəetmə anlayışı daha genişdir, bütün sahələri əhatə edir, işlədilə bilir. Menecment isə idarəetmənin tərkibində fəaliyyət göstərir. Hətta bu barədə Fazil Vahidovun fikirləri daha önəmlidir: O, müəllifi olduğu sosiologiya fənnində qeyd edirdi ki, bu iki anlayış texniki olaraq sinonim kimi qeyd edilə bilər. Amma bununla belə menecment idarəetmənin bir instrumentidir. İdarəetmə isə insanların qarşılıqlı fəaliyyətini nizamlayan bir mexanizmdir.

İdarəetmə bir çox sahələri əhatə etdiyi kimi, menecment anlayışı da bir çox sahələri əhatə edir. İqtisadi sahədə menecment, siyasi sahədə və eləcə də təhsil sahəsində menecment fəaliyyət göstərir.

Hazırki dövrdə aparılan araşdırmalar göstərir ki, müasir dövrümüzdə təhsil sisteminin idarəedilməsində inzibati-amirlik prinsipi üstünlük təşkil edir. Amma bununla bağlı bir çox tədbirlər həyata keçirilir. Belə ki, təhsildə idarəetmənin dövlət-ictimai xarakterinin güclən-

dirilməsi, təhsil müəssisələri ilə bağlı funksiyaların yuxarıdan aşağıya paylanması, ağırlıq mərkəzinin sinif-auditoriyaya keçməsi, əsas hədəfin təhsil verənə(müəllimə), eyni zamanda təhsil alana (tələbə, şagirdə) yönəlməsi istiqamətindəbir çox işlər həyata keçirilmişdir. Bu baxımdandır ki, təhsil sistemində idarəetmə prinsipini, qarşıya qoyulmuş məqsəddən asılı olaraq qərarların qəbul edilməsini, eyni zamanda təhsil sistemində idarəedicilikdə fəaliyyət göstərən məsuliyyətli şəxslərin üzərlərinə düşən vəzifə və öhdəliklərinin bölüşdürülməsini, bir sözlə təhsilə aid bütün prosesləri əhatə edən idarəçilik fəaliyyəti sistemi- pedoqoji menecment öz aktuallığını qoruyub saxlamaqda, inkişaf etdirməkdədir. (7, 65)

Ümumiliklə menecment- hər hansısa sosial təşkilatın idarə edilməsidir. Hətta təsadüfi deyildir ki, çox zaman, bəzi ədəbiyyatlarda "sosial idarəolunma" ilə "menecment" anlayışları praktiki cəhətdən bir-biri ilə uyğunluq təşkil edir. Adətən menecment və ya menecer sözünü eşidəndə insanların ağlına ilk olaraq iqtisadi sahə gəlir. Ancaq, bu gün pedoqoji lüğətlərdə də menecment anlayışı əlavə edilib. Belə ki, təhsilin idarəedilməsi ilə məşğul olan sahə-təhsil menecmenti pedaqogikanın əsas sahələrindəndir. Lakin vurğulamaq istəyirəm ki, istər digər sahələrdə, istərsə də təhsil sahəsindəmenecment- rəhbərlik etdiyi təşkilatda fərdi fəaliyyət göstərmə deyil, bunun əksinə qarşıya qoyulan məqsədə çatmaq üçün rəhbər və onun tabeçiliyində olan şəxslərin birgə fəaliyyətinə çatmaq üçün qarşılıqlı surətdə qurduqları komfortlu əməkdaşlıqlarıdır.

Nəticə. Hazırki dövrümüzdə inkişaf etmiş ölkələrin təcrübələrindən də aydın olur ki, təhsildə idarəetmənin müasir dövrlə səsləşməsi, ictimailəşməsi prosesi get-gedə daha da surətlənməkdədir. Belə ki, təhsil strategiyasının uğurla həyata keçirilməsində, təhsilin keyfiyyətinin durmadan, davamlı yüksəlişində, müasir dövrün, cəmiyyətin tələbatlarına cavab verməsində düzgün, səmərəli idarəetmənin böyük rolu vardır. Bu isə ilk növbədə fəaliyyət göstərən bütün növ təhsil müəssisələrinin müstəqil olmasını, müəssisə tərkibində fəaliyyət göstərən müəllim, şagir, valideyn, eyni zamanda digər səlahiyyətli şəxslərin təhsil prosesinə daha da geniş cəlb edilməsini, idarəetmə texnologiyalarının və nəticəyönlü menecmentin tətbiqini tələb edir.

Son olaraq bunu qeyd etmək istəyirəm ki, aparılan araşdırmalar göstərir ki, son zamanlarda gedən qloballaşma prosesi dövlətlərin təhsil sisteminin inteqrasiyasını şərtləndirir. Hədəf kimi isə Avropa Şurası tərəfindən təsdiq edilmiş, eyni zamanda tövsiyə edilən kompetensiyalar qrupu əsas götürülür.

Ədəbiyyat

1. Abbasov O. "Təhsilin idarə olunması" Bakı 2016, 232 s

2. Nəzərov M.H., Təhsilin sosiomədəni əsasları. Baki, 2017, 256

3.Rzayev O.H., Məmmədov S.M., İsmayılov Ş.N. Təhsilin idarə olunmasının əsasları. Dərs vəsaiti. Bakı. Mütərcim, 2010, 476 s

4.Горюнова Л. В. Овладение знаниями и умениями педагогического менеджмента как факторповышения качества профессиональной подготовки учителя: дис. ... канд. пед. наук. Ростов н/Д, 1999. 239 с.

5.İ. Abbasov. "Menecment" Bakı 2013

6. Tofiq Quliyev "menecmentin (idarəetmənin) əsasları" BAKI 2006

7. MƏMMƏDZADƏ, R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. – 170 s.

8. HƏSƏNOV, A., NƏZƏROV, M. – Pedaqoji məntiq. Bakı,2009.168s.

9. Azərbaycan Republikasının "Təhsil haqqında" qanunu. "Bakı çapevi", 2012, 64 s.

10.Мескон М. Х., Альберт М., Хедоури Ф. Основы менеджмента: пер. с англ. М.: Дело, 1993. 701 с.

Təhsilin idarəedilməsində menecment işinin elmi-pedoqoji əsasları

XÜLASƏ

Məqalədə təhsilin idarəedilməsində menecmentin rolu əsas tədqiqat obyekti olaraq qeyd edilir. Bundan əlavə "idarəetmə" və "menecment" anlayışlarına ayrı-ayrılıqda toxunulur, onların müasir dövrümüzün təhsil sistemi ilə nə dərəcədə səsləşməsinə diqqət yetirilir. Bəzi alim-mütəfəkkirlərin düşüncələrinə nəzər salınır.

Педагогические основы деятельности в управлении образованием

РЕЗЮМЕ

Статья посвящена роли менеджмента в управлении образованием и указана как объект исследования. Кроме того, в их современной системе отдельно затрагиваются концепции управления и менеджмента. Сколько же этому уделяют внимания,чтобы это было услышано. Рассмотрение размышлений учёных и мыслителей.

Scientific and pedagogical bases of management in the management of the education system

SUMMARY

The article emphasizes the role of manegement in education manegement as the main object of research. In addition the concepts of manegement and manegements are discussed saparately, attention is paid to the extend to which they resonate whith the modern education system. The views of some scholars and thinkers are considered.

Həsənli Vəfa Sabit qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), magistrant

MÜASİR TƏHSİLDƏ MENECMENT XİDMƏTİNİN TƏŞKİLİ

Açar sözlər: *menecment, planlaşdırma, təhlil, rəhbərlik, nəzarətetmə, təhsil*

Ключевые слова: *менеджмент, планирование, анализ, лидерство, супервизия, образование*

Key words: *management, planning, analysis, leadership, supervision, education*

Müasir dövrdə menecment, başqa sözlə fəaliyyətin təşkili və idarə olunması müstəsna əhəmiyyət kəsb edən amillərdən biridir. Təhsildə keyfiyyətin artırılması və yüksək məhsuldarlığın əldə olunması menecment fəaliyyəti olmadan mümkün deyildir. Bəs " menecment" nədir?

A.Yusubov yazır:" Menecment" ingilis sözü olub "management" sözündən götürülmüşdür, Azərbaycan dilində tərcümədə "idarəetmə" deməkdir. (6,s.239.) Menecment (ing. management - idarəetmə) — idarəetmənin iqtisadi mexanizminin üsul, prinsip və funksiyalarını tətbiq etməklə, material, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə etmək yolu ilə, bazar şəraitində istənilən fəaliyyət növü ilə məşğul olan firmanın qarşısına qoyduğu məqsədə nail olması üçün həyata keçirilən peşəkar fəaliyyət növüdür."(7)

Müasir menecment ayrı-ayrı sahələr və istiqamətlər üzrə formalaşır: strateji menecment, istehsal menecmenti, maliyyə menecmenti, keyfiyyət menecmenti, investisiya menecmenti, risk menecmenti, təhsil menecmenti və s.

Təhsil menecmenti təhsilin təşkili və idarə edilməsi və s. məsələləri özüncdə əks etdirir. Hal-hazırda təhsilin təşkilinə və idarə olunmasına ancaq dövlət deyil, həm də ictimaiyyət, ictimai idarəetmə orqanları da rəhbərlik edir. Səmərəli idarəetmə isə planlaşdırma, təkil etmə, rəhbərlik və nəzarət funksiyalarının necə yerinə yetirilməsindən daha çox asılıdır.

Pedaqoji monitorinqin əsas mərhələlərindən biri təlim pillələri üzrə təhsilin keyfiyyətinin, məktəblərin təlim müvəffəqiyyətinin müəyyənləşdirilməsi və təhlilidir. Pedaqoji kollektivin işdəki uğur və çatışmazlıqlarını aşkara çıxarmaq üçün fənlər üzrə keçirilən aralıq və yekun attestasiyalarının səviyyələrinin təhlili də idarəetmə fəaliyyətində az əhəmiyyət kəsb etmir. Yeri gəlmişkən deyək ki, indi məktəblərdə təhsilin ibtidai, ümumi orta və tam orta pillələrində, ayrı-ayrı siniflərdə belə montorinqlərin keçirilməsi təcrübəsindən geniş istifadə olunur və yaxşı da nəticə verir.

Təhsilin idarə olunmasında ən vacib faktorlardan biri də planlaşdırmadır. Təhsil müəssisələrinin bütün fəaliyyətinin qarşıya qoyulan hədəflərə nail olunması üçün nə dərəcədə səmərəli yönləndirilməsi məhz fəaliyyətin düzgün planlaşdırılmasından həlledici dərəcədə asılıdır. Planlaşdırma idarəetmənin əsas təyinedici məqamı olub təlim-tərbiyə prosesinin və ona rəhbərliyin layihələndirilməsi, məqsəd və vəzifələrin müəyyən edilməsidir. Məsələn, məktəb işini planlaşdırarkən elmilik (ümumi inkişafın qanunlarına, müasir elmlərin nəticələrinə, əməyin elmi təşkilinə verilən tələblərə, qabaqcıl pedaqoji təcrübəyə istinad), məqsədyönlülük və perspektivlik (əldə olunmaların təhlili, yaradıcılıq, problemlərin həlli yollarının müəyyənləşdirilməsi), sistematiklik (perspektiv və cari planlaşdırmanın uzlaşdırılması, təhsilin idarə olunmasının bütün səviyyələrinin planlarının əlaqələndirilməsi), fəaliyyətdə varislik və ardıcıllıq (uğurların və çatışmazlıqların nəzərə alınması), konkretlik (aktual məsələlərin müəyyənləşdirilməsi), icra müddətinin və nəzərdə tutulan sistemli nəzarətin vaxtının qeyd olunması, demokratikləşmə və aşkarlıq (bütün pedaqoji kollektivin, valideynlərin, ictimai özünüidarə orqanlarının planlaşdırmaya cəlbi, plan tədbirlərinin müzakirəsi və kollektiv şəkildə bəyənilməsi), fasiləsizlik (perspektiv və operativ planlaşdırmanın uzlaşdırılması), planlaşdırma və icranın vahidliyi, plan tapşırıqlarının reallığı, qənaətcillik və optimallıq kimi prinsipləri rəhbər tutmaq vacibdir. Ümumtəhsil məktəblərinin təcrübəsində ümummək tab planlaşdırılmasının belə bir sistemi yaranıb və bizim fikrimizcə, bu, hazırda da məktəbin planlı idarə edilməsi üçün ən optimal variant hesab oluna bilər:

1. Məktəbin işinin perspektiv planı.
2. Məktəbin tədris ili üçün planı.
3. Yarımillik və rüblər üzrə təqvim planı.
4. Ümummək tab tədbirlərinin qrafiki.
5. Dərslərin və dərsdənkənar məşğələlərin cədvəli.
6. Şagird təşkilatlarının işinin planı.

Qeyd olunan planlar razılaşdırılmış, bir-birini tamamlayan, konkret, xronoloji ardıcıl olmalıdır.

İdarəetmənin mühüm tərkib hissələrindən biri də nəzarətdir. Bütün sahələrin idarə edilməsində nəzarət həlledici rollardan birini oynadığı kimi təhsil sisteminin idarə olunmasında da o, vacib amil hesab olunur. Mahiyyət etibarilə nəzarət qəbul edilmiş qanunların, qərarların, sərəncamların, əsasnamələrin, qaydaların, təlimatların, əmrlərin və digər normativ-hüquqi aktların icrasının tələbə uyğunluğunu yoxlamaq deməkdir. Nəzarət məktəbdə təlim-tərbiyə işinin vəziyyəti haqqında etibarlı və dəqiq informasiyanın təmin olunmasının əsas vasitələrindən biridir. Nəzarətin təşkili zamanı onun keçirilmə forma və vaxtının təlim-tərbiyə prosesinin məzmunu ilə qarşılıqlı əlaqəsinin gözlənilməsi, obyektə diferensial yanaşma, nəzarət ediləcək obyektin dərindən və hərtərəfli əhatə olunması, sistemlilik və ardıcıllıq, icranın səviyyəsi, aşkarlıq, tətbiq olunan forma və metodların dinamikliyi, nəzarətə ictimaiyyətin cəlb olunması və s. məsələlər gözlənilməlidir.

Bu gün təlim-tərbiyə prosesinin, müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətinin mahiyyətinə nüfuz etmək, şagirdlərin təlim, əmək və münasibət fəallığı səviyyəsinin diaqnostikası, təlim-tərbiyə prosesinin təşkilatçılarına vaxtında kömək göstərmək, onların fəaliyyətinə korreksiyalar tətbiq etmək kimi məsələlərin dərindən öyrənilməsi tələb olunur.

Təlim-tərbiyə prosesi heç də həmişə əvvəlcədən müəyyənləşdirilmiş plan üzrə getmir. Bəzən irəlicədən görünməsi mümkün olmayan vəziyyət yaranır. Məhz belə vəziyyətlərdə pedaqoji nəzarət təlim-tərbiyə fəaliyyətində qarşıya çıxan çətinlikləri vaxtında aradan qaldırmağa imkan verir.

Rəhbərlik və nəzarət möhkəm olduqda pedaqoji kollektivin fəaliyyətində vahidlik, sistemlilik, yaradıcılıq, təşəbbüskarlıq özünə geniş yer tapır. Kollektivdə işgüzar mühit, qarşılıqlı hörmət və yardım, tapşırılan işin icrasına dərin maraq, məsuliyyət hissi əksər hallarda məhz məktəb rəhbərlərinin təşkilatçılıq qabiliyyəti ilə, pedaqoji kollektivin hər bir üzvünün nəyə qadir olduğunu bilib əməyini düzgün qiymətləndirmək, lazım gələrsə, ona kömək etmək, istiqamət vermək, daha konkret desək, rəhbərlik işini elmi şəkildə qurmaq bacırığı ilə bağlıdır.

Ədəbiyyat

1. Abutalıbov R., Məmmədov S., Quliyev S., İsayev O., Yusifov M. İdarəetmənin əsasları. Bakı , Nurlan , 2009, 140 s.

2.Quliyev T. Təhsilin idarəedilməsinin bəzi problemləri. Bakı, Azərbaycan Müəllimlər İnstitutu, 2008, 232 s.

3.Məmmədzadə R.İdarəetmə mədəniyyəti. Bakı, 1999, 234 səh.

4.Rəsulov S., Həmidova X. Təhsil müəssisəsinin idarə olunmasında təhsil menecmentinin rolu.// Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2015, №2, s.126-129.

5.Rəsulov S.,Əzizov R. Təhsili idarəedilməsinin nəzəri və praktik məsələləri, Bakı, Müəllim, 2012 ,173 səh.

6.Yusubov A. Təhsil sistemində menecment fəaliyyətinin səciyyəvi xüsusiyyətləri. //Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2015, №4, s.239-241.

7.https://az.wikipedia.org/wiki/Menecment

Həsənli Vəfa Sabit qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), magistrant

TƏHSİL MENECMENTİNİN FUNKSİYALARI

Açar sözlər: *menecer, funksiya, əməkdaşlıq, idarəetmə, motivasiya, qərar*

Ключевые слова: *менеджер, функция, сотрудничество, управление, мотивасия*

Key words: *manager, function, cooperation, management, motivation, decision ивация, решение*

Menecment elminin çoxcəhətli və əhatəli olması "təhsil meneceri" anlayışına da öz təsirini göstərmişdir. "Təhsil meneceri" termini pedaqoji ədəbiyyatlarda və praktikada aşağıdakı anlamlarda işlənir:menecer

1. Təhsil müəssisəsinin və onun bölmələrinin rəhbəridir.
2. Ayrı-ayrı fəaliyyət növünün funksional icraçısıdır.
3. Təhsil müəssisəsindəki müxtəlif işlərin təşkilatçısıdır.
4. Təhsil müəssisəsində inzibati rəhbər və təhsil fəaliyyətlərinin gedişatına nəzarət edən şəxsdir.
5. Bundan əlavə, menecer dedikdə, ağlımıza ilk gələnlərdən biri də öz sahəsi üzrə fəaliyyət göstərən "mütəxəssis" anlayışıdır. Məsələn, maliyyə, kommersiya üzrə menecer dedikdə həmin sahələr üzrə mütəxəssis başa düşülür.

S. Rəsulov və X. Həmidova yazır: " menecer" dedikdə, əslində peşəkar idarə edən nəzərdə tutulur və o, xüsusi ixtisasa malik şəxs hesab olunur. Burada həmin şəxs təkcə idarəetmə sahəsində xüsusi hazırlıq keçmiş ixtisaslaşmış şəxsdir."(7, s. 18)

Təhsil meneceri dedikdə isə, təhsil sferasında, pedaqoji sahə üzrə fəaliyyət göstərən mütəxəssis başa düşülür.

Menecerin əsas vəzifələrindən biri təşkilatın yaşamasını təmin etməkdir. Əgər bu vəzifə təmin olunarsa, onda istehsal və idarəetmə, səmərəlilik kimi problemlər də həll olunmalıdır. Menecer müntəzəm olaraq öz elmi və iqtisadi biliyini artırmalı, yeniliyi və hər cür mütərəqqi texnika və texnologiyan ı başa düşməli və müdafiə etməlidir.

A.Yusubov yazır:" Təhsil menecerləri üçün meyarlar, onların professional keyfiyyətləri hərtərəfli, anlaşılan, uzaqgörənliyi əks etdirən, öyrətmə və öyrənməni diqqət mərkəzində saxlayan göstəricilərdir. Son onilliklərdəki araşdırmalar göstərir ki, təhsil menecerinin təlimatda əsas rolu üstün cəhətlərin inkişaf etdirilməsi təhsil alanların nailiyyətlərini inkişaf etdirən məsələlərin yaxşılaşdırılması üçün müvafiq şəraitin yaradılmasıdır"(8s.241).

Təhsil menecmentinin bir sıra funksiyaları var. Bu funksiyalar sırasına daxildir: proq-nozlaşdırma, qərar qəbul, planlaşdırma, təşkilat, motivasiysa, koordinasiya, qiymətləndirmə, qeyd və hesabat, nəzarət.

1. Proqnozlaşdırma: Bu sistem təhsildə fəlsəfi baxımdan bir sxem şəkmək üşün indiki vəziyyəti onun faktiki durumugözlənilən ehtiyacları və məhsuldar nəticəyə gəlmək üşün haqqında bütün növ məlumat toplanılmış şərtlərin sistematik qiymətləndirilməsidir.

2. Qərarvermə: Qərar qəbul etmək şox ciddi bir məsələdir. Biz qərar qəbul edərkən bu qərarın təsir edəcəyi nəsilləri düşünməliyik. Çünki idarəetmə təhsildə əsas amildir. Təhsili idarəetmə həyatında sonu pis nəticələr verə bilən qərarlara yol verilməməlidir.

3. Planlama: Dəyişənlərin və qeyri müəyyənliklərin çox olduğuna görə qərarların planlaşdırılması zərurilik təşkil edir. Plan çox çevik olmalıdır. Hər hansı gözlənilməz halları, dəyişiklikləri kifayət qədər əhatə dairəsində saxlamaq üçün planlaşdırma mütləq olmalıdır. Gözlənildiyi kimi avadanlıqlarla təmin olunmadıqda, kadrların təhsil fəaliyyətində yerdəyiş-məsi baş verdikdə və icazəsiz işdən qaldıqda və s. hallar baş verdikdə bir çox fəaliyyətin prioritetləri dəyişə bilər.

4. Təşkilati: İnsanın səylərinin, sistemli və effektiv material avadanlıqlarla istənilən nəticələrə nail olmaq üçün avadanlıqlara korrelyasiya edilərək birləşməsidir.Təhsil rəhbərliyi altında fəaliyyətə daxil edilir: məktəb sistemləri, dərs və əməkdaşlıq dərs fəaliyyəti,vaxt cədvəlləri müvəffəqiyyət və bu kimi normalar daxildir.

Fəaliyyətə daxil olan amillər:

a) ideyalar və prinsiplər;

b) məktəblə insan əlaqələri, dərslər, komitələr, qruplar, məktəb personalı, müayinə heyyəti, məktəblə valideynin birgə işi;

c) mebel, binlar və avadanlıq, informasiya texnologiyaları, kitabxanalar, laboratoriyalar, seminarlar, muzey və s. daxildir;

5. Motivasiya: Motivasiya problemlərin və strategiyaların həllində mühüm rol oynayır. Hərəkətverici nüans olub təhsildə həvəs və maraq yaradır. Təşkilati üzvlər arasında qarşılıqlı ılaqələrdə motivasiya olduqca faydalıdır. Motivasiya təşkilatın aşağı və yuxarı təbəqə üzvləri arasında kommunikasiya məsələlərində böyük əhəmiyyət kəsb edir.

6. Əməkdaşlıq. Bu funksiya bütün növ kollektiv arasında hökm sürür. İnsanlar arasında münasibətləri, vəzifələrin ayrılmasını, əmək bölgüsünü və s. müəyyən edir. Əməkdaşlıq funksiya bir növ şəxslər arasında elementləri maddı-mənəvi ideyaları müəyyən olunmuş qaydada xarakterizə edən funksiyadır.

7. Qiymətləndirmə. Qiymətləndirmə layihə uğur və uğursuzluq tapmaq üçün yaxşı bir yoldur

8. Hesabat və qeyd. Qeyd və hesabat idarəçiliyin, ali orqanların və cəmiyyətin və valideynlərin məsuliyyətlə həyata keçirilən əsas elementlərdir.

9. Nəzarət: Nəzarətin məqsədi təlimat proqramı davamlı təkmilləşdirilməsini həyata keçirməkdir. Nəzarət menecmentin finksiyalarından biri olmaqla idarəetmənin diğər funksiya-

larının həyata keçirilməsi üçün fundamental əhəmiyyət kəsb edən elementdir. Nəzarət, məsləhət və göstərişləri stimullaşdırır, izah edir, potensial təlimatlar verir. Nəzarət idarəetmənin tənqidi və vacib funksiyası olmaqla idarəetmə prosesində həm qəbul olunmuş istiqamətində kənarlaşmaları aşkara çıxarır, həm də onların səbəblərinin və gələcək inkişaf meyllərinin müəyyənləşdirilməsi vəzifəsini yerinə yetirir.

Ədəbiyyat

1. Əhmədov İ.B.Təhsilin keyfiyyətinin planlaşdırılması, idarə edilməsi və ölçülməsində yeni tendensiyalar. // Təhsildə İKT, ADPU, 2013, №1, s.7-14
2. Qəribov Ş.,Əsədova T., İsmayılova T., Kazımov M., Həsənoğlu F. Təhsilin idarəedilməsinin aktual problemləri. Bakı, "Şahin-MB" MMC 2016,192s.
3.Quliyev T. Təhsilin idarəedilməsinin bəzi problemləri. Bakı, Azərbaycan Müəllimlər İnstitutu, 2008, 232 s.
4.Qaralov Z.İ. Azərbaycanda təhsil quruculuğu proqramları haqqında. Bakı, 1994, 21s.
5.Qurbanova L. Müəllim hazırlığında peşə səriştəliliyinin formalaşdırılması modeli. // Elmi əsərlər, ARTPİ, 2013, №1, s.36-39
6.Mehrabov A.O Azərbaycan təhsilinin konseptual problemləri. Bakı, 2010, 443 s.
7. Rəsulov S., Həmidova X. Təhsil müəssisəsinin idarə olunmasında təhsil menecmentinin rolu. // Elmi əsərlər, ARTPİ,2015, №2, s.126-127
8.Yusubov A.Təhsil sistemində menecment fəaliyyətinin səciyyəvi xüsusiyyətləri. // Elmi əsərlər, ARTPİ, 2017, №4, s.239-241

Şərifova Aygün Ramiz qızı
ADPU, Menecment (Təhsilin təşkili və idarə olunması), magistr

TƏHSİL MÜƏSSİSƏSİ RƏHBƏRİNİN PEŞƏ MÖVQEYİNİN (SƏRİŞTƏSİNİN) İNKİŞAF İSTİQAMƏTLƏRİ

Açar sözlər: *təhsil, rəhbər, menecer, peşə mövqeyi, peşə fəaliyyəti*
Ключевые слова: *образование, руководитель, менеджер, профессиональная позиция, профессиональная деятельность*
Key words: education, leader, manager, professional position, professional activity

XX əsrin sonunda cəmiyyətinin iqtisadi fəaliyyətin bazar əsaslarına keçməsi, təhsil sahəsində də daxil olmaqla sosial münasibətlərin demokratikləşməsi problemlərinin həlli, təhsil fəaliyyətinin məzmunu, formaları, prinsiplərində dəyişikliklərə səbəb oldu. Bunlardan ən əsası təhsil müəssisələri rəhbərlərinin rolunun artmasıdır. Təhsil müəssisəsinin rəhbəri sənaye daxili münasibətlər sistemində sosial, iqtisadi və hüquqi baxımdan əhəmiyyətli bir şəxs olur. Təhsil müəssisəsinin rolu da obyektiv olaraq dəyişir. Müəssisə rəhbərinin rəsmi səlahiyyətləri iqtisadi, psixoloji, sosial və digər fəaliyyət sahələri rəhbərinin səlahiyyətləri ilə tamamlanır.

Bir qayda olaraq, təcrübəli müəllimlər arasından yeni təyin olunmuş menecerlərin təşkilatı idarə etməkdə idarəetmə bilikləri və təcrübələri az olur. Üstəlik, təcrübəsiz bir menecer üçün idarəetmə fəaliyyətinin bütün sahəsini təsəvvür etmək, prioritet sahələrini müəyyənləşdirmək və idarəetmə qərarları üçün ən yaxşı variantı seçmək çətindir. Eyni zamanda, təyin olunmuş menecerlərin idarəetmə əməyinin xeyli xərcləri, təhsil müəssisəsinin idarəetmə sistemi tərəfindən yığılmış peşəkar davranış normalarının, nəzəri və praktik biliklərin mənimsənilməsinə və praktikada istifadəsinə yönəldilmişdir.

Təyin olunmuş menecerlər arasında idarəetmə biliklərinin olmaması onların peşəkar idarəetmə səriştələrinin formalaşmasının qeyri-kafi səviyyəsinə gətirib çıxarır. Ənənəvi olaraq, təhsil müəssisəsi rəhbərinin peşəkar səriştəsi bilik, dəyərlər, meyillərə əsaslanan və menecerə

bilik və vəziyyət arasında əlaqə yaratmağa imkan verən, həmçinin peşəkar idarəetmə problemlərini uğurla həll etmək üçün hərəkətlər sistemini kəşf etməyə imkan verən ümumi bir qabiliyyət kimi qəbul olunur (idarəetmə fəaliyyətində formalaşır və özünü göstərir). Bir modellə bənzətmə ilə hərəkət etməyi əhatə edən bilik, bacarıq və qabiliyyətlərdən fərqli olaraq, bu səriştəllik ümumbəşəri biliklərə əsaslanan müstəqil fəaliyyət təcrübəsini təmin edir.

Təhsil sisteminin hazırkı inkişaf mərhələsi tələb edir ki, təhsil müəssisələri rəhbərlərinin peşəkar hazırlıq səviyyəsi onlardan peşəkar problemləri həll etmək üçün idarəetmə bacarıqlarını uğurla tətbiq etməyə imkan versin. Rəhbərin peşə mövqeyinin inkişafının məqsədi onların peşəkar şəxsi potensialının maksimum dərəcədə reallaşdırılması və fəaliyyət subyektləri kimi ehtiyacların ödənilməsidir. Peşəkar səriştənin inkişafının nəticəsi fərdin peşəkar inkişafı və özünüinkişaf etdirməsi, işdən məmnun qalması və peşə fəaliyyətinin səmərəliliyinin artmasıdır.

Təhsil müəssisəsinin rəhbəri təyin olunmuş şəxsin peşə mövqeyinin inkişafının yolları və formaları arasında aşağıdakılar daha önəmlidir:

- özünüinkişaf və özünütəhsil;
- peşəkar yenidən hazırlıq;
- təlim (ixtisas artırmaq).

Təhsil müəssisəsi rəhbərinin peşə mövqeyi dedikdə:

- menecerin yaxşı bildiyi bir sıra peşəkar məsələlər;
- liderin biliklə vəziyyət arasında əlaqə qurmasına, peşəkar idarəetmə problemlərinin uğurlu həlli üçün hərəkətlər sistemini tapmasına imkan verən ümumi qabiliyyət.

Təhsil müəssisələrinin rəhbərləri peşə fəaliyyətlərində ilk növbədə menecer funksiyasını yerinə yetirdiyindən onları təhsil standartının tələblərinə uyğun olaraq əsas peşəkar səriştələrin xüsusiyyətlərini daha da genişləndirmək olar.

Hüseynova Vüsalə Hüseyn qızı
ADPU, magistrant
Elmi rəhbər: p.f.d. Miri Həsənov

KOLLEKTİVDƏ SOSİAL-PSİXOLOJİ MÜNAQİŞƏLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Müasir təhsiliin ən əsas problemlərindən biri də kollektivin idarəedilməsidir. Kollektiv dedikdə eyni amala, məqsədə xidmət edən insanlar toplusu başa düşülür. Lakin bəzən kollektivdə fikir ayrılıqları olur ki, bu da kollektiv iştirakçıları arasında nifaq salır. Yaxud da iştirakçılar arasında soyuqluq yaranır. Bütün bu hallar kollektivin çatmaq istədiyi məqsədə gedən yolda maneə törədir. Bu kimi halların aradan qaldırılması üçün kollektivdə lider seçilir ki, lider hər kəsi öz tərəfində, ətrafında birləşdirə bilir. Lider çalışmalıdır ki, iştirakçılar əsas qərarla tam razılaşsınlar. Bir sözlə, lider hər kəsi idarə etmə xüsusiyyətinə malik olmalıdır. Amma qeyd edək ki, bu idarəetmə ədalətli olmalıdır.

Münaqişələr tarixən müxtəlif səbəblər üzündən mövcud olmuş və davam etmişdir. Lakin bazar münasibətləri şəraitində rəqabətin gərginləşməsi, tədris proseslərində qeyri-müəyyənlik, spontan halların çoxalması münaqişə hallarına yeni qaydada təkan vermişdir.

Münaqişələr bir qayda olaraq, tərəflərin mövqe və mənafelərinin ziddiyyətli, uyğun gəlməməsi üzündən baş verir. Həmin münaqişələr şəxsi mənafe zəminində baş verdikdə təhsil sahəsində, hər hansı bir əmək kollektivində əskiklərə, dağıdıcı qüvvəyə çevrilə bilər. Bununla belə, münaqişələr rəqabət qabiliyyətli təhsil və təlim problemləri, heyyətinin idarə edilməsi kimi məsələlər zəminində meydana çıxdıqda müsbət, konstruktiv əhəmiyyət kəsb edə bilər. Demək, münqaişələr funksional (faydalı) və disfunksional (qaydasız) ola bilər. Bununla belə, gündəlik təcrübə göstərir ki, bir çox hallarda münqaişələr psixoloji zəmində baş verir.

Münqaişələr müxtəlif olduqca (münaqişəli davranış, qanunauyğun, təsadüfi, həqiqi, qondarma-yalançı, təşkilatı-idarəçilik, sosial, siyasi, iqtisadi, münqişələr və s.) onların idarə edilməsi də çətinləşir. Münaqişələrin idarə edilməsi aşağıdakı istiqamətlərdə aparılır:

1. Xəbərdarlıq;
2. Səbəblərin araşdırılması;
3. Münaqişənin yumşaldılması, dayandırılması;
4. Münaqişənin konkret olaraq tənzimlənməsi;
5. Münqaişənin həlli.

Stresin idarə edilməsində onu törədən səbəblərin sistemli halda öyrənilməsinin böyük əhəmiyyəti vardır. Burada işçinin icra etdiyi işin nəticələrinə görə öhdəliyi, məsuliyyəti, işçinin funksional rolundakı anlaşılmazlıq, ayrı-ayrı situasiyalarla bağlı münaqişələr, həmkarları və müdiriyyətlə qarşılıqlı əlaqəsi və s. stresi törədən başlıca amillər kimi qiymətləndirilməlidir. Ona görə də burada həm bütövlükdə təşkilat, həm də hər bir işçi, sahibkar üçün səmərəli davranış meyarları, modelləri müəyyən edilməlidir.

Xarici ölkələrdə münaqişəşünaslıq problemləri XX əsrin 50-ci illərində və 50- ci illərin sonunda geniş inkişaf etməyə başlamışdır. Burada psixoloji aspekt üstünlük təşkil etmişdir. Məsələn, buna psixoanalitik (Z.Freyd, A.Adler və s.), frustrasion-təcavüz (D.Dollard, N.Miller), davranış (A.Bass, A.Bandura) sospometrik (D.Moreno, S.Dseniqs), sosiotrop (U.Makk-Luqall, S.Siqle), etoloji (K.Lorens, N.Triberqen), qrup dinamikası nəzəriyyəsini (K.Levin, D.Kreç), münaqişənin funksional nəzəriyyəsini (Q.Zimmel), cəmiyyətin münaqişə modeli konsepsiyasını (R.Darendorf), ümumi münaqişə nəzəriyyəsini (K.Bonlidnq) və s. misal göstərmək olar.

Təhsil münasibətləri şəraitində münaqişə situasiyaları intensiv olaraq güclənir. Bu, bir tərəfdən müəllimlərin, şagirdlərin, digər tərəfdən isə tələbələrin hərəkətləri, digər tərəfdən münaqişə fenomeni lazımı səviyyədə dərk etməməkdən, bu problemə kompleks sosial-psixoloji, sosial-idarəçilik baxımından yanaşılmaması ilə əlaqədardır. Demək, "münaqişə" anlayışı bərabər şərait daxilində onun haqqında elmi biliklər sisteminə malik olmağı tələb edir. Münaqişə yalnız mənəviyyat problemi deyildir. O həm də mənafelərin, məqsədlərin, mövqelərin, maddi və mənəvi dəyərlərin, hətta baxışların ziddiyyət təşkil etməsi ilə əlaqədardır ki, bunun da əsasında əsasən iqtisadi münasibətlər durur. Münaqişələr ilk baxışda subyektiv münasibətlər və davranış kimi təzahür etsə də, nəticə etibarilə maddiləşmiş münasibətlər sistemi ilə müəyyən edilir. Həmin münasibətlər toplusu eyni cinsli olmadığına görə gah bir-birini rədd edən, inkar edən, gah da bir-birinə nüfuz edən proseslərlə, əlaqələrlə şərtlənir. Münaqişə həmin proseslərin vəziyyətidir. Münaqişənin həlli mənafelərin, xüsusilə iqtisadi mənafelərin uyğunlaşmasını, bir-birini tamamlamasını, bir-birinə bərabərləşməsini tələb edir. Əgər bu mümkün deyildisə, demək bütün münaqişələri aradan qaldırmaq da qeyri-mümkündür. Beləliklə, münaqişənin səviyyəsi, keyfiyyət müəyyənliyi sosial-iqtisadi sistemin sabitliyi səviyyəsi ilə müəyyən olunur. Münaqişələr antoqonist, qeyri-antoqonist, rəqabət, konfrantasiya və digər formalarda ola bilər. Birinin mənafeyinin digərinin məqsəd və mənafeləri hesabına həyata keçirilməsi (həm də açıq və kobud qaydada) həmişə həm kəskin münqaişə tipi yaradır. Ona görə də müəyyən münasibətlərdə olan tərəflərin mümkün qədər mütərəqqi cəhətləri əsas götürmələri son dərəcə vacibdir.

Bu və ya digər münaqişələr tipi və formaları öz təbiətinə görə açıq və gizli, müəyyən və nisbətən qeyri-müəyyən formalarda ola bilər. Bunlar həm də dağıdıcı və yaradıcı xarakter daşıya bilərlər. Lakin münaqişələrin hansı xarakter daşımalarından asılı olmayaraq gərgin qarşılıqlı əlaqə və emosional situasiyalar yaradırlar. Əmək kollektivlərində münaqişələrin, münaqişə situasiyalarının bir sıra ümumi və xüsusi hallar mövcuddur. Bu baxımdan münaqişələr işgüzar (təhsil, tərbiyə fəlaiyyəti xarakterlidir) və subyektiv qaydada (mənafelərin uyğun gəlməməsi, onların toqquşması) olur. Işgüzar qaydada olan münaqişələr istehsal və əmək fəlaiyyəti sahəsində bir növ siqnal rolunu oynayır, ona görə də müsbət əhəmiyyət kəsb

edir. Bununla belə münaqişələrin əmələgəlmə xarakteri göstərir ki, onun obyektiv səbəbləri ilə yanaşı subyektiv, yəni əvvəlcədən nəzərdə tutulmuş çəhətləri də vardır. Belə səbəblər münaqişələri törədən təbii səbəbi deyi, qondarma səbəbi adlandırmaq olardı. Ona görə də münaqişələrin səbəblərinin qanunauyğunluqları tədqiq edilərkən situasiyalı idarəedicilik qaydasından istifadə etmək lazımdır. Bunun üçün geniş və hərtərəfli informasiyalara istinad edilməlidir. Həm də müxtəlif növlü və xarakterli münaqişələrin həllinə, ekstremal şəariti gözləmədən, cəhd etmək lazımdır. Burada, münaqişələrin subyekti və obyekti ilə əlaqədə olan məsələlər sistemi halda araşdırmalı, tədqiq edilməlidir. Çünki, nəzərə almaq lazımdır ki, münaqişə situasiyası çevik xarakter daşıyır və sabit olmur, bir sözlə şəraitə uyğun olaraq dəyişə bilir. Hətta burada üzvlərin, digər məsələyə olan fikirləri də dəyişə bilər. Üzvlərin fikirlərinin yeni şəraritlə, situasiyaya uyğun olaraq dəyişilməsinin özü də bir sıra obyektiv və subyektiv amillərdən asılıdır. Bu, bir tərəfdən opponentlərin öz statusundan, digər tərəfdən isə onlara təsir edə bilən rəsmi orqanların ranqından, yəni hakimiyyət səviyyəsindən asılı olur.

Mövcud ədəbiyyatlarda münaqişələrin müxtəlif təsnifatı verilmişdir. Lakin göstərilən təsnifatı heç də ideal hesab etmək olmaz. Məsələn münaqişələrin əmələ gəlməsi yalnız sosial psixoloji köklərlə bağlı deyildir. Burada iqtisadi amillər əsas rola malikdir.

Ədəbiyyat

1. Mehrabov A.O., Cavadov İ.A.Təhsil sistemində informasiyaların keyfiyyətinin idarə olunması
2. Mələk Zamanova-Menecment (təhsilin idarə olunmasl)
3. Məmmədzadə R.H., Abdullayev A., Kərimov F., Cabbarov R., Rəsulov S.S., Quliyev Ə. Təhsilin idarəedilməsinin bəzi problemləri
4. T.Ə.Quliyev "Menecmentin (idarəetmənin) əsasları", Bakı – 2001.
5. Oqtay Abbasov. Təhsilin idarə olunması.

Hüseynova Vüsalə Hüseyn qızı
ADPU, magistr
Elmi rəhbər: p.f.d. Miri Həsənov

SİNFİN İDARƏ EDİLMƏSİNDƏ SİNİF RƏHBƏRİNİN ROLU

Dünya təhsilində hər zaman öz aktuallığı ilə daim diqqət mərkəzində olan ümumtəhsil məktəblərində təhsilin, sinfin idarə olunması əsas problemlərdən olmuşdur. Ümumtəhsilin idarə olunması dövlətin ən əsas standartlarından biridir. Təlim-tədris prosesində müəllimdən tələb olunan bacarıqlardan biri və ən əsası sinfin düzgün idarə olunmasıdır. Sinfin idarə edilməsi elə bacarıq və alqoritmlər, texnikalar toplusudur ki, onların vasitəsilə müəllim-şagirdlərin dərs zamanı nizam-intizamlı və hazırlıqlı olmalarını təmin edir, şagirdlərin diqqətini dərsə cəmləşdirir ki, bu da onların akademik nailiyyətlərinin yüksəlməsinə gətirib çıxarır. Sinfin idarəedilməsi strategiyaları effektiv şəkildə icra edildikdə şagirdlərin öyrənməsinə mənfi təsir edəcək davranışların minimuma enməsinə, öyrənməni dəstəkləyəcək davranışın isə artmasına təsir etmiş olur. Aşağı səviyyəli idarə olunan sinifdə effektiv və yüksək öyrənmə baş verə bilməz. Əgər şagirdlər nizam-intizamsızdırlarsa, qarşılıqlı hörmət və davranışı idərə edən qayda və prosedurlar müşahidə olunmursa, bu hal pis, mənfi normaya çevriləcək. Bu vəziyyətdən həm müəllim, həm də şagirdlər əziyyət çəkəcək

Yaxşı idarə olunan sinifdə isə öyrətmə və öyrənmə prosesi axıcı olur. Effektiv şəkildə idarə olunan sinfin təşkili üçün səy, cəhd tələb olunur ki, bunu da edəcək yeganə şəxs müəllimdir. Sinfin effektiv idaraedilməsi sinifdaxili münasibətlərin yaxşılaşmasında, təlim zamanı vaxt itkisinin qarşısını almaqda, ən əsası bilik, bacarıq, öyrənmə mühitinin səmərəli şəkildə qurulmasında əhəmiyyətli rol oynayr.

Sinfin effektiv idarə edilməsinə təsir edən bir neçə faktor vardır:

• Gözlənti

• Prosedur və Qayda

• Sinifdaxili konfliktlərin həll edilməsi

Gözləntilər müəllimin şagirdə onun davranış və fəaliyyətinin necə olması barədə ötürdüyü mesajdır.

• İki cür gözlənti var:

Müsbət və ya yüksək gözlənti. Nümunə: "İnanıram ki, hər bir şagirdin öyrənmək və nailiyyət əldə etmək qabiliyyəti var".

Mənfi və ya aşağı gözlənti. Nümunə: "İndiki uşaqlar sadəcə öyrənmək istəmirlər".

Bəzən qoyulan gözləntilər və onların mahiyyəti şagirdlərə aydın şəkildə

bildirilib izah edilmir. Bu da müəllimlə şagird arasında anlaşılmazlıqlara səbəb ola bilir.

• Gözləntilərə dair nümunələr:

• Hamıya hörmətlə yanaşın.

• Məsuliyyətli olun.

• Təhlükəsizliyə riayət edin.

Prosedur va qayda. Sinif rəhbəri şagirdlərin davranışı ilə bağlı ciddi problem olmayan siniflərdə belə qayda və prosedurların qoyulması lazımdır. Baxmayaraq ki, qayda va prosedurlar dərs ilinin əvvəlindən müəyənləşdirilir, tədris ili boyunca onlara formalaşır, əlavələr və ya çıxarmalar ola bilər. Effektiv qayda və prosedurlar olmadan təlimin düzgün şəkildə aparılması və arzuolunan nəticələrə çatmaq daha çətin olur. Həm qayda, həm da prosedurlar şagirdlərdən gözlənilən davranışı özündə əks etdirir. Bununla belə, qaydalar ümumi davranışla bağlı olduğu halda, prosedur müəyyən tapşırıqlar və bu tapşırıqların necə həyata keçirilməsini göstərir. Prosedurlar insanların davranış və fəaliyyətlərini hansı qayda və ardıcıllıqla həyata keçirməli olduqlarnı göstərir. Prosedurlardan sinifdə də istifadə olunur va bu prosedurlar şagirdlərin davranışı və fəaliyyətini nizama salmaqda,bilik əldə etmə və öyrənmə mühitini axıcı etməkdə müəllimə kömək edir.

Müəllim aşağıdakı hallar üçün əvvəlcədən sinif prosedurları tətbiq edə bilər

• Dərsə gecikən zaman sinfə daxil olanda

• Sinif müzakirələrində iştirak edəndə

• Diqqətin müəllimə yönəldilməsi lazım olanda

• Əməkdaşlıq şəraitində işləyəndə

• İş vərəqlərini ötürəndə

• Sual verəndə

• Dəhlizdə hərəkət edəndə

• Təhlükəli hallar –zəlzələ, yanğın yarananda

• Tapşırnğı tez bitirəndə

• Əlavə material lazım olanda

• Müəllim sinifdə olmayanda

• Sinfi tərk edəndə

• Summativ qiymətləndirmə zamanı köçürmə halı baş verəndə və.

Sinifdə prosedurlardan istifadəni zəruri edən və həll yolu kimi təklif olunan nümunəyə baxaq, Məsələn, şagirdlər dərsə gecikəndə - sinifdə bu vəziyyətlə bağlı prosedur yoxdursa, o zaman şagird qapını döyüb içəri daxil olur, müəllim ona niyə gecikdiyi ilə bağlı sual verir, şagird isə özünə haqq qazandırmaq üçün cavab verir. Beləcə, müəllim-şagird arasında dialoq yaranır ki, bu da dərsin vaxtına, gedişatına təsir edir, digər şagirdlərin təkrarən dərsə cəlb olunmasında çətinlik yaranır. Əlavə olaraq belə dialoq zamanı müəllimin mühakimaedici rəftarı şagirdlə müəllim arasında münasibətə mənfi təsir edə bilər ki, bu da nəticədə həmin şagirdin fənnə qarşı marağınn azalmasına gətirib çıxara bilər. Bəs belə vəziyyətdə müəllim necə etməli? Əvvəlcə vurğulayaq ki, müəllim sinfə "məsuliyyətli olun" formasında gözlənti

qoymalı və məsuliyyətli olmağın bir göstəricisinin də "dərsə vaxtında gəimək" olduğunu bildirməlidir. Belə gözlənti qoyduqda artıq şagirdlər dərsə gecikməməli olduqlarını bilirlər.

Sinifdə davranışla bağlı problemlərlə məşğul olarkən müəllimlər 2 cür yanaşma göstərə bilərlər: reaktiv və proaktiv.

Reaktiv yanaşma göstərən müəllimin baş verənlərlə bağlı əvvəlcədən hazırlanmış heç bir planı yoxdur və o, sadacə, problem yaranan zaman qışqırmaqla, cəza ilə, hədə qorxu ilə reaksiya verir va sinfi müvafiq qaydada davranmağa macbur edir.

Effektiv müəllim isə proaktiv münasibət göstərir, yəni onun sinif pozuntular baş verməmişdən qabaq, bu cür pozuntuların qarşısını alan bir planı vardır. Çünki effektiv müəllim bilir kí, sinif otağındakı bir nömrəli problem nizam-intizamın deyil, qayda, prosedur va bütin iş rejiminin, yəni sinfin akademik nailiyyət üçün sinfi təşkil edən planın əskikliyi ilə əlaqədardır. Proaktiv təlim problemlərin baş verməsinin qarşısını necə almaq lazım olduğunu bilir.

Sinifdaxili konfliktlarin həll edilməsi

Konfliktlər istənilan növ situasiyalarda yarana bilir, çünki insan faktorunun olduğu hər bir yerdə konfliktin olması qaçınılmazdır. Şagirdlərin içində olduğu konftiktlər digər problemlərə də yol aça bildiyi üçün onların daha tez həll edilməsində maraqlı olmalıyıq. Lakin biz şagirdlər arasında olan konfliktləri özümüzün deyil, onların həll etməsina nail olmalyıq, Bunun üçün onlara sinif iclaslarında konflikt həlletmə bacarıqlarını formalaşdırmalıyıq. Bu cür bacarıqlar rollu oyunlar aparmaqla inkişaf etdirilə bilər.

Ədəbiyyat

1. İ.Həsənov, A.Rüstəmova, N.Babayeva. Kurikulum. Metodika. Pedaqogika. “Mücrü” nəşriyyatı. Bakı-2020. 232 s

2. Ağamalıyev R.A. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. Bakı: Təhsil 1998, 376 s

2. Mehrabov A.O. İdarəetmə mədəniyyəti, keyfiyyətin idarə edilməsinin strukturfunksional modelləri// Azərbaycan məktəbi, 2009

3. Məmmədzadə R.H, Abdullayev A., Kərimov F., Cabbarov R., Rəsulov S.S., Quliyev Ə. Təhsilin idarəedilməsinin bəzi problemləri, Bakı: Müəllim ,2008, 238 s

4. Misir Mərdanov. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı Çaşoğlu 2009, 528 s

5. R. Məmmədzadə, A. Abdullayev, F. Kərimova, R. Cabbarov, S. Rəsulov, Ə. Quliyev. Təhsilin İdarə Edilməsinin Bəzi Problemləri, Bakı 2008, 238 s

XÜLASƏ

Təhsil sahəsində idarəetmələrin düzgün təşkil olmasi və keçrilməsi ən vacib xüsusiyyətdir. Elə buna görədir ki, biz təhsil sahəsində idarəedən şəxsləri xüsusilə seçirik ki, düzgün şəkildə bu prosesi həyata keçirə bilsinlər. Bu amilin öz real heyatımızda da müşahidəsini edib, təsdiqini tapmış oluruq. İdarəetmək asan məsələ deyil. Bunun üçün xüsusi şəxslər seçilməlidir. Bu təkcə təhsil sahəsində deyil, bütün sahələrdə belədir. Məsələn düzgün idarəolunan dövlət ən inkşaf etmiş ölkə olur və ya ola bilər. Hər bir insanda düzgün idarəçilik vərdişlərinin formalaşması ailədən daha sonra isə məktəbdən gəlir. Bu da müəllimin təşəbbüsü ilə baş verir. Əgər müəllim sinifdə idarəetməni düzgün təşkil etmiş olsa, həmin sinfin inkşaf səviyyəsi yüksək olar və şagirdlərdə idarəetmənin düzgün təşkili ilə bağlı fikirlər formalaşar. Ümumiyyətlə təhsillə bağlı hər bir xüsusiyyətin vacibliyini nəzərə alaraq deyə bilərik ki, sinfin idarəedilsi ən əsas məsələlərdən biridir. Bu məsuliyyətli iş ölkədə Təhsil Nazirliyinin, məktəbdə direktorun üzərinə düşürsə, sinifdə müəllimin üzərində düşür. Hər bir müəllim öz ixtisası ilə bağlı elmi-nəzəri biliklərlə sahib olmaqla yanaşı, düzgün idarəetməni təşkiletmə bacarığına da yiyələnməlidir.

Yuxarıda qeyd etdiyim ki, sinfin, kollektivin idarə edilməsi üçün prosedur və qaydaları bilmək və bunlardan düzgün şəkildə, yerli-yerində istifadə etmək ən əsas məsələdir. Bunu da müəllim təşkil etməlidir. Özünə inanan hər bir peşəkar müəllim bunu mükəmməl şəkildə həyata keçirir. Sinfin idarəedilməsi ilə bağlı prosesdurlar, qaydlar və bu prosedurlara uyğun qaydaları mənimsətmək məşq yolu ilə mümükündür. Müəllim hər hansı prosedurla bağlı qaydaları uşaqlara mənimsətmək, öyrətmək və bu qaydaları olarda formalaşdırıb vərdiş halına gətirmək istəyirsə, bunun üçün uşaqları bu qaydalarla, prosedurlarla bağlı xüsusi məşqlərə cəlb etməlidir. Məşqlər uşaqlarda prosedurlar zamanı qaydaları həyata keçirməyi öyrədir. Bununla yanaşı məşqlər bu qaydaları həyata keçirməyi avtomatikləşdirir. Yəni, vərdiş halına gətirir. Əgər müəllim prosedurlara uyğun əvvəlcədən ağıllı şəkildə qaydaları hazırlayıb və bunu məşq vasitəsilə uşaqlara mənimsədə bilibsə, həqiqətəndə o müəllim yüksək idarəetmə bacarığına sahidir. Hər bir müəllim çalışmalıdır ki, sinfi idarəedərkən diqqətli olsun və səhvlərə yol verməsin. Bu səhvlər sonradan müəllim üçün çətin vəziyyət yarada bilər.

Şərifova Aygün Ramiz qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant

TƏHSİL MÜƏSSİSƏLƏRİ RƏHBƏRLƏRİNİN PEŞƏ SƏLAHİYYƏTLƏRİNİN İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI

Açar sözlər: *təhsil, rəhbər, inkişaf, idarəetmə səriştəsi, modernləşdirmə, peşəkarlıq*
Ключевые слова: *образование, лидерство, развитие, управленческая компетентность, модернизация, профессионализм*
Key words: *education, leadership, development, managerial competence, modernization, professionalism*

Müasir şəraitdə qloballaşma yolu ilə gedən dünya birliyində təhsilin rəqabət qabiliyyətini təmin etmək ölkəmizin inkişafının vacib istiqamətlərindən biridir. İqtisadiyyatda əsas prioritet yüksək texnologiyaların istifadəsidir; sənaye cəmiyyətinin informasiya-kommunikasiya cəmiyyətinə çevrilməsi baş verir. Öz növbəsində innovativ təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə ayrılmaz şəkildə bağlıdır.

Mövcud idarəetmə modelini modernləşdirmədən təhsil sistemini dəyişdirmək mümkün deyil. Bu dəyişikliklərin mahiyyəti, təhsil idarəçiliyinin bütün səviyyələrinin qarşılıqlı əlaqəsi üçün optimal bir mexanizmin yaradılması və bir təhsil müəssisəsinin idarəetməsinin təkmilləşdirilməsi kimi görünür.

Müasir dövrdə təhsil milli prioritet sahəsi olmaqla ümumi təhsilin yeni keyfiyyətinə, məktəbin yeni bir modelinin yaradılması istiqamətində hərəkətlərin sürətlənməsinə güclü təkan verməklə mühüm innovativ insan resurslarını ortaya qoydu. Ümumtəhsil müəssisələrində təhsilin hazırkı inkişaf mərhələsində biliklərin əsasını yenilikçi düşüncə və praktikaya yönəlmiş, xüsusi təhsil problemlərinin həllini tədqiqat prosesi ilə birləşdirməyə imkan verən keyfiyyətcə fərqli peşəkar müəllim hazırlığına ehtiyac yaranmışdır.

Yeni tələblərin həyata keçirilməsi üçün strateji vəzifələrin həlli kontekstində təkcə təhsilin məqsədləri, məzmunu, tələbə şəxsiyyətinin tərbiyəsi və inkişafı üçün texnologiyaların təkmilləşdirilməsi deyil, həm də təhsil müəssisələri rəhbərlərinin peşə fəaliyyətində, təhsil inkişafı orqanlarının peşə inkişafı səviyyəsində təşkili tələb olunur. Bu istiqamətdəki praktik irəliləyişlər təhsil müəssisələri rəhbərlərinin peşə səlahiyyətlərinin inkişaf etdirilməsi mövzusunu aktuallaşdırır.

İnkişaf prosesi müəyyən bir diqqət və meylə sahib bir hərəkətdir. İnkişafın ilkin və son nöqtələri, bir-birinin ardınca meydana gələn keyfiyyətcə fərqli addımlar kimi fərqlənir. Belə-

liklə, inkişaf prosesini cismin strukturundakı dönməz keyfiyyət dəyişiklikləri və ya obyektin yeni struktur komponentlərinin - quruluşunu təşkil edən elementlər, münasibətlər və asılılıqların yaranması kimi başa düşmək olar.

Dəyişmə prosesinə psixi proseslərdə və onların qarşılıqlı əlaqələrində keyfiyyət dəyişiklikləri, yeni motivlərin və maraqların ortaya çıxması, insanın psixi vəziyyətlərində sabit xüsusiyyətləri daxildir ki, bu da insanda yeni zehni xüsusiyyətlərə yiyələnmə prosesinə müsbət təsir göstərməyə başlayır.

Elmi araşdırmalarda inkişaf anlayışının mahiyyətinin təhlili Hegelin dialektik təlimlərinə əsaslanır, bunlar inkari-inkar qanunları, əksliklərin vəhdəti və birliyi, kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyiçmələrinə keçməsi qanunlarını ehtiva edir (2,s.332). Beləliklə, inkar qanunu yalnız məhv olmağı, köhnəni məhv etməyi deyil, həm də inkişafın əvvəlki mərhələsində əldə edilmiş rasionalın qorunub saxlanılmasını, inkişaf etdirilməsini də əhatə edir. Rəhbər şəxsiyyətinin inkişafı ilə bağlı bu qanun o deməkdir ki, şəraitin yaradılması və subyektin özünü inkişaf etdirməsi nəticəsində onda keyfiyyətcə çevrilmə prosesi aparılır. Bunun sayəsində mütərəqqi və ən yaxşı hər şey qorunur və peşəkar və idarəedici fəaliyyət və davranış prosesində ifadə olunur.

İnkişaf konsepsiyası, idarəetmə subyektinin sosial əhəmiyyətli dəyərlərinin quruluşu və məzmununda təbii dəyişiklik prosesi olduğunu, onun bir vəziyyətdən digərinə, daha mükəmməl keçdiyini müəyyən etməyə imkan verir. Buna görə təhsil müəssisəsi rəhbərinin peşəkarlığının inkişafı, fikrimizcə, həm peşəkar idarəetmə fəaliyyətinin quruluşunu, həm məzmununu, həm də müəyyən bir təhsil müəssisəsinin rəhbərinin şəxsiyyətini dəyişdirmək üçün tamamilə məntiqi və şərti bir prosesdir. Psixoloji tədqiqatlarda bir insanda neoplazmaların meydana gəlməsinin əsas şərtlərindən birinin onun üçün əhəmiyyətli olan fəaliyyətlərə və əlaqələrə daxil olması qeyd olunur.

İnsan peşəkarlığının öyrənilməsi müxtəlif aspektlərdən mümkündür: bir tərəfdən bunu peşə fəaliyyətinin yolları, metodları, məzmunu ilə mənimsəmək; digər tərəfdən, fəaliyyətin peşəkarlığını fərdi xüsusiyyətlərin, dəyərlərin, dəyər yönümlərinin inkişafı bizə birinci halda peşəkarlığın, ikinci halda şəxsiyyətin peşəkarlığının tərkib hissəsi kimi nəzərdən keçirməyə imkan verir.

Bunlar idarəetmə predmetinin təzahürləri kimi fəaliyyət göstərən və təhsilin peşəkar lideri olma prosesinə imkan verən qarşılıqlı və bir-birindən asılı olan anlayışlardır

Liderin peşəkarlığının inkişafı ilə peşəkarlığın inteqrativ şəxsiyyət təhsili kimi formalaşmasını təmin edən onun tərkibindəki kəmiyyət və keyfiyyət dəyişikliklər prosesini başa düşəcəyik. Bu tərif yalnız menecerin peşəkarlığının inkişafını müəyyən bir proses kimi vurğulamaqla yanaşı, onu xarici idarəetmə obyekti kimi də nəzərdən keçirməyə imkan verir.

Təhsil müəssisəsi rəhbərinin peşəkarlığı yüksək peşəkarlıq səviyyəsi ilə xarakterizə olunur. Peşəkar səlahiyyət anlayışı geniş bilik və praktiki fəaliyyət, idarəetmə mədəniyyətin formalaşma dərəcəsini əks etdirir və bu yalnız prioritet fəaliyyətlərin deyil, bütün əməyin nəticələrini müəyyənləşdirir (3, s.75).

Peşəkar sərişləliyin ilk növbədə müəyyən bir mütəxəssisin təhsili, o cümlədən peşəyə vahid konseptual yanaşma, işin dəyərinin tanınması, funksiyaların yerinə yetirilməsində optimal texnoloji effektivlik, peşə etikası və özünü tənzimləmə, özünü təşkili və özünü inkişaf etdirmə ilə müəyyən olunduğunu vurğulamaq vacibdir. Beləliklə, N.V.Kuzmina müəllimin peşə fəaliyyətini öyrənərkən qeyd edir ki, peşə və pedaqoji sərişləlik "subyektini şəxsiyyətin formalaşması vasitəsinə çevirmək, elmi və praktik biliklərin qurulması bacarığı" ilə xarakterizə olunur (4, s. 101).

Bununla birlikdə, peşəkar idarəetmə fəaliyyətinin mürəkkəbliyi və çoxfunksiyalılığı, onun təşkili xüsusiyyətləri, bir təhsil müəssisəsi rəhbərinin peşə səlahiyyətlərinin quruluşu və məzmunu təkcə peşəkar bilik səviyyəsini deyil, həm də peşəkar keyfiyyətlər sistemini və müxtəlif səlahiyyətlər sistemini (sosial-psixoloji, psixoloji və pedaqoji sərişləni və başqaları

əhatə edir). Onlar təhsil menecerlərin şəxsi və peşəkar inkişaflarının və peşəkar uğurlarının əsasını təşkil edirlər.

Peşəkar səriştəlilik səviyyəsinin artırılması təkcə menecerlər üçün təlimlərin təşkili ilə deyil, həm də peşə fəaliyyətində insanın özünü inkişaf etdirməsi və özünü tərbiyəsi yolu ilə öz peşə səlahiyyətlərini artırmaq üçün motivasiyanın mövcudluğundan asılıdır. Bu baxımdan, peşəkar səriştəliyin növlərindən biri kimi, fərdi kompetensiyanı ayrılmaz peşəkar özünüdərk inkişafına ayırmaq olaq. Beləki, onun əsas xüsusiyyətlərini peşəkar özünüdərk, daimi özünü təyinetmə, peşə bacarıqlarının özünü inkişaf etdirməsi, özünü dizayn, özünü qurulmasıpeşəkar inkişaf strategiyası, peşə həyatının qurulması və həyata keçirilməsindəözünü peşəkar kimi qəbul etməkdir.

Bu yanaşma təhsil müəssisəsi rəhbərinin peşəkar dünyagörüşü texnologiyasının mövcudluğunu özündə ehtiva edən peşəkar səriştəliyinin quruluşu anlayışına uyğundur .

Təhsil müəssisəsi rəhbərinin peşə səriştəsi dedikdə biz təhsil müəssisəsi rəhbərinin nəzəri və praktik bilik və bacarıqlarının səviyyəsini, müəllim heyətinin, tələbələrin, şagirdlərin və müəssisənin uğurlu, effektiv idarə olunması üçün imkan yaradan peşəkar əhəmiyyətli keyfiyyət və qabiliyyətləri başa düşürük.

Şəxsiyyətin təbiətini araşdıran bütün tədqiqatçılar onun çoxşaxəli, müxtəlif və sistemli olmasına diqqət çəkirlər. Məktəb rəhbərinin peşə səriştəsi inteqrasiya edilmiş bir quruluş şəklində təqdim olunur, o cümlədən: peşəkar idarəetmə səriştəsi, şəxsi səriştəlik, təşkilatçılıq və fəaliyyət səriştəsi, sosial səriştə, kommunikativ səriştə, metodik səriştə, əks etdirici kompetensiya və s (6).

İdarəetmə səriştəsi peşəkarlığın göstəricisidir - liderin aparıcı idarəetmə funksiyalarını yerinə yetirmə qabiliyyətidir. Bu peşəkar göstərici və qabiliyyətlərə: planlaşdırma, təşkilatlanma və nəzarət daxildir.

İdarəetmə səriştəsi - rəsmi vəzifə və hüquqlara uyğun olaraq müasir şəraitdə peşə və idarəetmə fəaliyyətlərini, pedaqoji və idarəetmə funksiyalarını həyata keçirməyə hazırlıq və bacarıq, fəaliyyətin müvəffəqiyyətinə və bir lider olaraq liderin özünü inkişaf etdirmə və özünü tərbiyəsi prosesinə təsir edən bir insanın peşə keyfiyyətləri və qabiliyyətlərini formalaşdırır. Bundan əlavə, rəhbərin idarəetmə səriştəsinin səciyyəvi xüsusiyyətlərindən biri rəhbərlik subyektinin qurumda baş verən dəyişikliklərdə rolunu artırmaq müəssisədəki inkişaf proseslərini yaxşılaşdırmaqdır.

Rəhbərin təşkilatçılıq və fəaliyyət səlahiyyətləri məktəb təşkilatında inkişaf edən müxtəlif fəaliyyət növlərini idarə etmək, məktəb idarəetməsinin keyfiyyətini artırmaq üçün ən təsirli vasitə seçmək bacarığıdır.

Sosial-mədəni səriştəlik şəxsi, işgüzar imic və peşə etikasıhaqqında biliklər məcmusudur.Bu bilik və əlaqəli bacarıqlar ünsiyyət, şəxsi və iş səviyyəsinin göstəricisidir.

Müxtəlif həyat şəraitində özünü büruzə verən və şəxsi və peşə baxımından əhəmiyyətli məsələlərin həllində müvəffəqiyyətin qarantı hesab edilə bilən müəllim mədəniyyətinin əsasıdır.

Sosial inkişaf səriştəsi - ictimai təşkilatlarla, sosial qurumlarla tərəfdaşlıq qurmaq və inkişaf etdirmək bacarığı; təhsil orqanları, səhiyyə, hüquq-mühafizə orqanları, digər ümumi təhsil və ali təhsil müəssisələri ilə əlaqələri gücləndirmək; şəhər, regional, regionlararası və beynəlxalq səviyyəli tədbirlərdə fəal iştirak etmək; media ilə işgüzar münasibətləri inkişaf etdirməkdir.

Şəxsi səriştəlik, məktəbin müdirinin intellektual, yaradıcı, tənqidi təfəkkürə, geniş dünyagörüşünə, təkcə pedaqoji elmlər sahəsində son elmi biliklərə sahib olması ilə özünü göstərir. İşgüzar ünsiyyət psixologiyası və etikası sahəsindəki elmi biliklərə və şəxsiyyətlərarası qarşılıqlı əlaqənin müsbət praktik təcrübəsinə əsaslanaraq problemlərin həlli və münaqişə vəziyyətlərinin həlli bacarığı, heyətin yaradıcılıq nailiyyətlərinə, beynəlxalq layihə və proqramlarda iştiraka görə həvəsləndirmə və mükafatlandırma üsulları və biliklériinkişaf etdirməkdir.

Metodik səriştə - pedaqoji və psixoloji elmlərdə yeni nailiyyətlər, müəllimlərin innovativ kəşfləri haqqında biliklərə sahib olmaq, tədris və tədqiqat bacarıqlarına, pedaqoji təcrübəni yaymaq və innovativ fəaliyyətə cəlb olunan müəllimlərə elmi-metodiki dəstək vermək bacarıqlarına sahib olmaq.

Refleksiv səriştəlik - bir təhsil müəssisəsi rəhbərinin peşəkar idarəetmə fəaliyyətinə və özünə münasibətdə özünü əks etdirir.

Kommunikativ səriştəlik - bütün müəllim heyətinin üzvlərinin qarşılıqlı fəaliyyətini təşkil etmək bacarığı, xarici və daxili münasibətləri insani-şəxsi əsasda qurmaq; əməkdaşlıq etmək bacarığı, mədəniyyətlərarası əlaqə; beynəlxalq əlaqələrin inkişafı üçün xarici dilin mənimsənilməsinə ehtiyac: müəllimlərin peşəkar hərəkətliliyinin və məktəblilərin tədris fəaliyyətinin təşkili, beynəlxalq layihələrdə, müsabiqələrdə və olimpiadalarda iştirakı üçün şərait yaratmaq.

Təhsil müəssisəsi rəhbərinin peşə inkişafı prosesinin həyata keçirilməsinə iki aspektdən yanaşmaq lazımdır: birincisi, təhsil müəssisəsindədavamlı tədrisin təşkili, rəhbərin təlimi; ikincisi, özünü təşkil edən bir sistemin özünü inkişaf etdirməsi - peşə fəaliyyətini həyata keçirmə prosesində fəaliyyət mənbəyi kimi çıxış edən rəhbər şəxsiyyət.

Menecerin peşə qabiliyyətinin göstərilən xüsusiyyətləri ayrı-ayrılıqda nəzərdən keçirilə bilməz, çünki bunlar inteqrativ, vahiddir və ümumiyyətlə peşə hazırlığının məhsuludur. Xülasə edərkən qeyd etmək lazımdır ki, məktəb rəhbərinin peşə bacarıq səviyyəsinin inkişafı və təkmilləşdirilməsi davamlı bir prosesdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının“Təhsil haqqında”qanunu. 2009.http://www.e-qanun.az/alpidata /framework/data/18/c_f_18343.htm

2. Hegel G.V.F. Məntiq elmi. Bakı, 2005. 460 s.

3. Nəzərov M.H,Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı. “Elm və təhsil”– 2017. 215 s.

4. Kuzmina N.V. Sistematik pedaqoji tədqiqat metodları. L.: Leninqra nəşriyyatı. Universitet, 1980.172 s.

5.Миронов В.В. Модернизационные процессы в управлении образованием // Вестн. РФО. 2008. - № 2. - С. 51-59.

6. http://atp.vseversk.ru/articles/41/

ŞərifovaAygün

Təhsil müəssisələri rəhbərlərinin peşə səlahiyyətlərinin inkişafının nəzəri əsasları

XÜLASƏ

Məqalədətəhsil müəssisələri rəhbərlərinin peşə səlahiyyətlərinin aktuallığı, peşəkarlığın inkişafı altında inteqrativ fərdi təhsil kimi formalaşmasını təmin edən onun tərkibindəki kəmiyyət və keyfiyyət dəyişiklikləri, rəhbərin səlahiyyətlərindən, planlaşdırma, təşkilatçılıq və nəzarət kimi əsas idarəetmə bacarıqlarından, həm də peşəkar idarəetmə səriştəsi, fərdi səriştəlik, təşkilatçılıq və fəaliyyətə əsaslanan səlahiyyət, sosial səriştə, kommunikativ səriştədən ibarət olan bir quruluşdan, metodik səriştə və refleksiv səriştəlikdən bəhs edilir.

Шарифова Айгун

Теоретические основы развития профессиональной компетентности руководителей образовательных учреждений

РЕЗЮМЕ

В статье подчеркивается важность профессиональных компетенций образовательного учреждения, количественных и качественных изменений в его структуре, которые обеспечивают формирование интегрированного индивидуального образования в условиях профессионального развития, а также ключевых управленческих навыков, таких как лидерство, планирование, организация и контроль, а также профессиональная

компетентность и личная компетентность. Компетентность, основанная на компетентности, социальной компетентности, коммуникативной компетентности, методологии и рефлексивной компетентности.

SharifovaAygun

Theoretical foundations for the development of the professional competence of the heads of educational institutions

SUMMARY

The article highlights the importance of professional competencies of educational institutions, the quantitative and qualitative changes within its structure, which provide the formation of an integrated individual education under professional development, as well as key managerial skills such as leadership, planning, organization and supervision, and professional competence and personal competence. competency based on competence, social competence, communicative competence, methodology, and reflexive competence.

Dadaşova Əfsanə Nahid qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos. Kəmalə Quliyeva

PEDAQOJİ ŞURA MƏKTƏBİN ALİ KOLLEGİAL ORQANI KİMİ

Açar sözlər: *demokratik idarəetmə, kollegialılıq, qarşılıqlı əlaqə, inkişaf*
Ключевые слова: *демократическое управление, коллегиалность, взаимодействие, развитие*
Key words: *democratic governance, collegiality, interaction, development*

Pedaqoji Şura təhsil prosesinin əsas məsələlərini nəzərdən keçirmək üçün yaradılan və məktəbdə daimi fəaliyyət göstərən özünüidarə orqanıdır. Onun digər kollegial orqanlar kimi əsas vəzifəsi təhsil prosesinin keyfiyyətini, şərtlərini və nəticələrini yaxşılaşdırmaqdır. Peşəkar bir məktəb kimi formalaşmaq pedaqoji şuranın əsas hədəflərindən biridir. Bu orqanın tərkibinə yalnız təhsil təşkilatının ştat işçiləri deyil, həm də valideyn komitəsinin, şagird təşkilatının nümayəndələri də daxil olur. Onlar işə qəbul olunduqları gündən, iş haqqında müqavilənin başa çatdığı tarixə qədər pedaqoji şuranın üzvü hesab olunurlar. Pedaqoji şuranın köməyilə məktəbdə bir çox zəruri məsələlərə nəzarət olunur. O, ümumiyyətlə, həm də məsləhət xarakterli bir orqandır. Məhz buna görə də icraedici səlahiyyətlərə malik olan digər orqanlara müəyyən problemlərlə bağlı sonradan təhlil edilərək müzakirə olunacaq bir sıra hüquqi məsləhətlər verir. Məktəb pedaqoji şurası metodik işdən də yan keçmir. Metodik işin bəzi cəhətləri pedaqoji şurada müzakirə obyekti olur. [2, s.423] Pedaqoji şuranın sədri məktəb rəhbəridir. Pedaqoji Şuranın iclasları, məktəbin müəllim heyətinin ən azı üçdə ikisi iştirak etdikdə qanuni olaraq səlahiyyətlidir və iştirak edən müəllimlərin yarısından çoxu səs verdikdə qərar qəbul edilmiş sayılır.Səsvermə qaydası məktəbin pedaqoji şurası tərəfindən müəyyən edilir. Qərarların özü isə sadə səs çoxluğu ilə qəbul olunur. Səslərin sayı bərabər olduğu zaman isə Pedaqoji Şuranın sədrinin səsi həlledici rol oynayır.Pedaqoji şuranın qərarı ilə razılaşmadıqda məktəb direktoru qərarın icrasını dayandırır və bu barədə rayon (şəhər) xalq təhsili şöbəsinə məlumat verir. Qeyd edim ki, qərarlar kollektiv olaraq və müəllimlər şurasının səlahiyyətinə aid olan məsələlər üzrə verildiyi üçün, direktor da daxil olmaqla hər kəs üçün zəruri əhəmiyyət kəsb edir. Məktəbdaxili idarə və ümumi məktəb işinin təşkilində pedaqoji şura mühüm rol oynayır. [1,s. 471] Pedaqoji şura bütünlükdə təhsil prosesini idarə etmək üçün ali bir orqan kimi təhsil müəssisəsinin xüsusi vəzifələrini həll edir. Onun fəaliyyəti məktəbin pedaqoji şurası haqqında Əsasnamə ilə müəyyən olunur. Bu kollegial orqan üçdən çox müəllimin olduğu bütün ümumtəhsil məktəblərində yaradılır. O, müəssisə daxilində metodik işlərin təşkil olunmasında bir növ mərkəzi əlaqə rolunu

oynayır. Bu baxımdan o bəzən pedaqoji bacarıqlar formalaşdıran məktəb də adlandırılır. Pedaqoji şura həm təhsil fəaliyyətinin təkmilləşdirilməsini, həm də müəllimlərin yaradıcı inkişafını təmin edir. Bu ali idarəetmə orqanı ildə ən az 4 dəfə toplanır. Lakin ehtiyac olduqda pedaqoji şuranın növbədənkənar iclasları da keçirilə bilər. Növbədənkənar iclaslar məktəbin müəllim heyətinin ən azı üçdə birinin tələbi ilə baş tutur. Hər toplanışda təhsilin fəaliyyəti, təhsil işinin gedişatı, müəllim heyətinin idarə edilməsi və sosial tərəfdaşlığın inkişafı məsələləri ilə bağlı mühüm strateji qərarlar qəbul edilir. Həmin qərarların icrasının təşkili isə təhsil müəssisəsinin direktoru və qərarda göstərilən məsul şəxslər tərəfindən həyata keçirilir. Pedaqoji şuranın gedişatı və əldə olunan qərarlar mütləq şəkildə protokollarda rəsmiləşdirilir. Protokollar isə öz növbəsində həmin məktəblərdə həmişəlik olaraq saxlanılr. Bildirim ki, pedaqoji şura keçirmək üçün moderator peşəkar təhsil müəssisəsinin hər hansı bir işçisini cəlb etmək hüququna malik olur. Pedaqoji şuralar çağırılma müddətinə görə, əsasən, üç dövrə ayrılır.

Birinci dövr bəzən analitik planlaşdırma mərhələsi də adlandırılır. Avqust ayının sonlarına yaxın, yeni dərs ili başlamazdan bir müddət öncə keçirilir. Əvvəlki tədris ilinin nəticələri təhlil olunaraq, onun əsasında bir plan hazırlanır və həmin plan birbaşa qarşıda duran problemlərin həllinə yönəldilir.

İkinci dövrdə-orta tematik mərhələdə keçirilmiş pedaqoji şura isə pedaqoji heyətin illik vəzifələrindən birinə həsr olunur.

Nəhayət, üçüncü dövrdə tədris ilinin sonunda, illik nəticələrin çıxarıldığı bir vaxtda təşkil olunan pedaqoji şura yekun təşkilati xarakter daşıyır.

Pedaqoji şuranın məcburu mərhələsi müəyyən sahələrdə pedaqoji kollektivin fəaliyyətinin nəticələrinin ümumiləşdirilməsi, təhlili və qiymətləndirilməsidir. Pedaqoji şuralar təşkilati formalarına görə ənənəvi və qeyri-ənənəvi olur. Ənənəvi pedaqoji şura, hər bir məsələ ilə bağlı qaydalara ciddi riayət olunan və qərarlar qəbul etməyə dair ətraflı bir gündəliyə sahibbir pedaqoji məclisdir. Bundan fərqli olaraq, qeyri-ənənəvi pedaqoji şuralar işgüzar oyunlar, konfranslar və s. şəklində təşkil olunur. Adətən ölkəmizdə ənənəvi pedaqji şuralardan istifadə edilir. Mənbələrdə göstərildiyi kimi, dünyanın bir sıra ölkələrindəki təhsil müəssisələrində pedaqoji şuranın qeyri-ənənəvi formaları daha çox maraq doğurur. Beə qənaətə gəlinir ki, pedaqoji şuranın keçirilmə formasına xüsusi diqqət yetirilməlidir. Elə forma seçilməlidir ki, iclasda iştirak edən bütün heyət üzvləri özlərini rahat hiss etsinlər və əldə olunan nəticələrdən istifadə edə bilsinlər. Ona görə də işgüzar oyun formasında keçirilən pedaqoji şuraların təşkilində aşağıdakı tələblər əsas götürülür.

a)Pedaqoji(oyun) komandanın qarşıya çıxan problemi həll etmələri üçün müəyyən olunmuş hədəfləri olmalıdır.

b)Həqiqi bir vəziyyətin təqlidi üçün oyun rolları yaradılmalı və həmin rolların ifası üçün iştirakçılar təyin olunmalıdır. Bu zaman ən çox sosial rollar oynanılır.

c)Oyun şərtlərinə və qaydalarına mütləq şəkildə əməl olunmalıdır.

d)Pedaqoji oyunun situmullaşdırılması həyata keçirilməlidir. Yəni, ictimai fəaliyyətdəki rəqabət, şəxsi və kollektiv töhfələri, habelə oyun fəaliyyətinin nəticələri qiymətləndirilməlidir.

İşgüzar oyun formasında pedaqoji şuralar təşkil etmək üçün ən çox istifadə olunan metodlardan biri də beyin fırtınasıdır. Bu üsuldan əsasən pedaqoji şura heyətinin işinin ümumiləşdirilməsində istifadə olunur. Beləki burada ən önəmli yeri qrup fəaliyyətləri tutur. Müəssisə daxilində təhsil problemlərinin ən yüksək səviyyədə həlli üçün təşkilatçılar ssenarini ən kiçik detallarına qədər düşünməli, vəzifələri, rolları ən uyğun şəxslər arasında bölüşdürməli və dəqiq müəyyən olunmuş vaxt ərzində cədvəli hazırlamalıdırlar. Pedaqoji şura iştirakçıları isə öz növbəsində qarşıya qoyulan sualları təhlil edib, görüləcək işlərlə əlaqədar məqsəd və vəzifələri müəyyən edib, pedaqoji şuranın qərarlarına müvafiq, onun tələblərinə cavab verəcək proqram tərtib etməlidirlər. İşgüzar oyun formalı pedaqoji şuralar həmçinin şəxsiyyətlərarası münasibətlər zəminində yaranan problemlərin təhlili və həlli yolunu da öyrədir. Bu məsələlərin öyrənilməsində verilən düzgün qərarlarla yanaşı iştirakçıların özlərinin də münasibətlərinin

quruluşu, davranışları, mimikaları, səs tonları və habelə intonasiyaları da kifayət qədər vacib rol oynayır. Ümumi formada ifadə etsəm, işgüzar oyunlar süni şəkildə yaradılan vəziyyətlər şəraitində hər hansısa bir təhsil probleminin həllinə yönəlmiş müəyyən fəaliyyət növüdür.

Müasir dövrdə təhsil müəssisələrində pedaqoji şuraları daha da aktivləşdirmək üçün xüsusilə də böyük məktəblərdə pedaqoji konfranslar təşkil oluna bilər. Elmi aləmdə hər hansısa bir nəticə, əsas da təcrübənin nəticəsini ictimaiyyətə məhz konfranslar vasitəsilə təqdim olunduğu üçün pedaqoji şuraların aktivləşdirilməsində onların xüsusi yeri və rolu vardır. Bu baxımdan pedaqoji şuralar həm də pedaqoji konfransın keyfiyyətlərini özündə birləşdirir. Bu formada olan pedaqiji şuralar pedaqoji heyətin və liderin yaradıcılıq, təhsil, elmi və metodiki işlərinin nəticələrini özündə əks etdirən bir sıra qısa (10-15 dəqiqəyə qədər) hesabatlar şəklində keçirilir.Pedaqoji şuralar müasir məktəb qarşısında duran vəzifələrin və zamanın tələblərinə uyğun olaraq pedaqoji təcrübənin enerji mənbəyi olmalıdır. [3, s.524] Pedaqoji şuraların məsələləri bütövlükdə təhsil müəssisəsinin işinin nəticələrinə həsr olunmaqla yanaşı, həm də elmi və praktiki xarakter daşıyan digər ümumi pedaqoji problemlərə də aid ola bilər. Bu zaman pedaqoji şura müəllimlərin və bir qrup digər pedaqoji mütəxəssislərin (psixoloq, həkim, musiqi müəllimi və digərlərinin) pedaqoji, metodik xarakterdə olan fikir və müddəalarının müzakirəsinə yönəlməklə daha fəal şəkildə qurula bilər. Belə olan halda verilən sualların cavabları ilə bağlı digər iştirakçılar da öz fikirlərini bildirərək problemin həllinə cəhd göstərməkdən çəkinməyəcəklər. Nəticədə çoxsaylı tövsiyələr qəbul olunacaqdır.

Ədəbiyyat

1. Həsənov A., Ağayev Ə. "Pedaqogika". (Dərslik). "Nasir" nəşriyyatı. Bakı-2007. 496 səh.
2. Kazımov N. "Məktəb pedaqogikası". Dərslik. (Ali pedaqoji məktəblərin bakalvr pilləsi tələbələri, habelə aspirant və dissertantlar, müəllimlər üçün). "Çıraq" nəşriyyatı. Bakı-2011. 440 səh.
3. Qasımova L.N., Mahmudova R.M. "Pedaqogika". (Dərslik). "Çaşıoğlu" nəşriyyatı. Bakı-2012. 548 səh.
4. https://www.free-school-from-government-control.com/collegial.html
5. https://context.reverso.net/pedagogical+council

XÜLASƏ

Məqalədə məktəbin Ali idarəetmə orqanı kimi Pedaqoji Şura, onun işinin mahiyyəti, məzmunu və mərhələlərindən bəhs edilir. Beynəlxalq təcrübəyə əsaslanaraq Pedaqoji Şuranın aparılmasının ənənəvi təşkili formaları ilə yanaşı həm də qeyri-standart formaları da işıqlandırılır. Xüsusilə işgüzar oyun, komandalar formasında keçirilən keçirilən Pedaqoji Şuraların təhsilin və ya idarəetmənin keyfiyyət təminatı baxımından daha maraqlı və üstün olması fikri əsaslandırılır.

РЕЗЮМЕ

В статье рассматривается Педагогический совет как высший руководящий орган школы, сущность, содержание и этапы его работы. Исходя из международного опыта, помимо традиционных форм организации Педагогического совета, охватываются и нестандартные формы. В частности, идея о том, что педагогические советы, проводимые в форме деловых игр и команд, более интересны и превосходны с точки зрения обеспечения качества в образовании или управлении.

SUMMARY

The article discusses the Pedagogical Council as the supreme governing body of the school, the essence, content and stages of its work. Based on international experience, in addition to the traditional forms of organization of the Pedagogical Council, non-standard forms are also covered. In particular, the idea that pedagogical councils, held in the form of

business games and teams, are more interesting and superior in terms of quality assurance of education or management.

Bayramova Həqiqət Həsən qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos. Ənvər İmanov

İNKLUZİV TƏHSİLİN İDARƏ EDİLMƏSİ

Açar sözlər: *inkluziv təhsilin idarə edilməsi, inkluziv məktəblər, xüsusi qayğıya ehtiyacı olan uşaqlar*

Ключевые слова: *управление инклюзивным образованием, инклюзивные школы, дети с особыми потребностями*

Key words: *management of inclusive education, inclusive schools, children with special needs*

İnklüziv təhsil bütün dünyada sürətlə inkişaf edir. "Hamı üçün təhsil" Konsepsiyasının həyata keçirilməsininmüəyyən olunmuş strategiyalarından biri inkluziv təhsil modelidir.

İnkluziv təhsil, həmçinin YUNESKO-nun fəaliyyətində xeyli zamandır əsas diqqət sahələrindən birinə çevrilib desək səhv etmərik. YUNESKO-nun "Minilliyin İnkişaf Məqsədləri"bəyanatından sonra bütün oğlan və qızların, o cümlədən əlillərin təhsilə çıxışının olması barədə beynəlxalq saziş imzalanmışdır. İnkluziv təhsil əlilliyi olanlar da daxil olmaqla, bütün uşaqlar üçün təhsilə çıxış imkanlarının genişləndirilməsinə innovativ və strateji təhsil yanaşmasıdır.

İnkluziv təhsil çoxdan tətbiq edilən ölkələrdə inkluziv təhsil məktəb mədəniyyəti kontekstində daha geniş şəkildə daxil edilir və bu, bütün uşaqların tədrisə əməl etməsi və optimal inkişaf etməsi üçün tədris proqramlarının məktəb, sinif və strukturlarına necə diqqət yetirilməsini təmin edir. Salamank bəyanatında, xüsusilə vurğulanmışdır ki, inkluziv oriyentasiyalı adi məktəblər ayrı-seçkiliyə qarşı mübarizənin, açıq cəmiyyətin yaradılmasının, inklüziv cəmiyyətin qurulmasının və uşaqların əksəriyyəti üçün effektiv təhsilin əldə edilməsinin və effektivliyin artırılmasının ən effektiv üsuludur, bununla da bütün təhsil sisteminə çəkilən xərcləri azaldır. Qüsurlu uşaqların adi mühitdən ayrılmasının xüsusi sinifləri, xüsusi məktəbləri və ya digər formaları yalnız o halda həyata keçirilir ki, əlilliyin xarakteri və ya dərəcəsi elə olsun ki, xüsusi vasitələrdən və ya xüsusi xidmətlərdən istifadə etməklə sinifdə müntəzəm təhsil qənaətbəxş olsun.

İnkluziv təhsilin həyata keçirilməsində direktorun və müəllimin fəaliyyətinin səmərəliliyi əsasən inklüziv təhsilin başa düşülməsi və dərketmə səviyyəsi ilə müəyyən edilir. Araşdırmalar göstərir ki, inkluziv təhsilin tətbiqi zamanı direktor və müəllimin iş performans göstəriciləri orta hesabla məktəb direktorlarının 28,11%-ə bərabər idi və müəllimlərin 16,5%-i aşağı kateqoriyaya aid idi. İki il ilk təlimdən sonra direktorun və müəllimin akademik performansı dəyişməyib. 2012-ci ildə aparılan tədqiqatlar göstərir ki, məktəb direktorunun orta akademik səviyyəsi hələ də orta, hətta 23,5%-i də aşağı səviyyədədir. Müəllimin orta akademik performansı da orta səviyyədə olsa da, hətta 33% aşağı kateqoriyaya aiddir. [1] Məktəb direktorlarının və müəllimlərin inkluziv təhsilin tətbiqi ilə bağlı anlaşmanın və biliklərinin yaxşılaşdırılması üçün inkluziv təhsilin idarə olunması modeli işlənib hazırlanma-lıdır.

İnkluziv təhsilin idarə edilməsi ən azı iki əsas məqamı əhatə edir: direktorun sahə və məsuliyyəti olan məktəbin idarə edilməsi və sinif idarəçiliyi-sinif rəhbərinin sahə və məsuliyyətidir. İnklüziv təhsilin idarə olunması, qeyri-məhdud imkanlı və qeyri-məhdud şagirdlərin cəlb edilməsi ilə əlaqədar planlaşdırma, təşkilatçılıq, tətbiq və nəzarətdən başlayaraq, inkluziv perspektivi olan adi məktəbdə məktəb və sinifləri idarəetmə sistemidir. Bu müxtəlif şəraitlərin şagirdlər üçün nəticələri, məktəb tələbələrin üzləşdiyi ehtiyac və maneə-

lərə uyğunlaşdırılmış tədris planı, təlim, qiymətləndirmə, vəsait və infrastruktur kimi adaptasiya prosesini həyata keçirməlidir.

İnkluziv təhsilin idarəetmə modelinin ilkin məktəblərdə hazırlanması inklüziv təhsilin tətbiqi zamanı rəhbərliyin Direktorlar və müəllimlər tərəfindən təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. İnkluziv təhsilin idarə edilməsi modelinin köməyi ilə məktəb institusional, tədris və tədris aspektlərindən, qiymətləndirmələrdən, şagirdlərdən, infrastrukturdan, icma iştirakından və maliyyələşmədən başlayaraq məktəbin idarə olunmasının bütün aspektlərini necə planlaşdırmaq, təşkil etmək, tətbiq etmək və nəzarət etmək barədə təsəvvür əldə edəcəkdir. İnklüziv təhsilin idarə olunması modelini tətbiq edərək, məktəb direktorları və müəllimlər inklüziv təhsili effektiv şəkildə tətbiq etməlidirlər. Araşdırmalara görə dünyada ən çox xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün iki təhsil paradiqması tanınır. Tibbi paradiqma-cəmiyyətin xüsusi qayğıya ehtiyacı olan uşaqlar haqqında təsəvvürünə üstünlük verən köhnə paradiqmadır. Əlil uşaqlar fiziki və ya psixi pozğunluqlar və zədələr nəticəsində tibbi problem kimi müalicə olunması. Tibbi nöqteyinin mahiyyəti ondan ibarətdir ki, (1) əlillik fərdi səviyyədə problemi həll edir (fərdi model); (2) əlillik fiziki/psixi (pozuntu) çatışmazlığına və ya pozulmasına bərabər tutulur; (3) əlilliyə qarşı mübarizə üçün ən uyğun həll tibbi, psixoloji və psixiatrik müdaxilədir və (4) xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müvafiq təhsil həmyaşıdları cəmiyyətlərindən ayrılmış seqmentləşdirilmişdir.[2]

Yeni paradiqma əlilliyə tibbi baxışla şərtlənən ədalətsizliyə və ayrı-seçkiliyə qarşı etiraz kimi yaranır. Təxminən 1976-cı ildə UPIAS (Union of the Physically Impaired Against Segregation), İngilis əlilləri Təşkilatı əlilliyin sosial maneələrdən qaynaqlandığı bir problem olduğunu iddia etdi. Əlillik-fiziki çatışmazlığı olan insanları nəzərə almayan və ya çox az sayan müasir təşkilat tərəfindən yaranan fəaliyyətin məhdudlaşdırılmasıdır və hətta bundan sonra da onları sosial fəaliyyətdən kənarlaşdırır.[3]

UPİAS-ın qavranılması sonradan Maykl Oliver (1990), Finkelşteyn (1993) və Kolin Barns (2003) kimi əlil olmuş Britaniya alimləri tərəfindən inkişaf etdirilmiş, beləliklə, "əlilliyin sosial modeli" adlandırılan yeni paradiqma yaradılmışdır. Yeni yanaşma hesab edir ki, ətraf mühit amilləri və sosial təşkilat əlillərin (xüsusi qayğıya ehtiyacı olan uşaqların) təhsili üçün əsasdır. Ətraf mühit və sosial təşkilat hər bir uşaq müvafiq təhsil xidmətlərindən istifadə etmək imkanı var ki, dəyişdirilə bilər, onda xüsusi qayğıya ehtiyacı olan uşaqlar bütün digər uşaqlar kimi inkişaf edəcək .[4]

Adi məktəblərdə inklüziv təhsilin tətbiqinin nəticələrindən biri də məktəbin idarə edilməsində adaptasiyanın zəruriliyidir. İnkluziv təhsil fəlsəfəsi istisnasız olaraq bütün uşaqların adi məktəblərdə təhsil xidmətləri göstərmək, inkluziv təhsili idarə etmək hüququna malik olmasını tələb edir. İnkluziv təhsil məktəb mədəniyyəti də daxil olmaqla bir çox aspektlərin geniş spektrini əhatə edir. Beləliklə, təhsilin inkluziv idarə edilməsi-məktəbin idarə edilməsinin bütün aspektlərini (tədris planı, təlim, qiymətləndirmə, şagirdlər, personal, infrastruktur, icma və maliyyə), həmçinin məktəbin idarə edilməsi funksiyalarını (planlaşdırma, təşkilatlanma, aktuallaşdırma və nəzarət) əhatə edən təhsil sistemidir.[5]

Beləliklə, İnkluziv təhsilin idarə olunması"təşkilati, tədris, təlim, qiymətləndirmə, tələbə, müəllim və inzibatçılar, obyekt və ya infrastruktur və maliyyə aspektindən bütün uşaqlar üçün əlçatan olan inkluziv təhsilin əsas dəyər və prinsiplərinin həyata keçirilməsi üçün məktəb resurslarından istifadənin optimallaşdırılmasına yönəlmiş məktəb Təşkilatı modelidir".

Ədəbiyyat

1. Barnes, C. & Mercer, G. 2003. Disability (chapter 1-Disability and Choices of Model). Cambridge: Polity Press

2. Borg, Walter R & Gal, Meredith Damien. 2003. Educational Research An Introduction. New york & London : Longman.

2. Bush, T. & Coleman, M. 2000. Leadership and Strategic, Management in Education. London: A Sage Publication Company.

4. Finkelstein, V. 1993. Disability: A Social Challenge or an Administrative Responsibility? in Swain, J., Finkelstein, V., French, S and Oliver M. (Eds) (1993), Disabling Barriers - Enabling Environments, Sage Publications in association with the Open University, London .

5. Kementerian Pendidikan Nasional, 2010. Modul Pelatihan Pendidikan Inklusif Edisi Revisi. Jakarta: Australia - Indonesia Partnership.

Bayramova Həqiqət Həsən qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos. Ənvər İmanov

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARA ERKƏN MÜDAXİLƏ İNKLÜZİV TƏHSİLİN İLK PİLLƏSİ KİMİ

Açar sözlər: *inklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, erkən müdaxilə, intellektual inkişaf, bilik, bacarıq*

Ключевые слова: *инклюзивное образование, дети с особыми потребностями, раннее вмешательство, интеллектуальное развитие, знание, умение*

Key words: *inclusive education, children with special needs, early intervention, intellectual development, knowledge, skill*

İnklüziv təhsil yalnız təhsil sistemi səviyyəsində deyil, eyni zamanda irqindən, dinindən, maddi-sosial vəziyyətindən, əqli və fiziki imkanlarından asılı olmayaraq cəmiyyətin hər bir üzvünə ədalətli yanaşma tələb edir. Yeni yaranmasına baxmayaraq dünyada geniş vüsət alan inklüziv təhsil modeli həm də bəzi suallar doğurur. Bu suallardan biri inklüziv təhsilin keyfiyyət və səmərəsinin necə təmin edilməsi yolları ilə bağlıdır. Təhsil anlayışı yalnız şagirdlərin akademik biliklərə deyil, həm də onların həyati bacarıqlara, sosial sərişləyə yiyələnmələrini əhatə edir. Uzun illərin təcrübəsi göstərir ki, sərişlə və bacarıq olmadan insanın öz biliklərini müəyyən peşə sahəsinə tətbiq etməsi mümkün deyil. Elə bu səbəbdən də təhsilin müasir fəlsəfəsi təlim prosesində şagirdlərin akademik biliklərinin yükünü tədricən artırmaqla yanaşı, onların sosial, mədəni insaniyyət bacarıq və vərdişlərinin inkişafını da təmin etməlidir. Başqa sözlə, biliklər və onlarin tətbiqi bacarıqları arasında balans təmin olunmasını tələb edir. Məhz bu nöqteyi-nəzərdən inklüziv təhsil anlayışı daha geniş və ciddi məna kəsb edir.

Bəs fiziki və intellektual inkişafında problemi olan uşaqların təlimi prosesində bilik və bacarıqların onlar tərəfindən bərabər səviyyədə mənimsənilməsinə müvəffəq olmaq üçün nə etmək lazımdır? Bu, inklüziv təhsilin ən mühüm problemlərindəndir. Onun cavabını isə inklüziv təhsilin təxminən yarım əsrlik təcrübəsinin təhlilində axtarmaq lazımdır. İnklüziv təhsil kontekstində bu mərhələnin ilk pilləsini erkən müdaxilə tədbirləri təşkil edir. İstər intellektual, istərsə da fiziki problemləri olan uşaqlara erkən müdaxilə əksər hallarda qənaətbəxş olmur. İntellektual problemli uşaqları lazımı müalicə almadan, müvafiq ilkin təlim görmədən, primitiv bilikləri va sosial bacarıqlara yiyələnmədən təlim prosesinə cəlb etdikdə onlar çaşqın vəziyyətdə qalır, prosesdən faydalana bilmirlər. Bu zaman onların mühitə uyğunlaşmaları da ləngiyir. Nəticədə yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlar deyil, ham də onlara çox diqqət və enerji ayırmağa məcbur olan müəllimlər də çox şey itirir, qarşıya qoyulan müsbət təlim nəticələri əldə edə bilmirlər.

Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsilin təməlini erkən müdaxilə təşkil edir. [1] Erkən müdaxilə dedikdə, uşağın inkişafdan geri qalmasının mümkün qədər tez aşkarlanması,

uşağa və onun ailəsinə erkən ixtisaslaşmış, psixoloji, tibbi, pedaqoji, sosial yardım göstərilməsi nəzərdə tutulur. [2] Mümkün intellektual çatışmazlığın aradan qaldırılması, yaxud fəsadlarının minimuma endirilməsi üçün müvafiq tibbi, psixoloji va pedaqoji tədbirlərin mümkün qədər erkən başlanması vacibdir. Körpə uşaqlıq dövrü hər bir insanın inkişafında son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bu mərhələnin digər inkişaf mərhələlərinə nisbətən daha tez ötüb keçməsinə baxmayaraq, sonrakı mərhələlərin inkişaf sürəti və istiqamati müəyyənləşdirilməlidr. Bu dövr insanın bir şəxsiyyət kimi təşəkkül tapması, sosial-mədəni dəyərləri mənimsəməsi baxımından da əhəmiyyətlidir. Bu mərhələ intellektual problemli uşaqlar üçün xüsusi əhəmiyyət kəsb edir. İnsan beyni üzərində aparılan elmi tədqiqatlar göstərir ki, 0-6 yaş arası dövr insanın ən sürətlə inkişaf etdiyi, ən vacib həyati bacarıqlara yiyələndiyi dövrdür. Bu dövrdə fiziki və intellektual inkişaf problemlərinə lazımı müdaxilə olunmasa, daha ciddi fəsadlar törədə bilər. Erkən uşaqlıq dövrü həm də onunla xarakterizə olunur ki, bu dövrdə qavrama, dərketmə, nitq inkişafi, şəxsiyyətin formalaşması və s. kimi funksiyalar sürətlə inkişaf etməyə başlayır. Erkən adekvat yardım uşağın psixoloji-fiziki inkişafındaki pozğunluqları kompensasiya edir və nöqsanlar aradan qaldırır. Müasir elmi tədqiqatlar göstərir ki, uşaq həyatının ilk üç ili kritik proseslərin zənginliyi ilə fərqlənir. Anadangəlmə və sonradan qazanılmış inkişaf nöqsanları olan, sosial baxımdan geyri-qənaətbəxşailələrdən (qaçqın, tək valideynli, aztəminatlı, evsiz) qalmış uşaqların sağlamlığını təmin etmək üçün erkən müdaxilə zəruridir.[3]

İnkişaf etmiş ölkələrdəanadangəlmə və sonradan qazanılmış inkişaf nöqsanları olan uşaqların erkən aşkarlanması, onlara və ailələrinə kömək edilməsi səhiyyə, təhsil və sosial müdafiə üzrə fəaliyyətlərin ən mühüm sahələrindən biridir və ötənəsrin 70-ci illərinin əvvəllərində bu istiqamətdəmühüm nailiyyətlər əldə edilmişdir. Nəticədə bir sıra ölkələrdə "erkən müdaxilə" adlanan fəaliyyətlə bağlı hərakət inkişaf problemləri olan uşaqlar və onların ailələrinə dəstək maqsədilə geniş bir sosial layihəyə çevrildi. Kompleks tədbirlər sistemi kimi erkən müdaxiləni həyata keçirən komandanın tərkibinə tibb işçiləri (nevroloq, pediatr, fizioterapevt), həmçinin psixoloq, loqoped, pedaqoq va valideynlər daxildirlər.[4]

Düzgün və peşəkarcasına aparılan erkən müdaxilə tədbirləri şəxsiyyətin kompleks inkişafına təkan verir. İnklüziv təhsil kontekstində erkən müdaxilə fəaliyyətinin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, bu fəaliyyət çərçivəsində ilkin pedaqoji hazırlıq nəticəsində uşaq gələcəkdə məktəbəqədər və təhsil mühitində baş verən pedaqoji proseslərə hazır olur. "Erkən müdaxilə" prosesindən sonra, yaxud bu prosesin tərkib hissasi kimi uşağın inklüziv təhsilə cəlb olunması da son dərəcə vacibdir. Məktəbəqədər təhsil uşaqlarda ilkin sosial bacarıqların və sadə akademik biliklərin əsasını qoyur. [5] Məktəbəqədər təhsil müəssisəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar mükəmməl hazırlıq mərhələsini keçdikdən sonra ibtidai təhsil onlar üçün xeyli asanlaşır.

Erkən müdaxilənin hədəf qrupuna yalnız uşaqlar deyil, həm də valideynlər daxildir. Belə ki, erkən müdaxilənin ikinci dərəcəli məqsədlərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlara düzgün və davamlı yardım göstərə bilmək üçün valideynlərə problemlə əlaqədar lazımı bilik və bacarıqlar aşılanmalıdır. Erkən müdaxilə tədbirləri əsasında, uşaqlarla birbaşa əlaqədə olan valideynlərə uşaqların fiziki, psixoloji va pedaqoji baxımdan optimal inkişafına təkan verən mühüm metodların öyrədilməsi təhsilalanların inkişafını sürətləndirir.

Ədəbiyyat

1. Davies, Sue, ed (2007). Team Around the Child: Working Together in Early Childhood İntervention.Wagga Wagga, Australia: Kurrajong Early Intervention Service.

2. European Agency for Development in Special Needs. (2005). Early Childhood Intervention: Analysis of Situations in Europe, Key Aspects and Recommendations. Odense, Denmark: EADSN

3. Məmmədov C. Sağlamlıq imkanları məhdud uşaqların aşkarlanması üzrə klinik protokol. Bakı: "Təbib", 2012-ci il.
4. Mikayılova U., Kərimova Y., Məmmədova S. İnklüziv təhsil. (metodik vəsait). Bakı: "İndiqo", 2010-cu il.
5. Sağlamlıq İmkanları Məhdud uşaqların A.karlanması üzrə Klinik Protokol.. Bakı: "Təbib", 2012-ci il.

Mirzəyeva Elnurə Fəxrəddin qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos. Ənvər İmanov

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ QİYMƏTLƏNDİRMƏNİN İDARƏETMƏNİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

Açar sözlər: *diaqnostik qiymətləndirmə, formativ qiymətləndirmə, özünüqiymətləndirmə, keyfiyyət, qrup işlərinin qiymətləndirilməsi, rubriklər*
Ключевые слова: *диагностическое оценивание, формативное оценивание, самооценивание, качество, оценивание групповой работы, рубрики*
Key words: *diagnostic assessment, formativ assessment, self-assessment, quality, evalution of group work, categories*

Pedaqoji proses, onun müxtəlif sahələri və təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi olduqca mürəkkəb və çoxcəhətlidir. Qiymətləndirmə prosesi öz məqsədindən, prosesdə iştirak edən müxtəlif tərəflərin (müəllimlərin, şagirdlərin, valideynlərin, yuxarı təhsil qurumlarının və s.) işinin xüsusiyyətlərindən, qiymətləndirilən sahələrdən və onların işinin xarakterindən asılı olub, müxtəlifliyi ilə seçilir. Ona görə də qiymətləndirilən sahənin xüsusiyyətlərindən asılı olaraq qiymətləndirmənin təsnifatını müəyyənləşdirmək zərurəti yaranır.

Bütün dövrlərdə şagirdlərin bilik, bacarıq və vərdişlərini qiymətləndirmək üçün müxtəlif vasitə, metod və priyomlar mövcud olmuşdur.

Təhsildə qiymətləndirmə şagirdlərin mənimsəmə səviyyələrini, rast gəldikləri çətinlikləri aşkara çıxarmaq üçün vasitədir. Təlim prosesində şagirdlərin insani keyfiyyətləri deyil, onun nəzəri fəaliyyəti qiymətləndirilməlidir. Qiymətləndirmə şagirdlərdə müsbət emosiya, stimul yaratmalıdır. Müəllim təlim prosesində şagirdləriin səhvlərini deyil, nailiyyətlərini vurğulamalı, ona cəzadan çox dəstək verməyə çalışmalıdır. [1]

Hazırda təhsil sistemində "qiymət", "qiymətləndirmə" və "qiymətvermə" kimi anlayışlar eyni cür izah olunur, lakin araşdırarkən onların fərqli olduqları aşkara çıxır.

Qiymət şagirdlərin fəaliyyətinin, təlim məqsədlərinə müvafiq göstəricilərinin yazılı, həmçinin rəqəm vasitəsilə, simvol, jest və mimika ilə ifadəsidir. Şagirdlərin tədris prosesində müsbət nəticələr əldə etmələri üçün müasir qiymətləndirmə aşağıdakı meyarlara cavab verməlidir: prosesin bütün iştirakçılarına (şagirdlər, müəllim, idaraedənlər, valideynlər) aydın, variativ, çoxvasitəli, obyektiv, adekvat olmalıdır.

Qiymətləndirmə tədris prosesində şagirdin idraki fəaliyyətinin izlənməsi və tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə onun haqqında informasiyanın toplanması prosesidir. **Qiymətvermə** prosesində müəllimləşagirdləri arasında əks əlaqə yaranır.

Qiymətləndirmə məqsədyönlü olmalıdır. Belə qiymətləndirmə prioritetiləri müəyyənləşdirməyə, qərər qəbul etməyə va onu reallaşdırmağa kömək göstərir. Məqsədlər nə qədər dəqiq olursa, qiymətləndirmə də bir o qədər keyfiyyətli, obyektiv xarakter alar.

Yeni fənn proqramları (kurikulumları) tətbiq olunduğu siniflərdə məktəbdaxili qiymətləndirmənin üç növündən istifadə olunur: diaqnostik, formativ və summativ. [2]

Diaqnostik qiymətləndirmə şagirdlərin ilkin bilik və bacarıqlarının qiymətləndirilməsidir. Qiymətləndirmənin bu növü müəlliməşagirdləri tanımağa, onların potensial imkanlarını, səviyyələrini, ehtiyaclarını müəyyənləşdirməyə imkan verir. Diaqnostik qiymətləndimə şagirdlərin fənnüzrə qavrama səviyyələrinin ilkin göstəricisidir. Bu qiymətləndirmənin əsas məqsədi şagirdlərin öyrənmə prosesində qarşılaşdıqları problemləri tez müəyyən etmək və onun həlli istiqamətində planlaşdırma aparmaqdır. Diaqnostik qiymətləndirmənin nəticələri tam sənədlərdə (sinif və formativ qiymətləndirmə jurnallarında qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır. Valideynlər, sinif rəhbəri, müəllimlər nəticələr haqqında məlumatlandırılırlar.

Formativ qiymətləndirmə formalaşdıran qiymətləndirmədir. Bu qiymətləndirmə şagirdləri dərs prosesində fasiləsiz müşahidə etməyə imkan yaradır. Onun irəliləmə və geriləməsinin müəyyənləşdirilməsində müəllimə yol göstərir. Formativ qiymətləndirmə müəllimə şagirdlərin irəliləmə prosesini izləməyə, geriləmə zamanı isə bunu vaxtında aşkara çıxararaq qarşısını almağa, şagirdlərin öz məsuliyyətini dərk etməsinə şərait yaradır. Formativ qiymətləndirmə sayəsində şagird gündəlik qiymət almağa deyil, yaxşı nəticə göstərməyə çalışır. Bu qiymətləndirmə şagirdin problemlərini aradan qaldırmaq və onu istiqamətləndimək üçün aparılır.

Formativ qiymətləndirməşagirdlərin fərdi kompetensiyalarına görə aparılarkən daha səmərəli olur. Ənənəvi qiymətləndirmə zamanı şagirdi digərşagirdə, sinfin səviyyəsinə nəzərən qiymətləndirmək mümkün olurdu. Formativ qiymətləndirmə zamanı isə meyarlar elə müəyyənləşdirilməlidir ki, hər bir şagirdlərin bilik və bacarıqlarına uyğun gəlsin. Müəyyənləşdirilmiş meyarlar aydın ifadə olunmalı, şagird və valideyn üçün mümkünsüz görünməməlidir. Yeni fənn proqramlarının tətbiq olunduğu siniflərdə formativ qiymətləndirmə rubriklər üzrə aparılır.Rubrik xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki suala cavab verir:

1. Mən nəyi qiymətləndirməliyəm? (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyyətlər).

2.Aşağı, orta va yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar?

Rubrik fəaliyyət və ya nəticəni artan keyfiyyət kontiniumunda təsvir edir. Rubriklər qiymətləndirmənin ardıcıl, obyektiv ve etibarlı olmasına imkan yaradır, tədrisin səmərəliliyi ilə əlaqədərmüəllimləri faydalı məlumatlarla tanış edir.

Rubriklər hazırlayarkən müəllim bir neçə məsələni nəzərə almalıdır:

• Şagirdləriin anlayacağı, konkret, sadə cümlələrdən istifadə edilməlidir.

• Müqayisəli və ya normativ dildən fərqli olaraq deskriptiv dildən istifadə edilməlidir. Pis, orta, kafi, yaxşı və ya əla kimi qeyri-müəyyən deskriptorlardan uzaq olmaq lazımdır.

• Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün qədər aydın ifadə edilməlidir.

• Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalıdır.

• Şkala şagird nailiyyətlərini tam əhatə etməlidir.

• Təsvirlərin məzmumuna görə nailiyyət səviyyələri tərtib edilməlidir.

• Fəaliyyət səviyyələri bütün aspektlər üzrə müvafiq olmalıdır. (Bir aspektüzrə“4" qiymətidigər aspekt üzrə “4” qiyməti ilə müqayisə oluna bilməlidir.)

•Əvvəlcə "ən yüksək", sonra isə "ən aşağı" səviyyə təsvir edilərsə, "aralıq" səviyyələrin təsvir edilməsi asan olar.

• Ən yüksək səviyyə yüksek tələbkarlığa malik, real olmalıdır.

• Ən aşağı səviyyə yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

Bu gün müəllimləri düşündürən məsələlərdən biri də kiçik qruplarla iş prosesində formativ qiymətləndirmənin aparılmasıdır. [3]Qrup formasında aparılan dərslərdə əsas məqsəd yalnız nəticəni qiymətləndirmək deyil, həm də şagirdlərin fəal və ya qeyri-fəal olmasını müəyyənləşdirməkdir. Qrupda işləmək bacarığı mühüm bir fəaliyyət olduğundan şagirdlərdə bu bacarığın formalaşdırılması çox əhəmiyyətlidir.

Qrup işinin müzakirəsi zamanı müəllim bir neçə məsələni əvvəlcədən şagirdlərin diqqətinə çatdırmalıdır:

- qrup işinin məqsədi və öyrəniləcək mövzu;
- qiymətləndirmə meyarları;
- qiymətləndirmə kim tərəfindən (özünüqiymətləndirmə, müəllim tərəfindən, şagirdlər tərəfindən, müəllim-şagird birliyi tərəfindən, xüsusi komissiya tərəfindən və s.) həyata keçiriləcək?
- tapşırığın həllinə verilən vaxt və s.

Qrup üzvləri öz aralarında vəzifə bölgüsü aparmalıdırlar. Təqdimat zamanı kimin vəzifəsininöhdəsindən gəlib-gəlmədiyi aşkara çıxır.

Müəllim əvvəlcədən meyar cədvəli hazırlayır və şagirdləri meyarlarla tanış edir. Cədvəli aşağıdakı kimi tərtib etmək olar:

Meyarlar / qruplar	**Əməkdaşlıq (qrup daxilində vəzifə bölgüsünə əməl etmək)**	**Davranış (digər qruplara işləməyə mane olmamaq)**	**Tapşırığın cavabını izah və təqdim etmək**	**Digər qrupları dinləmək, sual vermək və əlavələr etmək**	**Yekun**
I					
II					
III					
IV					

Cədvəldə göstərilən meyarların hamısı eyni vaxtda qiymətləndirilmir. Tapşırıq qruplara paylanıb, vaxt elan olunduqdan sonra müəllim əməkdaşlıq və davranış sütunlarına "+" va ya "-" işarələrini qoyur. 3-cü və 4-cü meyarlar isə qrup nümayəndələrinin təqdimatı zamanı qiymətləndirilir. Təqdimatdan sonra qrupların işləri və əldə olunmuş nəticələr müzakirəedilir. Sonra müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

1. Qrupların işində hansı müsbət tərəfləri gördünüz?
2. Tapşınqların həlli prosesində hansı çətinliklərlə qarşılaşdınız?
3. Bu çətinlikləri necə aradan qaldırdınız?

Birinci suala verilən cavablardan müəllim qruplarla işin müsbət və mənfi tərəflərini görə bilir, 2-ci və 3-cü sualların cavabları isə yaranmış problemləri, onların həlli yollarını şagirdlərlə birlikdə müəyyənləşdirməyə imkan verir. Qruplarla işlərin nəticəsi müəllimə qərar qəbul etməyə imkan yaradır: Əgar nəticə müsbətdirsə, müəllim mövzunun öyrədilməsinə davam edir, əgər nəticə qənaətbəxş deyilsə, o, əlavə tapşırıqlar verir. Bu zaman müəllimin təlim formasını dəyişməsi məsləhətdir. O, əlavə tapşırıqları fərdi və ya cütlərlə iş formasında verə bilər.

Qruplarla iş prosesində müəllim şagirdlərin fərdi fəaliyyətlərini də müşahidə etməli və qiymətləndirməlidir. Bunun üçün qrup işinin meyarlarından əlavə, qrupdakışagirdlərin fərdi qiymətləndirmə meyarları da hazırlanmalıdır.

Müəllim qrupların işlərini müşahidə edir. Fəaliyyətlərini öyrənməyi nəzərdə tutduğu şagirdləri daha dəqiq izləyib, cədvəldə qeyd edir. Qrup formasında aparılan dərslərdə müəllim əvvəlcədən şagirdlərin nəzərinə çatdırır ki, yekun qiymətləndirmə hər bir şagirdin fərdi fəaliyyətindən asılıdır.

Qruplarla aparılan dərslərdə şagirdlərin özlərini qiymətləndirmələri də əsas məsələlər-dəndir. Özünüqiymətləndirmə şagirdlərin öz fəaliyyətinin zəif və güclü cəhətləri haqqında informasiyanın təhlilinə yönəlmiş bir prosesdir. Özünüqiymətləndirmə bacarıqları şagirdlərdə öz işlərini müxtəlif meyarlarla qiymətləndirərkən yaranır. Müəllim şagirdlərə öz bilik və bacarıqlarını obyektiv qiymətləndirməyi öyrətməlidir.

Özünüqiymətləndirmə təkcə öz işini qiymətləndirmək üçün deyil, həm də şagirdlərin qarşısında duran problemləri müəyyənləşdirmək və onların həlli yollarını tapmağa kömək etmək üçün bir vasitədir.[5]

Yeni qiymətləndirmə əhatəli və çox geniş bir proses olmaqla təhsil sahəsində bütün fəaliyyətlərin "Azərbaycan Respublikasının ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" sənədində müəyyən olunmuş tələblər istiqamətində təkmilləşdirilməsinə və bununla da bütövlükdə təhsilin keyfiyyətinin idarə olunmasına xidmət edir.

Məhz qiymətləndirmə vasitəsilə təhsil müəssisəsinin rəhbərləri müəssisədə müəllim və şagirdlərin fəaliyyəti, təlim-tərbiyə işinin səviyyəsi haqqında lazımi informasiya toplayır və bunun əsasında işin yaxşılaşdırılması üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirirlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009-cu il.
2. Azərbaycan Respublikasının təhsil haqqında Qanunu. Bakı: "Təhsil", 2009-cu il.
3. Бардин К.В. Как научить детей учиться. Москва, 1987-ой год.
4. Süleymanova A. Təhsilin əsasları. Bakı, 2014-cü il.

Mirzəyeva Elnurə Fəxrəddin qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos. Ənvər İmanov

TƏHSİLDƏ KEYFİYYƏTİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN TƏHSİL MÜƏSSİSƏSİNİN İDARƏ OLUNMASINA TƏSİRİ

Açar sözlər: *təlim prosesi, keyfiyyətin monitorinqi, qiymətləndirmə, pedaqoji monitorinq, təhsilin keyfiyyəti, idarəetmənin keyfiyyəti, məktəbin özünüqiymətləndirməsi*

Ключевые слова: *уяебный процесс, мониторинг качества, оценивание, педагогический мониторинг, качесиво бразования, качесиво управления, самооценка школы*

Key words: *teaching process, monitoring of quality, evalution, pedagogical monitoring quality of education, quality of management, schools`s self-assessment*

Monitorinq və qiymətləndirmə ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün vacib sayılan amillərdən biridir.

Müasir dövrdə təhsilin keyfiyyəti cəmiyyətin inkişafını təmin edən əsas məsələlərindən biri və təhsilin idarə olunmasının göstəricisinə çevrilmişdir. Təhsil sahəsində keyfiyyət dedikdə, təhsilin nəticələrinə uyğun əvvəlcədən müəyyən edilmiş normativlərə (standartlara) müvafiq öyrənənlərin səviyyəsi, ümumi halda isə təhsil sisteminin durumu kimi başa düşülür. Təhsilin nəticələri təhsilalanların təhsilini başa vurduqda yiyələndiyi bilik, bacarıqların səviyyəsi deyil, həm də onun dünyaya, cəmiyyətin inkişafına münasibətlərini göstərən müəyyən şəxsi keyfiyyətlərdir. [1] Başqa sözlə, öyrənənin şəxsi təhsil keyfiyyəti dedikdə, onun müəyyən səviyyədə bilik və bacarıqlar sisteminə malik olmasından başqa, eyni zamanda təbiət, mədəniyyət və sosial həyat elementlərinin mənimsənilmə səviyyəsi kimi də başa düşülməlidir. Ona görə də öyrənənlərin təhsil keyfiyyəti tamlıq, şüurluluq, sistemlilik, operativlik, çeviklik, konkretlik, ümumiləşdiricilik, möhkəmlik və digər göstəricilərin təlim prosesində formalaşdırılmasının yekun nəticəsi kimi qəbul edilməli, təlim prosesinin keyfiyyətinə isə təhsilin müəyyən mərhələsindəki tələbata uyğun effektivliyi təmin edən təlimin xassələri, əlamətləri və xarakteristikaları kimi baxılmalıdır. Təhsildə keyfiyyətə

öyrənənlərə verilən bilik, bacarıq və dəyərlərin müvafiq dövlət standartlarına və cəmiyyətin tələbatına hansı səviyyədə uyğunluğunu müəyyənləşdirən və inkişafa xidmət edən başlıca kateqoriya kimi baxmaq lazımdır. Çünki qiymətləndirmə nəticələrinə görə təhsilin idarə olunması, ayrı-ayrı müəssisələrdə keyfiyyətli idarəetmə mexanizmiləri formalaşdırıla bilər.

Təhsilin keyfiyyəti mürəkkəb və çoxparametrli olduğundan o, yalnız nəticələrlə əlaqələndirilməməli, daha ətraflı tədqiq edimməlidir. [2] Nəticələrin keyfiyyəti, prosesin və onun reallaşdığı mühitin xarakteristikaları arasında birbaşa və əks-əlaqə olduğundan, təhsildə əldə edilən nəticələrə tədris-təlim prosesindən və onun üçün yaradılan şəraitdən kənar baxmaqolmaz. Göstərilən vəziyyət təhsilin keyfiyyət göstəricilərinin qarşılıqlı əlaqəsinin özünəməxsus iyerarxik strukturunu müəyyən edir. Onun əsasında təhsil prosesinin və onun hayata keçirilməsi üçün yaradılmış şəraitin xarakteristikaları ilə izah edilən təhsil nəticələrinin keyfiyyəti durur.

Təhsildə keyfiyyətə nəzarət etmək üçün ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə xüsusi yer tutur. Təhsil sisteminin monitorinqi onun fəaliyyətinin təmin edilməsi, vəziyyətinin müntəzəm izlənilməsi, mütəmadi olaraq nizamlanması və inkişafının təmin edilməsi sistemidir. Ümumiyyətlə, monitorinq diaqnostika, proqnozlaşdırma və korreksiya kimi təhlil olunan prosesin ayrı-ayrı mərhələlərini xarakterizə edən əsas üzərində dayanır. Bu halda yalnız qiymətləndirmə deyil, eyni zamanda qiymətləndirmənin nəticələrini nəzərə alaraq qiymətləndirilən prosesin gələcək inkişafını təmin etmək, keyfiyyət göstəricilərini yüksəltmək üçün korreksiya işlərinin aparılması planlaşdırılır.Pedaqoji monitorinq va qiymətləndirmə sistemi olmadan məktəblərdə təhsil prosesinin səmərəliliyini elmi əsaslarla proqnozlaşdırmaq planlaşdırmaq, təşkil etmək, tənzimləmək və onu səmərəli idarə etmək mümkün deyil. Çünki təhsil müəssislərinin pedaqoji monitorinqi nəinki pedaqoji proses iştirakçılarının qarşılaşdıqları problemləri müəyyənləşdirməyə, həm də pedaqoji kollektivin faaliyyətinin inkişafına və təkmilləşməsinə, pedaqoji proses iştirakçılarının fəaliyyətinin məqsədəmüvafiqliyini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan təhsil müəssisələrində pedaqoji monitorinq sisteminin yaradılması və müntəzəm həyata keçirilməsi təhsil prosesinin ən vacib şərtlərindən biridir. Bu, sadəcə müəssisədə pedaqoji prosesin planlaşdırılması, təşkili, prosesin gedişinə nəzarət edilməsi deyil, həm də tətbiq olunan metodların və metodikanın yoxlanılması və təkmilləşdirilməsi üçün əsas vasitədir. Eyni zamanda pedaqoji monitorinq və qiymətləndirmə sistemin uğurla həyata keçirilməsinə, şagird nailiyyətlərinin ölçülməsinə proqramın effektivliyinin müəyyənləşdirilməsinə xidmət edən əsas vasitədir. Bundan başqa, pedaqoji monitorinq sistemi təhsil işçisinin səmərəli fəaliyyətinin üzə çıxarılması və vaxtında tələb olunan tədbirlərin görülməsi məqsədini daşımalı və hər bir işçinin fəaliyyətindəki məsuliyyətini artıran amilə çevrilməlidir.

Məktəbdə idarəetmənin keyfiyyətinin pedaqoji monitorinqi tədris-təlim prosesinin öyrənilməsində (dərs və dərsdənkənar məşğələlər, müəllimin fəaliyyət sistemi və tələb olunan sənədlərin məcmusu), pedaqoji prosesin bu və ya digər tərəflərinin diaqnostikasında, onların qarşılıqlı əlaqəsinin və asılılığının xarakterinin müəyyən ediməsində, tövsiyələrin hazırlanmasında sistemli yanaşmanı nəzərdə tutur. Ona görə də təhsil müəssisələrində idarəetmənin keyfiyyətinin pedaqoji monitorinqi statistik və məzmunyönlü metodlardan istifadə etməklə hazırlanmalıdır.

Məktəbdə idarəetmə fəaliyyətinin pedaqoji monitorinqinin əsas məqsədlərindən biri də tədris-təlim prosesinin səmərəliliyini müəyyənləşdirmək, növbəti tədris ilinin fəaliyyət istiqamətlərini planlaşdırmaq, məktəbdaxili nəzarətin təşkili, tənzimlənməsi, idarəolunması üzrə tövsiyələri işləyib hazırlamaqdır. Bunlar həm təhsilin məzmununun və texnologiyalarının təkmilləşdirilməsi, həm də yeni təhsil standartlarının reallaşdırılması hesabına təmin oluna bilər. Təhsilin keyfiyyətinin qabaqcadan müəyyən edilmiş parametrlər üzrə pedaqoji monitorinqi və qiymətləndirilməsi, qiymətləndirilən prosesin göstəricilərinin müəyyən etalonla (normativlə) müqayisəsi əsasında aparılır.

Təhsilin keyfiyyətinin monitorinq sistemi o zaman effektivliyini təmin edə bilər ki, yerinə yetirdiyi bütün vəzifələrin vəhdətində öhdəliyini tam gücü ilə reallaşdıra və əsas idarəetmə funksiyasını planlaşdıra bilsin, yəni planlaşdırma, təşkiletmə, tənzimetmə və nəzarət məzmunla tamamlansın.

Pedaqogikada təhsilin keyfiyyəti, onun monitorinqi və qiymətləndirilmasi dedikdə, şagirdlərin təlim nailiyyətlərinin qiyməti, təhsil proqramlarının keyfiyyəti, konkret olaraq təhsil müəssisəsində tədris prosesinin həyata keçirilmə şəraitinin səviyyəsi başa düşülür. Fikrimizcə, təhsilin idarəolunmasının keyfiyyətinin monitorinqi va qiymətləndirilməsində məqsəd əhalinin təhsilə olan tələbatlarını həyata keçirməyi təmin edən idarəetmə qərarlarının qəbul olunması üçün müvafiq informasiyaların əldə olunmasıdır. Burada əsas məsələ toplanmış informasiyanın keyfiyyətinin analizidir. Bunun üçün vahid informasiya şəbəkəsi fəaliyyət göstərməlidir.

Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin monitorinqi va qiymətləndirilməsi sahasində beynəlxalq təcrübənin öyrənilməsi, aparılmış tədqiqatların nəticələrindan istifadə, görülmüş işlərin araşdırılması xüsusi əhəmiyyət kəsb edir. [3] Aparılmış araşdırmalar nəticəsində müyyənləşdirilmişdir ki, ümumtəhsil məktəblərində keyfiyyətin monitorinqi və qiymətləndirilməsi məktəbdə təhsilin mövcud durumunun öyrənilməsində yeganə müasir mexanizmdir. Müəyyən edilmişdir ki, müasir dövrdə ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin bu məsələlərə xüsusi diqqət yetirilməlidir:

- beynəlxalq və respublika səviyyəsində keçirilən fənn olimpiadalarında, müsabiqələr də, idman yarışlarında, incəsənətin hər hansı bir sahəsi üzrə festivallarda iştirak edən şagidlərdən qalib olanların sayı;
- məktəbdə idmanın (şahmat, futbol, voleybol, tennis və s.) və ya incəsənətin hər hansı bir sahəsi ilə (rəsm, hər hansı musiqi alətində ifa, rəqs və s.) müntəzəm məşğul olan şagirdlərin sayı;
- məktəbdə əlamətdar və tarixi günlərin, dövlət bayramlarının, yazıçı və şairlərin, incəsənət nümayəndələrinin yubileylərinin, ədəbi bədii gecələrin, idman və əyləncəli tədbirlərin keçirilmə səviyyəsi;
- məktəbin təlim nailiyyətlərinə görə medal almış məzunlarının sayı;
- yekun attestasiyanın nəticələrinə görə məktəbdə «4» və«5» qiymət alan şagirdlərin sayı;
- məktəb üzrə ümumi davamiyyət faizi;
- məktəbdə infeksiyon xəstəliklərə yoluxan və xəstəliyə görə dərs buraxan şagirdlərin sayı;
- məktəbdə təhsil alan yeniyetmə şagirdlərdən qayda pozanların sayı.

Təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi mühüm idarəetmə mexanizmidir və bu sistem yalnız onun yerinə yetirdiyi bütün vəzifələrin vəhdətində öz təyinatını reallaşdıra bilər. Belə yanaşma nəinki effektivliyi maksimuma çatdıracaq və vəsaitləri optimallaşdıracaq, həm də öyrətmə və öyrənmə keyfiyyətinin daimi yüksəldilməsinə geniş imkan yaradacaq, biliklərin mənimsənilməsi, onların həcminin artırılması həm uşaqlar, həm də məktəbin əməkdaşları üçün müsbət nəticələr ortaya çıxaracaqdır.

XX əsrin son onilliyindən başlayaraq dünyanın inkişaf etmiş ölkələrində təhsil sahəsində keyfiyyət, onun monitorinqi və qiymətləndirilməsi pedaqoji problem kimi aktuallıq kəsb edir. Çünki müasir dünyada təhsilin keyfiyyəti cəmiyyətin inkişafını təmin edən əsas göstəricilər hesab olunur. Təhsildə keyfiyyətin monitorinqi və qiymətləndirilməsində əsas məqsəd əldə olunan nəticələrin normativlərə uyğunluğunun müəyyənləşdirilməsi, müvafiq kənara çıxmaların qarşısını almaq üçün müəyyən tədbirlərin görülməsidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafi üzrə Dövlət Strategiyası. «Kurikulum» jurnalı, 2013, №4.
2. A.Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı, «Mütərcim», 2010.

3. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı, Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.

Həmidova Cəmilə
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), magistrant

TƏHİLİN SƏMƏRƏLİ İDARƏ OLUNMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Açar sözlər: *təhsil və təhsil sistemlərinin idarə olunması, idarəetmənin paradiqmatik əsasları, idarəetmə səmərəliliyi*
Ключевые слова: *управление образованием и образовательными системами, парадигмальные основания управления, эффективность управления*
Key words: *education and educational systems management, paradigmatic management bases, management efficiency*

İslahatların və intensiv yenilik proseslərinin davam etməsi ilə xarakterizə olunan təhsilin hazırkı inkişaf mərhələsi idarəetmədə əsaslı dəyişiklikləri tələb edir. Bu cür idarəetmənin paradiqmatik əsaslarına yenidən baxılması deyil, həm də səmərəliliyinin artırılması və həddindən artıq mərkəzləşmənin azaldılması üçün kompleks tədbirlərin qəbulu tələb olunur. Təhsilin idarəedilməsinin vəziyyəti onun modernləşməsinin ümumi problemləri və cəmiyyətin inkişafının əsas yenilikçi istiqamətləri daxilində nəzərdən keçirilir. İdarəetmənin paradiqmatik əsaslarının ətraflı təhlili aparılır; sistemliliyi və tarazlığı idarəetmə üzvləri mövqelərindən və onların həyata keçirdiyi funksiyalardan fərqli olaraq təqdim olunur. Təhsilin idarəedilməsi problemi, mürəkkəbliyinə görə əvvəlcə fənlərarasıdır. Onun nəzərdən keçirilməsi pedaqogika, idarəetmə nəzəriyyəsi, sistemologiya, sosiologiya və digər elmi fənlərin nəzəri, konseptual və metodoloji əsaslarına əsaslana bilər və olmalıdır.

İdarəetmə özünün bütövlüyünü, quruluş vahidliyini saxlamaqla uyğun yerdə son məqsədə nail olmaq üçün tətbiq edilən müxtəlif təbiətli sistemlərin təsiretmə vasitəsidir. İdarəetmə, hər hansı bir obyekt olmadan icra edilə bilməz. İdarəetmənin mövcudluğu ilə bağlıdır. Yəni təşkilat varsa idarəetmə də vardır və əksinə. İdarəetmə sistemi obyekt və subyekt olmaqlaiki tərkib hissədən ibarətdir. Obtekt-idarə olunan, subyekt isə - idarə edəndir. İdarəetmə-təşkilatın məqsədini müəyyənləşdirib, bu məqsədə çatmaq üçün planlaşdırma, təşkiletmə, icra və nəzarət proseslərdir.

Dünyanın bir çox ölkəsində, 20-ci əsrin sonlarından etibarən milli təhsil sistemlərində intensiv islahatlar başladı. Eyni zamanda, təhsilin keyfiyyətini yüksəltmək üçün təhsil sistemlərinin idarəedilməsində islahatların aparılmasına diqqət yetirilir. Əsas məqsəd təhsil sistemlərinin intensiv inkişaf yoluna köçürülməsini həyata keçirməkdir.

İdarəetmə bu gün çox və çox populyar bir elmi istiqamətdir, çünki onun müxtəlif fəaliyyət sahələrində tətbiqi maliyyə, maddi və intellektual mənbələrin səfərbər olunmasına səbəb olmalıdır. Təhsil sistemində idarəetmə Qərbi Avropada normadır. Komandanın düzgün təşkili olmadan tələbə təhsil nailiyyətləri səviyyəsində yüksək göstəricilər əldə etmək mümkün olmayacağına inanılır. Təhsildə idarəetmə sadəcə zəruridir, çünki yalnız onun köməyi ilə səlahiyyətli qərarlar qəbul edilə bilər.

Təhsilin idarə olunması dövlətin təməl prinsiplərinə, konstitusion əsaslarına istinad olunmaqla bütün tip tədris müəssisələrində təlim, tərbiyə, təhsil və psixoloji inkişafında daha səmərəli nəticələnməsi üçün həyata keçirilən fəaliyyətdir. İlk baxışda adama elə gəlir ki, bu fəaliyyətin nəticəsi ancaq müəllimdən, onun öz işini nə dərəcədə düzgün qurmasından aslıdır. Burada müəyyən həqiqət olsa da, nəzərə alınması vacib olan digər cəhətlər də vardır. Reallıqda isə təlimin, tərbiyənin, təhsilin, psixoloji inkişafın, bir sözlə, pedaqoji prosesin nəticəsi daha çox amillərlə bağlıdır. Dünyada baş verən proseslər, elmin inkişafı, informasiya-komunikasiya texnologiyalarının bütün sahələri əhatə etməsi, adamların, konkret dövlətlərin rəqabətə davamlılığına ehtiyacın kəskin xarakter alması cəmiyyətin tərəqqisində təhsilin çəkisini daha da artırır.

Təhsildə idarəetmə sistemi olaraq hər iki mənada danışırıq: bir tərəfdən, təhsil sistemi daha yüksək səviyyəli sistemli birləşmələr olaraq cəmiyyətdən və dövlətdən kompleks idarəetmə təsirinə məruz qalır, digər tərəfdən. təhsil sisteminin özü, idarəetmə qərarları inkişaf etdirilir və tətbiq olunur, bəzi təhsil sistemlərindən (alt sistemlərindən) digər sistemlərə (alt sistemlərə) və onların ayrı-ayrı elementlərinə yönəldilir (2) .

Müasir təhsil sistemlərinin idarəedilməsi nəzəriyyəsi və təcrübəsi getdikcə daha çox məqsədyönlü fəaliyyət prosesi kimi idarəetmənin məzmununu təşkil edən ümumi idarəetmə funksiyalarına əsaslanır. Bunlar koordinasiya, planlaşdırma, təşkilatlanma, motivasiya, nəzarət funksiyalarıdır. Bu funksiyalar bir qayda olaraq, konkret predmeti olan proses və hadisələrin mahiyyətini dərk etmək və işlənib hazırlanması ilə həyata keciriləcək müəyyən olunmuş məqsədə yönəltmək üçün konkret fəaliyyət növlərinin məcmusudur. İdarəetmənin funksiyaları bir-biri ilə əlaqədə olsalar da, hər biri nisbi müstəqilliyə malik olub, əmək fəaliyyətinin konkret növü kimi özlərini büruzə verirlər. Eyni zamanda pedaqoji menecmentin yalnız özünə xas olan öz xüsusiyyətləri və qanunları var. Hər şeydən əvvəl, bu spesifiklik inzibati fəaliyyət subyektinin obyektinin, məhsulunun, alətinin və əməyin nəticəsinin orijinallığında ifadə olunur. Təhsil sistemində idarəetmə bazar iqtisadiyyatının tələblərinə, ictimai-siyasi həyatımızda aparılan demokratikləşmə prosesinə uyğun qurulmalı, funksiyaları yeni məzmun və formalarda tətbiq olunmalıdır. Yeni idarəetmə modeli də məhz innovasiyaların tətbiqinə əsaslanmalıdır.

Ədəbiyyat

1. Təhsil müəssisələrinin idarə edilməsinin yeni metodları, Bakı, 2006
2. Cabbarov R.H., Təhsil müəssisələrinin idarəetməməsələləri, Bakı, 2001
3. Bayramov H, Kəlbəliyev Ə., Təhsilin idarə edilməsinin əsasları, Bakı, 1998
4. Təhsil müəssisələrinin idarə edilməsinin yeni metodları, Bakı, 2006
5. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri, Bakı, Mütərcim, 2007-448

Həmidova Cəmilə

XÜLASƏ

Məqalədə təhsilin idarə edilməsinin nəzəri və praktik məsələləri, təhsil menecmentinin metodoloji problemləri, təhsildə demokratik idarəetmə və varislik məsələləri, təhsil müəssisələrinin idarə olunmasının yeni tələbləri araşdırılmışdır.

Гамидова Джамиля

РЕЗЮМЕ

В статье рассматриваются теоретические и практические вопросы управления образованием, методологические проблемы управления образованием, демократическое управление и преемственность в образовании, новые требования к управлению образовательными учреждениями.

Hamidova Jamila

SUMMARY

The article examines the theoretical and practical issues of education management, methodological problems of education management, democratic management and succession in education, new requirements for the management of educational institutions.

Həmidova Cəmilə

ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), magistrant

TƏHSİL FƏALİYYƏTİ ÜÇÜN KEYFİYYƏTLİ İDARƏETMƏ SİSTEMİNİN QURULMASI İSTİQAMƏTLƏRİ

Açar sözlər: *təhsilin keyfiyyəti, keyfiyyətin idarəedilməsi, keyfiyyətə nəzarət*

Ключевые слова: *качество образования, управление качеством, контролирование качества*

Key words: *quality of education, quality management, quality control*

Təhsilin keyfiyyəti bütün ali peşə təhsili sisteminin inkişafında həlledici amil olmuşdur. Hər şeydən əvvəl bu, Boloniya prosesi ilə əlaqədardır. Beləliklə, Bergen Bəyannaməsində (2005) Boloniya prosesinə qatılan ölkələrin ali təhsil müəssisələri üçün keyfiyyətə çatmaq üçün daxili mexanizmlərin və daxili sxemlərin birbaşa korrelyasiyasının müntəzəm təqdimatı ilə fəaliyyətlərinin keyfiyyətinin artırılmasına davam etmək lazım olduğu bildirilir. İndiki dövrdə inkişaf etmiş təhsil sistemi, hətta orta müddətdə olsa da, dövlətlər arasındakı rəqabətdə həlledici rol oynayır. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi yalnız qlobal bir tendensiya deyil, həm də dövlət təhsil siyasətinin bir hissəsi olmuşdur. Təhsilin keyfiyyəti, bu gün bu sahədə unikal istinad nöqtəsi olan standartlara, sertifikatlaşdırma və akkreditasiya tələblərinə uyğunluğu kimi qəbul edilməlidir. Buna baxmayaraq, bu sahədəki müasir ədəbiyyatın təhlilinə əsasən, belə nəticəyə gəlmək olar ki, ali təhsilin keyfiyyəti problemi təkcə rəsmi dövlət tələblərinə uyğun deyil və daha çox dəyişənləri qarşılamaq potensialındadır. Ali təhsilin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq üçün keyfiyyət səviyyəsini ölçmək üçün bir sıra standartlara və meyarlara sahib olmaq lazımdır. Ali təhsilin keyfiyyət standartı və ya deyildiyi kimi, ali təhsilin sosial keyfiyyət standartı, cəmiyyətin və fərdin ehtiyaclarına cavab verən, müəyyən edilmiş, ənənəvi və sənədləşdirilmiş ali təhsil keyfiyyət tələbləri sistemi kimi başa düşülür.

Bolonya Bəyannaməsindəki ali təhsilin keyfiyyət problemi belə ifadə edilmişdir: "Avropa sahəsində əməkdaşlığa kömək, müqayisə olunan meyarlar və metodologiyaları inkişaf etdirmək üçün keyfiyyətə nail olmaq"(3). Bu formulanın Avropa tərəfindən vurğulanmasına baxmayaraq, ali təhsildə keyfiyyət sahəsində əməkdaşlığın qlobal səviyyədə baş verdiyi aydındır. Son zamanlarda ali təhsildə keyfiyyət təminatı üçün beynəlxalq qaydaların yaradılması müşahidə edilə bilər. Bunlardan birinə uyğun olaraq beynəlxalq standartlar xüsusi olaraq transmilli bir quruluş tərəfindən hazırlanır.

Ali təhsildə keyfiyyət təminatı və idarəetmə bir-birindən müstəqil olmalıdır, ali təhsildə idarəetmə qərar qəbul etməyi hədəfləyirsə, keyfiyyətin yüksəldilməsi əsasən məsləhət və dəstəkləyici funksiyaya malikdir. Dövlət tərəfindən təhsildə idarəetmə, xarici nəzarəti təmin etmək üçün səlahiyyətlilərin hərəkətlərini təmsil edir və nəhayət, təhsilin keyfiyyətini artırmağı hədəfləyir. Lisenziyalaşdırma və dövlət akkreditasiyası xarici məcburi nəzarətdir. Hər iki halda da keyfiyyət qiymətləndirməsi mütəxəssislər tərəfindən daxili bir səviyyəyə - özünü qiymətləndirmə və xarici səviyyəyə malikdir. Dövlət akkreditasiya rejimi, dövlətin akkreditasiya subyektlərini (ayrıca bir akademik proqram və ya universitet) rəsmi tanıması və bunların dövlət tərəfindən müəyyən edilmiş funksiyaları ixtisaslaşmış bir akkreditasiya orqanı şəxsində yerinə yetirmə imkanı üçün bir prosedurdur. Əksər Avropa ölkələrində (ali məktəblərin yaradılması, maliyyələşdirilməsi və ixtisaslaşmasından asılı olmayaraq) ali təhsildə formal keyfiyyət təminatı mexanizmləri və əlaqəli xarici hesabat prosedurları qurulur. Hal-hazırda idarəetmə keyfiyyəti sahəsində böyük bir tendensiya var. Effektiv idarəetmə sisteminin yaradılmasının aktuallığı müxtəlif amillərlə müəyyən edilir: ali təhsil fəaliyyətinin dövlətin tələblərinə və istehlakçıların tələblərinə uyğunluğu, dövlətdən ali təhsilə ayrılan maliyyənin azalması, universitetlər arasında rəqabət, ehtiyac qlobal tendensiyalara uyğun çevrilmələr, texnologiyada dəyişiklik və beynəlxalq əməkdaşlığın genişləndirilməsi. Təhsildə keyfiyyət təminatı, təsirli bir ali təhsil strategiyasının meyarıdır. Bu arada qeyd etmək lazımdır ki, son nəşr olunan tədqiqatlarda "keyfiyyət" anlayışı artıq yalnız texniki komponent baxımından şərh olunmur. Çox vaxt təşkilatların və bütövlükdə cəmiyyətin fəaliyyətinin iqtisadi, sosial və humanitar aspektlərinə diqqət yetirilir. Tədqiqat obyekti kimi təhsil fəaliyyətinin keyfiyyəti müxtəlif mövqelərdən götürülə bilər: təhsilin özü və ya təhsil fəaliyyətinin keyfiyyəti, təhsil prosesinin və ya göstərilən təhsil xidmətlərinin keyfiyyəti, məzun və ya bir mütəxəssisin keyfiyyəti.Hal-hazırda təhsil fəaliyyə-

tinin keyfiyyətinin idarə olunmasının səmərəliliyinin qiymətləndirilməsi üçün aydın şəkildə tərtib olunmuş meyarlar yoxdur ki, bu da təhsil sisteminin daimi islahatı şəraitində qiymətləndirilməsini xeyli çətinləşdirir. Təhsil fəaliyyəti üçün keyfiyyət idarəetmə sisteminin qurulmasının əsas prinsipləri təhsil fəaliyyətinin keyfiyyət təminatı sistemində vahid meyar və standartların inkişafı hesab edilə bilər.

Bir ali təhsil müəssisəsində keyfiyyət idarəetmə sistemi tətbiq edilərkən, müəyyən bir universitetin spesifik xüsusiyyətlərini nəzərə almaq lazım gəlir ,həmçinin keyfiyyət sahəsindəki konseptual istiqamətlər də əhatə etməlidir. Buraya təhsil xidmətləri, həmçinin planlaşdırılan nəticələrə çatmağın formaları, növləri və mexanizmlərinin müəyyənləşdirilməsi daxildir. Keyfiyyət siyasəti və strateji planlaşdırma inkişafının müvəffəqiyyətinin idarəetmənin demokratik mahiyyətinin nə dərəcədə həyata keçirildiyindən, müxtəlif maraqlı tərəflərin geniş iştirakından, keyfiyyət sahəsində idarəetmə qərarlarının qəbulu və həyata keçirilməsindən asılı olduğu iddia edilə bilər.

Ədəbiyyat

1. Davudova TI, TM Davudenko, GN Shibanova Təhsil sistemlərinin idarəedilməsi. M.: "Akademiya" nəşriyyat mərkəzi, 2006, s. 11-74
2. Zhuravleva LV Təhsilin dəyəri və qiyməti. Təhsil menecmenti // Alma mater. 2009. № 7. S. 5-8.
3. Təhsil sistemlərinin idarə edilməsinin mahiyyəti və əsas istiqamətləri. Pedaqogika. V. A. Slastenin Pedaqogika: Dərslik. damazlıq üçün dərslik. daha yüksək. ped. iş. müəssisələr / V. A. Slastenin, I. F. Isaev, E. N. Shiyanov; Ed. V.A. Slastenin. - M.: "Akademiya" Nəşriyyat Mərkəzi, 2002. - 576 s.
4. Əhmədov N. və B. " İdarəetmənin pedaqogikası və psixologiyası" Bakı, 2000
5. Məmmədzadə R.H., "İdarəetmə mədəniyyəti" Bakı, 1999

Həmidova Cəmilə

Təhsil fəaliyyəti üçün keyfiyyətli idarəetmə sisteminin qurulması istiqamətləri

XÜLASƏ

Elmi məqalədə bir ali təhsil müəssisəsinin idarəetmə problemləri, "universitetin rəqabət qabiliyyəti" kateqoriyasının məzmunu, universitetin təhsil xidmətləri bazarında rəqabət qabiliyyətini artırmaq üçün biznes funksiyalarının quruluşu müzakirə olunur.

Гамидова Джамиля

Направления по созданию системы менеджмента качества образовательной деятельности

РЕЗЮМЕ

В научной статье рассматриваются проблемы управления высшим учебным заведением, содержание категории «конкурентоспособность вуза», структура бизнес-функций по повышению конкурентоспособности вуза на рынке образовательных услуг.

Hamidova Jamila

Directions for establishing a quality management system for educational activities

SUMMARY

The scientific article discusses the management problems of a higher education institution, the content of the category "university competitiveness", the structure of business functions to increase the competitiveness of the university in the market of educational services.

Gözəlova Tünzalə Fəxrəddin qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs əyani magistrantı
Elmi rəhbər: dos. Sahilə Orucova

TƏLİM-TƏRBİYƏ İŞİNİN SƏMƏRƏLİLİYİNİN LİDERİN TƏŞKİLATÇILIQ BACARIĞINDAN ASILILIĞI

Açar sözlər: *təhsil, inkişaf, lider, təşkilatçılıq, yenilik*
Ключевые слова: *образование, развитие, лидер, организация, инновации*
Key words: *education, development, leader, organization, innovation*

Təlim-tərbiyə işinin uğurlu olması liderin fəaliyyətindən, onun davamlı olmasından, düzgün mövqeyindən, yanaşma tərzindən asılıdır. Şagirdlərin bilik, bacarıq və vərdişlərini, təlim-tərbiyəsinin səmərəliliyini qiymətləndirmək təhsil müəssisəsini idarə edən məktəb rəhbərlərinə, liderlərə, təhsil menecerlərinə də aiddir. Məktəbin müvəffəqiyyət qazanması üçün öz işinə sadiq və mütəxəssis müəllimlərə ehtiyac olduğu qədər, onların da öz növbəsində yüksək səmərəli direktorun rəhbərliyinə ehtiyacları var [2, s.4].

Təlim-tərbiyə işinin təşkilində hər yaş dövrünün xüsusiyyətlərinin nəzərə alınması xarakterin düzgün formalaşmasına mühüm təsir göstərir. Tərbiyə işi anlayışı tək bir məna daşımır və bu prosesə vahid bir prizmadan baxmaq doğru deyildir. Səriştəli pedaqoq dərs dediyi şagirdin bacarıqlarının inkişafını təmin etmək üçün müşahidə və diqqətini yönləndirərək, həm individual yanaşmalarla, həm kollektiv münasibətlərlə, həm də fərdi görüşlərlə fərqli bir yanaşma müəyyənləşdirməlidir. Müəllim müxtəlif situasiyalarda şagirddə özünə inam hissini yaratmaq üçün həm dərs zamanı, həm də dərsdənkənar əlverişli şərait yaratmalıdır. Bununla bərabər təlim zamanı tərbiyə işi arxa plana keçməməlidir. Bunun üçün də istər müəllimdə, istərsə də bir liderdə əsas qabiliyyət forması onun təşkilatçılığıdır.

Gündəlik həyatda tez-tez eşidirik: "Bu adam təşkilatçılıq qabiliyyətinə malikdir və çox irəli gedəcək." Təşkilatçılıq bacarıqları bir insanın həm özünün, həm də həmkarlarının işini bacarıqlı və səmərəli təşkil etməsinə kömək edəcək vacib xüsusiyyətlərdəndir. Deməli, bir liderin əsas vəzifələrindən biri təşkilatçılıq qabiliyyətinə malik olmasıdır. Yüksək təşkilatçılıq qabiliyyətinə malik təhsil lideri şagird və pedaqoji kollektivi birləşdirir, vacib problemləri həll etməyə sövq edir, eyni zamanda öz işini düzgün təşkil edə, ağıllı şəkildə planlaya və idarə edə bilir.

Təhsil işinin ilk növbədə bir təşkilatçı işi olduğunu A.S.Makarenko da qeyd etmişdir. Bir liderin təşkilatçılıq bacarığı həm öz fəaliyyətinə, həm də şagirdlərin, valideynlərin, həmkarlarının fəaliyyətinə əsaslanır. Bu bacarıqların təzahürlərindən biri təcrübəli liderin zamanı düzgün bölüşdürmək, qarşıda duran planları vaxtında yerinə yetirmək kimi qabiliyyətlərə malik olmasıdır. Uğursuz liderlər adətən işlərini plana uyğun aparmamaları ilə seçilir, həmçinin işlərini tələsərək həll etməyə çalışırlar. Bu da bilavasitə təcrübəsizlikdən, təşkilatçılıq bacarıqlarının yetərli səviyyədə olmamasından irəli gəlir.

Beləliklə, təşkilatçılıq bacarığı hər bir peşədə, xüsusən də təhsil liderinin işində vacibdir. Doğrudan da, təşkilatçılıq bacarığı olmadan məktəbdə, bir komandada iş səmərəli ola bilməz. Təlim tərbiyə işinin səmərililiyi liderin bilik və bacarığına da əsaslanır. Bu iki anlayış həmişə vəhdət təşkil edir. Bilik bir ağaca bənzəyirsə, bacarıq onun yarpaqları, çiçəkləri, meyvələri, bir sözlə, onun gözəlliyi və cəzbedici tərəfi olacaqdır. Müasir təhsil sistemi təhsil-alanlara daha geniş aspektdə yanaşaraq müxtəlif əqli və sosial bacarıqların aşılanmasını təmin edir. Nəticə etibarilə müəyyən nailiyyətlər əldə olunur və bunun təminatçılarından biri də məhz təhsil lideridir.

Şagirdin dünyagörüşü, intellektual səviyyəsi və təfəkkürü daim inkişaf edir. Məhz bugünkü təhsil sisteminin şagirdyönümlü olması bilik və bacarıqların bir birinə müsbət təsirinə, möhkəmləndirilməsinə və inkişafına xidmət edir. Bütün bunlar da təlim-tərbiyə işinin düzgün təşkilinə yönəlir. Təhsil müəssisələrində şagirdlərin sərbəst fikir ifadə edə bilməsi və belə metodika ilə təhsil alması kreativ bir mühitin yaranmasına da səbəb olur. Mütəmadi olaraq belə davam edən şəraitdə şagirdlərin istedadları da aşkar olunur. Xüsusi istedadlar seçilir və onlara müvafiq yanaşmalar tətbiq edilir. Beləcə, məktəbin təhsil mühiti aktiv formada fəaliyyət göstərir. Bu həm təhsil liderinin təşkilatçılığı, həm şagirdin marağı, həm də müəllimlərin istiqamətləndirməsi üçün sağlam bir rəqabət formasını alır. Nəticə etibarı ilə

rəqabət olan hər yerdə adətən inkişafa nail olunur. Tərbiyə prosesində uğurlar çoxalaraq qarşıya qoyulmuş məqsəd və nəticələr daha da mükəmməlliyə doğru yönəlir.

Məktəbdə fəaliyyət göstərən dərnəklər bu prosesin daha da uğurlu nəticələrinə zəmin yaradır. Şagird hər zaman fikirlərinin tətbiq edildiyi bir mühit arzulayır və uğurlu nəticəni əldə edərək daha da motivasiya olur. Dərnəklər, əlavə məşğələlər bir növ də şagirdin asudə vaxtının səmərəli istifadəsində faydalı olur. Əlavə təhsil və ya məşğələlər məktəblilərin dünyagörüşünün artırılmasına, yaradıcı qabiliyyətlərinin genişlənməsinə xidmət edir. Bu da bilavasitə liderin sadəcə məktəb daxilində deyil, eyni zamanda əlavə məşğuliyyət sahələri tədbiq edərək uşaqların təlim-tərbiyəsinin səmərəliliyi ilə bağlı addımlarıdır [4, s.7].

Təlim-tərbiyə prosesində sağlamlıq məhdudiyyəti olan şagirdlər də iştirak edir. Onlar üçün uyğun təhsil mühiti xüsusi əhəmiyyətli və maraqlı olur. Aktiv bir mühit onların da fəaliyyətinə bilavasitə təsir edərək özünə inam hissi aşılayır. Bu şəkildə inklüziv təhsilin tətbiqi məhz uğurlu nəticələrə xidmət edir. Bu təhsil təkcə fərqli inkişaf özəllikləri olan uşaqlar üçün deyil, bütün şagirdlərin maarifləndirilmə ehtiyaclarına və inteqrasiyanın inkişafına yönəlmişdir. Beləliklə, ölkəmizdə bərabərhüquqlu, humanist prinsiplərə əsaslanan bir cəmiyyət və təhsil mühiti formalaşır. Lider bu sahədə daha fəal iştirak edərək hər kəs üçün optimal şəraitin yaranmasına xidmət göstərir. Fərqli inkişaf özəllikləri olan şagirdlər belə təhsil mühitində özlərini sərbəst ifadə edə bilir və həmin mühitə daha tez adaptasiya oluna bilirlər. Şagirdlər bütün fənlərdən öz fəaliyyət və yenilikçi düşüncələrinə uyğun biliklər əldə edir. Digər şagirdlərin fərqli maraqları, fərqli yanaşmaları başqa şagirdlərin də fəaliyyətinə stimul verir. O, öz bacarıqlarını kəşf edir. Seçdiyi fəaliyyət növü üzrə həmin bacarıqları istifadə etmək yollarını tapır. Təhsil alan digər şagirdlər təlim-tərbiyə prosesində aldığı biliklər sayəsində yüksək intellektli bir şəxsiyyət olmaq, yüksək mənəvi keyfiyyətləri dəyərləndirə bilmək təfəkkürünə malik olurlar. Bu da insanların fiziki deyil, mənəvi keyfiyyətlərlə dəyərləndirildiyi düşüncəsini yaradır. Beləcə, təhsil liderinin yüksək peşəkarlıqla təşkil etdiyi qarşılıqlı işgüzar bir mühitdə, fikirlərin demokratik şəkildə ifadəsinin heç bir əngəl tanımadığı, real fikrin gerçəkləşməsində heç bir maneə olmadığı nəticəsinə gəlmək mümkün olur [3, s.29].

Məktəb həyatında şagirdlərin bilik və bacarıqlarının artırılması ilə yanaşı, onlarda gələcək həyatda hər hansı bir mövqe tutmasının təsəvvürünü yaratmaq liderin düzgün seçilməsindən irəli gəlir. Şagirdlərin öz qabiliyyətlərinə əsaslanan seçimlərini düzgün yönəltmək lazımdır. Bu işdə ümumi orta təhsili bitirməkdə olan şagirdlərin valideynlərinin də maarifləndirilməsi çox vacib şərtlərdəndir. Ümumiyyətlə, məktəb, şagird, valideyn üçlüyünün əməkdaşlığı hər zaman faydalı olmuşdur. Şagirdin öz yaşıdları ilə birlikdə kollektiv bir mühitdə davranışı çox zaman ailədə olan davranış tərzindən müəyyən qədər fərqli olur. Bu məktəb rəhbərliyinin təşkilatçılıq qabiliyyətinin olması, uşaqların təlim-tərbiyə işinin düzgün planlaşdırması ilə müəyyən olunur.

Təhsil sisteminin bugünkü uğurları cəmiyyətdəki intellektual səviyyəyə, ictimai fikrə, düşüncə və həyat tərzinə təsir edir. Lider sərişdəsizliyi indiki dövrdə get-gedə azalır. Çünki lider elə bir sistemdə fəaliyyət göstərir ki, özünə, işinə, peşəsinə, təhsilə, cəmiyyətə, şagirdə laqeyd olduqda bu yolda irəliləyə bilməz. Ona görə də, bu gün təhsil lideri olmaq istəyən şəxs üzərinə düşən vəzifələri bilməli və peşəkar olmaq üçün öz-özünü inkişaf etdirməyə səy göstərməlidir. Əsası da odur ki, lider ətrafında baş verən bütün proseslərə biganə qalmasın və daima yenilik axtarışında olsun.

Lider təhsil prosesində bütün iştirak edənlərin maraqlarını nəzərə almalıdır. Eyni zamanda onların öz əməklərindən razı qalmalarına, təlim-tərbiyə işinin səmərəliliyinə, kollektivdə mənəvi-psixoloji mühitin yaranmasına nail olmalıdır. Effektiv liderin təşkilatçılığında pedaqoji işçilərin fəaliyyətini düzgün qiymətləndirmək kimi xüsusiyyətlərə malik olması, məktəb kollektivini motivasiya etmək əsas şərtlərdəndir. Yalnız bu halda təlim-tərbiyənin inkişafı arzuolunan zirvəyə çatmış olar.

Ədəbiyyat

1. Təhsilin idarə olunmasının əsasları. O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov. Bakı: Mütərcim, 2010. – 476 səh.
2. Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010, 170 s.
3. S.Qasımov, E.Kərimova, İ.Sultanova, F.Ağayeva. İnklüziv təhsil, Bakı, 2006 səh.98-103
4. N.Hüseynova. Səmərəli idarəetmədə motivasiya: nədir nəyə lazımdır? Yeni Azərbaycan. 2015, 28 avqust.

РЕЗЮМЕ

Организаторские способности важны в каждой профессии, особенно в работе руководителя. Организаторские способности руководителя базируются как на собственной деятельности, так и на деятельности учащихся, родителей, коллег. Эффективность учебно-воспитательной работы, как правило, зависит от организаторских способностей руководителя.

SUMMARY

Organizational skills are important in every profession, especially as a leader. Organizational abilities of a leader are based both on their own activities and on the activities of students, parents, colleagues. The effectiveness of teaching and educational work, as a rule, depends on the organizational skills of the leader.

Məmmədəliyeva Aysel Rövşən qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. Ş.M.Azadəliyeva

TƏHSİL STANDARTININ MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

Standart anlayışı (ing-standart) – norma, nümunə, meyar mənasını verir. Standartlaşdırma (standartın işlənməsi və istifadəsi) cəmiyyətin tarixən dəyişən tələbatlarına uyğun olaraq təcrübənin tənzimlənməsi və sistemləşdirilməsidir.

Təhsil standartı dedikdə ictimai idealı əks etdirən, bu ideala nail olmaq üçün şəxsiyyətin və təhsil sisteminin real imkanlarını nəzərə alan və dövlət təhsil normaları kimi qəbul edilən əsas parametrlər sistemi başa düşülür.

Təhsildə standartlaşdırmanın əsas obyektləri onun quruluşu, məzmunu, dərs yükünün həcmi və şagirdlərin hazırlıq səviyyəsidir.

Standartla müəyyənləşdirilmiş norma və tələblər təhsilin əsas sahələrinin keyfiyyətinin qiymətləndirilməsində etalon kimi qəbul edilir.

Ümumi orta təhsilin dövlət standartları ümumi orta təhsilin məzmununun mütləq minimumunu, tədris yükünün maksimum həcmini, şagirdlərin və məzunların hazırlıq səviyyəsinə verilən tələbləri müəyyən etməklə, əsas və orta təhsilə şamil edilir.

Bu standartlar uşaq hüquqları haqqında BMT konvensiyasının müddəaları əsasında, təhsil sahəsində beynəlxalq normalar və Azərbaycan Respublikası qanunvericilik aktları nəzərə alınmaqla Azərbaycan Respublikası vətəndaşlarının konstitusiya ilə müəyyən olunmuş ümumi icbari təhsil almalarının həyata keçirilməsinə xidmət edir.

Azərbaycan Respublikasında təhsilin məzmununa verilən tələblər bugünkü və sabahkı insanın, vətəndaşın formalaşdırılması ilə bağlı başlıca məqsədlə müəyyən olunur. Vətəndaşların təhsil-tərbiyəsi prosesi dövlətin fəaliyyətinin prioritet sahələrindən biridir. Odur ki, respublikamızın təhsil sistemi dünya və yerli təcrübəni nəzərə almaqla təkmilləşdirilir.

Dövlət təhsil standartları mahiyyət etibarilə mütərəqqi dünyagörüşünə malik, söykökünə bağlı şəxsiyyət formalaşdıran, təhsilin məzmunu və nəticələrini təmin edən normalar və müddəalar məcmusundan ibarətdir.

Ümumi orta təhsilin dövlət standartları təhsilalma formalarından və təhsil müəssisələrinin növündən asılı olmayaraq, şagirdlərin və məzunların təhsil səviyyəsinin obyektiv qiymətləndirilməsinin əsasını təşkil edir.

Təhsil standartları hazırlamaq və tətbiq etmək vasitəsilə dövlət özünün rəhbəredici rolunu həyata keçirir. Ümumi orta təhsil üzrə dövlət standartları orta məktəbi bitirənlərin təhsil səviyyəsinə dövlətin tələbi kimi müəyyənləşdirilir və ona riayət etmək tabeliyindən, tipindən və formalarından asılı olmayaraq bütün tədris müəssisələri üçün məcburidir

Dövlət təhsil standartlarının qəbulu tədris prosesinin ciddi şablonlara tabe olması deyil, əksinə pedaqoji yaradıcılıqda vacib sayılan məzmun əsasında variativ proqramlar, müxtəlif təlim texnologiyaları, tədris vəsaitləri yaratmağa geniş imkanlar açır.

Təhsil standartları 2 komponentə ayrılır:

1. İnvariant (dəyişilməz) komponent. Bu, təhsilin özəyini təşkil edir, ona hərdənbir yenidən baxılır və təkmilləşdirilir.

2. Variatik (dəyişən) komponent. Bu komponent cəmiyyətin tələbatlarından asılı olaraq sistematik təzələnir və ona yenidən baxılır.

Bazis tədris planında invariant hissə respublika komponentini təşkil edir ki, bura təhsil sahələri aiddir.

Məktəb komponentlərinə isə şagirdlərin arzu və istəklərindən asılı olaraq seçmə fənlər aid edilir.

Ümumtəhsil standartlarının mahiyyəti onun yerinə yetirdiyi vəzifələrlə müəyyənləşdirilir.

1. Qiymətləndirmə meyarı vəzifəsi – standartın bu vəzifəsi tədris yükünün həcmi və təhsilin məzmununu müəyyənləşdirdikdə, təlimin nəticələrinin qiymətləndirilməsində, müəllimlərin və təhsil idarələrinin attestasiya zamanı istinad edilən normativ kimi standartın mahiyyətindən irəli gəlir.

2. Mükəmməl təhsil hüququnun təminatı vəzifəsi. Bu vəzifə Azərbaycan Respublikasının Konstitusiyası ilə hər bir vətəndaşın şəxsiyyət kimi formalaşması üçün əsas sayılan təhsilin səviyyəsinin və ixtisas üzrə təhsilini davam etdirmək imkanlarının təminatı kimi başa düşülür.

3. Ölkənin təhsil sahələrinin birliyini qorumaq vəzifəsi. Müxtəlif təhsil sistemləri və təhsil müəssisələrinin sayının artması ölkədə təhsil sistemini sabit saxlamaq üçün idarəetmə mexanizminin yaradılmasını tələb edir.

4. Təhsilin humanistləşmə vəzifəsi. Şagirdlərin hazırlığına minimal vacib tələblərin aydın müəyyənləşdirilməsi müxtəlif səviyyədə biliklərə yiyələnmə imkanlarını nəzərdə tutan təlimin differensasiyası üçün real perspektivlər açır.

Belə yanaşma şagirdi gücü çatmadığı tədris yükündən azad edir və ona öz meyl və maraqlarını reallaşdırmağa imkan verir. Əsassız emosional-psixoloji gərginlik aradan götürülür ki, bu da hər kəsə öz gücü səviyyəsində öyrənməyə imkan verir, öyrənmək üçün mütləq motivlər formalaşdırır.

5. İdarəetmə vəzifəsi. Bu vəzifənin həyata keçirilməsi mövcud nəzarət və təlimin nəticələrinin qiymətləndirilməsinin standartla müəyyənləşdirilmiş obyektiv meyarlar əsasında yenidən qurulması ilə əlaqədardır.

6. Təhsilin keyfiyyətinin yüksəldilməsi vəzifəsi. Ümumtəhsil standartları təhsilin məzmununu ən vacib həcmdə təsbit edir və hazırlıq səviyyəsinin mümkün ola biləcək həddini göstərir. İndiyə qədər belə bir ümumdövlət norması olmamışdır. Ümumtəhsil hazırlıq səviyyəsi haqqında təsəvvürlər kortəbii yaranmış, bu təsəvvürlər məktəblilərin daha çox hazırlıqlı olmasına yönəldilmişdir.

Ədəbiyyat

1.Azərbaycan Respublikası Məktəblərinin Təhsil Standartları. Bakı, 2000, s. 529.

2.Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 1993.

3.Государственные общеобразовательные стандарты в системе общего образования. Москва, 2002, с. 384

Məmmədəliyeva Aysel Rövşən qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. Ş.M.Azadəliyeva

TƏHSİL STANDARTININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Təhsilin dövlət standartı ümumtəhsil məktəbinin həlqəsini başa çatdıran (IV sinfi bitirən) şagirdlərin hazırlıq səviyyəsinə verilən tələbləri, tədris yükünün əsas məcburi minimumunu müəyyənləşdirən normativ sənəddir. Standart mərhələni bitirən şagirdlərin təhsillənmə səviyyəsini səciyyələndirir.

Təhsil üzrə belə mühüm sənədin hazırlanması zərurəti müstəqil respublikamızın bugünkü vəziyyəti və həyatın tələbi ilə bağlıdır. Ölkəmizdə təhsil proqramının tələblərinə uyğun olaraq məktəb islahatının həyata keçirilməsi, müxtəlif növ məktəblərin fəaliyyət göstərməsi, alternativ proqram və dərsliklərin tərtibinə əlverişli şəraitin yaradılması, təlimdə fərdiləşmənin tətbiqi, uşağın təhsillənmə səviyyəsinin valideynlər tərəfindən də qiymətləndirilməsinə imkan verir. Hər bir valideyn övladının mükəmməl təhsil alması üçün yaşadığı ərazidə istədiyi məktəbi, müəllimi seçə bilər. Təhsil sistemində belə demokratiya ölkəmizdə dövlət quruculuğunun müvəffəqiyyətlə başa çatdırılmasına xidmət edir.

Bu təhsil orta ümumtəhsilin birinci mərhələsi, bünövrəsi olmaqla şagirdlərin gələcəkdə təhsillərini davam etdirmələri üçün onların imkanlarını öyrənməyi, buna əsasən təlim prosesini diferensiallaşdırmağı, şagirdlərə fərdi yanaşmağı tələb edir.

Əhalinin sayına görə o qədər də böyük olmayan respublikamızın məktəblərində türklərlə yanaşı azsaylı xalqların uşaqları da təhsil alır. Yalnız milli mənsubiyyətinə, etnik tərkibinə görə deyil, həm də coğrafi şəraitinə görə uşaqların hazırlığında fərqli cəhətlər özünü göstərir. Bundan əlavə, altıyaşlıların məktəbə qəbulunun düzgün aparılmaması üzündən siniflərdə təhsil alanların təxminən 2-3 faizi qüsurlu uşaqlardır. Bütün bunlar kiçik yaşlı məktəblilərin yaş xüsusiyyətləri ilə yanaşı, psixoloji xüsusiyyətlərini də diqqətlə öyrənmək vəzifəsini irəli sürür.

Uşaqların psixi inkişafı yetkinləşməyincə, onların ümumi inkişafının normal təşkil ediləcəyinə ümid bəsləmək olmaz. Məktəbəqədər dövrdə, həmçinin kiçik məktəb yaşı dövründə uşağın inkişafı il, ay ilə deyil, günlə ölçülür. Ona görə də həmin dövrdə uşaqların fəaliyyətinin hər bir sahəsinə xüsusi diqqətlə yanaşmaq lazımdır. Yalnız bu zaman uşaqların ayrı-ayrı fənlər üzrə bilik, bacarıq və vərdişlərə yiyələnmələrini, onların nitq və digər fəaliyyətlərinin imkanlarını təmin etmək mümkündür.

Standartda nəzərdə tutulmuş tələblərin məktəblər tərəfindən yerinə yetirilməsi onların zəruri bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə, ətraf aləmə (təbiət və cəmiyyət) uyğunlaşmalarına, ünsiyyət, tədris, əmək fəaliyyətinə, özünüqiymətləndirmə və özünənəzarət qabiliyyətinin formalaşmasına nail ola, nəticə etibarilə təlimin sonrakı mərhələsinə hazırlaşa bilərlər. Bu prosesdə əqli-idraki hazırlıqla yanaşı, kommunikativ, mənəvi, əmək, estetik və fiziki hazırlıq da təmin edilir.

Təhsil fasiləsiz ümumi təhsil sistemində ən mürəkkəb, ən qiymətli, müstəqil və icbari həlqədir. Dövlət standartı uzun illərdən bəri formalaşmış təhsil sisteminin ümumi və konkret məqsədlərinin həyata keçirilməsinə əsaslanır. Təlim və tərbiyə sistemində hər bir fərdin imkanları-

nın aşkara çıxarılması və inkişafı mühüm rol oynayır. Bu dövrdə öyrənilənlər sonradan şəxsiyyətin necə formalaşacağını müəyyənləşdirir.

Fasiləsiz təhsil sisteminin ən əhəmiyyətli, məsuliyyətli və mürəkkəb həlqəsi olan təhsilin qarşısında şagirdlərin intellektual inkişafının zəruri səviyyəsini yüksəltmək, elmlərin əsasları üzrə sadə biliklər vermək, həmçinin aşağıdakı ümumpedaqoji vəzifələr qoyulur: şagirdlərdə təbiət və cəmiyyət haqqında ilkin elmi təsəvvürlər formalaşdırmaq, onların şüurunu zənginləşdirmək, dərketmə marağını inkişaf etdirmək, oxu, yazı və hesablama vərdişləri aşılamaq, sual vermək, suallara cavab vermək, müşahidə aparmaq, gördüyü əşya və hadisələri təhlil etmək, qruplaşdırmaq, təsnif etmək, mücərrədləşdirmək, ümumiləşdirmək, məntiqi nəticə çıxarmaq, mühakimə yürütmək, öz mövqeyini müdafiə etmək, sübuta yetirmək və s. Bir sözlə, sadə nəzəri təfəkkürə, nitq mədəniyyətinə malik olmalı, tərbiyə və ümumi inkişaf üzrə işi yerinə yetirməlidir.

Təhsilin məqsədindən aydın oldu ki, başlıcası kiçik yaşlı məktəblinin şəxsiyyətinin formalaşmasını təmin etmək, onların qabiliyyətinin məqsədyönlü inkişafını aşkara çıxarmaq, onlarda oxumaq arzusu və bacarığı formalaşdırmaqdır.

Tədris fəaliyyətinin formalaşması əsasında uşağın şəxsiyyətinin tərbiyəsi və ümumi inkişafı ön plana çəkilir.

Bütün bunlar təhsilə onu başa vuranların yuxarı siniflərdə sistematik kursları mənimsəmələri üçün hazırlıq mərhələsi kimi baxmağa əsas verir. Onun hazırlıq mərhələsi olması heç də bu mərhələnin bəsit, qeyri-elmi olması haqqında fikir söyləməyə əsas vermir. İbtidai təhsil böyük elmin həqiqətlərini sadə şəkildə, praktik yolla, özünəməxsus sistemlə təqdim edir.

Bu məqsəd tədris planında təlim üçün nəzərdə tutulmuş fənlərə dair proqram və dərsliklərdə, ümumiyyətlə, metodik sistemdə həyata keçirilə biləcək özünəməxsus təhsil sahələrinin ayrılmasını müəyyən edir.

Bu gün proqram və dərsliklər üzrə təlimin məqsədi kiçik yaşlı məktəblilərin yaş xüsusiyyətləri və imkanlarına lazımınca yönəldilmir. Bunun nəticəsidir ki, çox vaxt ayrı-ayrı fənlər üzrə qazandıqları bilik, bacarıq və vərdişlər tədris fəaliyyətinin formalaşmasına gətirib çıxarır.

İndiki mərhələdə təhsilin qarşısında qoyulmuş vəzifələrin müəllimlər tərəfindən düzgün başa düşülməsi, təlim-tərbiyəsi, inkişafı üzrə işin daha məzmunlu, intensiv təşkilinə təsir göstərə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Məktəblərinin Təhsil Standartları. Bakı, 2000, s. 529.
2. Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurrikulumu (layihə) «Təhsil problemləri» qəzeti, 11-20 fevral. 2006.

Haqverdiyeva Jalə Məqsəd qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. Ş.M.Azadəliyeva

MƏKTƏB SİSTEMİNİN YENİDƏN QURULMASI

Xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulması, xalq maarifi sistemində əsaslı dəyişikliklər aparmaq zəruriyyətini də dövrün vacib tələbi kimi irəli sürürdü. O zamankı xalq maarifi sistemi, o cümlədən ümumi təhsil məktəbləri sistemi, dövrün sürətlə inkişaf etməkdə olan xalq təsərrüfatı üçün yüksək templə kadrlar hazırlamaq vəzifəsini həll etməyə uyğun deyildi.

Xalq maarifi sistemini və o cümlədən məktəblər sistemini yenidən qurmaq, dövrün ən vacib məsələləri kimi, ciddi bir sürətdə müzakirə edilməyə başlamışdı. Bu məsələ münasibətilə redaksiya məqaləsində «Bakinskiy raboçiy» qəzeti məsələnin əhəmiyyətindən bəhs edərək

yazırdı ki, xalq maarif sahəsində «biz çox iş görmüşük, lakin irəlidə daha çox işlər görmək lazımdır».

1930-cu ilin aprel ayında keçirilmiş «Xalq maarifi üzrə ikinci Ümum ittifaq partiya müşavirəsinin» qərarlarına əsasən aparıldı. Lakin bu müşavirədən əvvəl, məsələ bir çox yerlərdə, o cümlədən də Zaqafqaziya respublikalarında ətraflı bir sürətdə müzakirə edilib müəyyən təkliflər irəli sürülürdü.

İkinci dərəcəli məktəblər həqiqətən dövrün tələblərini ödəyə bilmirdi, məhz ona görə də bu məktəblərin vəziyyət və müqəddəratları təkcə pedaqoji ictimaiyyəti deyil, geniş zəhmətkeş kütlələrinin də diqqətini özünə cəlb edirdi.

Hələ 1927-ci ildə Azərb. KP VIII qurultayı ikinci dərəcəli məktəblərin şagirdləri əməlli olaraq həyata hazırlamadıqlarını kəskin bir sürətdə tənqid edərək, göstərirdi ki, bu məktəblərə qəzaların iqtisadi və mədəni məişət tələblərindən aslı olaraq təmayüllər verilsin. İkinci dərəcəli məktəblərin yenidən qurulması o illərdə o qədər aktual bir məsələ hesab olunurdu ki, həm müəllimlərin konfranslarında, həm də fəhlə rayonlarının yerli partiya təşkilatlarının yığıncaqlarında müzakirə olunurdu. Məsələn, Bakı şəhəri Suraxanı rayonunun partiya, 1928-ci ilin əvvəllərində böyük bir diqqətlə ikinci dərəcəli məktəblərin vəziyyətini müzakirə edib öz qərarlarında xalq maarifi orqanlarından bu məktəbləri elə yenidən qurmaq tələb edirdilər ki, təlimlə birlikdə şagirdlərə minumum əmək vərdişləri də verilsin.

Çox müzakirədən sonra xalq maarifi orqanları 1927-28-ci tədris ilindən etibarən ikinci dərəcəli məktəblərə müəyyən ixtisas təmayülü vermək işinə əməli olaraq başlamışdı.

İbtidai məktəblərdə təhsil müddətinin beşillik olması fikrini həmişə müdafiə edən Mustafa Quliyev yuxarıda göstərilən məqaləsində bu məsələyə toxunaraq, yazırdı: Hazırki birinci dərəcəli məktəblərin vəziyyətini göz qabağına gətirdikcə görürük ki, məktəblərdən bir çoxunun xüsusi və əlverişli binası yoxdur, bu məktəblərdə dərs deyən müəllimlərdən ləyaqətlilərinin sayı ancaq 50 faiz ola bilər: məktəbin maddi bazası hələ də zəifdir. Ona görə də biz bunların hamısını nəzərə və hesaba aldıqda belə vəziyyətdə olan məktəblərdən çox şey uma bilmərik və onlara çox tələbat da verə bilmərik». Bütün bu dəlillərə əsasən M.Quliyev birinci dərəcəli məktəblərin beşillik təhsil müddətini saxlamağı məqsədə müvafiq hesab edirdi. O, həm də deyirdi ki, beşillik olmasına baxmayaraq məktəblərimiz «Quş» proqramının öhdəsindən gələ bilmir, ona görə də… savad məktəbi şəklini alır.

Əsas məsələ onda idi ki, RSFSR-dən fərqli olaraq Azərbaycanda həm ikinci dərəcəli, həm də yeddillik məktəblərin şəbəkəsi genişlənməmişdi, xüsusən kənd yerlərində ümumi təhsil məktəbi, əsasən məktəblərdən ibarət idi. Məhz ona görədə o dövrdə birinci dərəcəli məktəblər bir mədəni zəruriyyət kimi beşillikdə saxlanılırdı.

Ümumi təhsil məktəb tiplərinə gəlincə, müşavirə texnikum və fabrik-zavod məktəblərinə hazırlıqlı şagird heyyəti vermək, həmçinin bilavasitə istehsalata gedən yeniyetmələrə ümumi təhsil və politexnik hazırlıq vermək üçün yeddillik məktəbləri daha əlverişli hesab etdi və bunların ümumi təhsil məktəbləri sistemində əsas halqa olmasını qərara aldı.

Yeddillik məktəblərin şəbəkəsi Azərbaycanda genişlənməyə başladı və bu məktəblər şəhər yerlərində və fabrik-zavod rayonlarında «Fabrik-zavod yeddillik məktəbləri», kənd yerlərində isə «Kolxozçu-gənclər məktəbi» adlandı. 1927-1930-cu illərdə kəndli-gənclər məktəbləri, xüsusən kolxoz quruluşunun inkişafı ilə əlaqədar olaraq, kənd yerlərində çox məşhurlaşmışdı. Lakin partiya müşavirəsindən sonra kənd təsərrüfatı təmayüllü kənd yeddillik məktəblərinin sürətlə çoxalması kəndli – gənclər məktəblərinin əhəmiyyətini azaltdı, ona görə də kəndli – gənclər məktəbləri də yeddillik məktəblərə çevrildi.

II dərəcəli məktəblərə gəlincə, partiya müşavirəsinin qərarlarına əsasən, bunların təmayül verilmiş son konsertləri, orta ixtisaslı kadırlar hazırlığını sürətləndirmək məqsədilə,

müxtəlif texnikumlara çevrildi. Milli məktəblərdə ən azı iki dil öyrədildiyini nəzərə alaraq, ikinci partiya müşavirəsi bəzi milli respublikalarda, o cümlədən Azərbaycanda məktəblərin beşillik təhsil həcmində saxlamasını lazım bildi.

Birinci partiya müşavirəsini qərarlarında olduğu kimi, burada da yeddiillik məktəblər əsas ümumi təhsil məktəbi tipi elan edilməklə ixtisaslaşma yaşı, mahiyyət etibarilə yenə də 17-dən 15-ə endirildi.

Həqiqətən, ikinci dərəcəli məktəblər həyatdan ayrı düşdükləri və köhnə məktəblərin bu mənfi sifətlərini ifadə etdiklərindən, maarif sistemlərində özlərini doğrulda bilmirdilər. Buna görə o dövrdə onların texnikumlara çevrilməsi, həm də kadırlar hazırlığını sürətləndirmək üçün faydalı tədbir idi. Lakin politexnik orta təhsil verən məktəblərin olmamasını məqsədə müvafiq saymağa əsas yox idi.

Partiya müşavirəsi belə hesab edirdi ki, yeddillik politexnik məktəb üzərində qurulan texnikumlar və fabrik-zavod şagird məktəbləri orta ümumi və politexnik təhsil, ali məktəblər üçün tələbə heyəti hazırlamaq kimi vəzifələri də yerinə yetirəcəkdir.

Ədəbiyyat

1. Əhmədov Ə. Azərbaycanda orta pedaqoji təhlilin inkişaf tarixindən (1920-30-cu illər). V.İ.Lenin adına APİ-nin elmi əsərləri, 1964, №4

2. Hüseynov M. Azərbaycanda Sovet məktəbi və pedaqoji elmin inkişafı (1920-40-cı illər), «Azərbaycan məktəbi», 1987, №7

3. Mehdizadə M. Azərbaycanda Sovet məktəbləri tarixinə dair xülasələr. Bakı: Azərnəşr, 1959, 328 s.

Haqverdiyeva Jalə Məqsəd qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: dos. Ş.M.Azadəliyeva

MÜƏLLİM KADRLARININ İNKİŞAFI

Respublikada ümumi icbari təhsilin tətbiqilə əlaqədar olaraq məktəblərin müəllimlərlə təmin edilməsi çox çətinləşirdi. Yeni müəllimlər heyəti hazırlamaq və mövcud müəllim kadırlarının siyasi və pedaqoji hazırlığını təkmişləşdirmək getdikcə daha ciddi bir tələb kimi qarşıda dururdu.

Azərb. KP VIII qurultayı öz qətnaməsində yazırdı ki, ümumi təhsilin tətbiqi XMK qarşısında, bir tərəfdən yeni pedtexnikumlar açıb oraya, əsas etibarilə, fəhlə, muzdur və yoxsul kəndli hazırlamaq, ikinci tərəfdən, müəllimlərin, xüsusən kənd müəllimlərinin hazırlıqlarını yüksəltmək yolu ilə onların təhsilini başa çatdırmaq vəzifələrini qoyur. Ümumi təhsilə keçmək üçün qanun verən Azərbaycan MİK-nin üçüncü sesyası ilə birinci dərəcəli məktəblər üçün müəllim hazırlığı məsələlərinə diqqəti gücləndirməyi tələb edirdi.

O illərdə pedaqoji texnikumların məzunları getdikcə çoxalırdı. Pedaqoji təmayül verilən ikinci dərəcəli məktəblərində bir çox məzunları müəllimliyə göndərilirdi. Lakin bütün bunlar genişlənməkdə olan məktəb şəbəkəsinin müəllimlə təmin etmənin öhdəsindən gələ bilmirdi. Məhz ona görə də XMK – çıxış yolu olmaq üzrə, qısa müddətli pedaqoji kurslar vasitəsilə orta məktəb məzunlarınıdan məktəb müəllimləri hazırlamaq yolunda istifadə edirdi.

Müəllim kadrları hazırlığını sürətləndirmək, həmçinin mövcud müəllimlər heyətinin hazırlığını yaxşılaşdırmaq məqsədilə bir sıra mühüm dövlət tədbirləri qəbul olundu. Məsələn, müəllimlərin ixtisasını yüksəltmək məqsədilə 1926-27-ci dərs ilində qiyabi pedaqoji texnikum, 1928-29-cu dərs ilində xalq maarif işçilərinin ixtisasını yüksəltmək üçün xüsusi təşkil edildi (22, s.179).

Azərbaycan Sovet hakimiyyətinin ilk günlərindən məktəblərdə orta pedaqoji təhsilli müəllimlər son dərəcə az idi. Sovet hakimiyyətinin gördüyü tədbirlər nəticəsində qısa bir müddət ərzində müəllim seminariyalarından və pedaqoji institutlardan çoxlu kadırlar buraxıldı. Onların hesabına orta və ali təhsilli müəllimlərin ümumi sayı 1927-ci ildə bütün müəllimlərin 43,6 faizini təşkil etdi, 1925-26-cı dərs ilində respublikada 1998 nəfəri əhatə edən 16 müəllim seminariyası var idi.

1926-27-ci dərs ilindən etibarən Bakı, Nuxa, Kirovabad şəhərlərində olan oğlan və qız pedaqoji məktəbləri birləşdirildi. Əvvəllər yalnız qızlara məxsus olan Zaqatala pedaqoji məktəbinə isə qızlarla yanaşı, oğlanlar da qəbul edildi.

Kommunist partiyası və Sovet hökumətinin gördüyü bütün tədbirlərin nəticəsində pedaqoji məktəblər 1930-cu ilə kimi (yəni 10 il ərzində) respublika üçün 2419 nəfər orta pedaqoji təhsilli müəllim hazırlamışdı. Bu müəllimlərin 362 nəfəri azərbaycanılı idi. Azərbaycanda müəllim seminariyaları təşkil edildikdən sonra Xalq Maarif Komissarlığı tərəfindən tədris planları tərtib edildi. İlk dəfə tədris planı fənn əsasında olmaqla 1921-ci ilin may ayından sonra isə təkmilləşdirərək həmin ilin oktyabrında təsdiq edilir (29, s.13-14).

Kommunist partiyası və Sovet hökumətinin gündəlik qayğısı sayəsində respublika müəllimlərinin ideyasiyası hazırlığı xeyli yaxşılaşırdı. Müəllimlər öz pedaqoji və ictimai vəzifələrini şərəflə yerinə yetirməyə çalışırdılar.

Mübaliğəsiz demək olar ki, bütün kənd və şəhər müəllimləri zəhmətkeşlər arasında ictimai işlərə cəlb olunmuşdular. Məsələn, Nuxo qəzasında yazırdılar ki, «Kənd müəllimlərimiz kəndlərdə olan bölmələrin rəhbərlik vəzifəsini daşımaqla kooperativ, gənclər, firqə və digər təşkilatlarda bütün varlıqları ilə işləyirlər. Şəhər müəllimləri isə şəhərdə olan təşkilatlarda iştirak etməklə bərabər maarif və mədəniyyət evində olan dərnəklərdə müntəzəm iştirak edirlər». Göyçay qəzasından müəllimlərin hamısının ictimai işlərə cəlb olunduğunu yazırdılar: Onlardan 84 nəfəri kənd soveti üzvlüyündə, 120 nəfəri kəndli komitəsində, 25 nəfəri kooperasiya idarələrində və s. işləyirdilər.

Doğrudur, müəllimlərin arasında özünü ictimai iş sahəsində passiv göstərənlər də var idi, lakin müxtəlif materiallardan, həmçinin rəsmi sənədlərdən görünür ki, müəllimlərin əksəriyyəti, sovet hökumətinin siyasətini aktiv iştirak edirdilər.

Xalq təsərrüffatının sosialistcəsinə yenidən qurulması işində, keçmişin məişətdə olan yaramaz qalıqları əleyhinə mübarizədə, möhtəkirlər və qolçomaqlara qarşı, onların məfkursi əleyhinə mübarizədə Azərbaycan müəllimləri ilk səthlərdə gedirdilər.

Kənd müəllimlərinin köhnəlik əleyhinə və yenilik uğrunda apardıqları mübarizə Kommunist partiyasının rəhbərliyi altında həyata keçirilirdi. Hər yerdə qabaqcıl sovet müəllimləri Kommunist partiyasının rəhbərliyi altında, onun göstərişlərinə əsasən hərəkət edirdilər, onun irəli sürdüyü mədəni, siyasi və iqtisadi tədbirlərin yerinə yetirilməsinə canidildən çalışırdılar.

Müəllimlər qurultayında Azərbaycan MİK-nin sədri Qəzənfər Musabəyov, (1886-1937) və Azərbaycan Komissarlar Şurası sədri D.Bünyadzadə məruzə edirdilər. Q.Musabəyov müəllimlərin qarşısında duran vəzifələrdən bəhs edərək, onları Lenin milli siyasətini respublikamızda düzgün həyata keçirmək üçün var qüvvələrilə çalışmağa çağırırdı. Azərbaycan müəllimlərinin II-qurultayı öz qərarında yazırdı ki, «Kəndlərimizin əsaslı surətdə yenidən qurulması uğrunda mübarizə edən qabaqcıl müəllimlərə qarşı sinfi düşmənin azğın hücumları, sıramızdan bəzi qurbanlar verməyə bizi məcbur edən düşməncəsinə çıxışları, sosyalizm cəmiyyəti uğrunda inadla aparılan qəti mübarizədə müəllimləri dayandıra bilməyəcəkdir. Müəllimlərimiz, mövhumat əleyhinə, qadınların azadlığı, yoxsullar təşkilatı, kəndin kollektivləşdirilməsi uğrunda mübarizəni daha çox genişləndirəcəklər».

Ədəbiyyat

1. «Azərbaycanda xalq maarifi» (1920-27), Azərbaycan SSRİ XMK nəşriyyatı, Bakı, 1928.
2. Mehdizadə M. Azərbaycanda Sovet məktəbləri tarixinə dair xülasələr. Bakı: Azərnəşr, 1959, 328 s.
3. Tağıyev Ə.S. Azərbaycanda orta pedaqoji təhsilin inkişaf tarixindən (1920-1930-cu illər). V.İ.Lenin adına APİ-nin elmi əsərləri, 1964, №4.

Murquzova (Nadirova) Təhminə Kamis qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: dosent Heydər Cəfərov

TƏHSİL SİSTEMİNİN İDARƏ EDİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

Açar sözlər: *təhsil sistemi, idarəetmə, prinsiplər, üsullar, formalar*
Ключевые слова: *система образования, менеджмент, принципы, методы, формы*
Key words: *education system, management, principles, methods, forms*

Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində təhsil sisteminin əhatə imkanları genişləndirilmiş, təhsili idarəetmənin dövlət-ictimai prinsipləri əsasında həyata keçirilməsi təmin edilmiş və təhsil sisteminin yeni iqtisadi modeliqurulmuşdur.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (bundan sonra – Strategiya) Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqə tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur.

Strategiyanın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyətli nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanaqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Strategiyanın realaşdırılması təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olması, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

Təhsil sisteminin idarə olunması, bir tərəfdən insanlar arasındakı münasibətlərin tənzimlənməsi, təhsil alması, yəni təhsilə olan ehtiyaclarının ödənilməsi, digər tərəfdən isə müxtəlif təhsil sistemləri daxilində məqsədyönlü təhsil prosesinin təşkili kimi izah edilir.

Təhsil sisteminin idarə olunması bir sıra prinsiplərə əməl edilməsinə əsaslanır. İdarəetmə prinsipləri idarəetmə funksiyalarının həyata keçirilməsi üçün başlıca ideyalardır.Bir təhsil müəssisəsini idarə etməyin aparıcı prinsiplərinə aşağıdakılar daxildir:

1) idarəetmənin demokratikləşməsi və humanistləşdirilməsi,
2) idarəetmədə ardıcıllıq və düzgünlük,
3) mərkəzləşdirmənvəmmərkəzsizləşdirməninmrasional əlaqələndirilməsiməsi,
4) vahid idarəetmə ilə kollegiallığın qarşılıqlı əlaqəsi,
5) idarəetmənin elmi etibarlılığı (elmi xarakteri),
6) informasiya təminatının obyektivliyi, tamlığı və qanunauyğunluğu.

İdarəetmənin demokratikləşdirilməsi və humanistləşdirilməsi prinsipi təhsil prosesi iştirakçılarının (məktəb rəhbərliyi, müəllimlər, şagirdlər və valideynlər) təşəbbüslərini inkişaf etdirməyi, onları açıq müzakirələrə və idarəetmə qərarlarının kollektiv hazırlanması işinə cəlb etməyi nəzərdə tutur.

Məktəb həyatının demokratikləşdirilməsi məktəb rəhbərlərinin seçilməsinin təcrübəyə tətbiqi, rəhbər və müəllim heyətinin seçilməsində rəqabətli seçim mexanizmi və müqavilə sisteminin tətbiqi ilə başlayır. Təhsil prosesində iştirak edən hər bir kəc məktəbin işləri və problemlərini bilməklə yanaşı, onların müzakirəsində fəallıq göstərir; məktəb həyatına dair məsələlərdə öz fikirlərini ifadə etdikdə, məktəbin idarəedilməsində aşkarlığa və müyəssərliyə əsaslanır. Məktəbin idarə olunmasının demokratikləşdirilməsi rəhbərliyin, məktəb şurasının ümumi məktəb kollektivinə və ictimaiyyətə müntəzəm hesabatları, qərarların şəffaflığı yolu ilə həyata keçirilir.

Cəmiyyətimizin inkişafının yeni mərhələsində, xüssilə son illərdə təhsilin idarə olunması subyekt-obyekt münasibətlərindən subyekt-subyekt münasibətlərinə, vahid idarəçilikdən kollektiv idarəyə keçmişdir.

Pedaqoji sistemlərin idarəolunmasında ardıcıllıq və bütövlük pedaqoji prosesin sistematik təbiəti ilə müəyyənləşdirilir və onun səmərəli idarə olunması üçün münbit şərait yaradır. Pedaqoji sistemlərin idarə olunmasına sistematik yanaşma bir təhsil müəssisəsinin rəhbərini və idarəetmə fəaliyyətinin digər iştirakçılarını sistemdə, qarşılıqlı təsir göstərən bütün komponentlərin və alt sistemlərin birliyi və bütövlüyü zəminində həyata keçirməyə təşviq edir. Bu prinsipin əldə rəhbər tutulması idarəetmə fəaliyyətlərinə ardıcıllıq, ahəngdarlıq və son nəticədə səmərəlililiyə nail olunmasına kömək edir.

Məktəbin ayrılmaz bir sistem kimi üç komponentdən, başqa sözlə məqsədləri bir olan üç komandadan - müəllimlər, şagirdlər və valideynlərdən ibarət olur. Sistemin səmərəliliyi nail olunan ümumi obyektiv nəticə ilə qiymətləndirilir. Beləliklə, sisteminbütövlüyünün səviyyəsi onun məqsədyönlülüyü, komponentlərin tamlığı, ayrı-ayrılıqda hər bir komponentin keyfiyyəti və həm komponentlər arasında, həm də onların hər biri ilə bütövlük arasındakı əlaqələrin sıxlığı ilə şərtlənir.

İdarəetmə fəaliyyətinin həddindən artıq mərkəzləşdirilməsi istər-istəməz idarəetmənin güclənməsinə gətirib çıxarır, bu halda başqasının idarəetmə iradəsinin sadə icraçılarına çevrilən nəzarət alt sistemlərinin (aşağı səviyyəli menecerlər, müəllimlər və tələbələr) təşəbbüsünü məhdudlaşdırır. Həddindən artıq mərkəzləşmə şəraitində çox vaxt idarəetmə funksiyaları təkrarlanır ki, bu da vaxt, maliyyə və digər mənbələrin itkisinə səbəb olur, məktəb rəhbərlərindən şagirdlərə qədər təhsil prosesinin bütün iştirakçılarını həddindən artıq yükləyir.

Digər tərəfdən, idarəetmə mərkəzsizləşdirilməsi, bir sıra funksiyaların və səlahiyyətlərin icrası mülayim olmadığı zaman, ən yüksək idarəetmə orqanlarından aşağılara keçməsi kimi başa düşülür. Bu, aşağıdakı neqativ hallarda ifadə olunur: idarəetmə alt sisteminin (rəhbər və bütövlükdə rəhbərliyin) rolunun azalması, idarəetmə orqanları tərəfindən aparılan analitik və nəzarət funksiyalarının tamamilə və ya qismən itirilməsi. Mərkəzdən kənarlaşma həddindən artıq həvəs kollektivin fəaliyyətində ciddi problemlərə, şəxsiyyətlərarası və səviyyələrarası qarşıdurmaların və anlaşılmazlıqların yaranmasına, bir təhsil müəssisəsinin inzibati və ictimai idarəetmə orqanları arasında əsassız qarşıdurmaya səbəb olur.

Ədəbiyyat

1. Təhsil strategiyası.....2013
2. Təhsil Qanunu....2009
3. Xüsusi ədəbiyyat...
4. Шамова Т.И., Давыденко Т.М., Шибанова Г.Н. Управление образовательными системами. 2002.

РЕЗЮМЕ

В статье подчеркивается важность основных принципов управления системой образования. Была подчеркнута важность стратегий знаний и закона обобразовании в управлении системами образования. В тоже время они были о характеризованы как совершенствование управления учебными заведениями.

SUMMARY

The article highlights the importance of basic principles of governance of the education system. The importance of knowing strategies and the Education Act in managing education systems hasbeenemphasized. At the sametime, the yhavebeendescribed as improving the management of education alinstitutions.

Murquzova (Nadirova) Təhminə Kamis qızı
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: dosent Heydər Cəfərov

TƏHSİL SİSTEMİNİ İDARƏETMƏ FORMALARI

Açar sözlər: *təhsil sistemi, idarəetmə, formalar*
Ключевые слова: *система образования, понятие, менеджмент, формы*
Key words: *education system, concept, management, forms*

Dünyadakı iqtisadi vəziyyət, sənaye cəmiyyətindən postindustrial cəmiyyətə tədricən keçid ilə səciyyələnir. Belə bir modeldə məlumat və biliyə önəm verilir. İstehsal amilləri arasında ən dəyərlisi əmək ehtiyatlarının bilik və peşəkarlığın vəhdəti olan insan kapitalıdır. Kadr hazırlığı, kadr seçimi, insan resurslarının idarə olunması sahibkarın qarşısında duran başlıca vəzifələrə çevrilir. Kadrlar və işçilərlə daxili iqtisadi ehtiyacların təminatı təhsil sistemi vasitəsilə həyata keçirilir.

Təhsilin idarə edilməsinin nəzəri məsələləri ilə məşğul olan sahə – təhsil menecmenti pedaqogikanın əsas sahələrindən biridir. Onun obyektinə – tədqiq və tətbiq etdiyi məsələlər sırasına, təhsilin təşkili məsələlərini öyrənmək, təhsil sisteminin, məktəbi idarə etməkdə rəhbər orqanların, yerli təşkilatların və əlaqədar şəxslərin – direktorun, onun müavinlərinin, müəllimlərin və s. işi; məktəbi idarə etmənin və ona rəhbərliyin elmi əsasları, forma və metodları və s. daxildir. [1,75]

Ölkənin təhsil sisteminin obyektləri təlim prosesini həyata keçirən müəssisələrdir. Obyektlərin miqdarı cəmiyyətin mövcud ehtiyacından asılı olaraq dövlət orqanları tərəfindən tənzimlənir. Təhsil sisteminin quruluşu standartlar və iş proseslərinin tənzimlənməsi ilə dəstəklənir. Təhsil müəssisələrinin əksəriyyəti açıq sistemə aiddir. Bu müəssisələrdə kadr və şagird mübadiləsi aparılır. Belə obyektlər büdcənin müxtəlif səviyyələri hesabına maliyyələşdirilir.

Təhsil sistemini idarəetmə üsulları. Təhsil sahəsində idarəetmə və liderlik metodları mövcuddur. Birincilər bütövlükdə təhsil sisteminin işini təşkil edir, yaxud ayrı-ayrı alt sistemlərin fəaliyyətinin təşkili ilə məşğul olur. İdarəetmə üsulları peşə fəaliyyətinin həyata keçirilməsi prosesində insanlar arasındakı münasibətləri tənzimləyir. İctimai-psixoloji mühiti təşkil edən üsullar təhsil sistemində idarəetmənin əsas metodları hesab edilir. Bu, informasiyanın bolluğundan irəli gəlir və kütləvi proseslərin optimallaşdırılmasına yönəldilir.

İqtisadi idarəetmə üsulları rəğbətləndirmə və cərimələr sistemi vasitəsilə həyata keçirilir. Bunlar işçilərin həvəsləndirilməsi hesabına prosesləri stimullaşdırmağa yönəldilmişdir. İdarəetmənin inzibati üsulları güc motivasiyasına, tabeçiliyə əsaslanır. Bunlar fərdin, komandanın və ya bir qrup insanın maraqlarını qoruyur.

Pedaqoji metod təhsil sistemlərinin özünəməxsus idarəetmə metodudur və bu təhsil müəssisələrinin rəhbərləri tərəfindən geniş istifadə olunur, pedaqoji üsul həmçinin liderin inkişafına və formalaşdırılmasına kömək edir.

Müəllim heyətinin pedaqoji idarəetməsi şagirdlərdə müəyyən ictimai və psixoloji xüsusiyyətlərin inkişafına, eyni zamanda onların mülahizələrinin müstəqilliyinə, şüurlu dərketməyə, işbirliyinə və özünü ifadə etməsinə yönəldilməlidir.

Qarşıda duran əsas vəzifənin həyata keçirilməsinə məqsədyönlü münasibət tələb edir ki, təhsil müəssisəsinin idarə olunmasında ən başlıca vəzifənin həyata keçirilməsi üçün müəssisənin imkanları təhlil edilsin. Məktəb rəhbərliyinin idarəetmə qabiliyyəti, bacarığı, təcrübəsi, idarəetmənin xüsusiyyəti, strukturu və funksiyaları məktəbin qarşısına qoyulmuş başlıca vəzifənin həyata keçirilməsinə hazırlıq səviyyəsi müəyyənləşdirilsin. [1,83]

Təhsil müəssisəsinin fəaliyyəti təhsil sisteminin müxtəlif idarəetmə formalarını tələb edir. İdarəetmə formalarına subyektlər və obyektlər arasındakı qarşılıqlı əlaqənin təşkili, şəxsiyyətlərarası ünsiyyətin həyata keçirilməsində yardım daxildir. Yəni idarəetmə forması qarşılıqlı əlaqənin baş verdiyi təşkilati çərçivəni müəyyənləşdirir. Təhsil sistemində əsas idarəetmə forması müəllim və şagirdlərin birgə fəaliyyətinə şamil edilir. Bura aşağıdakılar daxildir:

1. birgə fəaliyyət və tələbələrin qarşılıqlı ünsiyyəti;
2. uşaqlar arasındakı münasibətlərin tənzimlənməsi;
3. təlim prosesinin təkmilləşdirilməsi;
4. tələbələrin fəaliyyətinin motivasiya və emosional-davranış komponentlərinin qorunması.

Birgəfəaliyyət yaradıcılıq, özünüidarəetmə, təhsil sahəsindəki mövcud vəziyyətin təhlili, tələbə qrupları, dərnəklər və bölmələrin təşkili, ənənələrin tətbiqi və ya ictimai rəyin aydınlaşdırılması yolu ilə həyata keçirilə bilər. Təhsil sisteminin özünəməxsusluğu böyüklər və uşaqlar arasındakı qarşılıqlı əlaqəni özündə əks etdirən quruluşdur. Təlim proseslərinin təşkili, strukturun formalaşdırılması, idarəetmə funksiyalarının, forma və metodlarının həyata keçirilməsinə xüsusi yanaşma tələb olunur.

Təhsil müəssisələrində idarəetmə kollegial idarəetmə formaları əsasında həyata keçirilir. Tələbələr və müəllimlər arasında səmərəli qarşılıqlı əlaqəni təmin etmək lazım olduğundan, qurumun bazasında pedaqoji şura yaradılır. Eyni zamanda, bütün quruluşun işini qorumaq, eləcə də praktik həyatda qəbul edilmiş qərarların icrası üçün tamlıq şərtlərini qorumaq vacibdir.

Ədəbiyyat

1. Məmmədzadə R. İdarəetmə mədəniyyəti /R.Məmmədzadə, –Bakı: –1999
2. Орлова Т.В (К). Управление образовательными системами. 2006.
3. Воробьева С.В. Основы управления образовательными системами.

РЕЗЮМЕ

В статье подчеркивается важность управления системами образования. Была подчеркнута важность знания форм управления в управлении системами образования. В то же время было отмечено, что эти формы улучшили качество моего образования.

SUMMARY

The article highlights the importance of governance of educational systems. The importance of knowing the forms of governance in the management of educational systems has been emphasized. At the same time, it has been noted that these forms have improved the quality of my education.

Hüseynova Sevinc
Azərbaycan Dövlət Pedoqoji Universitetinin magistrantı

TƏHSİL SİSTEMİNİN MAHİYYƏTİ, ONUN ELMİ-NƏZƏRİ ƏSASLARI

Açar sözlər: *tədris sistemləri, təhsilin inkişaf istiqamətləri, dinamiklik, psixologiya*
Ключевые слова: *системы обучения, тенденции развития образования, динамика, психология*

Key words: *teaching systems, development trends of education, dynamics, psychology*

Ölkəmizin regionlarında da təhsil sistemi yeni strukturda formalaşır, modern maliyyələşmə və hesabatlılıq tətbiq edilir. Təhsili stabilləşdirmək və dinamikliyini təmin etmək məqsədi ilə yeni dövlət fondları yaradılır, məktəblər pasionallaşdırılır, müasir şəbəkələr proqnozlaşdırılır və təhsildə nəzarətin beynəlxalq təcrübəsindən bəhrənələrək təhsil müəssisələrində özünüaudit metodları tətbiq olunur. Pedaqoji idarəetmədə ictimai xarakterinin güclənməsi mühüm göstəricilərindən biridir.

Bəzi mütəxəsislər təhsildə ictimai xarakterli idarəetmə dedikdə, yalnız qeyri-dövlət tədris müəssisələrini nəzərdə tutur. Bu, əsla belə deyildir. Müxtəlif tip qeyri-dövlət tədris müəssisələrinin, universitetlərin, gimnaziyaların, liseylərin, kolleclərin, ayrı-ayrı fənləri dərindən öyrədən təhsil müəssisələrin maliyyələşmə sistemi və ya metod-üsul baxımından müxtəlifliyi ola bilər. Lakin dövlətin təhsil siyasətindən, «Təhsil Qanunu»ndan kənarda ola bilməz. Dövlət-ictimai xaraktetli idarəetmə ölkədə mövcud olan bütün məktəblərə şamil olunur.

Bu gün təhsilin idarə olunmasında sadaladığımız prinsipləri həyata keçirmək üçün məktəb rəhbərinin özü də daima öyrənməli, yenilikləri işinə gətirməkdən çəkinməməlidir. Müasir dünyanın insanları 7/24 prinsipi ilə öyrənirlər. Təhsil müəssisələri isə başlıca mənbələrdən biridir. Məktəb oxu, riyaziyyat, təbiət, məişət, texnologiya, ümumi İKT və peşəkar biliklər verir. Müəllimlər öyrətmə prosesini şagirdin öyrənmə tələbatlarına uyğunlaşdırırlar. Bir sözlə, məktəb öyrənən icmadır. Burada hamı stiuasiyadan asılı olaraq həm öyrənir, həm də öyrədir.

Təhsildə uğur qaznmanın yeganə vasitəsi pedaqoji idarəetməyə düzgün yanaşmadır. Təhsildə idarəetmə prinsiplərinə əməl olunarsa, məktəbdə istənilən sahəsində nailiyyət əldə etmək olar. Birinci növbədə idarəedənlər yenidən formalaşmalı, innovasiyalara geniş yer verməli, islahatçi olmalıdırlar. Məktəb direktoru intellektli, işgüzar, müasirliyə can atan, təşəbbüskar olmalıdır. Rəhbər qarşısında qoyulan tələblərə çevik idarəetmə metodu ilə yanaşmalıdır. Onun yeni pedaqoji texnologiyalara bacarıqla yiyələnməsi həyati zərurətdir[3, s.62]..

Müasir məktəb direktoru idarəetmənin koordinatoru kimi proqnozlaşdırma, planlaşdırma və təşkiletmə bacarıqlarına malik olmalıdır. İdarəetmədə münasibətlər başlıca rol oynayır. Müasir təhsil sistemlərinin xüsusiyyətləri əlaqələrə tam uyğun gəlməlidir. Pedaqoji idarəetmənin hər bir regionda formalaşdırarkən onun iqtisadi, maliyyə, pedaqoji, metotoloji sahələri üzrə tarazlı inkişaf tələbləri ziddiyyət təşkil etməməlidir[2, s.34].

Məqalənin elmi yeniliyi. Məqalədən yola çıxaraq təsbit etmək mümkündür ki, təhsinin iqtisadi və funksional vəzifəsi iqtisadi artım və sosial inkişafın təmin edilməsidir. Təhsil sferası əhalinin mənəvi tələbatını ödəmək, onun intellektual səviyyəsini yüksəltmək və dünya ölkələri ilə inteqrasiya və iqtisadi maraq əldə etmək vəzifələrini güdür.

Məqalənin praktik əhəmiyyətinin tətbiqi. Məqalədən istifadə edərək informasiya almaq mümkündür ki, təhsilin sosial mənası onun əhalinin, onun sosial qruplarının, bütün insanların marağına yönəldilməsi və ünvanlı məqsədlərə çatmağa xidmət etməsidir. Təhsil sferası sosial-iqtisadi məna kəsb etməklə mənası xüsusi məhsul olan insan inkişafı və onun intellektual səviyyəsini yüksəltməkdən ibarətdir. Təhsilin səviyyəsi, onun formaları və keyfiyyəti iqtisadiyyatın və insanların həyat fəaliyyətinin bütün sahələrinə təsir edir. Əmək prosesinin əsas amili olaraq ixtisaslaşma səviyyəsini, onun məhsuldarlığını və əmək şəraitini formalaşdırır.

Nəticə olaraq belə qənaətə gəlmək olar ki, Təhsilin əsas istiqamətləri və ixtisaslar üzrə formalaşması ölkə iqtisadiyyatının sahə və ərazi quruluşu, resursların maddi əşya və təkrar istehsal strukturunu və demoqrafik proseslər təşkil edir. Təhsil sferasının iqtisadi rolunu onun müəssisə fəaliyyətində, məşğulluqda əsas rolu və gəlir gətirmək qabiliyyəti təşkil edir. Təhsilin fəlsəfəsi innovasiyalı iqtisadiyyat, inkişaf etmiş kadrlar yetişdirməkdən ibarətdir.Təhsil və iqtisadiyyat birbaşa, dolayı və ünvanlı idarəetmə mexanizmləri ilə əlaqələndirilir.

Ədəbiyyat

1. https://unec.edu.az/keyfiyyet-azerbaycan-tehsilinin-prioritetidir/
2. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri, Bakı,2017, səh.385
3. Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı İstiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. – 170 s.
4. https://aztehsil.com/news/4387-masir-thsil-sistemlrinin-xsusiyytlri.html

Təhsil sisteminin mahiyyəti, onun elmi-nəzəri əsasları

Məqalədə qeyd edilir ki, təhsilin konseptual əsasına dövlət vəsaitləri, əhali artımı, iqtisadi potensial və ondan istifadə texnologiyaları, həmçinin xarici əlaqələrin səmərəli təşkili metodları daxildir. Təhsilin iqtisadi əsasını ümumdaxili məhsul, dövlət büdcəsi, xüsusi vəsaitlər təşkil edir. Təhsildə mülkiyyət formaları iqtisadi obyektlər kimi dövlət, xüsusi və bələdiyyə mülkiyyətinə əsaslanır. Onun maliyyə əsasını dövlət büdcəsi və əhalinin xüsusi vəsaitləri təşkil edir. Təhsilin inkişaf dinamikası ayrılan vəsaitlərin hesabına çəkilən xərclərlə mütənasibdir. Azərbaycanda təhsil təhsil xərclərinin 70-80 faizinin maliyyələşdirilməsi dövlət büdcəsi hesabına baş verir. Dövlət büdcəsi və təhsil xərcləri arasında dinamika mövcuddur. Təhsilin rəqabət qabiliyyətli keyfiyyətli kadra olan tələbatı ödəməkdir. Təhsilin investisiya obyekti kimi əsas məqsədi dövlət marağı, əhalinin marağı və innovasiyalı iqtisadiyyat marağıdır.

Гусейнова Севиндж

Сущность системы образования, ее научно-теоретические основы

РЕЗЮМЕ

В концептуальную основу образования входят государственные средства, рост населения, экономический потенциал и технологии его использования, а также методы эффективной организации внешних связей. Экономическая основа образования - валовой внутренний продукт, государственный бюджет, специальные фонды. Формы собственности в образовании основаны на государственной, частной и муниципальной собственности как хозяйственных объектах. Его финансовая основа - государственный бюджет и специальные фонды населения. Динамика развития образования пропорциональна понесенным затратам. 70-80 процентов расходов на образование в Азербайджане финансируются из государственного бюджета. Существует динамика между государственным бюджетом и расходами на образование. Это необходимо для удовлетворения спроса на образование конкурентоспособных и качественных кадров. Основная цель образования как объекта инвестирования - это интерес государства, интерес населения и интерес инновационной экономики.

Huseynova Sevinj

The essence of the education system, its scientific and theoretical foundations

SUMMARY

The conceptual basis of education includes public funds, population growth, economic potential and technologies for its use, as well as methods of effective organization of foreign relations. The economic basis of education is the gross domestic product, the state budget, special funds. Forms of ownership in education are based on state, private and municipal property as economic objects. Its financial basis is the state budget and special funds of the population. The dynamics of education development is proportional to the costs incurred. 70-80 percent of education expenses in Azerbaijan are financed from the state budget. There is a dynamic between the state budget and education spending. It is to meet the demand of education for competitive quality staff. The main purpose of education as an object of investment is the interest of the state, the interest of the population and the interest of the innovative economy.

Hüseynova Sevinc
Azərbaycan Dövlət Pedoqoji Universitetinin magistrantı

TƏHSİLİ İDARƏETMƏNİN ÜMUMİ ƏSASLARI

Açar sözlər: *prioritetlik, kolleqa, menecer, idaetmə, tərbiyə, planlılıq, psixologiya*
Ключевые слова: *приоритет, коллега, менеджер, менеджмент, образование, планирование, психология*
Key words: *priority, colleague, manager, management, education, planning, psychology*

Təhsil Nazirliyi, şəhər, rayon təhsil şöbələri idarəetmə sisteminin subyektləri kimi çıxış edirlər. Mürəkkəb, dinamik sosial sistem olan ümumtəhsil orta məktəbi məktəbdaxili idarəetmənin obyektidir.Məktəbdaxili idarəetmə optimal nəticələr əldə etmək üçün tam pedaqoji prosesin iştirakçılarının məqsədyönlü,şüurlu qarşılıqlı təsiridir.

Tam pedaqoji prosesin iştirakçılarının qarşılıqlı təsiri aşağıdakı ardıcıl, qarşılıqlı əlaqəli fəaliyyətlərdən və ya funksiyalardan yaranır: işin təhlili, işin məqsədi və planlaşdırılması, işin təşkili, ona nəzarət, nizama salma və təshih etmə.

Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır.Menecerin (məktəbi idarə edən) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur.

İdarəetmənin mahiyyətini aşağıdakı prinsiplər tam və hərtərəfli əks etdirir:

1) kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi;
2) idarəetmədə dövlət və ictimai əsasların əlaqələndirilməsi;
3) idarəetmədə elmilik, nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi;
4) idarəetmədə planlılıq;
5) idarəetmədə sistemlilik və komplekslilik;
6) idarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli;
7) idarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi;
8) idarəetmədə demokratikləşdirmə və humanistləşdirmə.

İdarəetmənin prinsipləri idarəetmənin qanunauyğunluqlarının konkret təzahürü və inikasıdır.

Məktəbdaxili idarəetmənin əsas qanunauyğunluqları sırasına mütəxəssislər aşağıdakıları daxil edirlər:

1) idarəetmə sisteminin səmərəliliyinin idarəetmənin subyekti və obyekti arasında struktur-funksional əlaqələrin səviyyəsindən asılılığı;
2) təhsil-tərbiyə işini idarəetmənin məzmun və metodlarının məktəbdə pedaqoji prosesin təşkilinin məzmun və metodlarının xarakterindən asılılığı;
3) idarəetmənin analitik, məqsədəmüvafiq, humanist və demokratik xarakterdə olmasının məktəb rəhbərlərinin müxtəlif növ idarəetmə fəaliyətinə hazırlığından asılılığı.

Müasir təhsil sistemlərinin xüsusiyyətlərindən biri dövlət idarəetmə sistemindən dövlət-ictimai idarəetmə sisteminə keçilməsidir. Təhsilin dövlət-ictimai idarəetməsinin əsas ideyası təhsil problemlərini həll etmək üçün dövlətin və cəmiyyətin səylərini birləşdirmək, tədris prosesinin məzmununu, forma və metodlarını, müxtəlif tip təhsil müəssisələrini seçməkdə müəllimlərə, şagirdlərə, valideynlərə böyük hüquqlar və azadlıqlar vermək təşkil edir.

Təhsil sisteminin dövlət xarakteri o deməkdir ki, ölkədə təhsil sahəsində vahid siyasət həyata keçirilir. Təhsil haqqında qanuna əsasən Azərbaycan Respublikasında təhsil sahəsi prioritet sahə hesab olunur. Prioritetlik o deməkdir ki, ölkənin sosial-iqtisadi, siyasi, mədəni və beynəlxalq sahələrdə uğurları təhsil sistemi ilə əlaqələndirilir.Təhsil sisteminin idarə

olunmasının dövlət xarakteri təhsil sahəsində dövlət siyasətinin prinsiplərində təsbit olunmuşdur [3, s.134].

Məqalənin elmi yeniliyi. Məqalədən yola çıxaraq təsbit etmək mümkündür ki, məktəb pedaqoji sistemdir və elmi idarə etmənin obyektidir. Bu, təhsili təşkil edənlərin, rəhbər şəxslərin,müəllimlərin, şagirdlərin məqsəd-lərini müəyyənləşdirmək və nəticələrə nail olmaq üçün şəraiti yaratmaq, məzmunu seçmək,təhsil-tərbiyə işində müxtəlif vasitələrdən, forma və metodlardan istifadə etmək deməkdir.

Məqalənin praktik əhəmiyyətinin tətbiqi. Məqalədən istifadə edərək informasiya almaq mümkündür ki, pedaqoji sistemdə müəllimlərlə şagirdlərin birgə fəaliyyəti mühüm amildir. Məktəbin məqsədi şəxsiyyətin mədəni inkişafının əsasını formalaşdırmaqdır. Bu əsas intellektual, əxlaqi, estetik, əmək, ekoloji, hüquqi və şəxsiyyətin digər mədəni aspektlərini birləşdirir. Ümumi məqsəd təhsil-tərbiyə işinin ayrı-ayrı istiqamətləri üzrə məqsədlərdə konkretləşdirilir.

Nəticə olaraq belə qənaətə gəlmək olar ki, dövlət idarəetmə orqanı olan Təhsil Nazirliyi öz hüquqları və səlahiyyətləri daxilində təhsil sahəsində standartları işləyib hazırlayır, təhsil müəssisələrini akkreditasiyadan (qeydiyyatdan), pedaqoiji kadrların attestasiyadan keçirir, ölkədə və konkret regionda təhsil sistemini formalaşdırır, peşələrin və ixtisasların siyahısını, təhsil müəssisələrini maliyyələşdirir. Təhsil sistemini stabilləşdirmək və inkişaf etdirmək üçün dövlət fondları yaradır, təhsil müəssisələrinin şəbəkəsini proqnozlaşdırır, təhsil sahəsində Azərbaycan Respublikasının qanunvericiliyinin icra olunmasına nəzarət edir və s. Təhsili idarəetmənin ictimai xarakterinin güclənməsinin mühüm göstəricilərindən biri təhsil sisteminin dövlətsizləşdirilməsi və təhsil müəssisələrinin diversifikasiyasıdır.

Ədəbiyyat

1. https://aztehsil.com/news/4387-masir-thsil-sistemlrinin-xsusiyytlri.html
2. https://unec.edu.az/keyfiyyet-azerbaycan-tehsilinin-prioritetidir/
3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri, Bakı,2017, səh.385
4. Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı İstiqamətlərdən biri kimi. Bakı: “Müəllim”, 2010.

Təhsili idarəetmənin ümumi əsasları

XÜLASƏ

Məqalədə qeyd edilir ki, müasir təhsil sistemlərinin xüsusiyyətlərindən biri dövlət idarəetmə sistemindən dövlət-ictimai idarəetmə sisteminə keçilməsidir. Təhsilin dövlət-ictimai idarəetməsinin əsas ideyası təhsil problemlərini həll etmək üçün dövlətin və cəmiyyətin səylərini birləşdirmək, tədris prosesinin məzmununu, forma və metodlarını, müxtəlif tip təhsil müəssisələrini seçməkdə müəllimlərə, şagirdlərə, valideynlərə böyük hüquqlar və azadlıqlar vermək təşkil edir.

Təhsil sisteminin dövlət xarakteri o deməkdir ki, ölkədə təhsil sahəsində vahid siyasət həyata keçirilir. Təhsil haqqında qanuna əsasən Azərbaycan Respublikasında təhsil sahəsi prioritet sahə hesab olunur. Prioritetlik o deməkdir ki, ölkənin sosial-iqtisadi, siyasi, mədəni və beynəlxalq sahələrdə uğurları təhsil sistemi ilə əlaqələndirilir.

Гусейнова Севиндж

Общие принципы управления образованием

РЕЗЮМЕ

Одна из особенностей современных систем образования - переход от государственного управления к государственному управлению. Основная идея государственного и общественного управления образованием - объединить усилия государства и общества для решения образовательных задач, предоставить учителям, учащимся и родителям большие права и свободы в выборе содержания, формы и методов образовательного процесса. Государственный характер системы образования означает, что страна

проводит единую политику в области образования. Согласно Закону об образовании, образование является приоритетом в Азербайджанской Республике. Приоритет означает, что социально-экономическая, политическая, культурная а международный успех связан с системой образования.

Huseynova Sevinj

General principles of education management

SUMMARY

One of the features of modern education systems is the transition from public administration to public administration. The main idea of state and public management of education is to unite the efforts of the state and society to solve educational problems, to give teachers, students and parents great rights and freedoms in choosing the content, form and methods of the educational process.

The state nature of the education system means that the country pursues a unified policy in the field of education. According to the Law on Education, education is a priority in the Republic of Azerbaijan. Priority means that the country's socio-economic, political, cultural and international success is linked to the education system.

Babazadə Nisə

TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ PEDAQOJİ KOLLEKTİVİN ROLU

Açar sözlər: *təhsilin keyfiyyəti, təhsilin idarə edilməsi, pedaqoji kollektiv*

Ключевые слова: *качество образования, управление образованием, педагогические кадры*

Key words: *quality of education, education management, pedagogical staff*

GİRİŞ

Təhsilin keyfiyyəti məsələsi təhsil müəssisəsinin fəaliyyətini xarakterizə edən müxtəlif aspektlərlə müəyyən edilir. Bu aspektlərə təhsilin məzmunu, təlim və tədrisin formaları, metodları, rəhbərliyin və pedaqoji kollektivin fəaliyyəti, müəssisədəki maddi-texniki bazanın vəziyyəti və sairə daxildir.

Müasir təhsilin innovasiya mühitində idarə edilməsində, tədris müəssisəsinin keyfiyyətinin yüksəldilməsində pedaqoji kollektivin effektli fəaliyyəti aktual məsələlərdən biridir.

ƏSAS HİSSƏ

"Təhsil inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrdə dəyişimin əsas ünsürüdür. Cəmiyyətin dəyişməsində və inkişaf etməsində xüsusi rol oynayır. Bununla bağlı olaraq təhsilin idarə olunması da dövlətin idarə olunmasında önəmli yer tutur. Təhsil insan resurslarının inkişafına yönələrək sosial, iqtisadi və mədəni inkişaf yaratmağa çalışır. O, həm mövcud mədəniyyəti müdafiə etməli, həm də arzu olunan sosial dəyişiklikləri reallaşdıra bilməlidir" [1, s.11]

"Təhsil müəssisəsinin inkişaf rejimində fəaliyyətin və keyfiyyətin idarə olunması məktəb rəhbərliyinin, təlim-tərbiyə prosesinin iştirakçılarının planlaşdırdıqları nəticəyə çatmaqda kömək edir. İdarəetmənin, eləcə də məktəbin bütövlükdə fəaliyyətinin keyfiyyəti və səmərəliliyi məktəb rəhbərləri arasında funksiya və vəzifə öhdəliklərinin nə dərəcədə real, konkret və məqsədəuyğun paylanmasından asılıdır. Planlaşdırma təlim prosesinin səmərəliliyinin artırılması vasitəsi kimi çıxış etməklə, həm də təhsil müəssisəsinin idarə olunmasının keyfiyyət göstəricilərindən biridir. Təhsilin keyfiyyətinin planlaşdırılması məktəbin keyfiyyətinin ümumi planlaşdırılmasının tərkib hissəsidir. Bu gün məktəbin fəaliyyətinin planlaşdırılma-

sında perspektiv məsələlər, həmin məsələlərin arzu olunan nəticələri öz əksini tapmalıdır. Həmin planlarda tədbirlərin uzlaşdırılmasına diqqət verilməli, yaradıcılıq, təşəbbüskarlıq ön plana gətirilməlidir" [5].

Ölkəmizdə şəxsiyyətin hərtərəfli inkişafı, insanın fərdi taleyi, onun ətraf aləmə fəal və getdikcə artan təsiri bu gün ictimai problemlərdir. Bu problem xüsusilə təhsil sistemini düşündürür.

"Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu yaradıcı şəxsiyyət və vətəndaşın formalaşdırılması problemlərini müəyyən edir. Qanunda deyilir ki, təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrə və demokratiya prinsiplərinə, insan hüquqlarına və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil,yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdən ibarətdir." [2, s. 8]

"Keyfiyyətin yaxşılaşdırılması məsələsi artıq çoxölçülü -siyasi, iqtisadi, sosial, pedaqoji, psixoloji, etik, elmi və təşkilati-texnoloji vəzifəyə çevrilmişdir. Müasir təhsili idarəetmə nəzəriyyəsində təhsilin keyfiyyətinin təmin edilməsi üçün aşağıdakı ardıcıllığı əks etdirməlidir:

- Müvafiq məqsədlərin seçilməsi əsasında təhsil xidmətlərinin planlaşdırılması;
- Seçilmiş metod və hərəkət vasitələri ilə planların həyata keçirilməsi;
- Yoxlama və ya nəzarət vasitəsi ilə hərəkətlərin effektivliyinin təmin edilməsi;
- Tədbirlərin təhlili və tənzimlənməsi; planlaşdırma və s."[4, s.117]

"Təhsil müəssisələrinin demokratikləşdirilməsinin ilk addımları pedaqoji kollektivlə aparılan iş, onların əməyinin qiymətləndirilməsi və nüfuzunun artırılması üçün görülən tədbirlərdir. Bütün qruplardan olan müəllimlərin xüsusiyyətlərinin nəzərə alınması, pedaqoji kollektivin kateqoriyalarının müəyyənləşdirilməsi üçün hazırlıq işinin aparılması, attestasiyaların təşkili və keçirilməsində formallığın aradan qaldırılması diqqət mərkəzində olmalı, məqsədyönlü əməli tədbirlər görülməlidir" [3, s. 80].

"Təhsilin keyfiyyətinin idarə edilməsi üzrə məktəbin pedaqoji kollektivinin fəaliyətini qiymətləndirmək üçün təhsilin keyfiyyətinin idarə olunmasının aşağıdakı elementlərini qeyd etmək lazımdır:

- Sosial tərəfdaşlıqların təhlil edilməsi;
- Məktəbdə təhsil prosesinin təşkil edilməsi;
- Şagirdlərin sağlamlıqlarının təhlil edilməsi;
- Təhsil nəticələrinin qiymətləndirilməsinin yeni üsulları;
- Elmi-metodik və kadr şərtləri;
- Pedaqoji bacarıqların təkmilləşdirilməsi;
- Təhsilin məzmununun sosial təkliflərə uyğunlaşdırılması;
- Yeni tədris metodlarının tətbiqi;
- Valideynlər ilə əməkdaşlıq edilməsi;
- Təşkilati və idarəetmə şərtləri;
- Psixoloji şərtlər;
- Maddi və texniki şərtlər"[1, s.35].

"Yeni pedaqoji təfəkkür təlim-tərbiyənin "öyrənməyi-öyrətmək" texnologiyası əsasında qurulmasını, təhsilin fərdiləşdirilməsini, interaktiv təlim metodlarının tətbiqinin aktuallaşdırılmasını, diqqətin şagirdin intellektual inkişafına, məntiqi təfəkkürünün formalaşmasına, əqli nəticə çıxarmasına, ümumiləşdirməyə və bu kimi pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir." [5]

"Təhsilin idarə olunmasının modellərinə isə aşağıdakılar aiddir:

1. Formal model. Bu modelə əsasən təşkilatların strukturu ierarxik və əvvəlcədən müəyyən edilmiş məqsədlər əsasında formalaşır. Rəhbərlərin səlahiyyətləri onların rəsmi mövqelərinin məhsuludur. Bu rəhbərlər öz təşkilatlarında razılaşdırılmış siyasətlərin icrasına cavabdehdirlər. Formal model rəhbərliklə bağlıdır.

2. Kollektiv model. Burada təşkilati məqsədlərin seçilməsi, qərarların qəbulu, siyasətin müəyyənləşdirilməsi və formalaşdırılması müəyyən üzvlər arasında müzakirələr vasitəsilə müəyyən olunur. Kollektiv model 3 liderlik üslubu ilə əlaqələndirilir: dəyişim liderliyi, iştirakçı liderlik, paylaşılan liderlik. Dəyişim liderliyi liderin məqsədlərinin üzvlərin məqsəd və səlahiyyətlərinə çevrilməsidir. Buna əsasən şəxsi öhdəliklərin və məqsədlərin əldə edilməsi üçün daha böyük imkanların olması təşkilatın məhsuldarlığını artıracaqdır. İştirakçı liderlik daha çox demokratik üsullara əsaslanır. Hər bir üzvün qərar vermə prosesində iştirak etməsi onu ayıran əsas ünsürdür. Paylaşılan liderlik isə son illərdə təhsilin idarə olunmasında xüsusilə istifadə olunur.

3. Siyasi model. Təhsil siyasəti və qərarlarında ittifaqların yaranması yolu ilə həyata keçir. Bu modeldə münaqişə təbii bir fenomendir. Eyni zamanda hakimiyyət formal lider yerinə daha yüksək səviyyədə hakimiyyətə malik olan koalisiyalara aiddir. Bu model təhsil sferasında XX əsrin sonlarında tətbiq olunmağa başlandı.

4. Subyektiv model. Bu model əsasən bütün təşkilatdan çox təşkilatın fərdi üzvlərinin məqsədlərini vurğulayır. Təşkilatın məqsədləri konsepsiyası bu perspektivə əsasən rədd edilir. Təşkilatın üzvləri mənşəyindən, inancından, dəyərindən və təcrübəsindən əldə edilmiş anlayışları əks etdirən mürəkkəb qurumlar kimi təsvir olunur. Subyektiv model əsasında xarici mühitlə əlaqələr həssas sayılır.

5. Qeyri-müəyyənlik modeli. Təşkilati həyatın qarışıqlığı, qeyri-sabitlik, qeyri-müəyyənlik və gözlənilməzlik, məqsədlərin aydın olmaması və problemli texnologiyanın olması bu modelin əsas ünsürləridir. Modelə əsasən bu ünsürlər üzvlərin qərar qəbuletmə prosesində sıx iştirakına gətirib çıxarır.

6. Mədəni model. Bu model əsasında ideyalar, inanclar, normalar, dəyərlər və ənənələr kimi bəzi konsepsiyalar təşkilatın mərkəzi hesab olunur. Üzvlər digər üzvlərin davranışlarına uyğun davranır" [1, s.16-18].

"Təhsil müəssisələrinin demokratik idarə edilməsində rəhbərlik - pedaqoji kollektiv, rəhbərlik-şagirdlər, rəhbərlik-ictimai təşkilatlar, müəllim-şagirdlər, müəllimlər-valideynlər sisteminə üstünlük verilməlidir. Pedaqoji kollektivdə şəxsiyyətlərarası münasibətlər düzgün istiqamətlənibsə, əməkdaşlıq, qarşılıqlı kömək, hörmət və qayğı şəraiti yaradılıbsa, fəaliyyətin səmərəsi mütləq artacaqdır. Mü-nasibətlər normal deyilsə, kollektiv daxilində qeyri-sağlam münasibətlər varsa, müvəffəqiyyət qazanmaq çətin olar. Məktəb rəhbəri yalnız müəllimlərin peşə səviyyəsinin artırılmasına nail olmamalı və öz liderlik vəzifələrini yalnız icra etməməli, onların bir hissəsini kollektivin digər üzvləri arasında paylaşdırmalıdır" [3, s. 170].

"Hər bir pedaqoji işçinin fəallığının yüksəldilməsi məktəb pedaqoji kollektivinin ideyasiyasi və mənəvi-psixoloji vəziyyətindən, bilavasitə asılıdır" [3, s. 171].

"İdarəetmədə pedaqoji kollektivin imkanları müəllimlərlə şagirdlərin səmərəli fəaliyyətindən daha çox asılıdır. Pedaqoji kollektivin başlıca məqsədi şəxsiyyətin mədəni inkişafının əsasını formalaşdırmaqdır. Bu əsas intellektual, əxlaqi, estetik, əmək, ekoloji, hüquqi və şəxsiyyətin digər mədəni aspektlərini birləşdirir. Nəticədə həm ayrı-ayrı şagirdlərin, həm də ümumiy-yətlə şagird kollektivinin rəhbərlik səviyyəsinin müəyyənləşdirilməsini təmin edən daha sabit və real meyarların məcmuudur" [3, s.178].

NƏTİCƏ

Təhsilin keyfiyyətinin yüksək səviyyədə olması idarəetmənin düzgün, məqsədyönlü və səmərəli təşkilindən asılıdır. Təhsildə idarəetmə qərarları kollektiv zəkanın məhsulu olanda və onların icrasına nəzarət doğru qaydalarda təşkil edildikdə müvəffəqiyyət əldə olunur. Bu baxımdan da təhsildə pedaqoi kollektivin fəaliyyəti yüksək əhəmiyyətə malikdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün də təlim - tədris prosesinə mütləq yeni qaydalar gətirilməli, təhsilalanlarını idraki, yaradıcı, məntiqi və tənqidi təxəyyüllərinin formalaşdırılması əsas məqsəd olmalıdır.

Ədəbiyyat

1. Abdullayev Ü. "Azərbaycanda təhsilin keyfiyyətinin idarə olunması problemləri və həlli yolları" mövzusunda magistr dissertasiyası Baki - 2019, 77 s
2. Azərbaycan Respublikasının "Tənsil haqqında" qanunu. "Baki Çap evi" 2012,64 s.
3. Məmmədzadə R., Abdullayev A., Kərimova F. Cabbarov R., Rəsulov S., Quliyev Ə.. Təhsilin idarə edilməsinin bəzi problemləribaki - 2008. 238 s
4. Nəzərov M. *Təhsilin keyfiyyətinin idarə edilməsinin sosiomədəni aspektləri Bakı 2019. 124 s
5. https://www.muallim.edu.az/news.php?id=533

Təhsilin keyfiyyətinin idarə edilməsində pedaqoji kollektivin rolu

XÜLASƏ

Bu məqalədə təhsilin keyfiyyətinin idarə edilməsi məsələlərindən və bu prosesdə pedaqoji kollektivin rolundan söhbət açılmışdır.

Keyfiyyətli təhsilə nail olmaq üçüntəhsil sisteminin bütün komponentləri müasir tələblərə uyğun olaraq dəyişilməlidir. Ölkənin inkişafı üçün təhsil sisteminin idarəsi yüksək səviyyədə təşkil olunmalıdır. Keyfiyyətin idarə olunması prosesi təhsildə hər zaman inkişaf-yönümlü idarəetməni tələb edir. Bu işdə pedaqoji kollektivin də əsas məqsədi mədəni, savadlı, geniş dünyagörüşlü şəxsiyyətin inkişafını formalaşdırmaqdır. Bunların hamısı haqqında məqalədə qısa məlumatlar verilmişdir.

Роль преподавателя в управлении качеством образования

РЕЗЮМЕ

В статье рассматриваются вопросы управления качеством в образовании и роль педагогического коллектива в этом процессе.

Для достижения качественного образования все компоненты системы образования должны быть изменены в соответствии с современными требованиями. Для развития страны управление системой образования должно быть организовано на высоком уровне. Процесс управления качеством в образовании всегда требует управления, ориентированного на развитие. Основная цель педагогического коллектива в этой работе - формирование культурной, образованной, широкой личности. В статье дана краткая информация обо всем этом.

The role of teaching team in management of education quality

SUMMARY

This article discusses the issues of quality management in education and the role of the teaching staff in this process.

To achieve quality education, all components of the education system must be changed in accordance with modern requirements. For the development of the country, the management of the education system must be organized at a high level. The process of quality management in education always requires development-oriented management. The main goal of the pedagogical staff in this work is to form the development of a cultured, educated, broad-minded personality. The article gives brief information about all this.

Babazadə Nisə

TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKƏLDİLMƏSİ ÜÇÜN HANSI İŞLƏR GÖRÜLMƏLİDİR

Açar sözlər: *təhsil, təhsil sisteminin idarəsi, keyfiyyət*
Ключевые слова: *образование, управление системой образования, качество*
Key words: *education, education system management, quality*

GİRİŞ

Təhsildə keyfiyyət məsələsi hər zaman gündəmdə olan məsələlərdən biridir. Son vaxtlarda bu problem hər kəsi narahat edir, bunun da bir sıra səbəbi vardır. Ümumiyyətlə, təhsilin idarə olunması, onun keyfiyyətinin yüksəlilməsi olduqca mürəkkəb bir prosesdir. Ölkəmizdə təhsilin keyfiyyətinin artırılması istiqamətində bir çox ciddi işlər görülüb, layihələr təsdiq olunub.

Dünya təhsil sisteminə inteqrasiya olunduğumuz hazırkı dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsinə çalışmaq lazımdır.

ƏSAS HİSSƏ

"Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunun 9-cu maddəsində Təhsilin keyfiyyət səviyyələri aşağıdakı kimi öz əksini tapır:

- Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil və peşə standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi

-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir.

- Təhsil müəssisəsində kadr hazırlığının keyfiyyət səviyyəsi məzunların milli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyəti, ölkənin sosial və iqtisadi inkişafında rolu ilə müəyyən edilir.

- Təhsilin keyfiyyət səviyyəsi hər bir tarixi mərhələdə ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni inkişafla bağlı tələblərdən irəli gəlir və akkreditasiya xidməti tərəfindən müvafiq qaydada qiymətləndirilir" [2, s. 32].

"Son zamanlarda bütün sahələrdə olduğu kimi təhsilin sosial-mədəni əhəmiyyətini artmış və keyfiyyətli idarəetməsində yeni yanaşmaların axtarılması mühüm əhəmiyyət kəsb edir. Bu, müasir cəmiyyətdəki həyatın bütün sahələrində, eləcə də təhsil sahəsində baş verən sürətli dəyişikliklərlə birbaşa bağlıdır. Keyfiyyətin yaxşılaşdırılması yeni təhsil fəlsəfəsinin əsas ideyası olmuşdur. Cəmiyyətin inkişafı və mövcudluğunun şərtləri və təhsil sisteminin bu dəyişikliklərə tez adaptasiya edilməməsi arasında artan uyğunsuzluğu ilə keyfiyyətin yaxşılaşdırılması, ona nail olmaq üçün vasitələrin effektivliyi və idarə edilməsi zərurəti xüsusilə güclənməyə başlamışdır.Bunun nəticəsi olaraq öyrənmə problemi yeni bir şəkildə həyata keçirilmiş və həyat boyu öyrənmə probleminə çevirilmişdir." [4, s. 110]

"Təhsilin keyfiyyəti təhsili məzmunun bütövlüyü, təlim texnologiyalarının, monitorinq üsullarının və subyektin həyatının öz müqəddəratını təyin etməsinin fərdi inkişafı və yeni sosial-iqtisadi şəraitdə cəmiyyətin tələbləri baxımından qiymətləndirilməsidir. Bu baxımdan təhsilin keyfiyyəti konsepsiya kimi qəbul edilir, təhsil sisteminə qoyulan məqsədlərə nail olmasını təmin etmək, müəyyən bir insanın təhsilə olan tələbatını, cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına uyğunluğunu təmin etmək üçün bacarığı əks etdirir. Təhsil keyfiyyətinin təmin edilməsinin müstəsna əhəmiyyəti bu gün aşağıdakı obyektiv səbəblərlə müəyyən edilir:

Birincisi, elmi və texnoloji tərəqqi sürətlənir və təhsil səviyyəsinə və miqyasına cəmiyyətin inkişafından asılılığı artır. Belə şəraitdə ali təhsil geniş yayılır və ali təhsil müəssisələrinə daxil olanların yaradıcı qabiliyyətlərini inkişaf etdirməyə şərait yaratmaq tələb olunur və peşə təhsili ümumi əhaliyə çatdırılır.

İkincisi, cəmiyyətin iqtisadiyyatın sənaye mərhələsindən informasiya iqtisadiyyatına və informasiya sivilizasiyasının formalaşması mərhələsinə tədricən keçməsi labüdür. Bu proses, əsasən universitetlərin və onların məzunlarının iqtisadi və sosial rolunun artması ilə əlaqələndirilir.

Üçüncüsü, dünya informasiya sivilizasiyasının inkişafı ilə birlikdə, qloballaşma prosesi sürətlə inkişaf edir, bunun bir hissəsi Boloniya prosesinə uyğun olaraq elmi məlumatların yığılmasıdır, müxtəlif ölkələrin təhsil sistemlərinin iş keyfiyyəti səviyyəsinin uyğunlaşdırıl-

masını, gənclərin müəyyən universal meyarlara və standartlara uyğunluğunu, xüsusilə də məzunların və tələbələrin beynəlxalq hərəkətliliyini, onların məşğulluğunu və təhsil sertifikatlarının tanınmasını tələb edən bir beynəlxalq təhsilin verilməsi ilə əlaqədardır.

Dördüncüsü, Azərbaycanın təhsil sahəsində sürətlə inkişafının nəzərərə almaqla maddi və texniki bazasını dünyanın texnoloji, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş ölkələri arasında özünə yer tutması məsələsi kəskin şəkildə öz əksini göstərir" [4, s.113].

Təhsilin keyfiyyəti aşağıdakı kompleks göstəriciləri özündə əks etdirir:

- Məqsədlərin və öyrənmə nəticələrinin korreksiyası;
- Təhsil prosesində iştirakçıların gözləntilərinin təmin olunmuş təhsil xidmətindən asılılıq dərəcəsini təmin etmək;
- Şəxsin müəyyən səviyyədə bilik, bacarıq, qabiliyyət, bacarıq və səlahiyyətləri, zehni, fiziki və mənəvi inkişafı" [4, s.115].

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, ümumi təhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür" [1].

"Azərbaycanda təhsil keyfiyyətinin qiymətləndirilməsi üçün bir sistem yaradılması, sağlam idarəetmə qərarlar qəbul etmək üçün təhsil standartlarına uyğun olaraq təlim nəticələrinə dair obyektiv məlumat əldə etmək zərurəti ilə bağlıdır. Bu qiymətləndirmə sisteminin etibarlılığını müqayisə etmək üçün kriteriyalar tələb edir. Bu prinsiplərdən biridünyanın müxtəlif ölkələrində öyrənmə nəticələrini qiymətləndirmək üçün sistemlərin inkişafı tendensiyalarını müəyyən etməyə imkan verən xarici olkələrin təcrübəsinin inkişaf etmiş idarəetmə sistemləri ilə dünyanın müxtəlif ölkələrində istifadə olunan məktəblərdə tədqiqatların nəticələrini qiymətləndirmək üçün sistemlərdir. Son illərdə Azərbaycanda təhsil nailiyyətlərinin beynəlxalq tədqiqatlarda iştirak etmişdir. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə beynəlxalq tədqiqatlar təhsilin beynəlxalq prioritetləri nəzərə alınmaqla yaradılmış eyni pedaqoji ölçü vasitələrindən istifadə edərək Azərbaycan və beynəlxalq kontekstdə təhsil sisteminin vəziyyətini qiymətləndirməyə imkan verir" [4, s.117].

Elmi humanist təhsil sistemi üç əsas məqsədə nail ola biləcək: mədəni şəxsin (mədəni subyektin), azad vətəndaşın (tarixi mövzu, vətəndaş cəmiyyəti), yaradıcı şəxsin (fəaliyyət predmeti, özünü inkişaf) [4, s. 114].

Bu məqsədin həyata keçirilməsi aşağıdakı vəzifələri həll etməyə yönəlib:

• İnsan fəaliyyətinin əsas formalarında özünün qabiliyyəti və ehtiyacı olan bir şəxsdə təhsil;

• Dünya ilə birlikda, onunla dialoqda özünü tanımaq qabiliyyətinin inkişaf etdirilməsi;

• İnsanlığın özünü inkişafının mədəni təcrübəsinin bərpasına, mənimsəməsinə əsaslanan öz müqəddəratını təyin etmək, özünü göstərmə qabiliyyətinin inkişaf etdirilməsi;

• Humanist dəyərlər və ideallar, azad şəxsin hüquqları əsasında dünya ilə ünsiyyət qurma ehtiyacını və bacarığını formalaşdırmaq.

Təhsilin keyfiyyətini təmin etmək üçün növbəti mühüm vəzifə müxtəlif təhsil texnologiyaları müəllimlərinin inkişafı və dəyişməsi ilə bağlıdır. Təhsilin keyfiyyəti müəllimin necə və hansı texnologiyalardan asılı olmasına, tələbələrin xüsusiyyətlərinə görə metodik vasitələrini necə dəyişə biləcəyi ilə bağlıdır"[4, s. 114].

"Elmi-pedaqoji ədəbiyyatda məktəbdə təhsilin keyfiyyəti anlayışı adətən məktəbin qazandığı müvəffəqiyyət və məktəbdaxili idarəetmə sisteminin fəaliyyəti ilə əlaqələndirilir. Təhsilin keyfiyyəti təhsilin nəticələrini xarakterizə edən mühüm xüsusiyyətlərin cəmi kimi qəbul edilir. Bu nəticələr cəmiyyəti, sifarişçiləri və şagirdlərin tələbatlarını ödəməlidir. Təhlil olunan bu anlayış durğunluq illərində hökm sürən təhsil keyfiyyətinin eyni deyil. O vaxtlar keyfiyyət şagirdlərin sayının attestasiya zamanı yaxşı və əla qiymətlər almış şagirdlərin

ümumi sayına bölünməklə müəyyənləşirdi, keyfiyyəti belə müəyyənləşdirmək düzgün deyil, onların ümumi sayını faiz ilə eyniləşdirmək olmaz" [3, s.12].

"Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür. Eyni zamanda, keyfiyyətin faktiki vəziyyətini müəyyənləşdirməklə kifayətlənməyib onun yaxşılaşması və idarə olunması problemini də həll etmək olar. Müasir dövrümüzdə təhsil sisteminin monitorinqini təhsil keyfiyyətinə nəzarəti təmin edən ən vacib mexanizm hesab etmək olar. Şagird nailiyyətlərinin monitorinqindən alınan məlumatlar vasitəsilə məktəb fəaliyyətinin hazırkı vəziyyətini sistemli və obyektiv şəkildə proqnozlaşdırmaq mümkündür. Monitorinq daxili idarəetmə prosesi olub təhsilin keyfiyyətinə davamlı nəzarəti həyata keçirməyə imkan verir. O, təhsil fəaliyyətinin güclü və zəif tərəflərini üzə çıxararaq gözlənilən nəticələri əldə etmək üçün praktik təkliflərlə çıxış edə bilər. Monitorinq dedikdə yalnız təkliflər deyil, problemlərin həll edilməsi üçün konkret addımların da atılması nəzərdə tutulur"[5].

NƏTİCƏ

Təhsilin keyfiyyəti təkcə müəllimlərin və təhsilalanların biliklərin kəmiyyəti və keyfiyyəti ilə ölçülmür. Bu zaman yüksək şəxsiyyət keyfiyyətləri, vətəndaşlıq səviyyəsinin inkişafı da nəzərə alınmalıdır. Təhsilin keyfiyyətinin yüksək səviyyədə olması üçün müasir təlim texnologiyalarından düzgün istifadə olunmalı,təhsil müəssisəsinin, pedaqoji və rəhbər heyətin, təhsilalanların monitorinqi və qiymətləndirilməsi aparılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. "Azərbaycan müəllimi" qəzeti, 25.10.2013-cü il, №41;
2. Azərbaycan Respublikasının "Tənsil haqqında" qanunu. "Baki Çap evi" 2012, 64 s.;
3. Məmmədzadə Ramiz. Təhsildə keyfiyyət aparici istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. - 170 s.;
4. Nəzərov Müslüm "Təhsilin keyfiyyətinin idarə edilməsinin sosiomədəni aspektləri məqalə".2019, 14 s;
5. https://edu.gov.az/upload/file/monitorunqveqiymetlendirme/cisishlar/monitorinq-ve-qiymetlendirme-tehsilin-keyfiyyeti.pdf.

Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün hansi işlər görülməlidir

XÜLASƏ

Bu məqalədə təhsilin keyfiyyətindən və təhsildə keyfiyyətin yüksəldilməsi üçün hansı işlərin görülməli olduğundan bəhs edilmişdir. Dövlətin yüksək səviyyədə inkişafı üçün ilk növbədə onun keyfiyyətli təhsili olmalıdır.Təhsil elm və mədəniyyətin tərkib hissəsi olub onun inkişafına təkan verən, şəxsiyyətin formalaşmasına təsir edən əsas vasitədir. Təhsil sisteminin monitorinqinin və obyektiv qiymətləndirilməsinin aparılması nəticəsində bir sıra nöqsanlar vaxtında aşkar edilir. Bu nöqsanların aradan qaldırılması üçün tədbirlər görülür. Bu da təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olur.

Что нужно сделать для повышения качества образования

РЕЗЮМЕ

В этой статье обсуждается качество образования и что необходимо сделать для повышения качества образования. Чтобы государство могло развиваться на высоком

уровне, прежде всего, у него должно быть качественное образование. Образование является неотъемлемой частью науки и культуры и основным инструментом, стимулирующим ее развитие и влияющим на формирование личности. В результате мониторинга и объективной оценки системы образования своевременно выявляется ряд недостатков. Принимаются меры по устранению этих недостатков. Это приводит к повышению качества образования.

What should be done to improve the quality of education

SUMMARY

This article discusses the quality of education and what needs to be done to improve the quality of education. For the state to develop at a high level, first of all, it must have quality education. Education is an integral part of science and culture and is the main tool that stimulates its development and influences the formation of personality. As a result of monitoring and objective assessment of the education system, a number of shortcomings are identified in a timely manner. Measures are being taken to eliminate these shortcomings. This leads to an increase in the quality of education.

Balaşzadə Turan Atduxan oğlu
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: Phd. dos. Miri Həsənov

ESTETİK TƏRBİYƏ VƏ AİLƏ MƏDƏNİYYƏTİNİN QARŞILIQLI ƏLAQƏSİ

Açar sözlər: *estetika, gözəllik, tərbiyə, uşaq, ailə*
Ключевые слова: *эстетика, красота, воспитание, дети, семья*
Key words: *aesthetics, beauty, upbringing, child, family*

Ailə tərzinin formalaşmasında estetik tərbiyənin rolu əvəzolunmazdır. Ailə uşaq üçün dünyanın kiçik modelidir. O, dünyanı və yaşamı ilk olaraq ana və atanın və daha sonra ailənin digər üzvlərinin timsalında dərk edir. Ailə müxtəlif funksiyaları yerinə yetirir. Bu funksiyalardan biri də tərbiyə funksiyasıdır. Hər bir toplumun müxtəlif tərbiyə anlayışı və metodları mövcuddur.

Ailə tərbiyəsinin əsas, ümumi məqsədi uşaqları mövcud sosial şəraitdə həyata hazırlamaqdır. Daha dar, spesifik məqsəd uşaqların ailədə normal şəxsiyyət inkişafı üçün lazım olan bilik, bacarıq və vərdişlərə yiyələnməsini təmin etməkdir.

Ailə tərbiyəsinin məqsədləri və vasitələri sosial-iqtisadi quruluş və mədəni inkişaf səviyyəsi ilə müəyyən edilir. Ailə tərbiyəsi ümumiyyətlə ailənin mənsub olduğu sosial təbəqədəki ideologiya, əxlaq və şəxsiyyətlərarası münasibətlər sistemi əsasında təşkil olunur. Yetkinlərin öz-özünə tərbiyəsi və yetkinlərin uşaqlara təsirli pedaqoji təsirini təmin edən keyfiyyət və xarakter xüsusiyyətlərinin inkişafı ilə ayrılmaz şəkildə əlaqələndirilir. Bu baxımdan ailə üzvlərinin şəxsiyyəti digər üzvlərin tərbiyəsində birincili və ya ikincili təsir olaraq çıxış edir.

Şəxsiyyətin inkişafı, danışılan dilin, normların, inancların, mədəniyyətin qazanılmasında ailənin əvəzsiz payı var. Ailənin birinci vəzifəsi övladını yaxşı tərbiyə ilə böyütməkdir. Ailə tərbiyəsində valideynlərin hər şeydən öncə yaxşı bir nümunə olmalıdır. Çünki uşaq ailəsində nə görürsə, ömrü boyu həyatında və davranışlarında onu sərgiləyir. Təbii ki, burada mənfi davranışların fərqinə varıb onların korreksiya etmiş şəxslər istisnadır.

V.A. Suxomlinski qeyd edirdi ki, "Uşaqların əsas tərbiyə məktəbi ər və arvad, ata və ana arasındakı qarşılıqlı münasibətdir". Odur ki, ailədə tərəflərin əsas, başlıca rolu bir-birini qavramaq vəanlamaqdır. Bu anlama və münasibət ailənin gələcək planlarını qurmaqda vacibdir.

Uşaq ailədə dürüst, nəcib, vətənpərvər, gözəlliyə dəyər verən və fəaliyyəti ətrafını gözəlləşdirmək olan insanlar gördükdə özü də bu xüsusiyyətlərlə bəzənir. Təbii ki, bunun əksi

olan təhqir, dava-dalaş, mənəvi dəyərləri olmayan ailədə böyüyən uşağın tərbiyəsi də eynilə valideynləri kimi olacaqdır.

Estetik tərbiyə də bu tərbiyə sisteminin bir hissəsidir. Təbii ki, estetik tərbiyənin də təməlləri ailədə, hələ erkən uşaqlıq dövründə qoyulur. Estetik tərbiyə ailə tərbiyəsinin tərkib hissəsi kimi müasir dövrün aktual məsələlərindən biridir.

Estetik qavrayış uşaqda erkən yaşlarda qazanılır. Ananın doğulmadan əvvəl yaşadığı mühit, ananın xarici dünyaya aid etdiyi məna və yaxşı qayğı uşağın xarici dünyaya qarşı müsbət duyğuların inkişafında açıq, dinc və təhlükəsiz bir mövqe qazanmasına səbəb olur. Təbii olan gözəldir. Təbiətin təzahürü uşağın təbiətindəki bu duyğuların ortaya çıxmasına səbəb olarkən, mənfi təcrübələrlə təbii mühitin pozulması da bu hisslərin qarşısını alacaqdır.

Körpəlikdə ətraf mühitin stimullarının bolluğu və xarici mühitin fərqinə varılması irəliləyən yaşlarla birlikdə xarici aləmdəki təfərrüatların öyrənilməsi ilə davam edir. Ən erkən yaşlarda belə uşağın estetik mühitdə olması, bu mühitin enerjisi, görmə, səs və qoxusuna görə bu uşaq üçün maraq yaradır. Uşaqları detallar üzərində işləməyə yönəltmək estetik hisslərin təməl daşlarından biri sayılır. İlk mərhələlərdə vizual qavrayış uşağın digər təsir və idrak bacarıqlarına nisbətən ən təsirlisi olur. Rəng, xətt, forma, nisbət, harmoniya və simmetriya kimi xüsusiyyətləri sayəsində uşaqlar zövqlə təmin olunurlar. İnkişaf uşağın təbiətindəki mənəvi gücü ortaya qoyur.

Uşaq dünyaya gəldikdə ilk öncə dünyanı gözlərilə duyur, görmə duyğusu vasitəsilə dünyanı, ətrafdakı əşyaları, insanları, bitki və heyvanları qavrayır. Daha sonra uşaq bunlar arasında gözəl və çirkini, yaxşı və pisi ayırd etməyə başlayır. Beləliklə, uşaqlar bütün dünya üçün gözəllik duyğusuna sahib olduqda, valideynlər onlara düzgün rəhbərlik etməli və dünyanı düzgün bir perspektivlə görməlidirlər. Doğru rəhbərlik etmək uşaqları estetik mənada tərbiyə etməkdir. Estetik tərbiyə olunmuş uşaqlar sağlam bir şüura sahib olacaqdır. Eyni zamanda, uşaqların təxəyyül və yaradıcılığı yaxşılaşdırılaraq gələcək uğurlarının təməli qoyulacaqdır.

Estetik tərbiyə insanların gözəlliyi tanımaq, gözəlliyi yaşamaq, gözəlliyi hiss etmək, gözəlliyi qiymətləndirmək və gözəllik yaratmaq qabiliyyətini inkişaf etdirməkdir ki, gözəllik idealına, gözəllik duyğusuna, gözəllik keyfiyyətinə sahib olmaqdır.

Həqiqəti gözəllik qanunları ilə dərk etmək və dəyişdirmək bacarığı bir fərdin mənəvi sərvətinin zəruri elementidir. Estetik tərbiyə, formalaşmış estetik qavrayış, zövqlər, bədii qabiliyyətlər olmadan insanın hərtərəfli harmonik inkişafını təsəvvür etmək mümkün deyil. Buna görə də, bir adam dünyanı dərk etməyə başladığı üçün, bir insana gözəlliyi və bütün təzahürlərini görməyi, hiss etməyi və anlamamağı öyrətmək çox vacibdir.

Bu baxımdan, xüsusən emosional sferanın zənginləşdiyi, həyata estetik münasibət formalaşdığı və sənətdəki, təbiətdəki və insanların münasibətlərindəki gözəlliyin qavranılması və başa düşülməsinin daha dinamik olduğu erkən uşaqlıq dövründə ailənin uşağın estetik tərbiyəsini dəstəkləməsi çox vacibdir. Bu dövrdə əxlaqi, estetik və idrak qavrayışının formaları (mərhəmət, həssaslıq, vəzifə hissi, qarşılıqlı yardım, müvəffəqiyyətsizlik təcrübəsi, maraq və s.) inkişaf edərək şəxsiyyətin formalaşmasına öz töhfəsini verir. Ailənin hər bir davranış və fəaliyyəti: səliqə-sahman, təmizlik, oyuncaqlar, avadanlıq və əşyaların gözəlliyi, valideynlərin oxuduğu və dinlədiyi mahnı və şeirlər, danışdıqları nağıllar, təbiət gəzintiləri- bunlar hamısı kiçik yaşlarında uşaqların estetik zövqünün formalaşmasına birbaşa təsir göstərir.

Estetik tərbiyənin mühüm bir istiqaməti məişətdə, geyim və münasibətdə gözəllik ruhunda şagirdləri tərbiyə etməkdir. Böyüyən nəsil məktəbdə, ailədə, şəxsi həyatda gözəllik qanunları ilə yaşamağa, hər yerdə estetik mühit yaratmağa çalışmalıdırlar: gözəl danışmalı, gözəl geyinməli, gözəl yeriməli, gözəl davranmalıdırlar.

Ailə estetik tərbiyədə böyük rol oynayır. Ailə tərbiyəsi bir çox komponentdən ibarətdir: ailə üzvlərinin dəqiqliyi, qarşılıqlı hörmət, səmimi duyğular, hisslərini sözlərlə ifadə etmək bacarığı, ibtidai davranış normalarının həyata keçirilməsi. Zövqün tərbiyə edilməsi kitablardakı şəkillərə baxmaq, həm ayrı-ayrılıqda, həm də uşaqla birlikdə layla və uşaq mahnıları

oxumaqla başlayır. Sənət əsərlərini qiymətləndirmək və onlara qulluq etmək bacarığını, yaradıcılıq qabiliyyətini (rəsm, modelləşdirmə, müxtəlif tətbiqetmələr) inkişaf etdirmək, öz əllərinizlə bir şey yaratmaq arzusunu inkişaf etdirmək vacibdir. Uşaqları daim klassik uşaq ədəbiyyatı ilə tanış etmək, onlarla maraqlanaraq söhbət etmək lazımdır. Zövqlə dizayn edilmiş məişət də estetik qavrayışın inkişafına kömək edir. Məsələn, gündəlik həyatda gözəllik gətirmə vərdişini inkişaf etdirərək (masa və ya oyun guşəsinin düzəldilməsi; evdə valideynlərlə birlikdə evin yaxınlığındakı çiçək baxçasına çiçək əkmək və ya kənd bağında işləmək) bir uşağı gözəllərlə tanış etmək asandır. Uşaqlar ətrafdakı məkana gətirdikləri rahatlığın, nizamın, təmizliyin yalnız özlərinə deyil, ətrafdakılara da sevinc və zövq verdiyini görməlidirlər. Sonra işə yaradıcı yanaşma arzusu olmalıdır. Uşaqları müşahidə etməyə təşviq etmək, cisimlərin forması, quruluşu, rənginin xarakterik xüsusiyyətləri, onların yaxşı bilinən başqaları ilə fərqli və oxşar cəhətləri barədə məlumatlı olmaq üçün sistematik şəkildə təşviq etmək lazımdır. Gəzərkən və ya uşaq bağçasına, məktəbə gedərkən şəhərdəki binaların gözəlliyinə, fərqliliklərinə diqqət yetirilə bilər; uşağın gündəlik həyatda istifadə etdiyi şeyləri zövqlə seçməyə çalışmaq lazımdır. İstifadə etdiyi boşqabın və ya stəkanın rəngarəng, zərif olması barədə məlumat uşağı onlara qayğıkeş davranmağa təşviq edir. Sevdiyi şeyi bir neçə oxşar şeydən seçmək imkanı vermək mümkündür.

Kiçik yaşlarından etibarən əxlaqi və estetik tərbiyə almaq üçün uşaqları uşağın təcrübəsinə yaxın olan klassik bədii əsərlərlə tanış etmək lazımdır. Klassik əsərlər təbiət hadisələrini, uşaqların şüur şəkillərini əks etdirir. Estetik tərbiyə əqli, əxlaqi və fiziki tərbiyə ilə birbaşa əlaqəli şəkildə həyata keçirilməlidir.

Ədəbiyyat

1. Abbasov A.N., “Pedaqogika”, Bakı, “Mütərcim”- 2007, 80 səh.
2. Həşimov Ə.Ş., F. Sadiqov, “Pedaqogika”, Bakı, “Təbib”-1995, 248 səh.
3. İbrahimov F.N., Hüseynzadə R.L., “Pedaqogika”- II cild, Bakı, “Mütərcim”- 2012, 548 səh.
4. Qasımova L.N., Mahmudova R.M., “Pedaqogika”, “Bakı Universiteti”-2003, 535 səh.

Balaşzadə Turan Atduxan oğlu
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: Phd. dos. Miri Həsənov

AİLƏDƏ ESTETİK TƏRBİYƏNİN İDARƏ OLUNMASININ PEDAQOJİ VƏ PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *estetika, tərbiyə, şagird, təhsil, təlim*
Ключевые слова: *эстетика, воспитание, студент, образование, обучение*
Key words:*aesthetics, upbringing, student, education, training*

Müasir təlim-tərbiyə sistemində estetik tərbiyə problemi çox aktualdır. “Estetika” sözü yunan dilində “aisthetikos” sözündən yaranıb, mənası “həssas” olaraq qəbul edilir. Bu o deməkdir ki, estetik kateqoriyalar insanın hisslərin köməyi ilə dərk edə biləcəyi hər şeyə şamil edilə bilər. Bu termin elmə VII əsr alman filosofu A.Q.Baumqarten tərəfindən gətirilmişdir. Onun 1750-ci ildə nəşr olunmuş “Estetika” kitabından sonra gözəllik haqqında elmi bilikləri bu terminlə ifadə edirlər. Əlbəttə, estetikanın özünün yaranması isə daha qədim tarixi köklərə malikdir.

Təhsil estetik zövqü, gözəl və çirkini qavrama qabiliyyətini inkişaf etdirir. Bu da tərbiyənin bir çox cəhətləri ilə əlaqəli olduğu üçün vacibdir. Professor Fərrux Rüstəmov qeyd

edir ki, estetik tərbiyə gözəllik hisslərini oyadır və inkişaf etdirir. Gözəlliyə diqqətli olan insan öz həyatını gözəllik qanunları üzrə qurmağa tələbat duyur.

Estetik tərbiyə estetik inkişaf məqsədi ilə bir şəxsə məqsədyönlü, sistematik təsir etmək, yəni estetik ideal mövqeyindən təbiətdə, işdə, ictimai münasibətlərdə gözəlliyi dərk edib qiymətləndirə bilən, yaradıcı və aktiv bir şəxsiyyətin formalaşmasıdır. Estetik tərbiyə insanın reallığa estetik münasibətinin formalaşması prosesidir. İnsan cəmiyyətinin yaranması ilə bu münasibət, onunla birlikdə inkişaf edərək insanların maddi və mənəvi fəaliyyətləri sahəsində təcəssüm etmişdir. Bu, əslində gözəl olanların qavranılması və dərk edilməsi, həzz alması, insanın estetik yaradıcılığı ilə əlaqələndirilir.

Estetik tərbiyə şəxsiyyətin inkişafına inteqrasiya olunmuş bir yanaşma təmin edir, əmək və mənəvi tərbiyə başda olmaqla, insan fəaliyyətinin bütün sahələrini əhatə edir: düşüncə dərinliyi və hisslərinin incəlikləri, təbiətə münasibət və s.

Bədii və yaradıcı fəaliyyət prosesində yaddaş, xüsusilə vizual və musiqili olaraq yaxşılaşdırılır. Beləliklə, rəsmdə uşaqlar vizual yaddaşında saxlanılanları əks etdirir.

Estetik və bədii fəaliyyət prosesində zehni əməliyyatlar yaxşılaşdırılır: sintez, analiz, müqayisə, zehni qabiliyyət, fəaliyyətini planlaşdırma bacarığı inkişaf etdirilir. Bu, zehni inkişafa kömək edir, bu da uşağın tam estetik tərbiyəsini təmin edir. Estetik təhsil alınan estetik informasiyalara şəxsiyyətin tənqidi münasibət bəsləməsinə imkan yaradır, hadisələrə, incəsənətə, həyata onun estetik qiymətinin yüksək ideya səviyyəsini şərtləndirir.

Estetik tərbiyənin məzmununa estetik hisslərin, zövqlərin, maraqların tərbiyəsi daxildir. Ətrafdakı gerçəkliyi və sənəti mənimsəyərək uşaqlar gözəllik haqqında biliklər formalaşdırırlar. Yetkinlərin rəhbərliyi altında uşaqlar estetik meyarları sənət əsərləri (şeirlər, mahnılar, bədii ədəbiyyat nümunələri və s.) öyrənir, estetik qiymətləndirməyi mənimsəyirlər. Estetik tərbiyənin məzmununa bədii ədəbiyyat haqqında ibtidai biliklərin formalaşması da daxildir: təlim prosesində şagirdlər Azərbaycan və xarici ədəbiyyat, folklor, şeirlər və hekayələr haqqında biliklər əldə edirlər.

Biliklərin mənimsənilməsi ilə yanaşı estetik tərbiyənin məzmununa estetik bacarıq və vərdişlərin əldə edilməsi də daxildir. Musiqi fəaliyyətində uşaqlar musiqi dinləmək bacarıqlarına yiyələnirlər; vizual fəaliyyətdə - dünyanın hadisələrini və obyektlərini müşahidə etmək, fərdi və ümumi xüsusiyyətlərini fərq etmək qabiliyyətinə yiyələnirlər. Həmçinin estetik tərbiyənin məzmununa uşağın təşəbbüs göstərərək, maraq və ehtiyaclarını ortaya qoyarkən yaradıcılıqda müstəqilliyinin inkişafı da daxildir.

Estetik tərbiyədə istifadə olunan əsas metodlar bunlardır:

a) Ətrafdakı gerçəkliyin müşahidəsi; buraya təsvirlər, rəsmlər və təbiətin sadə müşahidələri, qar yağışı, bulud və s. daxildir.

b) Nəqletmə və hekayələr də çox vacibdir, onlarda uşaq öz fikrlətini bildirə bilir.

c) Müstəqil hərəkətlərin inkişafı - müəllim nəzərdə tutulan vəzifəni və ya öz planını həll etmək üçün bir yol tapmağı təklif edir.

d) Əmək tərbiyəsinə daxil olmaq - uşaqlara işin gözəlliyini öyrənməyi öyrətmək.

Estetik tərbiyənin əsas vəzifələri aşağıdakılardır:

a) gözəlliyi görmək və qiymətləndirmək qabiliyyətinin inkişafı;

b) gözəl, ahəngdarlıq anlayışı;

c) öz hərəkətlərini estetik fikirlər baxımından nəzərdən keçirmək.

Estetik tərbiyəni estetik adlanan kateqoriyalarabölmək olar:

a) gözəl və çirkin;

b) tragiallıq və komiklik;

c) ucalıq və alçaqlıq.

Estetik hisslərin formalaşması erkən uşaqlıqdan başlayır. Məktəbəqədər və məktəbyaşlı uşaqlar qar, qum və ya kublardan qalalar qurmağa, qələm, boya və ya təbaşir ilə rəsmlər

çəkməyə can atarkən, artıq estetik tərbiyənin təmelləri qoyulur. Valideynlər uşaqlarının bu təbii ehtiyaclarını maneə törətmək əvəzinə həmişə dəstək olmalıdırlar.

Müəllim sadəcə sənət əsərlərini şagirdlərə tanıtmaqla kifayətlənməməli, eyni zamanda şagirdləri bu və belə əsərləri yaratmağa sövq etməlidir. Bu şagirdlərin sənətə və onların inkişafını təmin edən insanlara dəyər verməyini təmin edəcəkdir.

Müəllim estetik tərbiyəni həm sırf estetik tərbiyənin birbaşa həyata keçirildiyi musiqi, təsviri incəsənət, əmək (hazırda texnologiya) dərslərində, həm də digər fənlər (ədəbiyyat, coğrafiya, tarix, biologiya) həyata keçirir.

Müasir dövrdə estetik tərbiyə məsələsi əməli cəhətdən hər hansı vaxtda olduğundan daha vacib məsələdir. O bilavasitə hərtərəfli, harmonik şəxsiyyət və onun mənəvi tərbiyəsinə xidmət edir. Bu vəzifənin müvəfəqiyyətlə həll olunması bütün ictimai təşkilatların, xüsusilə də uşaqlar arasında iş aparan təşkilatların səylərinin birləşdirilməsini tələb edir. Başlıca olaraq isə, ailə və məktəb böyüməkdə olan nəslin estetik tərbiyəsində xüsusi rol oynayır. Estetik tərbiyənin formalaşdırılmasında məktəbdə təlim prosesilə yanaşı dərsdənkənar və məktəbdənkənar fəaliyyətlərdən (dərnəklər, idman klubları, gimnastika və s.) istifadə olunmalıdır.

Ədəbiyyat

1. Paşayev Ə.X., Rüstəmov F.A., "Pedaqogika", Bakı: "Elm və təhsil"-2010, 464 səh
2. Məmmədova S.K., "Mədəniyyətşınaslıq", Bakı, "Kooperasiya"-2001, 202 səh
3. Rəhimova R.R., "Məktəb və estetik tərbiyə", Bakı, "Maarif"-1966, 50 səh
4. Логинова В.И., "Дошкольная педагогика",Москва, "Просвещение"-1983, с.187

Məmmədova Solmaz
Azərbaycan Dövlət Pedoqoji Universitetinin magistrantı

İDARƏETMƏ TƏHSİL KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN ƏSAS AMİLİ KİMİ

Açar sözlər: *təhsilin keyfiyyəti, məktəb idarəetmə sistemi, təhsilin inkişaf istiqamətləri, dünya praktikası, idarəetmə praktikası*

Ключевые слова: *качество образования, система управления школой, направления развития образования, мировая практика, практика управления*

Key words: *quality of education, school management system, directions of education development, world practice, management practice*

Məqalədə qeyd edilir ki, Təhsilin keyfiyyəti təhsil müəssisəsinin fəaliyyətini xarakterizə edən müxtəlif aspektlərin - təhsilin məzmunu, təlimin forma və metodları, insan resursları, tədris və maddi-texniki bazanın vəziyyəti və s. məcmusu ilə müəyyən olunur. Bütövlükdə bu məsələlər yeni pedaqoji təfəkkürün tərkib hissəsidir.

Yeni pedaqoji təfəkkür təlim-tərbiyənin "öyrənməyi-öyrətmək" texnologiyası əsasında qurulmasını, təhsilin fərdiləşdirilməsini, interaktiv təlim metodlarının tətbiqinin aktuallaşdırılmasını, diqqətin şagirdin intellektual inkişafına, məntiqi təfəkkürünün formalaşmasına, əqli nəticə çıxarmasına, ümumiləşdirməyə və bu kimi pedaqoji-psixoloji aspektlərə yönəldilməsini tələb edir.

Təhsil müəssisəsinin inkişaf rejimində fəaliyyətin və keyfiyyətin idarə olunması məktəb rəhbərliyinin, təlim-tərbiyə prosesinin iştirakçılarının planlaşdırdıqları nəticəyə çatmaqda kömək edir. İdarəetmənin, eləcə də məktəbin bütövlükdə fəaliyyətinin keyfiyyəti və səmərəliliyi məktəb rəhbərləri arasında funksiya və vəzifə öhdəliklərinin nə dərəcədə real, konkret və məqsədəuyğun paylanmasından asılıdır.

Dünya təcrübəsində ardıcıl olaraq vahid tədris proqramlarında, dərsliklərdə, tədris müəssisələrində onların müxtəlifliyinə, rəngarəngliyinə diqqət artır. Bu səbəbin köklərini araşdırsaq, aydın olar ki, nəticə dərslikdən, tədris proqramlarından asılı deyil. Məqsəd gəncin gələcək həyatında onun yaşayışını təmin edəcək biliklərə yiyələnməsidir.

"Təhsil müəssisəsinin idarə olunması mürəkkəb bir prosesdir. Bu prosesdə təhsil keyfiyyətinin qiymətləndirilməsi bu mürəkkəb prosesin aparıcı istiqamətlərindən biridir. Bu zaman idarəetmə faktiki olaraq özündə iki mühüm istiqaməti birləşdirir. Bunlardan biri idarəetmədə konkret nəticənin əldə edilməsi prosesidirsə, digəri planlaşdırılmış nəticənin əldə edilməsidir. Bunların hər ikisi ayrıayrılıqda böyük əhəmiyyətə sahib deyildir. Burada ancaq nəticəyə istiqamətlənmiş məqsədyönlü idarəetmədən söhbət gedə bilər" [Məmmədzadə R. «Ixtisasartırma təhsili – yeni problemlər, yeni münasibətlər»].

Yalnız təcrübə göstərir ki, nəticəyə istiqamətlənmiş idarəetmə heç də daim özünü doğrultmur. Misal üçün, idarəetmə lazım olan nəticəyə istiqamətlənmədiyindən, nəticə düzgün müəyyənləşmədiyindən əldə edilmiş nailiyyət insanları təmin etmir.

"Başqa tərəfdən, prosesə istiqamətlənmiş idarəetmədən söz gedirsə, onda idarəedənləri sadəcə olaraq idarəetmənin primitiv variantı, tədbirlərin sayı maraqlandırır, nəticə barədə az düşünürlər. Misal üçün, təhsil müəssisələrində keçirilən tədbirləri təhlil etsək, görərik ki, tədbiri həyata keçirən insanlar heç də düşünmürlər ki, bu tədbiri keçirməkdə məqsəd nədir, nəticə nə olacaq, onları sadəcə olaraq tədbirin keçirilməsi və yaxud yuxarı təşkilatların göstərişinin yerinə yetirilməsi narahat edir. Ona görə də burada ancaq və ancaq prosesə və eləcə də nəticəyə istiqamətlənmiş idarəetmədən danışmaq məqsədyönlüdür. Ümumtəhsil məktəbində təhsil keyfiyyətinin idarə olunmasına üç yanaşma məqsədəmüvafiq olardı" [Əhmədov A., Abbasov Ə., Talıbov T. Təhsil Kurikulumlarının xarakterik cəhətləri].

- məqsədə görə idarəetmə;
- prosesə görə idarəetmə;
- son nəticəyə görə idarəetmə.

Belə yanaşmalarda məktəbdə təlim keyfiyyətini yüksəltməyin minimum iki üsulundan istifadə etmək məqsədəuyğundur.

Belədirsə, onda idarəetmədəbizi həm nəticə, həm də proses və eləcə də onun müxtəlif bölmə və səviyyələri narahat etməlidir. Bu zaman proses, onun parametrləri, prosesin keyfiyyəti, xüsusiyyətləri, xarakteri diqqət mərkəzində olmalıdır. Belə olduğu halda məqsədyönlü idarəetmə əgər nəticəyə istiqamətlənibsə, onun üçün həm də prosesin özü, gedişi əhəmiyyət kəsb edir.

Valideynlər qiymətləndirmə mexanizmləri ilə tanış olmadıqlarına baxmayaraq, yaxşı bilirlər ki, şəhərdə və yaxud rayon mərkəzlərində hansı məktəblər keyfiyyətli təhsil verir və yaxud hansı müəllim həqiqətən öz fənnini öyrədir, obyektiv qiymətləndirir və bu qiymət ictimaiyyət tərəfindən qəbul edilir. Onlar sadəcə olaraq uşaqların münasibətlərindən, özlərinin qeyri-professonal, ancaq obyektiv təsəvvürlərindən nəticə çıxarırlar.

Məqalənin elmi yeniliyi.Məqalədən yola çıxaraq təsbit etmək mümkündür ki, idarəetmə ümumiyyətlə, tədqiqat xarakteri daşıyır və eləcə də son zamanlar monitorinqin tətbiqi onun bu xarakterini bir az da artırır. O, imkan yaradır ki, gündəlik, son və eləcə də uzaq gələcəkdə əldə ediləcək təhsil nəticələri təhlil edilsin, nöqsanlar və müsbət tərəflər üzə çıxarılıb, inkişafı təmin etmək məqsədilə tədbirlər görülsün. Belə olduqda təhsil müəssisəsinin rəhbərləri məktəbi qurtaranların gələcəkdə nə işlə məşğul olduqları, onların həyatı barədə məlumat əldə edə bilirlər

Məqalənin praktik əhəmiyyətinin tətbiqi. Məqalədən istifadə edərək informasiya almaq mümkündür ki, idarəetmənin bütün mərhələlərində təhsil keyfiyyətinin qiymətləndirilməsinin mürəkkəbliyi, çətinliyi onun vaxt baxımından dəyişkənliyində, dinamik xarakter daşımasındadır. Təhsilin bir çox nəticələri və eləcə də gələcəkdə üzə çıxan nöqsanları məzunlar

məktəbi qurtardıqdan sonra üzə çıxır. Halbuki onlar məktəbdə oxuduqları zaman nöqsanlar nəzərə alınıb, aradan qaldırılmalı idi.

Nəticəolaraq belə qənaətə gəlmək olar ki, təhsildə keyfiyyət məsələsi həmişə gündəmdə olmuşdur. Aydındır ki, məktəb varsa, keyfiyyət də olmalıdır. Son onilliklərdə bu problem hamını narahat edir. Əgər şagirdlərin məktəbi bitirdikləri zaman əldə etdikləri biliklərin səviyyəsi hamını razı salırsa, onda məzmun, struktur, təlim-tərbiyə prosesi, onun həyata keçirilmə şəraiti, idarəetmə sistemi dəyişmədən saxlanılmalıdır.

Ədəbiyyat

1. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri, Bakı,2017, səh.385
2. Məmmədzadə R. «Ixtisasartırma təhsili – yeni problemlər, yeni münasibətlər», Bakı 2014
3. Hacıyeva T. «Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası» haqqında, Kurikulum elmimetodik jurnalı 2009, №1 səh 26-30
4. Əhmədov A., Abbasov Ə., Talıbov T. Təhsil Kurikulumlarının xarakterik cəhətləri. Kurrikulum elmi-metodik jurnal, səh 15-20, №1, 2009

Мамедова Солмаз

Менеджмент как ключевой фактор повышения качества образования

РЕЗЮМЕ

В статье отмечается, что качество обучения зависит от различных аспектов, характеризующих деятельность образовательного учреждения - содержания обучения, форм и методов обучения, человеческих ресурсов, состояния обучения и материально-технического обеспечения и др. определяется совокупностью. В целом эти вопросы являются частью нового педагогического мышления.

Mammadova Solmaz

Management as a key factor in improving the quality of education

SUMMARY

The article notes that the quality of education depends on various aspects that characterize the activities of the educational institution - the content of education, forms and methods of training, human resources, the state of teaching and logistics, etc. is determined by the aggregate. In general, these issues are an integral part of the new pedagogical thinking.

Məmmədova Solmaz

Azərbaycan Dövlət Pedoqoji Universitetinin magistrantı

TƏHSİL KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN TƏHSİL PROSESİNƏ TƏSİRİ

Açar sözlər: *tədris cədvəlləri, təhsilin inkişaf istiqamətləri, innovasiya, pedaqogika*

Ключевые слова: *расписания, направления развития образования, инновации, педагогика*

Key words: *schedules, development directions of education, innovation, pedagogy*

Təhsilin keyfiyyəti təhsil prosesinin təşkili qaydalarından aslıdır. Hamıya bəllidir ki, ənənəvi qaydalara əsaslanaraq tədris edilən fənnlər orta məktəbin sinifləri üzrə illərə, aylara, həftələrə və günlərə bölünərək, ona uyğun təlim-tərbiyə prosesi təşkil edilir və çalışılır ki, təhsildə keyfiyyət əldə edilsin. Bu proses tədris və təqvim planları və tədris cədvəlləri əsasında həyata keçirilir. Tədris planı özündə hər bir fənn üzrə həftədə hansı fənlər və onların neçə saat olduğunu müəyyənləşdirir. Təqvim planları il boyu təhsil müddətini və tətilləri, tədris ilinin başlanğıcını və sonunu müəyyənləşdirir. Tədris məşğələlərinin cədvəli dərslərin ardıcıllığını, onların başlanması və qurtarması vaxtını, tənəffüsün müddətini müəyyənləşdirir. Bu ənənəvi qaydaları bugünkü baxımdan təhlil edəriksə, bu onların təlimtərbiyə prosesinə, xüsusən də təhsilin keyfiyyətinə mənfi təsiri üzə çıxar. Müasir tədris planı respublika fənn kurikulumları

əasında hazırlanır. Aydındır ki, milli və fənn kurikumlarında bu və ya digər fənlərə minimum dərs saatları ayrılır. Ona görə də təsadüfi deyil ki, yaxın keçmişdə məktəb kollektivləri, xüsusən məktəb rəhbərləri tədris planlarını müxtəlif yeni fənlər hesabına genişləndirməyə çalışırdılar. Bu da, əlbəttə ki, həftəlik tədris yükünü artırır ki, şagirdlər elə bunun nəticəsində yüklənir, onlarda yorğunluq yaranır, dərslərə həvəs azalır. Hələ keçən əsrdə Avropa alimlərindən Piaje apardığı tədqiqatlarla sübut etmişdi ki, şəxsiyyətin fərdi xüsusiyyətlərindən asılı olaraq, əgər ona komfort şərait yaradılarsa, o, müəyyən bir vaxt çərçivəsində 5-10 şərti vahid həcmində müstəqil informasiya və ya bir-birindən asılı olmayan informasiya toplusunu mənimsəmə imkanına malikdir. Informasiyanın orta mənimsəmə miqdarı yeddi rəqəminə bərabərdir[1, s.34].

Təhsil prosesini optimallaşdırmaq məqsədilə fənlərin sayını azaltmaq, tədris məşğələlərinin həftəlik sayını artırmaq haqqında düşünmək yerinə düşərdi. MDB ölkələrinin bəzilərində fənlər iki bloka bölünür. Bir blokun fənnləri bütün tədris ili boyu öyrənilir. Ikinci blokun fənləri də saatların artırılması şərti ilə tədris edilir. Yarımildə keçirilən fənn ikinci yarımildə digəri ilə əvəz edilir. Məsələn, ana dili və riyaziyyət blok şəklində bütün il boyu, biologiya və coğrafiya blok şəklində saatların artırılması şərti ilə birinci və ikinci yarımilliklərdə bir-birini əvəz edir.

Təbii qoyulmuş problemin həllində aparıcı, əsas sima müəllimdir. Müəllim fəaliyyətinin effektivlik səviyyəsinin aydınlaşdırılması, onlara praktik işlərinin təkmilləşdirilməsi üçün doğru-dürüst informasiyanın verilməsi, sertifikatlaşdırmanı tətbiq etməklə müəllimin peşəkar inkişafının yeni səviyyəsinin təmin edilməsi, eləcə də keyfiyyətin ümumi artımının izlənməsi məqsədilə yaxşı müəllimi səciyyələndirən xüsusiyyətlər nəzərdə tutulur. Buraya ilk növbədə müəllimin biliyi və peşkarlığı daxildir.

Müəllimin biliyi və peşəkarlığı deyəndə onun- Ünsiyyət - səmərəli ünsiyyət qurmağın əsaslarını bilməsi;

Əməkdaşlıq - uşaqların nailiyyət qazanmalarına kömək məqsədilə əməkdaşlıq etmənin rolunu dərk etməsi;

Sinfin idarə olunması - sinfin idarə olunmasının müasir əsaslarını bilməsi;

Pedaqogika və innovasiya - müasir pedaqogika və innovasiya biliklərinin olması və eyni zamanda şagirdlərin ehtiyaclarını hiss etməsi, özünü tanıtma - öz tədris fəaliyyəti və davranışın göstərdiyi təsiri dərk etməsi, fənn bilikləri, mənəvi dəyərlər, müəllim peşəkarlığı barədə dərin biliklərə malik olmasını nəzərdə tutur. Müəllimlərin müxtəlif təlimlərdə iştirakı zamanı əldə etdikləri sertifikat məhz keyfiyyətin yüksəldilməsi prosesinin təkmilləşmələrinə kömək etməyə yönəlib.

Məqalənin elmi yeniliyi. Məqalədən yola çıxaraq təsbit etmək mümkündür ki, təhsil sisteminin inkişaf tendensiyası, fəal və interaktiv metodlar sahəsində novator müəllimlərin iş üsullarına dair toplanan faydalı təcrübələr, pedaqoji-psixoloji tədqiqatların nəticələri daima sistemləşmə, ümumiləşmə və təlim-tərbiyə prosesinin məzmununun yeniləşdirilməsini tələb edir. Bu problemlərin həlli təhsil sferasına, pedaqoji prosesə fəal və interaktiv metodlar anlayışının elmi əsaslarla gətirilməsini vacib bir problem kimi qarşıya qoyur və bütövlükdə təhsildə texnoloji yanaşmaların tətbiqini aktuallaşdırır.

Məqalənin praktik əhəmiyyətinin tətbiqi. Məqalədən istifadə edərək informasiya almaq mümkündür ki, Azərbaycan təhsil sisteminin getdikcə dünya təhsil sisteminə inteqrasiyası, fərdi komponentlərin tədris prosesinə daxil olması təhsil müəssisələrinin hansı səviyyədə işləməsi və hələlik fəaliyyətlərinin proqnozlaşdırılması, təhsil müəssisələrində təlim-tərbiyə prosesinin iştirakçısının və nailiyyətinin vaxtında qiymətləndirilməsini gündəmə gətirib.

Nəticəolaraq belə qənaətə gəlmək olar ki, İdarəetmə sisteminin tədris prosesinə təsirli təsir göstərməsi üçün tədris və şəxsi inkişafda nəzarətin rolunu müəyyən etmək lazımdır. Buna görə ölçmə və qiymətləndirməni anlamaq, pedaqoji ölçmələrin nəticələrini təhlil etmək təhsil sisteminin təkmilləşdirilməsinin, keyfiyyətinin idarə edilməsinə nəzarət və qiymətləndirmə prosesinin inkişaf etdirilməsinin vacib aspektlərindən biridir. Tədris sisteminin keyfiyyətinin çox sayda göstəriciləri arasında tələbələrin hazırlığı hələ də əsasdır və müəyyən bir mövzuda təhsil nailiyyətləri pedaqoji ölçmə nəzəriyyəsində onların hazırlığının hərtərəfli

göstəricisi kimi tanınır. Təhsil nailiyyətlərinin strukturu olduqca mürəkkəbdir. Öyrənmə nailiyyətləri, əsasən, subyektlərin bilik, bacarıqları və ümumi təhsil nailiyyətlərinin kəmiyyət qiymətləndirmələri bilavasitə şagirdlərin şəxsi inkişaf səviyyəsinə görə qiymətləndirilə bilər.

Ədəbiyyat

1. Əhmədov A., Abbasov Ə., Talıbov T. Təhsil Kurikulumlarının xarakterik cəhətləri. Kurrikulum elmi-metodik jurnal, səh 15-20, №1, 2009
2. https://unec.edu.az/keyfiyyet-azerbaycan-tehsilinin-prioritetidir/
3. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri, Bakı,2017, səh.385
4. Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı İstiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. – 170 s.

Təhsil keyfiyyətinin yüksəldilməsinin təhsil prosesinə təsiri

XÜLASƏ

Məqalədə qeyd edilir ki, Təhsilin keyfiyyəti anlayışı ilk növbədə sosial kateqoriya kimi cəmiyyətdə təhsil prosesinin vəzifəsini və səmərəliliyini göstərir, eyni zamanda, şəxsiyyətin vətəndaşlıq və peşə səmərəliliyinin tələblərinə uyğunluğunu göstərir. Təhsilin keyfiyyət aspektləri - təhsilin məzmunu, təlimin formaları və metodları, tədris-maddi və maddi-texniki bazanın vəziyyəti, kadrların təminatı nəzərdə tutulur. Təhsilin keyfiyyətini səciyyələndirən təhsilin idarə olunmasının təhsil prosesinin nəticələrinin mərhələləri üzrə müşahidə edilməsi hər bir mərhələdə qarşıya qoyulmuş vəzifələrin optimal yerləşdirilməsi səbəbinin aşkarlanmasını zəruri hesab edir.

Мамедова Солмаз

Влияние повышения качества образования на образовательный процесс

РЕЗЮМЕ

В статье отмечается, что понятие качества образования в первую очередь отражает роль и эффективность образовательного процесса в обществе как социальной категории, а также соответствие личности требованиям гражданственности и профессиональной эффективности. Качественные аспекты обучения - содержание обучения, формы и методы обучения, состояние учебно-материально-технической базы, кадровое обеспечение. Наблюдение за результатами учебного процесса, характеризующего качество обучения, по этапам, считает необходимым выявить причины оптимального размещения заданий на каждом этапе.

MammadovaSolmaz

The impact of improving the quality of education on the educational process

SUMMARY

The article notes that the concept of quality of education primarily reflects the role and effectiveness of the educational process in society as a social category, as well as the compliance of the individual with the requirements of citizenship and professional efficiency. Quality aspects of education - the content of education, forms and methods of training, the state of teaching and material and technical base, staffing. Observing the results of the educational process, which characterizes the quality of education, in stages, considers it necessary to identify the reasons for the optimal placement of tasks at each stage.

Qurbanova Gülər

Azərbaycan Dövlət Pedoqoji Universitetinin magistrantı

İDARƏETMƏDƏ MƏKTƏB RƏHBƏRLƏRİNİN SƏRİŞTƏLİLİYİ VƏ PEŞƏKARLIĞI

Açar sözlər: *təhsil, keyfiyyət, nəzarət, monitorinq, təhsil standartları, keyfiyyət göstəriciləri, məktəb idarəetmə sistemi, təhsilin inkişaf istiqamətləri, dünya praktikası*

Ключевые слова: *образование, качество, контроль, мониторинг, образовательные стандарты, показатели качества, система управления школой, тенденции развития образования, мировая практика*

Key words: *education, quality, control, monitoring, educational standards, quality indicators, school management system, directions of education development, world practice*

Məqalədə qeyd edilir ki,idarəetmədə peşəkarlıq və səriştəlilik məktəb rəhbərləri üçün vacib olan ən mühüm keyfiyyətlər sırasında ilk yerlərdən birini tutur. Bu iki keyfiyyət pedaqoji fəaliyyətin elə mühüm tərəflərini özündə birləşdirir ki,bunlar pedaqoji prosesin tamlığını, şəxsiyyətyönümlülüyünü, nəticəyönümlülüyünü təmin etməklə təhsilalanların təfəkkürünün və şəxsiyyətinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir və gənc nəslin zəngin biliyə, mütərəqqi dünyagörüşə malik bir şəxsiyyət kimi formalaşmasına səbəb olur.

Məktəb rəhbərlərinin peşəkarlığı və səriştəliliyi məktəb rəhbərlərinin əslində bir müstəvidə – pedaqoji prosesdə öz fəaliyyətini peşəkarcasına yerinə yetirə bilməsi və bu prosesə səriştəli yanaşmasıdır. Başqa sözlə, yiyələndiyi peşənin bütün incəliklərini dərindən bilməsi, məktəb rəhbərlərinin fəaliyyətini ustalıqla yerinə yetirməsi, həll edəcəyi problemi elmi şəkildə, optimal metodlarla reallaşdıra bilməsidir. Peşəkarlıqla səriştəlilik bir – biri ilə elə sıx əlaqəlidir ki, bunların birinə malik olub, digərinə yiyələnməmək mümkün deyildir. Lakin buradakı keçid və ardıcıllığı da nəzərə almaq vacibdir. Peşəkarlıq – məktəb rəhbərlərinin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsidir. Səriştəlilik – məktəb rəhbərlərinin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir. Səriştəlik əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir.

Pedaqoji prosesə səriştəli yanaşma məktəb rəhbərlərindən dərin bilik və bacarıq tələb edir. Buna görə də peşəkarlıqla səriştəlilik bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır. Məktəb rəhbərlərinin pedaqoji dəyərlərə yiyələnməsi, bu dəyərləri qoruması, pedaqoji prosesdə novator pedaqoq kimi fəaliyyət göstərməsi peşəkarlıqla səriştəliliyin əlaqəsi və pedaqoji ustalığın meyarları kimi özünü göstərir.

Peşəkar və səriştəli rəhbərlər daim yeniliklər axtarması,yeniliyə meylliyi, pedaqoji prosesə yaradıcı yanaşmaları, mövcud pedaqogikanın müəyyənləşdirdiyi müasir yanaşma tərzlərindən məharətlə istifadə etmələri ilə seçilən məktəb rəhbərləridir ki, onların tədris etdikləri dərslər və apardıqları tədbirlər də özünün orijinallığı ilə seçilir. Daim yeniliklər axtarışında olmaq, standart hallarda müəyyən yeniliklər etməyi bacarmaq məktəb rəhbərlərinin peşəkarlığında mühüm yer tutur. Təcrübə göstərir ki, məktəb rəhbərlərinin peşəkarlığı yüksək olduqda o, bu peşəkarlığı daha da dərinləşdirməyə, yeniləşdirməyə və daim axtarışda olmağa meyilli olur[3, s.500].

Məktəb işinin məzmununu dərindən bilmədən, müasir şəraitdə cəmiyyətdə və təhsildə baş verən gerçəkliklərin mahiyyətini dərk etmədən məktəbi idarə etmək mümkün deyildir. Dövlət məktəb rəhbərlərindən idarəçilikdə demokratik prinsiplərə istinad etməyi, məktəbin qarşısında duran məsələlərin həllinə yaradıcı yanaşmağı, bütün işçilərdən işgüzarlığı, intizamlılığı, operativliyi, təşkilatçılığı, şəxsi məsuliyyət hissinin aşılanmasını israrla tələb edir. Məktəb direktoru səlahiyyətli rəhbər, təlim-tərbiyə prosesinin baş təşkilatçısıdır. O, ilk növbədə, pedaqoqdur, tərbiyəçidir. Onun biliyi, təşkilatçılıq qabiliyyəti və enerjisi təlim-tərbiyə prosesinin durmadan təkmilləşdirilməsinə, onun effektivliyinin yüksəldilməsinə yönəlməlidir.

Bugünkü məktəbdə tədris olunan elmlərin əsaslarının məzmunu və metodlarının intensiv şəkildə yeniləşdirilməsi prosesi gedir, təlim-tərbiyə işi dərinləşir və çoxcəhətli olur, məktəbin sosial funksiyaları genişlənir. Bu vəzifələrin uğurla həyata keçirilməsi məqsədə istiqamətləndirilmiş, yüksək səviyyədə təşkilatlanmış və səfərbər edilmiş pedaqoji kollektivə

müyəssər ola bilər. Yaxşı təlim və tərbiyə edə bilən kollektivin formalaşdırılması, ilk növbədə, direktorun işidir.

Direktor məktəbdə təlim-tərbiyə və maliyyə-təsərrüfat işinin səmərəliliyini yüksəltmək, hər bir işçinin məsuliyyətini artırmaq məqsədi ilə müvafiq normativ-hüquqi sənədlər və "Təhsil Sahəsi İşçilərinin Qulluqçu Vəzifələrinin Vahid Tarif - İxtisas Sorğu Kitabçası" əsasında işçilər arasında vəzifə bölgüsü aparır və bunu əmrləşdirir. Bu əmrlə hər bir işçinin dəqiq fəaliyyət sahəsi müəyyənləşdirilir, əmək funksiyalarının icrasına hüquqi əsas verilir, rəhbərliyə işə nəzarəti optimal surətdə həyata keçirməyə imkan yaradılır. Kollektiv üzvləri arasında vəzifə bölgüsünün aparılması müvafiq məsələlər üzrə, konkret icraçılarla bağlı operativ və obyektiv qərarların, sərəncamların hazırlanması və qəbul edilməsinə şərait yaradır. Əmək kollektivində bu qərarlar cari və perspektiv planlar, əmrlər, yazılı və şifahi sərəncamlar formasında meydana çıxır[4, s.170].

Səriştəli məktəb rəhbərləri təkcə bu gün üçün deyil, gələcək üçün çalışan, planlaşdırdığı işlərin nəticələrini əvvəlcədən görə bilən, hər işdə gələcəyi düşünən, şagirdlərə və pedaqoji prosesə nikbin yanaşan, onların problemlərinə laqeyd qalmayan və uşaqlara öz övladları kimi münasibət bəsləyən məktəb rəhbərləridir.

Peşəkar və səriştəli məktəb rəhbərləri özünə, dediyi sözəinamlıdır,şagirdlərinə də inam göstərir. Dediyi sözlərdə, verdiyi qərarlarda özünəinam ifadə olunur. Rəğbətləndirəndə də, cəzalandıranda da obyektivdir, ədalətlidir. Cəza verildikdə uşağın özünü deyil, onun düzgün olmayan hərəkətini tənqid edir. Məktəbin müdiriyyəti şagirdlərin məktəbdə olduqları və məktəb tərəfindən təşkil edilmiş tədbirlərdə iştirak etdikləri vaxtlarda onların həyatı və sağlamlığı üçün məsuliyyət daşıyır. Məktəbin müdiriyyəti öz vəzifəsini müvafiq hallarda həmkarlar ittifaqı komitəsi ilə birlikdə və ya onunla razılaşdırmaqla, həmçinin əmək kollektivinin səlahiyyəti daxilində həyata keçirilməlidir.

Məqalənin elmi yeniliyi.Məqalədən yola çıxaraq təsbit etmək mümkündür ki, pedaqoji səriştəlilik məktəb rəhbərlərindən yaradıcı düşüncə, yenilikçilik meylləri, tələbatlar, pedaqoji fəaliyyət üçün xüsusi bacarıqlar, müstəqillik, həvəs, məsuliyyət və peşəsinə sevgi tələb edir. Bunları özündə təcəssüm etdirə bilən məktəb rəhbərləri özünün fəaliyyəti ilə təkcə qarşısındakı uşaq, yeniyetmə və gənci şəxsiyyət kimi formalaşdırmaqla qalmır.

Məqalənin praktik əhəmiyyətinin tətbiqi. Məqalədən istifadə edərək informasiya almaq mümkündür ki, məktəb rəhbərlərinin pedaqoji peşəkarlığıpedaqoji fəaliyyətə hazırlıq və onun həyata keçirilməsi prosesində baş verən hadisədir. Pedaqoji dəyərlərə yiyələnmə də belədir. Məktəb rəhbərlərinin peşəkarlığı təkcə onu bir məktəb rəhbərləri, peşəkar pedaqoq kimi dəyərləndirmir, həm də bir şəxsiyyət, bir vətəndaşkimi fəallaşdırır, ona vətəndaş mövqeyi aşılayır.

Nəticəolaraq belə qənaətə gəlmək olar ki, məktəb rəhbərləri öz işinə peşəkar münasibəti onun işindən, uşaqlarla işləməkdən zövq almasına, böyük həvəslə fəaliyyət göstərməsinə və məhsuldar işləməsinə stimul verir. Belə rəhbərlər işdən, şagirdlərdən heç vaxt şikayət etmirlər. Əksinə, şagirdlərlə ünsiyyətdə böyük emosional əhval-ruhiyyədə olurlar.

Dərindən və hərtərəfli düşünülmüş qərarlar məktəb rəhbərlərinin idarəedicilik fəaliyyətinin nəticə etibari ilə səmərəliliyinin vacib şərtidir. Onu da nəzərdə saxlamaq lazımdır ki, qəbul edilmiş qərarlar, verilmiş əmrlər, sərəncamlar obyektiv və ədalətli olduqda və onların həyata keçirilməsi ilə bağlı konkret təşkilati tədbirlər gördükdə daha yaxşı səmərə verirlər.Rəhbər idarəetmə sisteminin mərkəzi fiquru - siması, işin başında duran şəxsdir. Hər hansı idarəetmə prosesində, o cümlədən məktəbin idarə olunmasında başlıca mövqe rəhbərə - direktora məxsusdur. Rəhbərin müəyyənedici rolu ondan irəli gəlir ki, ona qərar qəbul etmək səlahiyyəti verilir, o, "nə etmək, necə etmək" məsələsini müəyyənləşdirir və bunun üçün məsuliyyət daşıyır.

Ədəbiyyat

1. https://www.grin.com/document/180866

2. https://www.researchgate.net/publication/44835916_Improving_The_Quality_of_Education_Through_School-Based_Management_Learning_From_International_Experiences
3. Mahmudov M.C. Boloniya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı, "Elm və Təhsil" 2010, 504 s.
4. Məmmədzadə, R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Məktəb rəhbərləri", 2010. – 170 s.

Гурбанова Гюлар

Компетентность и профессионализм руководителей школ в управлении

РЕЗЮМЕ

В статье отмечается, что профессионализм и компетентность - одни из важнейших качеств учителя. Эти два качества сочетают в себе такие важные аспекты педагогической деятельности, что оказывают существенное влияние на развитие мышления и личности учащихся, обеспечивая полноту, личностно-ориентированный, ориентированный на результат педагогический процесс и приводят к формированию молодого поколения с богатыми знаниями и прогрессивным мировоззрением.

Gurbanova Gular

Competence and professionalism of school leaders in management

SUMMARY

The article notes that professionalism and competence are among the most important qualities for a teacher. These two qualities combine such important aspects of pedagogical activity that they have a significant impact on the development of students' thinking and personality by ensuring the completeness, personality-oriented, result-oriented pedagogical process and lead to the formation of a young generation with rich knowledge and progressive outlook.

Qurbanova Gülər
Azərbaycan Dövlət Pedoqoji Universitetinin magistrantı

TƏHSİLDƏ MƏKTƏB RƏHBƏRİNİN FƏALİYYƏTİNİN BAŞLICA MƏQSƏDLƏRİ VƏ FUNKSİYALARI

Açar sözlər: *inzibati, keyfiyyət, nəzarət, monitorinq, metodik, keyfiyyət göstəriciləri, vəzifəli şəxs, təhsilin əhəmiyyəti, dünya praktikası*

Ключевые слова: *управленческий, качество, контроль, мониторинг, методические, качественные показатели, должностное лицо, важность образования, мировая практика*

Key words: *administrative, quality, control, monitoring, methodical, quality indicators, official, importance of education, world practice*

Təhsil müəssisələrinin rəhbərləri sifarişçiyə (sifarişçi – dövlət, valideyn və s. ola bilər) uşaqların tədris ilini, məktəbi necə qurtaracağını, onların uşağını nə gözləyir deyə bilməməsi sadəcə olaraq, absurd yanaşmadır.

Professor Ramiz Məmmədzadənin fikrinə görə bu münasibət sadəcə olaraq, məktəb rəhbərlərinin təhsil menecmenti biliklərinin az olmaları, idarəetmə elminin incəlikləri barədə məlumatlarının yetəri qədər olmamalarından irəli gəlir.

Təlim-tərbiyə prosesini və məktəbin gündəlik fəaliyyətini direktor həyata keçirir:

a) məktəbin nizamnaməsi və daxili əmək intizamı qaydaları ilə məktəbin işçilərinə həvalə edilmiş vəzifələrə riayət olunmasını təmin etmək;

b) ixtisas və peşə dərəcəsinə uyğun olaraq məktəbin işçilərinin əməyini düzgün təşkil etmək, onların hər birini müəyyənləşdirilmiş iş yerində möhkəmləndirmək, avadanlığın saz vəziyyətdə saxlanmasını, işçilərin əmək şəraitinin sağlam və təhlükəsizliyini təmin etmək;

c) əmək və istehsalat intizamının ciddi surətdə gözlənilməsini təmin etmək, iş vaxtının itirilməsinin aradan qaldırılmasına, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, sabit əmək kollektivinin formalaşdırılmasına, məktəbdə sağlam iş şəraitinin yaradılmasına yönəldilmiş təşkilati və mənəvi tərbiyə işlərini həyata keçirmək, əmək intizamını pozanlara qarşı vaxtında təsirli tədbir görmək;

ç) işçi alkoqollu içkilər, narkotik maddələr və psixotrop, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə işə gələrsə, həmin gün işçini öz vəzifəsini yerinə yetirməyə buraxmamaq və mövcud qanunvericiliyə əsasən onun haqqında müvafiq tədbirlər görmək;

d) təlim-tərbiyə prosesini təkmilləşdirmək, əməyin elmi təşkilinin tətbiqi üçün şərait yaratmaq, işin keyfiyyətini, əmək mədəniyyətini yüksəltmək üzrə tədbirlər həyata keçirmək, öz məktəbinin və digər məktəb kollektivlərinin qabaqcıl pedaqoji təcrübəsinin öyrənilməsi, yayılması və tətbiqini təşkil etmək;

e) müntəzəm olaraq məktəb işçilərinin yaradıcılıq və axtarışlarının inkişaf etdirilməsini, peşə ixtisası səviyyəsinin artırılmasını təmin etmək, müəyyən olunmuş vaxtda müvafiq əsasnamələrə uyğun olaraq pedaqoji işçilərin attestasiyasını keçirmək, işləməklə yanaşı tədris müəssisələrində təhsil alan işçilər üçün şərait yaratmaq;

ə) məktəbi zəruri avadanlıqlarla, tədris vəsaitləri ilə vaxtında təmin etmək üçün tədbirlər görmək;

f) əmək qanunvericiliyinə uyğun olaraq əməyin mühafizəsi qaydalarına əməl etmək və işçilərin iş şəraitini yaxşılaşdırmaq;

Təsadüfi deyil ki, 2008-ci ilin sonlarında «Azərbaycan Müəllimi» qəzetinin yaradıcı kollektivi tərəfindən məktəb direktorları arasında aparılmış sorğular zamanı aydın olmuşdur ki, paytaxt məktəblərinin direktorları kurikulumla bağlı çox az məlumatlıdırlar. Kurikulumlar isə məktəbdə təhsilin keyfiyyətinə yönəlmişdir.

Unutmayaq ki, məktəbin əsas vəzifəsi uşaq və gənclərin təlim-tərbiyəsi, onların inkişafı, şəxsiyyət kimi formalaşması, dövlət və cəmiyyətin maraqlarına xidmət etməyə yönəlməsidir. Müasir əmək bazarı təhsil müəssisələrinə, onları bitirmiş gənclərə prinsipcə yeni tələbatlar irəli sürür. Məhz buna görə də müasir təhsil müəssisə rəhbərlərinə, onların idarəçilik bacarıqlarına, təhsil menecmenti elminin incəliklərinə bələd olmalarına tələbat artır. Müəssisə rəhbərlərinin professional idarəetmə fəaliyyəti getdikcə mürəkkəbləşir, məzmunu dəyişir. Bu yeniliklər, qeyri-müəyyən situasiyalar operativ və effektiv idarəetmə qərarlarının hazırlanıb qəbul edilməsini tələb edir. Bu belədirsə, onda müəssisə rəhbərləri anlayışı izah olunmalı, onun nələri bilməsi, nələri həyata keçirməsi aydınlaşdırılmalıdır. Rəhbər - vəzifəli şəxsdir. Vəzifə idarəetmə aparatının ilk struktur bölməsidir. Onun məzmunu, funksiyaları müəssisə qarşısında qoyulmuş məqsədlərin keyfiyyətli həyata keçirilməsidir. Ona görə də müəssisə rəhbərlərinin səlahiyyəti, məsuliyyəti, mədəniyyəti, bilik səviyyəsi, idarəetmə təcrübəsi xüsusi əhəmiyyət kəsb edir. Bu gün məktəb direktoru nəyi bilir, hansı məsələlərlə məşğul olur hamını düşündürməlidir. Orta ümumtəhsil məktəbinin başlıca vəzifəsi yuxarıda qeyd etdiyimiz kimi uşaqların təlim-tərbiyə prosesinin keyfiyyətinə yönəldilməlidir. Məktəb direktoru işin keyfiyyətli təşkilinə məsuliyyət daşıyır. Təlim prosesinin həyata keçirilməsi məktəb direktorunun minimum 3 əsas funksiyasını: inzibati, təşkilati və metodik işlərə rəhbərlik etməsini aktuallaşdırır.

Başqa sözlə təşkilati mexanizmin idarəetmə strukturunda həyata keçiriləcək tədbirlərin ardıcıllığı, kimlər tərəfindən nələrin həyata keçirilməsi, bu işlərin keyfiyyətinə kimlərin məsuliyyət daşıyacağı, kimlərin nəzarət edəcəyi müəyyənləşdirilməlidir. Unutmaq olmaz ki, təşkilatı idarə etmək sistemə və ya prosesə (məktəb, universitet, müəssisə) məqsədyönlü təsir etmək (sənədlərin, qərarların hazırlanması və s.) deməkdir. Qabaqcadan hadisələrin gedişini və istiqamətini görmək, təşkil etmək, göstəriş vermək, tənzimləmək və nəzarət etmək, nəticə çıxarmaqdır.

İdarəetmənin ümumi qanunlarından və ya prinsiplərindən biri də idarəetmədə elmiliyin gözlənilməsidir. İdarəetmədə elmilik hər cürə məsələlərin həllinə sistemli yanaşmadan ibarətdir. Bu zaman iqtisadi, sosial-psixoloji və pedaqoji qanunlara, dövlət sənədlərinə, prinsiplərə istinad

edilməlidir. Burada qeyd etmək yerinə düşər ki, məktəbdə işləyən mütəxəsislər yalnız idarəetmə obyekti kimi qəbul edilməməli, onlar sistemli idarəetmə nöqteyi-nəzərindən çox mühüm, mürəkkəb sosial-psixoloji və bioloji obyekt-subyekt sisteminin ayrılmaz hissəsi kimi qəbul edilməlidir. Onlara edilən təsir faktiki olaraq kollektiv üzvlərinin əlaqəli fəaliyyəti deməkdir.

Məqalənin elmi yeniliyi. Məqalədən yola çıxaraq təsbit etmək mümkündür ki, Azərbaycanın Boloniya prosesinə qoşulması Azərbaycanda bütövlükdə təhsilin keyfiyyətinə yeni münasibətlərin formalaşmasını gündəmə gətirmişdir. Bütövlükdə ali təhsil problemlərindən söz getsə də, orta məktəb məzunlarının həyata hazırlığı – müəyyən peşələrə yiyələnməsi, ali, orta və peşə məktəblərinə getməsi, imtahanlara hazırlaşması, ən mühümü isə müasir həyatda öz mövqelərini seçməyi, aldıqları orta təhsilin əhəmiyyəti, həyatı bacarıqlara yiyələnmənin səviyyəsi böyük əhəmiyyət kəsb edir.

Məqalənin praktik əhəmiyyətinin tətbiqi.Məqalədən istifadə edərək informasiya almaq mümkündür ki, müasir şəraitdə səlahiyyətlilik peşəkarlıq baxımından bilikli olmaq, mütəxəssislik bacarığına dərindən yiyələnmək, mədəni olmaq, yüksək səviyyədə inkişaf etmiş mütəxəssis olmaq deməkdir. Fikir aydın olsun deyə, əvvəldə qeyd etdiyim kimi, müəllim və ya məktəb direktoru kurikulumun mənasını bilmirsə və ya mənasını başa düşüb onu həyata keçirə bilmirsə, ona necə səlahiyyətli müəllim demək olar, onun tədris etdiyi fənnin şagirdlər tərəfindən keyfiyyətli mənimsənilməsindən necə danışmaq olar.

Nəticəolaraq belə qənaətə gəlmək olar ki, idarə edənin peşəkarlıq səviyyəsi inkişafda olmalı, yenilikləri öyrənməli, təcrübə toplamalı, ixtisasını artırmalı, təhliletmə, nəticə çıxarma bacarığını təkmilləşdirməlidir. Tətbiq edilən metodlar müasir olmalı – bu isə müasir biliklərə, elmi nəaliyyətlərə əsaslanmalıdır.

İdarəedənin səlahiyyətliliyi aşağıdakı faktorlardan asılıdır: idarə etdiyi sistemi yaxşı tanımalı, sistemdə tətbiq olunan yeniliklərə bələd olmalı, bu yeniliklərin onun idarə etdiyi müəssisəyə uyğunluğunu müəyyənləşdirməyi bacarmalıdır. Təhsil müəssisəsinin rəhbəri tədqiqatçı olmalı – yeniliklərin tətbiqi nəticələrini təhlil etməli, onların hesabına təhsilin keyfiyyətini üzə çıxarmalı, qiymətləndirməli, hansı yeni metodlar hesabına keyfiyyətin əldə olunmasını və ya nəticələrin mənfi xarakter daşımasını üzə çıxarmalıdır.

Ədəbiyyat

1. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri, Bakı: Mütərcim, 2017, səh.385
2. Mahmudov M.C. Boloniya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı:“Elm və Təhsil”, 2010, 504 s.
3. Məmmədzadə, R.H. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı:“Müəllim”,2010. – 170 s.
4. https://aztehsil.com/direktor/951-məktəbdə-idarəetmənin-mahiyyəti.html.

Təhsildə məktəb rəhbərinin fəaliyyətinin başlıca məqsədləri və funksiyaları

XÜLASƏ

İdarəetmənin təşkilati mexanizmi konkret idarəetmə funksiyalarının (burada söhbət keyfiyyətin idarə olunmasından gedir) məntiqi baxımdan əsaslandırılmış ardıcıllıqla həyata keçirilməsi bu prosesdə vəzifəli şəxslərin, müəssisənin ayrı-ayrı bölmələrinin fəaliyyəti və ona nəzarətin təşkili deməkdir. Təhsilin keyfiyyətinin idarə olunması mexanizmi özünəməxsus tədbirlər sistemidir. Bu tədbirlər öz aralarında bir-birilə bağlı, strukturlararası əlaqələrdən ibarətdir.

Гурбанова Гюлар

Основная цель деятельности директора школы в образовании

РЕЗЮМЕ

В статье отмечается, что сущность управления школой заключается в целенаправленном воздействии учителей на учащихся и их родителей с целью достижения оптимальных результатов в обучении. Менеджмент - сложные процессы и отношения в школе.

Организационный механизм управления - это логическая реализация конкретных функций управления (здесь речь идет об управлении качеством) в последовательности, основанной на организации и выполнении задач предприятия. Механизм управления качеством образования - это система конкретных мер. Эти меры взаимосвязаны и взаимосвязаны.

Gurbanova Gular

The main purpose of the school principal's activity in education

SUMMARY

The article notes that the essence of school management is the purposeful influence of teachers on students and their parents in order to achieve optimal results in education. Management - complex processes and attitudes within the school.

The organizational mechanism of management is the implementation of specific management functions (here we are talking about quality management) in a logical sequence based on the organization and implementation of the task. The mechanism of education quality management is a system of specific measures. These measures are interconnected and inter-structured.

Allahverdiyeva Münəvvər Rasim qızı
ADPU- nun magistrantı
Elmi rəhbər: dos., p.f.d. E.Hüseynova

ALİ PEŞƏ TƏHSİLİ VƏ TƏHSİL MENECMENTİ SOSİOMƏDƏNİ FENOMEN KİMİ

Ölkəmizdə demokratik cəmiyyət quruculuğu prosesində şəxsiyyətin hərtərəfli inkişafı, insan problemi, onun vəziyyəti və gələcəyi, şəxsiyyət kimi onun inkişafı və fərdi taleyi, ətraf mühitə onun fəal və getdikcə güclənən təsiri bu gün bəşəriyyətin həyatı əsasları ilə bağlı ictimai problemlərlə yanaşı gələcək müəllimin pedaqoji mədəniyyətinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsi də xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu yaradıcı şəxsiyyət və vətəndaşın formalaşdırılması problemlərini müəyyən edir. Qanunda deyilir ki, təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrə və demokratiya prinsiplərinə, insasən hüquqlarına və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil,yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdən ibarətdir [1]. Bu əsas məqsədin həyata keçirilməsindən gözlənən nəticə fəal Azərbaycan vətəndaşlarının yetişdirilməsidir.

Son zamanlarda bütün sahələrdə olduğu kimi təhsilin sosial-mədəni əhəmiyyətini artmış və keyfiyyətli idarəetməsində yeni yanaşmaların axtarılması mühüm əhəmiyyət kəsb edir. Bu, müasir cəmiyyətdəki həyatın bütün sahələrində, eləcə də təhsil sahəsində baş verən sürətli dəyişikliklərlə birbaşa bağlıdır. Keyfiyyətin yaxşılaşdırılması yeni təhsil fəlsəfəsinin əsas ideyası olmuşdur. Cəmiyyətin inkişafı və mövcudluğunun şərtləri və təhsil sisteminin bu dəyişikliklərə tez adaptasiya edilməməsi arasında artan uyğunsuzluğu ilə keyfiyyətin yaxşılaşdırılması, ona nail olmaq üçün vasitələrin effektivliyi və idarə edilməsi zərurəti xüsusilə güclənməyə başlamışdır. Bunun nəticəsi olaraq öyrənmə problemi yeni bir şəkildə həyata keçirilmiş və həyat boyu öyrənmə probleminə çevirilmişdir.

Peşə təhsili müəssisələrinin fəaliyyət istiqamətində müəyyən olunmuş meyllər peşə təhsili sisteminin səmərəliliyini artırmaq onun sosial-mədəni inkişafının pedaqoji rəhbərliyini dəyişdirmək üçün əsasdır.

Sosial-mədəni fəaliyyət xarici idarəetmə və tənzimləməyə tabedir, eyni zamanda özünütənzimləmə və özünü inkişaf etdirmək üçün böyük bir daxili potensiala malikdir və beləliklə, həm idarəetmə obyekti, həm də subyekti kimi görünür, daxili quruluşunu və içindəki prosesləri daha dərindən düşünmək lazım gəlir.

Sosial-mədəni idarəetmənin məqsədi sosial-mədəni sahədəki bütün iştirakçıların maraqlarını həyata keçirmək və birləşdirmək üçün şərait yaratmaqdır:

- vətəndaşlar;
- əhali qrupları;
- özünü təşkil edən birləşmələr;
- yaradıcı kollektivlər;
- birliklər;
- təşkilatlar;
- sosial institutlar;
- sosial-mədəni proseslərin inkişafında səmərəli qarşılıqlı fəaliyyət üçün mütəxəssislər;
- insanların həyatının yaxşılaşdırılması.

Nəticə etibarilə problemlər və həll yolları, çətinliklər və müvəffəqiyyətlər burada cəmləşir, burada ziddiyyətli tendensiyalara həll və sosial-mədəni fəaliyyətlərin idarə olunması üçün optimal həll yolları axtarılmalıdır. İdarəetmənin əsas subyekti həm nəzəri, həm də praktik olaraq mədəni siyasət və idarəetmənin yaradıcısı və icraçısı kimi fəaliyyət göstərən şəxsdir.

Hal-hazırda cəmiyyətin informasiyanın ən dəyərli əmtəəyə çevriləcəyi inkişaf dövrünə girməsi ilə sosial-mədəni qurumların rolu artmaqdadır. Burada xüsusilə böyük bir rolu əldə etmə və emal etmə bacarıqlarının qoyulduğu məktəblər və mədəniyyət müəssisələri oynayır. Bu, daha çox hər bir insanın gələcəkdə özünü göstərə biləcəyinə, həyatda öz yerini tapa biləcəyinə bağlıdır.

Sosial-mədəni qurumlar rəhbərinin bu vəziyyətdə vəzifəsi şəxsiyyətin inkişafı üçün lazımi şəraiti təmin etmək, özünü maksimum reallaşdırması üçün əlverişli bir atmosfer yaratmaqdır.

Buna baxmayaraq, mədəniyyət və təhsil müəssisələri zəka səviyyəsi, texniki inkişaf baxımından ətrafdakı cəmiyyətə ən yaxşı və yenini qəbul etmək üçün mümkün qədər yaxın olmalıdır.

Son illərdə ortaya çıxxan yeni bir idarəetmə metodu - innovasiya idarəetməsidir ki, bu da yenilikçi idarəetmə proseslərini öyrənən bir elm sahəsidir.

İdarəetmə alt sistemi həm məktəbin işlənməsi və inkişafının bu və digər problemlərinin həllinə, həm də ümumiyyətlə məktəbin problemlərinin həlli üçün vasitə və şərt olan aktual idarəetmə problemlərinin həllinə yönəlməlidir.

Bir elm olaraq idarəetmə çoxdan mövcuddur, bu elmi bilik sahəsi üzrə bir çox rus və avropa tədqiqatçılarının əsərləri var, lakin vəziyyət bunu tələb etsə də, bütün bu yeniliklər indiki şəraitdə tam tətbiq olunmur.

Sosiomədəni yanaşmada cəmiyyət, mədəniyyət fenomeni olan təhsil və şəxsiyyət birbiri ilə qarşılıqlı təsirlərdə olan sosiomədəni sistemlər kimi çıxış edir. Mədəniyyət təhsilin təkcə xarici mühitini deyil, həm də "daxili aləmi"ni, strukturunu təyin edir. Təsadüfi deyil ki, tədqiqatçılar son zamanlar "mədəni-təhsil məkanı" anlayışını işlədir, bununla da təhsili mənəvi-mədəni proses kimi nəzərdən keçirirlər. Bu mənada təhsil ilə mədəniyyətin nisbətinin, bir-biri ilə qarşılıqlı əlaqələrinin və qarşılıqlı təsirlərini üzə çıxarılması, başqa sözlə, "təhsil" anlayışını və onda mədəniyyətin yerini və əksinə, "mədəniyyət" anlayışının və onda təhsilin yerini dəqiqləşdirilməsi aktual məsələlərdən biridir. [2]

Təhsilin keyfiyyəti təhsili məzmunun bütövlüyü, təlim texnologiyalarının, monitorinq üsullarının və subyektin həyatının öz müqəddəratını təyin etməsinin fərdi inkişafı və yeni sosial-iqtisadi şəraitdə cəmiyyətin tələbləri baxımından qiymətləndirilməsidir. Bu baxımdan təhsilin keyfiyyəti konsepsiya kimi qəbul edilir, təhsil sisteminə qoyulan məqsədlərə nail

olmasını təmin etmək, müəyyən bir insanın təhsilə olan tələbatını, cəmiyyətin və iqtisadiyyatın ehtiyaclarına uyğunluğunu təmin etmək üçün bacarığı əks etdirir. Bu gün sosial-mədəni və şəxsiyyətyönümlü təhsilin formalaşması problemi ən aktual milli problemlərdən biridir. Bu problemin mövcud vəziyyəti bir tərəfdən insanın intellekti və əxlaqı üçün artan tələblər, onun dizayn və proqnozlaşdırma qabiliyyəti arasındakı artan ziddiyyətləri əks etdirir ki, bu da nəticədə peşəkarlıq səviyyəsi üçün tələblər sistemində özünü göstərir. Təhsil alan hər bir şəxs cəmiyyət üzvlərinin ümumi mədəniyyətinin və digər tərəfdən təhsil və inkişafın həqiqi səviyyəsinin göstəricisidir. Təhsil sahəsində mövcud olan ziddiyyətlərin həlli bu sahədə zamanın tələblərinə cavab verən köklü dəyişikliklər, təkmilləşdirmələr yolu ilə əldə edilə bilən yeni təhsil modelinin formalaşması ilə əlaqələndirilir.

Azərbaycan təhsilinin, xüsusən də təhsil müəssisələri səviyyəsində idarəetmə islahatının prioritet istiqamətlərindən biri təhsil sahəsində idarəetmənin tətbiqi ilə bağlı əsas nəzəri və metodoloji mövqelərin hazırlanmasıdır . Təhsildə islahatların həm inkişafındakı müasir tendensiyaların müəyyənləşdirilməsi və dərk edilməsi, həm də təhsilin modernləşdirilməsinin sosial-fəlsəfi əsaslarının müəyyənləşdirilməsi ilə əlaqəli yaradıcı axtarışlara ehtiyac var.

Təhsilin məqsəd və məzmununun dəyişdirilməsi, müxtəlif idarəetmə texnologiyalarının formalaşması üçün ilkin şərtlər.

Bu gün inkişaf etməkdə olan təhsil müəssisəsində əsas idarəetmə obyekti olan yenilik prosesi, menecerdən mövcud təhsil idarəetmə sistemini tənzimləməyi və modernləşdirməyi, idarəetmə təsirlərinin dəstini tənzimləməyi və yeni idarəetmə texnologiyalarına yiyələnməyi tələb edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının 'Təhsil haqqında' Qanunu
2. file:///C:/Users/2020/Downloads/809-Article%20Text-2910-1-10-20190824.pdf

Allahverdiyeva Münəvvər Rasim qızı
ADPU- nun magistrantı
Elmi rəhbər: dos., p.f.d. E.Hüseynova

İSLAHAT ŞƏRAİTİNDƏ PEŞƏ TƏHSİLİ SİSTEMİNİN VƏZİYYƏTİ

İstənilən bölgənin əsas rəqabət üstünlüyü insan resurslarının inkişafı, xüsusən də əhalinin təhsil səviyyəsinin artması ilə təmin edilir. Hal-hazırda məhz orta peşə təhsili sahəsində istər müəssisələr, istərsə də bütövlükdə ölkə üçün sabit iqtisadi inkişafın təmin edilməsi əsas məqsəd kimi qarşıda durur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" açıqlanıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bildirib ki, 5 strateji hədəfdən və 9 prioritetdən ibarət olan Strateji Yol Xəritəsində 2020-ci ilədək strateji baxış ölkədə əmək bazarının tələblərinə cavab verən mühəndis-pedaqoji heyətə, yenilənmiş təhsil proqramlarına (kurikulumlara) və peşə standartlarına malik pilot və optimallaşdırılmış peşə təhsili müəssisələrindən ibarət peşə təhsili və təlimi sisteminin formalaşdırılmasıdır [1].

Təhsildə yaxın gələcək üçün nəzərdə tutulmuş əsas vəzifələrdən biri də gənc nəsil üçün səmərəli, rəqabətədavamlı təhsil vermək olan dövlət təhsil siyasətinin həyata keçirilməsidir. Orta səviyyəli mütəxəssislərə artan tələbata uyğun olaraq, dövlət siyasəti orta peşə təhsili sisteminin qabaqcıl inkişafını təmin edir. Milli səviyyədə iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişafının təmin edilməsində prioritet məsələlərdən biri kimi peşə təhsilinə son zamanlarda daha çox diqqət ayrılır. Ancaq inkişafın irəliləməsi təkcə mütəxəssis hazırlığının artması ilə deyil, həm də təhsilin keyfiyyətindəki ilkin dəyişikliklərlə ölçülür.

Qeyd etmək lazımdır ki, işçilərin rolunun, yerinin və funksiyalarının dəyişməsini nəzərə alaraq orta peşə təhsilinin inkişafına müəyyən problemlər mane olur:

1. orta ixtisas təhsil müəssisələrinin idarəetmə sistemində çatışmazlıqlar;
2. təhsil müəssisələrinin digər müəssisələrlə ənənəvi əlaqələrinin pozulması,
3. təhsil müəssisələrinin maddi-texniki bazasının köhnəlməsi,
4. tələbələrin istehsalat təcrübəsi üçün bazaların çətinliklə seçilməsi;
5. tələb olunan keyfiyyətlərə malik kadrların tam hazırlığını təmin edə bilməməsi;
6. təhsil müəssisələrinin müasir müəssisələrdə peşəkar təcrübəsi olan liderlər və müəllimlər tərəfindən doldurulmaması.

Təcrübəyönümlü təlim rolunu oynayan orta peşə təhsili inkişafının vacib cəhəti onun istehsal sektoruna inteqrasiyasıdır. Buna, orta peşə təhsili sisteminin nəticələrinin istehsalın ehtiyaclarına uyğunluğu, tədris prosesinin iqtisadiyyatın müxtəlif sahələri və konkret işəgötürənlərin ehtiyaclarına yaxınlaşdırılması, tələbə hazırlığı ilə müəssisələrdə gələcək iş arasında əlaqənin təmin edilməsi amilləri aiddir.

Yeni istehsal texnologiyalarının meydana çıxması səbəbindən işəgötürənlərin daim dəyişən tələbləri orta ixtisas təhsili müəssisələrində təlimin məzmununun dəyişdirilməsini tələb edir. Bu baxımdan, təhsil müəssisələri işəgötürənlərlə birlikdə gələcək mütəxəssislərin hazırlanması, yeni fənlər və tələbə hazırlığı proqramları təqdim etmək üçün bir sıra peşəkar səriştələr inkişaf etdirir və tənzimləyir. Bütün bunlar tələbələrin praktiki təlim sisteminə təsir göstərir və müasir təhsil və informasiya texnologiyalarının tətbiqi əmək bazarında rəqabətə davamlı və tələb olunan mütəxəssislər hazırlamağa imkan verir.

Onu da qeyd etmək lazımdır ki, təhsil müəssisələri və işəgötürən şirkətlər daim birbirilə əməkdaşlıq etməlidir.

Belə əməkdaşlıq uzunmüddətli və strateji tərəfdaşlığa yönəldilməlidir. Orta peşə təhsilinin müasir sosial-iqtisadi şəraitdə modernləşdirilməsi üçün görülən tədbirlər yalnız gənclərin peşə hazırlığının təkmilləşdirilməsi problemini həll etmək deyil, həm də keyfiyyətcə dəyişdirmək üçün nəzərdə tutulmuşdur.

Orta peşə təhsili sisteminin məzunu dinamik iqtisadi şəraitdə işləməyə, sosial-iqtisadi prosesləri qavramağa və təhlil etməyə, inkişaflarını proqnozlaşdırmağa və onlara uyğunlaşmağa hazır olmağı təmin edən bir sıra səriştələrə sahib olmalıdır. Bir mütəxəssisin hazırlanması zamanı şəxsiyyətinin və peşə mədəniyyətinin inkişafına düzgün münasibət göstərmək lazımdır, bu da öz növbəsində peşəkar uyğunlaşma prosesini əhəmiyyətli dərəcədə asanlaşdırmağa imkan verir. Bunun üçün mütəxəssis hazırlığı keyfiyyətinin təmin edilməsində əsaslı dəyişikliklər tələb olunur. Yüksək keyfiyyətli peşə təhsili bu gün sosial müdafiə vasitəsidir, sabitliyin qarantıdır, bir insanın həyatının müxtəlif mərhələlərində peşəkar şəkildə özünü dərk etməsidir.

Təhsilin keyfiyyəti anlayışı çoxölçülüdür. Qeyd etmək lazımdır ki, təhsilin keyfiyyəti həm təhsil müəssisələrinin fəaliyyətindəki dəyişikliklərlə, həm də ətrafdakı sosial, iqtisadi, texnoloji və siyasi mühitdəki dəyişikliklərlə müəyyən edilən mürəkkəb bir inkişaf dinamikasına malikdir.

Orta peşə təhsili keyfiyyət təminatı sistemində aşağıdakı məqamlar qeyd oluna bilər:

1) orta peşə təhsili sahəsində siyasət onun keyfiyyətinin yüksəldilməsinə yönəldilmişdir;

2) cəmiyyət tərəfindən və təhsil keyfiyyətinə dair dövlət meyarları, normaları, standartları tərəfindən müəyyən edilib tanınması;

3) müəyyən təhsil keyfiyyətinə, yəni müəllim və şagirdlərin yüksək səviyyədə hazırlanmasına, tədris planlarının, didaktik və metodik materialların keyfiyyətinə, orta ixtisas təhsili müəssisələrinin müasir maddi-texniki, sosial və informasiya infrastrukturunun inkişafına kömək edən obyektiv şərtlər;

4) təhsil və tərbiyə proseslərinin təşkili üçün müasir texnologiyalar, habelə müxtəlif mərhələlərdə təhsilin keyfiyyətinin qiymətləndirilməsi metodları;

5) keyfiyyət baxımından kolleclərin idarə edilməsi və özünüidarəetmə mexanizmləri və vasitələri.

Təhsilin keyfiyyətinin təmin edilməsinin üçüncü, dördüncü və beşinci aspektləri - təhsil müəssisələrində tədris prosesinin təşkili üçün obyektiv şərtlər, texnologiyalar, keyfiyyətli

qiymətləndirmə metodları, idarəetmə və özünüidarəetmə mexanizmləri və vasitələri bir-biri ilə sıx bağlı olaraq, çoxölçülü alt sistem kimi çıxış edir və hər bir təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyətini xarakterizə edir.

Azərbaycan təhsilinin modernləşdirilməsi yolunda həyata keçirilən müvafiq təhsil standartının tətbiqi kontekstində müəllim və metodistlərin yaradıcılıq fəaliyyətində əhəmiyyətli bir artım var. Bu da öz növbəsində metodiki işin yaxşılaşdırılmasına, mütəxəssis hazırlığı keyfiyyətinin yüksəlməsinə səbəb olmşdur.

İbtidai, orta və ali peşə təhsili müəssisələrinin qarşılıqlı əlaqəsi aktual təhsil və metodiki problemlərin həllində, o cümlədən tədris prosesinin təşkilinin davamlılığının təmin edilməsində, davamlı peşə təhsili çərçivəsində əlaqəli tədris planları və tədris proqramlarının hazırlanmasında özünü göstərir.

Dövlət təhsil standartlarının yüksək səviyyədə tətbiqi işçilərdən yüksək peşəkarlıq tələb edir. Təhsilin keyfiyyətinin təmin edilməsində əsas rol müəllim heyətinə aiddir: mütəxəssis hazırlığı keyfiyyəti tədrisin keyfiyyəti ilə müəyyən edilir. Təhsildə mərkəzi fiqur olan müəllim təhsil proqramını tədris prosesində həyata keçirir, eyni zamanda təhsilin məzmununun formalaşmasında və yenilənməsində iştirak edir.

Xüsusilə müasir pedaqoji texnologiyalar sahəsində, elmi-praktik konfranslar, pedaqoji mühazirələr, peşə bacarıqları müsabiqələri, müasir pedaqogika və psixologiya, tədris və tərbiyə nəzəriyyəsi üzrə daimi seminarlar keçirilməklə pedaqoji kadrların özünütərbiyəsinə çox diqqət yetirilir.

Lakin bu, kadr probleminin hərtərəfli həllinə kömək etmir. Müəllim və digər pedaqoji kadrların keyfiyyət səviyyəsini yüksəltmək üçün ilk növbədə cəmiyyətin, dövlətin müəllimə, onun əmək haqqına və sosial statusuna münasibətini dəyişdirmək, layiqli yaşayış səviyyəsinə zəmanət və pedaqoji fəaliyyət üçün lazımi şərait yaratmaq lazımdır. Məhz bu şəkildə yeni nəsil yüksək ixtisaslı müəllimlərin, gənc müəllimlərin, sənaye işində təcrübəsi olan mütəxəssislərin texniki məktəblərə axınını stimullaşdırmaq mümkündür.

Son zamanlarda Azərbaycanda peşə təhsilinin inkişafına da xüsusi diqqət ayrılır. Müasir şəraitə uyğun olaraq peşə təhsilinin modernləşməsi nəinki təhsil sistemin də, eyni zamanda social-iqtisadi həyatda da müəyyən uğurların qazanılmasına şərait yaratmışdır.

Təhsil insanların cəmiyyətdə sosiallaşmasının başlıca mənbəyi hesab oluna bilər. peşə təhsili isə insanların cəmiyyətdə öz mövqelərini tutmasına kömək edir. Ölkəmizdə peşə təhsili hal-hazırda ilkin inkişaf mərhələsini yaşayır. Bu sahədə dövlətimiz tərəfindən bir çox islhatlar həyata keçirilir ki, bu islahatlar dab u gün özünü doğrultmaqdadır.

Texniki peşə təhsili müəssisələrində kadr hazırlığı keyfiyyətinin yüksəldilməsi və onun müasir dövrün tələblərinə cavab verən konseptual yanaşmaların işlənməsini, bu sahədə strateji fəaliyyət proqramının hazırlanmasını zəruri edir [2].

Ədəbiyyat

1. https://iqtisadiislahat.org/news/azerbaycan_respublikasinda_pese_tehsili_ve_telimini n_inkisafina_dair_strateji_yol_xeritesi_teqdim_edilib-165
2. http://unec.edu.az/application/uploads/2018/11/liyev-X-yal-Cavan-ir.pdf

Məmmədzadə Nigar Şahin qızı
ADPU, Menecment (Təhsilin təşkili və idarə olunması), magistrant

TƏHSİLDƏ MENECMENT İŞİNİN MAHİYYƏTİ VƏ ƏSASLARI

Açar sözlər: *menecmentlik, təhsildə menecment, idarəetmə, pedaqogika, psixologiya, menecer, pedaqoji proses*

Ключевые слова: *менеджмент, менеджмент в образовании, менеджмент, педагогика, психология, менеджер, педагогический процесс*

Key words: *management, management in education, management, pedagogy, psychology, manager, pedagogical process*

Menecment ümumən idarəetmə deməkdir. Bu ixtisas müəssisə idarəçiliyini və onun effektiv idarə olunmasinin yollarını öyrənir. Menecmentin əsas rolu müəssisənin fəaliyyətini, səmərəliliyini təşkil etməkdir. Bir çox hallarda müəssisənin əsas inzibati şəxsi baş menecer hesab edilir. Ümumilikdə, menecerlərin səlahiyyət və öhtəlikləri müəssisənin fəaliyyət forması və növündən asılı olaraq dəyişir. Menecment sahəsi üzrə çalışan şəxslər menecerlər adlanırlar. Menecment dedikdə təşkilatın məqsədlərinə çatmaq üçün resurslardan effektiv və səmərəli şəkildə istifadə etməklə həyata keçirilən işlərin məcmusu nəzərdə tutulur. Bu məzmun planlaşdırma, qərar qəbul etmə, təşkiletmə, liderlik və nəzarətdən ibarətdir. Menecment ixisası düzgün və effektiv idarəetməni öyrənir. Menecment geniş mənalı anlayış olduğundan onun idarətməsinin düzgün həyata keçirilməsi üçün təsnifləndirilməsi mühümdür. Çünki hər bir təsnifin öz iş öhtəlikləri və prinsipləri vardır.

İdarəetmənin mahiyyətini aşağıdakı prinsiplər tam və hərtərəfli əks etdirir:

1. kollegiallıqla vahid rəhbərliyin əlaqələndirilməsi;
2. idarəetmədə dövlət və ictimai əsasların əlaqələndirilməsi;
3. idarəetmədə elmilik, nəzəriyyə ilə praktikanın qırılmaz qarşılıqlı əlaqəsi;
4. idarəetmədə planlılıq;
5. idarəetmədə sistemlilik və komplekslilik;
6. idarəetmədə səmərəliliyə, yekun nəticələrə nail olmaq meyli;
7. idarəetmədə mərkəzləşdirmənin və desentralizasiyanın rasional əlaqələndirilməsi;
8. idarəetmədə demokratikləşdirmə və humanistləşdirmə.

İdarəetmənin prinsipləri idarəetmənin qanunauyğunluqlarının konkret təzahürü və inikasıdır. Məktəb pedaqoji sistemdir və elmi idarə etmənin obyektidir. Bu, təhsili təşkil edənlərin, rəhbər şəxslərin,müəllimlərin, şagirdlərin məqsədlərini müəyyənləşdirmək və nəticələrə nail olmaq üçün şəraiti yaratmaq,məzmunu seçmək,təhsil-tərbiyə işində müxtəlif vasitələrdən, forma və metodlardan istifadə etmək deməkdir.Belə halda idarəetmə pedaqoji sistemin məqsədə uyğunluğunu və bu sistemi təşkil edən komponentlərin yeniləşməsinə səmərəli təsir göstərmək imkanını saxlayır.

Təhsil bütün cəmiyyətin talehini həll edən mühüm bir prosesdir. Təhsil sahəsində baş verən bütün dəyişikliklər birbaşa olaraq cəmiyyətə, insanlarin həyat tərzinə, düşüncə qabiliyyətlərinə, xarakteristikalarına, elmin tərəqqisinə təsir edir. Hər şey təhsildən başlayır və hər şey təhsillə inkişaf edir, buna əsasən də Təhsilin idarə olunması, çox vacib bir məsələ, məsuliyyətli bir işdir.

Müasir təhsil sistemlərinin xüsusiyyətlərindən biri dövlət idarəetmə sistemindən dövlət-ictimai idarəetmə sisteminə keçilməsidir. Təhsilin dövlət-ictimai idarəetməsinin əsas ideyası təhsil problemlərini həll etmək üçün dövlətin və cəmiyyətin səylərini birləşdirmək, tədris prosesinin məzmununu, forma və metodlarını, müxtəlif tip təhsil müəssisələrini seçməkdə müəllimlərə, şagirdlərə, valideynlərə böyük hüquqlar və azadlıqlar vermək təşkil edir.*Təhsil menecmenti* dedikdə Təhsil prosesində həyata keçirilən bütün nüanslar ve həmin məsələlərin qanunauyğun formada idarə edilməsi nəzərdə tutulur.*Təhsil meneceri*dedikdə bu prosesin bütün detalları, bütün mərhələləri ilə maraqlanan və yaranan problemlərin həllinə çalışan perspektivli bir idarəedici başa düşülür.Əvvəllər bu vəzifəni direktorlar, mudir müavinləri icra edirdi, lakin prosesin təşkilindən müəyyən mənada xəbərsiz olurdular və təhsilini almadıqları üçün iş müəyyən qədər əksik həyata keçirilirdi. Lakin indi Təhsildə menecmentlik ixtisası və Təhsil meneceri peşəsi var və bu ixtisasa yiyələnmək istəyənlər bunun bütün pedaqoji-psixoloji aspektlərini öyrənirlər.

Təhsilin idarə olunması da özlüyündə *pedaqoji prosesdir* və bu prosesin iştirakçılarının qarşılıqlı təsiri ardıcıl, qarşılıqlı əlaqəli fəaliyyətlərdən və ya funksiyalardan yaranır:*işin*

təhlili, işin məqsədi və planlaşdırılması,işin təşkili, ona nəzarət, nizama salma və təshih etmə və.s buna aid edilə bilər.

Pedaqoji sistemdə müəllimlərlə şagirdlərin birgə fəaliyyəti mühüm amildir. Məktəbin məqsədi şəxsiyyətin mədəni inkişafının əsasını formalaşdırmaqdır. Bu əsas intellektual, əxlaqi, estetik, əmək, ekoloji, hüquqi və şəxsiyyətin digər mədəni aspektlərini birləşdirir. Ümumi məqsəd təhsil-tərbiyə işinin ayrı-ayrı istiqamətləri üzrə məqsədlərdə konkretləşdirilir.Nəticə həm ayrı-ayrı şagirdlərin, həm də ümumiyyətlə, şagird kollektivlərinin tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsini təmin edən daha sabit və real meyarların məcmuyudur.

Menecer bir idarəedici kimi bütün prosesin psixoloji tərəflərini də mənisəməli və çalışdığı insanlarının xarakteristikasına, psixologiyasına uyğun davranmağı bacarmalıdır.O idarəetmə psixologiyasına malik olmalıdır.İdarəetmə psixologiyası praktik psixologiyanın bir qoludur. Praktik psixologiyanın mövzusu isə insan münasibətləri problemidir. Bu baxımdan,

1. Menecerin şəxsiyyəti, özünü inkişaf etdirməsi.
2. İdarəetmə fəaliyyətinin psixoloji effektivliyi baxımından təşkili.
3. Menecerin kommunikativ bacarıqları.
4. İstehsal qrupundakı qarşıdurmalar və onların aradan qaldırılmasında menecerin rolu mühüm əhəmiyyət kəsb edir.

Təhsil menecmenti işini icra edən şəxs fəaliyyətində mütəşəkkil olmalıdır – hər bir insanın psixikasına uyğun olaraq müəssisənin tələblərinə dair mühit yaratmalıdır. Təbii ki, menecer də robot deyil və hər şeyi birbaşa bilə bilməz. Praktika daxilində, zamanla o işinin həm pedaqoji həm də psixoloji nüanslarını tam olaraq mənimsəyəcək. Səmərəli işləyən menecer nəinki əsas idarəetmə hərəkətlərini bilir və necə həyata keçirilməsini də bilir ,daim öz fəaliyyətini təhlil edir və inkişaf etdirir. Bir insanın ünsiyyətcil keyfiyyətləri doğuşdan verilmir, məsələn onlar velosiped sürmək və ya üzmək bacarığı kimi, xüsusi məşqlər nəticəsində inkişaf edir. Yalnız arzu və zamana ehtiyac var. İdarəetmə psixologiyası sahəsindəki mütəxəssislər uzun və müvəffəqiyyətlə inkişaf etdirilmiş qaydalar və ünsiyyət texnikalarına sahibdirlər ki, bu da onu yalnız bir forma deyil, idarəetmə amili halına gətirir. Bir menecerin etdiyi hər şey nəticəyə yönəldilməlidir. Nəticə isə minimal vaxt, səy və pul ilə problemin ən səmərəli və insansevər şəkildə həll edilməsidir. Ümumilikdə idarəetmə ünsiyyətinin düzgün təşkili və onun hər bir növü bu nəticənin əldə olunmasına kömək edir.

XÜLASƏ

İdarəetmə məsuliyyət tələb edən bir işdir. Hələ ki, təhsil kimi cəmiyyətin inkişafını təşkil edən sahədə bunun məsuliyyəti bir neçə dəfə artır. İdarəedici şəxs öz ixtisasının məzmunundan əlavə həmdə pedaqoji, psixoloji biliklərə də yiyələnməlidir. Təhsil menecment işi əgər doğru qurulmasa bu müəssisənin və dolayı yolla bütün Təhsil sisteminin axsaması deməkdir. Yəni menecer öz işinin strategiyasını doğru seçməli, atacağı addımları əvvəlcədən planlamalıdır. Qeyd etdiyim kimi həmdə Təhsil meneceri müxtəlif yaş qrupundakı insanlarla çalışdığı üçün hər birinin xarakterik xüsusiyyətlərinə, psixikasına uyğun davranmağı bacarmalıdır. Çünkü sağlam cəmiyyət yaratmaq, şagirdləri Təhsilə meyilləndirmək və daha çox elm verə bilmək üçün Təhsil menecerlərinin üzərinə böyükiş düşür. Onlar sadəcə bir müəssisəni idarə etməklə qalmır, həm də yeni nəsilin savadlı və sağlam düşüncəli fərdlər olması üçün çalışırlar.

РЕЗЮМЕ

Менеджмент - это работа, требующая ответственности. Она по-прежнему отвечает за развитие общества в сфере образования. Помимо содержания своей специальности, менеджер должен обладать педагогическими и психологическими знаниями. Если управление образованием не налажено должным образом, это учреждение и косвенное. То есть менеджер должен выбрать правильную стратегию для своей работы,

заранее спланировать шаги, которые необходимо предпринять. Как я уже сказал, менеджер по образованию должен уметь действовать в соответствии с характеристиками и психикой каждого человека, потому что он работает с людьми разных возрастных групп, а менеджеры в сфере образования могут учить больше. Они не только руководят учреждением, но и стремятся обеспечить, чтобы новое поколение было образованными и здравомыслящими людьми.

SUMMARY

Management is a job that requires responsibility. It is still responsible for the development of society in the field of education. In addition to the content of their specialty, the manager must have pedagogical and psychological knowledge. If education management is not properly established, this institution and indirect. That is, the manager must choose the right strategy for his work, plan the steps to take in advance. As I said, the Education Manager must be able to act in accordance with the characteristics and psyche of each person, because he works with people of different age groups. and education managers are empowered to teach more. They not only run an institution, but also strive to ensure that the new generation is educated and sane individuals.

Qeyd: Təhsil bizim gələcəyimizdir və ən çox onun idarəsi vacibdir. Təhsil menecerlərində müasir dövrdə ən çox ehtiyac duyulan şəxslərdir. Azərbaycanın elmi ilə inkişaf etməsi və bütün dünyada tanınması üçün şagirdlərin doğru yönləndirilməsi və Təhsil prosesin düzgün şəkildə idarəsi böyük əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov- “Təhsilin idarə olunmasının əsasları”.
2. Nurəddin Kazımov, Əliheydər Həşimov – “Pedaqogika” dərsliyi. Bakı 1996
3. Ə.S.Bayramov,Ə.Ə.Əlizadə -- “Psixologiya” Bakı 1998.
4. Ağasəf İmran – “Menecment” Bakı 2007.

Cahangirli Aynur
ADPU, Menecment (təhsilin təşkili və idarə olunması), II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d.,b/m Şəfiqə Veys qızı Zülfüqarova

İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ EDİLMƏSİNDƏ NƏZƏRİYYƏ İLƏ TƏCRÜBƏNİN QARŞILIQLI ƏLAQƏSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *İKT, texnologiya, təhsil, informasiya texnologiyaları, təhsil prosesi*
Ключевые слова: *ИКТ, технологии, образование, информационные технологии, образовательный процесс*
Key words: *ICT, technology, education, information technology, educational process*

İnformasiya kommunikasiya texnologiyalarının (İKT) təlim prosesində rolunu anlamaq üçün bu konsepsiyanın mahiyyətini başa düşmək lazımdır. "İnformasiya texnologiyası informasiya ehtiyatları ilə işləmə üsulları və vasitələri haqqında bir məlumat toplusudur". İnformasiya kommunikasiya texnologiyaları informasiya ilə işləmək üçün xüsusi metodlardan, proqram təminatından istifadə edən pedaqoji bir texnologiyadır.

İnformasiya kommunikasiya texnologiyalarının (İKT) təhsil sistemində istifadəsi yeni dövr pedaqoji elmin təhsilin informatlaşması sahəsi kimi inkişaf etməkdədir. Müasir təhsil sisteminin əsas vəzifələrindən biri də informasiya cəmiyyətində bir insanın formalaşmasına kömək edən layihə və proqramların hazırlanmasıdır. Müəllim heyətinin əsas məqsədi hər bir uşa-

ğın bacarıqlarının müəyyənləşdirilməsi və inkişafı, möhkəm təməl biliklərə sahib olan və müasir həyat şərtlərinə uyğunlaşa bilən bir şəxsiyyətin formalaşması üçün şərait yaratmaqdır. Təhsilin informatlaşması bu məqsədə çatmaq üçün vacib vasitələrdən biri kimi qəbul edilməlidir.

Təhsilin informatlaşması tətbiqi informatikanın bir istiqaməti kimi informatikanın pedaqogikaya tətbiqi məsələlərini öyrənir. Bu səbəbdən təhsilin informatlaşmasına pedaqoji informatika da deyirlər. Təhsilin informatlaşması təhsil sferasında İKT-nin texniki və texnoloji imkanlarının səmərəli reallaşmasına yönələn elmi-pedaqoji, tədris-metodik, elmi-metodik tövsiyələrin hazırlanması metodologiyası, texnologiyası və praktikasıdır. Təhsilin informatlaşması müasir pedaqoji innovasiyaların nüvəsidir (1). Müasir informasiya texnologiyalarının təhsil prosesinə böyük təsirini nəzərə alaraq, bir çox müəllim onları getdikcə daha çox metodik sisteminə daxil etmək istəyir. Şagirdlər tərəfindən müasir informasiya texnologiyalarından uğurla istifadə etmək üçün onların sistemli düşüncəsini və müasir insanın informasiya fəaliyyətinin bütün sahələrində istifadə olunan vacib fundamental anlayışları (məlumat, obyekt, sistem) mənimsəmələri inkişaf etdirilməlidir.

İnformasiya-kommunikasiya texnologiyalarına əsaslanan tədris vəsaitlərinin meydana çıxması, şagird və müəllim arasında informasiya qarşılıqlı fəaliyyətinə interaktiv tədris vasitələrinin daxil edilməsinə imkan yaratmışdır. Bu vəziyyətdə yalnız müəllimlə şagird arasında deyil, tədris mühiti ilə tələbə, müəllim və tədris mühiti arasında da təhsil məqsədinin aktiv qarşılıqlı əlaqəsi mövcuddur [2,s.38]. Müasir bir dərs artıq kompüter texnologiyası olmadan ağlasığmazdır. Buna görə də hesab edirəm ki, təhsil prosesində informasiya-kommunikasiya texnologiyalarından (İKT) səmərəli istifadə müasir təhsilin aktual problemidir.

Təhsil prosesində İKT-nin ən çox istifadə olunan istiqamətləri bunlar sayılır:

Multimedia təqdimatlarının yaradılması. Bu, tədris materialını canlı və əyani şəkildə təqdim etməyin ən asan və ən əlverişli yollarından biridir. Təqdimatların müəllifləri həm müəllimlər, həm də tələbələrdir. Multimedia texnologiyalarından istifadə edərkən bilik müxtəlif qavrayış kanalları (görmə, eşitmə) yolu ilə əldə edilir, buna görə daha yaxşı mənimsənilir və daha uzun müddət yadda qalır. İKT ilə müasir pedaqoji texnologiyaların inteqrasiyası idrak marağını stimullaşdırır, fənləri öyrənmək,motivasiya üçün şərait yaradır, öyrənmə və özünütəhsilin səmərəliliyinin artmasına və təhsilin keyfiyyətinin yüksəlməsinə kömək edir. (3).

İnternet resurslarından istifadə . Buraya yalnız müasir məlumatların axtarışı deyil, həm də əməliyyat məlumat mübadiləsi daxildir. İnternet şagird və müəllimlərə sinifdən kənarda qrup işi üçün əlverişli yerlər təqdim edir.

Didaktik oyunlar və dərsliklərlə işləmək. Təhsil prosesinin oyunlaşmasını təşviq edir, tələbələrin motivasiyasını stimullaşdırır, əldə edilmiş biliklərin məktəblilər üçün əyləncəli bir şəkildə idarə olunmasına və sistemləşdirilməsinə imkan verir.

Demək olar ki, İnformasiya kommunikasiya texnologiyaları istənilən növ dərs zamanı və istənilən vaxt tətbiq oluna bilər:

Yeni material izah edərkən. İKT-nin köməyi ilə şagirdlər yeni bir mövzunu təsirli şəkildə təqdim edə, problemi müəyyənləşdirə bilərlər; müəllimin nitqini video və səs materialları, şəkillər, diaqramlarla təsvir edərək parlaq bir multimedia təqdimatı müşayiət edə bilərlər.

Şagirdlərin müstəqil işlərini təşkil edərkən. İnformasiya texnologiyaları həm fərdi, həm də qrup işi təşkil etməyə imkan verir. Dərsdə şagirdlər məlumatları axtara və seçə, yaradıcı tapşırıqlar hazırlaya və multimedia məhsulları yarada bilərlər.

İnkişaf qiymətləndirilərkən və izlənərkən. İKT nəzarət və müstəqil işlərin müasir formada aparılmasına (interaktiv onlayn testlər) imkan verir, eyni zamanda əldə edilmiş nəticələri məlumat bazalarına sürətlə yoxlayır və daxil edir.

İşin nəticələri göstərir ki, təlim prosesində informasiya və kommunikasiya texnologiyalarından sistematik istifadə aşağıdakılara gətirib çıxarır: şagirdlərin biliklərinin keyfiyyətinin yüksəldilməsinə; mövzuya olan marağın artması; valideynlərin və işəgötürənlərin məzunların-

dan məmnunluğu; tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafı; tədqiqat bacarıqlarının formalaşması.

Ədəbiyyat

1. Azərbaycan müəllimi.- 2013.- 15 mart.- S.9.

2. Роберт И.В. Информационные и коммуникационные технологии в образовании: учебно-методическое пособие / И.В.Роберт, С.В.Панюкова, А.А.Кузнецов, А.Ю.Кравцова; Под ред. И.В.Роберт. — М.: Дрофа, 2008. — 312 с.

3. Трайнев, В.А. Новые информационные коммуникационные технологии в образовании / В.А.Трайнев, В.Ю.Теплышев, И.В.Трайнев: Ун-т информатизации и управления. – М.: Дашков и КО, 2017.

4. Abbasova S.E., Mahmudova R.Ş. "Yeni nəslin inkişafında informasiya texnologiyalarının rolu", Ali problemləri: sosial demoqrafik aspektlər elmi-praktiki konfransının materialları, Bakı, 2004

Cahangirli Aynur

İnformasiya kommunikasiya texnologiyalarından istifadə edilməsində nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqəsinin əhəmiyyəti

XÜLASƏ

Məqalə informasiya-kommunikasiya texnologiyalarının tədris prosesində istifadəsinə, şagirdlərin öyrənməyə marağının artırılmasına, idrak marağının stimullaşdırılmasına, fənlərin öyrənilməsinə, motivasiya yaradılmasına həsr edilmişdir. Təhsil prosesində informasiya və kommunikasiya texnologiyalarının istifadəsi ilə nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəsi daha uğurlu və effektiv nəticə verir.

Джахангирли Айнур

Важность взаимодействия теории и практики в использовании информационных и коммуникационных технологий

РЕЗЮМЕ

Статья посвящена использованию информационных и коммуникационных технологий в учебном процессе, повышению интереса студентов к обучению, стимулированию познавательного интереса, изучению предметов, созданию мотивации. Взаимодействие теории и практики с использованием информационных и коммуникационных технологий в учебном процессе дает более успешный и эффективный результат.

Jahangirli Aynur

The importance of the interaction of theory and practice in the use of information and communication technologies

SUMMARY

The article is devoted to the use of information and communication technologies in the educational process, increasing students' interest in learning, stimulating cognitive interest, studying subjects, creating motivation. The interaction of theory and practice with the use of information and communication technologies in the educational process gives a more successful and effective result.

III BÖLMƏ
TƏHSİLDƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT

Kazımlı Fəridə Elçin qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, 2-ci kurs magistrantı
Elmi rəhbər:dos. Ə.İ.İsmayılxanova

AİLƏDƏ MƏNƏVİ-PSİXOLOJİ MÜHİT

Açar sözlər: *ailə, cəmiyyət, qayğı, məhəbbət, münasibət*
Ключевые слова: *семья, общество, забота, любовь, отношение*
Key words: *family, society, care, love, attitude*

Yaşadığımız, doğulub boya-başa çatdığımız Azərbaycan dövləti dünya ölkələri ilə müqayisədə öz möhtəşəmliyi ilə, öz tolerantlığı ilə seçilir. Çoxmillətli Azərbaycan Respublikası dinindən, dilindən, irqindən, milli mənsubiyyətindənasılı olmayaraq xoşbəxt, firavan yaşamağa çalışan bir dövlətdir.

Təxminən ölkəmizdə dörd milyona yaxın ailə vardır. Ailə cəmiyyətin özəyi hesab olunur. Mənəviyyatımız mövcud normal ailələrdən asılıdır. Elə ona görədir ki, dövlətimizin istəyi qurulan ailələrin möhkəm olması, nigahlarının uğurlu olması və dünyaya gələn körpələrin düzgün tərbiyə olunmasıdır. Hər ailədə dünyaya göz açan uşaqlar böyüyüb boya-başa çatacaq, təhsil alacaq, aldıqları ixtisas üzrə fəaliyyət göstərəcək və cəmiyyətin gələcək qurucusuna çevriləcək. Uşaqlara nə qədər düzgün tərbiyə versək, mənəviyyatını nə qədər sağlam formalaşdırsaq, gələcəyimiz bir o qədər sağlam dayaqlar üzərində bərqərar olacaq.

Buradan belə bir fikir yaranır ki, qurulan dövlətin, formalaşan cəmiyyətin inkişafı, möhkəmliyi, qüdrəti müəyyən mənada qurulan ailələrin möhkəm təməlindən, orada hökm sürən mənəvi-psixoloji iqlimin sağlam olmasından asılıdır. Sağlam ailədən tələb olunan hansı xüsusiyyətlər ailənin xoşbəxt yaşamasına zəmin yaradır, ailənin mənəvi-psixoloji mühitinin əsasını qoyur ki, bunu belə ifadə etmək zəruridir:

- qarşılıqlı anlaşma, sevgi,bir-birini başa düşmə;
- bir-birinin sevincinə, kədərinə şərik olmaq, qayğısına qalmaq, qarşılıqlı kömək;
- övladlarının tərbiyəsi, təhsili, sağlamlığı, uğurlu gələcəyi naminə yorulmadan çalışmaları.

Azərbaycanda belə bir deyim vardır: “Övlad ailənin güzgüsüdür”. Buradan belə bir məna çıxarmaq mümkündür ki, uşağı necə tərbiyə etsən, o da ailəsini cəmiyyətə o cür təqdim edəcək. Odur ki, hər bir valideyn tərbiyə məsələsində çox diqqətli olmalıdır.

“Hegelinbelə bir fikri var: “Ailəninyaradılmasının əsaslarıtəbii meyldən deyil, təsadüfi etirasdan və müvəqqəti şıltaqlıqdanyüksək duran qadın və kişi arasındakı mənəvi və əxlaqi əlaqədənibarətdir”.”Bu hikmətli sözlərin dərin mənası vardır.Ailənin mənəvi-psixoloji vəziyyəti Hegelin dediyicəhətlərdən çox asılıdır. Ailədə bir-birinin ardınca dünyaya gələn uşaqlar nəticəsində ailə daha da genişlənir və yeni-yeni münasibətlər meydana gəlir. Əgər bu münasibətlərdüzgün bir şəkildə tənzimlənərsə və idarə edilərsə ailədə düzgün mənəvi-psixoloji münasibətlər də möhkəmlənər.

Professor Əbdül Əlizadə haqlı olaraq belə qənaətə gəlmişdir ki, “Ailədə psixoloji iqlim ailə üzvlərinin birgə fəaliyyətinin, onların şəxsiyyətlərarasımünasibətlərinin nəticəsində yara-

nır. Lakin ər-arvad, ata-ana, övladlararasındaqarşılıqlı münasibət daha çox hisslərə əsaslanır .Buna görə də ailənin həyatında psixoloji iqlim xüsusilə mühüm rol oynayır".

Ata-ana, baba-nənə və ailənin digər fərdlərіarasında bir-birini anlama, qarşılıqlı hörmət və məhəbbət, qayğı, qarşılıqlı yardım, birinin digərinə dayaq durması, səmimiyyət, mehribançılıq, gülərüzlülük ailə arasında mənəvi-psixoloji norma olmalıdır. Belə olduqda ailədə müsbət mənəvi-psixoloji mühiti bərqərar olar.

Ümumiyyətlə, ailədə mənəvi-psixoloji iqlimi pozan əsas amillər ailə üzvləri arasında qarşılıqlı anlaşmazlıq, mübahisələr nəticəsində yaranır. Odur ki, əsrlərlə yaşanan bu problemlərin çözülməsi ailənin xoşbəxt yaşamasına səbəb olar. Bəzi insanlar isə bu problemin həll olunmasında gənc ailənin ayrı yaşamasının tərəfdarı olurlar. Ancaq bu da çıxış yolu deyildir. Əsas məsələ ailənin hər bir fərdinin öz üzərinə düşəcək vəzifənin öhdəsindən məsuliyyətlə gəlməsidir. Hər kəs ailədə öz vəzifəsini başa düşsə, anlasa ailələrdə müsbət mənəvi-psixoloji mühit yaranar, ailə xoşbəxt yaşayar.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası. Bakı "Maarif" 1998, 192 səh.

2. Akif Abbasov " Milli əxlaq və ailə etikası", Bakı 2008, 340 səh.

SUMMARY

Family is the most important thing in every person's life.It is in the family that we learn to love, understand each other, take care of loved ones, forgive offenses, respect elders.Relatives will always provide support in difficult times, help in word and deed.People who love you will certainly rejoice at your successes and achievements, and even share with you the bitterness of failures, but this is so necessary: to know that you are not alone.

РЕЗЮМЕ

Семья – это самое главное, что есть в жизни каждого человека. Именно в семье мы учимся любить, понимать друг друга, заботиться о близких, прощать обиды, уважать старших. Родныевсегда окажут поддержку в трудную минуту, помогут словом и делом. Любящие тебя люди обязательно порадуются твоим успехам и достижениям, и даже разделят с тобой горечь неудач, а ведь это так необходимо: знать, что ты не один.

Kazımlı Fəridə Elçin qızı
ADPU, Pedaqogika nəzəriyyəsivə tarixi, 2-ci kurs magistrantı
Elmi rəhbər:dos. Ə.İ.İsmayılxanova

"KİTABİ-DƏDƏ QORQUD"DASTANINDA MİLLİ-ƏXLAQİ VƏ BƏŞƏRİ-MƏNƏVİ DƏYƏRLƏR

Açar sözlər: *Kitabi-Dədə Qorqud, hörmət, qəhrəmanlıq, adət-ənənə, tərbiyə*
Ключевые слова: *Китаби-Деде Горгуд, уважать, героизм, традиции, воспитание*
Key words: *Kitabi-Dada Gorgud,respect, heroism, traditions,bringing up*

Türk xalqları ədəbiyyatının ən qiymətli, şah əsəri sayılan "Kitabi-Dədə Qorqud" dastanı əsrlər keçsə də öz həmşəyaşarlığını özündə saxlamış, tarixi abidəyə çevrilmiş və gənclərimizin tərbiyəsində böyük rol oynamışdır.

Şifahi xalq yaradıcılığımızın ən gözəl nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanı tarixə türkdilli xalqların, oğuz elimin adətlərini, ənənələrini, mübarizə ruhunu, qəhrəmanlı-

ğını, igidliyini, yara, dosta, sirdaşa sədaqətini, məhəbbətini, ağbirçək-ağsaqqala hörmətini, yağı düşmənə olan nifrətini qızıl hərflərlə yazmışdır. Hər dəfə bu dastanı oxuduqca nəsə yeni bir fikirlə, ideyayla qarşılaşırsan. Onu oxuyan hər kəs sanki kamilləşir, əxlaqı cilalanır, saflaşır, düşüncələr yenilənir. Xalqımızın böyüklüyünə bir dahavurulursan. Ona görədir ki, hər bir ixtisas sahibi"Kitabi-Dədə Qorqud"u öz ixtisası baxımından təhlil etməyə çalışır. Pedaqoqlar pedaqoji cəhətdən, psixoloqlar psixoloji cəhətdən, filosaflar etik-fəlsəfi cəhətdən, dilçilər və ədəbiyyatşünaslar filoloji cəhətdən, tarixçilər tarixi cəhətdən nə qədər araşdırsalar da hələ də bu nadir sənət nümunəsi üçün hər dəfə yeni-yeni zəngin fikirlər, ideyalar tapırlar.

"Kitabi-Dədə Qorqud" dastanı zəngin tərbiyəvi nümunələrlə dolu olan bir epopeyadır. Bu dastan bizim keçmişimizin göstəricisidir. Məlumdur ki, hər bir insanın şəxsiyyət kimi necə formalaşacağı, gələcək həyatında hansı mövqeni tutacağı onun valideynlərindən aldığı tərbiyə ilə səciyyələnir. Buna görə də oğuz elində ata-ana öz övladını əzizləməz, onları daima bərkə-boşa salar, yeri gələndə çətinliklə sınağa çəkərdilər ki, bədəni də, əzmi də möhkəmlənsin, polad tək bərk olsun, igid, qorxmaz, çevik və mübariz böyüsün.

Övladları böyüyüb boya-başa çatana qədər, yəni sınaq meydanında özünü göstərənə qədər ona ad vermirdilər. Qızlar da, oğlanlar da öz hünərlərinin, qabiliyyətlərinin və cəsarət-lərinin müqabilində adlarını alırdılar.Bu adət də vacib tərbiyəvi mahiyyət daşıyırdı. Yəni uşaqları elə kiçik yaşlarından tənbəllikdən qoruyur, onları cəsur, çevik, qəhrəman, mərd, igid tərbiyə etməyə çalışırdılar.

Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" dastanında tərbiyə məsələlərinə fikir verdikdə, buradakı tərbiyəvi prosesləri bir neçə istiqamətdə təhlil etmək mümkündür. Dastanın hər bir boyunda tərbiyənin tərkib hissələrinin hər birinə, eyni zamanda tərbiyənin metodlarına da birmənalı münasibət bildirilir və istər oğlanların, istərsə də qızların tərbiyəsində onların mənəvi keyfiyyətlərə yiyələnməsində valideynlərin, nənə-babaların və digər şəxslərin nümunəsiəsas götürülür. Hətta dastanda belə bir beytə rast gəlmək olur:

Qız anadan görməyincə öyüd almaz,
Oğul atadan görməyincə süfrə salmaz.

Bu da o deməkdir ki, qızlara analar öyüd verməli, oğlanlar isə atadan süfrə açmağı, yəni qonaqpərvər olmağı öyrənməlidir ki, gələcəkdə qızlar da, oğlanlar da aldıqları tərbiyəni öz övladlarına öyrədə bilsinlər.

"Kitabi-Dədə Qorqud" dastanındakı boyların hamısında oğul övladına nəslin şərəfi, iftixarı, dayağı, eyni zamanda nəslin davamçısı kimi tərbiyə aşılanır. Hətta ailəsinə, nəslinə mənfi hərəkəti, əməli, davranışı ilə töhmət gətirən övlad da tənqid atəşinə tutulur:

"Ata adını ucaltmayan fərsiz oğul,
Ata belindən enincə, enməsə yaxşıdır.
Ana bətninə düşüncə, doğulmasa yaxşıdır".

Dastanda qadına yüksək qiymətləndirilir. Qadının zərifliyi, zəifliyi ön plana çəkilir, gül ləçəyinə bənzədilən qadına daim hörmət və məhəbbət aşılanması göstərilir. Kitabın hər bir boyunda dədə-babalardan miras qalan əxlaqi saflıq, qadınına sevgi, onların qayğısına qalmaq kimi müsbət keyfiyyətlər öz əksini tapmışdır.

Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" dastanındakı bütün əxlaqi keyfiyyətlər, milli dəyərlər indi də övladlarımızın tərbiyəsində böyük rol oynayır. Onların əsil kişi kimi, vətənpərvər, Vətəni uğrunda canından keçən övladlar kimi böyüməsində valideynlərimiz üçün bir nümunədir. Bir cavanlarımızın bu cür tərbiyə olunduğunu indi də görürük. Azərbaycan əsgəri Qarabağ-Vətən müharibəsində qanları-canları ilə tarix yazırlar. Bu da ondan xəbər verir ki, biz necə gözəl, igid, qəhrəman övladlar böyütmüşük.Qəhrəman vətən oğulları öz babaları-

nın yolu ilə gedərək Böyük Azərbaycanı yağı düşməndən azad edirlər. Bayandır xanı, Qazan xanı, Dirsə xanı, Beyrəyi əvəz edən Mübarizlərimiz, Raminlərimiz, Poladlarımız, Dilqəmlərimiz, Şahbazlarımız, minlərlə adlarını çəkə bilmədiyimiz oğullarımız var. Lələtəpəuğrunda gedən döyüşlərdə şəhid düşən oğlandan soruşanda ki, adın nədir, son nəfəsində kamandirinə belə bir cavab verərək gözlərini həmişəlik yummuşdur: "Adım Vətəndir!". Bu sözlərlə onlar adlarını əbədiyyətə yazdılar. Vaxt gələcək bu qəhrəmanların adları bizim tarix kitablarımızı bəzəyəcək və onların qəhrəmanlığı gənc nəsil üçün əsl tərbiyə məktəbi olacaq. Biz bu gün onlarla fəxr edirik.

Ədəbiyyat

1. Rüfət Hüseynzadə "Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir" Bakı «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 336 səh.
2. Akif Abbasov " Milli əxlaq və ailə etikası", Bakı 2008, 340 səh.

РЕЗЮМЕ

«Китаби-Деде Горгуд» — самый древний памятник письменного народного творчества Азербайджана. Книга является грандиозным памятником искусства, занимающего исключительное место в сокровищнице культурных богатств азербайджанского народа и ставшего на протяжении столетий неотъемлемой составной частью национально-духовной самобытности. В этом произведении говорится о патриотизме, героизме, мудрости, дальновидности, духовных ценностях, обычаях и традициях огузских тюрков. Дастан является незаменимым источником для изучения тонкостей азербайджанского языка, исторических событий и личностей, культуры азербайджанского народа.

SUMMARY

"Kitabi-Dede Gorgud" is the most ancient monument of written folk art of Azerbaijan.The book is a grandiose monument of art, which occupies an exceptional place in the treasury of the cultural wealth of the Azerbaijani people and has become an integral part of the national and spiritual identity over the centuries.This work speaks of patriotism, heroism, wisdom, foresight, spiritual values, customs and traditions of the Oghuz Turks.Dastan is an irreplaceable source for studying the intricacies of the Azerbaijani language, historical events and personalities, the culture of the Azerbaijani people.

Həsənova Səkinə Mirəziz
Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant
Elmi rəhbər: dos. Ə.M. Abbasov

MƏTNİN TƏDRİSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRDƏN İSTİFADƏ METODLARI

Açar sözlər: *mətn, milli-mənəvi dəyərlər, xalq, vətənpərvərlik, adət-ənənə, böyüyə hörmət*
Ключывые слова: *текст, национальные и моральные ценности, нация, патриотизм, обычаи и традиции*
Keywords:*text, national and moral values,nation, patriotism, traditions, respect for elders*

Mətninorta məktəbdə tədrisi şagirdlərə istər elmi biliklərin, istərsə də müxtəlif informasiyaların verilməsində çox önəmlidir. Mətn, mətn dilçiliyində öyrənilir. Mətn dilçiliyinin "öyrənilməsi" çox gec baş vermişdir. Mətnin öyrənilməsi ötən əsrin 20- ci illərində başlanılsa da,bu elmin inkişafı XX əsrin 70-80-ci illərinə təsadüf edir. Mətnlərin orta məktəb kitablarında verilməsinin ən yaxşı yönlərindən biri şagirdlərin nitqinin zənginləşməsi, dinləyib-

anlama və danışma,oxuyub-qavrama və s. kimi vərdişlər aşılanmasıdır.Nitqin zəngin və dolğun olması, fikrin daha aydın çatdırılmasında xüsusi əhəmiyyət kəsb edir. Dərs zamanı şagirdlərin oxu qabiliyyətinin inkişaf etdirilməsi üçün Azərbaycan dili dərsləri sistemli şəkildə keçirilməlidir.Şagirdlərin inkişafında sinifdənxaric oxular xüsusi əhəmiyyət kəsb edir. Çünki şagird oxuduğumətni qavrayır və dərk edir, eyni zamanda oxu bacarığı və dinləmə bacarığı şagirdlərə aşılanır. Mətnin daha faydalı tərəflərindən biri də, şagirdlərin leksikonunun zənginləşməsinə xidmət etməsidir. Şagirdlər oxuduğu mətndə, yeni qarşısına çıxdığı sözü qeyd edib və onu dərindən araşdıra bilir. Bununla da, şagirddə yeni sözün mənası, mənşəyi, hansı sözdən yaranması, hansı tip cümlələrdə işlənməsi haqqında biliklər əldə etməklə yanaşı, araşdırıcılıq qabiliyyəti yavaş-yavaş inkişaf edir. Şagirdlərə əxlaqi və əqli biliklərin ötürülməsində mətnlərin rolu böyükdür. Orta məktəb dərsliklərinə salınan mətnlər istər ədəbiyyat dərsliyində, istərsə də Azərbaycan dili dərsliyində şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınaraq salınır. Mətn nümunələrinin şagirdlərin inkişafında istər psixoloji, istərsə də elmi cəhətdən önəmi böyükdür. Azərbaycan xalqının tarixi, uzun illərə dayanır və öz milli- mənəvi dəyərləri ilə həmişə seçilən xalqlardan biri olmuşdur. Milli dəyərlər xalqları bir- birindən fərqləndirir. "Milli-mənəvi dəyərlər nədir?- "Mənəvi dəyərlər" insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaranır". (1, s. 4).

Azərbaycan xalqı qədim tarixi, dövlətçilik ənənələri, qəhrəmanlıq salnamələri ilə həmişə seçilmişdir. Təkcə tarixdə deyil, bu gün də Azərbaycan xalqı, Azərbaycan Respublikası, dünya xalqları, dünya dövlətləri içərisində daim seçilmiş və seçilməkdədir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında ulu öndər Heydər Əliyevin xüsusi rolu olmuşdur. Xalqı xalq edən milli dəyərləri, tarixi, bu günü və gələcəyidir. Azərbaycan xalqının bir xalq olaraq, formalaşmasında ulu öndərin böyük rolu vardır. Hər bir xalq özünün adət-ənənəsi, milli dəyərləri ilə seçilir. Bu adət-ənənələr onun ədəbiyyatında, dilində, kitablarında, eyni zamanda dərsliklərində öz əksini tapır. Milli-mənəvi dəyərlərin şagirdlərəaşılanmasındaorta məktəb dərsliklərinin xüsusi əhəmiyyəti vardır. "Uşaqlar bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, insan,vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, ölkənin yüksəlişində iştirak edən insan yetişdirmək deməkdir".(5, s. 8).

Dərsliklərdə, vətənpərvərlik, milli adət-ənənələr, böyüyə hörmət, kiçiyə qayğı kimi hisslər şagirdlərə aşılanmaqdadır. Dərsliklərdə ən çox rastlaşdığımız milli dəyərimiz olan vətənpərvəlik, tarixi həqiqətlərimiz təkcə tarix fənnində keçirilməməli, eyni zamanda ana dili, ədəbiyyat və digər fənnlərdə də tədris olunmalıdır. Hər kəs tariximizi və qəhrəmanlarımızı tanımalı, Azərbaycan xalqının zəfər tarixini bilməlidir. Dərsliklər içərisində, xüsusən, X-XI sinif ana dili dərsliyindəverilən mətn nümunələrində milli-mənəvi dəyərlərimizə nəzər salaq. Dərsliklərimizdə verilən mətnlərdəmilli dəyərlərimiz əsas götürülmüşdür. Məhz, X sinif ana dili dərsliyi dil haqqında mətnlə başlayır. "Dil haqqında ümummilli lider H.Əliyev belə demişdir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir"". (4, s 12).X sinif ana dili dərsliyinin ilk səhifələrində Ü.Hacıbəyli, N.Nərimanov, A.Qurbanov, X.Ulutürk, T.Bayram, A.Səhhət və B.Vahabzadənin dil haqqında olan fikirləri sitat olaraq gətirilmişdir. Dil haqqında şagirdlərə müfəssəl biliklər verildikdən sonra, şagirdlərə dil haqqında müxtəlif suallar verilir:

1. "Dil dedikdə nə başa düşürsünüz?
2. Dil sözü nə üçün ana sözü ilə yanaşı işlənir?
3. Nə üçün dil ünsiyyət vasitəsi hesab edilir? Daha hansı ünsiyyət vasitələrini tanıyırsınız?

4. Hər üç şairin şeirlərini müqayisə edin. Hansı nəticəyə gəldiniz? Müxtəlif illərdə və müxtəlif şəxslər tərəfindən yazılmasına baxmayaraq, bu şeirlərdə ümumi fikir nədən ibarətdir?

5.Ümummilli lider H.Əliyevin "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" müdrik kəlamı hansı şairin fikirləri ilə daha çox səsləşir? Fikrinizi əsaslandırın. Eyni fikirlərin təqdimedilmə formalarına diqqət yetirin. Hansı fərqləri müşahidə edə bildiniz?

6. X.R.Ulutürk öz dilini qala hesab etməkdə haqlıdırmı? Fikirlərinizi əsaslandırın". (4, s. 14).

Mətni oxuduqdan sonra, şagirdlər dil haqqında olan bu sualları cavablandıra bilirlər. "Dərsliyin üçüncü bölməsində milli-mənəvi dəyərlərimizə xüsusi yer verilmişdir. Bu bölmə "Milli irsimiz" adlanır. Burada "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu", "Vatikandan gələn var", "Azərbaycan mədəniyyət inciləri Fransada", "Bahar nəğmələri", "Azərbaycanın milli geyimləri" mətnləri milli-mənəvi dəyərlərin verilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu mövzularda şagirdlər milli-mənəvi dəyərlərin daşıyıcısı olan insanlarla, məkanlarla tanış olur, soy kökümüzə yaxından bələd olurlar. "Əsir ağacın hekayəti" və "Şəhidlər" mətnləri vətənpərvərlik hissinin aşılanması üçün dərsliyə salınmışdır".(3, s. 6).

Dərsliklərdə verilən mətnlərdə ən çox rastlaşdımız mövzu vətənpərvərlikdir. Azərbaycan xalqının vətənpərvərlik tarixi qədimlərə dayanır. Bu gün də o şanlı tariximiz davam etməkdədir. Şagirdlərə vətənə olan sevgi ilk öncə ailədə başlayır. Bu sevgi daha sonra, dərsliklərdə, məktəb həyatında şagirdlərə aşılanır. X sinif ana dili dərsliyində də bir çox mətn nümunəsi verilmişdir. Bu dərsliyin dördüncü bölməsində verilən "Əsir ağacın hekayəti" mətnində vətən sevgisi şagirdlərə aşılanır. Şagirdlər bu mətni oxuduqdan sonra, mətnin məzmunu ilə tanış olub bəzi suallara cavab tapmaqla yanaşı onların təsəvvüründə müəyyən fikirlər formalaşmış olur. Bu mətn,Kəlbəcər şəhərinin erməni qəsbkarları tərəfindən işğalınahəsr edilmiş bir mətndir. Mətnin suallar bölməsində şagirdlərə müxtəlif suallar verilir:

" 2. Mətnə əsasən, Kəlbəcərin işğal tarixini müəyyənləşdirin.

3. Mətndə hansı suala cavab yoxdur?

a) Məhəmməd dayı çinar ağacını hansı fəsildə əkmişdi?

b) Ata Çinar nə üçün Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin üzvlərinə azərbaycanlı əsirlərin yerini demək istəyirdi?

c) Ata Çinar Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti üzvlərinə hansı məlumatı vermək istəyərdi?

d) Avanesyanın Ata Çinarı hədələməsinin səbəbi nə idi?" (4, s. 156).

Bu suallara cavab tapdıqdan sonra, müəllim tərəfindən şagirdlərə müxtəlif suallar verilir. Müəllim, şagirdlərə interaktiv təlim metodlarından, sorğu metodu, BİBÖ, müzakirə və s. istifadə edərək müxtəlif suallar yönləndirə bilər.

XI sinif ana dili dərsliyində də müxtəlif milli-mənəvi dəyərlərimiz haqqında mətn nümunələri verilmişdir. "Bu dərsliyin II bölmə- "Dəyərlər", III bölmə- "Tariximiz", IV bölmə -"Azərbaycan"bölmələri milli dəyərlərimizə həsr edilmişdir". (2, s.4).Bu bölmələrdə yer alan mətnlərdən, "Gün var min aya dəyər", " Mən bir qadına aşiqəm" qadın hüquqlarına həsr edilmiş mətn nümunələridir. Daha bir mətn "Hardvard Universiteti" irqi və dini ayrı-seçkiliyə həsr edilmişdir. Müəllimin də yardımı əsasında şagirdlər bu cür ictimai məsələlər haqqında məlumatlanırlar.Milli-mənəvi dəyərlərin şagirdlərə aşılanması baxımından "Azərbaycan xalça sənəti", "Azərbaycan milli geyimləri" xüsusi seçilir. Tariximiz, vətən, vətənpərvərlik, qəhrəmanlıq kimi milli-mənəvi dəyərlərimizin yer aldığı mətnlər içərisində "Döyüş yoldaşlarına "qayıdacağam" demişdi", "Xocalı– qan yaddaşımız", "Salur Qazanın evinin yağmalandığı boy", "20 Yanvar– Ümumxalq Hüzn Günü", "Azərbaycan Silahlı Qüvvələri" və "Vətən"və s. xüsusi əhəmiyyət kəsb edir.Bu mətnləristər qəhrəmanlıq duyğularının şagirdlərə çatdırılması, istərsə də tarixi həqiqətlərimizin şagirdlərə çatdırılması baxımından çox önəmlidir. Qəhrəmanlığın tərənnümü, vətən müharibəsinə və onun qəhrəmanlarına həsr edilmiş mətnlər içərisində "Döyüşçü yoldaşlarıma "qayıdacağam" demişdi..." mətni xüsusi seçilir. Bu mətnlərlə,

şagirdlərə müxtəlif dəyərlərimiz, qəhrəmanlıq tariximiz,vətənpərvərlik, milli adət-ənənələrimiz və s. çatdırılır. Milli-mənəvi dəyərlərimizi bilmək, Azərbaycan xalqının keçdiyitarixi keçmişigələcək nəslə ötürmək hər birimizin borcudur.

Ədəbiyyat

1. Abdullayev A. Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. Bakı, "M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının mətbəəsi", 2011.85s.

2. Bektaşi S. Azərbaycan dili dərslik. 11-ci sinif.Bakı, "Şərq-Qərb", 2018,192s.

3. Hacıyev T., Bektaşi S.,Hüseynova Y. Ümumtəhsil məktəblərinin 10-cu sinfiüçün Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı."Şərq-Qərb",2017, 212s.

4. Hacıyev T.,Bektaşi S., Hüseynova Y. Azərbaycan dili 10-cu sinif dərslik.Bakı,"Şərq-Qərb", 2018, 208 s.

5. Qəmbərov Ş. Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur. Bakı, 2016. 60s

Həsənova S.

XÜLASƏ

Milli-mənəvi dəyərlərimizin şagirdlərə çatdırılmasında, dərsliklərdə olan mətnlərin xüsusi əhəmiyyəti vardır. Bu mətnlər sayəsində, gələcək nəsli milli dəyərlərimizlə tanış etmiş oluruq. Onlara müxtəlif dəyərlərimiz -qəhrəmanlıq və vətənpərvərlik hissləri aşılanır. Bununla yanaşı, şagirdlər müxtəlif adət-ənənələrimiz haqqında daha müfəssəl biliklər əldə edə bilirlər. Milli-mənəvi dəyərlərin şagirdlərə ötürülməsində müəllimlərin və onların istifadə etdikləri müxtəlif metodların xüsusi əhəmiyyəti vardır. Bir xalqı xalq edən onun milli dəyərləri, dini və dilidir. Milli dəyərlərimizi bilmək və öyrənmək hər kəsin borcudur.

ГасановаС.

РЕЗЮМЕ

Тексты в учебниках имеют особое значение в передаче учащимся наших национальных и нравственных ценностей. Благодаря этим текстам мы знакомимподрастающее поколение с нашими национальными ценностями. Им прививаются разные ценности- чувства героизма и патриотизма. В то же время студенты могут подробные знания о наших различных традициях. Учителя и различные методы, которые они используют, имеют особое значение для передачи учащимся национальных ценности, религия и язык делают нацию нацией. Каждый обязан знать и изучать наши национальные ценности.

HasanovaS.

SUMMARY

The texts in the textbooks have a special significance in conveying our national and moral values to the students. Thanks to these texts, we acquaint the next generation with our national values. They are instilled with different values- heroism and patriotism. At the same time, students can gain a more detailed knowledge of our various traditions. Teachers and the various methods they use are of special importance in transmitting national and moral values to students. It is its national values, religion and language that make a nation a nation. It is everyone's duty to know and learn our national values.

İsgəndərova Fəridə Zakir qızı
Azərbaycan Dövlət Pedaqoji universiteti

ALİ PEDAQOJİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN SOSİAL ADAPTASİYASI

Açar sözlər: *tələbəlik, sosial adaptasiya,sosial-psixoloji adaptasiya, tələbələrin sosial adaptasiyası, sosial adaptasiyasının çətinlikləri*

Ключевые слова: *студеичество, социальная адаптация, социально-психологическая адаптация, социальная адаптация студентов,трудности социальной адаптации*

Key words: *students, social adaptation, socio-psychological adaptation, social adaptation of students,difficulties of social adaptation*

Adaptasiya insanın ətraf mühitə uyuğunlaşmasıdır. Psixologiyada sosial adaptasiya sözü altında insanın aktiv olaraq sosial ətrafın şərtlərini mənimsəməsi və bu mənimsəmənin nəticəsi nəzərdə tutulur.

Araşdırmaçılar sosial adaptasiyanın üç növünü müəyyənləşdirmişlər:

1. Adaptasiya formal xarakter daşıyır. Bu mərhələdə tələbələr yeni məkana, yeni quruluşa, universitet həyatının tələblərinə və öz vəzifələrinə uyğunlaşırlar.
2. Bu mərhələ tələbələrin daxili inteqrasiyası (birləşməsi) xarakteri daşıyır. Birinci kurs tələbələri daha yuxarı kurs tələbələri ilə müxtəlif qruplarda birləşirlər və tələbə toplumunun bir hissəsi olurlar.
3. Didaktik mərhələ, bu mərhələdə tələbələr təhsilin yeni forma və metodlarına uyğunlaşırlar.

Tələbəlik illərinin əsas funksiyası tələbələr tərəfindən peşəkar bilik və vərdişlərin əldə olunmasından ibarətdir.Ali təhsil ölkəmizdə ənənəvi bir dəyərdir. Gənclər ali təhsili yalnız bir mütəxəssis üçün deyil, həm də sosial bir karyera üçün bir şərt kimi qəbul edirlər. Bu, universitetlərə qəbul üçün yüksək rəqabətə səbəb olur. Təhsilalma müddəti yalnız hazırlıq mərhələsi deyil, həmçinin peşəkarlığa uyğunlaşma mərhələsidir. Bu dövr gənclik yaşlarına təsadüf edir. Gənclik yaşları da öz növbəsində idrak müstəqilliyinin inkişafı, özünü dərk etmə, yaşıdları ilə ünsiyyət qurma ehtiyacı, peşə müqəddəratını təyinetmə, həyat planlarının meydana gəlməsi və formalaşması ilə xarakterizə olunur.

Tələbənin sosial uyğunlaşması çox çətin, olduqca dinamik, çoxmərhələli və çoxtərəfli prosesdir. Adaptasiya dövründə tələbənin psixofizioloji və psixoloji durumu formalaşır. Tələbənin adaptasiyasında onun milli mənsubiyyətini, valideyn tərbiyəsini və şəxsi xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Əgər tələbə adaptasiyanı gecikdirirsə, o zaman onda dezadaptasiya yaranır. Dezadaptasiya – sosial adaptasiyanın əks prosesi - fərdi üzvi və ya funksional bir zehni xəstəlik olduğu üçün ətraf mühit şərtlərinə uyğunlaşa bilmədikdə müşahidə olunur. **Dezadaptasiyanın bir sıra səbəbləri var:**

- Sosial-mədəni məhrumiyyət (tanış şərtlərdən məhrumiyyət);
- Özünü tənzimləmə üçün yetərli hazırlığın olmaması;
- Dinamik stereotiplərin pozulması;
- Peşəyə yiyələnmək üçün aşağı psixoloji hazırlıq və s.

Yəni, sosial uyğunlaşma problemlərindən danışarkən, sosiallaşmanın xarici və daxili şərtlərindəki dəyişikliklər problemindən danışmaq olar.

Sosial adaptasiyanın əsas elementi ünsiyyətdir,ünsiyyət zamanı şəxsiyyətin müəyyən davranışları yaranır, o sosial tələblərə riayət etməyə başlayır. Həmçinin spesifik bir fəaliyyət növü kimi ünsiyyət uyğunlaşmanın aparıcı amillərindən biridir. Sosial adaptasiyanın nəticəsi hər bir tələbədə həyat planlarının meydana gəlməsi və formalaşması ilə xarakterizə olunur.

Adapasiyanın göstəricisi adaptə olmaqdır. Elmi araşdırmalar adaptə olmanın əsas üç cəhətini müəyyən etmişlər.

1. Dərketmə müstəqilliyinin formalaşması;
2. Dəyərlərə yönəlmiş orientasiyanın formalaşması;
3. Ünsiyyət bacarıqlarının formalaşması.

Təhsilin ilkin mərhələsində tələbə gənclərin universitet rəhbərliyinin xüsusi qayğısına ehtiyacı var.Pedoqoji kollektiv birinci kurs tələbələrin sosial adaptasiyasının normal gedişatı-

na dəstək verməkdə hər zaman maraqlı olurlar. Bunun üçün universitetdə sosial məzmunlu tədbirlər, iclaslar keçirilir, ekskursiyalar təşkil olunur, sorğular aparılır. Sosial adaptasiyanı təmin etmək baxımından tələbələrin ailə üzvlərinin də dəstəyi önəmlidir. Bəzən sosial adaptasiyanın baş verməməsi tələbənin məhz ailədəki psixoloji durumu ilə əlaqəli olur. Buna görə də istənilən tələbənin sosial adaptasiyasında həm onun özünün, ailəsinin,həm də pedaqoji kollektivin birgə dəstəyi önəmlidir. Hər bir tələbənin sosial adaptasiyası özünəməxsus tərzdə keçir.

Ümumiyyətlə davamlı peşə təhsili sistemində ali məktəb tələbələrinin sosial uyğunlaşma prosesinin uğurlu şəkildə davam etməsi bir sıra fərziyyələrə əsaslanır:sosial adaptasiya gələcək müəllimlərin təhsil, sinifdənkənar, elmi,tədris və peşə fəaliyyətlərinin bütün aspektlərini əhatə edən təhsil və peşə mühiti ilə münasibətlərinin uyğunlaşdırılmasını təmin edən vahid bir proses olmalıdır, davamlı peşə təhsili sistemində təlimin hər mərhələsində norma və fəaliyyət qaydalarına və davranış qaydalarına yiyələnməlidirlər; gələcək mütəxəssislərin sosial adaptasiyası prosesinə müsbət təsir göstərən davamlı peşə təhsili imkanları, tələbənin şəxsi və peşə ehtiyacları baxımından səciyyələndirilməsinə imkan verən humanist pedaqoji paradiqma nöqteyi-nəzərindən nəzərdən keçirilməlidir, gələcək mütəxəssislərin sosial adaptasiyası prosesində böhran anlarını nəzərə alınmalıdır(təhsil müəssisəsinin sosial mühitinə daxil olmaq, yeni bir ünsiyyət sahəsinə daxil olmaq, sinifdənkənar fəaliyyətin xüsusiyyətləri və növləri, tələbələrin səviyyəsi nəzərə alınmaqla) təhsil, sinifdənkənar və peşə fəaliyyətində motivasiya, bütün fəaliyyət növlərini həyata keçirmə yollarını, metodları mənimsənilməlidir.

Uyğunlaşma prosesində tələbələr aşağıdakı əsas çətinliklərlə qarşılaşırlar:

- Bəzi aşa bilmədiyi keçmişdən gələn mənfi təcrübələr;
- Bir peşə seçmə motivasiyasının qeyri-müəyyənliyi, ona kifayət qədər psixoloji hazırlıq olmaması;
- Pedaqoqların gündəlik nəzarət vərdişinin olmaması ilə ağırlaşan davranış və fəaliyyətin psixoloji özünütənzimləmə apara bilməməsi;
- Yeni şəraitdə optimal iş və istirahət rejiminin axtarışı və s.

Beləliklə, sosial adaptasiya, mürəkkəb və çox səviyyəli bir proses olmaqla, insan həyatının müxtəlif sahələrində həyata keçirilir. Bir müddət olaraq, çətin bir həyat vəziyyətində olan bir insanın və ya bir sosial qrupun gerçək bir sosial mühitə uyğunlaşması deməkdir. Sosial uyğunlaşma prosesi fərdin (sosial qrupun) əvvəlki davranışının müvəffəqiyyət əldə etməsinə kömək etmədiyi və yeni sosial mühitin tələblərini nəzərə alaraq davranış modelini dəyişdirməyin lazım olduğunu bilməsi ilə başlayır. Davranış nümunələrini dəyişdirmək üçün şəxsiyyətin özünün aktiv bir mövqeyi tələb olunur. Yuxarıda göstərilənləri nəzərə alaraq "uyğunlaşma" anlayışını təyin edə bilərik.

Uğurlu sosial adaptasiyanın nəticəsi tələbənin sosial mühitə uyğunlaşmasıdır. Uyğunlaşmanın ən vacib göstəricilərinin aşağıdakılar olduğuna inanırıq:

- Tələbənin qrupdakı vəziyyəti;
- Normalara, dəyərlərə və davranış qaydalarına münasibətini və emosional vəziyyətini əks etdirən sosial təcrübələr;
- Özünə hörmət ;
- Ünsiyyət və qarşılıqlı əlaqə səviyyəsi.

Ədəbiyyat

1. Абульханова-Славская К.А. Стратегия жизни / К.А.Абульханова-Славская.
2. Алексеев Б.Л.Студенческая молодежь: на пути к новым жизненным ориентациям (по материалам социологических исследований) / Б.Л.Алексеев, Г.Г.Тихомирова.
3. Парахонский А.П. Социальная адаптация студентов в процессе обучения в вузе.

Ali pedaqoji məktəb tələbələrinin sosial adaptasiyası
XÜLASƏ

Ali məktəb tələbələrinin uğurlu sosial adaptasiyasını kompleks şəklində göstərilən bir sıra tədbirlərlə təmin etmək mümkündür. Ali məktəb rəhbərliyi və pedaqoji heyət tədrisin ilk günlərindən tələbələr üçün sosial adaptasiyanı təmin etməlidirlər. Bu tələbələrin universtetlər arasında təşkil olunan tədbirlərə, yarışmalara, universitet xaricində müxtəlif məkanlara ekskursiyalar təşkil etməyə cəlb olunması, yaradıcı və hər bir tələbənin özünəməxsus sosial sorğu təşkil etməkdə dəstəkçi olmaqla mümükündür. Pedaqoji heyət seminarlarda, mühazirələrdə sistemli olaraq problemli situasiya yaradaraq tələbələrdə dərk etmə mativasiyasını inkişaf etdirərək, onların yeniliklər qarşısında çarəsiz qalmamalarına kömək etmiş olarlar. Bu tədbirlər tələbənin sosial adaptasiyasını daha sərbəst keçirməyə səbəb olur. Ailə üzvləri maddi və mənəvi, dostları diqqəti və nəhayət hər bir tələbə öz psixoloji gücü ilə sosial adaptasiaynı təmin etmiş ola bilərlər.

Социальная адаптация студентов высших педагогических школ
РЕЗЮМЕ

Успешная социальная адаптация студентов вуза может быть обеспечена рядом комплексных мероприятий. Администрация и преподавательский состав университета должны обеспечить социальную адаптацию студентов с первых дней обучения. Этих студентов можно привлечь к межуниверситетским мероприятиям, конкурсам, экскурсиям в различные места за пределами университета, проявить творческий подход и поддержать каждого студента в организации уникального социального опроса, они могут помочь им не оказаться беспомощными перед лицом инноваций. Эти меры делают социальную адаптацию студента более свободной. Члены семьи могут обеспечить социальную адаптацию материальной и моральной поддержкой, друзья вниманием и, наконец, каждый ученик сам - его психологической силой.

Social adaptation of students of higher pedagogical schools
SUMMARY

Successful social adaptation of university students can be ensured by a number of complex measures. The administration and teaching staff of the university must ensure the social adaptation of students from the first days of training. These students can be involved in intercollegiate events, competitions, field trips to various locations outside the university, be creative and support each student in organizing a unique social survey, and they can help them not to be helpless in the face of innovation. These measures make the social adaptation of the student more free.. Family members can provide social adaptation with material and moral support, friends with attention and, finally, each student himself - his psychological strength.

İsgəndərova Fəridə Zakir qızı
Azərbaycan Dövlət Pedaqoji universiteti

PEDAQOJİ UNİVERSİTET MƏZUNLARININ PEŞƏ UYĞUNLAŞMASI

Açar sözlər: *peşə seçimi, pedaqoji peşə uyğunlaşması, təhsil və peşə fəaliyyəti, peşə uyğunlaşmasının özəllikləri.*

Ключевые слова: *выбор карьеры, адаптация педагогической профессии, образование и профессиональная деятельность, особенности профессиональной адаптации*

Key words: *career choice, adaptation to the pedagogical profession, educational and professional activities, features of vocational adaptation*

Pedaqoji universitet məzunlarının peşəkar uyğunlaşması adətən onların peşəkar inkişafına kömək edən və onun müvafiq peşə keyfiyyətlərini formalaşdıran, eyni zamanda onun təşkilati mədəniyyət elementlərinə yiyələnməsinə və yeni bir sosial statusun qəbul edilməsinə

kömək edən tədbirlər və tədbirlər sistemi kimi başa düşülür. Peşə uyğunlaşması yeni rol, status xüsusiyyətləri və peşə mühitinin mədəniyyətinin və dəyərlərinin qəbul edilməsi ilə özünü tanımağı əhatə edir.

Uyğunlaşma qabiliyyəti şəxsiyyətin özəl xüsusiyyətlərindən biridir. Uyğunlaşma, fərdin yeni şərtlərə uyğunlaşmasını, ortaya çıxan çətinlikləri aradan qaldırmaq üçün yeni davranış yollarını formalaşdırmasını mümkün edir. Ali pedaqoji məktəb tələbələrinin peşə uyğunlaşma problemləri əsaslı olaraq həll edilmədiyindən, bu problemlər bu işin araşdırmaçıların əsas diskusiya mövzusu olmuşdur.

Təhsil və peşə fəaliyyəti prosesində tələbə peşəkar cəhətdən əhəmiyyətli keyfiyyətlər inkişaf etdirir, peşə fəaliyyətinə uyğunlaşma tədricən baş verir. Universitet həm də ətraf mühitin bir hissəsidir. Bu mühitdə bir insan bir mütəxəssis olaraq və bir insan olaraq formalaşır. Peşə təhsili sistemi cəmiyyətin əsasları ilə ayrılmaz şəkildə bağlıdır.Pedaqoji universtet məzunlarının peşəyə uyğunlaşması müasir dövrümüzdə olduqca aktualdır. Qeyri-stabil və gözlənilməz proseslər,sosial-iqtisadi və siyasi xarakterli dəyişikliklər, hər gün fərqli olan sosial tələblər cəmiyyətin ayrılmaz bir hissəsi kimi tələbə şəxsiyyətinə güclü təsir edir. Bu səbəbdən də mütəxəsislər bu təsirlərə baxmayaraq tələbə şəxsiyyətinin daxili tarazlığını saxlamağın ən optimal yollarını axtarmışlar. Dövrümüzdə ali pedoqoji təhsil alaraq uğurlu kariyera qurmaq arzusuna olan gənclərin sayı artmaqdadır. Lakin müasir təhsilin uğuru gənclərə yalnız biliklər, bacarıqlar və vərdişlər aşılamaqla məhdudlaşmamalıdır.Həmçinin bu uğurun vacib tərəflərindən biri də odur ki, hansı dərəcədə universitet məzunu geniş informasiya əhatəsində müstəqil, seçtiyi peşəyə rahat şəkildə uyğunlaşa və maksimum mükəməliyə çata bilir.

Universitet məzunlarının peşə uyğunlaşması üçün bir sıra tələblər vacibdir.Xüsusi təşkil olunmuş tədbirlər olmadan univesitet məzunlarının peşə uyğunlaşması asan baş vermir. Ən təsirli olanlardan biri də, bacarıq və bacarıqların inkişafında fərdi böyüməyə istiqamətli sosial və psixoloji təlimlərdir. Tələbələr öz hisslərini daha açıq şəkildə ifadə etməyi və başqalarının hisslərinə cavab verməyi, özlərini və həmsöhbətlərini daha yaxşı başa düşməyi, bir-birlərini"burada və indi" qəbul etməyi və dəstəkləməyi öyrənirlər. Tələbələrin belə bir xüsusi təşkil olunmuş qrupda qazandıqları təcrübə şəxsiyyətlərarası qarşılıqlı əlaqədə ortaya çıxan problemləri həll etməyə, gələcək peşə uyğunlaşmasına kömək edir. Bu tədbirlərin təşkil olunmasından əlavə hər bir tələbənin fərdi xüsusiyyəti də nəzərə alınmalıdır. Ali pedoqoji universitet rəhbərliyinin bu işdə əsas istiqaməti ondan ibarət olmalıdır ki, öz məzunlarının seçdikləri əmək sferasında lazımi vərdişlərə yiyələnə, seçim çoxluğu arasında sərbəst olaraq uğurlu seçim edə bilsinlər.

Peşə uyğunlaşma prosesinin ali pedaqoji universitet məzunu üçün ağrısız və real keçməsi, həmçinin müsbət nəticə verməsi üçün dörd tətbiqetmə mərhələsini müşahidə etmək lazımdır:

- fərdi uyğunlaşma proqramı yaratmaq üçün peşəyə yeni başlayanın hazırlıq səviyyəsini qiymətləndirmək ;
- gələcək peşə cəbhəsi ilə tanış etmək ;
- peşə fəaliyyətinə yeni başlayan məzun statusuna uyğunlaşmasını və həmkarları ilə şəxsiyyətlərarası münasibətləri ölçmək ;
- uyğunlaşma prosesinin tamamlanma mərhələsinin müşahidəsi.

Uyğunlaşmanın pedaqoji cəhəti, ilk növbədə, peşə mühitinin norma vəkonsepsiyalarının mənimsənilməsi, təhsil prosesinin mahiyyətinə, məzmununa və şərtlərinə uyğunlaşması, müstəqil iş bacarıqlarının formalaşması ilə əlaqələndirilir. Uyğunlaşmanın pedaqoji aspekti peşəyə daxil olma mərhələsində yeni həyat şərtlərinə uyğunlaşanların pedaqoji dəstəyini təmin edir. Peşəkar uyğunlaşma, bir mütəxəssisin və peşəmühitinin qarşılıqlı əlaqəsi sayəsində bir insanın peşə mühitinə girmə prosesini təmin edir, bu müddət ərzində daha da peşəkar inkişaf, peşəkar böyümək və özünü inkişaf etdirmək üçün zəruri olan bilik, bacarıq, peşəkar

əhəmiyyətli şəxsiyyət xüsusiyyətləri formalaşır. Peşəkar uyğunlaşma, məzunu peşəkar funksiyaları yerinə yetirmək üçün istehsal mühitinin müxtəlif struktur elementlərinə daxil etmək üçün mürəkkəb bir prosesdir. Daxil olma prosesi aktivdir, çünki şəxsiyyət yalnız peşəkar mühitin şərtlərinə uyğunlaşmır, həm də onları fəal şəkildə dəyişdirir. Peşəkar uyğunlaşma, bu işi yerinə yetirmək üçün peşəkar hazırlığı, bu işə peşə uyğunluğu, məsuliyyət, ixtiraçılıq, müstəqillik, işdə daha təcrübəli olanlardan və həmkarlarından kömək ilə asanlaşdırılır.

Peşəkar uyğunlaşmanın dörd mərhələsi var:

- ali pedaqoji məktəbdə gənclərin işə hazırlanması;

- peşə seçimi;

- peşəkar təlim;

- müəssisədə əmək fəaliyyətinin başlanğıcı.

Dördüncü mərhələdə peşəkar uyğunlaşma başa çatmır, çünki mütəxəssislər müxtəlif sahələrdə uzun illər çalışdıqları üçün orta hesabla 4-5-dən 7-8 peşəyə qədər dəyişirlər. Onların peşə uyğunlaşmaları ilk işlərindən təqaüdə qədər bütün iş həyatları boyunca və bəzən bir nəfər təqaüdə çıxdıqdan sonra işləməyə davam edərsə, təqaüd yaşında da davam edir.

Gənc müəllimin peşəkar inkişafı, sinifə ilk girmədən çox əvvəl başlayan uzun və stresli bir prosesdir. Universitetdə təhsil aldığı illər, peşənin sirlərinə yiyələnmə prosesində dərindən özünütəsdiq, ən yaxşı pedaqoji təcrübələrlə tanışlıq buna həsr olunur. Bir təhsil müəssisəsində iş şəraitinə uyğunlaşma peşə inkişafında xüsusi yer tutur. Uyğunlaşmanın spesifikliyi tədrisin çoxfunksiyalılığı, çoxquruluşliliyi, polisdisiplinarlığı ilə əlaqədardır və bu gün təhsil məkanında baş verən islahatlarla çətinləşir. Pedaqoji fəaliyyətin mürəkkəbliyi həm də ondadır ki, sonuncusu müxtəlif ümumi və spesifik təhsil tapşırıqlarını, təhsilin təşkilati formalarını və özünütərbiyəni əhatə edir.

Ədəbiyyat

1. Абдулина О. Демократизация образования и подготовка специалистов: проблемы и поиски.

2. Авраамова Е.М. Требования работодателя к системе профессионального образования.

3. Антипова Л.А. Педагогические технологии успешной адаптации личности студента в процессе обучения в вузе.

Pedaqoji universitet məzunlarının peşə uyğunlaşması

XÜLASƏ

Pedaqoqluq olduqca mürəkkəb quruşa malik bir peşədir. Gələcək müəllimlər tələbəlik illərində müəyyən biliklər və məlumatlarla tanış olsalar da, pedaqoji fəaliyyət prosesində bunlar daha da dərinləşir, peşəkar xarakter daşıyır. Müəllimin peşəkarlıq fəaliyyəti cəmiyyətin məqsədləri və tələbatları ilə sıx əlaqəli prosesdir. Buna görə də pedaqoji fəaliyyətin məzmunu, forma və metodları cəmiyyətin bu sahədəki tələbatlarını əsas götürməklə reallaşdırılmalıdır. Əsas məsələlərdən biri kimi müəllim hazırlayan ali pedaqoji məktəblər kadr hazırlığında əsaslı dönüşə nail olmağa və ilk növbədə gələcək müəllimlərdə əsl müəllim mövqeyi və vətəndaş şüuru formalaşdırmağa çalışmalıdırlar. Ali pedaqoji universtet məzunlarının peşə uyğunlaşmasına onların yaradıcı arzuları, məqsədyönlü çalışqanlıqları və davamlı təcrübələri təkan vermiş olar.

Профессиональная адаптация выпускников педагогических вузов

РЕЗЮМЕ

Педагогика - очень сложная профессия. Хотя будущие учителя знакомятся с определенными знаниями и информацией в студенческие годы, в процессе педагогической деятельности они становятся более глубокими и профессиональными.Профессиональная деятельность учителя - это процесс, тесно связанный с целями и потребностями общества. Поэтому содержание, формы и методы педагогической деятельности должны

реализовываться исходя из потребностей общества в этой сфере. Один из ключевых вопросов - высшие педагогические школы, готовящие учителей, должны попытаться добиться кардинального изменения в подготовке кадров и, прежде всего, сформировать у будущих учителей настоящую педагогическую позицию и гражданское сознание. Творческая адаптация, целеустремленное усердие и постоянный опыт выпускников высшего педагогического вуза могут стимулировать их профессиональную адаптацию.

Professional adaptation of graduates of pedagogical universities
SUMMARY

Pedagogy is a very complex profession. Although future teachers get acquainted with certain knowledge and information during their student years, in the process of pedagogical activity they deepen and become professional. The professional activity of a teacher is a process closely connected with the goals and needs of the society. Therefore, the content, form and methods of pedagogical activity should be implemented based on the needs of society in this area. One of the key issues is that higher pedagogical schools, which train teachers, should try to achieve a fundamental change in staff training and, first of all, to form a real teacher position and civic consciousness in future teachers. The creative adaptation, purposeful diligence and continuous experience of the graduates of the higher pedagogical university can stimulate their professional adaptation.

Əlizadə Nərmin
ADPU, magistrant
Elmi rəhbər: Məmmədova Ümhani

AİLƏ VƏ MƏKTƏBİN BİRGƏ FƏALİYYƏTİ PEDAQOJİ PROBLEM KİMİ

Açar sözlər: *məktəb rəhbərliyi, valideyn iştirakı, məktəb ailə əməkdaşlığı*
Ключевые слова: *школьная администрация, участие родителей, сотрудничество школьных семей*
Keywords: *school administration, parent participation, school family co-operation*

Ailə ən kiçik sosial qurum olaraq təyin olunur. Ailə mənsub olduğu cəmiyyətin xüsusiyyətlərinə malikdir və mədəniyyətini əks etdirir (Yörükoğlu, l997, s.125). Ailə, uşağın ictimailəşməsini müsbət və ya mənfi təsir etdiyi üçün təhsilin müvəffəqiyyətində rolu və təsiri çoxdur (Kıncal, 1993, s.63-68). Ailələr üz-üzə və yaxın münasibətlərin ən güclü olduğu və fərdin şəxsiyyət kimi formalaşmasında ilkin qarşılıqlı əlaqəni təmin edən ən vacib qrumlardandır (Tezcan, 1997, s. 142). Ailədə uşağa göstərilən davranışlar, həyatının hər mərhələsində şəxsiyyətinə, sosial və zehni inkişafına təsir göstərir (Öztop, 1996, s.4).

Bir çox digər sistemlərdə olduğu kimi elm və texnologiyadakı sürətli inkişaflar nəticəsində təhsil sisteminin quruluşunda və proseslərində, xüsusilə təhsil sistemindəki müəllimlərin rollarında mühüm dəyişikliklər oldu (Kenwarthy, 1988:15). Müəllimlər çox yönlü bir şəkildə tədris edə bilməklə yanaşı, həm fərdi, həm də peşəkar olaraq özlərini fərqli ölçülərdə inkişaf etdirməlidirlər.Bu səbəbdən müəllimlər təhsilin həyata keçirilə biləcəyi mühit və vəziyyət yaratmaq üçün şagirdləri ilə inteqrasiya etməli (duyğularını başa düşməli) həmçinin şagirdləri, həmkarları və valideynləri ilə əlaqələr qurmalıdırlar (Calderhead, 1997: 21).Uşağın təhsili və tərbiyəsində istənilən uğuru əldə etməsi üçün ilk növbədə məktəblə ailə arasında əməkdaşlıq tələb olunur. Birtərəfli çalışmalar uşaqları istədikləri hədəfə aparmır. Çünki, şagirdlər vaxtlarının bir hissəsini məktəbdə və digər hissəsini isə məktəbdən kənarda, ailələri ilə keçirirlər. Şagirdin məktəbdən kənarda daha çox vaxt keçirdiyini nəzərə alsaq, ailə dairəsinin uşaq həyatında nə qədər təsirli olduğunumüşahidə etmiş olarıq. Bu gün ailələr məktəblərin köməyi olmadan uşaqlara təhsil verməkdə çətinlik çəkir və məktəblər ailələri ilə əməkdaşlıq etmədən

şagirdlərinə lazımi dərəcədə təlim verə bilmir (Kncal, 1991: 24). Bu baxımdan məktəbin uşaqların ətrafındakı insanların marağı və dəstəyi nəticəsində uşaqların təhsili üzrədaha çox müvəffəq olacağını söyləmək olar. Valideynlərin məktəbə dəstəyi yalnız valideynlər məktəbi yaxşı başa düşdükdə, məktəbin təcrübələrində söz sahibi olduqda və valideynlər və müəllimlər birlikdə çalışdıqda təmin edilə bilər (Qrant, 1964: 29). Şagird və müəllim əlaqəslərinin inkişafında ailələrinin böyük rolu var. Xüsusilə müəllimlər məktəb-ailə tərəfdaşlığının reallaşmasında və inkişafında çox vacib bir rola malikdirlər. Çünki müəllimlər uşaqlarla üz-üzə ünsiyyət quran və bu zaman onların maraq və ehtiyaclarının nə olduğunu ən yaxşı başa düşən insandır insanlardır.Şagirdlərin valideynləri isə uşaqlarının daha sağlam böyüməsi üçün məktəb rəhbərliyi və müəllimləri ilə bir dialoq qurmalıdırlar. Şübhəsiz ki, valideynlər (ailələr) övladlarını hər kəsdən daha yaxşı tanıyan insanlardır. Uşaqların maraqlarını və ehtiyaclarını, eləcə də sosial və fərdi xüsusiyyətlərini yaxından izləməli, müəllimlər və məktəb rəhbərliyi ilə ünsiyyət qurmalıdırlar. Bu, mümkün problemlərin həllində məktəb-ailə əməkdaşlığının vacibliyini danılmazdır.Ailə tərbiyəsinin məqsədi şəxsiyyətin də keyfiyyət və xassələrini formalaşdırmaqdan ibarətdir ki, şəxsiyyət həyat yolunda qarşılaşdığı çətinlik və maneələri asanlıqla aradan qaldırsın. Müasir təlimin təşkilinə verilən tələblərdən biri kimi bərabər təlim şəraitinin yaradılmasında sosial-psixoloji mühitin təşkilinə də böyük önəm verilir və demək olar təlim prosesinin sonrakı nailiyyəti bu mühitin düzgün təşkilindən çox asılıdır.Cəmiyyətlərdəki təhsil müəssisələrinin sayının və keyfiyyətinin artması, evlərimizdə və məktəblərimizdə təhsil texnologiyasının tətbiqi, ailənin davamlı təhsil və təlim fəaliyyətindəki əhəmiyyətini azaltmamışdır. Çünki uşağa ən yaxın olan həmçinin, uşağın inkişaf xüsusiyyətlərini ən yaxşı bilən onun ailəsidir. Təhsil ailədə başlayır. Şəxsiyyət quruluşunun əsas davranışları əsasən ailədə əldə edilir. Bunları sonradan dəyişdirmək çox çətin olur. Məktəbin onları dəyişdirməkdə bir neçə çətinliklərlə üzləşir, uyğun həll isə ilk növbədə ailə ilə əlaqələrin qurulmasıdırş (Suryawikarta, 1993, Akt, Başar, s.16; 2006). Bu səbəblə təhsildə müvəffəq olmaq istəyən məktəb rəhbərliyi, tətbiq olunan proqramda iştirak edən müəllimlərin yanında valideynləri də daxil edərək valideyn-müəllim əlaqəsini möhkəmləndirmiş olur. Araşdırmalar göstərir ki, övladlarından məktəbdə müvəffəq olmağı gözləyən və istəyən ailələr, uşaqlarına diqqətlə yanaşdıqda bu mövzuda daha uğurlu olurlar (Epstein, 1992). Buna görə müəllimlər ailə ilə iş birliyi müddətində uşağın ailə mühitindən daha yaxşı istifadə etməli və onlarla ünsiyyət qurmaq üçün çalışmalıdır.Valideynlərin evdə uşağın evdəki təhsil fəaliyyətlərində iştirak etməsi, məsələn məktəb işlərini izləmək, uşağı öyrənməyə təşviq etməsi, övladlarının məktəbdəki uğurları ilə birbaşa bağlıdır (Henderson, 1987). Ailənin iştirakı uşaqlarda və gənclərdə akademik müvəffəqiyyəti artırır, tələbələri uğur qazanmağa təşviq edir və məktəbə davamiyyətlərini artırır.

Ədəbiyyat

1. Akbaba S. ve Samanc O. (2004). “ 5lköretimde Veli-Öretmen Görümelerinin Deerlendirilmesi”, XII. Eitim Bilimleri Kongresi, Bildiriler, Ankara, Cilt:1, ss: 1435-1440.

2. Aslan B., (1984), Ankara Merkez İlçelerinde Temel Eğitim Birinci Kademe Düzeyinde Okul-Aile İlişkileri, Ankara, Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayımlanmamış

3. Epstein J. L., (1992), School And Family Partnerships, In: Alkin, M., Editor, Encyclopedia Of Educational Research (6th Edn.), Macmillan, New York, Pp. 1139-1151.

4. https://aztehsil.com/valideyn/141-valideyinlrl-laqlrin-qurulmas-v-mhhkmlnmsin-rhbrlik.html

XÜLASƏ

Son olaraq məktəbin və ailənin məqsədi birdir: şagirdləri bilikli, bacarıqlı, əməksevər gənc vətəndaşlar kimi yetişdirmək. Ayrılıqda nə məktəb, nə də ailə həmin məqsədə nail ola bilər. Ona görə də hər bir ailənin məktəblə əməkdaşlığı, məktəbin də hər bir ailə ilə sıx əlaqəsi məktəb-ailə tərbiyəsini dərk edilən və düzgün qoyulan vəzifələrini müvəffəqiyyətlə yerinə ye-

tirməsi üçün ən zəruri şərtdir.Məktəb-ailə əməkdaşlığı prosesində məktəb rəhbərləri, valideynlər və müəllimlər uyğun bir öyrənmə mühiti yaratmalı və uşaqların bu mühitdən faydalanması üçün birgə səy göstərməlidirlər. Uşağın evdəki ilk öyrənmə təcrübələri məktəbdəki öyrənmə təcrübələrini dəstəklərsəonların məktəbdəki nəticələri və müəllimlərin sinif təcrübələrində müvəffəq olma şansları artacaqdır. Buna görə müəllimlər ailə ilə iş birliyi müddətində uşağın ailə mühitindən yaxşı istifadə etməli və onlarla ünsiyyət qurmaq üçün çalışmalıdır.

РЕЗЮМЕ

Наконец, цель школы и семьи одна: воспитывать из учеников знающих, способных и трудолюбивых молодых граждан. По отдельности ни школа, ни семья не могут достичь этой цели. Поэтому сотрудничество каждой семьи со школой, а также тесная связь школы с каждой семьей - самое необходимое условие успешного выполнения задач, поставленных перед школой-семейным воспитанием. В процессе сотрудничества школы и семьи школьные руководители, родители и учителя должны создать соответствующую среду обучения и работать вместе, чтобы дети получали пользу от этой среды. Если первый опыт домашнего обучения ребенка поддерживает школьный опыт, его результаты в школе и шансы учителей на успех в классе увеличатся. Поэтому учителя должны эффективно использовать семейное окружение ребенка и работать, чтобы общаться с ним, работая с семьей.

SUMMARY

Finally, the purpose of the school and the family is the same: to educate students as knowledgeable, capable, hard-working young citizens. Separately, neither the school nor the family can achieve that goal. Therefore, the cooperation of each family with the school, as well as the close relationship of the school with each family, is the most necessary condition for the successful fulfillment of the tasks set for school-family education. In the process of school-family cooperation, school leaders, parents and teachers should create an appropriate learning environment and work together to ensure that children benefit from this environment. If a child's first home learning experiences support school learning experiences, their school outcomes and teachers' chances of success in classroom practice will increase. Therefore, teachers should make good use of the child's family environment and work to communicate with them while working with the family.

Əlizadə Nərmin
ADPU, magistrant
Elmi rəhbər: Məmmədova Ümhani

AİLƏ VƏ MƏKTƏBİN BİRGƏ FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ SOSİAL PEDAQOQ İŞİNİN MAHİYYƏTİ

Açar sözlər: *ailə-məktəb əməkdaşlığı, valideynlər, sosial pedaqoq, effektivlik, effektiv məktəb*

Ключевые слова: *сотрудничество семьи и школы, родители, социальный педагог, эффективность, эффективная школа*

Key words: *family-school cooperation, parents, social educator, effectiveness, effective school*

Təhsil fəaliyyətlərinin ən vacib məqsədi bir ölkənin gələcəyi olan uşaqları yaxşı insanlar və yaxşı vətəndaşlar kimi böyütməkdir. Məktəb, ailə, mühit, müəllim və təhsil sistemi kimi amillər uşaqların təhsilində təsirli roloynayır. Bu tədqiqat sonillərdə daha da artan və təhsildə çox əhəmiyyətli bir rola sahib olan ailə və məktəbin birgə fəaliyyətinin təşkilində sosial

pedaqoq işinin mahiyyətiəməkdaşlığının yeri və əhəmiyyətini göstərmək üçün aparılmışdır. Araşdırmada bu mövzuda yerli və xarici tədqiqatlar araşdırılmalaraparılmışdır.Azərbaycan təhsil sistemində məktəb, ailə və ətraf mühit arasında iş birliyinə yetərincə nail oluna bilinməyən vəziyyətlərlə qarşılaşırıq. Buna məktəbin, ailənin və mühitin böyük təsiri var. Bu, xüsusilə şagirdlərə mənfi təsir edir. Bu vəziyyətin ən vacib nəticələri şagird müvəffəqiyyətinin azalması, uşaqların zərərli vərdişləri daha kiçik yaşlarda qəbul etməsi və məktəblərdə bir çox problemlərin yaranmasına gətirib çıxarır.

Məktəb sosial bir təşkilatdır. Məktəb ətraf mühitdən alınan məlumatı alır və müəyyən bir təlim müddətindən sonra məhsulu ətraf mühitə qaytarır. Buna görə də ətraf mühitlə sıx əlaqədədir. Şagirdlərin məktəbdəki müvəffəqiyyətini artırmaq həm ailələrin, həm də məktəbin ümumi problemidir.Məktəblərdə təhsilin uğurlu olması və naliyyətlər əldə etməsi üçün şagirdin ailəsinin diqqət və köməyinə ehtiyac var.Şagirdin məktəbdəki inkişafı ailənin onun təhsilinə verdiyi əhəmiyyəti ilə əlaqədardır.Məcburi təhsil keçmişə nisbətən daha uzun bir dövrü əhatə etsə də, məktəbdə sərf olunan vaxt ailəyə və mühitə sərf olunan vaxtla müqayisədə az olduğundan məktəb müəllimlərinə ailə mühitində də dəstək verilməlidir. Uşaqları üçün dəstəkləyici bir mühit təmin edən ailələr, sosial-iqtisadi vəziyyətləri yetərli olmasa da, uşaqlarının məktəb müvəffəqiyyətinə müsbət təsir göstərmiş olurlar. Bu məqsədə çatmaq üçün məktəblər və ailələlərlə birlikdə layihələrtəşkil edilməli. Ailə-məktəb əməkdaşlığının iki üstünlüyü var: Birincisi, ailənin məktəbə və şagirdə göstərdiyi maraq şagirddə motivasiya yaradır. İkincisi, məktəbin quruluşunu, dəyərlərini və standartlarını bilən ailələr uşaqlarına daha yaxşı rəhbərlik edə bilərlər.Məktəb-ailə və ətraf mühit faktorları şagirdlərin uğur qazanmasında mühüm rol oynayır. Uşaqlarına diqqət yetirən, problemlərini həll etməyə çalışan və məktəblə əməkdaşlığı inkişaf etdirən ailələrin uşaqlarının müvəffəqiyyəti, etməyənlərdən daha yüksəkdir. Məktəb-ailə əməkdaşlığı məktəbin səmərəliliyi və şagirdin sosial, emosional və akademik inkişafı və müvəffəqiyyəti baxımından son dərəcə vacib hesab olunur.Günün başlaması ilə günün sonu şagirdlər, ev və məktəb arasındakı iki fərqli dünya arasında irəliləyirlər. Bir çox müəllim sosial və ailə problemlərinin məktəbdəki tədris prosesini əngəllədiyini düşünür. Şagirdlərdən bəziləri məktəbə lazımi qidalanma və sağlamlıq problemləri, təhlükəsizlik və sevgi kimi təməl ehtiyacları təmin olunmadan gəlir. Müəllimlərin ailələrlə bağlı şikayətlərindən biri də ailələrin məktəbə yetərincə dəstək verməməsi və tələb etdikləri şeylərlə maraqlanmamalarıdır.Ailə-məktəb tərəfdaşlığı,məktəbdəki məktəb işçiləri, valideynlər və şagirdlərin digər ailə üzvlərini əhatə edən əməkdaşlıq əlaqələri və fəaliyyətləridir. Effektiv tərəfdaşlıqlar, məktəbdə uşaqların təhsili üçün qarşılıqlı inama, hörmətə və ortaq məsuliyyətə əsaslanmağına kömək edəcəkdir.

Məktəb, sosial pedaqogikanın getdikcə vacib bir funksiyanı üzərinə götürdüyü sahələrdən biridir. Araşdırmalar göstərir ki, məktəblərdə sosial pedaqoji iş bir çox ölkələrdə yayılıb, digərlərində də yaranır. Əsas missiya müxtəlif psixososial problemləri olan və ya məktəblə əlaqəli çətinliklərə məruz qalan şagird qruplarının və ya şəxslərin daxil edilməsi, məktəbdə sosial kənarlaşmaya qarşı çıxmaqdır. Sosial pedaqogika anlayışı, qayğı, tərbiyə, ictimailəşmə və öyrənmənin ayrılmaz olduğu və valideynlər, məktəblər və cəmiyyət üçün ortaq bir məsuliyyət təşkil etdikləri müxtəlif sosial kontekstlərdə fərdlərə vahid bir dünyagörüşü təbliğ etmək üçün istifadə edilmişdir. Sosial pedaqoqların sosial problemləri olan və ya xüsusi təhsilə ehtiyacı olan, həmyaşıdları ilə ünsiyyətdə çətinlik çəkən və ya inkişaf etmiş resurs məktəblərinə ehtiyac duyan şagirdlərə dəstək olmaq üçün xüsusi bir məsuliyyəti ola bilər. Məqsəd tələbələrin təhsillərində uğur qazanmaları və normal məktəbə qayıtmalarıdır. Bundan əlavə daha çox peşə yönümlü orta təhsildə motivasiyanı artırmaq və məktəbdən kənarlaşma riski olan gənclərin xaric olmasının qarşısını almaq üçün istifadə olunur. Sosial pedaqoqlar, məktəbi tərk edən, pis təcrübələrini və məktəblə əlaqələrini bərpa etmək və təhsilə qayıtmağı dəstəkləmək məqsədi daşıyan gənclər üçün müxtəlif proqramlarla işləyir. Çox vaxt məktəblərdəki sosial pedaqoqların, yalnız müəyyən uşaqlarla deyil, bütün şagird qrupu ilə də profilaktik

və proaktiv işləmək üçün xüsusi bir missiyası və xüsusi bir səriştəsi var. Bu, sosial cəmiyyətlərdə iştirak etmək üçün bütün uşaqların şəraitinin yaxşılaşdırılmasına yönəlmiş pedaqoji səylərə aiddir. Buna görə, sosial pedaqoqun vəzifəsi bütün uşaqlar üçün öyrənmə imkanları yaratmaq və sosial kənarlaşmanın qarşısını almaq üçün müxtəlif əngəlləri aradan qaldırmaqdır. Sosial pedaqoqla valideynlər arasındakı dostluq, tərəfdaşlıq, qeyri-rəsmi münasibətlər atmosferi ailə ilə uğurlu iş aparmağa kömək edir, bu da tematik iclaslar, istirahət axşamları və s. keçirilməsi ilə asanlaşdırılır. Birgə hazırlaşma müddətində bir-birini daha yaxşı tanımaq, qarşılıqlı maraq, diqqət, isti münasibət göstərmək imkanı verilir. Uşaqlar və böyüklər arasındakı ünsiyyəti bacarıqla təşkil edən sosial pedaqoq, bu ailənin əvvəllər yaşamadığı müştərək işlərdən sevinc və məmnunluq hiss etmələrinə kömək edir. Sosial pedaqoqun vəzifəsi ailədə təhlükəsizlik hissi yaratmaqdır, hərəkətlərinin düzgünlüyünə qətiyyətlə əmin olmalı, birlikdə çalışacağı insanlara hədəflərini açıq şəkildə bildirməyi bacarmalıdır. Sosial pedaqoq daima ailə ilə işləmək üçün yeni metod və üsulları öyrənməli, təsir mexanizmini anlamalı və tətbiqinə məsuliyyətli yanaşmalıdır. Ailə ilə məktəb arasında qarşılıqlı anlaşma yoxdursa, ailə müəllimlərin tövsiyələrinə laqeyddirsə və müəllimlərin bir uşağın böyüməsinə kömək etmək cəhdləri ehtiyatla və ya aqressivliklə qəbul edilirsə, bu vəziyyətdə sosial pedaqoq yeniyetmənin ailəsinə dolayı, düzəldici və pedaqoji təsir yolu etmekdə məsul şəxs yerinə keçir.

Ədəbiyyat

1. Fərrux Rüstəmov və Tamilla Dadaşova. Ali məktəb pedaqogikası.
2. https://dhgm.meb.gov.tr/yayimlar/dergiler/Milli_Egitim_Dergisi/164/kolay.htm
3. http://www.familyschool.org.au/files/3013/8451/8364/Family-school_partnerships_framework.pdf
4. https://kp-tts.ru/az/deyatelnost-socialnogo-pedagoga-po-okazaniyu-preventivnoi-profilakticheskaya-deyatelnost-socialnog.html

XÜLASƏ

Son olaraq məktəb-ailə əməkdaşlığı məktəbin səmərəliliyi, şagirdin sosial, emosional, akademik inkişafı və müvəffəqiyyəti baxımından son dərəcə vacib hesab olunur. Ailə və məktəbin birgə fəaliyyətinin təşkilində sosial pedaqoq daha əhəmiyyətli naliyyətlər əldə etmək üçün ailə ilə məktəb arasında qarşılıqlı əlaqə qurmalı, bir növ körpü funksiyasını yerinə yetirməlidir. Bunu etdiyi zaman hər bir tərəflə müvafiq, anlaşılan və düzgün əlaqələr qurmuş olur. Əldə olunan nəticələrlə birlikdə sosial pedaqoq məktəb-ailə əməkdaşlığı ilə birgə şagirdlərin təhsil həyatında daha müvəffəq olmağına şərait yaratmış olur.

РЕЗЮМЕ

Наконец, сотрудничество школы и семьи считается чрезвычайно важным с точки зрения эффективности школы, социального, эмоционального, академического развития и успеха учащихся. Чтобы добиться более значимых результатов в организации совместной деятельности семьи и школы, социальный педагог должен наладить отношения между семьей и школой, выступить своего рода мостом. При этом он устанавливает соответствующие, понятные и прямые отношения с каждой стороной. Наряду с полученными результатами социальный педагог совместно с семьей и школой создает условия, позволяющие учащимся быть более успешными в образовательной жизни.

SUMMARY

Finally, school-family cooperation is considered extremely important in terms of school efficiency, student social, emotional, academic development and success. In order to achieve more significant results in the organization of joint activities of the family and the school, the social educator must establish a relationship between the family and the school, and act as a

kind of bridge. In doing so, it establishes an appropriate, understandable and direct relationship with each party. Together with the results obtained, the social pedagogue, together with the school-family cooperation, creates conditions for students to be more successful in their educational life.

Həsənova Ülkər Yaşar qızı
Magistr
Elmi rəhbər: dos.Ağayev Şahrza

ŞAGİRDLƏRİN ASUDƏ VAXTININ TƏŞKİLİİMKANLARI

Açar sözlər: *şagird,asudə vaxt, valideyn, aktual*
Ключевые слова: *студент,свободное время,родитель,актуально*
Key words: *student,leisure time,parent,actual*

Şəxsiyyətin formalaşmasında zaman ölçülərinin də mühüm rolu vardır.Zaman ölçüləri dövrün ruhunu kəsb edir.Onların ana xətti isə şəxsiyyətin asudə vaxtı ilə bağlıdır.

Asudə vaxt problemi bir çox illərdə mütəfəkkirləri düşündürüb,lakin sistemli şəkildə keçən əsrin 60-70ci illərindən öyrənilməyə başlayıb.Bu baxımdan müəyyən tədqiqatlar aparılmış, L.Qordon və E.Klopov tədqiqatları əsasında qeyd etmişlər ki, əmək fəaliyyətinin əsasını şərtləndirən amillər arasında asudə vaxt da mühüm rol oynayır.Ümumiyyətlə bu problem hər zaman aktual olmuş və şagirdlərin asudə vaxt imkanları zaman-zaman sosial-iqtisadi baxımdan dəyişiklərə uğramışdır.

Şagirdlərin asudə vaxt imkanları necə təşkil olunmalidir? Bu sualın cavabı müxtəlifdir. Asudə vaxtın səmərəli təşkil olunması üçün müxtəlif yollardan istifadə olunur. Asudə vaxt dedikdə şagirdlərin yalnız bayram,istirahət,tətil günləri nəzərdə tutulmamalıdır. Dərs günləri olduqda,ev tapşırıqları bitdikdə də asudə vaxt olur,bu vaxtdan düzgün istifadə olunmalıdır. Şagirdlərin asudə vaxt imkanları təşkil olunarkən onların öz motivasiyaları da nəzərə alınmalıdır.

Şagirdlərin psixi və fiziki sağlamlığı nöqteyi-nəzərindən asudə vaxt böyük əhəmiyyət kəsb edir.Bu səbəbdən uşaqlar təmiz havada çox gəzməli,müxtəlif idman oyunları ilə məşğul olmalıdırlar.Asudə vaxtın təşkili imkanları dedikdə fəal istirahət də nəzərdə tutulur.Fəal istirahət dedikdə daim hərəkətli oyunlar,turizm səfərləri,fiziki hərəkətlər və s.bura daxildir. Məhz bu səbəbdən valideynlər və müəllim şagirdlər üçün müxtəlif ekskursiyalar təşkil etməlidirlər.Şagirdlər əyləncənin müxtəlif yerlərdə, ərazilərdə fərqli keçməsini çox sevirlər və bu əyləncələr onların yaddaşında xoş xatirələrə, fikirlərə səbəb olur.Ekuskursiyalar çox vaxt isti günlərdə və ya məktəb tətili vaxtı təşkil olunur.

Şagirdlər üçün kollektiv təşkil olunmuş əyləncələr,oyunlar,muzeyə,teatıra gəzintilər daha səmərəli olur.Onlarda kollektivliyə maraq yaranır,buda şəxsi maraqlardan ön plana keçir.Şagirdlər bu gəzintilər zamanı bir biri ilə fikir mübadiləsi edir,təəssuratlarını bölüşür,yeni məlumatlar əldə edirlər.

Asudə vaxtın səmərəli təşkilində başqa istiqamətlərdə vardır.Məsələn rəngarəng plakatlar,foto şəkillər,məşğələlər şagirdlər tərəfindən xüsusi qarşılanır.Məşğələlər nəticəsində uşaqlarda intizama,əməyə münasibət inkişaf edir və həyat vərdişləri yaranır.Asudə vaxtın təşkilində şagirdlərin tədbirlərdə iştirakı da əhəmiyyətlidir,çünki tədbirdə şagird biləvasitə iştirak edərsə bu onun şəxsiyyət kimi formalaşmasında xüsusi iz qoyur.Uşaqlar həmişə fəallığa,müstəqilliyə xüsusi yanaşırlar.

Şagirdlərin asudə vaxtını maraqlı, əyəncəli keçməsinə mane olan amillər də vardır. Bu günki gündə bunlar: televerlişlər, internet, sosial mühitdə olan bir çox hadisələr şagirdlərin şüuruna birbaşa təsir göstərir.

İnsanın bir şəxsiyyət kimi formalaşmasında,dünyagörüşünün inkişafında asudə vaxtın səmərəli təşkili əsas amildir. Bəs valideyn və müəllimin asudə vaxtın təşkilində rolu nədən

ibarətdir? Valideyn və müəllim asudə vaxtı elə təşkil etməlidir ki,o uşaq üçün maraqlı keçsin və onlar uşaqla münasibətində dost olmağı bacarmlıdırlar. Asudə vaxtın əlverişli keçməsi üçün əsas vasitələrdən biri də uşağın valideynləri ilə yaşlı qohumlarına baş çəkməsi və onlarla maraqlanmasıdır. Ailə uşağa elə tərbiyə verməlidir ki, uşaqlar bayram günlərində böyükləri ziyarətə özləri getmək istəsinlər. Yaşlı insanlarla gəzintəyə çıxmaq, vaxt keçirmək, birlikdə kitab oxumaq uşaqların asudə vaxtının bir hissəsi olmalıdır. Bəzi valideynlər uşaqlarının yaşlılarla, nənə-babası ilə vaxt keçirdiyi zaman ərköyün böyüyəcəyini düşünürlər. Əksinə uşaqlara milli-mənəvi dəyərləri,vətənpərvərliyi öyrətmək istəyiriksə,onlar yaşlılardan tərbiyə almalıdırlar. Onlar elə təqdim olunmalıdır ki,uşaqlarda böyüklərlə ünsiyyət qurmağa,onların gizli aləmini bilməyə maraq olsun. Bu da valideynlərin uşaqlara verdiyi tərbiyə ilə əlaqəlidir. Valideynlər ilk tərbiyəçilər kimi uşaqlara daha çox təsir göstərmək imkanına sahibdirlər. Şagirdlərin asudə vaxtının böyüklərlə keçirməyi tərbiyəvi cəhətdən faydalıdır. Tərbiyə şəxsiyyətin formalaşmasına yönəlmiş fəaliyyət sahəsidir və bir sözlə yaşlı nəsil tərbiyədə mənəvi keyfiyyətləri digər nəslə ötürür.

Valideynlər şagirdlərin asudə vaxtının təşkili imkanlarına onları müəyyən məqsədyönlü əməli işlərə yönləndirməklə də nail ola bilərlər. Məsələn oğlan uşaqları atasına kömək etməklə,qız uşaqları sadə ev işləri ilə:ev yığışdırmaq toxuculuq və s. Bu uşaqların zəhmətkeş,əməksevər olmsına yardım edir. Əməksevərlik tərbiyənin əsas prinsipidir. Bu vərdişlərin yaranması ailədə şagirdlərin asudə vaxtının düzgün təşkil olunması ilə əlaqədərdir. Uşaqlarda bu qabiliyyətlərin inkişafına nail olsaq gələcəyin gökəmli şəxslərini yetişdirmiş olarıq. Şagirdlərin asudə vaxt imkanlarının səmərəli təşkili valideynlərin mənəvi borcudur və digər tərəfdən buna sosial məsuliyyət deyirlər. Valideynlər bu vəzifələrini yerinə yetirməzsə və ya düzgün yerinə yetirmədikdə qanun və cəmiyyət qarşısında məsuliyyət daşıyırlar.

Şagirdlərin yaradıcılıq kollektivlərində iştirakına cəlb olunmasında valideynin və pedaqoqun rolu,diqqəti əsasdır. Yaradıcılıq məşğuliyyəti şagirdlərin marağına səbəb olur,onların uğur əldə etməsinə stimul verir. Şagirdlərin müəyyən məşğələlərə cəlb olunması onlarda gələcəyə baxış formalaşdırır,özünə inam,qüvən,məsuliyyət hissi kollektivə meyl yaradır. Ümumiyyətlə asudə vaxtın səmərəliyi uşaqlara müsbət keyfiyyətlər bəxş edir,təhsilə marağı artırır. Cəmiyyətə yararlı olmaq üçün vətənpərvərlik,xalqına məhəbbət,əməksevərlik kimi hissləri formalaşdırır.

Şagirdlər bu gün müxtəlif informasiya və gərginliklə üzləşirlər. Mühit isə hər birimizdən hadisələri düzgün qiymətləndirməyi,hövsələ,obyektivlik tələb edir. Məhz buna görədə asudə vaxtın düzgün qurulmasıyla gənc nəsli sabaha,gələcəyə hazırlayır,onlarda gələcəyinin formalaşmasına kömək edir. Öz vaxtını səmərəli quran, gələcəyini düzgün quracaqdır. Bu günki dövrdə də şagirdlərin asudə vaxtının təşkili inkişaf etmiş ölkələrdə də dəyişikliklərə uğrayıb. Həyat da,ictimai mühit də dəyişikliklər tələb edir. Buna təsir göstərən amillər televiziya, kompüter və s. qeyd etmək olar. Buna görə uşaqlar müxtəlif kompaniyalara,qruplara, arzuolunmaz istiqamətlərə yönlənə bilər. Bu səbəbdən asudə vaxt səmərəli təşkil olunmalı,uşaqları ruhlandırmalıdır. Təhsil almaq proesi uşaqlar üçün ağır,yorucu olmamalıdır. Kurikulumun tələbləri gözlənilməjidir. Təhsildə maraqlı olan bütün tərəflər sosiallaşmalıdır. Buna görədə məktəblinin təhsildəki uğurları onun asudə vaxtının necə təşkil olunmasından çox asılıdır. Asudə vaxtda şagird bir sıra fiziki məşğələlərlə də məşğul olmalıdır. Fiziki məşğələləri seçərkən valideyn və müəllim şagirdlərə yardım etməli,istiqamət göstərməlidir. Məşğələləri uşaqların maraq göstərdiyi yöndə seçmək lazımdır. Məsələn: futbol, valeybol, üzgüçülük və s.

Şagirdlər üçün maraqlı olan,onu cəlb edən tamaşalar, gəzintilər, fotoşəkillər çəkmək,velosiped sürmək, sirkə getmək, akvoparka getmək,uşaq yaradıcılıq birliyinə üzv olmaq,ekskursiyalar və s. uşaqlarda yüksək əhval yaradır,həyatına yaradıcılığa, təhsiəl həvəsi,marağı artırır.

İsti havalarda ekskursiyalar təşkil olunur,lakin yağışlı və soyuq havalarda şagirdlərin asudə vaxtı evdə keçir. Bu zaman uşaq saatlarla televizorla,kompüterlə vaxt keçirməməlidir. Evdə asudə vaxtı şahmatla,dama və s. oyunlar təşkil etməklə səmərəli etmək olar.

Ədəbiyyat

1. Əlizadə H.Ə.,Mahmudova R.M. Sosial pedaqgika.Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı,2013.
2. Ş.Ağayev, R.Hacızadə.Dərs:ənənə və müasirlik.Metodik vəsait.Bakı,2020"MM-S", 200 səh.
3. Www.azrefs.org 2016

XÜLASƏ

Məqalədə asudə vaxt imkanlarının səmərəliliyi şəxsiyyətin inkişafında çox böyük və xüsusi rol oynaması;müasir dövrdə şagirdlərin imkanlarının daha genişliyi və texnikanın inkişafı onların yazıya deyil, görüntüyə meyilliliyi artırması; asudə vaxtın səmərəli təşkil olunması şagirdlərin ruhlandırması,onları enerji ilə təmin etəsi və mənfi hərəkətlərdən uzaqlaşdırması; şagirdi təsil almağa,qələbəyə ruhlandırması,cəsarətli olması;təşkil olunan tədbirlər planlı şəkildə olduqda şagird təhsildə müvəfəqiyyət əldə edib,vicdanlı vətəndaş və övlad olaraq yetişməsi; ətrafdakı insanlara qarşı vətənpərvərlik, tolerantlıq, diqqət kimi hisslər bəsləməsi məsələləri tədqiq olunmuşdur.

РЕЗЮМЕ

Эффективность досуга в статье играет очень большую и особую роль в развитии личности;большие возможности для студентов в наше время и развитие технологий для повышения их склонности к визуализации, а не к письму; эффективная организация досуга,чтобы вдохновить студентов, зарядить их энергией и уберечь от негативных действий; вдохновлять ученика учиться, побеждать, быть смелым;если организованные мероприятия запланированы, ученик преуспеет в учебе и вырастет честным гражданином и ребенком;были изучены такие вопросы, как патриотизм, толерантность и внимание к окружающим.

SUMMARY

The effectiveness of leisure opportunities in the article plays a very large and special role in the development of personality;the greater opportunities for students in modern times and the development of technology to increase their propensity to visualize rather than write;effective organization of leisure time to inspire students,provide them with energy and keep them away from negative actions; to inspire the student to learn,to win,to be courageous;if the organized activities are planned, the student will succeed in education and grow up as an honest citizen and child;issues such as patriotism, tolerance and attention to the people around were studied.

Həsənova Ülkər Yaşar qızı
Magistr
Elmi rəhbər: dos.Ağayev Şahrza

ŞAGİRDLƏRİN ASUDƏ VAXTLARININ PRAKTİK TƏŞKİLİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *asudə vaxt,şagird,valideyn,şəxsiyyət*
Ключевые слова: *свободное время,студент,родитель,личность*
Key words: *leisure time,student,parent, identity*

Şəxsiyyətin formalaşması təbii və davamlı bir prosesdir. Bu proses zamanı insana bir çox amillər təsir edir.Bunlardan biri də asudə vaxtdır. Asudə vaxt şəxsiyyətin inkişafına mühüm təsir edən amillərdəndir. Asudə vaxt şagirdlərin (xüsusən də yeniyetməlik dövründə) həyatında mühüm rol oynayır.Asudə vaxt müxtəlif fəaliyyət növləri kimi qəbul edilə bilər. Lakin ən vacibi asudə vaxtın təşkilində şagirdin nisbi seçim azadlığı və bir qədər zövq aldığı bir kontekst olaraq qəbul edilməsi əsasdır.

Hər il minlərlə şagird öz asudə vaxtını layiqli bir işə könüllü və maraqla istifadə edir. Şagirdlər üçün də asudə vaxtın vacib problemi budur. Bir tərəfdən asudə vaxtın müsbət istifadəsi

şəxsiyyətin inkişafı,mübarizə bacarıqlarının artması, stresin azaldılması, aktivlik yeniliyi, fiziki aktivliyin artması, sosiallaşma, akademik və icma ilə əlaqələr, rifah və sağlamlıq ilə əlaqələndirilir.

Digər tərəfdən asudə vaxt mənfi olaraq istifadə edilə bilər. Boş vaxtın mənfi istifadəsi yemək pozğunluqları, stres,məhdud mübarizə bacarıqları, fiziki hərəkətsizlik, sosial təcrid, təcavüz və şiddət, cəmiyyətdən uzaqlaşma və həddindən artıq alkoqol istehlakı və digər maddə istifadəsi ilə birləşdirilir.

Qeyd edildiyi kimi asudə vaxt istirahət, əyləncə,ünsiyyət, şəxsin fiziki və mənəvi inkişafına sərf edilə bilər. İstirahət və əyləncə, yaradıcı və əyləncəli məşğuliyyətlər və idman daxil olmaqla geniş bir fəaliyyət növünü əhatə edir.

Asudə vaxtın təşkili iki istiqamətdə baş verə bilər: aktiv və passiv.A ktiv asudə vaxt məşğuliyyətləri-oynamaq, idman, inşaat,mahnı oxumaq, rəqs və s. ilə əlaqələndirilir. Passiv istirahət vaxtı isə heç bir xüsusi sey gösterilmədən keçən zamandır. İnsanların çoxu, xüsusən də yeniyetmə dövründə olan şagirdlər asudə vaxtlarını düzgün istifadə edə bilmirlər.

Şagirdin asudə vaxtı mürəkkəb və ziddiyyətlidir. Şagirdlərin öz istəkləri ilə istirahət fəaliyyətlərini seçmək fürsəti olduqda çox vaxt şəxsiyyətin tam formalaşmasına kömək edən şüurlu fəaliyyətlər seçiminə hazır olmurlar. Eyni zamanda asudə vaxtdan istifadə formaları seçimində müstəqilliyə can atarkən yenə də yetkinlərlə müqayisədə müəyyən sosial rollarla məhdudlaşırlar.

Şagirdlərin asudə vaxtı təşkil olunarkən bunun boş bir əyləncə deyil, prinsipə görə sadə bir boşluq olmadığını başa düşmək vacibdir. Asudə vaxt zamanı "Mən istədiyimi edirəm" kimi yanaşmalar mənfi nəticələrə gətirib çıxarır. Mədəni dəyərlərin mənimsənilməsi,yeni maraqlara həvəs, həvəskar iş, yaradıcılıq, bədən tərbiyəsi və idman, turizm,səyahət və s. şagirdlərin asudə vaxtlarda edilə biləcəyi praktik fəaliyyətlərdir.

Bir insanın sosial rifahı, boş vaxtından məmnunluğu bir çox cəhətdən asudə vaxtlardakı fəaliyyətini ümumdünya əhəmiyyətli hədəflərə çatmaq üçün yönəltmək bacarığından,həyat proqramının həyata keçirilməsindən,əsas qüvvələrinin inkişafından asılıdır.

Asudə vaxtın düzgün təşkil olunmasında ailə də xüsusi yer tutur.Yəqin ki, övladının asudə vaxtını düzgün təşkil etmək üçün səy göstərməyən valideyn yoxdur.Ancaq hamı asudə vaxtın nə olduğunu və tam olaraq necə təşkil olunmasını bilirmi? Bu suala cavab vermək üçün əvvəlcə hər bir valideyn övladından tam olaraq nə gözlədiyinə qərar verməlidir.Əlbətdə ki, hər şeydən əvvəl uşağın hərtərəfli inkişaf etməsi düşünülməlidir.Bir çox valideyn uşağın asudə vaxtının tərbiyəsindəki rolunu kompüterlərin son zamanlarda meydana çıxması,çox sayda müxtəlif müasir inkişaf oyunları və müxtəlif yeni açılmış məktəb mövzuları səbəbindən tükənmiş hesab edir.Ancaq səhv edirlər,bu heç də belə deyil.Uşaq üçün düzgün asudə vaxtın təşkili,valideynlər övladları üçün kifayət qədər vaxt tapanda başlayır.Övladınız bütün boş vaxtlarını kompüterdə keçirirsə bu tamamilə səhvdir.Bu, valideynlərin öz övladları ilə ümumiyyətlə məşğul olmağa vaxtının olmadığı göstəricisidir.Uşağı kompüterdən və ya televizordan yayındırmaq üçün onu daha maraqlı və faydalı bir fəaliyyətlə maraqlandırmalısınız.Bunu edərkən onlarında maraqları nəzərə alınmalıdır.

Məktəblilərin uğurlu təhsili onların yaradıcılıq fəaliyyəti olmadan təsəvvür edilə bilməz. Uşaqların yaradıcılığını inkişaf etdirmək böyüklərdən yaradıcı olmağı tələb edir. İstənilən uşaq, şübhəsiz ki, hər hansı bir idman növünə maraq göstərəcəkdir. Uşağın asudə vaxtını daha da gözəlləşdirə və ona rəqs, musiqi, oxuma təklif edə bilərsiniz. Övladlarının müxtəlif dərnəklərdə, klublarda iştirakını təşviq edən valideynlər tərif və təqlidə layiqdirlər,onlar olması gərəkdiyi kimi valideynlik edir, oğlunun və ya qızının ixtira, təcrübə, yenilik, yaradıcılığa olan marağını dəstəkləyir, övladlarının öz maraqları əsasında qazandıqları müvəffəqiyyətlə maraqlanır, bilik üçün bu və ya digər dərsdənkənar bir qurum seçməyə kömək edirlər.

Bəzi uşaqlar isə öz həyat tərzlərindən, ailədəki,məktəbdəki mövcud münasibətlərdən narazıdırlar. Onlar əlavə təhsil müəssisələrinin yaradıcı birliklərində, sinifdə özlərini dəqiq şəkildə axtarırlar və tapırlar. Nəticədə faydalı,uğurlu və maraqlı insanlara çevrilirlər.

Hər hansı peşə növünü seçərkən valideynlər bunu öz övladı ilə birgə yoxlamalıdır. Yalnız uşağın zövqlərinə tam uyğunluq və bu və ya digər yaradıcılıq növü ilə məşğul olmaq istəyi tam olaraq asudə vaxtdan düzgün istifadə ola bilər. Erkən yaşda uşaq hələ nə etmək istədiyi barədə konkret bir şey deyə bilmir,bu səbəbdən fəaliyyətləri əsasən valideynlərin maraqları və istəkləri ilə müəyyən edilir. Ancaq yenə də uşağın istəklərini mütləq dinləməli və üstünlüklərini bir şəkildə müəyyənləşdirməyə çalışmalısınız. Bu gələcəkdə uşaqla fikir ayrılıqlarının qarşısını almağa, düzgün,faydalı və maraqlı bir istirahət təşkil etməyə kömək edəcəkdir.

Bir uşağın inkişafında valideynlərin rolu, şübhəsiz ki, əsasdır. Buna görə valideynlik vəzifəsi mümkün qədər yaxşı yerinə yetirilməlidir və bunun üçün hər bir valideyn çalışmalıdır.

Boş vaxt şəxsiyyətin formalaşması,maraqları, ehtiyacları, qabiliyyətləri, dəyər istiqamətləri, özünü tanıma, özünü təsdiqləmə sahəsi kimi qəbul edilir. Şagirdlərin asudə vaxtlarının təhlilinə əsasən ailənin şəxsiyyət tərbiyə və formalaşdırma işini qiymətləndirmək mümkündür.

Ədəbiyyat

1.Ə.Ə.Ağayev,Y.T.Rzayeva,T.M.Hüseynova,T.Ə.Vahabova.“Sosial pedaqogika”Bakı,2008

2.www.gigabaza.ru

3.www.nsportal.ru

XÜLASƏ

Məqalədə asudə vaxta boş,lazımsız bir vaxt kimi yanaşılmaması; asudə vaxtın şəxsiyyətin həyatında əsas amil kimi mühüm yer alması; valideynlərin bu vaxta zaman ayırması; valideynlərin öz övladları ilə birgə maraqlı və daha faydalı zaman keçirmələri və bu zamanın keçirilməsində uşaqlarında maraqlarının əsas götürülməsi; asudə vaxt zamanı faydalı praktik məşğuliyyətlərin daha çox olması və şagirdin yaradıcılığının bu vaxt ərzində inkişafı göstərilib.

РЕЗЮМЕ

В статье не следует рассматривать досуг как пустое,ненужное время;свободное время-важный фактор в жизни человека;время родителей в это время;родителям интересно и более полезно проводить время со своими детьми и основывать свое время на интересах своих детей;в свободное время есть больше полезных практический занятий и развитие творческих способностей студентов в это время.

SUMMARY

The article should not treat leisure time as an empty,unneeded time;leisure time is an important factor in a persons life;parents time at this time;parents to spend interesting and more useful time with their children and to base their time on the interests of their children;there are more useful practical activities in free time and the development of students creativity during this time.

Hümbətova Aytən Mübariz qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: Məmmədova A.

KİÇİKYAŞLI MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN SOSİALLAŞMA PROSESİ VƏ MƏKTƏBİN TƏRBİYƏ SİSTEMİ

Açar sözlər: *kiçikyaşlı məktəbli, şəxsiyyət, sosiallaşma prosesi, təlim prosesi, tərbiyə prosesi*

Ключевые слова: *молодой студент, личность, процесс социализации, учебный процесс, воспитательный процесс*

Key words: *young student, personality, socialization process, learning process, upbringing process*

İbtidai siniflərdə tədris prosesində uşaqların sosial təcrübəsinin inkişaf etdirilməsi vacib vəzifələrdən biri kimi hesab edilir.

Kiçikyaşlı məktəbli şəxsiyyətinin sosiallaşma prosesinin yolları müxtəlifdir. Uşaqların bütün fərdi ehtiyacları yalnız cəmiyyətdə inkişaf etmiş fəaliyyət formalarını və metodlarını şüurlu şəkildə mənimsəmələri sayəsində formalaşır və müasir tələblərə uyğun təşkil olunmuş təlim prosesində həyata keçirilir.

Kiçikyaşlı şagirdlərin sosiallaşma prosesi şəxsiyyətin bütöv formalaşmasına sistematik və struktur yanaşma ilə əlaqədar olaraq pedaqoji tədqiqatlarda qəbul olunmağa başlayır. Bundan əlavə, sosiallaşmanın pedaqoji əsaslarının inkişafına töhfə ümumiləşdirilmiş sosial təcrübənin şagirdin şəxsiyyət mövqeyinin məzmununa çevrilmə mexanizmidir. İbtidai sinif şagirdlərinin ideoloji və əxlaqi inanclarının, vətəndaş ideallarının, mənəvi mühakimələrinin və davranışlarının formalaşdırılması üzərində aparılan işlər sosiallaşma prosesini təmin edir.

Sosiallaşma prosesi şagirdlərin fərdi tərbiyəsi və özünütərbiyəsi ilə əlaqələri, sosial münasibətlərə daxil edilməsinin yolları, metodları, təşkilati formalarını əhatə etməlidir. Kiçikyaşlı məktəbli kömək edən pedaqoji şərait sosial reallığı dərk etmək və sosial fəaliyyətin ilk əlamətlərini göstərməyə imkan verir.

Sosiallaşma ibtidai sinif şagirdlərinin bir şəxsiyyət kimi formalaşmasını xarakterizə edən proseslər arasındakı ən geniş anlayışdır. Bu proses şagirdlərin sosial həyatın hazır formaları və metodlarının şüurlu şəkildə mənimsənilməsini deyil, öz dəyər istiqamətlərinin inkişafı yollarından biridir.

Kiçikyaşlı şagirdlərin sosiallaşma prosesinin pedaqoji baxımdan nəzərdən keçirilməsi ən azı- üç əsas parametri vurğulamağa istiqamətlənir. Birincisi, hədəf təyinetmə parametri hesab olunur. İkinci parametri, uşaqların sosiallaşma məqsədlərinin həyata keçirilməsi üçün istifadə olunacaq metod, forma və vasitələr əhatə edir. Üçüncü parametr isə ibtidai sinif şagirdlərinin cəmiyyətin ehtiyaclarına uyğun olaraq, tərbiyənin köməyi ilə güclü və özünüdərk etmə qabiliyyətlərini formalaşdıraraq sosiallaşma prosesinin ilkin mərhələsini həyata keçirir.

Məktəbin təlim-tərbiyə sistemi dedikdə, bütün pedaqoji prosesi əhatə edən, sinifdə və sinifdənxaric tədbirlərin ideya məzmununu tam bir şəkildə özündə birləşdirməsi başa düşülür. Məktəbin tərbiyəvi işlər sistemi düzgün qurulduğu zaman şagirdlər mənalı həyat yaşayır, ictimai işlərə fəal qoşulur, təhsilə marağı daha da artır, onların gələcəkdə uğurlar qazanmaq şansı daha da çoxalır. Belə mühitdə şagirdlər öz yaradıcı potensialını inkişaf etdirir, müasir cəmiyyətə uyğunlaşa bilir.

Məktəb şəraitində sosiallaşmanın əsas məqsədi bir uşağı sosial cəhətdən bacarıqlı etməkdir. Uşaq məktəb mühitində sosial, emosional və intellektual fəaliyyət göstərməsinə imkan verən bacarıqları inkişaf etdirməlidir. Məktəb strukturu daxilində, sosial sərişta, şagirdlərin sosial cəhətdən təsdiqlənmiş hədəfləri nəzərdə tutulmalıdır. Bu hədəflər (məsələn, bölüşməyi öyrənmək, dərslərdə iştirak etmək, qrup şəklində işləmək) əhatə olunduqda, uşağın məktəbdəki sosial qruplara inteqrasiya etməsi də asanlaşır. Sosial təsdiq uşaqların məktəb mühitinin təsdiqlənmiş hədəflərini qəbul etdikləri zaman əldə edilir.

Məktəb sistemində kiçikyaşlı şagirdlərin sosiallaşmasının pedaqoji amili milli və ümumbəşəri dəyərlərin sinif prosesində əlaqələndirilməsidir. Bu isə şagirdlərin cəmiyyətin sosiallaşma təcrübəsinin tələblərinə uyğun olaraq təşkilini təmin edir.

I-IV sinif şagirdlərinin sosiallaşması pedaqoji əhəmiyyətinin üçüncü parametri sosial təcrübə yollarının axtarışı ilə əlaqələndirilir. Fərdi inkişafı, onun sosial təcrübənin müstəqil əldə edilməsi və sosial münasibətlərin inkişafı prosesinə daxil edilməsini tələb edir.

Belə ki, məktəbin tərbiyə sisteminin məqsədi və məzmunu köhnə üsullarla reallaşa bilməz. Burada problem dərsin, necə, hansı üsullarla və vasitələrlə keçirilməsində deyil, yaradılmış təlim mühitinin uşaqların gerçək həyatı ilə obrazlı şəkildə sosiallaşdırılmasıdır. Eyni zamanda, uşağın ictimai formasiyasının özünəməxsus xüsusiyyətləri də nəzərə alınmalıdır.

Məktəb tərbiyə sistemində kiçikyaşlı məktəblilərin sosiallaşmasının istiqamətlərini aşağıdakı kimi ümumiləşdirə bilərik:

1. İbtidai sinif şagirdlərinin əsas həyat dəyərlərinə qarşı aktiv fərdi münasibət formalaşdırma;
2. Müəyyən bir mədəni mühit kontekstində ibtidai sinif şagirdlərinin sosiallaşmasının pedaqoji alətlərinin öyrənilməsi;
3. Təhsil (təlim) prosesi ilə şagirdin müxtəlif maraqlarının təzahürləri arasında qarşılıqlı təsir imkanlarının öyrənilməsi;
4. Ümumi təhsil metodlarının sosiallaşma cəhətlərinin nəzəri və texnoloji cəhətdən yenidən nəzərdən keçirilməsi;
5. Sinergetika (özünütəşkil, uyğunluq) prinsipləri əsasında sosiallaşmanın pedaqoji əsaslarının inkişafı (ibtidai məktəb yaşındakı uşaqların şəxsiyyətinin özünü təşkil etməsi);
6. İbtidai sinif şagirdlərinin sosiallaşma qanunları nəzərə alınmaqla, ibtidai təhsilin inteqrativ kursunun qurulması;
7. İbtidai sinif şagirdlərinin müasir cəmiyyətin sosial normalarına yönəlməsinin pedaqoji əsaslarının öyrənilməsi. Bu problemlərin əsasında elmi araşdırmalar müasir şəraitdə ibtidai məktəb yaşında bir uşağın şəxsiyyətini formalaşdırma nəzəriyyəsi və praktikasının daha da təkmilləşdirilməsinə kömək edəcəkdir.

Tədqiqatlara əsasən qeyd edə bilərik ki, ibtidai siniflərdə şəxsiyyətyönümlü bir təhsil prosesi kiçikyaşlı şagirdlər tərəfindən həyati dəyərlərə yiyələnməsinə istiqamətlənir. Məqsədyönlü pedaqoji təsirin kiçikyaşlı şagirdlərin öz-özünə təhsil prosesində sosial təcrübəsi ilə əlaqələndirilməsi, onların sosiallaşması üçün pedaqoji işin əsasını təşkil edir.

Təhsilin sosial-mədəni funksiyası tarixən qurulmuş mədəniyyətin davamlılığından istifadə etməklə məktəb tərbiyə sisteminin əsası olan şagirdlər yalnız mədəni dəyərlərin daşıyıcısı kimi deyil, yenilərinin yaradıcısı kimi də fəaliyyətə cəlb olunur.

Məktəbdə sosiallaşma prosesi kiçikyaşlı şagirdlərin sosial mühitə nə stresli qoşulmasını, nə də şəxsiyyətlərarası ünsiyyətini nəzərdə tutmur. Burada kiçikyaşlı məktəblilərin mənəvi həyatının diqqətlə inkişafı və daxili aləminin subyektiv təcrübələrindən sosial aləmə mənəvi nüfuz etməsinə keçid sistemi yaranır.

Cəmiyyətin müxtəlif aspektlərində sürətlə aparılan əsaslı dəyişikliklər gözlənilməz olmasına baxmayaraq, kiçikyaşlı şagirdlərin sosiallaşması problemi məktəbin tərbiyə sistemində yeniliklərin tətbiqini tələb edir. Bu şərtlər altında pedaqogika, bugünkü uşaqların, gənclərin təhsili və tərbiyəsinin yeni bir mənəvi mühiti, yeni bir yaşayış sahəsini qəbul etməyə və nəzəri olaraq qavramağa istiqamətlənməlidirlər. Buna görə də mikrososial səviyyədə pedaqoji prosesin əsas elementləri olan müəllim və şagird sosiallaşma mövzusu və obyekti kimi göstərilməlidirlər. Müəllim pedaqoji prosesin əsas subyekti və pedaqoji hədəfin daşıyıcısı, tərbiyə fəaliyyətinin təşkilatçısı olaraq sosiallaşma prosesində vacib məqam hesab olunur. Məktəbdə tərbiyə prosesi uşağın müəyyən bir mühitin, spesifik həyat tərzinin əsas hissəsi kimi qəbul edilir. Müəllimlər isə bir qayda olaraq, tərbiyə prosesinə nəzarət edərək paralel pedaqoji fəaliyyət səviyyəsində işləyib, tez-tez öz məqsədyönlü hərəkətləri ilə nümunə olurlar. Müəllim məktəbdə sosiallaşma amilləri vasitəsilə açıq və məqsədyönlü şəkildə hərəkət edə bilir. Ancaq belə bir mövqedə müəllim kiçikyaşlı məktəblilərə birbaşa, şəxsi münasibətləri ilə həlledici təsir göstərə bilər.

Təlim prosesində sosiallaşmanın əsas xüsusiyyəti kiçikyaşlı şagirdlərin özünü müəyyən bir sosial təcrübənin daşıyıcısı olaraq görməsidir. Sosiallaşma prosesinin ilk dövrlərində uşaq hələ özünü sosial-təbii mühitdən ayırd edə bilmir. Uşağın düşüncə və nitqinin inkişafı ilə müəyyən bir həyat tərzi kontekstində sosiallaşmağı başlayır.

Məktəbdə tərbiyə sistemi kiçikyaşlı şagirdlərin sosiallaşmasının təməlini təşkil edərək, şagirdin özünü dərketmə, özünü inkişaf etdirmə, özünütənzimləmə kimi insani bacarıqların inkişaf təmin edir.

Beləliklə, kiçikyaşlı məktəblilərin sosiallaşmasına diqqət yetirərək, sistematik öyrənmənin başlanğıcı və akademik fəaliyyətin aparıcı rolu, şagirdin daxili mövqeyinin formalaşmasıdır. Uşaqların təhsil fəaliyyəti prosesində və asudə vaxtında, təhsil prosesi sisteminə daxil olan mütəşəkkil ünsiyyətdə sosiallaşma baş verir.

Ədəbiyyat

1. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı.,2007
2. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı., 2012
3. Abbasov N.A., Əlizadə H.Ə. Pedaqogika. Bakı.,2001
4. İsmixanov M., Vəliyeva S. Sosial Pedaqogika.Bakı.,2014

XÜLASƏ

Məqalədə kiçikyaşlı şagirdlərin sosiallaşma prosesinin pedaqoji baxımdan nəzərdən keçirilməsi parametri verilmişdir. Məktəb sistemində kiçikyaşlı şagirdlərin sosiallaşmasının pedaqoji amili milli və ümumbəşəri dəyərlərin sinif prosesində əlaqələndirilməsidir. Məqalədə məktəb tərbiyə sistemində kiçikyaşlı məktəblilərin sosiallaşmasının istiqamətləri əsas mövqedə verilib.

Məktəbdə sosiallaşma prosesi kiçikyaşlı şagirdlərin sosial mühitə nə stresli qoşulmasını, nə də şəxsiyyətlərarası ünsiyyətini nəzərdə tutmur. Təlim prosesində sosiallaşmanın əsas xüsusiyyəti kiçikyaşlı şagirdlərin özünü müəyyən bir sosial təcrübənin daşıyıcısı olaraq görməsi kimi verilir.

РЕЗЮМЕ

В статье представлен параметр педагогической оценки процесса социализации студенческой молодежи. Педагогическим фактором социализации учащейся молодежи в школьной системе является согласование национальных и общечеловеческих ценностей в учебном процессе. Статья посвящена социализации учащейся молодежи в системе школьного образования.

Процесс социализации в школе не включает стрессовую интеграцию молодых учеников в социальную среду или межличностное общение. Основная особенность социализации в процессе обучения заключается в том, что молодые студенты видят себя носителями определенного социального опыта.

SUMMARY

The article provides the pedagogical evaluation parameter regarding the socialization process of young students. The pedagogical factor of socialization of young students in the school system is the coordination of national and universal values in the classroom process. The article focuses on the socialization of young students in the school education system.

The socialization process at school does not involve the stressful integration of young students into the social environment or interpersonal communication. The main feature of socialization in the learning process is that young students see themselves as carriers of a certain social experience.

Hümbətova Aytən Mübariz qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: Məmmədova A.

MƏKTƏBİN SOSİALLAŞMA PROSESİ ÜÇÜN MÖVCUD ŞƏRAİTİ VƏ İMKANLARI

Açar sözlər: *sosiallaşma prosesi, məktəb mühiti, təlim prosesi, şagird şəxsiyyəti*

Ключевые слова: *процесс социализации, школьная среда, учебный процесс, личность студента*

Key words: *socialization process, school environment, learning process, student personality*

Dünyanın əksər ölkələrində dövlət təhsil strukturları demək olar ki, tamamilə institusionaldır, yəni sosial qurumlarla əlaqəlidir. Bu sistemlərdəki mərkəzi yer insanın özünəməxsus bir fəaliyyət növü, mədəni bir fenomen olan, cəmiyyətin bütöv bir şəkildə imicini canlandıran əsas sosial qurumlardan biri olan məktəbdir.

Məktəb uşaqların yaradıcılıq fəaliyyətini, şüurlu məqsədyönlü hərəkətlərini inkişaf etdirən sosial mühitdir. Məktəb özü ictimai həyata, onun sahələrinə və strukturlarına fəal şəkildə təsir edir. Həmçinin məktəb sosial dəyişikliklərin mənbəyi və amili kimi çıxış edir. Məktəb gənc nəslə təsir edən, onların inkişaflarını və gələcək peşə seçim imkanları ilə yanaşı şəxsi xüsusiyyətlərini müəyyən edən müstəqil bir sosiallaşma amilidir.

Məktəbin sosiallaşma prosesi üçün mövcud şərait mexanizmlərini aşağıdakı kimi ümumiləşdirə bilərik:

• Sosiallaşmanın psixoloji mexanizmləri, məsələn:

- uşaqlara şüuraltı səviyyələrdə təsir edən əhəmiyyətli obyektlərin xüsusiyyətlərini təyin etmək;

- Şagirdlərin insanlarla qarşılıqlı əlaqə prosesində məcburi olan sosial davranış normalarının şüursuz mənimsənilməsi;

- təqlid - bir modeli, nümunəni izləmək;

- eyniləşdirmə - şəxs tərəfindən özünün başqa bir şəxs, model ilə şüursuz eyniləşdirmə prosesi;

- şagirdin ailənin, həmyaşıdlarının və s. müxtəlif xüsusiyyətlərini, dəyərləri nəzərdən keçirdiyi, qiymətləndirdiyi, qəbul etdiyi və ya rədd etdiyi daxili dialoq onun sosiallaşma mühitidir.

• Sosiallaşmanın pedaqoji mexanizmləri aşağıdakılardır:

- ailəsinə və ən yaxın çevrəsinə (qonşu, dost və s.) xas olan insan normalarını, davranış standartlarını, münasibətlərini, stereotiplərini mənimsəmək olan ənənəvi sosiallaşma mexanizmi;

- insanın həm cəmiyyəti üçün xüsusi olaraq yaradılmış cəmiyyət qurumları və müxtəlif təşkilatlarla qarşılıqlı əlaqəsi prosesində fəaliyyət göstərən və bu yolda əsas funksiyalarına paralel olaraq sosiallaşma funksiyalarını həyata keçirən sosiallaşmanın institusional mexanizmi;

- müəyyən bir alt mədəniyyət daxilində fəaliyyət göstərən sosiallaşma mexanizmi;

- insan üçün subyektiv əhəmiyyət kəsb edən insanlarla qarşılıqlı əlaqəsi prosesində fəaliyyət göstərən şəxsiyyətlərarası bir sosiallaşma mexanizmidir.

Məktəb sosiallaşması uşağın məktəbdə qalma müddəti və məcburi qalması ilə əlaqələndirilir ki, bu da sosiallaşma mərhələsini normativ (məcburi) mərhələyə çevirir.

Məktəb şəraitində uşaqların sosiallaşma prosesinin komponentlərini aşağıdakılar kimi qruplaşdıra bilərik:

• qarşılıqlı əlaqədə və cəmiyyət həyatının obyektiv şərtlərinin təsiri altında həyata keçirilmiş spontan sosiallaşma. Spontan sosiallaşmanın məzmunu, mahiyyəti və nəticələri sosial-iqtisadi və sosial-mədəni reallıqlar tərəfindən müəyyən edilir.

• nisbətən yönəldilmiş sosiallaşma. Dövlət, heç bir şəkildə sosiallaşma ilə əlaqəli olmayan problemlərini həll etsə də, iqtisadi tədbirləri, qanunları və digər metodları ilə, inkişafın imkanları və təbiətindəki dəyişikliyə, müəyyən yaşda və ya əhalinin sosial-peşə qruplarının həyat yolunda obyektiv təsir göstərir.

• bir insanın az və ya çox şüurlu şəkildə özünü dəyişdirməsi (özünütərbiyə);

• sosial cəhətdən idarə olunan sosiallaşma (təhsil) - cəmiyyət və dövlət tərəfindən insanın inkişafı üçün hüquqi, təşkilati, maddi və mənəvi şəraitin planlaşdırılması.

Məktəbin ətraf mühitlə daim məlumat mübadiləsində olması, şagirdlərin sosiallaşması üçün daha səmərəli şəraitin yaradılmasına təsir edir. Sosial qurumlardan, cəmiyyətdən, şəxslərdən məktəbə daxil olan məlumatların əksəriyyəti müəyyən dərəcədə məktəb tərəfindən qeydiyyata alınır və lazım olduqca təlim prosesinə daxil olunur.

Məktəbin sosiallaşma prosesi üçün mövcud kənar mühiti - aqressiv, bitərəf və əlaqəli, parçalanmış kimi təyin edə bilərik. Əslində onu qeyd etməliyik ki, məktəbin sosiallaşma şəraitində bu kənar mühitlərin yaranmasında müəllim və idarəçilərin rolu böyükdür. Məsələn,

aqressiv mühitə - yeniyetməlik yaş dövrlərində, əlaqəli və bitərəf mühitə isə ibtidai siniflərdə daha çox rast gəlinir.

Məktəb cəmiyyətin əsas sosiallaşma mühiti olduğu üçün cəmiyyətin hər bir tələbi özünü məktəb mühitində tapmalıdır. Məsələn, qeyri-sabit bir cəmiyyətdə kortəbii bir sosiallaşma baş verir. Yəni sosiallaşma nəticəsində insan həqiqətən bilmir ki, bir şəxs, bir obyekt olaraq cəmiyyət ondan nə istəyir və cəmiyyət ona nə verir. Bütövlükdə məktəbin sosial şəraitinin görüntüsü ziddiyyətli bir xarakter daşıyır.

Makrososial proseslər kiçikyaşlı məktəblilərin uyğunlaşma potensialına qarşı ciddi tələblər qoyur. Uşağın düşdüyü mühitdə olan risk faktoru onun fəaliyyətinin bütün sahələrinə təsir edir, yeni yanaşma tərzinin yaranma emosionallığını artırır. Bu gün məktəb mühitinin sosial-iqtisadi proseslərini müşayiət edən dəyərlər sistemindəki ciddi dəyişikliklərə baxmayaraq, cəmiyyətdə qəbul edilmiş davranış normaları və qaydaları uşaqlar üçün əhəmiyyətli olaraq qalmaqdadır. Belə ki, başqalarının davranış motivlərinə və qarşılıqlı razılaşma ilə həll yollarına baxmayaraq kiçikyaşlı məktəbli öz fikrini daha fəal şəkildə təsdiqləmək və müdafiə etmək vərdişinə yiyələnir.

Müasir məktəb mühiti ilə ənənəvi mühitin müqayisəsində uşaqların sosial məsuliyyət, vəzifə hissi, intizamının tənzimləmə rolu nisbətən aşağı mövqeləri ilə izah olunur. Uşaqların sosiallaşma prosesinin quruluşu intellektual maraqların xüsusi dəyəri müasir şəraitdə bilik və təhsilin əhəmiyyətinin tədricən artması ilə əlaqələndirilir.

Ədəbiyyat

1. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı.,2007
2. İsmixanov M., Vəliyeva S. Sosial Pedaqogika.Bakı,2014
3. Мардахаев Л.В. Социальная педагогика. М.Гардарики, 2006.
4. Мудрик А.В. Социальная педагогика. М., Академия, 2008.

XÜLASƏ

Məqalədə məktəbin ictimai həyata, onun sahələrinə və strukturlarına fəal şəkildə göstərdiyi təsir verilmişdir. Məktəb gənc nəslə təsir edən, onların inkişaflarını və gələcək peşə seçim imkanları ilə yanaşı şəxsi xüsusiyyətlərini müəyyən edən müstəqil bir sosiallaşma amilidir.

Məktəbin ətraf mühitlə daim məlumat mübadiləsində olması, şagirdlərin sosiallaşması üçün daha səmərəli şəraitin yaradılmasına təsir edir. Məktəb cəmiyyətin əsas sosiallaşma mühiti olduğu üçün cəmiyyətin hər bir tələbi özünü məktəb mühitində tapmalıdır.

РЕЗЮМЕ

В статье рассматривается активное влияние на общественную жизнь школы, ее направлений и структур. Школа - это независимый фактор социализации, который влияет на молодое поколение, определяя его развитие и выбор будущей карьеры, а также его личные характеристики.

Постоянный обмен информацией между школой и окружающей средой способствует созданию более эффективных условий для социализации учеников. Поскольку школа является основной социальной средой общества, каждое требование общества должно найти себя в школьной среде.

SUMMARY

The article actively influences the social life of the school, its areas and structures. School is an independent socializing factor that affects the younger generation, determining their development and future career choices, as well as their personal characteristics.

The constant exchange of information between the school and the environment contributes to the creation of more effective conditions for the socialization of students. Since the school is the main social environment of the society, every demand of the society must find itself in the school environment.

Hümbətova Aytən Mübariz qızı
ADPU-nun magistrantı
Elmi rəhbər: Məmmədova A.

KİÇİKYAŞLI MƏKTƏBLİ SOSİALLAŞMANIN OBYEKTİ VƏ SUBYEKTİ KİMİ

Açar sözlər: *sosiallaşma prosesi, təlim prosesi, kiçikyaşlı məktəbli, ibtidai sinif şagirdi*
Ключевые слова: *процесс социализации, процесс обучения, неполная средняя школа, ученик начальной школы*
Key words: *socialization process, learning process, junior high school, elementary school student*

Sosiallaşma prosesi uşağın düşdüyü hər bir mühitin tələblərinə uyğun baş verir. Kiçikyaşlı məktəblilər sosiallaşma prosesinin həm subyekti, həm də obyekti kimi çıxış edə bilirlər. İbtidai sinif şagirdlərinin sosial mühitə olan təsiri onun sosiallaşmasının amilinə çevrilir. Kiçikyaşlı məktəblilərin sosiallaşması ümumi şəkildə müəyyən bir cəmiyyət tərəfindən tələb olunan xüsusiyyətlərin formalaşması kimi başa düşülür. Belə bir mühitdə uşaq sosiallaşma prosesinin obyektinə çevrilir.

Əlbəttə ki, ibtidai sinif şagirdlərinin sosiallaşması inkişafın növbəti mərhələsində onları xarakterizə edəcək fərdi və sosial keyfiyyətlərin mənimsənilməsi kimi də izah olunur. Beləki, bəzi hallarda uşaqlar sosiallaşmanın obyekti kimi çıxış etdikdə, sabit bir sosial mühitdə uyğunlaşma dövrünün çətinliklərini aşa bilmir və inkişafın ikinci mərhələsinə girir, böyük ehtimalla uyğunluq, asılılıq, təşəbbüskarlıq, qorxaqlıq və özünə inamsızlıq keyfiyyətlərini inkişaf etdirmiş olacaq. Uğurlu sosiallaşma prosesini təmin edən dəyər istiqamətlərini dəyişdirmək bacarığı, dəyərləri ilə rolun tələbləri arasında bir tarazlıq tapa bilmək, sosial rollara seçici münasibət, konkret tələblərə deyil, ümumbəşəri əxlaqi, insan dəyərlərini dərk etməyə imkan verir.

Məktəbə qəbul olan 6 yaşlı uşağın sosial inkişafı üçün cəmiyyətin irəli sürdüyü bir sıra pedaqoji tələblər ilk məcburi vəziyyət kimi göstərilir. Ümumiyyətlə, kiçikyaşlı məktəblinin sosiallaşma mühitində yaş psixologiyası və pedaqoji nəzəriyyələr nəzərə alınmalıdır.

Kiçikyaşlı məktəblilərin sosiallaşma imkanlarını müəyyənləşdirən əsas amillər onların bu prosesdə subyekt və ya obyekt olmasıdır. Məktəb mühitinin ən vacib xüsusiyyəti, ibtidai sinif şagirdlərinin mədəni təlim mühitinin özünəməxsusluğunu təyin edən pedaqoji prosesdir.

Ədəbiyyat

1. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı.,2007
2. Ağayev Ə. və b. Sosial pedaqogika, Bakı., 2010
3. Елена Владимировна, Нелли Викторовна Суздальцева, Социализация детей младшего школьного возраста в условиях летнего лагеря. Ишим, 2016

Əhmədova Maisə Cavid qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, 2-ci kurs magistrantı

SOSİAL PEDAQOQUN PEŞƏSİNİN MAHİYYƏTİ VƏ VƏZİFƏSİ

Açar sözlər: *peşə mahiyyəti, sosial pedaqoq, şəxsiyyət*
Ключевые слова: *суть профессии, социальный педагог,личность*
Key words: *the essence of the profession, social pedagogue, personality*

Sosial pedaqoq məktəblərdə, xəstəxanalarda, reabilitasiya mərkəzlərində, uşaq evlərində, internat məktəblərində və sosial xidmətlərdə çalışan mütəxəssisdir. Onun başlıca vəzifəsi uğursuz ailələrdən olanproblemli uşaqlarla, əlillərlə, məktəbdə geri qalanlarla, zehni travma keçirənlərlə işləməkdir. Sosial pedaqoq tədris prosesinə nəzarət edir, maarifləndirici və izahlı

işlər aparır,uşaqlara komandada rahat olmağa, mədəni bir cəmiyyətin qanunlarını anlamağa və qəbul etməyə kömək edir. Fərdin ümumi mədəniyyətini formalaşdırır və cəmiyyətə uyğunlaşma prosesini düzgün istiqamətə yönəldir.

Sosial pedaqoqun sosial işçi peşəsi ilə çox ümumi cəhətləri var. Sosial pedaqoqun işi cəmiyyət üçün vacibdir, çünki uşaqların həyatda öz yerlərini tapmasına, tamamilə dəyərli bir vətəndaş olmasına kömək edir. Bir çox problemli, qayğıdan kənar,baxımsız uşaq valideynlərindən lazımi tərbiyəni ala bilmir. Sosial pedaqoq bu boşluğu doldurmağa və uşağın antisosial və qanunsuz davranışının qarşısını almağa çalışır.

Sosial pedaqoq uşaqlara adi yanaşmanın təsirsiz olduğu hallarda kömək edir. Fərdi təhsil işi aparır, ailələrə baş çəkir, valideynlərlə izahlı iş aparır, uşaqların dərsə davamiyyətinə nəzarət edir, dərnəklər təşkil edir və asudə vaxtlarda məşğul olmaq üçün hobbi seçməyə kömək edir. Sosial pedaqoqun işi asan adlandırıla bilməz, çünki çox fiziki və zehni güc tələb edir.O, ətrafında olanların uşaq problemlərinə səssiz yanaşması, işsiz valideynlərin laqeydliyi və pis davranışları ilə tez-tez qarşılaşır. Bundan əlavə, valideyn qayğısından kənar düşmüş uşaqların ruh aləminə təsir etmək çox çətin bir prosesdir - çətin uşaqlar tez-tez kədərlənir, heç kimə inanmırlar. Ancaq sosial pedaqoq bir uşağın düzgün yolu tutmasına və cəmiyyətin tam hüquqlu bir üzvü olaraq böyüməsinə həqiqətən kömək edə bildikdə, əziyyətinin qarşılığında nə qədər müsbət hisslər alır.

Sosial pedaqoq əsas fənn təhsili alan bir müəllim deyil, bir az fərqli profilli, hüquqi və psixoloji biliklərin əsaslarına sahib bir müəllimdir; yalnız uşağın problemini görməklə kifayətlənməyən, həm də həllini tapmasına kömək edə bilən bir mütəxəssisdir. Sosial pedaqoqun fəaliyyətində mühüm bir istiqamət sosial cəhətdən fəal bir şəxsiyyətin inkişafı, sosial əhəmiyyətli səriştələrin formalaşdırılmasıdır. Sosial pedaqoqun fəaliyyəti, sosiallaşma prosesində müxtəlif problemlərin ortaya çıxdığı uşaqlar ilə qarşılıqlı əlaqəni əhatə edir. Sosial pedaqoq əsasənağır travmaları olan, psixoloji şiddət görmüş, cəmiyyətə uyğunlaşa bilməyən, özünü müdafiə edə bilməyən, köməyə ehtiyacı olan,ümumiyyətlə qəbul edilmiş davranış normalarını pozanuşaqlarla işləyir. Bu peşə pedaqoji fəaliyyəti problemli uşaqlara psixoloji yardım göstərməklə birləşdirir.

Kimə sosial pedaqoq deyilir? Sosial pedaqoq peşəsi son dövrlərdə – 2000-ci illərdə ortaya çıxdı. Həmin ixtisasın ortaya çıxmasından əvvəl bu rolu sinif rəhbərləri və idarəedicilər oynayırdı. Sosial pedaqoq, yetkinlik yaşına çatmayan uşaqlar arasında günü-gündən artmaqda olan cinayətlərin və funksional olmayan ailələrin sayının çoxalması ilə əlaqəli olaraq ehtiyac duyulan çox vacib bir peşədir.

Sosial pedaqoqun əsas vəzifəsi şagirdinin ruhi vəziyyətinə faydalı təsir göstərməkdir. Bu məqsədlə mütəxəssis tədbirlər təşkil edir, maarifləndirmə işləri aparır və uşaq hüquqlarının müdafiəçisi kimi çıxış edir. İş əsnasında mütəxəssis ətrafdakıları üçün rahat şərait yaradır, onlarla etibarlı əlaqələr qurur, şagirdlərə psixoloji maneəni aşmağa kömək edir. Bununla paralel olaraq ovalideynlərlə də işləyir,onların uşaqlarladüzgün münasibət qurmalarına kömək edir. Beləliklə, sosial pedaqoqun vəzifələri uşaqlarda yaranan problemlərin kəskinləşməsinin və uşağın aldığı psixoloji travmanın mümkün mənfi nəticələrinin qarşısını almaqdır.

Məqalədə sosial pedaqoqun işinin mürəkkəbliyindən, gərgin emosional hallarda və fiziki stres qarşısında böyük mental sağlıq tələb olunmasından, mütəxəssisdən səbir və fədakarlıq tələb edən çətin peşə olması aydın oldu. Sosial pedaqoq gələcək peşə fəaliyyətində müvəffəqiyyətli olması üçün əvvəlcə peşənin mahiyyətini və vəzifələrini yaxşı dərk etməli olduqlarını bilməlidirlər.

Ədəbiyyat

1. Orucova S. Sosial pedaqoqun peşə hazırlığının sistemi. Bakı, 2006.
2. Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A. Pedaqogika. Bakı, 2006.
3. Богарова В.Г. Социальная педагогика. М, 1994

РЕЗЮМЕ

Из сложности работы социального педагога, необходимости отличного психического здоровья перед лицом сильных эмоциональных и физических нагрузок в статье стало ясно, что это сложная профессия, требующая от специалиста терпения и целеустремленности. Чтобы добиться успеха в своих будущих начинаниях, социальные педагоги должны сначала понять природу и обязанности своей профессии.

SUMMARY

It became clear in the article that the work of a social educator is a difficult profession that requires patience and dedication from a specialist, due to the complexity of his work, the need for great mental health in the face of intense emotional and physical stress. In order to be successful in their future endeavors, social educators must first understand the nature and responsibilities of the profession.

Fəridə Fəxrəddin Fəxrəddin qızı
Magistrant
Elmi rəhbər: p.e.f.d R.C. Əliyev

ŞƏXSİYYƏTİN HƏRTƏRƏFLİİNKİŞAFINDA PEDAQOJİ ÜNSİYYƏTİN ROLU

Açar sözlər: *təhsil, keyfiyyətli təhsil, məzmun,münasibət, inkişaf, pedaqoji ünsiyyət, qarşılıqlı münasibət*

Ключевые слова: *образование, качественное образование, содержание, отношение, развитие, педагогическое общение, взаимодействие*

Key words: *education, quality education, content, attitude, development, pedagogical communication, interaction*

Təhsil islahatının geniş vüsət aldığı bir dövrdə Azərbaycan Respubliksaının təhsil siyasətinin həyata keçirilməsi bir sıra yeni məzmun və forma keyfiyyətləri ilə müşahidə olunmaqdadır. Təhsilin forma və məzmun yenilikləri onun vəzifələrinin daha da genişləndirir. Ölkəmizin ümumtəhsil müəssisələrində aparılan planlı və mütəşəkkil işlər müasir təhsilin məzmununa yüksək hazırlıqlı şəxsiyyət vətəndaş hazırlığına öz təsirini göstərməkdədir. Reallıq ondan ibarətdir ki, keyfiyyətli təhsil, səriştəli şəxsiyyət hazırlığı cəmiyyətin inkişafına təkan verən aparıcı qüvvədir.

İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə pedaqoji istiqamətli fənnlərin tədrisində, şagirdlərin bilik bacarıq və vərdişlərinin yüksəldilməsində müasirliyi özündə ehtiva edən pedaqoji ünsiyyət amillərindən istifadənin zəruriliyi diqqəti cəlb etməkdədir. Zənnimizcə, müasir dövrün müəllimi infarmasiya verməklə yanaşı, şagirdləri birgə axtarışa sövq etməyi bacarmalı, onların özünüifadəsi və özünütəsdiqi üçün əlverişli şərait yaratmalı, qarşılıqlı təsirə əsaslanan interaktiv mühit təşkil etməlidir.

Bu cəhətdən müasir dövrdə təsirli tərbiyə vasitələri kimi mühim əhəmiyyət kəsb edən pedaqoji ünsiyyətin şəxsiyyətin hərtərəfli inkişafında rolunun müəyyən edilməsi və bu işin təkmilləşdirilməsi aktuallığı ilə diqqəti cəlb edir.

Bəs ünsiyyət nədir? Təbii ki, bu məsələyə yanaşmalar müxtəlifdir. Fikrimizcə iki və daha adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsir amili kimi ünsiyyəti qəbul etmək həm pedaqoji həm psixoloji baxımdan qəbulediləndir.

İnsanların qarşılıqlı şəxsiyyətlərarası münasibətləri də təbii ki, öz reallığını ünsiyyət prosesində tapır. Tədqiqi araşdırmalar göstərir ki, ünsiyyətlə qarşılıqlı münasibətlər bir- birilə üzvi surətdə əlaqədar olsada, onları eyniləşdirmək olmaz. Ünsiyyət insanların birgə həyat fəaliyyəti ilə şərtlənir. Qarşılıqlı münasibətlər müxtəlifdir. Funksional baxımdan onların aşağıdakı tiplərini fərqləndirirlər:

a) Formal (və ya rəsmi)

b) Qeyri-formal (və ya qeyri-rəsmi) qarşılıqlı münasibətlər.

Formal qarşılıqlı münasibətlər hər bir fərdin müvafiq konkret qrupda onun rəsmi statusu (mövqeyi) ilə şərtlənən münasibətlərin məcmusundan ibarətdir. Onlar fəaliyyətin normativ cəhətlərini əks etdirir və müəyyən qaydalarla tənzim edilən işgüzar münasibətlərdə ifadə olunur. Məktəbdə "direktor-müəllim", "müəllim-müəllim" tipli münasibətlər normal qarşılıqlı münasibətlərə aid edilə bilər.

Unutmayaq ki, şəxsiyyətin formalaşmasında formal qarşılıqlı münasibətlərlə yanaşı qeyri-formal qarşılıqlı münasibətlər də əmələ gəlir. Qeyri-formal qarşılıqlı münasibətlər də əmələ gəlir. Qeyri-formal qarşılıqlı münasibətlər heç kəs tərəfindən müəyyən edilmir, pedaqoji cəhətdən əlverişli şərait olduqda öz-özünə təşəkkül tapır. Şəxsiyyətin hərtərəfli inkişafında ünsiyyət mədəniyyəti məsələsi diqqəti cəlb edir. Ünsiyyət mədəniyyəti zənnimizcə insan münasibətlərinin daxili gözəlliyində öz ifadəsini tapır. Nəzakətlilik, təmkinlilik, mehribanlıq, xeyirxahlıq, tərəf-müqabilini dinləmək bacarığı və başa düşmək arzusu, onun zövqünə, hərəkətlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinv və kədərini anlamaq, dərdinə şərik olmaq-bunlar ünsiyyət mədəniyyətinin əsasını təşkil edir.

Ümumilikdə, dünya təhsil sisteminə inteqrasiya şəraitində şagird şəxsiyyətinin ahəngdar inkişafında əhəmiyyətli rol oynayan pedaqoji ünsiyyət amilini tədqiqata cəlb etməyimizi məqsədə uygun hesab edirik.

Ədəbiyyat

1. İsmixanov M.A., R.T Bəxtiyarov – Ali məktəb pedaqogikası B.2010.
2. Rüstəmov F.A., Dadaşova T.Y. – Ali məktəb pedaqogikası B. 2007.
3. Ağayeva S.Ə Şəxsiyyətin ahəngdar inkişafında pedaqoji ünsiyyətin rolu, Gəncə Dövlət Universiteti əsərləri, Nurlan nəş. 2009.
4. Kərimov S.A. Şagird şəxsiyyətinin inkişafında ünsiyyət məsələləri B-2019
5. Mehdizadə Z.M Uşaq psixologiyası B-2019

XÜLASƏ

1. Ünsiyyət bütün zamanlarda şəxsiyyətin hərtərəfli inkişafında əhəmiyyətli rol oynamışdır.
2. Gənclərin bir çox şəxsi keyfiyyətləri kollektivçilik, humanizm, dəqiqlik, düzgünlük-doğruçuluq və s. İnsani sifətlər ünsiyyət şəraitində formalaşır.
3. Pedaqoji ünsiyyət pedaqoji proses iştirakçılarının qarşılıqlı münasibətini ifadə edən peşə ünsiyyətidir.
4. Şəxsiyyətin informasiya mubadiləsi, onların zehni-mənəvi inkişafına əlverişli şərait yaradır.
5. Şagird şəxsiyyətinin hərtərəfli inkişafında interaktiv funksiya ünsiyyətin əsasını təşkil edir
6. İnsanların bir-birini qavraması və anlamnası normal ünsiyyət şəraitinin yaranmasına zəmin yaradır

РЕЗЮМЕ

1. Общение всегда играло важную роль во всестороннем развитии личности.
2. Многие личные качества молодых людей -это коллективизм, гуманизм, аккуратность, честность и так далее. Человеческие лица формируются в условиях общения.
3. Педагогическое общение - профессиональное общение, выражающее взаимодействие участников педагогического процесса.
4. Обмен информацией между людьми создает благоприятные условия для их умственного и духовного развития.
5. Интерактивная функция - основа общения во всестороннем развитии личности ученика.
6. Восприятие и понимание людьми друг друга создают условия для нормального общения.

SUMMARY

1. Communication has always played an important role in the comprehensive development of personality.

2. Many personal qualities of young people are collectivism, humanism, accuracy, honesty and so on. Human faces are formed in the conditions of communication.

3. Pedagogical communication is professional communication that expresses the interaction of the participants of the pedagogical process.

4. The exchange of information of individuals creates favorable conditions for their mental and spiritual development.

5. The interactive function is the basis of communication in the comprehensive development of the student's personality

6. People's perception and understanding of each other create the conditions for normal communication

Fəridə Fəxrəddin Fəxrəddin qızı
Magistrant
Elmi rəhbər: p.e.f.d R.C.Əliyev

PEDAQOJİ PROSESDƏ KOMMUNIKATİVLİYİ GÜCLƏNDİRƏN ÜNSİYYƏT VASİTƏLƏRİNƏBİR NƏZƏR

Açar sözlər: *ünsiyyət vasitələri, informasiya, mübadilə, tədqiqat, əks əlaqə, faydalı ünsiyyət*

Ключевые слова: *средства общения, информации, обмена, исследования, обратной связи, полезного общения*

Key words: *means of communication, information, exchange, research, feedback, useful communication*

Azərbaycan xalqı öz dövlət müstəqilliyini qazandıqdan sonra iqtisadi, sosial, siyasi və təhsil kimi kateqoriyaların hamısına münasibətdə dünya Avropa – Amerika sisteminə, onların standartlarına yaxınlaşmağa onlara inteqrasiya etməyə başlamışdır. Başqa cur ola bilməz, Dövlət dövründə heç bir sosial siyasi mədəni problemi müstəqil şəkildə həll etməyə ixtiyarı və iqtidarı olmayan respublikamız dünya birliyinin ən fəal üzvlərindən birinə çevrilmişdir.

Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin bacarığı və çevik siyasəti ilə bunu etdi. Sürətli inkişaf analoji və təkamül üzrə inkişaf qanunu əsasında yeniləşməlidir. Bu yeniləşmə təhsil sistemində, təhsil alanlalrın və təhsil verənlərin kommunikativ fəaliyyətində də olmalıdır.

Müasir dövrdə ümumtəhsil məktəblərində şagirdlərin ünsiyyətinin formalaşdırılması əsas məqsəd hesab olunur. Bu məqsədə nail olmaq üsulu müxtəlif nitq vərdişlərindən istifadə etmək, şagirdlərdə danışan, düşünmə bacarıqlarını formalaşdırmaq bir vəzifə kimi müəyyən-ləşdirilir.

Unutmayaq ki, dərsdə ünsiyyət bir proses olaraq daim canlı və dinamik olmaqla diqqəti cəlb edir, pedaqoji prosesdə nəinki bu canlılıq və dinamiklik saxlanılır, hətta onu daha təsirli və emosionla istiqmətdə inkişaf etdirmək lazım gəlir çünki bu yanaşma pedaqoji prosedə nitqin kommunikativliyi daha da artır. Elə buna görədir ki, pedaqoji prosesdə ünsiyyət öz-özlüyündə motivasiya rolunu oynayır.

Tədqiqat zamanı belə qənaətə gəlinmişdir ki, dərsdə nitqin ifadəliliyini artırmaq məqsədilə ünsiyyətin müxtəlif verbal və qeyri-verbal növlərindən istifadə olunması bəzi müəllimlərin təcrübəsində daha faydalı nəticələrə gətirib çıxarır. O zaman belə bir sual mey-dana çıxır ki, təlim prosesində ünsiyyətin faydalı olan həmin verbal və qeyri-verbal növləri hansılardır? Onların mahiyyət və məzmunu nədən ibarətdir?

Ünsiyyət prosesində nitqin ən vacib funksiyası düşüncənin ifadəsidir. Nitqdə düşüncə təkcə formalaşmır, həm dəifadə olunur. Nitq müəyyən mənada düşünməkdən daha genişdir, çünki o, yalnız konseptual məzmunu deyil, həm də emosiyaları qatdırır. Bundan əlavə, nitq stilistik cəhətdən rənglidir və sosial cəhətdən fəqlidir. Bu insanların sosial vəziyyətləri, təhsil-ləri, yaşları, peşələri və s. Baxımından fərqlənmələri ilə əlaqədardır.

İnsanlar arasında informasiya mübadiləsini təmin edə biləcək vasitələr çox və müxtəlifdir. Psixoloji ədəbiyyatda bu cür kommunikasiya vasitələrini iki qrupda birləşdirirlər.

1. Birinci qrup kommunikasiya vasitələri sözlərin, dilin köməyilə bağlı olan vasitələrdir. Bu cür kommunikasiya vasitələrini verbal kommunikasiya vasitələri adlandıra bilərik.

2. İkinci qrup kommunikasiya vasitələri dildən, nitqdən kənar vasitələrdir. Bu cür vasitələr qeyri-verbal kommunikasiya vasitələri adlandıra bilərik. Onlara müxtəlif ifadəli hərəkətləri, mimikanı, pantomimikanı, işarətlər sistemini və s. Aid etmək olar.

Həyatımızın müxtəlif mərhələlərində biz bədən dilindən istifadə edirik. Bədən dilimiz beynimizdən gələn impluslardan hərəkətə gəldiyindən, bir sözlə eşitdiyimizdən çox bədən dilinə inanırıq.

Tədqiqi araşdırmalarımız göstərir ki, virtual əlaqə kommunikativ ünsiyyətdə əsas proseslərdən biridir. Görmə vasitəsilə insan informasiyanın 70% qəbul etmiş olur. Bura həmçinin, əldə olunmuş təsuratlar da daxildir.

Bütün bunlar ünsiyyətin verbal və qeyri-verbal növlərinə aid qeydlər kimi ümumi nəzəri xarakter daşıyır və pedaqoji prosesdə ünsiyyət amilinin yeni yollarının müəyyən edilməsinə əlverişli zəmin yaratmış olur.

Ədəbiyyat

1. Rəhimov N. Azərbaycan məktəbi j.b. 2014 N1
2. Humay A. Kurikulum j.B. 2019 N 13
3. Əliyev R.İ Psixologiya B-2003
4. Əlizadə.Ə.Ə Müasir Azərbaycan məktəbinin psixoloji problemləri B-2004

XÜLASƏ

1. Pedaqoji prosesin canlı və dinamikliyində ünsiyyət əhəmiyyətli rol oynayır.
2. Nitqin kommunikativliyi artarsa pedaqoji prosesdə ünsiyyət motivasiya rolunu oynayır.
3. Kommunikativliyi gücləndirən verbal və qeryri-verbal ünsiyyət növlərindən istifadə pedaqoji prosesdə informasiya informasiya mübadiləsini gücləndirir.
4. Verbal kommunikasiya vasitələri sözlərin və dilin köməyi ilə yaradılır.
5. Qeyri-verbal kommunkisiya vasitələri dildən və nitqdən kənarda hərəkətlərdə, mimkada, pandomimikada özünü göstərir.
6. Pedqaji prosesdə, yanlış ünsiyyət kommunikativliyi zəiflədən amilə çevrilir.

РЕЗЮМЕ

1. Коммуникация играет важную роль в жизнеспособности и динамике педагогического процесса.
2. Если коммуникативность речи увеличивается, общение играет мотивационную роль в педагогическом процессе.
3. Использование вербальных и невербальных форм общения, которые улучшают общение, улучшает обмен информацией в педагогическом процессе.
4. Словесные средства общения создаются с помощью слов и языка.
5. Невербальные средства общения проявляются в действиях, мимике, пандомимике вне языка и речи.
6. В педагогическом процессе неправильное общение становится фактором, ослабляющим общение.

SUMMARY

1. Communication plays an important role in the vitality and dynamics of the pedagogical process.
2. If the communicativeness of speech increases, communication plays a motivating role in the pedagogical process.

3. The use of verbal and non-verbal forms of communication that enhance communication enhances the exchange of information in the pedagogical process.

4. Verbal means of communication are created with the help of words and language.

5. Non-verbal means of communication manifest themselves in actions, facial expressions, pandomics outside the language and speech.

6. In the pedagogical process, incorrect communication becomes a factor that weakens communication.

Məhəmmədli Nərmin
ADPU, magistrant
Elmi rəhbər: p.ü.e.d., prof M.İlyasov

TƏRBİYƏÇİ-MÜƏLLİMİN ŞƏXSİYYƏTİNDƏ HUMANİZM VƏ ONUN UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNƏ TƏSİRİ

Açar sözlər: *məktəbəqədər, uşaq, yaş,tərbiyyə, müəllim*
Ключевые слова: *дошкольный, дети, воэраст, воспитание, учитель*
Key words: *preschool, child, age, upbringing, teacher*

Müəllimin həm sinifdaxilində həmdə xaricində səriştəli və təsirli olması vacibdir. Səriştəlik dedikdə, tədris funksiyalarını yerinə yetirmək bacarıqlarına sahib olmaq nəzərdə tutulur. Bu anlayış həm də tədris prosesində effektiv olmaq, uyğun vasitə və metodlardan yerində istifadə edə bilmək, hədəflərə çatmaq kimi də qəbul edilir. Müəllim hazırlığında elmi yanaşmalar əsas hesab olunmasına baxmayaraq, ölkə iqtisadiyyatı, siyasi quruluş, mədəni xüsusiyyətlər və əhali sayıda tədris, təlim prosesinə təsir göstərir. Müəllim şagird üçün başlıca nüfuz mənbəyi olmamalıdır. Müəllim inkişafa meyilli, dəyişimə açıq, çevik şəxsiyyət quruluşuna sahib olmalıdır. O fəaliyyətində təcrübə və araşdırma ruhu ilə hərəkət etməlidir. İbtidai siniflərdə təhsil alan uşaqlar yaxşı müəllimin kim olduğunu təsvir edərkən müəllimlərində diqqətcilliyi, yardımsevərliyi və motivasiyaedici tərəfləri dilə gətirdilər. İnkişafın və sənayeləşmənin ən vacib şərtlərindən biri ixtisaslı işçi qüvvəsinə sahib olmaqdır. İxtisaslı insanlardan maksimum dərəcədə istifadə etmək vacibdir. Məlumdur ki, humanizm anlayışı həm müəllimlərə, həm də təhsilə fərqli bir yanaşma gətirir. Humanist anlayışın psixoanalitik nəzəriyyələrə reaksiya olaraq yarandığını qəbul etmək olar. Bu məsələ 1960 və 1970-ci illərdə gündəmə gəldi. Təhsilin humanitarlaşdırılması bu gün əsas hədəflərdən biridir. Maslo, insanların humanist hərəkatın əsasını təşkil edən yaxşılığa doğru bənzərsiz bir mahiyyətə sahib olduğunu qeyd edirdi. Maslo, özümüzə bənzərsiz bir şəkildə uyğun gələn hədəflərimiz olduğunu və tamamlanma yolunun bir hissəsinin bu hədəfi müəyyənləşdirmək və davam etdirmək olduğunu söyləmişdir. Humanist yanaşmada hər bir fərd mahiyyət etibarilə dəyərlidir, ətraf mühit şərtləri və təcrübələri öyrənmədə təsirli bir rol oynayır. Humanist təhsilinəsaslarına daxildir:

1. İnsanın əsas motivi özünü inkişafetdirməkdir,

2. Fərddə yaşanan davranış pozuqluqlarının əsas səbəbi fərdin yaşadığı etibar problemi və fərdin inkişafının qarşısının alınmasıdır,

3. İnsan həm reaktivdir, həm də aktivdir,

4. Davranışımızı müəyyən edən subyektiv gerçəkliyimizdir,

5. Fərdin özünü və davranışını necə qəbul etdiyini müəyyənləşdirir,

6. Uşağın, böyüməkdə olan şəxsiyyətin davranışları dəyişdirmək üçün subyektiv reallığı dəyişdirmək lazımdır.

Humanist təhsil bir təhsil yanaşmasıdır. Təhsil oxu və yazma, sadə hesab öyrətməklə başlayır. Bunların humanist təhsildə də vacib olduğunu söyləyərkən problem həll etmə, özünü

dərk etmə, qərar qəbul etmə, düzgün ünsiyyəti öyrənmək və s. kimi ünsiyyət bacarıqlarını öyrənmək də vacibdir. Burada fərd ön plandadır. Fərdlə problemlər qarşılıqlı olaraq həll edilməlidir. Müəllim-tərbiyyəçilər ailənin dəstəyini alaraq, uşaqlarının təhsilinə və inkişafına töhfə verməklə daha çox dəstəkləyir, onlara bu yolda rəhbərlik edirlər. Lakin humansit təhsil anlayışında mövcud problemləri həll etmədən müəllim uşaqlarla səmimi təlim mühiti yarada bilməz. Ənənəvi təhsilə nəzərən müasir humanist təhsil şagirdlərin hiss və düşüncələrini qəbul etməsi, səmimi olaraq paylaşması ilə fərqlənir. Məktəbəqədər təhsildə humanizim xüsusən önəmlidir. Məktəbəqədər təhsil üzrə müəllimin təlimdə nəzərə alması vacib xüsusiyyətləri aşağıdakılardır:

1. Müəllim-şagird münasibətlərində hörmət çox vacibdir. Hər bir uşaq dəyərlidir. Bir insan kimi dəyərlidir. Heç bir şərt qoyulmadan yalnız insan insani keyfiyyətləri ilə qəbul edilməlidir. Bu qəbulu jestlər və sözlərlə göstərmək vacibdir. Müəllimin uşaqlara hörmət etməyi öyrənməsi vacibdir.Müəllim şagirdlərini daxili olaraq motivasiya etməyi bacarmalıdır.

2.Xüsusi bacarığa ehtiyac olmadan təbii olmaq, olduğu kimi davranmaq, şagirdlərinə bunu göstərmək, özləri kimi olmalarına imkan vermək gərəklidir.

3. Humanizim baxımından demokratik sinif mühiti uşağın tam inkişafı üçün hər şeyin qeyd-şərtsiz qəbul edildiyi çevik bir təhsil quruluşu ilə fərqlənir.Bu qruplarda münasibət fərdidir. İlk dəfə sosial psixologiyada münasibət anlayışından istifadə edənlər ictimai münasibətləri fərdi münasibətlərdən ayırsalar da, bu gün belə bir fərq qoyulmur və münasibətlər ayrı-ayrılıqda nəzərdən keçirilir və ölçülür.

Müəllimlərin bir vəziyyətə və ya bir insana reaksiyası şagirdləri dərindən təsir edir.Müəllimlər xüsusilə məktəbəqədər təhsil müəssisələrində uşaqlara daha çox təsir göstərir. Tədqiqatlar göstərir ki, məktəbəqədər yaşlı uşaqlar ətrafdakı stimullardan təsirlənir və sosial-emosional inkişafı bu stimulyatorların təsiri ilə formalaşır. Buna görə məktəbəqədər müəllimin uşaqlara qarşı müsbət münasibətləri tolerantlıq, demokratiya, hörmət, sevgi və ədalətli olmaq kimi uşaqların sağlam şəxsiyyət inkişafını dəstəkləyir. Bundan əlavə, məktəbəqədər müəllimlərin uşaqlara göstərdikləri avtoritar, laqeyd və inamsızlıq kimi mənfi münasibət və davranışlar uşaqların sosial-emosional inkişafına mənfi təsir göstərəcəkdir. İctimai çətinliklərdən, qərəzli davranışlardan uşaqları qorumaq vəzifəsi sinifdə müəllimə həvalə olunur. Uşağın şəxsiyyət kimi inkişafı və akademik müvəffəqiyyəti baxımından fərdi xüsusiyyətlərinə görə tanınmalı və bu istiqamətdə təlim keçərək müşahidəçi və bələdçi olmalıdır. Məktəbəqədər müəllim sinifdə uşağın valideyn rolunu oynamalıdır. Uşağın geyinməsinə, əsas ehtiyaclarını ödəməsinə kömək etməli və ən əsası, uşağa lazım olan qədər sevgi və məhəbbət göstərməlidir.İnam təmin etmək sağlam bir təhsil mühiti üçün uşağın qavrayışlarını və davranışlarını istiqamətləndirən zehni və emosional reaksiyalarının müsbət inkişafını təmin edəcək etibarlı təhsil mühitləri yaradılmalıdır. Məktəbəqədər müəllim mümkün qədər uşaqlara inam verəcək davranışlara sahib olmalıdır. Məktəbəqədər müəllim uşaqları narahat edəcək stresli təhsil mühitlərini aradan qaldırmalıdır. Məktəbəqədər tərbiyəçi lazım olduqda uşaqlarla dost olmalı və onlarla oyun oynaya bilməlidir. Dəstəkləyici və həvəsləndirici məktəbəqədər müəllim uşağın bütövlüyünə və özünəməxsusluğuna hörmət etməli və uşağın öz fikirlərini sərbəst ifadə etməsi üçün lazım olan mühiti təmin etməli və dəstəkləməlidir. Sevgiyə əsaslanan hörmət və rəhbərliyə sahib olmalıdır. Məktəbəqədər müəllim uşaqları və peşəni sevməlidir. Öyrənməyi asanlaşdıran və təşviq edən təhsil mühitləri hazırlamalı və fəaliyyətini bu istiqamətdə seçməlidir. Uşağın təbiətinə uyğun olaraq yaradıcılığı təşviq edən fəaliyyətlər təşkil etməlidir. Səbirli olmaq məktəbəqədər təhsil müəllimi sürətlə böyüyən, inkişaf edən və yorulmadan hərəkət etmək istəyən uşağa qarşı səbirli münasibət göstərməlidir. Uşağın sinifdə etdiyi hər bir işə səbrlə yanaşmalı və bu davranışların səbəblərini soruşmalıdır.Dözümlülük və təvazökarlıq məktəbəqədər müəllimin özünü üstün və fərqli görməsi, uşaqları kiçiltməsi və lağa qoyması ən mənfi münasibətlərdən biridir. Məktəbəqədər tərbiyəçi uşaqlara münasibətdə təvazökar və tolerant olmalıdır. Müəllimin uşaqlara qarşı tolerantlığı uşaqları bir-biri ilə mü-

nasibətlərində tolerant olmağı dəstəkləyir. Bu demokratik çərçivədə məktəbəqədər müəllimlər öz peşə bacarıqlarını milli hədəflərə uyğun inkişaf etdirməli və ən əsası etik davranışa sahib olmalıdırlar. Məktəbəqədər müəllimin etik davranışı olmasa da, mühüm rol oynayan onların demokratik münasibətidir. Məktəbəqədər müəllim öz bərabərlik, empati və təskinləşdirici davranışı ilə uşaqlara qarşı demokratik münasibətini inkişaf etdirə bilər. Məktəbəqədər təhsil müəllimi ilk dəfə, bəlkə də bütün günü anasını tərk etməli olan uşağa qarşı duran şəxsdir. Dəfələrlə, uşaq çətinliklərlə qarşılaşdığı ilk gündən ona müraciət edir. Müəllim uşaq üçün həm tədris edən, həm öyrədən, həm sevən, həm dost olan, bir sözlə günün çox hissəsində özünün və dostlarının ehtiyaclarını ödəmək üçün çalışan bir insandır.Yaxşı bir uşaq bağçası müəlliminin ən fərqli xüsusiyyəti sakit və səbirli olmaqdır. Məktəbəqədər təhsil, pul qazanma məcburiyyəti ilə ediləcək bir vəzifə deyil, bütün təhsil tapşırıqlarında olduğu kimi, istəklə seçildiyi zaman məhsuldar və müvəffəq ola bilən bir peşədir. Müəllim uşaqların yaşının inkişaf xüsusiyyətlərini bilməlidir və eyni zamanda hər bir uşağın ailə həyatı haqqında ətraflı məlumatlara sahib olmalıdır. Beləliklə, ilk dəfə analarını və evlərini tərk edən kiçik uşaqların ehtiyaclarına yaxşı cavab verə və bəzi davranışları niyə etdiklərini daha yaxşı başa düşə bilərlər.

Ədəbiyyat

1. Hüseynzadə A. Məktəbəqədər pedaqogika. Bakı-2000
2. Həsənov A. Kiçik yaşlı məktəblərin mənəvi tərbiyyəsi. Bakı-1987
3. Abdullayev A. Məktəbin idarə edilməsi, demokratikləşməsi. Bakı-1993.

Mustafayeva Bahar Elşən qızı
ADPU, Məktəbəqədər təhsilin metodikası və metodologiyası, II kurs magistrantı
Elmi rəhbər: prof.Ş.Q.Əliyeva

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İDRAKİİNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

Açar sözlər: *məktəbəqədər,uşaq,pedaqoji,texnologiyalar*
Ключевые слова: *дошкольное, образование, педагогика, технологии*
Key words:*pre-school, child, pedagogy,technology*

Müasir pedaqoji texnologiyalar pedaqoji prosessin tərkib hissəsi olub, təhsilin bütün sahələrində eləcə də məktəbəqədər təhsilin səmərəli qurulması baxımından mühüm əhəmiyyətə malikdir. Tərbiyəçilər məşğələləri idrakı fəaliyyətin inkişafına yönəlik və uşaqlar üçün daha maraqlı olması məqsədi ilə müasir pedaqoji texnologiyalardan istifadə edirlər. Bu texnologiyalardan istifadə uşaqları sağlam mühakimə yürütməyə, fikir formalaşdırmağa sövq edir. Uşaqlar əldə etdikləri bilikləri real həyatla əlaqələndirməyi öyrənirlər. Deməli müasir pedaqoji texnologiyalardan istifadə uşaqlarin təfəkkür fəaliyyətinin inkişaf etdirilməsi üçün çox faydalıdır. Yeni pedaqoji texnologiya fəal təlimə əsaslanır. Fəal təlim zamanı tərbiyəçi uşaqlara fərdi yanaşmalıdır. Bu təlim formasında tərbiyəçilər əsasən fasilitator-yol göstərən mövqeyində olurlar. Məşğələlərin bu formada keçməsi uşaqları təşəbbüskarlığa, müstəqil düşüncəyə, yaradıcılıq axtarışına, yeniliyə yönəldir. Tərbiyəçilər məşğələlərin daha aktiv və idraki fəaliyyətə yönəlik olması məqsədi ilə uşaqların düşünmə qabiliyyətini inkişaf etdirməli, yaradıcılığa həvəsləndirməli, öyrənməyə maraq yaratmalıdır. Müasir pedaqoji texnologiyalar bir çox xüsusiyyəti ilə ənənəvi təlim metodlarından fərqlənir.Burada tərbiyəçi yaradıcı mühit yaratmalıdır.Belə ki, tərbiyəçi biliyi vermək yox uşaqlarda biliyi dərk etməyə həvəs yaratmalı,uşaqlara problemli suallar verməli, onların təfəkkürünü inkişaf etdirməlidir.Pedaqoji texnologiyaya əsaslanan təlim interaktiv əlaqələrdən istifadə etməyi də nəzərdə tutur. Pedaqoji texnologiyaların köməyi və problemli situasiyaların yaradılması yolu ilə təfəkkürün fəallığına

nail olunur, yəni şagirdlər biliklərin müstəqil qazanılması üzrə axtarışlara cəlb olunurlar. Bu vaxt elə şərait yaradırlar ki, həmin vəziyyətdən çıxmağın yollarını şagirdlər özləri axtarıb tapırlar. Naməlumuaşkara çıxararaq şagirdlər bilikləri müstəqil əldə edir və nəticə çıxarırlar. Bütün bunları nəzərə alsaq, belə təlimi əsas didaktik kateqoriya kimi qəbul edə bilərik. Təhsil sisteminin ilkin pilləsi olan məktəbəqədər təhsil uşaqların fiziki, psixoloji, intellektual inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyət kəsb edir. Pedaqoji texnologiya-uşaqlarla, tərbiyəçilərin qarşılıqlı birgə fəaliyyətidir. Bu fəaliyyətdə uşaqların fərdilik xüsusiyyəti əsas şərt olaraq nəzərə alınır. Tərbiyəçi uşaq fəaliyyəti əvvəlcədən planlaşdırılmış və məqsədyönlü şəkildə təşkil olunur. Elmi ədəbiyyatda pedaqoji texnologiyaların doqquz prinsipi olduğu göstərilir. Bunlar tərbiyəedici təlim prinsipi, inkişafetdirici təlim prinsipi, təlimdə müfəvvəqiyyət əldə etmək prinsipi, bütün şagirdlərlə əks-əlaqə prinsipi, müntəzəm olaraq təkraretmə prinsipi,optimal psixi gərginlik prinsipi, təlim prosesində şagirdlərin maximum iştirakı prinsipi, təlimdə yaxın inkişaf zonasınz yönətmək prinsipi, müəllim və şagirdlərin vahid məqsədlər üçün birləşməsi prinsipi. Bu prinsiplər müasir təlim texnologiyasına aiddir. Pedaqoji texnologiya təlim formalarının optimallaşması, təlim prosesində texniki biliklərin hesablanması, eləcə də insan amilini onlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsini təmin etmək məqsədi daşıyan müasir yaradıcılıq üslubudur. Pedaqoji texnologiya pedaqoji məqsədlərə nail olmaqdan ötrü istifadə edilən fərdi, instrumental və metodoloji vəzifələrin fəaliyyət və sistemlər toplusudur. Bu qarşıya qoyulmuş pedaqoji məqsədlərə nail olmaq, pedaqoji funksiyalarnı təmin etmək, tərbiyyəçi-uşaqbirgə fəaliyyətinin formalarını müəyyənləşdirmək üçün istifadə olunan metodların məcmusu kimi də xarakterizə olunur. Pedaqoji texnologiya həm də pedaqoji sistemdəki dinamik fəaliyyətin mahiyyətini təmin edən bir vasitə kimi çıxış edir. Pedaqoji texnologiyalar təlim və tərbiyənin səmərəli, fəal və yaradıcı şəkildə həyata keçirilməsi üçün onları növ üsullar və vasitələrlə təmin edir. Pedaqoji texnologiya bütünlükdə təhsil prosesi və onun nəticəsi kontekstində belə başa düşülür ki, pedaqoji texnologiyalarınfunksiyaları təhsil prosesinin hər bir aspektində mövcuddur, hər bir mərhələdə, fəndə, pillədə öz əksini tapır. Pedaqoji texnologiyalar ifadəsi son illərdə daha çox işlədilən anlayışlardan biridir. Elm və texnika inkişaf etdikcə, təkcə elmin və texnikanın müəyyən sahələrinə deyil, təlim prosesinə də daxil olur. Müasir pedaqoji və informasiya texnologiyalarına əsaslanan müasir təlim sistemi özünə xas olan spesifik qanunauyğunluqlara, məzmuna və prinsiplərə malikdir.

Ədəbiyyat

1.Ş.Əliyeva.Məktəbəqədər təhsilin aktual problemləri.Bakı,2013.
2.R.Musaqulova,N.Rüstəmova.Məktəbəqədər pedaqogika.Bakı2012
3. P.Həsənova. Məktəbəqədər təhsil müəssisələrində öyrənmə-idrak fəaliyyəti. Bakı, 2019

XÜLASƏ

Məktəbəqədər yaşlı uşaqların idrak fəaliyyətinin inkişafında pedaqoji texnologiyalar əsas rol oynayır.Pedaqoji texnologiyalar təlim prosessini optimallaşdırır,uşaqların fiziki, psixoloji, intellektual inkişafını onların şəxsiyyətinin formalaşmasını təmin edir.

Əbilzadə Günel Allahverən qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos. Məhərrəm Əliyev

ŞAGİRDİN AİLƏVƏZİYYƏTİNİN MƏKTƏB UĞURLARINA TƏSİRİ

Açar sözlər: *ailə, ailə vəziyyəti, iqtisadi vəziyyət, təhsil, məktəb uğurları*
Key words:*family, family state, economic state, education, school achievements*
Ключевые слова: *семья, семейная обстановка, финансовое положение, образование, успеваемость в школе*

Şagirdlərin məktəb uğurlarına təsir edən faktorların araşdırılması mühüm məsələlərdən biridir. Şagirdin məktəb uğurlarında ailənin iqtisadi vəziyyəti, təhsil səviyyəsi, peşəsi, uşaq sayı kimi faktorlar böyük əhəmiyyət kəsb edir.Beləliklə, şagirdin məktəb uğurlarına təsir edə biləcək faktorlara ümumi nəzər salaq.

Dünyada, xüsusilə, 20-ci əsrin ikinci yarısından etibarən həm inkişaf etməkdə olan, həm də inkişaf etmişölkələrdə keyfiyyətli, ya da keyfiyyətsiz əmək arasındakı gəlir bərabərsizlikləri sürətlə artmışdır. Gəlir bərabərsizliyinin təhsil bərabərsizliyi ilə birlikdə artması fərdlərin doğulduqları andan etibarən malik olduqları ailə xüsusiyyətlərini dəyişdirmə potensialının mövcud olmamasına görə, müəllimlər, iqtisadçılar və politoloqlar tərəfindən aşağı sosial-iqtisadi şərtlərdə yaşayan ailə üzvlərinin akademik uğurlarına təsir edən faktorlar üzərində aparılan tədqiqatların əhəmiyyətini artırmışdır.

Təhsil, fərdlərin bilik, bacarıq və qeyri-maddi imkanlarını ifadə edən insan kapitalının kəmiyyət və keyfiyyət inkişafına təsir edən ən əsas amillərdən biridir. Təhsil, fərdlərin oxumaq və yazmaq, elmi bilik və qabaqcıl düşüncə texnikaları kimi koqnitiv bacarıqlarının inkişafına töhfə verən, sosial bacarıq və dəyərləri inkişaf etdirərək, ümumiyyətlə, fərdlərin iş həyatı boyunca əldə edəcəkləri iqtisadi, sosial və mədəni faydalara da təsir göstərir[5].

Təhsil, fərdlərə qazandırdığı imkanlarla birlikdə, ölkələrin və firmaların istehsal funksiyalarına da ciddi təsir edərək insan kapitalının keyfiyyətini artırmaqla iqtisadi böyümə və inkişafa şərait yaradır və müxtəlif aspektlərdən ibarət olan təsirlər özünü göstərir. İnsan kapitalının keyfiyyəti olaraq şagirdlərin uğurlarının qiymətləndirilməsini ifadə etmək olar. Şagirdlərin uğurlarına təsir edən əsas təsir obyektləri ailə, valideynlər və məktəb olaraq qeyd olunsa da, təhsil prosesi özündə böyük imkanları topladığı üçün fərdlərin (şagirdlərin) bu proses müddəti ərzində əldə etdiyi bilik və bacarıqların da əldə etdikləri nailiyyətlər üzərindəki təsirləri qeyd edilə bilər. Ailə isə fərdin həyatında seçim haqqının olmadığı, ancaq təhsil həyatında və insan kapitalının inkişaf prosesində ən çox və birbaşa təsirə sahib cəmiyyət içindəki ən kiçik birlikdir[5].

Ailənin iqtisadi vəziyyəti şagirdin uğurlarına necə təsir edir? Bu suala cavab verməzdən əvvəl ailə anlayışınıqısa olaraq nəzərdən keçirək.

Cəmiyyətin tərkib hissələrindən biri ailədir. Ailəni ilkin ictimai qurum adlandırmaq olar.Uşaq dünyaya göz açan andan etibarən ailə ona qulluqdan və onun təhsilindən ötrü məsuliyyət daşıyan ilk qurum hesab edilir. Ailə fərdin inkişafı və sosiallaşmasını təmin edən kiçik bir cəmiyyətdir. Ailənin mədəniyyəti, sosial iqtisadi vəziyyəti, uşağa qarşı davranışları, ana və atanın təhsil səviyyəsi, ailədə uşağa verilən dəyər uşaqların məktəbdəki uğurlarına çox təsir göstərir.

Ailələrin sosial, mədəni və iqtisadi təcrübələri bioloji və mədəni olaraq uşaqlara ötürülərək, fərdlərin əldə edəcəkləri istər iqtisadi, istərsə də sosial və mədəni nailiyyətlərə təsir edir. Beləliklə, ailələrin gəlir və təhsil səviyyələrinin, təhsil prosesində təmin edilən əlavə materiallar və ailələrin bu prosesdəki maraq və dəstəklərinin, onların yaşadıqları bölgələr və həmin bölgələrə uyğun gələn amillər də diqqətə alındığında, bütövlükdə fərdlərin təhsil həyatları boyunca əldə edəcəyi akademik uğurları və sözü gedən uğurun iş həyatı boyunca əldə edəcəkləri nailiyyətlər üzərində təsirinin olduğunu qeyd etmək olar. Ailələrin sosial-iqtisadi səviyyələri təkcə şagirdlərin məktəbdə qeydiyyatdan keçməsi, iştirakı və məktəbi bitirməsinə deyil, akademik uğur səviyyəsinə də təsir edir[5].

İqtisadi vəziyyəti yaxşı olan ailələr, uşaqlarının təhsil problemləri ilə mütəmadi məşğul olduqları və onlara daha çox vaxt ayırdıqları üçün problemləri vaxtında həll edə bilirlər. Bu ailələrin hər cür akademik dəstəyi verə bilməsi uşaqlarının məktəb və həyat boyu öyrənmədə uğurlu olmasını təmin edir. İqtisadi vəziyyətin yaxşı olması şagirdlərin özlərinə olan güvən hissi, özünəhörmət və şəxsi inkişaflarına təsir göstərən əsas amildir[2].

İqtisadi baxımdan rifah səviyyəsi yüksək olan ailələrdə böyüyən yeniyetmələrin özünəhörmət hissivə özünə güvənmə hisslərinin yüksəkolduğu müşahidə edilir. Beləliklə, şagirdlərin uğurlarında ailənin iqtisadi səviyyəsinin təsirli olduğunuqeyd etmək mümkündür. Bir ailənin iqtisadi vəziyyəti ailə üzvlərinin təhsil səviyyəsi, gəlir və xərcləri, ailədəki fərd sayı və s. ilə ölçülə bilər.

Yüksək sosial-iqtisadi statuslu valideynlərin övladları üçün səfərbər etdikləri maliyyə xərcləri onların uğurlu inkişafına kömək edə bilər. Bu amilvalideynlərin uşaqlarının sosial iqtisadi inkişafına daha çox töhfə verə bilmələrinə köməklik göstərməklə, uşağa fayda gətirən bir sıra akademik və sosial qabiliyyətləri inkişaf etdirməyi də gücləndirən amil kimi qeyd oluna bilər [2].

Zəngin və savadlı ailə mühitində böyüyən uşaqlar daha rahat inkişaf mərhələlərindən keçirlər, lakin gəlir səviyyəsi aşağı olan ailə mühitindən gələn uşaqlar ailənin gəlir şərtlərinə bağlı olaraq böyüyürlər. Yüksək gəlir səviyyəsinə malik olan ailə mühitlərində uşaqların fikirlərinə dəyər verildiyi və yüksək qiymətləndirildiyi üçün bu uşaqlar böyüklər kimi düşünməyə başlayır və beləliklə ənənəvi davranışlardan xilas olmağa başlayırlar. Bu da onların sərbəst düşünməsini inkişaf etdirməyə istiqamət verir[2].

Təhsil imkanlarından istifadə edilməsində ailənin iqtisadi vəziyyəti vacib bir əhəmiyyətə malikdir. Zehni cəhətdən bacarıqlı olduğu halda məktəbdə uğursuz olan şagirdlər üzərində tədqiqat həyata keçirən Refia Şemin apardığı tədqiqatda ailənin sosial-iqtisadi vəziyyətinin məktəb uğurlarında təsirinin olduğunu qeyd etmişdir. Belə ki, uğursuzluğun ən yüksək səviyyəsinin qeyd olunduğu ailələrin yaxşı həyat şəraitinə malik olmayan ailələr olduğuqeyd edilmişdir. Yəni, sosial-iqtisadi səviyyə yüksəldikcə, uğursuzluq aşağı düşür[3].

Sosial-iqtisadi səviyyəsi aşağı olan ailələri dəstəkləmək üçün qurulan mərkəzlərdə ailələrin məktəbə hazırlıq mövzusunda dəstəklənməsi məqsədilə iclaslar, kurslar, təlimlər və televiziya programları təşkil edilə bilər.

Nəticə olaraq, ailələrin sahib olduqları iqtisadi, sosial və mədəni elementlər, kompleks olaraq fərdlərin təhsil prosesində istifadə edəcəkləri maliyyə mənbələrinə, buna bağlı olaraq təmin ediləcək əlavə materiallara, ana və atanın məktəb həyatına göstərdiyi qayğı və dəstəyə təsir göstərir. Qeyd olunan amillər şagirdlərin həm məktəb uğurları, həm də universitet dövrü və sonrasında əldə ediləcək nailiyyət baxımından vacibdir.

Məqalənin aktuallığı. Araşdırılan mövzu şagirdlərin məktəb uğurlarının ailə vəziyyətinin, xüsusilə iqtisadi faktorun əhəmiyyətli olduğunu ön plana çıxarır.

Məqalənin elmi yeniliyi.Məqalədə ilk dəfə şagirdlərin məktəb uğurları ilə onların ailələrinin maddi rifahı arasında birbaşa əlaqənin olduğu üzə çıxarılır.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Əldə edilən nəticələrdən şagirdlərin məktəb uğurlarına təsir göstərən amillərin öncədən ehtimal edilib profilaktik tədbirlər görülməsi baxımından praktik psixoloqlar, sosial işçilər, bakalavr və magistr tələbələri yararlana bilərlər.

Ədəbiyyat

1.Əfəndiyeva Ü.Əsrin gender konsepsiyası. Dərs vəsaiti. Bakı: ADPU, 2017, 288 səh.

2.Aslanargun, Ergin, Bozkurt, Sinan ve Sarıoğlu, Selma. (2016). Sosyo Ekonomik Değişkenlerin Öğrencilerin Akademik Başarısı Üzerine Etkileri,Uşak Üniversitesi Sosyal Bilimler Dergisi, Cilt: 9, Sayı: 3, 214-234.

3.Hıdır Önür. (2013). Gelir Düzeyinin Eğitim İmkanlarından Yararlanma Düzeyine Etkisi: Süleyman Demirel Fen Lisesi ve Atatürk Lisesi Örneği, Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt: 2, Sayı: 18, 259-277.

4.Hatice Deveci Şirin. (2014). Ailelerde Sosyo-Demografik-Ekonomik Değişkenlerin Aile Yaşam Kalitesine Etkileri.Anadolu Eğitim Liderliği ve Öğretim Dergisi, Cilt: 2, Sayı: 1, 31-46.

5. Çiftçi, Cemil, Çağlar, Atalay. (2014). Ailelerin sosyo-ekonomik özelliklerinin öğrenci başarısı üzerindeki etkisi: Fakirlik kader midir?. International Journal of Human Sciences Cilt: 2, Sayı: 11, 155-175.

6.Engin, Ali Osman, Özen,Şenay ve Bayoğlu, Vedat. (2009).Öğrencilerin Okul Öğrenme Başarılarını Etkileyen Bazı Temel Değişkenler.Sosyal Bilimler Enstitüsü Dergisi Sayı: 3, 125-156

XÜLASƏ

Məqalədə şagirdlərin ailə vəziyyətinin, xüsusilə maddi rifahının məktəb uğurlarına təsiri nəzərdən keçirilir. Eyni zamanda, sosial iqtisadi vəziyyətin məktəb uğurlarında təsirləri faktlara əsasən təhlil edilir, təhsilin fərdlərə təmin etdiyi imkanlar və keyfiyyətli insan kapitalı arasındakı əlaqə izah olunur. Ailənin iqtisadi vəziyyətinin, kompleks olaraq fərdlərin təhsil prosesində istifadə edəcəkləri maliyyə mənbələrinə, ana və atanın məktəb həyatına göstərdiyi qayğı və dəstəyə təsir göstərdiyinə vurğu edilir. Əldə edilən nəticəyə əsasən, iqtisadi vəziyyətin məktəb uğurlarına birbaşa təsirinin olduğu aşkar edilir.

SUMMARY

In this article students' family state, especially the influence of material prosperity on school success is carefully being looked through. At the same time, the influence of sosial economic state on school success is being analysed according to the facts, the connection between the opportunities of education providing individuals and qualitative human investment is explained. It is stressed in the article that the economic state of the family influences the financial sources that individuals will use during the educational process, parents' care and support to the school life. According to the conclusion, it is alleged that economic state has an undeniable and direct influence on school achievements.

РЕЗЮМЕ

В статье исследуется влияние семейной обстановки, особенно материального благополучия на успеваемость в школе. В то же время анализируется влияние социально-экономической ситуации, обусловленной фактами, на успеваемость в школе, описывается взаимосвязь между возможностями, предоставляемыми индивидам образованием, и качеством человеческого капитала. Подчеркивается влияние финансо-вого положения семьи, в целом, на материальные ресурсы, которыми будут пользоваться школьники в образовательном процессе, на заботу и поддержку родителей школьному процессу. Результаты показывают, что финансовое положение напрямую влияет на успеваемость в школе.

QədirovaAytən Oqtay qızı
Magistrant
Elmi rəhbər: dos.s.e.ü.f.d. Eldar Aslanov

AİLƏ ANLAYIŞI VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ

Açar sözlər: *ailə, cəmiyyət, ailə institutu*
Ключевые слова: *семья, общество, институтсемьи*
Key words: *family, society, family institution*

"Ailə" - ərəb sözü olub, mənası "dayanmaq" deməkdir. Bir-birlərinə güvənən insan birliyini ifadə etmək üçün işlənilir.

Ailə anlayışı sadəcə bu sahəni öyrənən mütəxəssislərin deyil, həm də cəmiyyətin bütün sosial təbəqələri və qruplarının gündəlik həyatına daxil olmuşdur. Cəmiyyətin digər institut-

ları ilə birlikdə sadalanan ailənin A.Q.Xarçev tərəfindən verilən tərifinə əsasən ailə - cəmiyyətin ər-arvad birliyinə, qohumluq əlaqələrinə, ümumi təsərrüfatın birgə aparılmasına və qarşılıqlı əxlaqi məsuliyyətə əsaslanan kiçik sosial qrupdur. [1.356]

Müxtəlif ölkələrin sosial elmi ədəbiyyatını və ailə tərifləri tədqiq etsək, üç qrupun mövcud olduğunu görərik. İlk qrupda mütəfəkkirlər ailədə uşaqların var olmasının əhəmiyyətli olduğunu qeyd edir. Buna misal olaraq Hollandiya tərifini göstərmək olar. Hollandiyalı Ailə Şurasının fikrincə, bir və ya daha çox uşağın böyüdüyü hər yaşayış vahidinə ailə deyilir. Bu cür tərifər analitik tərifər adlanır. Cohenə görə ailə, doğum, evlənmə, övladlığa götürmə və ya seçim yolu ilə əlaqəsi olan, bir evdə birlikdə yaşayan iki və ya daha çox insan qrupudur. Doğurdan da tərif olduqca ətraflı düşünülmüşdür. Bununla birlikdə, normativ tərifər də mövcuddur. Bu tərifər ailə "nədir?" deyil, "nə olmalıdır?" sualına cavab verməyə çalışır. Bu tip tərifər elmi əsaslara söykənmir.

Ailənin məqsədyünlü, özünü düzəldən, dinamik, qarşılıqlı əlaqəli sistemlər olduğunu, həm ətraf mühitə həm də, ailənin özündə olan keyfiyyətlərə təsir etdiyini görmək mümkündür. Qeyd olunan bu fikir, ailəni həyat anlayışına bənzədir. Ailə insan kapitalında vacib rol oynadığı, ev təsərrüfatlarına və icma davranışına təsir göstərdiyi üçün sosiologiya, psixologiya, iqtisadiyyat, antroplogiya, sosial psixiatriya, sosial iş və ya insan inkişafı kimi əksər sosial elmlərdə əsas tədris vahididir. [5.7]

Ailə üçün xarakterik olan sosial münasibətləri, ailə birliklərinin miqdarını, strukturunu müəyyən edən amilləri, ailənin başqa sosial birliklər və sosial həyat sahələri ilə əlaqəsini, ailənin ictimai funksiyasını, ailənin hüquqi, psixoloji, iqtisadi, siyasi, mədəni xüsusiyyətlərini, ailə konfliktlərini, nikah-ailə münasibətlərinin tarixi tiplərini tədqiq etmək üçün Sosiologiyanın "Ailə sosiologiyası" adlı sahəsi də meydana gəlmişdir. Ailə sosiologiyasının inkişafında bir neçə mərhələ xüsusilə fərqləndirilir. [6.7]

İlk mərhələ Q.Kristensenin "sosial darvinizm" adlandırdığı antik dövrdən 19-cu əsrin ortalarına qədərki dövrü əhatə edir. Bu dövrdə ailənin əsas forması olan monoqam ailə cəmiyyətin kiçik hissəsi, cəmiyyətin özü isə genişləndirilmiş ailə adlandırılırdı. Nəzəriyyələr üstünlük təşkil edirdi.

Antropoloqların, etnoqrafların ailəni daha sıx tədqiq etməsi, 19-cu əsrin ortaları - 20-ci əsrin əvvəllərini əhatə edən ikinci mərhələyə düşür. Bu mərhələdə İ.Y.Baxovfen matriarxat problemlərinin öyrənilməsini, C.Mak-Lennan isə endoqamiya və ekzoqamiya anlayışlarını elmə gətirmişdir.

Kristensin "spontan elmi mərhələ" adlandırdığı, 20-ci əsrin birinci yarısını əhatə edən, üçüncü mərhələdə nikah münasibətlərinin pillələri, tipləri, formaları, ailə münaqişələri haqqında informasiyalar əldə olunmuşdur. 20-ci əsrin ortalarından indiki dövrə qədər mövcud olan dördüncü mərhələ, mənlik şüuru adlandırılır. Bu dövrdə geniş tədqiqatlar aparılmış, ailənin 24 xüsusiyyəti ətraflı təhlil edilmişdir.

20-ci əsrin əvvəllərində ailəni tarixləşdirmək cəhdləri sosioloqlar tərəfindən başladıldı. Artur V. Calhounun üç cildlik Amerika Ailəsi Tarixi kitabını buna misal göstərmək olar. Ailənin tarixinin mənsubiyyət tapmaqda və keçmiş nəsillərin ailə quruluşunu öyrənməkdə faydası bir çox mütəfəkkirləri tədqiqat aparmağa cəlb etmişdir. Çünki, keçmiş kimlik, mədəni əlaqələr, etnik münasibətlər gələcək həyatın fundamentini təşkil edir.

Ailə strukturu tərifləri ailə üzvlərinin sayına, qan qohumluğuna və s. əsaslanır. Siyahıya almaqla bağlı verilən tərifər doğum, evlilik, övladlığa götürmə, ev sahibi ilə əlaqəli olan ev təsərrüfatlarının nümunəsi kimi təsvir edilir. Bu cür tərifər əhali ilə bağlı müxtəlif siyasətlərin qurulması üçün faydalıdır. Vəzifə, istiqamətləndirmə ilə əlaqəli tərifər ailə həyatı üçün müəyyən vəzifələrin yerinə yetirilməsi ilə müəyyən olunur. Ailə üzvlərinin rolu və şüarı kimi nəzər alınan bu tərifər ailəni peşə, iqtisadi, dini qruplara ayırır. Transaksiya prosesi tərifləri ailəni bir qrup şəxsiyyətini yaradan yaxın adamlar olaraq adlandırır. Bu tip tərifərə görə ailələr güclü sədaqət bağlarına sahibdirlər və birlikdə eyni bir tarix və gələcəyi yaşayırlar.

Ailə üzvləri arasındakı münasibətlər, bir-birilə ünsiyyət və inteqrasiya olunmuş vahid olaraq qarşılaşdıqları sosial problemlər bu tərifin əsasını təşkil edir.

19-cu əsrin ortalarında Rilz və F.Le Ple ailəyə digər sahələrin təsirinin müəyyən edilməsi ilə bağlı araşdırmalar aparmışlar. Ailə insanların birlikdə yaşaması, qarşılıqlı tələbatlarını ödəməsi ilə paralel olaraq, onların cəmiyyətdəki sosial həyatını müəyyən edir. Buna görə də ailənin öyrənilməsinə olan diqqət müasir dövrdə də aktual məsələ kimi qalmaqdadır. [2.211]

Hər bir anlayışın formalaşması üçün müəyyən mərhələlərə ehtiyac duyulur. Ailə anlayışının hüquqi əsasda mövcud olması üçün isə nikahın qeydə alınması lazımdır. Bundan sonrakı mərhələlərə uşaqların doğulması, böyüməsi, ailə qurub evdən getməsi və ailənin özəyi sayılan ərlə arvadın dünyasını dəyişməsi aid edilir.

Cəmiyyət səviyyəsində meydana çıxan, ümumi əhəmiyyətli nəticələrə malik olan və cəmiyyətin digər institutları sırasında ailənin rolunu sosial institut kimi müəyyənləşdirən, ailənin həyat fəaliyyətinin sosial yönümü onun funksiyasıdır. Funksiyalar öz müxtəlifliklər ilə seçilirlər. Ailənin əsas funksiyalarına reproduktivlik, təsərrüfat-iqtisadi, tərbiyəedici, bərpaedici aiddir.[3.152]

Nikaha əsaslanmış və təsərrüfat fəaliyyəti ilə məşğul olan kiçik sosial qrup kimi ailənin yaranması mənimsəmədən istehsala keçidlə xarakterizə olunan neolit dövründə baş vermişdir. Ailədə əsas yeri ailə başçısı olan kişi tuturdu. Ailədə vəzifələrin bölgüsünün xarakterinə görə müxtəlif tarixi dövrlərdə ailənin bir-birindən kəskin fərqlənən tipləri mövcud olmuşdur: patriarxal, matriarxal, ənənəvi, qeyri-ənənəvi, partnyor.

Ailənin tarixi tədqiqi sosial və tarixin alt sahəsi kimi qəbul edilir, xüsusən milli və beynəlxalq tarixin daha böyük sahələrində fəal iştirak edərkən ailələrin öz tarixlərini yaşamaları yollarını da göstərir. Ümumilikdə, demoqrafiya, ev tərkibi kimi mövzuları və yanaşmaları nəzərə alır; uşaqlıq və digər həyat mərhələləri; həyat yolu; ailə iqtisadiyyatı; ailə strategiyaları; adət və ayinlər; cins, sinif, irq və nəsil münasibətləri; qohumluq və evliliyin müxtəlif formalarını özündə birləşdirir.

Ailənin necə meydana gəldiyinə dair əsasən iki baxışın olduğu iddia edilir. Birincisi, ilk ailənin kişinin sahiblik və qısqanclıq hissi ilə ortaya çıxdığı iddiası və daha sonra kişilərin qadınlara inhisarçı münasibətləri adət və ənənələrə çevrildi. İkinci fərziyyəyə görə ailə qadın və övladlara, iqtisadi və sosial müdafiəyə ehtiyac olduğu üçün qurulur. Ancaq bu iki nəzəriyyə vacib olmadığı üçün qəbul edilmədi. Çünki ilk nəzəriyyəni əsas götürdüyümüzdə, insanın instiktinin oxunda insanlığın təməl quruluşu olan ailəni müəyyənləşdiririk ki, bu da yanlışdır. İkinci nəzəriyyə ailənin əvvəlcə bir ana ailə tipi olduğunu və sonradan ata ailə tipinə keçdiyini iddia edir. Ancaq antroploji tədqiqatlar bu iddianı dəstəkləmir. Ailənin başlanğıcında aparılan araşdırmalar elmi olduğunu iddia etsə də, bəzi elmi məlumatlara əsaslanmağa çalışmış və daha çox düşünərək sistemləşdirilmiş bir forma almış kimi görünür. Bu mənada ailənin mənşəyi ilə bağlı dörd əsas yanaşma mövcuddur:

1. Ailənin meydana gəlməsini cinsi instiktlə izah edənlər;
2. Ailənin yaranmasını "mütləq azadlıq" ilə izah edənlər;
3. Ailənin təkamül nəticəsində meydana gəldiyini iddia edənlər;
4. Ailənin insanın başlanğıcından bəri mövcud olduğunu iddia edənlər.

Elə ən çox qəbul edilən yanaşma da məhz budur. Ailə bəşəriyyətin başlanğıcından bəri mövcud olmuşdur.

Sənayeyə qədərki dövrdə evlilik və uşaq sahibi olmaq olduqca vacib məsələ sayılırdı. Əkinçilik, heyvandarlıq, bir sözlə ailə təsərrüfatının inkişaf etdirilməsi üçün geniş ailəyə ehtiyac vardı. Ailələr görülməsi vacib sayılan işlər üçün oğlanlarının güclü, ev işləri üçün isə qızlarının çalışqan olmasına diqqət yetirirdilər. Bu dövrdə yetişkin yaşa çatanların evlənməsi gərəkli idi. Evliliklər daimi olmalı idi, boşanma hallarına az rastlanırdı və belə hal olduqda ictimai qınaq özünü büruzə verirdi. Müasir dövrdə isə bu yalnız kəndlərdə yaşayan ailələrdə müşahidə olunur.

Sənaye inqilabı sonrası tarlaların və balaca müəssisələrin yerini böyük ölçülü texnoloji avadanlıqları olan iş yerləri almışdır. Beləliklə, ailələrdə uşaqların çoxluğuna yox, azlığına

istiqamət verilmişdir. Çünki, uşaqların çoxluğu ailə iqtisadiyyatına mənfi təsir göstərməyə başlamışdı. Sənaye inqilabı dövründə artıq yaşlı insanların əmək təcrübəsinə də ehtiyac duyulmurdu. Artıq hər sahədə gender bərabərliyi vurğulanırdı.[4]

Ailə məfhumunun, dəyərlərinin qorunması hər bir cəmiyyətin inkişafı üçün vacib məsələdir. "Müasirləşdirmək" adı altında Şərqin davamlı ailə münasibətlərinin məhv olmasına icazə verilməməlidir. Ailənin mövcudluğu şəxsiyyətlərarası düzgün münasibətlərin qurulması ilə qorunub saxlanmalıdır.

Müasir dövrdə tək başına yaşayan insanların sayı inanılmaz dərəcədə artmışdır. Bunlara həmçinin, nikahsız birlikdə yaşayanları, ana-atası olmadan tənha böyüyən uşaqları misal göstərmək olar. Bu hadisələr insanların şəxsi həyatına, psixologiyasına, ailə və qohumluq əlaqələrinə təsir etdiyi qədər cəmiyyətin gələcəyinə də mənfi təsir göstərir.

Ailə bir institut kimi, ayrı-ayrı tarixi dövrlərdə müxtəlif təsirlərə məruz qalmışdır. Beləliklə, ailənin strukturu, rolu, funksiyası, cəmiyyət içərisindəki yeri fərqliləşməyə başlamışdır. Bu günün ailəsi haqqında qiymət vermək əslində, ailənin gələcəyi haqqında da proqnoz vermək deməkdir.

Ədəbiyyat

1. MəcidƏfəndiyev. Sosiologiya. Bakı, - 2009.356s.
2. F.V.Vahidov, T.B.Ağayev. Sosiologiya.Bakı, - 2008.211s.
3. Z.İ.Məmmədov,X.H.Orucov, H.Q.Əhmədov, N.M.Cəlilova, A.Y.Əhmədova. Sosiologiya. Bakı – 2006.152 s.
4. EmineKarslı.Modernleşmesürecindeçözülenaileyapısıvekadınınyenideninşası // UluslararasıHukukveSosyalbilimaraştırmalarıdergisi/2019-№1.-S.1-14.
5. О.Г.Прохорова.Основыпсихологиисемьи исемейногоконсультирования. Москва, - 2005. 7с.

РЕЗЮМЕ

Семья как институт в разные исторические периоды подвергалась различным влияниям. Таким образом, структура, роль, функции и место семьи в обществе стали дифференцироваться. Фактически, оценка сегодняшней семьи – это предсказание ее будущего.

SUMMARY

The family, as an institution, has been subjected to various influences in different historical periods. Thus, the structure, role, function and place of the family in society began to differentiate. Assessing today's family is, in fact, predicting the future of the family.

Qədirova Aytən Oqtay qızı
Magistrant
Elmi rəhbər: dos., s.e.ü.f.d. Eldar Aslanov

BEYNƏLXALQ AİLƏ ADƏT VƏ ƏNƏNƏLƏRİ

Açar sözlər: *ailə, ailə ənənələri, adətlər*
Ключевые слова: *семья, семейные обычаи, традиции*
Key words: *family, familycustoms, traditions*

İngilis dilində “tradition” sözü, latın sözü olan “traditio” sözündən əmələ gəlmişdir. Ailə ənənələrinin yaranması və inkişafı prosesi mürəkkəb və müxtəlifdir. Bu ənənələrə nəsildən-nəsilə ötürülən adi ailə normaları, davranışlar, adət və münasibətlər daxil edilir. Ailə ənənələri sosial, dini, tarixi məqamlara söykənir. Ənənələr ailə bağlarını möhkəmləndirir, birlikdə yaşanan həyatı zənginləşdirir, uşaqların rifahına töhfə verir, qalıcı xatirələr yaradır. Ailə

daxilində üstünlük təşkil edən ənənələrə gündəlik əlaqə, ailə yeməyi, axşam gəzintiləri, qohumlarla keçirilən görüşlər, tətil, bayram günləri, milli tədbirlər və s. daxil edilir.[3]

Bir qayda olaraq, bir çox adət dərin tarixi köklərə malikdir. Beynəlxalq təcrübədə ailə ənənələrini tədqiq etsək, hər bir ölkədə bəzən müxtəliflik, bəzən də müəyyən qədər oxşarlıq nəzərə çarpacaq. Rusiyada yeni doğulmuş uşaq üçün hazırlanan "cehiz" rəngini seçərkən, cinsini nəzərə alan bir ənənə var: oğlanlar üçün mavi, qızlar üçün çəhrayı rəng. Dini bayramlarda hər ailə kilsəyə getmir. Ailə varisləri nəsildən-nəsilə ötürülür və ailə üzvləri arasında həm keçmiş, həm də bu günlə bağlı əlaqələri möhkəmləndirir. Ailənin varislərinə hörməti əks etdirən bu ənənə Rusiyada özünü büruzə verir. Burada bir ailənin yaradılmasında məqsəd uşaqların dünyaya gəlməsi, tərbiyəsi, toplanmış təcrübə və biliklərin, mədəniyyətin və əxlaqın ötürülməsidir. Rus ailəsindəki mərkəzi fiqur, üzvlərinə qayğı göstərən və əsas qazanan, gəlir gətirən adamdır. Qadın ailədə hörmət sahibidir və qızının davranışı üçün məsuliyyət daşıyır, eyni zamanda, ata da öz oğullarının hər mənfi hərəkətinə cavabdehdir. [1.27]

Çinin cənub hissəsi daha mehriban, sosial, şimal hissəsi isə təmkinli və asosial olur. Bununla birlikdə bütün çinlilər ənənələrə sadiqdirlər. Burada çay içmək yaxınlarınızla vaxt, qonaqlara hörmət etmək üçün bir fürsət sayılır. Bütün münasibətlər iyerarxik şəkildə qurulur. Çində toy etmək üçün astroloqun cütlüklərin doğum tarixinə və vaxtına baxaraq şərh etməsi lazımdır. Yeddinci ayın 15-indən sonra evlənmək uğursuzluq sayılır. Toy ənənəsi olaraq gəlin şans və xoşbəxtliyi simvollaşdıran qırmızı paltar geyinir. Cənnətə, ata-anaya, ər-arvada sədaqət mərasimlərindən sonra cütlük qollarını gəzdirərək içki içirlər sonra isə, onların saçları kəsilir. Ailədə, iş dünyasında yaşlı və daha yüksək statuslu insanlarla ünsiyyət qurmaq üçün bir sıra qaydalara riayət edilməlidir. Çində yeni doğulan uşaq üçün zinət əşyaları verilir. Ailənin nüfuzu böyük əhəmiyyətə malikdir, ailə bir dövlət kimi düşünülür. Valideynlərə hörmət yüksək səviyyədə olmalıdır. Ailənin başında məhdudiyyətsiz gücə malik olan ata durur. Oğullar isə əmlakın əsas sahibləridir. [4]

Hindistanda ailə cəmiyyətin kastalara bölündüyü vaxtdan meydana gəlmişdir. Toy adətləri həddən artıqdır. Burada kürəkənin sosial statusu gəlinin vəziyyətindən yüksək olmalıdır. Boşanma və yenidən evlənmək qadağandır. Adətən, doğulan uşaqlarının oğlan olmasını arzulayırlar. Hindistanda ailə, ümumi olaraq tək bir evlə məsləhətləşmək, bir-biri ilə ünsiyyət qurmaq, nikah, övladlığa götürmə və ya razılığı ilə birləşdirilmiş iki və ya daha çox şəxsin birliyi olaraq təyin edilir. Ən qədim mədəni, tarixi irsə malik olması ailə sisteminə də öz təsirini göstərmişdir. Hindistan nüvə ailələrinin müxtəlif formaları ilə mövcudluğunu davam etdirir.

Amerika Birləşmiş Ştatlarında çox sayda əyalət, şəhər, bölgə mövcuddur. Ona görə də, ortaq adətlərdən söhbət belə gedə bilməz. Burada evlilik xərcləri qadının üzərinə düşür. Lakin, xərclər artdığından və gec evlənildiyindən hər iki tərəf ödəyir. Amerika ailə ənənələri olduqca özünəməxsus və diqqətə layiqdir. Həyat yoldaşları, hər biri öz bank hesabına sahib olan və maliyyə vəsaiti öz istəyi ilə sərəncam verən iki maliyyə cəhətdən müstəqil qurumdur. Bundan əlavə, böyük alış-veriş etmək və uşaqların xərclərini ödəmək üçün ümumi bir ailə hesabı təqdim olunur.

Braziliyada güclü ailə ənənələri mövcuddur. Ailənin hər bir üzvünün rolları dəqiq müəyyənləşdirilib. Nadir hallarda istisnalar pozula bilir. Gənc yaşlarından etibarən qızlar qadınların işi və gənc uşaqlara qulluq üçün tələb olunan bacarıqları əldə etməyə başlayır. 13 yaşında potensial gəlinlər hesab olunur və 15 yaşında evlənirlər. Oğlan gələcək ailənin başçısıdır, buna görə sosial vəziyyətinə uyğun yaxşı təhsil almalıdır. Bir qız bir sevgilisi ilə göründüyü zaman, valideynləri onunla yaxşı münasibətlər qurmağa çalışırlar. Burada birgə ailə yeməyi ümumi dil tapmaq üçün yaxşı bir yol hesab edilir. Qohumlar arasındakı əlaqə o qədər güclüdür ki, hər hansı ailə hadisəsi bütün çoxsaylı qohumların bir araya gəlməsi üçün fürsətdir.

İsveç ailələri keçmişdə patriarxal olmuşdur. Qız evdə atasına, evləndikdən sonra isə ərinə xidmət, itaət etməli idi. Müasir İsveç ailəsi isə bərabər insanların birliyidir, valideynlər uşaqlarına diqqət və qayğı göstərir. Ev xərcləri həyat yoldaşları arasında bərabər bölünür. Uşaqlar

azadlıq ruhunda tərbiyə olunur və şəxsiyyət kimi formalaşır. Uşaqlara fiziki cəza verilməsi qanunla qadağandır. Onun hüquqları pozulursa, zərərçəkmiş uşaq öz valideynlərini polisə verə bilər. Milli adət-ənənələrlə xüsusi diqqət verilir, hər ailənin evində bir milli geyimsaxlanır.

Avstraliya xalqı üçün ailə adət-ənənələri o qədər də vacib deyil. Burada insanlar azad yaşamağı, əyləncələri üstün tutur, ailə məsuliyyətindən boyun qaçırırlar. Bu qitənin sakinləri üçün ən əhəmiyyətli ailə ziyafəti piknikdir. Ən yaxın qohumların bir araya gəlməsi belə nadir hallarda müşahidə olunur.

Norveçdə birlikdə yaşamaq məmnuniyyətlə qarşılanır. Gənclər münasibətlərinin gücünü sınamaq üçün illərlə birlikdə yaşayırlar. Yalnız, əmin olduqdan sonra evlənirlər. Norveçdə bərabərlik yalnız ailədə deyil, bütövlükdə ölkədə əsas prinsipdir. Uşaqların tərbiyəsində də gender bərabərliyinə diqqət yetirilir. Hələ kiçik yaşlarından istədikləri oyuncaqlarla oynayır və gələcəkdə istədikləri peşəyə yiyələnmək üçün hazırlıq görə bilirlər. Ailə kişi və ya qadın vəzifələri yoxdur, hər kəs istədiyi işi görə bilər. "Kişi köməyi" anlayışı mövcud olmadığından qadınlar çox vaxt kişilərə həddən artıq iş verirlər. Nənə və babalar övladlarının ailə işlərinə qarışmır və nəvələri ilə ünsiyyət qurub, onları böyütməklə vaxt keçirirlər.

Fransa ailələrində ana tezdən qalxıb səhər yeməyini hazırlamalıdır, digər yemək-ləri adətən kişilər hazırlayır. Körpə ailədə olan adət və normalara, həmçinin humanist prinsiplərə uyğunlaşdırılır. UNİCEF-ə görə fransız yetkinlərin, 90%-i həftədə bir neçə dəfə valideynləri nahar və ya şam yeməyi yeyir. Fransız ailələrində vəzifələr aydın şəkildə planlaşdırılır, yaxın qohumlar evin yanında qalır.

Müasir ingilislər kifayət qədər gec ailə qururlar. Orta yaş maraqların və üstünlüklərin tam şəkildə formalaşdığı bir dövrdür və hər bir insan bütün tələb və istəklərinə uyğun olaraq daha şüurlu şəkildə özü üçün bir cüt seçir. İlk doğulan uşaqlar, statistikaya görə, 32-35 yaşından əvvəl və ya 40 yaşından sonra dünyaya gəlirlər. İngilislərin inandığı kimi, ailə əvvəlcə ayağa qalxmalı, möhkəmlənməli, ev sahibi olmalı və yalnız bundan sonra nəsil haqqında düşünməlidir. Ailə qurulduqdan sonra uşağın fikirləri nəzərə alınır. Uşaqlara qarşı zorakılıq edənlərin cəzalandırlması ilə əlaqəli incəliklər İngiltərə qanunlarında xüsusi əhəmiyyətə malikdir. Ancaq ingilis nənə və babaları azadlıqsevərdir və sadəcə həftənin bir gününü nəvələrinə həsr edirlər.

Kanadada feminizm yüksək səviyyədə inkişaf etmişdir. Qadınlar 26 yaşında evlənir, buna səbəb ailədə bütün yükün qadının üzərində olmasıdır. Burada uşaqlara şiddət cəzalanmağa və həbsxanaya düşməklə nəticələnir. Adətən valideynlər işlədiyi üçün, uşaqlar dayəyə tapşırılır.

Türkiyədə gələcək kürəkən elçilik anında duzlu qəhvə içməli olur. Əgər sonacan içərsə bu gəlinin valideynləri tərəfindən müsbət qarşılanır və oğlanın evliliyə uyğun olduğu, onun üçün hər şeyə dözə biləcəyi düşünülür. Toy üçün, bəy və ailəsi gəlini almağa maşınlarla siqnal verərək gedirlər. Evlilikdən öncə gəlinin ayaqqabılarının altın subay xanımların adları yazılır. İlk silinən xanımın adı inanca görə bu toydan sonrakı gəlinin adıdır. Burada da xərclər və karyera düşüncəsi ilə gec evlənmə mövcuddur. Türkiyədə yeni doğulan uşaq üçün qızıl və ya gümüş zinət əşyası verilir. Müasirlik özünü göstərir. Lakin hələ də "beşikkərtməsi", "qızqaçırtma" kimi adətlər də yaşanmaqdadır.

Gürcüstanda subay qız bir oğlanla ailə həyatı qurmaq istədiyi zaman ailəsinin fikrini soruşmalıdır, əgər razılıq yoxdursa istədiyi ilə qaçır. Lakin, ailəsi onu bağışlamır. Oğlan istədiyi qızla ailə həyatı qurmaq istədiyi zaman isə ailə onu istəməsə də oğlunu bağışlayır. Oğlan və qız eyni kəndin uşaqları olmadıqca, toy gününə qədər bir-birlərini görə bilməzlər. Qız istəməyə gəlinən zaman qız tərəfi qapını açmaq üçün hədiyyə istəyir. Toylarda atəş açılması, birlikdə plov yeyilməsi də adət sayılır. Gürcüstan ailələrində uzaq və yaxın qohumlara bölünmə yoxdur, hər kəslə yaxın və isti münasibətlər qurulur. Buna görə də hər kiçik qeyd olunacaq hadisə üçün, tez-tez ziyafətlər təşkil olunur. Ailədə qadın daha üstün rol oynayır.

Koreyada evlənmə yaşına çatan gənclər özlərini evliliyə hazır hiss etmirlər. Həmçinin toy və təhsil xərclərinin çoxluğu da gec evlənməyə gətirib çıxarır. Nikah kilsədə kəsilir və toy keçirilir. Ənənəyə görə ördəklər toy masasında olurlar, çünki bu quşlar bütün ömrü boyu bir-birlərinə sadiqdirlər. Burada bir insanı ailəsinə qarşı münasibətinə görə qiymətləndirirlər. Ailə əlaqələri güclüdür, boşanma nadir hallarda görünür. Gec evlənmə, həyat yoldaşının diqqətlə seçilməsi və oğlan uşağına üstünlük verilməsi kimi ənənələr də özünü göstərir. [5]

İtaliyada toyun keçirildiyi kilsənin qapıları önünə ipək lentlər bağlanır, bu da sarsılmaz evliliyi simvolizə edir. İtalyanlar ailə qurmaq üçün tələsmirlər, çünki boşanma prosesi qarışıqdır və bir neçə il davam edə bilir. Burada ailə əsas, uşaqlar isə xəzinə sayılır. Hər münasibətdə ziyafət, ailə və dostluq əlaqələrinin qurulmasında tipik bir üsul kimi özünü büruzə verir.[2]

Almaniyada daim ən uzaq ailə əlaqələri qorunub saxlanır, bir neçə bayram birlikdə qeyd edilir. Təhsillərini tamamlayıb, karyera qurduqdan sonra evlənən almanlar uşaq sahibi olmazdan öncə də çox düşünürlər. Yeni evlənənlər ayrı yaşayır və evlərinin hərtərəfli qayğısına qalırlar, hərtərəfli təmizlik işləri görürlər. Azadlıqsevər nənə və babalara nəvələrinə baxmağa görə müəyyən miqdarda ödəniş edilir. Hələ kiçik yaşlarından uşaqlara nizam-intizam, dəqiqlik öyrədilir. [5]

Fikrimizcə, insan bütün həyatı boyu doğum, əsgərliyə göndərmək, evlilik, bayram, ölüm kimi adətlərin əhatəsində olur. Əsasən də, doğuş və körpə ilə əlaqəli olanlar, hər mədəniyyətdə həvəslə qarşılanan, qeyd olunan və müqəddəsləşdirilən ənənələrə çevrilmişdir. Göründüyü kimi, dünyanın hər yerində mövcud olan ənənələr öz müxtəlifliyi ilə seçilir.

Ədəbiyyat

1. Г.Ф.Биктагирова, Р.А.Валеева, Р.Р.Биктагиров.Семейныетрадиции. Kazan, - 2012. 27 s.
2. https://dugun.com/en-cok-okunanlar/ilginc-dugun-gelenekleri-124
3. https://benanneyim.com/eglence/aile-gelenekleri-nasil-ciktilar/
4. https://m.orangesmile.com/gezirehberi/cin/gelenekler.htm
5. https://foras-beauty.ru/az/zdorove/chto-takoe-semeinye-tradicii-semeinye-tradicii-ih-rol-v-splochenii-semi/

РЕЗЮМЕ

На наш взгляд, всю жизнь человека окружают такие обычаи, как рождение, призыв, брак, праздник, смерть. В частности, традиции, связанные с рождением и младенчеством, стали традициями, которые приветствуются, отмечаются и освящаются в каждой культуре. Как видно, традиции, существующие во всем мире, отличаются своим разнообразием.

SUMMARY

Inouropinion, a personissurroundedby customs such as birth, conscription, marriage, holiday, death throughout his life. In particular, those associated with birth and infancy have become traditions that are welcomed, celebrated and sanctified in every culture. As can be seen, the traditions that exist all over the world are distinguished by their diversity.

Nəzərova Afaq Fəxrəddin qızı
Elmi rəhbər: dos.i.ü.f.d Məmmədov.Ə.Q

AİLƏ İNSTİTUTUNUN FUNKSİYALARI

Açar sözlər: *ailə, sosial institut, funksiya, ailə funksiyaları*
Ключевые слова: *семья, социальный институт, функция, семейные функции*
Key words: *family, social institution, function, family functions*

Ailə cəmiyyətin özəyidir. Ailə, bəşəriyyətdə bütün tarix boyu mövcud olan sosial institutdur. Bir çox sosial institut kimi ailə də bəşər tarixi boyunca əhəmiyyətli dəyişikliklərə məruz

qalmışdır. Quruluşunda, növündə, ölçüsündə və funksiyalarında ciddi dəyişikliklər olmuşdur. Bir sözlə, ailənin,insan nəslinin qorunması və davamlılığı kimi təməl keyfiyyətlərini heç bir dövrdə və cəmiyyətdəitirmədiyi, bu gün dəhəmin funksiyalarının davamlılığı müşahidə edilir.

Ailə universal bir institut olsa daonun quruluşu və ya forması hər bir cəmiyyətdə özünə məxsusluğu ilə seçilir. Sosioloqlar və antropoloqlar fərqli mədəniyyətlərdə mövcud olan ailənin müxtəlif növlərindən bəhs edirlər. Ümumiyyətlə,ailələrin təsnifatı nigah formaları, yaşayış yeri və.s əsasında müəyyən olunur.

Ailə eyni zamanda sosiallaşma vasitəsidir. Bir çox cəhətlər bu institutu digər sosial quruluşlardan fərqləndirir.

Maklver və Page-ə görə, "Ailə, cinsi əlaqə ilə müəyyən edilən, uşaqların çoxalması və tərbiyəsi üçün kifayət qədər etibarlı və davamlı bir qrupdur".

K.Devisin-ə görə, "Ailə, bir-biri ilə münasibətləri qohumluğa əsaslanan və bu səbəbdən bir-birinə qohum olan bir qrup insandır".

Elliot və Meril-ə görə, "Ailə, ər, arvad və uşaqlardan ibarət olan bioloji-sosial vahiddir"[1].

Sosioloq Əhməd Qəşəmoğlu qeyd edir ki, "ailə cəmiyyətin sosial mərkəzi olduğundan, həmin mərkəzin idarəsində ahəng önəmlidir"[2]**.**

Tusi "Əxlaqi-Nasiri" əsərindəailəni hər bir cəmiyyətin əsas dayağı adlandıraraq: "Ailə nə qədər sağlam və möhkəm təməllər üzərində qurulsa, dövlət də o qədər möhkəm olar",-deyə yazır[2].

Cəmiyyətin bütün institutları kimi ailə də müəyyən funksiyaların həyata keçirilməsi üçün qəbul edilmiş norma və prosedurlar sistemidir. Əksər cəmiyyətlərdə ailə funksiyaları bir-birindən az fərqlənsə də, insanların həyata keçirməyə çalışdıqları formalar olduqca müxtəlifdir3].

Bu mövzuda araşdırma aparan alimlərin(Turner,Nirun, Vinç, Akerman və başqaları) fikirlərinintəhlili əsasında, ailənin funksiyaları 6 başlıq altında tədqiq olunur: 1) Bioloji funksiya; 2) Psixoloji funksiya; 3) Təhsil funksiyası;4) Sosial funksiya; 5) Mədəni funksiya; 6) İqtisadi funksiya.

Bioloji funksiya. Evliliyin əsas "bioloji" funksiyalarından biri də "cinsi istəyi təmin etmək", bir-birlərinin istəklərini harmoniya ilə qarşılamaq və cinsi istəyi qanuni şəkildə təmin etməkdir. Bunun nəticəsində, "övlad sahibi olmaq, onları böyütmək və öz nəsillərini yetişdirmək" ehtiyacı qarşılanır [4]. Ailənin nəslin davamını təmin edən funksiyası yer üzündə insanların varlığı ilə başlamış və bəşəriyyət mövcud olduğu müddətdə davam edəcəkdir [5].

Qoruyucu funksiya. Uşaq dünyaya gələndəaciz və hər şeyə möhtac olur. Onun ən təməl fizioloji ehtiyaclarını ödəyən, ən zəif olduğu zaman bəsləyən, böyüdən, sığınacaq və geyimlə təmin edən ailədir. Kiçik bir uşaq üçün təbii, fiziki və sosial mühitin şərtləri çox ağırdır. Uşağı hər cür maddi və mənəvi zərərli təsirlərdən qoruyanailədir. Ailə, nəslin davamını təmin edərək insanlığın varlığını qoruyur [6].

Psixoloji funksiya. Ailə üzvlərini emosional bağlarla birləşdirir.Ailə uşağın psixoloji ehtiyacları üçün isti bir mühityaradır və onu insanlığa faydalı sosial bir şəxsiyyət kimi hazırlayır. Uşağıamansıztəbii, fiziki və sosial mühitdən qoruyan və onun üçün yaşaya biləcəyi bir sevgi mühiti yaradan ailədir.

Sevgi funksiyası. Psixoloji ehtiyac olaraq, "sevgi" yalnız evlilik münasibətlərində özünü göstərir, tərəflər özlərini həyat yoldaşlarına həsr edirlər, acı və şirin həyatlarını bölüşürlər və birlikdə olmaqdan böyük məmnuniyyət duyurlar [4].

Ailənin bir çox funksiyası sosial prosesdədəyişikliyə məruz qalır, lakin sevgi funksiyası daimi olaraq, onun dəyərini tədricən artırır.

Özünə hörməti inkişaf etdirmə funksiyası. Özünə hörmət, uşağın özünə olan güvənidir. Özünə hörmət ailə sevgisinin və yaxşı bir təhsilin məhsuludur. Özünə hörməti yüksək olan bir uşaq, dəyərli olduğuna, yaşadığı mühitlə barışdığına, inkişaf etmiş öyrənmə, sevmə və yaratma qabiliyyətinə sahib olduğuna, müvəffəq və xoşbəxt bir insan olduğuna inanır. Ailə verdiyi təhsil ilə uşağın özünə hörmətinin ilk əsaslarını yaradır.

Sosial funksiya. Ailə cəmiyyətin təməlidir. Buna görə də, ailə sosial quruluşdakı ən əsas funksiyaları öz üzərinə götürmüşdür.

Təhlükəsizlik funksiyası.Ailə, fərdin sevildiyi, hörmət edildiyi və sosial təhlükəsizliyinin təmin olunduğu yerdir. Eyni zamanda, pul qazandığı, yaşayışını təmin etdiyi, qidalandığı və iqtisadi təhlükəsizliyinin təmin olunduğu bir mühitdir[7]. Uşağı tərbiyə etməyin yolu ona təhlükəsiz mühit təmin etməkdən başlayır. Qarşılıqlı sevgi və bir-birinə güvənən fərdlərin ən aktiv qrupu ailədir.

Sosiallaşma funksiyası. İnsanlar fərdi keyfiyyətləri baxımından bioloji bir varlıq olaraq dünyaya gəlirlər, yaşadıqları cəmiyyətin dəyərlərini və normalarını mənimsəyir, öyrənir və həyat müddətində sosial bir varlığa çevrilirlər."Sosiallaşma prosesi, fərdin doğulduğu gündən sosial bir fenomen olaraq cəmiyyətə üzv olmaq üçün keçdiyi bütün mərhələlərə verilən addır" [8].“Sosiallaşma prosesində ən böyük vəzifə ananın üzərinə düşür. Bununla birlikdə, ata, bacı və qardaşlar, ailənin digər qohumları bu işdə kömək edəcək şəxslərdir. Ailə ilk illərdən uşağın sosiallaşmasında təsirli olsa da, sonrakı dövrlərdə məktəb və sosial münasibətlərdə mühüm rol oynayır ”[5].

Sosial status təmin etmə funksiyası. Cəmiyyətdəki hər bir fərd dəyərli, müvəffəq və üstün bir insan olmaq istəyir. Çatışmazlıq hissi fərdləri narahat edən məqamlardandır. Bu cür şəxslərin özlərini cəmiyyətdə təsdiqetmə şansı aşağıdır[7]. Ailə bir insanayalnız fitri status vermir, həmçinin həyat yarışında da üzvlərinə status və hörmət qazandırır.

Sosial nəzarət funksiyası.Sosial nəzarətin vasitələri-dəyərlər, normalar, qaydalar və qanunlardır. Bu nəzarət vasitələri ilə müsbət və mənfi qoruyucu tədbirləri üç başlıq altında qruplaşdırmaq mümkündür:

1) Yazılı qanun, cəmiyyətdəki hərəkətləri qanuniləşdirmək və ya qadağan etməklə bağlı olan təhlükəsizlik tədbirləridir;

2) Din, yaxşı və ya pis əməllər ilə fəaliyyətini davam etdirir;

3) Əxlaq, varlığını təqdir və ya tənqid ilə hiss etdirir. Bu normalar arasında cəmiyyətə nəzarətin təmin edilməsində ən təsirli təhlükəsizlik tədbiri yazılı hüquqqaydalardır [9].

Həyat yoldaşı seçimi və evlilik funksiyası. Ailələrböyütdüyü övladının həyat yoldaşı seçimində və ailə qurmasında özlərini məsul və cavabdeh hiss edirlər.Övladları evlənən valideynlər özlərini rahat və xoşbəxt hiss edirlər. Ənənəvi cəmiyyətlərdə valideynlərin sosial-iqtisadi və sosial-mədəni səviyyəsi gənclərinhəyat yoldaşı seçimində və ailə qurmasında əhəmiyyətli rol oynayırlar.

Siyasi funksiya. Siyasət, cəmiyyətləri idarə etmək sənəti və peşəsidir. Dövlət millətin mütəşəkkil formasıdır və qanunverici, icraedici və məhkəmə orqanlarından ibarətdir. Siyasət, təhsil yoluyla mövcud nizamı qoruyan, milli inteqrasiyanı təmin edən milli şüurlu vətəndaşların yetişməsində mühüm rol oynayır[9,10]. Ailə siyasi düşüncəsini təhsil yolu ilə yeni nəsillərə ötürür.

Təhsil funksiyası. Bu gün ailənin təhsil funksiyasında ciddi bir fərqlilik var, lakin bütün dövrlərdə olduğu kimi, təhsilin təməli yenə də ailədədir. Məktəb və ətraf mühit öz biliklərini ailənin verdiyi təhsil əsasında qururlar. Uşaq ailədə ilk dəfə yeməyi, içməyi, oturmağı, ayağa qalxmağı tənzimləyən əsas dəyərləri, normaları və bütün insani keyfiyyətləri öyrənir.

Valideynlərin uşaq təhsilində diqqət yetirməli olduqları məqamları belə ümumiləşdirmək olar:

Valideynlər arasındakı uyğunluq davamlı olmalıdır, sevgi səviyyəsi uşağa verilən təhsil ilə yaxşı bir şəkildə tənzimlənməli, fərdi fərqlər nəzərə alınmalı, uşaq üçün yaxşı bir nümunə (model) göstərilməlidir.

Mədəni funksiya. Sosioloji cəhətdən mədəniyyət, bir cəmiyyətin həyat tərzidir, maddi və mənəvi dəyərlərinin cəmidir və həyat təcrübələrinin toplanmasıdır. Mədəniyyət, bir insanın cəmiyyət üzvü kimi öyrəndiyi bilik, bacarıq, sənət, texnologiya, adət-ənənələr və vərdişlər kompleksidir[11]. Hər bir nəsil əvvəlki nəslin mədəni dəyərlərini davam etdirir. İnsan öz biliyi, təcrübəsi və dili ilə, başqa sözlə, danışmaq və yazmaq bacarığı ilə mədəni təcrübəsini yeni nəslə ötürür. Beləliklə, mədəni ötürmənin ən vacib vasitələri bilik, təcrübə və dildir[9]

İqtisadi funksiya. İqtisadiyyatın əsas elementləri istehsal, mübadilə, paylama və istehlakdır. Burada ailənin iqtisadi funksiyasını təyin edərkən istehsal və istehlaka diqqət yetirmək lazımdır. İstehsalın elementləri təbiət, kapital, müəssisə və əməkdir. Fərdin istehlaka münasibəti qənaət və israf kimi görünür. Fərd ailədə istehsal və istehlakın tələb etdiyi bütün bilik və bacarıqları qazanır.

İş tapmaq və məşğulluq funksiyası.Ailənin fərdi peşəyə yönəltməsində və peşəkar bilik və bacarıqların təmin edilməsində də mühüm rolu var. Peşə seçərkən bir çox gənc işlərini ailələrinin təsirinə və təklif olunan imkanlara görə müəyyənləşdirir. Bununla birlikdə, bu gün təhsil müəssisələri və sənaye sektoru fərdin inkişafı üçün peşə və texniki bacarıq qazanma vəzifəsini öz üzərlərinə götürmüşlər. Başqa sözlə, bu gün məktəblər, müxtəlif təhsil mərkəzləri, qeyri-hökumət təşkilatları və sənaye sektorundakı qurumlar ailənin iqtisadi funksiyası olan ənənəvi peşə funksiyasını yerinə yetirirlər. Ancaq ailənin bu mövzuda fəaliyyəti davam edir[12].Ailənin vəzifəsi fərdi tanımaq və onun tərbiyəsi üçün lazımi imkanlar yaratmaq, dəstək vermək və rəhbərlik etməkdir.

Bütün əldə edilən məlumatlardan aşağıdakı nəticələrə gəlmək olar: Ailə, sosial təşkilat və institutlaşmanın əsas vahididir. Ailə, cəmiyyətin təməli, əsas və funksional elementidir. Bir çox sosial institut kimi ailə də bəşəriyyət tarixi boyunca ciddi dəyişikliklərə məruz qalmış və funksiyaları dəyişmiş, lakin heç bir cəmiyyətdə yerini, əhəmiyyətini və dəyərini itirməmişdir.

Ədəbiyyat

1) https://www.yourarticlelibrary.com/family/ İmportant functions of family (1698words)
2) https://hafta.az/ Qloballaşma dövründə ailə dəyərləri
3) Xacə Nəsirəddin Tusi. Əxlaqi – Nasiri. B.,1980
4) https://cyberleninka.ru/article/Функции семьи: традиции и современное состояние
5) Özgüven, İbrahim Ethem (2000), Evlilik ve Aile Terapisi, Ankara: PDREM (Psikolojik Danışma Rehberlik Eğitim Merkezi Yayını)
6) Acar, Ali, (1990), Türk Aile Yapısı Ve Kızılcahamam Aile Yapısı Üzerine Bir Araştırma, (Basılmamış doktora tezi), İstanbul: İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü.
7) Gökçe, Birsen, (1990), "Aile ve Aile Tipleri Üzerine Bir İnceleme", Aile Yazıları I, (Derl: B.Dikeçligil ve A.Çiğdem) Ankara: Aile Araştırma Kurumu Başkanlığı Yayınları, Bilim Serisi No: 5/1, ss.205-223.
8) Binbaşıoğlu, Cavit, (1978), Eğitim Psikolojisi, Ankara: Binbaşıoğlu Yayınevi.
9) Erkal, Mustafa E., (1987), Sosyoloji (Toplumbilim) 3. baskı, İstanbul: FilizKitabevi
10) Erden, Münire, (2007), EğitimBilimineGiriş, Ankara: ArkadaşYayınevi.
11) Tezcan, Mahmut, (1997), EğitimSosyolojisi, 11.baskı, Ankara: ZirveOfset
12) Erden, Münire, (1998), Öğretmenlik Mesleğine Giriş, İstanbul: Alkım Yayınları
13) Kır, İbrahim, (2010), "Eğitimin Toplumsal Temelleri" Eğitim Bilimine Giriş, Edt. Fatih Töremen, İstanbul: İdeal Kültür Yayıncılık

РЕЗЮМЕ

Цель статьи - социологически определить функции семьи как социального института и подчеркнуть ее важность в обществе. В этом исследовании были изучены отчеты об исследованиях, такие как социологическая литература, книги и статьи по этой теме, и функции семьи использовались для определения функций семьи. Функции семьи изучаются по шести основным направлениям: 1) биологическая функция, 2) психологическая функция, 3) образовательная функция, 4) социальная функция, 5) культурная функция, 6) экономическая функция. Исследование - это метод исследования функций семьи посредством анализа документов.

SUMMARY

The purpose of the article is to determine sociologically the functions of the family as a social institution and to emphasize its importance in society. This study examined research reports such as sociological literature, books and articles on the topic, and family functions were used to define family functions. Family functions are studied in six main areas: 1) biological function, 2) psychological function, 3) educational function, 4) social function, 5) cultural function, 6) economic function. Research is a method of investigating family functions through document analysis.

Nəzərova Afaq Fəxrəddin qızı
Elmi rəhbər: dos.i.ü.f.d Məmmədov.Ə.Q

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA AİLƏ İNSTİTUTUNUN VƏZİYYƏTİ

Açar sözlər: *ailə institutu, Azərbaycanda ailə,boşanma, ailənin vəziyyəti, ailə*
Клюцевые слова: *семейный институт,семья в Азербайджане, развод, семейное положение, семья*
Key words*: family institute, family in Azerbaijan, divorce, family status, family*

Ailə, tərəfləri nigah və qohumluq münasibətləri ilə birləşdirən kiçiksosial qrupdur. Şərq müdriklərinin və bir sıra elm adamlarının mülahizələrinə nəzər yetirsək, görərik ki, hələ qədim zamanlardan ağıllı, uzaqgörən insanlar yeni nəslin keyfiyyətli inkişafı və tərbiyəsində ailənin mühüm rol oynadığını ön plana çəkmişlər. Arzu olunan nəslin formalaşması üçün işlərin hələ həyat yoldaşı seçməkdən başladığını daima qeyd etmişlər. Ona görə də, ailə qurduqda olduqca diqqətli olmağı, öz əxlaqı, mənəviyyatı, davranışı, adət-ənənələri uyğun insanla ailə qurulmasını məsləhət bilmişlər. Müasir dövrdə bu tələblər dəyərli hesab olunmur[1].

Hazırki dövrdə günü-gündən mürəkkəbləşən cəmiyyətdə ən mühüm problemlərdən biri də ailə problemidir. Ailə institutunun dağılması və orada baş verən bir çox proseslər Azərbaycan üçün arzuolunan deyil. Lakin mövcud demoqrafik vəziyyət bir gecədə formalaşmayıb. Bu, ailə institutunun və ailə dəyərlərindəki dəyişikliklərin transformasiyasının nəticəsidir.

Ailənin institutu yalnız əhalinin ailə quruluşunu deyil, həm də insanların həyat tərzinin istiqamətləndirilməsini əhatə edir. Müxtəlif elm adamları ailədəki problemləri iki şəkildə şərh edirlər: ya ailənin böhranı (lakin son dərəcə mənfi bir fenomen), ya da ailə institutunun transformasiyası (müsbət cəhətləri olan geri qaytarılmaz proses).

Müasir dövrdə Azərbaycanda ailə institutunun vəziyyəti iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin yolunu qismən təkrarlayır: boşanma sayının artması, sonsuzluq, alternativ ailə formalarının inkişafı (tək valideynli ailələr, vətəndaş nigahı), ailələrdə uşaq sayında azalma. Bu proseslər bu gün dünyanın əksər ölkələrində ailə institutunun vəziyyətini xarakterizə edir.

Nigaha daxil olanların boşanma nisbəti artmışdır: 2018-ci ildə 24 %-i, 2019-cu ilin 9 ayı ərzində isə 27%-i boşanma ilə nəticələnmişdir [2]. Deməli, 2018-ci ilə nisbətən 2019-cu ilin 9 ayı ərzində boşanma hallarının artmasının səbəbi insanlar üçün ailə həyat tərzinin müstəsna dəyərini itirməsidir. Evlilik nisbəti azaldıqca, qeydiyyatdan keçməmiş nikahların yayılması artır.

Faktlar sübut edir ki, ailə böhranı əsasən ailənin ənənəvi funksiyalarını itirməsi və ya qeyri-kafi bir fəaliyyət göstərməsi ilə əlaqədardır: reproduktiv, iqtisadi, təhsil, istirahət və psixoloji (ünsiyyət). Bu gün tarixi və sosial-mədəni dinamikanın sürəti durmadan artır, dünyanın ən inkişaf etmiş ölkələri sənaye iqtisadiyyatından post-sənaye iqtisadiyyatına və yeni vəziyyətlərə uyğun bir növ sosial təşkilat tipinə keçir. Bu proseslər evlilik və ailə münasibətlərinə ciddi təsir göstərir.

Ailə problemləri ailə institutu olduğu müddətdə mövcuddur, lakin cəmiyyətdəki əhəmiyyətli dəyişikliklər səbəbindən yeni, müxtəlif ailə problemləri ortaya çıxmağa başlamışdır. Mövcud ailə problemləri aşağıdakılardır:

-Ailə münaqişələri və zorakılıq;

-Ailədə kişi və qadın rolların dəyişkənliyi;

- Qadınların üzərinə yüksək səviyyədə məsuliyyətin yüklənməsi;

- Ailədə sonsuzluq məsələsi;

-Qohum və erkən nigahların artan tendensiyası;

- Valideynlərin müdaxiləsi.

Yuxarıda sadalanan problemləri ətraflı tədqiq edək.

1. Ailə münaqişələri və zorakılıq. Cəmiyyətdə baş verən dəyişikliklər ailələrdə müxtəlif istiqamətdə problemlərin yaranmasına səbəb olur. Ailədə baş verən münaqişə və zorakılığın əsas səbəbləri maddi gəlirin aşağı olması, zərərli vərdişlər (alkoqol, narkotik maddə aludəçiliyi), mənəvi dəyərlərin çatışmazlığı, valideynlər və uşaqlar arasındakı ünsiyyət çatışmazlığı kimi bir sıra amilləri sadalamaq olar[3].

Cədvəl.*2019-cu ildə məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərin cins bölgüsü[4].*

Cinayətnövləri	**Yekunagörəfaizlə**		**Faizlə**	
	qadınlar	**kişilər**	**qadınlar**	**kişilər**
Qəsdənadamöldürmə	3,6	2,2	84,1	15,9
Adamöldürməyəcəhd	2,3	4,1	64,9	35,1
Qəsdənsağlamlığaağır zərərvurma	2,2	5,6	56,1	43,9
Qəsdənsağlamlığaazağır zərərvurma	9,0	11,2	72,3	27,7
Qəsdənsağlamlığayüngül zərərvurma	80,1	72,8	78,1	21,9
Əzabvermə	0,8	0,3	88,9	11,1
Digər	2,0	3,8	63,6	36,4
Cəmi, faizlə	100,0	100,0	76,4	23,6
nəfər	1038	320	x	x

Cədvəldən göründüyü kimi, qadınlara qarşı məişət zorakılığı nəticəsində baş vermiş əksər cinayətlər qrupuna qəsdən adam öldürmə, qəsdən sağlamlığa yüngül zərər vurma, əzab vermə formaları daxildir. Kişilərə qarşı məişət zorakılığı nəticəsində baş vermiş əksər cinayətlər qrupuna isə adam öldürməyə cəhd, qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma və digər formaları müşahidə olunur. Buradan belə bir nəticə çıxarmaq olar ki, qadınlara qarşı məişət zorakılığı kişilərə nisbətən 3.2 dəfədən daha çox müşahidə olunur.

Ailədaxili zorakılıq hadisələrinin təkrarlanmasına səbəb qurbanların izlənməsi və ya həmin şəxslə təkrar görüşməsi nəticəsində baş verir[5].

Ekspertlərin fikrincə, bu sahədə qanunlar daha da sərtləşdirilməli, sosial təminat sahəsində dövlət proqramlarının qəbulu və icrası tezləşdirilməlidir. Çünki belə ailələrdə doğulan uşaqlar aqressiv davranış nümunələrini mənimsəyərək, gələcək ailəsində tətbiq edə bilər.

2. Ailədə kişi və qadın rollarının dəyişkənliyi. Kişi və qadının genetik, fizioloji, psixoloji sistemləri fərqlidir. Əgər iki obraz bir-birindən fərqlidirsə, onların dünyagörüşü, mənimsədikləri ailə tərbiyəsi də müxtəlif xüsusiyyətləri ilə seçilir.

Qadın maddi cəhətdən müstəqil olduğu zaman, artıq ailədə ər və arvadın rolu bərabərləşir və ya qadın əsas obraza çevrilir. Xüsusilə, qadın və kişi arasında ev işlərinin bölüşdürülməsində demokratikləşmə müşahidə olunur.

Qadın daim ailənin gizli idarəedici qüvvəsi hesab olunur, lakin müasir dövrdə qadın idarəedici missiyadan imtina edərək ərinə psixoloji təzyiqlər göstərməyə və onu uşaqların gözündə nüfuzdan salmağa çalışır[3].

Stuckertə görə, kişi və ya qadına mədəni olaraq aid olan rollar, ər-arvadın bir-birindən nə gözlədiyinə dair kompleks bir nümunəsini daşıyır. Əgər ər-arvadın bir-birindən oxşar rol gözləntiləri varsa, ünsiyyət daha asan olur və hər ikisi evlilikdən məmnun qalırlar.Ər-arvadın bir-birindən gözləntiləri və ər-arvadın qəbul etdiyi rollar fərqlidirsə, evlilikdən məmnunluqları azalır [6].

Tədqiqatçıların fikirləri bizə deməyə əsas verir ki, bəzi şəxslər ailə qurarkən, bir çox sərvət meyllərini üstün tuturlar. Sərvət və peşə meyllərinin üstün tutulması zamanı, qadın və kişinin bir-birini alçaltması halları müşahidə edilir.

3. Qadınların üzərinə həddindən artıq məsuliyyətin yüklənməsi. Müasir cəmiyyətdə qadın"uşaqlara qayğı göstərmək və ev işləri ilə məşğul olmaqla yanaşı ailəni maddi cəhətdən dəstəkləyən müvəffəq bir işçi olmalıdır" deyə düşüncə tərzi mövcuddur. Bəzi kişilər ailə qurduqdan sonra, bir müddət qadınlara kömək edir, lakin yavaş-yavaş bu kömək dayanır və bütün məsuliyyəti qadının üzərinə yükləyirlər. Həddindən artıq yüklənmə bir müddət sonra qıcıqlanmaya səbəb olur.

Qadın üçün asudə vaxt onun şəxsi və mənəvi səviyyədə inkişafına töhfə verir. Xroniki asudə vaxt çatışmazlığı qadının sevdiyi işlə məğul olmasının qarşısını ala bilər, bu da onun əsəbilik və ümumi narazılığının artmasına səbəb olur.Əsəbilik daimi emosional narahatlığın mənbəyidir və onun həyat yoldaşına qarşı mənfi münasibətinin səbəbidir[3].

4. Ailədə sonsuzluq məsələsi. Ailədə sonsuzluq məsələsi genetik və sonradan qazanılan faktorlarla əlaqədar ola bilər. Genetik faktor, nəsildə olan çatışmazlığın qadın və ya kişidə təkrarlanmasıdır. Sonradan qazanılan faktorlara isə alkoqol və narkomaniya aludəçiliyi, müxtəlif qəzalar, xəstəliklər vəs. daxildir.

Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin İnformasiya və Analtik Araşdırmalar şöbəsinin məlumatlarına əsasən"2016-cı ildə Azərbaycanda boşananların 47%-i uşaqsız ailələr olmuşdur"[7]. Bu nəticələrə görə, hər 47 ailədən biri sonsuzluq faktoru ilə üzləşiblər.

Ailədə olan sonsuzluğun aradan qaldırılmasının və növbəti nəslə ötürülməsinin qarşısının alınmasında ən yeni tədqiqat metodu CRISPR – Cas9 (gen qayçısı) - dur. Gen qayçısı dedikdə, nəsildə çatışmazlıq yaradan qüsurlu geni kəsib aradan qaldırır. Ən yeni tədqiqat metodu olan CRISPR – Cas9 (gen qayçısı) dünyada məhdud sayda ölkədə tətbiq olunur. Misal olaraq, Birləşmiş Krallıq ölkələri buraya daxildir[8]. Buna əlavə olaraq demək olar ki, CRISPR – Cas9(gen qayçısı) metodu müəyyən qanun çərçivəsində həyata keçirilir. Dünyanın bütün ölkələrində CRISPR – Cas9(gen qayçısı) metodunun tətbiq olunmamasının əsas səbəbi maliyyə vəsaiti, mütəxəssis çatışmazlığı, etika anlayışına zidd olması və digər amillər ilə əlaqədardır.

5.Qohum və erkən nigahların artan tendensiyası. Azərbaycan Respublikasının qanunvericiliyinə görə, erkən nigah 18 yaşından kiçik oğlanların və qızların (məcburi) birgə yaşamasıdır. Uşaq hüquqları haqqında Azərbaycan Respublikası Qanununa, həmçinin 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiyaya görə, tam fəaliyyət qabiliyyəti olmayan şəxslər uşaq hesab edilir[4]. Erkən nigah zamanı ailədə ər-arvadın dünyagörüş uyuşmazlığı, gələcək planları, təhsil səviyyəsi, mənəvi və etik dəyərləri uyğunsuzluq təşkil edir. Bəzən erkən nigahlar qüsurlu körpələrin doğulmasına, sonsuzluq faktoruna və bir çox fəsadlara səbəb olur.

Statistik məlumatlara görə, 1995-2019 illər ərzində erkən nigaha daxil olan şəxslərin boşanma tendensiyası sürətlə artmışdır. Boşanma sayına görə 1995-ci ilə nisbətən 2000-2001-ci ildə 3-5 % arası azalma, 2004-cü ilə nisbətən 2005-ci ildə 28%, 2009- cu il ilə müqayisədə 2010-cu ildə 16% artım müşahidə olunmuşdur[9]. Açıq-aşkar görünür ki, erkən nigaha daxil

olan uşaqlı ailələrin boşanma halları daha sürətlə yayılır. Belə qənaətə gəlmək olar ki, şəxsiyyətin formalaşması ilə birlikdə yaşayış tələbatlarında dəyişikliyə zərurət yaranır.

Qohum nigahlar.Qohum nigahlarla bağlı aparılan tədqiqatlar, əmiuşaqlar arasındakı birləşmə doğulacaq körpədə malformasiya (inkişaf anomaliyası) risqini iki dəfə artırdığını təsdiqləyir. Qan qohumluğu, ürək, beyin və digər genetik xəstəliklərin risqini artırır. Niyə qan qohumu olmaq bu risqi artırır? Bunu almaq üçün aşağıdakı izahlara ehtiyac var. Hüceyrələrimizin hər birində 23 cütə ayrılmış 46 xromosom var. Hər cütdə bir xromosom atadan, digəri anadan gəlir. Bu səbəbdən hər birində, təkrarlanan bütün genlər var: bəziləri ata nəslindən, digərləri ana nəslindən.

Xəstəlik yaradan qüsurlu bir gen cüt nüsxə halında ortaya çıxır.Yəni, xəstəliyin daşıyıcısı (məsələn, kistik fibroz) hər iki valideyn olmalıdır. Bu səbəbdən kistik fibrozu yaradan qüsurlu gen qohum nigahlarda doğulan körpələrdə daşıyıcı formada özünü biruzə verə bilər. Qüsurlu genin daşıyıcısı olan şəxslər arasında qohum nigahların bir neçə nəsil üzrə təkrarlanması nəticəsidə, xəstə və daşıyıcı körpələrin (kistik fibrozist (yaşama müddəti 27 ildir), otozomal resesif, talassemiya (qan xəstəliyi, ortalama olaraq müalicə ilə 40 yaşa qədər yaşayır)) doğulmasının statistik göstəricilərini artırır[10].

6.Valideynlərin yersiz müdaxiləsi. Gənclərin ailəsinin düşməni valideylərin özləridir. Bəzi analar oğullarını qısqanırlar, çünki oğul sevgisini başqa bir qadınla bölüşdüyünə görə gəlinə qarşı nifrət edir. Qaynananın kor qısqanclığı gənclərin evliliyi üçün təhlükə yaradır. Evli övladlarının etdikləri hər şeyi bilmək istəyirlər: nə yediklərini, nə vaxt oyandıqlarını, gəlinin və ya kürəkənin nə qədər qənaətli olduqlarını, çalışqan olub-olmadığını bilmək istəyirlər və şərh edirlər.

Bəzi valideynlər gəlinlərindən intiqam almaq üçün oğullarını onlara qarşı çevirirlər. Oğlu gəlini qınadığında, alçaltdığında və ya hətta döydüyü zaman qaynana intiqam aldığını hiss edir[11].

İnternet informasiya və telekomunikasiya şəbəkəsi vasitəsilə interaktiv olaraq keçirilən sosioloji sorğuda ailədə gərginliyin artmasında valideynlərin yersiz müdaxiləsi ilə bağlı əsas səbəblər olaraq aşağıdakılar göstərilmişdir: Respondentlərin 54%-i münasibətlərin gərginləşməsi, 22%-i boşanma, 9%-i heç bir təsirə malik olmadığı, 13%-i münasibətlərin yaxşılaşması, 2%-i cavab verməkdə çətinlik çəkməsi ilə bağlı cavab vermişdir. Deməli, gənc nəsil valideynlərin müdaxiləsini birmənalı olaraq müsbət qarşılamır.

Qeyd edilən faktlara əsasən belə nəticəyə gəlmək olar ki, müasir ailənin öyrənilməsi ilə məşğul olan bütün mütəxəssislər ailə münasibətlərində baş verən dəyişiklikləri və böhran proseslərini qeyd edirlər. Yalnız bəziləri ailənin dağılacağını proqnozlaşdırır, bəziləri isə modernləşdirilmiş formada qalacağına inanır.

Hazırki dövrdə Azərbaycanda ailə problemlərinin həllində dövlətin ailə siyasəti daha əhəmiyyətlidir. Ailə siyasətinin əsas xüsusiyyəti birbaşa deyil, dolayı olaraq, norma və dəyərlər sisteminin formalaşdırması yolu ilə ailə institutunun fəaliyyətinə təsir göstərməkdir. Ailə siyasəti tədbirləri həm ailə həyat tərzi ehtiyaclarının formalaşmasına, həm də ailə həyatının xüsusiyyətlərini müəyyən edən ailə dəyərlərinin əhəmiyyətinə və onların həyata keçirilməsi üçün şərait yaradılmasına təsir göstərir.Ailə institutunun gücləndirilməsinə yönələn tədbirlər hərtərəfli olmalıdır və yalnız iqtisadi dəstək tədbirlərini əhatə etməməlidir.Effektiv bir nəticə əldə etmək üçün ailə siyasətinin təşkilati və ideoloji, informasiya siyasəti və media, mənzil və şəhərsalma siyasəti, səhiyyə, təhsil, sosial-iqtisadi şəraitin yaxşılaşdırılması və yaşayış səviyyəsinin yüksəldilməsi sahələrində həyata keçirilməlidir.Həyata keçirilən tədbirlərin əsas istiqaməti ailənin nüfuzunu və ailə həyat tərzinin yaxşılaşdırılmasına yönəldilməlidir.

Ədəbiyyat

1) "Ömrün uğurlu bünövrəsi". Bakı, "JEKO-Print" 2020, s.620

2) https://apa.az/az/sosial_xeberler/2019-cu ilin 9 ayinda qeydə alinan nikah və bosanmalarin sayi açiqlanib

3)Правильная ссылка на статью: Сулейманова С.С., Подольский А.Д. — Психологические проблемы современной семьи // Психолог. – 2014. – № 3. – С. 60 - 127. DOI: 10.7256/2306-0425.2014.3.12542URL:https://nbpublish.com/libary_read_article.php?id=12542

4)www.stat.gov.az2019–cu ildə məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərin cins bölgüsü.

5) GarnerJ., Fagan J.,&Maxwell C.(1995).Publishedfindingsfromthe Spouse Assault Replication Program: A critical review.Journal of Quantitative Criminology, 11, 3-28

6) JAMES A.L. ve WİLSON K. (2002).Couples, Conflict and Change, New York: Tavistock Publications

7)https://modern.az/ Azərbaycanda boşanan uşaqsız ailələrin sayı açıqlanıb

8)John Travis, "Making the Cut: CRISPR Genome-Editing Technology Shows Its Power," Science, vol. 350, no. 6267,December 2015, p. 1456.

9)https://www.stat.gov.az/1995-2019 illər ərzində erkən nigaha daxil olan şəxslərin boşanma statistikası

10)https://sante.lefigaro.fr/actualite/2013/09/06/mariages consanguins sont risques pour descendants

11) Pr. IoanVArgatu,"Petreptelesuiriicătrecer", ediţiaa2a, 2007,pg.287-299

РЕЗЮМЕ

В статье обсуждаются исследования по оценке текущей ситуации в семье в Азербайджане (разводы, конфликты и насилие, бесплодие, изменение ролей женщин и мужчин, вмешательство родителей). Подчеркивается важность всестороннего анализа происходящих процессов, оценки образа жизни людей и систем ценностей. Анализируются статистические данные по каждой из проблем в семье. Автор вносит предложения по реализации семейной политики, направленной на формирование потребностей в семейной жизни, повышение значимости семейных ценностей.

SUMMARY

The article discusses research to assess the current situation in the family in Azerbaijan (divorce, conflict and violence, infertility, changing roles of women and men, parental intervention). The importance of a comprehensive analysis of the ongoing processes, an assessment of people's lifestyles and value systems is emphasized. Statistics on each of the problems in the family are analyzed.The author makes proposals on the implementation of family policy aimed at the formation of needs in family life, increasing the importance of family values.

Məmmədli Murad Xalid oğlu
ADPU, Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş
Elmi rəhbər: dos. Haqverdiyev Telman Şaban oğlu

QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRƏ GÖSTƏRİLƏN DÖVLƏT QAYĞISI

Açar sözlər: *qaçqın, məcburi köçkün, dövlət qayğısı, tədbirlər*

Ключевые слова: *беженец, внутренне перемещенное лицо, государственная забота, меры*

Key words: *refugee, internally displaced person, government care, measures*

Azərbaycanın zəngin təbii sərvətləri, coğrafi və geostrateji mövqeyi regionda maraqları olan qüvvələrin bu ərazilərə göz dikməsinə və fürsət düşdükcə isə öz bədnam siyasətlərini

həyata keçirmələrinə səbəb olmuşdur. Bu baxımdan, XX əsr Azərbaycan tarixinin ən faciəli səhifəsidir. 1905, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə milyonlarla azərbaycanlılara divan tutulmuş, öz yurdlarından didərgin salınmışdır.

1991-1993 illərdə erməni vandalları Azərbaycan xalqına qarşı soyqırım törətmiş, dinc əhaliyə qarşı divan tutmuş, qadınlara, qocalara və hətta südəmər körpə uşaqlara belə acımadan qətliam törətmişdilər. 26 fevral 1992-ci ildə Xocalı soyqırımı zamanı 7 min nəfər əhalisi olan şəhərdə 613 nəfər, o cümlədən 63 uşaq, 70 nəfər yaşlı adam vəhşicəsinə qətlə yetirilmiş, 1000 nəfərdən çox adam itkin düşmüş, 2000 nəfər yaralanmış, 1000 nəfər ömürlük şikəst olmuş, 56 nəfər diri-diri yandırılmış, dəriləri soyulmuş, gözləri çıxarılmış, 1275 nəfər isə əsir götürülmüş və ağır işgəncələrə məruz qalmışdır.

Ulu öndər Heydər Əliyevin hakimiyyətinin ilk illərində dövlətimizin qarşısında duran və həll edilməsi vacib olan məsələlərdən biri də yurdlarından didərgin salınmış bir milyon nəfərədək soydaşımızın üzləşdiyi sosial, mənəvi və psixoloji problemlər idi. Tez bir zamanda, dövlət qayğısı təmin olundu, onların qarşılaşdığı problemlər tədricən öz həllini tapmağa başladı. Zərər çəkmiş vətəndaşlarımızın ah səsi dünya ictimaiyyətinə çatdırıldı. Ulu öndər, müxtəlif ölkələrin dövlət başçıları, rəsmi şəxsləri ilə keçirilən çoxsaylı görüşlərində, beynəlxalq və yerli qurumlarda etdiyi çıxışlarında mütləq qaçqın və məcburi köçkünlər məsələsinə toxunur, bunu ölkədə bir nömrəli problem adlandırırdı. Görülən işlər nəticəsində, 1993-2004-cü illərdə müxtəlif dövlətlər, beynəlxalq humanitar və inkşaf təşkilatları, maliyyə-iqtisadi qurumlar tərəfindən qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması və problemlərinin həll edilməsi məqsədilə müxtəlif layihələr üzrə 640 milyon ABŞ dollarından çox həcmdə humanitar yardım göstərilmişdi. Ulu öndər Heydər Əliyevin 1997-ci ildə İtaliyaya səfəri zamanı əldə olunmuş razıılığa əsasən İtaliyanın ENİ şirkəti tərəfindən "Azərbaycanda yurdlarından didərgin düşmüş şəxslər və məcburi köçkünlər " layihəsi çərçivəsində 2.2 milyon ABŞ dolları həcmində ayrılmış qrant vəsaiti hesabına 1999-cu ilin noyabr ayında Azərbaycan hökuməti, "ACİP Azərbaycan " Ortaq Şirkəti, İtaliyanın ENİ şirkəti və BMT QAK arasında imzalanmış üçtərəfli müqaviləyə əsasən məcburi köçkünlər üçün Xanlar rayonunda 234 ailə üçün 253 ev və sosial obyektlər, Beyləqan rayonunda 110 ailə üçün 124 ev və sosial obyektlər inşa edildi, Ağcabədi rayonu ərazisində Laçın qış yataqlarında 35 obada 5600 nəfər üçün su xətləri çəkildi.1999-cu ildə ümumilli liderin BMT-nin "Ümumdünya Ərzaq Proqramı" təşkilatının baş qərargahına müraciətinə əsasən həmin təşkilatın Azərbaycanda fəaliyyət müddəti müstəsna hal kimi 2005-ci ilin sonuna qədər uzadılmışdı. Ümumilli lider, qaçqın vəməcburi köçkünlərin problemlərinin həll edilməsi üçün hüquqi bazanın yaradılmasına xüsusilə diqqət ayırmışdır. Ölkədə olan qaçqınların, məcburi köçkünlərin, "qaçqın" statusu almaq niyyətində olan şəxslərin sosial problemlərinin operativ həlli və vahid mərkəzdən idarə olunması məqsədilə 1998-ci il noyabr ayında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsi təsis edilmişdir. 1998-ci il 17sentyabr tarixində, Azərbaycan Respublikasının Prezidentinin 895 saylı sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin həlli üzrə" Dövlət Proqramı qəbul edilmişdir. Bundan əlavə, 1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", 1999-cu ildə " Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlar qəbul edilmişdir. 1999-cu il dekabr ayının 6-da Məcburi Köçkünlərin Sosial İnkşaf Fondu təşkil olunmuşdu. Bundan savayı, 2000-ci il13 noyabr 419 nömrəli Fərman ilə "Qaçqın statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası", 2001-ci il 26 dekabr 613 nömrəli Fərmana uyğun olaraq məcburi köçkünlərin kommunal xərclərdən azad olması haqqında, 2003-cü il 4 avqust tarixli 1308 nömrəli sərəncamına əsasən isə qəbul edilmiş, dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlərin təhsil haqqından azad olunması haqqındakı qanunlar Ümummilli liderin bu sahədə göstərdiyi qayğı və diqqətin nəticəsidir. Ümumilikdə, Heydər Əliyevin hakimiyyəti

illərində bu sahədə 43 fərman və sərəncam imzalandı, Milli Məclis 23 qanun, Nazirlər Kabineti isə 192 qərar və sərəncam qəbul etdi.

Əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulan, neft strategiyası öz bəhrəsini verməyə başlayan andan, iqtisadi imkanlar yarandıqca dövlət tərəfindən qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı geniş tədbirlər həyata keçirilməyə başlandı. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 avqust tarixli 562 nömrəli fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış 16.6 milyon AZN həcmində ilk vəsait hesabına ermənilərin apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli istiqamətində bir sıra işlər görülmüşdür. Goranboy rayonun Aşağı Ağcakənd qəsəbəsində 364 evdən, Şəmkir rayonunda 126 evdən, Yevlax şəhərində 65 evdən, Abşeron rayonu Mehdiabad qəsəbəsində 108 evdən, Sabunçu rayonu Ramana qəsəbəsində 160 evdən ibarət qəsəbələr salınmış, Naxçıvan MR-da 4 mərtəbəli 48 mənzilli yaşayış binası və 153 ədəd fərdi ev, Sumqayıt şəhərində 2 mərtəbəli 14 mənzilli yaşayış binası və 2 fərdi ev, Ağstafa rayonunda 17 fərdi ev, İsmayıllı rayonunda 45 fərdi ev, Bakı şəhərində 3, Oğuz rayonunda 3, Şəki şəhərində 2, Gədəbəy rayonunda isə 1 fərdi ev tikilmiş və qaçqınların ixtiyarına verilmişdir. 1995-ci ildən respublikanın 18 rayonunda tikintisi yarımçıq qalmış 319 ev tamamlanaraq qaçqınların istifadəsinə verilmişdir. "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 7 sentyabr tarixli 577 nömrəli Fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış 16.8 mln AZN məbləğində vəsait hesabına Ağdam rayonun Quzanlı ərazisində 100 ailəlik, Xındırıstanda 100 ailəlik, Ayaq-Qərvənddə və Ergidə 150 ailəlik 4 qəsəbə salınmış, həmçinin 135 yerlik 2 məktəb binası, 2 tibb məntəqəsi, 4 hamam, 14 yerlik 4 uşaq bağçası, 100 yerlik 2 klub-icma mərkəzi habelə elektrik enerjisi təchizatı xəttləri və qəsəbdaxili yollar çəkilmişdir. Füzuli rayonunun Haramı ərazisində, hər biri 200 ailəlik 4 qəsəbə salınmış, 135 şagirdlik 4 məktəb binası, 4 tibb məntəqəsi, 4 hamam, 14 yerlik 2 uşaq bağçası, 4 poçt binası, 100 yerlik 2 klub-icma mərkəzi tikilmişdir. Ölkə prezidentinin 2002-ci 13 may tarixli 700 nömrəli Fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış, 38.4 mln AZN vəsait hesabına Biləsuvar rayonu ərazisində 2560 ailəlik 6 yaşayış qəsəbəsi salınmışdır. Bu qəsəbələrdə 198 yerlik 6 məktəb binası, 5 tibb məntəqəsi, 50 çarpayılıq xəstəxana, 50 yerlik 6 uşaq baxçası, 6 rabitə binası, 2 yanğınsöndürmə postu, 6 hamam və 6 klub-icma mərkəzi inşa edilmiş, içməli, suvarma məqsədli su, elektrik enerjisi təchizatı xətləri, qəsəbədaxili və qəsəbəxarici yollar çəkilmişdir. Fərmanların icrası ilə əlaqədar 2560 ailə Biləsuvar rayonunda, 1221 ailə isə Füzuli rayonunun yeni salınan qəsəbələrinə köçürülmüşdür. Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin may-iyun aylarında ləğv edilmişdir. Yeni salınmış qəsəbələrdə 35 min nəfərdən çox qaçqın, məcburi köçkün və yerli əhali işlə təmin olunmuş, 2002-ci il 19 noyabr tarixli 182 nöbumrəli qərarı ilə müəyyən miqdarda əvəzsiz maliyyə yardımı verilmişdir.

Ulu öndərin uğurlu siyasətini, Prezident İlham Əliyev uğurla davam etdirmiş və hal-hazırda da bu proses davam etməkdədir. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə, Prezident İlham Əliyev tərəfindən məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə" Dövlət Proqramı qəbul edilmiş və bu proqrama 2007-ci il 31 oktyabr tarixli və 2011-ci il 21 fevral tarixli sərəncamlarla 2 əlavə olunmuş və təsdiq olunmuşdur. Ulu öndər kimi, Prezident İlham Əliyev də qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinin ölkədəki ən prioritet məsələlərdən biri kimi müəyyənləşdirmişdir. Azərbaycan 26 aprel 2012-ci ildə beynəlxalq nüfuzlu təşkilat olan – BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə tamhüquqlu üzv seçilmiş-

dir. 2018-ci ilə qədər olan müddətdə, qaçqın və məcburi köçkünlər üçün, respublikanın 30-dan çox şəhər və rayonunda, 102 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi tikilmişdir ki, bu sayın 95%-i İlham Əliyevin idarəçilik dövrünə təsadüf edir. Bu yaşayış komplekslərində 156 məktəb, 6 musiqi və 1 incəsənət məktəbi, 1 mədəniyyət sarayı, 62 mədəniyyət və 63 səhiyyə müəssisəsi, 65 uşaq baxçası, 2 olimpiya idman kompleksi tikilmişdir. Eyni zamanda, 1.8 min kilometr elektrik xətti, 775 kilometr asfalt yol, 985 kilometr su xətti, 78 kilometr rabitə xətti, 665 kilometr qaz xətti çəkilmişdir. 2017-ci ildə Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi ərazisində 50 məcburi köçkün ailəsi və Tərtər rayonunun işğaldan azad edilmiş, Şıxarx qəsəbəsində 1170 məcburi köçkün ailəsi üçün hündürmərtəbəli binalardan ibarət yaşayış komplekslərinin açılışı olmuşdur. 2018-ci il may ayının 24-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışı olmuş və cənab prezident İlham Əliyev burada iştirak etmişdir. Bu yaşayış kompleksinin bir növü davam olaraq, 2019-cu il 8 oktyabrda "Qobu Park-2" və 2020-ci il 28 may tarixində, "Qobu Park-3" yaşayış komplekslərinin açılış mərasimi baş tutmuşdur. Hər iki açılışda, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişdilər.Bundan savayı,2018-ci ildə Abşeron rayonu və Sumqayıt şəhəri ərazisində, 2019-cu ildə isə Bakının Kürdəxanı və Pirallahı rayonlarında məcburi köçkün ailələri üçün yaşayış kompleksləri istifadəyə verilmişdir.

Ümumilikdə, nəzər salsaq görərik ki, 2003-2018-ci illərdə müvafiq sahə ilə bağlı olaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən 72 fərman və sərəncam imzalanmışdır. Nazirlər Kabineti tərəfindən isə 220 qərar və sərəncam verilmiş, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən isə 11 qanun qəbul edilmişdir. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün 1993-2018 illəri arasında 7.1 milyard manat vəsait sərf edilmişdir. 2018-ci ilin axırınadək, 58.223 ailənin və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılmışdır ki, bu saydan 272 min nəfər yəni 93% son 15 ilin payına düşür. Son illərin statistikasına uyğun olaraq, məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizə qədər azaldılmışdır. 2019-cu ilin əvvəlinə olan statistik məlumata görə, əmək qabiliyyətli məcburi köçkünlər 366.9 min nəfər təşkil edir ki, bunlardan 198 min nəfəri büdcə təşkilatlarında və digər sahələrdə daimi işlərlə, 134 min nəfəri isə mövsümi işlərlə təmin olunmuşdur.

Artıq sevindirici haldır ki, 44 günlük müharibənin yekununda, müzəffər Azərbaycan ordusu torpaqlarımızı düşmən işğalından azad etdi. Ölkə başçısı cənab İlham Əliyevin atdığı qətiyyətli addımlar, yürütdüyü müdrik siyasəti və xalqımızın birliyi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi. 10 noyabr Azərbaycan tarixinə qızıl hərflərlə daxil oldu. Azərbaycan ordusu bütün dünyaya göstərdi ki, dövlətimiz nə qədər güclü, ordumuz nə qədər rəşadətlidir. Düşmənin ağ bayraq qaldırması ilə işğalda olan ərazilər öz sahiblərinə qayıtdı. Düşmən təslim olana qədər, 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji məntəqələr işğaldan azad edilmişdisə, Ermənistanın məğlubiyyətini etiraf etməsindən sonra isə ümumilikdə Dağlıq Qarabağ münaqişəsi həll olundu və ərazi bütövlüyümüz bərpa olundu. 30 ilə yaxındır ki, Vətən, yurd həsrəti ilə alışıb yanan həmvətənlərimiz təbii ki, bu xəbərə hər kəsdən daha çox sevindilər və doğma torpaqlara qayıdacaqları günü səbirsizliklə gözlədiklərini bildirdilər. Artıq işğaldan azad olunmuş ərazilərimizə işğal dövründə dəymiş ziyanın qiymətləndirilməsi, zəruri infrastruktur layihələrinin həyata keçirilməsi istiqamətində mühüm işlər aparılır. Hal-hazırda, ərazilərin minalardan təmizlənməsi prosesi davam edir. Yaşayış yerlərinin bərpası zamanı "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasına üstünlük verilməsi nəzərdə tutulur. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı, Böyük Qayıdışın həyata keçirilməsi üçün Strateji Fəaliyyət Planı və Tədbirlər planı hazırlanmışdır.

Ədəbiyyat

1). idp.gov.az;

2). president.az;
3). e-qanun.az;
4). riib.az

XÜLASƏ

1988-1993-cü illər torpaqlarımızın 20%-nin işğalı və 1000000-a yaxın azərbaycanlının öz doğma yurdlarından qovularaq, qaçqın və məcburi köçkünə çevrilmələri ilə yadda qaldı. Ümumilli lider, Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra, qaçqın və məcburi köçkünlərə dövlət qayğısı ən prioritet məsələlərdən birinə çevrildi. Bu siyasət, cənab İlham Əliyev tərəfindən, davam etdirildi və hal-hazırda davam edir. 27 ilə yaxın müddət ərzində, qaçqın və məcburi köçkünlərin tam şəkildə sosial müdaəfiəsi təmin olunmuş və onların həyat səviyyəsinin yüksəldilməsi üçün dövlətimiz tərəfindən müxtəlif tədbirlər həyata keçirilmişdir.

РЕЗЮМЕ

1988-1993 годы были отмечены оккупацией 20% наших земель и изгнанием около 1 000 000 азербайджанцев с их родных земель в качестве беженцев и вынужденных переселенцев. После возвращения к власти общенационального лидера Гейдара Алиева забота государства о беженцах и вынужденных переселенцах стала одним из главных приоритетов. Эта политика была продолжена господином Ильхамом Алиевым и продолжается до сих пор. В течение примерно 27 лет беженцам и вынужденным пере-селенцам была обеспечена полная социальная защита, и государством были приняты различные меры для повышения уровня их жизни.

SUMMARY

The years 1988-1993 were marked by the occupation of 20% of our lands and the expulsion of about 1,000,000 Azerbaijanis from their native lands as refugees and internally displaced persons. After the return of national leader Heydar Aliyev to power, state care for refugees and internally displaced persons became one of the top priorities. This policy was continued by Mr. Ilham Aliyev and is still ongoing. For about 27 years, refugees and IDPs have been fully provided with social protection and various measures have been taken by the state to improve their living standards.

Məmmədli Murad Xalid oğlu
ADPU, Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş
Elmi rəhbər: dos. Haqverdiyev Telman Şaban oğlu

QAÇQINLIQ XXI ƏSRİN ƏN MÜHÜM SOSİAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

Açar sözlər: *qaçqın, köç, sığınma,insanlar, ölkə, ölkələr, problemlər*
Ключевые слова: *беженеч, миграция, убежище, люди, страна,страны, проблемы*
Key words: *refugee, migration, asylum, people, country, countries, problems*

Tarix boyunca, insanlar müxtəlif səbəblərdən dolayı yaşadıqları əraziləri tərk etməyə məcbur olmuş, köç etmişlər. Köç anlayışı geniş bir anlayışdır və bütün cəmiyyətlərdə rast gəlinən sosioloji – tarixi hadisədir. Köçmə prosesi müxtəlif səbəbləri özündə birləşdirir. Tarixin müxtəlif dövrlərində insanlar ölkədaxili siyasi və ya iqtisadi böhran, ölkədaxili və ölkələrarası müharibələr, təqiblər, irqi, dini və digər ayrı seçkiliklər həmçinin təbii fəlakətlər səbəbindən yaşadıqları əraziləri tərk etmişlər və bu proses müasir dövrdə də davam etməkdədir.Avropadan Amerikaya köçən insanları, I və II dünya müharibələrindən sonra demək olar ki, bütün regionlarda baş verən böyük köç dalğalarını, İran inqilabı, 1979-cu ildə Əfqanıstandan, Körfəz müharibəsindən, Sudanın Darfur ərazisində baş verən hadisələrdən dolayı ölkələrini tərk edib, köç etmiş əhali kütlələrini misal kimi göstərmək olar. XXI əsrdə köçün

müxtəlif formalarına rast gəlinsədə, xüsusən 2 faktorun gətirdiyi miqyas daha böyükdür: siyasi və iqtisadi. İqtisadi səbəblərəyaşayış səviyyəsinin aşağı olması,iqtisadi krizislər, işsizlik, yoxsulluq,aclıq həmçinin daha yaxşı yaşam arzusu, keyfiyyətli ali təhsil və səhiyyə imkanlarından yararlanmaq istəyi və.s daxildir ki, bu da insanların kəndlərdən iri şəhərlərə və yaşadıqları ölkəni tərk edərək daha inkşaf etmiş ölkələrə köç etməsinə zəmin yaradır. Ölkələr arası müharibələr, vətəndaş müharibələri, insanların yaşadıqları ölkələrdə mövcud vəziyyətin pisləşməsi, irqi, dini, etnik ayrı seçkiliklər, sıxışdırmalar isə siyasi faktorlara aiddir. Siyasi səbəblər məcburi köçü şərtləndirir və yaradır. Məcburi köç insanların öz iradələrindən kənar, zorla və ya könülsüz bir şəkildə yaşadıqları yerdən ayrılması və başqa ölkələrin ərazisində məskunlaşması yaxud eyni ölkə daxilində yerdəyişməsidir.

Müasir dövrün ən mühüm və ağır nəticələr doğuran məcburi köç proseslərindən biri qaçqınlıqdır. Qaçqınlar – irqi mənsubiyyətinə, dini etiqadına, vətəndaşlığına, müəyyən sosial qrupa mənsub olmasına və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaqdan əsaslı qorxduğu üçün vətəndaşı olduğu ölkədən kənarda qalan və həmin qorxu üzündən bu ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən və yaxud müəyyən vətəndaşlığı olmadığı halda öz daimi yaşadığı ölkəsindən kənarda qalan, həmin qorxu üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.Statistikaya görə,dünyada hər 284 nəfərdən 1-i qaçqın hesab olunur. Dünyanın demək olar ki, əksər regionlarında hal-hazırda bu problemi aktual hesab etmək olar.Müasir dövrdə, siyasi çaxnaşmalar, münaqişələr və buna bağlı olaraq yaranan qaçqın axınlarının şahidi oluruq. XXI əsrdə Suriya problemi, İŞİD, Boko Haram terrorçu təşkilatlarının törətdiyi qanlı hadisələr, Şərqi Ukraynada baş verən Donnbass müharibəsi və onun nəticələri, Myanmarda Arakan ərazisində müsəlman təbəqəyə qarşı olan dini ayrı-seçkilik, habelə Asiya və Afrikanın bəzi ərazilərində olan vətəndaş müharibələri, siyasi toqquşmalar dünyada qaçqın nüfuzunun artmasına səbəb olur.Qaçqınların beynəlxalq hüquqları 1951-ci il Konvensiyası və onun 1967-ci il tarixli Protokolu adlı beynəlxalq sənədlərlə qorunur və bu sənədlərə uyğun olaraq qaçqınların beynəlxalq himayəsi təşkil edilir. BMT Baş Assambleyası 4 dekabr 2000-ci ildə iyunun 20-nin Ümumdünya Qaçqınlar Günü kimi qeyd edilməsinə qərar verib. BMT-nin qaçqınlar üzrə təşkilatının (UNHCR) verdiyi məlumatlara əsasən, hazırda dünyada 26 milyon qaçqın və 45,7 milyon məcburi köçkün olmaq üzrə 79.5 miyon insan öz doğma ərazilərindən kənarda məskunlaşmışdır. Xüsusilə, Suriya, Əfqanıstan, Burundi, KDR, Ruanda, Somali, Cənubi Sudan vətəndaşları qaçqın olaraq digər dövlətlərin ərazilərində yerləşmişlər. Dünya miqyasında qaçqınlara ev sahibliyi edən ölkələrdən danışsaq görərik ki, qardaş Turkiyə bu siyahıda ilk yeri tutur. 3.6 miyon Suriyalı qaçqın Türkiyənin müxtəlif ərazilərində məskunlaşdırılmışdır. Əksəriyyəti əfqanlardan ibarət olan 1.4 milyon qaçqın Pakistanda, təxminən 1.1 milyon qaçqın Almaniya və Sudanda, Afrikanın müxtəlif ölkələrindən mövcud siyasi-hərbi rejimlə əlaqədar olaraq isə 1.3 milyon qaçqın Uqanda da məskunlaşmışdır. Qaçqınlıq, hal-hazırda ən aktual siyasi-sosial problemlərdən biri hesab olunur.Qaçqınlıq hər iki tərəf üçün müəyyən mənada çətinlik yaradır. Həmçinin, say hər gün artmaqdadır. Qaçqınların köçü zamanı bir tərəf, öz doğma yurd-yuvasından didərgin düşərək yad bir mühit ayaqlaşmağa çalışarkən, digər tərəf isə himayə prosesini həyata keçirir. Bu proses hər iki tərəfin üzərinə böyük məsuliyyətlər və tələblər qoyur. Himayəyə götürən, dövlətlər çox böyük iqtisadi-sosial çətinliklərlə üzləşirlər və bu baxımdan sosial müdafiəni təmin etmək heç də asan başa gəlmir. Qaqçqınlar isə daha böyük çətinliklərlə üz-üzə qalırlar: yad mühit, yerli xalqa və yeni ölkəyə öyrəşmək, mədəniyyət şoku, işsizlik, uşaq və qadın istismarı, ölüm-itim halları, xəstəliklər və.s.Məhz bütün bu səbəblərdən, hazırda, dövlətlər və böyük beynəlxalq təşkilatlar bu halların çəkisini azaltmaq üçün birlikdə səy göstərirlər. Hazırda, qaçqınların sosial müdafiəsinin təmin olunması və onların hüquqlarının qorunması himayəçi dövlətlərin əsas prioritet məsələlərindəndir. Ancaq, ən böyük məqsəd qaçqınlıq sayının azaldılması və onların öz yurd-yuvalarına qayıdışının təmin olunmasıdır. Qaçqınlıq, müasir dövrün ən mühüm sosial problemlərindən biridir. Dünya əhalisinin 26

milyona yaxın hissəsi, qaçqınlardan ibarətdir. Araşdırmalara əsasən, qaçqınların, yaşayış, geyim və qidalanma kimi əsas ehtiyaclarını təmin etmək, iş ilə təmin olunmaq habelə səhiyyə, təhsil kimi vacib haqqlardan yararlanmaq və psixo-sosial olaraq sağlam olmaq, çətin vəziyyətlərdən canlarını qurtardıqları üçün qazandıqları travmaların reablitasiyası kimi ehtiyacları vardır.

XXI əsrin hələki ən böyük köç prosesi isə 15 mart 2011-ci ildə baş verən və o zamandan bu yana davam edən vətəndaş müharibəsinin doğurduğu fəsadlar nəticəsində öz ölkəsini tərk edərək, Suriyaya qonşu olan ölkələrə sığınan insanlar ilə bağlıdır. Həmin ay, 5 min suriyalı Livana köç edərək bu axının əsasını qoydu. İlk suriyalı qaçqın düşərgəsi isə 2 ay sonra 2011-ci il may ayında Türkiyə ərazisində yaradıldı. 2019-cu il avqust ayı etibarilə Türkiyədə yaşayan qaçqın sayısı 3.634.870- nəfəri aşmışdır. Qeyd edək ki, Türkiyə həmçinin başda Əfqanistan və İraq olmaq üzrə digər qaçqın axınlarına məruz qalmışdır. Bu baxımdan Türkiyənin rəsmi orqanı olan Türkiye Göç İdare Genel Müdürlüğü verdiyi statistikaya görə hal-hazırda sığınmada olan vətəndaşların ümumi sayı təxminən 4.122.179- nəfərdir. Türkiyə əhalisinin ümumi nüfuzunun 5.02%-ni keçmiş olan bu sayı, Türkiyənin suriyalılara yönəlmiş "açıq qapı" siyasətindən həmçinin bəzi digər xalqlarda yararlanmaqdadır və bu da qaçqın sayısın günbəgün artırır. Hazırda, 102.000 Suriyalı Türkiyə vətəndaşlığını qəbul etmişdir. Türkiyə dövləti, ərazilərinə sığınan suriyalıların həyat şəraitinin yaxşılaşdırılması, onların rifah hallarının artırılması yolunda müsbət addımlar atmışdır. Suriyalıların gəldiyi təxminən 10 ilə yaxın müddətdə ümumi xərcləmənin 40 miyon dollar olduğu qeyd olunmalıdır. Onların səhiyyə, təhsil, maliyyə və.s kimi ehtiyaclarının qarşılanması yolunda müxtəlif tədbirlər görülür. Suriyalıların həyat şəraitinin yaxşılaşdırılması əlaqədar olaraq, 2016-2019-cu illər arasında Avropa Birliyi tərəfindən ayrılan 998 milyon avroluq maliyyə sayəsində yaradılan SUY proqramı Türkiyədə ümumilikdə 1.606.404 qaçqının rifah halının yüksəldilməsinə sərf olunmuşdur. Bu dəstək proqamı qaçqınların qida, sığınacaq, geyim kimi əsas ehtiyaclarını qarşılamışdır. İnsanlara yardım möhtaclıq vəziyyəti müəyyənləşdirildikdən sonra " KIZIL-AYKART" vasitəsilə verilməkdədir. Adam başına düşən gəlir isə 120 Tl-dir. Təbii ki, bu miqdar suriyalı qaçqınları tam olaraq qane edə bilməz. Bu baxımdan suriyalıların əksər hissəsi işləyirlər. Xüsusilə, düşərgərgədən kənar suriyalılar üçün dövlət tərəfindən maliyə dəstəyinin təmin olunması ağır proses olduğu üçün onlar daha çox şəhərdən kənar ərazilərdə müxtəlif yerlərdə çalışmağa başlamışdır. Lakin, sonradan say 400.000 – i keçdiyi üçün Türkiyə dövləti bu məsələyə qanunauyğunluq gətirmiş, 15 fevral 2016-cı ildən etibarən Türkiyədə yaşayan Müvəqqəti Qoruma Altındakı suriyalılara iş icazəsi rəsmi olaraq vermişdir. Bu yeniləməyə görə, ən azı 6 ay müddətində Türkiyədə qeydiyyatda olan suriyalılar, hər hansı bir iş yerində 1/10 say nisbətində, ən az minimum əmək haqqı ilə, və həmçinin işəgötürənlərin tələbi ilə çalışma haqqında sahib oldular.

Avropada, bu məsələ hətta kriz səviyyəsinə belə yüksəlmişdi. Suriya, İraq, Əfqanıstan, Pakistan, Serbiya, Kosova, Albaniya və Afrika ölkələrindən xeyli sayda qaçqın və ya sığınacaq axtaran insanlar Avropanın öndə gedən ölkələrinin ərazilərinə sığınmışlar və bu kriz 2015-ci ildə yaranmış və 2019-cu il martında Avropa Komissiyası bu krizin sona çatdığını elan etmişdir. Qeyri-Avropa ölkələrindən gələn qaçqınlar əsasən, sığınma və iqtisadi səbəblərdən dolayı köç etmişdirlər. Afrika və Orta Şərq ölkələrində baş verən demoqrafik artım və siyasi-iqtisadi krizlər insanları bu prosesə vadar edir. United Nations High Commissioner for Refugees hesabatına görə, 2015-cil yanvar və 2016-cı il mart ayları arasındakı zaman periodu boyunca 1 milyon insan Avropaya giriş etmişdir. Qaçqınların ümumi sayının 46%-ni suriyalılar təşkil edərkən, bu cəhətdən sonrakı yerləri əfqanlar (20.9%) və iraqlılar (9.4%) tutmaqdadır.

II dünya müharibəsindən bu yana ən böyük " qaçqın krizi" –nin yaşandığı son illərdə öz ölkələrindəki siyasi və iqtisadi krizlər səbəbilə həyat səviyyəsinin daha yaxşı olduğu ölkələrə axın getdikcə artmaqdadır. Qaçqınların böyük bir hissəsi Avropaya üz tutduğundan, son illərdə Avropa ölkələri öz dövlət sərhədlərinin müdafiəsini daha da sərtləşdirərək, köç prose-

sini yumuşaltmaq istəyirlər. Avropa ölkələri arasında ən çox qaçqın qonaq edən ölkə şübhəsiz ki, Almaniyadır. Almaniya 2015-ci ildə başlatmış olduğu "qaçqın siyasəti" ilə 1.410.000-dən çox insana ev sahibliyi etmişdir. Almaniyanı, Fransa (402.000), İtaliya (355.000), İsveç (328.000), Avstriya (173.000) və Yunanıstan (83.000) izləyir. (2018-ci hesabatına görə).

Almaniyada hər bir qaçqın üçün ayda 354 avro pul ödənilir. Yataqxanalarda yaşayanlara aylıq ən çox 135 avro nəğd və kupon şəklində ödəmələr edilir. Əsasən, müraciətləri qəbul edilən qaçqınlar normal sosial yardımdan yararlana bilirlər.

İtaliyada, sığınacaq müraciəti qəbul edilənə qədər, potensial qaçqınlara ev sahibliyi edilir. Onları qida, geyim və təmizlik ehtiyacları qarşılanır. Qaçqınlar sığınacaq üçün müraciət etdikdən 2 ay sonra, işləyə bilirlər. Dövlət tərəfindən qəbul edilən və işsizlərə ödənilən aylıq məbləğ 75 avrodur. Pul yardımı yataqxana da qalmaq şərti ilə edilir.

İngiltərə də, qaçqın namizədlərin öz yaşadığı yerləri təyin etmək hüququ yoxdur. Dövlətin ayırdığı yerdə qalanlara ayda 170 avro ödənilir.3 yaşınadək uşağı olan analara və hamilə qadınlara ayda əlavə 13 avro təyin olunur. Bununla belə, İngiltərədə qaçqın namizədlərin işləməsinə icazə verilmir. Dövlət səhiyyə xidmətlərindən və dövlət məktəblərindən pulsuz istifadə etmək sərbəstdir.

Fransa hökuməti, 2015-ci ildən bəri, qaçqın namizədlərə ayda 204 avro və ailə üzvü üçün 102 avro əlavə yardım təyin etmişdir. 4 nəfərlik bir ailəyə 408 avro ödənilir. Fransada inflasiya tez-tez yaşandığı üçün, ödənilən müavinət hər il dəyişir. Dövlətin seçdiyi yerdə yaşamayanlara yardım edilmir. Yardım xüsusi bir kredit kartı şəklində edilir. Qaçqın namizədi bank hesabı açmaq məcburiyyətində deyil.

İsveçdə, pul qazana bilən qaçqın namizədi öz yaşayış yerini təşkil edə bilər. Pul qazana bilməyənlər, əyalət yataqxanalarında pulsuz qala bilərlər. Onların bütün ehtiyacları qarşılanır və ayda 70 avro təqaüd alırlar. Uşaq başına 55 avro pul təyin olunmuşdur. Şəxsi evlərdə qalanlar üçün İsveç ayda 225 avro yaşayış yardımı təmin edir. Qaçqın namizəd bu pulla kirayə haqqı xaricindəki bütün xərclərini qarşılaya bilər. Sığınacaq almaq hüququ olan və iş icazəsi olan qaçqınlar isə kirayə haqlarını özləri ödəməlidirlər.

Asiya regionunda Flippin, Suriya, Əfqanıstan, Myanmar, Yəmən və İraqdan olan qaçqınlar çoxluq təşkil edirlər. Əfqanıstan qaçqınları, Pakistan və İrana, suriyalılar əvvəl qeyd etdiyimiz kimi, ABŞ, Avropa ölkələri, Türkiyə və digər Asiya ölkələrinə, Myanmarlılar isə daha çox Banqladeşə sığınmışlar, bununla belə sadalanan qaçqınlar demək olar ki, dünyanın əksər ərazilərinə səpələnmiş vəziyyətdədirlər.

Arakanda 2012-ci ildə buddistlərin müsəlman təbəqəni sıxışdırmağa başlaması nəticəsində, toqqu.malar baş vermiş, minlərcə müsəlman qətlə yetirilmiş, çoxlu sayda insan isə qaçaraq zornan canların qurtara bilmişdilər. 2017-ci ildən sonra Arakandakı zülmdən qaçaraq Banqladeşə sığınanların sayı 900.000-i keçmişdi.Digər Arakan müsəlmanları isə, Hindistan və Pakistana sığındılar.Tayland və Malaziyaya köçmək istəyən, 53 min arakanlının 540-ı isə dənizdə boğulmuşdu. Lakin, sığınan insanlar tezliklə digər problemlərlə üz-üzə qaldılar. Bir müddət sonra Banqladeş hökuməti 7 minə yaxın qaçqını 2017-ci ilə qədər kimsənin yaşamadığı Bhasan Char adasına göndərməyə başladı və bu da beynəlxalq aləmdə hiddətlə qarşılandı. Adada tez-tez baş vermə ehtimalı yüksək olan, sellər və qasırğalar, sıığınanların adada yemək, su, tibb və təhsil kimi xidmətlərdən yararlana bilməmə ehtimalını da artırır. Bundan əlavə, Amnesty İnternationala görə, 130.000 arakanlı müsəlman Sittve şəhəri ətrafında müvəqqəti düşərgələrdə yaşayırlar. Bəzi evlərdə 10 ailənin birlikdə yaşadıqları vurğulanır ki, bu da antisantariyaya, habelə hal-hazırda mövcud olan Covid-19 un qaçqınlar arasında kütləvi şəkildə yayılmasına yol açır. Hindistanda da Covid -19 virusu ilə əlaqədar olaraq, tətbiq olunmuş qadağalar, Yeni Dehli və Cammu Kəşmirdə sığınacaqlarda yaşayan müsəlmanlar üçün aclıq riskini artırırdı.Bu kamplarda 250 yaxın arakanlı ailələr yaşamaqdadır. Nəzarətin güclü olmaması, bu kamplara xüsusilə də "qırmızı bölgə" adlandırılan yerlərə qurumlar tərəfindən qida və dərman vasitələrinin çatdırılmadığını,bu ehtiyaclarını almaq üçün çölə

çıxan müsəlmanların isə qadağalar səbəbindən şiddətlə qarşılandığını xəbər verirlər. Bununla belə, bəzi dövlətlər və beynəlxalq qurumlar öz yardımlarını əsirgəmədilər. Türkiyə 2015-ci ildə, arakanlı müsəlmanlara istiqamətlənən yardım fəaliyyətləri üçün 1 milyon dollar vəsait ayırmışdı. Qızılay, Dini qurumlar və digər türk qeyri-hökümət təşkilatları bu mövzuda xüsusilə rol oynadılar. Bu yardımlar indi də davam etməkdədir. Təzəlikcə, İHH- Türkiyə İnsani Yardım Qurumu, Banqladeşdə Cox's Bazarda çox çətin şərtlərdə yaşayan 45 minə yaxın arakanlı qaçqını qida və qış yardım paketləri ilə təmin etdi. Avropa Birliyi də bu məsələdə səssiz qalmadı. Covid-19 virusunun artdığı bu günlərdə, arakanlı müsəlmanlar üçün 39 milyon pul yardımı edildi ki, əsas məqsəd insanların qida,sığınacaq və tibbi kimi ehtiyaclarının qarşılanmasıdır.

ABŞ-da tarix boyu köç etmək istəyən insanların ən əsas alternativlərindən olmuşdur. Məhz, köç etmiş ingilislər tərəfindən qurulan Amerikada istər siyasi, istər iqtisadi problemlər olsun, fərqli səbəblərdən bura gələn və yaşayan müxtəlif xalqların nümayəndələrinin sayı II Dünya müharibəsindən sonrakı dövrlərdə xeyli artım etmişdir. Təsadüfi deyildir ki, ABŞ dünyada ən çox qaçqına ev sahibliyi edən ölkələrdəndir. Lakin,yaxın zamanlara baxsaq Donald Trump hakimiyyəti dövründə bu məsələdə müəyyən mənada dəyişikliklər baş vermişdir. Trump-ın hakimiyyətinin ilk 4 ayından ölkəyə gələn qaçqınların xüsusilə müsəlman qaçqınların sayında dramatik dərəcədə böyük eniş yaranmışdı. ABŞ tarixində 1980-ci ildən bu tərəfə ilk dəfə bu qədər az əhali ölkəyə qəbul edildi.Ölkə xaricində bu məsələlərlə məşğul olan qurumların sayını azaltdı və ölkə içindəki 50 ofis fəaliyyətin dayandırdı. Hakimiyyətə gələrgəlməz, köhnə prezident Barack Obamanın müəyyənləşdirdiyi kvotanı yarıdan da aza endirərək, 50.000-ə endirdi. 2018-ci ildə, bu say 45.000, 2019-cu ildə isə 30.000-ə endirildi. Statistikalara nəzər yetirsək, görərik ki, Tramp qadağalarıölkəyə qəbul edilən qaçqın sayına da xüsusi təsir göstərmişdir. Əgər, 2016-cı ildə, 100.000, 2017-ci ildə 33.000 qaçqın himayəyə götürülmüşdüsə, 2018-ci ildə bu rəqəm 23.000-ə qədər düşmüşdür. ABŞ-a demək olar ki, hər il dünyanın bütün ölkələrindən böyük axınlar edilir. Lakin, son illərə baxsaq bu baxımdan suriyalılar,iraqlılar, Latın və Orta Amerikası ölkələri xüsusi yer tutmağa başlayıb. ABŞ hökuməti əsasən, işlək və ölkə iqtisadiyyatına qatqı verə biləcək insanlara daha çox önəm verir.

Kanada, hər il çoxlu sayda qaçqına ev sahibliyi edir. İllik, qlobal qaçqın qəbulunun 10%-dən çoxu Kanadaya məxsusdur. Suriya, Latın Amerikası və Afrika ölkələri bu kvotanın böyük hissəsini təşkil edirlər. Rəsmi, Ottava idarəçiliyi, xüsusilə, müharibələrdən zərər görmüş insanları qəbul etməyə müsbət yanaşır. Təsadüfi deyil ki, 2015-ci ildən etibarən Kanadaya suriyalı qaçqınların böyük axını başlamışdır. 2016-cı ildə isə bu say 25.000 çatmışdır. 2018-ci ildə isə bu say 28.000 çatmışdır.

Afrikada, qitə daxilində və ya qitə ilə bağlantılı olaraq, köç koridorları mövcuddur. Vacib koridorlardan biri, Şimali Afrika ölkələri və Fransa, İtaliya, İspaniya arasındadır. Müstəmləkəçilik dövrlərində yaradılan bu dəhlizlər, Əlcəzayir, Tunis və Mərakeşdən, bu ölkələrə köçün əsasını qoymuşdur. İkinci vacib miqrasiya dəhlizi, xüsusilə Misir və Sudandan, Körfəz ölkələrinə doğru olan rotadır. Afrika daxilinə diqqət yetirsək görərik ki, ən əhəmiyyətli dəhliz Burkino-Faso ilə qonşusu Fildişi Sahili arasındadır. Qarşıdurmaların yaratdığı qeyri-stabillik, yoxsulluq, mənfi ekoloji amillər, daha yaxşı şərtlərlə iş axtarma, Afrikadakı köçün əsas səbəbləridir.

Şimali Afrika qitə daxilində ən çox miqrasiya prosesinin yaşandığı region hesab olunur. Gəlir bölgüsündə daxilimünaqişələr, ədalətsizlik, işsizlik və terror hadisələri bu bölgədəki köçün əsas səbəbləridir. Şimali Afrika həmçinin qaçqınlar üçün bir ev hesab olunur. Fələstin, Suriya, Sudan və Somalidən ümumilikdə 491.000 qaçqın məhz bu regionda məskunlaşmışdır. Bölgədəki daxili qarşıdurmalar və zorakılıqlar Şimali Afrikada çətin vəziyyət yaradır. Xüsusilə, Sudan da baş verən qarşıdurmalar və kütləviləşən şiddət halları 2018-ci ildə, 700.000 insanın qaçqına çevrilməsinə və Çad, Cənubi Sudan, Efiyopya kimi ölkələrə sığınmasına səbəb olmuşdur. Bununla belə, böyük qismi Cənubi Sudan, Eritriya və Suriyadan olan 1

milyondan artıq qaçqın, Sudan da məskunlaşmaqdadır. Bu regionda yerləşən digər ölkələrə nəzər salsaq, görərik ki, Misir 2018- ci il statistikasına əsasən, Suriya, Fələstin və digər Afrika ölkələrindən olmaq üzərə, 240.000, Əlcəzair isə 94.000 qaçqını himayəsində saxlayır.

İstər Qərbi Afrika istərsə də Mərkəzi Afrikada siyasi və iqtisadi səbəblər miqrasiyanın əsas səbəbləridir. Afrikanın digər bölgələrində olduğu kimi, Qərbi və Mərkəzi Afrika ölkələri üçün də münaqişələr və siyasi qeyri-stabillik xasdır və həm digər ölkələrdən gələn insanlara ev sahibliyi etmək, həmdə digər ölkələrə istiqamətlənən qaçqın axınının mənbəyi olmaq kimi maraqlı xüsusiyyətlərə sahibdirlər. Misal üçün, Konqo Demokratik Respublikasın göstərə bilərik. Ölkə 2018-ci ilin sonuna olan statistikaya əsasən, yarım milyondan çox qaçqına ev sahibliyi etmişdir, eyni zamanda, 700.000-dən çox konqolu qaçqın isə Uqanda, Ruanda və Burundi kimi ölkələrə pənah aparmışdır. DQR-da, silahlı toqquşmalar və ölkə daxili münaqişələr, burada ən böyük insanlıq krizlərindən birinin meydana gəlməsinə səbəb olmuşdur. Mərkəzi Afrika Respublikasında da vəziyyət demək olar ki, eynidir. 2016-ci ildə yenidən aktivləşən vətəndaş müharibəsi, 2017-2018-ci illərdə pik həddə çatmış, yüz minlərlə insan öz torpaqlarını tərk etməyə məcbur olmuşdur. 2018-ci il, statistikasına əsasən, bu rəqəm 600.000 idi.

Terror təşkilatlarının sərhədyanı hərəkətləri və xüsusilə sərhəd bölgələrində hakimiyyət boşluğundan qaynaqlanan qarışıqlığın yaratdığı problemlər insanların didərgin düşməsinə zəmin yaratmışdır. 2009-cu ildə Nigeryanın şimalındakı Borno əyalətində Boko Haram təşkilatı tərəfindən başlayan terrorçu fəaliyyətlər və bu hadisələrin artması Çad gölü ətrafındakı ərazilərdə böyük təsir yaratmışdır. Nəticədə, Nigeriya, Nigervə Kamerun kimi ölkələrdə insanların böyük bir qismi qaçqın və məcburi köçkünlərə çevrilmişdir.

Afrikalı qaçqınlar, çox çətin problemlərlə qarşı-qarşıyadırlar və həll yolu hələki görünmür. Ailələrin dağılması, köç zamanı baş verən insan itkiləri, aclıq, səfalət, insanların ucuz işçi qüvvəsinə çevrilməsi, irqçilik, yerli xalqların təzyiqi bunlardan bəzilərdir. Beynəlxalq təşkilatlar və böyük dövlətlərin yardımlarına baxmayaraq, problem həll olunmaz səviyyədədir, çünki Afrikada silahlı münaqişələr və terror hadisələri davam etməkdədir və bu da qaçqın sayını günbəgün artırmaqdadır. UNHCR çadırlarda səfalət içində yaşayan insanların bu vəziyyətini düzəltməkdə çətinliklər çəkməkdədir. Bəzi qaçqınlar isə yaşamağa üçün çadır belə tapmırlar. Bu da ölüm, xəstəlik hallarını artırır. Acınacaqlı hal odur ki, Afrikalı qaçqınların sayının demək olar ki, yarısı uşaqlardır (3 milyon) bu da acınacaqlı vəziyyəti daha da kəskinləşdirir.

Qaçqınların qorunması və onların sosial müdafiəsi dövlətlərin ən mühüm öhdəliklərindən biridir. 1951-ci il müqaviləsini imzalamış dövlətlər, öz sərhədləri çərçivəsində bunu etməyə borcludurlar. Qaçqınlıq təbii ki, ən mühüm sosial problemlərdəndir, çünki əvvəla, insanlar öz doğma yurd-yuvalarını tərk edərək, başqa yad bir ərazilərə məskunlaşaraq, digər toplumlarla birlikdə yaşamağa məcbur olurlar. Bundan əlavə, himayəçi dövlətlər öz vətəndaşları olmayan bu insanların sosial müdafiəsini həyata keçirirlər ki, bu da çox çətin bir prosesdir. Zaman-zaman, qaçqınlar yeni daşındığı ərazilərdə irqi, dini, etnik ayrıseçkiliklərlə qarşılaşa bilərlər və ya işsizlik, aşağı yaşayış tərzi onlar üçün çətinliklər yarada bilər. Məhz, bu baxımdan himayəçi dövlətlər qaçqınlarla bağlı Dövlət proqramları qəbul edir və onların sosial müdafiəsini təşkil edərkən, beynəlxalq müqavilələrə əsaslanırlar. Himayəçi dövlətlərə öz büdcəsindən kənar – digər dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən yardımlar da həyata keçirilir.

Ədəbiyyat

1). Zorunlu Göçler ve Doğurduğu Sosyal Travmalar - Adem Solak, Vahap Özpolat;

2) EASO Sığınma Raporu 2020 – Avrupa Birliğinde Sığınma Durumuna İlişkin Yıllık Rapor;

3) Türkiyedeki Suriyeli Mülteciler – Prof.Dr.Murat Erdoğan;

4) amp.dw.com.tr/mültecilere hangi ülke ne kadar yardım yapıyor? Article by Diana Hodali, Astrid Prangen;

5) tr.euronews.com;
6) www. unhcr.org;
7) The Global Refugee Crisis –ITUC Special Briefing G20Summit, Antalya November 2015;
8) Just Immigration in the Americas – Allison B. Wolf;
9) www.theguardian. com;
10) www.bbc.co.uk.

XÜLASƏ

Qaçqınlıq, digər sosial problemlər kimi, sosial işin ən vacib obyektlərindən biridir. Keçmiş dövrlərdən qalma bu problem, indi demək olar ki, dünyanın bütün regionlarında rast gəlinməkdədir. Həm qaçqınlar, həm də sponsor dövlətlər bu vəziyyət narazıdılar və problemin həlli həm dövlətləri, həm də böyük beynəlxalq təşkilatları narahat edir.Buna baxmayaraq, hər iki tərəf problem həll olunana qədər, müsbət münasibətlərə üstünlük verirlər. Dövlət onlara sığınan qaçqınların sosial müdafiəsini təmin etməyə, onları qorumağa, qaçqınlar isə sığındıqları ölkənin qanunlarına, sosial-siyasi həyatına uyğunlaşmağa və riayət etməyə çalışırlar.

РЕЗЮМЕ

Беженец, как и другие социальные проблемы, является одним из важнейших объектов социальной работы. С этой проблемой, восходящей к глубокой древности, сейчас сталкиваются практически все страны мира. И ВПЛ, и государства-спонсоры не полностью удовлетворены такой ситуацией, и решение этой проблемы в настоящее время вызывает озабоченность у государств и крупных организаций. Тем не менее, пока проблемы не будут решены, обе стороны предпочитают позитивные отношения. Государства обращаются с беженцами гуманно, и беженцы стремятся приспосабливаться и соблюдать законы, политическую и социальную жизнь стран, в которых они находят убежище.

SUMMARY

Refugee, like other social problems, is one of the most important objects of social work. This problem, which dates back to ancient times, is now faced by almost all countries of the world. Both the IDPs and the sponsoring states are not completely satisfied with this situation, and the solution of this problem is currently of concern to states and large organizations. Nevertheless, until the problems are resolved, both sides prefer a positive relationship. States treat refugees humanely, and refugees seek to adapt and abide by the laws and political and social life of the countries in which they take refuge.

Tağıyeva Şahnaz Heydər qızı
Magistrant
Elmi rəhbər: s.e.ü.f. Rəşad Sadıqov Əsəd oğlu

SOSİAL İNNOVASİYALARSAHƏSİNDƏBEYNƏLXALQTƏCRÜBƏ

Açar sözlər: *sosial innovasiya, beynəlxalq təcrübə, yenilik, sosial problemlər, sosial dəyişikliklər*

Ключевые слова: *социальные инновации, международный опыт, новшество, социальные проблемы, социальные изменения*

Key words: *social innovation, international experience, innovation, social problems, social changes*

Sosial innovasiya – əhalinin müxtəlif tipli sosial tələbatlarına cavab verən yeni strategiyaları, konsepsiyaları, ideyaları özündə birləşdirir. “İnnovasiya” termini latın dilində

“innovato” sözündən olub, “yenilənmə” və “yaxşılaşma” deməkdir. Termin elmi tədqiqatlarda XIX əsrdə meydana gəlmişdir. İnnovasiya yeninin tətbiqini ifadə edir [7].

Qeyd edək ki, “sosial innovasiya” yəni, sosial yenilik sosial problemləri həll etməyə yönəlmiş və insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində iş görmək deməkdir. Bu sosial sahibkarlıq layihələri, məşğulluq problemləri, sosial cəhətdən həssas insanlara yardım da daxil olmaqla ən müxtəlif yönümlü əhali təbəqələrinə istiqamətlənmiş proses kimi başa düşülür. Sosial yeniliklər müasir cəmiyyətin aktual problemlərinə iqlim dəyişikliyi, artan yoxsulluq, işsizlik, ətraf mühitin çirklənməsi və s. cavab olaraq ortaya çıxmışdır [5, 57]. Sosial yeniliklər çox müxtəlifdir, bu ilk növbədə ictimai həyatın müxtəlif hadisələri ilə əlaqələndirilir. Sosial yeniliyin mənbələri isə ətraf mühitdəki dəyişikliklər, müxtəlif sosial problemlər, bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı qruplarının və üzvlərinin ehtiyaclarına uyğun dəyişikliklərdir. Sosial yenilik şüurlu şəkildə təşkil edilmiş bir yenilik və ya praktikada yeni bir hadisədir, eyni zamanda sosial ehtiyacları ödəmək üçün yeni vasitələrin yaradılması prosesidir. Bütün sosial yeniliklər cəmiyyətin xeyirinə yönəlmiş fəaliyyətlərin mərkəzi elementidir [6]

Sosial innovasiyalar ilə bağlı beynəlxalq təcrübədən bəhs etsək, görərik ki, innovasiyalar bir çox ölkələrdə müxtəlif istiqamətlərdə inkişaf edib. Bu sahədə İspaniya, Çin, Amerikanın təcrübəsi daha əhəmiyyətlidir. Sosial yenilik İspaniyada müəyyən tarixi hadisələrlə əlaqəli sosial problemləri (məsələn, Kataloniyada eko kəndlər və ya ölkədəki Emaus hərəkatı) həll edən bəzi kollektiv və ya yaradıcı təşəbbüslərlə ifadə olunan uzun bir tarixə malikdir. İspaniyada sosial yenilik cəmiyyətdə baş verən böhranlara cavab olaraq təqdim edilirdi. Əslində bu İspaniyada yeni bir sosial-iqtisadi paradiqmanın inkişafına yönəlmiş prosesidi.

2008-ci ildə İspaniyada iqtisadi böhranın başlaması ilə işsizlik, büdcə kəsintiləri və sosial xidmətlərin həcminin azalması baş vermişdir. Eyni zamanda İspaniya 2013-cü ilin birinci rübündə ən yüksək işsizlik nisbətinə (25%-dən çox) malik olmuşdur. Lakin yaşanan böhran sosial yeniliyin inkişafı üçün hərəkətverici qüvvə rolunu oynamışdır [4,55]. Belə ki, 2015-ci ilə qədər əsasən Avropa Birliyi ölkələri arasında İspaniya, Yunanıstan, Xorvatiya ən çox sosial-iqtisadi istiqamətdə böhran ilə üzləşmişdir. Həmçinin bu ölkələrdə bərpa prosesi də zəif formada baş vermişdir.

İspaniyada yeniliklərin inkişaf konsepsiyası əsasən texnoloji baxımdan diqqət mərkəzində olmasına baxmayaraq, son illərdə "Avropa 2020" ümumi strategiyasına istiqamətlənmə prosesində sosial məsələlərin inkişafı əsas amillər sırasında yer almışdır.

Beləliklə, "2013-2020-ci illər üçün elm, texnologiya və yenilik sahəsindəki strategiya" da sosial yeniliklərə dair bir mövzunu ehtiva edir. Bu sosial tərəqqiyə nail olmaq və rəqabət qabliyyətini artırmaqda əsas rol oynayır.

Amerika Birləşmiş Ştatlarının təcrübəsinə nəzər salsaq, ikinci dünya müharibəsindən əvvəl yeniliklərin əksəriyyəti ixtiraçılar tərəfindən həyata keçirilirdi. Lakin müharibə sənayenin inkişafına təkan verdi. Belə ki, dövlət qurduğu müəssisələrdə, habelə federal orqanlardan sifariş alan böyük şirkətlərdə yeni texnologiyaların yaradılmasına başladı. Sonra müharibə zamanı bir sıra tədqiqat laboratoriyaları açıldı. Bu, elektronika, əczaçılıq və aviasiya da daxil olmaqla bir çox sənayedə yeniliyi artırdı. Dövlət müharibədən sonra da milli laboratoriya və tədqiqat universitetləri sisteminin maliyyələşdirilməsi yolu ilə yenilik sistemində mühüm rol oynamağa davam etdi.

Müstəqilliyinin ilk 125 ilində Amerika Birləşmiş Ştatları qlobal bir texnoloji lider rolunu oynamırdı. Lakin 1890-cı illərdəki İkinci Sənaye İnqilabından sonra ABŞ yeniliklər yaratmağa başlayaraq liderlərə qoşuldu. ABŞ bazarı, böyüklüyünə görə sahibkarlara yeni kütləvi məhsulların (kimyəvi maddələr, avtomobil, təyyarə və s) satışına icazə verdi [3].

Son on ildə Çin hakimiyyəti bu sahədə müvafiq tədbirlər həyata keçirir. Hökumət bazar mexanizmlərinə əsaslanan müəssisələrin fəaliyyətini təmin etmək üçün siyasi qərarlar qəbul edir. Bu sənədlərin əsas ideyası sahibkarlığın inkişafı və sosial sahədə innovasiyaların inkişafıdır. Yerli hökumətlər bu siyasət xəttini Çinin iqtisadi böyüməsi üçün perspektivli bir

istiqamət hesab edərək kiçik müəssisələrin inkişafı üçün səy göstərirlər. Sosial innovasiyaların ən yüksək səviyyədə inkişafının əsas aparıcı qüvvəsi ÇKP (Çin Kommunist Partiyası) və ÇXR (Çin Xalq Respublikası) Dövlət Şurasıdır. Beləliklə, ÇKP-nın 19-cu Milli Konqresində sosial yenilik və sosial idarəetmə sahəsinə xüsusi diqqət yetirilmişdir. Onlar yenilikçi bir ölkənin inşasını sürətləndirməyin əhəmiyyətini, həmçinin innovasiya inkişafın əsas hərəkətverici qüvvəsi və müasir iqtisadi sistemin strateji yoldaşıdır fikrini irəli sürmüşdür.

Qeyd edək ki, hökumət yerli idarəetmə orqanlarını şəhər və kənd icmalarına xidmət göstərmək və müəssisələrin, dövlət qurumlarının və ictimai təşkilatların sosial idarəetmə və xidmətlər sahəsində məsuliyyətini gücləndirmək üçün öz funksiyalarını genişləndirməyə borcludur.

Çində sosial yeniliyin arxasında duran ikinci qüvvə, iqtisadiyyatın və cəmiyyətin inkişafı ilə birlikdə dəyişən əhalinin ehtiyaclarıdır. Məsələn, demoqrafik yaşlanma, aşağı məhsuldarlıq, çirklənmə, şəhər və kənd arasında inkişaf fərqliliyi və s əhəmiyyətli sosial problemlərdir. Əlbəttə ki, bu ehtiyaclar ödənilməzsə, kəskin sosial qarşıdurmalara səbəb olan daha ciddi problemlər yaranacaqdır. Yeni çağırışların öhdəsindən gəlmək isə xüsusilə sosial ziddiyyətlərin asanlıqla yayıldığı, etiraz aksiyalarının aktivləşdirildiyi və ictimai harmoniyanın pozulduğu mövcud çoxşaxəli, açıq və dinamik sosial mühitdə yalnız sosial yenilik sayəsində mümkündür [4,58].

Bu gün Azərbaycanda da sosial iş sahəsində bir çox işlər görülür. Sosial sahədə dövlət siyasətinə əsasən hazırda ölkədə müxtəlif mərkəzlər, agentliklər fəaliyyət göstərərək əhalinin sosial problemlərinin həllində onlara köməklik edir.

Məsələn "DOST" agentliyi və "ASAN xidmət" mərkəzləri bütün dünyanı əhatə edən pandemiya dövründə yardıma ehtiyacı olan insanlara xüsusi qayğı göstərir.[1] Bu işdə həmin mərkəzlərdə çalışan könüllülərin fəaliyyəti də danılmazdı. Həmçinin sağlamlıq imkanları məhdud insanlar üçün dünyada tədbiq olunan texnologiyaların ölkəmizə gətirilməsi, onların inkuliziv təhsilə cəlb olunması və s istiqamətdə də işlər aparılır.[2]

Qeyd edək ki, bütün sosial yeniliklər cəmiyyətin xeyrinə yönəlmiş fəaliyyətin mərkəzi elementidir. Ümumilikdə sosial yenilik müxtəlif ölkələrdə səhiyyə və sosial xidmətlər, təhsil sahəsindəki bir çox problemlər, işsizlik, yaşlanan əhali, gənclərin məşğulluğu, yoxsulluğun azaldılması, həyat keyfiyyətinin yaxşılaşdırılması, qloballaşma və s də inkişafa səbəb olmaqdadır.

Ədəbiyyat

1. ASAN xidmət", "ASAN xidmət" mərkəzi açıldı, https://asan.gov.az/az/media/news/asan-xidmet-merkezi-acildi/29.12.2012

2. Azərbaycan Respublikasının Prezidenti, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərman, https://president.az/articles/31039/ 10.12.2018.

3. İvansychev, Национальная инновационная система США, 26 июля 2017.https://habr.com/ru/post/405577/

4.Каро-Г А, Васильевич П.А., Сергеевна С.Т.,Хуа Л., Инновационное Развитие, Социальные инновации в Испании, Китае и России:ключевые аспекты развития/Том 11, № 2, 2018. 68с.

5.Митяков С., Митякова О., Митяков Е., Егорова Н., Нижегородский государственный технический университет им. Р.Е.Алексеева, Инновационная экономика, Инновационное развитие регионов России: социальные инновации/ s. 56-68, 2018.

6.Mehdiyev Ə., İnnovasiya fəaliyyəti, https://huseynovablog.files.wordpress.com/2016/06/innovasiya-fealiyyeti.pdf

7.Справочник, Инновационные формы в социальной работе, https://spravochnick.ru/sociologiya/socialnaya_rabota_kak_nauka/innovacionnye_formy_v_socialnoy_rabote/#ponyatie-socialnyh-innovaciy

РЕЗЮМЕ

Следует отметить, что все социальные инновации являются центральным элементом деятельности, направленной на благо общества. В целом социальные инновации приводят к развитию здравоохранения и социальных услуг во многих странах, к множеству проблем в образовании, безработице, старению населения, занятости молодежи, сокращению бедности, качеству жизни, глобализации и так далее.

SUMMARY

It should be noted that all social innovations are a central element of activity aimed at the well-being of society. In general, social innovations lead to the development of health care and social services in many countries, to the multiplicity of problems in education, unemployment, population aging, youth employment, reduction of poverty, quality of life, globalization.

Cəfərova Şəbnəm
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos. Ülviyyə Akif qızı Əfəndiyeva

ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA "YAŞ BÖHRAN"LARI VƏ ONLARIN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *yaş böhranı, şəxsyyətin formalaşması, çətin problemlər, inkişaf*
Ключевые слова: *возрастной кризис, формирование личности, сложные проблемы, разработка*
Key words: *age crisis, the formation of the personality, difficult problems, development*

İnsan dünyaya gələndən şəxsiyyət kimi formalaşana qədər müxtəlif dövrlərdən və mərhələlərdən keçir.Psixoloji ədəbiyyatda həmin mərhələlər yaş dövrləri adlanır. Əlbətdə ki, bu mərhələlərin özünəməxsus çətin anları, problemli vəziyyətləri vardır ki, həmin çətinliklər insanın müvafiq formada inkişafına, digər insanlar ilə qarşılıqlı münasibətlərinə maneə törədir. Həmin çətinliklər yaş böhranları adlanır.Bu problemlərin vaxtında aşkar edilib həll edilməməsi şəxsiyyətin xarakterində müəyyən mənfi izlər buraxmasına gətirib çıxarır.Yaş böhranlarını təhil etməzdən əvvəl gəlin "böhran" anlayışını nəzərdən keçirək:

Böhran – insanda normalda olduğundan daha çox stressə və emosional yüklənməsinə səbəb olan vəziyyətdir. İnsan qarşısına çıxan hər hansı bir çətin problemin öhdəsindən gələ bilmədikdə,onda stress əmələ gəlir və emosional cəhətdən yüklənməsinə səbəb olur.Bu stressli vəziyyət böhran adlanır.

Yaş böhranları və ya böhran yaş dövrləri anlayışını psixoloji ədəbiyyata ilk dəfə L.S.Vıqotski gətirmişdir. O bu anlayışın mahiyyətini fəaliyyət prosesində artan tələbatlarla bu bu tələbatların ödənilməsi imkanları arasındakı ziddiyyətlər ilə izah edirdi.O qeyd edirdi "Hər bir böhran yaş dövründə uşağın həyatında psixi yeni törəmə özünü büruzə verir". Psixi yeni törəmə-uşağın həyatında ilk dəfə büruzə verən yenilikləri nəzərdə tutur.Məsələn, Bir yaşın böhranı zamanı uşağın ayaqüstə yeriməsi və başqaları.

Biryaşınböhranı.Bir yaşın böhranı çağalıq yaşından erkən uşaqlıq yaşına keçid dövründə baş verir.Körpə artıq bir yaşında oturur, iməkləyir və yeriməyi öyrənməyə başlayır.Bu da körpənin əsas fəaliyyət növü olan bilavasitə emosional ünsiyyətin əşyavi-manipulyativ fəaliyyətlə əvəz olunmasına səbəb olur.Körpənin iməkləməsi və yeriməyə başlaması ona imkan verir ki, əşyalara toxunsun və onlarla oynaya bilsin. Körpələrdə müstəqilliyə can atma meyilləri bu yaşda formalaşmağa başlayır.Artıq onların maraq obyekti yaşlılar deyil, əşyalardır.Buna görə də insanlar ilə ünsiyyətə daha az can atırlar.Körpələr onlara tanış

olamayan, fərqli əşyalara toxunmağı, onlarla oynamağı daha çox üstün tuturlar.Yəni, ətrafaləmi kəşf edib öyrənməyə çalışırlar.

Böhranlıhallar: Körpənin davranışında kəskin dəyişikliklər müşahidə olunur.Körpə artıq əvvəlki kimi passiv deyildir, daha çox aktivdir.Necə deyərlər bir yerdə dayanmır,evin hər tərəfini gəzir və kəşf etməyə çalışır.Bu da valideynlər ilə münaqişələrə səbəb olur.Valideynin müdaxiləsi kəskin etirazla qarşılanır.Hər hansı bir əşyanı götürməyə və ya oynamğa valideyin icazə verməyəndə körpə qışqırmağa, ağlamağa başlayır.Körpə hər hansı bir əşyanı əldə etmək üçün ağlayırsa və nəticə də onu əldə edirsə, bu onun davranışında sabit hal kimi qalacaqdır və o hər bir istəyini bu cür yolla əldə etməyə çalışacaq.

Digər bir böhranlı hal isə körpənin qida qəbul etməyi və yatmağı ilə bağlı dəyişikliklərlə bağlıdır.Körpə əvvəlki dövrə nisbətən daha az yatır və yemək yemək istəmir.Bu problemi həll etmək üçün valideyin körpə üçün qida və yuxu rejimi təyin etməli və hər iki fəaliyyətin vaxtında icra edilməsinə diqqət yetirməlidir.

Bir yaşındda uşağın nitqi formalaşmağa başlayır.Lakin bu nitq avtonom nitqdir və digər yaşlılar tərəfindən anlaşılmır.

Üçyaşınböhranı. Üç yaşın böhranı körpəlik yaşından məktəbə qədər yaşına keçid dövründə baş verir. Uşaq iki və ya iki yaş yarım olanda başlayır və dörd yaşa qədər müddətdə davam edir. Bu dövrü psixoloji ədəbiyyyatda "kompleks canlanma" kimi də adlandırırlar. Demək olar ki, bu çətin mərhələdən keçirlər. Bu dövrdə çətinliklərin yaranmasının bir çox səbəbləri var:

İlk olaraq qeyd etmək istəyirəm ki, uşaqlarda "mənlik şüuru" və "mən obrazı" məhz bu yaşda formalaşmağa başlayır. Onlar daim "mən", "mən özüm edə bilərəm", "mən özüm edirəm" kimi ifadələrdən istifadə edirlər. Bunun da səbəb bunlardır ki, onlar artıq müstəqilliyə can atırlar və fikirləşirlər ki, hər bir işi özləri sərbəst şəkildə yerinə yetirə bilərlər. Əlbətdə ki, bu hal valideynlərin narazılıqlarına və narahat olmalarına səbəb olur. Çünki onların gözündə övladlarının hələ də çağa kimi olmasıdır. Lakin burada iki əsas məsələyə diqqət yetirmək lazımdır:

Birinci olaraq valideynlər öz övladlarına müəyyən qədər sərbəstlik veməlidirlər.Yəni sadə, primitiv işləri onların əvəzinə yerinə yetirməkdənsə, onlara icazə verilməlidir ki, özləri etsinlər.Məsələn, oyuncaqlarını yığışdırmaq, yeməyini özü yeməsinə icazə vermək və s. Unutmaq olmaz ki, valideynlərin hər bir yersiz müdaxiləsi onların gələcək həyatında özlərini sərbəst ifadə etməyinə və ya qarşılaşdığı hər hansı bir çətin problemin öhtəsindən gəlmələrinə mane olacaq.

İkinci olaraq valideyinlər övladlarına tam müstəqillik də verməməlidirlər.Bəzi hərəkətlər var ki, həmin hərəkətlərin icrası onların həyatları üçün müəyyən təhlükələr törədə bilər.Məsələn, isti fincanı götürmək, kəsici alətlər və elektrikli alətlər ilə oynamaq və s.

Bu kimi halları tənzimləmək üçün müəyyən nizam-intizam qaydaları tərtib edilməli və həmçinin valideyn bu qaydalara riayət edilməsinə ciddi nəzarət etməlidir.Çünki, uşaqlar daim yoxlayırlar ki, qaydanı pozsam valideynim nə edəcək. Valideynin hər hansı laqeyid münasibəti uşağı həmin mənfi davranışı yenidən icra etməyə motivasiya edəcək.

Və burada əsas olan məqamlardan biri də valideynlərin uşaqlara qarşı istifadə etdikləri tərbiyyə üsulunun paralel olmağıdır. Bəzən valideynlərdən biri uşağa qarşı çox sərt olur və digəri isə uşağın hər bir istəyini qeyri-şərtsiz yerinə yetirir.Təbii ki, bu yol verilməz haldır. Hər iki valideyn ortaq tərbiyə üsulundan istifadə etməli və uşağa eyni tələblər ilə müraciət etməlidirlər.

Digər yolverilməz hal isə qohumların valideyn-övlad münasibətlərinə müdaxilə etmələridir. Digər qohumlar uşağın gözündə öz nüfuzlarını yüksəltmək üçün valideyn-övlad münasibətlərinə müdaxilə edirlər və valideynlərin övladlarının etməyinə icazə vermədiyi hər hansı hərəkəti etmələrinə icazə verirlər. Bu hal ən çox geniş ailələrdə özünü göstərir.Nənə və babaların uşaqların istəklərini qüyri-şərtsiz yerinə yetirmələri, onlara həddən artıq sərbəstlik vermələri valideynlər ilə övladlar arasında çətin anların yaranmasına səbəb olur.

Bu dövrdə uşaqların davranışında bir sıra mənfi hallar müşahidə olunur:

- Neqativizm – Uşaq ona deyilən hər bir şeyin əksini etməyə çalışır.Neqativizm iki formada mövcud olur: Aktiv neqativizm- uşaq ona deyilən işin əvəzinə onun tam əksini edir; Passiv neqativizm- uşaq sadəcə ona deyiləni yerinə yetirmir[1,s.103]
- İnadkarlıq- uşaq çalışır ki, qəbul edilən qərarları dəyişdirsin. Valideyn onların istədiyi hər hansı bir işi etməyəndə höcətçilik edirlər.Məsələn, uşaq mağazada olanda hər hansı bir oyucağı götürmək istəyir, lakin valideyn ona həmin əşyanı götürməyə icazə vermir. Bu zaman o, mağazada qışqırmağa və ağlamağa başlayır.Çox zaman uşaqlar bu hərəkəti insanların çox olduğu yerlərdə edirlər, çünki onlar bilirlər ki, valideynləri ətrafdakı digər insanlara görə məcbur qalıb onlara həmin əşyanı alacaqlar.
- Dəyərsizləşmə-onların sevdikləri oyuncaqları, əşyaları artıq onlar üçün maraqlı olmur.Hətta əvvəllər çox yaxşı vaxt keçirdikləri nənə və babaları ilə də oynamaq onlara maraqsız gəlir.
- Tərslik- valideynin hər bir tələbini etirazla qarşılayırlar və onları yerinə yetirməkdən imtina edirlər
- Qəddarlıq- aqressivləşirlər və digər yaşıdlarını döyməyə çalışırlar

Valideynlər bu mərhələdə səbrli və eyni zamanda da tələblərində qəti olmalıdırlar.Baxmayaraq ki, bu dövrün müəyyən çətinlikləri var, həmçinin də müsbət tərəfləri də var.Məsələn, uşağın nitqi demək olar ki, formalaşır. Bu da onların öz fikirlərini, istəklərini ifadə etməyə imkan verir,uşaqlar oyuncaqlarını özləri yığışdırırlar, sərbəst qidalanırlar və s. Bu da valideynlərin işlərini xeyli yüngülləşdirir.

Bu dövrdə valideynlə övlad arasındakı konfliktlər uşaqların gələcəyə hazırlanmasını, öz mənini dərk etməsini, müstəqilliyə can atmasını motivasiya edir. Nə qədər çətin dövr olsa da, uşağın inkişafında bir o qədər də əhəmiyyətli dövrdür.

Altıvəyayeddiyaşınböhranı.Bu yaş böhranı məktəbəqədər yaşı ilə kiçik məktəbli yaşı arasındakı keçid dövründə baş verir. Kiçik məktəbli yaşında uşaqların əsas fəaliyyət növləri olan oyun təlim ilə əvəz olunur. Bu da əlbətdə ki, uşağın həyatında köklü dəyişikliklərə səbəb olur.Uşaq məktəbə ilk addımını atması ilə o artıq həyatının ilk sosial qrupuna daxil olmuş olur. Təbii ki də, bu sosial qrupun özünün davranış normaları vardır ki, bu da həmişə hərəkətlərində sərbəst olan şagirdə bu qaydalara riayət etməkdə çətinliklər yaradır. O hər kəs kimi dərsə vaxtlı-vaxtında gəlməli, dərs boyu öz davranışını tənzim etməli, nə isə bir iş edəndə müəllimdən icazə almalıdır.Bu da uşaqlarda aqressivliyə, emosional sferanın pozulmasına gətirib çıxarır.Çox vaxt uşaqlar məktəbə getdikləri ilk günlərdə qışqırır, ağlayırlar və valideynlərinin daim onlarla bərabər olmalarını istəyirlər.Bu anda məsuliyyətin böyük hissəsi müəllimin üzərinə düşür. Müəllim valideynlərlə bərabər işləyərək, uşaqların məktəbə adaptasiya olmalarına kömək etməlidirlər.Bəzi şagirdlərdə bu hal daha kəskin xarakterli olur və bu zaman məktəb psixoloquna müraciət etmək lazımdır.

Bəli doğrudur bu dövrdə şagirdin əsas fəaliyyət növü olan oyun təlim ilə əvəzlənir. Lakin, bəzi valideynlər unudurlar ki, hər bir yaş dövrünün əsas fəaliyyət növü ilə yanaşı yardımçı fəaliyyət növləri olur ki, uşağı inkişaf edib formalaşmasında onların da müstəsna rolları vardır. Əsas fəaliyyət növü ilə bərabər köməkçi fəaliyyət növləri ilə də məşğul olunmalıdır. Çox zaman valideyn uşağın bütün diqqətini təlim üzərinə cəmləndirir və nəticə də oyun yaddan çıxır. Həyatı maraqsızlaşmağa başlayan uşaq böhranlı davranışnümunələri göstərməyə başlayır.Uşağın oxumaq ilə yanaşı oynamağa da ehtiyyacı vardır.

Yaranan problemlərin digər səbəblərindən biri uşağın təlim fəaliyyətində qarşılaşdığı çətinliklərdir.Uşaq daim çalışır ki, bütün dərslərindən yaxşı nəticələr əldə etsin. Mənfi nəticə əldə edən zaman tez motivasiyadan düşür, bəzən də səhvlərini gizlətməyə çalışır.Bu kimi halların aradan qaldırılması üçün valideyn uşağı inandırmalıdır ki, o hər zaman yaxşı nəticələr

əldə edə bilməz, bəzən müəyyən səhvlər də edə bilər. Əsas olan səhvlərimizi anlamağımız və onları korreksiya etməyə çalışmağımızdır.

Ədəbiyyat

1. 1. M.Vəliyev, A.Mustafayev. İnkişaf və yaş psixologiyası. Bakı: 2013,290 s.
2. Əzizov Q.Q. Psixologiya. Bakı:Mütərcim, 2011Quliyev E.M.,Əzimov
3. Q.E., Əlizadə Ə. Ə. Yaş və pedaqoji psixologiya. 2-ci hissə, Bakı, 1978
4. Quliyev E.M.,Əzimov Q.E., Əlizadə Ə. Ə. Yaş və pedaqoji psixologiya. 2-ci hissə, Bakı, 1978

Возрастные кризисы в формировании личности и их социально-психологические особенности

РЕЗЮМЕ

Возрастные кризисы в формировании личности и их социально-психологические особенностипроблем современного общества. Если эти кризисы вовремя не обнаружить и не разрешить, они оставляют отрицательные следы в жизни и личности человека. Каждый из нас сталкивается с этими проблемами в какой – то момент своей жизни. Интенсивность возрастных кризисов варьируется отчеловеку. Некоторые люди решают эти проблемы легко, а другие не могут, и у них возникают конфликты с окружающими и самими собой.

Age crises in the formation of personality and their socio-psychological features

SUMMARY

Age crises are one of the main issues of the modern society. If these crises are not revealed and solved on time, they will leave negative traces in human's personality and character. At the same time finding out and solving these matters contributes to the formation and development of the personality. Every one of us faces these difficulties in some stages of our lifetime The intensity of the age crises varies from person to person. Some can cope with these problems easily but others cannot and have conflicts with the people arround them and themselves.

Cəfərova Şəbnəm Şirvan qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos.Ülviyyə Akif qızı Əfəndiyeva

YENİYETMƏLİK YAŞI DÖVRÜNDƏ BÖHRAN PROBLEMİ

Açar sözlər: *yeniyetmə, böhran, müstəqillik meyli, təhlükəli dövr*
Ключевые слова: *подросток, кризис, склонность к независимости, опасный этап*
Key words: *adolescent, crisis, the tendency of the independence, dangerous stage*

Yeniyetməlik yaşı 10-11 yaşdan 14-15 yaşa qədər olan müddəti əhatə edir. Yeniyetmə yaşının başlaması və bitməsi fərddən fərdə dəyişdiyi uçun yuxarıda qeyd edilən yaş aralığı nisbidir və bir il tez və ya gec başlaya bilər. Psixoloji ədəbiyyatlarda bəzən bu dövrü "keçid", "təhlükəli", "ziddiyyətli" və "böhran" dövrü kimi də xarakterizə edirlər. Yeniyetməlik dövrünün "keçid" dövrü adlandırılmasının səbəbi bu yaş mərhələsinin uşaqlıq yaşından gənclik yaşına keçid dövründə baş verməsidir.

Bəs nə üçün bu dövr yaş psixologiyasında başqa cür deyil, məhz yeniyetməlik dövrü adlanır?Ona görə ki, həmin dövrdə uşaq şəxsiyyətinin inkişafında bir çox yetkinliklər, dəyişkənliklər, törəmələr baş verir ki, onların sayəsində şagirdin təlim və tərbiyəsində, rəftar və davranışında müxtəlif tipli çətinliklər: şıltaqlıq, inadkarlıq, tənbəllik, aqressivlik, kobudluq, qapalılıq, adamdan qaçmaq və bu kimi başqa keyfiyyətlər meydana gəlir.Bu dövr ən tərəddüdlü, böhranlı və müvazinatsız dövrdür[2,s.136].

Yeniyetməlik yaşının əsas fəaliyyət növü yeniyetmələrin yaşıdları ilə intim-şəxsi ünsiyyətidir. Lakin bu dövründə yeniyetmə aparıcı fəaliyyət növü ilə yanaşı təlim, idman, bədii, əmək fəaliyyətləri ilə də məşğul olur.

Yeniyetməlik dövrünün xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bu dövrdə uşaqda həm fiziki, həm psixi, həm də cinsi inkişafın sürətlə getməsidir.. Cinsi yetişmənin formalaşması məhz bu dövrdən başlayır.Yeniyetmələr qarşı cinslə maraqlanmağa başlayırlar: oğlanlar qızlar ilə, qızlar isə oğlanlar ilə.

Yeniyetmə yaşı böhranı bir çox görkəmli psixoloqlar tərəfində araşdırılmış və müxtəlif mülahizələr, fikirlər irəli sürülmüşdür.Bunların bir neçəsinə diqqət yetirək:

L.S.Viqotski qeyd edir ki, böhranın hər bir neqativ simptomunun arxasında pozitiv məzmun gizlənib ki, bu da yeni, ali formaya keçməkdir.O, böhran probleminə tamam başqa cür və orijinal yanaşıb göstərir ki. "Yaş böhranını öyrənərkən iki cəhətə daha çox fikir vermək lazımdır.Əvvəl şüurda baş verən əsas dəyişiklikləri fərqləndirmık, ikincisi isə, hər yaşda uşaqla mühit arasında təkrarolunmaz münasibətlər sistemini təmsil edən inkişafın sosial şəraitini müəyyənləşdirmək lazımdır"[6,s.48].

L.İ.Bojiviç qeyd edir ki, yeniyetməlik yaş dövrünün böhranı onların zehni, fiziki inkişafının sürətlə formalaşması ilə əlaqədar yeni tələbatların yaranması, bu tələbatlarən təmin olunması, bu dövrdə sosial baxımdan yeniyetmənin yetişkin olmaması və tələbatların özünün də kifayət qədər gərgin olmasə ilə əlaqədardır[5,s.94].

Yeniyetməlik yaş dövrünün böhranı zamanı aşağıdakı dəyişikliklər və problemlər özünü göstərir:

1.Yaşlılıq hissi. Bu hissin yaranmasının bir çox səbəbləri vardır:

· Yeniyetmənin fiziki,yəni, xarici görnüşünün dəyişməsi, onun yaşlı adamlara bənzəməsi onda belə bir stimul formalaşdırır ki, o artıq kifayət qədər böyümüşdür.

· Sosial xarakterli səbəblər-yaşlı adamlar ilə birgə fəaliyyət və ünsiyyətdə olmaq yeniyetmədə yaşlılıq hissini formalaşdıran digər səbəblərdən biridir.

· Referent qruplarda iştirak – Bu qruplarda onlardan yaşca böyüklərin olması onlarda belə bir fikir formalaşdırır ki, onlar da kifayət qədər böyümuşlər ki, bu qrupun tərkibindədirlər. Bu da onlarda yaşlılıq hissinin formalaşmasının digər bir səbəbidir.

Yeniyetmədə yaşlılıq hissinin formalaşması onun müstəqilliyə can atmasına daha da təkan verir.Xarici görünüşcə yaşlılara bənzəmələri və yaşlıların daxil olduqları sosial qrupların üzvü olmaları yeniyetmənin yaşlılar kimi müstəqil, sərbəst yaşamaq istəyini daha da alovlandırır. Valideyin isə hələ də onu uşaq kimi görür və kiçik məktəbli yaşında uşaq kimi münasibət göstərir. Bu zaman valideyin yeniyetmə konfliktləri yaranır və bu konfliktlər çox zaman destruktiv xarakterli olurlar. Bəs nə etmək olar ki, bu konfliktlər daha ağır nəticələr ilə yekunlaşmamış həll edilsin? İlk öncə burada məsuliyyətin böyük hissəsi valideyinin üzərinə düşür, çünki, valideyinyeniyetməyə nisbətən daha çox həyat təcrübəsinə sahib olur. Valideyin yeniyetmə övladına daha anlayışlı münasibət göstərməli və ona müəyyən qədər müstəqillik verməlidir.Məsələn, geyimini onun seçməyinə icazə, yoldaşları ilə görüşməyinə icazə vermək və s.

Valideyin yeniyetmə konfliktini daha da alovlandıran səbəblərdən biri də valideyinin yeniyetmənin hər bir davranışını tənqid etməsidir.Yeniyetməni hər bir davranışına görə tənqid etmək, danlamaq və cəzalandırmaq problemi həll etmir, daha da mürəkkəbləşdirir.Valideyn övladı ilə dostluq münasibəti qurmağa çalışmalı və bu problemlərin yaşla qaynaqlanaraq yarandığını, müəyyən müddətdən sonra keçib gedəcəyini anlamalıdır.

2.Tənhalıq. Yeniyetmələr yaşlılar ilə ünsiyyət qurmaq, onlarla vaxt keçirtmək istəmirlər.Bu hal da yaşlılar tərəfindən onların təkliyə, tənhalığa meyilli olmaları kimi xarakterizə olunur. Lakin onlar dostları, həmyaşıdları ilə ünsiyyət qurmağı və vaxt keçirtməyi daha çox üstün tuturlar.

3.Aqressivlik.Yeniyetmələrdə aqressivlik və kobudluq onların yaşıdları, valideyinləri tərəfindən düzgün qiymətləndirilmədiyi zaman baş verir. Bəzən valideyinlər övladlarının cuzi yanlışında onları tənqid etməyə, danlamağa başlayırlar.Ətrafdakılar qarşısında nüfuzunu itirdiyini zənn edən yeniyetmə itirdiyi nüfuzunu aqressiv hərəkətlər ilə, konfliktlərlə bərpa etməyə çalışır.

4.Mülkiyyətə qısqanclıq. Mülkiyyətə qısqanclıq üç yaş böhranında uşaqların öz oyuncaqlarını digərləri ilə paylaşmaq istəməməkləri halında baş verirdisə, yeniyetməlik yaşı böhranında bu hal yeniyetmənin əşyalarına kiminsə toxunmaması, otağına heç kimin daxil olmamasını istəməməyi kimi özünü göstərir.

5.Təlim fəaliyyətində çətinliklər.Tədris edilən fənlərin sayının və çətinlik dərəcəsinin artması yeniyetmənin təlim fəaliyyətində çətinliklər yaşamağına səbəb olur.Həmçinin əsas fəaliyyət növünün təlim fəaliyyətindən ünsiyyətə dəyişməsi yeniyetmənin təlimdən müəyyən qədər uzaqlaşmağına səbəb olur.Yeniyetməyə dostları ilə ünsiyyət təlimdən daha maraqlı gəlir. Kiçik məktəbli yaşında qiymətləri beş olan uşaqlar yeniyetməlik yaçında dörd-beş arası qiymətlər alırlar.

6.Yeniyetmə intiharları.Muasir dövrün ən aktual problemlərindən biri olan suisidlər ən çox yeniyetməlik dövründə baş verirlər.Ətrafdakılar ilə konfliktlər yaşayan və emosional cəhətdən zəif olan yeniyetmə problemlərinin həll yolunu intiharda görür. Onu da vurğulamaq istəyirəm ki, intihara meyl edən və intihar etmək

istəyən insan bunu bir neçə dəfə dilə gətirir.Övladı ilə yaxın əlaqəsi olan, övladına çox diqqət göstərən valideyn bu halı dərhal anlayır və övladını fikrindən daşındırmağa çalışır.Yeniyetmə intiharının bir çox səbəbləri var:

Ø Sevgidə uğursuzluq- romantik instinktlərə tez qapılan və bunu gerçək sevgi zənn edən yeniyetmə münasibəti bitən zaman tez xəyal qırıqlarına uğrayır və çarəni ölməkdə tapır.

Ø Təlim fəaliyyəti ilə bağlı uğursuzluqlar-Bu əsasən yeniyetməlik yaşının son dövrlərində baş verir. Təlim fəaliyyəti ilə həddindən artıq çox yüklənən və valideynləri tərəfindən qətiyyətlə universitetə qəbul olmağa məcbur edilən yeniyetmə qarşılaşdığı uğursuzluqda məsələnin həllini intihar etməkdə görür. Valideyinin bütün ümidlərini boşa çıxardığını, ona olan inamlarını yox etdiyini zənn edən yeniyetmə bu çətin emosional durum qarşısında zəif qalır və özünü ölümə təslim edir.Hətta bəzi valideynlər övladlarını universitetə qəbul olmasalar özlərini öldurəcəklər deyə şantaj edirlər.

Ø Ailədə olan iqtisadi çətinliklər-Bəzən yeniyetmələr ailələrində olan maddi çətinliklərin səbəbini özlərində görürlər və düşünürlər ki. Onlar olmasaydı ailənin maddi rifahı daha yaxşı ola bilərdi və nəticə etibarı ilə intahara meyl edirlər. Valideynlər övladlarını bu kimi çətinliklərin yaranmasında səbəbkar olmadıqlarına inandırmalıdırlar.

Sonda onu da qeyd etmək istəyirəm ki, yeniyetmə yaşını heç bir çətinlik və problem olmadan keçirən uşaqların da psixoloji yardıma ehtiyacı vardır.Bu onu göstərir ki, onlarda inkişaf yetərincə və düzgün istiqamətdə getmir. Bir çox insanlar və valideyinlər tərəfindən çox çətin, təhlükəli hallar kimi qiymətləndirilən konfliktlər əslində uşağı inkişafa sürükləyən, onun öz mənini digərlərindən fərqləndirməyə sövq edən, onda müstəqillik hissini formalaşdıran konfliktlərdir. Yeniyetməliyi heç bir maneəsiz keçirən uşaqda özünütəsdiq, özünüqiymətləndirmə və mənlik şüuru kifayət qədər inkişaf etmir.

Ədəbiyyat

1. M.Vəliyev, A.Mustafayev. İnkişaf və yaş psixologiyası. Bakı: 2013,290 s.

2. Qədirov.Ə. Yaş psixologiyası.Bakı ,Maarif, 2003

3. Quliyev E.M.,Əzimov Q.E., Əlizadə Ə. Ə. Yaş və pedaqoji psixologiya. 2-ci hissə, Bakı, 1978

4. Əzizov Q.Q. Psixologiya. Bakı:Mütərcim, 2011

Подростковый кризис

РЕЗЮМЕ

В этой статье мы поговорим о подростковом возрасте и о трудностях и проблемах, которые возникают в этом возрасте. Подростковый возраст - один из самых трудных и сложных возрастов. Несмотря на трудности и проблемы, ребенок в этом возрасте стремительно развивается как физиологически, так и психологически. В этом возрасте между родителями и детьми возникает множество конфликтов. Однако эти конфликты

развивают у детей чувство собственного достоинства, стремление к независимости и так далее. Чтобы разрешить эти конфликты, родители должны быть понимающими и дружелюбными со своими детьми.

Adolescence age crisis

SUMMARY

In this article we are talking about adolescence age and problems, difficulties that occur in this age. Adolescence age is one of the most difficult and complicated ages. Despite the problems, difficulties the child develops fast both physically and psychologically in this age. In this age there are a lot of conflicts between children and parents. But these conflicts encourage children to improve their self-assessment, desire to be independence and so on. For dealing with these conflicts parents should be more understanding towards their children and try to make friends with their children.

Zeynalova Şəfəq Kərəm qızı
Magistrant
Elmi rəhbər: Məmmədova Günel

ÇƏTİN TƏRBİYƏ OLUNAN UŞAQLARIN MAHİYYƏTİ, SƏBƏBLƏRİ, PROBLEMLƏRİ

Açar sözlər: *yetkinlik dövrü, çətin uşaqlar, valideyn, düzgün tərbiyə*
Ключевые слова: *юность, трудные дети, воспитание детей, правильное воспитание*
Key words: *adolescence, difficult children, parenting, proper upbringing*

Bəzi uşaqları tərbiyə etmək digərlərindən daha çətindir. İstər öz övladınız olsun, istər bir dostunuzun və ya qohumunuzun uşağı, çətin bir uşaqla necə davranacağınızı bilmək çox vacibdir.

Uşaqlar inkişaf etdikcə, xüsusi ilə də yetkinlik dövründə bir çox dəyişikliklərə məruz qalır və onlara yad olan bəzi yeni duyğularla qarşılaşırlar. Elə uşaqlar var ki, bu dövrdə içinə qapanır, yaşamaqda olduqları duyğularını dilə gətirməkdə çətinlik çəkir və ya umumiyyətlə susurlar. Bu səbəbdən valideynlər onlarla münasibət qurarkən mehriban və həssas olmalıdırlar. O demək deyil ki, valideyn uşağın hər istəyinə tabe olmalıdır. Valideynlər uşaqlarına qarşı davranışlarını düzgün seçməli, mülayim və anlayışlı ola bilməlidir. Davamlı olaraq uşağın davranışını dəyişdirməyə çalışmaq əvəzinə situasiya anında veriləcək reaksiyaları daha səmərəlisi ilə dəyişdirmə yollarını tapmağa çalışmalıdırlar. Uşaqla qarşıdurma yaşanan zaman sakit olmaq çox vacibdir. Valideyn övladı ilə münasibətdə qarşılaşacağı hər situasiyada yaxşı nümunə olmağı bacarmalıdır.

İki və ya daha çox uşağı olan valideynlər uşaqlarının hər birinin özünəməxsus şəxsiyyətləri və xasiyyətləri ilə dünyaya gəldiyini unutmamalıdırlar. Məsələn, iki bacı eyni xasiyyətə malik doğula bilməzlər. Bir qiz çox sakit ikən, digəri daha emosional ola bilər. Yer üzündəki hər insan biri-birindən fərqlidir. Heç kəsin tayı-bərabəri yoxdur. Heç vaxt iki dəfə eyni valideyn olmaq olmaz. Yəni hər valideyn uşağını tanımalı və buna uyğun rəftar strategiyasını seçməlidir. Övladları arasında fərq qoymamalıdırlar. Əks təqdirdə uşaqlar arsında qısqanclıq duyğusu baş qaldırar. Bu da ailə içi münaqişələrə səbəb ola bilər. Ailə münasibətləri uşaqğın məktəb və sosial həyatı ilə də sıx bağlıdır. Xoşbəxt ailə, xoşbəxt uşaq deməkdir. Ailədə baş verən söz-söhbətlər, şiddət və s. kimi hadisələr uşağın psixologiyasının pozulmasına, daha əsəbi, şiddətə meyilli və ya tam tərsinə içinə qapaniq, depressifolmasına, ailəsindən görə bilmədiyi sevgini, qayğını başqa yalnış insanlarda axtarmasına gətirib çıxara bilər. Həmin o yalnış insanlar isə uşağı səhv istiqamətləndirə bilərlər.

Xüsusi ilə də yeniyetmə yaş dövründə valideynlər uşaqlarına qarşı daha diqqətli olmalıdırlar. Uşağa çox da bəlli etmədən nəzarəti əldən verməməlidirlər. Bariz şəkildə uşağa nəzarətdə olduğunu hiss etdirmək, onu həyatdan və sosial çevrəsindən təcrid etməyə çalışmaq uşağı qorumaq demək deyil. Əksinə bu hal uşağın özgüvənsiz hiss etməsinə, valideynləri ilə

münaqişələrinə, asosiallaşmasına gətirib çıxarır. Valideynlər uşaqda hər hansı bir mənfi rəftar hiss etdiyi zaman gecikmədən qarşısını almalıdırlar. Uşağın məktəb müəllimləri ilə sıx qarşılıqlı əlaqədə olmalı, sosial çevrəsini, dostlarını tanımalıdır. Lazım gəldikdə, psixoloq və pediatrlardan dəstək almalıdırlar.

Uşağın davranışının çox hissəsinin onun temperamentini əks etdirdiyini qəbul etmək lazımdır.Uşaqla münasibətdə neytral və ya obyektiv bir emosional iqlim qurulmalıdır.

Ədəbiyyat

Caring for Your School-Age Child: Ages 5 to 12
By Gail O'Connor for Parents Magazine
Paul Chernyak"How to Handle Difficult Children"
https://www.healthychildren.org/English/ages-stages/gradeschool/Pages/Strategies-and-Solutions-For-Handling-A-Difficult-Child.aspx
https://www.parents.com/toddlers-preschoolers/discipline/some-kids-really-are-more-difficult-heres-why-it-happens-and-how-to-deal/
https://www.wikihow.com/Handle-Difficult-Children

Zeynalova Şəfəq

Çətin tərbiyə olunan uşaqların mahiyyəti, səbəbləri, problemləri

XÜLASƏ

Valideynlər uşaqlarına qarşı avtoritet rejim sərgiləməməlidir. Övladları ilə dost olmalıdırlar. Bu sayədə uşaq ətrafındakı kənar şəxslərin yalnış yönləndirməsindənsə, öz valideynləri ilə çəkinmədən, qorxmadan onu narahat edən bütün məsələləri bölüşə bilər. Valideynindən aldığı doğruməsləhətlər və istiqamət ilə uşaq üzləşdiyi və ya gələcəkdə üzləşə biləcəyi hər situasiyaya qarşı hazırlıqlı olar, daha düzgün addımlar atar.

Зейналова Шафаг

Суть, причины и проблемы трудных детей

РЕЗЮМЕ

Родители не должны демонстрировать авторитарные режимы против своих детей. Они должны дружить со своими детьми. Таким образом, ребенок может без страха делиться со своими родителями всеми волнующими его проблемами, а не быть введенным в заблуждение посторонними. При правильном совете и указании родителей ребенок будет подготовлен к любой ситуации, с которой он может столкнуться или может столкнуться в будущем, и предпримет более подходящие шаги.

Zeynalova Shafag

The essence, causes and problems of difficult children

SUMMARY

Parents should not show authoritarian regimes against their children. They should be friends with their children. In this way, the child can share with his parents all the issues that concern him, without fear, instead of being misled by outsiders. With the right advice and direction from the parent, the child will be prepared for any situation he may face or may face in the future, and will take more appropriate steps.

Məmmədova Nigar Elxan qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SOSİAL PEDAQOQUNFƏALİYYƏTİNİNMETODİKASI

Açar sözlər: *sosial pedaqoq, məktəbdə sosial pedaqoq, təhsil müəssisəsi sosial yardım, iş forması*

Ключевые слова: *социальный педагог, социальный педагог в школе, социальная помощь образовательного учреждения, форма работы*

Key words: *social pedagogue, social pedagogueat school, social assistance of an educational institution, work form*

Uşaqlara göstərilən yerli və xarici sosial yardım təcrübəsinin müqayisəli təhlili göstərir ki, əhalinin istənilən kateqoriyasında sosial yardımın kökündəuşağın tərbiyəsi, təhsili, inkişafıvə uğurlu sosiallaşma ilə əlaqəli pedaqoji komponentə sahib olmasıdır. Uşaqlara sosial yardım göstərməyə yönəlmiş fəaliyyət sosial və pedaqoji xarakter daşıyır və bir növ pedaqoji fəaliyyətdir.

Məktəbdəki sosial pedaqoq, uşağın inkişafında ailənin, təhsil müəssisəsinin, müxtəlif sosial qurumların qarşılıqlı əlaqəsini təmin etmək və çətin müasir şəraitə uyğunlaşmasına kömək etmək üçün fəaliyyət göstərən peşəkar mütəxəssisdir.

Məktəbin sosial pedaqoqu:

- uşağın psixoloji və yaş xüsusiyyətlərini, maraq və sosial dairəsini, yaşayış şərtlərini, mikro cəmiyyətin müsbət və mənfi təsirlərini öyrənir; sosial və pedaqoji problemlərin səbəblərini və mahiyyətini açıqlayır, yəni bir növ "sosial və pedaqoji diaqnoz" qoyur;
- müxtəlif sosial əhəmiyyətli fəaliyyət növlərini təşkil edir, asudə vaxtın məzmununa təsir göstərir, peşə seçiminə kömək edir, yeniyetmə və gənclərin cəmiyyətdəki fəaliyyətini təşkil edir;sosial və pedaqoji işlərdə tibb, təhsil, mədəniyyət, idman, hüquq qurumlarının peşəkar qarşılıqlı fəaliyyətini təşkil edir;
- şəxsiyyətin inkişafında mənfi təsirlərin qarşısının alınması və aradan qaldırılması üçün sosial və hüquqi, psixoloji, iqtisadi mexanizmləri nəzərə alır və aktivləşdirir;
- uşağın və ailənin hüquqi müdafiəsi, sosial və pedaqoji dəstəy sisteminin həyata keçirilməsini təmin edir.

Məktəbin sosial pedaqoqunun vəzifələrinədaxildir:təhsil müəssisəsində münasibətlərin (şagird, müəllim və s.) formalaşmasına kömək;cəmiyyətdə sosial və təhsil fəaliyyətinin təşkili, böyüklər və uşaqlar arasında müxtəlif növ əməkdaşlıq;münaqişə və sosial baxımdan çətin vəziyyətlərin vaxtında müəyyənləşdirilməsində və həllində uşaqlara və ailələrinə peşəkar yardım göstərilməsi;müxtəlif dövlət, ictimai strukturlarla münasibətlərdə uşaqların, onların ailələrinin maraqlarının təmsil olunması və qorunması;səlahiyyətləri daxilində iş aparmaq.

Sosial pedaqoqun peşəkar bacarıqlarını artırmaq üçün işini və onun nəticələrinin sistematik şəkildə qeyd edilməsi böyük əhəmiyyətə malikdir. Sənədləşmə, fəaliyyətinin uçot formaları, bir qayda olaraq yuxarı orqanların tövsiyələrinə uyğun olaraq aparılır və ən yaxşı təcrübələr və ənənələr nəzərə alınmaqla seçilir.Məktəbin, uşaq kollektivinin sosial və pedaqoji xüsusiyyətləri, uşaqların tibbi, psixoloji və pedaqoji xüsusiyyətləri haqqında sənədlər; məktəb rəhbərliyi tərəfindən təsdiqlənmiş uzunmüddətli iş planı və s. sosial pedaqoqun istifadə etdiyi əsas sənədlərdir. İş planlarının hazırlanmasından əvvəl məktəbin sosial-pedaqoji tədqiqatı aparılır, çünkiməktəb sosial pedaqoqun peşə fəaliyyəti üçün məlumat bazasıdır.

Məktəbin sosial pedaqoqun işinin istiqamətləri və formaları onun iş metodlarının məzmun tərəfini üzə çıxarır. Aşağıdakı əsas metodları və iş sahələrini ayırmaq olar:

- şagirdlərin şəxsiyyətinin tibbi-psixoloji və sosial-pedaqoji xüsusiyyətlərinin, həyat şəraitinin, mikro mühitin xüsusiyyətlərinin öyrənilməsi;
- risk altında olan uşaqların müəyyənləşdirilməsi;
- məktəb və sosial ədalətsizliyin, deviant davranışlar və hüquq pozuntularının qarşısının alınması üçün profilaktik işlərin həyata keçirilməsi;
- şagirdlərin hüquqi təhsilinin həyata keçirilməsi;
- şagirdlərin deviant davranışlarının düzəldilməsi və reabilitasiyası üçün proqramların hazırlanması və həyata keçirilməsi;
- uşağın tərbiyəsi və şəxsiyyətinin inkişafı problemlərini birlikdə həll etmək üçün şagirdlərin ailələri ilə qarşılıqlı əlaqə;

➢ şagirdlərin hüquq və azadlıqlarının həyata keçirilməsinə şərait yaratmaq üçün psixoloqlar, müəllimlər, sinif rəhbərləri ilə qarşılıqlı əlaqə;

➢ yetkinlik yaşına çatmayan uşaqların qarşılaşdıqları münaqişə vəziyyətlərinin qarşısının alınması və həlli;

➢ hüquq-mühafizə orqanları, sosial müdafiə və məşğulluq xidmətləri, tibb müəssisələri, ictimai, xeyriyyə təşkilatları və s. ilə qarşılıqlı əlaqə;

➢ pedaqoji şuraların və metodiki birliklərin işində iştirak.

Məktəbin sosial pedaqoqun işinə valideynlərlə iş müxtəlif formalarda ola bilər:

1. Valideynlərin hüquqi məlumatların verilməsi:

➢ valideynlərə uşaq hüquqlarının qorunması və uşağın tərbiyəsi ilə bağlı vəzifələri barədə normativ hüquqi sənədlərlə tanışlığı;

➢ yetkinlik yaşına çatmayanların işləri üzrə komissiya üzvləri ilə qarşılıqlı əlaqə;

➢ münaqişə və münaqişə öncəsi vəziyyətlərdə olan valideynlərlə fərdi iş;

2. Valideynlərlə maarifləndirmə işi (müxtəlif profilli mütəxəssislərlə görüşlərin təşkili).

3. Dəstək qruplarının yaradılması, qarşılıqlı yardım, valideynlərin məktəb həyatı prosesinə cəlb edilməsi.

Sosial pedaqoq həm də məktəbin müəllim heyəti ilə iş aparmalıdır. Bütün məktəb işçiləri uşaq və ailəsi ilə birbaşa əlaqəlidirlər, bu səbəbdən də sosial pedaqoqun hər biri ilə əlaqə və əməkdaşlıq qurması lazımdır. Bu cür peşəkar qarşılıqlı fəaliyyətin əsas məqsədi uşağın maraqlarını qorumaq, onun fərdi inkişafı üçün optimal şərait yaratmaqdır.Bu istiqamətdə iş formalarına: sinif rəhbərləri ilə söhbətlər; məsləhət; iş oyunları; müəllim heyətinin birliyini müəyyənləşdirmək üçün təlimlər; "çətin uşaqlar", "çətin valideynlər" ilə işləmək üçün peşəkar texnikanın inkişafı; müəllimlərin iş təcrübəsinin mübadiləsi üçün şərait yaradılması və s.

Ədəbiyyat

1. Мардахаев Л.В. Социальная педагогика: Учебник. – М.:Гардарики, 2006.

2. Никитина Н.И., Глухова М.Ф. Методика и технология работы социального педагога: М.: Владос, 2007.

3. Социальная педагогика / Под ред. В.А. Никитина. М., 2000.

Ümumtəhsil məktəblərində sosial pedaqoqunfəaliyyətinin metodikasi

XÜLASƏ

Sosial pedaqoqun peşəkarlığı həm şəxsiyyətin ləyaqətini, həm də "problem sahəsini" müəyyənləşdirmək, onun inkişafı üçün mümkün variantları proqnozlaşdırmaq, motivasiyaya müsbət təsir göstərmək, özünütərbiyə və özünü inkişaf etdirmə proseslərini aktivləşdirmək qabiliyyətində özünü göstərir. Məktəbin sosial pedaqoqu uşağın daxil olduğu sosial mikrosistemin dəyər istiqamətlərini, ehtiyaclarını və davranışını müəyyənləşdirə və sosial rollarını təyin edə bilməlidir. Həqiqətən də geniş mənada peşəkar sosial pedaqoqun fəaliyyəti fərdin mənəvi sferasının formalaşmasına və inkişafına, həyatda öz müqəddəratını təyinetmədə kömək edir.

Методика социальной педагогической деятельности
в общеобразовательных школах

РЕЗЮМЕ

Профессионализм социального педагога выражается в умении определять как достоинство личности, так и "проблемную зону", прогнозировать возможные варианты ее развития, оказывать положительное влияние на мотивацию, активировать процессы самообразования. и саморазвитие. Социальный педагог школы должен уметь определять социальные роли, которые определяют ценностные ориентации, потребности и поведение социальной микросистемы, в которую вовлечен ребенок. Ведь деятельность

профессионального социального педагога в широком смысле способствует формированию и развитию духовной сферы личности, самоопределению в жизни.

Methods of social pedagogical activities in general educational schools
SUMMARY

The professionalism of a social pedagogue is expressed in the ability to determine both the dignity of a person and the "problem area", predict possible options for its development, have a positive effect on motivation, and activate the processes of self-education and self-development. The social pedagogue of the school must be able to determine the social roles that determine the value orientations, needs and behavior of the social microsystem in which the child is involved. After all, the activity of a professional social pedagogue in a broad sense contributes to the formation and development of the spiritual sphere of the individual, self-determination in life.

Məmmədova Nigar Elxan qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

SOSİAL PEDAQOQ PEŞƏKAR FƏALİYYƏTİN SUBYEKTİ KİMİ

Açar sözlər: *sosial pedaqoq, sosial və pedaqoji fəaliyyət, sosialiş, peşəkar fəaliyyət, peşə mədəniyyəti, psixoloji hazırlıq*

Ключевые слова: *социальный педагог, социально-педагогическая деятельность, социальная работа, профессиональная деятельность, психологическая готовность*

Key words: *social pedagogue, socio-pedagogical activity, social work, professional activity, psychological readiness*

Sosial pedaqoqun peşəkar fəaliyyəti - uşağın həyatının sosial və situasiya çətinliklərini dərindən bilən, ona kömək edə bilən, ümumi nəzəri və xüsusi biliklər kompleksini,zəruri bacarıqların məcmusunu mükəmməl mənimsəyən mütəxəssisdir. “Sosial pedaqoq” peşəsinin ümumi spesifik xüsusiyyətləri və xüsusi qabiliyyətlərinə müşahidə, vəziyyəti tez bir zamanda idarə etmək bacarığı, intuisiya, empatiya (özünü başqa bir insanın yerində təsəvvür etmək və hisslərini, istəklərini, fikirlərini və hərəkətlərini anlamaq bacarığı), əks olunma və özünü idarəetmə aid etmək olar. Bundan əlavə, sosial pedaqoq sosial sahədəki bütün işçilər üçün ünsiyyətə açıq, mehriban, insanlarla işləmək marağı, nikbinlik və mübahisəli məsələdə çıxış yolu tapmaq bacarığı kimi peşəkar keyfiyyətlərə sahib olmalıdır. Əlbəttə ki, bunlara əlavə olaraq ünsiyyət keyfiyyətlərini, başqa sözlə - ünsiyyət qurma qabiliyyəti mütəxəssisin ən vacib peşə keyfiyyətlərindəndir. Sosial pedaqoqun fərdi xüsusiyyətlərini təyin edərkən, onun “subyekt-subyekt” sferasında işlədiyini unutmamaq lazımdır ki, bu da insanlararası münasibətlər sistemində uğurla fəaliyyət göstərmək qabiliyyətini nəzərdə tutur. Sosial pedaqoqun aşağıdakı şəxsi keyfiyyətlərini ayırd etmək olar:

- humanist keyfiyyətlər (mehribanlıq, altruizm, özünə hörmət və s.);
- psixoloji xüsusiyyətlər (zehni proseslər, sabit zehni vəziyyət, yüksək səviyyədə emosional olmamaq və s. xüsusiyyətlər);
- psixoanalitik keyfiyyətlər (özünü idarəetmə, özünü tənqid, və s.);
- psixoloji-pedaqoji keyfiyyətlər (ünsiyyət, empatiya, müşahidə və s.).

Sosial pedaqoqun ixtisas xarakteristikası üç hissədən ibarətdir: “işinə olan məsuliyyəti”, “ixtisasını bilməsi” və “ixtisasın tələbləri”.

Birinci hissədə, “işinə olan məsuliyyəti”uşağa sosial pedaqoq tərəfindən göstərilən yardımın əsas növləri daxildir:

- uşaqların sosial müdafiəsi, sosial fəaliyyət və göstərdikləri xidmətlər haqqında məlumat verməyə yönəlmiş sosialyardım və dəstək;

➢ insan hüquqlarına və uşağın hüquqlarına hörmət etməyə yönəlmiş sosial və hüquqi yardım, uşaqların müxtəlif kateqoriyaları üçün hüquqi təminatların həyata keçirilməsinə, uşaqların mənzil, ailə, əmək və mülki işlərdə hüquqi tərbiyəsinə kömək;

➢ ehtiyacı olan uşaqların psixoloji, mənəvi, emosional vəziyyətini və sağlamlığını bərpa etmək üçün mərkəzlərdə, komplekslərdə, xidmətlərdə və digər müəssisələrdə reabilitasiya xidmətlərinin göstərilməsinə yönəlmiş sosial və reabilitasiya yardımı;

➢ risk altında olan ailələrdə yaşayan uşaqların yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəlmiş sosial yardım;

➢ müavinətlərin, kompensasiyaların, uşaqlara ünvanlı yardımın göstərilməsinə, yetim uşaqlara və uşaq evlərinin məzunlarına maddi dəstək verməyə yönəlmiş sosial-iqtisadi yardım;

➢ xəstə uşaqların qayğısına qalmaq və onların sağlamlığının nəzərə alınması, alkoqolizm, yetkinlik yaşına çatmayanların narkotik asılılığının, risk qrupuna aid uşaqların tibbi və sosial himayəsinə yönəldilmiş tibbi və sosial yardım;

➢ uşağın yaşadığı ailədə və mikromuhitdə (məktəbdə, başqaları ilə münasibətlərdə) əlverişli mikroiqlim yaratmağa yönəlmiş sosial-psixoloji yardım;

➢ valideynlərin uşaq böyütmə hüququnun reallaşdırılması üçün lazımi şəraitin yaradılması; uşaqların valideynlər, həmyaşıdları, müəllimlərlə münasibətlərində pedaqoji səhvlərin və münaqişə vəziyyətlərinin aradan qaldırılması; uşaq evsizliyi və laqeydliyi yaradan münaqişə vəziyyətlərinin qarşısının alınması;uşaqların inkişafı və tərbiyəsini təmin etmək məqsədi ilə sosial və pedaqoji yardım və s.

Uşağa yardımın hərtərəfli olması və uşaq problemlərinin müxtəlif aspektlərini (sosial, hüquqi, psixoloji və s.) həll etmək üçünbir neçə mütəxəssislə konsultasiya ilə təmin etmək olar.

Sosial pedaqoq "ixtisasını bilməlidir" ixtisas xarakteristikasının ikinci hissəsi birinci hissədə müəyyən edilmiş yardım növlərini təmin etmək üçün zəruri olan nəzəri bilik və bacarıqların vəhdətini əks etdirir.

Peşəkar səlahiyyətlərə aşağıdakılar daxildir:

➢ fəaliyyətin tənzimləyici bazası (qanunlar, nizamnamələr, fərmanlar, sərəncamlar, təlimatlar, sosial müəllimin fəaliyyətinin sosial-hüquqi və sosial-iqtisadi əsasları, uşağa yardım göstərən təşkilatlar);

➢ müxtəlif ölkələrdə müxtəlif kateqoriyalı uşaqlarla iş üzrə sosial və pedaqoji fəaliyyətin metod və texnologiyaları;

➢ uşağın şəxsiyyətini, onun fiziki, mənəvi və sosial inkişafını, normal və deviant davranışlarını öyrənən inkişaf psixologiyası;

➢ sosial idarəetmə metodları və peşəkar tədqiqat fəaliyyətlərinin planlaşdırılması və s.

Sosial pedaqoqun peşəkar bacarıqlarına aşağıdakılar daxildir:

➢ cəmiyyətdə baş verən proseslərin nəzəri təhlilini özündə cəmləşdirən və uşağın vəziyyətinə və inkişafına mənfi təsir göstərən analitik bacarıqlar;

➢ uşağın problemini (əvvəl ortaya çıxan problemi nəzərə alaraq uşağın şəxsiyyətinin inkişafını proqnozlaşdırmaq) xüsusi təşkil olunmuş sosial və pedaqoji fəaliyyətə cəlb etməklə həll etməsini proqnozlaşdırmaqla proqnoz bacarıqları;

➢ həyata keçirilməsi planlaşdırılan nəticəni təmin edəcək fəaliyyətin konkret məzmununu müəyyənləşdirməyi özündə ehtiva edən proyektiv bacarıqlar (uşaqların, yeniyetmələrin və gənclərin xüsusi ehtiyaclarını, maraqlarını, münasibətlərini, motivlərini, onların məmnunluq dərəcələrini nəzərə alaraq, məqsədə çatmaq üçün məzmun, metod və vasitələri seçərək sosial-pedaqoji fəaliyyət proqramı yaratmaq)

➢ sosial pedaqoqun hər mərhələdəki fəaliyyətdə özünü təhlil etməsini, müsbət və mənfi tərəflərini və əldə edilən nəticələrin uşağın şəxsiyyətinə təsir dərəcəsini və probleminin həllini özündə əks etdirən əks etdirmə bacarıqları;

➢ ünsiyyət bacarıqları, şəxsiyyətlərarası ünsiyyət mədəniyyəti və o cümlədən uşağı məqsədli və diqqətlə "dinləmək" bacarığı.

"İxtisas tələbləri"isəmüəyyən ixtisas tələblərinə yiyələnmək üçün sosial pedaqoqa təqdim olunan peşə ilə bağlıbiliklər və zəruri tələblər daxildir.Sosial pedaqoqun sosial və pedaqoji fəaliyyətin təhlili və ümumiləşdirilməsi təşkilati və metodiki fəaliyyətdə özünü göstərir. Bu ixtisas günümüzdə ictimai rəy tərəfindən lazımi dərəcədə qəbul olunmur, buna görə də sosial pedaqoq peşə fəaliyyətinə psixoloji hazırlığının rolu, şübhəsiz ki, onun peşəkar fəaliyyətində xüsusi yer tutur. Peşə baxımından vacib keyfiyyətlər sosial pedaqoqun peşə fəaliyyətinin xüsusiyyətləri ilə fərdi psixoloji unikallığını müəyyənləşdirir. Sosial və pedaqoji problemlərə dair seminar və konfranslarda iştirakı; metodik ədəbiyyatın, elmi və təcrübəbə olan nailiyyətləri, habelə sosial və pedaqoji tədqiqatların nəticələrinə əsaslanan sosial iş metodları haqqında məlumatların toplanması ixtisas tələblərinə aiddir.

Ədəbiyyat

1. Коджаспирова, Г. М. Культура профессионального самообразования педагога/ Г.М. Коджаспирова - М.: Наука и жизнь, 2000.

2. Гуров, В.Н. Опыт организации социально-педагогической работы/ В. Н. Гуров // Педагогика, 2003.

3. Калачева, И.И. Профессиональное становление школьных социальных педагогов: этнопсихологические аспекты / И. И. Калачева. - М., "Альтаир" 2000.

4. http://extusur.net/content/5_socpedagog/4_3.html

Sosial pedaqoq peşəkar fəaliyyətin subyekti kimi

XÜLASƏ

Sosial pedaqoq yüksək mədəni, məsuliyyətli, geniş profilli, daima özünü inkişaf etdirən mütəxəssisdir. Uşaqlar üçün təhlükəli inkişaf meyllərini zəiflədir, fərdin müsbət inkişafı üçün lazımi dəyərləri gücləndirir, yetkinlik həyatına uğurlu daxil olması üçün hər cür şərait yaradır.Yeniyetmələr, ailələr və əhalinin digər həssas qrupları ilə sosial iş, yaş, psixoloji və sosial xüsusiyyətləri nəzərə alınmaqla metod və formalarından istifadə etmək üçündaim ixtisaslarında olan yenilikləri izləməlidir.

Социальный педагог как субъект профессиональной деятельности

РЕЗЮМЕ

Социальный педагог - высококультурный, ответственный, широкий кругозор, постоянно саморазвивающийся специалист. Он ослабляет опасные для детей тенденции развития, укрепляет ценности, необходимые для позитивного развития личности, создает все условия для успешного вступления во взрослую жизнь. Подростки, семьи и другие уязвимые группы населения должны постоянно следить за нововведениями по своим специальностям с целью использования их методов и форм с учетом социальной работы, возрастных, психологических и социальных особенностей.

Social teacher as a subject of professional activity

SUMMARY

A social teacher is a highly cultured, responsible, broad-minded, constantly self-developing specialist. It weakens developmental tendencies that are dangerous for children, strengthens the values necessary for the positive development of the individual, creates all the conditions for a successful entry into adulthood. Adolescents, families and other vulnerable groups of the population should constantly monitor innovations in their specialties in order to

use their methods and forms, taking into account social work, age, psychological and social characteristics.

Adullayeva Kamilə Ramil qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Əliyev Ramiz

AİLƏDAXİLİ KONFLİKTLƏRİN YARANMASƏBƏBLƏRİ VƏ ARADAN QALDIRILMASI YOLLARI

Açar sözlər: *münaqişə, ailə münasibətləri, tələbat, problemli ailə*
Ключевые слова: *конфликт, семейные отношения, потребность, неблагополучные семьи*
Key words:*conflict, family relationships, need, troubled families*

Ailədaxili konfliktlərşəxsiyyətlərarası münasibətlərindən asılı olmaqla, ər və arvad, valideynlər və uşaqlar, ər-arvad ilə onların valideynləri və s. arasında olur.

Təcrübə göstərir ki, ailədaxili konflikt əsasən ər və arvad arasında baş verir. Bir sıra hallarda isə onların valideynlərinin ailənin daxili işlərinə qarışması səbəbindən meydana çıxa bilər. Ər və arvadın arasında konfliktin baş vermə səbəbləri arasında bir-birlərinə olan tələbatının tam ödənilməməsi səbəb olur. Bu cür Konfliktlərin başlıca motivlərindən aşağı-dakılar daha çox özünü göstərir:

- öz "Mən"inin tələblərinin ödənilməməsi, bir-birlərinin «Mən» hissinə diqqət göstərilməməsi;
- müsbət emosiyalar üzrə olan tələbatlarınödənilməməsi;
- subyektlərdən birinin öz tələbatlarının ödənilməsi üçün daha çox tələbkarlığı;
- ailə təsərrüfatı, övladların tərbiyəsinə, öz ata-analarına münasibətdə bir-birlərinin tələbatlarının anlaşılmaması və s.;
- asudə vaxtın təşkilinə ər-arvadın tələblərinin müxtəlifliyi və s [4, s.254].

Psixoloqlar ailədaxili konfliktləri iki yerə bölürlər: pozitiv və neqativ. Neqativ olan əgər qarşısı alınmasa sonda ailənin dağılmasına səbəb olur. Povitiv isə təbii hal sayılmaqla hətta ailənin möhkəmlənməsinə xidmət edir.

Ailə konfliktlərinin özünə məxsusluğu, ailə münaqişələrinin baş verməsi ilə davam etməsinin cəhətlərini şərtləndirməklə, o cümlədən onun üzvlərinin hamısının sosial və psixi səhhəti üzrə xüsusi olaraq təsir göstərir.

Ailədəki konfliktlər ailə üzvlərinin bir-birlərinə qarşı qoyulmuş tələbvə görüşlərin toqquşması nəticəsində ailə üzvlərinin arasında olan münasibətlər deməkdir. Onların belə konfliktlərin qarşısının alınması və həlli zamanı nəzərə alınması önəmlidir.

Ailə həyatındakı birinci il. Bu dövr ər iləarvadın bir-birinə adaptasiyası dövrüdür. Bu, iki "mən"in birləşib tək "biz" olmasıdır.Bu halda hisslər inkişaf edir, eşqin, məhəbətin bir qədər azalması, şəxslərin həyatda olduğu kimi dərk edilməsi başlayır. Bu dövr gənc ailələrdə tez-tez qarşıdurmalar yarana bilər. Həmin dövrdə hər iki şəxsin ata-anası gənc ailəyə dəstək olmalıdır. Ona görə ki, yeni qurulan ailə iki-üç il ərzində ancaq tamamilə formalaşır.

İkinci böhranlı dövr. Ailədə ilk uşağınanadan olmasıyla bağlıdır. Hələki, tam möhkəmlənməyən "biz" sistemi bir çox imtahanlarla rastlaşır. Gəlin nəzər yetirək; bu halda baş verən konfliktlərin kökünü nə təşkil edir?

- uşaqların tərbiyəsi üzrə ərlə-arvadın fikirlərinin fərqli olması ;
- uşağa xidmətlərləəlaqəli qadının yorğunluğu (özünə fikir verməməkvə.s);
- onların fəaliyyəti üzrə şəxsi maraqları ilə əlaqəli fərqlilik;
- kişidə sosial inkişaf baş verir, qadında isə tamamilə əksinə.

Üçüncü böhranlı dövr. Ər və arvadın bir yerdə olmasının orta illərinə təsadüf edilir. Şəxslərin bir-birindən doyma halı baş verir. Duyğularda yenilik olmur. Həmin dövrə hətta duyğuların və hisslərin aclıq dövrü də deyilir.

Dördüncü böhranlı dövr. Ər və arvadın əlaqələrində konfliktlər təqribən 18-24 illik ailə həyatı sonrasıyaranmağa başlayır. Bunun yaranma səbəbi uşaqların ailədən getməsi (evlənmələri, xaricdə oxuması və s.) ilə yalnızlıq hissinin baş qaldırması, qadının emosional asılılığının çoxalması və s. səbəblərlə əlaqəli olur [4, s.266].

Nəticədə ərlə-arvadın arasındakı konfliktlərin əmələ gəlməsində xarici ünsürlərin də təsiri var. Ər yaxud arvadın isə həddən çox vaxt ayırmaması, iqtisadi problemlər, ailə subyektlərindən birinin işləməməsi, yaşayış üçün evin olmaması və s.

Bunlarla birgə, makro ünsürlər də ailədə konfliktlər yarada bilir. Məsələn, cəmiyyətdə sosial durum, mənəvi dəyərlərə qiymət verilməməsi, ailədə qadına qarşı ənənəvi halın dəyişilməsi, qadının iqtisadiyyat baxımdan müstəqilliyi, maliyyə məsələləri və s.

"Hər şeydən əvvəl, ailə konfliktləri spesifik obyektlərlə seçilir, onların xüsusiyyəti ailə münaqişələrinin unikallığı ilə şərtlənməkdədir. Həmin münasibətlərin əsas cəhəti bundan ibarətdir ki, onların əsas mənasını şəxsiyyətlər arası, həmçinin ailənin funksiyasının realizə olunması ilə əlaqəli olan hüquqi və mənəvi öhdəçiliklər təşkil edir" [1, s.145].

Ailə konfliktləri öz səbəblərinə əsasən fərqlənir. Onlardan önəmlisi:

- ailə üzvlərinin aktivliyinin, özünüifadə etməsi müstəqilliyinin məhdudlaşdırılması;
- ailənin bir, yaxud bir neçə üzvünün hərəkətinin qəbul olunmuş normalardan kənara çıxması;
- əks maraqların, meyllərin varlığı, ailə üzvlərindən birinin tələbatının ödənilməsi imkanlarının məhdudluğu;
- bütünlükdə ailədə qarşılıqlı münasibətlərin avtoritar, sərt forması;
- çətin həll olunan maddi problemlərin varlığı;
- ər-arvad əlaqəsinə qohumların avtoritar qarışmağı və s.

Tədqiqatçılar göstərirlər ki, ailə konflintlərinin yaranması, dərinliyi və onların yönündən asılı olmaqla böhranlı, konflktli, problemli, nevrotik xarakterli ailələr olur [4, s.256].

Böhranlı ailədə. Ərlə-arvadın maraq və tələbləri çox ciddi olaraq toqquşur və bu vəziyyət ailədə həyati fəaliyyətinəsas sahələri üzrə öz təsirini göstərir. Bu halda onlar barışmır, güzəş etmək istəmirlər. Bu cür ailələr ya dağılır, ya da dağılma ərəfəsindədir.

Konfliktli ailədə. Ər-arvad arasında bəzi sahələr vardır ki, orada hər zaman maraqlar toqquşur və uzun müddət baş verən güclü və neqativ emosional vəziyyət özünü büruzə verir. Ailə, kəbin, kompromistlər, eləcə də digər səbəblər hesabına qorunub saxlanılır.

Problemli ailə. Burada kəbininin möhkəmliyinə hiss olunacaq zərbə səviyyəsinə gətirib çıxarmış uzun müddətli çətinlinlər xarakterik sayılır. Məsələn, mənzilin olmaması, ailədəki şəxslərin birinin uzun çəkən xəstəliyi, ailəni saxlamaq üçün vəsaitin olmaması, uzun müddətli tabeçilik və s. Bu cür ailələrdə münasibətlərin toqquşması və psixi pozuntuların yaranması özünü göstərir.

Nevrotik ailə. Bu tip ailələrdə ər və arvadın psixikasında irsən keçmiş psixi pozğunluq əsas səbəbdir. Psixoloji çətinlinlər özünü göstərir. Ər-arvadın hərəkətlərində, münasibətlərində ciddi narazılıq halları, yuxusuzluq, hadisə üzrə emosional münasibət, həddindən çox aqressivlik və s. özünü göstərir.

Ər və ya arvadın xarakterinin konfliktliyi açıq və gizli formada özünü göstərə bilir. Gizli konfliktin göstəriciləri aşağıdakılardır: nümayişkaranə danışmamaq, sərt jest və ya acıqlı nəzərlə baxmaq, razı olmamaq işarəsi ailə həyatının hansısa sahəsində münasibətlərin baykot olması, münasibətlərdə aşkar olunan soyuqluq və s. Açıq konflikt qeyri-mədəni formada özünü göstərir: hər ikişəxs bir-birini sözlərlə təhqir edir, nümayişkaranı hərəkət edir [3, s.211]. Məsələn: qapını çırpır, yumruqlarını stola vurur, fiziki üsullarla təhqir edir və s.

Aparılan araşdırmalar göstərir ki, ailənin sosial-iqtisadi şəraitinin optimallaşdırılması heç də həmişə ailənin stabilliyinə gətirib çıxarmır. Ailənin stabilliyinin pozulub dağılmasına

əsas səbəb sosial-psixoloji faktorlardır ki, onlar da ərlə arvadın əlaqəli fəaliyyətlərində baş verən konfiliktlərdə özünü göstərir [2, s. 121].

Göründüyü kimi, ailədaxili konfliktlər bir sıra səbəbdən baş verə bilər, vaxtında qarşısı alinmadıqda ailənin dağılması, boşanma qaçılmaz olur.

Ədəbiyyat

1. Abbasov.A.N.Milli əxlaq və ailə etikası. universitetlərin magistratura pilləsi üçün dərslik. Bakı: Mütərcim, 2016, 320 s
2. Əlizadə.Ə.Ə, Abbasov.A.N.Ailə həyatının etika və psixologiyası. Bakı: Maarif, 1988, 189 s
3. Mirzəyev.İ.Ə.Ailənin praktik psixologiyası. Dərs vəsaiti Bakı: Adiloğlu, 2005, 312 s
4. Mirzəyev.İ.Ə. Ailənin sosial psixologiyası. Dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2011, 639 s

Причины семейных конфликтов и способы их преодоления

РЕЗЮМЕ

В статье изучаетсявзаимоотношений субъектов семейного конфликта: муж и жена, родители и дети, супруги и их родители и т. д. Отношения между двумя странами обсуждаются. Основной причиной конфликта в семье является тот факт, что муж и жена не отвечают их потребностям. Уникальность семейного конфликта также влияет на социальное и эмоциональное благополучие всех его членов, обеспечивая при этом характеристики продолжения семейных конфликтов. Семейный конфликт - это отношения между членами семьи, основанные на противоречивых тенденциях и встречах.

Causes of family conflicts and ways to overcome them

SUMMARY

In this article therelationship whichis betweenfamily subjects: husband and wife, parents and children, spouses and their parents is learnt. The relationship between the two countries is discussed. The mainfact in the familyconflict is that the spouses do not meet each other`s needs. The peculiarity of the family conflict also influences the social and emotional well-being of all its members, while providing the characteristics of the continuation of family conflicts. Family conflict is the relationship between family members based on conflicting tendencies and meetings.

Adullayeva Kamilə Ramilqızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Əliyev Ramiz

AİLƏLƏRDƏ SOSİAL KONFLİKTLƏRİN AİLƏ-NİKAH MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

Açar sözlər: *ailə, münasibətlər, konflikt, nikah, boşanma, boşanmanın səbələri*
Ключевые слова: *семья, отношения, конфликт, брак, развод,причины развода*
Key words: *family, relationship, conflict, marriage, divorce, reasons for divorce*

Ailələrdə sosial konfliktlərin ailə-nikah münasibətlərinə təsirini müəyyən etmək üçün ilk növbədə nikah və boşanmalar haqqında məsələlərin qanun tərəfindən tənzimlənən problemlərini diqqət mərkəzinə gətirmək vacibdir.

Azərbaycan Respublikasında ailə qurmaq üçün qanunla müəyyənləşdirilmiş minimum yaş həddi18 yaş müəyyən olunur. Üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Nikah tarixi

Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri tərəfindən qeydiyyatdan keçmə tarixi hesab edilir. Nikahın pozulması qeydiyyatdan keçirildiyi andan pozulmuş hesab edilir.

Nikah - kişi və qadının bir-birlərinə qarşı vəzifə və hüquqlarını müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələrində qeyd etdirilməsidir.

Boşanma (nikahın pozulması) –Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

Bildiyimiz kimi, boşanma qəfil yaranan hadisə deyil. Ailədə uzun və ya qısa müddətdə yaranan gərgin konfliktli vəziyyətlərin yekunudur.

Müasir dövrdə boşanmaların sayı digər dövrlərə nisbətən çoxdur. Ailələrdə boşanmaya gətirib çıxaran səbəbləri müəyyənləşdirmək üçün bir sıra məqamlara diqqət yetirəmək lazımdır.

Tədqiqatçılar ailənin dağılmasına, boşanmalara gətirib çıxaran sosial kofliktləri 3 qrupa ayırırlar:

1) Maddi – məişət problemləri;
2) Şəxsi münaqişələr;
3) Xarici təsirlər.

Maddi-məişət problemləri dedikdə ailənin yaşayış tərzi ilə bağlı meydana çıxan müxtəlif çətinlikləri nəzərdə tutulur. Yaşayış şəraitinin çətinliyi, tərəf müqabillərdən birinin ailə təsərrüfatını idarə etmək istəməməsi və ya bunu bacara bilməməsi, maddi təminatın zəif olması və digər müvafiq problemlər ailələrin dağılmasına səbəb olan mənfi amillərdən sayılır. Bu kimi problemlərin davamlı hal alması,ailədə ağır maddi-mənəvi sıxıntılar doğurur.

Şəxsi münaqişələr də ailələrin dağılmasında həlledici rol oynayır. Kobudluq, qısqanclıq, inamsızlıq, şübhələr, ilkin sevgi hissinin itirilməsi, həyata fərqli baxışlar zəminində yaranan şəxsi ziddiyyətlər ailə həyatına mənfi təsir göstərir. Kobudluq, saymamazlıq və hörmətsizlik sadalanan amillər sırasında aparıcı yeri tutur. Bu amillər nəticədəsində ailədə qarşılıqlı laqeydlilik, yadlaşma baş verir.

Müasir dövrdə boşanmanın səbəblərinə düşünmədən, tələsik qurulan nigahların və erkən nigahların qurulmasını aid etmək olar. Erkən nigah boşanma riskini yüksəldən amillərdəndir. 20 yaş və yuxarı yaşda qurulan ailə ilə müqayisədə erkən yaşlı nikahların pozulmasına daha çox təsadüf olunur.

Nigah yönəlişliyi də ailənin dağılmasına təsir göstərən amillərdəndir. Bu yönəlişliyin pozitiv istiqamətdə aparılması üçün ailədə, məktəbdə ciddi maarifləndirmə işləri aparmalıdır. Postmodernizm şəraitində ailəyə hazırlıq cəmiyyətin və insanların əsas problemlərindən və ya vəzifələrindən biri olmalıdır.

Ailələr üçün maaşların az olması, işsizlik, ev almaq perspektivinin olmaması və s. istər-istəməz ailədaxili gərginliyə səbəb olur. Boşanmaların bünövrəsi əsasən bu səbəblərdən yaranır.

Çox zaman gənc ailə öz-özünün problemlərini həll edə bilmir, sosial təzyiqə məruz qalır. Nəticə isə acınacaqlı olur, ailə dağılır. Bu amillər nəzərə alınmalı, ailədə konflikt yaradan amillərin aradan qaldırılmasına çalışılmalıdır. Ailə bu işlərin öhdəsindən vaxtında gəlməlidirlər. Çünki müəyyən vaxtdan sonra onların təsiri heç nəyə yaramır.

Boşanma hadisəsinəmənfi hal kimi yanaşmaq da metodoloji baxımdan düzgün deyildir. Belə ki, bəzi hallarda boşanma şans kimi dəyərləndirilməlidir. İnsanlar bir-birləri ilə bir yerdə yaşaya bilmirlərsə, ondaboşanma hər iki tərəfə şans verir ki, həyatını təzədən qursun.

Ailənin qorunub saxlanması hər bir cəmiyyətin vacib vəzifələrindən biridir. Bu ölkənin demoqrafik inkişafı üçün əsaslı amildir.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının Ailə məcəlləsi. Bakı:2006, 63s
2.Çelebiyev.N.Z Ailə psixologiyası. Dərs vəsaiti. Bakı:Mütərcim,2015, 358s
3.Abbasov.A.N Milli əxlaq və ailə etikası. Bakı:Mütərcim,2008, 249s

Влияние социальных конфликтов в семье на семейно-брачные отношения

РЕЗЮМЕ

В работе изложены конфликты касающихся семейно-брачных отношений. Конфликт вызывается какой-то сложной для супругов проблемой. Они специфичны для разных стадий развития семьи. Наиболее существенна роль конфликта в период формирования семьи, когда супруги только начинают приспосабливаться друг к другу. Именно на этом этапе важно определить способы и пути решения конфликтных ситуаций.

Influence of social conflicts in the family on family and marriage relations

SUMMARY

This article is about conflicts that influence family and marriage relations. Difficult problems cause to the conflict for the spouses. They are specific to the different stages of family development. The most significant role of the conflict during the formation of the family, when the spouses are just beginning to adapt to each other. In this stage it is important to determine the ways and metods of resolving conflict situations.

Hacıyeva Aysel Kamandar qızı
Elmirəhbər:dos. Abdinova N.C

AİLƏ MÜHİTİ VƏ YENİYETMƏLƏRİN HƏYATINDAONUN ROLU

Açar sözlər: *ailə atmosferi, valideyn,yeniyetmə,tərbiyə*
Ключевые слова: *семейная атмосфера, родитель, подросток, воспитание*
Key words: *family atmosphere, parent, adolescent, upbringing*

Ailə tərbiyəsi ailə mühitinin və ailədəki yetkin üzvlərin uşağa, və ya yeniyetməyə sistematik və məqsədyönlü təsiridir. Ailə tərbiyəsinin əsas və ümumi məqsədi yeniyetməni mövcud sosial şəraitə hazırlamaqdır. Dar perspektivdən baxdıqda isə spesifik məqsədailədəki yeniyetmələrin normal şəxsiyyət kimi inkişafı üçün lazım olan bilik, bacarıq və vərdişlərlə təmin olunmasıdır. Ailə tərbiyəsinin məqsədləri vəvasitələri sosial-iqtisadi quruluş vəmədəni inkişaf səviyyəsi iləmüəyyən edilir. Ailə tərbiyəsi, ümumiyyətlə, ailənin mənsub olduğu sosial təbəqədəki ideologiya, əxlaq və şəxsiyyətlərarası münasibətlər əsasında təşkil olunur. Ailədə valideynlərin özünü tərbiyəsi və onların yeniyetmələrə effektiv pedaqoji təsirini təmin edən keyfiyyət və xarakter xüsusiyyətləri bir-birilə ayrılmaz şəkildəbağlıdır. Ailə tərbiyəsinin əsas cəhətləri arasındayeniyetmənin müxtəlif fəaliyyət növlərində iştirakına dair daimi, lakin sadə bir rəhbərlik vardır. Ailə tərbiyəsi yeniyetmələrə ideoloji və intellektual dünya görüşlərini genişləndirmək üçün şərait yaradır, onları maraqlandıqları mövzularla bağlı izahatlarla təmin edir. Ailə tərbiyəsinin digər vacib hissəsi uşaqlarda, həmçinin yeniyetmələrdə kollektivizm, vətənpərvərlik, beynəlmiləlçilik, böyüklə rəhörmət, dürüstlük, doğruluq, nizam-intizam, ailə öhdəliklərinə vicdanla yanaşma, əmək, təbiətə sevgi və onun gözəlliyini dərk etmək qabiliyyəti kimi əxlaqi, estetik dəyərlərin və normaların formalaşdırılmasıdır. Ailə tərbiyəsi, eyni zamanda, yeniyetmələri ədəbiyyat vəsənət əsərləri ilə tanış etmək və onları fiziki idman fəaliyyətlərinə təşviq etməyi əhatə edir. Ailə pedaqogikası valideynləri ailə tərbiyəsi zamanı verilən məlumatların əhatəsini, mürəkkəbliyini, yeniyetmələrə qarşı qoyulan tələbləri sistematik olaraq, tədricən artırmağa yönəldir. Yeniyetmələrin ailə tərbiyəsindəki əsas tendensiya valideynlərin və dövlət qurumlarının (məktəblər, dərnəklər və s.) səylərini davamlı olaraq, koordinasiya etməkdir. Ailə və məktəbin tərbiyəvi təsirləri arasındakı birlik gələcəyin uğurlu şəxsiyyətlərinin yetişdirilməsində sosial və ailə prinsiplərinin vəhdətini ifadə edir. Ailənin yetkin üzvləri, xüsusilə valideynlər hərtərəfli şəxsiyyətin inkişafı üçün yeniyetmələrə dərslərində və asudə vaxtlarının səmərəli təşkilində kömək etməlidirlər.

Cəmiyyətə faydalı şəxsiyyət yetişdirmək asan məsələ deyil. Yeniyetmələr valideynlərinin köməyi ilə duyğularını tənzimləməyi və davranışlarını idarə etməyi öyrənən və inkişaf edən insanlardır. Bu prosesin necəvə hansı üsullarla aparılacağını çox yaxşı bilən, və ya bu zaman müəyyən problemlərlə üzləşən valideynlər mövcuddur. Bu baxımdan, ailə mühiti yeniyetmələrin tərbiyəsinə və inkişafına böyük təsir göstərir. Ailə atmosferinin təsirlərini bilmələrinə baxmayaraq, insanlar digər amillərə daha çox diqqət yetirirlər. Bu digər amillərdən biri valideynlərin övladlarını müəyyən sosial normalara uyğunlaşdırma üsuludur. Bəs ailə atmosferi nədir? Ailəatmosferi fərqli ailəüzvləri arasındakı qarşılıqlı təsir nəticəsində yaranan rifah, və ya rahatlıqdır. Qarşılıqlı təsirlər cəzalar, ittihamlar, məhdudiyyətlər, qərarlar, möhkəmləndirmələr, anlayış, hörmət, sevgi və s. olaraq dəyişir. Uşaqların valideynlərə təsiri olduğu kimi, valideynlərin də uşaqlara təsiri mövcuddur. Tərbiyə ilə əlaqədar olaraq, ailə mühiti onların özgüvənlərinə, öhdəliklərinə, motivasiyalarına, akademik uğurlarına təsir edir. Beləliklə, ailəmühitlərinimüsbət vəmənfi olmaqla, iki qrupa bölə bilərik.

Mənfi ailə mühitini necə müəyyənləşdirmək olar? Yuxarıda qeyd etdiyimiz qarşılıqlı əlaqələr eqosentrik, şiddətli, pozucu və dözümsüz davranışlara əsaslandıqda neqativ ailə atmosferi yaranır və bu, ailəüzvlərinin rifahına mane olur. Bu baş verdikdə, ailə üzvləri arasında aşağı səviyyəli qarşıdurma müşahidə olunur və yaranmış qarşıdurma həm valideynlər, həm də yeniyetmələr üçün emosional ağırlıqla xarakterizə olunan stress mənbəyinə və ailə tərbiyəsi üçün risk faktoruna çevrilir. Araşdırmalar həddindən artıq avtoritar olmağın, müstəsna və qeyrimütənasib şəkildəcəzadan istifadəetmənin mənfi ailəatmosferinə səbəb ola biləcəyini göstərir.

Bəs müsbət ailə atmosferini necə müəyyənləşdirmək olar? Valideynlərcəzadan çox düzgün izahatlardan istifadəetdikdə müsbət ailə mühiti formalaşır. Bundan əlavə, valideynlərin yeniyetməilə fikir mübadiləsi aparması, onu dinləməsi, tərifləməsi, yeniyetmənin vərdiş kimi qəbul etməsini istədikləri müsbət davranışları dəstəkləməsi pozitiv ailə atmosferinin xarakterik göstəriciləri hesab olunur. Bu yolla, sosial davranışlar maraq, hörmət, yardım, iştirak və özünə inamla birlikdə yaranır. Yeniyetmələr özgüvənə sahib olur və buna görə də, sosial və fiziki davranış baxımından, daha sabit və bacarıqlı şəkildə inkişaf edirlər.

Ədəbiyyat

1. https://encyclopedia2.thefreedictionary.com/Family+Upbringing
2. https://content.sciendo.com/view/journals/atd/7/2/article-p105.xml?language=en
3. Hüseynzadə R., Allahverdiyeva L. "Ailə Pedaqogikası". Bakı-2015
4. Paşayev Ə., Rüstəmov F. "Pedaqogika". Bakı-2010
5. https://www.researchgate.net/publication/308494178_Family_structure_and_upbringing_as_factors_of_intellectual_development_of_preschool_children

XÜLASƏ

Nəticədə, ailə mühiti tərbiyəyə müsbət vəşəkildə əhəmiyyətli dərəcədə təsir edə bilən dəyişkənlərdən biridir. Yeniyetmələrin inkişafına ətraf mühitin nə dərəcədə təsir göstərdiyi bizə məlumdur. Ailə mühiti də bu baxımdan, tərbiyəvi təsirlərdə böyük rola malikdir. Adekvat ailə münasibətlərinin və əlaqələrin olması vacib faktor kimi dəyərləndirilir. Bu yolla, yeniyetmələr sosial münasibətlərinə və tərbiyələrinə istiqamət verən qarşılıqlı təsir modellərini mənimsəyə bilərlər. Yeniyetmənin ona uyğun bacarıq və dəyərləri öyrənəbiləcəyi, eyni zamanda sosiallaşacağı və təhlükəsizliyinin təmin olunacağıbir mühit yaratmaq valideynlərin vəzifəsidir. Hər zaman mükəmməl olmaq mümkün deyil, lakin yeniyetmələrin inkişafından söhbət gedirsə, valideynlər əllərindən gələnin ən yaxşısını etməyə çalışmalı, övladlarını gələcəkdə necə görmək istəyirlərsə, özləri də o cür davranış sərgiləməli, bununla onlara nümunə olmalıdırlar. Çünki düzgün ailəatmosferi yalnız düzgün davranışlar çərçivəsində formalaşır.

Гаджиева А.К

Семейноеокружениеиего роль в жизниподростков

РЕЗЮМЕ

В результате семейное окружение-одна из переменных, которые могут положительнои существенно повлиятьна воспитание. Мы знаем, в какой степени окружающая среда влияетна развитие подростков. В этом отношении семейная среда так же играет важную роль в образовательном влиянии. Адекватные семейные отношения и связи считаются важным фактором. Таким образом, подростки могут изучить модели взаимодействия, которые определяют их социальные отношения и воспитание. Родители несут ответственность за создание среды, в которой подросток может приобретать соответствующие навыки и ценности, а также общаться и быть в безопасности. Не всегда возможно быть идеальным, но когда дело касается подросткового развития, родители должны стараться из о всех сил, вести себя так, как они хотели бы видеть своих детей в будущем, и подавать им пример. Потому что правильная семейная атмосфера формируется только при правильном поведении.

Hajiyeva A.K

Familyenvironment and its role in thelives of adolescents

SUMMARY

As a result, the family environment isone of the variables that can positively and significantly affectupbringing. We knowtowhat extentthe environmentaffects the developmentof adolescents. Inthisregard, the familyenvironmentalso playsanimportantrole ineducational influences.Adequate family relationships andconnections are consideredan important factor. In this way, adolescentscan learn patterns ofinteraction that guide their social relationships and upbringing.Itisthe parents'responsibilityto create an environmentin whichthe adolescent can learnappropriate skills andvalues,aswellassocialize and besafe.Itis not alwayspossible to be perfect, butwhenitcomes to adolescent development, parents shouldtry todo their best,behaveasthey would liketosee theirchildreninthe future, andsetan example for them.Because therightfamilyatmosphere isformedonlywithintherightbehaviors.

Hacıyeva Aysel Kamandar qızı
Elmi rəhbər: dos.Abdinova N.C.

ŞAGİRDLƏRİNHƏYATINDA SOSİAL ŞƏBƏKƏLƏRİN MÜSBƏT VƏMƏNFİ CƏHƏTLƏRİ

Açar sözlər: *şagird, informasiya, inkişaf, sosial şəbəkələr, ünsiyyət, sosiallaşma, asosial*

Ключевые слова: *ученик, информация, развитие, социальные медиа, коммуникация, общительность, недружелюбный*

Key words: *student, information, development, social medias, communication, sociality, asocial*

Müasir həyatı sosial şəbəkəsiz təsəvvür etmək çətindir. Məhz buna görə də XXI əsr "İnformasiya və texnologiyalar" əsri adlandırılır. Sosial media interaktivliyi, əlaqəsi və istifadəçi tərəfindən hazırlanan məzmunu iləmüəyyən olunur. Bugünkü cəmiyyətdə sosial medianın istifadəsi gündəlik zəruri bir fəaliyyətə çevrilmişdir. Sosial media, ümumiyyətlə, sosial qarşılıqlı əlaqəxəbər və məlumat əldə etmək üçün istifadə olunur. Sosial media yerli və beynəlxalq səviyyədə başqaları iləünsiyyət, eyni zamanda məlumat qəbul etmək vəyaymaq vasitəsidir. Ünsiyyət qabiliyyətimizəən təsirli sosial media vasitəsi sosial şəbəkə saytları hesab olunur. Facebook, Twitter, Tumblr, Google+ və Linkedin dünya əhalisinin əksəriyyətinə tanışdır. 2010-cu ilə kimi 13 yaşdan 64 yaşa qədər aktiv sosial media istifadəçisinin demək olar ki, 90%-in Facebook hesabı olduğu halda, 2010-cu ildən bugöstərici Instagram istifadə-

çilərinin sayında müşahidə olunmuşdur. Sivil dünyanın bir parçası olan vətənimiz Azərbaycanda da informasiya texnologiyaları sürətlə inkişaf etmiş və etməkdə davam edir. Lakin bu onu deməyə əsas vermir ki, hər bir insan, xüsusilə məktəb yaşlı uşaqlar heç bir məhdudiyyət olmadan bu texnologiyalardan istifadə etməlidirlər. İnternetin və televiziyanın uşaq orqanizmi və psixologiyası üçün mənfi və müsbət cəhətləri vardır.

Şagirdlərin həyatında sosial şəbəkələrin üstün cəhətləri:

1. Şagirdlər mövcud məsələlər haqqında informasiya sahibi olurlar. Sosial media vasitəsilə onlar yaxın çevrədə, məktəbdə, ölkədə, hətta dünyada nələrin baş verdiyi ilə bağlı məlumat əldə edirlər. Bu məlumatlar onlara bildikləri mövzularda qərar qəbul etməkdə faydalı rol oynayır.

2.Sosial media şagirdlərin təhsil alması və axtarışlar etməsi işini asanlaşdırır. Onlar həllindəçətinlik çəkdiyi məsələlərlə bağlı bir-birlərinə suallar verərək, müzakirə qrupları yaradaraq, uzaq məsafədə olduqlarına baxmayaraq, həran bir-birləri ilə fikir mübadiləsi apararaq sosial mediadan təhsil ləvazimatı kimi istifadə edirlər.

3.Şagirdlərin özünə inamının inkişaf etdirilməsində sosial şəbəkələrin də rolu qaçınılmazdır. Müasir dövrdə sosial media şagirdlərin özlərini sərbəst şəkildə ifadəetdikləri yerdir. Maraqlarını, sevdikləri vəsevmədikləri özəllikləri başqaları iləpaylaşarkən, eyni zamanda da özlərini tanıma, kəşf etmə fürsəti qazanırlar.

4. Sosial şəbəkələr qüsurlu şagirdlərin digər şagirdlərlə eyni səviyyədə fəaliyyət göstərməsinə kömək edir. Əksər zamanlar qüsurlu şagirdlər digərləri ilə bərabər aktivlik şansına sahib olmadıqları halda, sosial şəbəkələr hər kəsə eyni fəaliyyət imkanı verir. Beləliklə, qüsurlu şagirdlər özlərini fərqli hiss etmirlər.

Şagirdlərin həyatında sosial şəbəkələrin mənfi cəhətləri:

1.Kiberbullinqe məruz qalma halları ən mənfi cəhət hesab olunur. Kiberbullinq başqaları tərəfindən ifşa edilmə, təzyiqəməruz qalma halıdır. Sosial mediada bu, realda olduğundan daha asan baş verir.

2. Digər mənfi cəhət kimi, məhsuldarlıq səviyyəsinin azalmasını göstərmək olar. Sosial mediada dostlarla oyun oynamağa, müxtəlif mövzuları müzakirə etməyə, videolar izləməyə sərf edilən zaman şagirdlərin məhsuldarlığına mənfi təsir göstərərək, boş və asudə vaxtların səmərəli istifadəsinin qarşısını alır. Tez yorğunluq hallarının yaranması nəticəsində, hətta dərslərdən yayınma halları belə baş verir.

3.Sosial bacarıqların zəifləməsi mənfi hallardan biridir. Bu situasiyada "sosial şəbəkələr" yerinə, "asosial şəbəkələr" desək, daha doğru olar. Belə ki, virtual dünyada aşırı zaman keçirən şagirdlərdə bir müddət sonra özünəqapanma halları müşahidə olunur. Getdikcə asosiallaşan bu şagirdlər real, üz-üzə ünsiyyət qabiliyyətini itirməyə başlayır və hətta kompleksli insana çevriləbilirlər.

4.Həddən artıq informasiyanı dördüncü cəhət kimi qeyd edəbilərik. Sosial media istifadəçisi şagirdlər informasiya paylaşmaq barədə həvəsli olurlar. Lakin nəzərə almaq lazımdır ki, bu məlumatları paylaşarkən, şəxsi gizlilik vəm üdafiə nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Childnet International Research Report,(2008), Young People and Social Networking Services, Childnetinternational.
2. Keller.M (2013), Social Media and International Comminication, Social Work Today.
3. http://www.phonesheriff.com/blog/the-pros-and-cons-of-teens-on-social-media/
4. Salgur.S.A (2013) The Effects of Social Networking on Teenagers' School Success.

XÜLASƏ

Nəticə olaraq, sosial şəbəkələr müasir zəmanənin tələbatı halını aldığını və tələbatın da zərurətdən qaynaqlandığını bilirik. Lakin hər şeydə orta həddin qorunub saxlanması gərəkdiyini də bilirik. Beləliklə, sosial şəbəkələrin geniş kütləsi olaraq, sadəcəşagirdlər deyil, hər

kəs ondan müsbət şəkildə faydalanmaq üçün sosial şəbəkəistifadəçisi olmaq hüququna sahibdir. Lakin“istifadəçi” ilə“aludəçi” arasındakı sərhədi yaddan çıxarmamaq şərti ilə. Uşaqlara internetdən biliyin artırılması məqsədiləistifadəetmək gərəkdiyi öyrədilməli və buna həvəs artırılmalıdır. Hər bir valideyn bilməlidir ki, uşaqlar üçün ən əsas valideyinləri iləünsiyyətdə olmaqdır. Uşaqları ilənəqədər çox ünsiyyətdə olsalar, bu, onların televiziyadan və internetdən az istifadəetmələrinəsəbəb olar.

Гаджиева А.К

Преимущества и недостатки социальных сетей в студенческой жизни

РЕЗЮМЕ

Таким образом, мы знаем, что социальные сети сейчас востребованы и этот спрос обусловлен необходимостью. Но мы также знаем, что все должно быть в середине. Таким образом, как большое количество социальных сетей, а не только студенты, каждый имеет право стать пользователем социальной сети, чтобы извлечь из этого пользу. Но не стоит забывать о границе между «пользователем» и «наркоманом». Детей нужно обучать и поощрять использовать Интернет в образовательных целях. Каждый родитель должен знать, что самое важное для детей – это общение с родителями. Чем больше они общаются со своими детьми, тем меньше вероятность того, что они будут использовать телевидение и Интернет.

Hajiyeva A.K

Advantages and disadvantages of social media in the students' life

SUMMARY

As a summary, we know that the social networks are now in demand and that demand is driven by necessity. But we also know that everything needs to be kept in the middle. Thus, as a large number of social networks, not just students, everyone has the right to become a social network user to benefit from it. But not to forget the boundary between the "user" and "addict". Children need to be educated and encouraged to use the Internet for educational purposes. Every parent needs to know that the most important thing for children is to communicate with their parents. The more they communicate with their children, the less likely they are to use television and the Internet.

Hüseynzadə Sevinc Rövşən qızı
Elmi rəhbər: Həşimova A.

MÜXTƏLİF DİNLƏRDƏ SOSİALLAŞMAYA OLAN YANAŞMALAR

Açar sözlər: *sosiallaşma, prenatal dövr, dini ənənələr, tərbiyə*

Ключевые слова: *социализация, пренетальный период, религиозные традиции, воспитание*

Key words: *socialization, prenatal period, religious traditions, upbringing*

Yer kürəsində həyat yarandığı ilk andan etibarən inkişaf edir. Bu inkişafın mərkəzində insan dayanır. Bəşəriyyətin bugünkü səviyyəyə qədər gəlib çatması, irəliləməsi, inkişafı, ümumiyyətlə, dünyada baş verən dəyişikliklərin mənbəyi insanların bir-birləri ilə əlaqələnməsidir. Bu əlaqələr sistemi sosiallaşmanı yaradır. Bununla yanaşı insanlar qədimdən bəri istər təbiət qarşısında aciz vəziyyətdə qalmamaq üçün, istərsə də həyatlarını davam etdirməkdən ötrü toplu halında yaşamaq məcburiyyətində olublar. Bunun əsasında da, cəmiyyətdə insanlar arasında sosial münasibətlər formalaşıb.

Sosiallaşma insan həyatını bütünlüklə əhatə edən bir prosesdir. İnsanlar bu müddət ərzində həm formalaşdırılır, həm də cəmiyyətə adaptasiya olunurlar. Sosiallaşma o qədər geniş bir anlayışdır ki, onu demək olar ki, həyatımızın hər bir mövqeyinə aid etmək olar. Ümumiyyətlə, həyatımızı əhatə edən hər bir şeyi sosiallaşma sayəsində öyrənmiş olururuq. Mə-

dəniyyət, ünsiyyət, inkişaf, mühit, dünyagörüş, din, elm, təlim, fəaliyyət, bilik, şəxsiyyət və bu sıranı davam etdirə biləcəyimiz bir çox şeylər vardır ki, onların hər birində sosiallaşmanın təzahürünü görmək mümkündür. Sosiallaşma ya onların ötürülməsində vasitəçi rolunu oynayır, ya da ümumilikdə onları əhatə etmiş olur.

İnsan övladı tək özü bu dünyada yaşama şansına malik deyil. Həyata gəldiyimiz andan etibarən bizi əhatə edən insanlarla birlikdə böyüyürük. Uşaqların böyüdükləri mühitdə, ilk olaraq, ailə üzvləri, getdikcə qohumlar, dostlar, məktəb və daha da irəlilədikdə cəmiyyətin müxtəlif üzvlərinə rast gəlinir. Bütün bunlar onu göstərir ki, həmin insanlar dərəcəsindən asılı olmayaraq, bəziləri çox, digərləri az da olsa, uşağın həyat hekayəsinə öz təsirlərini göstərirlər.

Ailə, dostlar, məktəb, iş yeri, kütləvi informasiya vasitələri və s. ən önəmli sosiallaşma vasitələridir. Bu vasitələr sayəsində insanlar bir-biri ilə əlaqələnir, cəmiyyət daxilində mədəniyyət nəsildən-nəslə ötürülür. Bununla yanaşı, insanlar həmin cəmiyyətdə öz rollarını tapırlar. İnsan həyatının başladığı anından sonuna kimi müxtəlif rollara yiyələnir. Bu sosiallaşmanın genişlənməsi, vasitələrin çoxalması nəticəsində baş verir. Sosiallaşma prosesində uşağı əhatə edən insanlar zaman irəlilədikcə çoxalırlar. Yəni, dünyaya gəldiyi ilk vaxtlarda sadəcə ailə üzvləri tərəfindən uşağa göstərilən təsirlər, növbəti illərdə daha böyük mühit tərəfindən həyata keçirilir. Onları hər birinin təsiri müxtəlif ola bilər. Qeyd etmək lazımdır ki, sosiallaşma prosesində ailə önəmli və ilk vasitə hesab olunur. Dünyaya gəldiyimizdə körpə oluruq. Bu zaman həyatda qalmaq üçün mütləq şəkildə başqalarından aslılığımız yaranır. Valideynlər həmin məqamda böyük bir rola yiyələnirlər. Özümüzə necə baxacağımızı, əlaqələrin necə baş verdiyinionlar bizə öyrədirlər.

İnsan özündən asılı olmayaraq, dünyanın hər hansı bir yerində doğulur. Həmin ölkənin özünəməxsus qayda-qanunları, orada yaşayan xalqın isə, mentaliteti, dəyərləri, inancları, davranış tərzləri, adət-ənənələri, müəyyən ümumi baxışları və s. vardır. Həmin cəmiyyətdə yaşayan xalqa mənsub şəkildə yetişdirilən, təsirə məruz qalan ailə uşağı da normal olaraq, eyni şəraitə uyğunlaşdırmağa çalışır. Bu çox vaxt valideynlərdən də asılı olan bir məsələ deyil.Axı sosiallaşma da özlüyündə ilk olaraq, insanın içində yaşadığı cəmiyyətin dəyərlərini qəbul edib ona uyğun həyat sürməsidir. Buradan belə bir nəticəyə gəlmək olar ki, sosiallaşma individual xarakter daşıyır. Məsələn, dünyanın bir ucunda doğulan uşaq 5 yaşına qədər artıq at sürməyi bilirsə, digər yerdə doğulan isə, bunu bacarmaya bilər.Bu onların yaşayış tərzindən asılıdır. Uşağın doğulduğu ərazinin ehtiyacları ondan bunu tələb edir. Bununla yanaşı uşağın sosiallaşmasına təsir göstərən bir sıra amillər də vardır. M.İsmixanov və S.Vəliyevanın dediklərinə dayanaraq belə bir nəticəyə gəlirik ki, uşağın sosiallaşmasına təsir göstərən amillərə demoqrafik, sosial-mədəni, sosial-iqtisadi, texniki-gigiyenik aid edilir.[1, s.179].Uşağın mənsub olduğu ailəsinin neçə nəfərdən ibarət olması, onların bütün maddi və mənəvi tələblərinin nə dərəcədə ödənilməsi, valideynlərinin pedaqoji təhsillərinin olub-olmaması, yaşayış şəraitləri, həyat tərzi və s. məsələlər birbaşa sosiallaşma prosesinə təsir edir.

İnsan həyatı mərhələlərdən ibarətdir. Hər bir mərhələ bir-birindən asılı olduğu kimi, həm də ardıcıl olaraq davam edir. Sosiallaşma prosesi də bu mərhələlərdə özünü fərqli şəkillərdə büruzə verir. Sosiallaşma prosesi ilə əlaqədar bizi çoxdan düşündürən suallardan biri isə, onun insan həyatının hansı mərhələsindən, ümumilikdə nə vaxtdan başlamasıdır. Əslində, bu sualın cavabını insan həyatının ilk mərhələsini müəyyənləşdirməklə almaq mümkündür. Yəni, bir insanın həyat hekayəsinin başlanğıcı, ilk mərhələsi onun sosiallaşma prosesinin başlanğıcına təsadüf edəcəkdir. “Fetal education” kitabının müəllifi S.Sasikumar sitatına nəzər yetirməklə sualımızı cavablandırmağa çalışaq. “İstənilən insan həyatının bütün fəaliyyət müddəti doğumdan öncə meydana gəlir”[7, s.1]. Doğumdan öncəki müddətin insan həyatının ilk mərhələsi hesab olunub-olunmadığını araşdırmaq üçün dinlərə fəlsəfi cəhətdən yanaşaq. Belə ki, bu məsələni dinlər üzrə araşdırsaq belə bir nəticəyə gələ bilərik ki, alimləri daim düşündürən məsələlərdən biri ana bətnində olan uşağın ondan ayrı bir varlıq sayılıb-sayılmadığı və

yaxud nə zamandan etibarən bir varlıq kimi qəbul edildiyidir. Araşdırmalar nəticəsində bu məsələyə dair müxtəlif dinlərdə alimlərin fərqli yanaşmaları ilə qarşılaşırıq.

Dünyada geniş yayılmış İslam, Buddizm, Katolik, Hinduizm dinlərinə və ümumiyyətlə, dini ənənə, düşüncələrə nəzər saldığımızda görürük ki, onların hər birində uşağın ayrı bir varlıq olması mənası özünü büruzə verir. Hətta günümüzdə alimlərin həmfikir olduqlarının da şahidiyik. Ana bətnindəki döl canlı bir varlıq hesab olunur. Sadəcə, bu dinlərdə fərqli cəhət ondan ibarətdir ki, alimlər dölün ruhunun müxtəlif vaxtlarda üfürüldüyünə inanırlar. Qədim dinlərdən olan antik Misir ənənlərində Aton tanrısının bətnindəki dölə həyat nəfəsini verdiyi və beləliklə də, onun canlı olduğuna inanılırdı [4, s.18].

İslam dinində isə, bir qisim alim dölün 4 ayından sonra ona ruh üfürüldüyüvə bu dövrdən etibarən insan olaraq qəbul edildiyini söylədikləri təqdirdə, digər İslam alimləri uşağın ana bətnindən, yəni ilk yarandığı andan etibarən insan olduğu qənaətindədirlər [4, s.18].

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlirik ki, ana bətnindəki uşaq yarandığı ilk andan etibarən yeni bir həyata başlayır. O, canlı və anadan ayrı bir varlıqdır. Burada bağlılıq dedikdə mənəvi cəhətdən nəzərdə tutulur. Uşaq anası ilə onsuz da bioloji cəhədən bağlıdır. Ruh isə, mənəviyyatla əlaqədardır. Uşağın bir ruhu vardır. Demək bu onun həyat hekayəsində ilk mərhələdir. Ümumiyyətlə, "hamiləlik dövründə zamanı uşağın ana bətnində yaşadığı və inkişaf etdiyi 40 həftə və ya 280 gün onun həyatının prenetal dövrü adlanır" [5,s.36].Prenetal dövrdə uşağın ilk fəaliyyəti başlayır. Bu fəaliyyətin tənzimlənməsi tərbiyə vasitəsilə baş verir. İmmanuel Kantın da dediyi kimi, "insan Yer üzündə tərbiyəyə ehtiyac duyan tək varlıqdır. O, ancaq tərbiyə vasitəsilə insan ola bilər" [3, s.106].

Tərbiyə həyatımızda önəmli bir mövqeyə malikdir. Uşaq, ilk olaraq, ailə mühitində tərbiyə olunur. Bu, bütün dinlərdə belədir. İslam, Xristian, İudaizm ənənələrini araşdırdığımızda bu nəticəyə gəlirik ki, uşaqların tərbiyəsinə ana bətnindən başlanılır. Onların hər birində ana və atanın üzərinə düşən vəzifələr, ilk növbədə, uşağı qorumaqdır. Daha sonra, uşağa nəcib hisslər aşılamaq, onun istedad və gücünü üzə çıxarmağa çalışmaq, həyatda mövqeyini tapmağa kömək etməkdir. Dinlərdə tərbiyə prosesində fərqləndirici cəhət ondan ibarətdir ki, ailədə dünyaya gələn hər bir uşaq həmin ailənin mənsub olduğu dini ənənələrə uyğun olaraq tərbiyə olunurlar. Xristian ənənələrində "uşaq Tanrının bir hədiyyəsi kimi qəbul olunur"[6, s.73]. İslamdininin ənənələrinə nəzər yetirdiyimizdə isə, görürük ki, "uşağın tərbiyəsi baxımından inkişafı 2 mühüm dövrə bölünür: 1)tədbiri dövr, 2)tətbiqi dövr" [2, s.136]. Tədbiri dövr məhz uşağınana bətnində yaranandan doğulana qədər olan dövrünü əhatə edir ki, bu da ana bətnindən uşağın tərbiyəsinə başlanmasının vacibliyi vurğulanır. Uzun bir proses olan tərbiyə ana bətnindən başlayaraq uşağın bütün həyatı boyunca davam edir.

Qədimdən bəri nəsildən-nəslə ötürülərək gələn müxtəlif dini ənənələri araşdırdığımızda belə bir nəticəyə gəlirik ki, onlarda bəzi məqamlarda fərqli yanaşmalar olmasına baxmayaraq, hər biri uşaq tərbiyəsinin önəmli olduğunu, uşağın gələcək həyatını yaratdığın və bütün bu proseslərin başlanğıcının isə, ana bətni olduğu vurğulanır. Ailə uşağın tərbiyəsində əvəzolunmaz və ilk mövqedə dayanır. Onun sonrakı həyatında sosiallaşmasına təsir edə biləcək hər bir şey ilk sosiallaşdığı yer olan ailə qədər güclü təsirə malik deyil.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlirik ki, geniş bir sferanı əhatə edən sosiallaşma prosesi dünyada həyatın yarandığı ilk andan insanların bir-birləri ilə əlaqələnməsi sayəsində başlamış, bugünkü günümüzə qədər irəliləmişdir. Bir an olsun belə dayanmayan bu prosesin başlanğıcı isə, elə yaranması kimi insan həyatının ilk mərhələsinə təsadüf edir. Dini ənənələrə nəzər yetirdiyimizdə isə, bu deyilənlərin öz əksini tapdığını görürük.

Ədəbiyyat

1. İsmixanov M, Vəliyeva S. Sosial pedaqogika. Bakı: ADPU nəşriyyatı, 2014, 179 s.
2. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, 136 s.

3. İmmanuel K. Eğitim Üzerine, Ruhun Eğitimi, Ahlaki Eğitim, Pratik Eğitim. Çev. Ahmet Aydoğan. İstanbul: Say yayınları, 2007, 106 s.
4. Şinası G. Sağlık Düşüncesi ve Tıp Kültürü Dergisi. İstanbul:Eylül-Ekim-Kasım, Sayı 24, 2012, 18 s.
5. Anita M, Jones R.N. Manuel for Teaching Midwives. Washington: US Government Printing Office, 1948,36 p.
6. Алексадр К. Благодарение с любовью 5. Москва, Рами (Павел) Блект, 2015, 73 с.
7. Sasikumar S. Fetal Education. Evincepub Publishing, 2020, 1 p.

XÜLASƏ

Sosiallaşma insan həyatının ilk mərhələsindən başlayır. Uşağın ana bətnindən başlayan əlaqələri onu bütün həyatı boyu əhatə edir. Bu fikirlərə qədim dini ənənələr, düşüncələr vasitəsilə gəlmək mümkündür.

Гусейнзаде С. Р

Подходы к социализации в разных религиях

РЕЗЮМЕ

Социализация начинается на первом этапе жизни человека. Отношения, которые начинаются в утробе матери,окружают ребенка на протяжении всей его жизни. К етим идеям можно прийти через древние религиозные традиции и мысли.

Huseynzade S. R

Approaches to socialization in different religions

SUMMARY

Socialization begins in the first stage of human life. Relationships that begin in the womb envelob a child throughout his or her life. It is possible to come to these ideas through ancient religious traditions and thoughts.

Hüseynzadə Sevinc Rövşən qızı
Elmi rəhbər: Həşimova A.

MÜXTƏLİF LÜĞƏTLƏRDƏ SOSİALLAŞMA ANLAYIŞININ TƏZAHÜRÜ

Açar sözlər: *sosiallaşma anlayışı, mədəniyyət, cəmiyyət, elm sahələri*
Ключевые слова: *понятие социализации, культура, общество, области науки*
Key words: *concept of socialization, culture, society, field of science*

Sosiallaşma anlayışına müxtəlif elm sahələrində rast gəlmək mümkündür. Bura fəlsəfə, sosiologiya, pedaqogika, psixologiya, sosial pedaqogika, sosial psixologiya, etnoqrafiya və s. aid edilir. Biz sosiallaşma anlayışını təqribən 14 lüğətdə araşdırdıq. Həmin lüğətlərdə müxtəlif yanaşmalar özünü göstərdi. Sosiallaşma anlayışını araşdıran fərqli sahələrdə özünəməxsus düşüncə tərzinə görə izahatlar verilmişdir. Sosiallaşma anlayışının lüğətlərdə verilən izahatlarında bizə uyğun olan bir neçəsini qeyd edirik.

Şəxsiyyətin sosiologiyası ilə bağlı lüğətdə sosiallaşma anlayışının açıqlaması belə verilmişdir ki, "sosiallaşma-müəyyən bir cəmiyyətdə uğurlu fəaliyyət göstərmək üçün zəruri olan mədəni normaların və sosial rolların bir şəxs tərəfindən mənimsənilməsi prosesidir. O, eyni zamanda cəmiyyətin mövcudluğunu və mədəniyyətin nəsildən-nəslə ötürülməsini mümkün edir. Sosiallaşma bir insanın sosial təbiət (humanistləşdirilmiş) və ictimai həyatda iştirak etmək bacarığını qazandığı mədəniyyətlə tanış olmağın bütün proseslərini əhatə edir"[1, s.12,13]. Bu izahata yaxın digər bir açıqlama ilə fəlsəfi lüğətdə rastlaşırıq. Belə ki, fəlsəfi lüğətdə sosiallaşma anlayışına izahat bu cür verilmişdir ki, "sosiallaşma-müəyyən bir mədəni ənənə üçün səciyyəvi olan fəaliyyət və davranış proqramları məcmusunun rasional

mənimsənilməsi, eyni zamanda onları ifadə edən bilik, dəyər, normaların bir şəxs tərəfindən mənimsənilməsi prosesidir" [2, s.1312].

Hər iki lüğətin sosiallaşma anlayışına verdikləri izahatları nəzərdən keçirdiyimizdə görürük ki, burada bir mənimsənilmə prosesi var. Həmin proses bir şəxs tərəfindən həyata keçirilir. Bu şəxslər xalqa mənsub olan dəyər, inanc, norma, biliyi mənimsəyirlər. Nəhayətində isə, mədəniyyətin ötürülməsi hadisəsi baş verir ki, bunun da nəticəsi olaraq, fərdlər şəxsiyyətə çevrilir. Şəxsiyyətlər cəmiyyətin özəyini təşkil edirlər. Birinci lüğətdə sosioloji cəhətdən yanaşma olmasına rəğmən, ikincidə fəlsəfi yanaşmanın şahidi oluruq.

Araşdırdığımız lüğətlər arasında psixoloji lüğətlərdə sosiallaşma anlayışına verilən tərifdə yaxınlıq və psixoloji cəhətdən yanaşma vardır. Belə ki, psixoloji ensiklopediyada sosiallaşma anlayışının izahı bu cür verilmişdir ki, "sosiallaşma-fərdin mənsub olduğu cəmiyyətin mədəni və tarixi təcrübəsini (bilik, bacarıq, norma, dəyər, davranış tərzivə s.) mənimsəməsi və ötürməsi prosesidir" [8, s.672]. Başqa bir psixoloji lüğətdə sosiallaşma anlayışı belə xarakterizə olunur ki, "sosiallaşma-sosial təcrübə, sosial əlaqə və münasibətlər sistemi tərəfindən assimilyasiya prosesidir. Sosiallaşma prosesi ərzində insan cəmiyyətdə normal bir həyat üçün ona lazım olan inancları, sosial olaraq təsdiqlənmiş davranış formalarını əldə edir. Sosiallaşma sosial həyat təcrübəsini və sosial münasibətləri mənimsəmənin bütün çoxşaxəli prosesi kimi başa düşülməlidir" [6, s.522] Bu iki lüğətdə təcrübələr ön plana çəkilmişdir. Yəni, insanlar həyatı boyu qazandıqları təcrübələri ötürürlər. Bu təcrübələrin ötürülməsisosiallaşma vasitəsilə həyata keçirilir.

Lüğətlərdə daşıdıqları elm sahələrinin xüsusiyyətlərinə görə, psixoloji, sosioloji, fəlsəfi aspektlərdən yanaşmalar olmasına baxmayaraq sosiallaşma anlayışına verdikləri tərifdə ortaq cəhətlər çoxdur. Bu isə, həmin elm sahələrinin bir-biri ilə sıx bağlılığından irəli gəlir. Sosiallaşma anlayışına lüğətlərdə verilən izahların ortaq cəhətlərinə nəzər yetirsək, ilk olaraq, onun tarixi bir proses olması qənaətinə gələ bilərik. İnsanlar lap qədimdən bəri, bu dünyaya gəldikləri andan, ümumiyyətlə, dünyada həyat yarandığı ilk andan sonra bir-biri ilə əlaqələnmişlər. Bu sosiallaşma hesab olunur. Həmin əlaqələr sistemindən münasibətlər doğulmuşdur ki, onlar da sosial münasibətlər sayılır. Hər bir xalqın öz tarixi vardır. Həmin tarixi proseslər ərzində sosiallaşma anlayışı müxtəlif xalqlarda püxtələşmişdir.

Sosiallaşmanın uzun bir tarixi proses olması ilə yanaşı, anlayışa verilən tərifler içərisində mədəniyyətdə nəzərə çarpan sözlərdən biri hesab olunur. Mədəniyyət cəmiyyəti bir araya gətirən bilik, inanc, dəyər, normalar, davranış tərzi, adət, ənənələr sistemidir. Bu müəyyən bir qrup insan tərəfindən paylaşılan həyat tərzidir. Mədəniyyət dil, din, mentalitet, incəsənət, ədəbiyyat, teatr, musiqi və s. sahələri özündə ehtiva edir. Onu təşkil edən bütün ünsürlər bir-biri ilə iç-içə keçmiş, bir-birlərinə funksional və tarixi ənənələrlə bağlanmış komponentlərdən yaranır. Mədəniyyəti yaradan insanlardır. O, hər hansı bir xalqa, cəmiyyətə mənsub olur. Cəmiyyət müəyyən bir coğrafi sahədə bir yerdə yaşayan insanlar toplusundan yaranır. Bu insanlar öz aralarında dünyadakı digər insanlarla nisbətdə daha çox əlaqədə olurlar. Cəmiyyətdəki insanlar mənsub olduqları mədəniyyəti bölüşürlər. Mədəniyyət cəmiyyətin yaşaması, inkişafı, irəliləməsi üçün yol göstərən prinsipləri təmin edir. Cəmiyyətdə mədəniyyətin ötürülməsi, insanların bir-biri ilə əlaqələnməsi, yəni sosiallaşma sayəsində baş verir. Sosiallaşma vasitəsilə mədəniyyətin bütün ünsürləri nəsildən-nəslə ötürülür. Cəmiyyət və mədəniyyət ayrılmaz bir xüsusiyyətə malikdir. Onları bir-birinə birləşdirən isə, sosiallaşmadır. Cəmiyyət və mədəniyyət eyni mənanı kəsb etmirlər. Buna baxmayaraq, onlardan hər hansı biri olmadan digəri mövcud ola bilməz. Sosiallaşma prosesində cəmiyyətin özəyini təşkil edən insanlar xalqa mənsub olan mədəniyyət ünsürlərini mənimsəyirlər. Daha sonra bu proses onun ötürülməsi ilə davam edir. Bunun sayəsində fərd cəmiyyətə inteqrasiya olunur. Verilən tərifdən də anlaşıldığı kimi hər hansı bir cəmiyyətə fəaliyyət göstərmək və bunun uğurlu olmasını təmin etmək sosiallaşma ilə əlaqədardır. Bunun üçün, ilk olaraq, fərd sosial rollara yiyələnərək mənsub olduğu xalqın mədəniyyətinin komponentlərini qəbul etməli və onu ötürməlidir. Sosiallaşma

prosesi ömür boyu davam edir. Bu müddət ərzində isə, insan müxtəlif sosial rollara yiyələnir. Beləliklə, cəmiyyətdə müxtəlif sosial rollar müqabilində çıxış edir. Sosiallaşma sayəsində fərd cəmiyyətin bir üzvünə çevrilərək orada tam şəkildə fəaliyyət göstərməyə başlayır. O, fəaliyyəti ilə cəmiyyətin inkişafına öz təsirlərini edir. Bu proses ərzində şəxsiyyətin formalaşması həyata keçirilir. Ona, həmçinin məqsədyönlü təsir edilir. Sosiallaşma eyni zamanda aktiv bir prosesdir ki, Yer kürəsində onu dayandırmaq mümkün deyil. İnsanlar mütamadi olaraq bir-birləri ilə əlaqələnir, inkişaf edir, münasibət qurur və bütün bunlar nəticəsində də, bir-birlərinə göstərdikləri təsirlər sosiallaşmanın aktivliyini qoruyur.

Yuxarıda sadaladıqlarımızın hər biri lüğətlərdə izahı verilən sosiallaşma anlayışında özünü göstərən ortaq xüsusiyyətlər idi. Qısa və konkret şəkildə bu anlayışı ifadə etsək, "sosiallaşma mədəniyyətin qəbulu və ötürülməsidir"[S.H].Lüğətləri araşdırdığımızda gəlinən ortaq nəticələrin olmasına baxmayaraq, onlarda fərqli nüanslarla da qarşılaşırıq. Belə ki, siyasi lüğətdə sosiallaşma anlayışı öz əksini bu cür tapıb ki, "sosiallaşma-insanın cəmiyyətin tam bir üzvü kimi fəaliyyət göstərməsinə imkan verən müəyyən norma, bilik, dəyərlər sistemini mənimsəmə prosesidir. Bura həm şəxsiyyətə məqsədyönlü təsir və onun formalaşmasına təsir göstərən spontan proseslər daxildir."

[7, s.716]. Siyasi lüğətdə verilmiş bu fikri digərlərindən fərqləndirən cəhət ondan ibarətdir ki, sosiallaşmaya spontan prosesin də daxil edilməsinin şahidi oluruq. Həmin proseslər şəxsiyyətin formalaşmasına təsir göstərir. İnsanların hər biri fərqli həyatlar yaşayırlar. Onların yaşadıqları mühit, qarşılaşdıqları insanlar, başlarına gələn hadisələr çox fərqlidir. Bunun sayəsində insanarda sosiallaşma hadisəsi individual olaraq baş verir. Ona görə də, cəmiyyət daxilindəki şəxslər bir-birindən xarakterik xüsusiyyətlərinə görəfərqlənirlər. Ayrı-ayrı şəxslər birləşib vahid bir cəmiyyəti yaradırlar. Onların birləşməsini həyata keçirən proses isə, sosiallaşmadır.

Sosiallaşma anlayışına lüğətlərdə verilən təriflər arasında siyasi lüğətlə yanaşı, fərqlilik tibbi lüğətdə də özünü göstərir. Orada verilən açıqlama bu cür xarakterizə olunmuşdur ki, "insanın bir qrup və ya cəmiyyətin gözləntiləri və standartlarına uyğun olaraq yaşaması, onların inancları, vərdişləri, dəyərləri və qəbul olunmuş davranış rejimlərini, ilk növbədə təqlid, sonradan ailə mühiti və təhsil sistemi yolu ilə əldə etməsini öyrənmə prosesidir" [13, s.1252]. Lüğətdə verilən fərqlilik ondan ibarətdir ki, digərlərindən fərqli olaraq burada prosesin necə irəliləməsi də izah olunmuşdur. Təqlid dedikdə, uşaqların həyatlarının ilk mərhələlərdə ondan istifadə edərək sosiallaşması nəzərdə tutlur. Öyrənmə prosesi zamanı uşaqlar birinci yaxın mühitini, yəni ana, ata, qohumlar və həmyaşıdlarını model olaraq görürlər. Uşaqlar yaxın mühitlərindəki insanları izləyərkən onları nümunə götürərək sosial davranışlara yiyələnirlər. Onlar böyüklər və ya yaşıdlarının elədikləri hərəkətləri ya eynilə təkrarlayır, ya da buna bənzər şeylər edirlər. Bunu öz oyunlarında əks etdirirlər. Məsələn, oyun oynayarkən anaları, ataları, həkimlər, polislər və ya başqa adamlarmış kimi davranırlar. Bu həqiqi ünsiyyət yolu deyil. Uşaqlar böyüdükcə təqlid əvəz olunmağa başlayır. Yəni, sadə təqlid hərəkətləri etməyin əvəzinə, artıq digər insanlarla əlaqə yaratmağa başlayırlar. Bütün bunlar sosiallaşma prosesinə daxil olan xüsusiyyətlərdir.

Araşdırdığımız və qeyd etdiyimiz müxtəlif elm sahələrinə dair lüğətlərdə incə fərqlər olmasına baxmayaraq, sosiallaşma anlayışının tərifindəki məğzi birdir. İncə fərqlər isə, elmlərin özünəməxsus cəhətdən yanaşma şəkillərinə görə ortaya çıxmışdır. Sosiallaşma anlayışının bir proses olduğu özündə ümumilikdə mədəniyyəti ehtiva etdiyini görürük. Ona verilən müxtəlif tərifdə isə, nəticə olaraq bu mənaya gəlib çıxmaq mümkündür.

Ədəbiyyat

1. ВитченкоН.Н. Словарьтерминовпотеме"социологияличности". Томск, 2004, 12-13 с.
2. ГрицановА.А. Философскийсловарь. Минск: В.М. Скакун, 1999, 1312 с.
3. Дедю И.И. Екологический энциклопедический словарь. Кишинев. 1989, 406 с.
4. Комлев Н.Г. Словарь иностранных слов. М: ЭКСМО, 2006, 669 с.
5. Левит С.Я. Культурология. М: РОССПЭН, 2007, 592 с.

6. Мещеряков Б.Г, Зинченко В.П. Большой психологический словарь. Москва:"Олма-Пресс", 2003, 522 с.
7. Санжаревский И.И. Политичиская наука. Тамбов: РАНХ и ГС, 2015, 716 с.
8. Степанов С.С. Популярная психологическая энциклопедия. М: ЭКСМО, 2005, 672 с.
9. Сухарев А.Я. Большой юридический словарь. М: ИНФРА- М, 2007, 858 с.
10. Ушакова Д.Н. Толковый словарь современного русского языка. Москва: Аделандт, 2013, 644 с.
11. HugoF. A dictionary of the social sciences. Atlantic publishers and distributors, 1996, 193 p.
12. Laura E. Managing the Modern Law firm. Oxford University Press, 2007, 22 p.
13. Mosby E. Mosby's pocket dictionary of medicine, nursing and health professions. USA 6th edition, 2010, 1252 p.
14. Rahul A. Encyclopedic dictionary of organization behavior. SARUP and SONS, 2000, 412 p.

XÜLASƏ

Sosiallaşma anlayışı çox geniş bir məna ifadə edir. O özündə mədəniyyətin ünsürlərini ehtiva edir. Bununla yanaşı əlaqələr, mənimsəmə və ötürülmə proseslərində sosiallaşma vasitəsilə həyata keçirilir.

Гусейнзаде С. Р

Проявление концепции социализации в разных словарях

РЕЗЮМЕ

Понятие социализации имеет очень шиокий смысл. В нем отражены элементы культуры. При этом процеесы коммуникации, ассимиляции и передачи осуществляяются через социализацию.

Huseynzade S.R

Manifestation of the concept of socialization in different dictionaries

SUMMARY

The concept of socialization has a very broad meaning. It reflects the elements of culture. At the same time, the processes of communication, assimilation and transmission are carried out through socialization.

İbadova Könül Azər qızı
ADPU, Sosial pedaqogika, II kurs magistrantı
Elmi rəhbər:Məmmədova İ.

AZƏRBAYCANDA XEYRİYYƏÇİLİK İŞİNİN KÖKLƏRİ

Açar sözlər: *xeyriyyəçilik, Azərbaycanda xeyriyyəçiliyin tarixi kökləri, xeyriyyə cəmiyyətləri, Azərbaycanın görkəmli xeyriyyəçiləri, maarifçilik*

Ключевые слова: *благотврительность, история благотворительности в Азербайджане, благотворительные общества (организации), выдающиеся благотворители Азербайджана, просветительство*

Key words: *charity,historical roots of charity in Azerbaijan, charities, prominent philanthropists of Azerbaijan, enlightenment*

"Xeyriyyəçilik" termini insanların şüurunda adətən şəfqət, başqasının halına yanma, qayğı, diqqət ehtiyacı olanlara təmənnasız kömək etmək kimi keyfiyyətlər və hərəkətlər barədə assosiasiya yaradır. Bununla da, xeyriyyəçilik işlərinin dairəsi konkret olaraq, əhalinin sosial baxımdan zəif təbəqələrini təmsil edən insanlara – əlillərə, yetimlərə, qocalara və başqalarına bu və ya digər şəkildə kömək göstərilməsi ilə məhdudlaşır. Bu mənada xeyriy-

yəçilik anlayışının kökləri qədim dövrlərə, təmənnasız könüllü fəaliyyətin, əsasən, zəiflərə və ehtiyacı olanlara kömək göstərilməsi ilə məhdudlaşdığı vaxtlara gedib çıxır.

Azərbaycanda xeyriyyəçiliyin mənşəyi və inkişafı, təzahürü və istiqaməti formalarının öyrənilməsi kifayət qədər elmi və praktiki maraq doğururdu. Milli burjuaziya nümayəndələrinin xeyriyyəçilik, mədəni və təhsil fəaliyyətlərində iştirakı böyük bir sosial rezonans qazanmışdır. Xeyriyyəçilik – insan həyatının əsas sahələrində vətəndaşlarının həyatını yaxşılaşdırmaq istəklərini əks etdirirdi. Bu sahələrə daxilidi: iqtisadi vəziyyət, mənəvi inkişaf və təhsilin inkişafı.

XIX əsrin sonu XX əsrin əvvəllərindəki xeyriyyəçilik proseslərindəki Azərbaycan burjuaziyasının rolu əhəmiyyətini itirmirdi. Sadəcə aydın idi ki, xeyriyyə işləri ilə məşğul olan Azərbaycan burjuaziyasının ən görkəmli nümayəndələri,fəaliyyətləri ilə bütün xalqın həyat və inkişafının sosial vektorunu təyin edən parlaq, böyük şəxsiyyətlər idilər.Ən əvvəl onu qeyd etmək lazımdır ki, imperatorluğun müsəlman kənarlarında əyalətlərində xeyriyyəçilik işlərinin görülməsinin asan olmadığını söyləmək lazımdır: Azərbaycan sahibkarlarının bütün xeyriyyəçilik fəaliyyətləri imperiyanın müstəmləkə siyasəti şəraitində amansız polis nəzarəti altında həyata keçirilirdi. Buna baxmayaraq, milli burjuaziyanın xeyriyyəçilik fəaliyyətində iştirakı müxtəlif formalarda və istiqamətlərdə həyata keçirilirdi: xeyriyyə cəmiyyət-lərinin maliyyələşdirilməsi, yeni xəstəxana binalarının inşası, təbii fəlakətdən əziyyət çəkənlərə yardım, etnik qarşıdurmalar (dini ayrı-seçkiliyə yol verilmədən)və s.

1906-cı ildə Əli Mərdan bəy Topçubaşovun sədrliyi ilə "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyəti yaradıldı. İctimaiyyət üçün bir rus-müsəlman oxu salonu və "Nicat" kitabxanası təşkil edilmişdir.

Azərbaycan xeyriyyəçilərinin və himayədarlarının fəaliyyəti yüksək mənəvi məna daşıyırdı, onun humanistliyi, mərhəməti insanların həyatını asanlaşdırmaq istəyini əks etdirirdi. Şübhəsiz ki, bu, cəmiyyətdə bir nümunə olmaqla yanaşı, həm də xalq qarşısında vətəndaşlıq borclarına sadiqliyi, vətənpərvərliyi üçün əhəmiyyətli amil meyar idi.

"Nicat" Bakı Müsəlman Maarif Cəmiyyəti

Cəmiyyətin Nizamnaməsi22 Avqust 1906-cı ildə təsdiqlənmişdir.

Cəmiyyətin məqsədi:

1) müsəlmanlar arasında təhsili yaymaq, ali, orta və aşağı təhsil müəssisələrində müsəlman tələbələrə yardım etmək;

2) ana dilinin və ana ədəbiyyatının inkişafına kömək.

Cəmiyyət bir neçə sahələrüzrə fəaliyyət göstərirdi : - teatr - ədəbi - pedaqoji.

Bakı quberniyasında müsəlman əhalisi arasında savadlılığı təbliğ edən Bakı Cəmiyyəti "Nəşr - Maarif".

Cəmiyyətin Nizamnaməsi 1 avqust 1906-cı ildə təsdiq edilmişdir.

Cəmiyyət, Bakı quberniyasının müsəlman əhalisi arasında savadlılığın və ibtidai təhsilin rus və yerli Azərbaycan dillərində yayılmasına təşviq etməyi qarşısına məqsəd qoymuşdur.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti

Cəmiyyətin Nizamnaməsi 10 oktyabr 1905-ci ildə təsdiq edilmişdir.

Cəmiyyətin məqsədi ən kasıb müsəlmanlara kömək və qayğı göstərməklə yanaşı, kasıb müsəlman tələbələrin orta və ali təhsil müəssisələrinə daxil olmalarına və ya təhsillərini tamamlamalarına kömək etmək idi.

"Səadət" Müsəlman Ruhani Cəmiyyəti

Bakı Xeyriyyə Cəmiyyəti (1905)

Azərbaycanın görkəmli xeyriyyəçiləri

"Mesenat" ifadəsinin tarixi qədim Romaya gedib çıxır və imperiyanın ilk dövründə əhəmiyyətli bir şəxsiyyət olan Qay Mesenatın adından götürülmüşdür. Bu termin bir çox Avropa, lakin İngilis dilli ölkələrdə geniş yayılmamışdır. Vaxt keçdikcə onun adı istedadı fədakarcasına dəstəkləyən bir insananlayışı ilə əlaqələndirildi.

Azərbaycanda xeyriyyəçilik tarixi əsrlər boyu davam edən uzun bir ənənəyə malikdir. Ölkə hökmdarları, xanlar və bəylər məscid və saray inşaatçıları, salnaməçilər və şairlər, elm adamları və musiqiçilərini himayə edirdilər. Beləliklə, bir neçə əsr ərzində xeyriyyəçilik və himayəçilik ənənələri formalaşmışdır. Azərbaycan tarixində məşhur olan qadınlar, çox vaxt köhnə nəcib ailələrin yüksək səviyyəli nümayəndələri - şairə, alim və yazıçılar üçün geniş xeyriyyəçilik işləri həyata keçirirdilər.

Hacı Zeynalabdin Tağıyev

Azərbaycan tarixində çox böyük rol oynamış bir şəxsiyyət. Tanınmış milyonçu, xeyriyyəçi, çar Rusiyasının aktiv dövlət müşaviri.H.Z.Tağıyev həm neft sahibi, həm dəyirman sahibkarı, istehsalçı və iri bir balıq sənayesinə malik (Kür və Xəzər dənizinin bütün balıqçılıq sənayesi onun ixtiyarında idi), həmçinin tacir və yükgəmilərinə sahib idi. Atlıxan yaxınlığında Quba və Yevlaxda meşələri var idi. Hacının Ənzəli və Rəşt şəhərləri ərazisində meşələri, böyük tikililəri, binaları və nümayəndəlikləri, digər şəhərlərdə, o cümlədən Moskvada, 4 mərtəbəli nəhəng bir sarayı, İranda karvansaraları var idi.

H.Z. Tağıyev ilk növbədə xeyriyyəçiliyi və maarifpərvərliyi ilə tanınırdı. Maarifçi kimi fəaliyyəti XX əsrin əvvəllərindən başlayır. Bu da təsadüfi deyildi. 1905-ci il inqilabından sonra oktyabr fərmanı dövlətin mədəni və təhsil fəaliyyətinin dirçəlməsinə səbəb olmuşdur. Ölkə daxilində müxtəlif xeyriyyə təşkilatları yaradılmışdır. Qəzet və jurnallar çap olunmağa başlamışdır. Cəmiyyətlərin yaradılması, qəzet və jurnalların çap edilməsi ilk növbədə Tağıyevin adı ilə bağlıdır. Tağıyev bu məsələlərdə bir növ təşkilatçı rolunu oynayırdı. Xeyriyyə məqsədi ilə yaradılan cəmiyyətlər ya Tağıevin və onun fondlarının şəxsi iştirakı ilə, ya da onun fəal köməyi ilə yaradılırdı.

O dövrün ziyalılarını: Əhməd bəy Ağayevi, Əli bəy Hüseynzadəni, Əlimərdan bəy Topçubaşovu (qəzetin redaktoru) və başqalarını ətrafına toplayaraq "Kaspi" qəzetininəşr etdirməyə başladı. 1897-ci ildə Lif Materialların İşlənməsi üzrə Qafqaz Səhmdar Cəmiyyətini yaratdılar. 1906-cı ildə H.Z.Tağıyev və M.Muxtarovun dəstəyi ilə Bakı sakinlərinin maariflənməsində və milli özünüdərkin oyanmasında aparıcı rol oynayan Nəşri- Maarif və Nicat cəmiyyətləri yaradılmışdır.

Bakıda su təchizatı sisteminin (Şollar suyu) tikintisi də H.Z.Tağıyevin adı ilə bağlıdır.

27 noyabr 1883-cü ildə H.Z.Tağıev Teatrı (indiki Musiqili Komediya Teatrı) açıldı.

Onun hesabına Azərbaycanın oğul və qızları İngiltərə, Almaniya, Fransa və Rusiyada təhsil aldılar. Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə və başqaları onun hesabına təhsil almışlar.

İskəndəriyyə Qadın Müsəlman Məktəbi olaraq da adlanan Bakı Müsəlman Qadınlar Məktəbi (Bakı qızlar məktəbi), Qafqazda ilk qadın müsəlman məktəbidir. Bu bina polyak memar Yozef Qoslavski tərəfindən 1900-cü ildə inşa edilmişdir. Neft iş adamı və milyonçu Hacı Zeynalabdin Tağıyevin hesabına Bakıda bu məktəb fəaliyyət göstərmişdir. Belə ki, bu məktəb köhnə mollaxandan köklü şəkildə fərqlənən yeni tipli bir pansionat məktəbi idi. 1913-cü ildə məktəb müsəlman qızlar üçün müəllim seminariyasına çevrildi.

Hacı Zeynalabdin Tağıyevin Ağa Məhəmməd Şahtaxtinskiyə məktubu, 4 may 1896

“Müsəlman qadını qapalı bir həyatdan çıxarmanın bir yolu var: Məktəb. Bu məktəbin yaradılması və qurulması lazımdır ki, müsəlmanlar ona rəğbətlə yanaşsınlar və qızlarını tam inamla oxumağa göndərsinlər ”.

Murtuza Muxtarov

Bakı xeyriyyəçisi və neft istehsalçısı. Murtuza Muxtarov Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyevdən sonra Azərbaycanın milli burjuaziyasının və neft istehsalçılarının görkəmli nümayəndələrindən biridir.

Bakıda Murtuz Muxtarovun adı daha çox neft hasilatında texnologiyanın inkişafı ilə bağlıdır. Yüksək texniki təhsili olmasa da, neft maqnatları arasında neft yataqları və qazma işlərinin sirlərini bilən ikinci belə bir şəxs tapmaq çətin idi.

Murtuza Muxtarov Bakı real məktəbinin, Temirxan-Şurinskaya qadın gimnaziyasının qəyyumu, dağlılar arasında savadlılıq və texniki biliklərin yayılması cəmiyyətinin fəxri üzvü idi. Peterburq Müsəlman Xeyriyyə Cəmiyyətinin fəxri üzvü və ali və orta ixtisas təhsili müəssisələri üçün 40 təqaüdün təsisçisi idi.

Mehriban və xeyriyyəçi bir insan, ciddi bir iş adamı kimi tanınan M. Muxtarovun əziz xatirəsinə əzəmətli binalardan ayrıldı. Bu günə qədər Bakıda və kəndlərində, Rusiyanın şəhərlərində və bəzi Avropa ölkələrində qorunan binaların çoxu onun adı ilə əlaqələndirilir. Bunların arasında – Vladiqafqaz şəhərində bir məscid, Kislovodskda, İtaliyanın Florensiya şəhərində olan möhtəşəm, gözəl binalar M. Muxtarovun hesabına inşa edilmişdir.Murtuza Muxtarov Bakıdakı demək olar ki, bütün xeyriyyə cəmiyyətlərində fəal iştirak edir və maddi yardım göstərməkdən əskik olmurdu.

Şəmsi Əsədullaev

XX əsrin əvvəllərində Azərbaycanın neft maqnatlarından biri idi. Onun adı həmişə Nobel qardaşlarının adı ilə birlikdə səslənmişdir. Rusiyaya neft nəql etmək üçün buxar gəmisini istifadə edən ilk neft sahibi idi.

Ağa Musa Nağıyev

Bakı xeyriyyəçisi və mesenati idi. Ağa Musa Nağıyev şəhərin mərkəzində "Cəmiyyəti xeyriyyə" üçün möhtəşəm İsmayıllıya binasını inşa etdirmişdir, bu binanın üstündə Realnı məktəbinin inşasının yarımçıq qalan üçüncü mərtəbəsinin xərclərini ödəmişdir, şəhər xaricində bir xəstəxana tikdirmişdir, Bakı su kəməri üçün çox vəsait sərf etmişdir.

İlk Real Məktəbinin qəyyumluğunu öz üzərinə götürmüşdür və hər il 25 müsəlman uşağının hazırlıq siniflərinə qatılmasına nail olmuşdur. Nəticədə, qısa bir müddətdə müsəlman şagirdlərin sayı əlli faizə çatdı.

Ədəbiyyat

1. Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı:Təhsil,Elm, 2001.
2. Əhmədov H. M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006.
3. Rüstəmov F.A.Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.
4. Seyidov Ə.Y.Pedaqogika tarixi. Maarif, 1968.
5. Talıbov Y.R., Sadıqov F.B, Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000.

XÜLASƏ

Məqalədə Azərbaycan xeyriyyəçilərinin fəaliyyətindən bəhs edilmişdir. Xeyriyyə cəmiyyətləri və onların cəmiyyətdə rolu təhlil edilmişdir. Cəmiyyətin sosio-mədəni inkişafında onların fəaliyyətləri öz təsdiqini tapmışdır.

РЕЗЮМЕ

В статье рассматривается деятельность азербайджанских благотворителей. Анализируются благотворительные организации и их роль в обществе. Их деятельность нашла свое подтверждение в социально-культурном развитии общества.

SUMMARY

The article deals with activities of Azerbijani philontropists. Charities and their role have been analyzed.Their activities have been confirmed in the socio-cultural development of society.

İbadovaKönül

Elmi rəhbər:Məmmədova. İ

QOCALARA, TƏNHALARA, ƏLİLLƏRƏ YARDIMIN TƏRKİBİNDƏ KÖNÜLLÜLÜK FƏALİYYƏTİNİN TƏŞKİLİ

Açar sözlər: *xeyriyyə məqsədi,qocalara, kimsəsizlərə qayğı, könüllülük fəaliyyəti*

Ключевые слова: *цель благотворительности,забота о пожилых и обездоленных, волонтерская деятельность*

Key words: *charitable purposecare for the elderly and the destitute,volunteering activities*

Xeyriyyəçilik və könüllülük (könüllü) fəaliyyətləri aşağıdakıməqsədlər üçün həyata keçirilir:

- Vətəndaşların sosial dəstəyi və müdafiəsi, o cümlədən yoxsulların maddi vəziyyətinin yaxşılaşdırılması, işsizlərin, əlillərin və fiziki və ya intellektual xüsusiyyətləri, digər şərtlər üzündən müstəqil olaraq hüquq və qanuni istifadə edə bilməyən şəxslərin sosial reabilitasiyası maraqları;

- Əhalinin təbii fəlakətlərin, ekoloji, sənaye və ya digər fəlakətlərin nəticələrini aradan qaldırmaq, qəzaların qarşısını almaq üçün hazırlanması;

-Təbii fəlakətlər, ətraf mühit, sənaye və ya digər fəlakətlər, sosial, milli, dini qarşıdurmalar, repressiya qurbanları, qaçqın və məcburi köçkünlərə yardım göstərmək;

-Xalqlar arasında sülhün, dostluğun və harmoniyanın möhkəmləndirilməsinə, sosial, milli qarşıdurmaların qarşısının alınmasına kömək;

-Ailənin nüfuzunun və cəmiyyətdəki rolunun gücləndirilməsinə təşviq etmək;

-Analıq, uşaqlıq və atalığın qorunmasınayardım etmək;

-Şəxsiyyətin təhsil, elm, mədəniyyət, incəsənət, maarifləndirmə, mənəvi inkişafı sahəsindəki fəaliyyətlərinə təşviq etmək;

-Vətəndaşların sağlamlığının qorunması sahəsindəki fəaliyyətlərin təbliği, eyni zamanda sağlam həyat tərzinin təbliği, vətəndaşların mənəvi və psixoloji vəziyyətinin yaxşılaşdırılması;

-Bədən tərbiyəsi və idman sahəsindəki fəaliyyətləri (peşəkar idman istisna olmaqla) təşviq etmək, təmənnasız iş yerinə yetirmək və (və ya) xidmət göstərmək şəklində bədən tərbiyəsi və idman tədbirlərinin təşkilində və (və ya) keçirilməsində iştirak şəxslər tərəfindən;

Yaşlılıq nədir? Təəccüblənəcəksiniz, amma bu konsepsiya yaşa deyil, xəstəliyə görə təyinedilmir.Yaşlılığın əsas əlaməti- funksionallığın itirilməsidir. Hərəkətlilik, müstəqillik, görmə, eşitmə, yaddaş - bu və digər qabiliyyətlərin itirilməsi yaşlanan bir insana işarə edir. Bəli, bu təbii bir prosesdir, dayandırıla bilməz, yalnız ləngidilə bilər. Bunun üçün tibbi təhsili olmayanların özü də çox yardım edə bilər. Yaşlanma ilə əlaqəli bəzi sağlamlıq problemləri önə çıxır. Yaşlı insana funksional qabiliyyətini mümkün qədər uzun müddət qorumağa kömək etmək istəyiriksə, onlara xüsusi diqqət yetirməliyik.

Həyat paradoksu: gənc nəsil istirahət etmək, yatmaq və öz vaxtlarını idarə etmək üçün tez-tez təqaüdə çıxmağı xəyal edir. Təqaüdçülər, əksinə, statuslarından, cəmiyyətdəki problemlərdən, ailədən və ümumiyyətlə qocalıqdan qorxurlar. Yaşlıların cəmiyyətdəki sosial vəziyyətini, əsas çətinliklərini və sürətli uyğunlaşma yollarını nəzərə alaraq bunun niyə baş verdiyini öyrənməyə dəyər. Zəmanəmizdə bir sıra sosial problemlər var, çünki yaşlı insanların mövqeyi birmənalı deyil. Cəmiyyətin münasibəti sosial statusdan, həmçinin təqaüdçü ailəsinin maddi təminatından asılıdır. Bu o deməkdir ki, eyni yaşdakı nümayəndələrin rolu və yeri fərqli ola bilər.Hər birimizdən gözlərini yumub bir təqaüdçü xəyal etməsini istəsən, gözəl bir evdə nəvələri ilə əhatə olunmuş mehriban, şən bir baba(nənə) görəcəksən. Başqası isə ən azından çörək almaq üçün mağazanın qarşısındakı son qəpiklərini sayan, köhnəlmiş paltarda pul çatışmazlığından bezmiş tənha bir təqaüdçünü təmsil edəcək.

Birinci halda, ehtimal ki, övlad sahibi olan varlı bir insandan bəhs edilir. Onlar bahalı müalicəyə maddi imkanı çatır, bahalı hədiyyələr edə və cəmiyyətdə yüksək mövqeyə sahib ola bilərlər. Amma bu, butun yaşlı insanlara şamil edilə bilməz.

Ailə, müasir cəmiyyətin fərqli baxışlarının nəzərdən keçirildiyi əvvəlki mövzu ilə sıx əlaqəli bir həyatın vacib tərəfidir. Beləliklə, bir təqaüdçünün cəmiyyətdəki statusu ailədəki

mövqeyindən asılıdır. Bundan əlavə, ailə daxilindəki şərait təqaüdçünün yaşlanma dövründə cəmiyyətdə uyğunlaşma prosesinə təsir göstərir.

Yaşlılara sosial dəstək hər bir cəmiyyətin həyatının zəruri bir atributudur, baxmayaraq ki, onun vasitələri və formaları, əlbəttə ki, müəyyən bir cəmiyyətin inkişaf səviyyəsindən, adət və ənənələrindən, üzvlərinin zehniyyətindən asılıdır. XX əsrin sonlarındakı demokratiya, bir qayda olaraq, dövlət tərəfindən sakinlərin rifahı üçün məsuliyyət daşıyan sosial və ya "sosial dövlətlər" xarakterinə malikdir. Azərbaycandan danışırıqsa, dövlətin xeyriyyəçilik ənənələri və vətəndaş cəmiyyəti institutlarının inkişaf etməsi dövlətin vətəndaşlarına sosial dəstəyin tətbiq edilməsində əsas rolunu və məsuliyyətini müəyyənləşdirir.1980-ci illərin sonlarından etibarən Azərbaycan cəmiyyəti hələ yeni bir sosial sistemin qurulmasına gətirib çıxarmayan köklü dəyişikliklərə məruz qaldı. Keçmiş sosial dəstək qurumları ideoloji yanaşmalar, resurs bazası çatışmazlığı və dəyişən sosial şərtlər səbəbindən işləmirdi. Bu proseslər nəticəsində dövlətin əhalinin sosial müdafiəsi sahəsindəki fəaliyyətinin əhəmiyyəti kəskin şəkildə artmışdır. Nəticədə, əhalinin sosial ödəmələrlə təmin edilməsi üçün nəzərdə tutulmuş bütün səviyyəli büdcələrdən, büdcədən kənar sosial fondlardan bu məqsədlər üçün xərclər xeyli artmışdır. Nəticədə, dövlətin sosial öhdəliklərinin həcmi və böyümə templəri maliyyə imkanlarını nəzərəçarpacaq dərəcədə üstələməyə başladı və bu da sistemli sosial müdafiə böhranına səbəb oldu.

Tənha yaşlı insanlara cəmiyyətdə, təəssüf ki, olduqca çox rast gəlinir. İllər keçir və əksəriyyəti kifayət qədər mürəkkəb həyat yaşayır və nəticədə bu müasir dünyada tamamilə çarəsiz qalırlar. Onların bir çoxu artıq sevdiklərini itirməyi başlayır, bəziləri ailəli olmurlar, digərləri övladları və nəvələri tərəfindən sadəcə unudulurlar. Qazanılmış xəstəliklər özünü hər gün hiss etdirir və bu səbəbdən onların qayğıya ehtiyacı olur. Bəzi yaşlı insanlar mağazaya getməkdə çətinlik çəkirlər və çətinliklə növbə gözləyirlər. Çoxları üçün özünə xidmət etmək, hətta geyinmək çətin olur.

Kimsəsiz yaşlı insanlarda tez-tez ağırlaşmalarla nəticələnən yeni xəstəliklər yaranır. Bu səbəbdən yaşlılara diqqət və qayğı bu qədər son dərəcə aktualdır. Dövlət həmin insanların ehtiyaclarını qarşılamaq yardım etmək üçün xüsusi proqramlar hazırlayır.

Qocaların tibbi tərəfdən xüsusi müalicəyə, kənar yardımlara ehtiyacı var. Əsasən yardıma ehtiyacı olanlar- 80 yaşdan yuxarı bir təqaüdçünün qayğısına qalmaq xüsusi bir önəm daşıyır. Bu, daxilən və fiziki cəhətdənsəbr, bilik və güc tələb edən böyük bir məsuliyyətli işdir. Yaşlılara yalnız qohumlar deyil, yad insanlar da baxa bilərlər. Qanunvericilik bunun üçün tibbi təhsilə sahib olmağın zəruriliyini şərtləndirmir. Eyni şəkildə, hər iki qrup da pensiya almaq hüququna sahib olduqları yerdə qəyyumluq (qəyyumluq) üçün müraciət edə bilərlər.

Xüsusi qayğıya ehtiyacı olduğuna dair tibbi arayışı olan yaşlılardan əlavə, baxım xidmətinə ehtiyacı olan aşağıdakı kateqoriyalar da var:

I qrup əlil.

Kiçik əlil uşaqlar (hər hansı bir qrup).

Yaşlı valideynlərə, kimsəsizlərə,əlilliyi olanlara qayğı göstərmək lazım olduqda dərhal sual yaranır - bunu kim edəcək və necə təşkil edəcək. Sualın cavabı maddi tərəfə də yönəlir. Bununla məşğul olan xüsusi xidmət fəaliyyət göstərir.

O kateqoriyadan olan insanlara qulluq bir neçə növ xidmətdən ibarətdir:

-Sanitariya və gigiyenik xidmətlərin (çimmək daxil olmaqla) aparılması.

-Palatanın tələbi ilə qida, dərman və digər malların alınması.

-Tələb olunan ödənişlərin edilməsi.

-Yemək bişirmək. Zəruri hallarda qidalanma.

-Dərman qəbuluna nəzarət.

-Sadə tibbi prosedurların aparılması, məsələn: təzyiq, temperatur, nəbz ölçmək və s.

-Otaq təmizlənməsi. Bu xüsusi bir evdirsə, həyətdir.

-Paltarların yuyulması və ütülənməsi.

-Şəxsi istəklərin yerinə yetirilməsi (məsələn, məktubların göndərilməsi).
-İstirahət fəaliyyətinin müxtəlifliyi (məsələn, ucadan oxumaq).
-Mümkünsə, xəstəni müşayiət etmək - məsələn, xəstəxanaya və ya yalnız gəzinti zamanı.
-Təqaüdçülərin hüquq və mənafelərinin qorunması da tələb olunur.
Evdə tək yaşayan yaşlı insanlara qulluq edilərkən hansı əlavə alış-veriş edilməlidir:
-Dezinfeksiya məhsulları.
-İltihab əleyhinə dərmanlar.
Ayrıca, bu kateqoriyalı insanlar təzyiq xoraları ilə mübarizə üçün hazırlanmış məhsullara ehtiyac duya bilərlət.
- Gigiyena prosedurları üçün məhsullar
-Yaşlılara psixoloji yardımın incəlikləri.

Ədəbiyyat

1. E.I.Xolostova, L.I.Kononova. Uzunmüddətli qayğı: mahiyyəti, təşkilatı, texnologiyaları və tətbiqetmə vasitələri. Moskva: 2020
2 .G.B.Xasanova. Sosial gerontologiya dərslik. Moskva:2014
3.Paykova Anna Mixaylovna, Komarova M.I., Boyarşinova O.S.Ağır və çoxsaylı inkişaf əlilliyi olan uşaqlar üçün inkişaf baxımı. Moskva:2018
4.Çernyavskaya A.Q.Yaşlıların psixologiyası və androqogikası.Moskva:2019

XÜLASƏ

Məqalədə yaşlı, kimsəsiz, əlilliyi olan insanlara yardımdan bəhs edilir. Onların cəmiyyətdə mövqeyi önə çəkilir. Həmin insanlara göstərilən dövlət qayğısı və onlara yardım məqsədi ilə çıxış edən könüllülük fəaliyyətindən bəhs edilir.

РЕЗЮМЕ

В статье указывается на помощь пожилым людям, детям-сиротам и инвалидам. Подчеркивается их положение в обществе. Речь идет о государственной заботе об этих людях и о волонтерской помощи им.

SUMMARY

The article deals with helping the elderly,orphans and people with disabilities. Their position in society has been emphasized. It has been discussed the state care to these people and the volunteering activities for helping them.

Hüseynli Arzu İlqar
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Rzayeva Nurəngiz Tofiq qızı

LEYLİ VƏ MƏCNUN POEMASINDA TƏNHALIĞIN PSİXOLOJİ EFFEKTLƏRİ

Açar sözlər: *Məcnun, tənhalıq, psixoloji ədəbiyyat, təcrid, cəmiyyət, sevgi*
Ключевые слова: *Маджнун, одиночество, психологическая литература, изоляция, общество, люблю*
Key words: *Majnun, loneliness, psychological literature, isolation, society, love*

Tənhalıq haqqında istər elmi, istərsə də elmi olmayan hər kəsin bir sözü, fikri var. Bəziləri elmi araşdırmalarına, bəziləri sənətə, bəziləri yaşadıqları təcrübələrə, hiss etdiklərinə əsaslanaraq bu problemi araşdırmağa və aradan qaldırılması üçün həll yolu tapmağa çalışmışlar. Psixoloqlar və elm adamları tənhalığı araşdırmağa çalışarkən ona müxtəlif izahlar vermişlər.

Təhnalıq həmçinin ədəbiyyat və psixologiya elminin ən əsas mövzuları arasında yer alır. Hər bir xalqın ədəbiyyat nümunələrində, etnik xüsusiyyətlər nəzərə alınmaqla tənhalığın

təzahür xüsusiyyətləri və onu doğuran səbəbləri barəsində müəyyən fikir və mülahizələr müşahidə edilə bilər. Bundan başqa folklor, poeziya nümunələrində, hətta musiqi əsərlərinin bir çoxunda tənha, digər insanlar tərəfindən tərk edilmiş, ümidləri sınmış insanların keçirdiyi halətlər hərtərəfli şəkildə əks olunmuşdur.Azərbaycan klassik ədəbiyyatında "Leyli və Məcnun" poemasında (Məcnun obrazı vasitəsi ilə) həm tənhalığı törədən sosial-psixoloji amillər, həm də təzahür formaları yüksək ustalıqla təsvir edilmişdir [1,s.13].

Leyli və Məcnun poeması dərin fəlsəfi məzmuna malikdir və həmin dövrün mahiyyətini özündə əks etdirir. Nizami Gəncəvi onu narahat edən insan konsepsiyasını bu əsərdə açmışdır. Əsərin əsas süjet xətti Məcnun və Leylinin məhəbbətindən,onların qovuşa bilməməsindən, Qeysin ilahi sevgisindən və özünü cəmiyyətdən təcrid etməsindən bəhs edir. Təhnalıq halәti isə daha çox cəmiyyətdən tamamilə təcrid olunmuş Qeys obrazında təsvir olunur. Nizaminin məsnəvisində, Məcnun acınacaqlı vəziyyətdədir, çarəsizliklə insanlardan qorxub qaçan bir zavallıdır. Məcnunun tənhalığı hadisələrin əvvəlində psixoloji xarakter daşısa da sonra onun tənhalığı həm fiziki həm psixoloji mahiyyət daşıyır. Psixoloji tənhalıq isə tənhalığın ən ağır formasıdır. Məcnun insanlar mühitində olmasına baxmayaraq, özünə həmfikir, həmsöhbət tapa bilmir və sosium onu dəli adlandırıraq Məcnunu fiziki tənhalığavadar edir.

İlahi sevgiyə çatana qədər Qeys çox sınaqlardan keçir. Qeysin ilk itkisi elə onun adından başlayır-onun adını əlindən alırlar. Ad cəmiyyətin ona verdiyi ilk sosial ərməğan idi amma ilk "böyük səhv"ində cəmiyyət ondan verdiyi "payı" alır. İlk böyük səhvi isə sadəcə onun eşqə düşməsi idi. Qeys artıq Məcnun adlandırılıqdan sonra qəbilənin bəzi dəyər mühakimələrin görməməzlikdən gəlir. Bu səbəblə Məcnun, ənənə daxilində deyil, ondan kənarda, hətta ona qarşı dəyərləndirilir. Məcnun "şəxsi səadətinə əngəl olan topluma qarşı üsyan duyğusu" yaradaraq özünü insanlardan təcrid edir.Məcnun bununla sosiallığın doğmalığından assosiallığın rahatlığına rahat "keçid edir". "Məcnun" Qeysin "personası" və ya maskasıdır. Qeys öz daxili mənliyin digər insanların düşüncələrindən qorumaq üçün dəlilik maskasına bürünür. Beləliklə, Məcnun iç dünyasına savaş açar. Onun dəlilik kimi seçdiyi bu persona onu ilahi sevgiyə çatdıracaqdı. Eşq yolunda özünü tənhalaşdıran Məcnun həm zəlil olur, həm möhtəşəm[2,s.343].

Burada Məcnunun tənhalığı onun özü ilə olan mübarizəsi, özü ilə üzləşməsi idi.O, öz həqiqətinə görə cəmiyyətin,qəbilənin və ümumiyyətlə adi insan düşüncələrinin fövqünə qalxdı. Bu yüksəlmə onu təhnalaşdırdı, cəmiyyətdən, ailədən, adi düşüncələrdəntəcrid etdi və qovdu.

Məcnun tək deyildi o özü özünü tənhalaşdırmışdı. Karl Qustav Yunqa görə tənhalıq, ətrafda insan olmaması deyil, dəyər verdiklərini, düşüncələrini başqalarına çatdıra bilməməsi və ya başqalarlarının qeyri-mümkün hesab etdiyi bəzi fikirlərə sahib olduğunda hiss edilən duyğudur.

Belə bir sitat vardır "Həyat bir tamaşadır biz insanlar isə onun aktyorlarıyıq". Həyat tamaşadır və hamının oynaması üçün müəyyən rollar cızılır.Burollar bizdən, bizim iradəmizdən asılı olmayan rollar olur. Bəzən insanlar onun üçün yazılmış rolu bəyənmir, özünə yeni rol cızır, improvizasiya edir, rejissora məhəl qoymur, rolu istədiyi kimi oynayır. Burada Qeys də onun üçün yazılmış rolu oynamaq istəmir, oynadığı tamaşanın ssenarsin də elə məhz özü yazır. Məcnun topluma boyun əymir. Belə olduqda hamı cəmiyyət onun bu hərəkətini qəbul etmir və bu da onun təhnalaşdırır, kimsəsizləşdirir.

Məcnun təkcə sosiumun onun üçün müəyyənləşdirdiyi rola qarşı yox, həm də taleyə qarşı çıxır. Məcnun obrazı gerçək həyatda özünə yer tapmır, fərqliliyi, ya da dəyişimi qəbul edə bilməyən cəmiyyətlə toqquşur, daxili psixoloji gərginlik içində çırpınıb çıxış yolu axtarır. Ancaq sonda çıxış yolunu gerçək dünyadan uzaqlaşmaqda görür. Məcnun isə məkan dəyişdirir – onu anlamaq istəməyən cəmiyyətdən uzaqlaşıb səhraya üz tutur. Ayrılıq dərdinə dözməyən aşiq çöllərə üz tutub, öz azadlığını təbiətin qoynunda tapır.Onun bu tənhalığı ona azadlıqbəxş edir.

Əsərdə Məcnunun tənhalığı ona bədbəxtlik yox, xoşbəxtlik gətirir. Məcnun halından,bu kimsəsizliyindən razı idi. Eşq Məcnunda razılıq, məmnunluq yaradır, Leylidə giley, şikayət. Bunun əsas səbəbi isə mühitdir.Məcnun eşqinin mənası ondadır ki, bu eşq fərdi ruhi təklik vəziyyətindən çıxarıb, başqa bir fərdə qovuşdurur. Məcnun ruhi həyatın zirvəsinə çatdı, lakin son məqsədə çata bilmədi. Nizaminin fikrincə, insanın ən ali və son məqsədi şəxsiyyətin ilahi varlığa qovuşmasıdır ki, bu da fərdin Allaha sonsuz və təmanassız eşqində baş verir. O, ruhən saflaşdı, yerdən, mühitdən, yerdən, insanlardan hətta öz mənliyindən belə azad oldu. Dünya həyatından qopan, keçmişi və gələcəyi fikirləşməyən, yalnızlığı sevən Məcnun cəmiyyət qaydalarına riayət etməyərək düzənsiz bir həyat yaşadı.

Başqa insanlarla ünsiyyətdə olan, dərtləşmək kimi bir fenomenə ehtiyac duyan və bu həsrəti çəkən yeganə varlıq insandır. Məcnun isə bu ünsiyyətdən özünü məhrum qoymuşdur. Məcnunun ətrafında dərdini danışacaq biri olmadığı üçün o dərdini dağlara daşlara açır. Çünki bu dərdin ondan başqasını narahat etmədiyini görür və bu problemi-eşqi öz içində həll etməyə çalışır.

Leyliyə qovuşa bilməyən Qeys Məcnuna dönər. Dağda-çöldə mənasızca gəzən, yaxşını pisdən ayırd edə bilməyən, dərddən özünü məhv edən Məcnun acısız, izitirabsız yaşa bilməyəcək hala gəlir. Onun özünə bu cür əzab verməsi onun tibbi baxımdan mazoxist bir vəziyyətdə olduğunu sübut edir. Hekayədə təsvir olunan simptomları nəzərə alsaq Məcnun böyük bir depresif xəstəlik içərisində olduğunu söyləyə bilərik. Sonda Məcnunun ölümü intihar olaraq da dəyərləndirilir.

İnsan özü yalnız istədikdə təhnalığdan xilas ola bilər. Məcnun isə bu azadlığdan xilas olmaq istəmirdi, onun tənhalığı onun azadlığı idi. Məşuqəsin düşünərək səssiz kimsəsiz bir səhrada mənasızca gəzib dolaşmaq onun tək reallığı idi. O, bu səssizlikdə özünü axtarırdı.

Təhnalıq insan hissiz və soyuq bir varlığa dönüşdürür. Məcnun obrazı ilə də yazıçı insanların təhnalığ qarşısında necə daşlaşaraq soyuq birinə çevrildiyini göstərmişdir. Ümumiyyətlə, Nizami Gəncəvinin psixoloq gözü ilə mənəvi aləmin narahatçılıqlarından və eniş-yoxuşlarından çıxartdığı fəlsəfi və əxlaqi nəticələr heyrətamizdir.

Ədəbiyyat

1. Lalə Cabbarovun “Müasir şəraitdə tənhalığın sosial psixoloji problemləri” mövzusunda dissertasiyası (2002-ci il) Bakı.

2. İlyas Kayaokayın “Füzulinin Leyla və Məcnun məsnəvisinin arxetip sembolizm əlaqəsində təhlili” məqaləsi. 2014

3. Nizami Gəncəvi.(Əbu Məhəmməd Cəmələddin İlyas ibn Yusif). ”Leyli və Məcnun. Bakı 1981.

4. Hanife Kahraman.Klinik bir fenomen kimi təhnalıq: Tənhalıq və Psixoloji Problemlər. Türkiyə. 2014

5. Bayramov.Ə.S. “Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı.1981

Психологические эффекты одиночества в поэме Лейли и Меджнун

РЕЗЮМЕ

В данной статье исследуются структурные и концептуальные аспекты Меджнун. Раскрыты характеры Меджнун как личности, ее психологическое состояние. Меджнун проводил все свое время в одиночестве, в окружении только диких животных, которые собирались вокруг него и защищали его долгими пустынными ночами. В нем рассказывается о роковом романе между Лейлой и Кайсом, который, доведенный до безумия, нашел убежище в пустыне. с дикими существами как его единственными друзьями. Меджнун решил остаться в одиночестве и попытался изолировать себя от людей. Эта статья об одиночестве, как раскрыть его психологию.

Psychological effects of loneliness in the poem Leyli and Majnun
SUMMARY

This paper investigates the structural and conceptual aspects of the Majnun. Majnun`s characters as an individual, her psychological state was disclosed.

Majnun spent all of his time alone, surrounded only by the animals of the wilderness that gathered around him and protected him during the long desert nights.It tells of the fateful romance between Layla and Qays who, driven to madnes, took refuge in the desert with wild creatures as his only friends. Majnun chose to stay alone and he tried to isolate himself from people. This article is about solitude how to expose his psychology.

Hüseynli Arzu İlqar
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Rzayeva Nurəngiz Tofiq qızı

TƏNHALIĞA TƏSİR GÖSTƏRƏN ƏSAS PSİXOLOJİ AMİLLƏR VƏ ONUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *şəxsiyyət, fərdi-psixoloji, temprament, təklik, psixoloji ədəbiyyat*

Ключевые слова: *личность, личностно-психологическая, темперамент, одиночество, психологическая литература*

Key words: *personality, personal-psychological, temperament, loneliness, psychological literature*

Tənhalıq indiki dövrdə xeyli önəmli və ümümbəşəri problem kimi qalır. Elə buna görə də təsadüfi deyildir ki, son vaxtlarda bu məsələ insanlar tərəfindən lap çox diqqəti cəlb edir. Odur ki, aparılan ayrı-ayrı psixoloji tədqiqatların nəticələrindən məlum olur ki, tənhalıq şəraiti şəxslər arasında xeyli yayılmış və bu halın əmələ gəlməsinin şəxsin özünə, eyni zamanda ətrafdakılara ciddi təsiri vardır. Yəni cəmiyyət içərisində cəmiyyətin üzvünün yadlaşması, dərin tənhalıq hissinə vadar olması fərdin özü, eyni zamanda o cəmiyyət üzrə acınacaqlı nəticələrə gətirib çıxarmaqdadır. O, hətta pataloji pozğunluğa, o cümlədən cəmiyyətə qarşı təhlükə yaradan davranışlara da gətirə bilər. Lakin unutmaq olmaz ki, yalnız insanın cəmiyyətə qarşı yönələn aqressiyası, zorakılığı çox zaman onun özünə qarşı edilmiş zorakılığına-özünəqəsdinə əsaslanmaqdadır. Odur ki, son illərin tədqiqatlarındn aydın olur ki, kütləvi hal almış gənclər və yeniyetmələrin arasında özünə qəsdetmə (suisid) halının başlıca səbəbi də məhz yalnızlıqla üzvi şəkildə əlaqəlidir. Eyni zamanda gənclər və yeniyetmələrin arasında geniş yayılmış narkomaniya, alkoqolizm və başqa mənfi meyllərin əmələ gəlmə səbəbi də tənhalıqla əlaqələndirillməkdədir [1, s.126].

Psixoloji ədəbiyyatlarda tənhalıq üzrə təsir göstərən əsas amillər xarici və şəxsiyyətin xüsusilə öz xarakteri ilə əlaqəli olan daxili səbəblər olaraq təsnif edirlər. Ancaq bu tədqiqat işi içərisində, tənhalığa təsir göstərən amilləri nəzərdən keçirdiyimiz zamanaydın olur ki. Xarici səbəblərin özü belə makrososial və mikrososial olaraq 2 yerə ayrılır.

Mikrososial səbəblər dediyimiz zaman burada konkret bir şəxsin tənhalığına səbəb yaradacaq yaxın dostların azlığı, ailəarası, şəxsiyyətlərarası münasibətlər üzrə ayrı-ayrı problemlər və s. şəklindəki amillər nəzərdə tutulmuş vəmakrososial səbəblər, belə ki, urbanizasiya, siyasi-ideoloji, iqtisadi dəyişimlər və s baxımdan da hər hansı bir cəmiyyətdəki tənhalığını şərtləndirən səbəblərin hər biri diqqət mərkəzi üzrə çəkilmişdir.

Psixoloji ədəbiyyatlarda qeyd edilmiş tənhalığın yaranmasına təsir göstərən 2-ci səbəb də şəxsiyyətin daxili-subyektiv amili hesab edilir [2, s.32]. Bu səbəbdən biz birinci növbədə şəxsin fərdi-psixoloji cəhətləri vətemperament tiplərinin təvir olunması ilə əlaqəli olan müəyyən məlumatları müəyyənləşdirərək bu cəhətlərin tənhalığa necə təsir etdiyini araşdıraq. Müşahidələr əsasında aşağıdakı nəticələr əldə edilmişdir.

Digər tiplərlə müqayisə nəticəsində xolerik və melonxolik temperament tiplərinin hər biri tənhalıq üzrəlap çox meyillidir. Eyni zamanda bu temperamentlərə sahib şəxslərin tənhalığa qarşı mübarizəsi digərlərinə nəzərən daha zəifdir.

- Sanqvinik ilə xolerik fiziki təklik mühitində özü tənhalıq halətini əmələ gətirə biləcəyi zaman, melanxolik və fleqmatik daimi ünsiyyət mühitində tənhalığı yaşamağa lap meyillidir.
- Melanxolik və fleqmatiklər tənhalıq duyğusunuən çox emosional cəhətdən, sanqvinik və xoleriklər də sosial tipdə yaşamaqdadırlar.
- Sanqvinik temperament tipə malikinsanlar tənhalığı yaşamaq ehtimalı lap azdır.
- Melanxolik və xolerik temperament tipinə malik şəxslər də tənhalığı lap intensiv və tez-tez yaşamaq üzrə meyillidirlər.
- Tənhalıq şəraitini yaşamış xoleriklər düşdüyü durumun səbəbini digər insanlarda, melanxolik isə özü vətaleyində görməyə meyillidi.
- Tənhalıq şəraitini yaşamış melonxiklər lap çox depressiv hissləri, xoleriklər də aqressiv hissləri keçirir.
- Melanxolik tənhalığa lap çox meyillidirlər. Ancaq xoleriklər tənhalığı ən çox xroniki şəkildə yaşama ehtimalı vardır[4, s.21].

Eyni zamanda tənhalığın cinslər arasındakı fərqi vardır. Məsələn müşahidələrdə müəyyən olunmuşdur ki, qızların cavabında oğlanlardan fərqli olaraq ən çox "təklik qorxusu"na rast gəlinir.

Son zamanlarda respublikamızda tənhalıqla əlaqəli problemlərin araşdırılması yönündə bir çox tədqiqatlar aparılmışdır ki bunlardan biri isə Ə.S.Bayramovun tədqiqatı sayılır. Onun tədqiqatında yadlaşma fenomeninin öyrənilməsi əsas sayılmaqdadır. Bu tədqiqat işləri zamanı yadlaşma fenomeninə fərdi, müxtəlifşəxslərin problemi olaraq deyil,lap qlobal, bir az da ümummilli problem olaraq yanaşılması sözügedən məsələnin aktualığını lap da nəzərə çarpdırır.

Tənha insan depressiya yaşayan, ünsiyyət qabiliyyətinən məhrum olan bir insandır. Tənha adam özünü az cəzbedici hiss etməkdədir, belə sayır ki, ona heç kəs hörmət göstərmir və onu istəmir. Tənha insanın özünə bu formada münasibəti kin saxlama, qüssə saxlama, dərin bədbəxt olma hissi ilə müşayiət edilir, çox zaman bu cür şəxslər sosial təması istəmir, özünü o biri insanlardan təcrid edir, lap çox bədbin hisslər keçirir, başqalarından yalnızca pislik gələcəyin sayırlar. Tənha adamların diqqəti həddən çox öz daxili aləmlərinə doğru olur. Onlar lap çox özlərinə qapanmış olurlar, başqa insanlarla ünsiyyət halında isə daha çox özlərindən deyir, həmsöhəbəti barədə az sual verir və danışıq mövzuların tez-tez dəyişirlər [3, s. 278].

Bir sıra tənhalıqdan əziyyət çəkən şəxslər isə lazımi qədər sosial vərdişlərə sahib olmadıqları üçünbaşqa. əxslərin onlardan qaçdığını vəona güldüyünü düşünür. Digərləri də ətrafdakılara qarşı xeyli inamsızlıq hissi keçirir və fikirləşirlər ki, başqa adamlar ancaq özlərini düşünür, öz mənafeləri üzrə çalışır, onlardan öz mənafelərinə müvafiq olaraq istifadə etmək üçün çalışırlar.

Tənhalıqdan əziyyət çəkən insanların bir qismi isə zənn edir ki, onları heç kim anlaya bilməz və onlar kiməsə öz ideyaları və ya hissləri barədə danışsa adamlar ondan üz döndərəcək. Bununla birgə əksər insanlar düşünürlər ki, onların özləri üçün uyğun həmsöhbətlə rastlaşmağa heç bir şansı yoxdur. Bəzən tənha şəxslər çox yaxın münasibətlərdən çəkinir, düşünürlər ki, bu cür münasibətlər qursalar öz azadlıqlarını itirə bilər və həmsöhbətlərinin duyğularına qarşı cavab verməyi bacarmazlar [2, s. 47].

Ədəbiyyat

1. Bayramov Ə.S. "Şəxsiyətin təşəkkülününaktual psixoloji problemləri. Bakı 1981.
2. Lalə Cabbarovun "Müasir şəraitdə tənhalığın sosial psixoloji problemləri"mövzusunda dissertasiyası (2002-ci il) Bakı.
3. Yüksək urbanizasiya şəraitində ünsiyyət problemi "Bakı Universitetinin xəbərləri" jurnalı. BAKI-2001

4. Tənhalıq halətinin yaranmasında temperament tiplərinin rolu. Gənc aspirantların və tədqiqatların respublikakonfransının tezisləri. BAKI-2001
5. Tənhalıq halətinin fəsadları və profilaktikası haqqında. "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda respublika ali məktəblərarası elmi-praktik konfransın tezisləri. BAKI-1997

Основные психологические факторы, влияющие на одиночество и его основные особенности

РЕЗЮМЕ

Статья исследует одиночество как одну из самых актуальных и важных проблем нашего времени. Предмет был исследован и проанализирован на наличие конкретных причин для этой проблемы. Наиболее важные факторы одиночества относятся к категории внутренних причин, которые напрямую связаны с внешними и личностными качествами. Сами внешние причины делятся на две части, как макросоциальные, так и микросоциальные. Микросоциальные причины включают в себя отсутствие близких друзей, семейные проблемы, межличностные проблемы и т.д., Которые могут привести к изоляции конкретного человека. Макросоциальные факторы: урбанизация, политико-идеологические, экономические изменения и т.д. С точки зрения, причины одиночества в конкретном обществе находятся в центре внимания.

The main psychological factors influencing loneliness and its main features

SUMMARY

The article explores loneliness as one of the most pressing and important problems of our day. The subject has been researched and analyzed on the existence of specific causes for this problem. The most important factors in loneliness are categorized as internal causes that are directly related to external and personality traits. The external causes themselves are divided into two parts, both macro-social and microsocial. Microsocial reasons include the absence of close friends, family problems, interpersonal problems, and so on, which can lead to the isolation of a particular individual. Macro-social factors, ie urbanization, political-ideological, economic changes, and so on. From the point of view, the causes of loneliness in a particular society are in the spotlight.

Mirəhmədli Kifayət Mirismayıl qızı
Elmi rəhbər: dos. Abdinova N.C

ŞAGİRDLƏRİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA AİLƏ TƏRBİYƏSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *şəxsiyyətin formalaşması, sosiallaşma, ailə tərbiyəsi, şagird şəxsiyyəti*
Ключевые слова: *формирование личности,социализация, семейное воспитание, личность ученика*
Key words: *formation of personality, socialization, family upbringing, student identity*

Cəmiyyətin, bəşəriyyətin inkişafının hazırki mərhələsində gələcək nəslin formalaşması həddindən artıq üstünlük verilən məsələlərdən biridir. Şagird şəxsiyyətinin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş surətdə danışanda məhz bu cəhəti, o cümlədən, ailə münasibətləri sisteminin şəxsiyyətə təsirini nəzərdə tuturlar.Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu heç bir şeylə əvəz oluna bilməz. Gənc nəslin tərbiyəsi ailənin ən başlıca vəzifələrindən biridir. Ailə tərbiyəsi uşaqlara yaxşı vərdişlər və ailə dəyərləri aşılamaq, onları balanslı bir şəxsiyyət kimi yetişdirmək üçün vacibdir. Valideynlər hər uşağın həyatında ilk və ən vacib müəllimlərdir. Ailə tərbiyəsinin əhəmiyyəti

doğuşdan başlayır və həyat boyu sabit qalır. Ailə cəmiyyətin təməl vahididir. Ailə bu dəyişmə dövründə şagird şəxsiyyətinin formalaşması zamanı əsas dayaqdır. Ailə tərbiyəsi məktəblilərin uyğun, nəzakətli və diqqətli davranışlarını öyrənmələrinə kömək etmək, yaxşı davranış tərzi qurmalarına və yaşlandıqca sosial baxımdan daha diqqətli olmalarına imkan verir.

Cəmiyyət qarşısında qoyulan əsas problemlərdən ən başlıcası şəxsiyyətin formalaşdırılması əsasında sağlam ailə və dinamik inkişaf edən cəmiyyətin qurulmasının təmin edilməsidir. Ailə tərbiyəsinin əsas spesifikliyi emosional mikroiqlimin olması nəticəsində uşağın özünə qarşı münasibəti inkişaf edir, özünü dəyərləndirmə hissi konkretləşir. Ailə tərbiyəsinin digər vacib rolu ondan ibarətdir ki, o dəyərlərin yönəldilməsinə, ümumilikdə uşağın dünya görüşünə, ictimai həyatın müxtəlif sahələrində davranışına nüfuz edir.Ailə tərbiyəsi, kiçik yaşlı uşaqlara olan münasibət onların şəxsiyyət kimi inkişaf edib formalaşmasında əvəzsiz rola malikdir. Belə ki, kiçik yaşlı uşaqlar ailə xoşbəxtliyi, xeyir, şər, dostluq, qayğıkeşlik, düzgünlük, ədalətsizlik, əmin-amanlıq, müharibə, ekoloji çətinliklər, hüquq qaydaları, iqtisadi biliklər, qənaət, sadəlik, təvazökarlıq, doğruçuluq və s. haqqında təsəvvürlərə ailədə yiyələnirlər. Təlim-tərbiyə prosesində şagirdin bir şəxsiyyət kimi formalaşması üçün ailə tərbiyəsinin nəzərə alınmasının çox mühüm əhəmiyyəti vardır.İstər siyasi, istər fiziki, istər əmək, istər estetik, istər əxlaq, istərsə də tərbiyənin başqa tərkib hissələri üzrə həyata keçirilən tədbirlərdə bunun diqqətə alınması tərbiyə işinin faydasını artırır. Kamil şəxsiyyət formalaşdırmağın ən vacib əlamətlərindən biri yetişən nəslə doğru-düzgün nümunə olmaqdır.

Şagirdlərdə ailənin təsiri ilə özünü göstərən qabiliyyətlər sonradan inkişaf edərək istedad və qabiliyyət kimi özünü göstərir. Uşağın ailədə gördükləri və ona təlqin edilənlər arasında ziddiyyətlər olarsa, onun tərbiyəsində bir sıra uyğunsuzluq baş qaldırır. Uşağın məktəbdəki müvəffəqiyyətli təhsili, şəxsiyyət kimi inkişafı, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təməldən əhəmiyyətli dərəcədə asılıdır. Ailədə təlqin edilən tərbiyə uşaqların intellektual, fiziki, psixoloji və sosial inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, sadə əmək vərdişlərinə yiyələnməsi, istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlığının qorunması və estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi xüsusiyyətlərin, həyati bacarıqların formalaşmasında vacib rol oynayır. Bu dövr uşağın fəal sosiallaşması, yaşıdları ilə daha çox münasibət qurması, mədəni vərdişləri öyrənməsi, mənəvi və estetik duyğuların oyanması dövrüdür. Ailə tərbiyəsi öz növbəsində uşağın ətraf aləmlə qarşılıqlı həmahəngini təmin etməyə, qayğıkeş hisslər oyatmağa, birgə fəaliyyətə və müsbət özünütəsdiqə nail olmağa qabildir. Gözəl tərbiyə daha güclü və müsbət münasibətlərə səbəb olur. Yaxşı tərbiyəli uşaqlar kütlənin içərisində fərqlənirlər və akademik həyatlarında və karyeralarında daha yaxşı imkanlar əldə edirlər.Valideynlər ailə dəyərlərinin vacib olduğunu nümayiş etdirdikdə, uşaq bu dəyərlər və tərbiyə içərisində öz yerini tapmaq üçün lazım olan quruluşu və sərhədləri alır.Dəyərlərə əsaslanan ailə həyatı vasitəsilə hər bir uşaq özünü ifadə etməyi, səhvlərindən böyüməyi, problemi həll etməyi və cəmiyyətin məhsuldar üzvü olmağa kömək edəcək bütün bacarıqları inkişaf etdirməyi öyrənir.

Y.A.Komenski, K.D.Uşinski, A.S.Makarenko, M.M.Mehdizadə, N.M.Kazımov, Y.Rtalıbov kimi tanınmış simalar şəxsiyyətin formalaşmasında tərbiyənin əhəmiyyətinə dair dəyərli fikirlər söyləmişlər. Qiymətli fikirlər söyləyən klassiklərimizin fikirlərini birləşdirməklə belə qənaətə gəlmək olar ki, şagirdin bir şəxsiyyət kimi formalaşması üçün məqsədyönlü, əvvəlcədən müəyyənləşdirilmiş və mütəşəkkil olaraq həyata keçirilən tərbiyə işi əvəzsiz əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Camal Zeynaloğlu, Təlim fəaliyyətinin psixoloji prosesi, Bakı – 2017.
2. Axundov S., Həsənov A. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı: 1991, 134 s.
3. Əlizadə Ə., Abbasov A. Ailə həyatının etika və psixologiyası üzrə müntəxabat. Bakı: Maarif, 1989, 232 s.
4. www.aak. gov. az

РЕЗЮМЕ

В целоммежсемейным отношениям могут вредить различные факторы, такие как безработица, низкий доход, уровень жизни ниже уровня бедности. Все эти факторы должны быть приняты во внимание, чтобы создать семейные отношения и образование. Потому что эти факторы необходимы с точки зрения формирования личности младших школьников. Именно поэтому важно определить, какая из вышеперечисленных проблем имеет большее влияние, из чего они проистекают и как их можно решить. В нашем развивающемся обществе для нового поколения должна быть создана ментально-психологическая, эмоциональная среда, должны соблюдаться правила вежливого поведения и доброты, а также избегать конфликтов и ссор в семьях.

SUMMARY

In general, interfamilial relations may be harmed by different factors such as unemployment, low income, standards of living's being under poverty level. All those factors should be taken into consideration in order to create familial relations and education. Because those factors are necessary in terms of formation of personality of primary school students. That is why, it is important to determine which of the above-mentioned issues has more impact, and what they stem from, and how they can be solved. In our developing society, for new generation mental-psychological, emotional environment should be created, rules for polite behaviour and kindness ought to be respected, furthermore conflicts and quarrels must be avoided in families.

Mirəhmədli Kifayət Mirismayıl qızı
Elmi rəhbər: dos.Abdinova N.C

AİLƏDAXİLİ MÜNAQİŞƏLƏRİN MƏKTƏBLİLƏRİN TƏRBİYƏSİNƏ MƏNFİ TƏSİRİ

Açar sözlər: *ailədaxili münaqişələr, valideyn,kiçikyaşlı məktəblilər, ailə tərbiyəsi*
Ключевые слова: *межсемейные конфликты, родитель, несовершеннолетние школьники, семейное воспитание*
Key words: *interfamilial conflicts, parent, underage students, family education*

Hal-hazırda müasir dövrdə cəmiyyətimizdə baş verən ictimai-siyasi dəyişikliklərin axarı ailə nigah münasibətlərinin məzmununa həlledici təsir göstərməklə yanaşı, bir sıra sosial- psixoloji problemlərin ərsəyə gəlməsinə də səbəb olmuşdur. Keçən əsrin sonlarında baş verən dəyişikliklər ailədaxili münasibətlərdə özünəməxsus cəhətlərin ortaya çıxmasına səbəb olmuşdur. Ailə cəmiyyətin fundamental qurumudur. Cəmiyyət ailənin təməli üzərində qurulur. Son vaxtlar ailə problemləri təkcə psixoloq və pedaqoqları deyil, həm də digər sahə alimlərini də maraqlandırır. Müasir qloballaşan dünyada sosial, siyasi, iqtisadi proseslər uşaq, yeniyetmə, eləcə də, kiçikyaşlı məktəblilərin həyatında ciddi dəyişmələrlə müşahidə olunur.Ailədaxili münaqişə probleminə xüsusi diqqət yetirilir. Ailə üzvləri arasında konfliktlərin olması təbii hal kimi qəbul edilir. Yəni ailə həyatı nə qədər xoşbəxt, firavan olsa da münaqişə onun tərkib hissələrindən biri kimi təzahür edir. Ona görə ki, istənilən hər bir ailədə fikir və düşüncələrin, müəyyən maraqların toqquşması üçün bəhanə tapılır, başqa sözlə desək, ailə üzvlərinin bir-birinə qarşı durması üçün zəmin olur. Məhz həmin zəmində ailə üzvləri arasında münaqişələrin xarakteri, zahir olması bir-birindən fərqlənir. Ailəni belə təsəvvür edək ki, canlı qurğudur, onun görünən və görünməyən tərəfləri vardır. Təbii ki, ailələr eyni cür olmur. Bəziləri sülh və qarşılıqlı razılıq şəraitində yaşasa da, bəziləri ailə həyatının ilk günlərindən uyğunsuzluqla qarşılaşırlar, nəticədə isə qarşısıalınmaz problemlərlə üzləşirlər. Müxtəlif məsələlərdə qarşılıqlı anlaşmanın olmaması ya nigahın dağılmasına, ya evliliyin xoşbəxt olmamasına gətirib

çıxarır. Ailədaxili münaqişələr vacib bir sosial problemdir. Ailə zorakılığının şahidi olan və ya psixoloji cəhətdən şiddətlənən uşaqların sayını təxmin etmək çox çətindir. Bu, onların uzun müddətli emosional və davranış inkişaflarını və rifahlarına təsir edir. Kiçikyaşlı məktəbli şəxsiyyətini formalaşdırmaq üçün valideynlərin bir çoxu bu mühüm vəzifənin öhdəsindən gələ bilmirlər.Ailə üzvləri arasında şəxsi qarşılıqlı əlaqələr simpatiya və antipatiya fonunda formalaşan seçici münasibətləridir. Ailə üzvləri arasında tale ümumiliyi duyğusu, birlik, psixoloji uyuşma, həmrəylik yoxdursa, ailədaxili psixoloji iqlimin mümkünsüz olması qaçılmaz hala çevrilir, bu isə ailə üzvlərinin əhvalının korlanmasına, inamın, etibarın, doğmalıq duyğusunun itməsinə, psixoloji yadlaşmaya və davamlı ailədaxili ixtişaşlara gətirib çıxarır. Ailədaxili psixoloji iqlimin korlanması ailə üzvlərini bir birinə qarşı qoymağa, kinlilik, küskünlük, hətta nifrət, ədavət və düşmənçilik hisslərinin baş qaldırmasına yol açır.Ailədə kobudluğa, zorakılığa məruz qalan qadınların psixoloji heyrətinin ən pis tərəfi ailədə boya başa çatan kiçik məktəblinin də buna şahidlik etməsidir. Ailədaxili münasibətlərə şahid olan uşaqlar başqa uşaqlara nisbətən daha çox davranış nizamsızlığı yaşayırlar. Onlar başqa hərəkətlər kimi burada baş verən hərəkətləri də təkrar etməyə çalışırlar. Bu səbəbdən də ailədaxilində zorakılıq görən uşaqlar gələcəkdə də öz hərəkətlərində bunu təkrar etməsi sözsüzdür.Kiçikyaşlı məktəblilərin qavrayışı mütəşəkkil olmasa da onlar ətraf aləmi emosional, həvəslə qavrayırlar. Kiçik yaşlı məktəblilərin yaşadıqları psixoloji travmaların aradan qaldırılması böyüklərə nəzərən daha çətin olur. Çünki kiçik məktəblilərin dünyagörüşü, həyat təcrübələri, iradi keyfiyyətləri, fəsadları aydınlaşdırmaq, onlara qiymət vermə qabiliyyətləri lazımi formada inkişaf etmədiyindən və psixoloji müdafiə imkanları zəif olduğundan baş verən hadisəyə qarşı həssaslıqları daha yüksək olur. Ailə münaqişələri, ata ilə ananın ayrılması uşaqların psixologiyasına, xüsusilə kiçikyaşlı uşaqlara daha çox təsir göstərir. Onlarda məyusluq, kobudluq, özünəqapanma kimi hallar müşahidə edilir. Bu məktəblilərin mənəvi-psixoloji sıxıntı yaşamasına səbəb olur və məktəbdə yoldaşlarına, ətraf mühitə aqressiv davranırlar, özlərinə qapanırlar.Ailədaxili problemlər çərçivəsində böyüyən ətrafdakılardan laqeydlik, biganəlik görən uşaqların psixoloji durumu böyüklərlə müqayisədə daha fərqlidir və onlara bu münasibətdə daha həssaslıq göstərmək tələb olunur. Heç kimə sirr deyil ki, belə mühitdə yetişən kiçikyaşlı məktəblilər, yeniyetmələr çox vaxtı özlərinə qapanır, bədbinləşir və sığınacaq kimsə olmadıqlarını düşünürlər. Belə nəticəyə gəlinir ki, ailədə mühüm şərtlərdən biri ailənin mühitidir. İkinci şərt valideynlərin nüfuzudur. Üçüncü şərt isə valideynlərin uşaqlara tətbiq etdiyi tərbiyənin metodlarının düzgün tətbiqidir.Ailələr övladlarının ilk tərbiyəçisidir və məktəb illərində və uzun müddət sonra uşaqlarının öyrənməsinə və inkişafına təsir göstərməyə davam edirlər. Hər iki valideyn arasında olan bu münaqişələr bütün yaş qrupundan olan,eləcə də kiçikyaşlı məktəblilərin özünü dəyərsiz hiss etməsinə gətirib çıxara bilər. Ailədə ünsiyyətin pozulması uşaq şəxsiyyətini məhv edən vasitələrdəndir. Ailənin həmahəng olması çox vacib məsələlərdəndir.

Ədəbiyyat

1. Məmmədzadə R.H.Konfiliktlər, ailələr, məktəblilər. Bakı-2004
2. www.Müellim.edu.az
3. Quliyev S. Ailə pedaqogikasının ümumi problemləri. Bakı-2008
4. Axundov S., Həsənov A. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı: 1991, 134 s.

РЕЗЮМЕ

В статье рассматривается влияние внутрисемейных конфликтов на воспитание младших школьников. Отмечается, что психологическое состояние детей, выросших с межсемейными конфликтами, страдающих от халатности и беспечности, отличается от такового у старших школьников, и мы должны вести себя с ними более нежно. Можно с уверенностью сказать, что те студенты, подростки, которые воспитываются в таких условиях, становятся более интровертными и пессимистичными, более того, они

думают, что им не к кому обратиться. В заключение отметим, что одним из важнейших факторов семьи является межсемейная среда. Во-вторых, можно сказать, что авторитет или влияние родителей тоже необходимы. Кроме того, еще одним важным фактором является правильное применение методов воспитания, используемых родителями.

SUMMARY

The article is about the impact of intrafamilial conflicts on the education of primary school students. It is mentioned that, psychological state of children who grow up with interfamilial conflicts, and suffer from negligence and carelessness is different from that of older students and we are supposed to behave with them more tenderly. It can be confidently said that, those students, teenagers who are educated in such conditions become more introverted and pessimistic, and moreover they think, they have nobody to turn to. In conclusion, one of the most important factors of family is interfamilial environment. Secondly, we can say that, the authority or influence of parents are also necessary. Furthermore, another important factor is proper application of educational methods used by the parents.

Süleymanova (Əliyeva) Ədilə Əlihəsən qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ŞAGİRDLƏRİN SOSİALLAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

Açar sözlər: *şagird şəxsiyyəti, ailədə sosiallaşma, məktəbdə sosiallaşma, ictimaiyyətdə sosiallaşma, onların qarşılıqlı əlaqəsi*

Ключевые слова: *личность студента, социализация в семьи, социализация в школе, социализация в обшестве, их взаимная связь*

Key words: *student identity, sociality in family, sociality in school, sociality in public,their relationship*

Bəşər cəmiyyəti yarandığı ilk dövrdən bəşər övladı tərbiyə sahəsində tərəqqi tapmış, tərbiyə sayəsində inkişaf etmiş, formalaşmış, yaşadığı hər bir dövrdə tərəqqi edərək sivil insana çevrilmişdir. Tərbiyə sosial hadisədir. Nəsrəddin Tusi buyurmuşdur ki, İnsanlıq bu gün mövcudluğuna görə tərbiyəyə borcludur. Tərbiyə prosesi şəxsiyyətin ilk olaraq ailədə, daha sonra məktəbdə, sonda isə ictimaiyyətdə formalaşması, sosiallaşması, sosial varlığa çevrilməsidir. Formalaşma və sosiallaşma uzun sürən proses nəticəsində əmələ gəlir. Sosial cəhətdən tərbiyə - insanı indiki həyata, gələcəyə hazırlamaqdır. Qeyd edə bilərik ki, tərbiyə - ailənin, məktəbin və ictimaiyyətin sosiallaşma və tərbiyə prosesində qarşılıqlı əlaqə nəticəsində şəxsiyyətin layiqli vətəndaş kimi formalaşmasına kömək edən məqsədyönlü fəaliyyətdir. Sosiallaşma şəxsiyyətin cəmiyyətə hazırlıq prosesidir. Sosiallaşma “ Sosial Mənin “inkişafıdır. Sosiallaşma prosesində fərd daxil olduğu sosial qrupdakı davranış normalarını mənimsəyir. Şəxsin sosiallaşmasında şəxsi nümunələr, həyat tərzi, məişət tərzi, ailə münasibətləri, müəllimlər və s əhəmiyyətli rol oynayır.Şəxsiyyətin tərbiyəsində“ Pedaqoji üçbucağın ” yəni ailə, məktəb və ictimaiyyət amillərinin tərbiyələndirici imkanlarından istifadə olunur. Bu zaman tərbiyədə valideynlərin, müəllim və tərbiyəçilərin, həyatda nümunə ola biləcək insanların fəaliyyəti əsas götürülür.

Ailə - fərdin sosiallaşmasının ilkin vasitəsidir: o, yaş dövründən asılı olmayaraq, bütün üzvlərinin qayğısına qalır, onların sosial mühitə uyğunlaşmasına və sosial həyata hazır olmaq üçün şərait yaradır. Ailə sosial qrup olaraq, valideyn və uşaqlardan təşkil olunmuşdur. İlk olaraq qeyd edə bilərik ki, ailə bir sistemdir, o, ailə üzvlərinin şəxsi xaraktərinə əsasən formalaşır. Belə ki, hər bir ailənin özünəməxsus quruluşu, nizamı və xüsusiyyəti vardır. Ailədə sosiallaşma uşaqların hərtərəfli formalaşması və bu prosesin valideyn-valideyn, valideyn-

övlad, övlad-övlad, nənə-nəvə timsalında baş verməsidir. Uşağın dünyaya gəlməsi onun sosial həyatının başlanğıcıdır. Fərdin tərbiyəsinin ilk özəyi ailə olduğu üçün ailə sosial quruluşun ilkin özəyini təşkil edir. Ailə tərbiyəsinin əsas məqsədi şəxsiyyəti sosiallaşdırmaq, onu sosial mühitə hazırlamaq, keyfiyyət və xassələrini formalaşdırmaqdır. Ailənin öz vəzifələrini, həmçinin, sosiallaşdırma və tərbiyə funksiyasını yerinə yetirməsi ailə üzvlərinin qarşılıqlı münasibətlərindən asılıdır. Ailə üzvlərinin qarşılıqlı münasibəti nə qədər sağlam, mehriban olarsa, ailənin həyat tərzi də bir o qədər mənalı, qaydasında və rahat olacaqdır və ya əksinə. Ailə münasibəti – ailənin özəyidir.

Şəxsiyyətin sosial varlığa çevrilməsində təhsil mühüm yer tutur. Insanın cəmiyyətə uyğunlaşması və cəmiyyətdə özünü təsdiqləməsinə görə tələb olunan xüsusiyyətlərə –təhsilə, sosial dəyərlərə, sosial praktikaya, davranış və münasibət qaydalarına, maddi – mənəvi dəyərlərə təhsil prosesində yiyələnir. Şagird şəxsiyyətinin məktəbdə formalaşması dövrü 6-16(17) yaş arası dövrü əhatə edir. Bu dövrün başlıca xüsusiyyətləri – uşağın sosiallaşmasına ailə, ictimaiyyət ilə yanaşı məktəbin də təsir etməsidir. Məktəbli dövrü bir növ keçid dövrüdür. Şəxsiyyətin qarşılıqlı əlaqədə sosiallaşmasının əsası məhz bu dövrdə qoyulur. Təhsil cəmiyyətin inkişaf etməsində, insanın qabiliyyətini, yaradıcı bacarıqlarını əks etdirməsində mühüm amildir. Təhsil şəxsə özünü və ətrafını qavramağa şərait yaratmalı, ictimaiyyətdə rolunu layiqincə yerinə yetirməsinə zəmin yaratmalıdır. Təhsil prosesi aşağıdakı tələbatları ödəməyə yönəlir:

I. Sosial keyfiyyətlərə qabil şəxsiyyət yetişdirmək;
II. Şəxsiyyətin öz inkişafı;

Təhsili olan həm sərbəst düşünmə qabiliyyətinə, mədəni keyfiyyətlərə və dünyagörüşünə malik olmalıdır. Təhsil yalnız bilik və bacarıqları aşılamamalı, insana həyatda lazım olan idraki, sosial – mənəvi xüsusiyyətləri formalaşdırmağa istiqamətlənməlidir. Bu, təhsilin sosiallaşdırıcı təsiridir.

Təhsilin sosial funksiyaları:

1) Sosial – mənəvi dəyərlərin və biliklərin gələcək nəsillərə ötürülməsi;
2) Maddi – mənəvi dəyərlərin mühafizəsi;
3) Insanların ictimaiyyətə inteqrasiya və sosiallaşması;
4) Şəxsiyyətin mövqeyinin müəyyən olunması;
5) Şəxsiyyətin peşəyə uyğunlaşması;
6) Fasiləsiz təhsil üçün bilik bazası;
7) Sosial – mədəni inkişaf;
8) Sosial nəzarət;

Təhsilin tərbiyə funksiyası sosialyönümlüdür, yəni, məktəbdə tərbiyə şagirdin sosiallaşmasına, təhsilin sosial əhəmiyyətini başa düşməsinə xidmət edir. Həmçinin, təhsilin kulturoloji – humanist funksiyasında şagird şəxsiyyətinin sosiallaşması öz əksini tapmışdır: həyati problemlərin həlli, insan xarakterinin formalaşdırılması, insanın xoşbəxtliyə və idraki – mənəvi sərbəstliyə sahib olması üçün lazimi vasitələrə yiyələnməsi və b.

Uşaq və məktəblilərin sosial formalaşmasında ailə və məktəbin təsiri ilə yanaşı, sosial ictimaiyyət də mühüm rol oynayır. Cəmiyyət insan dünyasıdır, o, burada doğulur, yaşayır, inkişaf edir, şəxsiyyətə çevrilir, cəmiyyət vasitəsi ilə hər şeyi mənimseyir. Deyimə görə: " Uşağı ailə, məktəb və küçə birlikdə tərbiyə edir. Küçə dedikdə müəyyən maraqlar ətrafında birləşmiş qrup və birliklər nəzərdə tutulur. Məktəblilərin həmyaşıdları ilə birgə həyat fəaliyyəti, ünsiyyəti onun sosial qüvvə olaraq formalaşmasını təşkil edir. Məktəblilər ailədən, məktəbdən kənarda sosiallaşaraq dünyanı dərk edirlər. Bələliklə, məktəbli sosial həyata uyğunlaşır və inkişaf edir. Sosial mühit heç də hər zaman inkişafa səbəb olmur, yaxşı olmayan davranış tərzlərini də özündə əks etdirir. Elə bu səbəbdən ailə və məktəb cəmiyyətdən ehtiyat edir. Məktəblilər sosiallaşma prosesində dəyər və normaları mənimsəməli, sərbəst olmalı, irəli getməli, həyatın tələblərinə cavab verməlidirlər. Onlar mühitin sosial qrupunu təşkil edirlər.

Məktəblilərin küçə qrup mədəniyyəti əyləncəli səciyyə daşıyır. Onlar, kütlə mədəniyyətinə yönəlir, mühitə alışmağa çalışırlar və onların estetik zövqü bəsit olur. Doğulan hər bir fərd cəmiyyətə daxil olur, şəxsiyyətə çevrilir. O, bir tərəfdən cəmiyyətin dəyər və normalarını mənimsəyir, digər tərəfdən cəmiyyətin inkişafı üçün çalışır. Sosiallaşma erkən uşaqlıqda başlayır, kiçik məktəbli dövründə də davam edir, insanın ömrü boyu onunla olur. Böyüklərin sosiallaşması məktəblilərin sosiallaşmasından fərqlənir. Belə ki, böyüklərin sosiallaşması zamanı onlar müəyyən vərdişlərə yiyələnirlər, məktəblilərdə isə sosiallaşma davranış motiva-siyası ilə bağlıdır. Sosiallaşma insana xas xüsusiyyətdir və yalnız toplumda baş verir.

İki əsas və bərabərhüquqlu subyekt olan ailə və məktəb uşaqlıq, yeniyetmə və ilk gənclik dövründə şəxsiyyətin sosiallaşmasını təmin edir. Ailə və məktəbin qarşılıqlı münasibəti tərbiyə fəaliyyətinin əlaqəsi, varisliyi, tamamlanması prinsiplərinə əsaslanmalıdır. Məktəbin ailəyə köməyi bir sıra istiqamətlərdə özünü göstərir:

Pedaqoji sahədəməktəbin ailəyə köməyi təhsil alanların tərbiyə və təhsili ilə bağlı məktəbin apardığı ümumpedaqoji işləri əhatə edir. Pedaqoji köməyin əsasını ailədaxili problemlərin həlli yolları, valideynlərin maarifləndirilməsi, pedaqoji mədəniyyətin inkişafı təşkil edir. Valideynlərin pedaqoji biliklərinin artırılmasına kiçikyaşlıların tərbiyəsində valideyn nümunəsi, valideynlər arasındakı münasibət, kiçikyaşlı məktəblilərin həmyaşıdları və yaşlılar ilə müsbət münasibətlərin inkişafı, onların şəxsiyyət kimi hələ ilk məktəb dövründən formalaşdırılması, onların hələ kiçik məktəb yaşı dövründən peşə seçiminə köməklik, uşaqların tərbiyəsində valideynlərin yol verdikləri əsas səhvlər və onların korreksiya yolları daxildir.

Psixoloji sahədə kömək ailəyə sosial – psixoloji dayaq və korreksion işin sahələrini təşkil edir. Sosial – psixoloji dayaq ailədə yararlı mikroiqlimin təşkilinə yönəlir. Bu məsələnin həlli məktəb psixoloqlarının öhtəçiliyinə düşür. Korreksion iş ailə daxilində uşağın psixoloji və fiziki pozğunluğa səbəb olan psixi zorakılıq hallarında həyata keçirilir.

Bəs sual olunur? **Məktəbin valideynlərlə apardığı işlər hansı formalarda keçirilir?**

a) **Kütləvi formalara** mühazirələr, diskussiyalar, dəyirmi masa ətrafında müzakirələr, konfranslar, lektoriyalar, iclaslar və b daxildir.

b) **Qrupla iş formalarına**oğlan və qızların tərbiyəsində valideynlərə məsləhətlər, bir çox məsələlər üzrə seminarlar (pedaqoji, psixoloji və s), qrupdaxili söhbətlər, valideyn komitələrinin işi və onlar üçün praktrik məşğələlər və s daxildir.

c) **Fərdi iş formalarına** isə ailələrə baş çəkmək, valideynlərlə fərdi söhbətlər, uşaqların tərbiyə və təhsil işi ilə bağlı valideynlərlə müzakirələr, uşaqların cins, yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla hər bir uşaq üçün pedaqoji məsləhətlər və s daxildir.

Cəmiyyət insanlardan ibarətdir, ondan kənarda insan olmaz. Cəmiyyət özü bir ailədir, o, ailənin böyüdülmüş formasıdır. Ailə bir məktəbdir, çünki burada uşaqlar ailə və cəmiyyət qarşısındakı vəzifələrini dərk edirlər. Uşaq ailədə göz açır, məktəbdə təlim – tərbiyə prosesinə daxil olur, cəmiyyətdə isə bir çəxsiyyət kimi püxtələşir. Cəmiyyətin əsasını məhz ailə təşkil edir ki, bunun da əsasında uşaqların düzgün təlim və tərbiyə məsələləri durur. J.J.Russo deyir ki, uşağın tərbiyəsinə onu tanımaqla başlamalıyıq. Belə ki, uşaq ailə və məktəbdə formalaşır, ictimaiyyətdə isə özünü tanıdır, təsdiqləyir.

Sonda qeyd edə bilərik ki, ailə, məktəb və cəmiyyət tərbiyə və sosiallaşmada şagird şəxsiyyətinin əsasını təşkil edir. Onların birgə fəaliyyəti tərbiyə prosesinə bilavasitə təsir edir. Tərbiyənin özəyi ailədə qoyulsa da bununla tamamlanmır, bu proses bütün həyat boyu davam edir. Tərbiyə prosesi təkcə bir amilə əsaslasnmır, düzgün tərbiyə üçün ailə, məktəb və ictimaiyyətin vəhdeti gərəkdir.

Ədəbiyyat

1. Abbasov A., Əlizadə H. Pedaqogika. Bakı 2000
2. Mamedov F. Kulturologiya. Bakı 2006
3. Əliyev B., Əliyev K., Cabbarov R. Pedaqoji psixologiya Bakı 2011

4. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif 1982
5. Həsənov A., Ağayev Ə. Pedaqogika Bakı 2007
6. İsmixanov M., Vəliyeva S. Sosial Pedaqogika Bakı 2014
7. cəmiyyət.org
8. www.elibrary.az
9. az.strategiya.az
10. az – tieriend – com.cdn.ampproject.org

Factors affecting the socialization of underage pupils

SUMMARY

İn conculition, we can say that, family, school and public consist of student identity in nurture and socialization. Their relationship influences nurture. The basic of nurture is family, but, it is not all, this prosses continues life – long. For nurture, family, school and public must be in contact**.**

Süleymanova (Əliyeva) Ədilə Əlihəsən qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏB GƏNC NƏSLİN TƏLİM-TƏRBİYƏSİ İŞİNDƏ APARICI MƏRKƏZDIR

Açar sözlər: *məktəb üçbucağı, məktəb mühiti, müəllim, şagird, valideyn, tərbiyə, təlim, təhsil*
Ключевые слова: *школьный треугольник, школьная среда, учитель, ученик, родитель, воспитание, обучение, образование*
Key words: *school triangle,school environment, teacher, pupil, parent, nurture, training, education*

Təlim-tərbiyənin başlıca mərkəzi məktəbdir. Təlim-tərbiyə ocağı olan məktəbin əsas məqsədi cəmiyyətin bu günü və sabahı üçün savadlı,vətənpərvər, düzgün əxlaqi və mənəvi dəyərlərə sahib şəxsiyyət formalaşdırmaqdır...

"Məktəb üçbucağı" anlayışı təhsil sistemində ən çox işlədilən ifadələrdən biridir:məktəb,ailə və cəmiyyət.Əgər,bu üçbucağın bütün tərəfləri güclü bağlarla qurularsa məktəb qarşısına qoyduğu məqsədlərə analıqla çatar. Lakin,qeyd etməliyik ki,valideyn-məktəb münasibətləri daha həssas tərəfdir. Hər bir valideynin uşağa qarşı məsuliyyəti və narahatlıqları uşaq doğulandan sonra başlayır. Bütün tələbatlarla yanaşı,kiçik yaşlarından etibarən təlim-tərbiyə haqqında düşünürlər. Uşaqların ilk məktəb həyatına qədəm qoyması ilə valideynin narahatlıqları bir az daha artır. Bu zaman, həmçinin, valideynlərin məsuliyyəti də bir o qədər artır. Psixoloqların araşdırmalarına əsasən, hər bir valideyn övladı həyat və təhsillə tanış olarkən bir növ ona həyat dostu olmalıdır. Lakin, bəzi valideynlərin fikrincə, uşaq məktəbə başladığı zaman bütün məsuliyyət məktəb üzərinə düşür. Son illərin nəticələrinə əsasən,müəllim və valideynin qarşılıqlı əməkdaşlığı düzgün təlim-tərbiyə üçün zəmin yaradır.

Ailədən sonra insan yetişdirən və formalaşdıran ilk ocaq məktəb və pedaqoji mühitdir. Müəllim təkcə biliyini şagirdlərlə bölüşmür, həmçinin, ömrünü uşaqların inkişafı yolunda şam kimi əridir. O, təkcə, öyrətməklə kifayətlənmir, tərbiyə edir, yetişdirir, formalaşdırır. Nəticə etibarilə, hər bir şagirdi şəxsiyyət olaraq cəmiyyətə təhvil verir.

Təhsilin başlıca tələblərindən biri cəmiyyətə yararlı vətəndaş yetişdirməkdir.Bu səbəbdən də müəllim üçün həm təhsil,həm də tərbiyə ümdə məsələlərdəndir.

Son illərin müşahidələri göstərir ki,uşaqlar çox sərbəst olduqları, ailə və məktəb nəzarəti olmadığı zaman pozulurlar. Yaşadıqları ərazinin, məhəllənin, küçənin yoldaşlıq və dostluq qurduğu uşaqların əxlaqı yeniyetmələrin tərbiyəsinə güclü təsir edir.

Tərbiyənin məqsədi dəyişik formalarda-əqli, ideya-siyasi, əmək, ekoloji, estetik, mənəvi hüquq və fiziki tərbiyə kimi özünü göstərir. Bu baxımdan ailə, uşaq bağçası və məktəbin öz

imkanları və müxtəlif xüsusiyyətləri vardır. Bununla yanaşı, onlar bir vəhdət içərisində olmalıdır. Uşaq valideyn tərəfindən elə tərbiyə olunmalıdır ki, onun gələcək həyatından yenidən tərbiyəyə ehtiyacı olmasın. Uşaq, cəmiyyət üçün şəxsiyyət kimi formalaşsın, ailə və xalq üçün problem mənbəyinə çevrilməsin. İnkişaf etməkdə olan gənc nəslin maraq sahəsinə, əxlaqi dəyərlərinin formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir.

Təlim-tərbiyə prosesində yüksək nəticə əldə etmək üçün uşağın psixoloji xüsusiyyətləri dərindən öyrənilməlidir. Bu səbəbdən də,müəllim istənilən halda, ələlxüsus da "şagird-müəllim" münasibətlərinin formalaşmasında diqqətli olmalı, uşağın əxlaqi dəyərlərinə diqqət yetirməli, şagirdlərin şəxsiyyətinə hörmət göstərməli və münasibətdə olduğu zaman ədəblə davranmalıdır.

Şagird-müəllim arasında münasibət elə qurulmalıdır ki, müəllim şagirdə qarşı həm nəzakətli, həm də ciddi yanaşa bilsin. Şagird müəllim üçün şəxsiyyət kimi görünməlidir, müəllim şagirdin şərəf və ləyaqətini alçaldan söz və ifadələr işlətməməlidir. Şagirdin yoldaşları ilə düzgün münasibətlərinin qurulması üçün müəllim müxtəlif pedaqoji metodlardan istifadə etməli,onları düzgün maarifləndirməlidir.

Düzgün şagird-müəllim münasibəti şagirdlərin təlimə marağı deməkdir.

Düzgün təlim və tərbiyə prosesi üçün müəllim:

1. Psixoloq olmalıdır;
2. Etik və estetik baxımdan mədəniyyətə sahib olamlıdır;
3. Fərdi yanaşma qabiliyyəti olmalıdır;
4. Valideynlə sıx münasibətdə olmalıdır;
5. Özünə qarşı hörmət və sevgi yaratmalıdır;
6. Səbrli olmağı bacarmalıdır;
7. Şagirdlərlə dost olmalıdır;

Müəllim şagirdləri oxumağa həvəsləndirir, öyrədir və bu proses tələb edir ki, şagirdlər təlim və tərbiyənin məqsəd və vəzifələrinin prinsiplərinə dəqiq riayət etsinlər. Bu prinsiplərə aşağıdakılar daxildir:

1. Humanizm;
2. Hərbi-vətənpərvərlik;
3. Vətənpərvərlik;
4. Milli-mənəvi dəyərlərə hörmət;
5. Tolerantlıq;
6. Fərdilik;

Məktəbdə təlim-tərbiyə işinin təşkili şagird fəaliyyətinin ilkin və ardıcıl uğurunun təminatıdır. Düzgün təlim-tərbiyə mühiti təşkil etmək və qarşıya qoyulmuş məqsədə çatmaq üçün xüsusi qayda-qanunların tətbiqindən asılıdır.

Məktəb mühitində bütün pedaqoji prosesi təlim-tərbiyə işi təşkil edir. Düzgün qurulmuş tərbiyəvi işlər uşaqların mənalı həyat yaşamasını,sosial cəhətdən aktiv olmasını,elmə marağın artmasını,parlaq gələcək qurmaq imkanlarını təmin edir.

Uğurlu təhsil sisteminin əsasında düzgün idarəetmə dayanır. Minlərlə şagirdin təhsil aldığı məktəbin idarəçiliyinin məsuliyyəti nə qədər ağır və çətin olsa da, bir o qədər də şərəfli və ləyaqətlidir. Çünki,məktəb ailədən sonra tərbiyənin ikinci böyük modelidir.

Müasir təlim-tərbiyə sisteminin qarşısında duran mühüm vəzifələr:

1. Gənc nəslin hərtərəfli inkişafı;
2. Yüksək mənəvi keyfiyyətin aşılanması;
3. Elmi-dünyagörüşünün formalaşdırılması;

Təhsil müəssisəsi olan məktəb cəmiyyəti formalaşdırır. Görkəmli pedaqoq K.D.Uşinskinin dediyi kimi, hərtərəfli tərbiyə etmək üçün hərtərəfli öyrənmək prinsipinə riayət edilməlidir.

Məktəbin əsası olan tərbiyəedici funksiya artdıqca təlim prosesində təhsil meyarı ilə birlikdə tərbiyə meyarı da əmələ gəlir. Bu proses zamanı tərbiyəedən və tərbiyə olunanın keyfiy-

yətləri,onlar arasındakı qarşılıqlı münasibət, tərbiyənin məqsəd və vəzifələri nəzərə alınmalıdır. Tərbiyə prosesinin düzgün təşkili və idarəsi şəxsiyyətin maraq və meyillərindən, tələbatlarından, əqidə və ideyalarından, dünyagörüşündən, qabiliyyətlərindən asılıdır.

Hər birimizə məlumdur ki, təhsil dedikdə,yalnız,təlim başa düşülmür. Bu prosesin daxilinə həmçinin tərbiyə işi də daxildir,bundan əlavə şagirdlərin asudə vaxtının təşkili də...

Tərbiyə prosesində tərbiyəedənin şəxsi nümunəsi vacib şərtlərdəndir. Şagird ona tərbiyə verən müəllimdən çox şey öyrənir, mənimsəyir. Müstəqil həyata yeni başlamış gəncdə vətənə və millətə məhəbbət, vətəndaşlıq hissi, mənəvi baxımdan zəngin olmayacaqsa, bu gəncin savadlı kadr olmasının vətəninə, millətinə, xalqına xeyri dəyməyəcəkdir. Aydın məsələdir ki, təhsilin keyfiyyət göstəricisi elmi məlumatlara yiyələnməklə dəyərləndirilmir,cəmiyyətdə təhsilin son vəziyyəti gəncin vətəndaşlıq, peşə və məişət bacarıqlarını cəmiyyətin arzu və istəklərinə uyğun idarə etməsindən asılıdır.

Təhsil prosesində yüksək keyfiyyətin əldə edilməsi şaird-müəllim münasibətinin düzgün qurulması deməkdir. Bu münasibətin düzgün qurulması şagirdin elmə qarşı marağını artırır.

Bu gün məktəblərdə təhsilin humanistləşdirilməsi əsas məsələlərdən biridir. Təhsilalanlarda insani hislər, anaya və vətərənə məhəbbət birdən-birə yaranmayıb. Bu hislər kiçik yaşından ailədə və məktdəbdə uşaqlara aşılanır. Tərbiyə prosesi məktəbdə dərsdə və ya dərsdənkənar məşğələlərdə verilir.

Qeyd etmək istərdim ki, təhsil və tərbiyə məktəbi bitirdiyin an bitmir, bununla məhdudlaşmır. Daim oxumaq, özünü tərbiyə üzərində işləmək lazımdır. Cəmiyyətimizin gələcəyi yüksək tərbiyə sahibinə, elmi düşünmə qabiliyyətinə sahib gənclərdən asılıdır. Demək ki, cəmiyyətimizin təməl dayağı olan məktəbdən asılıdır. Sonda fikrimi Ulu öndərin dəyərli sözləri ilə bitirmək istərdim.

"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".

Ulu öndər Heydər Əlirza oğlu Əliyev

Ədəbiyyat

1. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı, Maarif 1982
2. Əliyev B., Əliyev K., Cabbarov R. Pedaqoji psixologiya Bakı 2011
3. aztehsil.com
4. https://www.muallim.edu.az/news.php?id=6310
5. https://novator.az/2018/05/30/m-kt-b-t-rbiy-si-v-t-rbiy-m-kt-bi/

The school is a leading center in the education of the younger generation

SUMMARY

In conculition, I want to say that, education and nurture don't finish, when we finish the school, they don't limit with these. We must always read, and try to re-education. Our society depends on highly educated and science. That is to say, society depends on school.

Şirinova Aydan Elşən qızı

ADPU, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDAMƏKTƏBİN AİLƏ İLƏ ƏLAQƏ FORMALARI

Açar sözlər: *şagird, şəxsiyyət, ailə, valideyn, məktəb, tərbiyə, formalaşma*

Ключевые слова: *ученица, личность, семья, родитель,школа воспитание, формирование*

Key words: *pupil, personality, family, parent,school,parenting, formation*

Məktəb təlim-tərbiyə ocağıdır. Təhsil islahatı dövlətin təhsil siyasətinin bir istiqamətidir.Cəmiyyətin maariflənməsi məsələsi də məktəbin və müəllimin fəailiyyətinin tərkib hissəsi və icra edəcəyi işlərdən biri olmalıdır.

Respublikamızda fənn kurikulumlarının tətbiqi müəllim və şagirdlər üçünnə qədər yeni və fərqlidirsə, valideynlər üçün də bir o qədər maraqlıdır. Bu baxımdan məktəb və müəllimlə əməkdaşlıq onlara arzularını gerçəkləşdirməkdə yardım etmiş olur. Yeni yanaşma, yeni istiqamət və fərqli qiymətləndirmə sistemi bəzi valideynlər tərəfindən birmənalı qarşılanmır. Müasir dərsin təşkili məsələlərinə müxtəlif münasibətlər nümayiş etdirirlər.

Gələcəyimizin savadlı kadrlarının yetişdirilməsində müəllim – valideyn əməkdaşlığı çox mühim rol oynayır. Heç şübhəsiz ki, valideynlər uşaqların təhsilində müəllimlərin birbaşa tərəfdarı kimi çıxış etməlidirlər. Təəssüflər olsun ki, bəzi valideynlər bütün məsuliyyəti məktəbin üzərinə atmaqla özlərini "sığortalanmış" hiss edirlər. Nəticədə genetik və ya fərdi istedad kimi istisna halları çıxmaqla, bu cür diqqət və nəzarətdən kənar qalan uşaqların təhsilində geriləmə müşahidə olunur. Necə deyərlər, "bağa baxarsan bağ olar, baxmazsan dağ".

Şagirdin təhsilində əldə etdiyi uğur ailəni, təhsilə verdiyi önəmlə əlaqəlidir. Ailənin məktəbə və şagirdə göstərdiyi diqqət gələcək uğura zəmin yaradır. Şagirdin ehtiyaclarını müəyyənləşdirmək və buna uyğun düzgün təhsil proqramı seçmək üçün ailənin məktəblə sıx əlaqəsi vacibdir.

Təhsilin tələblərindən biri cəmiyyət üçün vətəndaş yetişdirməkdir. Bu baxımdan cəmiyyətin tələblərinə cavab verə biləcək vətəndaşın təkcə təhsili deyil, həm də düzgün tərbiyəsi müəllimin ümdə vəzifələrindən, məsuliyyətli işinin bir hisssəsidir. Müəllim – valideyn münasibətlərini doğru istiqamətdə yönəltməkdə də müəllimin peşəkarlığının göstəricisidir.

Bəzən müəllimlər valideynlərin məktəbə gəlməsindənşikayətlənirlər, bunun bir neçə səbəbi var.

Öz işini düzgün qura bilməyən müəllim: müəllim-valideyn münasibətləri, yorucu iclaslar, yığıncaqlar, təlim-tərbiyədə bir probleminin olduğundan məlumatlılıq hər dəfə eyni valideyni yorur. Bununla valideyni xəbərdar edən müəllim münasibətlərinin nə dərəcədə pozulduğunu bilmir. Bu sadəcə valideynə olan münasibətə təsir etmir, evdə danlanan və tənbeh olunan şagirdlə müəllimin münasibətinə və müvafiq olaraq onun məktəbə və təhsilə olan marağına da mənfi təsir edir. Bütün bunlar səhv idarəçiliyin, düzgün qurulmayan münasibətlərin nəticəsidir. Müasir müəllim ailə ilə məktəb arasında vahid tərbiyəvi mühit yaratmağı bacarmalıdır. Dünya təcrübəsi göstərir ki, müəllim təlimi uğurlu təşkil etmək üçün hər görüşdə valideynlərin rəyini öyrənməlidir. Bu məlumat bazası isə təlimin keyfiyyətinin yüksəlməsinə xidmət edər.

Aparılan müşahidələrdən belə nəticəyə gəlmək olar ki, bu gün təhsilin məzmununda, onun təşkili məsələlərində və nəhayət, qiymətləndirmə sistemində baş verən dəyişiklərlə bağlı valideyni maarifləndirməyi, onunla düzgün münasibət qurmağı bacaran müasir müəllim, əslində, öz işinin uğurunu təmin etmiş olur. Bununla o, valideyni məharətlə tənqidçidən müttəfiqə çevirir, onun təcrübəsindən, dünyagörüşündən və bacarığından təlimdə müvəffəqiyyət əldə etmək üçün bəhrələnir.

Ədəbiyyat

1. Quliyev S.M., Quliyeva M.A. Şərq mütəfəkkirlərinin əsərlərində ailədə övlad tərbiyəsi. Bakı-2008.

2. Quliyev S. Ailə pedaqogikasının ümumi problemləri. Bakı-2008.

3. Talıbov Y.R., Quliyev S.M., İmanov A.S., Quliyeva İ.Q. Azərbaycan mütəfəkkirlərini və maarifçilərinin əsərlərində ailə tərbiyəsi. Bakı-2002.

4. Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı-2013.

5. Hüseynzadə R., Allahverdiyeva L. Ailə Pedaqogikası. Bakı-2015

6. Abdinova N. Pedaqogika fənni üzrə mühazirə mətnləri: dərs vəsaiti, "Vətən" nəşriyyatı. Bakı-2019.

Şirinova A.E.

XÜLASƏ

Şagird şəxsiyyətinin formalaşmasında məktəblə ailənin birgə işi, başqa sözlə desək, müəllim – valideyn əməkdaşlığı başlıca rol oynayır. Belə ki, müəllim-şagird-valideyn üçbucağında üçüncü halqaya az diqqət yetirilərsə, qarşıya qoyulmuş məqsədə çatmaq qeyri-mümkündür. Odur ki, ibtidai sinif şagirdlərinin təhsil-tərbiyəsində valideyn müəllimin bir nömrəli tərafdaşı, dəstəkçisi olmalıdır. "Məktəb üçbucağı" anlayışı pedaqoji ədəbiyyatda və mətbuatda həmişə çox işlənən ifadələrdəndir: məktəb, ailə və cəmiyyət. Bu üçbucağın bütün tərəfləri güclü olanda məktəb həyatı saat mexanizmi kimi işləyir, təlim-tərbiyədə, şagirdlərin hərtərəfli inkişafında uğurlara və nailiyyətlərə gətirib çıxarır.

Shirinova A.E.

Forms of contact with the family of the school in the formation of personality of primary school students

SUMMARY

The joint work of the school and the family, in other words, the teacher-parent cooperation plays a key role in the formation of the student's personality. Thus, if less attention is paid to the third ring in the teacher-student-parent triangle, it is impossible to achieve the set goal. The refore, in the education of primary school students, the parent should be the number one supporter and supporter of the teacher. The concept of "school triangle" is one of the most frequently used expressions in pedagogical literature and the press: school, family and society. When all aspects of this triangle are strong, school life works like a clockwork, leading to success and achievement in education and the comprehensive development of students.

ШириноваА.Э.

Формы контакта с семьей школы в формировании личности младших школьников

РЕЗЮМЕ

Совместная работа школы и семьи, другими словами, сотрудничество учителя и родителей играет ключевую роль в формировании личности ученика. Таким образом, если меньше внимания уделять третьему кольцу в треугольнике учитель-ученик-родитель, достичь поставленной цели невозможно. Поэтому в обучении учеников начальной школы родитель должен быть сторонником номер один и сторонником учителя.Понятие школьный треугольник – одно из наиболее часто используемых выражений в педагогической литературе и прессе: школа, семья и общество. Когда все аспекты этого треугольника сильны, школьная жизнь работает как часы, приводя к успехам и достижениям в образовании и всестороннему развитию учащихся.

Şirinova Aydan Elşən qızı
ADPU, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, II kurs magistrantı

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN ROLU

Açar sözlər: *şagird, şəxsiyyət, ailə, valideyn, tərbiyə, formalaşma*
Ключевые слова: *ученик, личность, семья, родитель, воспитание, формировани*
Key words: *pupil, personality, family, parent, parenting, formation*

Ailədaxili münasibətlərin sağlam pedaqoji, psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirən amillərdəndir. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və münasibəti ilə şərtlənir. Bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir.Ailə - həyat

yoldaşları, valideynlər və övladlar arasında tarixən konkret münasibətlər sistemi, nigah və qohumluq əlaqələri, ümumi məişət və qarşılıqlı məsuliyyətlə birləşmiş sosial vacibliyi, əhalinin fiziki və mənəvi artımına cəmiyyətin ehtiyacı ilə şərtlənən kiçik qurumdur. İnsanın şəxsiyyət kimi formalaşmasında ailə mühiti başlıca rol oynayır. Şəxsiyyyətinformalaşmasında valideynlərin əhəmiyyətli rol oynaması danılmaz faktdır, o da faktdır ki, hər valideyn bu işin öhdəsindən layiqincə gələ bilmir. Gənc nəslin tərbiyəsi ailəninbaşlıca funksiyalarından, valideynlərin isə ən mühimvəzifələrindən biridir. Biz yaxşı və pis uşaqlar haqqında danışırıq. Onların atası da var, anası da. Lakin valideynlərin öz-özlüyündə xeyirxah arzularından asılı olmayaraq bir evdə yaxşı digərində isə pis uşaq böyüdüb. Bunu necə izah etmək olar? Sualı bir qədər də konkretləşdirsək, ailədə hansı şəraitdə yaxşı, hansı şəraitdə pis uşaq formalaşır. Valideynlər gənc nəslin tərbiyəsində nəyə xüsusi diqqət yetirməlidirlər? Amma əvvəlcə tərbiyə anlayışı ilə tanış olaq. Tərbiyə sözü adətən iki – dar və geniş mənada işlənilir. Dar mənada tərbiyə - tərbiyə edənin tərbiyə olunana məqsədyönlü təsiri prosesidir. Tərbiyə edən həmişə müəyyən məqsəddən çıxış edir. O, tərbiyə olunana ictimai təcrübəni aşılamaq, onda yaxşı və pis haqqında təsəvvür yaradırıq, bu və ya digər hadisəyə münasibət formalaşdırmaq, davranış və rəftar norması ilə tanış etmək, mənəvi keyfiyyətlər aşılamaq və s. məqsədilə müxtəlif üsulların köməyilə təsir göstərir. Heç bir ailədə uşaq kortəbii şəkildə tərbiyə olunmur. Hansı valideyn olur-olsun o, uşaqların tərbiyəsində mütləq müəyyən pedaqoji məqsədi rəhbər tutur. Ailə sosial institut kimi cəmiyyətin formalaşması ilə eyni vaxtda meydana gəlmişdir. Həmin dövrdə ailənin fəaliyyəti normativ dəyərlərlə tənzimlənirdi. Dövlətin yaranması ilə ailə münasibətlərinin nizamlanması hüquqi xarakter daşımağa başladı. Şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Tərbiyədən geniş mənada danişanda məhz bu cəhəti – ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsirini nəzərdə tuturlar. Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərtlənir, onlardan ikisini ayrıca qeyd etmək gərəkdir. Birinci tip amillərə ailə münasibətləri – ata ilə ana, valideynlər ilə uşaqlar, bacı ilə qardaş və s. arasındakı münasibətlər daxildir. Ailənin maddi vəziyyəti, mənzil şəraiti, quruluşu ikinci tip amillər sırasına daxil edilir. İkinci tip amillər uşaqların tərbiyəsinə bu və ya digər dərəcədə təsir göstərir. Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə, uşaqların min bir tellə bağlı olduğunu ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz. Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. formalaşır.

Son zamanlar ailə tərbiyəsi probleminə dair kitab və kitabçalara maraq artmışdır. Lakin bir cox ailələrdə, xüsusilə gənc ailələrdə uşaqların tərbiyəsi sahəsində biz ciddi nöqsanlara rast gəlirik. Onlar, əlbəttə, təsadüfi xarakter daşıyır və müəyyən səbəblərlə bağlıdır. Bu haqda aydın təsəvvür əldə etmək üçün bəzi məsələləri xüsusilə göstərmək gərəkdir. Son illər valideynlərin pedaqoji mədəniyyəti məsələlərini öyrənmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əməlləri uyğun gəlmir. Evin məişət qayğılarında ata-ananın eyni dərəcədə iştirak etməməsi, hətta bu əsasda əmələ gələn söz-söhbət və münaqişələr uşaqlarda kişilik və qadınlıq haqqında təsəvvürlərin formalaşmasına mənfi təsir göstərir. Bəzən ata uşağa bir, ana başqa cür, nənə isə tamamilə fərqli yanaşır. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasibətlər sisteminin və qiymət meyarlarının formalaşması prosesini çətinləşdirir. İnsanın şəxsiyyət kimi formalaşmasında ailə (insanın doğulduğu ailə-valideyn ailəsi, insanın qurduğu ailə-repreduktiv ailə) mühiti başlıca rol oynayır. Formalaşmadan kənarda qalan xüsusiyyətlər isə natamamlıq komplekslərinin yaranmasına səbəb olur. A.S.Makarenko deyirdi: "Tərbiyə işinin əsl mahiyyəti..... heç də sizin uşaqla təklikdə söhbət etmənizdən, uşağa müstəqil təsir göstərməyinizdən ibarət deyil, ailənizin, şəxsi və ictimai həyatınızın

təşkilindən, uşağın həyatını təşkil etməkdən ibarətdir" İnsan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır. Bunun üçün valideynlər uşağı ilk gündən elə tərbiyə etməlidir ki, onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyaci qalmasın. O, cəmiyyyət, ailə, kollektiv, xalq üçün faydalı adam kimi böyüsün.

Beləliklə, tərbiyə prosesində valideynlər arasında heç bir fikir ayrılığı olmamalı, bir birini təkzib etməməlidirlər. Ata və ana heç vaxt uşaqların yanında mübahisə etməməli, bir-birinin planlarına və fikirlərinə tənqidlə yanaşmamalıdırlar. Əgər valideynlər fikir birliyinə gələ bilmirlərsə, onda öz münasibətlərini uşaqların yanında müzakirə etməməlidirlər.

Ədəbiyyat

1. Quliyev S.M. Quliyeva M.A. Şərq mütəfəkkirlərinin əsərlərində ailədə övlad tərbiyəsi. Bakı-2008.
2. Quliyev S. Ailə pedaqogikasının ümumi problemləri. Bakı-2008.
3. Talıbov Y.R., Quliyev S.M., İmanov A.S., Quliyeva İ.Q. Azərbaycan mütəfəkkirlərini və maarifçilərinin əsərlərində ailə tərbiyəsi. Bakı-2002.
4. Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı-2013.
5. Hüseynzadə R., Allahverdiyeva L. Ailə Pedaqogikası. Bakı-2015
6. Abdinova N. Pedaqogika fənni üzrə mühazirə mətnləri: dərs vəsaiti, "Vətən" nəşriyyatı. Bakı-2019.

Şirinova A.E.

XÜLASƏ

Ailədaxili münasibətlərin sağlam pedaqoji, psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirənamillərdəndir. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və münasibəti ilə şərtlənir. Tərbiyə prosesində valideynlər arasında heç bir fikir ayrılığı olmamalı, bir birini təkzib etməməlidirlər. Ata və ana heç vaxt uşaqların yanında mübahisə etməməli, bir-birinin planlarına və fikirlərinə tənqidlə yanaşmamalıdırlar. Bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir.

Ширинова А.Э.

Роль семьи в формировании учащихся начальной школы как личности

РЕЗЮМЕ

Установление внутри семейных отношений, основанных на здравых педагогических, психологических принципах, взаимном уважении и любви, является одним из факторов, способствующих развитию общества. Внутренние отношения в значительной степени определяются ролью и отношение мотца и матери в семье. Родители не должны несоглашаться друг с другом в процессе воспитания и не должны опровергать друг друга. Родитель и мать никогда не должны спорить со своими детьми и критиковать планы и мысли друг друга. Эти отношения оказывают особое влияние на силу как семьи, так и детей.

Shirinova A.E.

The role of the family in the formation of elementary school students as individuals

SUMMARY

Establishing intra-family relationships based on sound pedagogical, psychological principles, mutual respect and love is one of the factors that contribute to the development of society. Domestic relationships are largely driven by the role and attitude of the father and mother in the family. Parents should not disagree with each other in the upbringing process, nor must they refute one another. A parent and a mother should never argue with their children and criticize each other's plans and thoughts. These relationships have a special impact on the strength of both family and children.

Hüseynova Güllü Rövşən qızı
ADPU, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, 2-ci kurs magistrantı
Elmi rəhbər: dos. Z.F.Kazımov

İBTİDAİ SİNİFDƏ ŞAGİRDLƏRİN TƏDQİQATÇILIQ FƏALİYYƏTİNƏ PSİXOLOJİ-PEDAQOJİ YANAŞMA HAQQINDA

Açar sözlər: *tədqiqat, tədqiqatçı, psixoloji əsaslandırma, pedaqoji əsaslandırma*
Ключевые слова: *исследование, исследователь, психологическое обоснование, педагогическое обоснование*
Key words: *research, researcher, psychological justification, pedagogical justification*

Müasir təhsil sistemi cəmiyyətin sürətlə dəyişən tələbatlarına cavab verməyə qadir olan təhsil sistemidir. 21-ci əsrin təhsil müəssisələrində şagirdlərə müstəqil öyrənmə və özünü inkişaf etdirmə qabiliyyəti verən təhsil fəaliyyətinin formalaşdırılması təhsil sisteminin vacib məsələlərindən biridir. Bildiyimiz kimi, müstəqil öyrənmə və özünü inkişaf etdirmə qabiliyyətləri tədqiqatçılıq fəaliyyəti ilə birgə formalaşır. Bu səbəbdən hal-hazırda pedaqogikada, təhsil psixologiyasında və təhsil praktikasında ən vacib təhsil mənbəyi kimi bir uşağın təbii axtarış fəaliyyətinə son dərəcə yüksək diqqət və maraq vardır. Təhsil sistemində əhəmiyyət kəsb edən bacarıq və qabiliyyətləri formalaşdırmaq üçün tədqiqatçılıq fəaaliyyətinə diqqətlə yanaşmaq olduqca vacibdir.

Bəşər cəmiyyəti yaranan gündən etibarən hər bir şəxs təbiətcə tədqiqatçı mövqe daşıyır. Maraq, kəşfiyyat fəaliyyəti və araşdırma insanlara xas olan davranış və fəaliyyətlərdir. Tədqiqat fəaliyyəti insan fəaliyyətinin bütün növlərinə nüfuz edərək, idrak proseslərinin inkişafında, öyrənmədə, sosial təcrübə əldə edilməsində və sosial inkişafda vacib rol oynayır. Yəni, tədqiqat fəaliyyətinin idrak fəaliyyəti ilə daim əlaqədə olduğunu, sosial inkifaşda və şəxsiyəttin formalaşmasında vacib funksiyaları yerinə yetirdiyini qeyd etmək olar. Təfəkkür fəaliyyəti ilə idrak fəaliyyəti birbiri ilə əlaqəli olduğundan, tədris-təlim prosesində psixopedaqoji yanaşmaları ön plana çəkir.

Tədqiqatçılıq fəaliyyətinə psixoloji-pedaqoji yanaşmadan bəhs etməzdən əvvəl psixopedaqogika terminin yaranmasına nəzər salaq. Ötən əsrin 80-ci illərindən başlayaraq "psixopedaqogika" bir termin kimi işlənməyə başlamışdır. Edvard Stouns özünün "Psixopedaqogika-Psixoloji nəzəriyyələr və təlim təcrübəsi" əsərində bu haqda məlumat vermişdir. Psixopedaqogika elmi o dövrdə psixologiya və pedaqogika üçün ortaq olan, hər iki elmin kəsişməsində baş verən hadisələrin tədqiqi ilə məşğul olan bir elm kimi qəbul edilmişdir.

Təhsillə bağlı digər fəaliyyətlərdə olduğu kimi, tədqiqatçılıq fəaliyyətində də psixoloji-pedaqoji yanaşmanın mövqeyi vacibdir. Psixoloji və pedaqoji tədqiqatların təhlili göstərir ki, bir çox alim şagirdlərin tədqiqat bacarıqlarını yüksək qiymətləndirmiş və bu sahədə bir sıra fikirlər bildirmişdir. Təlim prosesində həyata keçirilən tədqiqatçılıq fəaliyyəti pedaqogika və psixologiyanın kəsişməsində baş verən bir fəaliyyət olduğundan, tədqiqat fəaliyyətinin dərindən öyrənilməsi, əsaslandırılması, şərtlərinin müəyyənləşdirilməsi, fəaliyyətin mərkəzində duran şəxsin tədqiqatı daha dəqiq və düzgün yerinə yetirməsi üçün şagirdlərə psixoloji-pedaqoji aspektdən yanaşmaq lazımdır. Bu yanaşma ibtidai sinif şagirdləri üçün böyük əhəmiyyət kəsb edir, çünki, təhsilin bu səviyyəsi şagirdlərin idraki inkişafını müəyyən edir.

Psixoloji və pedaqoji ədəbiyyatda şagirdlərin tədqiqat bacarıqlarının təşkili üçün xüsusi şərait yaratmağın vacibliyindən danışılsa da, şagirdlərin tədqiqat bacarıqlarına cəlb edilməsi təcrübəsi pedaqoji ədəbiyyatda kifayət qədər əhatə olunmamışdır. Tədqiqata psixoloji-pedaqoji aspektden yanaşma dedikdə ilk növbədə tədqiqata cəlb edilən şagirdlərin yaş dövrlərinin psixoloji xüsusiyyətlərinin nəzərə alınması və tələb olunan mühiti yaradarkən biliyin onların anlama qabiliyyətinə uyğunlaşdırılması nəzərdə tutulmalıdır. Tədqiqat bacarıqlarını təşkil edərkən psixologiyada da qeyd edildiyi kimi hər sinif üzrə həyata keçiriləcək işlər əvvəlcədən planlaşdırılmalıdır. Çünki tədris prosesində dərslər hər yaş qrupuna eyni qaydada tədris edilmir. Psi-

xopedaqoji yanaşma elə qurulmalıdır ki, şagirdlər öz imkanlarını genişləndirmək üçün bilikləri müstəqil şəkildə əldə edə bilsinlər. Belə ki, 1-ci sinifdə tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün hazırlıq işi aparılmalıdır. Bu zaman müəllim uşaqlara sual verməyi, axtarılanı müəyyən etməyi və yaradıcı tapşırıqları yerinə yetirməyi öyrədir. 2-ci sinifdə əsas məqsəd şagirdlərinin tədqiqat təcrübəsini zənginləşdirmək, tədqiqatçı fəaliyyətinin xüsusiyyətləri barədə yeni biliklər nəticələrini müəyyənləşdirib, ümumiləşdirməyi öyrənirlər. 3-cü sinifdə şagirdlər artıq müstəqil tədqiqatçılıq fəaliyyətinə qismən hazır olur və bu fəaliyyətə maraqla yanaşırlar. 4-cü sinifdə tədqiqat işi yeni səviyyəyə çatır, daha analitik olur. Yəni, şagirdlər müstəqil olaraq özləri üçün maraqlı bir mövzu seçib, onu analiz edə bilərlər. Nəticədə, təlim prosesində şagirdlərin dərsə olan marağı artır, fəallığı yüksəlir, dərs zamanı yaranan psixoloji gərginliyi aradan qalxır.

21-ci əsrdə konstruktiv təlimin əsasında şəxsiyyət dayanır ki, onu inkişaf etdirmək və formalaşdırmaq təkcə sosial-pedaqoji mahiyyət daşımır, həm də psixopedaqoji anlamda başa düşülür. Tədqiqat fəaliyyətinin məqsədyönlü inkişafı və formalaşması üçün irəli sürülən ilkin psixoloji-pedaqoji şərtlərə bunlar aiddir: şagird təfəkkürünün emosional cəhətdən, zehni hisslərin köməyi ilə fəallaşdırılması, təfəkkürün inkişaf etdirilməsi, idrak maraqlarının formalaşdırılması, yaradıcılıq fəaliyyətlərinin inkişaf etdirilməsi, şagirdlərin xarici dünya ilə qarşılıqlı əlaqələrinin genişləndirilməsi və sosial münasibətlərinin inkişaf etdirilməsidir. Tələb olunan şərtlərə düzgün əməl etdikdə şagirdlər müəllimdən, dərslikdən və digər mənbələrdən əldə etdiyi informasiyalar üzərində məntiqi əməliyyatlar apararaq qavrayışlarını formalaşdırır, başa düşmə qabiliyyəti hesabına xüsusidən ümumiyə, sadədən mürəkkəbə istiqamətlənərək yeni biliklər əldə edirlər. Şərtlərə düzgün əməl olunmuş tədqiqatçılıq fəaliyyətində verilən biliklərin zəruriliyi daim diqqət mərkəzində saxlanılır və biliklərin həyatla bağlılığı, inkişafa, dünyagörüşün genişlənməsinə xidmət etməsi əsas götürülür. Həmin şərtlərə yüksək səviyyədə əməl etmək üçün müəllimdən yaradıcılıq tələb olunur. Yaradıcılıq isə öz növbəsində tərbiyəçi və ya müəllimdən yüksək psixo-pedaqoji bilik, emosionallıq, işə yaradıcı münasibət tələb edir. Bunun üçün müəllim müasir tələblərə cavab verən dərs prosesini təşkil edərkən şagirdlərin idrak fəallığı və tədqiqatçılıq fəaliyyətində əsas qüvvə olan təlimin dialoji şəkildə təşkilinə, təlimdə problemli situasiyanın yaranmasına xüsusi diqqət yetirməlidir. Bütün qeyd olunan psixopedaqoji yanaşmalar və şərtlər şagirdlərdə diqqət davamlılığının formalaşmasına, nitqinin inkişafına, hafizə, yaddasaxlamanın möhkəmlənməsində göstərir.

Bunu da qeyd etmək lazımdır ki, tədqiqatçılıq fəaliyyətini həyata keçirən təhsilverən yəni, müəllim psixopedaqoji şərtlərin mahiyyətinə dərindən bələd olmalıdır ki, təlim prosesi zamanı həmin şərtlərə düzgün əməl olunmasına şərait yarada bilsin. Nəticə olaraq tədqiqatçılıq bacarıqları yüksək səviyyədə formalaşmış şəxs idraki bacarıqları, kommunikativ qabiliyyətləri ilə müstəqil şəkildə tədqiqat aparmağa nail olacaqdır.

Ədəbiyyat

1)Adığözəlov A.S., Həsənova X.S. Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası: Dərs vəsaiti. Bakı, 2011.

2) Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyev. Psixologiya. B a k ı – 2007

3)Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurrikulumları, Bakı, 2008.

4) Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, 2008.

İnternet resursları

1)https://aztehsil.com/news/10597-pedaqoji-tedqiqatlara-yeni-yanasmalar.html

2)http://ecosystema.ru/03programs/irsh/gt_issled_korost.htm

3)http://www.dslib.net/obw-pedagogika/pedagogicheskie-uslovija-formirovanija-issledovatelskih-umenij-u-mladshih-shkolnikov.html

4)http://www.idrak-m.com/?p=1640

Xarici resurslar

1) Борзенко В.И., Обухов А.С. Насильно мил не будешь. Развитие исследовательской деятельности учащихся: Методический сборник, 2001.

2) СавенковА.И. Психологические основы исследовательского подхода к обучению. – М.: Просвещение, 2006.

3) Успенский В.В. Школьные исследовательские задачи и их место в учебном процессе, Москва, 1997.

SUMMARY

The article begins with a brief overview of the role of research in the modern education system.Before discussing the psycho-pedagogical approach to research, it is briefly mentioned about psycho-pedagogy.Then, the psychopadagogical approach and conditions to the research were mentioned.The positive effects of psychopadagogical approaches on both the education level and mental development of students were mentioned.

Muradxanlı Nərmin
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Magistrant

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN YAŞ VƏ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *məktəb yaş dövrü, təlim fəaliyyəti, psixi proseslərin inkişafı, sosial inkişaf, yaş psixologiyası*

Ключевые слова: *school age, training activities, development of mental processes, social development, age psychology*

Key words*: школьный возраст, учебная деятельность, развитие психических процессов, социальное развитие, возрастная психология*

Məktəb həyatının ibtidai dövrünü 6-7 yaşdan 10-11 yaşa qədər olan yaş diapazonu təşkil edir (1-4-cü siniflər). İbtidai məktəb yaşında uşaqlar xeyli inkişaf ehtiyatlarına sahib olurlar. Onların aşkar edilməsi və səmərəli istifadəsi yaş və pedaqoji psixologiyasının əsas vəzifələrindən biridir. [1, səh.208]

İbtidai məktəb yaşı –idrak proseslərinin intensiv inkişafıvə keyfiyyətcə dəyişilməsi dövrüdür. Uşaq tədricən öz psixi proseslərininöhdəsindən gəlməyə başlayır, qavrayışı, diqqəti, yaddaşıidarə etməyi öyrənir. Uşağın məktəbə daxil olması ilə yeni sosial inkişaf vəziyyəti yaranır. Sosial inkişaf vəziyyətinin mərkəzində müəllim dayanır. İbtidai məktəb yaşında tədris fəaliyyəti aparıcı yer tutur.

Nəzəri düşüncənin formalaşması üçün vacib şərt elmi anlayışların formalaşmasıdır. Nəzəri düşüncələr şagirdə obyektlərin xarici, vizual əlamətlərinə və əlaqələrinə istiqamətlənərək deyil, daxili, əhəmiyyətli xüsusiyyətlərinə və əlaqələrinə istiqamətlənərəkməsələləri həll etməyə imkan verir.

İbtidai məktəb yaşının başlanğıcında qavrayış kifayət qədər fərqlənmir. Bu səbəbdən, uşaq bəzən yazılışına görə bir-birinə bənzəyən hərfləri və rəqəmləri qarışdırır (məsələn, *9* və *6*rəqəmlərinivə ya *Я* və *R* hərflərini götürək).

Əgər məktəbəqədər yaş dövründə uşaqların qavrayışı analiz ilə xarakterizə olunursa, ibtidai məktəb yaşının son dönəmində müvafiq tədris zamanı sintezedici qavrayış ortaya çıxır. İnkişaf edən zəka qavranılan elementlər arasında əlaqə qurmaq imkanı yaradır. Bunaşəkillərin uşaqlar tərəfindən təsviri zamanı asanlıqla şahid olmaq olar. Bu xüsusiyyətlər, uşaq və onun inkişafı ilə ünsiyyət zamanınəzərə alınmalıdır.

İbtidai məktəb yaşında yaddaş iki istiqamətdə inkişaf edir – ixtiyarilik və mənalılıq. Uşaqlar, qeyri-ixtiyari olaraq canlı əyani vəsaitlərlə əlaqəli, oyun formasında təqdim olunan, onlarda maraq yaradan tədris materialını yadda saxlayırlar.

Məhz ibtidai məktəb yaşında diqqət inkişaf edir. Bu psixi funksiyanın formalaşması olmadantədris prosesi qeyri-mümkündür. Dərsdə müəllim şagirdlərin diqqətini tədris materialına yönəldir, onun davamiyyət müddətini uzadır. Kiçik yaşlı ibtidai sinif şagirdi fikrini

cəmləmiş şəkildə bir iş üzərində 10-20 dəqiqə məşğul ola bilər. Diqqətin həcmi 2 dəfə artır, onun dayanıqlığı, qoşulması və paylanması yüksəlir.

İbtidai məktəb yaşı –şəxsiyyətin kifayət qədər nəzərə çarpan formalaşma yaşıdır. Bu yaş dövrü üçün böyüklər və həmyaşıdları ilə yeni münasibətlər, bütün kollektivlər sisteminə daxil olması, şagirdin qarşısında bir sıra ciddi tələblər qoyan yeni fəaliyyət növünə - təhsil-tədrisə qoşulması xarakterikdir. Bütün bunlar insanlara, kollektivlərə, təlim-tədris və onunla əlaqəli öhdəliklərə münasibətdə yeni sistemin formalaşmasına və möhkəmləndirilməsinə həlledici şəkildə təsir göstərir, xarakter və iradəni formalaşdırır, maraq dairəsini genişləndirir, qabiliyyət və bacarıqları inkişaf etdirir. [7, səh.175]

İbtidai məktəb yaşında əxlaqi davranışın təməli qoyulur, mənəvi normaların və davranış qaydalarının mənimsənilməsi baş verir və şəxsiyyətin ictimai oriyentasiyası formalaşmağa başlayır.

Məktəbə qədəm qoymaqla uşaqların həyat tərzi, məsuliyyət və vəzifələri dəyişir. Onların psixologiyası da dəyişir. Oyun fəaliyyətindən təhsilə, əyani-obrazlı düşüncədən şifahi-məntiqli düşüncəyə keçid baş verir. Şəxsi qarşılıqlı münasibətlər sistemi dəyişir: əgər əvvəllər uşaqlar sadəcə oynayırdılarsa, indi onlardan diqqət tələb olunur, valideynlər və müəllimlər onlardan bilik əldə etmələrini və əldə etdikləri bilikləri tətbiq edə bilmələrini gözləyirlər. Uşaqlar diqqətlərini, iradələrini, davranışlarını idarə etməyi öyrənirlər. Bu yaş dövründə bir sıra psixoloji hallar da müşahidə olunur. Onlardan bəzilərinə nəzər salaq:

7 yaşında uşaqda daxili qırılma, bir növ böhran baş verir. Uşaq kim olduğunu və ondan nə istədiklərini anlamağa çalışır. Bir şeyi etməzdən əvvəl, uşaq artıq bunun özü üçün nə əhəmiyyət kəsb etdiyini düşünməyə başlayır. Bir çox uşaq "özlərindən nəsə bir şey təsəvvür etməyə" başlayır, daha dəqiq desək, öz rollarını axtarırlar.

6-8 yaşlarında uşaqlar hələ də kifayət qədər impulsiv olurlar, ani duyğuların təsiri altında hərəkət edirlər, hələ kifayət qədər iradə sahibi olmurlar, uğursuzluq baş verdiyi təqdirdə, əl-qollarını sallayıb məqsədə çatmağı dayandırırlar. Bundan əlavə, inadkarlıq və şıltaqlıq kimi xüsusiyyətlər də müşahidə edilə bilər. [6, səh.335]

Təxminən 9 yaşından etibarən uşaqlar artıq emosiyalarına və davranışlarına nəzarət etməyə başlayırlar. Uşaq öz hisslərini, acıq və hirsini şifahi şəkildə ifadə etməyi öyrənir (əvvəllər, o, bunu ağlamaq və ya yumruqların köməyi ilə edirdi), həmçinin istehza ilə danışa bilər, nəyisə və ya kimisə müzakirə edə bilər.

Mənəvi keyfiyyətlər formalaşır:

- vicdan;
- özünə, dostlarına və sinfinə görə məsuliyyət hissi;
- başqasının bədbəxtliyinə şəfqət;
- haqsızlıq və ədalətsizliyə qarşı etiraz.

İbtidai məktəb yaşı əsas xarakter keyfiyyətlərinin, insan psixologiyasının təməlinin atılması üçün olduqca vacibdir, məhz bu yaşda uşaqlar mərhəmət və pislik, yaxşı və pis arasında fərq qoymağa, özlərinin və başqalarının hərəkətlərini qiymətləndirməyə başlayırlar, ünsiyyət qaydaları və normalarını mənimsəyirlər. Uşaqda daxili mövqe formalaşmağa başlayır (öz fikri, özünü qiymətləndirmə, insanlara və hadisələrə münasibət).[4, səh.220]

İbtidai məktəb yaşında uşaqlar özlərini bir şəxsiyyət kimi dərk etməyə başlayırlar, özünü qiymətləndirmə formalaşır və bu keyfiyyətlərin formalaşmasında onlara kömək etmək vacibdir. Daim irad tutulan və uğursuzluqlarına işarə edilən uşaqlar özünə inamsız olur və belə uşaqlarda aşağı özünü qiymətləndirmə formalaşır. Dəstəklənən, həvəsləndirilən və kömək olunan uşaqlar isə adekvat özünə hörmət qazanır, özünə arxayındır, özünə güvənir.

1-2-ci siniflərdə oxuyan kiçik yaşlı uşaqlar üçünböyüklərə (müəllimə və ya valideynlərə) sonsuz inam və itaət xarakterikdir. Böyüyün sözləri, onun qiymətləndirməsi uşaq üçün olduqca vacibdir. Hətta uşaqların özləri də özlərini böyüyün sözləri ilə qiymətləndirirlər, buna görə də, tənqid etmək və ya danlamaq yox, yumşaq şəkildə idarə etmək və uşağın özünə inamını dəstəkləmək vacibdir.

Əvvəlcə, bütün uşaqlar böyüklərin təqdirini qazanmaq üçün yaxşı oxumağa çalışır və uğursuzluqdan və üstəlik də tənqiddən məyus olurlar. Belə vəziyyətdə onlarda,məsələn,qeyri-səmimi laqeydlik, ekssentriklik, daimi həyəcan, əsəbilik, cəza qabağı qorxu kimidavranışlarda yayınmalarmeydana gələ bilər.

11 yaşına çatanda uşaqlar anlamağa başlayırlar ki, qabiliyyət çatışmazlıqlarını böyük səylərin tətbiqi ilə kompensasiya etmək olar. Əgər uşaq öyrənmək istəyirsə, öz iradəsinə nəzarət edə və materialı başa düşənə qədər dərslik üzərində çalışa bilər.

Bu yaşda uşaqların qabiliyyətlərindəki fərqlər artıq açıq şəkildə özünü göstərir: kimsəriyazi düşüncəyə, kimsə humanitar, kimi isə yaradıcı düşüncəyə sahib olur.

Ədəbiyyat

1. В.С.Мухина, Возрастная психология. - 4-е изд., - М.: Academia, 1999. - 456 с.
2. Выготский Л.С. Педагогическая психология. М., 1996.
3. Давыдов В.В. Проблемы развивающего обучения: Опыт теоретического и экспериментального психологического исследования. М., 1986.
4. Н.Семаго, М.Семаго, Теория и практика оценки психического развития ребенка. Дошкольный и младший школьный возраст. – СПб.: Речь, 2010. – 385 с.
5. Психологические особенности формирования личности впедагогическом процессе / Под ред. А. Коссаковски, И. Ломпшера и др.: Пер. с нем. М., 1981.
6. П.П.Блонский, Психология младшего школьника. Воронеж: НПО «МОДЭК», 1997. 575с.
7. Эльконин Д.Б. Психология развития: Учеб. пособие для студ. высш.учеб. заведений. М., 2001.

XÜLASƏ

Məqalədə ibtidai sinif şagirdlərinin yaş və psixoloji xüsusiyyətləri araşdırılmış və onların xarakterik cəhətləri qeyd olunmuşdur. İbtidai məktəb yaşının əhəmiyyəti və vacibliyi vurğulanmış, yaş və psixologiyanın qarşılıqlı vəhdəti göstərilmişdir.

SUMMARY

In the article, the age and psychological characteristics of primary school students were studied and their characteristics werehighlighted. The importance and significance of primary school age was emphasized, and the mutual unity of age and psychology was shown.

РЕЗЮМЕ

В статье изучены возрастные и психологические особенности учащихся младших классов и отмечены иххарактеристики. Подчеркнута важность и значимость младшего школьного возраста, показано взаимное единство возраста и психологии.

Abdullayeva Asimə Azər qızı
ADPU, İbtidai sinifdə tədrisin metodika və metodologiyası,magistrant
Elmi rəhbər: dos., p.ü.f.d. Tamilla Vahabova

AZƏRBAYCANDA İNKLÜZİV TƏHSİLƏ DÖVLƏT QAYĞISI

Açar sözlər:*inklüziv, inklüziv təhsil, inklüziv təhsil proqramları, Azərbaycanda inklüziv təhsil*

Ключевые слова: *инклюзивное, инклюзивное образование, программы инклюзивного образования, инклюзивное образование в Азербайджане*

Key words: *inclusive, inclusive education, inclusive education programs, inclusive education in Azerbaijan*

Ölkəmizdə inklüziv təhsilin tətbiqi ilə bağlı işlər 2005-ci ildən görülməyə başlanmışdır. Ancaq demək lazımdır ki, bu sahədə hələ də istənilən nəticələr əldə edilməyib.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası xeyli çətin prosesdir. Belə uşaqlar günlük həyatlarında bir çox problemlərlə qarşılaşırlar. Tipik uşaqlar və onların valideynləri tərəfindən sağlamlıq imkanları məhdud uşaqların fərqləndirilməsi, bəzən onlara gülmək bu uşaqları cəmiyyətdən təcrid edir. Göstərilən bu cür münasibət təkcə uşaqların özləri üçün deyil, həmçinin, valideynlərinə də çətinlik törədir. Ona görə də inklüziv anlayışı təkcə sağlamlıq imkanları məhdud uşaqlara deyil, bütün cəmiyyətə aid olmalı, cəmiyyətin üzvü olan hər bir şəxs bu mövzuda maarifləndirilməlidir.

Azərbaycanda inklüziv təhsilin məktəb səviyyəsində təşkili üçün bir sıra layihə və proqramlar həyata keçirilib, qanunlar qəbul edilib.

Ölkəmiz 1992-ci ildə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyaya qoşulmuşdur.

19 may 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyev tərəfindən Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının qanunu imzalanmışdır. Sənəd ümumi müddəalar, uşaq və ailə, uşaq və cəmiyyət, əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi və yekun müddəalar olmaqla 5 fəsil, 45 maddədən ibarətdir. Qanunun 35-ci maddəsində sağlamlıq imkanları məhdud uşaqların müdafiəsi, 36-cı maddədə sağlamlıq imkanları məhdud uşağa qulluq edən şəxslərə edilən güzəştlər verilmişdir. Bu maddələrə görə sağlamlıq imkanları məhdud uşaqların ödənişsiz tibbi, psixoloji yardım almaq hüququ var. Həmçinin, bu uşaqlara qulluq edən şəxslərə qanunvericiliklə müəyyən edilmiş qaydada maddi yardım, pensiya verilir.

Konstitusiyamızın 25-ci maddəsinə görə, sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

Azərbaycanda inklüziv təhsilin tətbiqi məqsədilə həyata keçirilən ilk əsas layihə "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: mövqelər, təcrübələr və siyasət" layihəsidir. Bu pilot layihə 2004-cü ildə Dünyaya Baxış təşkilatı tərəfindən həyata keçirilmişdir. Layihə nəticəsində 164 inklüziv uşaq təhsilə inteqrasiya edilmiş, inklüziv təhsillə məşğul olan təhsil işçiləri mütəxəssislər tərəfindən aparılan təlim və seminarlarda iştirak etmiş, inklüziv təhsilin uğurlu tətbiqi üçün bir çox ölkələrdə sınaqdan keçirilmiş üsullar yoxlanılmışdır.

2005-2009-cu illəri əhatə edən Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı ölkəmizdə inklüziv təhsil üçün atılan addımlardan biridir. Proqram Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Təhsil Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi sənədlərinə əsaslanır.

Proqramın əsas məqsədi sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnu qorumaq, onların təhsil almasına şərait yaratmaq, hər bir uşağın təhsil müəssisələrində bərabər imkanlarla təhsil almasına nail olmaq, sağlamlıq imkanları məhdud uşaqların qeydə alınması, inklüziv təhsil üçün müəssisənin ehtiyacı olan maddi-texniki bazanı, avadanlıqları təmin etməkdir.

24 oktyabr 2013-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" qarşıya yerinə yetirilməsi vacib olan beş əsas istiqamət qoymuşdur. Bu istiqamətlər aşağıdakılardır: Şəxsiyyətyönümlü məzmunun yaradılması, yüksəknüfuzlu təhsilverənin formalaşdırılması, təhsilin nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə sisteminin formalaşdırılması, təhsil infrastrukturunun yaradılması, təhsilin dayanıqlı və müxtəlif mənbələrdən maliyyələşdirilməsinin yeni mexanizminin yaradılması. Bu istiqamətlərin həyata keçirilməsi mərhələli şəkildə 2015-2024-cü illəri əhatə edəcək.

Şəxsiyyətyönümlü məzmunun yaradılması və yüksəknüfuzlü təhsilverənin formalaşdırılması istiqamətlərində inklüziv təhsil diqqətdən kənarda qalmamışdır. 1.4.-cü bənddə sağlamlıq imkanları məhdud uşaqları təhsilə və həyata cəlb etmək üçün inklüziv təhsilin proqramlarını hazırlamaq, təsdiq və tətbiq etmək nəzərdə tutulub. Bu bəndin həyata keçirilməsi mərhələli şəkildə 2015-2023-cü illəri əhatə edəcək.

Ədəbiyyat

1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil)" haqqında Azərbaycan Respublikasının qanunu, Bakı şəhəri, 5 iyun 2001-ci il. №136IIQ.
2. İnklüziv siniflərdə təlimin təşkili, Oxu materialı, Bakı, 2018.
3. Students with Disabilities, Learning Difficulties and Disadvantages Policies, Statistics and Indicators, OECD 2007.
4. UNİCEF Azərbaycanda əlilliyi olan şəxslərin vəziyyətinin təhlilinə dair tədqiqat, 2011.

Государственная забота об инклюзивном образовании в Азербайджане

РЕЗЮМЕ

Необходимо решать все проблемы, чтобы обеспечить максимальную интеграцию детей с ограниченными возможностями в образование и общество. Существующая нормативно-правовая база в этой сфере должна быть усилена, должно быть определено точное количество детей с ограниченными возможностями, работа с ними должна постоянно контролироваться, а также должны быть предоставлены транспортные средства для детей с финансовыми трудностями.

State care for inclusive education in Azerbaijan

SUMMARY

All problems need to be addressed to ensure maximum integration of children with disabilities into education and society. The existing legal and regulatory framework in this area should be strengthened, the exact number of children with disabilities should be determined, work with them should be constantly monitored, and vehicles for children with financial difficulties should be provided.

Abdullayeva Asimə Azər qızı
ADPU, İbtidai sinifdə tədrisin metodika və metodologiyası, magistrant
Elmi rəhbər: dos., p.ü.f.d. Tamilla Vahabova

İNKLÜZİV TƏHSİL ANLAYIŞI VƏ ONUN TARİXİ

Açar sözlər: *inklüziv, inklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan, öyrənmə çətinlikləri*
Ключевые слова: *инклюзивное, инклюзивное образование, учащиеся с ограниченными возможностями, трудности в обучении*
Key words: *inclusive, inclusive education, students with disabilities, learning difficulties*

İnsanlar arasında fərqlər hələ kiçik yaşlardan uşaqların cinsinə, maddi vəziyyətlərinə, etnik köklərinə, danışdıqları dillərə, inandıqları dinlərə, fiziki məhdudiyyətlərinə, yaxud bir çox başqa səbəblərlə əlaqəli başlayır. Bu ayrıseçkilik təəssüf ki, müasir dövrdə hər uşağın bərabər təhsil alma imkanlarının, sosial və mədəni fəaliyyətlərdə iştirakının qarşısına keçir, ona mane olur. Ancaq, bütün bu saydıqlarımın qarşısını alaraq hər uşağa bərabər imkanlar təmin etməyi məqsəd olaraq seçən bir yanaşma var : İnklüziv təhsil.

XXI əsrin cəmiyyətində tez-tez rastlaşdığımız, əhəmiyyətini, vacibliyini mütəxəssislərdən eşitdiyimiz inklüziv təhsil nədir ? İnklüziv anlayışının mahiyyəti nədən ibarətdir ? Təhsil sisteminə necə daxil olmuşdur? kimi suallara aydınlıq gətirək.

İnklüziv sözü latın sözü olan include - "daxil edirəm" sözündən götürülmüşdür. Bu anlayışın əsasını təhsilin hər bir fərd üçün əlçatan olması təşkil edir. İnklüziv təhsil ümumi təhsil prosesini inkişaf etdirməklə bərabər, həm də insan hüquqlarının qorunmasına əsaslanır.

İnklüziv təhsil fiziki, zehni, kommunikativ, sosial inkişaf zamanı tipik inkişafdan fərqlənən, təhsildən geri qalan uşaqlar üçün qurulmuş bir sistemdir.

İklüziv təhsilin tarixi XVIII əsrə dayanır. Sağlamlıq imkanları məhdud uşaqlar üçün ilk xüsusi təhsil müəssisəsi 1755-ci ildə Fransada fəaliyyətə başlamışdı. Bu məktəbdə eşitmə məhdudiyyəti olan uşaqlar təhsil alırdılar.

Əlilliyi olan insanlar arasında ilk təhsil fəaliyyətləri görmə və eşitmə məhdudiyyətli insanlar arasında aparılmışdır. İlk dəfə Fransa Xarici İşlər Nazirliyində işləyən Valantin Haüy adlı bir məmur Deni Didronun 1749-cu ildə qələmə aldığı "Korlar haqqında məktub" kitabını oxuduqdan sonra təsirlənərək Parisdə kor, dilənçi bir uşağa təhsil verməyə başlamışdı. Valantinin həmin uşağın təhsilində əldə etdiyi uğurlar Fransa Akademiyası tərəfindən çox bəyənilmişdi və akademiya onu korlar üçün bir məktəb açmağa təşviq etmişdi. Beləliklə 1873-cü ildə Parisdə korlar məktəbi də açıldı. Daha sonra Almaniya, Avstrya və Rusiyada belə məktəblər fəaliyyətə başladı. 1830-cu illərdə bu ardıcıllığı Samuel Hov davam etdirərək Amerikada bir il fərqlərlə Boston, Nyu-York və Filadelfiyada korlar məktəbi açmışdır.

1889-cu ildə İstanbulda Sultan Əhməddə Ticarət Məktəbinin tərkibində Grati Əfəndi tərəfindən əvvəlcə karlar, daha sonra korlar məktəbi açılmışdır. Bu mərhələ Osmanlı dövləti də diqqət çəkirdi, belə ki, Osmanlıda insan haqları və əlil anlayışlarının əhəmiyyətli olmamasına baxmayaraq əlillər yaşlılar evində qorunur, yaxud bəzilərinin bacarıqlarına uyğun işlərə cəlb olunurdular.

XX əsrdə qurulan bir çox təşkilat da inklüziv təhsilin inkişafında vacib rol oynamışdır. İnklüziv təhsilin UNESCO (Birləşmiş Millətlər Elm, Təhsil və Mədəniyyət) tərəfindən qəbul edilmiş mahiyyəti isə belədir: İnklüziv təhsil öyrənənlərin fərqli ehtiyaclarına onların təhsilə, mədəniyyətə və cəmiyyətə inteqrasiyasını artıraraq və təhsil sisteminin içindəki ayrı-seçkiliyi azaldaraq cavab vermə prosesidir. UNESCO-ya görə bu proses özündə dövlətin təhsil yaşına çatmış bütün şagirdləri əhatə edəcək şəkildə təhsil strategiyalarının hazırlanmasını, tətbiqini və bu strategiyaların effektiv olub olmadığını araşdırmağı ehtiva edir. Dövlət bu strategiyalar vasitəsilə bütün uşaqlara təhsil vermək üçün münasib şərait yaratmalı və lazımlı tədbirləri görməlidir.

Bu anlayışa görə şagirdlər seçdikləri məktəblərdə öz yaşıdları ilə birlikdə təhsil almalı və məktəb həyatının bütün mərhələlərində iştirak etməlidir. Buna görə də təhsil siyasətləri, öyrənmə mühiti, məktəb mədəniyyəti, təlim proqramları şagirdlərin təhsil ehtiyaclarına və fərqliliklərinə uyğun şəkildə qurulmalıdır. Bu yanaşmaya görə əgər şagirdlər öz fərdi ehtiyaclarını qarşılayacaq uyğun şəraitə sahib olsalar qoyulan hədəflərə çata bilirlər.

Şagirdlər məktəblərə deyil, məktəblər şagirdlərə uyğunlaşmalıdır. Məktəblər şagirdlərin sosial, mədəni, emosional və fiziki ehtiyaclarına uyğun olmalıdır. Bu mövzuda əsas diqqət mərkəzi bütün şagirdlərin bərabər təhsil ala bilmələri üçün məktəblərin öyrənmə mühitini və təhsil proqramlarını necə təşkil etməsidir. Çünki inklüziv təhsil yanaşmasına görə şagirdlərin fərqlilikləri problem deyil, təhsili və təhsil mühitini zənginləşdirmək üçün böyük bir fürsətdir. Yəni, inklüziv təhsil şagirdlər arasındakı fərqlilikləri dəstəkləyən yenilikdir.

Hər uşaqda olduğu kimi xüsusi qayğıya ehtiyacı olan uşaqların da bacarıqları var. Ancaq diqqətlərin çox vaxt uşağın məhdudiyyətləri üzərinə toplanması səbəbindən onların bacarıqları diqqətdən kənarda qalır. Halbuki inklüziv təhsildə şagirdin "nəyi bacarmadığı" qədər "nəyi bacardığı"nın bilinməsi önəmlidir. Şagirdin bir və ya bir neçə cəhətdən problemi olması onun bütün sahələrdə bacarıqsız olacağı mənasını vermir, verməməlidir. Xüsusi qayğıya ehtiyacı olan şagirdlər mövzusunun təməlində fərqliliklər olmaqla bərabər bu məsələyə sadəcə fərqliliklər cəhətdən yanaşmaq yanlış olar. Çünki fərqliliklər olduğu qədər bənzərliklər də var.

Yekun olaraq, inklüziv təhsil anlayışının tarixi əsrlər əvvələ söykənsə də, onun mahiyyətinin bütün təhsil işçiləri, müəllimlər və valideynlər tərəfindən mənimsənilməsi ölkəmizin təhsil siyasətində mühüm yer tutur.

Ədəbiyyat

1. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil)" haqqında Azərbaycan Respublikasının qanunu, Bakı şəhəri, 5 iyun 2001-ci il. №136IIQ.

2. İnklüziv siniflərdə təlimin təşkili, Oxu materialı, Bakı, 2018.

3. Students with Disabilities, Learning Difficulties and Disadvantages Policies, Statistics and Indicators, OECD 2007.

4. UNİCEF Azərbaycanda əlilliyi olan şəxslərin vəziyyətinin təhlilinə dair tədqiqat, 2011.

The concept of inclusive education and its history
SUMMARY

Human life is divided into several stages from birth to death. These stages begin with birth, and continue into infancy, infancy, preschool, elementary school, adolescence, adolescence, adulthood, old age, and longevity. People who are unable or have difficulty passing any of these stages need inclusive education. Many concepts are mentioned when talking about people in need of inclusive education. After the basic concepts, issues such as who needs special education, the reasons, the services provided to these individuals, special education staff, legal norms and the history of inclusive education are highlighted.

Понятие инклюзивного образования и его история
РЕЗЮМЕ

Человеческая жизнь делится на несколько этапов от рождения до смерти. Эти стадии начинаются с рождения и продолжаются в младенчестве, младенчестве, дошкольном образовании, начальной школе, юности, юности, зрелости, старости и долголетии. Людям, которые не могут или испытывают трудности с прохождением любого из этих этапов, необходимо инклюзивное образование.Многие концепции упоминаются, когда говорят о людях, нуждающихся в инклюзивном образовании. После основных понятий выделяются такие вопросы, как кому необходимо специальное образование, причины, услуги, предоставляемые этим лицам, персонал специального образования, правовые нормы и история инклюзивного образования.

Muradxanlı Nərmin
Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU),
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, Magistrant

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN MƏNTİQİ TƏFƏKKÜRÜNÜN İNKİŞAF ETDİRİLMƏSİNİN İMKAN VƏ YOLLARI

Açar sözlər: *məntiqi təfəkkür, düşünməyi öyrətmək, təfəkkür qabiliyyətlərini inkişaf etdirmək*

Ключевые слова: *логическое мышление, обучение мышлению, развитие навыков мышления*

Key words: *logical thinking, teaching thinking, developing thinking skills*

Dünyamızda sürətlə inkişaf edən elm və texnologiya birbaşa zehnimizə təsir edir və onun yüksək səviyyədə inkişaf etdirilməsini tələb edir. Bu vəziyyət, təhsil sahəsində məntiqi təfəkkürə yönəlmiş təhsil yanaşmalarını artırır. Bugünkü təhsil yanaşmaları şagirdi bütün təhsil fəaliyyətlərinin mərkəzinə qoyur və dil və təfəkkür bacarıqlarını yüksək səviyyədə inkişaf etdirməyi hədəfləyir. Beləliklə, öyrənməyi öyrənmək, yaradıcı və məntiqi habelə, tənqidi düşüncə və əks düşünmə kimi yüksək səviyyəli bacarıq daha sürətli inkişaf edir. Bu səbəbdən də son illərdə ibtidai sinif şagirdlərinin məntiqi təfəkkür qabiliyyətlərinin inkişaf etdirilməsi olduqca vacib hesab edilir. Təfəkkürbilik əldə etmə, anlama və öyrənmə prosesinin ən vacib hissəsidir. Bu səbəbdən şagirdlərdən gələcək iş və vəzifələrində fərqli baxış bucaqları yaratmaq, müstəqil qərarlar qəbul etmək və gələcəkdə (irəliki təhsil müddəti boyunca) ictimai təzyiqlər qarşısında obyektiv fəaliyyət göstərmək üçün düşünmə qabiliyyətlərini inkişaf etdirmələri gözlənilir. Təhsilin vacib məqsədlərindən biri də şagirdlərin yaradıcılıq, problem həll etmə, tənqidi düşüncə və daha yüksək səviyyəli analiz bacarıqlarını inkişaf etdirməkdir. Bu anlayışa əsaslanaraq məntiqi təfəkkürün inkişaf etdirilməsinə dair təhsil proqramları hazırlanır, şagirdlərə əsas bacarıq, texnika və yüksək səviyyədə düşünmə bacarıqları öyrədilir. Bayerə görə, şagirdlərdə məntiqi təfəkkür bacarıqlarını inkişaf etdirmək üçün maraq, şübhə, dözümlülükvə həqiqətə hörmət kimi məsələlərə diqqət yetirilməlidir [1, 27]. İbtidai sinif şagird-

lərində təfəkkürün inkişaf etdirilməsinin imkan və yolları son illərdə əksər ölkələrin əsas problemlərindən biri olmuşdur. Bu mövzuda aparılan araşdırmalar şagirdlərin düşünmə qabiliyyətlərini yetərincə inkişaf etdirə bilmədiklərini və bu səbəbdən müxtəlif çətinlik və problemlərlə qarşılaşdıqlarını göstərir. Bu problem ibtidai təhsildə, universitetlərin tədris planında və hətta aspiranturada da qeyd olunur. Məsələn, Nikerson (2008) araşdırmalarında məntiqi təfəkkür qabiliyyətlərinin 9-11 il məktəbdə oxuduqdan sonra inkişaf etmədiyini aşkar etdi.

Göründüyü kimi, tədqiqatlar təfəkkür prosesinin inkişaf etdirilmə yollarının ibtidai sinif şagirdlərində yetəri qədər inkişaf etmədiyini göstərir. Bu səbəbdən bu bacarıqları inkişaf etdirmək üçün təhsil sahəsində aparılan islahatlar yenilənməli, yeni metod və imkanlara üstünlük verilməlidir. Bu məqsədlə məntiqi təfəkkürün inkişafına dair ayrıca məktəb proqramlarına, düşünmə qabiliyyətlərini inkişaf etdirən fəaliyyətlər isə hər kursa daxil edilməlidir.

Tədqiqat işinin hazırlanmasında təkcə elmi arxiv mənbələrdən deyil, həm də gündəlik informasiya mənbələrinə, gündəlik faktlara, internet resurslarına və müxtəlif ədəbiyyatlara üstünlük verilmişdir. Tədqiqat işinin yazılması zamanı müqaisəli təhlil metodundan geniş formada istifadə edilmişdir.

Sözügedən mövzuda mövcud elmi məlumatlar sistemləşdirilmiş, son dövrlərin elmi ədəbiyyatı əsasında yeni elmi faktlar və məlumatlar əlavə edilmişdir. Sadalananlar böyük elmi-praktiki əhəmiyyətə malikdir [3, 22]. İbtidai sinif şagirdlərində məntiqi təfəkkürün inkişaf etdirilməsinə dair aparılan araşdırmamızda Azərbaycan təhsil sistemindəki çatışmazlıqlar, xarici ölkələrdə bu sahədə aparılan tədbirlər, məntiqi təfəkkürün inkişaf etdirilməsinə dair səmərə vermiş vasitə və üsullar analiz edilmişdir. Bu analizlərdən əldə edilən nəticələr əsas etibarıyla mövzunun nəzəri əsasları, şagirdlərin yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla aparılmışdır. Analiz zamanı Oxford təhsil sisteminin tətbiq olunduğu "Boutcher of England Primary School"- ibtidai sinif məktəbi əsas referans kimi götürülmüşdür:

Qrafik 1: "Boutcher of England Primary School"- ibtidai sinif məktəbində yaş xüsusiyyətlərinə görə məntiqi təfəkkürün inkişaf göstəriciləri



Mənbə: Oxford məqalələr toplusu, www.academia.org(20.11.2015)

Nəticədən də aydın olduğu üzrə, İngiltərədə göstəricilər yaş xüsusiyyətlərinə görə olduqca yüksəkdir. Bəs onlar bu nəticələri əldə etmək üçün hansı metod və vasitələrdən istifadə edirlər? Bunlar aşağıdakılardır:

1.Şagirdlərdən hər hansı birinin müəyyən problemlərin səbəblərini və nəticələrini, güclü və zəif tərəflərini düşünmələrini tələb etmək;

2. Onlardan alternativ fikirləri nəzərdən keçirmələrini istəmək;

3. Hər mövzunun dördüncü həftəsində problemə əsaslanan və / və ya layihə əsaslı təlimdən istifadə etmək;

4.Müəllim tərəfindən məntiqi təfəkkür davranışlarını modelləşdirmək [3, 12].Bu metodlardan istifadə etməklə səmərə əldə edilməsi olduqca məqsədəuyğun hesab edilir.

Araşdırmalardan əldə etdiyimiz məlumatlara əsasən məntiqi təfəkkürün təhsil proqramlarına daxil edilmədiyi və düşünmə bacarıqlarının dolayı yolla öyrədildiyi, yəni ümumi verilən məlumatlarla inkişaf etdirildiyi vurğulandı.

Təhsil prosesi əsnasında şagirddən dəqiq şəkildə sorğu-sual olunmadan ötürülən məlumatların birbaşa əzbərlənməsi tələb edilirdi. Son illərdə konstruktivist yanaşma əsasında hazırlanmış ibtidai təhsil tədris proqramında məntiqi təfəkkür qabiliyyətlərinin inkişafına böyük əhəmiyyət verilir. Buna əsaslanaraq təklifimiz aşağıdakılardan ibarətdir:

1. Məntiqi təfəkkür məktəblərdə müstəqil bir kurs kimi təqdim edilsin və ona əsasən inkişafyönümlü proqram hazırlansın.

2. Proqramda təhsil prosesində istifadə ediləcək üsullar praktik olaraq göstərilsin.

Ancaq bu tədbirlər şagirdlərimizin məntiqi təfəkkür qabiliyyətlərini inkişaf etdirmək üçün yetərli deyil. Hər şeydən əvvəl, mövcud düşüncəyə dair təhsil proqramı günümüzün modellərinə və texnikalarına uyğun olaraq yenidən hazırlanmalıdır.

3. Proqramda ardıcıllıq, təsnifat, birləşmə, sintez və qiymətləndirmə kimi əsas bacarıqların inkişafına üstünlük verilməli, daha sonra məntiqi təfəkkür texnikaları öyrədilməlidir.

4. Məntiqi təfəkkür qabiliyyətini inkişaf etdirən texnika və fəaliyyətlər bütün dərslər boyunca müəllimlər tərəfindən aşılanmalıdır.

5. Müasir metodlar tətbiq olunmalıdır.

6. Düşünmə bacarıqlarını ölçməyə və qiymətləndirməyə imkan verən yeni bir qiymətləndirmə sistemi tətbiq olunmalıdır. Bu baxımdan müəllimlərimiz başda olmaqla bütün təhsil işçiləri lazımi qayğı göstərməli və vəzifələrini yerinə yetirməlidirlər. Diləyimiz məktəbəqədər təhsil müəssisəsindən universitetə qədər bütün səviyyələrdə məntiqi təfəkkür qabiliyyətli, sorğu-sual və problem həll etmə bacarığı inkişaf etmiş şəxslərin yetişdirilməsidir.

Ədəbiyyat

Kitab:

1. Rauf İmranoğlu (2011). Məntiq. Bakı: "Parlayan Günəş", 464 səh.
2. Smith, Howard Irving (2009), “Critical Thinking” London: 234 p.
3. “Curriculum program in Oxford”(2013), London: 220 p.
4. Camal Zeynaloğlu (2017). Təlim fəaliyyəti. Bakı, “Ünsiyyət” nəşriyyatı ", 144 səh.
5. Nickerson, R. S. (2007), “On Improving Thinking Through Instruction”,
6. dans Review of Research in Education, vol. 15, 357 p.
7. Cekson A. L. (2002), “Məntiqi Təfəkkür Tədrisi”, 237 səh.

İnternter resursları:

8. Oxford məqalələr toplusu, www.academia.org(20.11.2015)
9. https://www.researchgate.net/

XÜLASƏ

Məqalədə ibtidai sinif şagirdlərində məntiqi təfəkkürün inkişaf etdirilməsinin imkan və yollarından bəhs edilmişdir. Burada dünya təhsil sistemində istifadə olunan ən səmərəli metod və vasitələr araşdırılmışdır.

SUMMARY

The article discusses the opportunities and ways to develop logical thinking in primary school students. The most effective methods and tools used in the world education system are studied here.

РЕЗЮМЕ

В статье рассматриваются возможности и способы совершенствования логического мышления у учащихся начальной школы. Здесь рассматриваются наиболее эффективные методы и инструменты, используемые в мировой системе образования.

Abdullayeva Aynur Oruc qızı
ADPU, Məktəbəqədər təlim və tərbiyə, II kurs magistrantı
Elmi rəhbər: prof.Ş.Q.Əliyeva

UŞAĞIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ AİLƏNİN DƏSTƏYİ

Açar sözlər: *uşaq, təhlükəsizlik, ailə,dəstək*
Ключевые слова: *образование, безопасность,семья, поддерживать*
Key words: *child, safety,family, support*

Hər sosial cəhətdən çiçəklənən ailə firavan və uğurlu övladlar yetişdirmir. Həqiqətəndə bu belədir. Uğurlu övlad yetişdirməyin əsasında düzgün tərbiyə və dəstək durur. Ailənin pedaqoji dəstəyi uşaq üçün önəmli faktordur. Ailədən dəstək almayan uşaq qapalı, həddən artıq utancaq böyüyür. Ailədən gələn pedaqoji dəstək balanslaşdırılmış şəkildə olmalıdır. Çünki həddindən artıq sevgi, nəvaziş, hörmət və ehtiram atmosferi altında böyüyən uşaqda eqoizm, lovğalıq, riyakarlıq xüsusiyyətləri inkişaf etmiş olacaqdır.

Uşağa dəstək olmaq ona inanmaq deməkdir. Valideyn uşağına dəstək olduğunu sözlərində, mimika və jestlərində bildirməlidir. Ailənin uşağa dəstəyi uğursuzluğunda və ya özünü pis hiss etdiyində deyil, eyni zamanda hər şey yaxşı olanda da olmalıdır. Övladınızı yaxşı qiymət aldığı üçün deyil, bağçada tərbiyəçilər tərəfindən tərifləndiyi üçün deyil, sakit, dəcəl olmadığı üçün deyil məhz var olduğu üçün qeyd-şərtsiz qəbul etmək vacibdir. N.Tusinin dediyi kimi, "Uşaqda xoşagələn bir hərəkət baş verdikdə onu tərifləyib həvəsləndirmək lazımdır, lakin əks halda hər dəqiqə danlayıb başına vurmaq doğru deyildir: "qəbahətli iş görübsən", bəlkə belələrinin səhv, bilməmək üzündən etdiyini demək yaxşıdır ki, sırtılmasın. Bir daha təkrar etməsə, üstü vurulmamalıdır, təkrar edilsə, möhkəm danlamalı, belə işlərin yaramazlığı şişirdilməli və qadağan edilməlidir"[1, 158].

Uşaq həyatın ilk günlərindən etibarən valideynləri ilə daha çox münasibətdə olur. Ona görədə valideynin rəyi onun üçün önəmlidir. Valideynlərdən müsbət rəy alan və dəstəklənndiyini hiss edən bir uşaq müvəffəq və yetərli bir fərd olduğunu hiss edərək böyüyür, ancaq tez-tez tənqid olunan bir uşaq isə yetərincə yaxşı olmadığı hissinə qapılır. Hər iki halda da uşaqların özünə inamları fərqli olacaq. Təbii ki, hər bir valideyn övladının özünə güvənən bir fərd kimi böyüməsini istəyir. Lakin buna nail olmaq həmişə asan olmur. Etimadın inkişafını dəstəkləmək üçün yalnız uşağın nailiyyətlərini tanımaq kifayət deyil və daha vacib olan uşağın səylərini tanımaq və mükafatlandırmaqdır. Uşaqlar müsbət davranışlarına görə valideynlərindən diqqət aldıqları üçün həm özünə inamlarını inkişaf etdirir, həmdə istədikləri davranışı nümayiş etdirməyə davam edirlər. Etibar və sərişt əlilik duyğusunun inkişafı üçün uşağın seçim etməsinə şərait yaratmaq, hisslərini ifadə etməsinə kömək etmək, qaydaların səbəblərini və nəticələrini izah etmək və onların şəxsiyyətlərinə hörmət etmək vacibdir. Valideynlər üçün uşağın seçimlərinə nə vaxt hörmət göstərəcəyinə və lazımi sərhədləri və qaydaları nə vaxt tətbiq edəcəyinə qərar vermək çətin ola bilər. Çünki uşaqlarda həyatın ilk illərində eqosentrizm xüsusiyyətləri yaranmış olur. 3 yaşından etibarən onlarda ictimai mənlik formalaşmağa başlayır. Erkən uşaqlıq dövründə hər istədiyi edilən uşağın sonrakı illərdə qaydaları öyrənməsi daha çətin olacaq. Bu səbəbdən valideynlərin kiçik yaşdan etibarən yaşa və inkişaf dövrünə uyğun əsas sərhədləri öyrətmələri vacibdir. Əks təqdirdə, həyatın mərkəzində olmağa alışmış bir uşağın sosial həyata uyğunlaşması çətin ola bilər. Məsələn, evdə bütün istəkləri yerinə yetirildiyi bir uşaq bağçaya başladıqda, istədiyi hər şeyin yerinə yetirilmədiyini və yaşıdları ilə uyğun münasibət qurmaqda problem yaşamaq ehtimalını gördükdə xarici dünyaya qarşı xəyal qırıqlığı və inamsızlıq hissi yarana bilər. Bu səbəbdən uşağın özünə inamını artırmağın yolu istədiyi hər şeyi məhdudiyyətsiz etməklə deyil, uyğun sərhədləri öyrətməklə mümkündür. Valideynlərin övladları üçün hər şeyin ən yaxşısını istəyərkən düşdükləri başqa bir tələ mükəmməllikdir. Xüsusilə inkişaf edən texnoloji və sosial imkanlarla valideynlər övladlarının təhsili üçün bir çox

imkandan istifadə etmək istəyirlər. Bəzən övladlarının uşaqlıqların da edə bilmədikləri bir fəaliyyət haqqında öyrənmələrini istəyirlər, bəzən də uşaqlarının istək və qabiliyyətlərini riskə atmadan yüksək gözləntilər göstərərək uşağa xəbərdar olmadan təzyiq göstərə bilirlər.

Hər bir insan yaşından asılı olmayaraq ailədən dəstək almaq istəyir. Bu zaman ahəngdar inkişaf baş verir. Bəzən elə cəhətlər olur ki, uşağın inkişafını ləngidir. Həddindən artıq qəyyumluq və ya laqeydlik, uşağın ehtiyaclarına məhəl qoymamaq, valideynlərin davranışında tutarlılığın olmaması, tələblərin olduqca çox olması, həddindən artıq qadağa və ya icazə uşağın inkişafına mənfi təsir edir. Bununla yanaşı, ailədə uşaq ilə ünsiyyət tərzi onun inkişafına təsir edir. Valideynlər çox sərt və tələbkardırsa uşaq tez-tez öyrənmək istəmir, uğursuzluqlardan narahat olur. Bu cür uşaqlar tərif və tənqidə qarşı həssasdırlar. Əgər uşaq təhqirə məruz qalırsa o, cəza qorxusu ilə yaşayır və özünü müdafiə etmə qabiliyyətini itirir. Bəzi valideynlər də var ki, uşaqlarını özlərinin keçmişdə etmək istəyibdə edəbilmədiyi sahələrə yönəltmək istəyirlər. Bunu da unutmaq olmaz ki, kiçik yaşlarda təzyiq altında edilən hər bir şey zaman keçdikcə yaddan çıxır. Uşaqları öz bacarıqlarını gizlətmək məcburiyyətində qoymamalıyıq. "Uşaq Hüquqları Konvensiyası"nda qeyd edilir: "Uşaq öz baxışlarını azad ifadə etmək hüququna malikdir, özü də həmin uşaqla bağlı hər hansı məsələlərin həlli zamanı bu baxışlara diqqət yetirilməlidir... Uşaq öz rəylərini ifadə etmək və sərhədlərdən asılı olmayaraq, informasiya almaq, informasiya və ideyalar vermək hüququna malikdir" [2].

Ədəbiyyat

1. N.Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1989.
2. Uşaq Hüquqları Konvensiyası. Bakı: 1998.

Uşağın təhlükəsizliyinin təmin edilməsi üçün ailənin dəstəyi

XÜLASƏ

Ailə övladın ilk tərbiyəçisidir. Uşağın təhlükəsizliyi üçün ilk növbədə, düzgün tərbiyə edilməlidir. Bir insana xoşbəxt olmağı öyrətmək qeyri-mümkündür, ancaq onu xoşbəxt olması üçün tərbiyə etmək olar. Bizim gələciyimiz olan uşaqların xoşbəxtliyi üçün onları düzgün tərbiyə etməli, həm psixoloji, həm də pedaqoji cəhətdən dəstək olmalıyıq.

Поддержка семьи для обеспечения безопасностир ебенка

РЕЗЮМЕ

Семья является первым попечителем ребенка. Для безопасности ребенка, преждевсего, его нужно правильно воспитывать. Невозможно научить человека быть счастливым, но можно научить его быть счастливым. Для счастья наших будущих детей мы должны правильно их воспитывать и поддерживать как психологически, так и педагогически.

Family support to ensure the safety of the child

SUMMARY

The family is the child's first caregiver. For the safety of the child, first of all, it must be brought up properly. It is impossible to teach a person to be happy, but it is possible to teach him to be happy. For the happiness of our future children, we must bring them up properly and support them both psychologically and pedagogically.

Məhəmmədli Nərmin
ADPU-nun magistrantı
Elmi rəhbər: p.ü.e.d.,prof M.İlyasov

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNDƏTƏRBİYƏÇİ-MÜƏLLİMİN ROLU

Açar sözlər: *məktəbəqədər, uşaq, yaş,tərbiyyə, müəllim*
Ключевые слова: *дошкольный, дети, воэраст, воспитание, учитель*

Key words: *preschool, child, age, upbringing, teacher*

Uşaqların tərbiyəsinin qarşısında duran başlıca məqsəd – dərin və hərtərəfli biliyə, mütərəqqi dünyagörüşə, milli və ümumbəşəri əxlaqa, mənəviyyata və mədəni dəyərlərə yiyələnən şəxsiyyət formalaşdırmaq və cəmiyyətimiz üçün layiqli vətəndaşlar yetişdirməkdir. Məktəbəqədər yaşlı uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm və zəruridir. Bu, vətənə və təbiətə məhəbbət tərbiyəsidir, doğma vətəninəbağlılıq tərbiyəsidir. Ana dilində, mənsub olduğu xalqa vurğunluq tərbiyəsidir. Dilini, xalqını, soydaşlarını, həmvətənlərini sevmək tərbiyəsidir. Respublika konstitusiyasına, onun bayrağına, gerbinə, himninə hüsn – rəğbət tərbiyəsidir. Eyni zamanda mənsub olduğu xalqla, onun nailiyyətləri ilə, tarixi ilə, mədəniyyəti vəmilli-mənəvi dəyərləri ilə fəxr etmək tərbiyəsidir. Vətən torpaqlarının azadlığı, qorunması naminə mübarizlik tərbiyəsidir. Vətənin çiçəklənməsi naminə fədakarlıq göstərmək – yaxşı oxumaq, elmlərin əsaslarına dərindən yiyələnmək, üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmək tərbiyəsidir. Buna görə də kiçik yaşlı uşaqlarda insanpərvərlik və təbiətə məhəbbət keyfiyyətlərinin formalaşdırılması müasir dövrdəhəmişəkindən daha çox aktuallıq kəsb edir və onun hərtərəfli tətbiqinə ehtiyac hiss olunur.

Kiçik yaşlı balacalar diqqətlərinin qeyri-sabitliyi, əhval-ruhiyyələrinin dəyişgənliyi, tez yorulmaları ilə fərqlənirlər. Tərbiyəçi hər an onların qayğısına qalmalı, tapşırıqları müəyyən edilmiş normada verməlidir. Yaxşı, gümrah əhval-ruhiyyə, təbəssüm, şən və sevinc bəxş edən baxış kiçik yaşlı balacaların mənəvi aləminin formalaşmasında mühüm rol oynayır. Tərbiyəçinin səmimiliyi, uşaq təfəkkürünün konkretliyi, fərdi xüsusiyyətlərini nəzərə ala bilməsi balacaların gələcəkdə bir şəxsiyyət kimi formalaşmasına, əxlaqi keyfiyyətlərinin inkişafına böyük təsir edir. Vətənə məhəbbətin, milli mənlik şüurunun, vətəndaşlıq ləyaqəti və s. kimi müsbət əxlaqi keyfiyyətlərin ilk rüşeymləri məhz bağçada təşəkkül tapmağa başlayır. Təlim-tərbiyəprosesində tərbiyəçi-müəllimlə uşaqlar arasında çox mürəkkəb münasibətlər, qarşılıqlı əlaqələr sistemi formalaşır. Tərbiyəçi-müəllim kiçik yaşlı balacaların nəzərində müqəddəs, ülvi bir varlıq kimi canlanır. Balacafidanlar tərbiyəçi-müəllimdə böyükləri görür, özünü, yoldaşlarını axtarırlar.

Hər bir uşaq bir fərd – təkraredilməzdir, onun öz aləmi var. Ona görə də tərbiyəçi-müəllim hər bir uşağa sevinc bəxş etməyi, onun kövrək mənəvi aləminin ilk guşə daşlarını böyük ustalıqla, ehtiyatla qoymağı bacarmaladır. Kiçik yaşlı uşaqlar təbiət və cəmiyyət hadisələrinə böyük maraqla yanaşır, onların sirlərini öyrənməyə can atırlar.Yaşlı adamların əməyi, həyatı onları özünə cəlb edir. Onlar çətinlik çəkmədən ata və analarının harada, nə kimi işdə işlədiklərini bilirlər. Məktəbəqəbər yaşlı uşaqlar dünyaya tərbiyəçinin gözü ilə baxır, onun kimi hərəkət edir, onu təqlid edirlər. Onların əxlaqi keyfiyyətləri tərbiyəçi şəxsiyyətinin, tərbiyəçinin sözü ilə hərəkətinin təsiri altında formalaşır. Onlar tərbiyəçi-müəllimin təlim materiallarını necə başa salmasına, adamların necə danışmasına, özünü və yoldaşlarının cavablarının necə qiymətləndirilməsinə, əməkdə necə iştirak etməsinə xüsusi əhəmiyyət verirlər. Çünki müəllim uşaqların əqlini elm ümmanına, gözlərini mənəviyyat dünyasına açan ilk tərbiyəçidir. Elmin ilk ünsürləri, elmi, əxlaqi-etik anlayışlar haqqında ilk elmi və geniş məlumatları müəllim-tərbiyəçi verir. Əlbəttə, yaxşı, işguzar, ləyaqətli tərbiyəçilər çoxdur.

Lakin öz ləyaqətini qiymətləndirməyən, xaraktercə kövrək, mənəviyyatca zərif olan uşaqların mənəvi dünyasına mənfi təsir edən, onların qəlbini yaralayan tərbiyəçilər də var. Belələri uşaqları uşaq hesab edərək öz davranış və hərəkətlərinə, danışıq və başqa adamlara münasibətlərinə əhəmiyyət verməyərək yeri gəldi-gəlmədi danışır, ən incə alət olan qeyri-normal sözlər, münasibətlərlə uşaq qəlbini yaralayırlar. Belə uşaqlar addım-addım, günbəgün böyüyür, bir şəxsiyyət kimi formalaşır, yeniyetmə sonra isə gənc olurlar. Lakin müəllimlərinin onun qəlbinə vurduğu yara sağalmır. Tərbiyəçi-müəllimin fəaliyyətinin nəticələri birinci növbədə uşaqların sağlamlığının möhkəmliyi, ideya və əxlaqi keyfiyyətlərinin inkişafı, onların həyata və əməyə hazırlığı ilə müəyyən edilməlidir. Uşaq yaşa dolduqca tərbiyə işində tərbiyəçi şəxsiyyətinin ləyaqəti və mədəniyyətinin mühüm rol oynadığını, əqidənin əqidə ilə

yaradıldığını dərk edir. Uşaq anlayır ki, mənəvi ideyası, mənəvi əqidəsi, əxlaqi-etik biliyi olmayan adamın tərbiyəçi-müəllim işləməsi dözülməzdir. Tərbiyəçilərimizin bir çoxunda uşaqların təlim-tərbiyəsinə qarşı laqeyidliyi balacalar dərhal sezirlər.

Sosial həyat hadisələrinin müşahidəsi və məktəbəqədər müəssisədəki məsələlərə dair biliklərin bəzən bir-birinə zidd olması da uşaqların tərbiyəsi işinə mənfi təsir edir. Uşaq ədalətli olmağı, həqiqəti qorumağı və müdafiə etməyi öyrənir. Lakin birdən-birə onun gözləri qarşısında ədalət-ədalətsizliyə, həqiqət yalana çevrilir. Nəticədə uşaq psixoloji sarsıntı keçirir. Təlim-tərbiyə işində sözlə əməli işin vəhdətinin pozulması tərbiyə işinə ciddi zərər vurur. Buna görə də bağça yaşlı uşaqlarla aparılan tərbiyə işində verilmiş vədin yerinə yetirilməsinə xüsusi nəzarət edilməlidir. Lakin çox vaxt tərbiyəçi uşaqlara verdikləri vədi yerinə yetirmir, bununla da onların doğruçuluq, düzlük kimi əxlaqi keyfiyyətlərinin inkişafına mənfi təsir etmiş olurlar. Nəticədə verilmiş vəd vəd olaraq qalır, düz söz tərbiyə vasitəsi olmaq imkanını itirir. Tərbiyə fasiləsiz, uzun sürən prosesdir. Tərbiyə proseesi tərbiyəçilərin tərbiyə olunanlara fasiləsiz, sistematik ardıcıl təsiri prosesidir. Burada məqsədli iş sistemi qurulur. Tərbiyə işi insanın bütün həyatı boyu davam edir, nəticəsi gec görünən və insanın əməllərində özünü göstərən bir prosesdir.

Göründüyü kimi, tərbiyə prosesində iki fəal tərəf iştirak edir. Onlardan biri tərbiyəçi, digəri isə tərbiyə olunandır. Hər ikisi fəaldır. Ancaq daha fəal olanı tərbiyəçidir. Məhz o, uşağı bəsləyib yetişdirir, ona təsir göstərir, onda yeni keyfiyyətlər, nəcib əxlaqi sifətlər yaradır, zehni və fiziki qabiliyyətləri təşəkkül etdirib möhkəmləndirir, uşağın fəal şəxsi mövqeyini təmin edir. Bu prosesdə tərbiyəçinin özünün də şəxsiyyəti inkişaf edir, formalaşır.Beləliklə, tərbiyə prosesi tərbiyəçi ilə tərbiyə olunan arasında yaradıcılıq əməkdaşlığı şəraitində həyata keçirilən ikitərəfli qarşılıqlı fəaliyyət prosesidir. Bu elə bir prosesdir ki, həmin prosesdə bir tərəfdən uşaq tarix boyu qazanılmış təcrübə və bilik sərvətləri ilə silahlanır, inkişaf edir, tərbiyəçinin bilavasitə göstərdiyi pedaqoji rəhbərliklə özünün fəallığı zəminində həyata düzgün münasibət bəsləyir, öz həyat yolunu təyin etmək mədəniyyətinə, zehni, əxlaqı, iqtisadi, siyasi, hüquqi, ekoloji, bədii və fiziki mədəniyyətə, faydalı adətlərə və davranış qaydalarına yiyələnir, digər tərəfdən tərbiyəçi özü kamilləşir, inkişaf edir. Deməli, tərbiyə şəxsiyyətin məqsədyönlü formalaşması və inkişafı prosesidir.

Məqsədyönlü formalaşma və inkişaf tərbiyənin əsas mahiyyətini təşkil edir. Tərbiyənin mahiyyəti - şəxsiyyəti yüksək insani keyfiyyətlərlə tərbiyələndirmək, onda nəcib əxlaqi, mənəvi keyfiyyətlər aşılamaq, əməyə, həyata hazırlamaq, estetik və fiziki mədəniyyət, ailə münasibətləri mədəniyyəti formalaşdırmaq, cəmiyyətdə düzgün davranış normalarına istiqamətləndirmək, milli və bəşəri dəyərləri mənimsətmək və bütün bunların tərbiyə olunanın intellektual, emosional, daxili aləmindən keçirib onun xarakter əlamətlərinə çevirməkdir. Tərbiyə prosesi çoxçalarlı, dinamik və dəyişkən prosesdir. Bu prosesdə bir tərəfdən sosial-psixoloji, digər tərəfdən pedaqoji əlaqə və asılılıqlar özünü göstərir. Bu əlaqə və asılılıqlar bir-biri ilə sıx surətdə bağlıdır. Onları nəzərə almadan tərbiyə prosesini düzgün təşkil etmək olmaz. Sosial əlaqə və asılılıqlar dedikdə, tərbiyə prosesinin gedişində şagirdlərin ictimai sərvətləri mənimsəməsi zamanı özünü göstərən əlaqələr və asılılıqlar nəzərdə tutulur.Pedaqoji əlaqə və asılılıqlar uşağı əhatə edən mühit və tərbiyə qüvvələri tərəfindən göstərilən təsirlərlə bağlı olan əlaqə və asılılıqlardır.

Cəmiyyətdə, təhsil sistemində əsas sima müəllim və tərbiyəçidir. Kadr siyasətində hərtərəfli demokratiyaya əməl olunmalı, rəhbər işçilər seçki yolu ilə seçilməli, onlar vaxtaşırı valideynlər və ictimaiyyət qarşısında hesabat verməlidirlər. Tərbiyəçilərin əməyini qiymətləndirərkən valideyn və uşaqların rəyi nəzərə alınmaqla pedaqoji kollektivə ictimai təşkilatlara maksimum müstəqillik verilməlidir. Özünü istər təşkilati, istərsə də elmi cəhətdən xalq maarifi sisteminin bütün həlqələrini – uşaq bağçası, məktəb,litseylər, texnikum və ali məktəbləri əhatə edən birliklərin yaradılmasını alqışlamaq lazımdır. Məktəbəqəbər yaşlı uşaqlar dünyaya tərbiyəçinin gözü ilə baxır, onun kimi hərəkət edir, onu təqlid edirlər. Onların əxlaqi keyfiyyətləri tərbiyəçi şəxsiyyətinin, tərbiyəçinin sözü ilə hərəkətinin təsiri altında formalaşır. Müəllim-tərbiyəçi uşaqların əqlini elm ümmanına, gözlərini mənəviyyat dünyasına açan ilk tərbiyəçidir. Elmin ilk ünsürləri, elmi, əxlaqi-etik

anlayışlar haqqında ilk elmi və geniş məlumatları müəllim-tərbiyəçi verir. Əlbəttə, yaxşı, işguzar, ləyaqətli tərbiyəçilər çoxdur. Tərbiyəçi-müəllimin fəaliyyətinin nəticələri birinci növbədə uşaqların sağlamlığının möhkəmliyi, ideya və əxlaqi keyfiyyətlərinin inkişafı, onların həyata və əməyə hazırlığı ilə müəyyən edilməlidir. Uşaq yaşa dolduqca tərbiyə işində tərbiyəçi şəxsiyyətinin ləyaqəti və mədəniyyətinin mühüm rol oynadığını, əqidənin əqidə ilə yaradıldığını dərk edir. Uşaq anlayır ki, mənəvi ideyası, mənəvi əqidəsi, əxlaqi-etik biliyi olmayan adamın tərbiyəçi-müəllim işləməsi dözülməzdir. Tərbiyəçilərimizin bir çoxunda uşaqların təlim-tərbiyəsinə qarşı laqeyidliyi balacalar dərhal sezirlər.

Ədəbiyyat

1.Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramının (2007-2010-cu illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 12 aprel 2007-ci il.«Azərbaycan müəllimi» qəzeti 13 aprel 2007-ci il

2.Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007

Kərimzadə Ziba İlham qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

NİTQİN PSİXOLİNQVİSTIK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *nitq, inkişaf, söz,psixolinqvistika*
Ключевые слова: *речь, развитие, слово,психолингвистика*
Key words: *speech, development, word, psycholinguistics*

Nitqin insan həyatında və fəaliyyətində əvəzsiz rolu vardır. Nitq insana məxsus ali psixi funksiyadır. Nitq şifahi və ya yazılı formada təzahür edən dərketmə və təfəkkürün ifadə vasitəsidir.

Nitqin və ya sözün forması, onun linqvistik və psixoloji tərəfləri dərketmə prosesində mühüm rol oynayır. Nitqi təşkil edən komponentlər vahid şəkildə gerçəkliyin dərk edilməsi və onunla bağlı intellektual obrazların yaranmasına təkan verir. Nitq prosesində istifadə olunan elementlər: məntiqi vurğu, intonasiya, sintaktik söz sırası, üslubi məqamlar danışanın ifadə etdiyi fikrin çatdırılmasının aydınlığına, tamamlanmasına və düzgün dərk edilməsinə xidmət edir. Danışanın tələffüz etdiyi hər bir hərf, heca, söz və ya cümlə vizual vokal dərketmə vasitəsi ilə hafizəyə daxil olub bir intellekt obrazı yaradır. Nitqin semantik quruluşu danışanın psixoloji vəziyyətini, emosiyalarını,ünsiyyət bacarığını,həmsöhbətinə münasibətini və digər şəxsiyyət keyfiyyətlərini göstərməsi ilə xarakterizə edilir. Estetik (üslubi) və etik (normativ) qiymətləndirmə nitqin əsas xarakterloji xüsusiyyətlərindən biridir.

V.Humboldun fikrinə görə nitq, fərdin düşüncələrini və hisslərinin ifadəsi üçün söz və cümlə quruluşunu seçməsi ilə təzahür edilir; linqvistik nominasiyaları müəyyən bir reallıq obyektlərinə yönəldir, onlara məna verir. (1)

XX əsrin əvvəllərində nitq funksiyası beyində xüsusi "təcrid olunmuş nitq mərkəzlərinin" mövcudluğu ilə əlaqəli olan nöqteyi-nəzər geniş yayılmışdı. İ.P.Pavlov beyin qabığının nitq funksiyalarının lokallaşmasının çox mürəkkəb deyil, həm də dəyişkən olduğunu sübut edərək bu baxışa yeni bir istiqamət verdi.

Nitqin təşkili və nitqin pozulmaları baş beyindəki nitq mərkəzləri və onlarla bağlı şöbələrinin anatomik-fizioloji zədələnmələrinin fərqli lokallaşması ilə bağlı özünü göstərir. Hər yarımkürə nitq fəaliyyətinin istiqamətlərində öz strategiyasını təmin edir.(2) Sol yarımkürə daxil olan məlumatların mücərrəd-məntiqi təhlilindən (sözlərin idrak və təsnifatı, söz formalaşması, bir ifadənin sintaktik quruluşu) cavabdehdir. Sol yarımkürənin fəaliyyətinin spesifikliyi ümumiləşdirmək, mücərrəd anlayışları ifadə etmək qabiliyyətindədir, formal qrammatik vasitələrin bolluğu ilə müəyyən edilir. Sağ yarımkürə nitqin emosional-məcazi hissəsini təyin edir. Sağ yarımkürə nitqin obrazını və konkretliyini təyin edir.

İ.P.Pavlovun təcrübələri göstərdi ki, ikinci siqnal sistemi hər şeydən əvvəl birinci siqnal sisteminə həmişə mənfi induksiya göstərir. Sözün, nitqin, ümumiyyətlə, bütövlükdə ikinci

siqnal sistemi beyin aparatının fəaliyyətini başa düşmək imkanı yaradır.İnsan beyninin nitq mərkəzi yerləşən alın hissəsi mürəkkəb məqsədəyönlü aktların icrasını idarə edir. Belə aktlar verbal və mücərrəd anlayışların işlədilməsi ilə əlaqədar müəyyən uzunmüddətli məqsədlərin mühafizəsini tələb edir.

Xüsusi nitq zonaları ilə fəaliyyətdə olan beynin bütün şöbələri arasındakı əlaqə əsas etibarilə beynin alın bölməsində cəmlənmişdir. Beyin bölməsinin kütlə halında zədələnməsi (şiş olması, yaralanması,qan dövranı və s.) zamanı insan nitq qabiliyyətini itirmir, lakin onun davranışı eksperimentorun sözlə verdiyi təlimata tabe olmur.

Funksional nitq sistemi beynin bir çox beyin quruluşunun fəaliyyətinə əsaslanır və hər biri nitq fəaliyyətinin xüsusi təyin olunmuş bir əməliyyatını həyata keçirir.

A.R.Luriya beynin fəaliyyətindəki 3 funksional bloku müəyyənləşdirir. Birinci blok subkortikal formasiyaları əhatə edir. Korteksin normal tonunu və oyaqlığını təmin edir. İkinci blok, arxa beyin yarımkürələrinin korteksini əhatə edir, xarici aləmdən alınan sensor məlumatları alır, işləyir və saxlayır, idrak (qnostik) prosesləri həyata keçirən əsas beyin aparatıdır. Quruluşunda birincil, ikincil və üçüncül zonalar seçilir. Birincil zonalar, neyronları son dərəcə spesifik olan qabığın proyeksiya zonalarıdır. Hissi məlumatları müəyyən hisslərdən alır.

Korteksin əsas zonalarının aparatlarının üstündə, birincil zonaların aldığı həyəcanları təhlil edən ikincil zonalar qurulur. İkincili zonalar, birincil zonalar kimi, öz xüsusi modallığını qoruyur (görmə, eşitmə və digər zonalar). Birincil və ikincil zonalar bu və ya digər analizatorun kortikal hissəsini təmsil edir (görmə, eşitmə və s.).

Üçüncül zonalar analizatorların kortikal hissələrinin üst-üstə düşmə zonalarıdır, analiz, sintez, müxtəlif üsullarla alınan sensor məlumatların inteqrasiyası funksiyasını yerinə yetirirlər. Fəaliyyətləri əsasında səviyyədən sözlərin mənaları, mürəkkəb məntiqi və qrammatik quruluşlarla işləməyə keçid mövcuddur.

Üçüncü blok yarımkürələrin (motor, ön motor və prefrontal sahələr) ön hissələrinin korteksini əhatə edir, insan davranışının proqramlaşdırılmasını, tənzimlənməsini və idarə olunmasını təmin edir, subkortikal formasyonların fəaliyyətini tənzimləyir, bütün sistemin tonunu və ayıqlığını müəyyən edilmiş fəaliyyət tapşırıqlarına uyğun olaraq tənzimləyir. Nitq fəaliyyəti bütün blokların birgə işi ilə həyata keçirilir. Eyni zamanda, hər blok nitq prosesində müəyyən, xüsusi bir hissə alır.

Beləliklə də, beyin sahələrinin öz funksiyasını yerinə yetirməməsi nitq fəaliyyətinin kompleks quruluşunu pozur. A.R.Luriyanın əsərləri fərqli lokalizasiyada özünü göstərdi. Pozulmaların təbiəti beynin hansı quruluşunun zədələnməsindən asılıdır. Müasir fikirlərə görə, nitq sistemli bir prosesdir, beynin müxtəlif sahələrinin iştirakı ilə meydana gəlir.

Ədəbiyyat

1) Гумбольдт В. Избранные труды по языкознанию, М., 1984, с. 61.

2) Чиркина Г.В. Основы логопедии : учеб. пособие для студентов пед. ин-тов по спец. "Педагогика и психология (дошк.)" / Т.Б.Филичева, Н.А.Чевелева, Г.В.Чиркина. - М.: Просвещение,1989 с.168

3) Казанский Федеральный Университет Купцова А.М., Хабибрахманов И.И., Зиятдинова Н.И., Зефиров Т.Л.Физиология речи. Учебно-методическое пособие- Казань 2019,с.81

4) Зимняя И.А. Лингвопсихология речевой деятельности. — М., 2008,с.235

5) Логопедия: Учебник для студентов дефектол. фак. пед. вузов / Под ред. Л.С.Волковой, С.Н.Шаховской- *М.: Гуманит. изд. центр ВЛАДОС,с. 1998. с.385*

XÜLASƏ

Nitq fəaliyyəti nitqin formalaşması proseslərini və mexanizmlərini, nitq pozulmalarının meydana gəlməsini,insanın digər sosial fəaliyyət növlərinə münasibətini öyrənən sosial və

psixolinqvistik tədqiqatlar üçün xarakterikdir.Nitqin və ya sözün forması, onun linqvistik və psixoloji tərəfləri dərketmə prosesində mühüm rol oynayır Nitqyaratma prosesi fikrin nitqə çevrilməsi deməkdir vəburada fikrin əmələ gəlməsinə, formalara (sözlərə) çevrilməsinə, ifadəsinə (istifadəsinə) xidmət edən bir çox təfəkkür aktları icra olunur.

Керимзаде Зиба

Психолингвистические особенности речи

РЕЗЮМЕ

Речевая деятельность характерна для социальных и психолингвистических исследований, изучающих процессы и механизмы формирования речи, возникновение речевых нарушений, отношение человека к другим видам социальной деятельности. Форма речи или слова, ее лингвистические и психологические аспекты играют важную роль в процессе понимания.Процесс создания речи означает преобразование мысли в речь, и здесь совершаются многие акты мышления, которые служат формированию мысли, ее преобразованию в формы (слова), ее выражению (использованию).

Psycholinguistic features of speech

SUMMARY

Speech activity is characteristic of social and psycholinguistic research that studies the processes and mechanisms of speech formation, the occurrence of speech disorders, humanattitudes to other types of social activities. The form of speech or speech, its linguistic and psychological aspects play an important role in the process of perception.The process of speech formation means the transformation of thought into speech, and many acts of thinking arey performed here, which serve the formation of thought, its transformation into forms (words), and its expression (use).

Mustafayeva Qəndab Asif qızı

ADPU, Korreksiyaedici təlimin metodikası və metodologiyası, II kurs magistrant

DİSLALİYANI KORREKSİYA ETMƏK ÜÇÜN LOQOPEDİK İŞİN MƏQSƏDİ, VƏZİFƏLƏRİ VƏ TƏSİR PRİNSİPLƏRİ

Açar sözlər: *məktəbəqədər yaş dövrü,loqopedik iş,differensial diaqnostika, dislaliya, məktəbəqədər təhsil, korreksiya pedaqogikası*

Ключевые слова: *дошкольный возраст, логопед, дифференциальный диагноз, дислалия, дошкольное образование, коррекционная педагогика*

Key words:*preschool speech,differential diagnostics, dyslalia, preschool education, correctional pedagogy*

Loqopediya işinin məqsədi: nitq səslərinin düzgün tələffüz edilməsi üzrə bacarıq və vərdişlərin formalaşdırılmasıdır, vəzifələri isə aşağıdakı kimi müəyyənləşir:

1. Səslərin düzgün qavrayışı və ifadə olunması üçün nitq-eşitmə və nitq-motor analizatorlarını hazırlanması.
2. Tələb olunan artikulyasiya quruluşunu formalaşdırılması.
3.Xüsusi seçilmiş nitq materialında əsas tələffüz bacarıqlarının formalaşdırılması.
4. Uşaqda öz nitqində xüsusi seçilmiş nitq materialında verilən səslə əvvəlki əvəzedicini fərqləndirmə qabiliyyətini inkişaf etdirmək.
5. Formalaşmış nitq bacarıqlarını və vərdişlərini müxtəlif ünsiyyət şəraitində möhkəmləndirmək.

Loqopedik işin prinsipləri, loqopedin və uşaqların nitq pozulmalarının korreksiyası prosesindəki fəaliyyətini təyin edən ümumi başlanğıc nöqtələridir.Korreksiyaedici təlimin təşkili prosesində ümumi didaktik prinsiplərə böyük əhəmiyyət verilir: təlimin xarakteri, elmi mahiyyəti, sistemlilik və ardıcıllıq, əlçatanlıq, görünürlük, şüur və fəaliyyət, güc və fərdi yanaşma.

Loqopedik işdə xüsusi prinsiplərə əsaslanır:

Etiopatogenetiklik prinsipi. Nitq pozulmalarını aradan qaldırarkən onların meydana gəlməsini müəyyən edən etioloji amillərin hamısını nəzərə almaq lazımdır, bunlar xarici, daxili, bioloji və sosial-psixoloji amillərdir.

Sistemli yanaşma prinsipi. Loqopedik işdə qüsurun quruluşunu nəzərə almaq, aparıcı pozulmanı, birincil və ikincili simptomların nisbətini müəyyənləşdirmək lazımdır.

Diferensial yanaşma prinsipi. Müxtəlif növ nitq pozulmalarının aradan qaldırmaq üzrə loqopedik iş sistemi onu müəyyənləşdirən bir çox amil nəzərə alınmaqla diferensial xarakter daşıyır. Diferensial yanaşma pozulmanın etiologiyası, mexanizmləri, simptomları, nitq qüsurunun quruluşu, uşağın fərdi xüsusiyyətlərini nəzərə alınmaqla aparılır.Nitq pozulmalarının korreksiysıa prosesində anomal uşaqların ümumi və spesifik inkişaf qanunauyğunluqları nəzərə alınır.Loqopedik iş prosesində nitqin inkişaf səviyyəsini, idrak fəaliyyətini, xüsusən uşağın duyğu sferasını və motor bacarıqlarını nəzərə almaq lazımdır.

Mərhələllilik prinsipi. Loqopedik iş müxtəlif mərhələlərə ayrılan məqsədyönlü, mürəkkəb təşkil olunan bir prosesdir. Hər biri öz məqsədləri, hədəfləri, korreksiya metod və üsulları ilə xarakterizə olunur. Məsələn, dislaliyanın aradan qaldırılması üçün iş aşağıdakıları əhatə edir: mərhələlər: səslərin qurulması, avtomatlaşdırılması, diferensallaşdırılması.

İnkişaf prinsipi. Loqopedik təsir zamanı şəxsiyyətin inkişafını gözdən qaçırmaq olmaz.

Ontogenetiklik prinsipi.Düzgün nitq vərdişlərinin, nitq formalarının və funksiyalarının formalaşması da ontogenezdə həyata keçirilir: sadədən mürəkkəbə, konkretdən daha mücərrədə, məhsuldardan qeyri-məhsuldar formalara.

Şəxsi xüsusiyyətləri nəzərə alma prinsipi.Baş beynin pozulması (alaliya, afaziya, kəkələmə, dizartriya) ilə əlaqəli nitq pozulmalarının korreksiyasında şəxsi xüsusiyyətlərin nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Bu vəziyyətdə, pozulmanın simptomatikasında beynin üzvi zədələnməsinə əsaslanan həm ilkin,həmdə ikinci təbəqələşmə xarakteri daşıyan şəxsiyyət formalaşmasının bariz xüsusiyyətləri qeyd olunur.

Fəaliyyət yanaşması prinsipi. (Nitq pozulmalarının korreksiyasi aparıcı fəaliyyət nəzərə alınmaqla aparılır.) Məktəb yaşında, aparıcı fəaliyyət bu yaşdakı uşaqlarda nitq pozulmalarının aradan qaldırılmasında korreksiya və loqopedik işin əsasını təşkil edən təlim fəaliyyətidir.

Təbii nitq ünsiyyəti kontekstində nitq bacarıqlarının formalaşdırılması prinsipi. Təbii nitq ünsiyyəti şəraitində düzgün nitq bacarıqlarını formalaşdırmaq üçün loqopedin, müəllimin,tərbiyəçinin,ailənin işində sıx əlaqə qurmaq lazımdır.

Loqoped müəllimləri, valideynləri uşağın nitq pozulmalarınn xarakteri, vəzifələri, iş metodları və üsulları barədə məlumatlandırır, yalnız loqopedik kabinetində deyil, məşğələlərdə də, müəllimlərin və valideynlərin nəzarəti altında dərsdənkənar vaxtlarda düzgün danışıq bacarıqlarını möhkəmləndirməyə çalışır.

Ədəbiyyat

1. Седов К.Ф. Онтопсихолингвистика. Становление коммуникативной компетенции человека /К.Ф.Седов. -М.: Лабиринт, 2008.

2. Тенкачева Т.Р. Онтогенез формирования грамматической стороны речи у дошкольников/Т.Р.Тенкачева // Специальное образование: науч.-метод. журн. 2013.

3. Хватцев М.Е. Логопедия. Книга для преподавателей и студентов высших педагогических учебных заведений. В двух книгах. Книга 2.- М.: Издатель: ВЛАДОС, 2009.

4. Шашкина Г.Р. Логопедическая работа с дошкольниками: учеб.пособие для студ. высш. пед. учеб. заведений / Г.Р.Шашкина, Л.П.Зернова, И.А.Зимина. М.: Академия, 2003.

Dislaliyanı korreksiya etmək üçün loqopedik işin məqsədi, vəzifələri və təsir prinsipləri

XÜLASƏ

Loqopedik işin prinsipləri, loqopedin və uşaqların nitq pozulmalarının korreksiyası prosesindəki fəaliyyətini təyin edən ümumi başlanğıc nöqtələridir.Korreksiyaedici təlimin

təşkili prosesində ümumi didaktik prinsiplərə böyük əhəmiyyət verilir: təlimin xarakteri, elmi mahiyyəti, sistemlilik və ardıcıllıq, əlçatanlıq, görünürlük, şüur və fəaliyyət, güc və fərdi yanaşma.

Цель, задачи и принципы воздействия логопеда на коррекцию дислалии

РЕЗЮМЕ

Принципы логопедии - это общие отправные точки, которые определяют роль логопедов и детей в процессе исправления речевых нарушений. В процессе организации коррекционной подготовки большое значение придается общедидактическим принципам: характеру, научности, систематичности и последовательности обучения, доступности, наглядности, осознанности и действию, силе и индивидуальному подходу.

The purpose, tasks and principles of influence of speech therapy for the correction of dyslalia

SUMMARY

The principles of speech therapy are the common starting points that determine the role of speech therapists and children in the process of correcting speech disorders. In the process of organizing correctional training, great importance is attached to general didactic principles: the nature, scientific nature, systematization and consistency of the training, accessibility, visibility, consciousness and action, strength and individual approach.

Mustafayeva Qəndab Asif qızı
ADPU, Korreksiyaedici təlimin metodikası və metodologiyası, II kurs magistrant

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA NİTQİN QRAMMATİK QURULUŞUNUN ONTOGENEZDƏ FORMALAŞMASI

Açar sözlər: *məktəbəqədər yaş dövrü, məktəbəqədər təhsil, dislaliya, korreksiya pedaqogikası,ontogenez*

Ключевые слова: *дошкольный возраст, дошкольное образование, дислалия, коррекционная педагогика, онтогенез*

Key words: *preschool speech, preschool education, dyslalia, correctional pedagogy, ontogeny*

Həyatın ilk ilində uşaqda nitqinin inkişafı. İlk ay bir çox tədqiqatçı yeni doğulmuş körpələrdə səslərə qarşı həssaslığı aşağıdakı reaksiyalar kimi qeyd etmişdir: ümumi hərəki fəaliyyətində dəyişikliklər, alnın qırışması, göz qapaqlarının hərəkətləri, çırpınmaq, tənəffüs ritmindəki və nisbətindəki dəyişikliklər, gözləri və başı səs mənbəyinə tərəf çevirməsi,qida (süd) hərəkətlərinin tormozlanması.2-ci həftədə körpə döşdən ayrılır, ananın səsini dinləyir, ağlamağı dayandıra bilər. Uşaq mahnı ilə sakitləşə bilər. Həyatın 3-4-cü həftəsində eşitmə konsentrasiyası yalnız nisbətən güclü səslə deyil, həm də yaşlının nitqinin təsiri ilə əldə edilə bilər. Səsə reaksiya bir qədər yavaş olur. Ananın səsini tanımağa başlayır – ona digər səslərdən daha çox reaksiya verir.

İkinci ay. Təxminən bir yarım aylıqdan başlayaraq körpə qığıldamağa (zümzüməyə) – böyüklərin dilində olmayan sait səsləri tələffüz etməyə başlayır. İnkişaf zamanı bu səslər itirilir, əvəzinə sait səsləri gəlir. Zümzümədə aşağıdakı səslər fərqlənir - a, o, u, e; p, m, k, q, x.

Üçüncü ay qığıldama daha müxtəlif yönlü olur, q-q-q, b-u, v-i və s. samitləri görünür. Rəğbətləndirməyə cavab olaraq, uşaq qığıldamanı aktivləşdirir; böyüklər körpə ilə bir araya gələndə bir növ söhbət olur. Uşaq yaşlıların təbəssümünə təbəssümlə, yaşlının nitqinə - səsləri tələffüz etməklə cavab verir. Başını danışana tərəf çevirir, gözləri ilə onu müşayət edir.Körpə

ilə söhbət edilərsə daha uzun müddətə qığıldama davam edə bilər. Onlar yaşlıların tempini, ritmini, danışıq tonunu təqlid yolu ilə qəbul edirlər. Nitqin yüksəkliyinə və intonasiyasına reaksiya verir - gülümsəyə və ağlaya bilərlər.

Yeddinci - səkkiz ay. Bu yaşda nitqin inkişafı yaşlıların səs reaksiyalarına cavablarını təqlid etmək imkanlarının vacibliyi ilə ölçülür. Bu dövrdə babıldama görünməyə başlayır, yəni ayrı-ayrı hecalar tələffüz edilir: ba-ba-ba, bi-bi-bə. Artıq nitqin içərisində olduqca aydın səslər eşitmək mümkün olur. Uşağın nitqində ana dili üçün xarakterik olmayan bütün səslər praktik olaraq təmizlənir. Saitlərdən a səsi daha çox n, b, m, d, t, k kimi samitlərlə birləşərək ifadə olunur. Böyükləri təqlid etmək fürsəti əldə etdikdən sonra, uşaq söylədiyi hecaları təkrarlayır. Babıldama dövrü çox vacibdir, çünki körpə uzun müddət artikulyasiya aparatını fəaliyyətə hazırlayır: həm fiziki, həm də fonematik eşitmə qabiliyyətini öyrənir. Babıldamada razılıq və narazılıq intonasiyaları ortaya çıxır.

Doqquzuncu - onuncu aylar. Uşaq hecaların təkrarlanan zəncirlərini təqlid edə bilir. Bu müddətdə uşağı babıldamaya təşviq etmək çox vacibdir, çünki onsuz intonasiyanı kopyalaya bilər. Körpə səsi ilə ehtiyaclarını və duyğularını ifadə edir. Nitqin anlaşılması yüksəlir. Bu bacarıqın yaranmasında - əsas görmə qavrayışdır. Uşaq və yaşlı arasında ünsiyyət nitqin köməyi ilə qurulmağa başlayır.

On bir - on ikinci aylar. Uşaqlar onlara ünvanlanan nitqi başa düşür, jestlərlə dəstəklənən böyüklərin sadə istəklərini yerinə yetirə bilərlər. Körpənin aktiv nitqində ilk sözlər görünməyə başlayır. Eyni yaşda uşaqların söz ehtiyatı eyni deyil: 2-3 ilə 15-20 söz arasında dəyişir. Sözlərin 80%-i isimlər olsa da, nitqdə fellər də mövcud ola bilər - op - yıxılmaq, am – yemək. Sifətlər, əvəzliklər, zərflər, köməkçi nitq hissələri hələlik nitqdə müşahidə olunmur.

Sözlərin ümumiləşdirilməsi prosesi yaranmağa (dörd dərəcədə) başlayır. Aktiv lüğətdə sözləri olmayan, lakin nitqi kifayət qədər başa düşdüklərini göstərən uşaqlar vardır. İlk sözlər, bir qayda olaraq, tanış sözlərin vurğulu hecalarıdır: "ka" - kaşa, "dü" - su; iki eyni hecadan ibarət sadə iki hecalı sözlər: "mama", "papa", "baba" "nənə" və s. Bu hecalara və ən sadə sözlərə cümlə -sözlər deyilə bilər, çünki dilin qrammatik qaydalarına uyğun birləşmələr içərisində olmasalar da bu söz-cümlələr bütün anlayışları ifadə edirlər.

İkinci ildə uşaqlarda sözlərinin inkişaf səviyyəsi.Uşaqlar sadə süjetli şəkillərdə göstərilən hərəkətləri və obyektləri başa düşürlər. Oxşar obyektlərin adlarının ümumiləşdirici mənasını başa düşürlər. 1,5 yaşına qədər uşağın aktiv söz ehtiyatında təxminən 50 söz, 2 yaşına qədər isə 200-400 söz, əsasən oyun obyektlərini və gündəlik mövzuları ifadə edən isimlər, həmçinin sadə hərəkətləri ifadə edən fellər olur. Nitqdə əmr şəklində bir çox fellər olur. Yaşlıların istəklərini yerinə yetirirlər. Məkan bildirən şəkilçilərin mənasını başa düşürlər. 1,5 ildən sonra suallar verməyə başlayırlar: "Nə deyilir?", "Nədir?"Nitq aqramatikdir. 2-4 sözdən ibarət ifadələr istifadə edilir, indiki zamanın 3-cü şəxs fellərini isimlərlə əlaqələndirirlər, bəzi halların formalarından istifadə edirlər; fellərin birinci şəxsi və "mən" əvəzliyi görünməyə başlayır. Ana dilinin əksər səslərinin səhv tələffüzü (fizioloji qeyri-adilik mərhələsi) xarakterikdir.

Üçüncü ildə uşaqların sözlərinin inkişaf səviyyəsi.Üç yaşlı uşağın iki yaşındakı uşaqla nitqi arasındakı ən vacib fərq, üç yaşlı uşağın nitqində demək olar ki, aqrammatizmlərin olmamasıdır. Cümlədəki sözlərin əlaqəsi əvvəllərdə öyrənilənlərin köməyi ilə qurulur, bağlayıcılar və bütün əsas nitq hissələrindən istifadə olunur. Lüğət yalnız sırf gündəlik mövzularla xarakterizə olunmur, nitqdə qiymətləndirmə və ümumiləşdirmə mənalı sözləri də olur. Səs tələffüzü hələ tamamilə normal deyil. Uşaq kitablara müsbət münasibət bəsləyirsə, tanış nağılları və şeirləri dəfələrlə dinləməyi sevir. Mətni yaxşı xatırlayır və şifahi şəkildə ifadə edir. Hələ öz sözləri ilə mətni yenidən nəql edə bilmir.Sadə süjetli şəkilləri başa düşür.

Dörd yaşında uşaqların nitqinin inkişaf səviyyəsi.Lüğət ehtiyatı 2000 sözə çatır. Aktiv nitqdə üçüncü ümumiləşdirmə dərəcəsi sözləri görünür. Söz ehtiyatı məkanı və zamanı ifadə edən zərflərlə zənginləşdirilir. Söz yaratma modellərinin mənimsənilməsinin başlanğıcını göstərən “söz yaradılması” modelləri ortaya çıxmağa başlayır. Rabitəli nitq hələ inkişaf etmə-

yib, öz həyatından bəhs edən hadisələr nəql edilərkən uyğunsuzluğa yol verilir; eşitdiyi nağılın yenidən nəql edilməsi mümkündür.Bu yaşda qeyri-ixtiyari hafizə inkişaf etmiş olur, bu da çox sayda şeiri əzbərləməyə imkan verir.

Beş yaşda uşaqların nitqinin inkişaf səviyyəsi.Bu yaşda rabitəli nitqin əldə edilməsində keyfiyyətli sıçrayış baş verir: uşaqlar şəkillərdən istifadə edərək hekayə qura bilirlər, mətni lazımi zaman və məntiqi ardıcıllıqla yenidən nəql edirlər. Nitqdə kobud aqrammatizm artıq yoxdur, mürəkkəb cümlələr qurarkən səhvlərin buraxılması mümkündür.Səslərin tələffüzü tamamilə normallaşmışdır.Sözdən səsləri ayırmaq bacarığı ortaya çıxır, yəni sözlərin səs təhlili bacarıqları formalaşır. Uşaqlar səsin yüksəkliyini ixtiyari olaraq dəyişdirə bilirlər, müxtəlif intonasiyaları ifadə etməyə qadirdirlər.

Məktəbəqədər yaşlı uşaqların sevdikləri sözlər: mən,istəyirəm, edəcəm,sevirəm,insanları ifadə edən sözlər, ölçünü ifadə edən sözlər, rəngi ifadə edən sözlər,sifətlərin müqayisə dərəcəsi,mənfi çalarları ifadə edən sözlər. Ümumilikdə uşaq gündə təxminən 11.000 söz tələffüz edir. Əlbətdə ki, bir çox sözlər dəfələrlə təkrarlanır.Uşaqların sözləri ümumiləşdirmə dərəcələri dörd mərhələdən keçir: birinci ümumiləşdirmə dərəcəsi - söz yalnız obyekti ifadə edir; ikinci ümumiləşdirmə dərəcəsi - söz bir sıra oxşar, həmcins obyektləri ifadə edir (bütün pişiklər pişik adlandırmaq hüququna malikdir, uşaq bununla razılaşır);üçüncü ümumiləşdirmə dərəcəsi - bir neçə obyekt qrupunu birləşdirən sözlər görünür (uşaq bir pişiyin heyvan anlayışına daxil olduğunu başa düşür);dördüncü ümumiləşdirmə dərəcəsi - əvvəlki bütün anlayışların ən yüksək ümumiləşdirmə dərəcəsi (pişik - heyvanlar - yer üzünün faunası).

Əgər məktəbəqədər yaşlı dislaliyalı uşaqlarda nitqin qrammatik quruluşunun ontogenezdə formalaşmasını düzgün müəyyənləşdirilməsini istəyiriksə, sözsüz ki, normal inkişafda olan uşaqların nitqinin quruluşunun formalaşmasını dəqiqliklə bilməliyik.Məktəbəqədər yaşlı uşaq praktik qrammatikanın bütün kompleks sistemini mənimsəyir. Bu praktik dilin bilik səviyyəsi çox yüksəkdir, bu da məktəb yaşında uşağın ana dilinin öyrənilməsində qrammatik nümunələrin şüuruna keçməsinə imkan verir.

Ədəbiyyat

1. Седов К.Ф. Онтопсихолингвистика. Становление коммуникативнойкомпетенциичеловека / К.Ф.Седов. —М.: Лабиринт, 2008.

2. Тенкачева Т.Р.Онтогенез формирования грамматическойстороны речи у дошкольников [Текст] / Т.Р.Тенкачева // Специальноеобразование: науч.-метод. журн. — 2013. - No 4 (32). - С. 66-72.

3. Филд Д. Психолингвистика:ключевые концепты: энцикл. терминов (с английскими эквивалентами):пер. с англ. / Джон Филд; общ. ред.И.В.Журавлева. М.: ЛКИ, 2012.

4. Шашкина Г.Р. Логопедическая работа с дошкольниками: учеб.пособие для студ. высш. пед. учеб. заведений / Г.Р.Шашкина, Л.П.Зернова, И.А.Зимина. — М.: Академия, 2003. — 240 с.

5. Ушакова Т. Н. Рождение слова:проблемы психологии речи и психолингвистики / Т.Н.Ушакова. — М. : Ин-т психологии РАН, 2011.

Məktəbəqədər yaşlı uşaqlarda nitqin qrammatik quruluşunun ontogenezdə formalaşması

XÜLASƏ

Məqalədə məktəbəqədəryaşlı uşaqlarda nitqin qrammatik quruluşunun ontogenezdə dövrlər üzrə formalaşması məsələsi nəzərdən keçirilir. Tədqiqatda qeyd olunur ki, əgər məktəbəqədər yaşlı dislaliyalı uşaqlarda nitqin qrammatik quruluşunun ontogenezdə formalaşmasını düzgün müəyyənləşdirilməsini və pozulmaları dəqiq təyin etmək istəyiriksə, sözsüz ki, normal inkişafda olan uşaqların nitqinin quruluşunun formalaşmasını dəqiqliklə bilməliyik.

Формирование грамматического строя речи в онтогенезе у дошкольников

РЕЗЮМЕ

В статье рассматривается формирование грамматической структуры речи у дошкольников в период онтогенеза.В исследовании отмечается, что для точного выявления формирования грамматической структуры речи в онтогенезе и нарушений у дошкольников с дислалией необходимо знать формирование структуры речи у детей с нормальным развитием.

Formation of grammatical structure of speech in ontogenesis in preschool children

SUMMARY

The article examines the formation of the grammatical structure of the speech of preschoolers during ontogenesis. The study notes that in order to accurately identify the formation of the grammatical structure of speech in ontogenesis and disorders in preschoolers with dyslalia, it is necessary to know the formation of the structure of speech in children with normal development.

Abdullazadə Günel Tahar qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜSUSİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ PEŞƏ-ƏMƏK HAZIRLIĞININ SAĞLAMLIQ İMKANLARI MƏHDUD ŞAGİRDLƏRİN İNKİŞAFINA TƏSİRİ

Açar sözlər: *peşə-əmək təlimi, sağlamlıq imkanları məhdud şagirdlər, xüsusi təhsil məktəbləri, sosial adaptasiya*

Ключевые слова: *профессионально-трудовое обучение,учащиесяс ограниченными возможностями здоровья, школы специального образования, социальная адаптация*

Key words: *vocational student with disabilities, special education schools, social adaptation*

Defektologiyanın inkişafa başladığı andan etibarən sağlamlıq imkanları məhdud uşaqların və yeniyetmələrin əmək fəaliyyətinə daxil edilməsi onların müstəqil həyata hazırlaşmasının əks şərtlərindən biri kimi qəbul edilirdi, lakin əməyin rolu fərqli olaraq da başa düşülürdü. Bəzi hallarda, əməyə fiziki, əqli, əxlaqi tərbiyə vasitəsi (E. Segrun), bəzi hallar da isə təhsilin, fəaliyyətin artırılması vasitəsi kimi baxılırdı (J.Demor). Görkəmli rus defektoloqu V.P.Kaşenko əməyi uşaqların orqanizminin əzələ fəaliyyəti üçün, ehtiyaclarını ödəmək üçün bir vasitə hesab edir. A.N.Qraborov isə əməyi uşaqların qavrayışının, təfəkkürünün inkişafına töhfə etdiyini, təhsildə əhəmiyyətli bir rol oynadığını, əsas korreksiyaedici vasitə olduğunu və eyni zamanda peşə təhsili problemlərini həll etdiyini qeyd edirdi. Müəyyən bir cəmiyyətə xas olan dəyərləri və münasibətləri bir insanın mənimsəməsi sosiallaşma prosesində inkişaf edir. Bu ilkin olaraq təhsil və tərbiyə prosesinin ayrılmaz olduğu təhsil müəssələrində həyata keçirilir. 60-cı illərdə defektologiya elmi tədqiqat inustutunda aparılmış tədqiqatlar göstərir ki, sağlamlıq imkanları məhdud uşaqların inkişafı onun əməyinin əsas nəticəsi hesab etmək olar. A.S.Makarenko əməyi pedaqoji təhsil sistemində güclü təlim-tərbiyə vasitəsi olduğunu qeyd etmişdir. O "əmək nədir?" sualını belə cavablandırmışdır: "Bu bir uşağın və yeniyetmənin gördüyü iş deyil, əmək kiçik bir uşağı inkişaf etdirən, dəstəkləyən, özünəinam yaratmağa kömək edən şeydir. Zəhmət və işləmək qabiliyyəti bizə təbiət tərəfindən verilmir, erkən uşaqlıqdan tərbiyə olunur. Əmək yaradıcı olmalıdır, çünki insanı mənəvi cəhətdən zəngin edən yaradıcı işdir".

Sağlamlıq imkanları məhdud şagirdlərin həyatda müstəqil olması üçün lazımi bilik bazasına,peşə hazırlığına,uyğunlaşma qabiliyyətinə,insanlarla ünsiyyət qurmaq ehtiyacları vardır. Sağlamlıq imkanları məhdud şagirdlərin təhsili xüsusi bir korreksiyaedici və inkişaf mühitinin yaradılmasını,inkişafında pozulması olmayan uşaqlar kimi təhsil almaları üçün bərabər şərait və bərabər imkanlar təmin edir. Xüsusi təhsil məktəbləri müvafiq qanunvericilik və normativ sənədlərdə əks olunan ümumi təhsil sisteminin qollarından biridir.

Sağlamlıq imkanları məhdud şagirdlərin sosial adaptasiyasının ən mühüm məsələlərini həll etməklə, əmək təlimi xüsusi təhsil məktəblərində təlim-tərbiyə işində mərkəzi yer tutur. İntellektual və fiziki inkişafında problemi olan şəxs bir vətəndaş kimi cəmiyyətin digər üzvlərindən işləmək hüququ ilə fərqlənmir. Lakin, ona əmək fəaliyyətində işləmək qabiliyyətini inkişaf etdirmək, özünə və başqalarına fayda gətirərək, hüquqlarını həyata keçirməsinə xüsusi ehtiyac vardır (Q.M.Dulnev, S.L.Mirskiy).

Xüsusi təhsil məktəblərin adaptasiya və reabilitasiya mühiti sağlamlıq imkanları məhdud şagirdlərin əmək təlimi üçün maksimal dərəcədə əlverişli şəraitlə təmin olunur. Sağlamlıq imkanları məhdud şagirdləri xüsusi (korreksiyaedici) təliminin prioritet istiqamətlərindən biri ümumi təlim - tərbiyə ilə yanaşı, onlar üçün əmək-peşə təlimi almaq imkanı yaratmaqdır.

Əməyin tədrisi prosesində şagirdlər texnoloji bilik və bacarıqlara yiyələnirlər, ümumi tədris fənləri dərslərində qazandıqları biliklərdən praktikada istifadə edirlər. Əmək dərsləri əmək və idrak fəaliyyətində sağlamlıq imkanları məhdud şagirdlərə xas olan çatışmalıqların korreksiyası üçün şərait yaradır. Əmək dərslərində idrak proseslərinin inkişafı hər şeydən əvvəl onunla əlaqəlidir ki, dərs zamanı şagirdlər yanlız müəllimin verdiyi göstərişlərdən istifadə etmir, öz istək və planlarına uyğun da hərəkət edirlər.Həmyaşıdları ilə müqayisədə sağlamlıq imkanları məhdud uşaqların əmək təlimi cəmiyyətin iqtisadi inkişafının müasir şəraitdə iş həyatına güclü hazırlamaq ehtiyacından qaynaqlanır.

Əmək təlimi-ümumi əmək bacarıqlarını inkişaf etdirməyə, əməyə psixoloji hazırlığı, münasibət formalaşdırmağa, peşə seçiminə yönəlmiş müəllim və şagirdin birgə fəaliyyətidir. V.İ.Leginovaya görə əmək təliminin birinci vəzifəsi psixoloji olaraq əməyə hazırlamaqdır.Hər bir insan peşə sahibi,əməyi olmadan yaşaya bilməyəcəyini aydın dərk etməlidir.

Peşə-əmək təlimində ilk növbədə, subyektivlik ilə səciyyələnən insanın psixi fəaliyyətinə xüsusi diqqət yetirilir. Şagirdlərin xüsusiyyətlərini bilmək pedaqoji təsirinə, yəni ən səmərəli yollarını tapmağa, korreksiya işinin rolunun gücləndirilməsinə imkan verir. Peşə-əmək təlimi mühüm və sosial əhəmiyyətli mövzu kimi sağlamlıq imkanları məhdud şəxslərin məktəblərədə sosial olaraq uyğunlaşmasına yönəlmişdir.

Əmək-peşə təliminin məzmunu şagirdlərin iş qabiliyyətlərinin inkişafının ardıcıllığından asılıdır.Əvvəlcə,hər bir şagirdin əmək fəaliyyətinin güclü və zəif tərəfini müəyyənləşdirmək lazımdır.Uşağı müşahidə edərkən onun hərəkət sferasının inkişafına,hərəkətlərin koordinasiyasına,bir hərəkətin yerinə yetirilmə sürətinə diqqət yetirilməlidir. Bir şagird ilə təhsilin birinci ilində görüşərkən ona bəzi tapşırıqların yerinə yetirilməsi üçün göstəriş verilməli və onun əmək bacarığını izləmək lazımdır (eşitməsini və görməsini yoxlamaq üçün motor testlərinin verilməsi, diqqətin paylanmasının, yaddaşının,məkanda və zamanda bələdləşməsinə diqqət edilməlidir. Yoxlama zamanı özünəxidmət vərdişlərinə də baxılmalıdır:ayaqqabını bağlamaq, düymə bağlamaq və s.). Müşahidələrin nəticəsində hər bir şagirdin imkanlarına əsaslanaraq dərs proqramının məzmunu üzərində işləmək üçün lazım olan vaxtı müəyyən etməyə imkan verir və proqramın hansı dərəcədə olacağı müəyyənləşir. Əmək təlimi digər fənlər kimi sağlamlıq imkanları məhdud şagirdlərin hərtərəfli inkişaf problemlərini həll edir, fiziki, əqli, estetik və əxlaqi inkişafa əhəmiyyətli bir töhfə verir. Bununla birlikdə, əmək təliminin əsas vəzifəsi məktəblilərə ilkin peşə təhsili vermək,yəni müəyyən bir ixtisasda işləmək üçün lazım olan texniki biliklər, peşə bacarıqları ilə təmin etməkdir. Xüsusi təhsil məktəblərində şagirdlərin əmək dərslərində qazandıqları biliklər bir tərəfdən ümumi,əqli səviyyəsini artırır, digər tərəfdən əmək problemlərinin həllində fəaliyyətlərinin düzgün tənzimləmə bacarıqlarının inkişafına zəmin yaradır.Əmək təlimi qarşısında kollektivdə iştirak etmək üçün zəruri olan şəxsiyyət keyfiyyətlərinin inkişaf etdirilməsi vəzifəsi də durur. Əmək təliminin geniş imkanları onunla izah olunur ki, əmək təlimi şəraiti tədris-əmək fəaliyyətinin müsbət motivlərinin və müvafiq emosional fonunda inkişafına kömək edir. Xüsusi təhsil məktəblərində yaradılan şərait, peşə-əmək hazırlığının formaları və məzmunu şagirdin imkanlarına uyğun olaraq proqramların mənimsənilməsini, fərdin ümumi mədəniyyətinin formalaşmasını və əxlaqi-etik

problemlərin həllini təmin edir. Bu mühit imkan daxilində sağlamlıq imkanları məhdud şagirdlərin həyat fəaliyyətinin məhdudlaşdırılmasını kompensasiya etməli və məktəbi bitirdikdən sonra onun üçün uyğun olan sahələrdə əmək fəaliyyətində çıxış etməsinə imkan verməlidir. Xüsusi təhsil məktəblərin əmək-peşə təlimi proqramlarında sağlamlıq imkanları məhdud olan uşaqların idrak fəaliyyətinin xüsusiyyətləri nəzərə alınır. Bu proqramlar şagirdlərin şəxsiyyətinin hərtərəfli inkişafına yönəldilir, əqli inkişafına kömək edir. Proqramlar şagirdlərin sosial adaptasiyası üçün lazım olan ümümi təhsil bilik-bacarıqlarına səviyyəsinə çatdırılmasına kömək edən materialları ehtiva edir.

Xüsusi təhsil məktəbləri şagirdlərinmüasir istehsal şəraitində bilavasitə həyata,əmək fəaliyyətinə cəlb etməyə çalışır. Proqramlarda təhsilin korreksiya yönümlüyü prinsipi aparıcıdır. Sağlamlıq imkanları məhdud olan uşaqların ümumi nitq,fiziki inkişafı və əxlaqi tərbiyəsindəki olan çatışmazlıqları korreksiya yollarını və üsullarını hər bir təhsil mövzusuna yiyələnməklə yanaşı əmək təhsili prosesində konkretləşdirilir. Bu proqramlarda şagirdlərdə mövcud olan spesifik pozulmaların korreksiyasına, bütövlükdə bütün şəxsiyyət xüsusiyyətlərinin korreksiyasına xüsusi diqqət yetirilir.

Xüsusi məktəblərdə oxuyanların böyük əksəriyyəti sadə əmək fəaliyyətlərini yerinə yetirmək üçün yüksək dərəcədə avtomatlaşdırılmış bacarıqları inkişaf etdirə bilər. Sağlamlıq imkanları məhdud şagird bacarıqların formalaşması prosesi normal şagirdlərlə müqayisədə daha ləngdir və bacarıqların ötürülməsi qabiliyyətinin inkişafında ləngimələr müşahidə olunur.Bununla da, əmək təliminin müddətinin xeyli artırılmasına ehtiyac ola bilir.Əmək təlimindəki müstəqil tapşırıqları kənar yardım olmadan yerinə yetirmək üçün bilik və bacarıqların məqsədyönlü istifadəsi zəruridir.Xüsusi təhsil məktəblərində əmək-peşə təhsili şagirdlərin gələcək həyatında, adaptasiyasında vacib olan amillərdən biridir. Bu prosesdə xüsusi təhsil məktəblərin və ailənin birgə fəaliyyəti vacibdir.

Ümümiləşdirərək, qeyd etmək olar ki, xüsusi təhsil məktəblərində şagirdlərin əmək fəaliyyəti tipik həmyaşıdlarından fərqli olaraq zəif inkişaf edir, bu da onların pozulmalarının səviyyəsindən asılıdır.

Ədəbiyyat

1. В.В.Воронковой. Воспитание и обучение детей во вспомогательной школе. Москва-1994

2. С.Л.Мирский. Методика профессионально-трудового обучения во вспомогательной школе. “Просвещение”, 1980.

3. Титова Я.Б. “Уроки трудового обучения для детей с ограниченными возможностями здоровья”. (школьная педогогика)-2019

XÜLASƏ

Xüsusi pedaqogika sistemində peşə - əmək təliminə və tərbiyəsinə mühüm yer ayrılır. Əməkpsixi prosesləri inkişaf etdirmək üçün zəruri və vasitələrdəndir. Əmək müstəqillik və məsuliyyət tələb edən fəaliyyətdir. Əmək şəxsiyyətin hərtərəfli harmonik inkişafının çox vacib şərtidir. Peşə - əmək təlimi şagirdlərin gələcəkdə düzgün peşə seçiminə kömək edir.

Влияние профессионально–трудовой подготовки в специальных учебных заведениях на развитие учащихся сограниченными возможностями здоровия

РЕЗЮМЕ

В системе специальной педагогики важное место отводится профессионально-трудовому обучению и воспитанию. Труд является необходимым и значимым средством развития психики личности. Труд-самостоятельная, ответственная деятельность. Труд-очень важное условие всестороннего гармонического развития личности. Профессионально-трудовое обучение способствует правильному выбору учащимися профессии в будущем.

The impact of vocitional – training in special education schools on the development of students with disabilities

SUMMARY

Labor education plays a significant role in the special pedagogical system. Labor is one of the necessary tools for the development of mental processes. Labor is an activity that requiresindependence and responsible. Labor education plays an influential role for a pupil to select the right job in the future. Labor is a very crucial point for an individual's comprehensive harmonious development. Labor education plays an influential role for a pupil to select the right job in the future.

Quliyeva Samirə Aqşin qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

EŞİTMƏ POZULMASI OLAN UŞAQLARDA YAZILI NİTQİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *eşitmə pozulması olan uşaqlar,kar uşaqlar,nitq, yazılı nitq, disqrafiya*

Ключевые слова: *дети с нарушением слуха, глухие дети, речь, письменная речь, дисграфия*

Keys words: *children with hearing disorders, deaf children, speech, written speech, dysgraphia*

Nitq insanların həyatında, bəşər tarixində ən mühüm hadisədir. İnsanlar nitqin köməyi ilə bir-birini başa düşür, öz arzu və istəklərini bildirirlər. Nitq insanların bir-birinə qarşılıqlı təsir göstərməsində vasitə rolunu oynayır.A.R.Luriyanın fikrinə görə oxumaq təsirli nitqin, yazı isə ifadəli nitqin xüsusi formasıdır.

Nitqin düzgün inkişaf mərhələlərindən keçməsi digər idrak proseslərinin, əsas da, təfəkkürün daha yüksək formada inkişafına səbəb olur. Eşitmə pozulması olan uşaqlarda nitqin meydana gəlməsi üçün şərtlər eşitməsi olan uşaqlarla fərqlilik təşkil edir. Bu eşitmə pozulması olan uşaqlardakı nitq inkişafının bütün gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir.

R.M.Boskis, R.İ.Lalayeva, İ.M.Solovyev, T.Q.Boqdanova və digər tədqiqatçıların çox sayda işi eşitmə pozulması olan uşaqların öyrənilməsinin problemlərinə həsr olunmuşdur.

Eşitmə pozulması olan uşaqlarda yazılı nitqin xüsusiyyətlərinə və problemlərinə dair mövzu hazırda vacib və aktualdır. Eşitmə pozulması olan şəxslərin yazılı nitqi, əsasən, şifahi nitqin çatışmazlıqlarını əks etdirir.Ənənəvi olaraq pozulmaların müxtəlifliyi iki əsas qrupa ayrıla bilər:

1. Cümlənin əsas və ikinci dərəcəli üzvlərinin səhv sıralanmasında, ədatlardan istifadədə kobud aqrammatizm;

2. Eşitməpozulması olan şəxslərdə kobud fonetik və fonematik inkişafsızlıqla əlaqəli disqrafiya formalarının mövcudluğu (akustik və artikulyar-akustik disqrafiya).

T.A.Vlasova bu disqrafiya formalarının xüsusilə I-II sinif şagirdlərində aydın şəkildə özünü büruzə verdiyinə diqqət çəkir, məsələn, "qazan" yerinə "kazan". Bir çox uşaqsəslərin və tələffüzün diferensasiya olunmasında davamlı çətinlik çəksə də, yazıda müvafiq hərfləri qarışıq salmırlar. Bu, kompensasiya üsulları, xüsusən də, sözlərin vizual görüntülərini qeyri-ixtiyari əzbərləmək sayəsində mümkündür. Bu səbəblə, eşitmə pozulması olan uşaq "d" və "t" səslərini qulağında ayırd edə bilmir, lakin "dovşan" sözünü dəfələrlə oxuyub yazırsa, "tovşan" yazısı onun üçün optik cəhətdən qeyri-adi qəbul ediləcək və bu da səhv etməsinə mane olacaq. Bununla birlikdə, bu kompensasiya yolu yalnız optik görünüşü uşağa yaxşı bəlli olan sözlər üçün mümkündür. Yeni sözlər və ya az bilinən sözləri yazarkən eşitmə pozulması olan uşaqda, əlbəttə ki, səhvlər mövcud olur. Vizual olaraq sözlərin yazılışını əzbərləyən eşitmə

pozulması olan uşaqlara fonetik cəhətdən oxşar olan səslərin optik cəhətdən də bir-birinə oxşar hərflərlə ifadə olunması əhəmiyyətli dərəcədə mane olur (məsələn, s-ş, c-ç).

Disqrafiyanın nəzərdən keçirilmiş formalarına əlavə olaraq,fonematik analiz və söz sintezinin pozulması ilə əlaqədardisqrafiyaya da rast gəlinir.Bu, sözdə hərflərin itirilməsi, əlavə hərflərin daxil edilməsi, hərflərin yerinin dəyişdirilməsi səbəbindən sözlərin səs-heca tərkibinin pozulması ilə xarakerizə olunur.

Eşitmə pozulması olan şəxslərdə disleksiya problemi hələ araşdırılmamış olaraq qalır. Bunlar arasında ən çox yayılmış fonetik-fonematik inkişafdan qaynaqlanan fonematik disleksiyadır.

V.A.Kalyaginə görə eşitmə pozulması olan uşaqların loqopedik müayinəsi diferensial diaqnoz formalaşdırmaq üçün nitq pozulmalarının simptomlarının və onların patogenezinin ən dolğun və hərtərəfli müəyyənləşdirilməsinə yönəldilməlidir. Bunun üçün diferensial və etiopatogenetik cəhətdən əsaslandırılmış metodlardan istifadə edilməlidir.

Yazılı nitq sözlərin vizual qavrayışının ən sabit nümunəsidir, çünki fonetik tərkibi haqqında tam məlumat yaradır. Sözlərin vizual yazılışı sayəsində karlar sözlərin fonetik quruluşları haqqında düşüncəyə sahibdirlər. Vizual qavrayış xüsusi təhsil şəraitində formalaşan sözlərin qrafik obrazlarının inkişafında mühüm rol oynayır. Başlanğıcda kar uşaqlarda yazılı sözlərin vizual qəbulu tanış olmayan fiqurların qavranılmasından fərqlənmir.

Sözlərin qrafik təsvirlərini əzbərləmək onlardan doğru şəkildə yeni sözlərin yaradılmasına və düzgün formada yazılmasına kömək edir. Kar uşaqlar şifahi nitqə yiyələnmə müddətində sözlərin heca quruluşunu da mənimsəyirlər.

İ.İ.Mamayçuk qeyd edir ki, yazılı nitq ifadənin hazırlanması, ətraflı qavranılması, əks edilməsi və düzəliş edilməsi üçün şifahinitqlə müqayisədə daha böyük imkanlara malikdir. Yazılı nitqin bu xüsusiyyətlərinə görə kar uşağın onu mənimsəməsi, başqaları ilə ünsiyyəti genişləndirmək və mücərrəd təfəkkürün formalaşması üçün böyük əhəmiyyətə malikdir. Buna görə də, kar uşaqlara yazılı nitqin öyrədilməsi tədrisin ən vacib vəzifələrindən biri hesab olunur. Bunun uğurlu olması şifahi nitqin tam təşəkküllü bir ünsiyyət vasitəsi və bir düşüncə vasitəsi kimi formalaşmasından asılıdır. Eşitmə pozulması olan uşaqlara dərs deyən müəllimlər qeyd edirlər ki, müəllimin köməyilə uzunmüddətli məşqlərdən sonra inşa yazarkən şagirdlər asan, yaxşı bilinən bir mövzuda belə özlərini ifadə etməkdə tamamilə acizdirlər. Bu çətinliklər kar uşağın yazılı nitq kimi mürəkkəb bir nitq formasını mənimsəmə çətinliyindən qaynaqlanır. Ancaq pedaqoji prosesin təşkilində əsas rolu qüsur oynayır.

Kar bir uşağın (həmçinin eşitməsi olan uşağın) nitqinin inkişafında təqlid və müstəqillik kimi görünüşdə əks və uyğun olmayan təzahürlər bir-birinə bağlıdır və bir-birinə sıx təsir göstərir. Özündən böyük şəxslərin fəaliyyətinin təqlidi bütün öyrənmənin başlanğıc nöqtəsidir. Dil öyrənmənin ilk mərhələlərində təqlid önəmli bir rol oynayır, ancaq gələcəkdə müstəqillik və yaradıcı fəaliyyətin formalaşmasına mane ola bilər.

Karuşaqlar yazılı nitqdə sözlərdən yeni söz yaratmaqda da çətinlik çəkirlər. R.İ.Lalayeva kar uşaqların yazılarında aşkarlanan, sözün fonetik tərkibinin bir sıra tipik pozulmalarından bəhs edir:

1. Cingiltili samitin kar samitlə əvəz edilməsi: sabun – sapun, corab – çorab
2. Kar samitin cingiltili samitlə əvəz edilməsi: tərəzi – dərəzi, ipək – ipəg
3. Sözün səs tərkibinin tamamilə və ya qismən təhrif edilməsi ilə ifadə olunan müxtəlif pozulmalar: sabah – zapah, kartof – karatof, badımcan – bamcan və s.
4. Sözdə hecaların yerinin dəyişdirilməsi: yaxşıyam – yaxşımay, pəncərə – pənrəcə, nömrə – nörmə, yumurta – yuturma və s.

R.İ.Lalayeva hesab edir ki, eşitmə analizatorunun fəaliyyətinin spesifik olması kar uşağın yazmağı öyrənməsini çətinləşdirir və yuxarıdan göstərilən pozulmalara səbəb olur.

Məqalənin aktuallığı və praktik əhəmiyyəti. Yazılı nitqin formalaşdırılması haqlı olaraq düşünülmüşdür və eşitmə pozulması olan uşaqlara öyrədilməsi vacib olan əsas vəzifələrdən biri hesab edilir. Yazılı nitqin əldə edilməsi eşitmə qabiliyyəti olmayan uşaqlar üçün eşit-

mə pozulmasının nəticələrini və yaratdığı qüsurları kompensasiya etmələri üçün əhəmiyyətli imkanlar təqdim edir, başqaları ilə ünsiyyətin artmasına səbəb olur və daha yaxşı əqli inkişafa kömək edir.

Ədəbiyyat

1. Богданова Т.Г. Сурдопсихология: Учеб. Пособие для студ. Высш. Пед. Учеб. Заведений / Т.Г.Богданова. – М.: Академия, 2002. – 203 с.

2. Гольдберг А.М. Проблемы письменной речи у детей с нарушением слуха: Детская психология / А.М. Гольдберг. – М.: Просвещение, 1967. – 135 с.

3. ГольдбергА.М. «Особенности самостоятельной письменной речи глухих школьников» Изд. «Просвещение», Москва, 1966 г.

4. Соловьева И.М. Психология глухих детей: Учеб. пособие для вузов / И.М. Соловьева. – М.: Педагогика, 1971. – 308 с.

Eşitmə pozulması olan uşaqlarda yazılı nitqin xüsusiyyətləri

XÜLASƏ

Yazılı nitq eşitmə pozulması olan uşaqların təhsilində xüsusi rol oynayır. Bu uşaqlar üçün yazılı nitq qavrayışı şifahi nitq qəbulundan daha əlçatandır. Eyni zamanda, yazılı nitqi mənimsəmək bu danışıq formasının mənasını başa düşməkdə və öz yazılı ifadələrini yaratmaqda böyük çətinliklərə səbəb olur.

Təcrübə göstərir ki, eşitmə pozulması olan şagirdlərin müstəqil yazılarında ciddi pozulmalar var. Eşitmə pozulması olan uşaqlarda yazılı nitq inkişafının bütün xüsusiyyətləri bu uşaqların həyata hazırlaşmasını yaxşılaşdırmaq üçün tədris metodlarını və üsullarını yeniləmək və təkmilləşdirmək lazım olduğunu göstərir.

Особенности письменной речи у детей с нарушением слуха

РЕЗЮМЕ

Письменная речь играет особую роль в обучении детей с нарушением слуха. Для этих детей восприятие письменной речи более доступно, чем восприятие устной речи. В то же время овладение письменной речью вызывает большие трудности в понимании значения этой формы речи и создании собственных письменных выражений. Опыт показал, что у учащихся с нарушением слуха наблюдаются существенные отклонения в самостоятельной письменной речи. Все особенности развития письменной речи у детей с нарушением слуха указывают на необходимость обновления и совершенствования методик и приемов обучения с целью улучшения подготовки этих детей к жизни.

Features of written speech in children with hearing disorders

SUMMARY

Written speech plays a special role in teaching children with hearing impairments. For these children, the perception of written speech is more accessible than the perception of oral speech. At the same time, mastering written speech causes great difficulties in understanding the meaning of this form of speech and creating own written expressions. Experience has shown that students with hearing impairments have significant deviations in their independent written expressions. All the features of the development of written speech in children with hearing impairments indicate the need to update and improve teaching methods and techniques to improve the preparation of these children for life.

Mehdiyeva Nazpəri Asəf qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA AĞIR NİTQ POZULMALARINDAN BİRİ OLAN ALALİYANIN PATOGENEZİ, SENSOR VƏ MOTOR FORMALARI

Açar sözlər: *nitq, nitq pozulması, alaliya, motor alaliya, sensor alaliya, loqopedik iş*
Ключевые слова: *речь, нарушение речи,моторная алалия, сенсорная алалия, логопедическая работа*
Key words: *speech, speech disorder, alalia, expressive alalia, sensory alalia, speech terapy work*

Uşaq inkişafının prenatal və ya erkən yaş dövründə beyin qabığının nitq zonalarının zədələnməsi nəticəsində nitqin olmaması yaxud inkişaf etməməsi elmi ədəbiyyatlarda "alaliya" termini ilə adlandırılır. Bir sıra ədəbiyyatlarda alaliya termini "disfaziya", "erkən uşaqlıq afaziyası", "inkişaf afaziyası" və s. kimi sinonimlərlə əvəz edilir. Bu termin bir sıra müxtəlif tədqiqatçılar tərəfindən araşdırılıb.1877-ci ildə A.Kussmaul nitq pozulmalarınıntəsnifatını vermişdir. O, iki növ nitq pozulmasının olduğunu qeyd edirdi:

1.Artikulyasiya pozulmaları (dizartriya,dislaliya)

2. Diksiya pozulmaları (qrammatik formaların və sintaktik ifadələrin pozulması – disfaziya)

Artikulyasiya və diksiya pozulmalarının ümumilikdə adı "lalopatiya" termini ilə adlandırılır.Bu təsnifatda daha sonra A.Kussmaul "alaliya" terminindən istifadə etdi. O, artikulyasiyada yaranan çətinliklər səbəbindən nitqdə mövcud olan problemlərin alaliyanın yaranmasına səbəb olduğunu qeyd edirdi.

A.Libmann (1925) alaliyanın aşağıdakı formalarını müəyyənləşdirdi: motor eşitmə pozulması, sensor eşitmə pozulması, sensomotor eşitmə pozulması.

R.E.Levina (1951) eşitmə (fonemik) qavrayışı zəif olan, görmə (obyekt) qavrayışı zəif olan, zehni fəaliyyəti zəif olan uşaqlarda psixoloji pozuntuların təsnifatını irəli sürmüşdür.

V.K.Orfinskaya (1963) dil sistemlərinin birincili və ya ikincili səviyyədə pozulmasını nəzərə alaraq alaliyanın 10 formasını müəyyənləşdirərək linqivistik bir təsnifat hazırladı: 4 motor forması, 4 sensor çatışmazlıq forması və motor-vizual pozulmalarla əlaqəli olan nitqin zəif inkişafının 2 forması.

Problemin öyrənildiyi illər ərzində mexanizmdən asılı olaraq alaliyanın təsnifatını bir çox tədqiqatçılar təklif etmişlər. V.A.Kovşikov isə alaliyanın təsnifatını aşağıdakı kimi qruplaşdırırdı:

- Ekspressiv (motor) alaliya. Ekspressiv alaliya nitq patologiyasının ən ağır və davamlı formalarından biridir. Motor alaliya hərəki analizatorunun fəaliyyətinin pozulması hesab edilir. Ekspressiv alaliya dedikdə hərəkət və koordinasiya pozulmaları nəzərdə tutulur. Motor alaliya beyin zədələnməsi nəticəsində ifadəli nitqin sistematik inkişaf etməməsidir.
- Sensor alaliya. Sensor alaliya eşitmə analizatorunun zədələnməsi nəticəsində nitqin olmaması ilə xarakterizə olunur. Bu gicgah payının zədələnməsi nəticəsində baş verir. Uşaq danışılan bütün səsləri eşidir, ancaq oları dərk etmir. Çünki bu uşaqlarda differensiasiya inkişaf etmir. Ümumilikdə qeyd etsək sensor alaliya nitq qavranılmasının pozulmasıdır.
- Sensomotor alaliya. Alaliya zamanı nitqin inkişaf etməməsi,sensomotor funksiyaların patologiyası ilə əlaqədar olaraq meydana gəlir.

Alaliya bir sistem olaraq nitqin pozulmasıdır. Alaliya zamanı nitqin bütün komponentləri, leksik-qrammatik və fonetik-fonemik tərəfi pozulur. Alaliya zamanı həm şifahi,həm də yazılı nitq pozulur. Bu,alaliyanı sistematik olmayan pozuntulardan ayırmağa imkan verir. Dil vasitələrinin sistemi (fonemik, qrammatik, leksik) formalaşmır. Kobud semantik qüsurlar izlənilir. Sözlərin səs və heca tərkibinin çoxalmasına təsir edən nitq hərəkətlərinin nəzarəti pozulur.

Üzvi beyin zədələnməsi sinir hüceyrələrinin yetişməsini ləngidir. Bu,neyronların həyacanının azalması,əsas sinir proseslərinin funksional tükənməsi ilə müşayiət olunur. Alaliyada beyin qabığının pozulmaları mülayim,lakin çox və ikitərəfli xarakter daşıyır,bu da nitqin inkişafının müstəqil kompensasiya imkanlarını məhdudlaşdırır.

Alaliyanın yayılması ilə bağlı elmi cəhətdən əsaslandırılmış bir statistika yoxdur. Alaliya diaqnozu təxminən məktəbəqədər yaşlı uşaqların 1%-də,məktəb yaşındakı uşaqların isə 0.2-0.6%-də rast gəlinir.Orta hesabla alaliyanın əhalinin 0.1%-də baş verdiyi fərz edilə bilər. Eyni zamanda bu nitq pozulması qızlara nisbətən oğlanlarda 2 dəfə daha çox olur.

Motor alaliyadan əziyyət çəkən şəxsin iş fəaliyyəti aşağı səviyyədə olur.Bu insanlarda yüksək yorğunluq müşahidə edilir.Alaliya zamanı uşaqlarda bir sıra əməliyyatlar formalaşmır. Bu əməliyyatlara proqramlaşdırma,seçmə və təhlil aiddir.Ekspressiv alaliya ifadəli nitqin ontogenizində zəif assimilyasiya ilə xarakterizə olunan bir dil pozulmasıdır.Ekspressiv alaliyanı müəyyən etmək üçün lazımi meyarlar bunlardır:

a) normal dil əldə etmə sürətindəki gecikmə;

b) dilin patoloji inkişafı;

c) dilin bütün alt sistemlərinin pozuntularının müxtəlif dərəcələrində ontogenezin müəyyən mərhələlərində olması;

d) eşitmə qabiliyyətinin qorunması;

e) müəyyən bir yaş üçün müraciət olunan nitqin qənaətbəxş bir şəkildə başa düşülməsi.

Motor alaliyasında nevroloji simptomlar,ilk növbədə hərəkət pozulmaları ilə təmsil olunurlar: yöntəmsizlik, hərəkətlərin koordinasiyasının pozulması, motor bacarıqlarının zəif inkişafı. Uşaqlar özünəxidmət bacarıqlarına yiyələnməkdə çətinlik çəkirlər. Buna düymələri bağlamaq, ayaqqabının bağlarını bağlamağı nümunə kimi göstərə bilərik. Onlar bir ayaq üzərində dura bilmir, topu atıb-tutmaqda çətinlik çəkirlər. Motor alaliyalı uşaqların psixoloji xüsusiyyətlərini nəzərə alaraq onlarda yaddaşda, diqqətdə, qavrayışda, emosional-iradi sferada pozulmalarının olduğunu qeyd etmək düzgün olmaz. Alaliyalı uşaqlar mövcud olan danışma zəifliyi səbəbindən yaranan intellektual çatışmazlıqdan əziyyət çəkirlər.Nitq onlarda inkişaf etdikcə intellektual çatışmazlıq tədricən kompensasiya olunur.

Eşitmə və nitq analizatorunun inkişafdan geri qalma səviyyələrifərqlidir. Bu zaman uşaq başqalarının nitqini heç anlamır, səsləri fərqləndirə bilmir, hətta öz adına reaksiya vermir. Digər hallarda,uşaq gündəlik sözləri başa düşür,lakin ətraflı bir ifadə fonunda anlayışını itirir. Tədricən uşaq nitq daxil olmaqla səsləri dinləməyə başlayır,lakin diqqəti uzun müddət qeyrisabit və tükənmiş olaraq qalır. Fonemik qavrayış yavaş-yavaş inkişaf edir və uzun müddət formasız qalır. Alaliya zamanı ekspressiv nitq inkişafdan qalır. Buna səbəb beynin lokal sahəsinin zədələnməsidir.

Situasiya sensor alaliyadan əziyyət çəkən uşaqlar üçün əhəmiyyətli bir rol oynayır. Uşaqlar ifadələrin məzmununu yalnız müəyyən bir kontekstdə başa düşürlər. Sözlərin forma və qaydalarını dəyişdirərkən sözlərin mənasını başa düşməkdə çətinlik çəkirlər, qrammatik quruluşların mənasını dərk etmirlər. Həmçinin uşaqlar mürəkkəb tapşırıqları başa düşmür, düzgün və səhv variantları bir-birindən ayırd edə bilmirlər. Bəziləri sözlərin deyiliş tempi dəyişdirildikdə nitqi başa düşmür, eyni tipli vurğuya və hecaya malik olan sözləri qarışdırır,səslənməsinə görə oxşar olan sözləri isə eyni kimi qəbul edirlər. Bu zaman eşitmə gücləndirildikdə qavrama prosesi yaxşılaşdırılır.

Alaliya zamanı diqqətin mərkəzləşməsində, keçirilməsində və paylanmasında çətinliklər qeyd olunur. Uşaq ona yönələn səsi,nitqi dərhal qəbul etmir, həmçinin xaricdən ona mane olacaq səslər olmasa belə onların diqqəti asanlıqla yayına bilir. Diqqətin bu səviyyədə olması eşitmə qavramasının zəif inkişafı ilə əlaqələndirilir. Bəzən bu uşaqlar yalnız bir insanı-məsələn, ananı və ya müəllimi başa düşür, ancaq eyni bir sözü fərqli bir insan dedikdə isə onun nitqini anlamır. Bu zaman uşaqlar ünsiyyət qurmaq üçün jestlərdən və mimikalardan istifadə

edirlər. Alaliyadan əziyyət çəkən uşaqlar səssizlik zamanı sakitləşir, musiqi dinləyir, əksinə yüksək səslər, söhbətlər, qışqırtılar olduqda isə əsəbləşirlər.

Alaliyalı uşaqlarda təlim zamanı onlar məzmunu anlamadıqları üçün dərsə olan maraqlarını itirir və dinləməyi dayandırırlar.

Dilin nisbətən sadə vahidlərini və işləmə qaydalarını mənimsəmiş uşaqlar uzun müddət daha mürəkkəb vahidlərə və qaydalara yiyələnməkdə çətinlik çəkirlər.Müəyyən dərəcədə şifahi nitqi mənimsədikləri üçün uzun müddət yazılı nitqi tam mənimsəyə bilmirlər.

Sensor alaliyalı uşaqlarda exolaliyaya tez-tez rast gəlinir. Yəni uşaq cavab reaksiyası vermək əvəzinə ona deyilən sözü yenidən təkrar edir.Sensor alaliyadan əziyyət çəkən uşaqlarda səciyyəvi xüsusiyyətlərdən biri də onlarda yaddaşın və diqqətin inkişafdan qalmasıdır.Sensor alaliyalı uşağın nitqi çox gec bir zamanda inkişaf edir. Belə uşaqlarla iş zamanı əsas məqsəd onlarda təfəkkürün və intellektin ümumi inkişafını təmin etməkdən ibarədir. V.K.Orfinskaya, N.N.Trauqott və digər tədqiqatçılar əsərlərində sensor alaliyalı uşaqların fonemik analiz və sözlərin morfoloji tərkibinin təhlili zamanı çətinliklərlə üzləşdiyini qeyd edirdilər.

Hər hansı bir alaliya formasını korreksiya etdikdə, metodun psixoloji,t ibbi və peqaqoji xarakter daşıdığını bilməliyik. Korreksiya zamanı ümumi və motor bacarıqlarının, zehni funksiyaların inkişafı üzərində işləmək vacibdir.

Alaliyalı uşaqlarda ifadəli nitq onların 5-6 yaşından sonra inkişaf etməyə başlayır. Nitqin inkişafı üçün lazım olan baza alaliyalı uşaqlarda öz başına yaranmır.Bu boşluqlar müayinə zamanı təşkil edilən çalışmaların köməyi ilə aradan qaldırılır.

Alaliyanın korreksiyası zamanı aşağıda göstərilən metodlardan istifadə edilir:

- söz bazasını inkişaf etdirmək;
- nitqin qrammatik quruluşunu formalaşdırmaq;
- səslərin qoyuluşu və korreksiyası;
- fonematik çalışmalar.

Motor alaliyanın korreksiyası zamanı uşaq üzərində bir sıra işlər aparılır. Onlar aşağıdakılardır:

- ✓ nitq fəaliyyətinin stimullaşdırılması;
- ✓ aktiv və passiv söz ehtiyatının formalaşdırılması;
- ✓ ifadəli nitq;
- ✓ tutarlı nitqin inkişafı;
- ✓ səs tələffüzü.

Sensor alaliyanın korreksiyası zamanı:

1) nitq səslərini ayırmaq;
2) sözlərin fərqləndirilməsi və onların hərəkətlərlə əlaqələndirilməsi;
3) ifadələrin və nitq təlimatlarının başa düşülməsi;
4) nitqin qrammatik quruluşu;
5) nitqin psixofiziki əsasının formalaşması.

Ədəbiyyat

1.N.T.Hüseynova,T.H.Ağayeva “Loqopediya”,Bakı 2018.
2.Açıq Cəmiyyət Institu-Yardım Fondu “Uşaq inkişafı metodikası”, Bakı 2011
3.Л.С.Волкова, С.Н.Шаховская "Логопедия ", 2012
4.https://www.krasotaimedicina.ru/diseases/speech-disorder/alalia

Məktəbəqədər yaşlı uşaqlarda ağır nitq pozulmalarından biri olan alaliyanın patogenezi, sensor və motor formaları

XÜLASƏ

Alaliya-uşaqlarda nitqin inkişafdan qalmasının ağır formalarından biridir. Alaliya sistemli nitqin zəif inkişafı fonetik-fonemik və leksik-qrammatik quruluşun pozulması ilə xa-

rakterizə olunur.Baş beyinin böyük yarımkürəsinin nitq sahəsinin zədələnməsinin lokallığından asılı olaraq,alaliya iki növə ayrılır: motor və sensor alaliya.Motor alaliya nitq hərəki analizatorunun, sensor alaliya isə qavrama analizatorunun fəaliyyətinin pozulması ilə yaranır. Nitq pozulmasının növünü müəyyən etmək üçün düzgün diaqnozun qoyulmasına görə uşağı bir neçə ay müşahidə etmək lazımdır.

Патогенез, сенсорные и моторные формы алалии - одного из самых тяжелых нарушений речи у детей дошкольного возраста

РЕЗЮМЕ

Алалия - одна из самых тяжелых форм задержки речи у детей.Системное недоразвитие речи при алалии характеризуется нарушением фонетико-фонематического и лексико-грамматического строя.В зависимости от места повреждения полушария головного мозга в области речи различают два типа алалии: моторную и сенсорную.Моторная алалия вызвана неисправностью анализатора речевых движений, а сенсорная алалия - неисправностью анализатора восприятия.Нередко для правильной диагностики типа речевого нарушения требуется несколько месяцев наблюдать за ребенком.

Pathogenesis, sensory and motor forms of alalia, one of the most severe speech disorders in preschool children

SUMMARY

Alalia is one of the most severe forms of speech retardation in children. Systemic speech underdevelopment in alalia is characterized by violations in the phonetic, phonemic, lexical, and grammatical structure. Depending on the location of the damage to the cerebral hemisphere in the area of speech, there are two types of alalia: motor and sensory alalia. Motor alalia is caused by a malfunction of the speech analyzer, and sensory alalia is caused by a malfunction of the perception analyzer. Often, it takes several months to observe the child for the correct diagnosis of the type of speech disorder.

Qəhrəmanova Sevda Xəyyam qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

PSİXİ İNKİŞAFINDA LƏNGİMƏ OLAN UŞAQLARDA KİÇİK MOTORİKANIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *psixi inkişafda ləngimə, klinik sistematika, dizontogenez, kiçik motor bacarıqları, korreksiya, oyun – təlim prosesi, nitqin inkişafı*

Ключевые слова: *задержка психического развития, клиническая систематика, дизонтогенез, мелкая моторика, коррекция, процесс игра – обучение, развитие речи*

Key words: *slowing mental development, clinical systematics, dysontogenesis, small motor skills, correction, game – education process, speech development*

İnkişaf pozulması müşahidə olunan uşaqların sayı çoxdur və təəssüf ki, onun gündəngünə artma tendensiyası özünü göstərir. Üstəlik, bütün uşaqlar xüsusi korreksiya-pedaqoji yardım almırlar. Hər bir müəllim gündəlik işlərində bu cür uşaqlarla qarşılaşır. Təhsilin ilkin mərhələsində hər sinifdəmüəllim xüsusi təhsilə ehtiyacı olan 2-3 uşaq ilə rastlaşır.İnkişafında çatışmazlıqlar olan uşaqların xüsusiyyətləri və imkanları barədə məlumat müəllim və məktəb psixoloquna normal məktəb mühitindəki pozulmaları aradan qaldırmağa imkan verir və uşağın təhsil yolunu müəyyənləşdirərkən mənfi təsir göstərən bu çatışmazlıqların aradan qaldırmağa kömək edir.

Bununla əlaqədar olaraq, inkişafın tam aydın olmayan çatışmazlıqlarından birinin – psixi inkişaf ləngiməsinin diaqnostikası məsələsi gündəmə gəlir. "Psixi inkişaf ləngiməsi" – 1960-cı illərdə ümumi psixologiyada təşəkkül tapmış, həm adi (kütləvi) məktəbdə davamlı öyrənmə çətin-

likləri olan, həm də əqli cəhətdən zəif kimi görünən uşaqların diaqnostikasında, qısa müddətdə - xüsusi təhsil mühitindətəhsil alan uşaqların öyrənilməsi nəticəsində yaranmış anlayışdır.

K.S.Lebedinskayanın təklif etdiyi psixi inkişafın ləngiməsinin klinik sistematikasını nəzərə alaraq aşağıdakıları qeyd edək:

-Dizontogenetik təzahürlərin yayılması - inkişaf prosesləri, müddətin pozulması, inkişaf tempi və vaxtı- psixi inkişafın ləngiməsinin müxtəlif formalarını dizontogenezin bir növünə aid etmək üçün əsas verir.

-Dizontogenez yalnız müstəqil klinik forma kimi deyil, həm də patoloji hal kimi və xəstəlik prosesinin nəticəsi kimi çıxış edə bilər. Tez-tez psixi inkişaf ləngiməsi və dizontogenetik xəstəliklər bir-birilə əlaqəli şəkildə ortaya çıxır.

Psixi inkişafında ləngimə olan uşaqların qarşılaşdıqları əsas çətinliklər, ilk növbədə, sosial (məktəb daxil olmaqla) uyğunlaşma və öyrənmə ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, ayrı-ayrı götürülmüş hər bir uşaqda PİL həm vaxt, həm də təzahür dərəcəsinə görə özünü müxtəlif cür göstərə və fərqlənə bilər.

PİL olan uşaqların emosional - iradi sferasının qeyri - müəyyənliyi onların davranışının formalaşmasının özünəməxsusluğunu və şəxsi xüsusiyyətlərini şərtləndirir. Bu uşaqlar kommunikasiya sahəsində də çətinliklərlə rastlaşırlar.PİL uşaqlar üçün həmçinin, diqqət dağınıqlığı xarakterik xüsusiyyətdir. Onlar diqqətin paylanmasında, kifayət qədər uzun müddətli yadda saxlamaya, diqqəti bir tapşırıqdan digərinə tez keçirməyə malik deyillər. Onlarda, tez yorulma, tükənmə, qeyri-sabitlik və diqqətin azaldılmış konsentrasiyası müşahidə olunur.Motor bacarıqlar, insana xas olan motor reaksiyaların, bacarıqların, kompleks motor hərəkətlərinin məcmusudur (E.A.Strebeleva). Psixoloqlar motorikanın üç əsas növünü fərqləndirirlər:

1. Ümumi motor bacarıqlar əzələ qruplarının birgə fəaliyyət məsuldur. Məsələn – qaçmaq, əyilmək və s.

2. Artikulyasiya motorikası koordinasiya hərəkətləri, danışma aparatının işləri, yəni danışma prosesindən cavabdehdir.

3. Kiçik motor bacarıqlara əlin və barmaqların hərəkətləri aid edilir. Əllərin inkişaf etmiş motor reaksiyaları gündəlik fəaliyyətimizi həyata keçirməyimizdə, məsələn, ayaqqabılarımızı bağlamaq və ya açarla qapını bağlamaq kimi işlərdə kömək edir. Kiçik motor bacarıqlar, əllərin və ayaqların dəqiq kiçik hərəkətləri ilə həyata keçirməyə yönəlmiş koordinasiyalı hərəkətlərin məcmusudur.

Fizioloqlar hərəkətin uşağın embrional dövrdən başlayaraq inkişafında vacib bir amil olduğuna inanırlar. Hamiləlik dövründə dölün hərəkəti körpənin ümumi inkişaf sürətinə təsir göstərir və doğuşdan sonra daha da vacib hala gəlir.Yaxşı inkişaf etmiş motorika çox vacibdir, çünki diqqət, düşüncə, koordinasiya, təsəvvür, müşahidə, vizual və motor yaddaşı inkişaf edir. Bir sözlə, uşaqların xırda motorikasının inkişafı uşağın ümumi inkişafı üçün də əhəmiyyətlidir. Aparılmış təcrübə və çoxlu sayda uşaqların müayinəsi əsasında bir sıra qanunauyğunluqlar aşkar edilmişdir: barmaq hərəkətləri yaş səviyyəsinə uyğundursa, ümumi inkişaf, həmçinin nitq inkişafı da norma həddindədir, əgər barmaqların hərəkətlərinin inkişafı geri qalırsa, uşağın nitq inkişafı da ləngiyir.

Bir çox alimlər kiçik motorikanın inkişafı probleminə diqqət yetirmişdilər. M.Koltsova, E.İ.İsenina, L.V.Antakova - Fomina intellektual inkişafın barmaq motorikası ilə əlaqəsini təsdiqləyiblər. M.Koltsova belə qənaətə gəlmişdir ki, nitq sahələrinin formalaşması kinestetik impulsların təsiri altında əldən, daha doğrusu, əl barmaqlarından başlayır.

E.M.Mastyukova kiçik motorikanın inkişafına diqqət yetirmişdir. Onun fikrincə, barmaqların müxtəlif hərəkət funksiyaları xüsusi əhəmiyyət kəsb edir, belə ki, onlar mərkəzi sinir sisteminin inkişafını stimullaşdırırvə nitqin sürətli inkişafına təsir göstərir. Sübut olunub ki, motorikanınınkişafsızlığı uşaqların fəaliyyətinə və davranışına təsir edir.

Kiçik motorikanın düzgün inkişafı həmçinin uşağın sensomotor koordinasiyasının - əllərin və gözlərin düzgün hərəkətinin formalaşmasını müəyyən edir. Görmə vasitəsi ilə uşaq

ətraf gerçəkliyi öyrənir, öz hərəkətlərini idarə edir, bunun sayəsində onlar daha mükəmməl və dəqiq hərəkətləri icra edirlər. Görmə və əllərin hərəkəti uşağın ətraf gerçəkliyi dərk etməsinin əsas mənbəyinə çevrilir. Hər cür obyektləri öyrənərək və əlləri ilə toxunaraq başa düşür. Kiçik motorikanı inkişaf etdirən tapşırıqların köməyi ilə uşaq özünü və öz əşyalarını izləməyi, düymələrini düzgün bağlamağı, ayaqqabı bağlarını bağlamağı öyrənir. Yəni,kiçik motorika həm də uşağın müstəqilliyinin formalaşmasını təmin edir, deməli, kiçik - motor funksiyaların inkişafı, hərəkətlərin koordinasiyası, diqqətin cəmlənməsi, seçilmiş işi sona çatdırmaq bacarığı, görülmüş işlərdən həzz almaq bütövlükdə insanın şəxsiyyətinin formalaşması üçün çox əhəmiyyətlidir.

Zəif inkişaf etmiş kiçik motorikası olan uşaqlar qaşığı, qələmi yöndəmsiz tuturlar, düymələrini düymələyə, ayaqqabılarını bağlaya bilmirlər. Onlar üçün səpələnmiş detalları toplamaq, hesablama çubuqları, mozaika ilə işləmək çətindir. Onlar digər uşaqların sevimlisi olan modelləşdirmə və applikasiyalardan imtina edirlər, belə ki, uşaq bağçası qruplarında bu tip uşaqlar üçün xüsusi vaxt ayrılmır.

Beləliklə, bu uşaqların dünyanı mənimsəməsi imkanları məhdud olur. Uşaqlar tez-tez həmyaşıdları üçün mövcud olan elementar hərəkətlərdə uğursuzluq hiss edirlər. Bu, uşağın emosional rifahına, özünə hörmətinə təsir göstərir. Kiçik motorikanın inkişafı və nitqin formalaşması arasında asılılıq vardır. Körpənin kiçik motorikasının ahəngdar inkişafı nitq və intellektin inkişafına kömək edir, bütövlükdə bütün orqanizmə müsbət təsir göstərir.

Son bir neçə il ərzində psixi inkişaf ləngiməsi probleminin artması ilə bağlı müzakirələr genişlənmişdir. Bütün bunlar, psixi inkişafda bu cür sapmanın qeyri-müəyyən olması ilə bağlıdır, buraya müxtəlif səbəblər aid edilə bilər. Psixi inkişaf ləngiməsinin ən parlaq əlaməti olaraq tədqiqatçılar emosional-iradi sferanın inkişafsızlığını vurğulayırlar, başqa sözlə, bu tip uşağa iradi səy göstərmək, özünü nəyisə yerinə yetirməyə məcbur etmək çox çətindir. Beləliklə, diqqətin pozulması halı qaçılmaz olur. Diqqət pozulmaları artan motor və danışma fəaliyyəti ilə müşayiət oluna bilər. Uşaq və yeniyetmələrin fiziologiyası İnstitutunun (M.Koltsova, Y.N.İsenina, L.V.Antakova-Fomina) alimlərinin tədqiqatları ilə intellektual inkişaf və motorikanın əlaqəsi təsdiq edilmişdir.

Son illərin ədəbiyyatında məktəbəqədər yaşlı uşaqlarda normal və pozulmuş intellektual inkişaf və (N.S.Jukova, Y.M.Mastyukova, T.B.Fomiçeva) kiçik motorikanın inkişafı ilə bağlı iş metod və üsulları təsvir edilmişdir. Bütün müəlliflər kiçik motorikanınınkişafının uşağın ümumi inkişafı üçün stimullaşdırıcı olduğunu təsdiqləyirlər.

Psixi inkişaf ləngiməsin olan uşaqlarda təfəkkürün bütün formalarının inkişafında geriləmə müşahidə olunur. Bu isə ilk növbədə şifahi-məntiqi təfəkkür üzrə məsələlərin həlli zamanı üzə çıxır, nitqin müxtəlif sahələrinin pozulması müşahidə olunur. Alimlər sübut ediblər ki, nitqin inkişaf səviyyəsi kiçik motorikanın inkişafı və formalaşması dərəcəsindən birbaşa asılıdır.

Psixi inkişaf ləngiməsi olan məktəbəqədər yaşlı uşaqlarda motorikanın pozulması məktəb təhsilinin başlanğıcında informasiyanın mənimsənilməsini çətinləşdirir, burada zamanında korreksiya işinin aparılması zəruri məsələdir.

Məktəbəqədər yaşda kiçik motorikanın inkişafı və əl hərəkətlərinin koordinasiyası üzrə işlərin aparılması vacib məsələlərdəndir. Kiçik motorikanın inkişaf səviyyəsi uşağın gələcək inkişafına da təsir edir. Motorikanın inkişafı ilə yanaşı, yaddaş, diqqət və lüğət ehtiyatı da inkişaf edir.

Uşaq təbii materiallarla işləyərkən estetik dünyaya qoşulur: doğma təbiətin ustası olmağı, istənilən bitkini mənasız məhv olmaqdan qorumağı öyrənir.Bu tip materiallar həmişə mövcuddur və böyük maliyyə xərcləri tələb etmir, uşaqlarda emosional gərginliyi aradan qaldırmağa kömək edir. Təbii materiallarla oyunlar motorikanın inkişafına, məkan və kəmiyyət münasibətlərinin formalaşmasına və inkişafına, təbii materialların xüsusiyyətləri ilə tanışlığa, yaddaşın, düşüncənin və nitqin inkişafına kömək edir.

Psixi inkişafında ləngimə olan uşaqlar böyük bir qrup təşkil edir. Bu qrup uşaqların əksəriyyəti bütün ali idrak funksiyalarının, o cümlədən bütün motor sahəsinin aşağı inkişaf səviyyəsi ilə fərqlənirlər. Psixi inkişafında ləngimə olan uşaqlarda motor sahənin inkişafında hərəkətlərin sərbəst tənzimlənməsinin pozulması, qeyri-ixtiyari hərəkətlərin dəqiqliyinin olmaması, keçid və avtomatlaşdırmanın çətinlikləri kimipozulmalar müşahidə edilir. Bu kateqoriyadan olan uşaqlarda kiçik motorikanın inkişafsızlığı başlıca məsələlərdəndir.

Ədəbiyyat

1. Блинова Л.Н. Диагностика и коррекция в образовании детей с задержкой психического развития: учебное пособие для вузов. – М.:НЦ ЭНАС, 2004
2. В.И.Лубовский. Современные проблемы диагностики задержки психического развития.
3. Денисова Е.Е. Роль мелкой моторики рук в развитии ребенка.
4. Кузминова Т.И., воспитатель МБДОУ д/с №29 г. Ставрополя: «Развитие мелкой моторики у детей с задержкой психического развития посредством работы с природным материалом»

XÜLASƏ

Psixi inkişaf ləngiməsi (Pil) olan uşaqlarda, əqli, psixi və fiziki fəaliyyətin fərqli komponentlərinin pozulması ilə kompleks şəkildə özünü göstərən patologiyadır. PİL norma və patologiya arasında mövqe təşkil edir. Psixi inkişaf ləngiməsi vəziyyətində, müxtəlif əqli funksiyaların qeyri-bərabər formalaşması özünü göstərir. Həmçinin, qeyri-bərabərliyin dərinliyi və ya inkişafsızlığı fərqli dərəcədə də ola bilər. Özünəxidmət bacarıqları, texniki bacarıq, modelləşdirmə, tətbiqetmə bu tip uşaqlarda zəif formalaşmışdır. Bir çox uşaq qələmi və ya fırçanı necə düzgün tutacağını bilmir, təzyiq gücünü tənzimləmir və qayçıdan istifadə etməkdə çətinlik çəkir. Psixi inkişaf ləngiməsi olan uşaqlarda kobud hərəkət pozulması yoxdur, lakin fiziki və motor inkişaf səviyyəsi həmyaşıdları ilə müqayisədə aşağıdır və qrafomotor bacarıqlarının formalaşması çətinlikləri mövcuddur.

Особенности развития мелкой моторики у детей с задержкой психического развития

РЕЗЮМЕ

Задержка психического развития (зпр) - это заболевание, которое проявляется у детей в комплексе с нарушением различных компонентов психической, психологической и физической активности. ЗПР занимает позицию между нормой и патологией. В случае задержки психического развития проявляется неравномерное формирование различных психических функций. Кроме того, глубина или степень недоразвитости неравенства также могут быть различными. Навыки самообслуживания, технические навыки, моделирование, аппликация у детей этого типа формируются слабо. Многие дети не знают, как правильно держать карандаш или кисть, не регулируют силу нажима и испытывают трудности с использованием ножниц. У детей с задержкой психического развития нет грубых двигательных нарушений, но уровень физического и двигательного развития низок по сравнению со сверстниками, имеются трудности в формировании графомоторных навыков.

Developmental characteristics of small motor skills in children with slowing mental development

SUMMARY

It is a complex self-manifested pathology in children with slowing mental development (SMD), with a violation of different components of mental, mental and physical activity. SMD forms a position between the norm and pathology. In the case of mental development

sluggishness, an uneven formation of various mental functions manifests itself. Also, the degree of depth or underdevelopment of the unevenness can also be different. Self - service skills, technical skills, modeling, application are poorly formed in children of this type. Many children do not know how to properly hold a pencil or brush, do not adjust the pressure force and have difficulty using scissors. In children with slowing mental development there is a violation of rough movement, but the level of physical and motor development is lower than in peers, and there are difficulties in the formation of graphomotor skills.

Əhmədli Nərgiz Ceyhun qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

KİÇİK MƏKTƏBYAŞI DÖVRÜNDƏ HİPERAKTİVLİK VƏ DİQQƏT DEFİSİTLİYİ OLAN UŞAQLARIN AİLƏDƏ TƏRBİYƏSİ

Açar sözlər: *kiçik məktəb yaşı dövrü, hiperaktivlik, diqqət defisitliyi, ailə, tərbiyə*
Ключевые слова: *младший школьный возраст, гиперактивность, дефицит внимания, семья, воспитание*
Key words: *earlyschoolage, hyperactivity, attentiondeficit, family, upbringing*

Diqqət çatışmazlığı və hiperaktivlik probleminin çox yayılması və sosial əhəmiyyəti səbəbindən günümüzün aktual məsələlərindən biridir.

Cəmiyyətin bioloji və sosial-mədəni təkrar istehsalını təmin edən bir sosial institut kimi ailə, hər bir fərdin formalaşmasında, inkişafında, bir insanın ictimai həyata tam şəkildə daxil edilməsində, mədəni normaların, dəyərlərin, hədəflərin mənimsənilməsində mühüm rol oynayır. Kiçik məktəb yaşıdövründəhiperaktivlik və diqqət defisitliyininsubyektiv keyfiyyətləri qismən ailədə formalaşır. Hiperaktivlik və diqqət defisitliyi sindromu olan uşaqların valideynləri uşağın davranışında ciddi problemlərlə qarşılaşırlar və çox vaxt onları təkbaşına həll edə bilmirlər. Belə problemlə qarşılaşan valideynlərin səylərinin uğursuzluğu tez-tez stresli və hətta depresif vəziyyətlərin yaranmasına səbəb olur. Artan fiziki aktivliyi olan uşaqların tərbiyəsi və tədrisi problemi daima valideynlərini, müəllimləri, məktəb psixoloqlarını narahat edir. Tərbiyə çox uzun davam edən və effektivliyini dərhal müəyyənləşdirmək çətin olan spesifikliyi iləseçilən bir prosesdir. Bir çox valideynlər bir uşağın tərbiyəsini uzun, sistemli vəməqsədyönlü bir proses kimi qəbul etmirlər.Ümumiyyətlə, bu cür uşaqların davranışı ətrafdakı böyüklərin yanlış pedaqoji yanaşması: tez-tez qışqırmaq, tənqid, cəza, lağa qoyma, qadağalar vəs. səbəbindən formalaşır. Hiperaktivlik və diqqət defisitliyi olan uşaqlarla tərbiyə prosesində valideynlərin əsas səhvi uşağı cəsarətləndirməməsi, tərifləməməsi və müvəffəqiyyətinə vurğu etməməsidir.Valideynlərin hiperaktivliyi olan bir uşağa olan tələbləri çox vaxt yaşlarına vəbacarıqlarına uyğun olmur. Hiperaktivliyi olan uşaqlarla tərbiyə işi zamanı ataların tərbiyədəki fəal iştirakı çox vaxt şişirdilmiş qadağalarla nəticələnir. Uşağın sərt şəkildə tərbiyəolunmalı olduğuna inanırlar, sərt nizam-intizam şəklində uşağı böyütməklə bütün problemlərin öhdəsindən gələ biləcəklərini düşünürlər. Xüsusən də, 8 yaşdan yuxarı övlad böyüdən atalar fərqli bir rəftara sahib olurlar. Gerçəklikdə isə cəza qorxusu uşağı sakitləşdirə bilər, ancaq qorxu obyektinin yaxın olduğu müddətdə, yəni, atanın tələbləri yalnız onun nəzarətində yerinə yetirilir. Ailədə uşaq üçün tələblərin birliyinin olmaması, valideynlərdən biri icazə verdikdə, digərinin qadağan etməsi belə uşaqların tərbiyə prosesi üçün tamamilə qəbuledilməzdir. Belə vəziyyətdə uşaq ana tərəfindən icazə verilməyən şeyin nənə və ya baba ilə ola biləcəyini anlayır vədərhal özünə uyğun bir nəticə çıxarır - riayət edilməli olan qaydalar yoxdur, sadəcə olaraq hansı valideynlə nə etmək olar kimi anlayışlar var. Bütün bunlar birbaşa hiperaktivlik və diqqət defisitliyi problemindən əziyyət çəkən uşaqda yalan danışmaq, hiyləgərlik kimi mənfi davranışlara səbəb olur.

Hiperaktiv bir uşağın başqalarından fərqli olaraq tərifə ehtiyacı var, özü və hərəkətləri barədə müsbət qiymətləndirməyə çox həssasdır. Onunla aparılan bütün korreksiya işləri pozitivizmə və

sosial mühitdən hörmətə əsaslanır. Düzgün islah və inkişaf işinin təşkili üçün valideynlər və müəllimlər üçün pedaqoji məsləhətlər, seminarlar, söhbətlər, təlim məşqləri, görüşlərin təşkil edilməsi, düzgün ünsiyyət bacarıqlarını təşkil etmək üçün hiperaktiv şagirdlərlə birbaşa təmasda olmaq mütləqdir. Düzəliş problemini həll etmək üçün uşaq üçün müsbət emosional bir zəmin, onu olduğu kimi qəbul edilmə atmosferi yaratmaqda ailənin və məktəbin birliyini həyata keçirmək lazımdır.

Hiperaktivliyin təzahürləri situasiyadan asılıdır və ailə sistemindəki kiçik struktur dəyişiklikləri ilə güclənir. Məsələn, valideynlərin boşanması, ailə üzvlərinin birinin alkoqollu vəziyyətdə olması və başqa amillərin təsiri qaçınılmazdır. Ailədə ana və ata rollarını düzgün icra etmədikdə evliliyin alt sistemində düzgün formalaşmayan təməl anlayışlar əmələ gəlir. Bu kimi məsələlərdən isə daima daha çox zərər çəkən uşaqlardır. Beləki uşağın ictimailəşmə funksiyaları tez-tez ana tərəfindən həyata keçirilir, ata tərbiyə prosesində kifayət qədər iştirak etmir və s. kimi mənfi halların təzahürləri heç də yaxşı nəticələnmir. Uşaqlarda müəyyən psixi dəyişikliklərin əsası qoyulmağa başlayır.

Hiperaktiv uşaqlar abstrakt düşüncələri ilə fərqlənirlər, buna görə də belə uşaqlara vəzifələrini daha dəqiq təyin etmək lazımdır. Valideynlər uşaqlarla ünsiyyət prosesində uzun formullu cümlələrdən istifadə etməyə yönəlik olurlar lakin, belə uşaqla ünsiyyət qurarkən və onunla işləyərkən, mümkün qədər qısa və dəqiq danışmaq daha düzgündür. Bildiyimiz kimi, hiperaktiv uşağın əsas xüsusiyyəti - diqqətsizlikdir. Bu cür uşaqlara bir neçə təlimatı bir anda vermək nəticəsiz faəliyyət hesab olunur, məsələn, "oyuncağı götür, əllərini yu və yeməyə başla" kimi, uşaq bütün bu məlumatları çətinliklə qəbul edir, mütləq diqqəti başqa bir məşğuliyyətə yayınır və nəticədə heç bir işi düzgün, vaxtında yerinə yetirə bilmir.

Kiçik məktəb yaşıdövründə uşağın şəxsiyyətindəki və davranışındakı mənfi keyfiyyətləri, yaxud hiperaktivlik və diqqət defisitliyi problemini aradan qaldırmaq üçün valideynlər funksiyalarını doğru icra etmiş olsalar, mərhələli şəkildə bu problem yox olacaqdır. Gələcəyimiz olan uşaqları hər zaman diqqət mərkəzində saxlamalı və problemləri ilə yaxından məşğul olmalıyıq.

Ədəbiyyat

1.Арцишевская И. Л. Работа психолога с гиперактивными детьми в детско саду. 2003.

2.Заваденко Н.Н. Гиперактивность и дефицитвнимания в детскомвозрате: учебное пособие для вузов. 2018.

3. Заломихина И.Ю. Синдром дефицита внимания с гиперактивностью удетей. 2007.

4. Астапов В.Н. “Введение в дефектологию с основаминейро- ипатопсихологии”, М., Международная педагогическая академия, 1994г.

5. Чутко Л.С. Синдром дефицита внимания с гиперактивностью и сопутствующие расстройства. 2007

XÜLASƏ

Kiçik məktəb yaşı, uşağın şəxsiyyətinin inkişafında ən vacib mərhələdir. Çünki məktəbdə uşaqlar özlərini yeni bir sosial vəziyyətdə tapırlar, həyat tərzlərini dəyişdirirlər. Bir çox vacib dünyagörüşünün təməli ibtidai məktəb yaşlarında qoyulur. Bununla birlikdə, diqqət çatışmazlığı olan uşaqlarda psixofizioloji funksiyaların inkişafında minimal bir gecikmə belə, subyektivliyin formalaşmasını əhəmiyyətli dərəcədə çətinləşdirə bilər. Valideynlər erkən məktəb yaşında şəxsiyyət və davranış mənfi keyfiyyətlərini, yəni hiperaktivliyi və diqqət çatışmazlığını aradan qaldırmaq üçün öz funksiyalarını düzgün yerinə yetirsələr, bu problem tədricən aradan qalxacaqdır.

Гиперактивность и дефицитвнимания в раннем школьном возрасте воспитание детей в семье

РЕЗЮМЕ

Младший школьный возраст – важнейший этап в развитии личности ребенка. Потому что в школе дети попадают в новую социальную ситуацию, меняют образ жизни.

Основы многих важных мировоззрений закладываются в младшем школьном возрасте. Однако даже минимальная задержка развития психофизиологических функций у детей с дефицитом внимания может существенно затруднить формирование субъективности. Эта проблема постепенно исчезнет, если родители будут правильно выполнять свои функции попреодолению негативных качеств личности и поведения в раннем школьном возрасте, то есть гиперактивности и дефицита внимания. Мы всегда должны обращать внимание на детей, которые являются нашим будущим. Когда чувствуется какая-то проблема, необходимо во время ее устранить, чтобы дети не оставляли следов, когда вырастут.

Hyperactivity and attention deficitinearlyschoolage raisingchildreninthefamily

SUMMARY

Early school age is the most important stage in the development of a child's personality. Because at school, children enter a new social situation, change their lifestyle. The foundations of many important mindsets are laid in the primary school age. However, even a minimal delay in the development of psychophysiological functions in children with attention deficit can significantly hinder the formation of subjectivity. This problem will gradually disappear if the parents perform their functionscorrectly to overcome the negative qualities of personality and behavior during the early school years, ie hyperactivity and attention deficit. We must always pay attention to the children who are our future. When any problem is felt, it is necessary to eliminate it in time so that children do not leave traces when they grow up.

İmanova Sevil Cavanşir qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

ZƏİF EŞİDƏN UŞAQLARIN İNKLÜZİV TƏHSİLİNİN TƏŞKİLİ VƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *inklüziv təhsil, zəif eşidən uşaq*
Ключевые слова: *инклюзивное образование, слабослышащий ребенок*
Key words*: inclusive education, hearing impaired children*

2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

Dövlət Proqramının vəzifəsi sağlamlıq imkanları məhdud şəxslərin bütün təhsil pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək üçün hüquqi aktların təkmilləşdirilməsi, təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin hazırlanması, sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial adaptasiyasının əhəmiyyəti barədə təbliğat və ictimai maarifləndirmə işinin aparılmasıdır.

Zəif eşidən uşaqların inklüziv təhsili üçün təklif olunan psixoloji dəstək modelində müəllimlərlə iş əsas yerlərdən birini tutur. İnklüziv məktəbin kadr tərkibi aşağıdakı kimi müəyyən olunmuşdur:

- Müəllimlər
- Sosial pedaqoq
- Surdopedaqoq
- Xüsusi psixoloq
- Loqoped

Zəif eşidən şagirdlərə tibbi dəstək inklüziv təhsil şərtlərinin yaradılması üçün əsas şərtlərdən biridir. Məktəblilərin sağlamlığını qoruma proqramı çərçivəsində eşitmə orqanının xəstəliklərinin qarşısının alınması və erkən diaqnozu, məktəblilərin tibbi müayinəsi və təhsil müəssisələrində profilaktik tədbirlər sisteminin təşkili eşitmə müayinəsinin proqrama daxil edilməsini zəruri edir.

Tibbi dəstəyin eyni dərəcədə əhəmiyyətli bir sahəsi, zəif eşidən uşaqların görmə qabiliyyətinin qorunmasıdır. Təhsil prosesində oftalmoloji və gigiyenik tələblərə riayət etmək, xüsusi profilaktik tədbirlərin görülməsi (göz gərginliyini və görmə yükünün müddətini məhdudlaşdırmaq, müəyyən fəaliyyət növünü digəri ilə daim dəyişdirmək; dərsdə gözlər üçün xüsusi məşqlər etmək; evdə uşaqların istirahət rejimi və fəaliyyəti barədə valideynlərlə söhbət etmək) tövsiyyə olunur.

Məktəbdə xüsusi təhsil şəraitinin yaradılması, maddi-texniki bazanın təşkilini təmin etmək lazımdır. Nəticə etibarilə, sinifin quruluşu əlverişli bir şəkildə hazırlanmalı və uşaqlar üçün əyani material olaraq əlçatan stendlər (məktəbdaxili davranış qaydaları, təhlükəsizlik qaydaları, məktəbin fəaliyyət qaydaları / rejimi, dərs cədvəli, məktəbdəki son hadisələr və s.) olmalıdır.

Zəif eşidən uşağın təhsil aldığı sinifdə tədris prosesinin təşkili zamanı müəllim bir sıra qaydalara riayət etməlidir:

1. Surdopedaqoq və uşağın valideynləri ilə sıx əməkdaşlıq;
2. Zəif eşidən uşağın həmyaşıdları ilə qarşılıqlı fəaliyyətinin stimullaşdırılması;
3. Müəllimin iş mühitinin təşkili: şifahi izahatlar zamanı əyani və didaktik materialdan istifadə; uşağın tapşırıqları başa düşməsinə nəzarət və icrasından əvvəl təlimat vermək və s.;
4. Zəif eşidən uşağın təlimi üçün mühitin təşkili: eşitmə cihazının olması; fərdi didaktik dərsliklər və s. üzərində işləmək;
5. Dərs zamanı korreksiya istiqamətli problemlərin həlli: eşitmə diqqətini stimullaşdırmaq; nitqdəki səhvlərin aradan qaldırması və qrammatik cəhətdən düzgün danışıq bacarıqlarının inkişafı; söz ehtiyatının genişləndirilməsi, söz və ifadələrin izahı.

Ümumi təhsil müəssisələrində zəif eşidən uşaqlarla istifadəsi tövsiyə olunan iş üsulları və vasitələri xüsusidir. Müəllimin vəzifəsi korreksiya problemlərini həll etmək deyil, xüsusi metod, texnika və s. istifadə edərək zəif eşidən uşaq üçün tədris prosesini mümkün qədər təsirli hala gətirməkdir. Eyni zamanda, müəllim üçün hər bir dərsin ümumtəhsil məktəbinin sinifindəki bütün şagirdlər üçün aparıldığını unutmaması vacibdir. Sinifdə hər bir uşağın fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

Məktəb psixoloqu tibbi-psixoloji-pedaqoji şuranın mütəxəssisləri arasındadır. Psixoloq uşağın idrak inkişafının mövcud səviyyəsini müəyyənləşdirir, yaxın inkişaf zonasını təyin edir. Uşaqların emosional-iradi sferasının xüsusiyyətlərini ortaya çıxarmaq, uşaqların şəxsi xüsusiyyətləri, həmyaşıdları, valideynləri və digər böyüklər ilə qarşılıqlı əlaqənin xarakterini aşkara çıxarmaq onların təlim prosesinə və kollektivə adaptasiyasında xüsusi rol oynayır. Psixoloq uşaqlarla korreksiya-inkişafetdirici prosesin istiqamətini, mahiyyətini və müddətini müəyyənləşdirir. Həmçinin psixoloq uşağın öyrəndiyi sosial mikro-mühiti humanistləşdirmək vəzifəsini qarşıya qoyur və həll edir. Bunun üçün müəllimə və digər mütəxəssislərə həm zəif eşidən uşağın valideynləri, həm də normal eşidən uşaqların valideynləri ilə konstruktiv qarşılıqlı əlaqə qurmağa kömək edir. Psixoloji dəstək müəllim və tərbiyəçilərin, digər mütəxəssislərin, eləcə də valideynlərin səriştəsini artırır.

Zəif eşidən uşağın təhsil müəssisəsində müvəffəqiyyətlə təlim alması üçün əsas şərtlər, eşitmə qüsuru dərəcəsinin və tibbi dəstəyin adekvat bir şəkildə müəyyənləşdirilməsi, eşitmə cihazı modelinin seçilməsi, uşağın fərdi olaraq hazırlanmış audiogramının dəqiq bir şəkildə tənzimlənməsidir. Bütün bunlar ona təlim prosesində fəal iştirak etməyə və hər hansı bir kommunikativ vəziyyətdə özünə inam hiss etməyə imkan verir.

Uşaqların nitq inkişafının xüsusiyyətləri şifahi metodlardan istifadə edərkən müəyyən şərtlərə riayət edilməsini tələb edir:

- uşaqların diqqətini dərsin mövzusuna, oyun texnikasından istifadə edərək yeni sözlərə və təriflərə cəlb etmək;
- ilk mərhələlərdə alqoritmləşdirilmiş və fərdi kartda və ya lövhədə qısa yazılar, siyahılar, diaqramlar şəklində təqdim olunan yeni materialın strukturlaşdırılmış izahı;
- zəif eşidən uşaqlarla işləyərkən surdopedaqogikada istifadə olunan xüsusi texnikanın istifadəsi.

Məktəbdə formalaşmış ənənəvi sinif-dərs sistemi kontekstində qrup, komandalar, cütcüt işləmək və müəllimin tələbə ilə fərdi işi kimi iş formalarından geniş istifadə etmək mümkündür. Kar və ya zəif eşidən uşağın sinifin kollektiv işində iştirak etməsi üçün imkanlar yenilikçi formada dərslər keçirməklə verilir: işgüzar rol oyunları, tədris və praktik dərs. Zəif eşidən uşağın digər şagirdlərlə birlikdə yaradıcılıq layihəsində iştirakı, bu layihələrin təqdimatı böyük potensiala sahibdir.

İnklüziv təhsildə loqopedik dərslər fərdi və qruplarla keçirilir. Burada zəif eşidən uşaqlarla yanaşı onların normal eşitmə qabiliyyətinə malik sinif yoldaşları da iştirak edə bilərlər. Fərdi və qrup dərslərində nitq materialını (səslər, hecalar, sözlər, cümlələr, mətnlər üzərində iş) xüsusi mürəkkəb akustik şəraitdə qəbul etmək (danışanın mövqeyi və s.), məlumatı qəbul etmək və təhlil etmək, dialoq kontekstində müzakirə olunan mövzuya cavab bacarığı inkişaf etdirilir. Burada zəif eşidən şagirdlərin ünsiyyət bacarıqları formalaşır və təkmilləşdirilir, şəxsiyyətlərarası qarşılıqlı əlaqə (dialoqlar, mini dialoqlar, rol oyunlar), yalnız öz nitqini idarə etmək bacarığı deyil, həm də yoldaşlarının nitqini anlamaq bacarığı inkişaf edir.

Dərsin bir hissəsi, eşitmə qavrayışının inkişafı üzərində işləməklə yanaşı görmə qavrayışı üzərində işləmək üçün təyin edilmişdir. Beləliklə, dodaqdan oxuma bacarığı eşitmə təcrübəsini tamamlayır və səsli nitqi qəbul etmək vəzifəsini xeyli asanlaşdırır, eşitmə qüsurlu şagirdlərin ətrafdakı insanlarla ünsiyyət sahəsini genişləndirir.

İnklüziv təhsil prosesində zəif eşidən uşaqlar yaşıdları ilə ünsiyyət qurmağı daha təsirli bir şəkildə öyrənə bilər, fiziki və sosial baxımdan digər uşaqlardan daha az təcrid olunmuş hiss edə, müəyyən akademik və ya peşə imkanlarına sahib ola bilərlər. Zəif eşidən uşaqlar üçün inklüziv təhsil həm ümumi, həm də ixtisaslaşmış məktəblərdə həyata keçirilə bilər.

Ədəbiyyat

1. Инклюзивное образование. Выпуск 1. – М.: Центр «Школьная книга», 2010.
2. Тимохина Т.В. Инклюзивно ориентированное образование //Перспективы науки и образования. — 2014.
3. Сибирский вестник специального образования. – 2013.
4. Создание специальных условий для детей с нарушениями слуха в общеобразовательных учреждениях. Серия «Инклюзивное образование» Москва, 2012

Zəif eşidən uşaqların inklüziv təhsilinin təşkili və xüsusiyyətləri

XÜLASƏ

İnklüziv təhsil həm sağlam, həm də sağlamlıq imkanları məhdud uşaqların bərabər təhsil almaq hüququnu təmin edir ki, bu da cəmiyyətdə sosial bərabərliyin qorunmasına və sağlamlıq imkanları məhdud uşaqların təhsili və digər xüsusi ehtiyaclarına xidmət edir. İnklüziv təhsil, eyni sinifdə birlikdə təhsil alan müxtəlif uşaqlar deməkdir.

Organization and features of inclusive education of hearing-impaired children

SUMMARY

Inclusive education ensures the right of both healthy and disabled children to equal education, which contributes to the protection of social equality in society and the provision of education and other special needs of children with disabilities. Inclusive education means different children learning together in the same classroom.

Организация и особенности инклюзивногообразования слабослышащий детей

РЕЗЮМЕ

Инклюзивное образование обеспечивает право как здоровых детей, так и детей-инвалидов на равное образование, что способствует защите социального равенства в обществе и обеспечению образования и других особых потребностей детей с ограниченными возможностями. Инклюзивное образование означает, что разные дети учатся вместе в одном классе.

Babayeva Zəhra Etibar qızı

ADPU, Korreksiyaedici təlimin metodikası və metodologiyası, III kurs magistrantı

PSİXİ İNKİŞAFINDA LƏNGİMƏ OLAN 5-6 YAŞLI UŞAQLARIN HAFİZƏSİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *psixi inkişafda ləngimə,hafizə, psixoloji və sosial amillər, məktəbəqədər yaşlı uşaqlar, koqnitiv fəaliyyətin pozulması, əyani hafizə, eşitmə hafizəsi*

Key words: *mental retardation, memory, psychological and social factors, preschool children, cognitive impairment, visual memory, auditory memory*

Məktədə təlim mərhələsində PİL olan uşaqlar, bir qayda olaraq, çətinlik çəkirlər. Bu, ilk növbədə, psixi inkişafında ləngimə kateqoriyasınaaid olan uşaqlarda idrak proseslərinin formalaşmasında ortaya çıxan çətinliklərlə əlaqədardır. Aparılan çoxlu sayda tədqiqata əsasən hafizənin zəif inkişafı idrak pozulmalarında həlledici rol oynayır. Psixi inkişafında ləngimə olan uşaqların təhsil sistemi, həmyaşıdları üçün norma ilə qəbul edildiyi eyni cilddə ümumi təhsil proqramını tam mənimsəmələrini təmin edir. Ancaq belə bir nəticənin əldə edilməsi yalnız psixi inkişafında ləngimə olan uşaqlarda hafizəni inkişaf etdirmək üçün məqsədyönlü korreksiya işi qurarkən və onu yaxşılaşdırmaq üçün əlavə yollar axtararkən mümkündür.

Əksər hallarda, psixi inkişafında ləngimə olan uşaqlarda hafizənin inkişafı problemi müəlliflər tərəfindən ibtidai məktəb yaşındakı uşaqlara münasibətdə əks olunur. Bu, məktəbə qəbul zamanı təhsil və idrak fəaliyyətinin uşağın inkişafının aparıcı və müəyyənedici halına gəlməsi ilə əlaqədardır. Həm də ibtidai siniflərdə öyrənmə zamanı uşağın hazırlıq səviyyəsinə və onun bilik və bacarıqlarının formalaşmasına dair tələblər əhəmiyyətli dərəcədə artır. Beləliklə, müəyyən bir yaşda hafizənin inkişaf səviyyəsi uşağın bütün öyrənmə quruluşunda həlledici rol qazanır.

Müxtəlif psixoloji-pedaqoji, eləcə də tibbi tədqiqatlara görə hafizə pozulması PİL-nin xarakterik əlamətidir. Eyni zamandabəzi mnemonik proseslərin və hafizənövlərinin nisbi saxlanılması zamanıdigərləri daha yüksək dərəcədə zədələnə bilər.

PİL olan məktəbəqədər yaşlı uşaqlarda hafizənin az inkişafının səbəbləri bir çox müəllifin - V.S.Muxina, P.I.Zinchenko, A.A.Smirnov və başqalarının tədqiqat obyekti olmuşdur. Nəticədə, bu hadisənin səbəblərinin müxtəlif tibbi amillər kimi çıxış edə biləcəyi, məsələn, uşağın əziyyət çəkdiyi somatik xəstəliklər və onların nəticələri, beyin strukturlarının yetişmə sürətindəki pozuntular olduğu təsbit edilmişdir. Müxtəlif psixoloji və sosial amillər də məktəbəqədər yaşlı uşaqlarda hafizənin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Nəticədə, məlumatların əzbərlənməsi və ifadəsi sürətində əhəmiyyətli dərəcədə zəifləmə, əzbərlənmiş materialın həcmində azalma vardır.

Yuxarıda göstərilən amillərlə birlikdə tədqiqatçılar psixi inkişafında ləngimə olan uşaqlarda hafizə pozulmalarının bir çox cəhətdən öz fəaliyyətlərinin təşkili xüsusiyyətləri ilə əlaqəli şəkildə baş verdiyini qeyd edirlər. Psixi inkişafında ləngimə olan uşaqlar əhəmiyyətli çətinliklərlə qarşılaşdıqları üçün, lazım olduqda, fəaliyyətlərini rasional və səriştəli şəkildə təşkil edirlər. Bundan əlavə, əzbərləmə metodları və üsullarının düzgün seçilməsinə və istifadəsinə ehtiyac məktəbəqədər yaşlı uşaqlar üçün ciddi çətinliklər yaradır.

Ayrı-ayrı müəlliflərin araşdırmalarına görə, müxtəlif təsnifat, meyar və xüsusiyyətlərə görə çox sayda hafizə növü müəyyən edilmişdir. Uşaqda görünən və inkişaf etməyə başlayan ilk hafizə növü istər-istəməzdir. Bu tip hafizəni təsvir edən ilk alimlərdən biridir. P.I.Zinchenko və A.A.Smirnov olmuşdur.

Yuxarı məktəbəqədər yaşa qədər uşağın əzbərləməyə ehtiyac yoxdur, özünə belə bir məqsəd qoymur. Ancaq onsuz da 5-6 yaşa qədər bunu və ya digər məlumat əzbərləmək fəaliyyətin hədəfi ola bilər. Bir yaşlının rəhbərliyi altında uşaqlar materialı xüsusi olaraq əzbərləməyə, müəyyən bir anda xatırlamağa, məlumatları yadda saxlamağın və saxlamağın yollarını düşünməyə çalışırlar. Həm də müəyyən bir anda mümkün qədər dəqiq şəkildə ifadə etməyə çalışırlar. Beləliklə, məktəbəqədər yaşlı uşaqda ixtiyari hafizə yaranır, çünkü uşaq hərəkətlərini müəyyən bir hədəfə tabe etməyi, fəaliyyətinə və davranışına nəzarət etməyi öyrənir. Tənzimləmə funksiyasını da nitq yerinə yetirməyə başlayır.

Öz tədqiqatlarında Z.M.Istomin qeyd edir ki, inkişafın ilk mərhələlərində uşaq fəaliyyətdə bir məqsəd qoymur və hərəkətlərini yadda saxlamaq vəzifəsinə tabe etmir, hətta bir yaşlının onun qarşısına məqsəd qoysa belə. Buna görə, uşaq tərəfindən xatırlanan hər şey,birbaşa aktiv fəaliyyət prosesində ixtiyari baş verir. Bir qayda olaraq, uşaqlar onlar üçün maraqlı, yeni və cəlbedici olanı xatırlayırlar.

Bütün məktəbəqədər uşaqlıq dövrü qeyri-ixtiyari hafizənin üstünlük təşkil etməsindən ixtiyari olmağa tədricən keçid ilə müşayiət olunur.

Psixi inkişafında ləngiməolan məktəbəqədər uşaqların müşahidələrinin nəticələrinə görə, qeyri-ixtiyari hafizənin üstünlük təşkil etdiyi mərhələdə hafizənin inkişafı səviyyəsində açıq bir azalma baş verir. İnkişaf norması olan həmyaşıdlarının təbii olaraq xatırladıqlarını, gündəlik fəaliyyətlərində psixi inkişafında ləngiməolan uşaqlar yalnız onlarla məqsədyönlü iş prosesində öyrənə bilərlər.

Bu, həm də psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqların aşağı işgüzarlq səviyyəsi ilə xarakterizə olunduqları, tez yorulduqları və tapşırığı yerinə yetirməkdən imtina etdikləri ilə müəyyən edilir. İş prosesində həddindən artıq passiv və ya son dərəcə həyəcanlanırlar. Bütün idrak prosesi aşağı fəaliyyət səviyyəsi və məlumatın qəbulu, saxlanması və ifadəsi sürəti ilə müşayiət olunur. Koqnitiv fəaliyyətin pozulmasında aparıcı simptom olan hafizə inkişafı səviyyəsinin azalmasıdır.

Y.Q.Demyanov tədqiqatlarını psixi inkişafında ləngiməolan uşaqlarda görmə və eşitmə hafizəsinin öyrənilməsinə həsr etmişdir.O,həm bir, həm də başqa bir hafizə növünün inkişafındakı pozulmaları qeyd edir. Təcrübələrin nəticələrinə görə, məlumatları ifadə edərkən uşaqlar tez-tez sözləri oxşar səslənən sözlərlə əvəz edirlər və ya düşünmədən təkrarlayırlar. Daha az -az, uşaqlar əvvəlcə mətndə olmayan sözləri söyləməyə başlayırlar.

Məktəb təlimi haqqında danışırıqsa, ilk zamanlar materialı mənimsəyəndə aparıcı rol materialın qeyri-ixtiyari hafizəyə verilir. Bu müddətdə uşaq ən maraqlı və mənalı olanı öyrənməyi bacarır. Uşaq qeyri-ixtiyari hafizə işi nəticəsində çox sayda vacib material mənimsəməyi bacarır.

Psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlarda hafizənin öyrənilməsi məsələsi ilə V.S.Muxina da məşğul olmuşdur. O ixtiyari hafizənin inkişafındakı gecikmənin ümumiyyətlə altı yaşındakı uşaqların psixi inkişafında ləngimə ilə üst-üstə düşdüyünü ortaya çıxardı. Beləliklə, V.S. Muxina, hafizənin korreksiyası, uşağın inkişafının sosial vəziyyətinin qurulmasını, psixi inkişafında ləngimə olan uşağın ətraf mühitlə müsbət bir əlaqəsini qurmağı əhatə edən uşaqla ümumi psixoloji-pedaqoji işin ayrılmaz bir hissəsi olmalıdır, normadan geri qalan bilik, bacarıq və bacarıqların inkişafı. Belə bir iş olmadıqda, hafizənin inkişaf səviyyəsi tənzimlənə bilməz.

Psixi inkişafında ləngiməolan məktəbəqədər yaşlı uşaqların hafizəsinın eksperimental tədqiqini T.V.Yeqorova aparır. Onun işində, PİL olan məktəbəqədər yaşlı uşaqlarda qeyri-ixtiyarihafizənin məhsuldarlıq səviyyəsi müəyyən edilmişdir. T.V.Egorova uşaqlar üçün aşağıdakılardan ibarət olan tapşırıqların istifadəsini nəzərdə tuturdu: subyektlər onlara təklif

olunan şəkilləri təklif olunan şəkillərin adlarının əvvəlində olan hərflərə uyğun olaraq qruplara ayırmaq məcburiyyətində qaldı. Bundan əlavə, uşaqlar şəkillər adında onlara təklif olunan sözlər üçün antonimlər seçməli idilər. Təcrübə üçün bir şərt, uşağın ona təklif olunan materialı xatırlamaması idi. Ancaq şəkillərlə manipulyasiya etdikdən sonra, uşaqdan istifadə etdiyi materialı ifadə etməsi istəndi.

Tədqiqat göstərir ki, PİL olan məktəbəqədər yaşlı uşaqların nəticələri normal inkişafda olan həmyaşıdlarından xeyli aşağıdır. İnkişafında çatışmazlıqlar olan uşaqlar ilə inkişaf norması olan yaşıdları arasındakı əsas fərq, qarşında duran hədəfə qarşı qeyri-bərabər münasibət idi. İnkişafında çatışmazlıqlarolan məktəbəqədər yaşlı uşaqlar üçün təklif olunan materialı xatırlamağa çalışmadıqları, buna nail olmağın yollarını axtarmadıqları və tapşırığı yerinə yetirdikdən sonra onu ifadə etməyə çalışmadıqları xarakterik idi. Bu baş versə belə, uşaqların hərəkətləri tamamilə başqa bir məqsədə tabe idi. Yəni, məktəbəqədər yaşlı uşaqlar əvvəllər eşitdikləri sözləri xatırlamağa və ifadə etməyə çalışmadılar, yenilərini fikirləşdilər.

T.V.Egorovanın başqa birəsəri psixi inkişafında ləngimə olan məktəbəqədəryaşlı uşaqlarda vasitəçiliklə yadda saxlama xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir. Bu parametrləri müəyyən etmək üçün müəllif materialın qəsdən əzbərlənməsi üçün müxtəlif variantları özündə birləşdirən bir sıra metodika həyata keçirdi - uşaqlardan bunun səbəbləri və nəticələri ilə əlaqəli hadisələri əks etdirən çox uzun olmayan bir mətn yadda saxlamaları istənildi. Təcrübənin nəticələri təcrübədə iştirak edən məktəbəqədər yaşlı uşaqlarda həm kəmiyyət məlumatları, həm də keyfiyyət göstəricilərini nəzərə aldı.

Bu tədqiqatdan alınan məlumatların təhlili zamanı psixi inkişafında ləngiməolan məktəbəqədəryaşlı uşaqların dolayıyadda saxlama prosesinin xarakterik xüsusiyyətləri aşkar edilmişdir. Çox vaxt, tapşırığın əyani materiala əsaslaırdısa, PİL olan uşaqlar göstəricilərində yaşıdlarına norma ilə yaxınlaşdılar. Ancaq əvvəllər görülən şəkillərə əsaslanan sözləri xatırlamaq tələb olunurdusa, uşaqlar çətinlik çəkirdilər. Ya lazımlı sözləri ümumiyyətlə səsləndirmədilər, ya da olmayan sözləri fikirləşməyə başladılar.

N.G.Poddubnayanın əsərlərində uşaqların qeyri-ixtiyarihafizə, xüsusən də əzbərləmənin asılılığı ilə bağlı məsələləri nəzərdən keçirdi. Normal inkişaflı uşaqlarla müqayisədə,PİL olan məktəbəqədər yaşlı uşaqlar məhsuldarlıqda və təklif olunan materialın düzgün bərpasında əhəmiyyətli azalma göstərdilər. N.G.Poddubnaya tədqiqatında uşaqların görmə materialını şifahi deyil, daha yaxşı qəbul etdiklərini və buna görə əyani hafizəni eşitmə hafizəsindən daha yüksək inkişaf səviyyəsində olduğunu ortaya qoydu. Həm də müəllifin işinin nəticələrinə görə könüllü hafizənin istər-istəməz yaddaşdan daha çox təsirləndiyi və bununla daha mükəmməl və uzunmüddətli islah işləri tələb olunduğu aşkar edilmişdir.

Qeyri-ixtiyari hafizə, artıq qeyd olunduğu kimi, ixtiyari hafizəyə nisbətən ontogenetik cəhətdən daha erkən hafizə növüdür. Ancaq inkişafı bütün məktəbəqədər yaş dövründə baş verir. Bununla birlikdə, daha böyük məktəbəqədər yaşa qədər normal olaraq ixtiyari hafizəyə aparıcı rol oynamalıdır. Uşağın bütün fəaliyyətlərinin, ümumiyyətlə uşağın bütün davranışları kimi məqsədyönlü, tənzimlənməli və idarə olunmalı olduğu güman edildiyi üçün.

L.V.Zankov tədqiqatlarını psixi inkişafında ləngimə olan uşaqlarda mnemonik fəaliyyətdəki semantik və mexaniki əzbərləmə arasındakı əlaqə probleminə həsr etmişdir. Psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlarda əsasən mexaniki əzbərləmə üstünlük təşkil etdiyini və semantik əzbərlənmənin yalnız məqsədyönlü korreksiya işləri aparıldığı zaman gerçəkləşdiyini aşkar etdi.

Psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqların bütün inkişafı normadan orta hesabla 2-3 il geri qalır. Bu, hafizənin və mnemonik fəaliyyətin inkişaf səviyyəsinə də aiddir. Məktəbəqədər yaşda, onlar artıq vasitəçiliklə əzbərləmə və materialın şüurlu şəkildə ifadəsi proseslərini inkişaf etdirmişlər. Psixi inkişafında ləngiməolan uşaqlarda bu ən çox yalnız xüsusi təşkil olunmuş iş olmadan ibtidai məktəb yaşının sonuna qədər baş verir.

Çox vaxt psixi inkişafında ləngimə olan bir uşağın ixtiyari hafizə prosesində ortaya çıxan

çətinliklər, uşağın fəaliyyətin qarşıya qoyulmuş məqsədini tam anlamaması, yəni materialın lazım olduğunu başa düşməməsi ilə əlaqələndirilir. Bəzən eyni vəziyyət inkişaf normaları olan uşaqlarda məktəbə başlama zamanı müşahidə olunur. Beləliklə, uşaqların onlara verilən tapşırığı başa düşmədikləri üçün uyğun və təsirli əzbərləmə üsullarını və metodlarını düzgün seçə bilmirlər. Yəni ən yaxşı nə edəcəyini bilmirlər - mətni ucadan danışmaq, hissə-hissə əzbərləmək və ya məlumatları çox dəfə təkrarlamaq. Bu vəziyyətdə fəaliyyətin məhsuldarlığı praktik olaraq yoxdur və mnemonik fəaliyyət yalnız istər-istəməz əzbərləməyə əsaslanır.

PİL olan məktəbəqədər yaşlı uşaqlar məqsədyönlülük, özünütənzimləmə və fəaliyyətə özünənəzarətdə ciddi çətinliklər çəkirlər. Uşaqlar tez-tez mnemonik fəaliyyətin məqsədini bir nəticə əldə etməkdə deyil, yalnız bir sıra hərəkətləri həyata keçirməkdə görürlər. Ancaq məlumatları yadda saxlamağın yüksək məhsuldarlığı yalnız fəaliyyətlərini, davranışlarını idarə etmək və materialın ifadəsinin düzgünlüyünü tənzimləmək üçün inkişaf etmiş qabiliyyət ilə mümkündür.

A.A.Smirnov və onun fikirlərini dəstəkləyən bir sıra digər müəlliflər, psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlarda semantik və ya məntiqi hafizədə əhəmiyyətli dərəcədə azalma olduğuna işarə etdilər. Üstəlik, A.A.Smirnov, semantik hafizəyə yiyələnməyin məktəbəqədər yaşlı uşaqların bütün psixi fəaliyyətinin əsasını təşkil etdiyini qeyd etdi. Bu prosesi düzəltmək üçün A.A.Smirnov, təsnifat və bu kimi psixi əməliyyatlardan istifadə etməyi təklif etdi.

Müəllifə görə, psixi inkişafında ləngiməolan məktəbəqədər yaşlı uşaqların mnemonik fəaliyyətinin əsası onlar olmalıdır.Müəlliflərin böyük əksəriyyətinin məlumatlarına görə, psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlarda inkişafda ən gecikən hafizə növü semantik və ya məntiqi hafizədir. Bu, uşaqların semantik məlumatların işlənməsi prosesində çətinlik çəkməsi ilə müəyyən edilir.

Çox az sayda iş PİLolan məktəbəqədər yaşlı uşaqlarda qısamüddətli hafizənin öyrənilməsinə həsr edilmişdir.

V.L.PodobedaPİL olan məktəbəqədər yaşlı uşaqlarda qısamüddətli hafizənin inkişafında xarakterik xüsusiyyətləri və çətinlikləri - əzbərlənmiş materialın həcmində əhəmiyyətli dərəcədə azalma, hətta məlumatları yadda saxlamaqda məhsuldarlığın artması prosesində yavaşlama olanları önə çəkənlərdən biri oldu. Təqdim olunan materialın çox sayda təkrarlanması, reproduksiya zamanı şifahi və rəqəmsal materialların düzgün qaydada saxlanmasının mümkünsüzlüyünü vurğulamışdır.

A.R.Luria əsərlərində qısamüddətli və mexaniki hafizən inkişafına da böyük diqqət yetirmişdir. Psixi inkişafında ləngiməolan məktəbəqədər yaşlı uşaqların hafizənin xarakterik xüsusiyyətlərinə əlavə olaraq müəllif hafizənin inkişaf səviyyəsinin, materialın əzbərlənməsi və çoxaldılmasının təbiətinin tamamilə uşaqlar tərəfindən mənimsənilməsi üçün məlumatların təqdim edilməsinin məzmununa, görünüşünə və metoduna bağlı olduğunu da qeyd etdi. Əlbətdə ən asan hafizədə qalan əyani, cəlbedici və maraqlı məlumatlardır.

Beləliklə, psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlarda hər növ hafizə və mnemonik proseslərin pozulduğu qənaətinə gəlmək olar. Bu, ilk növbədə, psixi inkişafında ləngimə olan uşaqların fəaliyyətinin xarakterik xüsusiyyətləri ilə müəyyənləşdirilir. Bundan əlavə, uşaqlar tapşırığa necə diqqət yetirəcəklərini və səylərini buna yönəltməyi bilmirlər. Qarşıya qoyulmuş bir məqsəd və materialı əzbərləmək istəyi olsa belə, uşaqlar materialı əzbərləmək üçün metod və üsulları müstəqil olaraq seçə bilmirlər.

Psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlar həm mənimsəyə bildikləri material həcmində, həm də ifadə dəqiqliyi ilə həmyaşıdlarından inkişaf norması ilə əhəmiyyətli dərəcədə fərqlənirlər.

Uzun müddətdir psixi inkişafında ləngimə olan uşaqlarda qeyri-ixiyari hafizəüstünlük təşkil edir. İxtiyari hafizənin inkişafı yalnız psixi inkişafında ləngiməolan məktəbəqədər yaşlı uşaqlarda hafizə və mnemonik fəaliyyətini korreksiyası üçün məqsədyönlü iş aparmaqla mümkündür.

Ədəbiyyat

1. Дмитриева Н.Ю. Общая психология[Электронный ресурс] Психологическая библиотека. URL:http://bookap.info/genpsy/dmitrieva_obshchaya_psihologiya).
2. Дружинин В.Н. Психология: учебное пособие для бакалавриата, специалитета и магистратуры / В.Н.Дружинин. — 2-е изд., доп. — М.: Юрайт, 2019. — 386с.
3. Долгова В.И., Барышникова Е.В., Соломатова К.А. Особенности внимания младших школьников с задержкой психического развития. 2016. Т. 44.− С. 122–128.
4. Дмитриева Ю.А. Метод моделирования в социальной психологии / Вестн. ЮУрГУ. Сер.: Психология. 2018. № 1. С.18-26.

Psixi inkişafında ləngimə olan 5-6 yaşlı uşaqların hafizəsinin inkişaf xüsusiyyətləri

XÜLASƏ

Məqalədə psixi inkişafinda ləngimə olan 5-6 yaşli uşaqlarin hafizəsinin inkişaf xüsusiyyətləri, araşdırılır. PİL olan məktəbəqədər yaşlı uşaqlarda hər növ hafizə və mnemonik proseslərin pozulduğu qənaətinə gəlinir. Bu, ilk növbədə, psixi inkişafında ləngimə olan uşaqların fəaliyyətinin xarakterik xüsusiyyətləri ilə müəyyənləşdirilir Bundan əlavə, psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlar həm mənimsəyə bildikləri material həcmində, həm də ifadə dəqiqliyi ilə həmyaşıdlarından inkişaf norması ilə əhəmiyyətli dərəcədə fərqlənirlər.

Uzun müddətdir psixi inkişafında ləngimə olan uşaqlarda qeyri-ixtiyari əzbərləmə üstünlük təşkil edir. İxtiyari hafizən inkişafı yalnız psixi inkişafında ləngimə olan məktəbəqədər yaşlı uşaqlardahafizə və mnemonik fəaliyyətini korreksiyası üçün məqsədyönlü iş aparmaqla mümkündür.

Development features of memory of 5-6 year old children with deficiency in mental development

SUMMARY

The article examines the developmental features of memory in children aged 5-6 with mental retardation. It is concluded that all types of memory and mnemonic processes are impaired in preschool children with ILI. This is primarily determined by the characteristics of children with mental retardation. In addition, preschool children with mental retardation differ significantly from their peers in both the amount of material they can master and the accuracy of expression.

Involuntary memorization is predominant in children with long-term mental retardation. Voluntary memory development is possible only by purposeful work to correct memory and mnemonic activity in preschool children with mental retardation.

Cəfərova Türkan Abasəd qızı

ADP U, Korreksiyaedici təlimin metodikası və metodologiyası, II kurs magistrı

HİPERAKTİV VƏ DİQQƏT ÇATIŞMAZLIĞI OLAN UŞAQLARDA HƏRƏKƏT POZULMALARININ KORREKSİYA İSTİQAMƏTLƏRİ

Açar sözlər: *hiperaktivlik, impulsivlik, aktivlik, ontogenez, baş beyin,defisiti, minimal beyin defisiti,disfunksiya*

Ключевые слова: *гиперактивность, импульсивность, активность,, головной мозг онтогенез,дефицитвнимания, минимальнаямозговаядисфункция*

Key words: *hyperactivity, impulsivity, activity, ontogenesis, head brain, attention deficit, minimal brain dysfunction*

Hərəkət pozulmalarının yaranma səbəbləri və korreksiyası həm yerli həmdə xarici mütəxəssilərin diqqət mərkəzində olmuşdu. Aparılmış tədqiqatlara əsasən müxtəlif yanaşmalar olduğu üçün diaqnostik göstəricilərdə müxtəlif olmuşdu. Son zamanlarda yeni doğulan uşaqlar arasında artan hərəkət pozulmaları və gələcəkdə yaratmış olduğu ciddi problemləri, xəstəliyin

hərtərəfli öyrənilməsinə zərurət yaratmışdı. Hərəkət pozulmarından əziyət çəkən uşaqlar pedaqoji yəni (yazı, oxu, hesab və s.) və psixoloji (şəxsiyyətin formalaşması, emosional və s) bir sıra çətinliklər çəkirlər. Yaranan çətinliklərin aradan qaldırmaq üçün düzgün diaqnozlaşdırılıb, problemin etiologiyası və potogenezini üzrə korreksiya işini təşkil etmək zəruridir.

Müasir neyropsixoloji tədqiqatlar göstərir ki, 70% uşaqlarda baş beynin qabıqaltı və beyin kökü şöbələrində pozulmalar aşkar edilir. Bu pozulmaların çoxu bətndaxili və ya natal dövrdə formalaşır və sonrakı ontogenezin əsasını qoyur. Belə uşaqların beyni kompensator mexanizmlər hesabına fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, davranışdakı deviasiyalar məktəbdə deyil, bətndaxili inkişaf zamanı və erkən uşaqlıq dövründə yaranır. Məsələn, uşağın iməkləməməsi və ya dəyişkən sxem üzrə iməkləməsi (geriyə, yanyana və s.) inkişafda pozulmalara işarədir. Ananın ürək və tənəffüs ritminin təsiri ilə embrionda bətndaxili dövrün 5-ci ayına yaxın vestibülyar aparat inkişaf etmiş olur. Bətndaxili inkişafın bu dövründə yaranmış patalogiya (ananın kompüter arxasında və ya elektrik avadanlıqları ilə işləməsi, neon lampaları ilə işıqlandırma, alkoqol, nikotin və s.) uşağın ritmik modelinin formalaşmasına təsir edir. Daxili ritm hissi olmayan körpələr isə ritmik yelləmək, laylay oxumaq, əmziklə nəinki sakitləşmirlər, hətta daha çox qıcıqlanırlar. Nəzərə almaq lazımdır ki, körpənin qucaqda və ya beşikdə çox yellədilməsi vestibülyar aparatın və beyinciyin patalogiyasına səbəb olam amil kimi qiymətləndirilir. Bu da diqqət defisitliyi və hiperaktivlik sindromunun yaranması ilə nəticələnə bilər. Ana hamiləlik zamanı alkoqoldan istifadə edərsə, bu dölün alın payında sinir şəbəkəsinin inkişafına mənfi təsir edir. Nəticədə körpə anadan olandan sonra onda diqqət konsentrasiyasının azalması, davranış pozulmaları (dağıdıcı davranış, aqressiya), qıcıq, şirniyyata patoloji həvəs, hiperaktivlik, depressiya, autizm özünü büruzə verə bilər. Beynin erkən dövrdə ocaqlı zədələnməsi hallarında beyin mexanizmlərinin yüksək plastikliyi nəticəsində kompensasiya oluna bilər. Belə yenidən qurmalar isə adətən beynin digər hissələrinin fəaliyyəti hesabına baş verir. Beynin erkən zədələnmələrinə daha həssas beynin diqqət funksional sistemidir. Erkən beyin zədələnməsinin digər bir fəsadı miyelinizasiyanın pozulmasıdır. HDDS-nun (Diqqət defisiti hiperaktivlik sindrom) yaranmasının əsas səbəblərindən biri miyelinizasiyanın ləngiməsinə görə beynin prefrontal şöbələrinin disfunksiyasıdır.

Hiperdinamik sindromlu məktəblilər ən ağır vəziyyətdə diqqətlərini ancaq 15 dəqiqə ərzində saxlaya bilirlər.Sindroma psixi inkişaf ləngiməsi ilə şərtlənən, təlimdə çətinlikləri olan məktəblilər arasında rast gəlinir, hətta müstəqil patologiya kimi diaqnozlaşdırılmaya da bilər. Lakin bu uşaqlara psixo-pedaqoji kömək və yardım, ətrafdakıların düzgün münasibəti və reaksiyası tələb olunur. Defektoloq və psixoloq uşağın valideynlərinə və ətrafdakılara müsbət dəyişikliyin bir neçə gün və ya bir neçə ay ərzində nəzərə çarpmayacağını izah etməlidirlər. Korreksiya, effektiv kömək sakitlik, uşağa qarşı səbirlilik, uşaqla ardıcıl, sistematik iş aparılmasını tələb edir.

HDDS -nin korreksiyası hər zaman kompleks şəkildə aparılmalıdır. Buraya davranışın modifikasiya metodları, psixoterapiya, psixo-pedaqoji korreksiya aiddir və müalicə prosesinə təkcə uşağı deyil,hətta ailə üzvlərini və müəllimləri də cəlb etmək lazımdır. Psixofizioloji metodlar diqqətin diaqnostika və korreksi yası üçün ən etibarlı metodlardan biri olub, fizioloji göstəricilərin qeyd edilməsi birbaşa müşa hidədən gizli olan beyin fəaliyyətinin aktivliyini təhlil etməyə imkan verir. Fizioloji prosesləri qeyd etmək üçün əsas metodlar elektrofizioloji metodlardır. Hüceyrə, toxuma və orqanların fizioloji fəallığında xüsusi yeri onun elektrik tərkibi tutur. Elektrik potensialı bütün əsas həyat proseslərini müşayiət edənmaddələr mübadiləsinin fiziki-kimyəvi nəticələrini əks etdirir və buna görə də hər hansı bir fizioloji prosesin gedişatının etibarlı, universal və dəqiq göstəricidir. Ali psixi funksiyaların pozulmasının diaqnostikası üçün A.R.Luriyanın sindromların təhlili prinsipi müxtəlif psixodiaqnostik metodikaların kompleksindən istifadə etməyi nəzərdə tutur. A.R.Luriya HDDS olan uşaqlar üçün ilk dəfə olaraq seçimə uyğun hərəki reaksiya üzrə tapşırıq (bir tıqqıltıya cavab olaraq uşaq işarə barmağını qaldırıb salmalıdır. İki tıqqıltıya isə hərəkətin birini saxlayır) təklif etmişdir.Qeyd

olunanları nəzərə alaraq HDDS olan uşaqlarla psixokorreksiya işinin əsas vəzifələrini ayırd etmək mümkündür.

1)İdrak proseslərinin inkişafı. Diqqətin həcminin və davamlılığının inkişafı, material üzərində diqqəti toplamaq bacarığı. Mnemik funksiyaların, əyani-obrazlı, sözlü-məntiqi təfəkkürün inkişafı.

2)Psixo-emosional vəziyyətin normallaşdırılması, emosional-iradi davamlılıq bacarıqlarına yiyələnmə.

3)Özünə pozitiv yanaşma, özünü anlama və özünü olduğu kimi qəbul etmə

4)Ətraf aləmlə qarşılıqlı əlaqənin müvəffəqiyyətli strategiyasının işənilməsi.

5)HDDS olan uşaqlara fərdi psixoloji yanaşma probleminin vacibliyi haqqında valideynlər ilə konsultasiya. HDDS-nun xüsusiyyətləri və əlamətləri, belə uşaqlarla münasibətlərin qurulması haqqında praktik tövsiyyələr.

Aparılan bır sıra araşdırmalara görə HDDS-lu uşaqların davranış və hərəkət çatışmazlığı üçün tibbi korreksiya zamanı Nootrop preparatlarından istifadə olunur.Bu təyinat nəticəsində beynin yüksək inteqrativ bəzi funksiyalarına yüksək təsiri olduğu öyrənilmişdir.

Qeyd etmək lazımdır ki,davranış pozulması müalicəyə tabe olur,hiperaktivlik isə yaş artdıqca azalır,lakin bu proses uzun müddət aparır. Uşaqlarda davranışın dəyişdirilməsi üçün operant yanaşmaya əsaslanan bir sıra davranış psixoterapiya üsullarından da istifadə olunur.

Tədqiqatlar göstərir ki, məktəb yaşlı uşaqlarda davranış terapiyası stimullaşdırıcı terapiyadan daha az, məktəbəqədər yaşlı uşaqlarda davranış və ya kombinə olunmuş terapiya daha çox effektli olur. Dərman terapiyası ilə HDDS-lu xəstələrdə əsas neyro- fizioloji fərqlərin korreksiyası baş verməsə də, dərmanlar onun simptomlarını yüngülləşdirmədə təsirli olub əvvəllər pis diqqət və impulsivlik səbəbindən pasiyentlər üçün əlçatmaz olan fəaliyyətdə iştirak etməyə imkan verir. Dərmanlar çox zaman qeyri-adekvat davranış və təlim fəallığını, motivasiya və özünəqiyməti artırır.

Ədəbiyyat

1. N.T.Hüseynova, S.R.Aslanova. Xüsusi Psixologiya Dərslik" I cild Bakı-2018

2. Ю.А.Фесенко,Е.В. Фесенко.Коррекционная психология Синдром дефицита внимания и гиперактивности у детей-2018 г.

3.Dr.Özlem sürücü –Dikkat eksikliyi hiperaktivite bozukluğu-2019

4. Azerbaijan Journal of Educational Studies. 2020. №1 Attention deficit and hyperactivity syndrome

5.Г.Монина, Е.Лютова-Робертс, Л.Чутко. Гиперактивные дети: психолого-педагогическая помощь: Монография. М., 2007.

Hiperaktiv və diqqət çatışmazlığı olan uşaqların hərəkət pozulmalarının korreksiya istiqamətləri

XÜLASƏ

HDDS-in yaranma səbəbləri bioloji və sosial-psixoloji ola bilər. Bu gün məktəblərdə hiperaktiv şagirdlərin olması diqqəti, əsasən, ona yönəldir ki, müəllimlər və valideynlər HDDS-la bağlı maariflənməli, sindromun əlamətləri,hiperaktivlərin davranış xüsusiyyətləri haqqında məlumatlanaraq, onlara yanaşmanı müəyyən edə bilməlidirlər. Bu uşaqlar çox zaman özləri də davranışlarından bezir, usanır, lakin bunun qarşısını almaqda acizdirlər. Vaxtında diaqnozun qoyulması və müalicə ilə yanaşı, korreksiya xarakterli işlər aparılması sonralar, xüsusilə yeniyetməlik dövründə baş verə biləcək fəsadların qarşısını alır.

Коррекционные направления двигательных нарушений детей с гиперактивностью и дефицитном внимания

РЕЗЮМЕ

Причины возникновения гиперактивности и дефицита внимания (СДВГ) могут быть биологическими и социально-психологическими. Присутствие гиперактивных

учеников в школах создает необходимость информирования учителей и родителей о (СДВГ) симптомах синдрома, поведенческих нарушениях гиперактивных детей. Этм детьям часто надоедает их поведение, но они не могут его остановить. Наряду со своевременной диагностикой и лечением, корректирующие действия могут предотвратить осложнения в более позднем особенно в подростковом возрасте.

Indications for the correction of movement disorders in children with hyperactivity and attention deficit

SUMMARY

The causes of HDDS can be biological and socio-psychological. The presence of hyperactive students in schools today emphasizes the need for teachers and parents to be informed about HDDS, the symptoms of the syndrome, the behavioral characteristics of hyperactives, and to determine their attitudes. These children are often fed up with their behavior, but they can't stop it. Along with timely diagnosis and treatment, corrective action can prevent complications in later life, especially in adolescence.

Abduləliyeva Yaqut İbrahim qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

MƏKTƏBƏQƏDƏR YAŞLI KƏKƏLƏYƏN UŞAQLARIN NİTQİNİN KOMMUNİKATİV FUNKSİYASININ FORMALAŞDIRILMASININ METODİKALARI

Açar sözlər: *kəkələmə, ünsiyyət problemləri, nitq pozulmaları, metodikalar*
Ключевые слова: *заикание, проблемы общения,нарушения речи, методологии*
Keywords: *stuttering, communication problems,speech disorders,methodlogies*

V.V.Davydov: "*Məktəbəqədər yaşda ünsiyyətin olmaması, fərdin sonrakı talehi üçün ölümcül iz buraxır."*

Nitqin kommunikativ funksiyasının formalaşdırılması uşağın normal psixoloji inkişafı üçün əsas şərtdir. Ünsiyyət bacarıqlarının inkişafı son dərəcə vacibdir, çünki şəxsin sosial münasibətlər sisteminə daxil edilməsi üçün zəruri olan sosial-mədəni təcrübənin mənimsənilməsini tələb edən cəmiyyət çərçivəsində yaşayırıq. Beləliklə, böyüklər uşaqların ünsiyyət bacarıqlarının inkişafından məsuldurlar. Ünsiyyət qabiliyyəti, bir insanın zehni və davranış xüsusiyyətlərinin ayrılmaz sistemidir. Şifahi və sözsüz ünsiyyət vasitələrinin müvəffəqiyyətlə mənimsənilməsini görkəmli müəllimlər və psixoloqlar L.A.Petrovskaya, L.D.Stolyarenko, E.V.Sidorenko, Yu.Emelyanov və başqaları tərəfindən araşdırılmışdır. Kəkələyən uşaqların ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün ilk öncə kəkələməni nitq qüsuru kimi aradan qaldırmaq vacibdir. Ünsiyyət prosesi fərdi inkişafla sıx bağlıdır. Kəkələmə məktəbəqədər yaşda ortaya çıxaraq, ünsiyyət bacarıqların inkişafını çətinləşdirir, şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir. Ünsiyyət nəzəriyyəsinə əsaslanan İ.A.Zimniy əsas diqqəti kompleks məlumatların qəbuluna, işlənmə və ötürülmə prosesinin formalaşdırmasına, nitq üçün kom-munikativ və idrak ehtiyacına yönləndirmişdir.[1.464s.]

Bir çox alimlərin tədqiqatlarından sonra nitqin inkişaf probleminin mürəkkəb olduğu qənaətinə gəlinmişdir, çünki yalnız psixoloji məlumatlara deyil, pedaqoji, eyni zamanda ümumi dilçilik, sosiolinqvistika və psixolinqvistik (L.S.Viqotski, S.L.Rubinşteyin, L.A.Venger, M.I.Lisina, V.S.Muxina və başqaları) məlumatlarada istinad edilir. Bu problemi həll edərkən düzgün təşkil olunmuş ünsiyyət mühiti mühüm rol oynayır.

Uşaqların həyat və fəaliyyətini təşkil edən, fərdi inkişafına təsir göstərən, fərdiliyin formalaşmasına təsir göstərən forma kimi oyunun elmi əsaslandırılmasını N.K.Krupskaya, A.S.Makarenko, S.L.Rubinşteyin, A.P.Usova, K.D.Uşiniski, M.İ.Buyanova və B.Z.Drapkin

və başqaları kəkələmənin növləri və səbəblərini nəzərdən keçirir, bu qüsurun aradan qaldırılma yolları qeyd etmişdilər. M.İ.Gerkin (1972), daha sonra E.M.Pellinger və digərləri (1995), kəkələmənin situasiya xarakterini və nitqin kommunikativ funksiyasının pozulmasını nəzərə alaraq süjet li oyunlar üçün metodologiya təklif etdi. Kəkələyən uşaqlarla loqopedik iş təcrübəsində (Q.Viqotskaya, E.Polinqer, P.Uspenskaya) oyunlar, oyun priyomları loqopedik təsir mərhələlərinə uyğun zəiflədici çalışmaların keçirilməsində istifadə edilir. Məsələn: düzgün nitq tələffüzünün tərbiyəsi, sərbəst ünsiyyət və s. bura daxildir.Daha sonra formalaşdırılmış ziddiyyətlər nəzəriyyəsinə əsasən məktəbəqədər yaşlı kəkələyən uşaqların kommunikativ səriştəsinin yaradılması prosesində oyun fəaliyyətinin xüsusiyyətlərini müəyyənləşdirmək hədəfləndi. Loqopedik məşğələlərin xüsusi məzmununu təşkil edən oyunlar sistemi özündə bir neçə növü birləşdirir. Bunlar didaktik, nəğməli oyunlar, mütəhərrik oyunlar, şeir, stolüstü oyunlar və s. daxildir. Uşaqlarla məşğələlər zamanı birinci növbədə oyun fəaliyyətinin prinsipi realizə edilir və hər bir mərhələ ardıcıllığının dəyişməsi ilə təşkil edilir, eyni zamanda fəaliyyət korreksiyaedici, inkişafetdirici və tərbiyəedici məqsədlərin həyata keçirilməsinə yönəldilir. Beləliklə də, məktəbəqədər yaş dövründə uşaqlarda kəkələmənin aradan qaldırılması üçün loqopedik iş zamanı istifadə edilən təkmilləşmiş metodikalar XX əsrin 80-ci illərində qavranılmışdır. Kəkələyən uşaqların fərdi psixoloji xüsusiyyətlərindən asılı olaraq məlum olan metodikalardan istifadə edərkən yaradıcı yanaşılmalıdır.

Məktəbəqədər yaş dövründə kəkələyən uşaqlarla aparılan işin metodikasını ilk dəfə N.A.Vlasova və İ.F.Rau tərəfindən işlənib hazırlamışdı. N.A.Vlasova məktəbəqədər yaşlı uşaqlarla məşğələlərdə nitqin kommunikativ funksiyasının inkişafı və formalaşdırılması üçün nitqdən düzgün istifadənin vacibliyini qeyd edirdi. İ.F.Raunun metodikasının əsasını uşaqlarda nitq müstəqilliyinin müxtəlif səviyyələrini təşkil edir. Bir çox illər boyu kəkələyən uşaqlarla əməli işdə bu metodikalar ən çox işlənən və populyar metodika kimi tanınmışdır. [3.]

-Klencke və Lehvess tərəfindən hazırlanıb və uzun müddət istifadə olunan ən yaxşı metod vardır kı, bu metodun xüsusiliyi, kəkələyənə əvvəlcə dərin bir nəfəs aldırırlar. Bu nəfəsi ağciyərlərdə mümkün qədər saxlamaq; bundan sonra, kəkələmənin növünə görə seçilmiş, sayğacla, melodiya ilə, mahnı oxuyarkən bəzi sözləri, qısa və daha uzun cümlələri oxumaq; oxuyarkən oxuduğu sözlərin və ya cümlələrin mənalarına uyğun hərəkət etmək istənir. Uzun müddətdir bu idman növü ilə məşğul olurlar. Bu üsul, bu tarixə qədər istifadə edilənlərdən daha yaxşı nəticələr verən metoddur. Bu metodun başqa bir versiyası uzadaraq danışma texnikasıdır. Metodda ağızdan çıxan ilk hecanı ilk saiti ilk səsi uzadaraq demək vacibdir. Misal: "Salam" sözünü götürək. Bu söz iki hecadan ibarətdir. Bu texnikada a səsi uzanır. Saaaaalam kimi deyilir. Bu metodun qüsuru isə hər yerdə belə uzadaraq danışa bilinməməsidir. Kəkələyən uşaq belə danışmağa utanır.

S.Yu.Serebrennikova, T.A.Fotekova - "Müəyyənləşdirmə təcrübəsinin para-metrləri" metodikasının əsas tədqiqat anlayışı nitqin kommunikativ funksiyasını formalaşdırmaq üçün nitqdən düzgün istifadə etməkdir. (başqalarına hər hansı bir məlumat vermək.). Yəni, ünsiyyət prosesinə daxil olmaq (məlumat almaq və məlumat verməyi təmin etmək - xahişini, salamını bildirmək) və tərəfdaşlarla ünsiyyət vəziyyətində düşüncələrini ifadə etmək bacarığını inkişaf etdirməkdir.

Bu metodikanın məqsədi məktəbəqədəryaşlı uşaqlarda nitqin kommunikativ funksiyası səviyyəsinin formalaşdırılmasıdır. Bura daxil olan məsələlər:

• ünsiyyət üçün idrak xüsusiyyətini yaratmaq;

• inkişafetdirici oyundan istifadə edərək məlumatın qəbulu və işlənməsi prosesində nitqin kommunikativ funksiyasını formalaşdırmaq;

• müxtəlif növ kommunikativ vəziyyətlərdən istifadə edərək nitqin sosial və idrak prosesinin mənimsənməsini formalaşdırmaq.

A.V.Yastrebova öz metodunda kəkələyən uşaqların təlimində 3 dövrün ayrılmasınını qeyd etmişdi.

Birinci dövrdə kəkələyən uşaqların həm nitqin səs tərəfinin məqsədyönlü müşahidələri, həm də onun tempini və hamarlığını düzəltmək üçün dil sahəsində bilikləri aydınlaşdırılır.

İkinci dövrdə uşaqların dil sahəsində qazandıqları biliklər aktivləşdirilir, lüğət, ünsiyyət anlayışlarını daha da genişləndirmək üçün daha mürəkkəb nitq materialından istifadə edilir. Sabit, ritmik və ifadəli nitq bacarığı formalaşdırılır.

Üçüncü, son dövrdə nitqin səs və intonasiya tərəfi, uşaqların ünsiyyət prosesində fonetik-fonematik, leksik-qrammatik, intonasiyalı tərkibi və bacarığı sahəsindəki biliklərdən şüurlu istifadəsi tələbi davam edir. Hər hansı bir vəziyyətdə səlis, ifadəli nitq prosesi reallaşdırılır. [2. səh: 65]

Şifahi ünsiyyət məktəbəqədər uşağın inkişafı üçün əsas şərtlərdən biridir, şəxsiyyətinin formalaşmasında ən vacib amildir və nəhayət, özünü digər insanların vasitəçiliyi ilə tanımağa və qiymətləndirməyə yönəlmiş insan fəaliyyətinin aparıcı növüdür. Uşağın sosial və kommunikativ səriştəsinə zəmin yaradan şifahi ünsiyyətdir. Nitqin əsas vasitəsi olan ünsiyyət uşağın sosial şəxsiyyət kimi formalaşması üçün ən vacib mexanizmdir.

Məktəbəqədər yaşlı kəkələyən uşaqlarla özünəməxsus korreksiya işi N.A.Çeveleva tərəfindən irəli sürülmüşdür. N.A.Çeveleva kəkələyən uşaqlarla korreksiya işini əl əməyi fəaliyyəti prosesində təşkil etməyi təklif etmişdir. Müəllif uşaqlarda kommunikativ, situativ nitqin (bilavasitə əməli fəaliyyətlə bağlı, əyani vəziyyətə görə) kontekst nitqə keçməsi nəticəsində yaranması haqqında psixoloji konsepsiyaya əsaslanaraq göstərir ki, məktəbəqədər yaş dövründə həm situativ, həm də kontekst nitq birgə özünü göstərir. Buna görə də, kəkələyən uşaqlarla aparılan ardıcıl nitq çalışmaları əyani, yüngül nitq formalarından tədricən kontekst mülahizələrə keçməklə, özündə birgə (yanaşı), başa çatdırılmış və qabaqlayıcı nitq formaları şəklində aparılmalıdır.

Kommunikativ funksiyanın inkişafının mənşəyində psixoloq və müəllimlər var idi. M.İ. Lisina, F.A.Sokhin, O.S.Uçakov və başqaları bura daxildir, onların fikrincə vaxtında nitqin kommunikativ funksiyasının formalaşdırılması uşağın normal inkişafı və təhsili üçün məktəbəqədər yaşlı mərhələsi əsas dövürdür. Danışığın bütün aspektlərinin inkişafı böyük əhəmiyyətə malikdir.Əsas odur ki, məktəbəqədər yaşlı uşaqların idrakının və nitqinin inkişafı müasir sosial mühitə uyğunlaşma və bunun əsasında məktəbəqədər yaşlı uşaqların ünsiyyət bacarıqlarının, rabitə fəaliyyətinin formalaşması nitqin inkişafı baxımından nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Paramonova L.G. “Hər kəs üçün nitq terapiyası”- M.:MMC "AST Nəşriyyat", Sankt-Peterburq: "Delta", 1997.
2. Yastrebova A.V.“Kəkələmənin korreksiyası” - M.:Təhsil, 1980.
3. N.A.Vlasova,K.P.Becker “Kəkələmə” - M.:Təhsil, 1983.
4. S.Sədiyev. Loqopediya, I-II hissə.

Məktəbəqədər yaşlı kəkələyən uşaqların nitqinin kommunikativ funksiyasının formalaşdırılmasının metodikaları

XÜLASƏ

Nitqin vacib funksiyalarından biri kommunikativ funksiyadır.Kəkələyən uşaqların ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün ilk öncə kəkələməni nitq qüsuru kimi aradan qaldırmaqdan vacibdir. Məktəbəqədər yaşlı kəkələyən uşaqların nitqinin kommunikativ funksiyasının formalaşdırılması üçün müəyyən metodikalardan istifadə olunur. Kəkələyən uşaqların fərdi psixoloji xüsusiy-yətlərindən asılı olaraq məlum olan metodikalardan istifadə edərkən yaradıcı yanaşılmalıdır.

Способы формирования коммуникативной функции речи у заикающихся детей дошкольного возраста

РЕЗЮМЕ

Одна из важных функций речи коммуникативная функция.Чтобы развить у детей коммуникативные навыки заикания, важно сначала устранить заикание как дефект речи.Определенные методы используются для формирования коммуникативной функ-

ции речи заикающихся дошкольников.К детям с заиканием нужно подходить творчески, используя известные им методы в зависимости от их индивидуальных психологических особенностей.

Methods of forming the communicative function of speech inpreschool children

SUMMARY

One of the important functions of speech is communication.To improve the communication skills of stuttering children, it is important to first eliminate stuttering as a speech defect.Certain methods are used to form the communicative function of speech in preschool children who stutter.Depending on the individual psychological characteristics of stuttering children, a creative approach should be taken when using known methods.

Mustafayeva Bahar Əliosət qızı

ADPU, Korreksiyaedici təlimin metodikası və metodalogiyası, II kurs magistrantı

EŞİTMƏ QÜSURLU UŞAQLAR ÜÇÜN XÜSUSİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MUSİQİLİ RİTMİKA DƏRSLƏRİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *eşitmə; nitq; oyun; musiqi; ritm; məşğələ; uşaq*
Ключевые слова: *слушание; речь; игра; музыка; обучение; ребенок*
Key words: *hearing; speech; game; music; exercise; child*

Musiqili ritmika dərslər demək olar ki, bütün kateqoriyadan olan sağlamlıq imkanları məhdud uşaqların (intellektual inkişaf pozulması, dayaq-hərəkət, nitq, eşitmə, görmə çatışmazığı olan və s.) tədris proqramlarına daxil edilmişdir. Musiqili ritmikanın əsas məqsədi uşaqların hərtərəfli inkişafı, onların motor qabiliyyətlərinin yaxşılaşdırılması, sağlamlığının möhkəmləndirilməsi və nitqi nin inkişaf etdirilməsidir.

Eşitmə qüsurlu uşaqlar üçün xüsusi məktəbin tədris planında musiqili ritmik məşğələ xüsusi fənn kimi öz əksini tapmışdır. Hal-hazırda eşitmə qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələrinin tədris proqramına müvafiq, musiqili ritmika dərsləri həftədə 2 saat, məktəbin ümumi dərs cədvəlində əks olunmaqla, birinci sinifdən səkkizinci sinfə qədər aparılır. Proqrama uyğun olaraq məktəbin birinci sinif şagidlərinə musiqinin müşaiyəti ilə sadə yeriş, qaçış, bir hərəkətdən digərinə keçid, çox da çətin olmayan rəqs elementlərini yerinə yetirmək, hərəkətləri musiqi ritminə müvafiq yavaş və tez icra etmək, göstərilmiş isti qamətdə məkanda səmtləşmə; ikinci sinifdə musiqi əsərlərini dinləmək, nitqli və nitqsiz səsləri, musiqi alətlərinin səslərini fərqləndirmək, musiqinin müşaiyəti və müəllimin komanda sı ilə sadə gimnasik və rəqs hərəkətləri yerinə yetirmək və ya dayandırmaq üçüncü sinifdə səs, nəfəs və səs tələffüzü üzrə işi musiqi və hərəkətlərin müşaiyəti ilə icra etmək öyrədilir; dördüncü sinifdə şagirdlərdə bədii-estetik zövq tərbiyə edilir, hərəkətlərin təkmilləşməsinə, nitqin ifadəliliyinin inkişafına, parlaq yaradıcı fantaziyanın formalaşmasına diqqət verilir..

Musiqili ritmika dərsləri xüsusi sahəsi 30 m^2 az olmayan kabinetdə təşkil olunur. Kabinetin divarlarından birinə balet dəzgahı və hündürlüyü 1 m 60 sm-dən az olmayan divar güzgüləri quraşdırılır. Kabinetdə maqnitofon və ya val oxudan, onlar üçün zəruri olan val dəsti, videoteka, didaktik materiallar (bəstə karların portretləri, reproduksiyalar, əyani vəsaitlər, musiqi alətləri, toplar, lentlər və s.), diaproyektor, lövhə, cədvəl dəstləri, uşaqlar üçün skamya və kiçik stullar olmalıdır. Məşğələ otağında fortopiano aləti elə bir yerə qoyulur ki, müəllim çalarkən bütün uşaqları görə bilsin.

Məşğələlərdə şagirdlərin hərəkət çalışmalarını yerinə yetirmələri üçün estetik, yüngül və rahat geyimləri olmalıdır: qızlar - qısa yubka, futbolka, corab, çeşka; oğlanlar - şort, futbol ka, corab və çeşka.

Məktəblilər məşğələlərdə səsləndirilən musiqi kompozisiya və ya parçalarını, həmçinin nitqi fərdi və ümumi eşitmə ciha larının köməyi ilə qavrayırlar. Uşaq ların istifadə etdiyi eşitmə cihazları daimi taxılmaq üçün müəyyən edilmiş rejim də işləyir.

Musiqili ritmika üzrə ilk başlanğıc dərslərdə müəllim fərdi eşitmə aparatı olan hər bir şagirdin ifa edilən çox uca olmayan (metzo-forte) və yavaş musiqini (piano) eşitməsini, çox yüksək səsli musiqinin onda xoşagəlməz hisslər yaratma dığını yoxlayır və eyni zamanda qavranılmayan fortepianonun müxtəlif registr diapozonlu səslərnii müəyyənləşdirir. Bunun üçün müəllim musiqini sadə hərə kətlərlə müşaiyət etməyi, məsələn, əl çalmağı, gövdə və əllərin müəyyən vəziy yət almasını uşaqlara öyrədir. Kar uşaqlar musiqini fərdi eşitmə aparatlarının vasitəsi ilə dinləyir, fortopianoda çalan müəllimi və ya musiqi parçasını oxu dan avadanlığı görür və musiqinin müşaiyəti ilə müəyyən hərəkətlər tapşırığını yerinə yetirirlər. Məsələn, musiqini eşidirsə əl çalır, musiqini əgər eşidə bilmirsə əl çalmayıb əllərini aşağı salır.

Kar və zəif eşidən uşaqlar üçün xüsusi məktəblərdə digər frontal dərslər kimi musiqi - ritmik dərslərin qarşısında da eyni tələblər qoyulur. Bu, dərsin təşkili nə, uşaqların ümumi və nitq inkişafına verilən tələblərdir. Dərslərdə şagirdlərin eşitmə funksiyasının vəziyyətindən, nitqi və əsas musiqi quruluşlarını qavramaq imkanlarından, səs tələffüzünün vəziyyətindən, ümumi və nitq inkişafından, eləcə də hərəki bacarıqlarından və digər fərdi xüsusiyyətlərindən asılı olaraq diferensial yanaşmanın həyata keçirilməsinə xüsusi əhəmiyyət verilir.

Qeyd etmək lazımdır ki, musiqili ritmika dərslərində nitq materialının qavranıl masi əsasən eşitmə - görmə vasitəsi ilə həyata keçirilir. Məşğələlərdə eyni za manda, digər dərslərdə olduğu kimi, bütün dərs boyu uşaqlarda nitqi eşitmənin inki şafına, tələffüz bacarıqlarının möhkəmləndirilməsinə daha çox diqqət yetirilir.

Eşitmə qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələrində təşkil edilən musiqili ritmika məşğələlərində müəlliminin vəzifələri digərlərindən fərqlənir. Belə ki, musiqili ritmik məşğələləri yalnız surdopedaqoji təhsili və eyni zamanda müəy yən musiqi hazırlığı olan müəllim tədris edə bilər. Müəllimin hər hansı bir mu siqi alətində, xüsusilə də, fortopianoda çalmağı bilməsi, dirijorluq texnikasına yiyələnməsi və müəyyən bir xoreoqrafiya təhsili alması arzu olunandır.

Musiqili ritmik məşğələ üzrə müəllimin apadığı işin məzmunu yalnız onların planlaşdırılması və həyata keçirilməsi ilə bitməyib, həm də məktəb tədbirlərinin: bayram konsert və tamaşaların, özfəaliyyət, müsabiqə və baxışların hazır lanmasında şagirdlərin iştirak etmələrini dəi əhatə edir. Lakin bu, musiqili ritmi ka dərslərinin bayram və tamaşalarda şagirdlərin ifası üçün dərslərə çevrilməsi demək deyildir. Qeyd edilən tədbirlərin həyata keçirilməsi üçün musiqili ritmika dərslərinin planlaşdırılması zaman sinifdənkənar işlərin təşkili və şagirdlərin iştirakı üçün müəyyən saatların ayrılması nəzərdə tutulur.

Məktəbdə tədris prosesinin yarımili ərzində uşaqlar klas sik, xalq və müasir rəqs elementlərini, mahnıları öyrənir, nağılları səhnələşdirir, sonra isə öyrənilmiş materiallardan müəyyən hissəsini bayram və digər tədbirlərdə ifa edirlər.

Təşkil edilən məşğələlərdə istifadə edilən əyani vasitələr maraqlı və rəngarəng tərti batlı olmalıdır. Məşğələlərdə uşaqlarda musiqi bilikləri ilə yanşı, həm də şəxsiyyət keyfiyyətləri formalaşır. uşaqlar daha diqqətli, dözümlü, intizamlı və məsuliyyətli olurlar.

Musiqili ritmik məşğələlər uşaqlarda iradə, təşəbbüskarlıq, hərəkətləri planlaşdır mağı tərbiyə edir. davranışı formalaşdırır. Hərəkətlərin musiqiyə müvafiq məkan və zaman çərçivəsində təşkili isə psixi proseslərə, xüsusilə də, oyanma və ləngimə yə müsbət təsir göstərib onların keçiriciliyini normallaşdırır, eşitmə diqqəti və qav rayışını inkişaf etdirir. Bundan əlavə musiqili ritmik məşğələlər uşaqlarda əqli fəallığın artmasına, şəxsiyyətin əxlaqi-estetik tərəflərinin tərbiyə sinə, ətraf aləmi dərk edərək qavramasına, diqqət, hafizə, təfəkkür və yaradıcı təxəyyülün formalaşmasına kömək edir, uşaqlara sevinc, müsbət əhval-ruhiyyə aşılayır. Musiqili ritmik məşğələlər eyni zamanda eşitməsi pozulmuş uşaqlarda bədii-estetik zövqü tərbiyə edir, hərəkətlərin təkmilləşməsinə, nitqin ifadəli liyinin inkişafına, parlaq yaradıcı fantaziyanın formalaşmasına kömək edir. Bu oyunlar həm də eşitməsi pozulmuş uşaqlar da sensor fəaliyyəti yaxşılaşdırır, musiqi janrlarını, musiqi səslərini, musiqi vasitə və alətlərini fərqləndirməyi öyrədir. Məşğələlərdə tələffüz, lüğət, nitqin qrammatik quruluşu, onun intona siya, melodiklik, temp və rəvanlığının inkişafı və avtomatlaşdırılması üzrə xüsusi, məqsədyönlü iş aparılır.

Musiqili-ritmik hərəkətlərin nitqlə birgə təlimində istifadə edilən müasir yanaş manın köməyi ilə kar və zəif eşidən uşaqlarda düzgun səslənmə, tənəffus, danı şıq səsləri və söz tə-ləffuzu, nitqlə hərəkət tempinin koordinasiyasının formalaş ması və inkişaf etdirilməsi həyata keçirilir. Bu sadə mahnıların, ritm əsaslı musi qi parça və rəqs melodiyaları uşaqlara öz bədənini idarə etmək, musiqinin mü şaiyəti ilə hərəkətlərin ifadəliliyini, icra edilən hərəkətlə-rin temp və ritmini musiqinin temp-ritminə uyğunlaşdırmaq bacarığını inkişaf etdirməyə kö-mək edir. Musiqili ritmik məşğələlərdə didaktik materiallarla yanaşı, digər əyləncəli musiqili oyunlardan, müxtəlif fəaliyyət növlərindən istifadə edilir.

Beləliklə də, musiqili ritmika mühüm əvvldə göstərildiyi kimi eşitmə qüsurlu uşaqların estetik tərbiyə, həm də yaradıcılıq bacarıqlarının inkişaf vasitəsidir. Musiqili ritmika estetik davranış qaydalarına riayət etməyi, hərəkətlərin musiqi ilə uzlaşdırmağı öyrədir. O, uşaqlarda bədənin gözəlliyi haqqında anlayışları formalaşdırır, musiqi zövqünü, ritm hissini tərbiyə edir. Musiqi ritmika məşğə lələri zamanı bədənin elastikliyi inkişaf edir, dayaq-hərəkət aparatı, ürək-damar və tənəffüs sistemi möhkəmlənir.

Musiqili ritmikanın vasutəsilə uşaqlar incəsənət nümunələri ilə təmasa girir, onlarda hərəkət gözəlliklərini düzgün duymaq, müəyyən əhval-ruhiyyə, öz hiss və emosional vəziy yətlərini ötürmək qabiliyyəti qazanırlar.

Ədəbiyyat

1. Иванченко Г.В. Психология восприятия музыки. – М.: Смысл, 2001.
2. Картушина М.Ю. Проблемы современного музыкального воспитания дошколь-ников /М.Ю. Картушина //Управление ДОУ. - 2005. - №5. - С. 42-46.
3. Коренева, Т. Ф. Музыкально-ритмические движения для детей дошколь ного и младшего школьного возраста: В 2 ч. – Учеб.-метод. пособие. – М.: ВЛАДОС, 2001.

Eşitmə qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələrində musiqili ritmika dərslərinin təşkili xüsusiyyətləri

XÜLASƏ

Musiqili ritmika məşğəllərinin eşitmə problemli uşaqların inkişafına olan hər tərəfli təsi-ri ilk növbədə eşitmə qavramasının yaxşılaşmasına və nitqin inkişafına təsir göstərir. Nitq in-kişafının uşaqların psixi inkişaflarına, cəmiyyətdəki mövqelərinə, sosial münasibətlərinə olan təsiri isə eşitmə problemli uşağın şəxsiyyət kimi inkişafına təsir edir. Bu məşğələlərin keçi-rilməsi üçün lazım olan qaydaların gözlənilməsi isə dərsin keyiyyətinə birbaşa təsir göstərir. Dərslərin qaydalara uyğun keçirilməsi korreksiya işinin axıcılığını təmin edir.

Организация уроков музыкальной ритмики в специальных учебных заведениях для детей с нарушением слуха

РЕЗЮМЕ

Всестороннее влияние музыкально - ритмических занятий на развитие детей со слуховыми проблемами в первую очередь оказывает воздействие на улучшение восприятия слуха и развитие речи. Воздействие развития речи на психическое развитие, место детей в обществе, социальные отношения оказывает влияние на развитие детей со слуховыми проблемами, как личность. Соблюдение правил при проведении этих занятий, непосредственно влияет на качество уроков. Проведение уроков по правилам обеспечивает плавность работы по коррекции.

Features of the organization of musical rhythm lessons in special educational institutions for children with hearing impairments

SUMMARY

The comprehensive impact of musical rhythmic lessons on the development of hearing-impaired children primarily affects the development of hearing and speech. The impact of speech development on children's mental development, social status and social relations

affects the development of a hearing-impaired child as a person. Observing the rules required for these classes has a direct impact on the quality of the lesson. Conducting lessons in accordance with the rules ensures the smoothness of the correctional work.

Abbasova Əminə Rasim qızı
Korreksiyaedici təlimin metodika və metodologiyası
Elmi rəhbər: dos: S.R.Aslanova

OPTİK DİSLEKSİYA ZAMANI LOQOPEDİK İŞ METODLARI

Açar sözlər: *optik, oxu,görmə, disleksiya, metod*
Ключевые слова: *оптика,чтение,зрение,дислексия,метод*
Key words: *optics, reading,vision,dyslexia,method*

Optik disleksiya vizual informasiyanın qavranılması və oxuma potensialının reallaşdırmağa çətinləşdirən bir prosesdir. Disleksiya ilə yanaşı digər psixi proseslərlə bağlı problemlər, pozunmalarda vardır. Onlar həm birincili qüsur kimi, həm də daha mürəkkəb bir pozulmanın bir hissəsi ola bilər. Lakin bütün hallarda bu proseslərlə korreksiya işinin təşkil olunması mütləqdir, çünki əgər beyin informasiyanın təhrif olunmuş şəkildə qavrayırsa, bu zaman oxuma prosesini tam şəkildə yerinə yetirmək mümkün olmur deməkdir.

Optik disleksiyanın korreksiyası aşağıdakı plan üzrə aparılır:

- görmə qavrayışının formalaşması və forma, ölçü və rəngin tanınması;
- vizual yaddaşın inkişafı;
- məkan qavrayışının və fikirlərinin formalaşması;
- vizual analiz və sintezin inkişafı;
- vizual-məkan münasibətlərinin nitq təyinatlarının formalaşması;

Optik disleksiyanın korreksiyası üçün bir sıra metoddan istifadə etmək mümkündür.

Əsasən daha çox R.İ.Lalaevanın "Həndəsi loto" metodundan istifadə edilir. Bu metod vizual qavrayışın və tanınmanın formalaşması üçün istifadə edilən metodlardan biridir.

Bu metodda uşaqlara iri kartlar təqdim edilir. Hər bir xəritədə mərkəzdə çəkilmiş həndəsi formalardan biri vardır: Bundan əlavə, müxtəlif obyektlərin təsvirləri olan şəkillər olur. Loqoped şəkli göstərir, uşaqlar üzərində təsvir olunan obyektin necə göründüyünü təyin edirlər (dairə, üçbucaq, kvadrat və s). Şəkil oxşar həndəsi formalı bir karta yerləşdirilir.

Vizual yaddaşın inkişafı üçün "ilkin ardıcıllıqla hərf, fiqur və eləcə də rəqəmləri düzmək" oyunundan istifadə edilir.

Bu oyunun əsas mahiyyəti onunla xarakterizə olunur ki, uşaqlar istər rəqəmləri artan və yaxud da azalan ardıcıllıqla düzmək və yaxud da hərflərin əlifba sırası ilə düzülməsi kimi müxtəlif vərdişləri mənimsəyə bilsinlər.

Vizual yaddaşın inkişafı üçün istifadə edilən metodlardan biri də "Nə yoxdur?" oyunudur. Bu oyun zamanı stolun üzərinə müxtəlif fiqurlar (oyuncaqlar, şəkillər) qoyulur və uşaqlara diqqətlə bu fiqurlara baxıb yadda saxlamağı tapşırırlar. Daha sonra isə stolun üzərindəki həmin əşyalardan biri gizlincə götürülür və uşaqlardan hansı əşyanın çatışmadığı soruşulur.

Ümumiyyətlə yazılı nitq pozulmaları zamanı təşkil olunan korreksiya işi yalnız loqopedik istiqamətdə deyil, həm də psixi proseslərin inkişafı üçün aparılsa bu zaman qeyd olunan işlər daha effektiv olacaqdır.

Həmçinin optik disleksiya və disqrafiyanın islahı zamanı mütləq uşaqlarda məkani təsəvvürləri və bu təsəvvürlərin nitqdə yerini inkişaf etdirmək lazımdır. Bunun üçün müxtəlif xarakterik xüsusiyyətləri bilmək lazımdır.Həmin xüsusiyyətlər aşağıdakılardır:

- Məkani təsəvvürlərin formalaşması ardıcıllığı və əsas xüsusiyyətləri;
- Məkan təsəvvürlərinin ontogenezinin psixologiyasını bilmək;

- Məkan təsəvvürlərinin praksiz və qnosiz proseslərinin optik məkani strukturunun psixologiyasını;
- Disleksiyalı uşaqlarda bu funksiyaların vəziyyətini bilmək;

Məkan nümayəndəliklərinin inkişafı ilə bağlı danışıq terapiyası işi zamanı ontogenezdə məkan qavrayışının və məkan təsvirlərinin formalaşmasının xüsusiyyətləri və ardıcıllığı, vizual-məkan irfan və praksisinin psixoloji quruluşu, disleksiyası olan məktəblilərdə məkan qavrayışı və məkan təsvirlərinin vəziyyəti nəzərə alınmalıdır.

I.P.Pavlova görə müvəqqəti əlaqələrin meydana gəlməsi məkan yönümlüyünün formalaşmasının mərkəzində dayanır.

Məkani bələdləşmə bir-biri ilə çox sıx bağlı olan iki növ istiqaməti özündə birləşdirir:

- Öz bədənində istiqaməti;
- Ətraf məkandakı istiqaməti.

Uşaq ətrafdakı məkanda özünü yönləndirmədən əvvəl sağ və sol əlləri ayırd etməyi öyrənir. Məkan nümayəndəliklərinin inkişafı, bədənin sağ və sol hissələrinin fərqləndirilməsi, ilk növbədə aparıcı əlin seçilməsi əsasında həyata keçirilir.

Ontogenezin müəyyən bir mərhələsində sol əli idarə edən tərəf baş-beyin qabığının sağ tərəfinə xidmət edən şöbənin inkişafı zamanı şərti olaraq görmə-hərəki əlaqələri yaranmağa başlayır, bu da sağ əlin aparıcı olaraq seçilməsinə kömək edir. Bədənin sağ və sol tərəflərinin daha da fərqlənməsi sağ əlini seçmək qabiliyyəti əsasında formalaşır. Bu dövrdə uşaqda sol əlin fərqləndirilməsi yalnız sağ vasitəsilə həyata keçirilir. Öz əllərinin uzun müddətli hislərindən istifadə edərək, uşaq bədənin sağ və sol hissələrini ayırmağa başlayır.

Optik disleksiya və disqrafiya aradan qaldırılarkən ontogenezdə məkan funksiyalarının əmələ gəlməsinin göstərilən qanunauyğunluqlarını nəzərə almaq və bu baxımdan loqoped işini aşağıdakı plana əsasən aparmaq lazımdır:

- bədənin sağ və sol hissələrinin fərqləndirilməsi;
- ətrafdakı məkanda istiqamətləndirmə;
- qrafik təsvirlərin və hərflərin elementlərini məkan əlaqələrinin təyin edilməsi.

Optik disleksiya və disqrafiyanın izahı zamanı məkani təsəvvürlərin inkişaf etdirilməsi ilə paralel olaraq, görmə ilə təhlil və tərkib prosesləri və onların nitq işarələri üzrə də iş aparmaq lazımdır.

Optik disleksiya və disqrafiyanın aradan qaldırılmasında "hərflərin optik surətlərinin dəqiqləşdirilməsi və fərqləndirilməsi üzərində iş mühim rol oynayır. Bu məqsədlə bir-birinə oxşar təsvir və əşyalar hərflə uyğunlaşdırılır. Məsələn, "o" hərfi qoğala, "3" rəqəmi ilana, "j" hərfi isə böcəyə oxşayır və s.

Dediklərimizə yekun olaraq, optik disleksiya və disqrafiyanın islahı görmə qnozis, mnezis proseslərinin, məkani təsəvvürlərinin və onların nitq işarələrinin, görmə analiz və sintezinin inkişafına yönəlmiş fəndlərlə həyata keçirilir. Bu işin aparılması zamanı müxtəlif analizatorlardan maksimal dərəcədə istifadə olunur. Optik disleksiya və disqrafiyanın aradan qaldırılmasında hərflərin qarışdırılması üzərində işə xüsusi diqqət yetirilir və analizatorların vasitəsi ilə müqayisə aparmaq, təsvirlərini çəkmək, konturunu işləmək və s. üsullarla qüsur aradan qaldırılır.

Ədəbiyyat

1. Лалаева Р.И. Нарушение процесса овладения чтением у школьников: уч.пособие для студентов/ Р.И. Лалаева. – М.: Просвещение, 1998.
2. Парамонова Л.Г. Логопедия для всех/М.:, 2002.
3. Лалаева Р.И. Логопедическая работа в коррекционных классах: Кн. Для логопеда. – М.: Гуманит. Изд. Центр ВЛАДОС, 1999.
4. Садовникова И.Н. Нарушения письменной речи и их преодоление у младших школьников / И.Н.Садовникова. М., 1995.

Лалаева Р.И. Нарушения чтения и пути их коррекции у младших школьников/ Р.И.Лалаева, «Союз», 2004

XÜLASƏ

Optik disleksiya görmə problemi ilə əlaqədardır. Optik disleksiyanın korreksiyası üçün bir sıra metoddan istifadə etmək mümkündür. Optik disleksiyanın korreksiyası: görmə qavrayışının formalaşması, forma, ölçü və rəngin tanınması, vizual yaddaşın inkişafı, məkan qavrayışının və fikirlərinin formalaşması, vizual analiz və sintezin inkişafı, vizual-məkan münasibətlərinin nitq təyinatlarının formalaşması planı üzrə aparılır.

РЕЗЮМЕ

Оптическая дислексия связана со зрительной проблемой. Для коррекции оптической дислексии применяется ряд методов. Коррекция оптической дислексии, формирование зрительной функции, формы, размера, различие цветовой гаммы, развитие визуальной памяти, формирование мышления, визуальный анализ и синтез развития, формирование речевых определений визуальной действительности проводятся по плану.

SUMMARY

Optical dyslexia is associated with vision problems. A number of methods can be used to correct optical dyslexia. Correction of optical dyslexia: formation of visual perception, recognition of shape, size and color, development of visual memory, formation of spatial perception and ideas, development of visual analysis and synthesis, speech appointments of formation of speech-spatial relations.

Abbasova İlahə Eyvaz qızı
Pedaqogikanın nəzəriyyəsi və tarixi, II kurs magistrantı

HUMANİTARLAŞDIRMA PRİNSİPİ – ŞƏXSİYYƏTİN TƏLİM-TƏRBİYƏ PROSESİNİN ŞƏRTİ KİMİ

Açar sözlər: *humanitarlaşdırma, prinsip, islahat, inteqrasiya, təhsil*
Ключевые слова: *гуманизация, принцип, реформа, интеграция, образование*
Key words: *humanization, principle, reform, integration, education*

Aparılan təhsil islahatının əsas məqsədi yeni yanaşmalar əsasında təhsilin səmərəliliyini yüksəltmək, beynəlxalq təcrübədə olan müsbət cəhətlərin milli təhsilə tətbiqini sürətləndirmək, bütövlükdə, təhsilin səviyyəsini yüksəltməkdən ibarət olmuşdur. Dünya təcrübəsi də göstərir ki, iqtisadi cəhətdən qüdrətli ölkələr sürətli inkişafa yalnız təhsil səviyyəsini yüksəltmək, insan kapitalını inkişaf etdirmək yolu ilə nail ola bilmişlər. Təhsilin müasir standatrtlar səviyyəsinə yüksəldilməsi məqsədilə Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaratmış və 15 iyun 1999-cu il tarixdə imzaladığı Sərəncamla "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" təsdiq edilmişdir.

Proqramda irəli sürülən "Demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil-alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" ideyası Azərbaycanda təhsil standartlarının yeni dövrün tələblərinə uyğunlaşdırılmasında mühüm rol oynamışdır. Qeyd etmək lazımdır ki, elmi araşdırmalarımız zamanı bütün bu prinsiplərin əxlaq və mənəviyyat kitabımız olan Qurani-Kərimin ayələrindəki bəşəri ideyaları

özündə əks etdirən fikirlərlə üst-üstə düşdüyünün şahidi olduq. Məsələn, fərdiləşmə prinsipinə "Hər bir canlını daşıya biləcəyi qədər yükləyin"(cümləsini misal göstərmək olar.(5, s.24)

Ölkədə təhsilin keyfiyyətinin artırılmasına, milli təhsilin dünya təhsil sisteminə inteqrasiyasına imkan yaradan, təhsilalanları informasiya cəmiyyətinin fəal üzvlərinə çevirən təhsil islahatları uğurla davam edir. "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" deyən ölkə Prezidenti İlham Əliyev inkişafda təhsilin rolunu yüksək dəyərləndirərək, bu vacib sahənin inkişafı üçün ardıcıl qərarlar qəbul etmişdir. Təhsilin səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, tədrisin keyfiyyətinin monitorinqinin aparılması, təhsil sahəsində inkişafyönümlü tədbirlərin həyata keçirilməsi məqsədilə ölkə Prezidenti "Azərbaycan Respublikasının Prezidenti yanında təhsil üzrə xüsusi komissiyanın yaradılması haqqında" 30 may 2005-ci il tarixli Sərəncam imzalamışdır.

Təhsil İslahatı proqramında"demokratikləşdirilmə, humanistləşdirilmə, inteqrasiya, differensiallaşdırma, fərdiləşdirilmə, humanitarlaşdırılma prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması"(1) əsas tələblərdən biri olaraq qarşıya qoyulur.

Bu prinsiplərin mahiyyətinə ayrı-ayrılıqda nəzər yetirək: "Demokratikləşdirmə" - təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri, dövlət strukturları və ictimaiyyət nümayəndələrini (müəllimləri, şagirdləri, valideynləri) təhsil prosesinə fəal iştirak etməyə cəlb etmə deməkdir; tədris müəssisəsinin "şəffaflığı" prinsipinin həyata keçirilməsidir. "Humanistləşdirmə" – təhsilin humanistləşdirilməsi şagirdə münasibətin dəyişilməsini nəzərdə tutur, o cümlədən yaradıcı inkişaf qabiliyyətli və humanist yönümlü şəxsiyyətin formalaşdırılması; əqli və fiziki imkanlarından, öyrənmə qabiliyyətindən asılı olmayaraq şagirdin şəxsiyyətinə hörmətlə yanaşma; şagirdin qabiliyyət və təmayüllərinin aşkar edilməsi və onların inkişafı üçün şəraitlərin yaradılması.Təlimin diferensiallaşdırılması şagirdlərin imkanlarının nəzərə alınması ilə qurulur. "Fərdiləşdirmə" – təhsilin fərdiləşdirilməsi şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır.İnteqrasiya – təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vəcibliyini nəzərdə tutur.

Təhsilin humanitarlaşdırılması şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşmasına yeni yanaşmanı nəzərdə tutur. Bu ümumbəşəri dəyərlərin yaradılması ilə bağlı fənlərin rolunun artmasını, öz xalqının mədəniyyətinə birləşmə və dünya mədəniyyətinin dəyərləri ilə tanışlığı ifadə edir.

Bu prinsipləri ayrı-ayrılıqda qeyd etmək olardı. Lakin məzmunca bir-birinə yaxın olduqlarına görə eyni sırada da vermək olar. Humanizmin təlim prosesində həyata keçirilməsindən ötrü ilk növbədə humanitar fənlərin tədrisini genişləndirmək lazımdır. Bu birinci şərtdir. 1988-ci ilə qədər Azərbaycan məktəblərində tədris olunan fənlərin yalnız 40 faizi humanitar fənlər idisə həmin ildən sonra və hazırda ölkəmizdə həyata keçirilən təhsil islahatlarının tələblərinə müvafiq olaraq həmin fənlərin sayı artmışdır. Hazırda humanitar fənlərin həcmi digər fənlərə nisbətən 50 faizdən də bir qədər artıqdır. Təlim prosesinin humanitarlaşdırılması tarix, sosiologiya, psixologiya, hüquq və digər insan haqqında fənlərin tədrisinə yer verilməsini diqqətdə tutmağı tələb edir. Hətta fundamental fənlərin öyrədilməsi zamanı tarixi faktlara müraciət edilməsi, elmi kəşflər, ixtiralar edən şəxslər haqqında danışılması, onların əxlaqı, mənəvi keyfiyyət və fənni tədris edən müəllimin nümunəsi bu baxımdan böyük təsirə malikdir.

Tədrisdə inteqrasiya humanitarlaşma üçün zəruri şərtlərdən biridir. Bu səbəbdən də humanitarlaşma vahid kompleksdə nəzərdən keçirilməlidir. Humanitarlaşma daha dərin inteqrasiya səviyyəsinə cavab verir. Bu prinsiplər Azərbaycan təhsil sistemi qarşısında geniş perspektivlər açır və orta və ya ali məktəb proqramlarına, dərsliklərinə ümumiyyətlə, tədris edilən fənlərin istiqamətinə və xarakterinə yenidən baxmağı günün ən vacib problemi kimi qarşıda qoyur.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı http: //www. e-qanun. az/framework/5363

2. Azərbaycanda təhsilin formaları. https: //bayramovau. wordpress. com /2017 / 02 / 26/az%C9%99rbaycanda-t%C9%99hsilin-formalari/

3. Əliyeva F.A., Məmmədova Ü.R. Müasir təlim texnologiyaları. MBM, 2019, 197 səh.

4.Əliyeva R. Təhsil islahatının mahiyyəti və həyata keçirilməsi istiqamətləri. https://sia.az/az/news/politics/735533.html

5. Qasımoğlu N.Qurani-Kərim. Bakı, Azərbaycan nəşriyyatı, 1993, 368 səh.

6. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nun nəşriyyatı, Bakı, 2012,103 səh

Abbasova İlahə Eyvaz qızı

Humanitarlaşdırma prinsipi-şəxsiyyətin təlim-tərbiyə prosesinin şərti kimi

XÜLASƏ

Elmi məqalədə humanitarlaşdırma prinsipi-şəxsiyyətin təlim-tərbiyə prosesinin şərti kimi araşdırılmışdır. Bu məqsədlə Təhsil sahəsində İslahat Proqramı nəzərdən keçirilmiş, qarşıya qoyulan tələblərdən biri kimi humanitarlaşma prinsipinin mahiyyətinə aydınlıq gətirilmişdir. Belə bir nəticəyə gəlinmişdir ki, humanitarlaşma şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşmasına yeni yanaşmanı nəzərdə tutur.

Аббасова Илаха Эйваз кызы

Принцип гуманизации как условие образовательного процесса личности

РЕЗЮМЕ

В научной статье рассматривается принцип гуманизации как условие образовательного процесса личности. Для этого была пересмотрена Программа реформирования образования, и в качестве одного из требований разъяснена сущность принципа гуманизации. Сделан вывод, что гуманизация является условием творческого развития личности и предполагает новый подход к формированию содержания образования.

Abbasova Ilaha Eyvaz

The principle of humanization as a condition of the educational process of the individual

SUMMARY

The scientific article examines the principle of humanization as a condition of the educational process of the individual. For this purpose, the Education Reform Program was reviewed, and the essence of the principle of humanitarianization was clarified as one of the requirements. It has been concluded that humanization is a condition of the creative development of the individual and implies a new approach to the formation of the content of education.

Nuriyeva Aygül Tahir qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: dos.H.A.Cəfərov

ŞAGİRDLƏRİN SAĞLAMLIĞINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Açar sözlər: *sağlamlıq, valeologiya, şagirdlər,sağlam həyat tərzi*
Ключевые слова: *здоровье, валеология, учащиеся,здоровый образ жизни*
Key words: *healthy, valeology, students, healthy lifestyle*

Bəşər cəmiyyətinin bütün inkişaf mərhələlərində milliyyətindən, dini etiqatından, yaşayış məkanından və s. asılı olmayaraq sağlamlığın qorunması və müdafiəsi insanların ən ümdə vəzifələrindən biri olmuşdur.Azərbaycan xalqı da dövlətin ictimasi-iqtisadi qurqluşundan asılı

olmayaraq gənc nəsillərin sağlamlığını xüsusi diqqət mərkəzində saxlamış, ailədə uşaqların sağlam və gümrah böyüməsinin qayğısına qalmışdır. İnsanlar bir-birilə hal-əhval tutanda da ilk növbədə uşaqların can sağlığı, sağlamlığı haqqında maraqlanmış, ətraf mühitin və yaşayış məskununun da səliqə-səhmanına əlahiddə əhəmiyyət vermişlər.

Lakin sonralar "Butun dunya miqyasında baş verən elmi-texniki tərəqqi tədricən təbiətə, ətraf gərçəkliyə təsir göstərmiş, onu sıxışdırmış, beləliklə, get-gedə təbiətin, cəmiyyətin, insanların yaşayış məskunu və məişətinin ekoloji mühitini pisləşdirmiş, gərginləşdirmiş, təbiət və cəmiyyət arasında əsrlər, min illər ərzində təsbit olunmuş tarazlığı pozmuş və bu, tezliklə insanların, xüsusilə uşaqların həyat tərzinə, sağlamlığına, səhhətinə və fəaliyyətinə mənfi təsir göstərməyə başlamışdır." (1, s. 75).

Əhali arasında sağlamlıqla bağlı problemlər artıqca, onları həll etmək zəruriyyətində yeni bir elm olan "valeologiya"nın yaranmasına ehtiyac duyuldu.«Valeologiya» - (latınca «valeo»- «sağlam yaşayış», «loqos»- «elm», «təlim» deməkdir) yəni, sağlam həyat tərzi barədə elm sahəsidir. Valeologiya elminin banisi rus alimi İsrail İskoviç Brexman hesab edilir.

Yaşadığımız dövrdə həm məkəblilərin, həm gənclərin valeolji tərbiyəsi olduqca böyük əhəmiyyət daşıyır. Buna görə də belə qənaətə gəlirik ki, ümumitəhsil müəssisələrində məktəb psoxoloqu olduğu kimi, məktəb valeloqu da olmalıdır.Şagirdlərin sağlamlığı bir sıra amillərdən (ətraf mühitin ekologiyası, həyat tərzi, gün və istirahət rejimi, ailə və məktəb şəraiti və s.) asılıdır.Burada dövlət tərbiyə institutu kimi həm məktəb, həmdə ictimai tərbiyə institutu kimi ailə mühüm rol oynayır və onlar bu sahədə öz səylərini birləşdirməlidirlər. Amma "Təəssüflər olsun ki əksər hallardamüəllimləri və xüsusilə valideynləri şagirdlərin sağlamlığı, can sağlığı deyil, onların yaxşı və əla qiymətlərlə oxuması daha çox maraqlandırır. Nəticədə şəxsi və ictimai dəyəri, əhəmiyyəti olduğundan xeyli yuksək şişirdilən, mübaliğə edilən qiymətlər şagird, tələbəşəxsiyyətini, onun can sağlığını kölgədə qoyur." (2, 83).

Şagirdlərin sağlamlığını təmin edən başlıcaamillədərn bir sağlam həyat tərzidir. Sağlam həyat tərzinin (SHT) aşağıdakı komponentlərə malikdir:

gün və stirahət rejimi,
yuxu rejimi,
düzgün qidalanma,
hərəkət fəallığı,
sanitar gigyenik qaydalar,
ünsiyyət mədəniyyəti və. s.

İlk növbədə, ailədə uşaqlara sağlam həyat tərzi qaydaları öyrədilməli və tətbiq edilməlidir. Uşaq evdə asudə vaxtını passiv keçirməli deyil. Düzgün qidalanması və normal yuxu rejimi olmalıdır.

Ümumitəhsil müəssisələrində şagirdlərin hərəkət fəallığını təmin etmək üçün bədən tərbiyəsi dərsləri və idman bölmələri dərsləri təşkil olunur. Araşdırmalara görə, idmanla məşğul olmaq əqli inkişafa müsbət təsir göstərərək mənimsəmə qabiliyyətini 15-20% artırır. Hərəkət fəallığının azalması isə zaman keçdikcə hipodinamiyaya, kökəlməyə, fiziki inkişafın zəifləməsinə gətirib çıxarır.

Mütəxəssislər qeyd edirlər ki, oturaq həyat şəraitinin olması şagirdlərin fiziki və psixoloji sağlamlığına mənfi təsir göstərir. Ötən tədris ilində aparılan araşdırmalara görə respublikamızın məktəblərində 2500 şagirdin qamətində, görmə qabiliyyətində, ürək-damar sistemində artıq bir çox problemlər yaranıb. Məktəbi bitirərkən isə uşaqların 50 faizində görmə qabiliyyətinin zəifləməsi, 48 faizində isə qamətlə bağlı problem olur. Mütəxəssislərin fikrinə görə, sağlam olmaq üçün oğlanlar qızlara nisbətən 3-5 dəfə daha artıq fiziki fəal olmalıdırlar.

Ümumitəhsil məktəblərində sağlam və yaradıcı mühitin olması vacib şərtlərdən biridir. Məktəbdə sağlam və yaradıcı mühitin yaradılması əsasən idarəetmənin düzgün təşkilindən asılıdır. Belə mühitdə şagirdlər dərslərinə daha məsuliyyətlə yanaşır, pedaqoji kollektivdə həmçinin işlərinə ciddi yanaşırlar. Nəticədə məktəblilərin nailiyyətləri yüksəlir. Ümumitəhsil məktəblərində sağlam mühitin olması həm müəssisənin kollektivini, həmdə valideynləri razı salır.

Ölkəmizdə 2014-2015-ci illərdə Sağlam təhsil - sağlam millət layihəsi reallaşdırılmışdır. "Sağlam təhsil-sağlam millət" layihəsi təhsilalanların sağlamlığının qorunması istiqamətində atılan vacib addımlardan biridir.Bu layihə nəticəsində Bakı şəhərində 5, Sumqayıt şəhərində isə 1 ümumtəhsil müəssisəsində ümumilikdə 15 "Sağlam təhsil sinfi" yaradılmışdır. Bu layihə şagirdlərin sağlamlığının qorunmasına kömək göstərir.

Ədəbiyyat

1. H.A.Cəfərov. Obyektiv və subyektiv amillərin şagirdlərin sağlam həyattərzinə təsiri. "Azərbaycan məktəbi", № 4, 2009.

2.H.A.Cəfərov. Ümumi və pedaqoji valeologiyanın bəzi aspektləri. «Psixologiya» jurnalı, 2005, № 2, c. 78 – 87.

3.Hüseynova G. H. Uşaq və yeniyetmələrin fiziki inkişafı və sağlamlıqlarının əsas xüsusiyyətləri. Bakı, 2009. s.313-316

4.İnternet resursları.

Nuriyeva Aygül Tahir qızı

Şagirdlərin sağlamlığını şərtləndirən amillər

XÜLASƏ

Elmi məqalə şagirdlərin valeoloji tərbiyəsinə həsr edilmiş, ümumitəhsil müəssisələrində şagirdlərin sağlamlığına mənfi təsir göstərən səbəblərdən bir neçəsi barədə məlumat verilmiş, onların sağlamlığının qorunması və müdafiəsi üçün lazım olan məsələlər üzə çıxarılmışdır.

Нуриева Айгюль Тахир

Факторы, обуславливающие здоровье учащихся

РЕЗЮМЕ

Статья посвящена исследованию факторов,обуславливающих здоровье учащихся, а также выявлению причин, оказывающихнегативное влияние на здоровье учащихся общеобразовательных школ. Изложенымеры, необходимые для защиты их здоровья, а также интерпретировано валеологическое воспитание учащихся.

NuriyevaAygulTahir

Factors determining the health of students

SUMMARY

The scientific article provides information on some of the reasons that negatively affect the health of students in general education institutions,and the issues necessary for the protection and defense of their health.At the same time, the valeological education of students was discussed.

Nuriyeva Firəngiz Surxay qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, 2-ci kurs magistrantı

ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN SƏMƏRƏLİ TƏLİMİNİN PSİXOLOJİ AMİLLƏRİ

Açar sözlər: *tələbə, təlim, psixologiya, daxili və xarici amillər*
Ключевые слова: *студент, обучение, внутренние и внешние факторы*
Key words: *student, training,internal and external factors*

Müasir dövrdə pedaqoji fəaliyyətin səmərəli təşkilinə nail olmaq üçün psixologiya elminin imkanlarından geniş şəkildə istifadə edilir. Ümumilikdə tələbələrin təlim fəaliyyətindən səmərəli şəkildə yararlanması onların təfəkkür sistemindən asılıdır. Öyrənmənin strukturunda

təlim məqsədləri və vəzifələrinin də özünəməxsus yeri və rolu vardır. Məhz bu cəhət öyrənmənin təlim xarakteri daşımasına imkan verir. Başqa sözlə, öyrənmə planlı, müəyyən məqsəd və vəzifələri yerinə yetirəcək şəkil aldıqda təlimə çevrilir. Həmin bu təfəkkür sistemi isə təlim prosesi boyunca inkişaf edərək genişlənir. İlk növbədə ali təhsil verilməsi prosesi zamanı təlim prosesinə cəlb edilən tələbə orta məktəbdə görmədiyi, daha fərqli bir şəraitə düşür. Burada öyrəndiyi elmi biliklər, yeniliklər, qazandığı təcrübələr və xüsusən sosial-ictimai münasibətlər onun təfəkkürünün inkişafı üçün yeni qapılar açır.

Psixoloji ədəbiyyatlarda öyrənmənin səmərəliliyini təmin edən amilləri daxili və xarici olmaqla iki yerə bölürlər. Daxili amil əsasən tələbələrin daxili aləmi ilə bağlı olur. Təlimin motivini buraya aid etmək olar. Motiv dedikdə insanın öyrənməyə, təlim fəaliyyətinə cəlb olunmasına səbəb olan cəhətlər nəzərdə tutulur. Həmin bu cəhətlər həm şəxsi tələbatla, həm də xarici amillərlə bağlı ola bilir. Şəxsi tələbatlar dedikdə burada tələbənin maraqları, yönəldiyi sahə, dünyagörüşü əsas rolu oynayır. Həmin maraqlara əsasən tələbənin diqqəti dərsə daha çox yönəlir, həvəsi artır və bu həvəslə daha çox araşdırmağa, daha çox öyrənməyə meyl edir.

Xarici amillər dedikdə isə insanın həyat tərzi, fəaliyyətinin sosial şəraiti, üzləşdiyi problemlər, təhsilverənlər, mənbələr buraya aid edilir. Həmin bu xarici amillər tələbəni motivləşdirdiyi kimi eyni zamanda əks təsir də göstərə bilir. Yaranan hansısa problem, sosial durumdakı çətinliklər tələbənin diqqətinin dərsdən yayınması ilə nəticələnə bilir. Təcrübələrə əsasən müəyyən olunmuşdur ki, tələbə davranışında müşahidə edilən bütün bu amillər təlim fəa--liyyəti ilə əlaqələndirildikdə onun səmərəliliyinə əsaslı təsir göstərə bilir.

Uşaqlarda təfəkkürün inkişafının təmini təlim mühitindən, pedaqoq yanaşmasından və nəzəri psixoloji biliklərin praktik tətbiqindən çox asılıdır. Bəzən düzgün qurulmayan münasibətlər sistemi təlimin inkişafetdirici funksiyasının axsamasına səbəb olur.

Təlim prosesini keyfiyyətli bir formada həyata keçirə bilmək üçün yaş mərhələlərindən asılı olaraq insan psixologiyasının dərinliklərini bilmək mütləq hesab olunur. Tələbənin yaşı, həmin yaş dövrünün özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq təşkil olunmuş təlim öz səmərəliliyi ilə fərqlənir.

Ədəbiyyat

1) C.Zeynaloğlu. “Təlim fəaliyyətinin psixoloji prosesi”, Bakı, “Print-S” nəşriyyatı, 2017, 144 s.

2) Ə. Paşayev, F. Rüstəmov “Pedaqogika”, Bakı, “Nurlan”-2007, 462 s.

3) S.Seyidov, M.Ə.Həmzəyev “Psixologiya”, Bakı “Nurlan”-2007,700 s.

İnternet resursları

1. http://baku.edu.gov.az
2. https://www.muallim.edu.az/news.php?id=694

РЕЗЮМЕ

В статье представлена информация о теоретических основах учебной деятельности. Эта статья относится к студентам вузов. В статье рассказывается о роли психологических деталей в жизни студента. Это также касается уровня психологической подготовленности студентов. В статье рассматривается роль внешних и внутренних факторов в психологии студентов. Их психологический уровень играет важную роль в образовательной жизни.

SUMMARY

The article provides information about theoretical bases of learning activities. This article is related to university students. Article talks about the role of the psychological details in studen’s life. İt also touches on the level of psychological readiness of the students. The article discusses the role of external and internal factors in student psychology. Their psychological level plays a major role in educational life.

Məmmədova Aytac
ADPU, Pedaqogikanın nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d.,b/m Quliyeva Kəmalə Rafiq qızı

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏNİN ASUDƏ VAXTININ TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

Açar sözlər: *ixtisas, tələbə, asudə, ailə, mühazirə, seminar*
Ключевые слова: *специальность, студент, досуг, семья, лекция, семинар*
Key words: *specialty, student, leisure, family, lecture, seminar*

Asudə vaxt tələbənin həyat fəaliyyətinin bu və ya digər növünün, o cümlədən, dincəlmək, təlim əməyi zamanı sərf olunan qüvvələri yenidən əxz etməkdən ötrü vacib bilinən zehni və fiziki qüvvə və qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə zəruri vaxt məkanıdır. Z.Müslümov yazır: "Asudə vaxtı əlindən alınmış, asudə vaxtsızlığa məhkum olunmuş şəxsin həyatı sadəcə işgəncə olardı."(4,s.72)

Orta ixtisas təhsili müəssisələrində təhsil alan oğlan və qızlar da öz təhsil vəzifələrini uğurla həyata keçirmələri üçün asudə vaxta ciddi tələbat duyur. Təlim məşğələlərindən sonra onlar öz asudə vaxtlarını müxtəlif cür keçirirlər. Təlim əməyinin səmərəli təşkili və tələbələrin əhval-ruhiyyəsinin yaxşılaşdırılması üçün onlara verilən asudə vaxtın artırılmasına diqqət yetirilməlidir. Bu, obyektiv tələbatdan irəli gəlir.

Kollec tələbələrin asudə vaxtının bir qismi: a) təhsil aldıqları tədris ocağı tərəfindən məqsədyönlü şəkildə ayrı-ayrı auditoriyadankənar tədbirlər vasitəsilə təşkil olunur: b) ailənin nəzərdə tutduğu, planlaşdırdığı tədbirlərin hesabına təmin olunur; c) tələbə kollektivinin, qrupundakı ayrı-ayrı tələbələrin təşəbbüsü ilə onların hər birinin yaxından iştirakı ilə təmin olunur; d) hər bir tələbə özü öz asudə vaxtını planlaşdırır.

Orta ixtisas təhsil müəssisələrində tələbə-gənclərin mənəvi simasının təşəkkül tapıb formalaşması çox mürəkkəb olub təhsildə tərbiyənin üzvi vəhdətdə qovuşmasını nəzərdə tutur. Gələcək müəllimlərin, gənc nəsillərin tərbiyəçilərinin hazırlığı kompleks səciyyə, sistem xarakterinə malikdir. Onların əxlaqi keyfiyyətlərinin, vətəndaşlıq mövqeyinin, dünyagörüşünün, sosial fəallığının təşəkkül tapmasını, mədəni səviyyəsinin yüksəlməsini nəzərdə tutur.

Asudə vaxt dedikdə, nə başa düşülür? Təhsillə əlaqəsi olan saatları (məşğələlərə hazırlaşmaq, təhsil müəssisəsinə getmək və geri qayıtmaq), evə verilən tapşırıqların icrasına fizioloji tələbatın yerinə yetirilməsinə ayrılan vaxtı(şəxsi gigiyena, qidalanma, yuxu və s.) auditoriyadankənar vaxtdan çıxdıqda qalan saatlar asudə vaxt sayılır. Mühazirələrin, seminar və praktik məşğələlərin səviyyəsini yüksəltmək asudə vaxtın həcminin artmasına da böyük kömək göstərir. Bu nəylə aydınlaşdırıla bilər? Ayrı-ayrı mühazirələrin, eləcə də praktik məşğələlərin keyfiyyət baxımından aşağı səviyyədə olması tələbələr arasında təlim materialı ilə tanış olmaq tələbatı yaradır. Elə bunun nəticəsidir ki, auditoriyadankənar məşğələlərə vaxt məsrəfi çoxalır ki, bu da asudə vaxtın həcminə təsir edir və onu azaldır. Nəqliyyata, yeməkxanada növbəyə dayanmağa sərf olunan vaxtın qısaldılması asudə vaxtın həcminin artmasına imkan verir. Əksinə, lazım olan ədəbiyyatların tədris müəssisəsinin kitabxanasında tapılmaması, yaxud kitabın səhifələrinin cırıq olması, yataqxanada zəruri məişət şəraitinin çatışmaması asudə vaxtın həcmini azaldır və s. O. Əfəndi yazır: "Tələbənin vaxt büdcəsi 3 əsas hissədən təşkil edilmişdir: dərsdənkənar vaxt, dərs vaxtı və boş vaxt. "(1, s.101)

Təlimin müddəti (cədvəl təhsil prosesi, müstəqil iş üçün ayrılan vaxtla əlaqəli olaraq müəyyən edilir);

Sinifdən kənar fəaliyyətlər (səyahət, nəqliyyat, şəxsi qayğı, yemək, yuxu və s. üçün sərf olunan vaxt);

Boş vaxt (ictimai fəaliyyətlərə, estetik və fiziki inkişafa, ünsiyyətə sərf olunan vaxt).

Asudə vaxtın düzgün təşkili tələbənin məqsədlərindən, şüurundan, işindən və istirahətindən, maraq və meyllərindən, vərdişlərindən, fəaliyyət formalarını seçmək bacarığından asılıdır. Tədris ili ərzində tələbələrin tədris və elmi fəaliyyətinin həcmi və intensivliyi, asudə vaxtının strukturu və məzmunu daim dəyişir, vaxt büdcəsi dinamikdir.

Boş vaxtın doğru şəkildə təşkil ediilməsi tələbələrin mənəvi və estetik inkişafı, bilik, bacarıq və təhsilinin artırılması üçün çox zəruridir.

Tələbələrin vaxt büdcəsindən əlverişli şəkildə istifadənin məqsədyönlü təşkili üçün bir sıra pedaqoji tələblərə riayət etmək vacibdir:

- Tələbələrin vaxt büdcəsinin sistematik və diferensial öyrənilməsi (fakültədən asılı olaraq);
- fakültəsindən, fəaliyyət növlərindən, yerinə yetirilən işin xarakterindən asılı olaraq tələbələrin iş və asudə vaxtının optimal təşkili;
- zehni sağlamlığın və aktiv istirahətin, müvəqqəti rejimin əhəmiyyətinin izahı və təbliği;
- tələbələrin kollektiv elmi, mədəni və estetik fəaliyyətinin təşkili;
- kollektiv iş və istirahət prosesində tələbələr arasında ünsiyyət mədəniyyətinin formalaşdırılması;
- tələbə-müəllim ünsiyyətinin hərtərəfli inkişafı, tələbə-müəllim qarşılıqlı əlaqəsi.

Televiziya, radio, internet və bədii ədəbiyyat oxumaq kimi adi istirahət fəaliyyətlərinə əlavə olaraq, tələbələr ümumiyyətlə üz-üzə qarşılıqlı əlaqə, fiziki hazırlıq, ictimai iş, təbiət gəzintiləri və bədii yaradıcılıq kimi fəaliyyətlərlə məşğul olurlar.Tələbələr üç səbəbdən səmərəli boş vaxt sərf etmirlər:

1. Tədris yükünün ağırlığı;
2. Məcburi məşqdən sonra yorğunluq;
3. Orta ixtisas təhsili müəssisələrində asudə vaxtın qənaətbəxş təşkili.

Ədəbiyyat

1. Əfəndi O.Ali məktəb pedaqogikası kursu üzrə mühazirələr. Bakı, İqtisad Universiteti, 2010, 152 səh.

2. Əliyeva R. Kolleclərdə tələbələrin sosial fəallığının formalaşdırılmasının aktual problemləri.//Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, №1, 2015, s. 21-24

3. Əliyeva Ş. Mənəvi tərbiyənin qanunauyğunluqları və psixoloji əsasları. //Pedaqoji Universitet xəbərləri, № 3, Bakı, ADPU, 2008, s.267-402

4. Müslümov Z.Pedaqoji təmayüllü ali məktəb tələbələrinin mənəvi tərbiyəsi. Bakı, Şərq-Qərb, 1996, 87 səh.

Məmmədova Aytac

Orta ixtisas təhsili müəssisələrində tələbənin asudə vaxtının təşkili istiqamətləri

XÜLASƏ

Elmi məqalədə göstərilmişdir ki, tələbənin asudə vaxtının düzgün təşkili tələbənin məqsədlərindən, şüurundan, işindən və istirahətindən, maraq və meyllərindən, vərdişlərindən, fəaliyyət formalarını seçmək bacarığından asılıdır. Bu səbəbdən də tələbələrin vaxt büdcəsindən əlverişli şəkildə istifadənin məqsədyönlü təşkili üçün bir sıra pedaqoji tələblərə əməl etmək lazımdır.

Мамедова Айтадж

Направления организации досуга учащихся средних
пециальных учебных заведений

РЕЗЮМЕ

В научной статье показано, что правильная организация досуга студента зависит от его целей, сознания, работы и досуга, интересов и тенденций, привычек, умения выбирать формы деятельности. По этой причине для целенаправленной организации бюджета времени студентов необходимо соблюдение ряда педагогических требований.

Mammadova Aytaj

Directions of organization of leisure time of students in secondary special education institutions

SUMMARY

The scientific article shows that the correct organization of a student's leisure time depends on the student's goals, consciousness, work and leisure, interests and tendencies, habits, ability to choose forms of activity. For this reason, a number of pedagogical requirements must be followed in order to purposefully organize the optimal use of students' time budget.

Seyidova Səriyyə Mirfeyzulla qızı
ADPU, Pedaqogikanın nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d.,b/m Quliyeva Kəmalə Rafiq qızı

ÇƏTİN TƏRBİYƏ OLUNAN YENİYETMƏLƏRİN AİLƏDƏ VALİDEYNLƏRİ İLƏ MÜNASİBƏTLƏRİNDƏ ORTAYA ÇIXAN ÇATIŞMAZLIQLAR

Açar sözlər: *ailə, yeniyetmə, zorakılıq, tərbiyə,övlad, natamam*
Ключевые слова: *семья, подросток, насилие, воспитание, дети, неполное*
Key words: *family, teen, violence, upbringing, children, incomplete*

Çətin yeniyetmənin xarakteri ata və ana arasındakı münasibətə əsasən formalaşır. Ailədə valideynlərin məsuliyyətsizliyi, yeniyetmələrin davranış və tərbiyəsində cavabdehlikdən boyun qaçırması, alkoqolizmə meyillilik çətin tərbiyə olunan yeniyetmələrin formalaşmasına, aildə boşanma hallarının artmasına, ümumiyyətlə ailələrin dağılmasına zəmin yaradır. Ailə natamam olan zaman müvafiq funksiyanı icra edə bilməz. Natamam ailədə böyüyən yeniyetməyə maddi durum səbəbindən 10-12 saat işləyən valideyn lazımi diqqəti və nəzarəti göstərə bilmir. Ailə mühitində tərbiyə alan övladlar və valideynlər arasındakı optimal əlaqə və münasibətlər, daha doğrusu ailədə ata-ana, eyni zamanda övladlar və övladlar-valideynlər arasındakı qarşılıqlı, davamlı (dayanıqlı) düz və əks əlaqələrin, münasibətlərin mövcudluğu cəmiyyətdə, gələcəkdə yeniyetmənin arzu olunan şəxsiyyət kimi formalaşmasında böyük rolu vardır. Hər bir ailədə bu münasibətlərin yaradılması qorunub saxlanmasına çox önəm verilməlidir. Qeyd etmək lazımdır ki, bu model ən optimal vəziyyətdə 2 övladlı ailə üçün təklif olunur. Ancaq onun 3 və ya artıq övladı olan ailələr üçün də tətbiqi oxşardır.

G.Məmmədli yazır:"Ailədaxili münaqişələr, ailə üzvləri arasında və ya yeniyetməyə qarşı olan zorakılıq, ailə dəyərlərinin itirilməsi, böhranlı yaş dövründə qayğı və xeyirxahlıqdan məhrum olan uşaq problemli davranış göstərməyə və ətraf mühitə aqressiya nümayiş etdirməyə meyilli olur". (52, s. 25)

Ailənin ən başlıca vəzifəsi reproduktivlikdir, əhalinin bioloji cəhətdən təkrar istehsalıdır. Bu başlıca vəzifədir, lakin bundan başqa da bir çox sosial vəzifələr mövcuddur. Ə.Ağayev, Y.T.Rzayeva, T.M.Hüseynova və T.Ə.Vahabova ailənin bu vəzifələrinə aşağıdakıları aid etmişdir:

-tərbiyəedici-gənc nəslin sosiallaşması;

-təsərrüfat-məişət-ailənin fiziki durumunun saxlanması, uşaq və yaşlılara qayğı;

-sosial nəzarət-ailə üzvlərinin cəmiyyətdəki, müxtəlif sahələrdə davranışındakı məsuliyyəti, ərlə arvad, valideyn və uşaqlar, böyük və kiçik nəsil arasındakı borc hissi;

-mənəvi ünsiyyət-ailənin hər bir üzvünün mənəvi zənginləşməsi;

-sosial statusu-ailə üzvlərinin cəmiyyətdə müəyyən sosial vəziyyət qazanması;

-istirahət etmək-səmərəli istirahətin təşkili, ailənin hər bir üzvünün psixoloji müdafiəsinin həyata keçirilməsi, şəxsiyyətin hissi sabitliyinin təşkili, psixoloji terapiya. (2, s.110)

Yeniyetmələr adətən dağılmış və ya daim dava-dalaş və münaqişələrdə olan aildən qaçırlar. Sakit ailədən çox nadir hallarda yeniyetmə qaçıb öz dostları ilə yaşayırlar. Tədqiqatçılar yeniyetmələrin ailədən getməsi səbəblərini nədən qaçmaq və nəyə doğru qaçmaq kimi

nəzərdən keçirirlər ki, bu da imkan verir ki, getməni yeniyetmənin evdə sıxıntı çəkməsi, əzilməsi və ya nəinsə axtarışında olması kimi izah edilsin. Evdən qaçmaların səbəbi- məqsədə çatmaqda həyəcan keçirməsi, ailədəki münaqişələr, ən mühümü-ətraf aləmə can atmalarıdır. Belə yeniyetmələr təhlükələrlə üzləşir, psixi və fiziki cəhətdən tam yetkin olmadığından zorakılığa məruz qalırlar. Döyülmüş yeniyetmə sindromu termini də mövcuddur. Pis rəftarın günahkarları valideynlərdir, onlardan böyük faizi doğma valideynlərdir. Pis rəftarda qadınlar kişilərdən çox faiz təşkil edir (60% qadınlar, 39% kişilər). Valideynlər və ya onları əvəz edən insanlar uşağa pis baxır, onunla kobud rəftar edir, döyür, təhqir edir, onu zorakılığa məruz qoyurlar. Belə hərəkətlərə qadınlar kişilərdən daha çox yol verirlər. Tədqiqatçılar müəyyən etmişlər ki, pis rəftarın səbəbi valideynlərin şəxsi keyfiyyətləridir. Belə ailələrdə ailədaxili problemlər kəskin xarakterdədir: ailə natamamdır, valideynlər sərxoşluq edir, narkomandır, dini fanatdır, 17 yaşa çatmamışdır, işsizdir, fiziki qüsuru (kar, kor), əqli cəhətdən geri qalır və ya əsəbi, ruhi xəstədir. Belə ailələrdə yeniyetmələrin çoxusu zorakılığa, zülmə dözməyib məhv olur və ya onlarda fiziki, psixi pozuntular yaranır. Onlar təhsil almır, nə oxumaq, nə də işləmək istəyir, həyatda özlərinə yer tapmır, ailə qurmaq istəmir. Ailələrdə olan cinsi tərbiyəyə münasibət müxtəlifdir. Bəzi qrup valideynlər hesab edir ki, xanım və bəy arasında fəaliyyət baxımından fərq qoymaq lazım sayılmır, hətta bu cinsi fərq qoyulma zərərlidir. Müəyyən qrup valideynlər hesab edirlər ki, ailədə böyüyən cavan oğlan uşağı özünə baxmağı, paltarını düzənə salmağı, özünə yemək bişirməyi, qopan düyməni, paltarının sökülən hissəsini tikməyi bacarmalı və ya qızlar isə korlanmış ütünü düzəltməyi divara mıx vurmağı və s. olaraq oğlan işlərini edə bilməlidir. İkinci qrup valideynlər isə bu münasibətin cəmiyyətdə "feminizasiyalaşma" ya gətirib çıxaracağını hesab edirlər. Onlar hesab edirlər ki, oğlanlar əsl kişi xarakterli, igid, zəiflərə kömək etməyi, özünü və digərlərini qorumağı, qızlar isə zəif, qayğıkeş, digərlərinin xidmətində olmağı edə bilməlidirlər. Ailədə yeniyetmələrin birgə münasibətlərinə xələl vuran faktorlar mövcuddur. Onların əsasları bunlardır: iqtısadı faktorlar, asosial faktorlar, psixoloji faktorlar, ailədə zorakılıq hisr-əsəb mövcudluğu, hədsiz dərəcədə qısqanclıq, ərin yaxud xanımın sədaqətsizliyi, simiclik, xarab müvazinətsizliyi (çılğınlıq), tələbat və maraqların qarşılaşması, hökmranlıq hissi, fərdiyyətçilik, şübhə doğurma, ailədə mənfi emosional şərait, tibbi faktorlar, xroniki xəstəliklər, psixi və seksual gərginlik, pedaqoji faktorlar, yaxşı işin dəyərləndirilməməsi, qiymətləndirmədə haqqlı olmayan məsələlər, bir-birinə qarşı dözümsüzlük.

Ədəbiyyat

1. Ağayev Ə.Ə., Rzayeva Y.T., Hüseynova T.M., Vahabova. Sosial pedaqogika. Bakı, ADPU, 177 səh.

2. Məmmədli G. Çətin tərbiyə olunan uşaqların sosiallaşması. Bakı, Müəllim, 2018, 140 səh.

3. Allahverdiyeva L.Z. Ailədaxili münasibətlərin uşaq şəxsiyyətinin formalaşmasına təsiri.//Dil və ədəbiyyat.Beynəlxalq elmi- nəzəri jurnal, 2014, №70, s.303-30

4. Ağayeva B. Ailə şagird şəxsiyyətinin formalaşmasında əsas social amil kimi.//Elmi əsərlər, Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu,2010, №1, s.184-189

Seyidova Səriyyə Mirfeyzulla qızı

Çətin tərbiyə olunan yeniyetmələrin ailədə valideynləri ilə münasibətlərində ortaya çıxan çatışmazlıqlar

XÜLASƏ

Elmi məqalədə çətin tərbiyə olunan yeniyetmələrin ailədə valideynləri ilə münasibətlərində ortaya çıxan çatışmazlıqlar, ailədə yeniyetmələrin birgə münasibətlərinə xələl vuran faktorlar: iqtısadı, asosial, psixoloji, ailədə zorakılıq hisr-əsəb mövcudluğu, hədsiz dərəcədə qısqanclıq, ərin yaxud xanımın sədaqətsizliyi, simiclik, xarab müvazinətsizliyi (çılğınlıq), tələbat və maraqların qarşılaşması, hökmranlıq hissi, fərdiyyətçilik, şübhə doğurma, ailədə mənfi emosional şərait, tibbi faktorlar, xroniki xəstəliklər, psixi və seksual gərginlik, pedaqoji

faktorlar, yaxşı işin dəyərləndirilməməsi, qiymətləndirmədə haqqlı olmayan məsələlər, bir-birinə qarşı dözümsüzlük tədqiqata cəlb olunaraq öyrənilmişdir.

Сеидова Сария Мирфейзулла гызы

Недостатки во взаимоотношениях трудных в воспитании подростков с родителями в семье

РЕЗЮМЕ

В научной статье рассматриваются недостатки подростков в сложных отношениях с родителями в семье, факторы, нарушающие совместные отношения подростков в семье: экономическое, антиобщественное, психологическое, домашнее насилие, чрезмерная ревность, измены мужа или жены, жадность, плохой баланс), противостояние потребностей и интересов, чувство доминирования, индивидуализм, подозрительность, негативные эмоциональные состояния в семье, медицинские факторы, хронические заболевания, психическое и сексуальное напряжение, педагогические факторы, недооценка хорошей работы, вопросы несправедливой оценки, нетерпимость друг к другу изучается бытием.

Seyidova Sariya Mirfeyzulla gizi

Deficiencies in the relationship of difficult-to-raise adolescents with their parents in the family

SUMMARY

In the scientific article, the shortcomings of adolescents in difficult relationships with their parents in the family, the factors that damage the joint relationship of adolescents in the family: economic, antisocial, psychological, domestic violence, excessive jealousy, infidelity of husband or wife, greed, bad balance), confrontation of needs and interests, sense of dominance, individualism, suspicion, negative emotional conditions in the family, medical factors, chronic diseases, mental and sexual stress, pedagogical factors, underestimation of good work, unfair evaluation issues, intolerance to each other studied by being.

Nuriyeva Zəhra Cəbrayıl qızı
Ümumi Pedaqogika kafedrasının magistrantı
Elmi rəhbər: p.ü.f.d. Dos. Ə.İ.İsmayılxanova

AİLƏNİN TARİXİ MƏNŞƏYİ

Açar sözlər: *ensiklopediya, monoqam, panaula, xeyirxahlıq, ləyaqət, mərhəmət, tənəzzül, tayfa quruluşu, ibtidai icma quruluşu*

Ailə cəmiyyətin sosial strukrur ünsürlərdən biri, cəmiyyətin ilkin özəyidir. Ailə sözü ərəb dilindən gəlmiş və ərəbcədə bu sözün əsil kökü “avl”, yəni “dayanmaq” deməkdir. Bu söz əslində bir-birinə etimad edən və ya dayanan insanlar üçün işlədilən sözdür.

Bəs əslində ailə nədir? Bu cür sualı hər insan ailə qurmazdan qabaq özü-özünə verməlidir. Ailə elə bir xoşbəxtlikdir ki, ona öncədən hazırlıq görmək lazımdır. Səd heyif ki, bəşəriyyət ailənin nə demək olduğunu, onun məqsədinin, psixologiyasının nədən ibarət olduğunu unutmuşdur.

Hal-hazırda Avropa ölkələrində, Rusiyada və Amerika Birləşmiş Dövlətlərində bo-şanmalar daha çoxdur, deyə bilərik ki, boşanma siyahısında bu dövlətlər ilk yerlərdə bərqərar olmuşlar. Boşanmaların sayının artması dövlətlərdə böyük sıxıntılar yaradır. Belə ki, boşanmalar artınca əhalinin artımı təbii şəkildə azalır. Müsəlman dövlətlərində bu problemin faizi çox aşağıdır. İslam dini boşanmaları günah hesab edir və hər bir insanı ailə qurmağa, dünyaya övlad gətirməyə çağırır. Yəni, bütün ölkələrdə ailə məvhumu eyni deyildir. Bir ölkədə insanlar ailə qurmağa üstünlük verər, dünyaya uşaq gətirməyə çalışar. Digər başqa ölkələrdə ailə qurmaq deyil, birgəyaşayışa üstünlük verilər, lakin övlad sahibi olmaq arzulanmaz. Səbəbi soruşulanda- biz buna hazır deyilik-deyə cavab verilər.

Qurulmuş elə ailələr vardır ki, bu ailələrin qurulması müvəffəqiyyət və qüdrət qazanmaq üçün nəzərdə tutulur. Elə ailələr də vardır ki, sirf gözəllik üzərində qurulur və belə ailələrdə gözəlliyə üstünlük verilir. İnsani keyfiyyətlər ikinci plana keçirilir. Yəni, fikrimiz budur ki, elə ailələr var, dövlət, gözəllik üzərindən qurulur və ailənin əsas fəlsəfəsini bunlar təşkil edir. Belə insanlar ailənin uzunmüddətli, davamlı və möhkəm olmasını da bu ünsürlərin üzərindən hesablayırlar.

İndiki lüğətlərdə, ensiklopediyalarda ailə üçün eyni tərif verilmişdir. "Ailə bir-biri ilə qarşılıqlı məsuliyyətlə, məişət birliyi ilə bağlı olan insanların qan qohumluğuna və nigahına əsaslanan birlikdir". Atan,ana, qardaş,bacı-bizim kiçik dövlət adlandırdığımız ailə- ən şirin xatirələr bu insanlarla bağlıdır. İstər qardaş-bacılıq, istərsə dö övladlıq hissi olsun, biz ömürlük bu hisslərlə bir-birimizə bağlıyıq.

Bunlardan əlavə ailə yaşadığı müddətdə onu ayaqda tutan əsas bir sütun mövcuddur ki, ailə bu sütunun üzərində möhkəm dayanmalıdır. Qalan mövcud şeylər ikinci planda bərqərar olur. Bu sütun da ailənin əsas xoşbəxtliyi olan övladlardır ki, hər bir ata-ana istər ki, onun varlığını, soyadını övladı daşısın. Psixoloqlar ata və anada atalıq-analıq instiktinin güclü olduğunu söyləyirlər. Bu sevgi ilahi bir sevgidir ki, onu heç nə ilə qarışdırmaq mümkün deyirdir. Dunyaya gələn uşaqlar haqqında valideynlərin bir fikri olur: onu yaxşı saxlamaq, yedizdirmək, geyindirmək, tərbiyə edib cəmiyyətin yararlı bir üzvünə çevirmək. Hər bir valideynin ən müqəddəs arzusu övladının yaxşı oxuması, sənətini sevməsi və gələcəkdə bu sənətin barını yeməsi olmuşdur.

Bəzən də ailələr sonsuzluq səbəbi ilə ayrılmaq məcburiyyətində qalırlar. Belə ki, problemin kimdən qaynaqlandığından asılı olmayaraq dağılır ailələr. Nə qədər də ailə sevgi üzərində qurulursa müəyyən vaxtdan sonra övlad sevgisi daha üst səviyyədə olunca, təəssüf ki, ailələr dağılmaq məcburiyyətində qalırlar ki, bu da iki nəslin bir-biri ilə düşmənçiliyinə gətirib çıxarır.

Lakin elə ailələr də vardır ki, qadın və kişinin ağıllı hərəkəti, qəbul etdikləri düzgün qərarlar ailənin uzunmüddətli yaşamasına və xoşbəxtliyinə səbəb olur.

Ailə, eyni zamanda, uşaqlara insani münasibətlərin nümayiş etdirildiyi bir müəssisədir, yəni həyat məktəbidir. Uşaqlar ilk əxlaqi təcrübəni, yaxşını-pisi, sevgini-nifrəti, xeyirxahlığı-mərhəməti, ləyaqəti, qeyrəti, isməti və bu kimi müsbət əxlaqi keyfiyyətləri ailə şəraitində qazanır və cəmiyyətə bu cür daxil olur. Uşaqların bir şəxsiyyət kimi yetişdirilməsində əsas vəzifə, məsuliyyət ailənin üzərinə düşür. Hər bir gəncin, yeniyetmənin gələcək taleyi, həyatda tutduğu mövqe ailədə verilən tərbiyə ilə bağlıdır

Burada İslam dininin peyğəmbəri olan Həzrəti Məhəmməd söyləyir ki, valideynlərin övladına verəcəyi ən böyük hədiyyəsi tərbiyədir.

Ailədə uşaqların tərbiyəli böyüməsinin ən mühüm amillərindən biri və ən əsası atan-ana arasında olan qarşılıqlı məhəbbət və hörmətdir. Uşaq valideynlərindən gördükləri bütün hərəkətləri izləyir və gələcəkdə bu onların qurduqları ailələrdə özünü biruzə verir. Əgər valideynlər bir-birinə münasibətdə özlərini təmkinli apararsa, qarşılıqlı hörmət olarsa uşaqlar da gələcək öz ailələrində də özlərini valideynləri kimi aparmağa çalışacaqlar.

Ailənin tarixinə nəzər salsaq görərik ki, tarix hələ quldarlıq quruluşuna, xüsusi mülkiyyətin yarandığı və sinifli cəmiyyətin meydana gəldiyi dövrə təsadüf edir.

Bildiyimiz kimi ibtidai icma quruluşu insan cəmiyyətinin inkişafında ilk mərhələ olmuşdur. Ümumi əmək, ümumi mülkiyyət, istismarın və siniflərin yoxluğu həmin cəmiyyətin səciyyəvi xüsusiyyətlərindən olmuşdur. İbtidai icma quruluşunda insanlar demək olar ki, təbiətin yaratdığı hazır məhsullardan istifadə etmişlər-ovla məşğul olmuş, balıq tutmuş, əldə etdikləri məhsulları yerindəcə istehlak etmişlər. Həmin cəmiyyəti üzvü olan uşaqlar da bu cür proseslərin həm tamaşaçısı, həm də iştirakçısı olmuşlar. Odur ki, uşaqların tərbiyəsi ümumi xarakter daşıyırdı.

Yeniyetmə və gənclərin tərbiyəsi çox sadə və məhdud isi. Uşaqlar bütün icmaya məxsus olduqları üçün onların tərbiyə olunması ilə icmanın bütün kollektivi, yəni icmanın bütün üzvləri məşğul olurdular. İcma üzvləri sadəcə uşaqlara həyat üçün vacib olan ümumi əmək

bacarıqları və vərdişləri aşılayırdılar. Lakin hər bir ictimai formasiyada inkişaf getdiyi kimi, ibtidai icma quruluşunda da inkişaf mərhələsi başlandı. İbtidai icma quruluşunun son mərhələsində qızlarla oğlanların tərbiyəsində ciddi fərqlər özünü göstərməyə başladı. Artıq oğlanlar icmanın kişiləri ilə birlikdə ov etməklə, balıq tutmaqla, silah qayırmaqla, çöldən müxtəlif giləmeyvələr və bitki kökləri toplamaqla məşğul olmağa başladılar. Qızlar da öz növbəsində icmanın qadınları ilə birlikdə paltar hazırlamaqla, yemək, qab-qacaq yumaqla ev işlərinə alışdırılırdılar. Bu cür hallar daha qabarıq şəkildə tayfa quruluşunda özünü göstərirdi. Tayfa quruluşunda yeniyetmə və gənclərin tərbiyə edilməsi tayfanın daha çox təcrübəyə malik olan üzvlərinə həvalə edilirdi. Bu cür təcrübəli insanlar uşaqlara müxtəlif əmək bacarıqları, vərdişləri ilə bərabər o dövr üçün ənənəvi olan bir çox dini ayinlər, mərasim qaydaları, əfsanələr, qəhrəmanlara həsr olunmuş rəvayətlər və.s. haqqında məlumatlar verir və uşaqlara müxtəlif məzmunlu mahnılar öyrətməyə çalışırdılar

Sonrakı dövrlərdə isə oğlanlara hərbi bilik, bacarıq və vərdişlər öyrədilirdi. Buraya at çapmaq, ox atmaq daxil idi. Qızlar və oğlanlar nə vaxt ki, yetkinlik çağına çatdılar, onlar icmanın tam hüquqlu üzvü kimi böyüklər sırasına daxil olmaq üçün icmanın ağsaqqallarının yığıncağında ciddi şəkildə sınaqdan keçirilməli idilər.

Buradan bizə məlum olur ki, ibtidai icma quruluşunda da uşaqların tərbiyəsi ağsaqqalların diqqətində olmuşdur.

Əsrlər keçdikcə ibtidai icma quruluşunda məhsuldar qüvvələrin inkişafı nəticəsində "sənin", "mənim" anlayışları meydana gəlir. İbtidai icma quruluşu öz yerini quldarlıq quruluşuna verir və xüsusi mülkiyyət, təkbaşına ailə (təkarvadlılıq) əmələ gəlir. Cəmiyyətdə gedən bu cür əsaslı dəyişiklikdən sonra ciddi təbəqələşmə yaranır. Həm təbəqələşmə, həm təkarvadlılıq (monoqam ailə), həm də xüsusi mülkiyyətin inkişafı ibtidai icma quruluşunu tənəzzülə uğradır. Hətta o dövrün ən böyük şəxsiyyətləri fərdi kəbini (monoqamiyanı) mühüm tarixi tərəqqi və yaxud bəşəriyyətin ən böyük qələbəsi adlandırırdılar. Belə ki, bu şəraitdə ailə müstəqil şəkildə təsərrüfat sahibi olur, eyni zamanda da öz uşaqlarının tərbiyəsi ilə bilavasitə özü məşğul olur.

Beləliklə, demək olar ki, ailənin meydana gəlməsi, öz uşaqları ilə valideynlərin məşğul olması o dövrün mühüm hadisəsi olmuşdur ki, bu ənənə müasir dövrə kimi gəlib çatmışdır. Monoqam ailənin yaranması ailə fərdlərinin sağlam olması, uşaqların dünyaya sağlam gəlmsinin əsas vasitəsi olmuşdur. Sağlam valideyndən doğulan uşaqlar sağlam olur və onlar da dünyaya sağlam övlad gətirirlər.

Müasir dövrdə ailələrdə xəstə uşaqların doğulmasının əsas səbəblərindən biri də fərdlərlə qohumluq əlaqəsinin olması göstərilir. İndi elm də sübut etmişdir ki, qohumla evlilik xəstə uşaqların doğulmasının əsas səbəbi olur.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı-2008.
2. Seyidov Ə. Pedaqogika tarixi. Bakı-1964.
3. Kazımov N. Milli pedaqogika. Bakı-2003.

Nuriyeva Zəhra Cəbrayıl qızı
Ümumi Pedaqogika kafedrasının magistrantı
Elmi rəhbər: p.ü.f.d. Dos. Ə.İ.İsmayılxanova

AİLƏNİN TİPLƏRİ, SADƏ VƏ MÜRƏKKƏB AİLƏLƏR

Açar sözlər: *məişət birliyi, panaula ailəsi, nuklear ailə, monoqam ailə, təknigahlılıq, reproduktiv funksiya, bərpaedici funksiya*

Görkəmli rus pedaqoqu V.A.Suxomlinski tərbiyə prosesində ailənin-valideynlərin rolunu yüksək qiymətləndirmişdir. O, qeyd edirdi ki, uşaq və yeniyetmələrin əxlaqi-mənəvi sima-

sı onların uşaqlıq illərindən necə tərbiyə olunmasından asılıdır. Doğulduğu gündən 10-11 yaşına qədər onun ürəyinə, qəlbinə, beyninə nə qoyulması ilə səciyyələnir.

Bu yeniyetmələr və gənclər, istər qızlar, istərsə də oğlanlar gec-tez ailə quracaqlar. Bu həyatın qanunu olmaqla bərabər hər bir valideynin müqəddəs arzusudur. Ona görə də oğlanlar da, qızlar da ailə həyatına hazırlamaqdan ötrü müxtəlif hazırlıqlar görməli, böyüklərin təcrübəsindən bəhrələnməli və onlardan məsləhət almalıdırlar.

Yuxarıda ailəyə dair bir neçə tərif qeyd etmişdik. Bu təriflərdən ailənin iki əsas səciyyəvi xüsusiyyətinin olduğunu görürük. Bunlar aşağıdakılardır:

1- məişət birliyi;

2- ailənin özünəməxsus münasibətlər sistemi, kömək, məsuliyyət və qarşılıqlı cavabdehlik.

Bu xüsusiyyətlər bir-biri ilə qarşılıqlı əlaqədədir. Ailə məvhumunu səciyyələndirdikdə bu xüsusiyyətlərə birlikdə diqqət vermək lazımdır. Ailə qeyd etdiyimiz xüsusiyyətlərinə əsasən digər kiçik qruplardan əsaslı dərəcədə fərqlənir. Bu qruplar aşağıdakılardır:

- dostlardan, yoldaşlardan, məhəllə uşaqlarından;
- yataqxanalarda eyni mərtəbədə və yaxud eyni otaqda yaşayan adamlardan;
- istənilən idarələrdə və ya müəssisələrdə fəaliyyət göstərən işçilərdən.

Ailə kiçik sosial qrup olmaqla cəmiyyətin ilkin özəyi və yaxın qohumların bir yerdə yaşayan qrupudur.

Hal-hazırda ailənin bir neçə tarixi formaları vardır ki, bunlar:

- ikili ailə;
- panaula ailəsi;
- monoqam ailə (təknigahlılıq və ya tək arvadlılıq).

Azərbaycanda və dünyanın əksər ölkələrində monoqam ailə forması mövcuddur.

Ailə məcəlləsinin 17-ci maddəsində qeyd edilir ki, dövlət ailənin qoruyucusudur və ailə cəmiyyətin əsas özəyi olmaq etibarilə daima dövlətin himayəsi altındadır.

Müasir cəmiyyətdə təknigahlılıq (monoqam ailə) kişi ilə qadının qarşılıqlı səmimiyyətinə, hörmətinə, məhəbbətinə və onların həm bir-biri qarşısında, həm də övladları qarşısında məsuliyyət daşımasına əsaslanır.

Məişət birliyi dedikdə biz ev-eşiyin nəzərdə tutulduğunu fikirləşirik. Hər insana, ümumiyyətlə ailəyə özünə məxsus ev-eşiyi doğmadır. Heç yerdə tapa bilmədikləri rahatlığı, sərbəstliyi lap o ev kiçik bir daxma olsa belə insan yalnız öz evində tapır. Elə "Ata evi, ata ocağı" kəlməsi də buradan gəlir. Məişət birliri dedikdə nələr başa düşülür, onu deyə bilərik ki, ailə üçün ən səciyyəvi xüsusiyyətlər bunlardır: ailənin büdcəsi, məişət etikası, təsərrüfatı, əmək mühiti və.s. Bütün bunlar yoxdursa, demək ailə də yoxdur.

Ailə dedikdə qadın-kişi, ana-övlad, qardaş-bacı münasibətləri anlaşılır. Ailədə olan bütün sirrlər bu münasibətlərdə gizlənir. Ailənin mahiyyəti dedikdə ilk ailə münasibətləri ilə əlaqəli olduğu başa düşülür. Lakin bunu təkcə ər-arvad münasibəti kimi nəzərə almaq olmaz, belə ki, ailə təkcə kişi və qadından ibarət deyil, eyni zamanda ailədə dünyaya gələn övladlardan da ibarətdir.

İndiki ailələrdə baş verən müasir dəyişikliklər ilk növbədə kişi ilə qadının, ata-ana ilə övladların qarşılıqlı əlaqələrində özünü göstərir. Əvvəllərdən evə yaxşı qazanc gətirən, el sözü ilə ifadə etsək, əli pulla oynayan kişilər özlərini nə qədər kobud və ya şıltaq aparsaydılar bu hərəkətlər onlara bağışlanardı. Yəni bu ailədə xoşbəxtlik, ailənin əmin-amanlığı pulla, daşqaşla, var-dövlətlə ölçülürdü.

Ailə başqaları tərəfindən doxunulmaz hesab edilir və Azərbaycan Respublikasının Konstitusiyasının qanunlarına uyğun formada dövlət tərəfindən qorunur və müdafiə olunur. Respublikamızda ailələrə aşağıdakı kimi qiymət verilir və qayğı göstərilir:

- doğum və körpələr evlərinin tikilməsi;

- uşaq bağçaları və digər uşaq müəssisələrinin böyük şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi;

- ictimai iaşənin təşkilinin və mənşət xidmətinin təkmilləşdirilməsi;

- körpə doğulduqdan sonra, eyni zamanda çoxuşaqlı ailələrə və tək analara yardımlaınr edilməsi, müavinətlərin ayrılması;

- ehtiyacı olan ailələrə digər formalarda yardımların edilməsi vəs.

Hər bir ailənin özünə xas funksiyaları mövcuddur. Funksiya sözü latın mənşəli olub icra, fəaliyyət mənasında işlədilir. Ailənin həyati fəaliyyətinin əsas istiqamətləri ailənin funlsiyalarıdır. Buna görə də ailənin əsas funksiyaları aşağıdakı kimi fərqləndirilir:

- reproduktiv funksiya;

- təsərrüfat-iqtisadi funksiya;

- tərbiyə və bərpaedici funksiya.

Ailənin reproduktiv funksiyası - Ailənin reproduktiv funksiyası dedikdə ailənin həyatının ən vacib sahəsi-övladların dünyaya gəlməsini nəzərdə tutur. Buradan belə suallar meydana çıxır: Ərlə həyat yoldaşı neçə uşaq dünyaya gətirmək istəyirlər? Kişi ilə qadın ailənin gələcək inkişafını necə görürlər və gələcək üçün hansı planları vardır? Bu suallar ilk baxışdan çox sadə görünür, lakin ailənin bu funksiyasının məzmununu daha aydın və düzgün ifadə edə bilir. Ailənin həyat tərzinin ən mühüm göstəricisi ailədə dünyaya gələn övladların sayı ilə əlaqəlidir. Hətta deyə bilərik ki, ailənin inkişafı övladların dünyaya gəlməsi ilə birbaşa bağlıdır.

Ailənin digər bir funksiyası insan nəslinin davam etdirilməsi funksiyasıdır. Yəni, bu funksiya övladların dünyaya gəlməsinə xidmət edir ki, ailənin bu funksiyanı yerinə yetirməsi mütləqdir.

Lakin elə bədxah insanlar vardır ki, nigahın əleyhinə çıxırlar. Onların fikrincə övladın dünyaya gəlməsi üçün heç də ailə qurmaq vacib deyildir, uşağı nigaha girmədən də dunyaya gətirmək mümkündür. Ancaq bu dini baxımdan da, elə insani baxımdan da əxlaqi sayılmır.

İkinçisi, nigahsız yaşayan cütlüklər heç də həmişə dünyaya üşaq gətirmək haqqında düşünmürlər, ona görə ki, "fiquram pozular" deyib övladdan imtina edən gənclər də mövcuddur. Digər tərəfdən isə hərtərəfli, tam, mütəşəkkil, davamlı tərbiyə olmadıqda uşağı dünyaya gətirmək və onu tərbiyə etmək çox çətin olur. Həm də bu cür yaşamağa üstünlük verən gənclər düzgün uşaq tərbiyə edə bilməzlər. Ata-övlad, ana-övlad hələ ailə sayılmır, çünki nigahsız ailə dövlət tərəfindən də tanınmır. Bu cür ailələr natamam ailə hesab olunur. Bu cür ailələrin hüquqlarını dövlət tanımır və bu ailə dağıldıqda onlar bir-birlərindən heç nə tələb edə bilmirlər. statistik məlumatlara baxsaq görərik ki, daxili işlər şöbələrində qeydə alınan uşaqların bir çoxu bu cür ailələrdə dünyaya gələn yeniyetmələrdir. Yəni natamam ailələrdə dünyaya gəlmişlər

Hal-hazırda uşaqların dünyaya gəlməsində valideynlər planlaşdırmalar aparırlar. Belə ki, bir çox ailələrdə istər övladların sayını, onların təxmini doğulma tarixini, istərsə də sonradan dünyaya gələn uşaqlar arasındakı müddəti belə valideynlər özləri planlaşdırır. Hətta neçə uşaq dünyaya gətirmələrinin qərarını da qadınla kişi bir yerdə razılığı gələrək verirlər. Kənar müdaxilələri, məsləhətləri qəbul etmirlər. belə ki, bəzi ailələrdə baba-nənə daha çox nəvələrinin olmasını istəsələr də son qərar yenə də kişi ilə qadının qərarı olur. Bunun da bəzi obyektiv və subyektiv səbəbləri vardır. Bu cür qərarlar bəzi amillərin təsiri ilə qəbul edilir. Bəs bu amillər hansılardır, ailədə uşaqların sayına nə cür təsir göstərir? Bunlara aşağıdakıları misal göstərə bilərik:

- şəhərdə yaşayanların həyat tərzinin müxtəlifliyi;

- ev şəraitinin olmaması və ya buna tələbatın olması;

- qadının işinin olması və iş şəraitinin daha çox uşağı böyüdüb tərbiyə etməsinə qarşı vaxt məhdudiyyəti, imkanının olmaması;

- qadının hər hansı bir ictimai vəzifəsinin olması;

- iqtisadi cəhətdən ailənin imkanının olmaması;

- uşaqların gündəlik tələbatlarının yüksək olması vəs.

Bütün bunlar əsas olsa da, digər bir səbəb də qadınla kişinin hazırlığının və psixoloji yetkinliklərinin yetərincə olmamasıdır.

Müasir dövrdə bu cür oxşar vəziyyətdə olan ailələrin sayı çoxdur. Bəzi ailələrdə bir-iki, bəzilərində üç-dörd uşaq vardır. İndi çoxuşaqlı ailələrin sayı azalmağa doğru gedir. Çünki, indiki iqtisadi çətinliklər ailələri qorxudur, ona görə də çox uşağın dünyaya gətirilməsi arzu olunmaz hala gəlmişdir.

Lakin onu da unutmaq olmaz ki, böyüyən uşaqlar böyüdükdən sonra ailəsinə dəstək olur və maddi vəziyyətlərinin yaxşılaşmasına yardım göstərirlər. onu da qeyd edək ki, statistik məlumatlar onu deməyə əsas verir ki, çoxuşaqlı ailələrdə boşanmaların sayı azuşaqlı ailələrdən daha azdır. Həm də çoxuşaqlı ailələrdə böyüyən övladlar daha sərbəst olur və həyata sərbəst şəkildə ayaq basırlar. Bu cür övladlar daxil olduqları kollektivə daha tez adaptasiya olunur, kollektivin üzvləri ilə daha tez ünsiyyətə girir, daha qayğıkeş, mehriban, səmimi və daha iltifatlı olurlar. Bu cür tərbiyənin ailədən gəldiyi aydın görünür. Çünki, ailədə daha çox uşağın olması daha tez sosiallaşırlar. Bu cür uşaqlar qohumluq əlaqələrinə də diqqət göstərirlər.

İstənilən çoxuşaqlı ailələrin övladları qohumların bütün ehtiyaclarının qarşılanmasına, onların dar günündə kömək əlini uzatmağa çalışırlar. Cəmiyyətin uşaqcanlı valideynləri daha çox uşaq dünyaya gətirmələrini arzu edirlər. Bu tip ailələr hörmətə, təqdirə layiq ailələrdir.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı-2008.
2. Seyidov Ə. Pedaqogika tarixi. Bakı-1964.
3. Kazımov N. Milli pedaqogika. Bakı-2003.

Qulamova Cəmilə

ADPU, məktəbəqədər təlim və tərbiyə, magistrant

Elmi rəhbər: p.ü.e.d., prof. M.İlyasov

UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA AİLƏ TƏRBİYƏSİNİN ROLU

Açar sözlər: *ailə, uşaq, tərbiyyə, məktəbəqədər, şəxsiyyət*

Ключевые слова: *семья, дети, воспитание, дошкольный, идентичность*

Key words: *family, child, upbringing, preschool, indentity*

İnsan cəmiyyətinin təməli ailədə qoyulur. İctimai sərvət olan uşaq ailədə dünyaya göz açır. Uşağın ilkin tərbiyə aldığı mühit ailəsi və valideynləridir. Ailə uşağın fiziki və psixi inkişafına, onun şəxsiyyətinin formalaşmasına təsir edən ilk kollektivdir, burada onun mənəvi, əxlaqi keyfiyyətlərinin təməli qoyulur. Valideyn öz övladında bəşəri hisləri, milli mənəvi keyfiyyətləri formalaşdırmaq istəyirsə, buna çağalıq dövründən başlamalı və fasiləsiz davam etdirməlidir. Təsadüfü deyildir ki, şərq təfəkküründə bu işə uşaq hələ ana bətnindəykən başlamağın vacibliyi vurğulanır. Ailə, tarixən ən mühüm tərbiyə ocağı olub və olacaqdır. Valideynlər ilk tərbiyəçi, tərbiyənin memarlarıdırlar. Uşaqlar məktəbə gedənə kimi ailədə tərbiyə alırlar. Məktəbəqədər müəssisədə lazımi tərbiyə aşılansa belə, ailə tərbiyəsinin davamlı təsiri danılmazdır. İllər keçdikcə ailə tərbiyəsi ictimai tərbiyə ilə qovuşmalı, ailədə ata-analar tərəfindən başlanılan tərbiyəvi işlər məktəbəqədər müəssisədə davam etdirilməlidir. Hər bir valideyn heç bir bəhanə axtarmadan övladlarına qarşı diqqətli olmalıdır. Çalışmalıdırlar ki, övladları xeyirxah, həssas, ağıllı, ədalətli, uğurlu və namuslu insan kimi həyata qədəm qoysun, onların şəxsiyyət kimi formalaşmasında həlledici rolu kütləvi informasiya kanalları deyil, atalar və analar oynasın. Şəxiyyətin təməli sağlam inşa edilsin.

Azərbaycanda mənəvi və əxlaqi dəyərlər yüksək qiymətləndirlir. Ölkəmizdə valideynlərin övladlarına təsiri daha güclüdür. Ailədə ananın tərbiyəvi rolu çox böyük və əvəzolunmazdır. Ananın sevgisi səmalar qədər əngin, şəfqəti günəş kimi parlaq, səbri dəryalar qədər geniş-dir. Ana – ilk müəllimə, həmişə mənəvi qucağına sığındığımız qoruyucu mələk, insan yetişdirən müqəddəs varlıq və şəfqət mücəssəməsidir. Uşaq tərbiyəsi, ailə qalasının mühafizəsi və

bu kimi ən ağır vəzifələr ananın çiyinləri üzərindədir. Bütün dəyərlər layladan başlayaraq ananın incə səsiylə körpələrin ruh dünyasına hörülür. Ana o qədər böyükdür ki, səadəti, bəxtiyarlığı da özüylə daşıyar, "Cənnət anaların ayaqları altındadır" uca məqamını təmsil edər, əlləri öpülər, sözləri başlara tac olaraq qoyular, Rəhmanın rəhmətinin bir parçası olan rəhmi daşıdığı üçün ailədə atadan bir neçə addım öndə dayanar.

Son illər valideynlərin pedaqoji mədəniyyəti məsələlərini öyrənmək məqsədilə müxtəlif tədqiqatlar aparılmışdır. Alimlər müəyyən etmişlər ki, ata - anaların bir çoxunun ailə tərbiyəsi haqqındakı bilikləri çox ümumi, hətta bəzən səthi xarakter daşıyır. Belə valideynlər ailə tərbiyəsinin ən sadə məsələlərini belə yoluna qoymaqda çətinlik çəkirlər, buna görə də uşaqla "ağlı necə kəsirsə, elə də rəftar edir". Bu zaman o, öz "tərbiyə üsullarının" nəticələrini əslində görmür, özünün atalıq və analıq borcunu pedaqoji baxımdan düzgün qiymətləndirə bilmir. Buna isə təəccüb etməyin. Bizə ailə pedaqogikasını kim öyrədir? Demək olar ki, heç kim. Ailə tərbiyəsi məsələlərini biz özümüz başqalarına – uşaq vaxtı ata və anamıza, sonralar isə qonum - qonşuya baxa-baxa öyrənirik.

Ailə münasibətlərinin gənc nəslin tərbiyəsindəki rolunun nəzərə alınmaması ailə tərbiyəsində yol verilən nöqsanlar içərisində xüsusi yer tutur. Bir sıra ailələrdə uşağa verilən mənəvi tələblərlə valideynlərin öz əmelləri uyğun gəlmir. Bəzən ata uşağa bir, ana başqa cür, nənə isə tamamilə fərqli yanaşır. Tərbiyəvi təsirlərin vəhdətdə olmaması uşaqların münasibətlər sisteminin və qiymət meyarlarının formalaşması prosesini çətinləşdirir. Ailənin tərbiyə vəzifələri və imkanları haqqında da yanlış təsəvvürlərə də az təsadüf olunmur. Bir çox ailələrdə əmək tərbiyəsinin əhəmiyyətsiz yer tutması, oyunlardan və birgə inkişaf etdirici məşğələlərin digər formalarından az istifadə edilməsi məhz bununla bağlıdır. Ailə tərbiyəsinin çox mühüm bir xüsusiyyəti var: valideynlərlə uşaqlar arasında münasibətlər şəxsi – emosional xarakter daşıyır. Ana uşaqla hisslərin dili ilə danışır. Ata məhəbbəti də şirindi. Övladların qəlbini riqqətə gətirir. Ailə tərbiyəsinin üstünlüyü də, zərifliyi də məhz buradadı. Fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etmək üçün uşağa, hər şeydən əvvəl, valideyn məhəbbəti gərəkdir. Ancaq bir şərtlə: ata - ananın məhəbbəti uşağı inkişaf etdirməlidir. Onun nəinki bugünkü, həm də sabahkı xoşbəxtliyinin rəhni olmalıdır.

Müasir ailələrdə uşaqların əzizlənməsi müxtəlif formalarda özünü göstərir: uşağı əmək qayğılarından azad edirlər, uşağın adi sözünə belə əməl edir, istəkləri həmin an yerinə yetirilir, bərkə-boşa salinmır, adi çətinlikləri belə onun üçün ata və ya ana aradan qaldırır... Bu isə gələcəkdə öz mənfi təsirini göstərir. Görkəmli pedaqoq A.S.Makarenko deyirdi ki, "Uşaqları hər şey – insanlar, cisimlər, lakin hər şeydən əvvəl və hamıdan çox insanlar, xüsusilə də valideynlər, müəllimlər, tərbiyəçilər tərbiyə edir. Onlar şəxsi nümunələri və davranışları ilə daim uşaqlara təsir göstərirlər". Lazımi həyati bilikləri, təcrübələri olmayan uşaqlar, xüsusilə məktəbəqədər yaşlı uşaqlar özlərini əhatə edən adamların işlərinə və hərəkətlərinə baxır, onları təqlid edir və onlara oxşamağa çalışırlar. Buna görə də valideynlər və tərbiyəçilər öz hərəkətləri, əmelləri, adamlara yanaşma tərzləri ilə uşaqlara daim təsir etdiklərini unutmamalıdırlar.

Nümunə ən təsirli vasitədir. Uşaqların şüurunun formalaşmasında, bir şəxsiyyət kimi yetişməsində ətrafdakıların, xüsusilə valideynlərin nümunəsi böyük əhəmiyyətə malikdir. Qədim Roma filosofu Senekanın fikrincə, nəsihətlərlə tərbiyə çətin, nümunələrlə tərbiyə isə asandır. Tərbiyə prosesində nümunə təlim prosesindəki əyaniliyi əvəz edir. Heç bir söz yaxşı və pisin nə demək olduğu haqqında nümunə qədər əyani, konkret təsəvvür yarada bilməz. Nümunənin tərbiyəvi gücünün pixoloji əsasını uşaqların böyüklərə oxşamaq, onlar kimi olmaq meyli və qabiliyyəti təşkil edir. Onlar dərk etməzdən əvvəl təqlid etməyi öyrənirlər. Milli ruhda yeni insan yetişdirmək vəzifəsini öhdəsinə götürmüş insan şəxsiyyət etibarilə saf olmalıdır. Onun hər bir hərəkətində mənəvi gözəllik, yüksək ideyalılıq, vətənə sədaqət, vətənpərvərlik hissi əks olunmalıdır. Cəmiyyətimizdə baş verən yeniləşmə uşaqlarda öyrənməyə, daima axtarışda olmağa həvəs yaradır. Bütün bunları nəzərə alaraq təlim tərbiyəyə yeni baxışla, yaradıcılıq və işgüzarlıqla yanaşmalıyıq. Ulu öndərimiz Heydər Əliyev demişdir: "Uşaqla-

rımız məktəbəqədər yaş dövründən başlayaraq bəşəri dəyərlərdən istifadə edərək milli zəmin üzərində, milli adət-ənənələr ruhunda tərbiyə olunmalıdırlar."

Gələcəyimizin qurucuları, istiqlalımızın keşikçiləri olan uşaqlarımıza milli dəyərlərimizi anlatmaq, vətənpərvərlik duyğularını aşılamaq, onları bayraq sevgisi və millət sevdası ruhunda böyütmək valideynlərin müqəddəs vəzifəsidir. Uşaq bilməlidir ki, onun ailəsində vətənə, xalqa, doğma yurdun hər qarışına xüsusi hörmət, ehtiram vardır. Bunu valideyn öz sözlərində, hərəkətlərində, insanlara münasibətində öz şəxsi nümunəsi ilə göstərməlidir. Onlar bu atalar sözünü unutmamalıdırlar: "Nə əkərsən, onu da biçərsən". Valideynlərin öz uşaqlarına imkan daxilində daha çox vaxt ayırmaları, onlarla birgə istirahət günlərində çox zaman keçirmələri, istirahət günlərində, övladlarını kino-teatra, istirahət parklarına və muzeylərə aparmaları, vətənimizin görməli yerləri ilə tanış etmələri ən gözəl tərbiyə metodlarından biridir. Bu zaman uşaqlar ictimai yerlərdə davranış, qarşılıqlı münasibət, muzeydəki əşyalara, istirahət parkındakı gül-çiçəklərə, yaşıllıqlara qayğı vərdişlərinə yiyələnirlər. Ölkələrinin tarixi ilə yaxından tanış olurlar, onlarda öz xalqına qarşı qürur hissi oyanır, vətənləri ilə fəxr edirlər. Ailə üzvlərinin davranışı uşağın tərbiyəsinə güclü təsir göstərir. Buna görə də valideynlər ailə üzvləri arasında hörmət və ehtiram hissinin yaranmasına diqqət yetirməlidirlər. Onlar nə qədər çətinliklərlə üzləşsələr də övladlarının yanında bunları büruzə verməməlidirlər. Lakin bununla belə, onlara çətinlikləri dəf etməyin yollarını öyrətməli, onlarda möhkəm iradə və gələcəyə inam formalaşdırılmalıdırlar. Ailədə uşaqların tərbiyəsi uşaqlara təkcə davranış qaydalarının öyrədilməsi ilə məhdudlaşdırılmamalıdır. Onların tərbiyəsi, şəxsiyyət kimi formalaşması milli xüsusiyyətlərin, sosial amillərin və yaşadığımız cəmiyyətin tələblərinə uyğun aparılmalıdır.

Ədəbiyyat

1. Abbasov Ə., Əhmədov A. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2.
2. Quliyev S. Ailə pedaqogikasının mühüm problemləri. Bakı:lm və təhsil, 2005.
3. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007.

Qulamova Cəmilə
ADPU, məktəbəqədər təlim və tərbiyə, magistrant
Elmi rəhbər: p.ü.e.d., prof. M.İlyasov

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ UŞAQLARIN ŞƏXSİYYƏTİNİN İNKIŞAFINDA OYUNLARIN ROLU

Açar sözlər: *ailə, uşaq, tərbiyyə, məktəbəqədər, oyun*
Ключевые слова: *семья, дети, воспитание, дошкольный, игра*
Key words: *family, child, upbringing, preschool, play*

Oyun uşaqda idraki, sosial, emosional, dil və fiziki kimi müxtəlif sahələrin inkişafına kömək edir. Oyun və elmi inkişaf arasındakı müsbət əlaqələrə dair bir çox araşdırma, oyunun uşaqların dil bacarıqlarının inkişafına verdiyi töhfəni, diqqətlilik, müşahidə, təxəyyül, yaradıcılıq, maraq, problem həll etmə, özünütənzimləmə, oxu-yazı və riyazi bacarıqlarını inkişaf etdirməyə imkan verdiyini üzə çıxarmışdır. Sosial-emosional inkişaf ilə oyun arasındakı müsbət əlaqəyə baxdığımızda, uşaqlar oyunlarında təqlid etdikləri yetkin rolları ilə cinsi şəxsiyyətlərini qazanır, məsuliyyətli olmaq kimi davranış nümunələrini nümayiş etdirirlər. Uşaqlar oyun oynayarkən digər insanlarla ünsiyyət qurmağı, əməkdaşlıq etməyi, bölüşməyi, növbələrini gözləməyi, başqalarının hüquqlarına hörmət etməyi, cəmiyyətin mədəni dəyərlərindən, sosial qaydalardan, xoş sözlərdən istifadə etməyi, təşəbbüs göstərməyi, qəbul etməyi,

məsuliyyət götürməyi, liderliyi, tolerantlıq kimi ali mənəvi dəyərləri təcrübə keçərək öyrənirlər. Dilin inkişafı baxımından oyun uşağın inkişafına, söz ehtiyatının zənginləşdirilməsinə, fonoloji, semantik, sintaksis haqqında məlumatlılığının və ifadəli dil bacarıqlarının inkişafına kömək edir. Oyunla inkişaf edən dil bacarıqları, uşaqların sosial münasibətlərdəki müvəffəqiyyətlərinə də təsir edir. Oyunun uşağın inkişafına fiziki təsirləri də böyükdür. Uşaqların əzələ inkişafını sürətləndirir, qaçış, tullanma, hoppanma, sürüşmə, dırmaşma kimi fiziki güc tələb edən oyunlar uşaqların qan dövranı, tənəffüs, həzm, ifrazat sistemlərinin nizamlı işinə və motor inkişafı üçün əhəmiyyətli olan sürət, güc, tarazlıq, koordinasiya və elastikliyin inkişafına kömək edir. Açıq havada oynanan oyunlar uşaqların fiziki inkişafının yanında immunitet sisteminin güclənməsinə də kömək edir. Oyun uşağın özünü tanımasına və fərqliliklərindən xəbərdar olmasına kömək edir. Oyun, uşağın şəxsiyyətinin inkişafının aydın xətlərlə ortaya çıxmasına imkan verir. Oyun uşağı əyləndirir və azad edir. Oyun uşağın sevincini, kədərini və narahatlıqlarını çatdırmaq üçün bir vasitədir. Bu, fantaziya dünyası ilə real dünya arasındakı əlaqələri mənalı etmək üçün bir yoldur.

Oyun uşaqlar üçün ən təsirli öyrənmə vasitəsidir. Oyunun uşağın həyatındakı yerini və uşağın inkişafındakı töhfəsini nəzərdən keçirəndə onun uşaq üçün əhəmiyyətini anlamaq çətin deyildir. Pedaqoji-psixoloji ədəbiyyatlara nəzər saldıqda Komenski, Luk, Russo, Frebel, Montessori, Freid, Piaje, Erikson kimi bir çox mütəfəkkirinuşaqların inkişafı və təhsilində oyunun tərbiyəvi əhəmiyyəti ilə bağlı fikirləri ortaqdır. Tədqiqatçılar uşaqların,onların inkişafına, marağına, ehtiyaclarına, qabiliyyətlərinə və faydalarına yönəlmiş bir mühitdə böyüməsini və inkişafını təmin etməyin vacibliyini vurğulayır. Bu baxımdan uşağın həyatında əhəmiyyətli bir yerə və təsirə sahib olan ailələr vacib bir amildir. Ailə, uşağın inkişafına, müvəffəqiyyətinə, sosiallaşmasına təsir edən ən əhəmiyyətli amillərdən biridir. Uşağın valideynləri ilə qurduğu əlaqənin keyfiyyəti, uşağın erkən həyat təcrübələrindən biridir. Valideynlər uşaqlarının oyunlarında iştirak etməli, ortaq hiss və düşüncələri inkişaf etdirməli və oyunu uşaqlar üçün mümkün qədər unikal etməlidirlər. Uşaqlar dünyaya gəldiyi andan etibarən inkişaflarını təsir edən və dəstəkləyən ən vacib vasitə oyunlar və oyuncaqlardır.

Oyunlar və oyuncaqlar uşaqların böyüməsi, sağlam inkişafı üçün qidalanma, sevgi və qayğı qədər lazım olan təbii ehtiyacdır. Bəzi valideynlər oyunu uşağın əyləndirməsinə və diqqətini yayındırmasına kömək edən məqsədyönlü bir cəhd kimi qəbul edirlər. Bununla birlikdə, oyun uşaq üçün ciddi qəbul edilməli olan vacib bir vəzifədir. Uşaq üç-altı yaşında oyundan doymur. Oyun zamanı tualetinin gəldiyini belə aclığını unudur. Oyun uşaq üçün tamamlanması lazım olan bir işdir. Uşaqlar gündəlik işləri: yuyunmaq, geyinmək, yemək, diş fırçalamaq, ev işlərində kömək kimi şeyləri oyuna çevirir. Oyun, uşaqların öz təcrübələrini yaşayaraq həyat haqqında məlumat əldə etmələrini təmin edir və fiziki, əqli, dil, sosial və emosional inkişaflarını dəstəkləyir. Uşaqlar oyun oynayarkən hisslərini, ehtiyaclarını, problemlərini ifadə edir və onları həll etmə qabiliyyətlərini inkişaf etdirirlər. Uşaqlar oyun oynayarkən hissləri, düşüncələrini ifadə etməyi və ətrafları ilə əlaqə qurmağı öyrənirlər. Beləliklə, sosial bir fərd olma xüsusiyyətlərini nümayiş etdirirlər.

Oyun, uşaqların problemlərin öhdəsindən gəlməsinə, qorxu, qəzəb və ya kədər kimi güclü mənfi duyğuların öhdəsindən gəlməsinə kömək edir. Oyun zamanı uşaqları müşahidə etmək, onların hiss etdikləri, həyat təcrübələri və qavrayışları barədə istər valideynlər, istərsədə pedaqoq, psixoloqlar üçün lazımi istiqamət verir. Buna görə də, valideynlər, uşaqları oynamağa təşviq etməli, oyun vasitələri və oynamaq imkanları ilə təmin etməlidir. Oyun uşaqların hərəki, zehni, dil, sosial və emosional qabiliyyətlərini inkişaf etdirmələrinə və cəmiyyətdəki sosial rollarını, onları digər fərdlərdən fərqləndirən xüsusiyyətlərini həyata keçirməsinə imkan yaradır. Valideynlər bilməlidirlər ki, oyun uşaqlar üçün öyrənmək və rahatlamaq üçün bir yoldur. Müxtəlif yaşlarda fərqli oyunlar uşaqların maraqlarını cəlb edir. Oyunlar uşaqların inkişaf mərhələlərində fərqli ehtiyaclarını qarşılayır. Uşaqlar oynayarkən bədənlərində yığılmış enerjini boşalt-

maq fürsətinə sahibdirlər. Oyun oynayarkən uşaqların əzələ inkişafı daha sürətli və güclü olur. Uşaqlar oyun yolu ilə öyrənir və müxtəlif bacarıqları inkişaf etdirir.

Düşünməyi və özləri üçün qərar verməyi öyrənirlər. Bacarıqlarını cəmləşdirməyi və təşkil etməyi öyrənirlər. Ətraf mühitini araşdırmaq, obyektləri tanımaq və problem həll etmə bacarıqları inkişaf etdirilir. Özlərini və ətraflarını tanımalarına kömək edir. Təsəvvürlərini və yaradıcılıqlarını yaxşılaşdırır. Alıcı və ifadəli dil bacarıqları artır. Uşaqlar oyun zamanı özləri və ətrafları haqqında biliklərini ifadə etmək fürsətinə sahibdirlər. Uşaqlar öz hüquqlarını qorumağı və başqalarının hüquqlarına hörmət etməyi öyrənirlər. Məsuliyyət götürməyi, əməkdaşlıq etməyi və paylaşmağı öyrənirlər. Fərqli sosial rolları yaşamaq imkanı vardır. Kollektiv həyat üçün zəruri olan sosial qaydaları öyrənirlər. Uşaqlarla oynamaq vacib olsa da, bəzi bacarıqları təkbaşına araşdırmalarına icazə verilməlidir.Uşaqların qabiliyyətlərini ortaya qoyacaq oyuncaqlar bir təhsil funksiyası kimi qəbul edilə bilər.Oyuncaqlar seçərkən buna xüsusi diqqət yetirilməlidir. Düzgün oyuncaqlar ilə oynamağın hər yaşdan və cinsdən olan uşaqlar üçün ciddi faydalar verdiyi məlumdur.

Qum, torpaq, gil, palçıq, su və boyalar uşaqlara xarici mühitlərini tanımaq və öz təcrübələrini yaratmaq imkanı verir. Uşaqlar bu materialları özləri formalaşdırdıqca xəyalları və yaradıcılıqları ortaya çıxır. Özləri tərəfindən bir çox forma yarada bilərlər. Tutma və formalaşdırma bacarıqlarını inkişaf etdirirlər. Kukla və heyvan fiqurları ilə oynayan uşaqlar öz oyun aləmlərini yaradır və orada iştirak edirlər. Körpələrini geyindirib heyvanlara səs verirlər. Bir xəyal dünyasını sanki gerçəkmiş kimi qururlar və buna görə də gerçək həyat üçün təcrübələr əldə edirlər. Mətbəx alətləri, təmir materialları, fırçalar və s. ev əşyaları uşaqların yetkin rollarını tanımalarına və müəyyən sahələrdə bacarıqlara yiyələnmələrinə imkan verir. Uşaqlar böyüklər aləmində gördükləri hər şeyi öz dünyalarında təqlid edərək tətbiq edirlər.Tapmacalar, beyni ikişaf etdirən müxtəlif oyunlar, pazllar, rəngli kağızlar və s. əyləndirici və öyrədici məqsədli oyuncaqlar uşaqların əylənməsini təmin edərkən, ölçü, forma və rəng kimi analyışları inkişaf etdirirlər. Dostları ilə oynayan uşaqlar paylaşma, növbə gözləmək, səbr və işbirliyi kimi sosial bacarıqları inkişaf etdirirlər.

Tərbiyəçilər sinifdə mövcud olan təhsil oyuncaqlarını nəzərə alaraq iştirakçıları qruplara bölürlər. Tərbiyəçi hər masanın üzərinə bir təhsil oyuncağı qoyur. "Bu qutularda nə ola bilər?" o soruşur. Təxminlər dinlənir. İştirakçılara qaydalara uyğun olaraq təhsil oyuncaqları ilə oynamaq imkanı verilir. Qruplar bir növ oyunu tamamladıqda təhsil oyuncaqları dəyişdirilir. Beləliklə, iştirakçılara fərqli maarifləndirici oyuncaqlar ilə tanış olmaq imkanı təklif olunur.

Ədəbiyyat

1. M.Həsənov, Ş.Ağayev. “Məktəbəqədər yaşlı uşaqların oyun və əmək fəaliyyətinin təşkili”, Bakı. 2001.
2. A.Həsənov. “Məktəbəqədər pedaqogika”, Bakı 2000.
3. Z.Vəliyeva. “Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi”, Bakı, 1988.

Xanlarlı Nərgiz Fazil qızı
Elmi rəhbər: dos., p.ü.f.d. Tamilla Vahabova

KİÇİK MƏKTƏBLİLƏRİN PSİXOLOJİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *kiçik məktəbli, kiçik məktəblilərin xüsusiyyətləri, təlimdə kiçik məktəblilər*
Ключевые слова: *юные школьники, особенности юных школьников, юные школьники в обучении*
Key words: *young schoolchildren, features of young schoolchildren, young schoolchildren in education*

Kiçik məktəb yaş dövrü 6 yaşından etibarən başlayır. Dörd il davam edən bu mərhələ ümumi təhsil pilləsinin ibtidai təhsil səviyyəsinə uyğun gəlir. Bu yaş dövründə insan orqanizmi hələ də zəif olur, ancaq bununla birlikdə orqanizmdə dəyişikliklər başlayır. 6-10 yaş arası boy nisbətən zəif inkişaf edir,skeletdə sümükləşmə gedir. Bu yaşlarda onurğanın asanlıqla əyilmə ehtimalı olduğundan uşaqlara diqqət yetirmək lazımdır. Birinci sinifdə uşağın boyu 120-125 sm olur, dördüncü sinifdə 130-143 sm-ə çatır. Kiçik məktəbli orqanizmində baş verən dəyişikliklərdən biri də əzələ qüvvəsinin artmasıdır. Əzələ qüvvəsi artdıqca uşağın yazı vərdişləri inkişaf edir. Baş beynin yarımkürələri güclənir, yarımkürələrin funksiyaları təkmilləşir. Bu dövrdə uşaqların beyin çəkisi 1400 qrama çatır və yetkin insanın beyin çəkisi qədər olur. Duyğu üzvlərinin həssaslığı yüksəlir, psixika inkişaf edir.

Kiçik məktəblilərin psixoloji inkişafında aşağıdakı xüsusiyyətlər nəzərə çarpır: Bu yaşlarda məktəblilərin idrak proseslərinin inkişafında fərqliliklər özünü göstərir. Kiçik məktəb yaşında qavrayış səthi olur, məqsədə yönəlmə az nəzərə çarpır. Qavrama səviyyəsi davamlı olmasa da, kiçik məktəblilərin ətraf aləmi öyrənməsi həvəslə baş verir. Müəllimlər təlim fəaliyyətində bu emosionallıq və həvəsdən istifadəedir, təlimi buna əsasən qurur, şagirdlərdə dinləmə, müşahidəetmə bacarıqlarını inkişaf etdirməyə çalışırlar. Qavrayış bu yaşlarda daha çox şagirdin maraq dairəsinə daxil olan yalnız müəyyən cisim və hadisələrin bəzi xarakterik xüsusiyyətlərini əks etdirir. Bu xüsusiyyətləri daha ətraflı, dərindən təhlil etmək kiçik məktəblilər üçün çətindir. Qavrama bu dövrdə oxşar cisimləri fərqləndirmək zamanı çətinliklərlə üzləşir.

Bu yaş dövründə diqqətin inkişafında fərqliliklər özünü göstərir. Diqqət kiçik məktəblilərdə maraq sahəsinə yönəlir. Şagird üçün maraqlı olan, əhəmiyyət daşıyan şeylər onun diqqətini cəlb edir. Eyni zamanda diqqətin daha məqsədyönlü olması üçün onun sistemli xarakter daşıması da vacibdir. Bu səbəbdən təlim fəaliyyəti zamanı həyata keçirilən işlər sistemli və müntəzəm olmalıdır.

Təlim fəaliyyəti məktəblilərdən diqqəti inkişaf etdirmək üçün davamlı məşq, səy tələb edir. Kiçik yaşlı məktəblilərdə ixtiyari diqqət daha aşağı yaşlarla müqayisədə daha güclü olur, ancaq onlar özlərini tapşırıqları yerinə yetirmək üçün diqqətlərini toplamağa məcbur edə bilmirlər, çünki fikrini uzun müddət eyni işdə toplamağa kömək olan ixtiyari diqqət bu yaşlarda hələ də tam formalaşmamış olur. Buna görə də onların diqqəti yayınır. Təlim fəaliyyəti uşaqların zehnini inkişaf etdirir.

Bilirik ki, eyni anda bir neçə işlə məşğul olmağa diqqətin həcm xüsusiyyəti imkan verir. Kiçik məktəblilərdə diqqətin həcmi geniş olmadığı üçün onlar diqqətlərini eyni anda bir neçə işə paylaya bilmirlər. Məsələn, eyni anda həm yazmaq, həm danışmaq bu yaş dövründə çətin olur. Kiçik məktəblilərin təfəkkürü nitqlə paralel şəkildə təkmilləşir. Onların söz ehtiyatı çoxaldığı üçün özlərini yazılı və ya şifahi şəkildə ifadə etməkdə problem yaşamırlar.

Bu dövr üçün təlim fəaliyyətində hafizənin də rolu böyükdür. 6-10 yaşlarda hafizə daha çox əyani-obrazlı xarakter daşıyır. Kiçik məktəblilərin öyrənməsi daha çox mexaniki xarakter daşıyır. Onlar əzbərə meyilli olur, mətnləri, şeirləri rahatlıqlaəzbərləyə bilir, ancaq öyrəndiklərini öz sözləri ilə ifadə etməkdə çətinlik yaşayırlar. Birinci-ikinci sinif şagirdləri materialı hərfən əzbərləməyə çalışırlar. Uşaqların bu hafizəsindən istifadə edərək onların söz ehtiyatını artırmaq lazımdır. Həmçinin, uşaqların mexaniki deyil, məntiqi yaddasaxlama bacarıqlarını inkişaf etdirmək lazımdır. Kiçik məktəb yaşlı uşaqlarda təlim fəaliyyətini uğurlu qurmaq üçün onları həm lazımlı biliklərlə, həm də özünənəzarət, özünüqiymətləndirmə bacarıqları ilə təmin etmək lazımdır.

6-10 yaşlarda təxəyyül və təfəkkür inkişaf edir. Bu dövrdə inkişaf edən təxəyyül davamlı olmur, qavrayışla qarşılıqlı əlaqədə inkişaf edir. Professor Əbdül Əlizadə kiçik məktəblilərin təxəyyülünün emosional mahiyyət daşıdığını qeyd edir. Daha aydın mənimsəmə təmin etmək üçün təxəyyülü əyani vasitələrlə əsaslandırmaq lazımdır. Şagirdlərə fəsilləri öz vaxtında öyrətmək, məntiqi cəhətdən ardıcıllığı qorumaq təlim fəaliyyətinin uğurlu olmasına şərait yaradır.

Beləliklə, kiçik məktəb yaşlılarda şəxsiyyətin inkişafı öz yaşıdları və müəllimlərlə qarşılıqlı ünsiyyət şəraitində baş verir. Şəxsiyyətin inkişafına, həmçinin, yeni münasibətlər, oxumaq, təhsil almaq da təsir edir. Bu yaş dövründə uşaqda əxlaqi keyfiyyətlər aşılamaq olar.

Ədəbiyyat

1. Ağayev M.A "Kiçik yaşlı məktəblilərin tərbiyəsi" Bakı- 2006.

2. Təlim fəaliyyətinin psixoloji prosesi. Bakı- 2017, Print-S 3. https://genderi.org/pedaqogikada-yas-dovrleri-ve-onlarin-pedaqoji-psixoloji-xususi.html 4. https://kayzen.az/blog/pedaqoq/1165/m%C3%BCxt%C9%99lif-ya%C5%9F-d%C3%B6vrl%C9%99rind%C9%99-%C5%9F%C9%99xsiyy%C9%99tin-inki%C5%9Faf%C4%B1n%C4%B1n-x%C3%BCsusiyy%C9%99tl%C9%99ri.html

Особенности психологического развития младших школьников

РЕЗЮМЕ

Главная особенность этой возрастной группы в том, что обучение стало основным видом деятельности. В процессе обучения дети приобретают знания, навыки и привычки. В младшем школьном возрасте ученики присоединяются к систематическим занятиям, в которых к ним предъявляются серьезные и ответственные требования. То есть в процессе обучения происходит всестороннее, гармоничное развитие ребенка. По этой причине интересы молодых студентов во время обучения всегда привлекали внимание психологов и учителей. В настоящее время учет интересов молодых студентов при обучении и их стимулирование является одним из основных вопросов обучения.

Features of psychological development of young schoolchildren

SUMMARY

The main feature of this age group is that training has become the main type of activity. During training, children acquire knowledge, skills and habits. During the primary school age, students join systematic activities, in which serious and responsible requirements are set for them. That is, the comprehensive, harmonious development of the child takes place in the learning process. For this reason, the interests of young students during training have always attracted the attention of psychologists and teachers. At present, taking into account the interests of young students during training and stimulating them is one of the main issues of training.

Xanlarlı Nərgiz Fazil qızı

Elmi rəhbər: dos., p.ü.f.d. Tamilla Vahabova

PEDAQOGİKADA YAŞ BÖLGÜLƏRI VƏ TƏLİM FƏALİYYƏTİNDƏ YAŞ DÖVRLƏRİNİN ROLU

Açar sözlər: *yaş, yaş bölgüsü, təlim fəaliyyəti, təlimdə yaş*

Ключевые слова: *возраст, возрастные периоды, образовательный процесс, возрастные периоды в обучении*

Key words: *age, age periods, educational process, age periods in education*

Müasir psixologiyada insanın özünü tənzimləyən, inkişaf edən sistem kimi verilməsi bu elm üçün böyük uğur idi. Şəxsiyyətin sosiallaşması, inkişafı tədricən baş verən mürəkkəb prosesdir. İnkişaf şəxsiyyətin tələbatlarının ödənilməsi zamanı qarşıya çıxan ziddiyyətlərin aradan qaldırılması nəticəsində baş verir. Bu tələbatlar isə insanın içində olduğu hər bir yaşın xüsusiyyətlərinə, ehtiyac və maraqlarına uyğun olaraq dəyişir. Yaş mərhələlərindəki dəyişikliklərin kəmiyyət dəyişikliyindən keyfiyyət dəyişikliyinə keçdiyi aydın görünür.

İnsanın yaş bölgüsü ilə əlaqəli pedaqogika tarixində müxtəlif təsnifatlara rast gəlirik. Bu bölgülərdə tərbiyə zamanı yaşın xüsusiyyətlərini nəzərə almaq diqqəti çəkir. Belə yaş bölgülərindən biri Platona məxsusdur. O, dövlətin gələcəyinin tərbiyədən asılı olduğunu qeyd edərək tərbiyənin vacibliyini vurğulayırdı. Platon tərbiyə zamanı nəzərə alınması vacib olan 5 mərhələ müəyyənləşdirmişdi. Birinci mərhələ 3-6 yaşları əhatə edirdi. Bu mərhələdə Platonun fikrincə, tərbiyə dövlət çalarlarında oyunlar vasitəsilə verilməlidir. İkinci mərhələ 7 yaşdan 12 yaşa qədər olan dövrü əhatə edirdi. Bu mərhələdə uşaqlar oxu, yazı, hesab kimi ilkin bacarıqlara yiyələnirdilər. 16-18 yaşları əhatə edən üçüncü mərhələdə riyaziyyat, astronomiya kimi əhəmiyyətli elmlər öyrədilirdi. Dördüncü mərhələdə 18-20 yaşlı gənclər efeb adlanan qruplarda hərbi təcrübəyə yiyələnirdilər. Sonuncu mərhələ 20-30 yaşı əhatə edirdi. Bu yaş dövrünün əsas məqsədi hərbi xidmətə getmək və legioner olmaq idi.

Yaş bölgüsü ilə bağlı diqqəti çəkən təsnifatlardan biri də Aristotelə məxsusdur. O, insanı 3 yaş dövrünə ayırır. Aristotelin təsnifatında dövrlərin hər biri yeddi il kimi müəyyən olunmuşdur. Birinci dövr 0-7 yaşları əhatə edir və bitki dövrü adlanır.Birinci mərhələnin təlimində əsas diqqət qayğı, qulluq hesab olunur. İkinci dövr 7-14 yaşları əhatə edir, heyvani dövr adlanan bu mərhələdə təlimdə əsasən nəfs, iradə tərbiyəsi üstünlük təşkil edir. Üçüncü mərhələ 14-21 yaşları əhatə edir və insani dövr adlanır. Üçüncü mərhələ insanın kamilləşmə dövrü hesab olunur və təlimin əsas məqsədi ağlın inkişaf etdirilməsidir.

Aristotelin bu sistemli yaş bölgüsü dahi şairimiz Nizami Gəncəvi tərəfindən bəyənilmişdir. Özünün dünya şöhrətli "Xəmsə"sində şair bu bölgünü qeyd edir və bu dövrlərə uyğun olaraq oğlu Məhəmmədə "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" poemalarında nəsihət yazmışdır. Ancaq şairimiz ikinci dövrü heyvani dövr hesab adlandırmır, əksinə elmə yiyələnmək üçün keçid dövrü hesab edir. Şairin Xosrov, Məcnun, Bəhram, İsgəndər obrazlarından anlayırıq ki, 7 yaş insanın məktəb, təlim-tərbiyə dövrünün başlanğıcıdır.

İslam dininin meydana gəlməsi bir çox elmin olduğu kimi pedaqogikanın da inkişafına böyük təsir göstərmişdir. İslamda da yaş dövrlərinə xüsusi əhəmiyyət verilir.

Məhəmməd Peyğəmbər (s) insanın inkişafını üç mərhələyə bölmüşdür. Bu bölgüyə əsasən insan ömrünün 0-7 yaşları şah, 7-14 yaş arası nökər, 14-21 yaşları əhatə edən üçüncü mərhələ isə məsləhətçi hesab olunur. Birinci dövrdə insan azad, sevgi və məhəbbət əhatəsində böyüməlidir. Bu mərhələdə onun əsas ehtiyacı diqqət və qayğıdır. İkinci yaş dövründə insan valideynlərinə və müəllimlərinə itaət edir, onların sözlərini eşidir. Ədəb, əxlaq tərbiyəsini mənimsəyir. İlk iki yaş dövrünü doğru şəkildə tamamlayan hər bir insan üçüncü yaş dövründə kamilliyə çatır. Məhəmməd Peyğəmbər (s) bu yaş dövrlərinin tələblərini bir hədisdə belə müəyyən etmişdir: "Qoy sənin övladın yeddi il oynasın, sonrakı yeddi ili də ədəb öyrənsin, tərbiyə alsın və sonra onu özünün müşavirin və yoldaşın hesab et".

Özünün təbiətəmüvafiqlik prinsipi ilə tanınan məşhur çex pedaqoqu Y.A.Komenski öz yaş dövrləri təsnifatını yaratmış və məktəb sistemini də bu yaş dövrlərinə uyğun qurmuşdur. 0-6 yaş "Ana qucağı məktəbi" adlanır, 6-12 yaş ana dili məktəbi, 12-18 yaş gimnaziyalarda davam edən latın dili məktəbi və 18-24 yaşları əhatə edən akademiya.

Jan Jak Russonun 0-2 yaş fiziki inkişaf, 2-12 yaş əqlin yuxu, 12-15 yaş əqli inkişaf, 15-18 yaş əxlaq tərbiyəsi dövrüdür ki Russo bu dövrü "Fırtına və qasırğa" adlandırır.

Belə yaş bölgülərindən biri də A.Disterverq tərəfindən hazırlanmışdır. O, inkişafın 3mərhələsini və hər yaş dövrünün öz maraqlarını aşağıdakı kimi müəyyən etmişdir : 1) 1-9 yaş. Bu dövrdə duyğular üstünlük təşkil edir. 1-9 yaşın təlimdə əsas tələbi əyanilik, nümunələr, nağıllar və oyun fəaliyyətidir. 2) 9-14 yaş. Bu dövr hafizə inkişaf edir, təsəvvürlər toplanır, əyani və mücərrəd təfəkkür arasında keçid baş verir. 3) 14 yaşdan sonra. Bu mərhələdə ideyalar, məntiqi təsəvvür, şüurlu təlim meydana gəlir.

Əlbəttə bütün bu yaş dövrləri müasir yaş bölgüsü üçün təməl olsa da hazırki dövr üçün qəbuledilməzdir. Müasir pedaqogika yaş bölgüsü apararkən həmin yaşların xüsusiyyətlərini, maraqlarını nəzərə alır. Ümumilikdə məktəb yaşı dövrü 6-18 yaşları əhatə edir. Pedaqogikada

məktəblilər üç yaş dövrünə bölünür: 1) 6-10 yaşları əhatə edən birinci mərhələ. Bu mərhələ kiçik məktəb yaş dövrü adlanır. İkinci mərhələ orta məktəb yaş dövrü adlanır və 11-15 yaşları əhatə edir. 16-18 yaşları əhatə edən üçüncü mərhələ isə böyük məktəb yaş dövrü adlanır. Hər bir yaş dövrünü bir-birindən ayıran psixoloji xüsusiyyətlər, maraq və tələbatların nəzərə alınması uğurlu təlim fəaliyyəti üçün əsas faktordur.

Ədəbiyyat

1. Ağayev M.A "Kiçik yaşlı məktəblilərin tərbiyəsi" Bakı- 2006.
2. Təlim fəaliyyətinin psixoloji prosesi. Bakı- 2017, Print-S
3. https://genderi.org/pedaqogikada-yas-dovrleri-ve-onlarin-pedaqoji-psixoloji-xususi.html
4. https://kayzen.az/blog/pedaqoq/1165/m%C3%BCxt%C9%99lif-ya%C5%9F-d%C3%B6vrl%C9%99rind%C9%99-%C5%9F%C9%99xsiyy%C9%99tin-inki%C5%9Faf%C4%B1n%C4%B1n-x%C3%BCsusiyy%C9%99tl%C9%99ri.html

РЕЗЮМЕ

Каждый этап жизни человека входит в определенное возрастное деление. Он несет в себе психологию возраста, в котором находится человек, и этот возраст влияет на его интересы и потребности. Учитывая, что каждый преподаватель также является психологом, они должны знать разный возраст, знать психологическое состояние и интересы ученика. Знание интересов учеников помогает учителю организовать учебную деятельность. Если учитель знает об интересах учеников, он соответствующим образом организует обучение и стимулирует учеников. Такой тренировочный процесс будет успешным. Учитель легко достигает поставленных целей.

SUMMARY

Each stage of human life enters a certain age division. It carries the psychology of the age in which a person is, and this age affects his interests and needs. Given that each teacher is also a psychologist, they should be aware of different ages, be aware of the psychological state and interests of the student. Knowing the interests of students helps the teacher to organize learning activities. If the teacher is aware of the interests of the students, he will organize the training accordingly and stimulate the students. Such a training process will be successful. The teacher easily achieves his goals.

Сюй Вэйцзе
АГПУ, магистр 2 курс
Научный руководитель: д.ф.п. п Гаджиева С.Р.

ВЛИЯНИЕ РОДИТЕЛЕЙ НА НРАВСТВЕННОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ

Açar sözlər: *valideynlər, şəxsiyyətinkişafı, əxlaq, təhsil*
Ключевые слова: *родители, развитие личности, нравственность, воспитание*
Key words: *parents, personality development, morality, education*

Ранний жизненный опыт человека оставит на нём отличительный след на протяжении всей его жизни. То же самое и с моральными концепциями и поведенческими нормами, которые уже сформировались на раннем этапе роста людей. Родители - первые люди, с которыми их дети контактируют в своей жизни, и они также являются наиболее зависимыми и близкими людьми в раннем физическом и умственном развитии своих детей. В то же время в среде семейной жизни у родителей и детей есть наибольшее время контакта, широчайший диапазон действий и самое глубокое влияние. Следовательно, родители являются важными личностями на ранних этапах развития личнос-

ти, и они незаметно влияют на моральные ценности и нравственность своих детей. Стандарты поведения оказывают влияние и в определенной степени определяют неизбежность принятия детьми, их усвоения и наследования моральных концепций, которых придерживаются родители.

Исследования показали, что существует значимая положительная корреляция между оценками потомства, отцов и матерей по соответствующим переменным. Другими словами, общий балл заботливой морали и размерный балл потомства совместно зависят от заботливой морали отца и матери: чем выше заботливая мораль отца или матери, тем выше заботливая мораль потомства. С точки зрения заботливого нравственного познания и поведения на детей в основном влияет их мать. С точки зрения заботы о моральных эмоциях на детей влияют и мать, и отец, но матери больше влияют на детей, чем отцы. Другими словами, в передаче заботливой морали от поколения к поколению матери играют более важную роль, а потомство демонстрирует более заботливые моральные познания, эмоции и поведение, совместимые с матерями.

Известный психоаналитик Адлер считает, что и отцы, и матери взяли на себя важные роли в деятельности по семейному воспитанию, особенно матери. Во всем процессе обучения детей матери, как правило, больше ориентируются на семью и с большей готовностью тратят время и силы на заботу о семье и воспитание своих детей. Отношения между матерью и ребёнком - это первые социальные отношения с момента рождения человека, самые ранние, самые стабильные отношения и самые далеко идущие последствия. В учёбе это обычно называется "привязанностью". Отношения привязанности - это позитивная и нежная эмоциональная связь между ребёнком и основным опекуном (обычно матерью), за которой стоит глубокая внутренняя рабочая модель, то есть концептуальное обобщение межличностных отношений индивида. Знание, оно обеспечивает стабильную и надежную ссылку для детей, когда они будут иметь социальные отношения с другими в процессе созревания в будущем. Из-за отношений привязанности между матерью и детьми сознание, слова и дела детей и моральные ценности будут сохраняться в том же направлении, что и их матери. От того, будут ли их отношения с другими людьми отчуждёнными или близкими, безразличными или заботливыми, зависит от отношения между матерью и ребёнком. Когда мать заботится о других, о коллективе и об окружающей среде, дети естественным образом подражают матери как образцу для подражания, а затем идентифицируют и усваивают свои собственные моральные концепции заботы и кодекс поведения. Следовательно, при передаче из поколения в поколение заботливой морали потомства, будь то моральное познание, эмоции или поведение, она, как правило, находится под влиянием матери, что свидетельствует о тенденции, согласующейся с заботливой моралью матери. Мы должны придавать большое значение ключевой роли и первостепенной роли матерей в передаче из поколения в поколение в семейной жизни. Как подчеркнул товарищ Си Цзиньпин в коллективном разговоре с членами нового руководства Всекитайской федерации женщин в 2013 году, мы должны «в полной мере задействовать роль женщин в укреплении семьи китайской нации. Уникальная роль добродетели и установление хороших семейных традиций связана с семейной гармонией, социальной гармонией и здоровым ростом следующего поколения ». Конечно, это не означает, что отец не имеет никакого влияния на передачу заботливой морали от поколения к поколению, но роль отца в воспитании имеет определённое отставание.

В начале семейной жизни из-за разницы в социальном разделении труда и традиционной модели семейной работы «мужчина доминирует снаружи, а женщины доминируют внутри», отношения между отцом и детьми в первые дни не были достаточно тесными, а время и пространство взаимодействия родителей и детей Он ограничен, поэтому мало влияет на наследование заботливой морали от поколения к поколению, а

моральные концепции заботы и стандарты поведения, которых придерживается отец, трудно передать потомству. Но когда дети входят в общество, роль их отца в обществе делает их более авторитетными в управлении поведением своих детей и обращении с другими. В это время отцы начинают проявлять должное влияние на передачу инфекции от поколения к поколению.

В общем, дело не в том, что заботливые моральные концепции и поведение отца не влияют на детей, а в том, что их влияние будет проявлять соответствующие эффекты только на более поздних стадиях индивидуального развития, и мы считаем, что последствия этого влияния очень велики, и их нельзя игнорировать.

Литература

1. Анализ особенностей изменения семейных ценностей.Академический журнал Чжунчжоу. Сюй Аньци. 2013
2. Исследование современной ценности традиционной культуры сыновней почтительности. Чжэн Цзинцзин.2015
3. Исследование наследственности заботы о заботе в семейном образовании от поколения к поколению. Хуан Ифань.2018

XÜLASƏ

Ailə uşağın ilk məktəbidir, valideynlər uşağın ilk müəllimləridir. Ailə təhsilinin uşaqlara təsiri əxlaqla yanaşı, hər tərəfdən də özünü göstərir. Valideynlər birlikdə ailə təhsili fəaliyyətində mühüm rol oynayır və birlikdə uşaqların əxlaqi anlayışlarına və davranışlarına təsir göstərirlər. Tədqiqatlar anaların əxlaqa qayğı göstərməkdə daha vacib rol oynadığını, əxlaqi anlayışların və davranış standartlarının atalar üzərindəki təsiri uşaqların cəmiyyətə girdiyi zaman özünü göstərməyə başladığını göstərdi.

РЕЗЮМЕ

Семья - это первая школа ребенка, а родители – первые учителя ребенка. Влияние семейного воспитания на детей отражается во всех аспектах, а также на морали. Родители совместно берут на себя важную роль в деятельности по семейному воспитанию и совместно влияют на моральные концепции и поведение детей. Исследование показали, что матери играют более важную роль в заботе о морали, в то время как влияние моральных концепций и стандартов поведения оцов начинает проявляться, когда дети входят в общество..

SUMMARY

The family is the child's first school, and the parents are the child's first teachers. The influence of family education on children is reflected in all aspects, as well as on morality. Parents jointly take on an important role in family education activities and jointly influence the moral concepts and behavior of children. Research has shown that mothers play a more important role in morality, while the influence of moral concepts and standards of behavior on fathers begins to manifest itself when children enter society.

Бао Сюеин
АГПУ, магистр 1 курс
Научный руководитель: д.ф.п. п Гаджиева С.Р.

КАК РОДИТЕЛИ ОТНОСЯТСЯ К ПРОФЕССИОНАЛЬНОМУ ОБРАЗОВАНИЮ ДЕТЕЙ

Açar sözlər: *peşə təhsili, velideyinlər, baxış*
Ключевые слова: *профессиональное образование, родители,взгляд*
Key words:*vocational education, parents, view*

Профессиональное образование (vocationaleducation) относится к образованию, которое позволяет образованным людям получить профессиональные знания, навыки и

профессиональную этику, необходимые для определенного занятия или производительного труда, включая начальное профессиональное образование, среднее профессиональное образование и высшее профессиональное образование (профессиональное образование в младший уровень колледжа, профессиональное образование бакалавриата, профессиональное образование послевузовского уровня). Профессиональное образование и общее образование - это два разных типа образования, имеющих одинаковую важность. Профессиональное образование - это вид образования, а не уровень образования.

Почему родители предпочитают, чтобы их дети ходили в среднюю школу, а не в среднюю профессиональную школу? Есть четыре причины:

1. Не оптимистично настроены по поводу средних профессиональных школ

Дети, окончившие среднюю школу(14~16 лет), находятся в наиболее импульсивной стадии подросткового возраста: они подражают сильным и плохо распознают, а на их личностный рост сильно влияет внешняя среда. По сравнению с обычными средними школами, профессиональные школы имеют большой разрыв с точки зрения качества преподавания, интенсивности управления и среды для роста. Даже если частота вступительных экзаменов в колледж не идеальна в обычных средних школах, качество преподавания остается хорошим. Студенты проводят большую часть своего времени в классе, а система управления стандартизирована, что требует строгих требований к студентам, и студенты меньше подвержены влиянию внешнего мира. В сочетании с тем фактом, что дети, которые учатся в средней школе, могут возвращаться домой каждые выходные, родителям легко понять динамику учебной жизни и поведенческие привычки своих детей. Даже если успеваемость их детей невысока, они могут, по крайней мере, гарантировать здоровый рост своих детей и избежание негативных социальных тенденций. Влияние феномена.

2. Недалеко от университета, если можно пойти в среднюю школу.

По мере того как крупные колледжи и университеты расширяют набор учащихся, коэффициент поступления на вступительные экзамены в колледж становится все выше и выше. В некоторых ключевых средних школах коэффициент поступления в бакалавриат превышает 90%. Это означает, что поступление в ключевую среднюю школу эквивалентно поступлению в университет одной ногой. В последние годы реформа вступительных экзаменов в колледжи объединила две и три группы учащихся в большинстве провинций и муниципалитетов. Обычным старшеклассникам поступить в эти два колледжа относительно легче, чем раньше. Некоторые студенты, которые не учатся хорошо в младших классах средней школы все еще есть возможность войти в студенческую университет через три года напряженной работы в средней школе, или некоторые дети еще не осознали ловкость чтения в младших классах средней школы, и вдруг узнал в средняя школа, поэтому поступить в вуз не сложно. Ведь в университете есть широкий выбор специальностей, что способствует дальнейшему развитию детей.

3. Выпускники средней школы поступают в профессиональные колледжи, а выпускники младших классов средней школы - в профессиональные училища.

Вступительные экзамены в колледж не прошли курс бакалавриата для выбора профессионального колледжа, что намного лучше, чем после окончания неполной средней школы для поступления в профессионально-техническое училище. Поскольку детям выпускников средней школы около 18 лет, у них изначально сформировался собственный взгляд на жизнь, ценности и мировоззрение. Иметь определённую степень осведомлённости об обществе, социальный опыт и способность к независимой жизни. Если вы отправитесь за тысячи миль в поисках учителя, вы можете быть уверены в том, что вас легко примут родители; ваша способность к самодисциплине улучшается, вы можете противостоять некоторым социальным соблазнам, и вы можете взять на себя отвеетственность за своё поведение.

4. Существует определённое предубеждение против среднего профессионального образования.

Чем выше культурное образование ребёнка, тем более поздняя жизнь может приблизиться к идеальной степени свободы. А окончив среднюю профессиональную школу, занимающуюся в основном первоклассными технологиями, можно представить себе будущую жизнь: ни хлеба, ни свободы не может быть и того, и другого.

Можно сказать, что оценка обществом профессионального образования, которое только что появилось в Китае, не столь положительна. В частности, люди по-прежнему в целом придерживаются модели человеческого роста «младшая средняя школа - средняя школа - университет» и считают, что именно это правильно. Выбор профессионального училища - это просто способ не делать этого: в профессионально-тех-нические училища поступают только учащиеся с плохой успеваемостью или по аналогичным причинам. Профессиональное образование может выжить только в затруднении.

Литература

1. О социальном признании высшего профессионального образования.Форум современного образования(комплексное исследование).Лу Вэньтао.2010

2. Обзор социального признания профессионального образования в городе-Сиане.Гу Юнсы.2012

3. Рассмотрение развития социального признания высших профессиональных колледжей на основе строительства национальных демонстрационных профессиональных колледжей.Ли Шудэ.2009

XÜLASƏ

Çində peşə təhsilinin inkişaf tarixi 150 ildən azdır və sosial tanınma o qədər də yüksək deyil. Valideynlər övladlarının ilk qəyyumlarıdır.Övladları üçün məsuliyyət daşıma münasibətinə əsasən, əksər valideynlər övladlarına peşə təhsili almasını tövsiyə etmirlər. Əsas səbəblərdən biri insanların ümumiyyətlə universitetə qəbul imtahanının ən doğru yol olduğuna inanmasıdır.

РЕЗЮМЕ

В Китае история развития профессионального образования составляет менее 150 лет, а общественное признание не очень высоко. Родители являются первыми опекунами своих детей. Из-за того, что они несут ответственность за своих детей, большинство родителей не рекомендуют своим детям получать профессиональное образование.Одна из основных причин заключается в том, что люди обычно считают, что вступительные экзамены в университет - это правильный путь.

SUMMARY

In China, the development history of vocational education is less than 150 years, and the social recognition is not very high. Parents are the first guardians of their children. Based on the attitude of being responsible for their children, most parents do not recommend that their children obtain vocational education. One of the main reasons is that people generally think that taking college entrance examinations is the right way.

GuoWenzhe
ADPU, История и теория педагогики
Педагог:д.ф.п.доц.Велибекова З.Д.

ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ ДЕТСКОЙ ИГРЫ

Açarsözlər: *uşaq təbiəti, ağılın sağlam inkişafı, uşaqlara özlərini seçmək hüququ verir*

Ключевые слова: *детская природа, здоровое развитие разума, дайте детям право выбирать себя*

Key words: *children's nature, healthy development of the mind, give children the right to choose themselves*

У детей живой характер, дети будут расти и прогрессировать в игре. Игры - это природа детей, это деятельность, которую активно проводят из интереса и желания. Теперь все больше родителей предпочитают использовать игры, чтобы способствовать здоровому развитию физического и умственного интеллекта детей. В процессе игры дети постепенно обнаруживают, что «сила» игры очень велика. Детские игры могут привлечь детей, которые не хотят участвовать в групповых занятиях и любят играть в одиночку, и стать участниками игры, что может превратить ребенка, который очень замкнутый и обычно не разговорчивый, в очень живого и жизнерадостного ребенка.

Доминирующим игроком в игре должен быть ребенок. Тематика детской игры, выбор игрушек и ход игры должны определяться ребенком. Родителям нужно только предоставить ребенку необходимые приготовления и помощь, и ребенок является настоящим мастером автономной игры. Позвольте детям взять на себя инициативу контролировать процесс деятельности и самостоятельно определять способ деятельности, что является ключом к руководству родителей в детских играх. Короче говоря, предоставление детям возможности самостоятельно выбирать методы игры, правила и ролевые материалы в соответствии с их собственными желаниями может дать полную свободу творчеству, инициативе и энтузиазму детей. В процессе игры сочетание «предоставления детям права выбирать самостоятельно» и «правильного руководства детьми» позволит детям глубоко испытать радость «играть, чтобы учиться» и «играть во время обучения», что также будет отражать то, что игры предназначены для детей. Суть основной деятельности.

Игры играют важную роль в росте детей. Детские игры превратились в целенаправленную и планомерную образовательную деятельность. Игра - это эффективная форма обучения детей. Все больше внимания уделяется взаимосвязи между играми и развитием детских предметов; взаимосвязи между играми и детским эмоциональным катарсисом и психическим здоровьем; взаимосвязи между играми и счастливой детской жизнью.

1. Игры могут стимулировать энтузиазм детей к общению.

Коммуникативная способность - это комплексная психологическая способность, отражающая личностные характеристики, а также основная способность детей адаптироваться к жизни и адаптироваться к будущему развитию. Игры являются важным способом развития этой способности у детей. Для детей игра - это их самая ранняя и основная коммуникативная деятельность. Сам процесс игры - это процесс общения детей. Детям часто необходимо преобразовывать визуальную информацию, слуховую информацию и субъективные чувства, желания или требования в язык в играх или давать вербальные ответы, основанные на намерениях других. В игре общение и обучение в двустороннем взаимодействии между детьми и взрослыми, детьми и детьми можно увидеть повсюду. Можно сказать, что общение строится в процессе активного участия в деятельности.

2. Игры могут повысить уверенность детей в себе и удовлетворить психологические потребности детей.

Американский психолог Мальз считает, что большая часть веры в себя форми-руется бессознательно на основе прошлого опыта - успехов и неудач, славы и унижения, особенно детского опыта. Игры - это занятия, которые являются спонтанными, бесплатными и выбираются детьми без какой-либо утилитарной цели и могут удовлетворить потребности детей.

3. Игры способствуют развитию детского творчества.

Игра - одно из средств развития детского творчества. Психологи описывают детское творчество как «способность вспоминать прошлый опыт и выбирать, реорганизовывать, обрабатывать и формировать продукты из этого опыта». Дети не только учатся знаниям и опыту из внешнего мира, но также хотят выразить богатое воображение в своем сознании.

4. Игры способствуют развитию способностей детей.

Игры - любимое занятие детей. Он играет очень важную роль в будущем росте и развитии детей. В играх очень важно научить детей расти в играх. Саморазвитие - это рост исследовательской способности к обучению, рост способности к независимому открытию и решению проблем, а также рост независимости и творческих способностей. Игра естественным образом интегрируется с обнаружением проблем и их решением. Она дает детям возможность смело исследовать и свободно воображать. Дети столкнутся со многими проблемами в процессе осознания цели игры. Им приходится сталкиваться с различными проблемами, думать, изучать различные методы решения проблем, получать удовольствие от них, чтобы игра могла продолжаться и цель могла быть наконец реализована.

5. Игры помогают детям узнавать вещи, испытывать эмоции и накапливать жизненный опыт. Игры проводятся детьми свободно в группах, что может доставить детям радость и удовлетворение.

6. Разнообразные игры могут стимулировать интерес детей.

Детские игры включают бесплатные игры, региональные игры и тематические игры.

Литература

1. Краткий доклад о руководящей стратегии семейных родительско-детских игр. Молодежь. 2016.

2. Краткий доклад о руководящих стратегиях игр в воспитании детей. Сотня идей. 2017.

3. Исследование дизайна и стратегии родительско-детских игр. AcademicNetwork. 2018.

XÜLASƏ

Uşaqların öyrənilməsində və həyatında oyun fəaliyyətinin inkişafı uşaqların böyüməsinə açıq şəkildə təsir göstərir. Uşaqların yalnız oyun ehtiyaclarını ödəməklə yanaşı, xüsusiyyətlərinə və fiziki və zehni inkişaf ehtiyaclarına uyğun bir təhsil həyatı da yarada bilər ki, uşaqlar uşaqlıqda xoşbəxt yaşasınlar; digər tərəfdən, əyləncəli ola bilər, uşaqların fiziki və zehni inkişafı üçün uyğun ola bilər və uşaqların öyrənilməsini və böyüməsini istiqamətləndirir və təşviq edə bilər və ömür boyu uşaqların öyrənməsi və inkişafı üçün keyfiyyətli bir zəmin yaradır.

РЕЗЮМЕ

Развитие игровой деятельности в учебе и жизни детей оказывает очевидное влияние на рост детей. Он может не только удовлетворить потребности детей в игре, но и создать учебную жизнь, соответствующую их характеристикам и потребностям физического и умственного развития, чтобы дети могли жить счастливо в детстве; с другой стороны, он может быть развлекательным, подходящим для физического и умственного развития детей и руководить И способствовать обучению и росту детей, и заложить качественную основу для обучения и развития детей на протяжении всей жизни.

SUMMARY

The development of play activities in the study and life of children has an obvious impact on the growth of children. It can not only satisfy the needs of children for play, but also create an educational life that matches their characteristics and the needs of physical and mental development, so that children can live happily in childhood; on the other hand, it can

be entertaining, suitable for the physical and mental development of children, and guide AND promote the learning and growth of children, and lay a quality foundation for the learning and development of children throughout their lives.

GuoWenzhe
ADPU, История и теория педагогики
Педагог:д.ф.п.доц.Велибекова З.Д.

НЕКОТОРЫЕ ВОПРОСЫ СЕМЕЙНОГО ВОСПИТАНИЯ

Açar sözlər: *ailə təhsili, məktəb təhsili, sosia ltəhsil, övlad dindarlığı mədəniyyəti, bəy kişinin mədəniyyəti*

Ключевые слова: *семейное образование, школьное образование, социальное образование, культура сыновнего благочестия, культура джентльмена.*

Key words: *family education, school education, social education, culture of filial piety, culture of a gentleman.*

Традиционно семейное воспитание - это обучение родителей своим детям в семейной жизни. То есть родители сознательно оказывают социальное влияние на своих детей с помощью своих собственных слов и примеров и практики семейной жизни.

В современной концепции взаимное влияние и воспитание членов семьи в жизни.

Семейное образование, школьное образование и социальное образование также называют тремя столпами образования. Семейное образование когда-то было доминирующим ресурсом китайской культуры, а культура сыновнего благочестия и культура джентльмена являются положительными результатами семейного образования в китайском стиле. В современном Китае в переходный период ценности взрослых кардинально изменились: упор на мудрость, а не на добродетель стал обычной тенденцией в семейном воспитании. Серьезные проблемы, вызванные этим, требуют неотложного внимания, что приводит к отсутствию или нарушению родительского воспитания. В Китае существуют различные проблемы в сфере семейного воспитания, и в исторический момент появилось новое семейное воспитание.

С древних времен семейному воспитанию уделялось большое внимание, и в последние годы оно изучалось как предмет. Эта проблема связана с развитием времен, спросом на таланты и улучшением общего качества людей. Чтобы понять важность семейного воспитания, цель состоит в том, чтобы семья, отдел образования и общество совместно взяли на себя задачу воспитания следующего поколения. Образование - это система, система, которая включает семейное образование, школьное образование и социальное образование. Эти три влияют, взаимодействуют и ограничивают друг друга. Этот образовательный проект является неполным, но в этом системном проекте Среди них семейное образование является основой всего образования. Знаменитый советский просветитель Сухомлинский однажды сравнил детей с мрамором. Он считает, что для превращения этого мрамора в статую требуется шесть скульпторов, за которыми следуют семья, школа, детский коллектив, сами дети, книги и случайные факторы. С точки зрения порядка устройства семья указана первой, и видно, что семья играет очень важную роль в формировании детей, и она занимает значительное место в сознании этого педагога.

Семейное воспитание относится к процессу, в котором родители и взрослые в семье обучают несовершеннолетних детей. Цель образования - обеспечить здоровое развитие тела и ума детей и заложить хорошую основу для школьного образования. После того, как ребенок входит в школу, сотрудничайте со школой, чтобы она полностью развивалась. Основное внимание в образовании уделяется нравственному вос-

питанию, воспитанию хороших нравственных качеств у детей, развитию хороших привычек поведения и обучению детей тому, как научиться быть «человеком». По сравнению со школьным образованием и социальным образованием семейное образование имеет следующие характеристики, поскольку оно происходит в семье:

1. Ранняя природа семейного воспитания

Семья - это колыбель жизни детей, первое место, где люди получают образование после рождения, то есть первый класс жизни, а родители - учителя просвещения детей. Поэтому образование, которое родители дают детям, является самым ранним. Вообще говоря, после трех лет развития после рождения ребенок переходит в период раннего детства, с 3 до 6 лет - дошкольный возраст, который часто называют этапом раннего образования, это важный период физического и психического развития человека. Существует древняя китайская пословица: «Любой, кто окрашен в зеленый цвет, - это желтый, а желтый - желтый». Раннее детство - начало жизненного влияния. В этом возрасте формируются многие основные способности людей, такие как выражение языка, основные движения и некоторые другие. Жизненные привычки и тд, характер постепенно формируется.

2. Преемственность семейного воспитания

Второй характеристикой семейного воспитания является преемственность. Независимо от способа и времени обучения, именно родители влияют на своих детей своими словами и делами в любое время и в любом месте. Этот вид образования постоянно влияет и демонстрирует жизненные привычки детей, нравственное поведение, разговоры и манеры и т. Д. Его тонкий эффект довольно велик. С жизнью человека видение старика в возрасте трех лет также видно из этого, поэтому Педагоги также называют родителей учителями на протяжении всей жизни. Такое образование на протяжении всей жизни часто отражает семейный стиль семьи. Качество семейного стиля часто длится в течение нескольких поколений, и этот семейный стиль часто связан с занятием члена семьи.

3. Своевременность семейного воспитания

Как говорится: Жиру Мо Руо отец, знаю дочь Мо Руо мать. Родители и дети ладят с ними днем иночью, можно сказать, что они знают свое положение, у ребенка есть небольшие изменения, даже взгляд, улыбка могут заставить родителей понять сердце, такчто, как родитель через каждое движение ребенка, слова и поступки могут своевременно понять В этот момент их психологическое состояние обнаружило проблемы, существующие у их детей, своевременное образование и своевременную коррекцию, так что вредные привычки поведения были устранены в зародыше.

Литература

1. Смиренное мнение о том, как научить детей развивать силу воли в семейном воспитании. Средняя школа китайских учебных ресурсов сети. 2013г.

2. Хороший способ решения проблем воспитания поколений. Китайское семейное образование. 2014г.

3. ЧэньХэцинь. Семейное воспитание. Чанцзянский литературно-художественный издательский дом. 2013г.

XÜLASƏ

Ailə təhsili, təhsilin tərkib hissələrindən birik imi, məktəb təhsili və sosial təhsilin əsasını təşkil edir. Ailə tərbiyəsi ömür boyu təhsildir, ailə tərbiyəsi “insanın başlanğıcıdır”, insanın həyatını qoyur. Uşaqlar məktəbə getdikdən sonra ailə təhsili yalnız məktəb təhsilinin təməli deyil, eyni zamanda məktəb təhsilinin əlavə və genişləndiricisidir. Bir uşaq kollektiv təhsili qəbul etmək üçün cəmiyyətə girmədən əvvəl uşağın bədəninin və zehninin sağlam bir

şəkildə inkişaf etdiyinə əmin olun və uşaq bağçalarında və məktəblərdə təhsil üçün möhkəm bir zəmin hazırlayın. Məşhur çinli psixoloq Hao Bin bir dəfə "Ailə təhsili həyatda bütün təhsilin təməli və başlanğıc nöqtəsidir" demişdir. Həqiqətən də, ailə təhsili insanın həyatına ən böyük təsir göstərən, bir insanın həyat hədəflərinin reallaşmasına birbaşa və ya dolayısı təsir göstərən bir təhsil növüdür.

РЕЗЮМЕ

Семейное образование, как один из компонентов образования, является основой школьного образования и социального образования. Семейное воспитание - это образование на протяжении всей жизни, семейное воспитание - это «начало человека», оно закладывает жизнь человека. После того, как дети ходят в школу, семейное образование является не только основой школьного образования, но и дополнением и расширением школьного образования. Прежде чем ребенок вступит в общество, чтобы принять коллективное образование, убедитесь, что тело и ум ребенка развиваются здоровым образом, и закладывают прочную основу для получения образования в детских садах и школах. Известный китайский психолог Хао Бинь однажды сказал: «Семейное образование - это основа и отправная точка всего образования в жизни». Действительно, семейное образование - это тот вид образования, который оказывает наибольшее влияние на жизнь человека, прямо или косвенно влияет на реализацию жизненных целей человека.

SUMMARY

Family education, as one of the components of education, is the basis of school education and social education. Family upbringing is education throughout life, family upbringing is "the beginning of man", it lays down a person's life. After children go to school, family education is not only the foundation of school education, but also a supplement and extension of school education. Before a child enters society to embrace collective education, make sure the child's body and mind develop in a healthy way and lay a solid foundation for education in kindergartens and schools. The famous Chinese psychologist Hao Bin once said, "Family education is the foundation and starting point of all education in life." Indeed, family education is the type of education that has the greatest impact on a person's life, directly or indirectly affects the realization of a person's life goals.

Seyidova Zəhraxanım Mirqasım qızı
ADPU, pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.f.d.dosent M.H.Nəzərov

GƏNC NƏSİLDƏ EKOLOJİ TƏHSİLİN VƏ ŞÜURUN FORMALAŞDIRILMASI YOLLARI

Acar sözlər: *ekologiya, ekoloji tərbiyə, ekoloji təhsil, ekoloji mədəniyyət*
Ключевые слова: *экология, экологическое воспитание, экологическое образование, экологическая культура*
Key word: *ecology, ecological education, ecological trainingegolıgical civilization*

Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdi həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi,o cümlədən təbii şəraiti,təbii sərvətlərinin zənginliyi və sənət əsərləri olan abidələri tarix boyunca yadellilərin diqqətini cəlb etmişdir. Buna görə də müxtəlif dövrlədə yadellilərin basqınlarına, ekoloji dağıntılara məruz qalmış sərhədlərimiz dəyişikliklərə uğramışdır.

Ekologiyayunan sözləri olan ***Oikos*** **-** yurd, ev yaşayış yeri, təsərrüfat; və ***loqos*** **–** elm sözlərindən yaranmış, yurdumuz haqqında elm deməkdir. Yəni canlı və cansız təbiətin qarşılıqlı münasibətini öyrənən elmdir. Ekologiya - yeganə və ümumi evimiz olan Yer haqqında təlimdir.

"Ekologiya" termini ilk dəfə elmi ədəbiyyatda 1866-cı ildə almantəkamülçü-bioloqu Ernest Hekkel (1834-1919) özünün "Orqanizmlərin ümumi morfologiyası" əsərində işlətmişdir. O, ekologiya anlayışı ilə biologiyanın orqanizmlə mühit arasındakı qarşılıqlı əlaqələrini öyrənən bölməsini adlandırmağı təklif etmişdir. E.Hekkelə görə ekologiya - orqanizmlərin iqtisadiyyatını öyrənməklə onların təmasda olduğu başqa heyvan və bitkilərlə münasibətini, onların həm qeyri-üzvi, həm də üzvi mühitlə münasibətini tədqiq edir. Ekologiya canlı orqanizmlərin bir-biri ilə münasibətləri və onların yaşayış mühiti haqqında elmdir. "Ekologiya" termini daha geniş məfhum olmaqla, bu gün cəmiyyət-təbiət münasibətlərinin ətraf mühitə təsirinin bütün aspektlərini əhatə edir(3, s.112).

Ekologiya təbiət elmlərinin icərisində xüsusi əhəmiyyətə malik sahə olub orqanizmlərin bir-biri və xarici mühit amilləri ilə qarşılıqlı əlaqələrini, onların yaşayış tərzində, inkişafında, çoxalmasında həmin amillərin rolunu, təbiətin (hava, su, torpaq, heyvan və bitki aləmi, faydalı qazıntılar və s.) mühafizəsini, təbii sərvətlərdən istifadə olunmasının qanunauyğunluqlarını və onların əlaqəsini öyrədir.

Müasir ekologiya elminin inkişaf tarixində şərti olaraq 3 mərhələsi mövcuddur:

1-ci mərhələ. Bioloji (Ənənəvi bioekologiya). Bu mərhələdə ümumi biologiyanın bağırsaqlarında yaranan ekologiya bu elmin müstəqil sahələrindən biri kimi mövcuddur.

2-ci mərhələ. Noosfer. (Qlobal və ya noosferik ekologiya). Ətraf mühit elmi keyfiyyətcə yeni bir məna qazanır və sistemin uyğunlaşdırılmasını təmin edən hərtərəfli inteqrativ bir elm olaraq "cəmiyyət - təbiət" insanın dominant rolu şəraitindəqəbul edilir.

3-cü mərhələ: İnteqrativ. Bu mərhələdə ekologiya ətraf mühit elmlərinin üç əsas qarşılıqlı əlaqəli blokuna bölünür - qlobal ekologiya, insan ekologiyası və təbiəti mühafizə, hər birinin özünəməxsus tədqiqat subyektləri və ümumi bioloji əsası - nəzəri və ya fundamental ekologiyası.

Yuxarıda sadalanan mərhələləri daha ətraflı şəkildə nəzərdən keçirərək qeyd etmək lazımdır ki, belə bir bölgü, əsasən şərtlidir, mərhələlər arasında dəqiq bir vaxt olmadığı üçün bu bölgü çox güman ki, ekologiyanın inkişafındakı ümumi meylləri əks etdirir. Əvvəlcə, 19-cu əsrdə ekologiya müstəqil bir elmi nizam kimi ayrılmamış, orqanizm və ətraf mühit arasındakı əlaqəni öyrənən ümumi biologiyanın bir hissəsi hesab olunur.

Ekoloji təhsilin formalaşdırılması prosesində aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəuyğun olardı:

- böyüyən nəsildə ekoloji şüuru formalaşdırmaq;
- uşaq və gənclərdə doğma təbiətə, ətraf mühitə məhəbbət və qayğılı münasibət, onun korlanmasına qarşı barışmazlıq hissləri aşılamaq;
- təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişlər formalaşdırmaq, gənc nəsli fəal ekoloji fəaliyyətə hazırlamaq;
- ekoloji tərbiyəni tərbiyə sisteminin digər istiqamətləri ilə sıx əlaqələndirmək, xüsusilə, ideya-siyasi, mənəvi, əmək, vətənpərvərlik tərbiyəsi ilə;
- ekoloji tərbiyənin iqtisadi, hüquqi, pedaqoji əlaqəsini möhkəmlətmək onun ardıcıl və uzunmüddətli olmasına nail olmaq lazımdır(3, s.113).

İnsanlar təbiətlə həmahəng sağlam və məhsuldar yaşamaq hüququna malikdirlər. Onu qazanmaq üçün ağıl və zəhmət tələb olunur.Bunun üçün ekoloji təhsilə yiyələnmək vacib şərtdir.Ekoloji təhsil insanda ekoloji mədəniyyətin tərkib hissəsi kimi dəyərləndirilir.

Ekoloji təhsil təhsil sisteminə daxil olmaqla bərabər, eyni zamanda onun əsas hissəsinə çevrilməlidir. Əgər ədəbiyyat və tarix fənləri mədəni dəyərlərin, təbiətşünaslıq təbii qanunauyğunluğun mənimsənilməsindən ötrü lazımdırsa, ekoloji təhsil təbiətə həqiqi insani

münasibətin formalaşması üçün lazımdır. Ekoloji təhsil spesifik sosial-təbii qanunauyğunluqlar, davranışlar və normativlərin mənimsənilməsi vəzifələrini yerinə yetirir. Ekoloji təhsilin məqsədi insanın təbiətlə münasibətini müəyyənləşdirməkdir.

İstər ümumtəhsil, istərsə də ali məktəblərdə ekoloji tərbiyənin vəzifələri bir- birindən fərqlənmir. Belə ki, ekoloji tərbiyə yetişməkdə olan nəsildə ekoloji şüuru formalaşdırmaqla yanaşı, uşaq və gənclərdə doğma təbiətə, ətraf mühitə məhəbbət və qayğılı münasibət, onun korlanmasına qarşı barışmazlıq hisləri aşılayır. Onlarda təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişləri formalaşdırır, gənc nəsli fəal ekoloji fəaliyyətə istiqamətləndirir.

Müasir dövrdə ekoloji tərbiyə metodikası özünü, ilk növbədə, təlim- tərbiyədə göstərir. Uşaqlarla iş zamanı yeni metodların axtarıb tapılması və tətbiq edilməsi ekoloji mədəniyyətin təşəkkülünə gətirib çıxarır. Bu metodlara ekoloji oyunlarla fəaliyyəti aid etmək olar ki, bunu psixoloqlar məktəbəqədər yaşlarda həyata keçirməyi məsləhət görürlər.

Ekoloji oyunların tədrisi zamanı təbiət qoynuna ekskursiyaların təşkil edilməsi gənclərdə, uşaqlarda, şagirdlərdə güclü təəssürat yaratmaqla ətraf mühitin dərk edilməsində gənc nəslin tərbiyəsi işində çox səmərəlidir.

Beləliklə, gənc nəsildə ekoloji şüurun formalaşdırılmasında ekoloji tərbiyənin böyük əhəmiyyəti vardır. Təbiəti mühafizə üzrə zəruri bacarıq və vərdişlərin formalaşdırılması isə gəncləri ekoloji fəaliyyətə hazırlayır, onlarda doğma təbiətə, ətraf mühitə məhəbbəti təlqin edir, onların qəlbində təbiətə qayğı və diqqəti artırır. Təbiəti sevmək və qorumaq şagirdləri həm mənəvi cəhətdən saflaşdırır, həm də dəyərlərimizə qarşı daha da diqqətli olmağa motivasiya edir.

Ekoloji təhsil adamların şüuruna, tərbiyəsinə təsir göstərməklə (inandırma, kütləvi, koolektiv və fərdi təsir) aşağıdakı mənaları ifadə edir:

- ekoloji təhsil - ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə normaların, xüsusi biliklərin, təcrübənin tədrisi və öyrənilməsi prosesi;
- ekoloji biliklər - ətraf mühitə, ekologiyaya, insan və təbiət arasında qarşılıqlı əlaqələrə dair məlumatlar;
- ekoloji maarifləndirmə - ekoloji mədəniyyətin formalaşmasına yönəldilmiş ekoloji bilik və təcrübənin yayılması;

Ekoloji təhsil və maarifləndirmə sahəsində idarəetməni həyata keçirən dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, təhsil müəssisələrinə, əhalinin maarifləndirilməsi ilə məşğul olan, həmçinin, digər aidiyyəti hüquqi və fiziki şəxslərə şamil edilir.

Əhalinin ekoloji təhsili və maarifləndirilməsi sahəsində dövlət siyasəti ətraf mühitin mühafizəsi və təhsil haqqında qanunvericiliyin tələblərinə, müvafiq dövlət proqramlarına, belə, bunlara dair ölkədə və beynəlxalq təcrübədə mövcud olan prinsiplərə uyğun həyata keçirilir.

Ekoloji təhsilin vəzifələrini aşağıdakı kimi ifadə etmək olar:

- Insanın təbiətin bir parçası kimi anlaşılması, bütüt canlıların birliyi və dəyərliliyi, insanın biosferin qorunması olmadan yaşayışının olumsuzluğu;
- İnsan yaşamının, onun peşə fəaliyyətinin təbii mühitə bağlı olan qanunauyğunluqlarının öyrədilməsi;
- Enerjiqoruyucu texnologiyaların, ekoloji baxımdan təmiz olan gələcəyə yönəlmiş resursların işə salınması.

Müasir dövrdə ekoloji tərbiyənin səmərəliliyini yüksəltməyə kompleks münasibətin aşağıdakı istiqamətlərinə diqqət yetirilməlidir:

1. Bütün təhsil səviyyəsində olan qruplarla iş aparmaq, onların fərdi xüsusiyyətlərini nəzərə almaq;
2. Ekoloji tərbiyənin üzünmüddətli və cari vəzifələrini əlaqələndirmək;

3. İdeoloji işin müxtəlif vəsaitlərinin əlaqəsini təşkil etmək (siyasi və iqtisadi təhsil, mühazirə və başqa kütləvi təbliğat, radio, televiziya, kino, mətbuat, mədəni-maarif müəssisələri, ədəbiyyat və incəsənət).

Məktəblilərdə ekoloji tərbiyənin formalaşdırılmasında əsas məqsəd gənc nəsildə ekoloji düşüncə tərzi tərbiyə etmək, ekoloji mədəniyyətin ən yüksək mədəniyyət olduğunu onlara çatdırmaq, təbiəti qorumağın, öyrənməyin, zənginləşdirməyin vacib məsələ olduğunu başa salmaqdır. Təbiət yaratdığı canlılara özünə qarşı məhəbbət hissi də bəxş edir. Məktəblilər bilməlidirlər ki, planetimizin təbii sərvətləri gələcək nəsillərə yararlı halda ötürülməlidir. Çünki təbiət hamı üçündür, bütün canlıların yaşadığı məkandır.

Ədəbiyyat

1. Abdullayev H., Məsimov H. Uşaqların ekoloji tərbiyəsi. Bakı, 1993.
2. Nəbiyev N., Vəliyev N. Təbii sərvətlər və ekoloji mühit Bakı ,Maarif,1987.
3. Nəzərov M.H, Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları. Dərs vəsaiti. Bakı: 2016, 200 s.
4. Salmanov M. Tətbiqi ekologiyanın əsasları. Bakı, 1993.

Seyidova Zəhraxanım Mirqasım qızı

Gənc nəsildə ekoloji təhsilin və şüurun formalaşdırılması yolları

XÜLASƏ

Məqalədə ekoloji təhsilin ictimai şüurun hərtərəfli formalaşmasında əhəmiyyəti və rolu araşdırılmışdır. Bununla bərabər müasir ekologiya elminin inkişaf tarixinin mərhələləridə məqalədə öz əksini tapmışdır.

Ekoloji təhsilin formalaşdırılması prosesi gənc nəsildə ekoloji şüuru inkişaf etdirməklə yanaşı onlarda ətraf mühitə diqqət qayğı onun qorunmasına qarşı səy göstərmək ekoloji tərbiyəni bu sistemin digər istiqamətləri ilə əlaqələndirilməsi və s. bu kimi mühüm vəzifələrlə üz-üzə qoyur. Bu kimi məsələlər də məqalədə məntiqi ardıcıllıqla göstərilmişdir.

Muasir dövrdə ekoloji tərbiyənin səmərəliyini yüksəltməyə kompleks münasibətin əsas istiqamətlərlərinin araşdırılması da diqqətdən kənarda qalmamışdır.

Сеидова Захраханум Миргасым кызы

Пути формирования экологического образования и сознания молодого поколения

РЕЗЮМЕ

В статье исследуется значение и роль экологического просвещения во всестороннем формировании общественного сознания. Вместе с тем в статье отражены этапы истории развития современной экологической науки.

Процесс формирования экологического образования, наряду с развитием экологического сознания у подрастающего поколения, требует от них внимания и заботы об окружающей среде, стремления к ее защите, увязки экологического образования с другими аспектами этой системы и т. д.. сталкиваются с такими важными обязанностями. Подобные вопросы также представлены в статье в логической последовательности.

Не осталось без внимания изучение основных направлений комплексного подхода к повышению эффективности экологического образования в современной эпохе.

Seyidova Zahrakhanim Mirgasim

Ways of shaping environmental education and consciousness of the younger generation

SUMMARY

The importance and role of environmental education in the comprehensive formation of public consciousness are explored in this article. At the same time, the stages of development of modern ecological science are also reflected in the article.

The process of formation of ecological education, along with the development of ecological consciousness in the younger generation, requires them to pay attention and care for the environ-

ment, to strive for its protection, to link ecological education with other aspects of this system and etc faces such important tasks. Such issues are also presented in a logical sequence in the article.

The study of the main directions of a comprehensive approach to improving the effectiveness of environmental education in modern times has not been left out of consideration.

Nəsibova Ülkər Zahid qızı
ADPU, Pedaqogika nəzəriyəsi və tarixi, II kurs magistrant
Elmir əhbər:dos.S.A.Orucova

SOSİAL KAMİLLİYƏ APARAN YOLLAR

Açar sözlər: *kamillik, təhsil, elm, inkişaf, cəmiyyət*
Ключевые слова: *совершенство, обучение, наука, развитие, общество*
Key words: *perfection, education, science, development, society*

Müasir dövrün ən aktual məsələlərindən biri olan, insan-onun inkişafı, bu inkişafı şərtləndirən məqamlar, cəmiyyətin təkamülü, sağlam social mühit elmi ədəbiyyatınən çox müraciət olunan istiqamətlərindəndir. Çünki, hümanist və demokratik cəmiyyət qurmaq, bu həyatda mümkün olduğu qədərsosial ədaləti, fərdi xoşbəxtliyi, insanlığa xidmət edən bəşəri nizamı, həqiqi azadlığı bərpa etmək üçünsosial cəhətdən mükəmməlləşmiş bir cəmiyyətin varlığıəsas şərtlərdəndir.Çünki belə bircəmiyyətdəki hər bir fərd öz davranışlarını qaydalara uyğun tənzimləyir, ədaləti, xeyirxahlığı, sevgini,ehtiramı, hörməti, əxlaqı, mənəviyyatı, mədəni yüksəlişi, təhsili, estetik zövqü, intellektual səviyyəsi, düşüncəsi, özgüvəni, səliqəsi, nitqi, dünyagörüşü, bir sözlə,sosial mükəmmənlikləri ilə seçilir.

Hər bir doğulan körpəni, hər bir məktəblini, hər bir gənci, ümumiyyətlə hər bir insanı sosial cəhətdən inkişaf etdirsək, onların hər birini ən arzuolunan şəxsə çevirə, milli və qlobal taleyimizə gedən yolu mükəmməl şəkildə tənzimləyə, bəşəriyyəti ən parlaq gələcəyə çatdıra bilərik. Əsrlər boyu bizim üçün kəşf edilmiş yolları təsadüfən yenidən kəşf edərək, təvəzökarlıqla getdiyimiz bu yolu müdriklik ilə qayıda və sevgi ilə dolu bir hikməti, özümüzdən daha böyük olan ideal məmimizə əmanət edə bilərik.

Sosial kamilliyə gedən bu yolu rədd etmək, onsuz da şahidi olduğumuz kimi mənəvi qaranlığa, sosial xaosa, fəlakətlərə, getdiyimiz yollarda büdrəməyimizə səbəb olur.

İnsanın mənəvi inkişafı-yəni kamilliyə yüksəlişi, cəmiyyətin tərəqqisi deməkdir. Hələ 1520-ci ildə Martin Lüter yazırdı"Yenidən doğulmayan-yəni kamilliyə çatmayan hər hansı insan ruhunda belə cismdir, yenidən doğulmuş insan isə hətta yeyib yatanda belə ruhdur." [1.səh.44]

İnsanın kamilliyi onun elmişığını görməsi, ziyalanması, iradə və ağlının təkamülü, dünyanı kəşf etməsi deməkdir. Böyümək, yetişmək, təcrübə qazanmaq-bütün bunlara təhsilin, tərbiyənin, inkişafın, fəaliyyətin, əməyin, sevginin, azadlığın, əxlaqınvəhdətindəndoğan mükəmməlliklə yetişmək mümkündür.

Kamilliyə doğru addımlamaq təbiətin nizamında inanılmaz gözəllik yaxud tarixin sirli mənasını kəşf etmək, cəmiyyətdə yeni əxlaqi baxış, bəşəriyyətin indiyədək mövcud olan köhnə vəziyyətindəyeni dirçəliştapmaq deməkdir. Dahi Çin mütəfəkkiriKonfutsi deyirdi-İnsanı kamilliyə 3 yol aparır:.

- İdrak etmək-ən vacib yol.
- kiməsə bənzəmək-ən asan yol
- təcrübə-ən əzablı yol. [2.səh76]

Sosial kamilliyiyə çatmaq dedikdə istər istəməz gözlərimiz önünə pillələri zirvəyə doğru addımlayıb, artıq ən son məqama yetişməkdə olan şəxs gəlir.

Tariximizin dərinliklərinə nəzər saldıqca görürük ki, ən uca məqam sayılan tanrı, ən müdrik qəbul edilən yaradan, zirvələrdə təsəvvür edilib. Hətta müqəddəs insanların müdriklərşərkən kamillikməqamına yetişdiyini görə bilərik. İlahi eşq, kamillik zirvəsi-yaradana məhəb-

bət bütün bunların ilkin rüşeyimləri sosial kamilliyə aparan yolda qazandığımız, bilik, bacarıq, vərdişlər, sosial dəyərlər, normalar, mənəvi və əxlaqi saflıq, məhəbbət və əməksevərlik, hümanizim vəsairinsani dəyərlərdən başlayır.

Kamillik sevgidir, Təbiəti, dünyanı, insanları, ən asasıda özünü sevməkdir.

Kamil insan -öz mənini tanıyan,mənəvi cəhətdən təkmilləşən, özünü ,tərbiyəsini başa vuran, bütün gözəl məqamları, keyfiyyətləri özündə ehtiva edən şəxsdir.

Hələ orta əsrlərdə təsəvvüf təriqəti kamil insanolmağa aparan yolun insanın öz mənini tanımasından, bütün gözəl keyfiyyətləri özündə birləşdirməsindən, yaradanı içində hiss etməsindən başladığını iddia edirdilər.

Müqəddəs Qurani Kərimdə isə, yaradanın dilindən qeyd edilib "Mən insana şah damarından belə yaxınam" deməli yaradanın insanın içində olması burada da öz təsdiqini tapır. İlahini vicdanımızda, əxlaqımızda, sevgimizdə, mənəviyyatımızda, davranışımızda axtarsaq, deməli özümüzü sevsək, özümüzü kamilləşdirərək içimizdəki müqəddəsliyə layiq olmağa çalışsaq və bunu heç nəyə görə yox, özümüz olduğumuza görə etsək hər birimiz kamil bir şəxsiyyət olarıq. Dünyanı və özümüzü dərk edərik.

Kamil insan fəlsəfəsini Nəsiminin əsərlərində də görürük. Nəsimi deyirdi: "İnsanın daxili təmizliyi, saflığı ilə kamilliyə çatmaq mümkündür".[4.səh.17]Buna görə də şair kamil insanı,daxilimükəmməlolan insanı müqəddəs sayır, ona səcdə etmənin vacib olduğunu göstərirdi. Sosial kamilliyə aparan yollarınəzəri cəhətdən göz önünə gətirsək bura aşağıdakıları daxil edə bilərik:

1. Elmi;
2. Əxlaqı;
3. Məqsədi;
4. Dərketməni;
5. İnamı.

Kamilləşmənin son nəticəsi rahatlıq və səadətdir. Yalnız insan ruhunu saflaşdıran kamillik - həqiqi kamillikdir. Elmin praktik fəaliyyətlə vəhdətinə nail olan, azad və saf insan ruhu - kamil ruhdur.

Ədəbiyyat

1.The Path to Perfection:Ashraf Ali Thanvi(01.01.2005USA)
2.ПУТЬ К СОВЕРЩЕНСТВУ:А.Ч.Бхактиведанте.
3.MEDİDATİON.OSHO(09.07.2000UK)
4.Kamillik sorağında.SəlahəddinXəllilov.Bakı.2019.

РАЗЮМЕ

Совершенство - это предел развития способностей естества. Поскольку всякое естество выступает атрибутом субстанции, то функция совершенства связана с обеспечением гармоничной связи между жизнью целого и его части. Иначе говоря, совершенства самого по себе не бывает, оно всегда относительно той области, частью которой является. Поэтому можно выделить нравственное совершенство, которое во всем стремится делать добро;эстетическое совершенство, отражающее в своем творчестве красоту; интеллектуальноесовершенство, обнаруживающее везде следы истины; и, наконец, духовное совершенство, способное во всем видеть Бога или его промысел

SUMMARY

Perfection is the limit of the development of the abilities of nature.Since every nature. Since every nature acts as an attribute of substance, the function of perfection is associated with ensuring a harmonious connection between the life of the whole and it is part.In other words,there is no perfection by itself,it is always relative to the area of which it is a part. Therefore one can single out moral perfection which strives to do good in everything;aesthetic perfection,reflecting

beauty in his work;intellectual perfection thatfinds traces of truth everywhere and finally spritual perfection,capable of seeing God or his providence in everything.

Rüstəmli Nərmin İsmayıl qızı
Elmirəhbər: dos.İsmət Məmmədova

TRAVMALARIN UŞAQ İNKİŞAFI VƏ DAVRANIŞINATƏSİRLƏRİ

Açarsözlər: *travma, posttravmatik stress pozuntusu, uşaq inkişafı, uşaq istismarı*
Ключевые слова: *травма, посттравматическое стрессовое расстройство, развитие ребенка, жестокое обращение с детьми*
Key words: *trauma, post-traumatic stress disorder, child development, child abuse*

Həyat boyu bir çox stressli anlarla qarşılaşmaq mümkündür, lakin bu o demək deyil ki, bu halların hər biri travmadır. Travmatik hadisə özü və ya başqalarının yaralanması, ölümü və ya fiziki bütövlüyünü təhdid edən bir hadisədir, həmçinin baş verdiyi zaman dəhşət, qorxu və ya acizlik hissinə səbəb olur. Travmatik hadisələrə cinsi zorakılıq, fiziki zorakılıq, məişət zorakılığı, icma və məktəbdə zorakılıq, tibbi travma, yol-nəqliyyat hadisələri, terror aktları, hərbi hadisələr, təbii və antropogen fəlakətlər, intihar və digər travmatik zərərlər daxildir. Bunlardan uşaqlara ən çox təsir edəni isə, uşaqların təhlükəsiz və sevildiyini hiss etməli olduğu evdə baş verir. Yetkin şəxslərin də travmalarla üzləşmələrinə baxmayaraq, yetkinlik onlara hadisələri daha effektiv şəkildə idarə etməyə və normal vəziyyətə qayıtmağa kömək edir. Uşaqlıq travmaları isə uşaqların hələ inkişafını tamamlamamış beyinlərini dəyişdirə, onlarda inkişaf və davranış problemlərinə səbəb ola bilər.

Valideynlərinin və ya onların qayğısına qalan digər şəxslərin yaxın və sevgi dolu münasibəti olmadan uşaqlar, heç kimin köməyinə arxayın ola bilməyəcəklərini öyrənirlər. Uşaqlar istismara məruz qaldıqda, bunun pis uşaq olduqları mənasına gəldiyinə və dünyanın təhlükəli, dəhşətli yer olduğuna inanırlar. Travma beynin və sinir sisteminin, immunitet sisteminin və bədənin stressə reaksiya sistemlərinin normal inkişafını pozur.

Bir çox uşaq həyatının müəyyən bir dövründə travmatik hadisələrlə rastlaşsa da, onların əksəriyyəti qısa müddətdən sonra həyatlarına qaldıqları yerdən davam edə bilirlər. ABŞ-ın Veteran İşləri Departamentinin PTSP (Posttravmatik stres pozuntusu[1]) mərkəzinin verdiyi məlumata əsasən, qızların 15-43 %-i, oğlanların 14-43 %-i ən az bir dəfə travma yaşayır, lakin onlardan qızların 3-15 %-i, oğlanların isə 1-6 %-i PTSP ilə diaqnoz olunur. Bu faizin aşağı olmasında bir çox uşağın heç diaqnoz qoyulma şansı olmadığı və travmaların təsirlərinin yetkinlərdə daha çox araşdırıldığı, uşaqlarda yalnız son 10-20 ildə bu risklə bağlı hər hansı bir araşdırma aparıldığı faktorlarının rolunu danmaq olmaz.

Posttravmatik stress pozuntusu olan uşaqlar travmatik anları şüurlarında təkrar-təkrar təcrübə edə bilərlər.[2] Onlar, həmçinin travmanı yada salan hər şeydən[3] yayına, yaxud, oyun oynayarkən həmin hadisəni təkrarlaya bilirlər.

Uşaqlar bəzən düşünürlər ki, travmatik hadisənin gəlişindən xəbər verən ehtiyat siqnallarını görməyiblər, buna görə də, bundan sonra belə hadisənin bir daha yaşanmaması üçün yüksək oyanıqlıq halında ehtiyat siqnallarını gözləyirlər.

PTSP diaqnozlu uşaqların, həmçinin bu problemləri də ola bilər: əsəb və aqressiya, təşviş pozuntusu, depressiya, digərlərinə qarşı inamsızlıq, qorxu, izolasiya olunma hissi, aşağı özünə hörmət, öz-özünü məhv edən davranış.

PTSP olmayan uşaqlarda da travmatik təcrübədən sonra emosional və davranış problemləri özünü göstərə bilər. Həmin uşaqlarda bu simptomlar ola bilər:

---

[1] *Yaşanmış travmatik stressdən sonra bir neçə simptomun ortaya çıxması ilə müşahidə olunan pozuntudur. Bu simptomlara hədsiz qorxu, çarəsizlik və ya dəhşətli anı yenidən yaşama aid edilir.*
[2] *Təkrar canlandırma - fləşbək (flashback)*
[3] *Tətikləyicilər (triggers)*

- Əsəb problemləri
- Normal fəaliyyətlərə marağın azalması
- Diqqət problemləri
- İştahda dəyişkənlik
- Yeni qorxuların inkişafı
- İrritasiya
- Yuxu problemləri
- Ölüm və ya təhlükəsizliklə bağlı artan düşüncələr
- Qəmginlik
- Məktəbdən yayınma
- Baş və mədə ağrıları kimi somatik şikayətlər

Uşağın valideynləri, qəyyumları, onun qayğısına qalmalı olan hər hansı bir şəxslə olan münasibəti həmin uşağın emosional və fiziki inkişafı və yetkinlik həyatı üçün əsasdır. Əgər, uşaq həmin şəxslərin istismarı, pis rəftarı, ehmalı nəticəsində travma qazanıbsa, onda o, insanlara inanmaqda çətinlik çəkir və bu, növbəti yaş dövrlərində də onun hər hansı biriylə münasibət qurmasına mane ola bilir. 2008-ci ildə Avstraliyada keçirilmiş tədqiqat göstərmişdir ki, 60 və daha çox yaş arası 21 mindən çox uşaq istismarı qurbanlarının uğursuz evlilik və yaxud münasibət faizi digərlərindən daha yüksəkdir.

Ədəbiyyat

1. Judith Herman, Trauma and Recovery, 1992
2. Dr. Claudia Herbert, Understanding Your Reactions to Trauma: A Guide for Survivors of Trauma and Their Families, 17 July 2002
3. Çocuk istismarı ve ihmali, Editör: Prof. Dr. Betül Ulukol, 1.cilt, 2019
4. https://www.waldenu.edu/online-masters-programs/ms-in-early-childhood-studies/resource/how-trauma-affects-child-development-and-behavior
5. https://www.verywellmind.com/what-are-the-effects-of-childhood-trauma-4147640
6. https://www.apa.org/pi/families/resources/children-trauma-update
7. https://www.ptsd.va.gov/understand/common/common_children_teens.asp
8. https://www.nctsn.org/what-is-child-trauma/about-child-trauma
9. http://pcc.az/blog/?p=1942

Rüstəmli Nərmin

Travmaların uşaq inkişafı və davranışına təsirləri

XÜLASƏ

Uşaqlıq travmalarının təbii fəlakətlər, qəzalar, terror hadisələri, məişət zorakılığı, istismar və başqa bir çox səbəbləri ola bilər. Bunlardan uşağa ən çox təsir edəni isə, uşağın valideynləri, yaxud digər qəyyumları tərəfindən məruz qaldığı istismardır. Uşağın ilk tanıdığı şəxslər tərəfindən istismara, pis rəftara məruz qalması onun insanlara olan inamını sarsıdır, bu da növbəti yaş dövrlərində onun digərləriylə hər hansı bir əlaqə qura bilməsini çətinləşdirir, qurduğu münasibətlər, hətta evliliklər də uğursuzluqla nəticələnə bilir. Bununla yanaşı, uşaqlıq travmaları posttravmatik stress pozuntusu, depressiya, təşviş pozuntusu kimi psixoloji problemlər, həmçinin fiziki problemlərə gətirib çıxarır. Hər travma yaşamış uşaq bu hallarla üzləşməsə də, bu problemlərin risk faktoru olması uşaqların qayğısına qalan şəxslərin onların bu halları təcrübə etməməsi üçün mümkün olan bütün tədbirləri görmələrinə zərurət yaradır.

Рустамли Нармин

Влияние травмы на развитие и поведение детей

РЕЗЮМЕ

Детские травмы могут быть вызваны стихийными бедствиями, несчастными случаями, террористическими актами, бытовым насилием, жестоким обращением и многи-

ми другими. Наиболее сильно они влияют на жестокое обращение, которому ребенок подвергается со стороны своих родителей или других опекунов. Жестокое обращение и жестокое обращение с ребенком со стороны первого человека, которого они когда-либо знали, подрывает их доверие к людям, что затрудняет им установление каких-либо отношений с другими людьми на следующих этапах развития человека, их отношения и даже браки, скорее всего, потерпят неудачу. Кроме того, детские травмы могут привести к другим психологическим проблемам, таким как посттравматическое стрессовое расстройство, депрессия, тревожное расстройство, а также к физическим проблемам. Хотя не каждый травмированный ребенок сталкивается с такими ситуациями, тот факт, что эти проблемы являются фактором риска, заставляет тех, кто ухаживает за ребенком, принимать все возможные меры, чтобы предотвратить их переживание этих ситуаций.

Rustamli Narmin

Effects of Trauma on Child Development and Behavior

SUMMARY

Childhood traumas can be caused by natural disasters, accidents, terrorist incidents, domestic violence, abuse and many others. The most impacting one by them is the abuse that the child is exposed to by their parents or other guardians. Abuse and mistreatment of the child by the first person they have ever known, undermines their confidence in people, which makes it difficult for them to establish any relationship with others at the next periods of human development, their relationships and even marriages are likely to fail. In addition, childhood traumas may lead to other psychological problems, such as posttraumatic stress disorder, depression, anxiety disorder, and also to physical problems. Although, not every traumatized child faces these situations, the fact that these problems are a risk factor makes it necessary for those who are caretakers of a child to take all possible measures to prevent them from experiencing these situations.

Rüstəmli Nərmin İsmayıl qızı
Elmi rəhbər: İsmət Məmmədova

UŞAQ CİNAYƏTKARLIĞI UŞAQ İSTİSMARININ NƏTİCƏLƏRİNDƏN BİRİ KİMİ

Açar sözlər: *uşaq istismarı, uşaq cinayətkarlığı, məişət zorakılığı, cinayət*
Ключевые слова: *жестокое обращение с детьми, подростковая преступность, домашнее насилие, преступность*
Key words: *child abuse, juvenile delinquency, domestic violence, crime*

Uşaq cinayətkarlığı yetkinlik yaşına çatmayan şəxslərin valideyn nəzarətindən kənarda qalmış anti-sosial və yaxud cinayətkar və nəticədə, məhkəmə təqibini zəruri edən davranışlarıdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 20-ci maddəsinə görə, bütün hallarda 16 yaşına çatmış uşaqlar cinayət məsuliyyətinə cəlb edilirlər. 16 yaşına çatmamış, 14 yaşı tamam olmuş uşaqlar 18 ağır cinayət1 törətdiyi halda cinayət məsuliyyətinə cəlb edilir. 14 yaşına çatmayan şəxslər isə cinayət törətdikləri halda, tərbiyə-əmək müəssisələrində yerləşdirilirlər. Cinayət Məcəlləsinin 85.maddəsinə əsasən, cinayətkarlıq törətmiş yetkinlik yaşına çatmayanlara bu cəza növləri təyin edilir: cərimə, ictimai işlər, islah işləri, müəyyən müddətə azadlıqdan məhrum etmə.

Uşaq cinayətkarlığı səbəb və keyfiyyətinə görə yetkin şəxslərin cinayətlərindən fərqlənir. Hüquqi aspektinn yanında bu həm də, psixo-pedaqoji və sosial fenomendir. Uşağın qanunları pozmasının və cinayət törətməsinin ailə problemləri və konfliktlər, valideyn nəzarətsizliyi və laqeydliyi, valideyn zorakılığına məruz qalma, sosial-iqtisadi problemlər, məktəbdə problemlər, bullinq, təhsildən yayınma, həmyaşıdların təsiri, zərərli vərdişlərəqurşanma, küçə həyatı yaşama və s. kimi bir çox səbəbləri ola bilər. Bu səbəblərin hər hansı biri uşaq cinayətkarlığının katalisti ola bilər, lakin adətən, bu səbəblərdən bəziləri bir-birilərilə səbəb-nəticə

əlaqəsində olur, yəni uşaq bunlardan birini təcrübə etdikdə, bunun nəticəsində digərlərinə də məruz qala bilir və bütün bunlar da uşaq cinayətkarlığı riskini daha çox artırır.

Məsələn, uşaq valideynləri tərəfindən məişət zorakılığına məruz qaldıqda bunun nəticəsində məktəbdə problemlər yaşaya, təhsildən yayına və yaxud zərərli vərdişlərə qurşana bilər. Daha sonra isə, bunların təsirilə cinayətkarlıq törədə bilər. Bu nümunə ehtimalların yalnız bir formasıdır, müxtəlif formalarda bu səbəblər bir-birilərinin nəticəsi və sonuncu halda isə uşaq cinayətkarlığının nəticəsi halına çevrilə bilər.

Uşaqları hədəf alan istismar, şübhəsiz, həm fiziki, həm də psixoloji olaraq uşağa mənfi təsir göstərən ən vacib səbəbdir. Bunun nəticəsində uşaqlar cəmiyyət normlarından kənarda davranmağa başlayır, daha sonra isə, həmin uşaqlar qurban, şahid və ya şübhəli şəxs olaraq, qanunlarla qarşı-qarşıya gəlirlər. Araşdırmalar göstərir ki, zorakılığa məruz qalan gənclər zorakılığa və ehmala məruz qalmayan həmyaşıdlarından daha tez-tez yuvenal ədliyyə sisteminə müraciət edirlər, həmçinin ilkin istiqamətdə xeyli kiçik olurlar. Bundan əlavə, istismara məruz qalmış uşaqlar, nadir hallarda aşağı risk qanun pozuntuları törədən istismar olunmamış həmyaşıdlarıyla müqayisədə daha davamlı və zorakılıq ehtiva edən hüquq pozuntuları törədirlər (Lemmon 1999). Bosuell (1995), Yuvenal ədliyyə sistemində yaşayan zorakı gənclərin 72% - nin emosional, fiziki, cinsi və ya ritual zorakılığa məruz qaldığını və 27% - in isə zorakılığın iki və ya daha çox növünə məruz qaldığını aşkar etmişdir. Herrenkohl, Juan, Tadzima və Uitni (2003) tərbiyə məqsədilə zorakılıqdan istifadə olunmasının uşaqların inkişafında fiziki istismar qədər zərərli olduğunu təsbit etmişdirlər. Zorakılığın bu formasına çubuqla vurmaq, və yaxud güclü şillə zərbələri daxildir. Bu yolla tərbiyə olunan uşaqlar zorakılığa meyl göstərir, sonradan zorakı həmyaşıdlarıyla münasibət saxlayır və özləri də zorakılıq göstərməyə başlayırlar. "Keçid dövründə Gənclər" (Baxman, 1967-1971) tədqiqatı uşaq cinayətkarlığı hallarının öyrənilməsi barədə təsəvvür yarada bilər. Bu araşdırmada yuxarı sinif şagirdləri delinkvent davranışları ilə bağlı sorğu-sual edilmişdir. Baxman bildirib ki, "əhəmiyyətli sayda oğlan uşaqları delinkvent və ya destruktiv davranış göstərdiyini etiraf etmişdir və əldə olunan rəqəmlər təəccüblü və bir qədər məyusedici dərəcədə yüksəkdir". O, həmçinin, uşaq cinayətkarlığının arxa planına baxanda, ailənin uşaq cinayətkarlığında vacib rol oynadığını bildirmişdir. Baxman demişdir: "Bir oğlan öz ailəsiylə nə qədər yaxşı yola getsə, onun cinayətkarlıq törətmə riski o qədər azalacaq". Bu mövzuyla bağlı olaraq, Şeldon və E.Qlük (1962) "haradasa bütün yetkinlik yaşına çatmayan cinayətkarların aşağı səviyyədə və xətalı tərbiyə aldığına" inanır, həmçinin, Fiziki cəzanın oğlanlar arasında cinayətkarlığa səbəb kimi daha çox təsiri olduğunu aşkar etmişdirlər. Cosi (1996) isə, verbal və fiziki zorakılığın, həmçinin, valideyn zorakılığının yeniyetmələrin məqsədəuyğun cavab kimi hesab etmələrinə yol açan öyrənilmiş davranış halına çevrildiyini qeyd etmişdir. Araşdırmalarında bu fikri dəstəkləyən Vilyam və Con Makkord bildirmişdilər ki, iki valideyn də deviant yaxud, sevgisizdirlərsə cinayətkarlıq faizi yüksəlir. Həmin neqativ faktorların hər ikisinin mövcudluğu kriminogen tendensiyaları əhəmiyyətli dərəcədə gücləndirir.

Uşaq istismarı eyni zamanda, təkrarlanan cinayətkarlıqla əlaqəli olduğu bildirilmişdir. Aparılan araşdırmalara əsasən, uşaqlıqda istismara məruz qalan şəxslərin ilk gənclik dövründə istismar olunmayan şəxslərdən 2-6 dəfə daha çox cinayətkarlıq törətmə riski olduğu aşkar olunmuşdur. Uşaq istismarıyla cinayətkar davranış güclü formada assosiasiya olunduğu üçün uşaq istismarıyla təkrarlanan cinayətkarlığın asossiasiya olunmasını gözləmək üçün yetərli sübut ortaya çıxarılmışdır. Bundan başqa, uşaqlara qarşı zorakılığın konkret növlərinin (yəni, istismar və ehmalın) relapsizmə müxtəlif təsir göstərə biləcəyi və ehmalın yeniyetməlik dövründə digər müxtəlif istismar növlərindən daha güclü təkrarlayıcı ola biləcəyi, ailə, həmyaşıdları, akademik, psixi sağlamlıq və psixoaktiv maddələrin geniş spektri üzərində nəzarətdən sonra ehtimal edilmişdir.

Benard (1991) isə yuxarıda sadalanmış fakt və səbəblərin bəzilərilə razılaşsa da, bütün bu şərtlərin mütləq formada uşaq cinayətkarlığını zəruri etmədiyini qeyd etmişdir. Onun fikrinə görə, uşaqlarda problemli davranışlar inkişaf etmə ehtimalı olsa da, onların daha yüksək faizi ciddi stress və çətinliklərə baxmayaraq, sərişteli və sağlam yetkin şəxslər olacaq-

lar. Kaufman və Ziqler də bu yanaşmaya uyğun fikir bildirmişdilər. Onlara görə,istismarın zəncirvari formada davam etdiyini müdafiə edən populyar fikrin əksinə, istismar qurbanlarının çoxu vaxtı gələndə, öz uşaqlarını nə istismar nə də ehmal etmirlər.

Habelə, istismarın uşaq cinayətkarlığında böyük bir risk faktoru olması danılmaz həqiqət olsa da, bu nəticədə, yalnız "risk faktoru"dur. Risk faktoru olması o demək deyil ki, istismara məruz qalmış uşaq mütləq formada cinayətkar olacaq.

Zorakılığa məruz qalmış bir çox uşaqlar yeniyetmə yaşına çatanda qanun pozuntuları törətmirlər və onlardan bəzilərində istismarın uzunmüddətli təsirlərin izi görünmür. Əksinə, risk faktoru olduğu üçün həmin uşaqlara gələcəyin cinayətkarı gözüylə baxmaq, o uşaqları haqsız yerə etiketləmək deməkdir ki, bu da heç uşaq bunu düşünməsə belə, onu bu haqda düşünməyə və nəticədə cinayətkarlıq törətməyə vadar edə bilər.

AR Dövlət Statistika Komitəsinin rəsmi olaraq verdiyi məlumata əsasən, 2019-cu ildə cinayət törətmiş 14-17 yaşlı uşaqların sayı 387, məhkum olunan 14-17 yaşlı uşaqların sayı isə 288-dir. Ötən illərlə müqayisədə, cinayət törətmiş uşaqların sayının azalmış olması sevindirici haldır. Gələn illərdə bu sayın preventiv və reabilitativ tədbirlər sayəsində daha da azalmasını ümid edirik.

Ədəbiyyat

1. Juvenile Delinquency, Clemens Bartollas, Frank Schmalleger, 9th edition, 2014
2. Judith Herman, Trauma and Recovery, 1992
3. Haluk Yavuzer, Çocuk ve Suç, 1985
4. Oğuz Polat, Tüm Boyutlarıyla Çocuk İstismarı, 2019
5. http://criminal-justice.iresearchnet.com/crime/domestic-violence/child-abuse-and-juvenile-delinquency/
6. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4992306/
7. https://scholarworks.lib.csusb.edu/cgi/viewcontent.cgi?referer=&httpsredir=1&article=2180&context=etd-project
8. https://ufdc.ufl.edu/AA00038782/00001/8x
9. Bachman J. (1967-1971). Youth in transition (Vols. 1-3). Ann Arbor, MI: University of Michigan
10. Benard B. (1991). Fostering resiliency in kids: Protective factors in the family. school and community (Report No.0230). Portland, OR: Western Regional Center for Drug-Free Schools and Communities.
11. Glueck S., and Glueck, E. (1960). Predicting delinquency and crime. Cambridge, MA: Harvard University Press.
12. Glueck S., and Glueck, E. (1962). Family environment and delinquency. Boston: Houghton Mifflin.
13. Josi D. (1996). Lifeskills' 95; A pragmatic alternative for juvenile parole. Unpublished doctoral dissertation. University of California, Irvine.
14. Joan Kaufman və Edward Zigler, "Do abused children become abusive parents?", American Journal of Orthopsychiatry (1987), s. 186-192 15. https://www.stat.gov.az/source/crimes/ 16. http://e-qanun.az/alpidata/code/data/0/c_c_11.htm

Rüstəmli Nərmin

Uşaq cinayətkarlığı uşaq istismarının nəticələrindən biri kimi

XÜLASƏ

Uşaq cinayətkarlığının ailəvi problemlər, məişət zorakılığı, valideynlərin laqeydliyi, sosial-iqtisadi vəziyyət, məktəbdə problemlər, zorakılıq kimi bir çox səbəbləri ola bilər. Bunların bir neçəsi uşaq istismarı anlayışına daxildir. Uşaq istismarının uşaqların anti-sosial və cinayətkar davranışlar göstərməsinə gətirib çıxarmasına dair bir çox araşdırmalar edilmiş və bu araşdırmaların nəticəsi bunu təsdiqləmişdir. Lakin, bir sıra ekspertlər isə uşaq istismarının uşaq cinayətkarlığındakı rolunu tamamən təkzib etməsələr də, bu nəticənin əksər hallarda

olduğunu danır, nümunə kimi, uşaqlıqda istismar olunmasına baxmayaraq, sağlam düşüncəli və kompetent fərd halına gələn bir çox insanı göstərirlər.

Nəticədə onu demək olar ki, uşaq istismarı uşaq cinayətkarlığında güclü bir risk faktoru olsa da, bu, hər istismar olunmuş uşağın cinayətkar olacağına dəlalət etmir. Bunun olmaması üçün səlahiyyətli şəxslər həmin uşaqları mütləq cinayətkar kimi etiketləmək yerinə, preventiv və reabilitativ tədbirlər görməlidirlər.

Rustamli Narmin

Juvenile delinquency as one of the consequences of child abuse

SUMMARY

Juvenile delinquency can have many reasons, such as family problems, domestic violence, neglect of parents, socio-economic situation, school-related issues, violence. Some of these are included in the concept of child abuse. There have been many studies that have led to the fact that child abuse causes children to show anti-social and criminal behavior, and the result of these studies has confirmed this. However, while some experts do not completely refute the role of child abuse in child crime, it is said that this result is not true in most cases, as an example, they show many people who, despite being abused in childhood, become healthy-minded and compulsive individuals. As a result, it can be said that although child abuse is a strong risk factor in child crime, it does not indicate that every abused child will be a criminal. In order to avoid this, people who have authority, should take preventive and rehabilitative measures, instead of labeling these children as would-be criminals.

Qasimzadə Zəhra Mərdan qızı
ADPU-nun I il magistrantı
Elmi rəhbər: p.ü.f.d., dos. P.M.Həsənova

MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ SOSİALLAŞMA UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRLIMASI VASİTƏSİ KİMİ

Açar sözlər: *uşaq şəxsiyyəti, sosiallaşma, məktəbəqədər təhsil, ünsiyyət, oyun, əmək*

Ключевые слова: *личность ребенка, социализация, дошкольное образование, коммуникация, игра, труд*

Key words: *child's personality, socialization, preschool education, communication, play, work*

Məktəbəqədər yaş dövrü insanın həyatında çox əhəmiyyətli bir dövrdür. Bu dövrdə sağlamlıq formalaşır, uşağın şəxsiyyətinin inkişafı həyata keçir. O, bu yaşda valideyn və pedaqoqlardan tam asılıdır. Onun gələcək vətəndaşlıq mövqeyi ətraf sosiumda uşaq üçün hansı şəraitin yaradılmasından asılıdır.

Məktəbəqədər yaşlı uşağın sosiallaşmasında ilkin ictimai müəssisə uşaq bağçasıdır. Burada uşaq yad adamlarla ilk ünsiyyət təcrübəsi qazanır, yaşıdları ilə qarşılıqlı münasibət qurmağı öyrənir. Məktəbəqədər təhsil müəssisəsinin əsas vəzifələrindən biri hər bir uşaq üçün sosial cəhətdən inkişaf etmək üçün uğurlu mühit yaratmaqdır. Əsas məqsədlərdən biri isə uşağın uğurlu sosiallaşmasına təsir göstərməkdir.

Məktəbəqədər təhsil müəssisələrində təhsilin məqsədi intellektual və fiziki inkişafın harmonik birləşməsi əsasında hərtərəfli təhsili, sosial kontaktların formalaşması və inkişafetdirici şəraitdə birgə fəaliyyət göstərmək qabiliyyətlərini təmin etməkdir. Uşaq bağçasında məqsədyönlü, pozitiv, mənəvi dəyərlərə malik insanların yetişdirilməsi üçün şərait yaradılır.

Uşaq bağçasında pedaqoq uşağı lazımi istiqamətə yönəltmək üçün kömək etməyi bacarmalıdır. O, uşağın təşəbbüsünü dəstəkləməli, ictimai fikrini inkişaf etdirməli, özünü idarə etməyi öyrətməlidir.

Kollektiv fəaliyyət şəxsiyyətin tərbiyəsinin və sosiallaşmasının əsas formalarından biridir. Bu, mühüm ictimai iş, birgə mışğələlər, əmək prosesi və oyun ola bilər. Uşaqların yaş xüsusiyyətlərini təhlil edərkən biz görürük ki, sosial keyfiyyətləri və tələbatları məhz məktə-

bəqədər yaş dövründən formalaşdırmaq və inkişaf etdirmək lazımdır: biliklərə maraq, təbiətə məhəbbət, kollektivdə yaşamaq bacarığı, onun maraqları ilə hesablaşmaq və qiymətləndirməyi bacarmaq. Sadalanan keyfiyyətləri oyun prosesində həyata keçirmək olar. Oyunu aktiv fəaliyyət növü kimi uşaqların həyat fəaliyyətinə daxil edilən vasitə, marağın inkişafı, passiv uşaqların mövqeyinin dəyişdirilməsi metodu, uşaqların fəallaşdırılması, sosial aləmə adaptasiyası üçün istifadə etmək olar.

Oyun forması idraki fəaliyyətə qoşulmaq üçün uşaqlara kömək edir, şəxsiyyətin mənəvi keyfiyyətlərinin açılmasına, qabiliyyətlərinin inkişafına imkan yaradır, uşaqları birləşdirir. Oyun fəaliyyəti qarşılıqlı kömək normalarının mənimsənilməsinə, təmkinli olmağa, uşağın şəxsiyyətinin inkişafına müsbət təsir edir, intellektual, mənəvi, əxlaqi, estetik və əmək keyfiyyətlərini inkişaf etdirir və şəxsiyyəti bütövlüklə formalaşdırır. Çünki oyun vasitəsi ilə uşağa həyati situasiyaları modelləşdirmək, təhlil etmək və oynamaq imkanı verilir. Bu, gələcək həyatın özünəməxsus "məşqidir".

Məktəbəqədər təhsil müəssisələrində məhz oyun prosesində uşaqlar sosial təcrübə əldə edir, kommunikativ vərdişlər təkmilləşir və yaşıdları ilə qarşılıqlı münasibətlərin qurulması baş verir. Hər bir uşaq bağçasında uşaqların mənəvi keyfiyyətlərinin formalaşmasına, mənəvi normaların gözlənilməsinə, mənəvi dəyərlərin (düzgünlük, ədalətlilik, dostluq, nəzakətlilik, məsuliyyətlilik, müstəqillik, öz davranışını təhlil etmək və qiymətləndirmək bacarığı, öz davranışını motivini söyləmək) formalaşmasına yönəlmiş işlərin aparılması vacib məsələdir.

Məktəbəqədər yaşlı uşağın məktəbəqədər təhsil müəssisəsində sosiallaşması üçün inkişafetdirici psixoloji-pedaqoji mühitin olması mühüm şərtdir.

Bir çox valideynlər hesab edirlər ki, əgər uşaq bağçaya gedirsə, orada mütləq dostluq etməyi öyrənəcək. Əslində isə belə deyil. Dostluq etmək kifayət qədər mürəkkəb bacarıqdır. Dostluq etmək üçün hər şeydən əvvəl çeviklik lazımdır. Sənin fikrini bəzən dəstəkləyirlər, bəzən də bəyənmirlər. Belə qənaətə gəlmək olar ki, dostluq etmək üçün bir tərəfdən güzəştə getmək, digər tərəfdən isə öz fikrini təqdim etmək zərurəti yaranır. Kiçik yaşlı uşaqlar üçün bu məsələ çox mürəkkəbdir. Çevik olmaq üçün pedaqoq hər bir mürəkkəb situasiyada münaqişənin aradan qaldırılması üçün variant və ya üsul göstərməlidir, daha doğrusu o, ünsiyyətdə çeviklik nümunəsidir.

Uşaq bağçasında pedaqoq tərəfindən bu cür yanaşma mümkün deyil. Ona görə ki, pedaqoqun bütün uşaqların bir-biri ilə xoş ünsiyyət qurması üçün hamısına kömək etməyə nə vaxt baxımından, nə də fiziki cəhətdən gücü çatmaz. Bu reallığa uyğun deyil. Buradan belə bir sual meydana çıxa bilər: niyə bəzi uşaqlar uşaq bağçasının kollektivinə tez və problemsiz alışır, başqaları isə çətinlik çəkirlər? Əsas məsələ uşağın fərdi xüsusiyyətərində və xarakterik cəhətlərində deyil. Onun uşaq bağçasına rahat gəlməsi üçün psixoloji hazırlığın böyük əhəmiyyəti vardır.

Bu amilləri nəzərə alaraq uşaqların risk qruplarını belə müəyyənləşdirmək olar:

1. Çətinlik daha çox uşağın öz yaşıdları ilə dil tapmaması zamanı baş verir. Uşaqlar onunla oynamaq istəmir. Oyuncaqları onun əlindən alır və qıcıqlandırırlar. Bunun səbəbi ondadır ki, uşaq ünsiyyət edə bilmir, özünüqiymətləndirmə ya çox yüksək, ya da aşağı səviyyə-dədir. Məsələn, əgər uşaq evdə istədiyini edirsə və böyüklər onun çılğınlığına səbrlə yanaşırlarsa, bu cür uşaq üçün bağça həyatı çətin keçir. Çünki nə pedaqoq, nə də uşaq kollektivi ona güzəşt etməyəcəkdir.

2. Utancaq uşaqlar da bir sıra problemlərlə üzləşirlər. Onlar öz yaşıdları ilə ünsiyyət etmir və qıcıqlandırmaq üçün hədəfə çevrilirlər. Əgər uşaq özünü müdafiə etməyi bacarmırsa, onda yaşıdları nəinki bağçanın oyuncaqlarını, hətta evdən gətirdiyi əşyaları da onun əlindən alırlar. Bu isə uşağa daha pis təsir edir. Bu səbəbdən də uşaqda bağçaya və oradakı uşaqlara qarşı qorxu yaranır. O özünü köməksiz və müdafiəsiz hiss edir.

3. Uşağın bağçaya adaptasiya olunmamasının bir səbəbi də pedaqoqun səhv və yersiz hərəkətləri ola bilər. Pedaqoqun aqressiyası və həddən artıq ciddiliyi hətta ünsiyyətli və hərtərəfli uşaqda da qorxu yarada bilər. Gəzinti zamanı paltarının çirklənməsi, boşqabda qalmış yemək, əllərinin yuyulmaması pedaqoq tərəfindən kobud formada qarşılana bilər.

Pedaqoq bilməlidir ki, uşağı danlayanda, xüsusən də bunu özgə adam kollektiv içərisində etdikdə ona çox pis təsir edir. Əgər bu daim davam edirsə, onda uşaq özünə qapılar və kənara çəkilər ki, xoşagəlməz sözlər eşitməsin.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, uşaq pozitiv cəhətdən sosiallaşmalıdır. Bu o deməkdir ki, uşaq ətrafındakı adamlarla ünsiyyət etməyi bacarmalı, öz davranış və fəaliyyətini başqalarının tələb və maraqlarını da nəzərə alaraq qurmalıdır. Pozitiv sosiallaşmanın məqsədi uşaqlar tərəfindən ilkin sosial xarakterli təsəvvürlərin mənimsənilməsi və onların cəmiyyətin sosial münasibətlər sisteminə daxil edilməsidir. Pozitiv sosiallaşmanın elementləri aşağıdakılardır:

- a) uşağın emosional cəhətdən müvəffəqiyyətli olması;
- b) ətrafdakı insanlara müsbət münasibəti;
- c) uşağın kommunikativ kompetensiyaları;
- ç) sosial vərdişlərin inkişafı.

Məktəbəqədər yaşlı uşağın pozitiv sosiallaşmasının istiqamətlərini aşağıdakı kimi göstərmək olar:

1. Şəxsiyyətin tərbiyəsinin prioritet vəzifələrinin aktuallaşdırılması. Uşaq şəxsiyyətinin humanist istiqamətinin formalaşmasına xüsusi diqqət yetirmək. Məktəbəqədər təhsilin humanist funksiyası ümumbəşəri dəyərlərə, uşağın həyatı və sağlamlığına, müasir cəmiyyətdə və dövlətdə azad inkişafına yönəlmişdir. Bununla əlaqədar olaraq pozitiv sosiallaşmanın əxlaqi, vətəndaşlıq, vətənpərvərlik və hüquqi istiqamətləri müəyyən edilmişdir. Pedaqoq bilməlidir ki, məktəbəqədər yaş dövründə uşaqlar etika, mənəviyyat və əxlaqi normaları ətraf aləmin tərkib hissəsi kimi qavrayırlar.

2. İnkişafetdirici təhsil prinsipinə uyğunluq. Bu gün təhsilin qarşısında duran əsas vəzifə uşaqlarda idrak fəallığını, müstəqilliyi və qabiliyyətləri inkişaf etdirməkdir. Şəxsiyyətin pozitiv sosiallaşması uşaqların hərəki, oyun, idraki, tədqiqatçılıq, produktiv və bədii estetik fəaliyyəti ilə sıx bağlıdır. Bunun formaları müxtəlifdir: oyun, müşahidə, söhbətlər, müzakirə, eksperiment, problem-situasiyaların həlli, layihələr, modelləşmə, ssenarilər və s.

3. Pedaqoji fəaliyyətin əlavə təhsil müəssisələri ilə əlaqəsi. Şəxsiyyətin sosial inkişafı kommunikativ ünsiyyətin, idrak fəallığının və əxlaq tərbiyəsinin ayrılmaz komponenti olduğu üçün əlavə təhsil müəssisələri ilə əlaqə bu vəzifənin daha mükəmməl reallaşmasına imkan yaradır və uşaqların hərtərəfli inkişafına təsir edir. Məsələn, "Sosial-kommunikativ inkişaf" və "İdrakın inkişafı" təhsil sahələri uşaqların həm sosiallaşması, həm də psixi proseslərin inkişafı (təfəkkür, təxəyyül, yaddaş) və idraki əməliyyatların (təhlil, sintez, ümumiləşmə, təsnifat) kompleks şəkildə həyata keçməsinə istiqamətlənir.

Bu cür inteqrasiyanın məqsədi uşaqların sosial münasibətlər sisteminə daxil olarkən insanlara, öz əməyinə və başqalarının əməyinə dəyər verməyi tərbiyə etməkdir.

Beləliklə, uşaq bağçasında məktəbəqədər yaşlı uşaqların pozitiv sosiallaşmasına müasir yanaşmalar yalnız müəyyən qədər bilik, bacarıq və vərdişlərin formalaşmasına deyil, həmçinin uşağın şəxsiyyətinin baza keyfiyyətlərinə, ümumi mədəniyyətinin formlaşmasına və cəmiyyətdə sosial adaptasiyaya yönəlir. Bu isə pedaqoqdan yüksək peşəkarlıq tələb edir.

Məqalənin aktuallığı: məktəbəqədər təhsil müəssisələrində uşaq şəxsiyyətinin inkişafı məsələlərinin araşdırılması müasir təhsilin müasir problemidir. Bu problemin araşdırılması məqalənin aktuallığını şərtləndirir.

Məqalənin elmi yeniliyi: uşaq şəxsiyyətinin inkişafında sosiallaşmanın mühüm bir amil olaraq aşkarlanması məqalənin elmi yeniliyini üzə çıxarır.

Məqalənin nəzəri və praktik əhəmiyyəti: məqalədən məktəbəqədər təhsil ixtisası üzrə təhsil alanlar, məktəbəqədər müəssisələrdə çalışanlar faydalana bilərlər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı, 2009

2. “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin kurikulumu (3-6 yaю)”. “Təhsil problemləri” qəzeti, 24 mart, 2
3. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı, 2005.
4. Həsənova P.M. Məktəbəqədəryaşlı uşaqların sosial-mənəvi inkişafı. Dərs vəsaiti. Bakı, 2017.
5. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etni-psixoloji əsasları. Bakı, 2000.
6. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası. Bakı, 2017.
7. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975, 356 s.
8. http://edu.gov.az/az/page/255/2243

XÜLASƏ

Şəxsiyyətin formalaşmasına hələ məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Uşaq şəxsiyyətinin formalaşmasına müxtəlif amillərlə yanaşı onun sosiallaşması da təsir edir.

Məqalədə məktəbəqədər təhsil müəssisəsində sosiallaşma uşaq şəxsiyyətinin formalaşması vasiyəsi kimi götürülmüş, elmi şəkildə araşdırılmışdır.

РЕЗЮМЕ

Начинать формирование личности нужно с дошкольного возраста. На формирование личности ребенка наряду с различными факторами влияет егосоциализация. В статье социализация в дошкольном образовании рассматривается как средство формирования личности ребенка и научно исследуется.

SUMMARY

It is necessary to start forming a personality from preschool age. Along with various factors, the formation of a child's personality is influenced socialization.

In the article, socialization in preschool education is considered as a means of forming a child's personality and is scientifically researched.

Gülməmmədli Gözəl Habil qızı
ADPU, məktəbəqədər təlim və tərbiyənin metod və metodologiyası, II kurs magistrı
Elmi rəhbər: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ş.A.Baxışova

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏQLİNİN İNKİŞAFINDA YENİ TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *məktəbəqədər pedaqogikası,texnologiya,təhsil*
Ключевые слова: *дошкольная педагогика, технологии,образование*
Key words: *pre-school pedagogy, technology,education*

Təhsil sahəsində aparılan ciddi islahatlara təhsilin demokratikləşməsi, yeni pedaqoji təfəkkürün formalaşması yeni texnologiyaların da inkişafına, tətbiqinə zəmin yaratmış, tərbiyəçi-müəllimlərin yaradıcılığına təkan vermiş, uşaq müstəqilliyinə, fəallığına imkan yaratmışdır. Yeni texnologiyalardan istifadə tərbiyəçi-müəllimdən daha çox yaradıcılıq əzmi, novatorluq, pedaqoji prosesə yeni pedaqoji təfəkkürlə yanaşmaq bacarığı tələb edir.

Biz sürətlə dəyişən dünyada elm, texnika və texnologiyanın, xüsusilə də kompüter texnologiyasının sıçrayışlı inkişafının şahidləriyik. Daima dəyişən həyatın şəraitinə uyğunlaşmaq üçün çevik olmaq, yeni şəraitə uyğunlaşmaq, öz qabiliyyətlərini gerçəkləşdirməyi bacarmaq, özünüinkişafa və özünütəkmilləşdirməyə hazır olmaq zəruridir.

Müasir dövrümüzün xarakterik cəhətlərindən biri demokratik vətəndaş cəmiyyətinin qurulmasıdır. Bu məsələ də təhsildə həlledici rola malikdir, çünki yeni standartlarla təhsil alan yetişməkdə olan gənc nəsil vətəndaş cəmiyyətin qurucuları və iştirakçısı olurlar. Buna isə yeni

təlim texnologiyaları ilə nail olmaq mümkündür. Təhsilin, o cümlədən təhsil prosesinin nəzəri, ideoloji bazası nə qədər zəngin olarsa, yeni təlim texnologiyalarından istifadə edilməsə yeniliyi səviyyəli nəticələrə çıxarmaq olmaz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 aprel 2017-ci il tarixində təsdiq etdiyi "Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 7-ci maddəsinin 2-ci bəndində qeyd olunur ki, məktəbəqədər təhsil vasitəsilə uşaqların erkən yaş dövrlərində əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının, estetik tərbiyəsinin, sadə əmək vərdişlərinə yiyələnməsinin, ətraf aləmə, şəxsi sağlamlığın qorunmasına həssas və şüurlu münasibətinin, zəruri həyati bacarıqlara yiyələnməsinin, şəxsiyyətinin formalaşdırılmasının əsası qoyulur [1].

Son dövrlərdə məktəbəqədər təhsil müəssisələrində uşaqların əqli inkişafının formalaşmasına diqqət yetirilir. Təhsil sahəsində islahatlar dövründə uşaqların əqlinin inkişaf etdirilməsi birinci növbədə yeni texnologiyalardan istifadə olunmasını və inkişafetdirici təlimin həyata keçirilməsini tələb edir. Getdikcə artan informasiya axını uşaqların fikri qabiliyyətlərinin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkir.

Bunun üçün ilk növbədə - uşağın əqlinin inkişafını təmin etmək vəzifəsi ön plana keçir. Ənənəvi təhsil sistemi müəllimyönümlüyə, məqsədyönümlüyə, bilikyönümlüyə, təklifyönümlüyə əsaslanmış və uşaqlara çox az həyati bacarıqlar aşılamış, təfəkkürü inkişaf etdirməyə yönəlməmişdir. Ənənəvi təhsil biliyə yönəlmişdisə, indi səriştəlilik əsas məqsəd kimi qrşıda durur. Yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən istifadə etməyi bacaran, millimənəvi və ümumbəşəri dəyərlərə yiyələnmiş, fəal, şüurlu, məsuliyyətli, rəqabətədözümlü, konstruktiv şəxsiyyətin yetişdirilməsi müasir təhsilimizin əsas mahiyyət və məqsədini təşkil edir.

Təhsildə yeni yanaşmanın mahiyyəti ondan ibarətdir ki, təlim uşaqların yaddaşının təkcə yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, təfəkkürün, şəxsi keyfiyyət və qabiliyyətlərin inkişaf etdirilməsinə, həyat üçün zəruri olan bacarıqların qazanılmasına yönəldilməlidir. Uşaqyönümlüyə, nəticəyönümlüyə, şəxsiyyətyönümlüyə, tələbyönümlüyə əsaslanmalıdır.

Təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil uşaqların əqli, intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnmələrini, istedad və qabiliyyətlərini aşkara çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir. Məktəbəqədər yaşlı uşaqların əqli inkişafı məktəbəqədər pedaqogikanın qarşısında duran mühüm vəzifədir. Bunun üçün birinci növbədə uşaqların sağlamlığı ilə yanaşı əqli inkişafı da onların təlim - tərbiyə işində əlaqəli şəkildə götürülür, düzgün təşkil olunur, erkən yaşdan düzgün təşkil olunan iş əqli inkişaf üçün stimul yaradır. Yəni əqli inkişaf uşağın fikri fəaliyyətində həm kəmiyyət, həm də keyfiyyət dəyişikliyi edir. Məktəbəqədər dövrdə öyrənmə, ətrafı dərk etməyə maraq çox yüksək templə gedir. Uşağın nitqi formalaşır, şüurlu dərk etmə prosesi təkmilləşir, onlar ətrafdakı hadisələri çox sadə yollarla mənimsəyirlər. Erkən yaşdan uşaqların əqlini inkişaf etdirmək onların gələcək fəaliyyətləri üçün böyük əhəmiyyət kəsb edir. Uşaqların əqli inkişafı ictimai mühitin təsiri altında formalaşır.

Bu cür yanaşma fəaliyyətə yaradıcı münasibət formalaşdırır, təfəkkürü, təxəyyülü, diqqəti, yaddaşı, iradəni inkişaf etdirir, emosional mədəniyyəti və ünsiyyəti cilalayır.

Mənimsənilən biliklər uşağın müstəqil idrak fəallığının inkişafının həyata keçirilməsi prosesində qabiliyyətlərin formalaşmasına təsir göstərir. Bu, həmçinin təhsilin məzmununa və prosesinə emosional-dəyərli münasibətin təmin olunmasına, şəxsiyyətin humanist istiqamətdə formalaşmasına şərait yaradır.

Təfəkkürün inkişafı məqsədyönlü təşkil olunmuş prosesdə biliklərin mənimsənilməsi deyil, uşaqların qarşıya qoyulmuş problemin həllinə cəlb edilməsi ilə təmin olunur.

Biliklərin mənimsəmə üsullarının əldə edilməsi insanın fəallığının əsasını təşkil edir və özünü idrak prosesini müstəqil qurmağı bacaran subyekt kimi qəbul etməyə şərait yaradır.

Yaradıcı təfəkkür aşağıdakı qabiliyyətləri xarakterizə edir:

-əvvəllər heç kimin əldə etmədiyi nəticələrin əldə edilməsi;

-arzu olunan nəticəni əldə etmək üçün situasiyada əvvəlcədən bilməyərəkdən müxtəlif yollardan istifadə etmək imkanının olması;

-nəticənin əldə edilməsi üçün üsulların müxtəlifliyi;

-bu cür vəzifələrin həll edilməsi üçün kifayət qədər təcrübənin olmaması;

-başqasının müdaxiləsi olmadan müstəqil fəaliyyət göstərməyin zəruriliyi [2, 43-49].

Biliklərə yiyələnərkən uşaqlar yalnız onun məzmununu mənimsəmir, həm də öz idraki imkanlarını, maraq və meylini inkişaf etdirirlər. Fikirləşməyi, axtarmağı, yaratmağı öyrənirlər. Bu baxımdan tədris fəaliyyəti şəxsiyyətin formalaşmasının ən mühüm mənbəyidir. Hazırda yeni qurulan təhsildə idraki inkişafın parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının Təhsil Qanunu" Bakı, 19 iyun, 2009-cu il. //Təhsil - xəbərləri. 2009 -cu il, №6, s.12-57.

2. Abbasova R.O.Yeni pedaqoji təfəkkürə əsaslanan interaktiv metodların tətbiqi // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2002, № 1, s. 43-49

3.A.H.Əliyev. "Müasir pedaqoji texnologiyalar və kimyanın tədrisində onlardan istifadənin metodikası.

4.Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar //Azərbaycan məktəbi, 2013, № 6, s. 25-32

Gülməmmədli Gözəl Habil qızı

XÜLASƏ

Müasir dövrümüzün xarakterik cəhətlərindən biri demokratik vətəndaş cəmiyyətinin qurulmasıdır. Bu məsələ də təhsildə həlledici rola malikdir, çünki yeni standartlarla təhsil alan yetişməkdə olan gənc nəsil vətəndaş cəmiyyətin qurucuları və iştirakçısı olurlar. Buna isə yeni təlim texnologiyaları ilə nail olmaq mümkündür.

Гюльмамедли Гозель Габиль кызы

РЕЗЮМЕ

Одна из характерных черт нашего времени - становление демократического гражданского общества. Этот вопрос также играет решающую роль в образовании, поскольку молодое поколение, получившее образование по новым стандартам, становится основателями и участниками гражданского общества. Этого можно достичь с помощью новых технологий обучения.

Gulmammadli Gozel Habil gizi

SUMMARY

One of the characteristic features of our time is the establishment of a democratic civil society. This issue also plays a crucial role in education, as the younger generation, educated by the new standards, become the founders and participants of civil society. This can be achieved with new learning technologies.

Kərimova Pərvanə Namiq qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Rəyçi: ped.ü.f.d. S.M.Sadıqova

PEDAQOJİ ÜNSİYYƏTİN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFINDA ROLU

Açar sözlər: *pedaqoji ünsiyyət, tərbiyəçi-müəllim, uşaq, uşaq bağçası, ünsiyyət*

Ключевые слова: *педагогическое общение, педагог, ребенок, детский сад, общение*

Key words: *pedagogical communication, educator-teacher, child, kindergarten, communication*

Pedaqoji ünsiyyət tərbiyəçi-müəllim və uşaq arasında əməkdaşlığın yaranması və uşaqda özünəinam, özünəhörmətin formalaşdırılması məqsədilə aparılan pedaqoji qarşılıqlı əlaqə sistemidir. Tərbiyəçi-müəllim uşaqlarla pedaqoji ünsiyyətinin təsirli olmasına və onların zehni inkişafına ən böyük dərəcədə kömək etməsinə çalışmalıdır. Bunu etmək üçün uşaqların onunla ünsiyyətdən nə gözlədiyini, uşaqlıq dövründə dəyişən, böyüklərlə ünsiyyət ehtiyaclarını nəzərə almalı və inkişaf etdirməlidir.

Tərbiyəçi-müəllimin pedaqoji ustalığında xüsusi yeri onun peşə keyfiyyətləri dayanır. Hər bir tərbiyəçi-müəllim üçün zəruri olan keyfiyyətlər xeyirxahlıq, təmkinlilik, humanistlik, mərhəmətlilik, saflıq, mehribanlıq və s. daxildir. Tərbiyəçi-müəllim bütün uşaqlara analıq münasibəti, ana məhəbbəti ilə, başqa sözlə, böyük nəvazişlə, sevgi ilə yanaşmalıdır. Uşaqlarla ünsiyyət qurarkən səmimi, mehriban olmalı və onların bağçaya gəldikləri vaxtda, yaxud tərbiyəçi-müəllimin tapşırıqlarını, göstərişlərini dərhal anlamadıqları zaman pərt olmamalarına çalışmalı, ümumiyyətlə bu kimi hallara yol verməməlidir. Tərbiyəçi-müəllim uşaqların sevdikləri hər bir şeyə diqqət yetirməyə şərait yaratmalıdır. Çünki məhz bu zaman uşaqlar bağçaya həvəslə, sevinərək gəlir.

İbn Akninə görə, müəllim dərs dediyi fənni mükəmməl bilməli, hərəkətləri biliyinə uyğun gəlməli, təhsil üçün nəmərdən imtina etməlidir, şagirdlərlə öz övladları kimi rəftar etməli, biliyinə və ona uyğun olaraq, hərəkətinə dərin inamı olmalı, eyni zamanda bu inamı şagirdlərinə aşılamalı və bununla da onlara xoşbəxtliyin yolunu göstərməli, şagirdlərinə qarşı xeyirxah və səbrli olmalı, tədris planını şagirdlərin zehni qabiliyyətinə uyğun olaraq, ardıcıllıqla tətbiq etməlidir [8].

Təcrübə göstərir ki, uşaq bağçasında əlverişli psixoloji iqlimin yaradılmasına ən çox kömək edən fərdi iş ünsiyyətinin olmasıdır. Tərbiyəçi-müəllimlər uşaqların fəaliyyətinə rəhbərlik edirlər, lakin onların uşaqlara təsir formaları fərqli olur. Çox vaxt "demokratik" və "avtoritar" rəhbərlik formalarını qarışdırırlar.

"Demokratik" məhsuldarlıq və "avtoritar" üslubun zərərliliyi, sonuncunun uşaqlarla işləməsində yolverilməzliyi bir sıra tədqiqatlarda sübut edilmişdir (A.A.Bodalev, K.Levin, V.S.Muxina, L.N.Bashlakova, və s.).

Bir müəllimin optimal pedaqoji ünsiyyətini xarakterizə edən A.A.Leontyev haqlı olaraq "müəllimin fərdi xüsusiyyətlərindən təhsil prosesində maksimum istifadə etməyə imkan verdiyini" qeyd edir. Belə bir fürsət həm də tərbiyəçi ilə uşaqlar arasında optimal pedaqoji ünsiyyət tərəfindən yaradılır [9].

Yoldaşları ilə ünsiyyət quraraq, uşaq onların hərəkətlərini idarə edir, onları idarə edir, şərhlər edir, öyrədir, öz davranış qaydalarını, fəaliyyətini göstərir və ya tətbiq edir və digər uşaqları özü ilə müqayisə edir. Yaşıdları arasında uşaq bilik və bacarıqlarını nümayiş etdirir.

Böyük yaş dövründə uşaqlar ünsiyyət quraraq dost olur. Uşaqlar bir-birini daha yaxşı tanıyır, ortaq maraqlar tapır, birlikdə oynayır. Bu ünsiyyət uşaqlara böyük sevinc gətirir və onların həmyaşıdları ilə eyni bərabər mövqe tutmağı öyrənirlər.

Altı yaşlı uşaq artıq özü kimi`digər uşaqların da sabit, vəziyyətdən asılı bir xarakterə sahib olması lazım olduğunu anlamağa başlayır. Bu, həmyaşıd empatiyasında və emosional dəstəyə ehtiyac olduğunda özünü göstərir. Uşaqlar məktəbəqədər yaş dövründə yalnız özlərini deyil, başqa uşaqların da hərəkətlərini, davranışlarını qiymətləndirə və onlara uyğun davranmağı bacarırlar. Ünsiyyət uşağın inkişafında mühüm amil olub, onun şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli rol oynayır.

Oyun uşaqlar arasında ünsiyyətdə güclü bir potensialdır. Oyunda uşaqlar qarşılıqlı əlaqə qurur və bir-birləri ilə ünsiyyət qururlar. Uşaqlar bir-birlərinə kömək etməyi öyrənirlər. Oyun təşkilatçılıq bacarıqlarını inkişaf etdirir, qrup liderləri fərqlənir. Uşaqlarla oynamaq, uşaq qələbə və məğlubiyyətlərə alışır. Başqalarını dinləməyi, qaydalara uyğun oynamağı, ədalətli rəqabətə alışmağı öyrənir.

Bir sıra psixoloji və pedaqoji tədqiqatlara görə, hazırda bəzi məktəbəqədər uşaqlarda ünsiyyətin kifayət qədər inkişafı yoxdur, bu da yaşıdları ilə münasibət qurmağın çətinliklərində özünü göstərir. Bu yaşda, onsuz da uşaqların populyar və populyar olmayan bir bölgüsü var.

Bunlardan birincisi həmyaşıdlarının hörmət və rəğbətindən zövq alır. Onlarla asanlıqla təmas qururlar və kifayət qədər sərbəst ünsiyyət qururlar. Digər uşaqlar (utancaq, qapalı, özünə hörməti pozulmuş) yaşıdlarından uzaq durmağa çalışırlar, heç əvvəl oyunu təklif etmirlər.

Böyük qrupda ünsiyyət baxımından uşaqların inkişaf xüsusiyyətlərinin diaqnostik qiymətləndirilməsini apardıq. Nəticələr bizə aşağıdakı nəticələr çıxartmağa imkan verdi ki, bağçada olan uşaqların həmyaşıdları ilə əlaqələr qurması, ünsiyyətdə olması, onlarla oynaması və dostluq etməsi bağçaya getməyən uşaqlardan daha asandır.

Bağçaya getməyən uşaqlar çox utancaq olurlar, həmyaşıdları ilə ümumi bir dil tapa bilmirlər, çünki yalnız böyüklərlə ünsiyyət qururlar. Uşaq bağçasına gedən uşaqlar, əksinə, böyüklər və uşaqlar ilə asanlıqla ortaq bir dil tapırlar, dərhal birlikdə oynamağa, ortaq maraqlar tapmağa başlayırlar.

Ünsiyyət uşağın zehni və sosial inkişafında ən vacib amillərdən biridir. Yalnız böyüklər ilə təmasda uşaqların bəşəriyyətin sosial və tarixi təcrübəsini mənimsəməsi və bəşər övladının nümayəndəsi olmaq üçün fitri qabiliyyətlərini həyata keçirməsi mümkündür. Buna isə tam qarşılıqlı anlaşma şəraitində mümkündür, buna nail olmaq üçün müəyyən şərtlərə və tələblərə əməl etmək vacib məsələlərdəndir.

Tərbiyəçi-uşaq ünsiyyətinin düzgün qurulması, onlar arasında əməkdaşlığın yaranması üçün ilk növbədə pedaqoji ünsiyyətdə tətbiq olunan pedaqoji etika və nəzakət normalar öyrənilməli və tətbiq olunmalıdır. Rabitənin, ünsiyyətin çatışmazlığı və məhdudlaşdırılması isə uşağın inkişafını ləngidir və zəiflədir. Bu baxımdan təbiyəçi-müəllimlərin ən mühüm vəzifələrindən biri də pedaqoji ünsiyyətdən düzgün istifadə edə bilmələridir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Məktəbəqədər Təhsil Proqramı (Kurikulumu) (3-6 yaş). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 96 s.
2. Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu. Bakı 2009, 36 s.
3. Ağayev Ə.Ə., Rzayeva Y.T., Hüseynova T.M., Vahabova T.Ə. Sosial Pedaqogika. Bakı 2008, 178 s.
4. Baxışova Ş.A. Məktəbəqədər Təhsil: Konseptual problemlər. Bakı: Elm və təhsil, 2015, 308 s.
5. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı: Səda, 1998, 344 s.
6. Əliyeva G.B. Psixologiya.Ali məktəblər üçün dərslik.Bakı :ADPU, 2015,172 s.
7. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı, Bakı: 1998, 210 s.
8. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013, 216 s.
9. Леонтьев А.А. Общение как объект общей психологии / В кн. Методологические проблемы социальной психологии. М.: Наука, 1975, с. 106-123

Каримова П.Н.

Роль педагогического общения в развитии дошкольников

РЕЗЮМЕ

По мере того, как дошкольники взаимодействуют с другими, они развивают симпатию и антипатию и помогают детям целенаправленно подготовиться к межличностному общению со своими сверстниками. Таким образом, у детей развиваются и укрепляются положительные качества, такие как дружба, сотрудничество, искренность, доброта, родность, и они отдаляются от отрицательных черт, таких как грубость, зависть, несправедливость, отчуждение. Детям этого возраста очень важно уметь искренне сотрудничать друг с другом, развивать коммуникативные навыки, потому что им очень важно подготовиться к школе. Потому что в будущем детям придется находить общий язык с одноклассниками в школе, слушать их и быть солидарными со сверстниками. Все это определяет лучшую адаптацию будущего первоклассника к школе.

Karimova P.N.

The role of pedagogical communication in the development of preschool children

SUMMARY

As preschoolers interact with others, they develop sympathy and antipathy and help children to prepare purposefully for interpersonal communication with their peers. Thus, children develop and strengthen positive qualities such as friendship, cooperation, sincerity, kindness, nativeness, and they move away from negative qualities such as rudeness, envy, injustice, alienation. It is very important for children of this age to be able to cooperate sincerely with each other, to develop communication skills, because it is very important for them to prepare for school. Because in the future, children will have to find a common language with their classmates at school, listen to them and be in solidarity with their peers. All this determines the best adaptation of the future first-grader to school.

Məmmədbəyli Nuranə
ADPU-nun II il magistrantı

NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ İDRAK MƏSƏLƏLƏRİ

Açar sözlər: *Nizaminin əsərləri, elm, idrak,təbiət, canlı aləm, şüurlu insan*
Ключевые слова: *произведения Низами, наука, познание, природа, живой мир, сознательный человек*
Key words: *Nizami's works, science, cognition, nature, living world, conscious man*

Biliklərə tələbat insanın əsas xüsusiyyətlərindən biridir. Bütün insanlığın tarixi inkişafı biliklərin dəqiqləşdirilməsinin – daş alətlərin düzəldilməsindən, alovun əldə edilməsindən başlayaraq kompüter şəbəkəsində informasiyaların istifadə edilməsinə qədər sürətli bir inkişaf yolu keçmişdir. İnformasiya cəmiyyətində biliklərin dəyəri və onların əldə olunması metodları durmadan dəyişir.

XII - XVI əsrlərdə, xüsusən Nəsrəddin Tusi, Nəsimi, Füzuli yaradıcılığında psixoloji ideyalar daha qabarıq surətdə özünü göstərmiş, «Əxlaqi Nasiri» (N.Tusi), «Mətləül-etiqad», «Həqiqət-üs-süəda», «Hədisi-ərbəin» (Füzuli) kimi xüsusi fəlsəfi-psixoloji traktatlar yazılmışdır. Xüsusilə Nizami Gəncəvinin əsərlərində elm, idrak, öyrənmə məsələləri insanın ən mühüm xüsusiyyətlərindən biri kimi qiymətləndirilirdi. Nizami öz əsərlərində həyatın, insanlığın, elmin bütün cəhətlərinə nüfuz etmiş, onların mahiyyətini açmışdır. Nizaminin əsərlərində elm, idrak, ona yiyələnməyin faydaları haqqında çoxlu misallar vardır. Belə əsərləri yaradan dahi özü də dərin elmi biliyə və zəngin dünyagörüşə sahib olmuşdur. O, öz dövrünün elm adamlarının əsərlərindən xəbərdar idi. Bununla birlikdə öz dövründə elmlərin sirlərinə dərindən bələd olmuşdur. Ona görə də Nizami elmin insan həyatında rolunu başa düşmüş, onu qiymətləndirmiş və insanları elm, bilik sahibi olmağa, idraka çatmağa çağırmışdır. "İsgəndərnamə" əsərində Nizami Gəncəvi bildirirdi:

Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! Başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri-
Hamıdan ucadır alimin yeri!
Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan....

Nizami hökmdarlara elm adamları ilə ünsiyyət edərək cəmiyyəti idarə etməyi məsləht görürdü. Məsələn, Nizami "İsgəndərnamə" əsərində İsgəndərin dünya fatehi olmasına səbəb

kimi onun elm adamları, böyük filosoflardan məsləhət almasında görürdü. Hökmar həmişə elmə, elm adamlarına qiymət qoyur, dövlətin elmlə ucaldığını bildirirdi:

Aciz qaldığını özü görəndə
Axtardı əlacı müəllimində.
Gedib özü oldu ustada təslim,
Başladı almağa həvəslə təlim. (səh.55).

Nizami Gəncəvi insanlara dünyada mövcud olan elmlərin sirlərinə bələd olmağı təklif edirdi:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı...
Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkimi, daşı, heyvanı....

Öyrənmə fəaliyyəti təlimin bir komponenti olaraq insan tərəfindən şüurlu surətdə müəyyən bilikləri, vərdişləri və bacarıqları mənimsəmək məqsədini həyata keçirir. Öyrənmə insan fəaliyyətinin elə bir növüdür ki, o, psixi inkişafın müəyyən mərhələsində şüurlu surətdə öz maraqları çərçivəsində biliklər qazanır, hərəkətlərini idarə edir. Məlumdur ki, öyrənmə yalnız təlim prosesində deyil, ünsiyyət, əmək, oyun, müstəqil fəaliyyət zamanı da əldə edilir. Öyrənmədən gələn uğurlar isə insanları, xüsusən uşaqları ruhlandırır, onlarda özünə əminlik yaradır, qorxunu, stresi aradan qaldırır.

İdrak insanın yaradıcı fəaliyyəti olaraq ətraf aləm haqqında biliklərin əldə edilməsinə isiqamətlənir. İdrak insanın gündəlik həyatında onu sanki təbii olaraq istiqamətləndrir. İnsan bunun necə baş verdiyini hiss etmədən zəruri funksiyaları həyata keçirir və ona uyğun işlər görür, lakin bu təbii proses də düşünmədən, sistemsiz və məqsədsiz getmir.

Tez-tez idrak insandan öz düzgünlüyünə əmin olmağını və xüsusi cəsarət göstərməsini tələb edir. Bu mənadə götürsək deyə bilərik ki, idrak sosial təbiətə malikdir. O, cəmiyyətin daxili tələbləri, insanların məqsədləri, dəyərləri və inamı ilə şərtləşir. İdrak fəaliyyət olduğu üçün onun fəaliyyətin digər növləri ilə də ümumi cəhətləri (əməklə, təlimlə, ünsiyyətlə və s.) mövcuddur.

Təlim mürəkkəb və çoxsahəli, xüsusi təşkil olunmuş proses kimi spesifik idrak prosesidir. Öyrənmə, əsasən, müəllim tərəfindən idarə edilir. Təlim materialının mükəmməl öyrədilməsi məhz müəllimin səyi ilə həyata keçirilir və bununla da uşaqlarda əqli və yaradıcı qabiliyyətlər inkişaf edir. Öyrənənlərə hər hansı bir məlumatı verərkən və yaxud qarşısına çıxan problemi həll etməyi, situasiyadan çıxmağı təklif edərkən müəllim onun dünyagörüşünü genişləndirir, sosial, ideoloji, əqli keyfiyyətlərini formalaşdırır. Ona görə də öyrənmə həm də tərbiyəvi xarakter daşıyır. Nizami Gəncəvi irsindən belə qənaətə gəlmək olar ki, insanın əldə etdiyi ən böyük var-dövlət onun həyatda bilik əldə etməsidir. Elm insana baş ucalığı gətirir, onu vüqarlı edir. Biliksiz insanı məğlub etmək asan olur.

Nizaminin əsərlərində aləm, canlı təbiət, şüurlu insan, onun yaranışı, idarə olunması kimi idraki məsələləri araşdırılmışdır. Şair "Leyli və Məcnun" əsərində sualı belə qoyur:

Görək kim yaratmış bu təbiəti,
O kimdir, işinin nədir hikməti....
Hər şey öz-özünə necə düzəldi,
Bax, nə cür kainat əmələ gəldi...

Belə suallar Nizaminin başqa əsərlərində də verilmişdir. "İsgəndərnamə" əsərinin "İsgəndərin yeddi alimlə xəlvətə çəkilməsi" hissəsində dünya fatehi İsgəndər yeddi filosofa müraciət edərək dünyanın necə yarandığını soruşur. O filosoflara ki, onların bir çoxunun adları bu gün də elmdə hörmətlə çəkilir: Ərəstun, Fales, Bəlinas, Sokrat, Fərfuryus, Hürmüz və Əflatun. Ərəstun dünyanın mövcudluğunu hərəkət edən cismin küləyin yaranması ilə, Fales su və od ilə, Bəlinas torpağın, Sokrat bulud, yağışın, Fərfuryus su və torpağın birinci yaranması ilə izah etmişlər. Hürmüz tərəddüdlə tüstü pərdəsində ulduzlarin birinci yarandığını desə də sonda -bilmirəm nə sayaq olmuş ilk xilqət, söyləmişdir. Əflatun isə varlığın yaranmasını Allahın adı ilə bağlamışdır:

Yoxdan yaranmış bütün varlıqlar,
Vardan yaratsaydı varı yaradan,
Əbədi qalardı mayə hər zaman. (səh.105)

Belə qənaətə gəlmək olar ki, Nizaminin o dövrdə elmi şəkildə əsaslandırdığı əvvəl kainatın, təbiətin, canlı aləmin, sonra isə şüurlu insanın yaranması fikri bu gün də öz əhəmiyyətini saxlayır. Nizami həyatın əmələ gəlməsini hərəkətlə bağlayırdı, elə bir hərəkətlə ki, istər yerin, istərsə də canlıların mövcudluğu məhz onunla bağlıdır. Hərəkət yoxdursa, həyat da yoxdur. Nizamiyə görə hərəkət dəyişmələrindən həyat yaranmışdır:

Qeybdən səs gəldi: - Nizami, dayan!
Boş-boşuna deyil bunca hərəkət,
Bir məqsədi vardır, onların əlbət.
Hər bir hərəkəti törədən vardır,
Ağıllı insana bu aşikardır.

Məqalənin aktuallığı: məqalənin elmin, insanın idraka çatmasının həyat üçün əhəmiyyətindən bəhs etməsi mövzunun aktuallığını şərtləndirir.

Məqalənin elmi yeniliyi: Nizami əsərlərinin dünyanın elmi cəhətdən dərk edilməsinin müasir mövqedən araşdırılması məqalənin elmi yeniliyini təşkil edir.

Məqalənin nəzəri və praktik əhəmiyyəti: məqalədən magistrantlar, müəllimlər və bakalavriat səviyyəsində təhsil alanlar faydalana bilərlər.

Ədəbiyyat

1. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, 2004. 256 səh.
2. Nizami Gəncəvi - Sirlər Xəzinəsi. Bakı, 2004. 79 səh.
3. Hüseynov X. Nizaminin “Sirlər Xəzinəsi”, Bakı, 1983. 171 səh.
4. Həsənova P.M. Məktəbəqədər təhsil müəssisələrində öyrənmə-idrak fəaliyyəti. Bakı, 2017. 145 səh.

XÜLASƏ

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Nizami Gəncəvinin yubileyləri həmişə dövlət səviyyəsində tənytənə ilə qeyd olunub. Dünya durduqca yaşayacaq Nizami öz əsərlərində həyatın, insanlığın, elmin bütün cəhətlərinə nüfuz etmiş, onların mahiyyətini açmışdır. Nizaminin əsərlərində elm, idrak, ona yiyələnməyin faydaları haqqında çoxlu misallar vardır. Məqalədə də dahi sənətkarın əsərlərində elm, idrak məsələləri araşdırılmışdır.

РЕЗЮМЕ

В 2021 году будет отмечаться 880-летие со дня рождения великого поэта и мыслителя Низами Гянджеви. Юбилеи Низами Гянджеви всегда отмечали на государственном уровне. Низами, который будет жить до тех пор, пока мир стоит на месте, в своих произведениях проник во все стороны жизни, человечества и науки, раскрывая их сущность. В работах Низами есть много примеров о науке, познании и пользе их освоения. В статье такжерассматриваются научные и познавательные вопросы в творчестве великого поэта.

SUMMARY

In 2021, the 880th anniversary of the birth of the great poet and thinker Nizami Ganjavi will be celebrated. Nizami Ganjavi's anniversaries have always been celebrated at the state level. Nizami, who will live as long as the world stands still, has penetrated all aspects of life, humanity and science in his works, revealing their essence. There are many examples in Nizami's works about science, cognition, and the benefits of mastering it. The article also examines science and cognitive issues in the works of the great artist.

Həşimli Aytac
ADPU, məktəbəqədər təlim və tərbiyə, magistrant
Elmi rəhbər: p.ü.e.d.,prof M. İlyasov

UŞAQ HÜQUQLARININ KONVENSİYASI – MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ YERİ

Açar sözlər: *təhsil,uşaq, hüquq, məktəbəqədər, qorumaq, müəssisə*
Ключевые слова: *образование,дети,закон, дошкольный,защищать, предприятие*
Key words: *education,child, law, preschool, to protect, enterprise*

Azərbaycanda uşaqlarla bağlı siyasətin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə önəmli beynəlxalq konvensiya və protokollar ratifikasiya edilərək qüvvəyə minmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ilk qoşulduğu beynəlxalq sənədlər arasında uşaqlarla bağlı olanları da var. Azərbaycan 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına, 2002-ci ildə isə Konvensiyanın iki əlavə protokoluna qoşulub. Bu gün Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı Uşaq Hüquqları Konvensiyası uşaq hüquqları sahəsində qəbul edilmiş sənədlərlə müqayisədə ən dolğun və bu hüquqların beynəlxalq hüquq normaları qüvvəsində qəbul olunmuş ilk sənəddir. Konvensiyada insan hüquqlarının tərkib hissəsi kimi uşaqlar üçün bəyan edilmiş hüquqlar şərti olaraq 4 qrupa bölünür:

Yaşamaq hüququ – uşaqların yaşamaq hüququnu və yaşamaq üçün zəruri olan tələbatlarını əhatə edir. Bura müvafiq həyat standartları – sığınacaq, qida və tibbi yardım almaq imkanları daxildir. İnkişaf hüququ – özünün ən yüksək inkişaf potensialına nail olmaq üçün uşaqların ehtiyacları olduğu hüquq və azadlıqlardan ibarətdir. Bura daxildir: təhsil hüququ, asudə vaxt, oyunlar,mədəni fəaliyyət, informasiya almaq azadlığı, habelə fikir, vicdan və dini əqidə azadlığı. Müdafiə hüququ – uşağın pis rəftardan, hörmətsizlikdən, istismardan müdafiəsini təşkil edir. Bu hüquqlar qrupu qaçqın uşaqlara xüsusi qayğı göstərilməsi, onların silahlı münaqişələrə cəlb edilməsi, narkotik maddələrdən istifadə, uşaq əməyi, habelə uşaqların cinsi, seksual istismarı kimi məsələləri əhatə edir. İştirak etmək hüququ – uşaqlara öz cəmiyyət və təşkilatlarında iştirak etməyə, birləşməyə imkan verir. Bu hüquqlar qrupu aşağıdakı azadlıqları əhatə edir: fikri sərbəst ifadə etmə, öz həyatı barədə rəy söyləmə, ictimai təşkilatlara qoşulma, dinc yığıncaqlar keçirmə. Bu hüquqlar qrupu uşaqlara öz qabiliyyətləri qədərində cəmiyyətin həyatında iştirak etməyə imkan verir, habelə onlara fəal vətəndaş vərdişlərini aşılayır.

Konvensiya uşaqların əsas hüquqlarını təmin etsə də, o heç də valideynləri uşaqlar üçün nəyin yaxşı olduğuna qərar vermək hüququndan məhrum etmir. Əksinə Konvensiya, valideynlərə uşaqları böyütmək və inkişaf etdirmək kimi ən əsas vəzifələrini yerinə yetirməyə çağırır. Uşaq hüquqlarının təbliği onları yaşlı insanlarla, valideynlərlə qarşı-qarşıya qoymaq və aralarında münaqişə yaratmaq məqsədini daşımır. O,bütün vətəndaşları uşaqların sağlam, təhlükəsiz və produktiv gələcəyi üçün çalışmağa çağırır. Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmizlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.

Bu vəzifələrin uşaqlar tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail

olunur. 1998-ci ildə ölkəmizdə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasının müddəalarını özündə əks etdirən V fəsil 45 maddədən ibarət "Uşaq Hüquqları haqqında" Qanun qəbul edilmişdir. 1999-cu ildə isə 10 maddədən ibarət "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanun qəbul edilmişdir.Uşaqlıq dövrü bir çox amilin qarşılıqlı təsiri ilə qurulmuş çoxölçülü bir anlayışdır. Böyümə və inkişaf mərhələsi olmasına baxmayaraq eyni zamanda ictimai və siyasi bir vəziyyətdir. Uşaqlıq, bütün uşaqların ümumi, fiziki və inkişaf qanunauyğunluqları ilə xarakterizə olunan sürətli inkişaf mərhələsidir. Doğuşdan səkkiz yaşa qədər olan dövr fiziki böyümə, öyrənmə və inkişaf sürəti baxımından uşağın həyatındakı ən əsas formalaşma mərhələsini əks etdirir. Bu dövr, yetkin həyatdakı xaos üçün əsas hazırlıqdır. Beləliklə, uşaq tədricən cəmiyyətdə formalaşmağa başlayır.

Bu hüquqlar uşağın fiziki, zehni, emosional, sosial və mənəvi inkişafını təmin etmək üçün qanuni qaydalarla qorunan başlıca prinsiplərdir. 20 Noyabr 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasına daxil olan uşaq hüquqlarına; həyati hüquqlar, inkişaf hüquqları, qoruma hüquqları və iştirak hüquqları daxildir. Yaşamaq hüququna, uyğun yaşayış standartı, tibbi xidmətə, bəslənməyə və mənzilə sahib olmaq kimi uşağın əsas ehtiyaclarını təmin edən hüquqlar daxildir. İnkişaf hüququna uşağın özünü həyata keçirməsi üçün zəruri olan təhsil, oyun və istirahət, məlumat, din, vicdan və düşüncə azadlığı daxildir.Müdafiə hüququna, uşağı hər cür laqeydlik və istismara qarşı qoruyan hüquqlar daxildir. Bundan əlavə, uşağın fikirlərini dilə gətirməsi, onu maraqlandıran məsələlərdə, qərarlarda iştirak etməsi, ailədə və cəmiyyətdə aktiv rol qazanmasını təmin edən hüquqları vardır. Müqavilədə; ayrı-seçkiliyin qarşısının alınması, bərabərlik, ədalət, uşağın mənafelərinə hörmət, uşaqlara sevgi, tolerantlıq, uşaqla əlaqəli proseslərdə iştirak və onun fikirlərini nəzərə almaq əsas prinsiplərdir.

Uşaqların ən əsas hüquqlarından biri olan təhsil almaq hüququ məktəbəqədər təhsil müəssisələrində də təmin olunur. Burada təhlükəsiz şəraitdə təhsil almaqdan, şəxsiyyət kimi formalaşmağa qədər bütün məqsədlər planlı və dövlət nəzarətində həyata keçirilir:

1. Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələri fasiləsiz milli təhsilin həyata keçirilməsində ilkin pillə olmaqla milliyətindən, cinsindən, dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında yaşayan bütün məktəbəqədər yaşlı uşaqların (valideynlərin arzusuna uyğun olaraq) tərbiyəsi və təhsilə hazırlanması ilə məşğul olur.

2. Mətəbəqədər tərbiyə müəssisələrini dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, bütün mülkiyyət formalarından olan yerli və xarici birliklər, hüquqi şəxslər, ictimai birlik və təşkilatlar, ayrı-ayrı vətəndaşlar təşkil edə bilər.

3. Məktəbəqədər tərbiyə müəssisələri tabeliyindən asılı olmayaraq uşaqların ictimai tərbiyəyə cəlb edilməsində ailə və cəmiyyətin tələbatını ödəyir, milli və ərazi xüsusiyyətlərinə uyğun olaraq məktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini təmin edir.

4. Məktəbəqədər tərbiyə müəssisələri öz fəaliyyətində Azərbaycan Respublikasının "Təhsil haqqında Qanunu"nu, qanunvericilik və digər normativ aktları, habelə bu Əsasnaməni və öz Nizamnaməsini rəhbər tutur.

5. Məktəbəqədər tərbiyə müəssisələri uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun tərbiyə-təlim prosesinin təşkili, onların sağlamlığının mühafizəsi, ilkin təhsilə hazırlanması üçün təhsil orqanları, valideynlər və ictimaiyyət qarşısında məsuliyyət daşıyır.

6. Dövlət məktəbəqədər tərbiyə müssisələrinin inkişafı üçün təminat verir, tərbiyə və təlimin məzmununu müəyyənləşdirir, onların zəruri maddi-texniki ehtiyaclarını ödəyir, kadrlarla, proqramlarla, tədris-metodiki ədəbiyyatlarla, oyun avadanlıqları ilə təmin edir.

7. Məktəbəqədər müəssisələrdə təlim dövlət dilində aparılır. Tərbiyə-təlim prosesinin başqa dildə aparılması validenlərin (onları əvəz edən şəxslərin) arzuları, yerli imkanlar, pedaqoji kadr və tədris təminatı nəzərə alınmaqla, məktəbəqədər tərbiyə müəssisəsi tərəfindən həll edilir.

8. Tərbiyə alan uşaqların maraq, qabiliyyət və istedadlarının inkişaf etdirilməsi üçün lazımi şərait və imkan yaratmaq məqsədilə müxtəlif növ məktəbəqədər tərbiyə müəssisələri

yaradıla bilər. Belə müəssisələr təsisçinin təsdiq etdiyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qeydə alınmış nizamnamə əsasında fəliyyət göstərir.

Beləliklə deyə bilərikki, bu gün Azərbaycanda fəailyyət göstərən məktəbəqədər təhsil müəssisələrində uşaq hüquqlarının qorunması üçün lazımı şərait yaradılmışdır. Dövlətin lazımı dəstəyi və qayğısı bu müəssisələrdə uşaqların təhlükəsiz şəraitdə, müsbət mühitdə formalaşmasına zəmanət verməkdədir. Müəssisələrdə müasir plan və proqramların, təlim üsullarının reallaşdırılması üçün gərəkli təlim mühitinin qurulması məsuliyyəti müəssisə kollektivinin üzərinə düşür. Bu gün müəssisələrdə daha çox təkmilləşdirilmələr bu sahələr üzrə aparılmalı, dövlətimizin müəyyən etidiyi plan və proqramlar lazımı səviyyədə həyata keçirilməlidir.

Ədəbiyyat

1. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu: [19 may 1998-ci il, №499-IQ]: əlavə və dəyişikliklərlə. Bakı: Qanun, 2002.- 14 s

2. Valideynlər üçün yaddaş /tərt. ed.: S.Abdullayeva, P.Məmmədbəyli; M.Mürşüdlü.- Bakı, 2002.- 36 s

Həşimli Aytac
ADPU, məktəbəqədər təlim və tərbiyə, magistrant
Elmi rəhbər: p.ü.e.d., prof. M. İlyasov

MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ UŞAQ HÜQUQLARININ KONVENSİYASININ NƏZƏRƏ ALINMASI

Açar sözlər: *təhsil, uşaq, hüquq, məktəbəqədər, qorumaq, müəssisə*
Ключевые слова: *образование,дети, закон, дошкольный, защищать, предприятие*
Key words:*education, child, law, preschool, to protect, enterprise*

Azərbaycanda uşaqlarla bağlı siyasətin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə önəmli beynəlxalq konvensiya və protokollar ratifikasiya edilərək qüvvəyə minmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ilk qoşulduğu beynəlxalq sənədlər arasında uşaqlarla bağlı olanları da var. Azərbaycan 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına, 2002-ci ildə isə Konvensiyanın iki əlavə protokoluna qoşulub. Bu gün Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı Uşaq Hüquqları Konvensiyası uşaq hüquqları sahəsində qəbul edilmiş sənədlərlə müqayisədə ən dolğun və bu hüquqların beynəlxalq hüquq normaları qüvvəsində qəbul olunmuş ilk sənəddir. Konvensiyada insan hüquqlarının tərkib hissəsi kimi uşaqlar üçün bəyan edilmiş hüquqlar şərti olaraq 4 qrupa bölünür:

Yaşamaq hüququ – uşaqların yaşamaq hüququnu və yaşamaq üçün zəruri olan tələbatlarını əhatə edir. Bura müvafiq həyat standartları – sığınacaq, qida və tibbi yardım almaq imkanları daxildir.

İnkişaf hüququ – özünün ən yüksək inkişaf potensialına nail olmaq üçün uşaqların ehtiyacları olduğu hüquq və azadlıqlardan ibarətdir. Bura daxildir: təhsil hüququ, asudə vaxt, oyunlar, mədəni fəaliyyət, informasiya almaq azadlığı, habelə fikir, vicdan və dini əqidə azadlığı.

Müdafiə hüququ – uşağın pis rəftardan, hörmətsizlikdən, istismardan müdafiəsini təşkil edir. Bu hüquqlar qrupu qaçqın uşaqlara xüsusi qayğı göstərilməsi, onların silahlı münaqişələrə cəlb edilməsi, narkotik maddələrdən istifadə, uşaq əməyi, habelə uşaqların cinsi, seksual istismarı kimi məsələləri əhatə edir.

İştirak etmək hüququ – uşaqlara öz cəmiyyət və təşkilatlarında iştirak etməyə, birləşməyə imkan verir. Bu hüquqlar qrupu aşağıdakı azadlıqları əhatə edir: fikri sərbəst ifadə

etmə, öz həyatı barədə rəy söyləmə, ictimai təşkilatlara qoşulma, dinc yığıncaqlar keçirmə. Bu hüquqlar qrupu uşaqlara öz qabiliyyətləri qədərində cəmiyyətin həyatında iştirak etməyə imkan verir, habelə onlara fəal vətəndaş vərdişlərini aşılayır.

Konvensiya uşaqların əsas hüquqlarını təmin etsə də, o heç də valideynləri uşaqlar üçün nəyin yaxşı olduğuna qərar vermək hüququndan məhrum etmir. Əksinə Konvensiya, valideynlərə uşaqları böyütmək və inkişaf etdirmək kimi ən əsas vəzifələrini yerinə yetirməyə çağırır. Uşaq hüquqlarının təbliği onları yaşlı insanlarla, valideynlərlə qarşı-qarşıya qoymaq və aralarında münaqişə yaratmaq məqsədini daşımır. O, bütün vətəndaşları uşaqların sağlam, təhlükəsiz və produktiv gələcəyi üçün çalışmağa çağırır. Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmizlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.

Bu vəzifələrin uşaqlar tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur. 1998-ci ildə ölkəmizdə BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyasının müddəalarını özündə əks etdirən V fəsil 45 maddədən ibarət "Uşaq Hüquqları haqqında" Qanun qəbul edilmişdir. 1999-cu ildə isə 10 maddədən ibarət "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanun qəbul edilmişdir. Uşaqlıq dövrü bir çox amilin qarşılıqlı təsiri ilə qurulmuş çoxölçülü bir anlayışdır. Böyümə və inkişaf mərhələsi olmasına baxmayaraq eyni zamanda ictimai və siyasi bir vəziyyətdir. Uşaqlıq, bütün uşaqların ümumi, fiziki və inkişaf qanunauyğunluqları ilə xarakterizə olunan sürətli inkişaf mərhələsidir. Doğuşdan səkkiz yaşa qədər olan dövr fiziki böyümə, öyrənmə və inkişaf sürəti baxımından uşağın həyatındakı ən əsas formalaşma mərhələsini əks etdirir. Bu dövr, yetkin həyatdakı xaos üçün əsas hazırlıqdır. Beləliklə, uşaq tədricən cəmiyyətdə formalaşmağa başlayır.

Bu hüquqlar uşağın fiziki, zehni, emosional, sosial və mənəvi inkişafını təmin etmək üçün qanuni qaydalarla qorunan başlıca prinsiplərdir. 20 Noyabr 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasına daxil olan uşaq hüquqlarına; həyati hüquqlar, inkişaf hüquqları, qoruma hüquqları və iştirak hüquqları daxildir. Yaşamaq hüququna, uyğun yaşayış standartı, tibbi xidmətə, bəslənməyə və mənzilə sahib olmaq kimi uşağın əsas ehtiyaclarını təmin edən hüquqlar daxildir. İnkişaf hüququna uşağın özünü həyata keçirməsi üçün zəruri olan təhsil, oyun və istirahət, məlumat, din, vicdan və düşüncə azadlığı daxildir. Müdafiə hüququna, uşağı hər cür laqeydlik və istismara qarşı qoruyan hüquqlar daxildir. Bundan əlavə, uşağın fikirlərini dilə gətirməsi, onu maraqlandıran məsələlərdə, qərarlarda iştirak etməsi, ailədə və cəmiyyətdə aktiv rol qazanmasını təmin edən hüquqları vardır. Müqavilədə ayrı-seçkiliyin qarşısının alınması, bərabərlik, ədalət, uşağın mənafelərinə hörmət, uşaqlara sevgi, tolerantlıq, uşaqla əlaqəli proseslərdə iştirak və onun fikirlərini nəzərə almaq əsas prinsiplərdir.

Uşaqların ən əsas hüquqlarından biri olan təhsil almaq hüququ məktəbəqədər təhsil müəssisələrində də təmin olunur. Burada təhlükəsiz şəraitdə təhsil almaqdan, şəxsiyyət kimi formalaşmağa qədər bütün məqsədlər planlı və dövlət nəzarətində həyata keçirilir:

1. Azərbaycan Respublikası məktəbəqədər tərbiyə müəssisələri fasiləsiz milli təhsilin həyata keçirilməsində ilkin pillə olmaqla milliyətindən, cinsindən, dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında yaşayan bütün məktəbəqədər yaşlı uşaqların (valideynlərin arzusuna uyğun olaraq) tərbiyəsi və təhsilə hazırlanması ilə məşğul olur.

2. Mətəbəqədər tərbiyə müəssisələrini dövlət orqanları, müəssisə, idarə və təşkilatlar, bütün mülkiyyət formalarından olan yerli və xarici birliklər, hüquqi şəxslər, ictimai birlik və təşkilatlar, ayrı-ayrı vətəndaşlar təşkil edə bilər.

3. Məktəbəqədər tərbiyə müəssisələri tabeliyindən asılı olmayaraq uşaqların ictimai tərbiyəyə cəlb edilməsində ailə və cəmiyyətin tələbatını ödəyir, milli və ərazi xüsusiyyətlərinə uyğun olaraq məktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini təmin edir.

4. Məktəbəqədər tərbiyə müəssisələri öz fəaliyyətində Azərbaycan Respublikasının "Təhsil haqqında Qanunu"nu, qanunvericilik və digər normativ aktları, habelə bu Əsasnaməni və öz Nizamnaməsini rəhbər tutur.

5. Məktəbəqədər tərbiyə müəssisələri uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun tərbiyə-təlim prosesinin təşkili, onların sağlamlığının mühafizəsi, ilkin təhsilə hazırlanması üçün təhsil orqanları, valideynlər və ictimaiyyət qarşısında məsuliyyət daşıyır.

6. Dövlət məktəbəqədər tərbiyə müssisələrinin inkişafı üçün təminat verir, tərbiyə və təlimin məzmununu müəyyənləşdirir, onların zəruri maddi-texniki ehtiyaclarını ödəyir, kadrlarla, proqramlarla, tədris-metodiki ədəbiyyatlarla, oyun avadanlıqları ilə təmin edir.

7. Məktəbəqədər müəssisələrdə təlim dövlət dilində aparılır. Tərbiyə-təlim prosesinin başqa dildə aparılması validenlərin (onları əvəz edən şəxslərin) arzuları, yerli imkanlar, pedaqoji kadr və tədris təminatı nəzərə alınmaqla, məktəbəqədər tərbiyə müəssisəsi tərəfindən həll edilir.

8. Tərbiyə alan uşaqların maraq, qabiliyyət və istedadlarının inkişaf etdirilməsi üçün lazımi şərait və imkan yaratmaq məqsədilə müxtəlif növ məktəbəqədər tərbiyə müəssisələri yaradıla bilər. Belə müəssisələr təsisçinin təsdiq etdiyi və Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qeydə alınmış nizamnamə əsasında fəliyyət göstərir.

Beləliklə, deyə bilərik ki, bu gün Azərbaycanda fəailyyət göstərən məktəbəqədər təhsil müəssisələrində uşaq hüquqlarının qorunması üçün lazımı şərait yaradılmışdır. Dövlətin lazımı dəstəyi və qayğısı bu müəssisələrdə uşaqların təhlükəsiz şəraitdə, müsbət mühitdə formalaşmasına zəmanət verməkdədir. Müəssisələrdə müasir plan və proqramların, təlim üsulları-nın reallaşdırılması üçün gərəkli təlim mühitinin qurulması məsuliyyəti müəssisə kollektivinin üzərinə düşür. Bu gün müəssisələrdə daha çox təkmilləşdirilmələr bu sahələr üzrə aparılmalı, dövlətimizin müəyyən etidiyi plan və proqramlar lazımı səviyyədə həyata keçirilməlidir.

Ədəbiyyat

1. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu: [19 may 1998-ci il, №499-IQ]: əlavə və dəyişikliklərlə.- Bakı: Qanun, 2002.

2. Valideynlər üçün yaddaş /tərt. ed.: S.Abdullayeva, P.Məmmədbəyli; M.Mürşüdlü.- Bakı, 2002.

Nuriyeva Aygül Tahir qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: dos. H.A.Cəfərov

CƏMİYYƏTDƏ SAĞLAM HƏYAT TƏRZİ NORMALARI

Açar sözlər: *sağlamlıq, idman, düzgünqidalanma, ətraf mühit*
Ключевые слова: *здоровье,спорт,правильное питание,окружающая среда*
Key words: *healthy,sports,proper nutrition,environment*

İnsanların dünyada normal həyatı və fəaliyyəti üçün bir çox amillərin yerində olması vacibdir. Bunlardan ən əsası insanların sağlamlığıdır. İnsan sağlamlığı heç bir başqa dəyərlərlə müqayisə edilməyən bir nemətdir. Daha qədimdən indiyə qədər sağlamlıq haqqında bir çox hikmətli sözlər, aforizmlər deyilmişdir.Bunlardan bir neçəsinə nümunə göstərsək: Kim sağlamdırsa, o gəncdir. (Bon Luis Pol), Sağlam deyilsənsə, yediyin bal da zəhər dadacaq. İki şeyin əldən getmədən qiymətini dəyərləndirmək çətindir: biri sağlamlıq, biri də gənclikdir. (Həzrət Əli) (r.a), İnsanlar öncə pul qazanmaq üçün sağlamlıqlarını sərf edirlər, sonra da sağlamlıqlarını qorumaq üçün pullarını xərcləyirlər. (Hote). Deyilənlərdən göründüyü kimi, qə-

dimdən indiki dövrə qədər insanların sağlamlığı diqqət mərkəzində olmuşdur. İnsan bədəni sağlam olmadıqca normal fəaliyyət və inkişaf mümkün deyil.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) sağlamlığa belə bir tərif vermişdir: "Sağlamlıq fiziki, əqli və sosial rifahın bütöv bir şəkildə mövcud olması, xəstəliklərin və bəlanın insan bədənindən uzaq olmasıdır."

İnsanın sağlamlığı bir neçə amillərdən asılıdır, hansı ki bu amillər sağlamlığa ciddi təsir göstərir.Bunlardan ən əsası insanın öz daxili səhhəti ilə onu müəyyən edən kənar amillərin qarşılıqlı əlaqəsidir. Əsas məsuliyyət hər bir fərdin öz üzərinə düşür və hər bir şəxs öz sağlamlığını özü təmin etməlidir.

Sağlamlığın təmin edilməsi üç amilin - fiziki, əqli və sosial rifahın müxtəlif kombinasiyası şəklində həyata keçirilir və birlikdə "sağlamlıq üçbucağı" adlanır. Fiziki sağlamlıq dedikdə insanların sağlam bədənə malik olması nəzərdə tutulur. Fiziki sağlamlığı qorumaq üçün müntəzəm olaraq fiziki fəaliyyətlə məşğul olmaq (idman), düzgün qidalanmaq və normal istirahət etmək lazımdır.

Əqli sağlamlıq dedikdə insanların əqli pozğunluqlarının olmamaması başa düşülür.

Sosial ünsürlərə insanların yoxsulluq dərəcəsi, keyfiyyətli təhsil alması, səmərəli və təmiz ətraf mühitdə yaşaması daxildir.

Ümumilkdə sağlam həyat tərzi ətraf mühitdən, sosial həyatdan ,səhiyyə sistemindən, düzgün qidalanmadan, normal yuxu rejimindən, hərəkət fəallığından və. s. amillərdən asılıdır.

İnsanlara, onlarınsağlamlığı üçün sağlam və təhlükəsiz ətraf mühit zəruridir. Yaşadığımız dövrdə ətraf mühit amili və ətraf mühitin insan həyatına geniş təsiri danılmaz bir faktdir. Xüsusilə şəhərlərdə çirklənmiş su, ərzaq və atmosfer, karbon qazı, yüksək radiasiya və digər vasitələr sağlamlığa ciddi təsir göstərir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, dünyada baş verən xəstəliklərin 24%-i və ölüm hallarının (erkən ölümlərin) 23%-i ətraf mühit amillərinin təsiri nəticəsində baş verir. Sağlamlığımızı qorumaq üçün ətraf mühiti çirklənmədən qorumağa çalışmalıyıq.

İnsanın sağlamlığına müsbət təsir göstərən amillərdən biri də idmanla məşğul olmaqdır. İdman insanların sağlamlığına xidmət edən ən mühüm amil, uşaq və gənclərin mənəvi tərbiyəçisidir. İdman fiziki və mənəvi tərbiyənin formalaşmasında, sağlamlığın qorunması və bərpası yolunda cəmiyyət üçün "yaşıl işıq" rolunu oynayır. İdman həm də insanları psixoloji sarsıntılardan qoruyan vasitədir. Mütəxəssislərin fikrincə, mənfi elementlərin orqanizmə təsiri bəzən o qədər böyük olur ki, orqanizmin özünü bu təsirlərdən qorumağa gücü çatmır. Bu cür hallarla rastlaşan on minlərlə insanın təcrübəsi sübut edir ki, mənfi təsirlərə qarşı ən yaxşı mübarizə üsulu məhz idman, fiziki tərbiyədir. İdman hərəkətləri orqanizmin bərpasına, möhkəmlənməsinə yardım edir. İdmandan bəzi xesteliklərin müalicəsində istifadə olunur. Misal olaraq, tibb sahəsində yazılmış "Sinirlərin məşqi" kitabında nevrozların müalicəsində idmanın istifadəsi haqqında geniş məlumat verilmişdir.

Hərəkət həyatdır. Aktiv həyat tərzi insanı daha enerjili edir, bu da hüceyrələrin cavanlaşmasına və metabolizmaya təsir göstərir. Dahi rus alimi Pavlov deyirdi:"Təbiətin ən ali məhsulu olan insan ən mürəkkəb və ən zərif sistemdir. Lakin təbiətin sərvətindən istifadə etmək üçün insan sağlam, qüvvətli və ağıllı olmalıdır. Bunun üçün də mütəmadi olaraq idmanla məşğul olmalıdır".

Sağlamlığa təsir göstərən amillərdən biri də düzgün qidalanmaqdır. Düzgün qidalanma dedikdə bədənin normal funksiyası üçün lazım olan enerjinin qida vasitəsi ilə alınmasıdır. Qidalanmanın balanslı şəkildə aparılması insan sağlamlığının əsas meyarlarından biridir.Buna baxmayaraq hərkəs düzgün qidalanmır. Bəzi insanlarda yoxsulluq səbəbindən qidalanmada problem olduğundan, digərlərində isə qidalanma üçün resursları olduğu halda ondan düzgün istifadə edə bilmir. Həddindən artıq və ya həddindən az qida qəbul etmək bədəndə ciddi fəsadlar törədə bilər. Düzgün qidalanmamaq nəticəsində həddən artıq piylənmə, diabet xəstəlikləri, ürək damar xəstəlikləri, hipertaniya, insult yarana bilər. Əhali arasında yüksək təzyiq və ya hipertaniyadan əziyyət çəkənlərin sayı çoxdur. 40 yaşından yuxarı kişilərin və qadınların

üçdə birində hipertaniya xəstəliyi mövcuddur. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, Azərbaycan əhalisinin 25 faizi piylənmədən əziyyət çəkir. Nəticə olaraq insanlar həll yolunu pəhriz saxlamaqda görürlər. Lakin Mütəxəssislər deyir ki, pəhriz əvəzinə düzgün qidalanmanı tətbiq etsək bu problemlərdən heç biri ilə qarşılaşmarıq. Çünki düzgün qidalanma insanların həyat və fəaliyyətinə təsir edən ən mühüm amillərdən biridir.

Bunlarla yanaşı sağlam həyat tərzi üçün normal yuxu rejimi, gigiyena qaydalarına riayət etmək, zərərli vərdişlərdən uzaq olmaq, həmçinin qurulan ünsiyyət və.s kimi amillər daxildir. Araşdırmalar göstərirki, bir siqaret insanın ömründən 4 dəqiqə məhv edir. Siqaret çəkmək təkcə onu qəbul edən insana yox, həmçinin də onun əhatəsində olan insanlara da mənfi təsir edir.

Müsbət fikirlər və nikbin əhvali-ruhiyyə sağlamlıq üçün əhəmiyyətlidir.Sağlamlıq üçün qurduğumuz ünsiyyətə də diqqət etmək lazımdır. Elmi təcrübələr göstərir ki, optimistlər daha uzun və xoşbəxt ömür sürürlər.

Hər bir insan sağlamlığını qorumaq üçün qaydalara əməl etməyə çalışmalıdır.

Beləliklə, yaşadığımız cəmiyyətdə sağlamlığı təmin etmək üçün ilk növbədə özümüzdən və öz ətrafımızdan başlamalıyıq. Sosial məsuliyyət hissi duymaq hər bir vətəndaşın borcudur.

Ədəbiyyat

1. Ocaqov H.O. Zərərli maddələr və onlardan mühafizə. Dərs vəsaiti. Bakı, Maarif, 1998

2.Sərxanlı N.F Sağlam həyat tərzinin mahiyyəti haqqında.

3.Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə. Dərs vəsaiti. Bakı, Hərbi, 1996

4.İnternet resursları.

Nuriyeva Aygül Tahir qızı

Cəmiyyətdə sağlam həyat tərzi normaları

XÜLASƏ

Elmi məqalədə sağlam həyat tərzinin əsas amilləri qeyd edilmiş, sağlamlığa təsir göstərən səbəblərin bir neçəsi göstərilmişdir. Həmçinin sağlamlığı qorumaq yolları qeyd edilmişdir.

Нуриева Айгюль Тахир

Нормы здорового образа жизни в обществе

РЕЗЮМЕ

В научной статье освещены основные факторы здорового образа жизни и некоторые причины, влияющие на здоровье. Такжеупоминаютсяспособызащитыздоровья.

Nuriyeva Aygul Tahir

SUMMARY

The scientific article highlights the main factors of a healthy lifestyle and some of the reasons that affect health. Ways to protect health are also mentioned.

Həmidli Aytən Əzizağa qızı
ADPU, Pedaqogika nəzəriyyəsi və tarixi, II kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d., dosent H.A.Cəfərov

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN YAŞ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *yaş dövrünün xüsusiyyətləri, xarakter, məktəbəqədər, psixoloji və pedaqoji cəhətləri*

Ключевые слова: *характеристики возрастного периода, характер, дошкольное образование, психолого-педагогические аспекты*

Key words: *characteristics of the age period, character, preschool, psychological and pedagogical aspects*

Müasir məktəbəqədər təhsilin prioritetləri ahəngdar, fiziki və mənəvi cəhətdən sağlam, zəngin, eləcə də, estetik cəhətdən inkişaf etmiş bir şəxsiyyətin formalaşdırılmasını təmin edən şəraitin yaradılmasının zərurəti ilə müəyyən edilir.

Milli məktəbəqədər təhsil müəssisələri qarşısındakı əsas vəzifələrdən biri yaradıcı, rəqabətəqabil, sağlam bir şəxsiyyətin formalaşdırılmasına imkan verən məqsədyönlü təhsil fəaliyyətlərinin təşkili və həyata keçirilməsidir.

Məktəbəqədər təhsil müəssisələri uşaqların yaşına, fərdi xüsusiyyətlərinə və meyllərinə uyğun onların qabiliyyətinin və yaradıcılıq potensialının inkişafı üçün əlverişli şərait yaradır. Təhsil müəssisələri uşaqların şəxsiyyətinin və əxlaqi dəyərlərinin inkişafı üçün onların sağlam həyat tərzinin təmin olunmasına diqqət yetirir, həmçinin sosial, intellektual fəaliyyətlərinin formalaşdırılmasının qayğısına qalır.

İnsanın inkişafında yaşın rolu böyükdür. Yaş pedaqogika və psixologiyada fizioloji, psixoloji və özünəməxsus sosial xüsusiyyətləri ilə dolu bir anlayışdır. Məktəbəqədər uşaqlıq dövrü şəxsiyyətin formalaşdırılmasında həlledici rol oynayır, insanın həyat yolunun sonrakı mərhələlərində inkişafının gedişatını təyin edir. Belə ki, "uşaqların əldə etdikləri bilik və bacarıqların miqdarına görə deyil,psixi xüsusiyyətlərinə və ətrafdakı gerçəkliklərə münasibətlərinə görə ayrı-ayrı yaş dövrləri bir-birindən fərqlənirlər"[1]. Hər yaşın özünəməxsus xüsusiyyətləri var. Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi müəyyən yaş dövrünün xüsusiyyətlərindən istiqamətlənərək uşağı şəxsiyyət kimi formalaşdıra bilər.

Məktəbəqədər uşaqların yaş xüsusiyyətlərinin araşdırılması və dərindən öyrənilməsi həm ailədə, həm də məktəbəqədər təhsil müəssisəsində (qrupda) təhsil prosesinin həyata keçirilməsinin düzgün təşkili üçün lazımdır.Yaş xüsusiyyətləri dedikdə,insan həyatının müəyyən mərhələləri üçün fiziki və psixi cəhətdən səciyyələnən keyfiyyətlər nəzərdə tutulur. İnsanın fiziki inkişafında yaşın müxtəlif inkişaf sferası üzə çıxır. Uşağın boyunun inkişafı, çəkisinin artması və bioloji dəyişikliklər müxtəlif yaş dövrlərində baş verir.

F.Rüstəmov və Ə.Paşayevin "Pedaqogika" dərsliyində müasir elm üçün məktəbəqədər uşağın yaş dövrləri bu cür qəbul edilmişdir:

1. Çağalıq (1 yaş); 2. Körpəlik (1-3 yaş); 3. Məktəbəqədər dövr (3-6 yaş): a) məktəbəqədər kiçik yaş dövrü (3-4yaş); b) məktəbəqədər orta yaş dövrü (4-5yaş); c) məktəbəqədər böyük yaş dövrü (5-6yaş)

İnsanın doğulduğu gündən 1 yaşa qədər olan dövr "çağalıq" dövrüdür. Çağalıq dövrünün əsas xüsusiyyəti onu əhatə edən yaxınları ilə emosional ünsiyyətidir. Bu ünsiyyət vasitəsilə uşaqda görmə, eşitmə və müxtəlif hərəkətlər formalaşır. Uşaqlarla vaxtında ünsiyyət qurmadıqda, uşağın psixi inkişafında ləngimə ilə rastlaşa bilərik. Çağalıq dövründə sakit xarakterli uşaq tez-tez ağlayıb və əşyalara zərər yetirirsə, uşaq bu zaman 1 yaşın böhranını keçirir. 1yaşdan 3 yaşa qədər olan dövr isə "körpəlik" dövrüdür. Körpəlik dövrün əsas fəaliyyəti əşyavi-manipuliyativ fəaliyyətdir. Bu dövrdə dərketmə sürətlə inkişaf edərək, nitqin formalaşmasına təkan verir. Uşaq əşyalara toxuna və ad verə bilir. Bu dövr də uşaq bəzi hərəkət tərzlərinə yiyələnir. Körpəlik dövründə yaranmış situasiyadan asılı olaraq uşaqda "Mən", "Mən özüm" formalaşır. İnsanın həyatında 3yaşdan 6 yaşa qədər olan dövr "məktəbəqədər" dövrdür. 3-6 yaş aralığı isə uşaqlarda xarakterin formalaşması üçün zəmin yaranır. Belə ki, 1-3yaşlı uşaqların boyu ildə orta hesabla 4-5 sm, çəkisi 1-2 kq, 5-6 yaşda olan uşaqların boyu 5-6 sm, çəkisi isə 2-2,5 kq artır. Məktəbəqədər yaş dövrünün əsas fəaliyyəti oyundur. 3-dən 6 yaşa qədərki uşaqlarda digər yaşlara nisbətən müəyyən psixoloji xüsusiyyətlər: duyğu, hafizə düşüncə, diqqət, yaddaş, təxəyyül, qavrayış və nitq inkişaf edir.

Qədim dövrün görkəmli mütəfəkkir və pedaqoqlarından olan Platon, Aristotel, Y.A.Komenski, J.J.Russo, A.Disterveq yaş dövrləri haqqında öz fikirlərini irəli sürmüşlər. Dahi

Azərbaycan şairi N.Gəncəvi isə oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətamiz şeirlər yazmışdır.

Uşaqların yaş dövrləri və hər yaş dövrünün xüsusiyyətlərini özündə təcəssüm etdirən şifahi xalq ədəbiyyatında da, həmçinin, maraqlı nümunələr yaranmışdır. Məsələn: Azərbaycan uşaq folkloru materiallarının birində deyilir:

Bir yaşında çiçəyə bənzər idim,
Yaşyarımda dörd ayaqlı yeridim.
İki yaşda su istərəm, içərəm.
Bacı-qardaş bir-birindən seçərəm.
Üç yaşında döndüm açılmış gülə.
Açılmayan dilim döndü bülbülə.
Dörd yaşında ovsarımı çeynərəm,
Bir saat da bir yerdə dincəlmərəm.
Beş yaşında coşub-daşıb qaynadım.
Altı yaşda yaşdaşımla oynadım [3].

Diqqət etsək görərik ki, bu şeir misralarında uşaqlıq dövrünə məxsus hər yaşın öz xüsusiyyətləri sadalanır: bir yaşındakı uşağı çiçəyə bənzətməklə, onun yeni doğuluşuna-həyatının bəyaz səhifəsinə işarə edilir. İki yaşına gəlmiş bir uşaq isə artıq obyektləri seçə, hətta danışa bilməsə də, inkişaf etmiş digər hissiyat üzvləri vasitəsiylə aclıq və susuzluğun nə olduğunu hiss edə bilir. Yaş mərhələsinin üçüncü ilində artıq uşaqlarda dil müəyyən mənada açılmağa başlayır, belə ki, onlar görüb dərk etdiyini artıq nitq üzvləri vasitəsiylə dilə gətirməyə çalışırlar. İmək lə mə mərhələsini keçən uşaqlar dörd yaşından sonra öz ayaqları üzərində durur, köməksiz şəkildə gəzməyə başlayırlar. Buna görə də folklor nümunəsində bu hissə vurğulanmışdır. Beş-altı yaş aralığı isə uşaqlarda məktəb dövrünə təsadüf etdiyi üçün bu dövr onların sosial həyatının başlanğıcı kimi qiymətləndirilə bilər. Şeirdə deyildiyi kimi, "yaşdaşımla oynadım", bu ifadə məktəb həyatının başlanğıcını simvolizə edir, çünki uşaq artıq ailədəki və yaxın ətrafdakı insanlardan uzaqlaşaraq öz yaşıdlarının mühitinə düşür və nəticədə, ünsiyyətinin formalaşması üçün ilk addım atılmış olur.

Ədəbiyyat

1. Uşaq inkişafı metodikası "Qanun Nəşriyyatı" 2016
2. Ə.Paşayev və F.Rüstəmov "Pedaqogika", "Elm və təhsil" Bakı-2010
3. M.Cəfərin 'Estetik tərbiyə, ailə və məktəb",Bakı-1967, səh.74

Həmidli Aytən Əzizağa qızı

Məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri

XÜLASƏ

Uşaqların şəxsiyyət kimi formalaşmasında bir çox amillərlə bərabər yaş dövrünün xüsusi rolu vardır. Belə ki, bu məqalədə məktəbəqədər uşaqlarda yaş dövrünün xarakterik xüsusiyyətləri araşdırılmışdır. Belə ki, hər bir yaş dövrü onlarda "emosional ünsiyyət", "xarakter", "duyğu, diqqət, təxəyyül, qavrayış və nitq kimi psixoloji fəaliyyətləri" inkişaf etdirir. Buna görə də, məktəbəqədər təhsil müəssisələrində tərbiyəçilərin yaş mərhələlrəinin xarakterik xüsusiyyətlərini öyrənməsi mühüm əhəmiyyət kəsb edir.

Гамидли Айтен Азизага

Возрастные особенности дошкольников

РЕЗЮМЕ

Возраст играет особую роль в формировании личности ребенка, наряду со многими другими факторами. В данной статье исследуются возрастные особенности дошкольников. Таким образом, каждая возрастная группа развивает у них «эмоциональное общение», «характер», «психологическую активность, такую как эмоции, внима-

ние, воображение, восприятие и речь». Поэтому педагогам дошкольного образования важно изучить особенности возрастных ступеней.

Hamidli Aytan Azizaga

Age characteristics of preschool children

SUMMARY

Age plays a special role in the formation of children's personality, along with many other factors. Thus, this article examines the characteristics of the age in preschool children. Each age group develops “emotional communication”,“psychological activities such as feelings, attention, imagination, perception and speech.” Therefore, it is important for educators in preschool education to study the characteristics of the age stages.

Nəcəfova Sahilə Teymur qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Baxşəliyev Ərəstun Təriş oğlu

AİLƏ MÜHİTİNİN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MƏDƏNİ ADƏT VƏ VƏRDİŞLƏRİN FORMALAŞDIRILMASINDA ROLU

Açar sözlər: *məktəbəqədər təhsil, ailə mühiti, mədəni dəyərlər, ailə tərbiyəsi, keyfiyyət*
Ключевые слова: *дошкольное, семейное окружение, культурные ценности, семейное воспитание, качество*
Key words: *preschool, family environment, cultural values, family upbringing, quality*

Uşaqların davranışında, tərbiyəsində ailə münasibətlərinin roluna xüsusi diqqət yetirilməlidir və böyüməkədə olan nəslin tərbiyə edilməsində valideynlərin istifadə etdikləri tərbiyə üsullarının böyük rolu var. Ailə münasibətləri uşaqların emosiya və hisslərinə təsir göstərir və onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zaman onlarda oğlan və qızların xarakter əlamətləri formalaşır. Elə ailələr var ki, uşaq nadinclik etdikdə, sözə baxmadıqda, dərslərini öyrənmədikdə, xoşagəlməz işlər tutduqda valideyn yerli-yersiz onu döyür və nəticədə uşağın tərbiyəsinə son dərəcə mənfi təsir göstərir, həmçinin valideyn uşağın gözündə nüfuzundan düşür. Fiziki cəzaya əl atmaqla valideyn uşağa təkcə fiziki zədə deyil, həm də psixi zədə yetirir. Gənclik dövründə uşaqların mənlik şüuru inkişaf edir, özlərini bir şəxsiyyət kimi yüksək qiymətləndirir, ləyaqət və şərəflərini aydınlığı ilə başa düşürlər. Buradan məlum olur ki, fizik cəza təkcə fiziki cəhətdən deyil, psixi cəhətdən zərərlidir və buna görə də uşaqları döymək, incitmək olmaz. Ailədə valideynlər tərbiyənin məqsədini aydın təsəvvür etməli, tərbiyə işi uşağın mənafelərinə yönəlməli, onun hüquqlarına və şəxsiyyətinə hörmət mühitinə əsaslanmalıdır. Uşağın qəbahətli hərəkətlərinə görə cəzaların seçilməsində valideynlər arasında fikir ayrılıqları olur və tərəflərdən biri daha kəskin, digəri yumşaq, uşaqlarda incikliyə səbəb olmayacaq cəzaya üstünlük verirlir. Tərbiyəüsulu kimi cəza problemi indi də pedaqoji cəhətdən fikir ayrılığına səbəb olan problemlərdən biridir və dünyanın elə ölkələri var ki, orada uşaqlara qarşı heç bir cəza tədbiri tətbiq olunmur. Valideynlərə uşaqla ünsiyyət zamanı Alman psixoloqu İ.B.Hippenreyter aşağıdakı qaydalara əməl etməyi tövsiyyə edir:

1). Təkcə uşaqdan deyil, onun ayrı-ayrı hərəkətlərindən narazı olduğunuzu bildirin.
2). Onun hisslərini deyil, əməllərini məzəmmət edin.
3). Uşaqdan yerinə yetirilməsi çətin olan işləri heç vaxt tələb etməyin.
4). Uşağın hərəkətlərindən narazı olduğunuzu tez-tez üzə vurmayın.
5). Uşağın emosional problemlərini öz üzərinizə götürüb, onunla yüklənməyin.
6). Öz mənfi hərəkətlərinin nəticələri ilə üzləşmək üçün uşağa imkan verin və bu öz səhvlərini anlamaqda ona kömək edər.

Uşağın mənəvi-psixoloji aləmi, ruhu həssas və zəifdir, kiçik bir hərəkətlərlə onun əhvalı pozulur. Bəzi valideynlər səhv olaraq düşünürlər ki, ata-ana oldular, övladlarına qarşı hər cür ixtiyara, hakimiyyətə malikdirlər, buna görə də onlarla istədikləri kimi rəftar edə bilərlər. Lakin, bu zaman zərif hədd və sərhəd vardır, bunlar da göstərir ki, əgər ana-ata övladlarına hakim olarlarsa xeyir və bərəkət bütün ailə üzvlərini öz pərdəsi altına alar. Ana-atanın mühüm vəzifələrindən biri uşaqda müsbət izzəti-nəfsin formalaşdırmasıdır, yəni uşağı elə tərbiyə eləmək lazımdır ki, özünə qarşı yaxşı hisslərə malik olsun, özünü sevsin, özünə inansın və özünü dəyərləndirsin. Belə olduğu zaman uşağın potensial imkan və bacarıqları çiçəklənir, həyata meyli artar. Uşaqlarda müsbət izzəti-nəfsi yaratmaq üçün onlara anlatmalıyıq ki, onları sevirik, çünki məhəbbət uşaqların inkişafı üçün zəruridir. Uşaq evlərində böyüyən uşaqlar ana-ata qayğısı,sevgisigörmədikləri üçün biganə, hissiyyatsız və özbaşına olurlar. Valideynlər uşaqların ehtiyaclarını aradan qaldırmaq üçün məhəbbəti yalnız sözlərlə deyil, əməli işləri ilə də məhəbbətlərini uşaqlara bildirməlidirlər, həmçinin, başqa uşaqlara hörmət qoymaq, onaları təhqir etməkdən, danlamaqdan çəkinmək lazımdır. Uşaqlara öz məharətlərini icra etmək imkanı vermək, uşaqların razı qalmasına, özünəinamın artmasına, yeni təcrübələr qazanmasına səbəb olur və uşaqların öz valideynindən aldığı ən böyük mükafatdır.

A.S.Makarenko yazırdı ki, "Sizin öz davranışınız ən həlledici məsələdir. Elə bilməyin ki, siz uşağı yalnız onunla danışanda və ya öyrədəndə, yaxud da ona əmr verəndə tərbiyələnirsiniz. Siz onu öz həyatınızın hər bir anında, hətta evdə olmadığınız zaman da tərbiyə edirsiniz. Siz necə geyinirsiniz, başqa insanlarla və özgə insan haqqında, dostlar və düşmənlərlə necə rəftar edirsiniz, necə gülürsünüz, qəzeti necə oxuyursunuz- bütün bunların uşaq üçün böyük əhəmiyyəti vardır. Uşaq sizin həyatınızın ahəngindən ən kiçik dəyişikliyi görür,yaxud hiss edir, sizin fikrinizin bütün dönüşləri görünməyən yollarla ona çatır, siz bunları görmürsünüz". Ailədə uşaq və yeniyetmələrin, gənclərin davranış qaydalarına,əxlaq tərbiyəsinə qayğı ilə yanaşmağı şərq mütəfəkkirləri tövsiyyə etmişlər. Azərbaycan böyük mütəfəkkir və filosofu, astroloqu N.Tusinin (1201-1274) "Əxlaqi-Nasiri" əsərində zəmanəmizin səslənən xeyli fikirləri vardır. Bu günkü gənclərimizin geniş istifadə edə bilmələri üçün ailə dolandırmaq, ərarvadın özünə məxsus psixoloji keyfiyyətləri, ailə-övlad münasibətləri haqqında əsərdə çox ətraflı məlumat verilir. Arvadın ən yaxşısı odur ki, ağıllı, iradəli, həya, ismət, nəzakətdə, ərinin sözünə baxmaqda, fədakarlıqda, dostluqda, qohum əqrabaları arasında vicdanlı, hörmətli hesab edilə, tərbiyə verməkdə, pul xərcləməkdə, təsərrüfatı idarə etməkdə, mahirlik göstərə, qayğıkeşliyi, mehribanlığı, xoş xasiyyətli, ərinin könlünü almağa, dərdini danışmağa səbəb olar". (1, 162 s.) Şəfqət uşağın anasının üzündə oxuduğu, sinəsində tapdığı, atasının qucağında hiss etdiyi risi əlaqə olub, ailədə əsas rol oynayır. Əgər valideynlər bu hissi uşağa verə bilmirsə, bu zaman onu heç bir nağıllar aləmi ilə təmin edə bilməz. Bu səbəbdən həm ana, həm də ata uşaqlarının daxili dünyasının mənəvi qidalanmasına diqqət yetirməlidir. Uşaqların əvvəlcə dinlənilməyə və qəbul edilməyə ehtiyacı var. Valideynlər öz düçüncələrinə görə nəticə çıxarmaqdansa, uşaqları sakitcə dinləsələr, bu zaman onların müəyyən qədər məmnun olduqlarını duya bilərlər. Davranış mədəniyyəti uşaqlara elə öyrədilməlidir ki, rəftar və münasibətdə gözəl olsun, özü haqqında mümkün qədər az danışsın, başqalarının xətrinə dəyən sözlər deməsin və yoldaşları ilə şit zarafat etməsin. Həmçinin, evə qonaq gəldiyi zaman, ayağa dursun, başqa evə qonaq getdikdə əyləşməyə tələsməsin, yaxud,avtobusda, metroda, küçədə və ictimai yerlərdə ucadan danışmasın, başqa insanlara qayğıkeşlik göstərsin, salamlaşarkən artıq hərəkətlərə yol verməsin. Uşaqlara elə davranış mədəniyyəti öyrədilməlidir ki, ailədə, qonaqlıqda, ictimai yerlərdə nəzakət qaydalarından kənara çıxmasın və insan ləyaqətini alçaldan hərəkətlər etməsin. Davranış mədəniyyətinin tərbiyəsində nümunə də böyük əhəmiyyətə malikdir. Çünki, uşaq göz açarkən, ətraf aləmi dərk edərkən, ilk növbədə yaşlıların hərəkət və davranışlarını görür və öyrənir. Yaşlıların nümunəsi daima insan həyatında mühüm rol oynayır. Uşaqların davranış mədəniyyətinin formalaşmasına şərait yaratmaq, onlarla işin

müvəffəqiyyətlə aparılmasını təmin etmək üçün uşaqları təbii şəkildə öyrənmək vacibdir və proqramlaşdırılmış, standart şəkildə onları öyrənmək faydasızdır.

Ədəbiyyat

1.Nəsrəddin Tusi, "Əxlaqi Nasir", Bakı 2005,162 səh.

2.Baxşəliyev.Ə.T. "Azərbaycanda psixoloji fikrin təşəkkülü,inkişafı və müasir vəziyyəti", Bakı,2007.

3.Əlizadə.Ə.Ə. "Azərbaycan etnopsixologiyasına giriş", Bakı,2003.

4.Ağayev.Ş.S. Uşaqların mədəni davranış və adətlərin tərbiyəsi.Bakı ,1956

5. Bayramov Ə. Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi, Bakı 1963

РЕЗЮМЕ

Духовно-психологический мир ребенка, его дух чуток и слаб, пусть мелкими поступками его настроение нарушается. Некоторые родители ошибочно думают, что они родители, что у них есть вся власть над своими детьми и что они могут обращаться с ними, как хотят. Однако есть тонкие границы, которые показывают, что если роди-тели управляют своими детьми, благословения и благословения охватят всех членов семьи. Одна из важных обязанностей родителей - сформировать у ребенка положительную самооценку, то есть ребенка нужно воспитывать таким образом, чтобы он испытывал к себе хорошие чувства, любил себя, верил в себя и ценил себя

SUMMARY

The child's spiritual and psychological world, his spirit is sensitive and weak, his mood is disturbed by small actions. Some parents mistakenly think that they are parents, that they have all the authority over their children, and that they can treat them as they wish. However, there are subtle boundaries, which show that if parents control their children, blessings and blessings will cover all members of the family. One of the important responsibilities of parents is to form a positive self- esteem in the child, that is, the child should be brought up in such a way that he has good feelings for himself, loves himself, believes in himself and values himself.

Nəcəfova Sahilə Teymur qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Baxşəliyev Ərəstun Təriş

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MƏDƏNİ KEYFİYYƏTLƏRİN FORMALAŞMASININ PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *məktəbəqədər təhsil, düşüncə, mədəni dəyərlər, didaktik tələblər, keyfiyyət*

Ключевые слова: *дошкольное, мышление, культурные ценности, дидактические требования, качество*

Key words: *preschool, thinking, cultural values, didactic requirements, quality*

Xüsusi tədqiqatlar vasitəsilə sübut edilmişdir ki, uşaq artıq 3-4 yaşında öz milli mədəniyyətinin önəmli cterotiplərini emosional səviyyədə mənimsəmiş olur. Müxtəlif mədəniyyətlərdə uşaqların tələbatlarının məzmunu fərqli olur. Onun sosial önəmi və mahiyyəti uşaqda sosial mövqeyinin formalaşması, mədəni dəyərlərə malik olması və sosial yönəlişliyində təsirsiz qalmır. Uşağın şəxsiyyətinin inkişafı zamanı əxlaqi milli, eyni zamanda dini prinsiplər, onun fərdiləşmək meyllərini gücləndirir, passivlik təsirlərə etinasız münasibət yaradır.

Uşaqda ətrafdakılara münasibətdə daxili şəxsi mövqeyin formalaşması zəmində öz davranışını dərk edir və böyüklərin dünyasına marağın yaranması ilə xarakterizə olunur. Bu yaşda

uşaqların fəallığının usanmaması onların fəaliyyətə mütəmadi hazır olmasında özünü göstərir. Uşaq artıq öz hərəkətlərinin müvəffəqiyyəti ilə fəxr edir, öz əməyinin nəticəsini kritik qiymətləndirir [1, s.45].

Müasir dövrdə məktəbəqədər təhsilin əsas məqsədlərindən biri məktəbəqədər yaşlı uşağın tam harmonik şəxsiyyətinin formalaşmasıdır. Bu məsələnin produktiv həlli pedoqoji prosesdə o zaman mümkündür ki, bu proses uşağın yalnız intellektual, mənəvi-estetik, fiziki inkişafına deyil, həm də onun öz mənəvi potensialını, şəxsi mahiyyətini dərk etməsinə yönəlsin.

Əsasən insan bütün həyatı boyunca özünün tələbatlarını ödəmək məqsədilə xeyli fəaliyyət növlərindən istifadə edə bilir. Ancaq müəyyən yaş dövründə bu

fəaliyyət növlərindən biri başqalarına nisbətən "başlıca", "aparıcı" fəaliyyət növü sayılır. Əsas fəaliyyət növünün özü uşağın bir sıra inkişaf mərhələsində uşağın tələbatlarını ödəyən və onun psixi proseslər və şəxsiyyətdə fərdi psixi xassələrin təkmilləşməsini şərtləndirən fəaliyyət növü hesab edilir. Uşağın başlıca fəaliyyət növünün dəyişməsi uşağın növbəti yaş mərhələsinə keçidini göstərən aparıcı amildir [3, s.121].

Məktəbəqədər yaş dövründə uşaqların başlıca fəaliyyət növü oyun olur. Bu yaş dövründə öz vaxtlarının əksəriyyətini oyunda keçirirlər. Əsasən, məktəbəqədər yaş dövrü üç yarımdövrə ayırılır: kiçik bağça yaş dövrü (3-4 yaşda), orta bağça yaş dövrü (4-5 yaşda) və böyük bağça yaş dövrü (5-6 yaşda).

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür adətən əyani-əməli xarakter daşıya bilir, yerinə yetirdikləri işlərlə, qavradıqları konkret cisim və hadisələrlə əlaqəli olur. Uşaqlar ilk ümumiləşdirmələri adətən zahiri oxşar əlamətlərə əsasən aparırlar. Nitqin inkişafı ilə bağlı olaraq ümumiləşdirmələri zəruri əlamətlər əsasında aparma meyli yüksəlir. Bağça yaşı dövrünün başlanğıc zamanlarında uşaqlar hadisənin mənasını anlaya bilmədikləri üçün bəzən qəribə, gerçəyə uyğun gəlməyən hökmlər önə sürür, doğru olmayan nəticələr çıxarırlar. Həmin dövrdə uşaqlarda təfəkkür üzrə təkamül əyani-əməli, əyani-obrazlı və sözlü-məntiqi təfəkkür yönündə gedir. Bağça yaşının axırında uşaqlarda sözlü-məntiqi təfəkkür inkişaf etməyə başlayır ki, bu da artıq uşaqlarda sözlərə istinad etmə və mühakimə məntiqini qavramağın yarandığını göstərir [5, s.79].

Məktəbəqədər dövr uşağın fəaliyyət subyekti olaraq formalaşmasının ilkin mərəhələsi şəklində özünü göstərir. Məqsədəyönəlişliyin bünövrəsi qoyulur. Böyüklərin dəyərləndirməsi və nəzarətinin təsiri nəticəsində bağça yaşının axırında uşaqlar öz davranış və fəaliyyətlərindəki qüsurları dərk etməyə başlayırlar. Bununla bağlı təqlid obyektləri konkretləşməyə başlayır. Məktəbəqədər yaş dövrü ərzində ümumi, həmçinin xüsusi qabiliyyətlərin formalaşması perspektivləri ya-ranır və özünü büruzə verməyə başlayır.

Məktəbəqədər yaş dövrü dialoji nitqin inkişaf etməsi və təkmilləşməsi ilə birgə, monoloji nitq belə təkmilləşməyə başlayır. Bağça yaşı dövründəuşaqda nitqin inkişafında əsaslı irəliləmə baş verir. Bağça yaşı dövründə balacaların nitqi lap əlaqəli xarakter daşıyaraq dialoq formasını əldə edir. Erkən uşaqlıq dövrü üzrə xarakterik sayılan nitqin situativliyini həmin dövrdə kontekstli nitqi tutmağa başlayır ki, bu isə dinləyicidən situasiya barədə müvafiq izahatlar tələb etmir. Əvvəlki dövrə nəzərən bağça yaşlı uşaqlarda lap mürəkkəb, sərbəst nitq forması sayılan geniş monoloji ifadə şəkli təzahür və inkişaf etməkdədir [6, s.187].

Tərbiyəçi məktəbəqədər təhsilin tələblərinin reallaşdırılmasında məntiqi və yaradıcı təfəkkürün ilkin elementlərinin formalaşdırılmasına nail olmalıdır. Müşahidələr göstərir ki, anlayışların mahiyyətini düzgün dərk etməyən tərbiyəçi qarşıya qoyulan didaktik tələblərin həllində yanlışlığa yol verir. Buna görə təfəkkürə məxsus olan keyfiyyətlər barədə tərbiyəçi akademik biliyə malik olmalıdır. Təfəkkür varlığın inkişafının ali səviyyəsi hesab edilir. Təfəkkür obyektiv varlıqda vasitəli inikasdır.

Məktəbəqədər yaşlı uşaqlarda ilk vaxtlar daha çox formanı ayıraraq onları anlamağa cəhd göstərirlər. Həmçinin obyektlərin böyüklüyünü anlama bacarığı da özünü büruzə verir.

Uşaqlar cismin forması, ölçüsü və tutduğu yeri dərk etməyə alışırlar. Bu uşaqlarda məkan qavrayışının inkişafı şəklində özünü göstərir.

Bu dövrdə qeyri-ixtiyarı diqqət önəmli yer tutsa belə ixtiyarı diqqətin meydana gəlməsi üçün da şərait yaranır. Burada qeyri-ixtiyarı diqqətdən ixtiyariyə keçid üçün diqqətini idarə etmə vasitələri önəmli rol oynayır. Buna görə də uşağa onu əhatələyən cisim və xassələrin xassələrini, müxtəlif xüsusiyyətlərini, zəruri əlamətlərini görməyi öyrətmə lazım gəlir. İxtiyarı diqqətin əmələ gəlməsində nitq də önəmli rol oynamağa başlamaqdadır [3, s.61].

Psixoloji tədqiqatlardan aydın olmuşdur ki, uşaqlarda ixtiyarı diqqətin inkişafına özü haqqında yüksək fikirdə olmaq çox kömək edir. Təcrübədən məlum olmuşdur ki, belə ki, 4-5 yaşlı uşaqlardan hər zaman nə etməsini hündürdən deməyi tələb etdiyi zaman, onlar ixtiyarı şəkildə və daha uzun vaxt öz diqqətlərini hansısa bir obyektin yaxud onun detalları üzərində saxlaya bilirlər. Məktəbəqədər

yaşın axırına doğru uşaqda getdikcə öz diqqətini idarə etmə imkanı. Onu az və çox şəkildə müstəqil təşkil etmək qabiliyyəti özünü göstərir [2, s.77].

Məktəbəqədər dövrün axırında obrazlı təfəkkür xeyli konkret, həmçinin situativ olur. Uşaq nəinki əşyaları əlamətlərinin rəngarəng olması ilə təsəvvür edir, o, həmçinin onun önəmli xüsusiyyət və əlaqələrini belə seçməyə qadirdir. Onda hazırda əyani-sxematik təfəkkür formalaşmaqdadır. Həmin təfəkkür növü uşağın əşyada ayrı-ayrı sxematik təsvirləri (plan, maketlər, sadə cizgilər və s.) dərk etməsini və müvəffəqiyyətlə istifadəsini bildirir. Uşaqlar şərti təsvirlərin lap da mücərrəd bağlılıqlarını(cümlədə sözlərin arasında, sözlərdə hərflərin arasında əlaqələri və s.) dərk etməyə başlayırlar. Belə ki, məktəbəqədər dövrdə uşağın özündə əyani-obrazlı təfəkkür lazımi qədər təkmilləşməyibsə, I sinifdə uşaq, söz və cümlələrin sxemlərin tərtib etməkdə və şərti işarələr, oxlar vasitəsilə riyazi məsələlər şərtini doğru yazmaqda çətinlik çəkəcək [5, s.136].

Məktəbəqədər dövrdə uşaqda məntiqi-mücərrəd təfəkkür əsasları qoyulur. Bu, mücərrəd mühakimənin özü yürütmə bacarığını tələb edir. 5-6 yaşındakı uşaqlarda məntiqi-mücərrəd təfəkkür əsasları əyani-obrazlı təfəkkürin özünə əsaslanır, onun təbii davamı olaraq inkişaf edir. Uşaqlar ətraf mühitdə baş verənləri sadə formada təhlil edə bilirlər. Önəmli və ikinci dərəcəli cəhətləri ayırma, sadə mühakimə yürütmə və doğru nəticə çıxarma bacarıqlarına sahiblənirlər. Həmin bacarıqlar uşaqlardakı bilik dairəsi ilə məhdudlaşmaqdadır. Bilik dairəsi çərçivəsində uşaq müvəffəqiyyətlə səbəb-nəticə əlaqələrini yaradır, bu da uşağın nitqində özünü göstərir.

Ədəbiyyat

1. Əzimli Q. E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: 2006
2. Quliyev E.M. Uşaq və yaş psixologiyası- Bakı, 2006.
3. Qədirov Ə. Ə. Yaş psixologiyası. Bakı: 2002
4. Bayramov Ə., Əlizadə Ə. Psixologiya, 2002
5. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. - Bakı, 2003
6. Seyidov S.İ., Həmzəyev M.Ə.Psixologiya. Bakı, 2007
7. Həsənli S.Psixologiya. Bakı, Elm və təhsil, 2013
8. Məhərrəmov M.C.Psixologiya. Bakı, 1968

РЕЗЮМЕ

Одной из основных целей дошкольного образования в современную эпоху является формирование гармоничной личности дошкольников. Продуктивное решение этой проблемы в педагогическом процессе заключается в том, что это не только интеллектуальное, духовное, эстетическое, физическое развитие ребенка, но и его понимание ее собственного духовного потенциала и личной сущности. Разумеется, мышление дошкольников носит визуальный и практический характер и связано с работой, которую они выполняют, с конкретными предметами и событиями, которые они понимают.

Дети делают свои первые обобщения в основном из-за сходства. У дошкольников заложены основы логическогоиабстрактногомышления.

SUMMARY

One of the main goals of preschool education in modern times is to form a harmonious personality of preschool children. The productive solution of this problem in the pedagogical process is when it is not only the intellectual, spiritual, aesthetic, physical development of the child, but also his- her understanding of their own spiritual potential and personal essence. The thinking of preschool children is, of course, of visual and practical nature, linked to the work they do, the specific objects and events they understand. Children make their first generalizations mainly because of the similarities. In preschool children the basics of logical and abstract thinking are laid.

Məmişov Daşqın Rauf oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti

NİTQ POZULMALARI OLAN UŞAQLARIN PSİXO-PEDAQOJİ XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

Açar sözlər: *nitq pozulmaları, idrak prosesləri, idrak proseslərinin pozulmaları, alaliya, afaziya, rinolaliya, dizartiriya, kəkələmə*

Ключевые слова: *нарушения речи, познавательных процессов,нарушения когнитивных процессов, алалия, афазия, ринолалия, дизартрия, заикание*

Key words: *speech disorders, cognitive processes, violation of cognitive processes, alaliya, aphasia, rinolaliya, dysarturia, stuttering*

Nitq insana məxsus olan ali psixi funksiyadır. İnsanların birgəyaşayış zərurətinin meydana gəlməsi onların ünsiyyət tələbatının da yaranmasına səbəb olmuşdur. Nitq insanın bütün zehni proseslərini yenidən qurur və şüurlu fəaliyyət səviyyəsinə çatır.

İnsanın psixi həyatında mühüm rol oynayan nitq əsas idrak proseslərinin formalaşmasında müstəsna rol oynayır. Aydındır ki, uşağın nitq inkişafında baş verən pozulmalar - onun psixi inkişafının formalaşmasınamənfi təsir göstərə bilər. Bu pozulmalar nəticəsində ətraf mühitlə ünsiyyət yaratma çətinliyi ilə yanaşı, idrak proseslərinin düzgün formalaşmaması, bilik, bacarıq və vərdişlərinin qavranılmaması və s. kimi ortaya çıxan ciddi problemlər uşaqlarda– davranışda kənaraçıxmalar, neqativizm, inamsızlıq yaradır.

İdrak proseslərinin əsasıolan qavrayış, hafizə, diqqət, təxəyyül, təfəkkürnitqin birbaşa iştirakı ilə formalaşır və inkişaf edir. Klinik-fizioloji və psixoloji-pedaqoji tədqiqatlar və nitq mütəxəssislərinin müşahidələri nitq pozulmaları olan uşaqların zehni proseslərin xüsusiyyətləri və özünəməxsusluğu ilə xarakterizə olunduğunu göstərir.

Ağır nitq qüsurları olan məktəbəqədər yaşlı uşaqlarda görmə qavrayışı inkişafdan geri qalır və qavrayışın tamlığının pozulması ilə xarakterizə olunur. Eyni zamanda, obyektlərin və onların şəkillərinin tanınması yaş norması daxilində inkişaf etməsinə baxmayaraq verilən tapşırıqların çətinlik dərəcəsi artıqca fəaliyyətdə müəyyən çətinliklər müşahidə olunur. Məsələn, ümumi nitq inkişafı ləngiməsi olan uşaqlar səs-küylü mühitdəki obyektləri tanımaq üçün normal nitq inkişafı olan uşaqlardan daha çox vaxt sərf edirlər. Ümumi nitq inkişafı ləngiməsi olan uşaqların qərar qəbul etmə müddəti daha uzundur, cavablarının düzgünlüyünə əmin deyillər.

Nitq pozulmaları olan uşaqlar üçün məkanda oriyentasiya xüsusiyyətlərini nəzərdən keçirən A.P.Voronova, bu uşaqların "sağ" və "sol" anlayışlarını fərqləndirməkdə çətinlik çəkdiklərini və xüsusən tapşırıqlar mürəkkəb olduqda öz bədənlərini istiqamətləndirmədə çətinliklər yaşadıqlarını göstərirdi.

E.M.Mastyukovanın nəzəriyyələrinəəsasən, nitq pozulmaları məktəblərinin hazırlıq və birinci sinif şagirdlərində məkan pozulmaları qeydə alınır. Beləliklə, Alaliyalı uşaqlar insan rəsmində davamlı məkan pozuntularına yol verirlər: təsvirlərdə yoxsulluq, primitivlik və detalların az olması və s.

Nitq pozulmaları olan uşaqlarda ixtiyari diqqətinin zəif inkişaf etməsi müxtəlif mövqedən olan alimlər tərəfindən araşdırılmışdır.Diqqətin zəif inkişaf etməsinin səbəbini ağır nitq pozulmaları olan uşaqların əqli inkişafındakı uyğunsuzluq və asinxroniyada, müəyyən fəaliyyət formalarında və əqli fəaliyyətin özünütəşkilində olan çatışmazlığda, hər hansı bir zehni fəaliyyətin aşağı məhsuldarlığı ilə əlaqədardır. Nitq pozulmaları olan uşaqlarda, stimulun (görmə və ya eşitmə) modallığından asılı olaraq ixtiyarı diqqətin təzahüründə fərqlər özünü göstərir. Şifahi təlimat şəraitində hər hansı bir tapşırığın icrasına cəmləşmək vizual təlim şəraitindən daha çətin olur.

L.S.Viqotski, fəaliyyət və böyüklərlə ünsiyyət zamanı nitqin tədricən mənimsənilməsi ilə birlikdə, uşaqda ixtiyari diqqətin inkişaf etdiyini qeyd edirdi. L.S.Viqotski böyüklərin şifahi təlimatlarının son dərəcə əhəmiyyətli bir rol oynadığını söyləyirdi, çünki müəyyən obyektlərə əlavə yönlü reflekslərin çağırılması işarə sistemlərinin diqqətə təsirinin əsasını təşkil edir [3.30].

Hafizə bütün idrak prosesləri kimi şəxsin fəaliyyətilə ayrılmaz şəkildə əlaqəli gerçəkliyin əks olunmasıdır. Hafizə, beynin ətrafdakı gerçəyi qəbul etmə, onu sinir hüceyrələrinə salma, qavranılan məlumatları yadda saxlama və sonra lazım olduğu təqdirdə yadasalma qabiliyyəti olaraq təyin edilir.

Ümumi nitqi zəif olan uşaqlarda görmə yaddaşının həcmi praktik olaraq normadan fərqlənmir, yalnız dizartriyalı uşaqlar istisnadır. Bir sıra həndəsi fiqurların məhsuldar şəkildə yadda saxlanılmasının aşağı səviyyədə olması qeyd olunur, bu da forma qavrayışında olan ciddi pozunlmalar vəməkan təsəvvürlərinin zəifliyi ilə bağlıdır.

Kəkələyən uşaqlar normal danışan uşaqlara nisbətən eşitmə yaddaşına və əzbərləmə məhsuldarlığına malikdirlər. Nitq pozulmaları olan uşaqlar normal danışan uşaqlarla müqayisədə eşitmə yaddaşı və əzbərləmə bacarığına malikdir. Uşaqlar tez-tez mürəkkəb təlimatları unudurlar (üç, dörd addımlı), bəzi elementlərini buraxır və təklif olunan tapşırıqlarınardıcıllığını dəyişdirirlər, təlimatları aydınlaşdırmaq üçün şifahi ümumiləşdirməyə müraciət etmirlər. Bu da diqqətin xüsusiyyətləri ilə əlaqədardır. Bu kateqoriyalı uşaqlarda semantik, məntiqi əzbərləmə imkanları nisbətən bütöv qalır.

Nitq qüsuru olan uşaqlar intellektual olaraq bütövdürlər və idrak əməliyyatlarında çətinliklər şifahi nitqin zəif inkişafından sonra ikinci dərəcəli qüsur olur. Bunlar bəzi anlayışların formalaşmaması, düşüncə proseslərinin ləngliyi, özünütəşkilatın azalması və s. ilə xarakterizə olunur.

Biliyin olmaması və özünütəşkilin pozulmasınitqi zəin inkişaf etmiş uşaqlarda təfəkkür proseslərinə mənfitəsir göstərir. Biliyin azlığı ətraf mühit haqqında, həqiqi predmetlərinin xüsusiyyətləri və funksiyaları haqqında məlumatların kiçik həcmi kimi müəyyən edilir və hadisələr arasında səbəb-nəticə əlaqələrinin qurulmasında çətinliklər yaranır. Pozulmuş özünütəşkil emosional-iradi və motivasiya sahələrin çatışmazlıqları ilə müəyyən edilir və tapşırığa davamlı marağın olmamasında özünü göstərir. Bilik ehtiyatının genişləndirilməsi və özünütəşkilin qaydaya salınması zamanı fikri əməliyyatların düzgün həyata keçirilməsi imkanları artırır.

Alaliyalı məktəbəqədər yaşlı uşaqlarda təfəkkür və əqli əməliyyatların aşağıdakı xarakterik xüsusiyyətləri fərqlənir:

- vizual-məcazi düşüncənin inkişafında geriləmə;
- məkan münasibətlərinin düzgün tərifi (irəli, geri, yuxarı, aşağı) fonunda, şifahi təyin edilməsində çətinliklər praktik fəaliyyətdə qeyd olunur, yanlış linqvistik vasitələrdən istifadə olunur;
- təfəkkür proseslərinin və fikri əməliyyatların pozulması (analiz, sintez, ümumiləşdirmə, müqayisə, təsnifat, lazımsız bir anlayışın xaric edilməsi və s.) xarakterikdir: məntiqi əməliyyatların zəifliyi, simvollaşdırma qabiliyyətinin azalması, aşağı səviyyədə ümumiləşdirmə, səbəb-nəticə əlaqələri və nümunələrinin mənimsənilməsinin yavaş tempi;

- təfəkkür proseslərinin ləngliyi bir növ tapşırıqdan digərinə keçiddə çətinliklər;
- kəsilmiş şəkillərin qatlanması prosesində məcazi və konstruktiv düşüncənin kifayət qədər yetkinliyi ilə xarakterizə olunur.

Afaziya olan uşaqlarıntəfəkkür proseslərin müəyyən pozulmalar özünü göstərir. Motor və semantik afaziya olan uşaqlar konkretləşdirməyə və spesifik obyektlərin əlamətlərinin mənalarını dar şəkildə anlamağa meyllidirlər. Təfəkkür proseslərinin sürəti azalır, fərdi zehni əməliyyatlar pozulur. Həm də motor və semantik afaziya ilə düşüncənin şifahi komponentləri də pozulur.

Kəkələyən uşaqlar sürətlənmiş düşüncə ilə xarakterizə olunur. Yəni, onların ifadə qabiliyyətləri ilə düşüncə sürəti arasında bir növ uyğunsuzluq var. Kəkələyən uşaqlarda düşüncə çatışmazlığı diqqət, yaddaş və bəzi digər proseslərin pozulmuş, qeyri-müəyyən təbiəti ilə də müəyyən edilir. Kəkələyən uşaqlar həddindən artıq təfərrüatlı olurlar.Ümumiyyətlə, kəkələyən uşaqlarda məntiqi təfəkkürün kifayət qədər qorunması, qəbul olunan materialı qurma qabiliyyəti və uzun müddətli yaddaşın yaxşı təşkili ilə xarakterizə olunur.

İ.Y.Kondratenkoümumi nitq inkişafi ləngiməsi olan uşaqların emosional sahəsi üzrə tədqiqat aparmışdır. O, qeyri-verbal ünsiyyət vasitələrinin (uşaqların mimikası, uşaqların emosional vəziyyəti və s.) xüsusiyyətlərini öyrənmişdir. Müəyyən edilmişdir ki, ümumi nitq inkişafi ləngiməsi olan uşaqlar üçün öz emosional vəziyyətləri haqqında differensial təsəvvür səciyyəvidir (bu müddəa xüsusi psixoloji tədqiqatla təsdiq edilmişdir). Onlar qəzəb, qorxu, təəccüb kimi duyğularını mimikalar vasitələrlə ifadə etməkdəmüəyyən çətinlik çəkirlər. Onlar şəkillərdə və piktoqramlarda təsvir olunan emosional vəziyyətləri (qəzəb, qorxu, təəccüb) müəyyən edə bilmirdilər, onları qarışdırırdılar[3.41].

Bir sıra tədqiqatlar göstərir ki, alaliyalı uşaqlarda nevrotik dairənin patoloji xüsusiyyətləri tez-tez müşahidə olunur: təcrid, neqativizm, özünə şübhə, stres, əsəbilik, inciklik, göz yaşı. Bu cür uşaqlar bəzən nitqi yalnız emosional vəziyyətlərdə istifadə edə bilərlər. Onların öz-özünə artan tənqidləri sonradan depressiv vəziyyətlərə səbəb ola biləcək çarəsizlik və ümidsizlik hissini təyin edir. Motor alaliyalı uşaqlar motivasiya və emosional-iradi sahələrin çatışmazlığı, müşahidə səviyyəsinin azaldılması, psixofiziki disinhibisiya və ya süstlük ilə xarakterizə olunur.

Nitq pozulmaları olan ibtidai sinif şagirdlərinin özünüqiymətləndirmə səviyyələrini araşdırarkən bu uşaqlar əksər hallarda yaranan uğursuzluqlara nitq pozulmaları olmayan uşaqlar ilə müqayisədə fərqli reaksiya göstərirlər. Tapşırığı uğurla yerinə yetirdikdən sonra, nitq pozulmaları olan bəzi uşaqlar daha çətin bir işə deyil də, daha asan bir işə keçirlər. Bu həqiqətən qoruyucu bir reaksiyanın təzahürü kimi şərh edilə bilər, yəni bu uşaqlar müvəffəqiyyəti aşağı səviyyədə saxlamağa meyllidirlər. Özünüqiymətləndirmənin aşağı səviyyəsi 1-ci sinif uşaqlarında daha çox özünü göstərir, 2-ci sinif uşaqlarında daha az görülür və üçüncü sinif şagirdləri arasında bu cür hadisələrə praktik olaraq rast gəlinmir.

Ədəbiyyat

1. S.İ.Seyidov, M.Ə.Həmzəyev "Psixologiya (dərslik)" Bakı2007. 700 s
2. N. Hüseynova, T. Ağayeva. Loqopediya (dərslik). Bakı2017. 296 s
3. Л.В. Артищева "Логопсихология" казань 2016. 60 с
4. Л.С.Волкова. Логопедия. М. 2006. 700 с

Nitq pozulmaları olan uşaqların psixo-pedaqoji xüsusiyyətlərinin təhlili

XÜLASƏ

Açar sözlər: Nitq pozulmaları, idrak prosesləri, idrak proseslərinin pozulmaları, alaliya, afaziya, rinolaliya, dizartiriya, kəkələmə

Müasir dövrdə ən çox rast gəlinən problemlərdən biri uşaqlarda nitqin vaxtında inkişaf etməməsidir ki, bu da yalnız nitq qüsurlu uşaq üçün deyil, həm də bütövlükdə cəmiyyət üçün problem olur.

Kommunikativ bacarıqların inkişafı və fərdin sosiallaşması üçün vacib şərtlərindən biri də nitqin tam olmasıdır. Nitqdə pozulmalarının olması uşağın psixikasına təsir göstərir və

onun tam bir şəxsiyyət kimi formalaşmasına maneə olur. Nitq pozulmaları uşağın əqli inkişafında digər kənaraçıxma hallarının yaranmasına səbəb olur. Aparılan tədqiqatlar göstərir ki, yaranan ikincili qüsurun qeyd olunmayacağı nitq pozulmaları yoxdur. Bu o deməkdir ki, hər bir nitq qüsuru olan uşaqda digər bir pozulma halı müşahidə olunur (idraki, edmosional-iradi və s.).

Анализ психолого-педагогических особенностей детей с нарушениями речи

РЕЗЮМЕ

Одной из наиболее распространенных проблем в наше время является несвоевременное развитие речи у детей, что становится проблемой не только для ребенка с дефектами речи, но и для общества в целом.

Одним из важных условий развития коммуникативных умений и социальных навыков личности является полнота речи. Наличие нарушений в речи влияет на психику ребенка и препятствует его формированию как полноценной личности. Нарушения речи приводят к возникновению других отклонений в психическом развитии ребенка. Исследования показывают, что нет таких речевых нарушений, при которых вторичный дефект не отмечается. Это означает, что у каждого ребенка с дефектом речи есть другое расстройство (когнитивное, эмоционально-непроизвольное и т. д.).

Analysis of psycho-pedagogical characteristics of children with speech disorders

SUMMARY

One of the most common problems in modern times is the lack of timely development of speech in children, which becomes a problem not only for the child with speech defects, but also for society as a whole.

One of the important conditions for the development of communicative skills and the individual's social skills is the fullness of speech. The presence of violations in speech affects the child's psyche and prevents its formation as a full personality. Speech disorders lead to the emergence of other deviations in the mental development of the child. Studies show that there are no speech disorders in which the secondary defect is not noted. This means that each child with a speech defect has another disorder (cognitive, edmosional-involuntary, etc.).

Mustafayeva Tellixanım Teymur qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

TƏFƏKKÜR PROSESİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ VƏ ƏQLİ GERİLİYİ OLAN UŞAQLARDA TƏFƏKKÜRÜN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *əqli inkişaf, təfəkkür prosesi, əqli gerilik, idrak prosesləri, düşüncə*

Ключевые слова: *умственное развитие, процессмышления, умственная отсталость, когнитивные процессы, мышление*

Key words: *mental development, thinking process, mental retardation, cognitive processes, mentality*

Təfəkkür yeni, mühümxassə, qanunauyğunluğun kəşf edilməsinə yönəldilmiş sosial cəhətdən şərtlənmiş, eyni zaman da nitq ilə ayrılmaz surətdə əlaqəli olan bir psixi prosesdir. Təfəkkür insanın əməli fəaliyyət prosesində hissi idrak vasitəsi ilə yaranır.Təfəkkür prosesi məqsədyönlü prosesdir. Təfəkkür prosesi problemin şüurlu qoyulması ilə və sualın hazırlanması ilə başlayır. Ətraf aləmin və insanın əks olunma formaları olan idrak prosesləri arasında ən mürəkkəbi təfəkkürdür.Əgər insan qavrayış prosesində qarşısına çıxan fərdi və konkret cisimləri onun hiss etmə orqanlarına birbaşa təsir etdikdə tanıyırsa, təfəkkürün köməyi ilə isə bir cismin birbaşa qəbul edə bilmədiyi xüsusiyyətlərini də dərk edir. Təfəkkürün bir xüsusiyyəti də hər bir cismin və hadisənin özünəməxsus xüsusiyyətlərini, onlar arasındakı əlaqə və münasibətləri ortaya çıxarmaqdır ki, bu da uşaqların (insanların) onları dərindən öyrənməsinə şərait yaradır.Təfəkkürün əsas mahiyyəti in-

sanın müxtəlif hadisələrin zehni modelləşdirilməsidir.Düşünmək cisim və hadisələr arasındakı əlaqə və münasibətləri, maddi dünyanın qanunlarını, ictimai-tarixi hadisələrin baş vermə səbəb-nəticə əlaqələrini, insan psixikasının qanunlarını anlamağa imkan verir.Təfəkkür təbiətdə ümumiləşdirilir, obyektlərin ümumi və əsas xüsusiyyətləri ilə əlaqəli olur. Təfəkkür insanın birbaşa müşahidə etmədiyini, dərk etmədiyini bilmək və fikir yürütmək imkanı verir.Gələcəkdə hadisələrin gedişatını hərəkətlərin nəticələrini görməyə imkan verir. Təfəkkür prosesi bu və ya digər suala cavab vermək, qarşıya çıxan problemləri həll etmək, bu və ya digər çətinliklərdən çıxmaq üçün ortaya çıxan ehtiyac ilə başlayır.Təfəkkürün inkişafının əsas şərtlərindən biridə biliklərin mənimsənilməsidir. İnsan nə qədər çox bilsə, dünyagörüşü nə qədər zəngindirsə, bir o qədər yeni suallar verir və təfəkkürü də bir o qədər aktiv və müstəqil olur. Deməli təfəkkür nitqlə ayrılmaz şəkildə əlaqəlidir. Yeni şeylərin kəşf edilməsi üçün lazım olan psixi bir prosesdir. Əqli geriliyi olan insanların təfəkkür prosesinin müəyyən xüsusiyyətləri vardır.

Əqli gerilik uşaqlıqda ən çox görülən zehni patalogiyalardan biridir.Əqli gerilik dedikdə fərdi zehni funksiyaların (yaddaş, diqqət, təfəkkür, emosional – iradi sfera, qavrayış) müəyyən yaş üçün qəbul edilmiş normalardan geri qalması başa düşülür. Zehni qüsurlu uşaqların təfəkküründə baş verən problemlər onun sinir prosesinin xüsusiyyətləridir. Əqli cəhətdən geri qalan uşaqların təfəkkürünün bir sıra özünəməxsus xüsusiyyətləri vardır:

1.Bütün zehni əməliyyatların pozulması;

2.Düşüncə proseslərinin aktivliyinin azalması;

3.Qərar qəbulu prosesində şüursuzluq və hərəkətlərin xaosu;

4.Tənqidi düşüncə;

5.Onlarda olan təfəkkürün zəif tənzimləyici olması;

6.Zehni fəaliyyətləri zamanı aşağı motivasiyanın olması.

Bu hallar çox vaxt bir uşaq bağçasının hazırlıq qrupunda və ya məktəbdə ,xüsusən də 7-10 yaşında bir uşağın təhsilinin ilk illərində müəyyən olunur.Əqli geriliyi olan uşaqların tədqiqatı 60-cı illərdə Tədqiqat Defektologiya İnstitutundaT.A.Vlasova və M.S.Pevznerin rəhbərliyi altında başladı. Ancaq hazırda xüsusi psixologiya və pedaqogikada zehni geriliyi olan uşaqların yaddaş, təfəkkür, oyun fəaliyyətinin xüsusiyyətləri, nitqi, şəxsiyyəti haqqında bir sıra tədqiqatlar mövcuddur.Təhsil proqramına yiyələnməkdə çətinlik çəkən məktəbəqədər uşaqlar və kiçik şagirdlər üçün təcrübələr mövcuddur. Təfəkkürün köməyi ilə düşünmək biliklərin əsas vasitəsidir. Təfəkkür prosesi analiz, sintez, abstraksiya, konkretləşdirmə, ümumiləşdirmə, müqayisə kimi əməliyyatlarla birlikdə işləyir.Əqli geriliyi olan uşaqlarda zehni fəaliyyətin inkişafında geriləmə düşüncə quruluşunun bütün komponentlərində özünü göstərir. Əqli geriliyi olan uşaqlarda analiz prosesi yetərsiz olur, dəqiqlik, tamlıq müşahidə olunmur, uyğunsuzluq baş verir. Onlar bir obyekti analiz edərkən yalnız ən çox diqqət çəkənhissələri ayırırlar, ətraflı analiz etməyə səy göstərmirlər və buna görə də bəzi vacib xüsusiyyətləri görə bilmirlər. Onlarda analiz mükəmməl olmadığına görə sintez prosesi də düzgün getmir. Əşyaların fərdi xüsusiyyətlərini və yaxud da bir neçə əşyanın oxşar xüsusiyyətlərini fərqləndirə bilmirlər, onlar arasındakı əlaqəni aşkar edə bilmirlər. Buna görə də onlar obyekt haqqında fikir formalaşdırmaq da çətinlik çəkirlər. Əqli geriliyi olan uşaqlarda təfəkkürün özünəməxsus xüsusiyyətləri müqayisə əməliyyatlarında özünü göstərir. Onlar əşyaları əhəmiyyətsiz işarələrlə müqayisə edirlər məsələn, bir əşyanın forması digərinin rəngi. Onlar müqayisə prosesində fərqli xüsusiyyətləri ayırmaqda daha uğurlu olurlar. Təfəkkür prosesi özlüyündə 3 yerə bölünür: əyani-əməli, əyani-obrazlı və mücərrəd (sözlü-məntiqi). İstər sağlam uşaqların, istərsə də əqli geriliyi olan uşaqların təfəkkürünün inkişaf problemləri haqqında ədəbiyyatların təhlili göstərir ki, uşağın (insanın) ontogenezindəki təfəkkür prosesinin əyani-obrazlı forması daha sürətli inkişaf edir.L.S.Viqotski, R.S.Nemov, S.L.Rubinşteyn, F.A.Sokhin, G.A.Uruntaeva və başqa psixoloqların uşaqlarda əyani – obrazlı təfəkkürün inkişafı və xüsusiyyətləri haqqında çox saylı tədqiqatlar aparmışlar. Uşaqlarda təfəkkürün formalaşması və inkişafı bir neçə mərhələdən ibarət olur. Lakin bu mərhələlər bütün pedaqoq və psixoloqlar üçün eyni deyildir. Bunlardan əvvəl təfəkkü-

rün inkişafının yaş hüdudlarını müəyyənləşdirmək lazımdır. Məsələn, E.Erikson öztəsnifatında 3-7 yaş arasında təfəkkürün inkişaf xüsusiyyətlərini qeyd etmişdir. D.B.Elkonin də təsnifatlarında məktəbəqədər yaş dövrünü (3-7) əsas götürmüşdür. Hər yaş dövrü üçün yalnız gələcək inkişaf deyil,həm də idrak fəaliyyətinin ayrı-ayrı proseslərinin inkişafıda vacibdir.

Ədəbiyyat

1. Педагогическая поддержка развития наглядно-образного мышления у детей дошкольного возраста. Екатеринбург 2017
2. Children's thinking. Robin N. Campbell Department of Psychology University
3. Урунтаева.Г.А. Дошкольная психология. Академия 2001
4. Развитие мышления в процессе обучения. А.А.Леонтьев
Педагогическая поддержка развития наглядно-образного мышления у детей

Təfəkkür prosesinin özünəməxsus xüsusiyyətləri və əqli geriliyi olan uşaqlarda təfəkkürün inkişaf xüsusiyyətləri

XÜLASƏ

Pedaqogikada zəka geriliyi anlayışı psixoloji və pedaqoji xarakter daşıyır və hər şeydən əvvəl bir uşağın zehni fəaliyyətinin inkişafındakı geriliyi xarakterizə edir.Bu uşaqlar üçün zəka geriliyi və öyrənmə çətinliyi problemi ən aktual psixoloji və pedaqoji problemlərdən biridir.Əqli gerilik idrak proseslərinin fəaliyyətinin çatışmazlığıdır.Yəni əqli gerilik psixikanın qismən və ya tam ləngiməsidir. Əqli geriliyin yaranmasının bir sıra səbəbləri vardır:

1.Bioloji səbəblər

2.Sosial – psixoloji təbiətin səbəbləri

Əqli geriliyin yaranma səbəblərinin mərkəzində bioloji və sosial səbəblərin qarşılıqlı təsiri durur. Əqli geriliyi olan uşaqlarda bir sıra əlamətlər özünü göstərir: gec danışır yaxud da nitqi aydın olmur, problemləri həlletməkdə çətinlik çəkir, təfəkküründə pozulma baş verir.

Особенностимыслительногопроцесса и особенностиразвитиямышления у детей с задержкойумственногоразвития

РЕЗЮМЕ

В педагогике понятие умственной отсталост и носит психолого-педагогический характер и, прежде всего, характеризует развитие умственной деятельности ребенка. Для этих детей проблема умственной отсталости и трудностей в обучении является одной из наиболее актуальных психолого-педагогических проблем. Это частичная или полная задержка. Существует ряд причин умственной отсталости:

1. Биологические причины
2. Причины социально-психологического характера.

В основе причин умственной отсталости лежит взаимодействие биологических и социальных причин. У детей с задержкой умственного развития проявляется ряд симптомов: они поздно говорят или их речь нечеткая, им трудно решать проблемы, у них нарушено мышление.

Peculiar of the thought process and features of the development of thinking in children with mental retardation

SUMMARY

ln pedagogy, the concept of mental retardation has a psychological and pedagogical character and,above all, characterizes the development of a child’s mental activity.For these children,the problem of mental reterdation and learning difficulties is one of the most pressing psychological and pedagogical problems. Mental retardation is a lack of functioning of cognitive processes.That is, mental retardation is a partial or complete retardation of the psyche. There are a number of reasons for mental retardation :

1.Biological causes

2.Causes of social – psychological nature

At the center of the causes of mental retardation is the interaction of biological and social causes. Children with mental retardation show a number of symptoms: they speak late or their speech is not clear, they have difficulty solving problems and their thinking is impaired.

Gülməmmədli Gözəl Habil qızı
ADPU, məktəbəqədər təlim və tərbiyənin metod və metodologiyası, II kurs magistrı
Elmi rəhbər: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ş.A.Baxışova

UŞAQLARIN ƏQLİ İNKİŞAFINDA GƏZİNTİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: *məktəbəqədər təhsil, uşaqlar, gəzinti*
Ключевые слова: *дошкольное образование, дети, прогулки*
Key words: *preschool education, children, walking*

Bu gün gənc nəslin hərtərəfli inkişafında və şəxsiyyət kimi formalaşmasında məktəbəqədər təhsil müəssisələrinin üzərinə daha böyük məsuliyyət düşür. Məktəbəqədər yaş uşağın fəal sosiallaşması, mədəni vərdişləri mənimsəməsi, mənəvi və estetik hisslərin oyanması dövrüdür. Məktəbəqədər təhsil müəssisələri də öz növbəsində uşağın ətraf aləmlə qarşılıqlı harmoniyasını təmin etməyə, xeyirxah hisslər oyatmağa, əməkdaşlığa və müsbət özünütəsdiqə nail olmağa qadirdir. Məhz bu dövrdə uşaqlarda ətraf aləm haqqında ilkin təsəvvürlər, təfəkkür elementləri formalaşır, ətraf aləmin hadisələri, sadə qanunları və qanunauyğunluqları arasında qarşılıqlı əlaqələri müəyyənləşdirmək və əldə edilmiş bilikləri praktik fəaliyyətdə müstəqil tətbiq etmək bacarığı yaranır. Uşaqlar fakt və hadisələri müqayisə etmək, ümumiləşdirmək, qruplaşdırmaq, əlamətlərinə görə ayırmaq, nəticə çıxartmaq kimi bacarıqlara yiyələnirlər.

Uşaq böyüdükcə ətrafında olan cisimlər və baş verən hadisələr onu heyrətləndirir. Uşaq çiçəyi, gülü görəndə sevinir, xoruzun banlaması, itin hürməsi, quşların uçması onu heyrətləndirir. Məktəbəqədər dövrdə isə artıq uşaqların dünyagörüşü bir qədər genişlənir. Bütün bunlar hamısı onu göstərir ki, körpəlik dövründən başlayaraq uşaqların əqli tərbiyəsi üçün bir sıra vasitələrdən istifadə edilir. Belə vasitələrdən biri də uşaq bağçasında təşkil edilən gəzintilərdir.

Gəzinti insan həyatında elə bir faktordur ki, insan həyatını onsuz təsəvvür etmək olmaz. Gəzinti əyləncə xarakteri daşımır. Gəzinti əqli inkişafın təkan vericisidir. Gəzintilər böyüklərin həyatında mühüm əhəmiyyət kəsb etdiyi kimi uşaqların da həyatında mühüm yer tutur.

Məlumdur ki, təmiz hava, günəş, aydın səma insan sağlamlığının əsas faktorudur. Xalqımız buna daima diqqət yetirmiş, uşaqların qayğısına qalmış, həmişə onları səfalı yerlərə aparmış, qışda aranda, yayda isə sərin yaylaqlarda olmuşlar. Gəzintiyə çox böyük əhəmiyyət verən ulu babalarımız belə bir ifadə işlətmişlər: «Çox gəzən çox bilər, çox yaşayan yox». Yəni heç vaxt evindən bayıra çıxmayan insanın həyatı durğun gölməçə kimidir. Amma gəzməyə çıxan insanlar çox şey görür və öyrənirlər.

Gəzintinin məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsində əhəmiyyəti haqqında bir sıra pedaqoqların gözəl fikirləri olmuşdur. Hələ eramızdan çox-çox əvvəl yaşamış, görkəmli yunan filosofu Platon yazırdı ki, uşaqları hər gün gəzintiyə aparmaq lazımdır. Qoy onlar təbiətin qoynunda, meşədə, məbəddə olsunlar. Bu gəzintilər onlar üçün çox fayda verir. Platon deyirdi ki, ağıllı uşaq nadan qocadan yaxşıdır. Əqli tərbiyə əqli əməklə fiziki əmək arasındakı əksilikləri aradan götürəcək, şəxsiyyətin inkişafında əsas vasitəyə çevriləcək. Belə olmasaydı bəşəriyyət heç bir nailiyyət əldə edə bilməzdi.

Gəzintilər uşaqların əqlinin inkişaf etdirilməsinə,təsəvvürlərinin dəqiqləşməsinə çox müsbət təsir göstərir. Belə ki, uşaqlar gəzinti vaxtı bir-biri ilə, həmçinin tərbiyəçi ilə söhbətlər aparır, sərbəst mühakimələr yürüdə bilirlər.

Ümumiyyətlə, uşaq şəxsiyyətinin hərtərəfli harmonik inkişafı üçün gəzinti zamanı uşaqlarla təlim-tərbiyə prosesində böyük potensial imkanlar var.

Məktəbəqədər təhsil müəssisələrinin tərbiyə və təlim proqramında gəzinti gün rejimində xüsusi yer tutur. Uşaq bağçalarında gün rejiminə əsasən gəzintilər günün birinci yarısında məşğələlərdən sonra və günün ikinci yarısındaaxşam yeməyindən sonra keçirilir. Gəzintilər uşaqların yaşlarına müvafiq təşkil olunur. Uşaqların təmiz havada olmaları fəslə uyğun olaraq dörd saata qədər ola bilməsi nəzərdə tutulur. Yayda bu vaxtındaha da uzanması məsləhət görülür.

Gəzinti uşaqların intellektual inkişafına kömək edir. Sahədə və ya küçədə gəzinti zamanı uşaqlar ətraf aləm haqqında: böyüklərin əməyi, nəqliyyat, yol hərəkəti qaydaları və s. haqqında çoxlu bilik və təəssürat alırlar. Onlar müşahidələrdən təbiətdə baş verən fəsillə əlaqədar dəyişikliklərin xüsusiyyətləri haqqında öyrənir, müxtəlif hadisələr arasında olan əlaqələri tapır, sadə asılılıqlar qururlar. Gəzinti onlarda maraq yaradır, yaranan bir sıra suallara cavab tapmağa çalışırlar. Bütün bunlar uşaqlarda müşahidəçilik qabiliyyətlərini inkişaf etdirir, ətraf aləm haqqında uşaqların təsəvvür və təxəyyülünü genişləndirir.

Gəzinti əxlaq tərbiyəsinin vəzifələrini də yerinə yetirməyə imkan verir. Tərbiyəçi uşaqları doğma şəhərlə, böyüklərin əməyi ilə tanış edir, şəhərimizin gözəlləşməsində xidmətləri olan peşə adamları haqqında məlumat verir. Bu zaman kollektiv əməyin xarakteri və onun əhəmiyyəti haqqında danışır. Ətraf aləmlə tanışlıq uşaqlarda vətənə, doğma şəhərinə (kəndinə, qəsəbəsinə) məhəbbət tərbiyəsinə imkan yaradır. Kiçik uşaqlar təbiət guşəsində çalışanda onlarda əməksevərlik, əməyə məhəbbət və təbiətə qoruyucu münasibət tərbiyə olunur. Onlar ətrafda olan gözəlliyi görməyi öyrənirlər.

Gəzinti zamanı uşaqlar oynayırlar, qaçırlar, müşahidə edirlər. Hərəkət onlarda maddələr mübadiləsini tənzimləyir, qan dövranını dəyişdirir, iştahasını artırır. Onlarda cəldlik, cəsarətliliyi inkişaf etdirir. Əzələ sistemini möhkəmləndirir, onlarda bir yüngüllük rahatlıq yaradır. Eyni zamanda uşaqların əqli qabiliyyətinin inkişaf etməsinə şərait yaradır. Uşaq gəzintiyə çıxarkən ətraf aləmdən çox şey öyrənir, onlarda çoxlu yeni-yeni təəssüratlar yaranır.

Körpəlik dövründən başlayaraq uşaqların gəzintiyə aparılması vəgəzintinin faydalı və səmərəli keçməsi üçün lazımi şəraitin yaradılması tərbiyəçilərin ən ümdə vəzifələrindəndir. Uşaqların gəzintiyə həvəslə getmələri üçün tərbiyəçinin gəzintinin məzmununu əvvəlcədən düşünməsi və təşkil etməsi vacib məsələlərdəndir. Çünki gəzintinin məzmunlu və maraqlı olması uşaqların gəzintiyə böyük həvəslə getməsinə səbəb olur. Gəzinti uşaqların hərtərəfli inkişafı üçün faydalıdır.

Beləliklə, düzgün təşkil edilmiş və düşünülmüş gəzintilər uşaqların hərtərəfli inkişafı üçün nəzərdə tutulan vəzifələrin həyata keçirilməsini təmin edir.

Ədəbiyyat

1. Məktəbəqədər tərbiyə müəssisləri üçün təlim və tərbiyə proqramı, Bakı, 1998, səh.219

2. Rüstəmova N. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsində şifahi xalq yaradıcılığının rolu, Bakı, 2003, səh.182

3. Məktəbəqədər təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi; // «Təhsil xəbərləri» jurnalı 2012, № 4, 26- 43 s

4.Сухомлинский Б.А. Сердце отдаю детям. Киев, Издательство «Радяньска школа». 1972, с.141-142. 214 с.

5.Кравченко И.В.,Долгова Т.Л. Прогулки в детском саду. Младшая и средняя группы. Издательство:Сфера,2009 г.176 стр.

6.Кравченко И.В.,Долгова Т.Л. Прогулки в детском саду. Старшая и подготовительная группы. Сфера, стр 208

Gülməmmədli Gözəl Habil qızı

XÜLASƏ

Uşaqların gəzintiyə həvəslə getmələri üçün tərbiyəçinin gəzintinin məzmununu əvvəlcədən düşünməsi və təşkil etməsi vacib məsələlərdəndir. Çünki gəzintinin məzmunlu və maraqlı olması uşaqların gəzintiyə böyük həvəslə getməsinə səbəb olur. Gəzinti uşaqların hərtərəfli inkişafı üçün faydalıdır.

Гюльмамедли Гозель Габиль кызы

РЕЗЮМЕ

Педагогу важно заранее продумать и организовать содержание прогулки, чтобы дети могли с энтузиазмом отправиться на прогулку. Потому что содержание и интерес прогулки заставляют детей гулять с большим энтузиазмом. Ходьба полезна для всестороннего развития детей.

Gulmammadli Gozel Habil gizi

SUMMARY

It is important for the educator to think about and organize the content of the walk in advance so that the children can go for a walk with enthusiasm. Because the content and interest of the walk makes children go for a walk with great enthusiasm. Walking is useful for the comprehensive development of children.

Аскерова Фирангиз Муршуд кызы
АГПУ, социально-психологическая служба в образовании, III Tədris ili
Elmi rəhbər: Əskərova Yeganə Baxış qızı

РОЛЬ ПОЛОВОГО ВОСПИТАНИЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ПОДРОСТКА

Açar sözlər: *cinsi tərbiyə, yeniyetmə, yetişkənlik dövrü, pedoqoji psixologiya, şəxsiyyətin inkşafi*

Ключевые слова: *половое воспитание, подросток, подросковый возраст педагогическая психология, развитие личности*

Key words:*sex development, teenage, maturity period, pedagogical psychology, personality development*

Одним из наиболее существенных качеств личности в современном динамично меняющемся обществе является способность постоянно трудясь повышать свою квалификацию, самостоятельно добывать кладызнания. Другими словами, современный человек должен уметь профессионально работать с информацией, поскольку информация и знания – это неразрывно связанные понятия в совокупности. Совокупность знаний и умений, обеспечивающих наиболее эффективную работу с информацией, в последние годы в профессиональной речи все чаще именуется термином «информационная культура личности». Стимулирование учебной деятельности подростков показывает очень большое влияние на уровеньучебного процесса, определяет успешность всей учебной деятельности. Поскольку получение образования это и естьтребование к любой человеческой личности, необходимо, начиная с начальных классов стимулировать учебную деятельность учащихся а так же правильное восприятие к вопросам пола. Половое воспитание – это система медико-педагогических мер по воспитанию детей, самих же родителей, молодёжи, правильного отношения к вопросам пола Ведущая роль в формировании информационной культуры личности отводитсяименно к образовательным учреждениям.

Благополучное развитие общества связано с созданием национальных систем психологического обеспечения.

Практическая психология в Азербайджане начала зарождаться в 80-ые годы. История формирования социально-психологических идей, литературы развития личности, полового развитияв Азербайджане связана с именами таких, великих психологов своего времени, как Абдул Ализаде, Акпер Байрамов, Рамиз Алиев, Иса Мамедов, Мухтар Хамзаев,и т.д.

Психологическая служба в Азербайджанв сфере психологического развития общества, путём развития литературы, в том числе обеспечения их социальной защиты, а также в соответствии с законодательством Азербайджана, с другими нормативно-пра-

вовыми актами. Основоположник практической психологии Зигмунд Фрейд предполагал, что психологическая практика «в чистом виде» является основной, а не прикладной к образовательной и профессиональной. Развитие психологической службы способствует развитиюпсихологически-здорового общества.

Половое воспитание как важнейший фактор поло -ролевой социализации представляет собой целостный, целенаправленный, содержательно наполненный, технологически выстроенный, результативно диагностируемый процесс взаимодействия педагога с ребенком, способствующий адекватному восприятию и освоению гендерной культуры и формированию межполовой толерантности. В современных исследованиях достаточно полно представлены разные аспекты полового воспитания: изучены возможности отдельных; произведения изобразительного искусстваформ организации детей и др. Р.И.Алиев пишет, что главными мотивами экономических трудностей, наряду с оказанием всестороннего внимания и заботы о детях, проявляетсяжелание жить в свое удовольствие, А.Ализаде по этому поводу пишет, что в основе проблемы стоит социализация личности, а социализация общества во многом зависит от полового воспитания.

Профессор А.Ализаде пишет: «Психический пол формируется как неотделимая часть развития личности ребенка. С этой точки зрения, первичный этап развития личности должен быть оценен как первый этап формирования психического пола» (3, стр. 302). А.Ализаде разделяет развитие психического пола на три этапа: В первыйэтап он включает развитие с 3-х до 10-ти лет. На этом этапе формируются простые первичные представления о полах. Во второйэтап относит подростковый период, раннюю молодость и молодость. На этом этапе происходит половое созревание и на базе опыта меж полового общения в области половой мотивации парней и девушек происходят коренные изменения, усложняется их эмоциональная жизнь, они начинают осваивать роль родителей, а так же третий период — это период подготовки к семейной жизни. В этом периоде возникают чувства отцовства и материнства, начинается освоение роли родителей.

Суть полового воспитания сводится к тому, чтобы подготовить к взрослой жизни здоровых мужчин и женщин, способных адекватно осознавать свои физические и психологические особенности, устанавливать нормальные отношения с людьми своего и противоположного пола во всех сферах жизни, реализовывать свои потребности в соответствии с существующими в обществе нравственными и этическими нормами. В конечном счете, это означает воспитание эмоционально зрелой личности.

Основные задачи полового воспитания – неотъемлемая часть общего воспитательного процесса и осуществляются в различных видах общения и совместной деятельности. Поведение человека зависит от конкретной жизненной ситуации. И в этой связи следует изучать и пропагандировать гибкие психологические механизмы, управляющие поведением человека, которые при непосредственных контактах с противоположным полом не причиняли бы излишних страданий, а были бы понятны и естественны.

Обратимся к работе В.В.Кагана, где сформулированы основные направления полового воспитания:

- половое воспитание, помогающее формированию психологической мужественности (женственности). Обучение нормальному общению со сверстниками противоположного пола.

- сексуальное воспитание, направленное на оптимизацию формирования сексуально-эротических ориентации и сексуального сознания.

- подготовка к сознательному и ответственному супружеству.

- подготовка к сознательному и ответственному родительству, выработка оптимальных репродуктивных установок.

- формирование здорового образа жизни через разъяснение зависимости сексуальности, супружества, родительства от венерических заболеваний, СПИДа, наркомании и т.д.

- профилактика нарушений психосексуального развития, особенно на ранних стадиях становления личности подростка.

- предупреждение растления и совращения детей и подростков.(4)

Основные принципы полового воспитания приведены в работе Ю.М.Орлова:

- принцип целеустремленности (соотнесение целей полового воспитания с фазами психосексуального развития детей).

- самовоспитание (половое воспитание во многом зависит от стремления ребенка к самовоспитанию, для этого ребенку, подростку надо ясно представлять себе цели и хотеть достичь их).

- принцип «не навреди».

- принцип «не стыди».

- принцип опоры на положительное, в том числе на положительные примеры поведения авторитетных для ребенка взрослых. Психологическая основа этого принципа - положительное эмоциональное подкрепление, которое создает положительную мотивацию любому поведению, деятельности.

- принцип индивидуального подхода.

- принцип невозбуждения полового влечения (в основе этого принципа лежит тезис, утверждающий, что половую жизнь не следует начинать до полного физического созревания). В пользу этого тезиса свидетельствуют аргументы как педагогического, так и медицинского характера. Чем меньше энергии, сосредоточенной на объекте полового влечения, будет израсходовано на половую жизнь, тем большая ее часть пойдет на развитие и укрепление организма в целом - скелета, мышц, мозга и связанных с ним функций высшей нервной деятельности. Принцип невозбуждения полового влечения связан с требованием сублимации.

- принцип единства обучения и воспитания.

- принцип системности, последовательности, комплексности. (5, стр 47)

Несмотря на то, что подростки указывают на своих сверстников и средства массовой информации как важные источники сексуальной информации, родители, их опыт остаются важным фактором для формирования репродуктивного здоровья детей. Большинство родителей хотели бы быть педагогами для своих детей, однако они чувствуют себя неподготовленными по различным причинам: недостаток информации, дискомфорт в обсуждении сексуальных проблем, что нередко заканчивается конфликтами. Тем не менее, информация относительно чувства собственного достоинства, восприятия своего тела, ролей пола и межперсональных отношений могут и должны быть переданы через семейные установки. С другой стороны, поведение многих родителей, не желающих обсуждать со своими детьми вопросы сексуального поведения и его последствий, так же как и многие школьные образовательные программы здоровья, имеющие различное качество, привели к тому, что телевидение стало ведущим источником сексуального образования.

В этой связи должны быть подготовлены профессиональные работники, которые смогли бы обсудить с подростками «миф совершенного тела», изображаемого в кино, журналах и телевидении. Такими людьми вполне могут быть медицинские работники (включая школьных медицинских сестер) и специально подготовленные педагоги.

Литература

1. Алиев Р. История психологии, Баку, 2006.
2. Байрамов А.С., Ализаде, А.А., Психология., Баку, 2009.

3. Байрамов А.С. Психологический аспект в творчестве И. Насими // IV Закавказскаяконф. Психологов (тезисы,доклады), Баку, 1974
4. А.А.Ализаде — Психологические проблемы современной азербайджанской школы. Баку: Озан, 1998, 364 с.
5. Каган В.В. Что мы знаем о половом воспитании? – М.: Просвещение.
6. Орлов Ю.М. Половое воспитание, как звено становления личности. – М.: Просвещение
7. З.Фрэйд. Очерки по психологии сексуальности.

Yeniyetmə şəxsiyyətinin formalaşmasında cinsi tərbiyənin rolu

XÜLASƏ

Məqalədə gənc nəslin tərbiyəsini psixopedaqoji qanunauyğunluqlarından bəhs edilir. Yeniyetmələrde şexsiyyetin formalaşmasinda hormonal dəyişikliklərlə əlaqədar olaraq, fikir dağınıqlığı, yaddaşın zəifləməsı kimi əlamətlər xarakterik hesab olunur. Cinsi yetişkənlik dövrü həm gencin özü, həm də onun valideynləri üçün çox mürəkkəb bir mərhələdir. Məqalədə praktik psixologiyanın bu istiqamətini tədqiq edən alimlərin - Əliyev R.İ., Əlizadə Ə.Ə, Bayramov Ə.S., Orlov Y.M, KaqanV.V. və Z.Freyd əsərləri araşdırılmışdı.

The roleof sexeducation in the formation of adolescent personality

SUMMARY

The article discusses the psychopedagogical regularities of the upbringing of the younger generation. In adolescents, symptoms such as confusion and memory loss are considered to be characteristic of hormonal changes in personality formation. The period of sexual maturity is a very difficult stage for both the young man and his parents. In the article, the scientists studying this direction of practical psychology - Aliyev RI, Alizade AA, Bayramov A. S., Orlov. Y.M., Qaqan V.V. and Z. Freud's works were studied

Аскерова Фирангиз Муршуд кызы
АГПУ, социально-психологическая служба в образовании, III Tədris ili
Elmi rəhbər: Əskərova Yeganə Baxış qızı

РОЛЬ СЕМЬИ И ШКОЛЫ В ФОРМИРОВАНИИ ПОЛОВОГО ВОСПИТАНИЯ

Açars özlər: *cinsi tərbiyə, yeniyetmə, yetişkənlik dövrü, ailə, məktəb*
Ключевые слова: *половое воспитание, подросток,подростковый возраст, семья, школа*
Key words: *sex development, teenage ,maturity period, family, school*

Семья - это первая среда, откуда ребенок черпает свои первые познания о мире, однако она не единственная, так как после нее источником информации обо всем окружающем вообще и о половых отношениях в частности для детей станут школа, друзья и общество в целом.

Воспитание детей начинается в семье ипоэтому уровень нравственной культуры родителей, их жизненные планы и устремления, опыт социального общения, семейные традиции имеют решающее значение в воспитании ребенка. (1, стр. 4). Семья вместе со школой и общественными организациями «призваны подготовить не только будущего гражданина, но и будущего семьянина -- мужа и отца, жену и мать, научить молодого человека жить содержательно, интересно икрасиво, и главное уметь самому организовать такую жизнь...

Важно, чтобы ребенок с раннего возраста получил первые представления о нормах и правилах коммунистической морали, о правилах поведения, усвоил хороший нравственный урок правильных взаимоотношений между полами, учился чувствовать, понимать чувства других людей, уважать их.

Многие родители сознают важность и необходимость полового воспитания ребят, правильно понимают его суть. Однако, несмотря на это, ошибочно полагают, что вопросы, связанные с половым влечением и взаимоотношением полов, дети разрешат когда-нибудь сами без их родительского участия. А часть этих пап и мам убеждены, будто половое воспитание – дело только специалистов: врачей и педагогов. Дети, с которыми на темы пола не беседуют родители и учителя, часто получают информацию от подруг и товарищей. Эта информация страдает недостаточной научностью,программы и учебные пособия по половому воспитанию, а также по валеологии, куда составной частью входит этот раздел, настолько разнородны по характеру включаемого в них материала мы сможем найти в работах (Алиев Р. История психологии, Байрамов А.С., Ализаде А.А., Психология., а так же Психологические проблемы современной азербайджанской школы, Строганова Л.В., Учебное пособие «Половое воспитание девочек младшего возраста, Выготский Л.С. Педагогическая психология …). Говоря о зависимости различных полов от семейного воспитания, авторы снова ссылаются на исследования А.А.Ализаде. «Контроль родителей за мальчиками и девочками отличается». А.А.Ализаде называл это социально-половой контроль (3). Работы Байрамова А.С. вместе с, Новикова Е.Н, Сапронов Н.С.на медицинском уровнеоповещают нас о строении психики человека во всех возрастных категориях, его работы и эксперименты показывают важность правильного подхода к развитию полового развития в целом.

Рассматривая актуальные, крайне необходимые вопросы, без знания которых родители не могут эффективно руководить формированием ребенка, стоит остановиться на проблеме полового воспитания мальчиков и девочек. К сожалению, эти вопросы в литературе, рекомендуемой для родителей, рассматриваются редко, а в лекциях, читаемых в родительских лекториях и родительских университетах, их тоже обходят. А между тем, если быть объективным, они заслуживают самого пристального внимания и серьезного к себе отношения.Являясь частью общего процесса воспитательной работы, половое воспитание включает в себя два компонента: половое просвещение и непосредственно половое воспитание. Под половым просвещением разумеют сообщение детям определенных правильных сведений о размножении живых существ. Половое же воспитание - «составная часть общего процесса воспитательной работы школы и семьи, обеспечивающая правильное половое развитие детей и молодежи с нравственной, физической, умственной и эстетической точек зрения».(6, стр. 18).

Воспитание отношений человека одного пола к другому и связанных с этим тончайших и сложных навыков поведения и самоконтроля. (7). Половой инстинкт как предмет воспитания требует таких приспособлений к социальной структуре жизни, которые не шли бы вразрез с установленными формами, и задача заключается вовсе не в том, чтобы подавить или обессилить половой инстинкт; напротив, воспитатель или родительдолжен заботиться о полном его сохранении и нормальном развитии.

Литература

1. Алиев Р. История психологии, Баку, 2006.

2. БайрамовА.С.,АлизадеА.А., Психология., Баку, 2009.

3. Байрамов А., Новикова Е.Н. Влияние перинатального стресса на половое поведение…— 2008. — No 2. — С. 48–53.

4. Байрамов А.А., Сапронов Н.С. Влияние перинатального развития на моноаминергической системы головного мозга.

5.А.А.Ализаде — Психологические проблемы современной азербайджанской школы. Баку: Озан, 1998, 364 с.

6. Строганова Л. В., Учебное пособие «Половое воспитание девочек младшего возраста. «Издательство: Педагогическое общество России (Центральный совет), Пед. общество России, 2005 г.

7. Выготский Л. С. Педагогическая психология. М.: Педагогика, 1991

Cinsi tərbiyənin formalaşmasında ailəvə məktəbinrolu

XÜLASƏ

Müasir dövrümüzdə cinsi tərbiyə psixoloji mahiyyət kəsb edir, eyni zamandasosial mühitin təsiri altında formalaşır. Başqa sözlə, valideynlərin, digər böyüklərin uşaqlarda tərbiyə etmək istədikləri keyfiyyətlərdən asılı olaraq inkişaf edir.

Psixoloq və pedaqoqlar, valideynlər, bütövlükdə cəmiyyət həm insanlar arasındakı münasibətlərdən, həm də iqtisadi, mənəvi-psixoloji durumdan asılı olaraq oğlan və qızların tərbiyəsinə müxtəlif mövqedən yanaşmışlar.Cinsi tərbiyədəailənin və məktəbin rolu əvəzsizdir. Cinsi tərbiyə uşaqların ümumitərbiyəsinin ayrılmaz hissəsi olub, uşaq böyüyüb yetkin, müstəqil şəxsiyyətə çevrilinədək davam edir. Məqalədə praktik psixologiyanın bu istiqamətini tədqiq edən alimlərin - Əliyev R.İ., Əlizadə Ə.Ə, Bayramov Ə.S., Stroganova L.V, Viqotskiy L.S. əsərləri araşdırılmışdı.

The role of the family and school in the formation of sex education

SUMMARY

In modern times, sex education has a psychological nature, but at the same time is formed under the influence of the social environment. In other words, it develops depending on the qualities that parents and other adults want to bring up in children.

Psychologists and educators, parents, and society as a whole have different approaches to the upbringing of boys and girls, depending on the relationship between people and the economic, moral and psychological situation. The role of the family and school in sex education is invaluable. Sex education is an integral part of the general upbringing of children and continues until the child grows up to become an adult, independent person. In the article, the scientists studying this direction of practical psychology - Aliyev R.I, Alizade A.A, Bayramov A.S., Stroganova L.V, Vigotskiy L.S. works were examined.

Əlibalayeva Billurə Nasir qızı
Korreksiyaedici təlimin metodika və metodologiyasi

ƏQLİ GERİLİYİN PSİXOLOJİ-PEDAQOJİ XARAKTERİSTİKASI

Açar sözlər: *əqli gerilik, idrak fəaliyyəti, görmə qavrayışı, psixi inkişaf pozulması, təfəkkür, diqqət, psixoloji və pedaqoji araşdırmalar, korreksiya, ekzogen amillər*

Ключевые слова: *умственная отсталость, познавательная деятельность зрительное восприятие, расстройства психического развития, мышление, внимание, психолого-педагогические исследования, коррекция, экзогенные факторы*

Key words: *mental retardation, cognitive activity, vision perception ,mental development disorder, think, attention, psychological and pedagogical research, correction, exogenous factors*

Əqli gerilikbaş beynin üzvi zədələnməsi nəticəsində idrak fəaliyyətinin davamlı zəifləməsidir. Artıq XVIII əsrdə J.E.D.Eskirol, E.Krepelin kimi psixiatrların diqqəti ciddipsixi inkişaf pozulmalarının öyrənilməsinə və təhlilinə yönəlmişdi.XIX əsrin ortalarındanbəri intel-

lektual çatışmazlıq problemləri təkcə həkimləri deyil, həm də müəllimləri, daha sonra isə psixoloqları narahat etməyə başladı. Rusiyada əqli gerilikproblemininnəzərdən keçirilməsi, oliqofreniyanın mütərəqqi ruhi xəstəliklərdən fərqləndirilməsi XX əsrin əvvəllərində başlandı (Кашченко; Россолимо - tibb).XX əsrin 20-ci illərində L.S.Vıqotski həkimlərin, psixofizioloqların, psixoloqların tədqiqatlarını birləşdirdi.

Ayrı-ayrı ölkələrdə əqli cəhətdən qüsurlu insanlarınfaiz nisbəti fərqli olaraq qiymətləndirilir.Bugöstəricilərorta hesabla 2,5 ilə 4 faiz arasında dəyişir.Bu gün AzərbaycandaBeynəlxalq Xəstəliklər Təsnifatın10-cu düzəlişin (BXT-10)-dən istifadə edir.Beləliklə, xüsusi psixologiyada əqli geriliyin aşağıdakı dərəcələri fərqləndirilir:

F-70 yüngül əqligerilik;

F-71 orta əqligerilik;

F-72 ağır əqligerilik;

F-73 ənağır əqligerilik.

Yüngül əqli gerilik psixi inkişaf pozulmasının ən aşağı dərəcəsi və ən çox yayılmış formasıdır, təqribən əqli cəhətdən geri qalanların təxminən 75-85%-ni təşkil edir.

Bu insanlarda hisslər və qavrayışlar tədricən, çoxlu sayda özünəməxsus xüsusiyyətlər və çatışmazlıqlar ilə formalaşır. Bu nüvə simptomu bütün psixi inkişafa təsir göstərir. Psixoloqlar belə insanlarda görmə qavrayışının yavaş və dar olduğuna işarə edirlər. Qavramanın qeyri-differensial olması, oxşar cisimləri bir-birindən ayırmağı tanımağa çalışarkən ayırd edə bilməmələrində özünü göstərir (pişiklə dələni, saatla kompası fərqləndirə bilmir).

Bununla birlikdə, diqqətin cəmlənməsində geriləmə aşkar edilir və bu da sabitliyin azalmasına səbəb olur. Bu, psixifəaliyyətdə çətinliklərin yaranmasının ilkin şərtlərindən biri olmaqla, məqsədyönlü idraki fəaliyyəti çətinləşdirir. Yüngül əqli gerilik psixi inkişaf pozulmasının ən kiçik dərəcəsidir, ən çox yayılmış formasıdır və əqli cəhətdən geri qalan bütün əhalinin təxminən 75-85% -ni təşkil edir.

Bununla əlaqədar, əqli gerilikli uşaqların təxminən 50% -i ya şifahi təlimatlandırmadan istifadə edə bilmir, ya dabuonların məhsuldarlığına təsir göstərmir.

İxtiyaridiqqət böyükçətinliklərlə yaranır. Diqqətin sabitliyindəki dəyişiklikoyanma və tormazlanma balansının pozulması ilə əlaqələndirilə bilər. Diqqətin dəyişdirilməsində, yəni bir fəaliyyətdən (çalışmadan) digərinə keçməkdə pozulma baş verir.

Belə əqli gerilikli insanların diqqəti və yaddaşı qənaətbəxşdir. Yaddaş pozulmaları qişanın yekunlaşdırma funksiyasının zəifliyi və yeni şərti əlaqələrin yaranma tempinin yavaşlaması və kiçik həcmdə olması, eləcə də, onların qeyri-möhkəmliyi ilə izah olunur.

Onlar materialı dəqiq ifadə etmirlər. Hər yeni məlumatı yavaş-yavaş və yalnız dəfələrlə təkrarlamadan sonra öyrənirlər, qəbul edilənləri tez unudurlar və əldə edilmiş bilik və bacarıqlardanpraktikada yeri gəldikdəistifadə edəbilmirlər.

Təfəkkürünpozulması əqli geriliyin əsas əlamətidir.Bu zamanümumiləşdirmələrinsəviyyəsikiçilir, təhlil və tərkib əməliyyatları pozulur. Əşyaları müqayisə edərkən tez-tez sadə təsvirlə kifayətlənirlər. Elementar anlayışlar yaratmaq bacarıqları olur, təfəkkür əsasən konkretsituasiya ilə bağlıqalır.

Vaxt, məkan, səbəb təsəvvürlərinə malik olsalar belə (əqli geriliyin digər dərəcələri üçün əlçatmaz olan) bu uşaqlar onlar üçün yeni olan bir mühitə uyğunlaşmaqda, təqdim olunan şəklin mahiyyətini dərk etməkdə çətinlik çəkirlər.

Təfəkkür öz labilliyi və inertliyi ilə xarakterizə olunur.

Labillik uşaqlarda adekvat və qeyri-adekvat qərarların verilməsi ilə ifadə olunur

İnertlik isə bir fikirdən digərinə keçməkdə çətinlik çəkməkdə, yəni intellektual proseslərin yavaşlaması düşüncə və fikirlərin kasıblığında, düşüncə tempinin aşağı düşməsində, hadisələrin təhlili zamanı əsasın ikinci dərəcəlidən ayırd edə bilmək bacarığının olmamasında özünü göstərir.

Düşüncənin özünütənqid tərəfi pozulur, yəni öz hərəkətinə nəzarət və buraxılan səhvlərin korreksiyasıhəyata keçirilmir.

Bu qrupa aid olan uşaqların təxminən 40-60%-ni nitq pozulmaları da müşayiət edir. Nitqin inkişafında əhəmiyyətli bir gecikmə aşkar olunur. Səslərin nitq və eşitmə diskriminasiyasının motor bacarıqları normaldan daha gec baş verir (təxminən 3-4 yaşda).

Bunun səbəbi beynin qapanma funksiyasının zəifliyi, sinir proseslərinin dinamikasının pozulmasıdır. Bu zaman bir çox hallarda fonematik eşitmənin formalaşması pozulur. Qrammatik quruluş monotərkibli ifadələr xarakterizə olunur, cümlələrdə sözlərin uzlaşmasının pozulması baş verir.

Orta əqli gerilik, intellekti pozulmuş uşaqlar arasında təxminən, 10%-lik bir rəqəmlə ifadə olunur. Onun meydana gəlməsinin səbəbləri həm endo, həm də ekzogen amillər ola bilər. Onun əsasını formalaşmamış idraki proseslər (konkret, qeyri ardıcıl, yavaşlamış düşüncə) və mücərrəd anlayışlar yarada bilməmək təşkil edir. Bir qayda olaraq, sensor sfera (hiss, qavrayış) ağır şəkildə pozulur. Anlamanın, nitqin, eləcə də özünəxidmət bacarıqlarının inkişafı geri qalır. Onların məktəbdə müvəffəqiyyəti məhduddur, bəzi uşaqlar oxumaq, yazı və sayma bacarıqlarına yiyələnirlər. Orta əqli gerilik, intellekti pozulmuş uşaqlar arasında təxminən, 10%-lik bir rəqəmlə ifadə olunur. Onun meydana gəlməsinin səbəbləri həm endo, həm də ekzogen amillər ola bilər. Onun əsasını formalaşmamış idraki proseslər (konkret, qeyri ardıcıl, yavaşlamış düşüncə) və mücərrəd anlayışlar yarada bilməmək təşkil edir. Bir qayda olaraq, sensor sfera (hiss, qavrayış) ağır şəkildə pozulur, anlamanın, nitqin, eləcə də özünəxidmət bacarıqlarının inkişafı geri qalır. Onların məktəbdə müvəffəqiyyəti məhduddur, bəzi uşaqlar oxumaq, yazı və sayma bacarıqlarına yiyələnirlər.

Ağır əqli gerilik (bütün əqli geriliklərin təxminən 5%-itəşkil edirlər) zamanı uşaqların nitqi yetişməmiş qalır, nitqdə isim və fellər üstünlük təşkil edir. Sifət əlamətləri demək olar ki, olmur. İfadələr qısa, aqramatik, tələffüzdə çoxlu qüsurlar olur. Anamnez ümumiyyətlə nitqin daha gec yarandığını göstərir (3, bəzən 5 yaşda).

Başqalarının nitqini öz intellektual qabiliyyətləri daxilində başa düşürlər, ümumiyyətlə üz ifadələrinə, jestlərinə düzgün reaksiya verirlər. Motorika tam inkişaf etmir, kiçikmotorikanınxüsusiyyətləriyazını mənimsəməkdəmaneə törədir.

Məkan daxilində koordinasiyaları pozulur. Onlarda mimika zəifdir, aşağı səviyyəli məşğuliyyətlər üstünlük təşkil edir. Oxumağı mənimsəmiş olsalar belə, oxuduqlarını danışa bilmirlər. Vurma cədvəlini öyrəndikdən sonra ondanistifadə edə bilmirlər. Təşəbbüs, bir işdən digərinə keçmək tələb etməyənişlərlə əylənirlər. Stereotip (şablon) hərəkətləryerinə yetirməyi bacarırlar. Adaptasiya yalnız kənar insanların köməyi ilə mümkündür. Mürəkkəb qüsurları olmadıqda, belə uşaqlar elementar əmək bacarıqlarını mənimsəyə bilərlər. Yaxınları tərəfindən qayğı və nəzarətə və ya sosial qəyyumluq internat məktəblərində yaşamağa məcburdurlar.

Dərin əqli gerilik bütün əqli gerilik qrupunun təxminən 1%-ni təşkil edir. Əksər hallarda orqanik etiologiya aşkar edilir. Bir qayda olaraq, uşağın həyatının ilk 3 ilində ağır hamiləlik patologiyasının və ya travmatik beyin zədəsinin nəticəsi kimi ortaya çıxır. Onların psixikası aşağı inkişaf səviyyəsindədir, ağılın ilkin şərtləri belə inkişaf etməmiş olur: diqqət, qavrayış, hafizə.

Prosesləri düşünmək üçün sadə bacarıq, vərdiş qabiliyyətlər olmur. Bu uşaqların psixoloji diaqnozu mümkün deyil, onlara ünvanlanan nitqi anlamırlar, buna görə də təklif olunan təlimatı başa düşmürlər. Sözü anlamaq və istifadə ən yaxşı halda əsas əmrlərin icrası və sadə istəklərin ifadəsi ilə məhdudlaşır.

Əqli geri uşaqların çox qismi hərəkətsizdir və ya hərəkətlərində kəskin məhdudluq müşahidə olunur. Əqli geriliyin ən ağır formalarında emosional pozulmalar müşahidə olunur, ətrafdakı insanları tanımırlar. Nitq və jestləri başa düşmürlər. Onlarda özlərinə zərər vura biləcək affektiv partlamalara rast gəlmək mümkündür.

Bu kateqoriyalı uşaqların xarakterlərinin tərbiyə vasitəsinin əsas kriteriyası – onlarda vərdişlərin tərbiyəsidir. Oliqofrenlərdə müsbət vərdişlərin formalaşması onlarda mənəvi tələbatların yaranmasına gətirib çıxarır və nəticədə şəxsiyyətin düzgün inkişafına şərait yaradır.

Ədəbiyyat

1. Бгажнокова. И. М.Психология умственноотсталого школьника. М., 1987. С. 93.
2. Выготский. Л. С. Проблемы дефектологии. – М., 1995.
3. Пинский Б. И. Психологические особенности деятельности умственно отсталых школьников. – М., 1962.
4. Рубинштейн С. Я. Психология умственно отсталого школьника. – М., 1986.
5.N.T.Hüseynova"İntelektual inkişafı ləngiyən uşaqların pedaqogikası" Bakı-2007

Алибалаева Буллура Насир

Психолого-педагогическая характеристика умственной отсталости

РЕЗЮМЕ

В статье рассматриваются психолого-педагогические особенности умственно отсталых детей. Встатье отмечается,что по мере своей интеллектуальной способности умственно отсталыедети не понимает чужую речь, онив целом правильно реагируют на мимику и жесты говорящего. Моторные навыки развиты не полностью, характеристики мелкой моторики не позволяют овладеть письмом.

Alibalayeva Billura Nasir

Psychological and pedagogical characteristics of mental retardation

SUMMARY

The article examines the psychological and pedagogical features of mental retardation. It is noted that the 10th amendment to the International Classification of Diseases (ICD-10) is also used in Azerbaijan. The study notes that children with mental retardation understand someone else's speech to the extent of their intellectual ability, they generally respond correctly to facial expressions and gestures of the speaker. Motor skills are not fully developed, the characteristics of fine motor skills do not allow mastering writing.

Əliyeva Samirə Qoşqar qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Baxşəliyev Ərəstun Təriş oğlu

AİLƏDƏ KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ TƏRBİYƏNİN İNKİŞAFININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *kiçik yaşlı məktəbli uşaq, milli hislər, vətənpərvərlik, ailə, tərbiyə*
Ключевые слова: *младшие школьники, национальные чувства, патриотизм, семья, воспитание*
Key words: *young school children, national feelings, patriotism, family, upbringing*

Kiçik yaşlı məktəblilərdə hisslərin öyrənilməsi məsələsi son zamanlar Respublikamızda olduqca əsas məsələlərdən birinə çevrilmişdir. Kiçik yaşlı məktəblilərdə bir çox hisslər kimi milli hissləri də formalaşdırmaq olduqca vacib məsələlərdən biridir. Kiçik yaşlarda milli hisslərin inkişaf edib formalaşdırılması gələcəkdə onların öz vətəninə, torpağına, millətinə,

elinə, obasına, adət-ənənəsinə sadiq qalacaq və hər zaman hörmətlə yanaşacaq layiqli bir vətandaş kimi yetişməsində olduqca vacib rol oynayır.

İstər məktəblərdə istərsə də ailədə müəllim və valideylər bu məsələyə diqqətli yanaşmalıdırlar. Kiçik yaşlı məktəblilərdə milli hisslərin formalaşdırılmasının mahiyyəti öyrənilməli və bu yolda vacib tədqibi istiqamətlər görülməlidir.Kiçik yaşlı məktəblilərindavranışında həya hissinin yeri və mövqeyi, bu prosesə təsir göstərən etnik və sosial amillər ətraflı öyrənilməli və təhlil olunmalıdır. Onlarda həya hissinin tərbiyə edilməsi yolları göstərilmlidir. Uşaqlara vətən sevgisi və əhəmiyyəti düzgün şəkildə izah olunarsa, onlarda milli duyğu və düşüncələr, milli hisslər daha yaxşı formalaşa bilər.

Kiçik yaşlı məktəblilərin ümumiyyətlə uşaqların ahəngdar inkişafında ailə, məhəllə, ictimai təşkilatlar və təhsil müəssisələri xüsusi rol oynayır. Gələcək nəsillərə qayğı göstərmək, sağlam, ahəngdar inkişaf etmiş bir insan yetişdirmək üçün çalışmaq xalqımızın milli xüsusiyyətləridir. Ahəngdar inkişaf etmiş bir nəsil əvvəlcə ailədə yaranır, ailə mühitində yaxşı və ya pis insanlar kimi böyüyür, daha sonra sosial mühitin təsiri ilə daha da formalaşır. Buna görə də hər bir uşağın ailədən sonrakı sosial mühitini düzgün seçilməsində ona yardımcı olmaq lazımdır. Hər iki mühitin uşağın inkişafında rolu danılmazdır.

Uşaq doğulduğu andan bəri ailə mühitində yaşayır. Ailənin ənənələri, dəyərləri, adətləri uşağın formalaşmasının əsasını təşkil edir. Ən başlıcası, uşaqlar ailə məktəbi vasitəsilə cəmiyyətin tələblərini başa düşür və hiss edirlər. Valideynlərin övladları qarşısında onların gələcəyini yaxşılaşdırma borcları var. Valideynlərin övladlarına yaxşı bir ad vermək, ona təhsil vermək, gələcək həyatı üçün ona dəstək olma, hər bir çətinlikdə övladlarının yanında olma kimi məsuliyyətləri var.

Kiçik yaşlı məktəblilərdə milli hisslərin formalaşdırılması ilə bağlı nümunələri biz 27 sentyabrdan başlayan Azərbaycan və Ermənistan arasında olan Böyük Vətən müharibəsi zamanı açıq şəkildə görə bilərik. Bu müharibənin qələbə ilə nəticələnməsində ən böyük səbəblərdən biri Azərbaycan xalqının, millətinin öz torpaqları üçün bir araya gəlməsi oldu. Kiçikdən böyüyə qədər hərkəsin ürəyi vətən deyə döyünürdü. 27 sentyabrdan 9 noyabra qədər davam edənbu müharibədə biz azərbaycanlı ailələrində əsl vətənpərvərlik nümunələri gördük.Vətənin dar günündə oğullarımız və qızlarımız vətəni tək qoymadılar. Ailələr hətda evin tək övladına belə halallıq verərək onu vətənə xidmət üçün cəbhəyə yolladı. Bütün bunlar ailədə vətənə, bayrağa, millətə olan sevgidən, milli hisslərin zənginliyindən irəli gəlir. Böyük Vətən müharibəsində ailələrin göstərdikləri bu nümunəvi davranışlar gələcək nəslə buraxılan ən böyük nümunələrdən oldu.

Kiçik yaşlı məktəblilərdə milli hisslərin formalaşmasında ailənin rolu ilə bağlı 27 sentyabrdan başlayan Azərbaycan Ermənistan arasında olan Böyük Vətən müharibəsindən nümunələr gətirmək istiyərdim. 27 sentyabrdan 9 noyabra qədər davam edən bu müharibədə biz azərbaycanlı ailələrdə əsl vətənpərvərlik nümunələri gördük. Bu isə öz növbəsində gələcək nəsl üçün əsl nümunə oldu.

Vətən müharibəsində düşünmədən Vətəni qorumaq üçün cəbhəyə yollananlar arasında iki qardaşlarda oldu. Bu qardaşlardan biri eyni gündə şəhid olan İman və Bəhram qardaşlardır. İlənin iki övladı eybi gündə əsgərliyə yollanırlar. Vətən müharibəsi başlayanda bu qardaşlara deyiblər ki, biriniz arxa cəbhədə qalmalısınız, biriniz isə ön cəbhəyə gedə bilərsiniz. Onlar bu təklifi rədd edib hər ikisinində ön cəbhəyə getmək istədiklərini vurğulayıblar. Ailələrinə son sözləri bünlar olub: “Ana, ata ya biz torpaqlarımızı azad edib sağ salamat qayıdacağıq, ya da hər ikimiz vətən uğrunda şəhid olacağıq. Mümkün deyil ki, biz bir- birimizdən ayrı qalaq. Söz veririk ki bir-birimizi qoruyacağıq.” Onlar torpaqlarımızın azad olması uğrunda gedən müharibədə qəhrəmancasına şəhidlik zirvəsinə ucaldılar.

Bunun kimi yüzlərlə, minlərlə azərbaycanlı ailələrini nümunə göstərmək olar. Vətənin dar günündə oğullarımız və qızlarımız vətəni tək qoymadılar. Ailələr hətda evin tək övladına belə halallıq verərək onu vətənə xidmət üçün cəbhəyə yolladı. Bütün bunlar ailədə vətənə, bayrağa, millətə olan sevgidən, milli hisslərin zənginliyindən irəli gəlir. Böyük Vətən müharibəsində ailələrin göstərdikləri bu nümunəvi davranışlar gələcək nəslə buraxılan ən böyük nümunələrdən oldu.

Ədəbiyyat

1. Ağayev Ş.S. "Uşaqların mədəni davranış və adətlərin tərbiyəsi". Bakı-1966.
2. BayramovƏ. "Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri". Bakı-1967. 395-səh
3. Ə.Baxşəliyev. "Azərbaycanın milli-mənəvi dəyərlərinin psixoloji mahiyyəti". Bakı-2011. 561 səh.
4. Ə.Bayramov. "Etnik psixoloji məsələlər" Bakı-1996. 102-səh
5. Ə.S.Bayramov. "Etnik psixologiya məsələləri". Bakı-1996. 201-səh
6. Əliyev R.İ. "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları". Bakı TS 2000, 186-səh
7. Əlizadə.Ə. "Ailə həyatının etika və psixologiyası". Bakı Maarif-1986. 816- səh
8. Əlizadə.Ə.Ə. "Azərbaycan etnopsixologiyasına giriş". Bakı Renessans-2003. 258-səh

РЕЗЮМЕ

При изучении форм проявления и развития этнонациональных чувств у юных школьников еще раз выявилось величие, величие, искренность и забота азербайджанского народа, негибкость национальных чувств. Мы убедились в этом на примере семейных взаимоотношений в формировании национальных чувств у младших школьников. Установлено, что роль семейного окружения в изучении развития и воспитания национальных чувств у младших школьников очень велика. Мы видели реальные примеры патриотизма в азербайджанских семьях в армяно-азербайджанской Великой Отечественной войне, которая длилась с 27 сентября по 9 ноября. Для юных школьников было гордостью сопровождать их в семье, на улицах, по дорогам, где Азербайджанский солдат пошел на войну, держа в руках азербайджано-турецкие флаги. Это будет одна из важнейших ценностей для будущих поколений.

SUMMARY

While studying the forms of manifestation and development of ethnic-national feelings in young schoolchildren, the greatness, greatness, sincerity and care of the Azerbaijani people, the inflexibility of national feelings were once again revealed. We have seen this by de-

monstrating family relationships in the formation of national feelings in young schoolchildren. We found that the role of the family environment in the study of the development and upbringing of national feelings in young schoolchildren is very large. We saw real examples of patriotism in Azerbaijani families in the Armenian-Azerbaijani Great Patriotic War, which lasted from September 27 to November 9. It was a proud moment for young schoolchildren to accompany them in the family, on the streets, on the roads where the Azerbaijani soldier went to war, holding Azerbaijani-Turkish flags in their hands. This will be one of the most important values for future generations.

Əliyeva Samirə Qoşqar qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: Baxşəliyev Ərəstun Təriş oğlu

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRDƏ MİLLİ HİSLƏRİN İNKİŞAFI

Açar sözlər: *kiçik yaşlı məktəbli uşaq, milli hislər, vətənpərvərlik, adət-ənənələr, tərbiyə*
Ключевые слова: *младшие школьники, национальные чувства, патриотизм, традиции, воспитание*
Key words: *young school children, national feelings, patriotism, traditions, upbringing*

Millipsixologiyanın ən vacib komponentlərindən biri milli hisslərdir.Milli hislər bir milləti var edən xüsusiyyətlərdəndir. Milli hislərə mənsub olan millət öz adət ənənələrinə, milli kimliyinə, Vətəninə daim diqqətlə yanaşacaq və onu qoruyacaqdır. Bu isə bir ölkənin dəyərləri üçün olduqca vacib bir məsələdir.

Milli kimlik bir insanın şəxsiyyətinin bir dövlətə və ya bir millətə mənsubiyyət hissidir. Bu fərqli bir ənənə, mədəniyyət və dil ilə təmsil olunan bir millətin birləşdiyi xalq mənasındadır. Milli hisləri eyni olan insanların ortaq nöqtələri onların milli rəmzləri, dilləri, millətin tarixi, milli şüurları və mədəniyyət əsərləri və. sairədir.

Milli hislər doğuşdan gələn bir əlamət deyil. İnsanlarda bu kimi milli hislər kiçik yaşlardan formalaşmağa başlayır. Xüsusi tədqiqatlar vasitəsilə sübut edilmişdir ki, uşaq artıq 3-4 yaşında öz milli hislərininönəmli sterotiplərini emosional səviyyədə mənimsəmiş olur.

Milli hislərin əsas ifadəsindən biri vətən qüruru və vətəninə müsbət sevgi hissi ilə xarakterizə olunan vətənpərvərlikdir.

Hər bir uşağın şəxsiyyətli bir fərd kimi yetişməsi üçün ilk öncə onda milli hisləri oyatmaq, vətənpərvərlik ruhunda tərbiyə etmək və adət-ənənələrlə bağlı bir vətəndaş kimi yetişdirmək lazımdır. Dövlətin tarixini, ölkəsinin keçmişini, milli adət-ənənələri, o cümlədən dövlətin əsas atributları sayılan dövlət rəmzlərini ətraflı şəkildə mənimsəməli olduğunu və onlara edilməli olan hörmətin nə qədər mühüm xarakter daşıdığını hər bir uşaq yüksək səviyyədə dərk etməlidir. Ölkəmizi və xalqımızı başqa ölkə xalqlarından fərqləndirən başlıca xüsusiyyət deyərdim ki, mentalitetimizə, milli dəyərlərimizə və xüsusən də, vətənpərvərlik mövzularındakı incə düşüncə tərzimizə olan bağlılığımızdır. Ümumiyyətlə bir uşağın mənəvi cəhətdən yüksək inkişafı üçün milli dəyərlərinidə yüksək səviyyədə mənimsəməsi mühüm faktordur. Mübarizlər, Çingizlər, Fəridlər və daha belə tarixdə qəhrəmanlıqları ilə iz qoymuş igid oğullar yetişdirən bir xalq olaraq gələcəyimiz olan uşaqların bu ruhda tərbiyələndirilməsi və inkişafı hamımızın başlıca məqsədi olmalıdır. Valideylər, müəllimlə, pedaqoqlar, bunun üçün əllərindən gələni əsirgəməməlidirlər. Milli dəyərlərinə bağlılıq hissi olmayan, dövlət rəmzlərinə hörmətlə yanaşmayan, xalqının yetişdirdiyi qəhrəmanları tanımayan və onların göstərmiş olduqları şücaətlərə laqeydliklə yanaşan və bütün bu xüsusiyyətləri özündə daşıyan bir fərd düşünün, o zaman həmin fərdin şəxsiyyət kimi tam formalaşa bilmədiyini asanlıqla görə bilərik. Bununla da bir uşaqda milli hislərin formalaşmasının onun gələcəkdə bir şəxsiyyət kimi yetişməsinə təsirsiz ötüşmədiyini görə

bilərik. Uşaqlarımızda bu kimi zəngin xüsusiyyətlərin formalaşması gələcəkdə onların cəmiyyətdə layiqli yer tutmasına, vətəninə, millətinə yararlı bir şəxsiyyət kimi yetişməsinə işarədir.

Azərbaycan xalqının özünəməxsus adət-ənənələri, milli hisləri vardır. Hər bir azərbaycanlı bu kimi milli hislərin itməməsi üçün əlindən gələni etməli və bu milli hisləri nəsildən-nəsilə ötürməlidir.Vətəni vətən edən əsas əlamətlərdə biridə onun üçün xas olan adət-ənənələrin unudulmaması və bunun daim gənc nəslə ötürülməsindən ibarətdir. Vətənə dərin məhəbbət, öz xalqına, torpağına bağlılıq, qonaqpərvərlik, böyüyə hörmət və.s kimi hislər gənclərimizə kiçik yaşlardan başlayaraq aşılanmalıdır.

Uşaqlarda milli hislərin formalaşmasında ailə, təhsil, təlim prosesi, tərbiyə, adət-ənənələrimiz, milli hislərlə zəngin olan tarixi keçmişimiz böyük rol oynayır. Uşağın ilk tərbiyəsinin ailədən başladığı bizə məlumdur. Ailə uşaqların tərbiyəsi ilə məşğul olan, uşaqlarda milli hisləri formalaşdıran ilk qurumdur. Ailə uşaqlarımız üçün ilk məktəbdirvə bu məktəbdə bir şəxsiyyətin formalaşması üçün vacib olan tərbiyə, milli hislər və.skimi xüsusiyyətlər onlara aşılanır. Kiçik yaşlı məktəbli uşaqlarda, yeniyetmələrdə, gənclərdə milli etnik hislərin formalaşmasına təsir edən bir çox amillər vardır ki, bunlarda ən başlıcası ailədir. Buna səbəb odur ki, uşaqların təhsil, tərbiyə işləri hamısı ailədən başlayır. Əgər ailədə etnik hislərin inkişafı ilə bağlı işlər düzgün qurulmasa, ailədə tərbiyə alan uşaqlar bu istiqamətdə formalaşa bilməyəcək. Buna görə də ailədə etnik milli hislərə aid məsələlərə ana, ata ümumiyyətlə ailə üzvləri ciddidiqqət yetirməlidirlər. Çünki uşağın dili, nitqi, dövlətə olan sevgisi, dövlət atributlarına qarşı olan hörmətin geniş bir hissəsi ailədə formlaşır. Əgər ailədə diqqət Azərbaycan dilinin mənimsənilməsinə yönəlmirsə təbii ki, orada təlim, tərbiyə gedə bilməz.

Bu mənada ailədə hər şey qayda qanun ilə qurulmalıdır ki, gələcəkdə uşaq bu sahədə yetkin surətdə formalaşa bilsin. Ailə üzvləri bütün milli xüsusiyyətlərlə bağlı adət-ənənələri uşaqlara aşılamalıdırlar. Uşaqlar, yeniyetmələr Azərbaycan xalqının adət-ənənəsinə uyğun olaraq formalaşmalıdırlar. Böyüklərə hörmət etmədə, davranış və hərəkətlərinə diqqət yetirmədə, süfrədə, geyimdə, danışıqda, tərz-hərəkətlərində milli xüsusiyyətləri mütləq gözləməlidirlər.Əgər ailədə bu etnik hislərə diqqət yeritilərsə onda biz uşaqlarda xüsusi ilə dəkiçik yaşlı məktəblilərdə milli hislərin formalaşdırılmasına müəyyən qədər nail ola bilərik.

Azərbaycan xalqı öz milli hislərinin, adət-ənənələrinin zənginliyi ilə seçilir. Qədim zamanlara nəzər salsaq, xalq əsrlər boyu uşaq və yeniyetmələrin estetik zövqünü formalaşdırmaq, vətənə sevgini, məhəbbəti aşılamaq, milli hisləri uşaqlarda formalaşdırmaq üçün laylalar, bayatılar, oxşamalar, tapmacalar, nəğmələr və s. yaratmışdır. Bu baxımdan şifahi xalq yaradıcılığımız çox zəngindir və bu günə qədərdə uşaqlarımızda milli hisləri formalaşdırmaq üçün istifadə olunur. Şifahi xalq yaradıcılığımızın sətirlərinə diqqət yerirsək, milli hislərlə, vətənpərvərliklə, tərbiyə ilə, ailə dəyərləri ilə necə zəngin olduğunu görməmək mümkün deyildir.

Kiçik yaşlı məktəblilərdə milli hisləri formalaşdırmaq üçün sadəcə şifahi xalq ədəbiyyatını deyil, həmcinin bir çox şair və yazıcılarımızın adını çəkə bilərik. N.Gəncəvi, A.A.Bakıxanov, M.F.Axundov, H.Cavid və bir çox dəyərli şair və yazıcılarımız öz əsərlərində bu kimi mövzulara geniş yer vermişlər.

Ədəbiyyat

1. Ə.Baxşəliyev. Azərbaycanın milli, mənəvi dəyərlərinin sosial psixologiyasının mahiyyəti. Bakı 2011
2. S.Quliyev. Gənclərdə əxlaq dəyərlərinin inkişafı. Bakı 2010
3. Hüseynov Q. Milli qürur hissi, Bakı, Azərnəşr, 1991
4. Bayramov Ə., Əlizadə Ə. Psixologiya, 2002
5. Hüseynov İ. Adət və ənənələr mənəvi əxlaqi dəyərlər kimi, Bakı, 2000
6. Dəmirov M.S. Yeniyetmələrdə hərbi-vətənpərvərlik hissinin inkişaf xüsusiyyətləri Psix.elm. nam.alimlik dərəcəsi almaq üçün tənqid olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2001
7. Ə. Baxşəliyev. Psixologiya tarixi oçerkləri. Bakı-2003
8. Ə. Bayramov, Ə.Əlizadə. Sosial psixologiya. Bakı-2003

9. Ə.Baxşəliyev. Azərbaycanın milli-mənəvi dəyərlərinin psixoloji mahiyyəti, Bakı 2011
10.Əlizadə.Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş.Bakı Renessans, 2003, 258s

РЕЗЮМЕ

Одним из важнейших компонентов национальной психологии являются национальные чувства. Национальные чувства являются одной из характеристик, которые делают нацию. Нация, принадлежащая к национальным чувствам, всегда будет уделять внимание и защищать свои традиции, национальную самобытность и родину. Это очень важный вопрос для ценностей страны.

Народ Азербайджана отличается богатством своих национальных чувств и традиций. Если мы посмотрим на древние времена, люди веками формировали колыбельные, баяты, сходства, загадки, песни и формировали эстетический вкус детей и подростков, прививали любовь к Родине, формировали у детей национальные чувства. с создано. С этой точки зрения наше устное народное искусство очень богато и до сих пор используется для формирования национальных чувств у наших детей.

SUMMARY

One of the most important components of national psychology is national feelings. National feelings are one of the characteristics that make a nation. A nation belonging to national feelings will always pay attention and protect its traditions, national identity and homeland. This is a very important issue for the values of the country.

The people of Azerbaijan are distinguished by the richness of their national feelings and traditions. If we look at ancient times, for centuries people have formed lullabies, accordions, similarities, riddles, songs and shaped the aesthetic taste of children and adolescents, instilled a love for the Motherland, and shaped national feelings in children. with created. From this point of view, our oral folk art is very rich and is still used to form national feelings in our children.

İsmayılova Aygün Etibar qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant
Elm rəhbər:p.ü.f.d. dos Əfəndiyeva Ülviyyə Akif qızı

YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ İNTİHARA TƏHRİK EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

Açar sözlər: *yeniyetməlik yaş dövrü, intihar, ailə, depressiya, profilaktika*
Ключевые слова: *подростковый возраст, самоубийство, семья, депрессия, профилактика*
Key words: *adolescence, suicide, family, depression, prevention*

İlk öncə insanın özünü dərketmə prosesi dəyərlərə verdiyi hörmətdən başlayır. Bu dəyərlər humanitar, milli və beynəlmiləl dəyərlərdir. Cəsarət, özgüvən, novatorluq və özünə inam hisləri özünüdərk prosesi nəticəsində formalaşır. Bu formalaşmanın təməli demək olar ki, yeniyetməlik yaş dövründən başlayır. Yeniyetməlik şəxsiyyət formalaşmasının misilsiz bir dövrüdür. Yoxsulluğa, istismara və ya şiddətə məruz qalma da daxil olmaqla müxtəlif fiziki, emosional və sosial dəyişikliklər, yeniyetmələrin zehni sağlamlıq problemlərinə qarşı həssaslığını artıra bilər [1].

Oskar Uayldın uşaq tərbiyyəsi ilə bağlı belə bir fikri var: “Uşağı buyurmaq yox - öyrətmək, idarə etmək yox - istiqamət vermək, əmr vermək yox - məsləhət etmək, öyüd vermək yox - sübut etmək lazımdır” [2]. Uşaqların bəzən tərbiyəsi zamanı fərqinə varmadan zəif xüsusiyyətlərini görə bilmirik. Yaxud gördüyümüz bəzi xüsusiyyətlərin isə zamanla keçəcəyinə inanırırq, həll etmək əvəzinə zamana buraxırıq. Bu zaman isə heç istəmədiyimiz hallarla rastlaşırıq. Bu hallardan ən dəhşətlisi isə intihardır.İntihar başqalarının iştirakı olmadan könüllü

olaraq öz həyatına son qoymaqdır. Təəssüf ki, müasir cəmiyyətdə bu üsul həyatla hesablaşma forması və kifayət qədər yayılmış bir fenomendir. İntiharın səbəbləri tamamilə fərqli ola bilər, bir insan psixoloji və sosial xarakterli müəyyən həyat çətinlikləri əsasında belə bir qərar verir. Araşdırmalara görə, intihar etməyi planlaşdıran insanların75 %-i niyyətlərini bu və ya digər şəkildə açıq edirlər. Bunlar həm açıq təhdidlər, həm də yaxınlaşmaqda olan intiharın incə göstərişləridir. Bir tərəfdən ümidsizlik yaşayırlar, digər tərəfdən qurtuluşa ümid edirlər. Əksər hallarda, belə bir hərəkətin lehinə və əleyhinə olan dəlillər kifayət qədər tarazlıq şəklində ortaya çıxır. Mütləq surətdə tez-tez sadə dəstək sözləri ilə kömək edə bilərsiniz. Bu edilməzsə, tərəzi intihar lehinə əyiləcək. Buna görə planlaşdırılan intihar haqqında əlamətləri bilmək çox vacibdir. İşarələr intihara səbəb olan davranışlar, asosiallıq və s. ola bilər. Birinci əlamət qrupunda ölümlə bağlı davamlı ifadələr və normal olmayan zarafatlar və fərdi əşyaların qəfil paylanmasında özünü göstərə bilər. Buraya həm də şəxsi sənədlərin, işlərin qaydasına qoyulması, insanlarla barışıq və vərdiş davranışındakı kəskin dəyişiklik daxildir. Situasiya əlamətləri sosial təcrid, ailədəki gözlənilməz böhran kimi özünü göstərir[3].

Yeniyetmələrin psixoloji rifahının yaxşılaşdırılması və müvəffəqiyyətli inkişaf şanslarına təsir göstərə biləcək ağır zərbələrdən və risk faktorlarından qorunması, yeniyetmələrin fiziki və zehni sağlamlıqları üçün vacibdir. Əks halda bu onlarda depressiyaya gətirib çıxarar. Yeniyetmələrin depressiyası yalnız pis bir əhval-ruhiyyə deyil, bu bir gəncin həyatının hər tərəfini təsir edən ciddi bir problemdir. Yeniyetmələrin depressiyası evdə və məktəbdə problemlərə, narkomaniya, özünə nifrət, hətta şiddətə və dəhşəti intihara səbəb ola bilər. Yeniyetmələrin depressiyası ilə bağlı bir çox yanlış fikir var, bəzən onların ruh halının dəyişməsini depressiya kimi adlandırırlar. Lakin depressiya bir yeniyetmənin şəxsiyyətinin mahiyyətini məhv edə bilər. Yeniyetmələrdə depressiya əlamətləri bunlardır: uzun müddət kədər, qıcıqlanma, qəzəb və ya düşmənçilik, göz yaşı, dostlarla və ailə ilə əlaqəni kəsmək, hər hansı bir fəaliyyətə maraq itkisi, iştahsızlıq və pis yuxu, narahatlıq və həyəcan, özünü dəyərsiz hiss etmək, yorğunluq və ya enerji çatışmazlığı, intihar düşüncələri və s. Yeniyetmələri depressiyadan çıxarmağın aşağıdakı yollarını təklif edilir:

-yeniyetmələrə cəza verməkdən və təhqir etməkdən çəkinin. Çünki, daimi cəza və alçaldılma onuyararsız hiss etdirəcəkdir;

- yeniyetmələrin səhv etməsinə icazə verin. Onun üzərində həddindən artıq qəyyumluq və onun üçün qərar vermək, uşağı özünə inamsız bir insana çevirəcəkdir;

- yeniyetmələrə müəyyən çərçivədə azadlıq hissi verin;

- yeniyetmələrə həyatda sizin nümunənizə və izlərinizi izləməyə məcbur etməyin;

- övladınızın depressiyaya düşdüyünü görürsünüzsə, onunla danışmağa və onu dinləməyə vaxt ayırın, bəlkə də onun duyğusal problemlərinin səbəblərini daha yaxşı anlaya bilərsiniz.

İntihar müasir cəmiyyətin aktuallığı tamamilə fərqli sosial-iqtisadi şəraiti, mədəni və dini ənənələri olan ölkələr üçün xarakterik olan ciddi problemlərdən biridir. Mövcud məlumatlar göstərir ki, hər il təxminən yarım milyon insan könüllü olaraq həyatlarına son qoyur. İntihar etmək baxımından ən təhlükəli yaşlardan bəziləri, cinsi rol müəyyənləşdirməsinin meydana gəldiyi zaman, qarşılıqsız sevgi, dostlar, valideynlər ilə qarşıdurmalar və məktəb problemləri xüsusilə kəskin olduğu yeniyetməlik yaş dövrüdür. Klinik və epidemioloji tədqiqatlar göstərir ki, yeniyetmələrin yaş qrupundakı ümumi ölümlərin təxminən 12% -ni intihar təşkil edir.

İntihar iki fərqli qayda olaraq başa düşülür: birincisi, fərdi davranış hərəkəti, konkret bir şəxs tərəfindən qəsdən həyat məhrumiyyəti; ikincisi, müəyyən sayda insanın könüllü şəkildə ölməsindən ibarət olan nisbətən kütləvi, statistik cəhətdən sabit bir sosial fenomen. Hərəkətlərinin mənasını və ya nəticələrini bilməyən bir şəxsin həyatından məhrum etməsi intihar kimi qəbul edilmir və bu vəziyyətdə qəzadan ölüm qeyd olunur.İntiharın psixoloji mənası ən çox affektin reaksiyasında olur. Emosional stresi aradan qaldırmaqda, bir insanın istər-istəməz özünü tapdığı vəziyyətdən qaçmaqda əldən gələn köməklik göstərilməlidir. İntihar edən in-

sanlar ümumiyyətlə şiddətli zehni ağrı və stresdən əziyyət çəkirlər və problemlərinin öhdəsindən gələ bilmədiklərini hiss edirlər[4].

Yeniyetməlik yaş dövründə olanlar istər ailənin, istərsə də təhsil aldıqları müəssisənin diqqətində olmalıdırlar. Onların hər biri ilə psixoloji münasibət düzgün qurulmalı, əgər onlar buna yanaşmırlarsa, o zaman digər yollar araşdırılıb tapılmalıdır. Bəzən isə intihar özünə diqqəti cəlb etməkdir. Təəssüflər olsun ki, yeniyetməlik yaş dövründə olanlar bunun nəticələrini öncədən müəyyən edə bilmirlər. Müasir dövrdə informasiya-kommunikasiya vasitələrində məlumatların rahat əldə olunması onlara intiharla bağlı fikirlər verir. Sosial cəmiyyətlərdə "eqoist" deyilən intiharın tipik sosial səbəbi sosial bağların zəifləməsi və fərdi təcriddir. Xarakterik xüsusiyyəti hər hansı bir insanın fəaliyyətini iflic edən melanxoliya. Bir insan üçün həyat mənasını itirir və onunla ayrılmağın heç bir mənası yoxdur. Bu tipə funksional olmayan ailə münasibətləri səbəbindən edilən intihar daxildir.

İntihar düşüncəsinin psixoloji komponentləri bunlardır: intihar düşüncələri, ideyaları, təcrübələri, habelə planları və niyyətləri. Passiv intihar düşüncəsi, ölümləri ilə əlaqəli təsəvvürlər, xəyallar ilə xarakterizə olunur. Ümumiyyətlə, bu ölüm və həyatın mənası ilə bağlı sualların mərhələsidir. Bu dövrdə fərdi şəxsin adaptiv qabiliyyətlərində bir azalma müşahidə olunur ki, bura akademik fəaliyyətdə, maraq səviyyəsində, məhdud ünsiyyətdəartan qıcıqlanma, emosional qeyri-sabitlik və s. daxildir. İntihar düşüncəsinin aktiv forması intihar yolları, vaxtı və yeri düşünülmüş intihar niyyətidir. İntihar niyyətləri planına birbaşa xarici davranışa keçidi təmin edən bir qərar və iradi bir komponent əlavə etməyi əhatə edir.Yeniyetməlik yaş dövründə intihara aparan hallar: qısqanclıq, yalnızlıq, yaxınlarını itirmək duyğusu, yaşıdları tərəfindən alçaldılma, lağa qoyulma və s.

Son zamanlar mətbuat səhifələrində və televiziya ekranlarında tez-tez intihar xəbərlərinə rast gəlməyə başlamışıq.Təəssüf olsun ki, intihar edənlərin əksəriyyəti yeniyetmələr və gənclərdir. Mütəxəssislər yeniyetmələrdə intihar davranışı üçün bir sıra mühüm motivləri müəyyənləşdirir. Onların fikrincə, əsas amil ümumiyyətlə ümidsizlik və köməksizlik hisslərinin yayılmasıdır. İntihar çox qarışıq səbəblərlə həssas və mürəkkəb bir mövzudur. Səbəbini qəti şəkildə müəyyənləşdirmək demək olar ki, heç mümkün deyil. Ancaq hələ də bu məsələdə niyə bu qədər böyük bir gender boşluğu olduğu aydın deyil. Belə ki, intihar prosesi oğlanlar tərəfindən qızlara nisbətən qısa müddətdə icra olunur. Qız yeniyetmələr intihar haqqında daha çox düşünərək və dahaçox intihara cəhd edərək ətrafındakı insanların, yaxınlarının diqqətini özlərinə cəlb etmək istəyirlər. Qızlar da bu bir növ çağırış xarakterli olur. Oğlan yeniyetmələr intiharetmək istəyəndəya özünü asır, yaözünü atır konkret ölümlə nəticələnə biləcək üsullar seçirlər. Oğlan yeniyetmələrdə intiharlar tamamlanmış olur. [5].

İntihar hallarının qarşısının alınması üçün ilk öncə uşaqlarımızın məktəbdənkənar fəaliyyətlərinin, məsələn, idmanla, musiqi ilə, rəsmlə məşğul olmalırını təmin etməli, onlara zaman ayırmalı, birlikdə gəzməyə getmək, kinoya baxmaq kimi fəaliyyyətlərimiz olmalıdır. Uşaqlarımızın məktəbdəki davranışları haqqında mütəmadi olaraq maraqlanmalı, problemlərin vaxtında öhdəsindən gəlmək lazımdır.

Ədəbiyyat

1. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, ADPU, 2005.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Pedaqogika"; 2004
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, "Adiloğlu",2003.
4. Лейтес Н.С. Возрастная одарённость школьников. Москва, "Академия",2001.
5. Вроно Е.М. Предотвращение самоубийства подростков. Руководство для подростков. М., "Академический проект", 2001.

Yeniyetməlik yaş dövründə intihara aparan yollarvə onların profilaktikası

XÜLASƏ

İntihar çox vaxt həll olunmamış problemlərin bir nəticəsi kimi görünür. Təəssüf ki, bu hallar günümüzdə artmaqdadır. İntihar mürəkkəb bir məsələdir və bu səbəbdən intiharın qarşısını almaq üçün səylər göstərilməlidir. Cəmiyyətdə bu məsələ ilə bağlı bir sıra sahələrin koordinasiyası və iş birliyi tələb olunur. Bu cür səylər hərtərəfli və əhatəli olmalıdır. İntiharın qarşısının alınması strategiyasının effektivliyi gələcəkdə bu halların azalması ilə özünü göstərəcəkdir.

В подростковом возрастеведущие к самоубийствуи их предотвращение

РЕЗЮМЕ

Самоубийство часто рассматривается как результат нерешенных проблем. К сожалению, сегодня таких случаев становится все больше. Самоубийство - сложная проблема, и необходимо приложить усилия для ее предотвращения. В этом отношении существует потребность в координации и сотрудничестве в ряде сфер общества. Такие усилия должны быть всеобъемлющими и всеобъемлющими. Эффективность стратегий предотвращения самоубийств отразится на сокращении этих случаев в будущем.

Ways to commit suicide during adolescence and their prevention

SUMMARY

Suicide is often seen as a result of unresolved issues. Unfortunately, these cases are increasing today. Suicide is a complex issue, and efforts must be made to prevent it. There is a need for coordination and cooperation in a number of areas in society in this regard. Such efforts must be comprehensive and comprehensive. The effectiveness of suicide prevention strategies will be reflected in the reduction of these cases in the future.

Məhərrəmi Könül
ADPU, Təhsildə sosial psioloji xidmət, II kurs magistrantı

YENİYETMƏ YAŞI DÖVRÜNDƏ KOQNİTİV FƏALİYYƏTİN İNKİŞAFININ PSİXOLOJİ PROBLEMLƏRİ

Açar sözlər: *yeniyetmələrin anatomik-fizioloji dəyişiklikləri, yeniyetmələrin psixoloji xüsusiyyətləri, yeniyetmələrin koqnitiv inkişafı, intellektual inkişaf*

Ключевые слова: *анатомо-физиологические изменения у подростков, психологические особенности подростков, познавательное развитие подростков, интеллектуальной развитие*

Key words: *anatomical and physiological changes in adolescents, psychological characteristics of adolescents, cognitive development of adolescents, intellectual development*

Müasir dövrdə psixologiya elmi insan fəaliyyətinin çoxşaxəli sahələrinə dərindən nüfuz etdiyi üçün bu və ya digər tədqiqatların da nüvəsini təşkil edən yeniyetməlik dövründə baş verən idrak proseslərinə baxış geniş miqyasda elmə verdiyi tövfələri ilə gələcək nəsillərə ümid çırağı yandırmış olur.

Psixologiya elmi sübut edir ki, əqli inkişafın effektli olması bir sıra amillərdən asılıdır. Bu bir tərəfdən təlim materiallarının məzmunundan, digər tərəfdən isə şagirdlərin bilik əldə etmə yollarından asılıdır. Mənimsəmə də öz növbəsində əsasən biliyi izah etmək, şagirdə çatdırmaq üsulundan asılıdır. Bu isə əqli inkişafla təlimin qarşılıqlı münasibəti problemidir.

Yeniyetmələrin sistemlişəkildə öyrənməyə, mənimsəməyə başlaması onlarda yüksək əqli inkişaf, idrak proseslərinin akselerasiyası iləyeni mərhələyə istiqamət almış olur. Heç

şübhəsiz ki, buraya təlim fəaliyyətinin istiqamətindəki proseslər, ibtidai təhsildən ümumi orta təhsil səviyyəsinə keçid ilkin amil funksiyasını daşımış olur. Belə ki, yeniyetməlik yaşına daxil olan fərd tədris edilən fənlərin müxtəlifliyinə nəzərən təhsilə baxış prizmasını dəyişir və bu təsir altında onlarda idrakproseslərinin inkişafında nəzərə çarpan dəyişikliklər baş verir.

Bu dövrdə yeniyetmələrin xarakterik qavrayış xüsusiyyətləri geniş əhatəli olmaqla ardıcıl və seçici anlam daşıyır və onlarda qavrayış inkişafının sürətlənməsi ilə müşaiyət olunur.Onların qavrayışı ən çox maraqlandıqları cisim vəhadisələrlə bağlı olub, zaman, məkan, hərəkətqavrayışının inkişafı ilə sıx əlaqədəizlənilir.

Yeniyetməlik dövründə hafizə, xüsusilə də məntiqi hafizə fəal şəkildə inkişaf etməyə başlayır. Yeniyetmələrin məntiqi, eləcə də ixtiyari hafizədən istifadəyə üstünlük verməsi ilə əlaqədar onlarda mexaniki hafizənin inkişafıləngiyir. Onlarda yaddasaxlamanı yaxşılaşdırmaq yollarına bir növ kodlaşdırma sisteminə müraciət, hər hansı hərfən yadda saxlanması gərəkən nüansları, teoremləri, qaydaları və sairə mənalı yadda saxlama ilə və ya digər fənlərlə, həyati nümunələr ilə inteqrasiya, sintez və ya əks nəsnələr kontekstində yadasalma pryomları ilə üstün mövqeyə malik olması aid olur. Məsələn, tarixdə adları və ya tarixi günləri yadda saxlamaq üçün müəyyən kodlaşmadan, əlaqələndirmədən istifadə etmək kimi fəaliyyəti nümunə çəkə bilərik. Beləliklə, yeniyetmələr məntiqi, eləcə dəixtiyari hafizədən istifadəyə üstünlük verərkən bununla da onlarda mexaniki hafizənin inkişafı ləngimiş olur.

Yeniyetməlik dövründə diqqətin inkişafındakı özünəməxsus xüsusiyyətlər onun tez-tez yayınması halları ilə müşahidə olunur. Təlim və tərbiyənin təsiri altında onun maraq dairəsinin dəyişməsi, keçirdiyi psixi hallar, cinsi yetişmənin başlanması, yaşlılıqhissi ilə bağlı problemlər, "mənlik" şürunun sürətli inkişafiilə diqqətin təzahürü, sabit ixtiyaridiqqətinformalaşması onun həcmi, davamlılığı, paylanmasında nisbətən məhsuldar xarakter daşıması ilə yeni mərhələyə yol açmış olur.

Cinsi yetişmənin başlanması ilə birbaşa əlaqədar olaraq yeniyetmənin təxəyyülünün inkişafında xeyli irəliləyişlər nəzdində bərpaedici təxəyyülün yüksək inkişaf səviyyəsinə çatması, romantik, fantastik surətlərin yaradılmasına meyl, yaş artdıqca isə yeniyetmələrin təxəyyülündə surətlərin daha real və daha tənqidi xarakterdaşımağa başlaması kimi periodik proseslər baş verir. Yeniyetmələrin təxəyyülünün inkişafı təlim materialınıdaha səmərəli və yaradıcı şəkildə mənimsəmələrinə imkan verir, bununla da yaradıcı təxəyyül xeyli inkişaf etmişolur və onlar əldə etdikləri bilikləri yeni sahəyə tətbiqetməyə başlayırlar.

Adətən,ümumitəsəvvürlərə və məişət anlayışlarına əsaslanan ilkin məktəbli yaş dövrü şagirdlərindən fərqli olaraq yeniyetmələrelmi anlayışları mənimsəyir, onlara istinad edir və onların təfəkkürü ən çox mücərrəd xarakter daşımağa başlayır və təfəkkürün müstəqilliyi və tənqidiliyi özünü göstərir [3, s.470].

Yeniyetmənin intellektual inkişafını hərtərəfli öyrənmək, onun qanunauyğunluqlarını aşkar etmək, əqli inkişafın diaqnostikasını müəyyənləşdirmək böyük nəzəri və əməli əhəmiyyətə malikdir. Qeyd edək ki, bir çox psixoloqlar əqli inkişafın mühüm göstəricisi olaraq bu və ya digər təfəkkür keyfiyyətlərini əsas götürürlər. Məsələn, rumın psixoloqu Roşka təfəkkürün hərəkətliliyini və yaradıcı xarakter daşımasını əqli inkişafın meyarı hesab edir. Macar psixoloqu Lenard da təfəkkürün mütəhərrikliyini əsas götürür. Sovet psixoloqu Kalmıovanın fikrincə, əqli inkişafın əsas göstəricisi təfəkkür müstəqilliyi və qənaətcilliyindən ibarətdir.Həmin psixoloqların fikrincə, əqli cəhətdən yüksək dərəcədə inkişaf etmiş uşaqlar nəinki onlara öyrədilənləri asanlıqla mənimsəyir, həm də özləri müstəqil olaraq yeni fikri iş üsullarına əl atırlar. Deməli, bəzi psixoloqlar mənimsənilmiş manevrlərin yeni şəraitə köçürülməsini əqli inkişafın meyarı hesab edirlər [5, s. 122].

Məlumdur ki, bilik əldə etmək imkanları çox geniş olsa da, hüdudsuz deyildir. Təlimin son nəticəsi, heç şübbəsiz, təkcə xarici amillər ilə deyil, həm də daxili amillər ilə şərtlənir. Bu iki amil vəhdət təşkil edir, onların vəhdəti təmin edilmədən sözün həqiqi mənasında əqli inkişafdan danışmağa dəyməz. Burada dərk edənin xüsusiyyətləri kimi yetkinlik dərəcəsi, həyat təc-

rübəsi, fəallığı, təlimə münasibəti və s. nəzərə alınmalıdır. Hər bir linza ona təsir edən işıq şüalarını öz qurulşuna uyğun olaraq sındırdığı kimi, hər bir uşaq da ona olan təsiri özünəməxsus şəkildə əks etdirir. Buna görə də çox halda eyni təsir müxtəlif nəticələr verə bilir[2, s. 176].

Yeniyetməlik yaşının ümumi xarakteristikası standartları ümumi tipik insanın ontogenetik inkişafında aşağıdakı qanunauyğunluqlar ilə izlənilir.

Cari dövrdə bədənin yuxarı və aşağı ətraf sahələrində sümüklər əzələlərə nisbətən uzununa daha sürətlə inkişaf edir. Bədənin ətraf hissələri gövdəyə nisbətən mütənasibliyini itirir və daha uzun görünür. Boy artımı çox sürətlə gedir. Uşaqlara nisbətən yeniyetmələrin siması dəyişir, böyüklərə yaxınlaşmış olur. Əzələ kütləsi və əzələ gücü artır, nəticədə yeniyetmənin fiziki imkanı da artır.

Bu dövrdə həmyaşıdları ilə intim-şəxsi ünsiyyət aparıcı fəaliyyəti ilə yanaşı olaraq təlim, ictimai-təşkilati aktivlik, idman, bədii, əmək fəaliyyəti də özünü konkret miqyasda təcəssüm etdirir. Həmin ictimai-faydalı fəaliyyət növlərindən istifadə etməklə yeniyetmələrdə sosial cəhətdən əhəmiyyətli işlərdə şüurlu şəkildə iştirak etmək meyli formalaşır və inkişaf edir [4, s. 8].

Onlar müxtəlif qruplarda qəbul olunmuş qarşılıqlı münasibət normalarına uyğun ünsiyyət yaratmağı öyrənir, öz "mən"lərini qiymətləndirmək bacarığına yiyələnirlər [1, s. 76].

Bu sadalananlara görə də əqli inkişafın diaqnostikasının yeni metodlarını araşdırmaq yeniyetmələrin anatomik-fizioloji dəyişikliklərini onun psixoloji xüsusiyyətlərilə vəhdət kodeksində paralel qoyaraq yeni esperimentlər aparmaq lazımdır. Elə bu səbəbdən də yeniyetmələrdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətlərini araşdırmağı qarşıya məqsəd qoymuşuq. Həmin keyfiyyətlərin istər təlim prosesində, istərsə də təlimdən kənar materialların təsiri ilə necə təşəkkül etdiyini, başqa sözlə, inkişaf dinamikasını, qismən də olsa müəyyənləşdirməyə çalışırıq.

Ədəbiyyat

1. Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif nəşriyyatı, 1986- S. 104.
2. Ə.Ə.Qədirov, dos. İ.N.Məmmədov. Yaş psixologiyası. Bakı: Maarif nəşriyyatı, 1986- S. 142.
3. Prof. S.G.Seyidov və prof. M.Ə.Həmzəyev. Psixologiya. Bakı- 2007, S. 626
4. Qədirov Ə.Ə. Yaş psixologiyası. Tədris vəsaiti. "Maarif" nəşriyyatı. Bakı: 2008. 386 s.
5. Развитие человека от рождения до смерти. Под редакциейА. А. Реана. "Олма-пресс". М.: 2002. 590 с.

XÜLASƏ

Elmi-texniki tərəqqinin inkişafı, ictimai-siyasi münasibətlərdəki dəyişikliklər, iqtisadi idarəetmədə sıçrayışlar insanlar arasındakı münasibətə verdiyi dəyərlər amili prizmasından müəyyənsahələri əhatə edən peşə mütəxəssislərini bütövlükdə cəmiyyətə yenidən baxışa sövq etmiş, bu mötəbər işi hərtərəli və hər addımda araşdırıb qəti nəticəyə nail olmağı vacib buyurmuşdur. Bu sadalananlardan dolayı yaş dövrünün, xüsusilə "böhran dövrü" adlanan yeniyetməlik yaşı dövrünün araşdırılıb öyrənilməsi insan övladının həyat yolundakı fəaliyyəti dinamikasını aşkara çıxarmağı, gələcək maneə və insidentlərində öz tövhələrini verməyi əlçatan edəcəkdir.

РЕЗЮМЕ

Развитие научно-технического прогресса, изменения в социально-политических отношениях, скачки в управлении экономикой через призму ценностного фактора человеческих отношений заставили профессионалов переосмыслить общество в целом. В связи с этим изучение подросткового возраста, особенно так называемого «кризисного периода» подросткового возраста, позволит выявить динамику жизнедеятельности человека, внести свой вклад в будущие препятствия и инциденты.

SUMMARY

The development of scientific and technological progress, changes in socio-political relations, leaps in economic governance, through the prism of the value factor in human

relations, has led professionals to rethink society as a whole. Because of these, the study of adolescence, especially the so-called "crisis period" of adolescence, will make it possible to reveal the dynamics of human activity in life, to contribute to future obstacles and incidents.

Məhərrəmi Könül
ADPU, Təhsildə sosial psioloji xidmət, II kurs magistrantı

YENİYETMƏ YAŞI DÖVRÜNDƏ EMOSİONAL İNKİŞAFIN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *emosional inkişaf, sosial hisslərin formalaşması, "mən" obrazı,valideyn yeniyetmə münasibəti, depressiv hallar*
Ключевые слова: *эмоциональное развитие, формирование социальных чувств, образа «Я», родительско-подростковое отношение, депрессивные состояния*
Key words:*emotional development, the formation of social feelings, the image of "I", parent-adolescent attitude, depressive states*

Psixoloji ədəbiyyatlarda və güzəran psixologiyasında adı "keçid", "böhranlı" dövr kimi vurğulanan yeniyetməlik yaşı xüsusi psixoloji və fizioloji dəyişiklikləri ilə özünü qabarıq şəkildə biruzə verir. Fizioloji dəyişikliklər deyəndə boyun uzanması, çəkinin artması, qız və oğlanlarda qoltuqaltı və genital bölgədə tüklənmə, dəridə yağlanma, sızanaqlar, tər ifrazının artması, əzələlərin inkişafı, qadın cinsi orqanlarının inkişafı, səsin qalınlaşması, bığ və saqqalın çıxması və s. nümunə ola bilər.

Bununla belə psixoloji dəyişikliklər və yeniyetmələrin bu dövrdə nələr hiss etməsi də müxtəlif davranış kodekslərində özünü əsaslı şəkildə biruzə verir.

Ümumiyyətlə bu dövrdə yeniyetmələrin duyğularında qeyri-sabitlik müşahidə olunur. Bir az əvvəl özünü enerjili və gümrah hiss edən yeniyetmə az sonra özünü tam əksinə, yorğun, əldən düşmüş hiss edə bilər.

Bu dövrdə yeniyetmələr duyğularını çox coşğulu bir şəkildə yaşayırlar və bu özünü onların səs tonlarında, mimikalarında göstərir. Digər yaş dövrlərinə görə daha sıx xəyal quran yeniyetmə əksər hallarda reallıqdan uzaqlaşır. Bu xəyallar isə gələcək planlar ilə yanaşı, əks cinslə də bağlı olur [1, s.38].

Yeniyetmələr bu dövrdə çox vaxt tək qalmaq istəyirlər. Valideynlər isə bunu fərqli şəkildə anlayıb, övladlarının ciddi bir problemi olduğunu düşünüb narahat olurlar. Əslində yeniyetmələr özlərini daha yaxından tanımağa, kim olduqlarını, gələcək həyatlarının necə olacağını, istək və arzularını, tutacağı mövqeləri düşünürlər. Bu onlarda "mən"in daha da inkişaf etdiyi dövrdür[3, s.204].

Kiçik məktəblidən fərqli olaraq yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqda, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə meyli əmələ gəlir. Nəticədə yeniyetmə özü üçün öz "mən"ini bir növ kəşf edir. Mənlik şüurunun formalaşmağa başlaması və sonrakı inkişafı yeniyetmənin bütün psixi həyatına, onun təlim fəaliyyətinin xarakterinə, ətrafdakılara münasibətinə öz təsirini göstərir. Yeniyetmənin mənlik şüurunun formalaşması onun öz davranışını, mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların fikirləri təşkil edirdisə yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Bu dövrdə yeniyetmələr öz müstəqilliklərini qoruyub saxlamağa çalışmaqla refleksiya əsasında mənlik şüurlarını formalaşdırır və inkişaf etdirirlər[4, s.45].

Bütün bunlarla yanaşı olaraq yeniyetmələrdə özünüqiymətləndirmə və özünəmünasibətin formalaşması baş verir. Yeniyetmə özündə müşahidə etdiyi bioloji dəyişikliklərdən narahat olmağa, kompleks yaşamağa və ətraflarındakı insanlardan bunları gizlətməyə çalışır.

Bu dövrdə ən mühimi isə yeniyetmənin ətraf mühitidir. Ətraf mühit seçimində yeniyetmələr və valideynlər diqqətli olmalıdır. Valideynlər dost, yaxın yoldaş rolunu mənimsəməkdənsə, əksinə sərt davranaraq övladlarını əksər hallarda yanlış mühitə doğru itələyirlər.

Bu dövrdə yaşanan psixoloji narahatlıqlardan depressiya daha çox müşahidə olunanlar arasındadır. Bu isə onlardakı özünəgüvən problemindən, əks cinslə bağlı yaşadığı problemlərdən, ailə və məktəbdaxili yaşanan problemlərdən qaynaqlana bilər. Uzunmüddətli depresssiyalarda yeniyetmə intihar etməyi belə düşünər. Bu zaman yeniyetmə özünü tamamilə dəyərsiz, "bir heç" kimi hiss edər. Bununsəbəbləri isə çox şey ola bilər. Yaxınlarını incitmək hissi, ölümə maraq hissi, özünü tək hiss etməsi, uşaqlıqdan gələn sevgisizlik, ölüm-ayrılıq və s. sadalananlar bu səbəblərdən ən çox nəzərə çarpanlarıdır və bu səbəblər arasında isə ən çox uşaqlıqdan gələn travmalar üstünlük təşkil edir[5, s.183].

Əksər hallarda valideynlər yeniyetmələrlə dostcasına söhbət etmək dedikdə, onları qarşılarına alıb saatlarla nəsihət verirlər. Amma nəsihətlər çox vaxt aqressiya ilə qarşılanar və ya zamanla adiləşər, sadəcə yeniyetmə valideynini dinləyər. Bu isə hər hansı bir problemin həlli deyil.

Bütün bunlarla yanaşı, övladlarından valideyn sevgisi əksik edilməməlidir. Valideynlər övladlarını sevir lakin bunu ona deməyin əksər hallarda lazımlı olmadığını düşünürlər. Bütün yaş dövrlərində övladlar valideynlərindən sevgi görmək istəyirlər amma yeniyetməlik dövründə xüsusi olaraq sevgiyə ehtiyac duyurlar.

Valideynlər hər şeydən əvvəl yeniyetmə övladını anlamağa çalışmalı və ona onun dəyərli olduğunu hiss etdirməlidir. Ona görə də valideynlər bu mövzuda həssas olmalıdırlar. Əgər yeniyetmə bu duyğuları ailədə hiss etməsə, bunu digər qruplarda axtarmağa başlayacaq.

Psixoemosional gərginliklə müşayiət olunan təcavüzlü davranışın korreksiyası psixopedaqoji təsirlər sisteminin düşünülmüş surətdə tətbiqi şəraitində müvəffəqiyyətlə reallaşdırıla bilər. Bunun üçün, ilk növbədə təcavüzçü davranışa meyli stimullaşdıran və yönəldən psixoloji şərait müəyənləşdirilməli, yeniyetmənin ailədaxili və kollektivdaxili münasibətləri təhlil edilməli və bu zəmində adekvat korreksiya tədbirləri həyata keçirilməlidir [2, s. 82].

Beləliklə aparılmış təhlil işi ilə belə bir qənaətə gəlmək olar ki, yeniyetmə yaşı dövründə emosional inkişaf sürətlə davam edir və yeniyetmənin emosional həyatı çox gərgin keçir. Bunların təsiri altında əhval-ruhiyyənin davamsızlığı, əsəbiliyə meyl, konfliktli davranışın fəallaşması kimi əlamətlər açıq şəkildə özünü büruzə verir. Lakin şəxsiyyətin inkişafı, özünüdərkin formalaşması, ətrafındakılarla ünsiyyətin çoxcəhətli xarakter daşıması zəminində yeniyetmələrinbir qisminə xas olan psixoemosional pozğunluqların qarşısı müvəffəqiyyətlə alına bilər.

Ədəbiyyat

1. Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif nəşriyyatı, 1986, S. 104.

2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Tədris vəsaiti. “Maarif” nəşriyyatı. Bakı: 2008. 386 s.

3. Prof. S.Ġ.Seyidov və prof. M.Ə.Həmzəyevin- Ümumi psixologiya. Bakı –YYSQ, 2014- S. 434

4. Психология подростка. А.А.Реана “Прайм-Еврознак”. М.: 2007. 118 с.

5. Развитие человека от рождения до смерти. Под редакцией А.А.Реана. “Олма-пресс”. М.: 2002. 590 с.

XÜLASƏ

Elm və texnika durmadan inkişaf edir, cəmiyyətin mədəni səviyyəsi yüksəlir və bununla da hər bir yaş dövründə olduğu kimi yeniyetmə yaşı dövründə də şəxsiyyətin formalaşmasında əsaslı dəyişikliklər baş verir. Geniş elmi mübahisəyə səbəb olmuş və bir çox ölkələrin mütəxəssislərinin diqqətini özünə cəlb etmiş yeniyetmələrin emosional inkişafı məsələsi son

dövrlərdə sosial-ictimai həyat kontekstində ən aktual məsələrindən biri kimi qeyd olunur. Bununla da yeniyetmə şəxsiyyəti onun mənəvi aləminin genişlənməsindən "mən" obrazının formalaşmasına, qrup mənsubluğu və insanların tiplərinin inkişafından yeniyetmədə ünsiyyət tələbatının meydana gəlməsinə qədər dinamik bir proses keçmiş olur.

РЕЗЮМЕ

Наука и технология постоянно развиваются, культурный уровень общества повышается, и поэтому, как и в любом другом возрасте, изменения происходят и в формировании личности в подростковом периоде. Проблема эмоционального развития подростков, которая вызвала широкую научнуюполемику и привлекла внимание экспертов во многих странах, в последнее время была отмечена как одна из самых актуальных проблем в контексте общественной жизни. Таким образом, личность подростка претерпевает динамический процесс от расширения своего духовного мира до формирования образа «Я», от развития групповой принадлежности и типов людей до возникновения потребности в общении в подростковом возрасте.

SUMMARY

Science and technology are constantly evolving, the cultural level of society is rising, and thus, as in any age, there are fundamental changes in the formation of personality during adolescence. The issue of emotional development of adolescents, which has caused widespread scientific controversy and attracted the attention of experts in many countries, has recently been noted as one of the most pressing issues in the context of social life. Thus, the adolescent personality undergoes a dynamic process from the expansion of his spiritual world to the formation of the image of "I", from the development of group membership and types of people to the emergence of the need for communication in adolescence.

Əsgərli Zinyət Çingiz qızı
Elmi rəhbər: ps.ü.f.d. L.M.Qurbanova

TƏHSİL UĞURLARININ DƏYƏRLƏR SİSTEMİLƏ ƏLAQƏSİNİN PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *psixologiya, cəmiyyət, şəxsiyyət, təhsil, dəyər, savad*

Ключевые слова: *психология, общество, личность, образование, ценность, грамотность*

Key words: *psychology, society, personality, education, value, literacy*

Təhsildən kənarda yüksək səviyyəli şəxsiyyətin formalaşdırılması prosesinin mümkünsüzlüyü danılmaz faktdır. O da faktdır ki, şəxsiyyətin strukturuna daxil olan keyfiyyətlərin formalaşması prosesi dəyərlər sistemilə analoji başlılığa malikdir: dəyərlər - əhəmiyyətli hesab edilən keyfiyyətlər toplusu olaraq istər bioloji varlıq olaraq, istərsə də sosial varlıq olaraq insanın həyatının, inkişafının istiqamətləndirilməsində mühüm rola malikdir. Dəyərlər iyerarxiyasının düzülüşü isə hər bir insanın dünyagörüşü, əqidəsi, baxışları və bu kimi digər faktorların təsirindən qaynaqlanır, məhz bu faktorların keyfiyyəti isə insanın təhsil və tərbiyəsinin uğur göstəricisini özündə əks etdirir. İnsanların maariflənmə səviyyəsinin artmasının nəticəsidir ki, getdikcə təhsil almağın özü də ictimai inkişafın əsas və mühüm əhəmiyyət kəsb edən dəyərlərindən birinə çevrilib. Deməli, şəxsiyyətin inkişafında və istər işgüzar, istərsə də həyati fəaliyyətində savadlı, təhsilli olmağının nə qədər əhəmiyyətli olmasını hər kəs öz gündəlik yaşam tərzində hiss edir, praktik olaraq bunu yaşayır: təhsil insanın yüksəliş prosesidir, təhsil insanın dünyadakı digər insanlarla birlikdə ümumi varlığın formalarına qovuşması prosesidir. Qənaət ondan ibarətdir ki, məhz təhsil vasitəsilə insanlar sosial təsəvvürləri, anlayışları, hiss

və davranış formalarını mənimsəyərək öz davranışları, eləcə də gündəlik yaşam tərzləri ilə mənimsədikləri dəyərləri təbliğ edirlər. Təhsilin mahiyyəti insan şəxsiyyətini və onun ruhunu formalaşmalaşdırmaq və inkişaf etdirməkdən ibarətdir. Təhsil insanlara təcrübə, bilik qazandırır və özünüdərketmənin inkişafına səbəb olur.

Təhsil məkanının sərhədləri günü-gündən genişlənir. Bu gün maarifləndirmənin və peşəkar tədrisin dünyanın ən ucqar regionlarında belə mövcud olduğunu görməmək mümkün deyil. İndi demək olar ki, elə bir ölkə yoxdur ki, orada insanların ümumi məktəb və xüsusi ali təhsil sistemi olmasın. Müasir dövrdə cinsi və ya yaş əlamətinə görə müxtəlif təhsil müəssisələrinə daxil olmaq üçün də heç bir məhdudiyyət yoxdur. Cəmiyyətin informasiyalaşdırılmasının dinamik prosesləri təlimin müddəti və intensivliyini hər yerdə artırmağa imkan verir. Beləliklə, təhsilə ümumi çıxış təhsil məkanını genişləndirir və artıq yalnız ümumi deyil, həm də ali təhsili kütləviləşdirir. Lakin bütün bunlar, əlbəttə ki, mütləqləşdirilməməlidir. Başa düşmək lazımdır ki, təhsilin kütləviliyi hələ onun keyfiyyətindən xəbər vermir. Bununla yanaşı, təhsilin kütləviliyi praktiki olaraq hər yerdə onu göstərir ki, təhsilə tələbat var və insanlar üçün təhsil arzuolunandır: təhsil hazırkı dövrdə insanların əksəriyyəti üçün vacib hesab edilən dəyərdir və onların şəxsiyyətinin inkişafı üçün oriyentasiya rolunda çıxış edir.

Dəyər çoxölçülü bir anlayışdır. Belə ki, dəyər bir tərəfdən obyektin xüsusiyyətləri və keyfiyyəti, digər tərəfdən subyektin özünün xüsusiyyətləri, ehtiyacları, maraqları və məqsədləri ilə müəyyən edilir. Bu zaman təbii ki, dəyərlərə şəxsi münasibət də müəyyənləşmiş olur. Şəxsi münasibət yalnız onun tələbatları və məqsədləri ilə deyil, həm də öz biliklərinə, informasiyasına və həyat təcrübəsinə malik olan gerçəklik obyektlərinin insan tərəfindən korrelyasiyasına da əsaslanır.

İnsanların əksəriyyəti dərk edir ki, cəmiyyətdə həyat və əmin-amanlıq üçün zəruri olan ümumi və xüsusi biliklərə yiyələnmək yalnız təhsil prosesi vasitəsilə mümkündür və buna görə də təhsil indi cəmiyyətdə mövcudluğun ən mühüm dəyər istiqamətlərindən biri kimi qəbul edilir.

Təhsilin dəyəri cəmiyyətin və onun üzvlərinin tələb və maraqlarının cəminə bərabərdir və buna görə də təhsil hər şeydən əvvəl cəmiyyət üçün həm instrumental, həm də terminal dəyər kontekstində çıxış edir. Təhsil bir dəyər kimi mədəniyyətin əsasıdır, cəmiyyətin üzvləri arasında qarşılıqlı anlaşmanın və qarşılıqlı fəaliyyətin zəminidir. Təhsilin dəyəri hər şeydən əvvəl şəxsdə müsbət keyfiyyətlərin kompleks şəkildə formalaşdırılmasıdır.

Təhsil cəmiyyətdə təbəqələşmənin mühüm amillərindən biridir: insanlar arasında fərq yaradır və əksinə yeri gələndə həm də bu fərqi aradan qaldıra bilir. Çünki, lazımi səviyyədə təhsilin olması insanın dolanışıq şəraitini yaxşılaşdırır və peşəkar inkişafına kömək edir. Təhsilin səviyyəsi və keyfiyyəti ölkənin cəlbediciliyinin, imicinin ən mühüm amillərindən biri hesab edilir. İnkişaf etmiş təhsil sisteminin mövcud olduğu və insanların yüksək səviyyəli peşə hazırlığının təmin edildiyi bir dövlət təhsil yerini müəyyən etməyə çalışan müxtəlif ölkə gənclərinin diqqətini də özünə çəkir. Bütün bunlar təhsil xidmətlərinin inkişaf etmiş bazarını yaradır ki, bu da dövlətin dünyada nüfuzunu artırır, eləcə də digər ölkələrin gənclərinə təhsil xidmətləri göstərən dövlət bu ölkələrin siyasi və intellektual elitasının formalaşmasına təsir göstərir.

Təhsil mənəvi dəyərlərə yiyələnməyə kömək edir və bu mənada çox böyük mədəni-tarixi əhəmiyyətə malikdir. Yalnız təhsil vasitəsilə dövrlərin və nəsillərin varisliyi qorunur və əlaqəsi yaradılır, mədəniyyət dəyərlərinin sosial irsi baş verir. Bu isə o deməkdir ki, təhsil sayəsində insanların şüurunda sabitlik yaranır, onların vətəndaş identikliyi formalaşır.

Təhsilin cəmiyyət üçün əhəmiyyəti psixoloji olaraqda mövcuddur: təhsillə psixi sağlamlıq, fiziki sağlamlıq, eləcə də sosial sağlamlıq da bir-birilə düz mütənasibliyə malikdir. Təhsilli insanlara öz tələbatını, digər insanlar üçün gərəkliyini, faydalılığını hiss etmək xasdır. Nəzərə alınmalıdır ki, hər bir fərdin dəyərlərinin formalaşmasının əsasını cəmiyyətin dəyərləri təşkil edir. Fərdi dəyərlər hər bir fərdin mövcud olması və inkişafı, onun bu və ya digər fəaliyyətinin istiqamətləndirilməsinin şərtidir. Bu o deməkdir ki, insanın bu və ya digər fəaliyyətinin motivasiyası da mücərrəd sosial dəyərlərdən çox, onun şəxsi meyllərindən, gerçəklik obyektlərinin empirik qiymətləndirmələrindən irəli gəlir.Beləliklə də, təhsil dəyərləri yalnız insan-

ların həyat fəaliyyətinin məqsəd və vasitələri deyil, həm də onların ətrafında olan digər insanların hərəkət və hadisələrini qiymətləndirməyə imkan verir.

Hər bir təhsil növünün özünə uyğun motivi mövcuddur. İnsanın bu və ya digər konkret təhsil məqsədlərinə yönəlməsinə aşağıdakı motivlər uyğun ola bilər:

- özünütənzimləmə (azad olmaq arzusu, insanı müstəqil seçim etməyə, idrakda, hərəkətlərdə yaradıcılığa can atmağa təhrik edir);
- təhlükəsizlik (mövcudluğun sabitliyinə, qeyri-müəyyənliklərin aradan qaldırılmasına çalışmaq);
- universalizm (gözəlliyə, harmoniyaya, ədalətə, tolerantlığa ehtiyacın təhsil vasitəsilə əldə olunduğunu başa düşmək);
- nailiyyət (uğurun insanların təhsil səviyyəsi ilə əldə edilməsi haqqında məlumatlılıq);
- hakimiyyət (hakimiyyət və idarəetmə dəhlizlərinə keçid əldə etmək, eləcə də hakimiyyətin həyata keçirilməsi prosesinin özü təhsildən asılıdır);
- yaxşılıq (yaxşılıq etmək, digər insanlara hörmət etmək istəyi təhsillə müəyyən edilir).

Bəzən təhsil prosesində motivasiyanın və məqsədlərin ziddiyyəti baş verə bilər. Bu cür ziddiyyət praktiki olaraq istənilən fəaliyyət növündə də mövcuddur. Əgər gənc təlim prosesinə qoşulursa və təlim onun daxili məqsədinə çevrilmirsə, o zaman biliyin mənimsənilməsi çətinləşir. Əksinə təlim prosesinə sevinc, arzu, istək ilə qoşulursa, təhsil almaq asan və rahat gəlir. Ona görə də insan üçün daxili məqsədlərin üstünlük təşkil etdiyi yerlərdə, xarici məqsədlər tabeçilikdə çıxış edir və azad fəaliyyət həyata keçirilir. Əgər fəaliyyət prosesində insan üçün xarici məqsədlər aparıcı rol oynayırsa, qeyri-azad fəaliyyət baş verir.

Keçmişdə dəyərlərin müxtəlif sosial qruplar arasında təhsilin məqsədləri kimi fərqləndirilməsindən danışmaq olardı. İndi isə, informasiya cəmiyyəti şəraitində, təhsillə bağlı qrupların bu cür fərqləri və onun dəyərləri praktiki olaraq nəzərə alınmır. Buna görə də demək olar ki, bir məqsəd kimi təhsilə münasibətdəki fərqlər üzv olduqları sosial qrupun mövcudluğunun hər hansı şərtləri deyil, fərdlərin şəxsi xüsusiyyətləri ilə şərtlənir. Bu, onunla izah olunur ki, cəmiyyətin dəyərlər sistemi indi əsasən bazar prinsipləri üzərində qurulur.

Müxtəlif ölkələrin və xalqların ictimai proseslərinin qloballaşması şəraitində ictimai istehsal sisteminin ən müxtəlif sahələrində çalışan işçilərin peşəkarlığına olan tələblər artırılır. Müasir mütəxəssis-işçi hərtərəfli və dərin, ümumi və xüsusi biliklərə, yüksək peşəkarlıq səviyyəsinə malik olmalıdır. O, yeni texnologiyaları sürətlə mənimsəməyi və peşəkar səviyyəsini daim artırmağı bacarmalıdır. Müasir işçi-mütəxəssisin sərişt əliliyinin qiymətləndirilməsində onun təşəbbüskarlığı, tolerantlığı, ünsiyyətliliyi və əmək bazarında rəqabət qabiliyyətinin artırılması ilə bir çox başqaları kimi sosial cəhətdən əhəmiyyətli keyfiyyətləri də az əhəmiyyət kəsb etmir. Mənəvi, mülki və digər bu kimi keyfiyyətlər yalnız peşə təhsilində deyil, şəxsi inkişafında da vacibdir. Bu xüsusiyyətlər artıq məktəb dövründən formalaşdırılmağa başlanılmalıdır. Bütün bunlar o deməkdir ki, həm məktəbdə, həm peşə məktəblərində, həm də ali məktəblərdə şagirdlərin tərbiyəsi ilə bağlı fəaliyyəti gücləndirmək lazımdır. Təhsilə yalnız biliklərin ötürülməsi və yığılması prosesi kimi baxmaq olmaz. Belə ki, təhsilin minimum və maksimum hədləri mövcuddur. Savad minimumu dedikdə, nəzərə almaq lazımdır ki, dünyanın demək olar ki, bütün ölkələrində ümumi təhsil mövcuddur. Cəmiyyət, dövlət bütün bilik çərçivələrini möhkəmləndirməyə çalışır. Lakin, əlbəttə, heç də həmişə və hər yerdə ümumi təlim minimum dərəcədə icra olunmur. Buna görə də demək olar ki, istənilən cəmiyyətdə savadsız insanlara rast gəlmək olar. Belə insanlar haqqında onların minimum təhsil səviyyəsinə malik olduğunu demək mümkün deyil. Minimum təhsil səviyyəsinə malik olan insanlar ictimai zəruri təhsilin minimum səviyyəsinə malik olmalıdırlar.

İnsanın maksimum savadı onun peşəkar sərişt əsi və praktik iş təcrübəsi ilə bağlıdır. Bütün bunlar bir səviyyəli mütəxəssisə bəzən müəyyən dar fəaliyyətlərdə ekspert funksiyalarını yerinə yetirməyə imkan verir. Adama elə gəlir ki, insan təkcə bu sahəni ustalıqla bilmir,

hər şeyi bilir. Həqiqətən də, əgər insan uzun müddət yalnız bir fəaliyyət növü ilə peşəkar məşğul olursa, onda müəyyən ustalığa nail olur. Amma əgər o, bu fəaliyyətdən kənara çıxarsa, o zaman, hər hansı qeyri-peşəkar kimi ixtisaslaşmır.

İnsanların maksimum savadlılıq səviyyəsində müxtəlif xüsusiyyətlər yer alır: peşəkar, şəxsi, sosial və s. Hamı üçün əhəmiyyət kəsb edən bu dəyərlər insanın özünüdərketmə və özünənəzarətin əsasına çevrilir.

Ən minimum təhsil insana cəmiyyətin strukturunda yalnız ən aşağı pilləni tutmağa imkan verir. Ona görə də təhsilin daha yüksək səviyyəsini mənimsəmək lazımdır. Təbii ki, savad anlayışı hamı üçün eyni ola bilməz. Ancaq hər bir insanın bu gün mütləq minimum təhsili olmalıdır.

Beləliklə, informasiya cəmiyyətində təhsil insanların dəyərinə çevrilir. Bir şəxs tərəfindən təhsil almaq prosesi onun aidiyyəti sahəyə aid səriştəliliyinin formalaşmasıdır. Səriştələrin formalaşması nəticəsində insanın bacarıq və yaradıcılıq səviyyəsi artır və bu proses birbirini qarşılıqlı əvəz etməklə təkmilləşir, inkişaf edir və cəmiyyətdə baş verən dinamikanın tərkib hissəsinə çevrilir.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı 2002
2. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika I-II cild, Bakı2012.
3. Həmzəyev M.Ə. Pedaqoji psixologiya, Bakı 1991.
4. Əliyev B.H. Pedaqoji psixologiya, Bakı 2011.

РЕЗЮМЕ

В статье рассматриваются образовательные успехи личности, концепция ценности, а также связь образовательных успехов с системой ценностей. Кроме того, в статье говорится об отношении людей к образованию и о положительном влиянии образования на развитие человека на всех этапах жизни. Также в статье дается понятие минимальной и максимальной грамотности.

SUMMARY

The article discusses the educational success of the individual, the concept of value, as well as the relationship of educational success with the value system. In addition, the article talks about the attitude of people to education and the positive impact of education on human development at all stages of life. The article also gives the concept of minimum and maximum literacy.

Zamanova Səma Şükür qızı
ADPU, Təhsildə sosial-psixoloji xidmət, I kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d S.H.Əlizadə

AQRESSİV DAVRANIŞA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Açar sözlər: *frustrasiya, aqressiya, tədqiqat,stimul, dağıdıcı*
Ключевые слова: *разочарование, агрессия, поиск,стимул, разрушительный*
Key words: *frustration, aggression,research, stimulus,destructive*

Psixoloji ədəbiyyatda aqressiyanın yaranmasına səbəb olan amillərəmünasibətlər və mövqelər müxtəlifdir. Aqressiyaya münasibətdə ehtimal olunan ilk nəzəri yanaşmaya əsasən, aqressiv davranış instinktiv xarakterlidir. Bu, o deməkdir ki, insanda aqressiya və aqressivlik genetik amillərdən asılıdır.

Aqressiv davranışa təsir göstərən xarici amillərin mahiyyətini aşkara çıxarmaq üçün bir sıra tədqiqatlar aparılmışdır. Bu tədqiqatlarda əsas diqqət insanı əhatə edən mühitin mənfi təsirlərinə, yəni səsə, havanın və suyun çirklənməsinə, havanın hərarətinin dəyişməsinə, qidanın tər-

kibinə, insanların sığlaşmasına və s. yönəldilmişdi. Digər tədqiqatçılar C.Karpenter, D.Kapasso, K.Leonard, S.Teylor və başqaları bununla bağlıapardıqları araşdırmalarda alkoqol və narkotikin də aqressiv davranışın yaranmasına şərait yaradan amillərdən olduğunu qeyd edirlər.

Aqressiv davranışa səbəb olan amillərdən biri də havanın hərarəti ilə bağlı nəzəriyədir və bu psixoloji ədəbiyyatda geniş tədqiq olunur. Bu yanaşmanın tərəfdarlarının fikirlərinə görə, «havanın hərarətinin hədsiz dərəcədə yüksəlməsi aqressiv davranışı gücləndirir». Bu məsələ özünüXIX əsrin sonlarında elmi ədəbiyyatda daha geniş şəkildə göstərməyə başladı.

Bu istiqamətin nümayəndələrinin fikrincə havanın hərarəti yüksək olduqda, aqressivliyin səviyyəsi də yuxarı olur, mülayim hava şəraiti olduqda isə aqressivliyin dərəcəsi aşağı olur.

Müasir tədqiqatçılarındanolan məşhur alim Grom aqressiv hərəkətlərə təsir edən situativ amillərdən biri kimi «istiliklə» bağlı məsələləritəhlil etməyə çalışmışdır. Qeyd etmək yerinə düşərdi ki, hələ eramızdan əvvəl (b.e.ə 460-377) Hippokrat insanların davranışında özünü göstərən xüsusiyyətləri hava amili ilə bağlayırdı. Belə ki, coğrafi yanaşmaya əsaslanan tədqiqatlarda isti bölgələrdə amansız cinayətlərin sayının çox olması öz təsdiqini tapmışdır. Psixoloqlar tərəfindən aparılmış tədqiqatlar isə «istiliklə» bağlı irəli sürülən fərziyyələri sübut etsə də bu amilin niyəaqressiv davranışa səbəb olmasının konkret izahını verə bilmədilər.

Aqressiv davranışa təsir göstərən digər xarici səbəblər içərisində əhalinin sıxlığını, səs-küyünü, havanın çirkliliyini də göstərə bilərik. Mulumdur ki, sıxlıq, insanın xoşagəlməyən və qeyri-sağlam subyektiv yaşanmış təcrübəsidir. Sıxlıq fiziki anlayışdır və insanlar tərəfindən müxtəlif formada qarşılana bilər. Yəni bəzi insanlar sıxlığı sakit qarşılasalar da, digərləri buna aqressiv hərəkətlərlə reaksiya verə bilir. Aparılmış tədqiqatlar insanların sıx yerləşdikləri məkanlarda aqressiv hərəkətlərin daha çox olduğunu sübut etdi (Qin, 1990).Bundan başqakeçirilmiş eksperimentlərinnəticəsində aydın oldu ki, kişilər qadınlardan daha çox sıxlıqda dözümsüzlük və aqressivlik nümayiş etdirirlər.

Bəs, görəsən, kütləvi informasiya vasitələri necə? Aqressiv davranışa təsir göstərirmi? Və ən əsası aqressiv davranış öyrənilə bilərmi? Bu aktual mövzudur. Son illər televiziyanın və kinoların uşaq və yeniyetmələrin aqressiv davranışına təsirinə həsr olunmuş 1000-dən çox tədqiqat işi aparılmışdır. Bu tədqiqatlar müxtəlif ölkələrdə, müxtəlif millətlər və irqlər, sosial qruplar, nəzərə alınmaqla həyata keçirilmişdir. Aparılan tədqiqatlara əsasən birmanalı olaraq, ekrandakı zorakılıq və aqressiyanın uşaq və yeniyetmələrdə insana və cansız əşyalara qarşı aqressiv meyl yaratması qənaətinə gəlinmişdir.

Qeyd edə bilərik ki, psixologiyada aqressiv davranışa frustrativ yanaşma mövcuddur. Bu istiqamətin nümayəndələrinin fikrincə aqressiya frustrasiyanın təsiri nəticəsində, yəni insanın məqsədinə nail ola bilməməsi nəticəsində yaranır. Bu səbəblər isə öz növbəsində obyektiv və subyektiv xarakter daşıya bilər. Məhz frustrasiya insanın aqressiv davranışdan azad olmasına səbəb olur. Lakin frustrasiya aqressiyanı birbaşa formalaşdırmır, o aqressiyaya təhrik edir. Bu yanaşmanın tərəfdarları olan C.Dollard, N.Miller və b. öz tədqiqatlarında aqressiyanın həmişə frustrasiyadan sonra təzahür etməsini sübut etməyə çalışırdılar. Onlar güman edirdi ki, əgər orqanizm frustrasiyaya məruz qalırsa, bu həmişə aqressiya yaradır.

Lakin sonralar A.Bandura, L.Berkovic, S.Rozensveq və digər tədqiqatçılar bu ideyaya şübhə ilə yanaşırdılar. Xüsusilə onların apardığı tədqiqatlar nəticəsində belə qərara gəlindi ki, təəssüratları xarakterizə edən hisslər, emosiyalar insanda frustrasiyaya qarşı cavab reaksiyasıdır. Beləliklə, frustrasiya aqressiyanı yaradan səbəblərdən biri kimi nəzərdən keçirilirdi. Lakin elmin sürətli inkişafı nəticəsində sonralar müəyyən olundu ki, aqressiv davranışı frustrasiya ilə əlaqələndirən tədqiqatçılar frustrasiyanın heç də həmişə aqressiv davranışlara səbəb olmasına tam əmin olmamışlar. Məşhur tədqiqatçılar Berkovitz və Le Paj frustrasiyanın aqressiya yaratdığına əmin olmaq üçün müxtəlif eksperimentlər keçirərək belə qənaətə gəldilər ki, aqressiv reaksiyaları stimullaşdırmaq üçün müəyyən qıcıqlandırıcı amillər olmalıdır.

Məqalənin aktuallığı.21-ci əsərdəaqressiv davranış və rəftarproblemi insanhəyatında xüsusi əhəmiyyət kəsb edir. Aqressiyaproblemini kliniki və tibbi psixologiya istiqamətində tədqiq etməkcəmiyyət üçün olduqca əhəmiyyətlidir.

Məqalənin elmi yeniliyi. İnsanda aqressiya yaradan və formalaşdıran davranış və amillər barəsində qeyd edilmişməsələlərin, həmçinin fərziyyələrinnisbi əlaqəsi təhlil olunmuşdur.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən praktik və həmçinin, klinik psixoloqlar, bakalavr və magistr tələbələri faydalana bilərlər.

Ədəbiyyat

1. Nadir İsmayılov,Fuad İsmayılov. Tibbi psixologiya və psixoterapiya. Bakı, 2002.
2. Nadir İsmayılov. Psixiatriya, Bakı,1998.
3. Bayramov Ə.S. Etnik psixologiya. Bakı, 2001.
4. Şəfiyeva Elnarə. Uşaqlarda anormal psixi inkişaf. Bakı, 1997.
5. http://psixoloq.org

XÜLASƏ

Beləliklə, aqressiv davranışın psixoloji mahiyyətini açdığımız zaman, belə nəticəyə gəlirik ki, aqressiv davranışdan qaçmaq mümkündür. Aqressiv davranışın səbəblərini araşdırarkən, belə nəticəyə gəlmək olar ki, aqressiv davranışa təsir göstərən amillər çox müxtəlifdir. Bəzən şəxsiyyətin özü ilə, bəzən də ətraf mühitlə əlaqəli çoxsaylı amillər aqressiv davranışın qarşısını almağa kömək edə bilər.

РЕЗЮМЕ

Таким образом, когда мы обнаруживаем психологическую природу агрессивного поведения, мы приходим к выводу, что агрессивного поведения можно избежать. Изучая причины агрессивного поведения, можносделать вывод, что факторы, влияющие на агрессивное поведение, очень разные. Многие факторы, иногда связанные с самой личностью, и с окружающей средой могут помочь предотвратить агрессивное поведение.

SUMMARY

Thus, when we discover the psychological nature of aggressive behavior, we come to the conclusion that it is possible to avoid aggressive behavior. When examining the causes of aggressive behavior, it can be concluded that the factors that affectaggressive behavior are very different. Many factors, sometimes related to the personality itself, and sometimes to the environment, can help prevent aggressive behavior.

Zamanova Səma Şükür qızı
ADPU, Təhsildə sosial psixoloji xidmət, I kurs magistrantı
Elmi rəhbər: p.ü.f.d S.H.Əlizadə

AQRESSİVLİK PROBLEMİNİN PSİXOLOJİ ƏDƏBİYYATDA QOYULUŞU

Açar sözlər: *aqressiya, davranış, yanaşma, destruktiv, zorakılıq*
Ключевые слова: *агрессия, поведение, теория, разрушительный, насилие*
Key words: *aggression, behaviour, adjoining, destructive,violence*

Müasir dövrə qədər psixoloji ədəbiyyatda hər kəs tərəfindən ümumi qəbul edilən vahid bir “aqressiya” anlayışı mövcud deyil. Uzun müddət bu məsələ psixoloqların xüsusi diqqətini cəlb etmişdir. Məşhur Amerika psixoloqlarından biri olan Albert Bandura aqressivliklə bağlı geniş tədqiqatlar aparmışdır. O, aqressiyanın psixoloji mahiyyətini aşkara çıxarmağa cəhd göstərənləri insanın cəngəlliklərə səfəri ilə müqayisə edirdi. Digər məşhur fransız psixoloqu olan Jan Jak Russo isə qeyd edirdi ki, aqressivliyin mənbəyini insanın təbiətində deyil, cəmiyyətdə axtarmaq lazımdır. İngilis psixoloqları da aqressivliyin elmi əsaslarını araşdırmışlar.

İngilis filosofu olan Tomas Hobs aqressiv davranışla bağlı öz fikirlərini irəli sürmüşdür. O bildirirdi ki, cəmiyyət tərəfindən yaradılan qanunlar insan üçün olduqca vacibdir, çünki həmin bu qanunlar insanın daxilində var olan heyvani instinktləri nəzarətdə saxlamağa kömək edir.

Aqressivliyin meydana gəlməsinə təkan verib, səbəb olan amillərə müxtəlif yanaşmalar mövcuddur. Aqressivliklə bağlı ən qədim nəzəriyyəyə görə aqressivlik instinktiv xarakterə malikdir. Psixoanalizin banisi, psixiatr Z.Freydin fikrincə insanda aqressiv davranışın üzə çıxmasının əngəllənməsi insanın daxilində dağıdıcı proseslərin yaranmasına şərait yaradır. Aqressiv enerjini basdırmaq deyil, ondan azad olmağa çalışmaq lazımdır. Z.Freyd onu da qeyd edirdi ki, aqressiya psixoloji problem kimi anadangəlmə xarakter daşıyır. Freydin bu konsepsiyasını bir çox psixoloqlar, hətta, onun digər nəzəriyyələrinə qarşı çıxanlar da qəbul etmişdilər.

Aqressivliyin psixoloji mahiyyətini tədqiq etmək üçün ilk növbədə aqressiya anlayışını elmi-nəzəri cəhətdən öyrənib, aydınlaşdırmaq lazımdır. Aqressiya latın sözüdür, "aggredi" sözündən, hərfi mənası "hücum etmək" deməkdir. Alimlərin fikrincə, aqressivlik cəmiyyət normalarına zidd olan, insanlara fiziki, psixi, hətta, mənəvi ziyan vuran, emosional gərginliyin yaranmasına gətirib çıxaran dağıdıcı davranış formasıdır. Bəzi inkişaf etmiş ölkələrdə psixoloqlar aqressivliyi özünü təsdiq zamanı meydana gələn şiddətli fəallıq kimi qiymətləndirirlər. Digər bir tərifə görə aqressivlik subyektə və obyektə ziyan vuran destruktiv hal kimi başa düşülür. Aqressiyanı başqasına ziyan vurmağa yönəlmiş niyyət də adlandıra bilərik.

Aqressivliyin psixoloji mahiyyətini aşkara çıxarmaq üçün ilk öncə, destruktiv davranış növlərinə aid müxtəlif aqressiv davranışın təzahür xüsusiyyətlərini müəyyən etmək vacibdir. Bu sahədə tədqiqatlar aparan alimlər belə hesab edirlər ki, aqressivliyin psixoloji mahiyyəti haqqında fikirlər və təsəvvürlər dəqiq metodlardan, əldə edilmiş nəticələrdən asılıdır. Ancaq aqressivliyin səbəblərinin aşkar müzakirələri metodoloji əsaslarsız tətbiq olunur. Elə bu səbəbdən də aqressiyaya aid irəli sürülən elmi-nəzəri çıxarışlar ilk öncə bu prosesdə istifadə edilən əsas metodların yaxşı və pis tərəflərinin izahından başlamalıdır.

Aqressivliyin meydana gəlməsini müəyyən edə bilmək üçün davranış normalarının dəyərləndirilməsində digər başqa xüsusiyyətləri də önəmə almaq lazımdır. Tədqiqatçı alim Berkoviç deyirdi ki, aqressiv davranış çox zaman tərəflərin məsələlərə yanaşması ilə müəyyən olunur. Məsələn, bir qisim tədqiqatçılar fiziki cəzanı insan tərbiyəsində qəbul edilən və təsirli üsul kimi qiymətləndirdiyi halda, digər qrup tədqiqatçılar bu cür davranışa destruktiv davranış kimi baxırlar. Bəs, aqressiv davranışı əngəlləmək üçün hansı tədbirləri həyata keçirə bilərik? İlk növbədə, xoşagəlməz vəziyyətlər qaça və ya onu başqa daha müsbət istiqamətə dəyişə bilərik ; aqressiv davranışdan yayınmaq üçün müsbət yardım və kömək istəmək; mənfi hissi həyəcanlardan qurtulmaq; problemli situasiyaların həlli; digər insanların rəğbətini qazanmağa cəhd göstərmək və s.

Aqressivliyin psixoloji mahiyyətini araşdırarkən aqressiya ilə bağlı elmi-nəzəri yanaşmaları qeyd etmək vacibdir. Bu günə qədər mövcud olan yanaşmaların heç biri aqressivliyi yaradan səbəbləri aşkara çıxarmaq üçün qüsursuz bir model deyil. Bir çox psixoloji ədəbiyyatlarda aqressiv davranış frustrasiya ilə əlaqələndirildiyi halda, digər ədəbiyyatlarda qeyd olunur ki, frustrasiya heç də hər zaman aqressiv reaksiyalara səbəb olmur. Hətta bir çox tədqiqatçılar məsələn, Le Pak və Berkovitz bu məsələni aydınlaşdırmaq üçün, frustrasiyanın aqressiya yaratdığından əmin olmaq üçün təcrübələr həyata keçirdilər. Onlar belə bir nəticəyə gəldilər ki, aqressiv davranışa təkan verən hər hansı bir amil mütləq var. Bu məsələ ilə bağlı məşhur alim Karlson da tədqiqatlar aparmışdır. Aqressiv davranışın bioloji xüsusiyyətlərini öyrənən bir çox alimlər kişilərin qadınlardan daha çox aqressiv olmasını sübut etmişlər. Aqressiyanın mənfi təzahür formalarına paxıllıq, qısqanclıq zəminində törədilmiş aqressiyalar aid edilir. İnsan yalnız istədiyi şeyə malik ola bilməməsi səbəbindən deyil, eyni zamanda başqasının buna sahib olmasına görə zorakılıq əlamətləri törədir.

Məqalənin aktuallığı. Müasir dövrdə aqressivlik problemi cəmiyyət həyatında mühüm yer tutur. Bu problem tibbi psixologiya və psixoterapiya istiqamətində araşdırmaq cəmiyyəy üçün böyük əhəmiyyətə malik problemdir.

Məqalənin elmi yeniliyi. Psixoloji ədəbiyyatda aqressivlik problemi haqqında yazılmış nəzəriyyələrin qarşılıqlı əlaqəsi ətraflı təhlil olunmuşdur.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Elmi məqalədən klinik psixoloqlar, praktik psixoloqlar, bakalavr və magistr tələbələri yararlana bilərlər.

Ədəbiyyat

1. Həmzəyev M.Ə. Mədəniyyət və şəxsiyyətin qarşılıqlı əlaqəsinin bəzi məsələləri haqqında. Bakı, APU/1992.
2. İsmayılov N.V və İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya. Bakı,2002.
3. Nuriyev S, İbrahimova. D. Təhsildə sosial-psixoloji xidmət. Bakı,2016
4. Çələbiyev N.Z. Təhsildə sosial-psixoloji xidmət II hissə. Bakı, 2008
5. http://kayzen.az.

XÜLASƏ

Aqressivlik problemi ictimai həyatda mühüm yer tutan məsələlərdən biridir. Bu məsələni sosial, psixoloji istiqamətdən daxil etmək üçün göstərilən bir çox cəhdlərə baxmayaraq, onun tibbi istiqamətləri diqqətdən qıraq qala bilməz. İlk növbədə, aqressiyanın müxtəlif növlərinin formalaşmasında genetik amillərin rolunu nəzərdən keçirən fərziyyələr vardır. İkinci növbədə, aqressiv davranış və onun müxtəlif növləri bəzi hallarda ruhi xəstəliklərin tibbi təzahürləri ilə əlaqəli olur. Nəhayət, üçüncüsü isə bu cür dağıdıcı davranış əksər hallarda məhkəmə tibbi ekspertizasının psixoloji-psixiatrik xidməti tərəfindən tabirləşmiş halda tədqiq olunur.

РЕЗЮМЕ

Проблема агрессивного поведения играет важную роль в обществе. Медицинские аспекты сеанса нельзя игнорировать, если эта проблема изучается в рамках социальной психологии. В первую очередь, существуют гипотезы, в которых рассматривается роль генетических факторов в формировании различних видов агрессии. Во-вторых, агрессивное поведение и его различные типы иногда проявляются как медицинские проявления психического заболевания. Наконец, третий случай заключается в том, что такое деструктивноеповедение постоянно расследуется судебнопсихиатрическими службами.

SUMMARY

The problem of aggression is one of the most important issues in public life. Despite many attempts to include this issue from social and psychological perspectives, its medical aspects cannot be ignored. Firstly, there are assumptions which examined the role of genetic factorsin the formation of different types of agression. Secondly, in some cases agressive behaviour and its various types are related to the medical manifestation of mental illness. Finally, in most cases the thirdlywhich suchdestructive behavior isinvestigated by the forensic psychiatric service in a fully integrated manner.

Адилханов Айдын Зиядхан оглу

АГПУ, Социально-психологическая служба в образовании, II учебный год

Научный руководитель: Аскерова Егана Бахыш

СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ПСИХОЛОГИЧЕСКОЙ СЛУЖБЫ В АЗЕРБАЙДЖАНЕ

Açar sözlər: *psixoloji, xidmət, sistem, təhsil, inkişaf, tarix, elm, tələbələr, psixoloq*

Ключевые слова: *психологическая, служба, система, образование, развитие, история, наука, учащиеся, психолог*

Key words: *psychological, service, system, education, development, history, science, students, psychologist*

Современное общество переживает период серьезных потрясений связанных с ситуацией введения необходимых карантинных эпидемиологических мер по профилак-

тике пандемии COVID-19. Общество переживает проблемы в области психического здоровья, специалисты по практической психологии пытаются выявить разнообразные причины и факторы, в наибольшей степени вызывающие нарушения адаптации людей, с целью мобилизации ресурсов здравоохранения для оказания адекватной и персонифицированной помощи населению. Развитие напряженности и тревоги при этом может выполняет роль стрессового фактора развивающего нарушения поведения, коммуникативности людей. Тревожные опасения способствуют формированию неадекватного поведения, связанного с соблюдением мер предотвращения заражения COVID-19. Эти изменения приводят к новым возможностям, предъявляют высокие требования к подготовке населения к жизни в быстро меняющихся условиях, требуют формирования критического мышления, новых жизненных установок, развитие личности с позитивными ценностями, формирование ответственного гражданина, способностьбрать ответственность за себя и свою судьбу. Нарушается процесс самоконтроля и самокритики личности, что непосредственно отражается на всей структуре развития общества. Психологическая служба в Азербайджане является одним из аспектов, обеспечивающих полноценное развитие общества. Благополучное развитие общества связано с созданием национальных систем психологического обеспечения [1, 2, 3, 4].

Психологическая служба как основательная система действуют во многих странах и имеет почти вековую историю. Исторически сложилось так, что в нашей стране внушительное развитие получила социально психологическаяслужба в образовании.

Практическая психология в Азербайджане начала зарождаться в 80-ые годы. История формирования социально-психологических идей в Азербайджане связана с именами таких, великих психологов своего времени, как Абдул Ализаде, Акпер Байрамов, Иса Мамедов, МухтарХамзаев, Бахтияр Алиев, Рамиз Алиев, ИсфандиярНоврузов и т.д.

Психологическая служба в Азербайджан организуется в сфере психологического развития общества, в том числе обеспечения их социальной защиты, а также в соответствии с законодательством Азербайджана, с другими нормативно-правовыми актами. Организация психологической службы основывается на профессиональности психологов.

Основоположник практической психологии Зигмунд Фрейд предполагал, что психологическая практика «в чистом виде» является основной, а не прикладной к образовательной и профессиональной. Развитие психологической службы способствует развитию психологически-здорового общества. По мнению известного немецкого психолога Альфреда Адлера, только тообщество, которое гармонирует с психологическими потребностями населения, может быть названо прогрессивной, и только такую среду можно будет считать дающей надежды на развитие общественной жизни. Поэтому психологическая служба является необходимым компонентом системы образования. Последователь теории Фрейда, Карл Юнг разработал теорию о коллективном бессознательном, тем самым расширил границы деятельности практического психолога [4, с. 133-137].

Во многих современных обществах, как и у нас психологическая службаразвивается большими темпами, так, например в Белоруссии, как и во многих странах Европы развита психологическая служба в высших учебных заведениях. В своих исследования Н.И.Олифирович и С.И.Коптева отмечают о, профессиональная работа психологов в структуре управленияв образовательной системе положительно влияет на совершенствование практической психологии. Результаты, полученные авторамив экспериментальном исследовании, подтверждают их гипотезу, связанную с вопросами изучения представлений специалистов социально-педагогических и психологических служб вузов об их профессиональной деятельности. Участниками исследования стали 38 специалистов, из них 23 педагога и 15 представителей социально-психологической службы вузов из различных регионов. Многие из опрошенных респондентов (81,6%) считают, что социально-психологическая служба вуза должна быть организована как отдельное структурная под система,

общей системы образования. В ходе дальнейшей беседы со специалистами вуза было выявлено, что в структуре управления воспитательной работы практические психологи за частую функционируют в качестве организаторов праздников, социальных педагогов, проводят воспитательную, идеологическую, социальную, а не психологическую работу. В ходе эксперимента была выявлено, что у психологов существует специфичная ниша, которую не может заменить другой специалист, а профессиональная деятельность психолога в настоящее время крайне востребована студентами и сотрудниками вузов [8, с. 25-30].

Целесообразность развития практической психологической службы определяется насущной потребностью учебных заведений в такой организации своей деятельности, которая бы обеспечила развитие индивидуальных особенностей и творческого отношения к жизни каждого учащегося. Педагоги, что вуза, что средней школы или колледжа не всегда могут справиться с проблемами выявления причин различного рода трудностей в учебно-воспитательной работе с учащимися: преодоления и профилактики отклонений в интеллектуальном и когнитивном развитии личности учащегося, помощи в решении конфликтных вопросов коллектива [5, с. 143-144].

Большинство нарушений в взаимоотношениях, коммуникации, проявление конфликтного поведения среди как педагогов, так и обучаемых возникают вследствие неправильного и неиндивидуального подхода к каждому члену коллектива. Эти и многие другие проблемы психологического характера, с которыми сталкиваются современные учебные заведения, требуют присутствия в коллективе психолога [6, с. 5-6].

Это подтверждает и приказ министра образования Азербайджана о создании психологической службы в школах. Главная цель психологической службы – максимальное содействие психическому и личностному развитию учащихся. В данный момент активно работаетцелый штат психологов при средних школах.

В современном мире обстоятельно повысился уровень высокоспециализированных требований кпрактическому психологу, работающему в системе образования. Несомненно, что необходимо более глубокий дифференцированный уровень подготовки работников практических психологов разного направленияпри решениимногоуровневых задач в системе управления процесса образования, а также в структуреразнопрофильных учебных учреждений [7, с. 55].

Мы считаем, что необходимо развивать психологическую службу в вузах. Одной из специфичных задач функционирования социально-психологической службы вуза является психолого-педагогическое обеспечение создания здорового психологического климата жизни и деятельности молодежи в процессе обучения. Воспитание будущих специалистовтребует формирования у студентов психологической готовности к жизненному самоопределению, включающему обретение личностной и социальной идентичности. Основными задачами социально психологической службы вуза должны являться:

- совершенствование социально-психологических условий,обеспечивающих развитие адекватного личностного и профессионального роста будущего специалиста;
- расширение личностно-ориентированного аспекта мотивированности в процессе учебно-воспитательный системы вуза;
- повышение когнитивной, коммуникативной и последующих направлений подготовки будущих специалистов к будущей профессиональной деятельности;
- осуществление социально-психологического анализа, проведение психопрофилактической и психокоррекции проблем, связанных с когнитивными, личностными, социальными и специфичных особенностейбудущих специалистов;
- планирование и проведение психологической консультативной работой в коллективе преподавателей и студентов;

• проведение просветительской работы для повышения уровня самообразования, самовоспитания и самореализации будущих специалистов ипрофессорско-педагогического состава учебного заведения.

В заключение, хотелось бы отметить, что функции практической психологии не может заменить ни одна служба, работающие в сфере направлений, влияющих на учебно-воспитательный процесс в учебных учреждениях.

Литература

1. Алиев Р. История психологии, Баку, 2006.
2. Байрамов, А.С., Ализаде,А.А., Психология., Баку, 2009.
3. Байрамов А.С. Психологический аспект в творчестве И.Насими // IV Закавказская конф. Психологов (тезисы, доклады), Баку, 1974.
4. Браун Д. Психология Фрейда и постфрейдисты, М.: Рефлбук, 1997, 304 с
5. Дьяченко М.И. Психология высшей школы, Учеб. Пособие, Тип.: Тесей, 2003, 352 с.
6. Ковалева Т.Н. Состояние и перспективы развития психологической службы в системе образования //журн. Психалогия, 2004, № 2, с. 4–8.
7. Недбаева С.В., Жидкова В.В., Психологическая служба вуза // Психология в вузе, 2003, №3, с. 49-63.
8. Олифирович Н.И., Коптева С.И., Уласевич Т.В., Формирование социальной идентичности студенческой молодежи: учебно-методическое пособие, М., 2008.

Adilxanov Aydın Ziyadxan oğlu

Azərbaycanda psixoloji xidmətin müasir vəziyyəti

XÜLASƏ

Azərbaycanda psixoloji xidmət cəmiyyətin hərtərəfli inkişafını təmin edən amillərdən biridir. Cəmiyyətin müvəffəqiyyətli inkişafı milli psixoloji dəstək sistemlərinin yaradılması ilə əlaqələlidir. Tanınmış alman psixoloqu Alfred Adlerə görə, yalnız əhalinin psixoloji ehtiyacları ilə uzlaşan bir cəmiyyəti mütərəqqi adlandırmaq olar və yalnız beləmühit sosial həyatın inkişafına ümid vermək kimi qəbul edilə bilər. Buna görə psixoloji xidmət sağlam cəmiyyətin zəruri hissəsidir.

Adilkhanov Aydın Ziyadkhan

Current state of psychologicalservice in Azerbaijan

SUMMARY

Psychological service in Azerbaijan is one of the aspects that ensure the full development of society. The successful development of society is associated with the creation of national systems of psychological support. According to the famous German psychologist Alfred Adler, only a society that is in harmony with the psychological needs of the population can be called progressive, and only such an environment can be considered as giving hope for the development of social life. Therefore, the psychological service is a necessary component of the education system.

Адилханов Айдын Зиядхан оглу

АГПУ, Социально-психологическая служба в образовании, II учебный год

Научный руководитель: Аскерова Егана Бахыш

ПРОБЛЕМА РАЗВИТИЯ ПСИХОЛОГИЧЕСКОЙ СЛУЖБЫ В АЗЕРБАЙДЖАНЕ

Açar sözlər: *diaqnostika, təhsil, psixoloji xidmət, məktəb psixoloqu, şagird*

Ключевые слова: *диагностика, образование, психологическая служба, школьный психолог, учащиеся*

Key words: *diagnostics, education, psychological service, school psychologist, students*

Проблема становления и развития психологической службы в системе образования прошла долгий путь, с момента возникновениянаучных психологических концепций, соот-

ветствующих потребностям и задачам образования, целям воспитания и формирования личности, до отделения ее в самостоятельную дисциплину и организацию психологической службы образования в каждой республике. Сегодня на данную отрасль практической психологии возлагается большая ответственность, ввиду того, что именно психологу необходимосоздать психологически благоприятный климат в коллективе, своевременно выявить имеющиеся нарушения у учащихся на каждом возрастном этапе, обеспечить психологическую поддержку и помощь в зависимости от наличия тех или проблем.

Как показала практика, психологические проблемы современности невозможно решить способами, которые были характерны для предшествующих лет. Нужна была новая форма, непосредственно обеспечивающая интеграцию науки с практикой. Именно в результате четкого осознания этой необходимости в стране начала формироваться система психологической службы, предоставившая широкие возможности для проведения прикладных исследований.

Что же входит в понятие психологическая служба образования? Это интегральное явление, представляющее собой единство четырех его составляющих, или аспектов — научного, прикладного, практического и организационного. Каждый из аспектов имеет свои задачи, решение которых требует от исполнителей специальной профессиональной подготовки.

Психологическая служба образования впервые появилась в США в 1896 году в Университете Пенсильвании. После чего этот вид практической психологии стал стремительно распространяться в Европе, а в начале XX века и в России. Сегодня проводятся многочисленные исследования по развитию системы психологической службы образования. Нам хотелось бы остановиться на формировании психологической службы в нашей Республике.

Как известно, психологическая служба образования в Азербайджане появилась не так давно с конца 80-годов прошлого столетия. Начиная с 90-хгодов, в нашей Республике была проделана большая работа, были открыты курсы по подготовке практических психологов, по переквалификации кадров. В 1984 году разработан проект «Положение о психологической службе», в которой была представлена программа о подготовке психологов к работе в сфере образования, принятый в 1990 году Министерством Образования Азербайджана.

Несмотря на ограниченное число педагогических кадров, данный проект нашел свою реализацию и с участием таких видных ученых, как И.А.Сеидов,Р.Ф.Ибрагимбекова, З.А.Вейсова был осуществлен. В указанные периоды была проведена работа по интенсивной подготовке психологов. За кратчайший период были подготовлены кадры психологов на базе школ, в которых предполагалось в дальнейшем организовать данную деятельность. С учетом важности работы психологов в системе образования, Министерство Образования Азербайджана приняло решение об открытии в Бакинском Государственном университете и Институте Повышения Квалификации Педагогических Кадров девятимесячных курсов. В дальнейшем эта идея нашла свое воплощение и в других вузах Республики.

Безусловно, учеными нашей республики был изучен опыт работы психологов в системе образования как стран ближнего, так и дальнего зарубежья. В Азербайджанев качестве практикующих психологов работают выпускники факультета психологии, педагоги, которые меняют специальность путем переобучения, люди других профессий, которые меняют специальность путем переобучения.

Как было отмечено профессором А.А.Ализаде: «успех азербайджанской школы в XXI веке, наряду со всеми другими условиями, будет зависеть от того, насколько грамотно психологические знания реализуются в школьной практике. Как и во всех развитых странах, в Азербайджане школа рано или поздно укоренится в потоке психологических измерений» [4, с. 88]. Именно в данной монографии ученого представлена целая глава, которая посвящена рассматриваемой нами проблеме, в которой содержится идея о разра-

ботке специальных программ, тестовых методик, которые отражали бы наши ментальные особенности, учитывали бы специфику работы с учащимися нашей Республики.

Нельзя не отметить вклад Мамедова И., который внес существенные изменения в развитие национальной системы образования. Он плодотворно работал над идеей: организации психологической службы в общеобразовательных школах, подготовки практических психологов, повышения квалификации учителей в Азербайджане, изучения и распространение передового педагогического опыта, что впоследствии нашло свое отражение в его трудах [9].

Сегодня продолжают проводиться исследования в данной области, вышли в свет работы, которые пополнили исследования по данной проблеме:АлиевР.А. [5].,Аллахвердиев Р. [2].,Амрахлы Л.Ш. [6,7]., Нуриев С.Ш.[10], Чалябиев Н.З. [3].,Юсифова М. [11].

Несомненным достоинством этих работ является практическая направленность, разработка опросников, тестов, методических рекомендация, позволяющих уделять особое внимание психодиагностике при приеме детей в школу, адаптации учащихся I класса к школе, оказание психологической помощиучащимся в период возрастных кризисов, организация психологической помощи учащимся на этапе подготовки к обучениюв вузе, при выборе профессии и т.д. В Республике периодически организуются встречи с практическими психологами в городе Баку, а также в регионах республики, проводится мониторинг их теоретико-практической подготовки и т.д.

Таким образом, мы попытались рассмотреть некоторые аспекты создания психологической службы образования в Азербайджане. Данный анализ позволяет утверждать, что была проделана большая работа, достигнуты успехи, приобретен опыт, предприняты серьезные шаги в области подготовки кадров, создана специальность «Социально-психологическая служба в образовании», периодически проводятся мониторинги, конференции, семинары, позволяющие получать сведения о текущей ситуацией в данной сфере деятельности психологов.

Литература

1. Azərbaycan Respublikasında Təhsilə Psixoloji Xidmət haqqında Əsasnamə. Bakı, Təhsil Problemləri qəzeti, 2011, 21-31 yanvar.
2. Allahverdiyev R. Praktik psixologiya:tətbiqi qaydaları. Bakı, 2019, 232s.
3. Çələbiyev N.Z. Təhsil sistemində psixoloji xidmətin tətbiqi məsələləri I hissə. Bakı, 2008, 308 s.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri Bakı: Ozan, 1998, 364 s.
5. Əliyev R.İ. Məktəbdə psixoloji xidmətin aktual məsələləri. Bakı, Nurlan, 2004, 80 s.
6. Əmrahlı L.Ş. Məktəb psixoloqu. Bakı, 2014, 176 s.
7. Əmrahlı L.Ş. Psixoloji xidmət. I kitab. Psixoloji xidmətin əsasları, Bakı, MBM, 2008.
8. Zeynalabdinova Ə.X. Məktəbdə psixoloji xidmətin praktik məsələləri. Bakı 2003, 106 s.
9. Məmmədov İ. Məktəbdə psixoloji xidmət. B.,"Təhsil", 2002, 260 s.
10. Nuriyev S. Ş., İbrahimova D.R.. Təhsil sosial-psixoloji xidmət. Bakı, 638 s.
11. Yusifova M. Məktəbdə psixoloji xidmət və onun əsasları. Bakı, 2018, 272 s

Adilxanov Aydın Ziyadxan oğlu

Azərbaycanda psixoloji xidmətin inkişafi problemi

XÜLASƏ

Məqalədə Azərbaycanda psixoloji təhsil xidmətinin yaranması ilə bağlı ayrı-ayrı məsələləri nəzərdənkeçirilir. Psixoloqlarımız məktəbimizin təhsil məkanı çərçivəsində psixoloji cəhətdən əlverişli mühitin yaradılması istiqamətində şagirdlərlə aparılan işlərə mühüm töhfələr vermişlər. Məqalədə praktik psixologiyanın bu istiqamətinitədqiq edən alimlərin - Əliyev R.İ., Əmrahlı L.Ş, Çələbiyev N.Z. əsərləri araşdırılmışdı.

Adilkhanov Aydın Ziyadkhan

Studying the phenomenon of conflict in psychological science

SUMMARY

The article presents an attempt to consider some issues related to the emergence of the psychological service of education in Azerbaijan. Our psychologists have made a significant contribution to the work with students to create a psychologically favorable atmosphere within the educational space of the school. Modern science, which follows this direction of practical psychology, is represented by the works of such scientists as: Aliev R.I., Amrakhly L.Sh., Chalyabiev N.Z. They carried out work on the systematization of the material, presented a program for organizing work in school with children of different age groups.

Güləlizadə Səlimə Azər qızı
Magistrant

TƏHSİL SİSTEMİNDƏ PSİXOLOJİ XİDMƏT

Açar sözlər: *təhsil sistemi, psixoloji xidmət, psixoloq*
Ключевые слова: *система образования, психологическая служба,психолог*
Key words: *the education system, psychological service,psychologist*

İndiki dövrdə insanın hərtərəfli təkmilləşdirilməsi təhsil sistemimizin qarşısında ən önəmli vəzifə kimi dayanır. Şagirdlərin bilik və bacarıq və vərdişlərinin, tərbiyələrinin yüksəldilməsində fərdi yanaşma prinsipi əsas rol oynamaqdadır. Fərdi yanaşma prinsipinin özü hər bir məktəblinin inkişafına, onun savadında və əxlaqında olan qüsurları zamanında görüb aradan götürmək və müsbət cəhətləri lap da inkişaf etdirmək üçün imkan verir. Uşaq böyüdükcə, xarakterində dəyişikliklər yaranır, fərdi cəhətləri də inkişaf edərək, getdikcə daha da formalaşır. Onların başqalarına münasibəti dəyişir. Müəllim təlim zamanı həmin xüsusiyyətləri nəzərə almalıdır və şagirdlərlə düzgün ünsiyyət qurmalıdır. Hər bir yaş dövrünün özünəməxsus xüsusiyyəti mövcuddur. Kiçik şagirdin bilik sahələrinə qarşı olanmarağı, yeniyetmənin aktiv fəallığı və meyllərin çoxluğu, böyük şagirdin özünü şüurlu şəkildə aparması – bunların hər birinin bu və ya başqa yaş dövrünün səciyyəvi cəhətləri kimi qabiliyyətlərin yaranmasınaönəmli təsir edir. Sözügedən xüsusiyyətləri nəzərə almayaraq qabiliyyətlərin inkişafını düzgün dəyərləndirmək olmaz. A.N.Leontyevin aşağıda qeyd edilən fikri əqli qabiliyyətlərin inkişaf prosesini bu cəhətdən təhlil etmək imkanını yaradır: "Uşağın əqli inkişafını ümumilikdə onun psixi inkişaf səviyyəsi və mənəvi simasını müəyyənləşdirənmaraqların, hisslərin və ayrı əlamətlərinin zənginliyindənayrı-ayrılıqda nəzərdən keçirmək mümkün deyil." [5, s. 39]

Təhsil müddətində ilk olaraq müəllim şagirdlərin fərdi xüsusiyyətlərini öyrənmək üçün onları gündəlik olaraq müşahidə etməlidir və bu müşahidələrini xüsusi olaraq ayırdığı dəftərində qeyd etməlidir. Müəllimlər şagirdlərin hər birinin hansı qabiliyyətlərə sahib olduğunu bilməlidir. Onların öz qabiliyyətlərini daha da yaxşı inkişaf etdirmələriməqsədilə gündəlik istiqamət verməlidir. Bu cür xüsusi qabiliyyəti olanuşaqları dərnəklər və əlavə məşğələlər üzrə cəlb etmək gərəkdir. Amma şagirdin təlim işini yarımçıq buraxması, yoldaşlarından geri qalması, müəllimin yanlış rəyi, ailədə çox əzizləməkvə sairə kimi hallar şagirddə məsuliyyətsizlik hissi yarada bilər. Camal Zaynaloğlu bu barədə haqlı olaraq yazır ki: "Müəllim yeni mövzu üzrə hazırlıq işi aparan zaman həm də kimə tərbiyə baxımdan təsir göstərəcəyini, zəif düşüncəli, utancaq, nitqi az inkişaf edən, işi səliqəsiz icra edən, dikbaş, tənbəl uşaqlara necə yanaşacağını, necə yardım göstərəcəyini, təzə mövzunun sual-cavabla möhkəmləndirilmə mərhələsində kimlərə, hansı suallar müraciət etməsini nəzərə almalıdır." [3, s. 87]

Müəllim və şagird münasibətləri indiki dövrdə xüsusi məzmun və önəm daşıyır. Bu münasibətlərmüəllimin yalnız yeni bilik verməsi,şagirdlərin isə bu bilikləri öyrənməsi prosesindən ibarət olmayıb, yüksəktərbiyəvi əhəmiyyət daşımalı, şagirdin bir şəxsiyyət olaraq inkişafına, onlarda yüksək mənəvi-əxlaqi xüsusiyyətlərin formalaşmasına xidmət etməlidir.Uşaqlar

nəzakət qaydaları haqqında ilk dəfə olaraq ailədə tanış olur. Valideynlər və ailənin digər üzvləri öz şəxsi nümunələri ilə, uşaqlara verdiyi əxlaqi tərbiyə ilə onlara mənəvi, əxlaqi, keyfiyyətlər aşılayırlar. Daha sonra isə tədrisin, təhsil həyatının uşaqlarda bu keyfiyylərin inkişaf etdirilməsində rolu olur. Həm ailə, həm də təhsilin uşaqlarda nizam – intizam qaydalarının formalaşmasına, əxlaqi dəyərlərin yaranmasında mühüm rol oynayır. Nəzakət qaydalar ilə bağlı olan tələblər ailə ttərəfindən düzgün istiqamətləndirildikdə məktəbin və müəllimlərin işi daha asan və rahat olur. Şagirdə yaraşmayan hərəkətlər edilməsiməktəbdə təlim-tərbiyəyə əngəl olur, məktəb üzrə ümumi qayda - qanunlara və xüsusilə də başqa uşaqların davranışına neqativ təsir edir. Digər şagirdlər də mənfi cəhətləri götürür və o şəkildə də davranış nümayiş etdirirlər. Buna görə də şüurlu intizam tərbiyəsi zamanıbelə çətin tərbiyə olunan şagirlərlə iş hər zaman hər bir pedaqoji kollektiv və valideynin diqqət mərkəzindəolmalıdı.

İnsan fəaliyətinin hər bir sahəsində orada psixoloji biliklərin zəruriliyi danılmazdır. Müasir dövrsə insanların çoxu psixoloji problemlərlə bağlı əziyyət çəkir. Onlar psixoloji xidmətə ehtiyac duyurlar. Təhsil sistemində də şagirdlərə psixoloji xidmət göstərilir. Nuralı Çələbiyev təhsil sistemindəki psixoloji xidmət haqqında yazır: "Təhsil sistemindəki psixoloji xidmət təhsil müəssisələri üzrə psixoloji biliklərdən ekspertizanın, diaqnostikanın, korreksiyanın, konsultasiyanın və s. məqsədləri üçün ümumi istifadəni nəzərdə tutmaqda olan praktik fəaliyyət sistemi hesab edili." [2, s. 26]

Təhsil sahəsində müəllimlər şagirdlərin psixoloji problemləri ilə qarşılaşırlar. Bu hal daha çox şagirdlərin yeniyetləmik çağında baş verir. Bildiyimiz kimi, yeniyetməlik dövrü uşaqlarda keçid dövrüdür. Bu zaman onlarda bir sıra psixoloji hallar baş verir. Bu dövr müddətində şagirdlərin dərsə marağı azala bilər, dərsdən yayına bilərlər. Müasir təhsilin qarşısına qoyduğu vəzifələri icra edə üçün psixoloji yardıma ehtiyacı vardır. Buna görə də təhsil müəssisələrində psixoloqlar fəaliyyət göstərirlər. Onlar şagirdlərin psixoloji hallarına nəzarət edir, onları düzgün istiqamətləndirməyə çalışırlar. Psixoloq şagirdlərlə fərdi olaraq məsləhətlər verir. Bu məsləhətlər şagirdlərin həyat mövqeyini müəyyən etmək, böyüklər və yoldaşları ilə əlaqə, özünütərbiyə və sairə məsələlər ola bilər. Həmçinin, bununla bərabərolaraq da bir qrup şagirdlər yaxud siniflə özünü tərbiyənin özü də əqli əmək mədəniyyəti və sairə problemlərlə bağlı məsləhət təşkil edə bilər.

Elə şagird olur ki, kollektivə qoşulmur, sosial olmur, təkliyi xoşlayır. Bu xarakterli şagirdlərlə də psixoloq məşğul olmalı, ondakı bu halı aradan qaldırmağa çalışmalıdır. Çünki özünəqapanaqlıq mənfi hallara gətirib çıxarda bilər və şagirdin psixloji inkişafına təsir edər.

Aparılan psixoloji tədqiqatlar əsasında sübut olunmuşdur ki, uşağın psixi inkişafında yaranan hansısa bir qüsuru ortadan götürmək, əvvəlcədən sözgedən qüsurun olmamasının qarşısını almaqdan olduqca çox çətin bir haldır. Buna görə də şagirdin psixologiyasında başlayan mənfi halları tez aradan qaldırmaq gərəkdir. Müəllimlə bir yerdə psixoloq uşağın zehni inkişafında və şəxsiyyətinin formalaşmasında yaranan müəyyən qüsurları aşkara çıxarmalı və bu halların aradan qaldırılması üçün müvafiq tədbirlər görmlidirlər.

İnsanları davranışlarına, psixoloji hallarına təsir edən əsas amil emosiyaları olur. İnsan emosiyaları davranışı daxilən tənzimləyən proseslərə aid edilir. Hər şagird emosiyalarını fərqli şkildə ifadə edir. Elə şagird də olur ki, emosiayasını tam ifadə edə bilmir. Şagiridn hansı hisləri keçirdiyini müəllimi anlamalıdır. Əgər bu halda çətinlik çəkirsə o zaman bununla məktəb psixoluqu məşğul olmalıdır. Çünki şagirdlərdə olan hislər getdikcə gərginləşə bilər və bu onun həyatına mənfi təsir göstərər. Psixoloq şagirddə olan mənfi hisləri aradan qaldırmağa, onda müsbət hiss və düşüncələri yaratmağa çalışmalıdır. Professor Əkbər Bayramovun hiss və emosiyaya vermiş olduğu tərifə nəzər yetirək: "Hiss və emosiya şəxsin dərk etdiyi cisimlərə və hadisələrə, digər adamlara, eyni zamanda özünün rəftar və hərəkətinə, fikir və istəyinə bəslədiyi münasibəti ifadə edə bilən psixi prosesdir." [1, s. 76]

Mənfi emosiyalardan azad olmağın ən yaxşı üsulu məqsədə nail olmaqdır. Ancaq buna da hər zaman hər kəs nail ola bilmir. Bu zaman əyləncəli işl məşğul olmağı, kitablar oxumağı,

şən musiqiyə qulaq asmağı psixoloq şagirdə məsləhət görə bilər. Musiqi həyəcanı aradan götürən, insanı yüngülləşdirən ən yaxşı vasitədir.Musiqi gərginliyi azaldır.

Müasir dövrdə təhsil sistemi gündən-günə inkişaf edir, daha da təkmilləşir.Təhsilə məktəb psixoloqlarının əsasında pedaqoji, sosial psixologiya sahəsində olan yeni uğurların gündəlik məktəb həyatına tətbiq edilməsini gerçəkləşdirən mütəxəssislərlə təmin olunması onun səviyyəsini daha da artırır. Vıqotski Lev Semyonoviçin "təlim hər zaman inkişafından öndə gedir və onu da özünün arxasınca aparır" müddəasına əsaslanmış rus psixoloqları inkişafetdirici təlim mahiyyətini izah etməyə çalışmışlar. Burada şagirdlərin mənimsəmə inkişafının müəyyən edilməsi önəmli yer tutur. [4, s. 45]

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. B., 2002.287;
2. Çələbiyev N.Z. "Təhsil sistemində psixoloji xidmətin elminəzəri əsasları". B., 2009. 176 s;
3. Zeynaloğlu C. Təlim fəaliyyətinin psixoloji prosesi (Azərbaycan dilində) Bakı, "Ünsiyyət" nəşriyyatı - 2017, - 144 s;
4. Выготский Л.С. Мышление и речь. (Собр. соч.: Б. 6 м. Т. 2 М., 1982. 178 с;
5. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М., 1975. 231с.

Təhsil sistemində psixoloji xidmət

XÜLASƏ

Müasir təhsil qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün psixoloji dəstək lazımdır. Biz tez-tez tələbələrin təhsilə olan münasibətinin zəifləməsini və onların təhsil səviyyəsinin azalmasını görürük. Müəllimlər və psixoloqlar şagirdlərində bu vəziyyəti aradan qaldırmağa çalışmalıdırlar. Hər bir tələbə fərdi olaraq nəzərdən keçirilməlidir. Keçid dövrləri uşağın həyatında xüsusi nəzarət altında olmalıdır.

Психологические услуги в системе образования

РЕЗЮМЕ

Современная образование психологическая поддержка необходима для выполнения стоящих перед ней задач. Мы часто видим ослабление отношения студентов к обучению и снижение уровня их образования. Учителя и психологи должны попытаться устранить эти ситуации у своих учеников. Каждый студент должен рассматриваться индивидуально. Переходные периоды должны находиться под особым контролем в жизни ребенка.

Psychological service in the education system

SUMMARY

Modern educationpsychological support is needed to fulfill the tasks that are facing it. We often see a weakening of students' attitudes toward learning and a decline in their level of education. Teachers and psychologists should try to eliminate these situations in their students. Each student must be treated individually. Transition periods should be kept under special control in the child's life.

Güləlizadə Səlimə

TƏLİM PROSESİNDƏ MƏKTƏB PSİXOLOQUNUN MƏKTƏBLİLƏRLƏ ÜNSİYYƏT YOLLARI

Açar sözlər: *təlim, məktəb psixoloqu, məktəbli*
Ключевые слова: *тренинг, школьный психолог, школьник*
Key words: *training, school psychologist, pupils*

Son illər ölkəmizin təhsil sisteminin uğurlarından biri kimi məhz psixoloji biliklərin məktəb təcrübəsində nə dərəcədə səriştə ilə gerçəkləşməsindən, psixoloji xidmətin təhsil siste-

mindəki rolunu qeyd edə bilərik. Təhsil sistemində təlim prosesində psixoloji xidmət psixologiyanın formalaşma mərhələsində olan yeni sahələrdən biridir. Məktəbdə bu xidməti yerinə yetirən isə məktəb psixoloqudur. Hal-hazırda onların üzərinə bu baxımdan böyük iş düşür. İstər uşaqlar, istərsə də yeniyetmərlərlə iş zamanı fərdi yanaşma tərzi ön planda olmalıdır. Ünsiyyət qurulan zaman ortaya çıxan problemlərin aradan qaldırılmasında davamlı işlər görülməlidir. Məktəb psixoloqunun fəaliyyəti o halda daha səmərəli olar ki, o öz iş təcrübəsi əsasında peşəkarlıq səviyyəsini daima artırmalı, öz həmkarları ilə müntəzəm dialoq aparmalı, elmi ədəbiyyatları mütəamdi izləməklə elmi-nəzəri və praktini hazırlıq səviyyəsini yüksəltmək səylərini artırmalıdır [1].

Təlim-tədris prosesinin səmərəli olması üçün müəllimlə şagird arasında çox xüsusi bir əlaqə qurulmalıdır. Müəllim bu əlaqələri qurmağı təmin edəcək ünsiyyət bacarıqlarına sahib olmalıdır. Məqsəd şagirdlərin şəxsiyyət kimi böyüməsi və inkişaf etməsidir, lakin bir çox müəllimin istifadə etdiyi və məktəb rəhbərliyi tərəfindən tövsiyə olunan tədris metodları şagirdləri asılı, inkişaf etməmiş və uşaq kimi saxlamaqdan o tərəfə keçmir. Bunları dəyişdirmək və yeniləmək üçün müəllim və rəhbərlik hər zaman yeniliklərə açıq olmalıdır, bu həm müəllimin, həm rəhbərliyin, həm də şagirdlərin gələcəyi üçün məhsuldar olacaqdır [2].

Məktəb psixoloqunun funksiyalarına aşağıdakılar daxildir:

- psixoloji diaqnostika;
- islah işləri;
- valideynlər və müəllimlər üçün məsləhət;
- psixoloji təhsil;
- müəllim və valideyn iclaslarında iştirak;

Psixoloji diaqnostika xüsusi texnika istifadə edərək şagirdlərin qrup və fərdi müayinələrini əhatə edir. Diaqnostika müəllimlərin və ya valideynlərin ilkin tələbi ilə, habelə tədqiqat və ya profilaktika məqsədilə psixoloqun təşəbbüsü ilə həyata keçirilir.Psixoloq onu maraqlandıran qabiliyyətləri, uşağın xüsusiyyətləriniöyrənməyə yönəlmiş bir metodologiya seçir. Bunlar diqqət, düşüncə, yaddaş, emosional sahə, şəxsiyyət xüsusiyyətləri və başqaları ilə münasibətlərin inkişaf səviyyəsini öyrənməyə yönəlmiş texnikalar ola bilər. Həmçinin, məktəb psixoloqu valideyn-övlad münasibətlərini, müəllimlə sinif arasındakı qarşılıqlı münasibətlərin təbiətini öyrənmək üçün metodlardan istifadə edir.Alınan məlumatlar məktəb psixoloquna daha çox iş qurmağa imkan verir: sözdə "risk qrupu"nun siniflərinə ehtiyacı olan şagirdlərini müəyyənləşdirmək, müəllimlər və valideynlər üçün şagirdlərlə qarşılıqlı əlaqədə tövsiyələr hazırlamaq. Kurslar zamanı psixoloq uşağın zehni inkişafının arzuolunmaz xüsusiyyətlərini düzəltməyə çalışır. Bu dərslər həm idrak proseslərinin inkişafına (yaddaş, diqqət, düşüncə), həm də emosional-iradi sferada, ünsiyyət sferasında və məktəblilərin özünə hörmətlə problemlərin həllinə yönəldilə bilər. Məktəb psixoloqu onsuz da mövcud təlim proqramlarından istifadə edir və ayrıca hər bir konkret işin xüsusiyyətlərini nəzərə alaraq müstəqil olaraq inkişaf etdirir. Dərslər müxtəlif məşqləri əhatə edir: inkişaf, oyun, rəsm və digər tapşırıqlar – şagirdlərin məqsədlərindən və yaşından asılı olaraq müəyyən edilir.Valideynlərə və müəllimlərə məsləhət vermək, müəyyən bir istək üzərində bir işdir. Psixoloq valideynləri və ya müəllimləri diaqnostikanın nəticələri ilə tanış edir, müəyyən bir proqnoz verir, şagirdin gələcəkdə öyrənmə və ünsiyyətdə hansı çətinliklərlə üzləşə biləcəyi barədə xəbərdarlıq edir. Eyni zamanda ortaya çıxan problemlərin həlli və məktəbli ilə ünsiyyət üçün tövsiyələr birgə hazırlanır. Psixoloji təlim müəllimləri və valideynləri bir uşağın əlverişli zehni inkişafı üçün əsas qanun və şərtlərlə tanış etməkdir. Məsləhət, müəllim və valideyn iclaslarında çıxış zamanı aparılır.Bundan əlavə, pedaqoji məclislərdə psixoloq, verilmiş bir uşağa müəyyən bir proqrama uyğun olaraq tədrisin mümkünlüyü, bir şagirdin sinifdən sinfə köçürülməsi ilə bağlı qərarların qəbul edilməsində iştirak edir[3].

Psixoloqun vəzifələrindən biri də gələcək birinci sinif şagirdləri ilə müsahibə proqramı tərtib etmək, müsahibənin uşağın məktəbə hazırlığının psixoloji aspektləri (təsadüfi inkişaf sə-

viyyəsi, mövcudluğu) ilə əlaqəli hissəsini aparmaqdır. Psixoloq habelə, birinci sinif şagirdlərinin valideynlərinə də məsləhət verir.Məktəb psixoloqunun yuxarıdakı bütün funksiyaları məktəbdə tam zehni inkişaf və uşağın şəxsiyyətinin formalaşması üçün zəruri olan psixoloji şərtləri müşahidə etməyə imkan verir, yəni psixoloji profilaktika məqsədlərinə xidmət edir.Məktəb psixoloqunun işi metodoloji hissəni də əhatə edir. Psixoloq elmdəki yeni nailiyyətləri izləmək, nəzəri biliklərini dərinləşdirmək və yeni metodlarla tanış olmaq üçün davamlı ədəbiyyatla işləməlidir. Çünki, icra etdiyi vəzifə hər hansı bir diaqnostika texnikası, əldə edilmiş məlumatları işləmək və ümumiləşdirmək bacarığını tələb edir. Məktəb psixoloqu praktikada yeni texnikaları sınaqdan keçirir və praktik işin ən optimal metodlarını tapır. Gündəlik işində intonasiya, duruş, jestlər, mimika kimi ifadəli davranış və nitq vasitələrindən istifadə edir, peşə etik qaydaları, özünün və həmkarlarının iş təcrübəsi rəhbər tutulur.Bir məktəb psixoloqu üçün böyük bir problem, bəzən ona ayrı bir kabinetin verilməməsidir. Bu baxımdan bir çox çətinlik yaranır. Psixoloq ədəbiyyatı, dərs vəsaitlərini, iş sənədlərini və nəhayət şəxsi əşyalarını bir yerdə saxlamalıdır. Danışıqlar və dərslər üçün otağa ehtiyacı var. Bəzi fəaliyyətlər üçün otaq müəyyən tələblərə cavab verməlidir [4].

Əlbəttə ki, bir məktəb psixoloqu əqli cəhətdən sağlam olmalıdır. Dözümlü olmalı, böyük fiziki və psixoloji stresə tab gətirməlidir. Bir məktəb psixoloqu kimi işləmək üçün müəyyən keyfiyyətlərə sahib olmalısan, yəni: dinləmək, empatiya etmək bacarığı. İnsanlarla işləyərkən düşüncələrinizi aydın və anlaşıqlı şəkildə formalaşdırmaq, çalışqan, ünsiyyətcil, məsuliyyətli, nəzakətli, təmaslı və tolerant olmaq vacibdir.Bir psixoloq üçün bir yumor hissi, geniş peşə məlumatlarına sahib olmaq və uşaqları sevmək vacibdir. İş prosesində müxtəlif insanlarla ünsiyyət qurmaq, problemlərini və maraqlarını başa düşmək, təhlil etmək, uzlaşma tapmaq kimi keyfiyyətlər inkişaf edir, müşahidə və peşəkar bilik inkişaf etdirilir.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, “Pedaqogika”, 2004.
2. Məmmədov İ.Ə. Məktəb psixoloqlarının hazırlanması təcrübəsi haqqında. İbtidai məktəb və məktəbəqədər tərbiyə. B., 2004, N3, səh 52-56.
3. Zeynalabdinova Ə.X. Məktəbdə psixoloji xidmətin praktik məsələləri. Bakı, 2003.
4. Лейтес Н.С. Возрастная одарённость школьников. Москва,“Академия”, 2001.

Школьный психолог в учебном процессеспособы общения со студентами

РЕЗЮМЕ

Психологическая служба в процессе обучения в системе образования - одно из новых направлений в формировании психологии. В школе эту услугу выполняет школьный психолог. В настоящее время им предстоит много работы в этом направлении. При работе как с детьми, так и с подростками во главу угла должен стоять индивидуальный подход. Следует вести постоянную работу по устранению проблем, возникающих при общении. Работа школьного психолога будет более эффективной, если он должен постоянно повышать уровень профессионализма на основе своего опыта работы, вести регулярные диалоги с коллегами, наращивать усилия по повышению уровня научно-теоретической и практической подготовки, регулярно просматривая научную литературу.

School psychologist in the training process waysto communicatewith students

SUMMARY

Psychological service in the learning process in the education system is one of the new areas in the formation of psychology. The school psychologist performs this service at school. At present, they have a lot of work to do in this regard. An individual approach should be at the forefront when working with both children and adolescents. Continuous work should be done to eliminate the problems that arise during communication.The work of a school psychologist will be more effective if he must constantly increase the level of professionalism

based on his work experience, conduct regular dialogues with colleagues, increase efforts to improve the level of scientific-theoretical and practical training by regularly reviewing scientific literature.

Rzayeva Hüriyyət
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos.Qəribə Rəhimova

YENİYETMƏLƏRDƏ ÖZÜNÜDƏRKİN FORMALAŞMASINA TƏSİR EDƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

Açar sözlər: *yeniyetmə, özünüdərk, sosial-psixoloji amillər*
Ключевые слова: *подростковыйвозраст, самосознание, социально-психологические факторы*
Key words: *adolescence, self-awareness, socio-psychological factors*

Yeniyetməlik yaş dövrü şəxsiyyətin formalaşmasının ilkin mərhələsi hesab olunur. Bu formalaşmada ailə, məktəb və sosial mühitin rolu danılmazdır. Təbii ki, yeniyetməlik dövrünə qədər bir çox şeylərin təməl daşları qoyulmalıdır. Özünüdərkin formalaşması və daha da inkişaf etdirilməsiyeniyetmənin həyatının bütün sahələrində iz buraxır. Özünüdərketmə ən çox şüurlu idrak olaraq təyin olunur. Hər bir fərdin özü haqqında düşüncələri, fikirləri və qiymətləndirməsi hesab olunur [4].

Yeniyetmələr üçün dərin dəyişikliklər xarakterik xüsusiyyət daşıyır, ilk növbədə fərdin inkişafına təsir bu müddətdən əsasən qaynaqlandığını demək olar. Bütövlükdə"mən" obrazı bu dövrün əsas roludur. Yetkinlikdə şəxsiyyət quruluşunun bütün komponentlərinin inkişafı, özünüdərk daxil olmaqla müəyyən sosial-mədəni ehtiyaclar var. Ən əhəmiyyətlisibir yeniyetmənin sosial mühiti onun ailəsidir, buna görə də ən çox ailədə valideynlər tərəfindən özünüdərkin inkişafı üçün əhəmiyyətli şərtlər yaradılır. Özünüdərk və təşəbbüsün məhsuldar formalaşması üçün valideyn diqqətindən kənarda qalan uşaqların sosial normaları və dəyərləri, həyat tərzlərini, münasibətlərini təşkil etmək vacibdir [2].

Özünə hörmətlə şəxsiyyət xüsusiyyətlərinin obyektiv qiymətləndirilməsi arasındakı uyğunsuzluğa təsir edən sosial-psixoloji amillərin tapılmasının vacibliyi günümüzdə aktualdır. Çünki, uyğunsuzluq öz-özlüyündə dəyərlər sahəsində təsirli istiqamətləndirmə imkanına səbəb olur. Uyğunsuzluğun xüsusiyyətləri də fərdin davranışının tənzimlənməsi və nəzarəti üçün vacibdir. Bu məsələdə hal-hazırda ən vacib olan aşağıdakı təhlil sahələridir:

- Şəxsiyyətin əsas sferasının təhlili, şəxsiyyət xüsusiyyətlərində əks olunan real potensial dəyərləri və keyfiyyətin reallaşma ehtimalı;
- Şəxsiyyət meyllərinin təhlili, öz keyfiyyətlərini təqdim etmək, bəzilərini nümayiş etdirmək və digər şəxsiyyət xüsusiyyətlərini gizlətmək istəyi ilə şərtlənən fərdin davranışıdır.

İnsanınşüuru, təbii təzahürlərdən – dünyagörüşününə qədər, insan varlığının geniş bir sahəsini əhatə edir. Bu özünüdərkin çoxsəviyyəli xarakteri həm əmələ gəlməsinə təsir edən müxtəlif amilləri, həm də tədqiqat zamanı inkişafının ən vacib detallarını müəyyənləşdirmə ehtiyacını əvvəlcədən müəyyənləşdirir.Yeniyetməlik dövrü ilə əlaqəli problemlərin həllinə çox sayda müxtəlif yanaşma mövcuddur. Bir-biri ilə çox çətin uyğunlaşma, bu inkişaf dövrünün psixoloji məzmunu haqqında fikirlər, müəyyən bir yaşda yeni bir forma kimi özünüdərkin öyrənilməsini çox çətinləşdirir. Tədqiqatçılar özünüdərkin formalaşmasına təsir göstərən müxtəlif amilləri, habelə aparıcı fəaliyyətlər kontekstində inkişaf səviyyəsini xarakterizə edən müxtəlif meyarları vurğulayırlar. Digər tərəfdən də, tədqiqatçılar bu yaşda insanın özünüdərk etməsinin məzmunu və strukturu, dinamik xüsusiyyətlərindəki fərqi müəyyənləşdirən və ümumiləşdirən müxtəlif sosial və mədəni inkişaf vəziyyətlərində bir yeniyetmənin formalaşmasının aspektini müəyyən etmişlər. Özünüdərketmənin davranış, emosional, normativ, dəyər-motivasiya xüsusiyyətləri şəxsiyyət tərəfindən təyin olunmuş mədəniyyət elementlərinə əsaslandığından, bu

məsələnin təhlili kontekstində özünəməxsusluğun öyrənilməsində bir addım atmağın məntiqi və zəruri olduğu görünür. Bu baxış ümumiləşdirilmiş mənzərə yaratmağa imkan verəcək və bir yeniyetmənin inkişaf etməkdə olan özünüdərkinin müxtəlif xüsusiyyətlərini birləşdirərək inkişaf psixologiyası və şəxsiyyətini tamamlayan kontekstdə vahid bir araşdırmaya cəhd göstərəcəkdir. Beləliklə, yeniyetmələrin özünüdərk etməsinin psixoloji xüsusiyyətlərinin öyrənilməsində həm inkişaf psixologiyası, həm də şəxsiyyət psixologiyasının maraqları birləşir [1].

Yeniyetmənin öz şüurunun formalaşması ənənəvi olaraq ümumi qəbul edilmiş standartların mənimsənilməsi prosesində fərdi və yaradıcı rolu nəzərə alınır. Özünüdərkin məzmun tərəfinə çox vaxt yalnız formalaşdırıcı sosial-mədəni təsirlər nöqteyi-nəzərindən baxılır. Eyni zamanda, müstəqil bir şəxsiyyətin aktiv bir mövqeyi onsuz da inkişaf etmiş bir özünüdərkin meyarlarından biri olaraq elan edilir. Prosesin gedişi ilə nəticəsi arasında ziddiyyət yaranır.Bir insanın davranışının, özünə münasibətinin daxili mənalar və şərhlərlə əlaqəli olaraq ortaya çıxdığını nəzərə alaraq, bu işdə yuxarıdakı ziddiyyəti həll etmək vacibdir. Cəmiyyət standartlarına uyğun olaraq yeniyetmənin tipik davranış standartları formalaşır. Fərdi psixoloji xüsusiyyətləri ilə, şəxsiyyətin özünü göstərməsini təyin edir. Üstəlik, dönüş fəaliyyətinin dərəcəsi fərdidir və hər bir insan "sosial olaraq verilmiş - fərdi olaraq dəyişdirilmiş" miqyasda mövqeyini tutur.Özünüdərkin formalaşması dövründə yeniyetmənin psixoloji xüsusiyyətləri haqqında mövcud fikirlər əsasən təsviri, müəyyənləşdirmə xarakteri daşıyır. Buna görə də, yetkinlik dövrünə xas olan özünüdərkin psixoloji xüsusiyyətlərini və onların arxasında hansı funksional zərurətin gizləndiyini müəyyənləşdirmək mütləqdir. Özünüdərkin psixoloji xüsusiyyətləri yeniyetmənin təmsilçi identifikasiyası növü, seçilmiş təmsilçinin sosial-mədəni xüsusiyyətləri və spesifikliyi, həmçinin fəaliyyət dərəcəsi və yeniyetmənin müəyyənləşdirdiyi model ilə qarşılıqlı əlaqəsinin xarakteri ilə müəyyən edilir. Hər yaş insan inkişafı üçün vacibdir. Yeniyetməlik, şəxsiyyətin formalaşma dövrü olan bütün yaş mərhələlərindən ən çətinidir. Yeniyetməlik yaş dövrünün əsas məzmunu uşaqlıqdan yetkinliyə keçiddir. İnkişafın bütün aspektləri keyfiyyətcə yenidən qurulur, yeni psixoloji formasiyalar yaranır, şüurlu davranışın əsasları qoyulur və sosial-mədəni münasibətlər formalaşır. Bu çevrilmə prosesi yeniyetmələrin şəxsiyyətinin bütün əsas xüsusiyyətlərini təyin edir [3].

Yeniyetmə öz-özünə baxmağa başlayır, sanki özü üçün "mən"ini kəşf edir. Şəxsiyyətinin güclü və zəif tərəflərini bilməyə çalışır. Özünə, öz şəxsiyyətinin keyfiyyətlərinə, özünü digər insanlarla müqayisə etmə ehtiyacına, özünə hörmət etmə ehtiyacına maraq göstərir. Yeniyetmələrin özünü qiymətləndirmə meyarlarının formalaşdığı fikirlər, xüsusi bir fəaliyyət - özünüdərk bilikləri zamanı əldə edilir. Bu yaşda təşkilati bacarıqların, səmərəliliyin, təşəbbüskarlığın və insan münasibətləri ilə əlaqəli digər faydalı şəxsi keyfiyyətlərin, o cümlədən işgüzar əlaqələr qurma, ortaq işlərdə razılaşma, öz aralarında vəzifələr bölüşdürmə və s. bacarıqların formalaşması üçün yaxşı şərait yaradılır. Bu cür fərdi keyfiyyətlər bir yeniyetmənin cəlb olunduğu və qrup şəklində təşkil edilə bilən fəaliyyətin demək olar ki, bütün sahələrində inkişaf edə bilər: öyrənmə, iş, oyun. Bir qayda olaraq, sinif kollektivinin ictimai fikri yeniyetmə üçün müəllimlərin və ya valideynlərin fikrindən daha çox məna daşıyır. Ümumiyyətlə dost qrupunun təsirinə, fikirlərinə çox həssasdır. Əldə edilmiş kollektiv münasibətlər təcrübəsi onun şəxsiyyətinin inkişafına birbaşa təsir göstərir, yəni tələblərin komanda vasitəsilə təqdim olunması bir yeniyetmənin şəxsiyyətini formalaşdırır.

Ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003, 412 s.
2. Bayramov Ə. S., Əlizadə Ə. Ə. Sosial psixologiya. Bakı, 2003, 354 s.
3. Реан А. А.. Психология подростка. Москва, 2004, 354 с.
4. Кочетиов А. И. Перевоспитание подростка. Москва, 1972, 412 с.

Социально-психологические факторы влияющиеформирование самосознания у подростков
РЕЗЮМЕ

Подросток начинает смотреть на себя, как бы открывая для себя «Я», стараясь не знать сильные и слабые стороны своей личности. Ему интересен сам себя, качества своей личности, необходимость сравнивать себя с другими людьми, потребность в самоуважении. Представления, на основе которых формируются критерии самооценки подростков, приобретаются в ходе специальной деятельности - самосознания. Как правило, общественное мнение в классе значит для подростка больше, чем мнение учителей или родителей, и обычно очень чувствительно к влиянию группы друзей. Опыт коллективных отношений оказывает непосредственное влияние на развитие его личности, то есть предъявление требований через коллектив формирует личность подростка.

The formation of self-awareness in adolescentssocio-psychological factors affecting
SUMMARY

The teenager begins to look at himself, as if discovering the "I" for himself, trying not to know the strengths and weaknesses of his personality. He is interested in himself, the qualities of his personality, the need to compare himself with other people, the need for self-respect. The ideas on which adolescents' self-assessment criteria are formed are acquired during a special activity - self-awareness.As a rule, the public opinion of the classroom means more to the teenager than the opinion of teachers or parents, and is generally very sensitive to the influence of a group of friends.The experience of collective relations has a direct impact on the development of his personality, that is, the presentation of requirements through the team forms the personality of a teenager.

Rzayeva Hüriyyət
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos.Qəribə Rəhimova

YENİYETMƏLƏRİN ÖZÜNÜDƏRKİN FORMALAŞMASINA AİLƏ, MƏKTƏB, KÜTLƏVİ İNFORMASİYANIN ROLU

Açar sözlər: *yetkinlik, keçid, özünə hörmət, özünü tanıma, böhran dövrü, şəxsiyyət, özünü idarəetmə, özünü idarəetmə*

Ключевые слова: *подросток, переход, самооценка, самосознание, кризисный период, личность, самоконтроль, самоконтроль*

Key words: *adolescence, transition, self-esteem, self-awareness, crisis period, identity, self-control, self-control*

Yeniyetmələrin öz şəxsiyyətinə marağı özünüdərketmənin səviyyəsinə uyğun gəlir. Artıq 12,5-13,5 yaş mərhələsində onlarda öz şəxsiyyətinin bəzi emosional keyfiyyətlərinə münasibət lap diferensial və lap adekvat olur. Empatik zənginliyin olması yeniyetmələrin təxəyyülünün, yaradıcılıq maraqlarının məzmun zənginliyini belə şərtləndirir. Ə.Əlizadə yeniyetmələrdə təxəyyülün inkişafından danışarkən təkcə hiss və emosiyaların yox, intellektual imkanların da yeni keyfiyyətlərlə təzahür etməsini göstərir. Məlum olur ki, təfəkkürün, təxəyyülün və fantaziyanın sıx bağlılığı yeniyetmənin şəxsiyyətinin strukturu üzrə tamamilə yeni keyfiyyət əmələ gətirir. Bu özünü empatiya formasında göstərir [2, s.45].

Yeniyetməlik dövrünü əksər müəlliflər “keçid dövrü”, ”mürəkkəb dövr”, ”çevriliş dövrü”, eyni zamanda “böhran dövrü” də adlandırmışlar. Əlbəttə ki, bu adlar çoxluğunun əmələ gəlməsi tamamilə təbii xarakter daşımaqdadır. Bu zaman həm fiziki, həm də psixi inkişaf sü-

rətlə, o cümlədən bütün sahələr üzrə gerçəkləşdirilməyə başlayır. Yeniyetməlik dövründə insanın kollektivdəki yeri, həmçinin ictimai münasibətlər sistemi üzrə tutduğu hal əsaslı dəyişikliklərə uğramaqdadır. Odur ki, həmin yaşda onlar "balaca"uşaqdan "böyük"uşağa çevrilməkdədir. Yeniyetməlik dövrü üzrə uşaqların davranışı və rəftarında öncəki yaş dövürlərində müşahidə olunmayan yeni xüsusiyyətlər özünü büruzə verməyə başlayır. Yeniyetməlik dövründə şəxsin strukturunda nəzərə çarpan köklü dəyişikliklərin biri uşağın özünüdərketməsinin inkişafında keyfiyyətli irəliləmə olmasından ibarətdir [3, s.54]. Məhz buna görə də yeniyetmə özündaha heç də uşaq yox, yaşlı hesab edir, onda bu cür bir tələbat yaranır ki, ətrafdakı insanlar ona kiçik uşaq kimi yox, yaşlıinsan kimi yanaşsınlar.

Yeniyetmələrin üzləşdiyi neqativ təsirlər fəaliyyət və ünsiyyətdə özünü göstərir. Onun ən konkret ifadə şəkli hiss və emosiyalardır, ona görə ki, həmin proseslər ictimai mənşəyə sahib olub psixologiya elminə hazırda məlum olan incə davranışlarla tənzimlənir.

Yeniyetmələrin insanlarla qarşılıqlı münasibətlərindəki ünsiyyət çətinlikləri sosial - psixoloji motivlərlə əlaqələndirilir. Bu çətinliklər, ilk növbədə, kommunikativ maneələr yaradır, daha da dərinləşdikdə ciddi rəqabətə çevrilir. Psixoloqlar belə maneələrin də yalnız ünsiyyət mədəniyyətinin, sivil dialoq bacarığının yaradılması yolu ilə aradan qaldırılmasına üstünlük verirlər. Həmçinin, şəxsi konfliktlərdə də fikir aydınlığı yaratmaqla qarşılıqlı uyuşmanı asanlaşdırmaq mümkündür [5, s.69].

Yeniyetmələrin qarşılıqlı münasibətlərdə əldə etdikləri uğurlar əhəmiyyətli dərəcədə empatiyanın inkişafı ilə bağlıdır. Həmin dövrdə psixoloji inkişaf, qarşılıqlı münasibətlər heç də həmişə arzuolunan səviyyədə reallaşmır.

Yeniyetmələri, ilk növbədə psixoloji gərginlikdən qorumaq lazımdır. Belə gərginliyin əsas psixoloji mənbəyi ailə üzvləri, həmyaşıdlar, o cümlədən müəllimlərlə qarşılıqlı münasibətlərdə yaranan müxtəlif konfliktlər hesab olunur.

Bunların hamısı yeniyetmənin şəxsiyyətini balaca məktəblinin şəxsiyyətindən ayırır. Yeniyetməlik yaşında şəxsiyyətin inkişaf etməsi, bu sahədə özünü büruzə verən dəyişikliklər onda yaşlılıq duyğusunun formalaşması, yeni formalı qarşılıqlı münasibətlərin əmələ gəlməsi, sərvət meyllərinin təşəkkül etməsi, özünüqiymətləndirmənin formaya düşməsi, Mənlik şüurunun təkmilləşməyə başlaması və s. xüsusiyyətlər təzahür edir [7, s.83].

Yeniyetməlik dövründə şəxsin strukturunda nəzərə çarpan köklü dəyişikliklərin biri uşağın özünüdərketməsinin inkişafında keyfiyyətli irəliləmə olmasından ibarətdir. Psixoloji ədəbiyyatda yeniyetmə şəxsin özünüdərk etməsi zamanıyaranan bu xüsusi törəməyə, əsasən yaşlılıq hissi deyirlər.

Fiziki fəaliyyətin akselerasiyası, cinsi yetişkənliyin lap tez olması uşaqda, yaşlılıq hissinin öncəki illərdən fərqli olmaqla daha tez yaranmasına səbəb olur. Yaşlılıq hissi özünün mənşəyinə əsasən sosial xarakter daşıya bilməkdədir.

Yeniyetməlik dövründə nəzərə çarpmış mühüm xüsusiyyətlərdən biri isə uşağın ünsiyyət fəaliyyətində genişlənmə, yoldaşları və həmyaşıdları ilə lap çox qarşılıqlı münasibət üzrə səy göstərməsidir[6, s.17].

Yeniyetmənin və yoldaşları arasında olan ünsiyyət getdikcə çoxalır və möhkəmlənir. Yeniyetməlik dövründə yoldaşa sadiq olmaq, dürüstlük və doğruluq, bərabər olmaq, qarşılıqlı əlaqə kimi keyfiyyətlər əsas sayılaraq "yoldaşlıq kodeksi" normaları olur və əxlaqi-etik meyar məzmununu daşıyır. Həmçinin yeniyetmə yoldaşlarının iradların və tənqidi göstərişlərini qəbul edir, yaşıdlarının rəyləri və qiymətləri ilə razılaşırlar, get-gedə özünü dərk edir. Əks təqdirdə də özünə qeyri-adekvat, həddindən çox qiymət verən yeniyetmə gözdən düşür, "yoldaşlıq kodeksində" etik məzmunu təhlili bacarmır və nəticədə qarşılıqlı əlaqələr pozulur.

Yeniyetmələrdə özünüdərkin formalaşmasında ailə mühüm rol oynayır. Yeniyetmə xarakterinin formalaşması üçün ailədaxili ünsiyyətin rolu çoxdur. Yeniyetmə valideyinlər vasitəsilə təbiət və cəmiyyət barədə təsəvvürlər və anlayışlara sahib olur, özünü dəyərləndirmək meyarlarını mənimsəyə bilir. Yetkin insanlarla yanaşı aramızdakı hüquq normaları, birgə

yaşayış qaydaları üzrə etinasız yanaşan, əxlaqi-hüquqi baxımdan qeyri-sağlam böyümüş, çətin yeniyetmə olaraq tanınmış, qanunu pozmuş və cinayət xarakterli işlərə meyl etmiş ümumxalq mənafeyin öz şəxsi mənafeyi üçün qurban verməyə hazır şəxslər var. Müşahidə və sorğulardan aydın olur ki, onların bir çoxu uğursuz ailələrdə böyümüş və tərbiyə almış məktəbin ictimai təşkilatların tərbiyəvi təsirlərinin hamısına biganə qalıbdır [6, s.72].

Yeniyetmələrin özünüdərkin formalaşmasında məktəbin rolu olduqca böyükdür. Belə ki, müəllim yeniyetmədə onun müstəqilliyinə, daxili qüvvəsini ifadə etməsinə geniş imkan yaratmaqla birgə, onun mənəvi yaşayışının axını üçünməqsədyönlü istiqamət verməli və uşağa hiss etdirməyərək onun inkişaf həddini ciddi surətlə müəyyən etməli, özünü guyaki arxa planda aparan insan kimi göstərsə belə, onun heç bir davranışını nəzərdən qaçırmamalıdır. Başqa sözlə desək, o, öz səyi ilə kollektivin səyini birləşdirməyi, yeniyetmənin hərəkəti ilə əlaqədar məsələlərin müzakirə və ya həllində nə vaxt işə qarışmağı, hansı halda şagirdə güzəştə getməyi, məsləhət və ya göstəriş verməyi, davranışı müzakirə olunan məktəblini necə təqdir və ya tənbeh etməyi yaxşı bacarmalıdır [7, s.103].

Yeniyetmə və gənclərin özünüdərkin formalaşmasında sosial amillərin rolu böyükdür. Ailə də müəyyən dərəcədə rol oynayır, ancaq ailə kiçik çərçivədədir. Sosial keyfiyyətlərin formalaşması üçün texniki vasitələrin təsiri daha çoxdur. Belə ki, yeniyetmələr mədəni-kütləvi informasiyalar vasitəsilə dünyada baş verən hadisələrə, televiziya verlişlərinə (şou proqramlar, filmlər və s.) baxırlar. Bu hallarda aldıqları məlumatlar onların formalaşması üçün mühüm rol oynamaqdadır. İstər-istəməz yeniyetmələrin əksəriyyəti təsirlərə çox tez məruz qalırlar. Çünki yeniyetmələr sensitiv (həssas) yaş dövründə olurlar.

Bəzən kütləvi informasiyalar əxlaqi normalar və etik qaydalar üzrə zidd olur. Bu cür vəziyyətlər də yeniyetmələrin və gənclərin zövqlərinin formalaşmasına müəyyən təsirini göstərir. Çünki onlar kütləvi informasiya və dəbə bəzi hallarda kor-koranə meyl göstərir və onun təsirinə asanlıqla düşürlər" [1, s.27].

Ədəbiyyat

1. Bayramov.Ə.S., Əlizadə.Ə.Ə. Sosial psixologiya. Baki, 2003
2. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili nam. dis., Bakı, 2004.
3. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı,2011.
4. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı, 2004.
5. Vəliyev M.V., Mustafayev A.M. İnkişaf və yaş psixologiyası. Bakı, 2013.
6. Qədirov Ə. Yaş psixologiyası. Bakı, Maarif, 2003
7. Регуш Л.А. Психология современного подростка. Санкт - Петербург, 2005

Роль семьи, школы и массовой информации в самообразовании подростков

РЕЗЮМЕ

В статье исследуются проблемы личности в коллективе в подростковом возрасте, а также изменения в статусе общественных отношений. Одним из наиболее значительных изменений личностных качеств в подростковом возрасте является качественный прогресс в развитии детского самообразования. Вот почему подросток уже не ребенок, он стар, и есть ощущение, что окружающие его люди будут относиться к нему как к старику, а не как к ребенку. Эта специфическая производная самосознания подростков в психологической литературе часто называется чувством зрелости.

The role of family, school, and mass information in self-formation of adolescents

SUMMARY

The article explores issues of personality in the collective during adolescence, as well as changes in the status of public relations. One of the most significant changes in personality

traits during adolescence is that there is a qualitative progress in the development of child self-education. That is why the teenager is no longer a child, he is old, and there is a feeling that people around him will treat him as an old man and not as a child. This specific derivative of adolescents' self-awareness in psychological literature is often referred to as the sense of adulthood.

Mehdizadə Aytən
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Psixologiya
Elmi rəhbər:Qəribə Rəhimova

MƏKTƏBLİLƏRDƏ BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİN FORMALAŞDIRMANIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *məktəbli, bilik, bacarıq, vərdiş, psixoloji xüsusiyyətlər*
Ключевые слова: *школьник, знания, умения, привычки, психологические особенности*
Key words: *schoolchildren, knowledge, skills, habits, psychological characteristics*

Hər birimizin fərd və şəxsiyyət kimi formalaşması məktəb dövründən başalyır. Təhsil prosesində məktəbli bilik əldə edir, bacarıq və vərdişləri formalaşır. Biliklərin mənimsənilməsinin əsasını müəllimin rəhbər tutduğu şagirdlərin fəal düşüncə fəaliyyəti təşkil edir. Təhsil idrak prosesi bir neçə mərhələdən ibarətdir. Bunlardan birincisi, bu obyektin arxa plandan seçilməsi və onun əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə əlaqəli bir obyektin qavranılmasıdır. İdrak mərhələsi, ən vacib fənlərarası və daxili əlaqələrin və münasibətlərin dərk edildiyi anlama mərhələsini əvəz edir. Biliklərin formalaşmasının növbəti mərhələsi, seçilmiş xassələri və münasibətləri təkrar qəbul və təsbit etməsi nəticəsində baxmaq və əzbərləmək prosesini əhatə edir. Sonra proses başa düşülən əsas xüsusiyyətlərin və münasibətlərin subyekti tərəfindən aktiv çoxalma mərhələsinə keçir. Biliyin mənimsənilməsi prosesi, yeni qəbul edilən biliklərin keçmiş təcrübə quruluşuna daxil edilməsi və ya digər yeni biliklərin qurulması və ya təcrid olunması vasitəsi kimi istifadəsi ilə əlaqəli çevrilmə mərhələsini tamamlayır [1].

Çox vaxt bu bilik formalaşma mərhələləri onların assimilyasiya səviyyələrini qiymətləndirmək üçün meyarlar kimi qəbul edilir.Bilik müxtəlif səviyyələrdə əldə edilə bilər:

- reproduktiv səviyyə - bir təlimata görə bir modelə görə çoxalma;
- məhsuldar səviyyə - yeni biliklərin axtarışı və tapılması, qeyri-standart fəaliyyət yolu.

Diaqnostikada bilik assimilyasiya səviyyələrinin qurulması vacibdir, çünki bu səviyyələr düşüncə keyfiyyətinə, stereotip və ya qeyri-stereotip olmayan orijinallığa təsir göstərir. Təhsil zamanı aldığımız biliklərin assimilyasiya səviyyələrinin xüsusiyyətlərini aşağıdakı kimi müəyyən etmək olar:

- 0 (sıfır) anlama şagirdin müəyyən bir fəaliyyətdə təcrübə (bilik) çatışmazlığı;
- I (bir) tanıma şagirdin fəaliyyətinin hər bir əməliyyatını, bir hərəkətin təsvirinə, bir ipucuya əsaslanaraq həyata keçirir;
- II (iki) reproduksiya şagird əvvəlcədən nəzərdən keçirilən tipik vəziyyətlərdə məlumatları müstəqil şəkildə çoxaldır və tətbiq edir, fəaliyyəti reproduktivdir;
- III (üç) tətbiqi şagirdin əldə etdiyi bilik və bacarıqları atipik vəziyyətdə istifadə etmək bacarığı, bu vəziyyətdə onun hərəkəti məhsuldar kimi görünür;
- IV (dörd) yaradıcılıq sahəsində fəaliyyət göstərən bir şagird, gözlənilməz vəziyyətlərdə yeni qaydalar, hərəkətlər alqoritmləri yaradır, bu cür məhsuldar hərəkətlər həqiqi yaradıcılıq hesab olunur.

Tədris materialını qavramaq və başa düşmək onu tam mənimsəmək üçün kifayət eləmir. Bunun üçün əlavə addımlar atılır, tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunması təminolunur. Bu işdə müəllimlərə böyük iş düşür, belə ki, onlar şagirdlərin şüurunu hərəkətə

gətirir, onları düşünməyə, fikir yürütməyə vadar edir, habelə onların diqqətini öyrənilən hadisələrdə və əşyalarda səbəb-nəticə əlaqələrinə yönəldir. Təlimin bu mərhələsində məktəblilər müəllimin vasitəsilə ilə müəyyən əqli nəticələr çıxarır, öz fikirlərinin doğruluğunu isbat etməyə meyl göstərirlər, öyrəndikləri hadisələrə müəyyən mövqedən yanaşmağa başlayırlar.

Bacarıq - mövcud biliklərdən, konsepsiyalardan istifadə etmək, cisimlərin və hadisələrin vacib xüsusiyyətlərini müəyyənləşdirmək, nəzəri və praktik problemləri uğurla həll etmək üçün onları idarə etməkdir. Bacarıqların uğurlu formalaşması üçün əsas şərtlər tapşırığın məqsədinin bilinməsi, məzmunu və həyata keçirilmə üsullarının dərk olunmasıdır.Bacarıqların formalaşması həm də öyrənmə şəraitindən, məşq prosesinin təşkilindən - assimilyasiya edilmiş hərəkətlərin ardıcıllığından, sadə tapşırıqlardan mürəkkəbə, onların icrasının yavaşdan sürətli keçidindən də asılıdır. Uzun, fasiləsiz məşq, eləcə də uzun fasilələr bacarıqların uğurlu formalaşmasına kömək etmir.Bacarıq - təkrarlanan, məqsədyönlü hərəkət hərəkətləri nəticəsində təkmilləşdirilmiş bir duruşdur.Bacarıqların formalaşması prosesi öhdəlikdən asılıdır.

Bir şərait yaradan daxili motivasiya və məşqçilik, məşqlərin təlim dövrləri (mərhələləri) üzrə düzgün paylanması, təlim keçmiş bir bacarığın mənalı bir öyrənmə vəziyyətinə daxil edilməsi,şagirdin hərəkətinin nəticələri barədə məlumatlılığı, onun ümumi prinsipi, hərəkətin daxil olduğu hərəkət sxemini başa düşməsi, köçürmə və müdaxilənin təsirini nəzərə alaraq məşq edilir. Bacarıq və vərdiş yalnız məşq və tədris metodları ilə həyata keçirilən praktik fəaliyyətlərdə formalaşır. Məqsədyönlü fəaliyyət xaricində nə bacarıqları, nə də vərdişləri formalaşa bilər. Təhsil müddətində əldə edilmiş müxtəlif vərdişləri pilləli şəkildə mənimsəyir, bəzən isə şüurlu şəkildə onları formalaşdırırıq. Əksər mütəxəssislərin də qeyd etdiyi kimi vərdişlər istənilən sahədə uğur qazanmağa kömək edir. Hər hansı bir vərdiş insanın bilərəkdən şüurlu icra etməyə qərar verdiyi, daha sonra isə xüsusi diqqət yetirmədən həyata keçirdiyi fəaliyyətdir. Bir sıra vərdişlər zəncir reaksiyası başladaraq digər vərdişləri dəyişdirmək, formalaşdırmaq imkanına malikdir. Əsas vərdişlər müəyyən müddət ərzində hər şeyi dəyişdirən bir prosesə təkan verir. Beləliklə, qətiyyət və inam nəzərə alındıqda, məktəblilər açıq şəkildə görünən işarələri, təkrarları və mükafatları idarə etmək üçün onları araşdırıb, analiz edərək vərdişlərini dəyişdirə bilərlər.[2].

Bilik, bacarıq və vərdişlərinlərın uğurlu formalaşması üçün əsas şərtlər tapşırığın məqsədinin bilinməsi, məzmunu və həyata keçirilmə üsullarının dərk olunmasıdır. Bu, tapşırığın məzmununun izah edilməsi, əvvəllər tamamlanmış ən yaxşı tapşırıqların və icrasının özünü nümayiş etdirərək asanlaşdırılır. Biliklərin formalaşması üçün bir problemin həllinə yönəlmiş hərəkətləri səmərəli yerinə yetirmək üçün şüurlu bir münasibət, şagirdin bacarıqları inkişaf etdirməyə hazırlığı, marağı vacibdir, bunun sayəsində vərdiş kimi ortaya çıxır. Təcrübə, nəzəri biliklər, şagirdin meylləri, bacarıqları və vərdişləri bu kimi eyni dərəcədə əhəmiyyətli bir rol oynayır. Beləliklə, məktəblilərdə bilik, bacarıq və vərdişlərin formalaşdırılması zamanıonların hər birinə psixoloji aspektdən yanaşılması mütləqdir[3].

Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
2. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002.
3. Крутецкий В.Н. Психология обучения и воспитания школников. М: 1976.
4.Həmzəyev M.Ə. Pedaqoji psixologiya. pedaqoji institut tələbələri üçün dərs vəsaiti. Bakı: Maarif, 1991. 296 s.

Психологические характеристики формирование знаний, умений и навыков у школьников

РЕЗЮМЕ

Формирование знаний, навыков и привычек начинается с первых дней обучения. Изначально они очень простые, основаны на безусловных рефлексах и эмоциональных состояниях. Неоспорима роль учителей в психологическом подходе к ученикам в процессе приобретения знаний, раскрытия их навыков и закрепления хороших привычек.

Однако каким бы сложным ни был вид деятельности, навыки, которые возникают в результате освоения всей системы операций и сравнения ее с действиями для формирования навыков, обработки знаний и информации от предмета, являются характеристиками, которые определяют будущее дети.

SUMMARY

The formation of knowledge, skills and habits begins from the first days of education. Initially, they are very simple, based on unconditional reflexes and emotional states. The role of teachers in the psychological approach to students in the process of acquiring knowledge, revealing their skills and strengthening good habits is undeniable.However, no matter how complex the type of activity, the skills that emerge from mastering the whole system of operations and comparing it with actions for the formation of skills, the processing of knowledge and information from the subject are the characteristics that determine the future of children.

Mehdizadə Aytən
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Psixologiya
Elmi rəhbər:Qəribə Rəhimova

TƏLİM PROSESİNDƏ BİLİKLƏRİN MƏNİMSƏNİLMƏSİNİN PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *tədris prosesi, idraki fəallıq, müasir təlim, bilik, mənimsəmə*

Ключевые слова: *учебный процесс, познавательная деятельность, современное обучение, знания, усвоение*

Key words: *educational process, cognitive activity, modern training, knowledge, assimilation*

Hazırda müstəqil olaraq fikirləşən, mühakimə yürütmək bacarığı olan, kollektiv və qrupda fəaliyyətdə olan, öz davranışlarında çıxan nəticəni götür-qoy edən, tez bir vaxtda düzgün qərarları qəbul edən, zəkanın çevikliyi, tənqidiliyi və s. şəklindəki təfəkkür keyfiyyətlərinə sahib şüurlu vətandaş yetişdirilməkdədir ki, pedaqoji fəaliyyətimiz zamanı istifadə edəcəyimiz üsullar bu məqsədlə üzvi olaraq uzlaşmalıdır. Deyilən keyfiyyətləri müəyyən edəcək, formalaşdıracaq, təkmilləşdirəcək və qabiliyyətə çevirəcək təlim üsulları- fəal təlim yaxud da problemli-dioloji təlim üsulları təlim strategiyalarının qurulması və təhsilin gerçəkləşdirilməsində önəmli yer tutur. Bu üsulların tətbiqi ilə keçirilmiş dərslər uşaqların idrak fəaliyyətinə və təhsil prosesində iştirakçıların hamısının əməkdaşlığına əsaslanmaqdadır[4, s.77].

Təlim materialının mənimsənilməsinin başlıca şərti uşaqlarda öyrənməyə pozitiv münasibətin formalaşdırılmasıdır. Tədris prosesi uşağın təbiətən sahib olduğu öyrənmə meyilləri, istəyi ilə əlaqələndirilsə, bu, təlim prosesinin daha yaxşı başa düşülməsinə kömək edər. Bilmək daha hər şey demək sayılmır. Biliyi təcrübə üzrə tətbiq etmək hazırki şəraitdə əsasdır. Bu halda şagirdin sərbəst fəaliyyətdə məlumatların təhlili və tərkibinə, qərarları qəbul etməsinə, gerçəkləşdirməsinə hazır olması da önəmlidir. Bu cəhətdən müəllimin mövqeyi-öyrətmə, fənnə istək, maraq oyatmaq, məlumat mənbəyi deyil, informasiya əldə etmənin təşkilatçısına, idraki fəaliyyət üzrə təhrik etməkdə olan mənəvi və zehni impulsa çevrilməkdədir [2, s. 176].

Tanınmış pedaqoq və psixoloq L.V.Zankovdüşünür ki, şəxsin daxili və mənəvi zənginliyi və hərtərəfli təşəkkülü bu insanın bilik, elm və incəsənətə meyili, istəyi olmadan mümkün deyildir. Bu, təkcə şagirdin öyrənmiş olduğu təlim materialı üzrə olan marağı yarandığı zaman, o, öyrənməyə tələbat duyduğu zaman baş verməkdədir. Uşaqlarda öyrənmək üzrə maraq və tələbatı formalaşdırma metod və üsulların təsiri nəticəsində həyata keçir. Bu metod ilə üsulların psixoloji mexanizminin mənasını görkəmli didaktik alimin özü M.A.Danilov "biliksizliklə bilyin arasında daxili əksliklərin həyəcanı" adlandırmışdı.

Şagirdlərdə idraki fəallıq öyrənmənin hərəkətverici qüvvəsini təşkil etməkdədir. Uşaqlarda öyrənməyə tələbatın formalaşdırılmağı müəllimin pedaqoji ustalığı, öyrədənin şagirdlərə hörmət və tələbkarlığına əsaslanan münasibətindən, təlimdə metod və üsulların düzgün seçimindən, uşaqlarda öz qüvvələrinə inanmanın aşılanmasından və s. asılı olmaqdadır. Bəs təlim prosesinin özünə emosional iradi xarakterləri necə aşılamaq mümkündür? Təlim prosesinın emosionallığı mühitində uşaqlarda idrak fəaliyyətinə istək və daxili tələbat əmələ gəlir. Bu səbəbdən də biz müəllimlər fərqli didaktik metodlar və üsullardan istifadə etsək daha yaxşı olar. Müəllimlər "müqayisə edin", "ümumiləşdirin", "təhlillər edin", "fərqləndirin" şəklində produktiv aktivliyə təhrik etmiş suallar hazırlayaraq düşünmək üçün vadar edən tapşırıqlar verməlidi. Müəllimin başlıca məqsədi dərsə marağı formalaşdırmaqdır ki, bunu adi priyomların növbələşdirilməsi, başqa fənlərə keçmə, müəllimin aktivliyi, emosionallığı, dərs müddəti maraqlı faktların və misalların, nümunələrin göstərilməsi ilə nail olmaq mümkündür. Real ziddiyyətdən əmələ gələn emosiyalar əqli ehtiyatlarda səfərbərliyi təmin edir, idrak prosesini aktivləşdirir, diqqəti uzun zamana cəmləməyə zəmin yaradır, mənimsəmə aktiv xarakter daşıyır [6, s. 432].

Təlim metodları tədris zamanı şagirdlə müəllimin arasında əmələ gələn ünsiyyət olduğu üçün, müəllim də bu pozitiv psixoloji iqlim ilə dəstəyi yaratmaqla ünsiyyəti genişləndirməklə şagird-şagird əlaqəsinə çevirmək üçün bəzi konkret vəzifələr icra edir. Müəllim dərsdə pozitiv psixoloji iqlimi dəstəkləməlidi - bunu uşaqların buraxdığı yalnışlara münasibətində də büruzə verməlidir.

Mütəxəssislərin fikrincə, fəal təlimin əsas üstünlüyü bundan ibarətdir ki, məktəblilərin idrak aktivliyini artırır, onları düşündürür, müstəqil qərarlar çıxarmağa yönəldir. İdrak fəaliyyətinin gedişi zamanı şagirdlərin məntiqli, tənqidi və yaradıcı təfəkkürü inkişaf edir. Məntiqi təfəkkür həyatın bütün sahələrində insana gərək olan vərdiş hesab edilir. Məntiq şagirdlərin təfəkkürünü inkişaf etdirməyə, onların düşünmə qabiliyyətlərini və intellektual səviyyələrini yüksəltməyə, bilik, qabiliyyət və vərdişlərinin lap məzmunlu və hərtərəfli formalaşmasına xidmət göstərir.

Təlim prosesində təfəkkürün aktivləşdirilməsi nəticəsində eyni zamanda:

- biliklər daha azad, sərbəst anlaşılır və mənimsənilir;
- məntiqli, tənqidi və yaradıcı təfəkkürün özü, həmçinin problemlərin həll edilməsi və qərar qəbul olunması üzrə vərdişlər formalaşdırılmaqdadır;
- elmi-tədqiqat vərdişlərinin hər biri formalaşdırılmaqdadır;
- qarşılıqlı hörmət hissi ilə əməkdaşlıq vərdişləri aşılanmaqdadır [3, s. 27].

Təlim prosesində məktəblilərin fikri aktivliyini artırmağa imkan vermək üçün ziddiyyətli vəziyyət yaratmaq üsulları belə xeyli əhəmiyyətlidir. Belə ki, uşaqlar ziddiyyətdən çıxış yolu araşdırmağa daha fəal şəkildə qoşulur, bunu həll etmək məqsədilə dərindən fikirləşməli olurlar. Onlar ünsürləri ölçür-biçir, qarşılaşdıraraq hansı faktın nə ilə bağlı olduğunu aşkar etməyə, həyati faktları müəyyən baxımdan qiymətləndirməyə cəhd edir, nəhayət, hansısa bir fikrə gəlirlər. Mühüm cəhət budur ki, dərs prosesində ziddiyyətli hal yaradıldıqda uşaqlarda fərqli rəylər yaranır. Hamı çalışır ki, öz ideyasının doğruluğunu əsaslandırsın vəonu sübut etsin. Bu cür vəziyyətdə rəylər toqquşurlar, hamı öz fikrini əsaslandırmaq məqsədilə fərqli dəlillər gətirmək üçün can atır, buna nail olduğu zaman öz fikri fəaliyyətindən çox razı qalır. Sözün əsl mənasında inkişafetdirici, düşündürücü təlim də elə budur [5, s. 35].

Ədəbiyyat

1. Bayramov.Ə.S., Əlizadə.Ə.Ə. Sosial psixologiya. Baki, 2003
2. Əlizadə Ə. Ə., Əlizadə H. Ə., Şiriyeva U. M., Əlizadə C. Ə. Pedaqoji psixologiya. Bakı: [ADPU], 2010.288 s.
3. Quliyev E.M.Pedaqoji psixologiyanın əsasları.Bakı: [s. n.], 2015. 32 s.
4. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. pedaqoji institut tələbələri üçün dərs vəsaiti. Bakı: Maarif, 1991. 296 s.
5. Əliyeva G. B. Psixologiya. ali məktəblər üçün dərslik. Bakı: ADPU-nəşriyyatı, 2015. 172 s.

6. Лефрансуа Г. Прикладная педагогическая психология.Санкт-Петербург: Прайм-Еврознак, 2007. 576 с.

Психологические основы усвоения знаний в процессе обучения

РЕЗЮМЕ

Главным условием усвоения учебного материала является формирование позитивного отношения к обучающимся. Если учебный процесс связан с учебными тенденциями и амбициями ученика, это поможет им лучше понять учебный материал. Знать это еще не все. Применение знаний на практике является основополагающим в настоящем контексте. Когнитивная деятельность студентов является движущей силой обучения. С этой точки зрения позиция учителя становится духовно-психическим импульсом, который мотивирует организатора информации и познавательной деятельности, а не источник информации, мотивация, интерес, источник информации. Создание человека с широким кругозором и интеллектуальными способностями к творчеству во всем, что является главной задачей современного обучения, требует от учителей творческого подхода и постоянного поиска.

Psychological bases of assimilation of knowledge in the learning process

SUMMARY

The main prerequisite for mastering the learning material is the formation of a positive attitude to learners. If the learning process is linked to the learning tendencies and ambition that a student has naturally, this will help them better understand the learning material. To know is not everything. The application of knowledge to practice is fundamental in the present context. Students' cognitive activity is the driving force of learning. From this point of view, the position of the teacher becomes a spiritual and mental impulse that motivates the organizer of information and the cognitive activity, not the source of the information, the motivation, the interest, the source of information. Creating a person with a broad outlook and intellectual ability to be creative in everything that is the main task of modern teaching requires teachers to be creative and constantly searching.

İsmayılzadə Xoşbəxt Allahverdi qızı
Təhsildə sosial psixoloji xidmət
Elmi rəhbər:p.ü.f.d Əskərova Yeganə Baxış qızı

ƏXLAQİ HİSSLƏRİN FORMALAŞMASININ PSİXOPEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *əxlaqi hisslər, məktəbəqədər yaş, davranış, ünsiyyət,tərbiyə, cəza*

Ключевые слова: *моральные переживания, дошкольный возраст, поведение, общение, воспитание, наказание*

Key words: *moral feelings, preschool age, behavior, communication, upbringing, punishment*

İnsanların davranışı, qruplar arasındakı qarşılıqlı münasibətlər, insan mədəniyyətinin məhsulları, cəmiyyətin idarə olunması və birgəyaşayış qayda-qanunları, dərk olunması vacib olan problemlər və.s. həmişə insanlarda müəyyən hisslər doğurur. Hisslər insanın tələbatının ödənilib-ödənilməməsindən asılı olaraq varlığa münasibətinin şüurda inikasıdır (1, s., 98). Belə hisslər,ali hisslər kimi səciyyələndirilir.

Ali hisslər –şəxsiyyətinformalaşması prosesində, mürəkkəb sosial tələbatların ödənilməsi ilə bağlı əmələ gəlir. Ali hisslərin məzmunu şəxsiyyətin inkişaf səviyyəsindən, dünyagörüşündən, bilik və bacarığından, əqidə və inamından asılı olaraq olduğu üçün subyektiv xarakter daşıyır. Əxlaqi hissləri həm də mənəvi, dünyagörüşü hissləri də adlandırırlar. Əxlaqi hiss-

lərin obyekti ayrı-ayrı adamlar, kiçik qruplar, kollektivlər, insan münasibətləri,mövcud qanunlar, qaydalar və insanın özü və keçirdiyi hisslər ola bilər.Əxlaqi hisslər mövcud cəmiyyətin rəftar və əxlaq normalarına insanın bəslədiyi mənfi və ya müsbət münasibətin əks etdirməsidir. İnsanın münasibəti onun şüuru ilə tənzim olunur. Odur ki, uşaqların tərbiyəsi işində də əxlaqi şüurun inkişaf etdirilməsi ön plana çəkilməlidir. Çünki, özünü dərketmənin kökləri şüurla, əxlaqi hisslərlə bilavasitə bağlıdır (3, s., 378).

İnsanın mənəvi keyfiyyətlərinin əsaslarının formalaşması hələ məktəbəqədər uşaqlıqdan başlayır. Məktəbəqədər yaşda uşaqlarda əxlaqın elementlərinin təməli qoyulur:ilkin əxlaqlı hisslər və təsəvvürlər formalaşdırılır, əxlaqlı davranışın ən sadə bacarıqları özünü göstərməyə başlayır. Ona görə, uşaqların sonrakı əxlaqi inkişafı prosesinin nə qədər müvəffəqiyyətlə həyata keçirilməsindən asılıdır. Psixoloqlar qeyd edirlər ki, məktəbəqədər yaşlı uşaqların hissləri daha intensiv inkişaf edir və əxlaqi hisslərin formalaşması, əxlaqi tərbiyəsi üçün böyük imkanlarla səciyyələnir. Bu uşaqların özünə olan: ləyaqət və ya əksi, əminlik və ümidsizlik ətrafdakılara qarşı olan: şəfqət, dostluq hissi, qəzəb kimi hisslərində özünü göstərir. Uşağın hisslərinin formalaşması, onun normal inkişafı üçün onda ətrafdakılara qarşı müsbət emosional münasibət tərbiyə etmək böyük əhəmiyyətə malikdir. Lap əvvəldən yüksək mənəvi prinsiplər üslubunda uşağı tərbiyə etmək, onda lazımlı əxlaqlı hissləri formalaşdırmaq lazımdır. Böyüklərin rəhbərliyi altında məktəbəqədər yaş dövründə uşaq davranışın ilkin təcrübəsini əldə edir, yaxınlara, yaşıdlara, şeylərə, təbiətə münasibətlər formalaşır, cəmiyyətin mənəvi normalarını mənimsəyir. Uşaqların fəaliyyətinə rəhbərlik edərək, tərbiyəçi onlarda insan üçün mühüm olan müsbət əxlaqi keyfiyyətləri formalaşdırır (4, s., 49-51)

Kiçik məktəbəqədər yaşlı uşaqlaryalnız insanlar üçün hərəkətin bilavasitə mənasini nəzərə alaraq hərəkəti qimətləndirirlər: "Dalaşmaq olmaz, dalaşan usaq böyüyün gözündən düşə bilər". Böyük məktəbəqədər yaşlı uşaqlar isə artıq müəyyən davranış qiymətləndirilməni ümumiləşdirirlər. "Yoldaşlarla dalaşmaq olmaz, çünki onları incitmək ayıbdır".Beləliklə, uşaqda əxlaqi hisslər formalaşır və o hansı hərəkətlərin yaxşı və ya pis, doğru və yanlış olduğunu dərk etməyə başlayır. Həmçinin uşaq hislərinin və hərəkətlərin səmimiyyətini ayrıca vurğulamaq lazımdır. Belə körpə ağlayan yaşıdı görüb, onun başını anasından gördüyü kimi sığallayır təsəlli verərək indi özu oynadığı oyuncağı verir (4, s., 52-54).

Məktəbəqədər yaşda əxlaqi hisslər daha çox dərk edilmiş olur. Uşaqlarda doğma yerə sevgi, insanlara hörmət və minnətdarlıq hissləri formalaşır, böyüklərlə mədəni ünsiyyət vərdişlərini formalaşdırılmağa davam edirlər, yaşıdlarına həqiqəti demək, təmizliyə riayət etmək vərdişləri kimi müsbət əxlaqi hissər formalaşır.

Uşağı tərifləmək, mükafatlandırmaq, rəğbətləndirmək,onun gördüyü işi qiymətləndirmək, onda razılıq, məmnunluq və şəxsi ləyaqət hisslərinin meydana gəlməsinə səbəb olur. Hər hansı bir işə görə əgər uşaq tərif eşidibsə, o özü ilə qürur hissi duyaraq növbəti dəfə də işi həvəslə yerinə yetirməyə başlayır. Məktəbəqədər yaşda uşaq hər vəchlə cəhd edir ki, böyüklər ondan razı qalsınlar. Əgər məzəmmmət eşidibsə, səhvini düzəltməyə, bir də o səhvi etməməyə çalışır. Bu dövrdə uşaqlarda böyüklər tərəfindən qiymətləndirilmə əsas tələbata çevrilir. Məktəbəqədər yaş dövründə yüksək əxlaqi hisslər olan qürur və özünə hörmət hissi özünü göstərir. Bu yaş dövründə özünə hörmət və qürur kimi hisslər məktəb yaşına çatmamış uşağın şəxsiyyətinin fərdi təzahürlərinin xarakterini əks etdirir və bu hisslər uşağın özünə qiymətinin əhəmiyyətli emosional komponentidir. (5, s.,104-105)

Məktəbəqədər yaş dövründə usaqda əxlaqi hisslərin inkişafina üç əsas amil təsir edir: ailə, yaşıdları və bağça. Müasir dövrdə dördüncü amil kimi televizor və kompyuteri da daxil edə bilərik. Əxlaqi hisslərin formalaşmasında ən vacib cəhət ailə şəraitinin yaxşı olmasıdır. Uşağın hərtərəfli inkişafinda ailənin rolu əvəzsizdir. “Valideyn və övlad ömürlük bir-birilərinə bağlıdırlar. Onları bağlayan yalnız qan qohumluğu deyil,həm də ümumi maraqlar,qarşılıqlı münasibətlər, tələbatlar və sairədir. Həyatin sonuna qədər övladın sevinci valideynin sevinci, kədəri valideynin kədəridir” (2.s.,165). Ailə uşaq üçün kiçik bir dünyadır. Uşağın bu dünyasında

ata-ana və digər yaşlılar qüsursuz və müqəddəs insanlardır. Buna görə də valideynlər bilməlidirlər ki, onlar uşaqlar üçün nümunədirlər. Və çalışmalıdırlar ki, yaxşı nümunə olsunlar. Ata-analar davranışlarını elə nizamlamalıdırlar ki, uşaqlar onları bir dost, sirdaş və bir sevgi örnəyi kimi görsünlər. Doğru sözün yanında doğru hərəkət çox önəmlidir. Çünki uşaqlar sözlərdən çox, hərəkətlərdən təsirlənir. Uşaq valideynlərinin sözləri ilə əməlləri arasındakı təzadı görərsə, onlara qarşı olan inamı azalar. Valideynlərin bir-birini müraciəti, qarşılıqlı münasibəti uşaqlar üçün bir ölçüdür. Bunlar hiss olunmadan uşağın xarakterinì formalaşdırır. Ata - ana birbirinə hörmət edir, müraciətlərində xoş sözlər işlədirsə, uşaq da hər birinin yerini buna görə müəyyyənləşdirir və onlara qarşı münasibəti də bu ölçülər üzərində formalaşdırır. Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Düzgün tərbiyə arzu edilməyən bacarıqların və davranışın vərdişlərinin inkişafına mane olur və müsbət əxlaqi keyfiyyətlərinin formalaşmasında təsir edə bilir. Ümumilikdə isə ailə şəraiti əxlaqi inkişaf üçün sağlam bir şəraitdir. Uşaqların məsuliyyətli olmasına ciddi yanaşmaq lazımdır. Hər hansı bir işin həlli zamanı onu bütün səylə yerinə yetirməyin lazım olduğunu uşaqlar bilməlidirlər. Uşaqlara təsir edəcək, onlarda müsbət axlaqi hisslər formalaşdıran ən müsbət üsul gözəl davanışdır.

Məktəbəqədər yaşda uşaqlarda müsbət əxlaqi keyfiyyətləri tədricən formalaşdırmaq üçün vahidlik və məqsədyönlülük, müntəzəmlilik prinsipi və metodIara riayət etmək lazımdır. Əxlaqi hisslər qazanılmış müsbət keyfiyyətlər üzərində yüksəldikdə daha möhkəm və mənalı olur. Məsələn, tərbiyəçiyə hörmət, valdeyinlərə məhəbbət, yaşıdlar ilə birgə iş görmək uşaqlarda həm də xoş əhval ruhiyyə yaradır. Böyük arzu ilə bağçaya gələn balaca uşaqlar dərhal təlim və tərbiyəningüclü təsirinə məruz qalır. Onlar yaxşı münasibətlər görmək istəyirlər, lakin tərbiyə baxımından ilk gündən hər addımın düzgün atılması başlıca şərtdir. Tərbiyəçinin səmimiliyi, uşaq təfəkkürünün konkretliyi, fərdi xüsusiyyətlərini nəzərə ala bilməsi balacaların gələcəkdə bir şəxsiyyət kimi formalaşmasına, əxlaqi keyfiyyətlərinin inkişafına böyük təsir edir. Məktəbəqədər yaşlı uşaqlar dünyaya tərbiyəçinin gözü ilə baxır, onun kimi hərəkət edir, onu təqlid edirlər. Onların əxlaqi keyfiyyətləri tərbiyəci şəxsiyyətinin, tərbiyəçinin sözü ilə hərəkətinin təsiri altında formalaşır. Onlar tərbiyəci-müəllimin təlim materiallarını necə başa salmasına, adamlarn necə danışmasına, özünü və yoldaşlarının cavablarının necə qiymətləndirməsinə, əməkdə necə iştirak etməsinə xüsusi əhəmiyyət verirlər (6, s. 76).

Mühüm əxlaqi hisslərdən olan vətənpərvərlik hissi hələ kiçik yaşlardan uşaqlarda aşılanmalıdır. Ona görə ki, "insan hissləri içərisində ən müqəddəsi, bəlka də irsi, fitri mahiyyət daşıyanı, insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir. Ana uşağına dünyada iki əziz şeyin adının qoşa çəkildiyini uşağın yaddaşına hopdurmalıdır: biri ana, o biri Vətəndir. Uşaqların öyrəndiyi yeniliklər, iştirak etdikləri kütləvi tədbirlər, bədən tərbiyəsi və idman, müxtəlif oyunlar onlarda belə bir əqidəni inkişaf etdirir ki, torpaq, vətən müqəddəsdir. Bu, vətənə və təbiətə məhəbbət tərbiyəsidir, doğma vətəninə bağlılıq tərbiyəsidir.

Uşaqlar böyüklərin hərəkətlərini müşahidə etməklə öyrənir. Beləliklə, uşaqlarımızın necə davranmasını istəyiriksə, biz də elə davranmalı və yüksək əxlaqlı uşaqlar yetişdirməliyik. Ümumiyyətlə, uşaqlar torpağa atılmış toxum kimidir. Bu torpağa nə atılıbsa, onun da nəticəsini görüləcək. Buna görə də hələ kiçik yaşlardan uşaqlarda müsbət əxlaqi hissləri, keyfiyyətləri formalaşdırmaq, pis xüsusiyyətlərində məhz vaxtında qarşısını almaq lazımdır. Bunun üçün isə valideynlərlə müəllimlərin qarşılıqlı fəaliyyəti mütləqdir. Çünki yetişməkdə olan gənc nəsil bizim gələcəyimizdir.

Ədəbiyyat

1.Əliyev R. Tərbiyə psixologiyası. Bakı Nurlan 2006 196 səh.

2.Əliyev R. PsixologiyaBakı2003 175 səh.

3.Rüstəmova N.M. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi Bakı-2003. 140səh.

4.Грейс Крайг., Дон Вакуи. Психология развития 9-ое издание Санкт- Петербург 2006, 939 səh.

5.Xəlilov. H.Ə. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixolji məsələləri. "Şərq – Qərb" mətbəəsi. Bakı, 2012 224 səh.
6.Ümumi psixologiya Prof. A.V.Petrovskinin redaktəsi ilə. rus dilindən tərcümə. "Maarif" 1982, 494 səh.

İsmayılzadə Xoşbəxt Allahverdi qızı

Əxlaqi hisslərin formalaşmasınınpsixopedaqoji xüsusiyyətləri

XÜLASƏ

Məqalədə qeyd olunur ki, əxlaqi hisslər, müəyyən cəmiyyət daxilində qəbul olunmuş əxlaq normaları əsasında sosial gerçəkliyin hadisələrin qavranılması zamanı insanın keçirdiyi hisslərdir. Bildirilir ki, insanın mənəvi keyfiyyətlərinin əsaslarının formalaşması hələ məktəbəqədər uşaqlıqda başlayır. Məktəbəqədər yaşda uşaqlarda əxlaqın elementlərinin təməli qoyulur: ilkin əxlaqi hisslər və təsəvvürlər formalaşırdırılır, əxlaqlı davranışın ən sadə bacarıqları özünü göstərməyə başlayır. Məqalədə uşağın hisslərin formalaşması, yaşıdlara, yaxınlara, təbiətə və s. münasibəti, eyni zamanda cəmiyyətin mənəvi normaları mənimsəməsi ətraflı şəkildə tədqiq olunmuşdur.

Психопедагогические особенности формирования нравственных чувств

РЕЗЮМЕ

В статье отмечается, что моральные чувства - это чувства, которые человек испытывает при восприятии социальной реальности на основе моральных норм, принятых в конкретном обществе. Говорят, что формирование основ нравственных качеств человека начинается в дошкольном учреждении. У дошкольников закладывается фундамент элементов морали: формируются исходные нравственные чувства и представления, начинают проявляться простейшие навыки нравственного поведения. В статье делается акцент на формировании у ребенка чувств, сверстников, родственников, характера и т. Д. мироощущение, а также усвоение моральных норм общества изучены подробно.

Psychopedagogical features of the formation of moral feelings

SUMMARY

The article notes that moral feelings are feelings that a person experiences when perceiving events of social reality on the basis of moral norms accepted within a certain society. It is said that the formation of the foundations of a person's moral qualities begins in preschool. In preschool children, the foundation of the elements of morality is laid: the initial moral feelings and perceptions are formed, the simplest skills of moral behavior begin to manifest themselves. The article focuses on the formation of the child's feelings, peers, relatives, nature, etc. attitude, as well as the mastery of the moral norms of society have been studied in detail.

İsmayılzadə Xoşbəxt Allahverdi qızı
Təhsildə sosial psixoloji xidmət
Elmi rəhbər:p.ü.f.d Əskərova Yeganə Baxış qızı

ŞƏXSİYYƏT VƏ ONUN SOSİAL-PSİXOLOJİ MAHİYYƏTİ

Açar sözlər: *şəxsiyyət, şəxsiyyətin inkişafı, psixoloji problemlər*
Ключевые слова: *личность, развитие личности, психологические проблемы*
Key words: *personality, personality development, psychological problems*

"Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır" (4, s.139). Şəxsiyyət problemi, onun formalaşmasının və inkişafının sosial-psixoloji məsələləri psixologiya üçün daim aktual mövzu

olmuşdur. Psixologiyada "insan"anlayışı ilə bərabər fərd, fərdilik, şəxsiyyət anlayışlarından tez-tez istifadə olunur. Şəxsiyyət anlayışını təhlil etməklə bu məsələləri ətraflı öyrənmək olar. Şəxsiyyət və onu başqa insanlardan ayıran insanın davranışının xüsusiyyətləri onun inkişafının və həyat təcrübəsinin müxtəlif mərhələlərində formalaşır. İnsanın sosial inkişafı psixi inkişafının davamıdır. Bu vəziyyət ona varisliklə keçən xüsusiyyətlərlə olduğu qədər onun ailə ətrafında, məktəbdə, içində olduğu cəmiyyətdə yaşadığı təcrübələrlə də bağlıdır. Bir insanın həyatda qazandığı ən böyük nailiyyət onun təcrübəsidir. Buna görə insan həyatda başqalarını təqlid etməklə, yamsılamaqla heç vaxt şəxsiyyət kimi formalaşa bilməz. Şəxsiyyətin formalaşması prosesi hər hansı bir layihə və yaxud plan üzrə həyata keçmir. Eyni bir şəraitdə, eyni bir ailədə fərqli xarakterlərə malik olan şəxsiyyətlər formalaşa bilər. Bütün bunlar isə göstəririr ki, ümumiyyətlə inkişafın amili kimi ancaq xarici mühit haqqında danışmaq olmaz, şəxsiyyətin formalaşmasının fərdi şəraitini aydınlaşdırmaq lazımdır(3, s. 139-141).

Şəxsiyyətin sosial-psixoloji mahiyyətini təhlil etmək üçün onun talabat sistemini bilməyin mühüm əhəmiyyəti var. Sosial varlıq olan insan üçün ən mühüm tələbat ünsiyyətə olan tələbatdır. Ünsiyyət tələbatı insan psixikasının şəxsiyyətyönümlü keyfiyyətidir, onun davamlı və bütöv bir sistem kimi özünü dərketməsidir, fərdiyyyətin əsasıdır. Ünsiyyət burada sosial mühitlə insanın qarşılıqlı təsirinin məqsədəuyğun şərti kimi yaranır. Ünsiyyətə olan tələbat insanı müəyyən fəaliyyətə sövq edir. İnsan şəxsiyyəti fəaliyyətdə ifadə olunur və eyni zamanda fəaliyyət onun şəxsiyyətini formalaşdırır. İnsanlar hələ qədim zamanlardan öz davranışlarının və şəxsi psixikalarının sosial mühitdən asılılığını hiss etmişdilər. Ünsiyyət nəticəsində insan qarşısına qoyduğu məqsəd və vəzifələri həyata keçirir. Q.Ananyev qeyd edir ki: "Şəxsiyyət - əməyin, biliyin və ünsiyyətin subyektidir". Sosial varlıq olan insan doğulduğu andan etibarən müxtəlif münasibətlər sisteminə qoşulur. Bildiyimiz kimi hər bir fəaliyyətdə həmin fəaliyyətin subyektini və obyektini, eləcə də onda istifadə olunan vasitələri ayırmaq olar. Ünsiyyət fəaliyyətində obyekt başqa adamlardır. K.Marks başqa adamı "ən böyük sərvət" adlandırırdı. Qeyd edirdi ki, insan həmişə başqa insan kimi ən böyük sərvətə ehtiyac hiss edir və onun bütün tələbatları əmək və ünsiyyət tələbatlarının inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır. Şəxsiyyətin spesifik xüsusiyyətləri də məhz fəaliyyətdə, ünsiyyət prosesində üzə çıxır (3, s.,224).

"Fərdin kollektivə ehtiyacı var. Mütəşəkkil kollektivdə fərd özünün güclü və zəif tərəflərini görür... ağır dəqiqələrində onun yardımından istifadə edir" (2, s.33). Hər bir fərd ayrı-ayrılıqda özündən əvvəlki dövrdə yaşamış insanlar kimi bütün ömrü boyu sosial mühitə daxil olur, ona uyğunlaşır. Müəyyən rol və funksiyaları qəbul edir və mənimsəyir. V.Şekspirin sözləri ilə: "Bu dünya teatrdır vəburada kişilərin və qadınların hamısı aktyordur,o nlardan hər biri müxtəlif rollar oynayırlar"(1, 276-278).

Hər birimizin gündəlik həyatda çox fərqli rollarımız var.Hər insan fərqli vəziyyətlərdə müxtəlif rolları icra edir: evdə övlad, məktəbdə müəllim, işdə dost və s. Bir növ yerindən asılı olaraq müxtəlif davranış qəliblərinə girir, fərqli rollar icra edirik. İnsanlar özlərinə layiq gördüyü rollarauyğun davranırlar.

Şəxsiyyət müstəqildir. İnsanlar özlərinə layiq gördüyü rollara uyğun davranırlar.Bu inkişaf və özünə inamla əlaqəli bir vəziyyətdir. Bəzi rollar gücləndikcə bəziləri zaman getdikcə zəifləyir. İctimai rol davranışları hər cəmiyyətdə fərqlidir. Rolların öyrənilməsi, hansı yaşdan etibarən öyrənildiyi və ictimailəşməyə nə dərəcə təsirli olduğu problemləri şəxsiyyətin başa düşülməsi baxımından çox əhəmiyyətlidir. Buna görə rolları fərqləndirirlər:

Yaş rolu və təhsili

Cinsiyyət rolu və öyrənmə

İctimailəşmə rolu və öyrənmə

Rol qarşıdurması və dəyişməsi

Psixologiyada şəxsiyyəti sosial-psixoloji cəhətdən təhlil edərkən sosial status anlayışının təhlilinə önəm verilir. Sosial status - insanın cəmiyyətdə, konkret kollektivdə rolunu və mövqeyini əks etdirir. Başqa sözlə, hər bir insan, sosial qarşılıqlı təsirlərin sisteminə qoşularaq, müəy-

yən sosial funksiyaları yerinə yetirməlidir: həkim müalicə etməli, pedaqoq - dərs deməli, sahibkar – istehsalı təşkil etməli və onu idarə etməlidir və s. Sosial qarşılıqlı təsirlərin gedişatında konkret funksiyaların icra edilməsi üçün hər bir insana müəyyən vəzifələr qoyulur; bununla birlikdə insana müəyyən edilmiş hüquqlarla imtiyazlar, səlahiyyətlər verilir. Bütün bunlara baxmayaraq, insan bu və ya digər funksiyanı yerinə yetirmir qarşılıqlı təsirlərin bu sistemi çərçivəsində müəyyən sosial mövqe tutur. Sosial status əsasən bu sosial koordinatlar sistemində sosial mövqeyin xarakteristikasıdır. Sosial statusun daxili məzmunu müəyyən edir ki, insan sosial statusuna uyğun hansı hüquqlara, vəzifələrə, səlahiyyətlərə malikdir. Rollar özlərinin statusu ilə bir-birlərindən fərqlənirlər. Psixologiyada rolları yüksək və aşağı rollar olaraq fərqləndirirlər. Bunlar özünü dixotomik ölçülərlə göstərir: müəllim və tələbə, sahibkar və işçi. Həmçinin insanlar arasında status müəyyən edir ki, vəzifəsindən asılı olaraq insan kimə tabedir və ya əksinə kim ona tabedir. Bu düzülüş sosial sahənin koordinatlar sistemində konkret statusun yerləşməsini müəyyən etməyə kömək edəcək. Çox zaman bəzi anlayışların yalnız roldan ibarət olduğu düşünülür: oğul sadəcə olaraq rol deyil, bu yalnız qohum əlaqəsinin göstəricisi deyil, həm də müəyyən tabeliyə əsaslana bilər: valideynlərə, onların fikirinə qulaq asmaq, valideynlərdən maddi, hüquq asılılıq və s. kimi. Artıq vurğulandı ki, statuslar – bu dəyişməzlər qarşılıqlı təsir çərçivəsində möhkəm mövqelərə, "əbədilik" effektinə malikdir. Belə ki, konkret həkim poliklinikadan çıxa bilər, amma həkimin statusu həmişə qalır. Statuslar formalaşmış və formalaşmamış olur. Formalaşmış statuslar müəyyən qanunla, qayda ilə ifadə olunur: zavod direktorunun statusu və s. Belə statusu tutan insan dəqiq şərt qoyulmuş hüquqlara, imtiyazlara, üstünlüklərə və vəzifələrə malikdir. Bela status formal institutlar çərçivəsində yaranır, qruplar və formalaşmamış statusların üzərində hiss olunan üstünlüklərə malikdir. Təbii olaraq insanlar arasında hansı statusu tutmağın psixoloji xarakteri var. Lakin dostlar,yaxınlar çərçivəsində insanın statusuna deyil, onun mədəni səviyyəsi, ünsiyyətcilliyi mühüm rol oynaya bilər. Beləliklə, qeyd etmək olar ki, şəxsiyyət anlayışının təhlili və onun sosial-psixoloji mahiyyətinin öyrənilməsinin çox mühüm əhəmiyyəti var. Çünki "...şəxsiyyət yalnız kreativ qabiliyyətlərin yüksək mərhələsi ilə deyil, insanın xüsusi həyat mövqeyi, onun dünyaya münasibəti kimi xarakterizə olunur" (5, s.112).

Psixologiya şəxsiyyəti hər şeydən əvvəl sosial keyfiyyətli bir sistem kimi səciyyələndirərək təhlil edir. Şəxsiyyətin sosial psixoloji mahiyyətinə nəzər salarkən ilk növbədə şəxsiyyətin sosial keyfiyyətlərinə diqqqət yetirilir. Sosial keyfiyyətlər fərdin ünsiyyət va fəaliyyət proseslərinə, müxtəlif münasibətlər sisteminə yiyələnməsi şəraitindətəşəkkül taparaq formalaşır. Bütün bunlara əsaslanaraq şəxsiyyəti bütün ictimai münasibətlərin məcmusu kimi səciyyələndirmək olar. Sosial psixoloji münasibətlər ,ümumilikdə, şəxsiyyətin həqiqi mahiyyətinin əsasını təşkil edir. Belə ki, məhz sosial-psixoloji amilləri təhlil edərək şaxsiyyətin inkişafina təsirini ətraflı araşdırmaq mümkündür.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya "Qapp-Poloiqraf" Bakı-2003 354s;

2. Əliyev R. Tərbiyə psixologiyası, Bakı: Nurlan 2006 196 s;

3. Xəlilov H.Ə. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixolji məsələləri. "Şərq-Qərb" mətbəəsi. Bakı, 2012 224 s;

4. Seyidov S.İ. və Həmzəyev M.Ə. elmi redaktorluğu ilə Psixologiya Bakı - 2007, 626 s;

5. Seyid Məhəmməd Rəşidi. Yaradıcılıq və şəxsiyyət. //Psixologiya jurnalı, 2010, № 3, s. 107-113;

Şəxsiyyət və onun sosial-psixoloji mahiyyəti

XÜLASƏ

Şəxsiyyətin formalaşması onun müəyyən mərhələlərdən və sınaqlardan keçməsi ilə ortaya şıxır. Məqalədə ətraf mühit və cəmiyyətin şəxsiyyətin formalaşmasının ən əhəmiyyətli amili olduğu qeyd edilir. Bildirilir ki, şəxsiyyət – bu cəmiyyətdə müəyyən yer tutan və ictimai rolu yerinə yetirən şüurlu fərddir. Məqalədə şəxsiyyətin formalaşması, onun xarici və daxili, idarə olunan və idarə olunmayan, sosial və təbii amillərin təsiri altında olduğu ətraflı təhlil olunur.

Личность и ее социально-психологическая сущность

РЕЗЮМЕ

Формирование личности проявляется при прохождении определенных этапов и испытаний. В статье отмечается, что среда и общество являются важнейшими факторами формирования личности. Утверждается, что личность - это сознательная личность, занимающая определенное место в обществе и играющая социальную роль. В статье подробно анализируется формирование личности, ее внешнее и внутреннее, управляемое и неконтролируемое, под воздействием социальных и природных факторов.

Personality and its socio-psychological essence

SUMMARY

The formation of personality emerges when it passes through certain stages and tests. The article notes that the environment and society are the most important factors in the formation of personality. It is stated that personality is a conscious individual who occupies a certain place in society and plays a social role. The article analyzes in detail the formation of personality, its external and internal, controlled and uncontrolled, under the influence of social and natural factors.

Məmmədova Şəbinə
Magistrant

KİÇİK MƏKTƏB YAŞLI UŞAQLARDA PSİXİ İNKİŞAFIN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *kiçik yaşlı uşaqlar, psixi, zehni, məktəbli, diqqət, yaddaş*

Ключевые слова: *младшие дети, умственный, психический, школьный, внимание, память*

Key words: *younger schoolchildren, mental, school, attention, memory*

Kiçik məktəbli adlandırılan 1-4-cü sinif şagirdlərinin aid olduğu yaş dövrünü tez-tez uşaqlığın zirvəsi adlandırırlar. Belə ki, bu dövrdə kiçik məktəblilər hələ də uşaqlıq xüsusiyyətlərini (sadəlövh, səthi düşünən, asan aldanılan olaraq qalırlar) saxlayırlar, digər tərəfdən isə məntiqli yanaşmaları ilə həyatın gedişatını, dəyərini anlamağa başlayırlar.

Bu yaş qrupuna daxil olan kiçik məktəblilərin emosional-həyəcanlı çıxışları ibtidai sinfin ilkin siniflərinə xas olan, yuxarı siniflərə qalxdıqca yoxa çıxan keyfiyyətlərdir. Bu yaş qrupuna daxil olan şagirdlərin əsas xüsusiyyətlərindən biri də həssaslıqdır. Onlar müəllim tərəfindən tərifləmək üçün və bunu evdə valideynlərindən eşitmək üçün çox çalışqanlıq nümayiş etdirirlər.

İbtidai məktəb çağının başlanğıcında bir uşağın psixi inkişafı kifayət qədər yüksək səviyyəyə çatır. Bütün ruhi proseslər: qavrayış, yaddaş, düşüncə, təfəkkür, təxəyyül, nitq- artıq uzun bir yol keçmişdir. Uşaqların müxtəlifyönümlü fəaliyyətini təmin edən bu fərqli idraki proseslər bir-birindən təcrid olunmur, əksinə, mürəkkəb bir sistem əmələ gətirir və hər biri bir-biri ilə əlaqəlidir. Bu əlaqələr, təbii ki, uşaqlıq dövründə dəyişir. Ancaq müəyyən periddan sonra proseslərdən biri ümümu zehni inkişaf üçün aparıcı rol alır.

Kiçik məktəb yaşlı uşaqlar dərsdə bir qədər qüvvə sərf etməklə fəallıq göstərir, maraqlandıqca biliklərin mənimsənilməsinin mənasını anlayırlar ki, bu da onların yeni şəraitə adaptasiyasının əsasını qoyur. Adaptasiya problemi kiçik yaşlı məktəblilərin subyekt kimi öyrənmə fəaliyyətinin formalaşdırılmasıdır. İlk öncə təlim fəaliyyətinə adaptasiya dövründə şagird sistemli davranışa yiyələnir ki, bu onların inkişafına uzun müddət təsir göstərir. Adaptasiya prosesi zamanı uşaq sosial psixoloji cəhətdən kollektiv ilə uyğunlaşır. Uşaqları yeni sosial funksiyalara, mədəniyyətə, davranış qaydalarına uyğunlaşdırmaq üçün sinif kollektivi ilə qarşılıqlı əlaqələrin yaradılması vacib şərtlərdəndir.

Təlim prosesində intizamlılıq və mütəşəkkillilik uşaqların uğurlu adaptasiyasında böyük əhəmiyyətə malikdir. Sinifdə təlim prosesinin optimal təşkili, kollektiv işləmək, ev tapşırıqlarının mütəşəkkil şəkildə yerinə yetirilməsi və intizamlılıq məhz uğurlu adaptasiyanın əsas amilidir.

Təlimin məhsuldar nəticələri onunla şərtlənir ki, bu prosesdə kiçik məktəblilər qarşıya məqsəd qoymaq, onun təxəyyül planını qurmaq və yerinə yetirmək kimi iradi iş imkanları əldə edirlər.

Kiçikyaşlı məktəblilərin psixi inkişafını göstərən amillərdən biri də diqqətdir. Bu dövrü keçirən şagirdlərdə diqqətin davamlılığı məktəbəqədər yaşlı uşaqlara nisbətən yüksək olsa da, yuxarı siniflərdə oxuyan uşaqlara nisbətən azdır. 7-11 yaşlı uşaqlar, xüsusilə 1-2-ci sinif şagirdləri öz diqqətdiqqətlərini bir obyekt üzərində 10-15 dəqiqədən artıq saxlaya bilmirlər. Bu vaxt keçdikdən sonra onların diqqətləri asanlıqla başqa obyektə yönələ bilir.

Bu yaş qrupuna dərs keçən müəllimlər gərək şagirdlərin diqqətinin yaş xüsusiyyətlərini bilsin. Bu barədə elmi ədəbiyyatlarda müəllimlərə kömək olacaq məlumatlar da verilir: "Kiçik məktəblilər uzun müddət gərgin surətdə bir iş üzərində cəmləşə bilmir, diqqətlərini paylamaq da onlar üçün çətindir. Əgər dərslə bərk məşğuldursa, davranışına nəzarət edə bilmir, bərkdən danışır, yerindən durur, deməli, əsas məsələ uşaqları maraqlandırmaqdır. Məzmunlu, maraqlı materialın canlı, aydın, emosional şəkildə çatdırılması şagirdlərin dərsdə diqqətliliyi üçün əsas şərtdir." [2, s. 312]

Kiçik məktəb yaşlı uşaqlarda, əsasən qeyri-ixtiyari diqqət üstünlük təşkil edir. Qeyri-ixtiyari diqqətin davamlılığı ixtiyari diqqətə nisbətən yüksək olur.

Kiçik yaşlı məktəblilərdə qeyri-ixtiyari diqqət daha çox uşağın marağı ilə əlaqədardır. Məktəbə daxil olmaqla uşağın marağı, xüsusilə təlim fəaliyyətinə yönəlir və inkişaf edir. Lakin ilk dövrlər hələ azyaşlı məktəblilərdə maraq mərkəzləşməmiş olur. İlk dövrlər uşağı təlim prosesindən əldə edəcəyi bilikdən çox, onun üçün tanış olmayan məşğələlər cəlb edir. Ona görə də uşağın diqqəti ilk dövrlər qeyri-ixtiyari şəkildə həmin sahələrə yönəlir. Get-gedə uşağın diqqəti bir sahəyə doğru davamlı, başqa sahəyə isə davamsız olur. Bir sahə qeyri-ixtiyari olaraq uşağın diqqətini özünə cəlb edir, başqa sahə isə cəlb etmir.

Kiçik məktəblilər diqqətlərini yönləndirməyi idarə edə bilirlər. Bu səbəbdən onlar müəllimlərinə qulaq asmaqda mərkəzləşə bilirlər. Qeyri-ixtiyari diqqətin davamlılığı ixtiyari diqqətə nisbətən yüksək olur. Əgər bir predmet üzərində xeyli zaman sərf edirlərsə və ya diqqətini verdiyi predmet bütün gücünü alırsa, demək, təbii ki, tez bir zamanda yorğun olur. Kiçik məktəb yaşlarında uşaqların diqqətləri onların maraqları ilə sıx bağlıdır. Sevdikləri və maraq göstərdikləri predmetlərə xüsusi diqqətlə yanaşırlar. Məhz, bu səbəbdən də çox sayda suallar verirlər. Bu suallara verilən izahlı şərhlər olduqca əhəmiyyətlidir. Ümumiyyətlə, kiçik məktəblilər tapşırıq yerinə yetirərkən analiz, sintez, müqayisə və qruplaşdırma kimi məntiqi əməliyyatlar yerinə yetirirlər.

Kiçik məktəblilərin psixi inkişafı, əsasən, yaddaşın inkişafına gətirib çıxaran öyrənmə fəaliyyətini müəyyənləşdirir: yaddaşın həcmivə dərəcəsi genişlənir, beynin iş qabiliyyətliliyi yaxşılaşdırır. Məntiqi düşüncə tərzini, eləcə də, abstrakt təhlilini, yəni, hər hansı bir nümunə üzərində ümümi qanunauyğunluğu dərk edir. Kiçik məktəb yaşlarında olan şagirdlərdə hafizənin güclü olması diqqəti cəlb edir. Ona görə də bu periodda olan şagirdlərin şeir əzbərləməyi hekayə danışmaqlarınanisbətən daha uğurludur. Məhz, bu səbəbdən də şagirdlərin bu qabiliyyətindən onların leksikasının artırılmasına istifadə olunmalıdır.

Əgər məktəbəqədər yaşda olan uşaqların əsas işlətdikləri söz -"İstəyirəm"dirsə, kiçik məktəblilərin isə tez-tez işlətdikləri söz "Lazımdır" olmalıdır. Bu sözün mənasını kiçik məktəbliyə səbrlə, incəliklərinə kimi izah olunarsa, şagird mənanı tam dərk edərsə, öz tapşırıqlarını özü sərbəst edəcəkdir. "Mən böyüyəm, mən daha düzgünün bilirəm" kimi düşüncələrini övladlarına diqtə edən valideynlər heç bir vəziyyətdə haqlı deyirlər. Əksinə, övladına -"Sən necə düşünürsən?" - deyə müraciət edib, övladının fikirlərini almaq istəyən, övladına söz haqqı verənvalideyn daha ədalətli, həmin övlad isə daha fəal, özünəinamlı, düşüncələrini deməkdən çəkinməyən, yaradıcı, gözəl nitqə malik bir şagird olacaqdır.

Bu mərhələdə kiçik məktəblilərin yaddaşdan əlavə, intellekti və planlaşdırma qabiliyyəti xüsusilə inkişaf edir. Tez-tez ruh düşkünlüyü yaşayan kiçik məktəblilərdə özünəinam zəif olduğundan pedaqoqun onun haqqında olan ən kiçik nöqsanı belə, onu ruhdan salmağa qadir-

dir. Bu mənada müəllimlər və valideynlər çalışmalıdırlar ki, kiçik məktəblilər onların haqqında olan söhbəti eşitməsinlər. Yəni uşaqları bu mövzulardan qorumaq lazım gəlir.

Ədəbiyyat

6. AxundovS.H. Təlim prosesində şagirdlərə fərdi yanaşma. Bakı, 1975.
7. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 1989.
8. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
9. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası, Bakı, 1976.
10. "Uşaq psixologiyası " (Pedaqoji universitet vəinstitutlardabakalavr hazırlığı üçün proqram). Tərtib edəni Edison Quliyevdir, Bakı, 2014

Особенности психического развития у младших школьников

РЕЗЮМЕ

В статье исследуются психологические особенности детей младшего возраста. Дети этой возрастной группы развивают особое мышление, внимание, память, интеллект и т. Эти различные когнитивные процессы не изолированы друг от друга, а скорее создают сложную систему и взаимосвязаны. Как эти факторы развиваются у детей младшего школьного возраста, было вовлечено в текущее исследование.

The characteristics of mental developmentat younger schoolchildren

SUMMARY

The article explores the psychological characteristics of young schoolchildren. Children of this age group develop special thinking, attention, memory and intelligence. These different cognitive processes are not isolated from each other, but rather create a complex system and are interrelated. How these factors develop in primary schoolchildren has been implicated in the current study.

Məmmədova Şəbinə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər:Heydərova Simnarə Nadir qızı

MÜSTƏQİL TƏFƏKKÜRÜN TƏRBİYƏSİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *təfəkkür, psixi, zehni, idrak, diqqət, yaddaş*
Ключевые слова: *мышление, умственный, психический, познание, внимание, память*
Key words: *thinking, mental, cognition, attention, memory*

Təfəkkürün müstəqilliyiinsanın digərlərinin köməyinə ehtiyac duymadan yeni vəzifələr irəli sürməsi və lazımi həll və cavabları tapa bilmə bacarığı kimi başa düşülür. Ancaq busərbəst düşünə bilən insanın başqalarının düşüncələrinə, həmçinin, təcrübələrinə etibar etməməsi mənasını vermir. Müstəqil təfəkkürə malik olan insanlar sərbəst şəkildə başqa insanların təcrübəsini və biliklərini bir növ özünküləşdirir. Sonda isə kreativ bir tərzdə onu təkrar edir. Sərbəst təfəkkürə malik olmayan insan ancaq digər insanların biliyiilə müəyyən bilik, baçarıq, vərdişlərə yiyələnir. Fərqli-fərqlimövzuların və tapşırıqların öhdəsindən gəlməyə çalışarkən bu mövzuların yeni yollarını tapmağı bacarmır. Təfəkkürün müstəqilliyi onun dərinliyi ilə müəyyən dərəcədə bağlıdır. Təfəkkürün dərinliyi çətin və mürəkkəb mövzuların mahiyyətinə varmaq kimi başa düşülür. Başqa cür desək, başqa insanların bir dərin izahi olmadığı halda problemi başa düşə bilmək bacarığına dəyilir. Müstəqil və dərin təfəkkür, hadisələrin səbəblərini anlamaq ehtiyacı kimi başa düşülür. Təfəkkürün müstəqilliyinin və dərinliyinin hərtərəfli inkişafı ilə bərabər, insanın şəxsi və fərdi fəaliyyəti, biliyi, həmçinin, meylləri ilə aşkar olunur.

Bəs, təfəkkür nədir? Ona necə tərif verə bilərik. Ta qədim zamanlarda Sokrat təfəkkür prosesi haqqındafikir söyləyən və onu araşdıran mütəfəkkür alimlərdənbiri idi. O, təfəkkürün dərəcəsini və müstəqilliyini məntiqi və düşündürücü suallarla aşkarlayırdı. Lakin zaman keçdikcə isə, təfəkkür daha ətraflı araşdırılmış və öyrənilmişdir. Təfəkkür prosesi olduqca mürəkkəb, əqli, həmçinin, zehni fəaliyyət prosesidir. Hal-hazırda psixoloji ədəbiyyatlarda təfəkkü-

rün hər kəs tərəfindən qəbul edilmiş tərifi belədir: *Təfəkkür cisim və hadisələrin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir* (4, səh.331). Həmçinin, məlumdur ki, koqnitiv proseslər təfəkkür prosesi ilə həyata keçirilir. Koqnitiv proseslər (fəaliyyətlər) isə, fəaliyyəti reallaşdırma prosesində insanın rast gəldiyi fərqli-fərqli məsələlərin həllini əhatələyir. Bundan başqa qeyd edə bilərik ki, təfəkkür prosesi fəaliyyətlə ayrılmaz vəhdətdədir, Təfəkkür əqli fəaliyyətin ancaq bir forması kimi öyrənilə bilməz. Yəni ki, təfəkkür prosesi insanın rastlaşdığı problemləri həll yoluna qoymaq üçün yeni şərtlərə cavab verən davranışları, hərəkətləri həyata keçirməyin üsullarını tapmalı olduğu hallarda bütün insan fəaliyyətlərini əhatələyir.

Müstəqil təfəkkür bir idrak prosesi kimi özünəməxsus psixoloji və psixopedaqoji əlamətləri və üstünlükləri ilə digər idrak proseslərindən fərqlənir. Bu əlamətlərə aşağıdakıları göstərə bilərik.

❖ Müstəqil təfəkkür prosesi vasitəsi ilə əşyalar arasında səbəb-nəticə əlaqəsi formalaşır.

❖ Müstəqil təfəkkür prosesi vasitəli proses kimi səciyyələnir.

❖ Müstəqil təfəkkür prosesi insan yaddaşında qorunub saxlanılan keçmiş təcrübəyə söykənir.

❖ Müstəqil təfəkkür prosesi kemişdə yaşanmış olan hadisələr barəsində yaddaşımızda yer almış fikirləri təhlil etməyə yardım edir.

❖ Müstəqil təfəkkür prosesi əşyaların, insanların və hadisələrin əsas qanunauyğunluqları barəsindəkibiliklərə istinad edir.

❖ Müstəqil təfəkkür prosesində insan ümumi qanunauyğunluqlarını təcəssüm etdirən ümumi qaydalardan yaralanır.

❖ Müstəqil təfəkkür prosesi hər zaman şifahi şəkildə cisimlər arasındakı əlaqə və asılılıqları, həmçinin, münasibətlərin əks etdirilməsi təmin edir.

❖ Müstəqil təfəkkür prosesi ilə nitq bir-biri ilə möhkəm bağlıdır.

❖ Müstəqil təfəkkür prosesində yalnız bizə təsir edən hadisələrin əsas mahiyyəti əks etdirilmir, həm də hadisələr qavranılır.

❖ Müstəqil təfəkkür prosesi təcrübi fəaliyyətlə bağlıdır və insanın sosial praktik fəaliyyətinə dayanır.

Müstəqil təfəkkür prosesinin əsas funksiyası insana yeni biliklərə yiyələnmək imkanı yaratmasıdır. Müstəqil təfəkkür prosesi nəticəsindəinsan həyatı boyunca yeni biliklər sistemini mənimsəyir. Beləki, kifayət qədər biliyi olmayan insan müəyyən fəaliyyətini uğurla yerinə yetirə bilmir. Bu səbəbdən insanın düşüncəsi onun sahib olduğu biliklərin dərəcəsi ilə tənzimlənir. Bu prosesin son nəticəsi insan biliyidir. Bilik bir növ əsas vasitə və təfəkkürünün mənbəyi kimi qiymətləndirilir. Təfəkkürün təməli isə, duyğular və qavrayış prosesidir. Duyğu prosesi yarandıqdan sonra təfəkkür prosesi fəaliyyətə keçir. Təfəkkür duyğu və qavrayışdan daha mürəkkəb idrak prosesidir. Təfəkkür nəticəsində biz reallığın fərqinə daha dərinliklə vədəqiqliklə vara bilirik. Bəzən insanşüurubütün hadisələri dərk edib qavramır.Bu səbəbdən texnoloji avadanlıqlardan və texniki cihazlardan istifadə olunur. Beləliklə,əldə edilən təcrübə nəticəsində təfəkkür prosesidaha da sürətli inkişaf edir.

Ədəbiyyat

1. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: 2008

2. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı, Maarif, 1967

3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik."Çinar-çap", Bakı: 2002

4. Əlizadə Ə.Ə. İdrak prosesi və hisslər. Bakı: 2006, 331 s.

5. Əlizadə Ə.Ə., Həmzəyev.M.Ə. Pedaqoji psixologiya. Bakı: ADPU-nun nəşr, 2010

6. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı: Təhsil, 2011

7. Əmrahlı L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı, "Nurlar", Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015

РЕЗЮМЕ

Основная функция процесса независимого мышления - дать человеку возможность получить новые знания. В результате процесса самостоятельного мышления человек на протяжении всей жизни осваивает новую систему знаний. Таким образом, человек, не обладающий достаточными знаниями, не может успешно выполнять определенные действия. По этой причине мышление человека регулируется степенью знаний, которыми он обладает. Конечным результатом этого процесса является человеческое знание. Знания ценятся как своего рода основной инструмент и источник мышления. В основе мышления лежит процесс эмоций и восприятий.

SUMMARY

The main function of the process of independent thinking is to give a person the opportunity to acquire new knowledge. As a result of the process of independent thinking, a person acquires a new system of knowledge throughout his life. Thus, a person who does not have enough knowledge cannot perform certain activities successfully. For this reason, a person's thinking is regulated by the degree of knowledge he possesses. The end result of this process is human knowledge. Knowledge is valued as a kind of basic tool and source of thinking. The basis of thinking is the process of emotions and perceptions.

Yusifova Esmira Fikrət qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos. Heydərova Simnarə

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ ŞƏXSİYYƏTİN İNKİŞAFINA TƏSİR EDƏN PSİXOLOJİ AMİLLƏR

Açar sözlər: *şəxsiyyətin formalaşması, məktəbəqədər yaş dövrü, uşaq psixologiyası*
Ключевые слова: *формирование личности, дошкольный возраст, детская психология*
Key words: *personality formation, preschool age, child psychology*

Məktəbəqədər yaş dövrü uşaqda fiziki, psixofizioloji, eyni zamanda şəxsiyyət sahəsində inkişaf etmənin keyfiyyətcə dönüş dövrü hesab edilir. Həmin dövrdə uşağın fiziki inkişaf prosesiilk növbədə diqqəti cəlb etməkdədir.

İnsan öz inkişafında fərqli yaş dövrlərindən keçir, hər bir dövrün özü şəxsiyyətin inkişafı üçün müəyyən təsirlər göstərir. Bu yaşdakı uşaqlarda bir sıra psixoloji xüsusiyyətlər özünü büruzə verir: duyğu, qavrama, ağıl və nitq inkişaf edir. İdrak maraqları çoxalır, uşaq hər şeyi öyrənmək üçün can atır, böyüklərinə çoxlu suallar yönləndirir [1, s. 64].

Şəxsiyyətin əsası erkən uşaqlıq zamanı qoyulur. Məktəbəqədər yaş dövründə uşağın həm hərəkəti, həm də sosial inkişafı üçün önəmli bir dövrdür. Uşağın sosial inkişaf etməsi cəmiyyətin adət-ənənələri və mədəniyyətini bilməsi, cəmiyyət üzrə özünəməxsus yer etməsidir. Əlavə etmək gərəkdir ki, körpəlik dövründə uşaq böyüklərlə ilk ünsiyyətini qurur, onlara inanır, öz bədəni və hərəkətlərini idarəyə başlayır, nitqini hazırlayır və sözlərlə bəzəyir. Uşaqda sosial inkişafın formalaşması üçün ona və onun maraqlarına xüsusi diqqət yetirmək, zaman ayırmaq gərəkdir.

Şəxsiyyətin təşəkkül tapması onun sosiallaşması, uşağın əməli, idraki fəaliyyəti, iradi-emosional sahəsi, fərdi psixoloji xüsusiyyətləri və ictimai münasibətlərini əhatələyən mürəkkəb və çoxcəhətli proses hesab edilir. Sözügedən inkişafın özü elmin obyektiv və ümumi qanunlarına müvafiq şəkildə cərəyan edir. Hər bir ziddiyyət şəxsiyyəti inkişaf etdirə bilmir. Şəxsiyyəti onun aktivliyinin mənbəyi olan tələblərin ödənilməsi zamanı yaranan ziddiyyətlər inkişaf etdirir, həmin ziddiyyət şəxsiyyətin inkişaf etməsinin hərəkətverici mexanizmini təşkil etməkdədir [3, s. 49]

Uşaqda psixikanın inkişaf etməsi onun ətraf mühiti əksetdirmə fəaliyyətinin dəyişməsi və varlığın lap dərindən inkişaf etməsindən ibarətdir. Sözügedən prosesdə uşaqda idrak fəaliyyəti getdikcə mürəkkəbləşir: varlığın xarici xüsusiyyətlərini əks etdirmədən onun məna-

sını əks etdirməyə və maddi olandan ideala keçir. Yaş mərhələləri üzrə baş verən kəmiyyət dəyişmələrinin hər birindən keyfiyyət dəyişmələrinə keçmə özünü lap aydın göstərir. Psixi inkişaf nəticəsində uşaqda onu əhatə edən hər şeyə və özünə olan münasibət də dəyişir və onun fəaliyyəti, hərəktləri get-gedə formalaşır.

Şəxsiyyətin formalaşması üçün müsbət amillər təsir edir. Qeyd edilən amillərin təsir dərəcəsi belə fərqlidir. Şəxsiyyətin formalaşması ayrı-ayrı dövrlərdə aktual olmuş, hazırda aktual şəkildə qalmaqdadır. Şəxsiyyətin inkişaf etməsinətəsir edən amilləri araşdırmaq məqsədilə onun istiqamətlərini müəyyənləşdirmək lazımdır. Məktəbəqədər yaş dövründə uşaqların tərbiyəvi təsir mühitində psixi fəaliyyətlərinin qanunauyğunluqları, uşaqların özünü tərbiyəsi və psixoloji əsaslarını müəyyən etməklə tərbiyə psixologiyası şəxsin formalaşmasına imkan verən bu təsirlərin mexanizmləri də öyrənilməkdədir. Şəxsiyyətin təşəkkülü və formalaşmasında inteqrativ sistemlərin yeri müəyyən qədər öyrənilsə belə onun şəxsiyyət olaraq formalaşmasında önəmli əhəmiyyət kəsb edən özünügerçəkləşdirmək sistemli olmamışdır [6, s. 91].

Əsasən, məktəbəqədər yaş dövrün üç yarımdövrə bölürlər: kiçik bağça yaşdövrü (3-4 yaşarası), orta bağça yaş dövrü (4-5 yaşarası), böyük bağça yaş dövrü (5-6 yaşarası) [4, s. 26].

Məktəbəqədər yaşlı uşaqda iradəzəif olur: onda yamsılamaq güclüdür və təsir altına tez düşə bilir. Yaşlıların, xüsusilə valideynlərin pozitiv nümunəsi və sözü uşaq üçün böyük önəm kəsb edir. Oynamaq, idman, əmək, rejimin özü də iradəni möhkəmlətmək və çətinlikləri aradan götürməkdə kömək göstərir.

3-6 yaşlı uşaqlarda hissi-emosional aləm zəngin olur. Onların əksəriyyəti şən oyunlar, əyləncələr, nağıllar və yumoru xoşlayırlar. Onların təsiri nəticəsində uşaqlarda əxlaqi-estetik duyğular formalaşır.

Bu yaşdakı uşaqlarda xarakterin əsası qoyulur. Uşağı hədsiz şəkildə əzizlədikdə, ona hər zaman güzəştə getdikdə, yersiz (şıltaq) tələbini ödədikdə onda eqoizm, şıltaq olma, kobud olma, ərköyün olma və dəcəl olma baş qaldıra bilər. Bunun qarşısın almaq məqsədilə uşağa qarşı hörməti və tələbkarlığı uzlaşdırmaq gərəkdir[5, s. 78].

Uşaqlarda qabiliyyətlərin ilkin əlamətləri özünü göstərir (musiqi hissi, rəsm, rəqs və b.). Onları zamanında müəyyən etmək və inkişaf etməsi üçün qayğı göstərmək önəmlidir.

3 yaşındakı uşaqlarla böyüklərin münasibətində bir sıra çətinliklər yaranır: uşaq azadlığa can atır və hər şeyi özü sərbəstcə etmək istəyir ("Mən, yəni özüm"), valideynlər də onun azadlığını məhdudlaşdırır, əksər şeyi qadağan edirlər. Uşaq tərslik edir və hər şeyi tərsinə etmək üçün çalışır. Bununla belə o, böyüklərin tələbinə öz mənfi münasibətini bildirir. Psixoloqlar bunua "3 yaş böhranı" deyirlər. Valideynlər uşağa bir az sərbəstlik verməli, uşağı fərqli növ oyunlar üzrə cəlb etməli, onunla biryerdə oynamağa çalışmalıdırlar.

Məktəbəqədər yaşda başlıca fəaliyyət növü oyun hesab edilir. Uşaq oyunlarına rəhbərlik edərkən diqqət etmək lazımdır ki, oyun ancaq əylənmək vasitəsi olmasın; uşaq oyun zamanı həyatı öyrənsin, tərbiyə edilsin və psixi baxımdan inkişaf etsin.

Məktəbəqədər dövr uşağın fəaliyyət subyekti kimi formalaşmasının ilk mərəhələsi olaraq özünü büruzə verir. Məqsədəyönəlişliyin əsası qoyulmaqdadır. Böyüklərin qiymətləndirməsi ilə nəzarətinin təsiri nəticəsində bağça yaşının sonu uşaqlar öz davranış və fəaliyyətlərindəki qüsurları anlamağa başlayırlar. Bununla bağlı təqlid obyektləri konkretləşməyə başlayır. Məktəbəqədər yaş dövrü üzrə ümumi, o cümlədən xüsusi qabiliyyətlərin formalaşması perspektivləri yaranır və özünü büruzə verməyə başlayır [2, s. 47].

Aydındır ki, insanlar dünyaya bir fərd olaraq gəlir və ictimai əlaqələr sistemində şəxsiyyət olaraq formalaşır. Burada tərbiyənin özü həlledici rol oynayır. Bunun üçün də uşağın bir şəxsiyyət olaraq formalaşması zamanı mənbələri, mühiti bilmədən tərbiyədəki psixoloji mexanizmi açmaq qeyri-mümkündür. Müasir psixologiyada bu cür bir cəhət önəmli sayılır ki, şəxsiyyət öz aktivliyini ətraf mühitlə qarşılıqlı təsir zamanı fəaliyyətdə özünü göstərir. Şəxsiyyətin formalaşmasının əsasını onun tələbatı təşkil etməkdədir.

Ədəbiyyat

1. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı-2005.
2. Əliyev R. İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı-2000.
3. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı-2008.
4. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı-2002.
5. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası. Bakı-1986.
6. Quliyev E.M.Uşaq psixologiyası. Bakı-2013.

Психологические факторы, влияющие на развитие личности в дошкольном возрасте

РЕЗЮМЕ

Дошкольный возраст является переломным моментом в развитии ребенка как физически, так и психологически и лично. Физическое развитие ребенка в этот период представляет первостепенный интерес. В статье исследуется тот факт, что дошкольный возраст является важным периодом как в поведении, так и в социальном развитии ребенка. Социальное развитие ребенка - это знание обычаев, традиций и культуры общества и их специфического места в обществе.

Развитие психоделического у ребенка является признаком глубокого развития осознанности, от меняющейся активности размышлений об окружающем его мире. В этом процессе познавательная деятельность ребенка постепенно становится более сложной: без размышлений о неотъемлемых аспектах болезни она переходит от размышлений о сущности ума к реальному. Переход от количественных изменений к качественным изменениям на более молодых этапах очевиден. В результате психоанализа отношения между теми, кто его обнимает, и отношением ребенка к воздуху меняется, и его активность и прогресс постепенно улучшаются.

Psychological factors influencing personality development in preschool age

SUMMARY

Preschool age is a turning point in the development of the child both physically and psychologically and personally. The physical development of the child during this period is of primary interest. The article explores the fact that preschool age is an important period in both the behavior and social development of a child. The social development of a child is the knowledge of the customs, traditions and culture of the society, and their specific place in society.

The development of the psychedelic in the child is a sign of the profound development of awareness, from the changing activity of reflecting on the world around him. In this process, the child's cognitive activity progressively becomes more complex: without reflecting on the inherent aspects of the disease, it goes from reflecting on the essence of the mind to the real. The transition from quantitative changes to qualitative changes in the younger stages is clearly evident. As a result of psychoanalysis, the relationship between those who embrace it and the attitude of the child in the air is changing, and its activity and progress are gradually improving.

Yusifova Esmira Fikrət qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Elmi rəhbər: dos. Heydərova Simnarə

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA AİLƏ VƏ BAĞÇANIN BİRGƏ FƏALİYYƏTİ

Açar sözlər: *valideyn, bağça, birgə fəaliyyət, inkişaf*
Ключевые слова: *родитель, детский сад, совместная деятельность, развитие*
Key words: *parent, kindergarten, joint activity, development*

Atalar və analar, uşaq bağçasının yalnızuşağın tərbiyəsində köməkçi olduğunu unutmamalıdırlar, buna görə bütün məsuliyyəti müəllimlərə yükləməməli və təhsilprosesindən uzaq olmamalıdırlar.

Valideynlər həmişə köməyə gələ biləcək ən yaxın insanlardır və müəllimlər onların köməyinəehtiyac duyurlar. Uşaqların təhsil fəaliyyətinin təşkilindətərbiyədəkinümunənin dəyəri, uşaqların sağlamlığının yaxşılaşdırılması üçün tədbirlər, şüurlu intizam, vəzifəvə məsuliyyət tərbiyəsi, ailə tərbiyəsindəki tipik çətinliklər və çatışmazlıqlar və onların aradanqaldırılması yolları, uşaqların öz-özünə tərbiyəsində valideynlərin rolu böyükdür.

Məktəbəqədər təhsil müəssisəsinin qarşısında duran yeni vəzifələr onun açıqlığını, sıx əməkdaşlıq və təhsil problemlərini həll etməyə kömək edən digər sosial qurumlarla qarşılıqlı əlaqəni nəzərdə tutur. İndiki mərhələdə uşaq bağçası tədricən açıq bir təhsil sisteminə çevrilir: birtərəfdən, məktəbəqədər təhsil müəssisəsinin pedaqoji prosesi, digər tərəfdən müəllim heyəti tərəfindən daha sərbəst, çevik, fərqləndirici, insani xarakter alır, müəllimlər valideynlər və ən yaxın sosial qurumlarla əməkdaşlıq və qarşılıqlı fəaliyyətə rəhbərlik edirlər [1,s.64].

Məktəbəqədər təhsil müəssisəsində valideynlərin vahid uşaq inkişafı məkanına cəlb olunmasıproblemi üç istiqamətdə həll olunur:

1. Ailə ilə qarşılıqlı əlaqəni təşkil etmək, müəllimləri valideynlərlə yeni iş formaları sistemi ilətanış etmək üçün məktəbəqədər təhsil müəssisəsi komandası ilə işləmək.

2. Valideynlərin pedaqoji mədəniyyətinin yaxşılaşdırılması.

3. Valideynlərin məktəbəqədər təhsil müəssisəsinin fəaliyyətinə cəlb edilməsi, təcrübə mübadiləsi üçün birgə iş [3,s.49].

Məktəbəqədər uşaq üçün əhəmiyyətini qiymətləndirmək mümkün olmayan iki sosiallaşma institutunun qarşılıqlı əlaqəsi qurulacaqdır. Bu qurumlar ailə və məktəbəqədər təhsil müəssisəsidir. Effektivliyin qiymətləndirilməsi meyarları uşağın məktəbə ümumi inkişafı və hazırlığı, öyrənmə səviyyəsi olacaqdır. Bundan əlavə, ünsiyyət bacarıqları, məsələn, yaşıdları və böyüklər ilə münaqişəsiz ünsiyyət texnikasınayiyələnmək çox vacibdir.

Bir uşaq başqaları ilə təmkinli bir şəkildə qarşılıqlı əlaqə qurursa, gündəlik ünsiyyətdə problemiyoxdursa, ətrafdakı dünya hadisələri ilə çox maraqlanır, müstəqil olaraq biliklərini artırmağaçalışır, kömək üçün böyüklərə müraciət edirsə, uşaq düzgün istiqamətdə inkişaf edir. Nəticəninyalnız müəyyən bir müddətdən sonra, artıq ibtidai sinifdə görünəcəyi aydındır. O zamanməktəbəqədər təhsil və ailə təhsilinin effektivliyini tam qiymətləndirmək mümkün olacaqdır [5,s.91].

Sosial təhsil müəssisəsinin əsas funksiyalarını yerinə yetirən uşaq bağçası şagird ailəsinə dəstək verir. Uşaq bağçasından yardım və dəstəyin verilməsi, güvən və işbirliyi qurmadan mümkün deyil. Ailə və ailə təhsili də uşağın böyüməsi prosesində əsas rollardan birini oynayır. Valideynlər uşağın şəxsiyyətinin yaradıcılarıdır və uşaq valideynlərindən ona ötürülən biliklərlə dolu bir növ qabdır. Uşaq ətrafdakı dünya haqqında bütün ilkin məlumatları ailədə öyrənir. Uşağın dünyaya ən açıq olan dövrü məktəbəqədər uşaqlıq dövrüdür. Yaxşıları və pisləri qavrayır, böyüklərin köməyi ilə onu əhatə edən bir çox obyekt və fenomen haqqında öz nəticələrini və mühakimələrini verməyə çalışır. Valideynlər və uşaqlar arasındakı münasibət sosiallaşmanın həlledici anıdır.

Yalnız ilk köməkçilər deyil, həm də təhsil və tərbiyə prosesinin fəal iştirakçıları olan valideynlərdir. Ancaq bütün ailələr inkişaf psixologiyası, pedaqogika sahəsindəki təhsilləri səviyyəsində uşağa təsirini dərk edə bilərlər ki, bu da onun inkişafına mütləq müsbət təsir göstərəcəkdir. Valideynlər tez-tez evdə uşaqları ilə birlikdə təhsil almaq üçün kifayət qədər boş vaxt tapa bilmədikləri müəyyən çətinliklərlə qarşılaşırlar, bacarıqlarına arxayın deyillər. Bir çox valideynin uşaq yetişdirmə məsələlərini həll etməkdən özlərini kənarlaşdırma mövqeyinə tez-tez rast gəlirik. Valideynlərin müəyyən bir hissəsi gündəlik həyati qayğılarla məşğuldur, məktəbəqədər yaş dövrünü onlardan xüsusi təhsil səyləri tələb etməyən bir vaxt kimi qəbul

edirlər və bu cür valideynlər tərbiyə işini məktəbəqədər təhsil müəssisəsinə verirlər və evdən uşağı bağçaya əmanət edirlər.

Digər tərəfdən, valideynlər məktəbəqədər təhsilmüəssisəsinin müəllim heyəti ilə ünsiyyətə maraqlı olmalıdır ki, unutmadan, tərbiyə və uşaqların təhsilinə qayğı göstərə bilsinlər. Valideynlərin pedaqoji fəaliyyət sahəsinə cəlb edilməsi, tərbiyə və təhsil prosesindəmaraqlı iştirakı öz övladı üçün mütləq lazımdır [2,s.26].

Buna əlavə olaraq, övladınızın böyüməsi və inkişafı prosesində iştirak etməməyin və ya istəməməyin daha çox səbəbi var. Bu cür hallarda müəllim heyəti ortaya çıxan problemlərin həllində çox səriştəli olmalıdır. Tərbiyəçi bütün sonrakı həyatının uşaq və valideynləri ilə əlaqəlihərəkətlərindən asılı olduğunu bilməlidir. Bəs bir tərbiyəçi valideynlərin təhsil prosesində daha çox iştirakını və fəaliyyətini necə təşviq edəbilər? Bir uşağın böyüməsində müəyyən çətinliklərin yaranmasına səbəb olan səbəbləri müəyyənetdikdən sonra müəllim onu həll etməyə yönəlmiş tədbirlər sistemi inkişaf etdirməlidir. Burayayalnız ailə ilə ənənəvi qarşılıqlı əlaqə formaları, məsələn, valideyn-müəllim iclasları, təkbətəksöhbətlər, açıq qapı günləri deyil, yeniləri də daxil edilməlidir. Xüsusi təlimlər, ustad dərsləri, qeyri-rəsmi söhbətlər qeyriənənəvi qarşılıqlı əlaqə formalarına çevrilə bilər. Bu cür qarşılıqlı əlaqətərbiyəçinin ailənin və uşağın problemlərini daha yaxşı başa düşməsinə kömək edəcək vəvalideynlər də öz növbəsində müəllimə daha çox inam göstərə biləcəklər.

Aydındır ki, sosiallaşmanın ilkin qurumları olan ailə və uşaq bağçasıdır. Aralarındakı düzgünqurulmuş qarşılıqlı əlaqə təhsil prosesinin effektivliyini dəfələrlə artıra bilər. Əksinə, müəllimlərləvalideynlər arasında mövcud olan ziddiyyətlər, ictimailəşmədə çətinliklər və məktəbə hazırolmamaq kimi arzuolunmaz nəticələrə səbəb ola bilər. Ailə və uşaq bağçası qarşılıqlı əlaqəni eyniistiqamətdə qurmalıdır. Bu qarşılıqlı əlaqənin məqsədi uşağın inkişaf etmiş şəxsiyyəti olmalı vəbütün təhsilprosesi humanistləşdirmə prinsipi əsasında qurulmalıdır.

Məktəbəqədər təhsilmüəssisəsi uşaqların tərbiyəsi, uşağın bənzərsiz insan fərdiliyini məqsədyönlü şəkildə inkişaf etdirməyə, mənəviyyatının və yaradıcılıq güclərinin yaxşılaşdırılmasını və böyüməsini təmin etməyə çalışır. Uşaq bağçası və ailənin bir-birinə kömək etməsi hər şeydən əvvəl uşağı, tərəflərin hər birinin təsirinin ona necə təsir edəcəyini düşünməlidir, bu səbəbdən qarşılıqlı təsir bir-birinə inam, hörmət və qarşılıqlı yardım olmaq şərti ilə qurulmalıdır. Yalnız bundan sonra, birgə səylər nəticəsində ailə və uşaq bağçası parlaq nəticələr əldə edə biləcəklər. Tərbiyə prosesi ciddi bir gündəlik işdir və müvəffəqiyyətlə həyata keçirilməsi üçün səy, əzm və təbii ki, uşaqlara olan sevgi lazımdır.[4,s.47]

Ailə və uşaq bağçası bir uşağın böyüməsində ümumi vəzifələrlə əlaqələndirilir. Bu səbəbdən burada paralellik prinsipi deyil, iki sosial qurumun - ailə və uşaq bağçasının bir-birinə nüfuz etməsi prinsipi vacibdir. Ailə və uşaq bağçası, hər biri özünəməxsus şəkildə uşağa sosial təcrübəqazandıran iki təhsil hadisəsidir, ancaq yalnız bir-biri ilə birləşərək kiçik bir insanın böyük dünyaya girməsi üçün optimal şərait yaradırlar.

Ədəbiyyat

1. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı-2005.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı-2008.
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı-2002.
4. Qədirov Ə.Ə., Məmmədov İ.N. Yaş psixologiyası. Bakı-1986.
5. Quliyev E.M.Uşaq psixologiyası. Bakı-2013.

Совместная деятельность семьи и детского сада в формировании личности дошкольников

РЕЗЮМЕ

Ввиду всего этого, для правильного воспитания детей в семье родителям следует постоянно находиться на связи с детским садом и своевременно обращаться за консультацией к воспитателям. Детский сад - общественная организация. Здесь воспитанием

ребенка занимаются квалифицированные люди-специалисты. Задача воспитателей в процессе обучения в детском саду - это, прежде всего, привить детям глубокую личную веру в нравственные принципы и привычки.

Совместная деятельность семьи идетского сада всегда должна поддерживаться вформировании личности дошкольников, а занятия, которыемогут быть полезны детям с использованием современныхподходов и методов, должны использоваться. В этом случаеличность ребенка будетразвиваться нормально и первыешаги в школе будут более успешными.

Joint activity of family and kindergarten in the formation of the personality of preschool children

SUMMARY

In view of all this,for the proper upbringing of children in the family, parents should be in constant contact with the kindergarten and seek advice from teachers in a timely manner. The kindergarten is a public organization. Here the child's education is carried out by qualified people-specialists. The task of teachers in the process of education in kindergarten is, above all, to instill in children a deep personal belief in moral principles and habits.

The joint activities of the family and the kindergarten shouldalways be kept alive in the formation of the personality of preschool children, and activities that can be useful to children using modernapproaches and methods should be used. In this case, the child's personalitywill develop normally and the first steps in school will be more successful.

Quliyeva Səidə
Naxçıvan Müəllimlər İnstitutu, magistr, II kurs

PEDAQOJİ PROSESDƏ DESTRUKTİV KONFLİKTLƏRİN YARANMASINA TƏSİR EDƏN AMİLLƏRİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *pedaqoji proses, münaqişə, psixologiya, pedaqoji-psixoloji əsaslar, həlli yolları*

Məqalənin aktuallığı: Pedaqoji proses xüsusi fəaliyyət növü olmaqla hər zaman cəmiyyətin diqqət mərkəzindədir. Cəmiyyətə yararlı şəxsiyyətlərin formalaşmasını təmin edən pedaqoji prosesdə yaranan çətinliklər, onların həlli yolları cəmiyyətin yaşlı üzvlərini, pedaqoq və psixoloqlarını davamlı olaraq düşündürür. Çünki, dövrü inkişaf və bu inkişafın yaratdığı təsir mexanizmləri pedaqoji prosesin qurulması işinə yeni yanaşmanı tələb edir.Pedaqoji proses canlı mexanizm olaraq olduqca mürəkkəb quruluşa malikdir. Öyrədənin və öyrənənin fərdi psixoloji xüsusiyyətləri, ailənin təhsilə münasibəti, yeni təsir amilləri bu prosesin təşkilində müəyyən mənada çətinliklər yaradır. Çətinliklər münaqişələrə, münaqişələr isə pedaqoji prosesin təşkilini və qarşıya qoyulmuş məqsədlərin icrasını zədələməklə işin gedişinin gecikməsinə səbəb olur. Pedaqoji prosesdə münaqişələrin yaranmasına təsir edən amillər və bu amillərin aradan qaldırılmasının pedaqoji-psixoloji əsaslarının öyrənilməsinin nə qədər önəmli və həlli vacib bir məsələ olduğu öz aktuallığı ilə göz önündədir.

"Pedaqoji proses, yəni təlim, tərbiyə, təhsil və psixoloji inkişaf ayrı-ayrı adamların istək və arzularından asılı olmayan obyektiv proseslərdir: özü də öyrədən və öyrənənlər arasında, tərbiyəçi ilə tərbiyə olunanlar, müəllimlə şagirdlər arasında baş verən və şəxsiyyətin formalaşmasına yönələn proseslərdir "[3, s. 9].

"Təlim, tərbiyə və təhsil və psixoloji inkişafa dair biliklər böyük inkişaf yolu keçmişdir. Pedaqogika bir elm kimi çex pedaqoqu Yan Amos Komenskinin adı ilə bağlıdır. İlk dəfə Y.A.Komenski təlim, tərbiyə və təhsil məsələlərini elmi zəmində izah etməyə, əsaslandırmağa təşəbbüs göstərmişdir " [3, s. 7].

“Pedaqogika üzrə elmlər doktoru, professor Nurəddin Kazımov qeyd edir ki, “Pedaqoji prosesdə ziddiyyətlər pedaqoji elmin köklü məsələlərindən biridir. Bu ziddiyyətlər nəninki pedaqoji prosesin hərəkətverici qüvvəsini, eyni zamanda onun səmərəliliyini azaldan amillərdən biridir “ [3, s. 46].

Pedaqoji və psixoloji ədəbiyyatda münaqişə konflikt anlayışı içərisinə daxil edilir. Konfliktin əsasını qrupun müəyyən üzvləri arasında müxtəlif səviyyələrdə dərk edilən obyektiv və subyektiv ziddiyyətlər təşkil edir. konfliktə girən adamlar onu həmişə emosional halətlər fonunda həll etməyə təşəbbüs göstərirlər.

Konflikt şəraiti anlayışı isə konflikt anlayışına nisbətən daha genişdir: “konflikt şəraiti dedikdə konfliktin özü ilə yanaşı onu şərtləndirən bütün səbəblər və şərtlər nəzərdə tutulur” [1, s. 297].

Pedaqoji proses şəxsiyyətlərarası münasibətlərin quruluşu və xüsusiyyətləri baxımından daha mürəkkəbdir. konfliktlər üfiqi və şaquli olmaqla səciyyələndirilə bilər. Üfüqi konfliktlərə əsasən bərabər hüquqlu və ya xidmət vəzifəsinə görə bir-birindən asılı olmayan kollektiv üzvləri arasında baş verən konfliktlər aiddir. Şaquli konfliktlərə isə işçi-rəhbər və bu və ya digər dərəcədə bir-birindən asılı münasibətlərdə yaranan konfliktlər aid edilir [1, s. 297]. Pedaqoji prosesdə yaranan konfliktlər şaquli xətt üzrə direktor-müəllim, direktor-texniki heyyət, dərs hissə müdiri-müəllim, müəllim-şagird, müəllim-valideyn, direktor-ümumilikdə bütün kollektiv, üfüqi xətt üzrə müəllim-müəllim, şagird-şagird, texniki heyyət-müəllim, texniki heyyət-şagird və s. kimi səciyyələndirilə bilər. Sadaladığımız məktəbdaxili münasibətlər sistemi pedaqoji prosesdə yarana biləcək münaqişə şəraitinin mürəkkəbliyini ifadə edir.

Yaranan konfliktlər öz mahiyyəti və məzmunu baxımından konstruktiv, yaradıcı, işgüzar və ya destruktiv xarakter daşıya bilər. Konfliktin konstruktiv funksiyası kollektivin inkişafının mənbəyinə çevrilir, yeni məqsədlərin, normaların, sərvətlərin və s. yaranması ilə nəticələnir. Əksinə, əgər konflikt kollektivdə münasibətləri pozur və onun işini zəiflədirsə, qrup həmrəyliyini aşağı salırsa,bu zaman o öz işinin funksiyası baxımından destruktiv xarakter daşıyır [1, s. 297]. Biz tədqiqatımızda pedaqoji prosesdə şəxsiyyətlərarası münasibətlər zamanı yaranan destruktiv konfliktlər, onların yaranma səbəblərini müasir təsir amilləri əsasında tədqiq etmiş və bu konfliktlərin həlli yollarının pedaqoji-psixoloji əsaslarını müəyyən etməyə çalışmışıq.

Apardığımız məktəbdaxili anket sorğuları və müşahidələr əsasında müasir dövrdə pedaqoji prosesdə destruktiv konfliktin yaranmasına təsir edən amilləri aşağıdakı kimi səciyyələndirmək mümkündür:

1. Kollektiv üzvlərinin şəxsi keyfiyyətləri baxımından.
2. Pedaqoji prosesin təşkili və gedişinə təsir edən müasir amillər baxımından.

Kollektiv üzvlərinin şəxsi keyfiyyətləri baxımından səciyyələndirərkən aşağıdakı səbəblər özünü göstərir:

- direktorun yersiz tələbləri ;
- direkorun kollektivi idarəetmə bacarığının aşağı olması;
- direktorun kollektivdə şəxsi nüfuzunun aşağı olması;
- direktorun şəxsi marağı;
- dərs hissə müdirinin qeyri-obyektiv yanaşması;
- müəllimin pedaqoji-psixoloji ustalığının olmaması;
- müəllimin ixtisas biliklərinin zəif olması;
- müəllimin peşəyə uyğunsuzluğu;
- kollektivdə şəxsi maraqların üstünlük təşkil etməsi;
- şagirddə təhsilə qarşı formalaşdırılan mənfi münasibət;
- texniki heyyətin pedaqoji-psixoloji savadsızlığı və s.

Pedaqoji prosesin təşkili və gedişinə təsir edən müasir amillər baxımından səciyyələndirərkən:

- valideynlərin məktəbə və təhsilə münasibəti;

- internet və sosial şəbəkələrin pedaqoji prosesin təşkilinə təsiri;
- kütləvi informasiya vasitələrində yayılan məlumatların təsiri ;
- məktəbin müasir dövrün tələblərinə cavab verməyən maddi-texniki bazasının olması;
- müəllimin İKT biliklərinin azlığı və s.

Sadalanan amillər pedaqoji prosesin hərəkətverici qüvvəsini və səmərəliliyini azaltmaqla qarşıya qoyulmuş məqsədə nail olmaq işini çətinləşdirir. Yəni, məktəblərin ən ümdə vəzifəsi olan savadlı, milli və ümumbəşəri dəyərlərə sahib şəxsiyyətlərin formalaşdırılması prosesini ləngidir.

Məktəblərin öz vəzifələrini düzgün icrası pedaqoji kollektivi təşkil edən hər bir şəxsin səviyyəsi və pedaqoji prosesin səmərəliliyinə təsir edən müasir inkişaf ünsürlərinə dərindən bələd olmasından asılıdır. Bu asılılığı hər bir pedaqoji kollektiv üzvü nəzərə almalı, özünütəkmilləşdirmə proqramlarına qoşularaq istər idarəetmənin, istərsə də peşə keyfiyyətlərinin müasir tələblər baxımından yenilikləri ilə silahlanmalıdır.

Məqalənin elmi yeniliyi: Məqalədə ilk dəfə olaraq pedaqoji prosesdə yaranan və pedaqoji prosesin təşkilində çətinliklərə səbəb olan destruktiv konfliktlərin yaranmasına təsir edən müasir amillərin pedaqoji-psixoloji əsasları verilmişdir.

Məqalənin praktik əhəmiyyəti: Pedaqoji prosesin hər bir üzvü məqaləyə müraciət etməklə pedaqoji prosesdə özünü destruktiv konfliktlərin yaranmasına təsir edən amillərin pedaqoji-psixoloji əsaslarını öyrənməklə özünütəkmilləşdirə və bu konfiliktlərin aradan qaldırılmasına yardımcı ola bilər.

Nəticə:

- Pedaqoji prosesin səmərəli təşkili destruktiv konfliktlərin dərk olunmasından biləvasitə asılıdır.
- Destruktiv konfliktlərin yaranması həm şaquli, həm də üfüqi kollektiv münasibətləri ilə ifadə olunur.
- Destruktiv konfliktlərin mövcudluğu pedaqoji prosesdə qarşıya qoyulmuş məqsədə çatma işini çətinləşdirir.
- Destruktiv konfliktlərin həm pedaqoji, həm də psixoloji səbəbləri mövcuddur.
- Pedaqoji prosesdə destruktiv konfliktlərin yaranmasına təsir edən müasir amillərin pedaqoji-psixoloji əsaslarının öyrənilməsi bu prosesin səmərəliliyinin artırılmasını özündə ehtiva edir.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Bakı, Azərnəşr, 1986.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: "Qapp-Poliqraf" Koorporasiya, 2003, 365 s.
3. Kazımov.N.Məktəb pedaqogikası. Bakı,OKA Ofset, 2008, 436 s.
4. Paşayev Ə., Rüstəmov F., Pedaqogika. Bakı, "Elm və təhsil", 2010, 464 s.
5. Sadiqov F., Pedaqogika. Bakı, "Adiloğlu". 2012, 552 s.

Quliyeva Səidə

Pedaqoji prosesdə konstruktiv konfliktlərin yaranmasına təsir edən amillərin pedaqoji-psixoloji əsasları

XÜLASƏ

Məqalədə pedaqoji prosesdə destruktiv konfliktlərin yaranmasına təsir edən amillərin pedaqoji-psixoloji əsasları verilmişdir. Qeyd edilmişdir ki, pedaqoji prosesin səmərəli təşkili destruktiv konfliktlərin dərk olunmasından bilavasitə asılıdır. Destruktiv konfliktlərin yaranması həm şaquli, həm də üfiqi kollektiv münasibətlərlə ifadə olunur. Destruktiv konfliktlərin mövcudluğu pedaqoji prosesdə qarşıya qoyulmuş məqsədə çatma işini çətinləşdirir. Destruktiv konfliktlərin həm pedaqoji, həm də psixoloji səbəbləri mövcuddur. Pedaqoji prosesdə

destruktiv konfliktlərin yaranmasına təsir edən müasir amillərin pedaqoji-psixoloji əsaslarının öyrənilməsi bu prosesin səmərəliliyinin artırılmasını özündə ehtiva edir.

Ələkbərov Səbuhi Malik oğlu
Naxçıvan Müəllimlər İnstitutu, PNT, I kurs

"MÜXTƏLİF ÜSULLARLA DƏRKETMƏ" NƏZƏRİYYƏSİ VƏ TƏLİMİN TƏŞKİLİNDƏ ONDAN İSTİFADƏ YOLLARI

Açar sözlər: *müxtəlif üsullarla dərketmə, qabiliyyətlər, intellekt, sorğu vərəqi, istedad*
Ключевые слова: *восприятие, способности, интеллект, анкета, талант по-разному*
Key words: *perception, abilities, intellect, questionnaire, talent in different ways*

Dünyada, qısqanmadan insanın özündən daha yaxşı olmasını istədiyi təkcə varlıqöz övladıdır. Hər ana-ata övladının çoxqabiliyyətli olmasını istəyir. Övladlarının çox yaxşı təhsilalması və uğur qazanması üçün, ana-atalar hər cür çətinliyə dözürlər. Bəs qabiliyyət nədir?

Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətləri olub müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtini təşkil edir və onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur. [1,423]

Mütəxəssislər müəyyən etmişlərki,insanların anadangəlmə təbii imkanları eyni deyildir.Lakin təxmini olaraq mütəxəssislər qabiliyyəti 35% ana və atadan alınma yoluyla, 20% ananın hamiləlikmüddətində,45% isə doğuşdan sonra uşaqların böyüdükləri mühitlə əlaqələndirirlər. Uşağın qabiliyyətinin inkişafı ana və atanın onlara hazırlamış olduğu imkanlarla əlaqəlidir. Ananın hamiləlik dövrünün yaxşı, gözəl, və yastresli, gərgin yaxud, münaqişə şəraitində keçməsi, körpənin fiziki və əqli inkişafına güclü təsir edər.[1,426]

İlk öyrənmə qabiliyyəti yüksək olan uşaqları ana-atalar istiqamətləndirir. Onların uşaqlara hazırlayacaqları mühit, göstərəcəkləri sevgi və yaxınlıq, ayıracaqları zaman verdikləri tərbiyə uşaqların ilk öyrənməqabiliyyətlərinin yüksəkolmasına həqiqimənada təsir edir.

Hələ XIII əsrdə şərqin böyük mütəfəkkiri N.Tusi "Əxlaqi-Nasiri" əsərində uşağın psixi inkişafında tərbiyə mühitinin rolunu belə aydınlaşdırmışdır. "Onların hərəsində öz məcazlarına uyğun hallar təzahür edir. Ona görə bəziləri xeyirxah, bəziləri bədxah olurlar. Nəsihət, məsləhət, təlim, tərbiyə ardıcıl olsa və ədalətli tənbehlə əlaqələndirilsə nəticəsiz qalmaz" [2,56]

Pedaqoq-psixoloqların uşaqlar üzərində apardıqları eksperimentlər zamanı, uşaqdakı emosional inkişafınvə şəxsiyyətin formalaşmasının, ana-ata davranışlarından son dərəcə təsirləndiyiniortaya çıxarmışdılar.

Ana-atalar əsasən uşaqlarının çox ağıllı olduğunu, ancaq bəzi dərsləri yaxşı mənimsəmədiklərindən narazı qalırlar. Oyun oynayarkən bütün dostları tərəfindən onun seçildiyini, dostluqda çox bacarıqlı olduğunu, ancaq dərslərinə hazırlaşmadıqlarını söyləyirlər. Bəzi uşaqların riyaziyyatdan çox qabiliyyətli olduğunu, ancaq xarici dildən istənilən nəticəni əldə edə bilmədiyindən narazılıq edərlər. Deyilənlərə baxılarsa, bu uşaqlar ağıllıdırmı? Ya da hansı sahədə daha qabiliyyətlidirlər? Ana-atalar istəyirlər ki, övladları dünyanı dərk etsinlər. Ona görə yox ki, dünya möhtəşəmdir və insanın beyni həmişə bu barədə düşünür. Uşaqlarının dünyanı dərk etməsini ona görə istəyirlər ki, onların yer kürəsindədaha yaxşı yaşamaqimkanları olsun. Dərketmə bacarığı vasitəsilə biz bu qəribəliklərlə doludünyada yaxşılıq və pislikləri anlasınlar.

Harvard Universitetinin professoru, Novard Qardnerin "Əqlin çərçivəsi. Müxtəlif üsullarla dərketmə nəzəriyyəsi"adlı işi bu baxımdan çox əhəmiyyətlidir. Onun araşdırmalarına görə, hər bir insan irsiyyətə dayanan səkkiz qabiliyyətin daşıyıcısıdır. Bunlardan bəzisi uşaqlarda özünü qabarıq şəkildə biruzə verir, bəziləri isə zəif şəkildə inkişaf edir. Qardnerə görə hər bir uşaqda fərdi qabiliyyətlər mövcuddur. Bu qabiliyyətlər aşağıdakılardır:

1. Söz-danışıq qabiliyyəti (linqvistik qabiliyyət): Oxu və yazıda sözlərdən təsirli və ağıllı şəkildə istifadə etmə qabiliyyəti və bacarığıdır. Şairlər, yazıçılar, jurnalistlər və siyasətçilər bu cür uşaqların arasından çıxır.

Belə uşaqların söz ehtiyatları çoxdur. Nağıl, hekayə, lətifə danışmaqdan çox zövq alırlar. Oxumağı, söz oyunlarını və tapmaca tapmağı sevirlər.

2. Məntiqi-riyazi qabiliyyət: Rəqəmlərdən ağıllı şəkildə istifadə etmək, səbəb-nəticə ala bilmək qabiliyyəti. Elm adamları, riyaziyyatçılar, kompüter proqramçıları məntiqi-riyazi qabiliyyəti olan insanlardır. Onlar hər cihazın necə işlədiyinə maraq göstərir və suallar verir. Riyaziyyat isə ən sevdikləri dərsdir. Dama, şahmat kimi düşündürən oyunları oynamaqdan zövq alırlar.

3.Görmə-canlandırma qabiliyyəti (naturalistik qabiliyyət): Ətrafındakı obyektləri görmə və xəyalında canlandırma qabiliyyətidir. Rəssamlar, memarlar kimi xəyal qurmağı çox sevirlər. Yap-poz, labirint kimi görmə-canlandırma fəaliyyətləri çox xoşlayırlar. Eskizləri, rəsmləri başqa uşaqlara nisbətən daha uğurlu tərtib edirlər.

4. Bədən kinestik qabiliyyət: (fiziki qabliyyət) İnsanın özünü ifadə etməsində, bədən hərəkətlərindən (rəqs, mimika, pantonim) çox yaxşı istifadə edə bilməsidir. Atletlər, aktyorlar, idmançılar, rəqqaslar fiziki qabiliyyəti olan insanlardır.

Məsələn: Fiziki qabiliyyəti yaxşı olan bir futbolçunun digər futbolçulara görə, topa vuruşu, atdığı paslar, oyunun gedişini anlaması daha yüksəkdir. Bu tip uşaqlar daha çox hərəkətlidirlər. Qaçmağı, tullanmağı, güləşməyi sevirlər. Mimika hərəkətlərini çox yaxşı təqlid edirlər. Əşyaları hissələrə ayırıb yenidən birləşdirə bilirlər. Taxta oyma, tikiş tikmə, toxuma, hörmə kimi əl qabiliyyətləri tələb edən işlərdə bacarıqlıdırlar.

"Uşaq, heç oyun oynamadan, ancaq dərs oxuyursa, qanmaz olar"fikri də bu mənada söylənmişdir.

5. Ritmik-musiqi qabiliyyəti: Belə uşaqların səsləri duyma qabiliyyəti çox güclüdür. Bir çoxunun gözəl səsi vardır. Musiqi alətlərində çalmağa həvəslidirlər. Musiqi dinləməyi sevir və dərsdən sonra öyrəndikləri mahnıları oxumaqdan zövq alırlar.

6. Şəxsiyyətlərarası-sosial qabiliyyətlər: Başqalarının əhval-ruhiyyələrini, hisslərini, duyğularını, zövqlərini anlamaq qabiliyyətidir. (Nəsihət verməyi bacaran insan, məsləhətçi, müəllim, siyasi lider)

Liderlik xarakterinə sahib olan uşaqlar, dostları arasındaən məhşur olan uşaqlardır. İctimai işlərdən zövq alırlar. Əyləncə mərkəzlərində, yığıncaqlarda yer tutmağı sevirlər. Yaxın dostları çoxdur. Başqalarına dəyər verir və onlar üçün narahat olurlar.

7. Şəxsiyyətdaxili qabiliyyət - Öz hisslərini təhlil etmək və gördüyü işlər üzərində düşünən, başqalarına diqqət yetirmək və onların fəaliyyətlərini dəyərləndirmək, başqalarının davranışlarını müşahidə etməklə onların duyğularından xəbərdar olmaq bu qabiliyyətəxasolan göstəricilərdir

8. Təbiəti kəşf etmək: Flora və faunanı dərk etmək, ardıcıl şəkildə təbiətdəki fərqləri müəyyənləşdirmək və onlardan səmərəli istifadə etmək bacarığı ilə yanaşı böcəklər, heyvanlar, təbiət hadisələrinə qarşı maraq duyurlar. Təmiz və yaşıl ətraf aləm onlar üçün cox dəyərlidir. [3,16]

Valideynlər və müəllimlər hər bir uşağaöz dərketmə qabliyyətini yoxlaması üçün aşağıda qeyd olunan şəkildə sorğu vərəqlərindən istifadə edə bilərlər. Sorğu vərəqi aşağıdakı kimi tərtib edilmişdir.

Linqvistik qabiliyyətə aid:

Uşaqlara öz dərketmələrini ən yaxşı təsvir edən qrafikanı seçməyi tapşırın.

___ Mən**,** həqiqətən də, kitab oxumağı xoşlayıram.

___ Mən radio və ya audiokaset dinləyəndə daha yaxşı yadda saxlayıram, nəinki film və ya televizor izlədikdə.

___Mən krossvord kimi sözlü oyunları xoşlayıram.

___Mən ikimənalılığı, qafiyələri, yanıltmacları xoşlayıram.

___ İngilis dili, sosial elmlər və tarix fənni mənə daha asandı, nəinki riyaziyyat və ya təbiət.

___ Mən maşın sürərkən reklam və elan lövhələrini, yol işarələrini və qeydləri oxumağı xoşlayıram və onları daha tez görürəm.

___ Mən çox vaxt danışıq zamanı eşitdiyimvə ya oxuduğum şeylərə inanıram.

___İnsanlar çox vaxt məndən sözlərin mənasını soruşurlar.

___ Bu yaxınlarda elə bir yazını başa çatdıracağam ki, həmin yazım ilə qürur duyuram.

___*Linqvistik qrafaların cəmi*

Məntiqi qabiliyyətə aid:

___Mən fikrimdə cəld və asanlıqla hesablama apara bilirəm.

___Mən məktəbdə riyaziyyat və təbiət elmlərini xoşlayıram.

___ Mən məntiqi və strateji oyunları oynamağı xoşlayıram (şahmat, şaşki).

___"Əgər olsaydı" kimi təcrübələri keçirirəm (məsələn: "Mən bitkiləri ildə iki dəfə gübrələsəm nə olar?").

___Mən struktur, naxış, ardıcıllıq və ya məntiqi sıralamanı gözləyirəm.

___ Mən bir şeyin necə işləyəcəyi ilə maraqlanıram və yeni elmi kəşfləri izləyirəm.

__ Mən düşünürəm ki, hər bir şeyin rasional izahı vardır.

___Mən abstrakt, aydın və s. mənalar haqqında düşünə bilirəm.

___ Mən insanların dedikləri və ya etdikləri məntiqi mənanı görə bilirəm.

___Mən əşyaların necə hesablandığını, ölçüldüyünü, səciyyələndirildiyini və ya analiz edildiyini görməyi xoşlayıram.

_____ *Məntiqi qrafaların cəmi*

Məkan qraflarının aid:

___Mən gözlərimi yumduqda vizual təsvirləri aydın görə bilirəm.

___ Mən rənglərə qarşı həssasam.

__ Mən çoxvaxt ətrafımdakıları çəkmək üçün kameradan istifadə edirəm.

___Mən vizual tapmaca və oyunları, 3D təsvirləri xoşlayıram.

___ Mənim gecə görmə qabiliyyətimyaxşıdır.

___Mən tanımadığım yerləri tez yadda saxlayıb yolu tapa bilirəm.

___Mən çox vaxt şəkil, ya da cızma-qara çəkirəm.

___ Həndəsə daha asandır, nəinki cəbr

___Mən bir obyektə uzaqdan baxdıqda belə onu təsvir edə bilirəm.

___ Mən çoxlu təsvirlər olan qəzet, kitab və jurnal oxumağı xoşlayıram.

___ *Məkan qrafalarının cəmi*

Bədən/ Kinestik (Lamisə) qabiliyyətə aid

___Mən ən azından idman və yafiziki fəaliyyətlə mütəmadi məşğul oluram.

___ Mən uzun müddəteyni vəziyyətdə otura bilmirəm.

___ Mən əllərimlə işləməyi xoşlayıram (məsələn, tikiş tikmək, dülgərlik, bənnalıq və ya model hazırlamaq və s.)

__ Mən fiziki fəaliyyətlə məşğul olduqda düşünürəm (məsələn, gəzişəndə, üzəndə və s.)

__ Mən vaxtımın çox hissəsini açıq məkanda keçirməyi xoşlayıram.

__ Mən danışarkən jest və digər bədən hərkətlərindən istifadə edirəm.

__ Mən əşyaları daha yaxşı öyrənmək üçün onlara toxunmağı xoşlayıram.

__ Mən riskli fəaliyyətləri xoşlayıram (məsələn, paraşütdən atlanmaq, hündürdən tullanma və s.).

__ Mən yaxşı-yaxşı koordinasiya olunmuşam.

__ Mən yeni bacarıqları öyrənmək üçün onları praktikada tətbiq etməliyəm, nəinki onlar haqda yalnızoxumalıyam və ya kənardan izləməliyəm.

___*Bədən/Kinestik qrafaların cəmi*

Musiqi qabiliyyətinə aid:

__ Mənim mahnı oxumaq üçün yaxşı səsim var.

__Musiqi səhv çalındığında mən bunu hiss edirəm.

__ Mən tez-tez musiqi kolleksiyalarını dinləyirəm.

__ Mən musiqi alətində ifa edə bilirəm.

__Mənim həyatım musiqisiz az fəal olardı.

__Mənim hər zaman yanımda dinləmək üçün musiqi olur.

__Mən musiqi dinləmək üçün hər zaman vaxt ayıra bilirəm.

__ Mən çox mahnıların melodiyasını bilirəm.

__ Mən bir musiqini bir və ya iki dəfə eşitsəm onu asanlıqla təkrar edə bilirəm.

___Mən iş görəndə tez-tez züm-zümə edirəm və ya oxuyuram.

___ *Musiqi qrafalarının cəmi*

Fərdlərarası qabiliyyətə aid:

__ İnsanlar tez-tez mənim yanıma dərdləşməyə gəlirlər.

__ Mən fərdi idman növündənsə, qrup və komandaidman növlərinə üstünlük verirəm.

__ Mənim problemlərim olanda onu tək başına həll etməkdənsə, başqa insanlardan kömək istəyirəm.

__Mənim ən azı üç yaxın dostum var.

__ Mən tənha videoya baxmaqdansa, sosial əhatədə olub, insanlarla vaxt keçirməyi daha çox xoşlayıram.

__Mən bildiyim şeyləri digər insanlara öyrətməyi çox xoşlayıram.

__ Mən lider sayılıram və özümürahat hiss edirəm.

__ Mən izdihamda özümü rahat hiss edirəm.

___ Mən yerli məktəblərlə, qonşuluqdakılarla, məsçidlərlə və icma fəaliyyəti ilə məşğulam.

___ Mən həftə sonlarını evdə tənha keçirməkdənsə, yığıncaqlara getməyi xoşlayıram..

___ *Fərdlərarası qrafaların cəmi*

Fərddaxili qabiliyyətə aid:

___Mən mütəmadi olaraq həyatın vacib məsələləri haqda düşünürəm.

___Mən özümü dərk etmək üçün və təcrübə üçün bəzi təlimlərə getmişəm.

__ Mənim fikirlərim məni başqalarından fərqləndirir.

__ Mənim tək məşğul olduğum hobbim və ya xüsusi məşğuliyyətim var.

__Mənim mütəmadi düşündüyüm xüsusi məqsədlər var.

__Mən öz zəifvə güclü tərəflərə real gözlə baxıram.

_Mən həftə sonunuadamlar dolu istirahət mərkəzlərində keçirməkdənsə, otağımda keçirməyə üstünlük verirəm.

___Mən azad fikirliyəm və güclü iradayə malikəm.

__ Mən şəxsi həyatım haqda yazmaq üçün gündəlik və ya kitabça tutmuşam.

__ Mən özüm işləyirəm və ya öz şəxsi biznesimi başlamaq haqda ciddi düşünürəm.

_____ *Fərddaxili qrafaların cəmi.[3,176)]*

Sadalanan qabiliyyət meyarları sırasından öz göstəricələrinə uyğun gələni seçməklə

Bəs uşaqlar daha asan necə öyrənirlər?

Görmə, canlandırma qabiliyyəti olan uşaqlar rəsmlərlə, videofilmlərlə daha asan öyrənirsə, fiziki qabiliyyətli uşaqlar toxunaraq, yoxlayaraq və tətbiq edərək daha yaxşı öyrənirlər. Riyazi zəkalı uşaqlar məntiqə bağlı, səbəb-nəticə əlaqələri ilə rahatca öyrənərkən, musiqi qabiliyyətli uşaqlar musiqi ilə, nitq qabiliyyətli olan uşaqlar isə dinləyərək və oxuyaraq öyrənmədə daha bacarıqlı olurlar. Sosial-içtimai qabiliyyətli uşaqlar danışıb, münasibət quraraq, özünə qapalı uşaqlar isə təkbaşına çalışmaqdan zövq alırlar.

Qabiliyyət tipi nə olursa olsun, hər uşağın qüvvətli və zəif olduğu tərəfləri vardır. Əgər məktəblərdə bu qabiliyyət formalarının birindən, ya da ikisindən istifadə edilərsə, qabiliyyəti

bu ikisinə uyğun olmayan uşaqlar öz qabiliyyətli tərəflərini inkişaf etdirə bilməyəcək, öyrənmə işini zövq almadan və daha uzun müddətə tamamlayacaq, ya da heç öyrənməyəcəklər.

Hərəkətə bağlı (fiziki qabiliyyəti) olan uşaqlar isə yerlərində sakit otura bilmirlər, çox hərəkətlidirlər. Ənənəvi təhsil verən məktəblərdə uşaqların artıq hərəkət etmək imkanları yox idi. Lövhəyə yazılanı, öyrədiləni səssizcə dinləmək və qeyd etmək məcburiyyətində idilər. Halbuki bu uşaqların öyrənə bilməsi üçün əzələlərini hərəkət etdirməsi, toxunması və tətbiq etməsi lazımdır. Sosial qabiliyyətindən istifadə edə bilməsi üçün suallar verməli, qrup fəaliyyətində danışaraq öyrənməlidirlər.

Qadnerə görə, intellektli (zəkalı, dərrakəli) insan kimdir?

Gündəlik həyatda üzləşdiyi problemlərin həlli üçün zəruri bacarıqları daşıyan;

Həll edilməsinə ehtiyac duyulan yeni problemləri görməyi və onu aktuallaşdırmağı bacaran;

İnsanlara yararlı olan əşyaları hazırlayan və onlara öz xidmətlərini təklif edən. [4,18]

Nəticə olaraq deyə bilərik ki, tək bir qabiliyyətə xitab edərək, istinad edilərək, uşaqları bir qəlib iniçinə soxmağa çalışmaq, yetişəcək bir çox dahiyə mane olmaq deməkdir. Uşaqlara qabiliyyətlərini inkişaf etdirmək və uğur qazanmaq imkanları yaradılmalıdır (müəllifdən).

Ədəbiyyat

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə Psixologiya. Dərslik. "ÇİNAR-ÇAP" Bakı -2002
2. Nəsirəddin Tusi. Əxlaqi -Nasirı.
3. Novard Qadner. Müxtəlif üsullarla dərketmə nəzəriyyəsi və təhsil. (Azərbaycan dilində).
4. Süleymanova A.Y. Təhsilin əsasları. Bakı 2014.

XÜLASƏ

Bu məqalədə Harvard universitetinin professoru Novard Qardnerin şagirdlərin təlim prosesində dərketmə nəzəriyyəsindən müxtəlif üsullarla istifadə yollarından bəhs edilmişdir. Onun fikirincə şagirdlərin müxtəlif üsullarla dərketməsini inkişaf etdirməklə təhsilin keyfiyyətini yüksəltmək olar. Buna nail olmağın yolları məqalədə faktlarla, şagirdlərlə aparılacaq sorğu anketlərinin təqdimatı forması ilə ardıcıl olaraq verilmişdir. Həmçinin məqalədə şagirdlərin necə asan öyrənməsi üçün onların qabiliyyətlərinin müəllim və valideynlər tərəfindən vacibliyi vurğulanmışdır.

РЕЗЮМЕ

В этой статье обсуждается, как Говард Гарднер, профессор Гарвардского университета, использует теорию понимания учащимися различными способами. По его словам, качество образования можно улучшить, разными способами развивая у учащихся понимание. Способы достижения этого представлены в статье в виде фактов, в форме анкетирования студентов. В статье также подчеркивается важность способности учителей и родителей помогать учащимся легко учиться.

SUMMARY

This article discusses how Howard Gardner, a professor at Harvard University, uses the theory of students' comprehension in a variety of ways. According to him, the quality of education can be improved by developing students' understanding in different ways. The ways to achieve this are presented in the article in the form of facts, in the form of presentation of questionnaires to be conducted with students. The article also highlights the importance of teachers 'and parents' abilities to help students learn easily.

Babayeva Turan Fazil qızı
Naxçıvan Müəllimlər İnstitutu
Təhsildə sosial psixoloji xidmət, magistrant, II kurs

AİLƏDƏ UŞAQLARDA ÖZÜNƏ İNAM HİSSİ FORMALAŞDIRMAĞIN ƏHƏMİYYƏTİ

Açar sözlər: *özünəinam, uşaq şəxsiyyəti, ana-ata məsuliyyəti, ailə tərbiyəsi, məsuliyyət hissi, bacarıqlı olmaq*

Ключевые слова: *уверенность в себе, личность ребенка, родительская ответственность, семейное воспитание, чувство ответственности, способности*

Key words: *self-confidence, child's personality, parental responsibility, family upbringing, sense of responsibility, ability*

Ana və atalar həyatlarını uşaqlarına həsr edir. Ömürləri, bir gün onların həyatda lazımı bacarıqları qazanacaqları ümidiylə keçir. Uşaqlarını düzgün yetişdirmək, onların qərarlarını istiqamətləndirmək, problemlərini həll etmək və davranşılarını formalaşdırmaq, valideynlərin əsas məqsədidir. Həyat yollarında əl-ələ verib və uşaqları öz ayaqları üzərində dayanan ana qədər, onlara bildiklərini, mənəvi dəyərləri öyrədir və həyatın çətinliklərini izah edirlər. Lakin ana -atalar buna hər zaman nail ola bilirlərmi? Uşaq tərbiyə edib ərsəyə çatdırmaq asandırmı? Bu məqalədə çalışacayıq ki, qismən də olsa bu suallarıncavabını aydınlaşdıraq.

Uşaq heç bir ailədə kor-koranə, kortəbii bir şəkildə tərbiyə edilmir. Hansı valideyn olursa olsun, öz övladlarının tərbiyəsində mütləq müəyyən pedoqoji məqsədi rəhbər tutur. Ana-ataların çox zaman pedoqoji məqsədləri aydın xarakter daşımır, dəqiq olmur. Bu uşaqların ailə tərbiyəsinə böyük ziyan vurur. Lakin valideynlərin əksəriyyətinin öz qarşılarına qoyduqları pedoqoji məqsədlər dəqiqliyi ilə seçilir. Bir qrup valideynlə anket sorğusu keçirilmişdir. Sualın biri belə olmuşdur: siz öz uşaqlarınızda, hər şeydən əvvəl, şəxsiyyətin hansı keyfiyyətlərini tərbiyə etmək istərdiniz?

Valideynlərin çoxu aşağıdakı keyfiyyətləri qeyd etmişlər: düzlük və doğruçuluq, xeyirxahlıq, kollektivdə yaşamaq və işləmək bacarığı, böyüklərə hörmət, əməyə məhəbbət, vətəndaşlıq hissinin başa düşülməsi və s. Uşağın yaxşıadam olmasını istəmək ülvi hissdir, lakin hələ kifayət deyildir. Bu "yaxşı adam" anlayışına hansı xarakter əlamətlərinin, hansı vərdiş, bacarıq, adət və s. aid olduğunu bu və ya digər dərəcədə dəqiq aydınlaşdırmaq, uşağın "yaxşı adam" kimi böyütməyin üsul və vasitələrini bilmək lazımdır [1. s.217].

Uşaqlarda tərbiyə edəcəyimiz ən mühüm xarakter əlamətlərindən biri özünə inam hissidir. Uşaqlarda özünə olan inam hissi bir gecədə yaranmaz və tək bir qabiliyyətlə bağlı deyildir. Lakin, geniş mənada ana və ata tərəfindən formalaşdırılır. Ailədə uşaqlarla qurduğumuz əlaqə, böyük tikintinin kərpiclərini tək-tək yerləşdirmək kimidir. Tikintinin başa çatması üçün hər bir kərpic nə qədər dəyərlidirsə, uşağımızın öz mənliyinin inkişafında da hər gün baş verən hadisələr o qədər dəyərlidir.

Böyük pedoqoqlar bunu "Bir ustanın şagirdinəsənətini öyrətməsinə" bənzədir: Usta şagirdini işin asanından başlayaraq öyrədir. Təlimini ondakı irəliləmə sürətinə görə qurur. Yavaş-yavaş məsuliyyət hissi yaradır. Bacarığını tərifləyir, səhvini düzəldir. Harada inanacağını, nə zaman işinin başında durub yoxlayacağını bilir. Ona səhv etmək haqqı verər: "bəzi səhvlərini bağışlayar, bəyənildiyini görən şagird də işindən dörd əllə yapışar. Ustasına bənzəmək və ona yetişmək üçün bütün bacarığını və çalışqanlığını ortaya qoyar".

Ana və atası tərəfindən heç nəyə baxmayaraq sevildiyini hiss edən uşaqlar, həyatda hər zaman bir addım qabaqdadırlar. Özlərini dəyərli və fərqli olduğunu hər zaman hiss edər və bu sevgidən güc alarlar. Sevgi qanadlarımızın altındakı küləkdir. Uşaqların mənəvi cəhətdən sağlam böyüməsi üçün,ən güclü təsir sevildiklərini bilməkdir. Bu sevgi olmasa, uşaqların özlərini

dəyərli hiss etmələri çox çətindir. Əgər uşaqlar özlərinin, sizin qəlbinizdəki yerlərindən əmin olsalar, gələcəyədaha inamla addımlaya bilərlər [2.s.338].

Uşaqların böyümələrinə baxmayaraq, öz üzərlərinə düşən vəzifələrini yerinə yetirməməkləri valideynləri narahat edər. Səhər yuxudan qalxarkən yataqlarını yığışdırmamaları, çox nazlanmaları, nə geyinəcəklərini bilməmələri, tərli-tərli su içmələri, dərslərini hazırla, deməmədən hazırlamamaları, tapşırıqlarını xatırlatmadan yerinə yetirməmələri kimi.

Ana-atalar "Artıq televizora baxma, dərslərini hazırla" demək məcburiyyətində qalarlar. "Üst-başına fikir ver. Paltarlarını düzəlt. Paltarını geyin. Çantanı hazırla..." kimi. Əslində uşaqların özlərinin görməsi lazım olan işləri, ana-atalar fasiləsiz xatırlatmaq məcburiyyətində qalırlar. Zamanla tapşırıqları yerinə yetirmək işi uşağın öz vəzifəsi olmaqdan çıxıb ana və atanın vəzifəsi olur. Uşaq müəyyən bir saatda dərslərini hazırlamaq yerinə anasından xəbərdarlıq gözləməyə başlayır. Ana nə zaman ki, "Dur mənim balam,dərs çalışmaq vaxtındır" dedikdə dərs hazırlamağa başlayar. Səhəryeməyi zamanı ana, "tez ol, mənim balam, səhər yeməyini ye. Yeməsən dərslərini yaxşı oxuya bilməzsən" kimi sözlər deyər. Bu kimi göstərişlər nəticəsində uşaq səhər yeməyini yeyər.

Beləliklə, ana-atalar uşaqlarının yaxşı olması üçün lazım olan hər cür tapşırıq və hərəkətləri özləri yerinə yetirərlər. Belə münasibətlərə görə uşaqlar heç cürə böyüməzlər. Heç cürə özlərinə inanmazlar. Iradəsiz olarlar. "Bu mənim işimdir. Ana sən qarışma" deyə bilməzlər. Böyüməyə başladıqda məs.: 13 yaşına gəldiyində uşaqlara müəyyən məsuliyyətlər verilsə belə artıq gec olur. Nəticə istənilən kimi olmur. Məsuliyyət hissi yetərincə inkişaf etmir. Gözlənilən davranış kifayət etmir. Nə üçün?

Uşağınızın 13 illik vərdişlərini 1-2 ayda birdən-birə dəyişərək, bütün işlərini özləri yerinə yetirməsini düşünmək belə mümkün deyil. Çünki, o zamana qədər uşağa məsuliyyətli bir iş tapşırmadıq ki... Halbuki, kiçik yaşdan etibarən uşaqlarımızı müəyyən bir şəkildə istiqamətləndirməli vəgözlədiyimiz hərəkətləri əvvəlcədən öyrətməliyik. Ondan sonra da kənara çəkilib, o hərəkətləri yerinə yetirməsini gözləməli və görə bilmədikdə ona kömək etməliyik. Amma kömək etməkdən oyana keçməməliyik. Müəyyən vaxtdan sonra uşağımızın düzgün hərəkətlər etdiyini görə bilərdik.

Uşağınızın otağını uşağınızdan daha yaxşı yığışdıra bilərsiniz. Ancaq lazım olan, uşağa bu işi özü görməsi üçün məsuliyyət hiss etməsidir. Doğrudur, bu vaxt alar.

Valideynlər uşaqların təlim-tərbiyəsi ilə vaxtında düzgün maraqlansa, sonralar işləri çox asanlaşar. (müəllifdən)

Uşaq bir işi sizin gördüyünüz kimi mükəmməl görməyə bilər. Amma bir işin hissələrini görərək, parçadan bütünə, bütündən mükəmmələ getməyin yollarını kiçik yaşdan öyrənəcəkdir. Tortbişirməyə bilər, amma kremi qarışdıra bilər, yumurtanı qıra bilər, istədiyiniz ərzaqları sizə gətirə bilər. Yetər ki, uşağınızın özünə inanması üçün yaşına uyğun işləri ona tapşırın.

Uşağınızda özünəinam və məsuliyyət hissi yarada bilərsiniz, amma, əsla hər işə müdaxilə edən vəziyyətə düşməyin... Bax o zaman uşağınız böyüməyə, məsuliyyət hiss etməyə, özlərinə inanmağa başlayacaqdır.

Uşaqların bir işi müstəqil görməsi, özünə inamın inkişafı baxımından gərəklidir.

Uşaqlarda özünə inamın yaranmasına nə mane ola bilər?

Uşaqların özünə inamlarının inkişafı üçün, ana və atalar bəzi davranışlarından əl çəkməlidirlər. Bunlardan ən vacibibudur"

Uşaqlarla bağlı cox yüksək fikirdə olmaq, uğursuz işlər və ikili münasibət.

Uşaqlarda özünəinama mənfi təsir edən faktorlardan biri də uşaq haqqında cox yüksək fikirdə olmaqdır. Uşaqlardan cox yüksək şeylər gözlədikdə, istədiyimiz davranışları həmin anda görmədiyimiz zaman, onları bir kənara itələməyimizə səbəb ola bilər. Uşaqlarda özünə inam itə bilər.

“Mənim uşağım hər zaman birinci olmalıdır”. Amma qəbul edilməlidir ki, sizin uşağınız hər zaman birinci olmaya bilər. Məktəbdə 100 şagird varsa, bunlardan sadəcə biri, 1-ci olacaqdır. Digərləri də ikinci, üçüncü... vəs. sıralanacaq.

“Xeyir. Mənim uşağım çox fərqli bir uşaqdır. O, mütləq birinci olmalıdır!!”.

“Mənim uşağım artıq bir işi söyləmədən həmin dəqiqə görməlidir”. “Hamamda saatlarla su ilə oynamamalıdır”. “Gördüyü hər işi mükəmməl görməlidir”. “Çox gözəl rəsim çəkməli, çox gözəl şeir yazmalı”, “Dərslərində çox yaxşı oxumalıdır”. “Əl qabiliyyəti çox yaxşı olmalıdır”. “Ev işlərində mənə kömək etməlidir”.” Nizam-intizamlı olmalıdır” və s...

Amma bir düşünün. Sizin evinizdə uşağınız robortdurmu? Uşaq hər şeyi, hərişi mükəmməl və nöqsansız olan bir maşındırmı? Əgər elə olsa, yəni uşaq nöqsansız və səhvsiz olsa, sizlər ana-ata olmağın, onlara bəzi şeylər öyrətməyin zövqünü necə yaşayacaqsınız? Yaxud, uşaq nöqsansızolmalıdırsa,ata-ananəüçünlazımdır?

Bir neçə il əvvəl baxdığım bir filmdə uzaydan gələn bir uşaqdan bəhs edilirdi. O uşaq, ana-atanın hər cür arzularınıyerinə yetirirdi. Yatmaq zamanı yatan, durmaq zamanı duran, bütün yarışlarda birinci olan, dərslərində çox bacarıqlı olan mükəmməl bir uşaq... Ancaq filmin sonunda ana ağlayır: “Mən heç analıq duyğusunu yaşaya bilmədim”- deyir.” Heç bir paltarını kirlətmədi ki, azacıq hirslənərək, amma sevərək paltarını təmizləyərdim, yatağını yığışdırmadığı üçün ona acıqlanmaq və nəsihət vermək istəyərdim. Ancaq o, həmişə yatağını yığışdırdığından bunu heç etmədim. Yeməyini yeməsi üçün heç səsimi qaldırmadım, çünki həmişə səliqəli yeyirdi”...

Uşağın səhvlərini düzəltmək onların təlim-tərbiyəsi ilə məşğul olmaq ana–ata üçün böyük bir zövqdür. Əslində uşağı öyrətməyin ayrı bir həzzi və həyəcanı vardır. Amma nədənsə sizlər bu şirin həyəcanı çox artıq yaşamaq istəməzsiniz. Halbuki uşaqların o, inkişafını və dəyişmələrini görmək, səhvlərindən əl çəkib gözəlliklərə yönəldiklərini izləmək ata-ana üçün ən böyük zövq olmalıdır. (3 səh. 571 -572)

Birinci sinfə gedən uşaqlara nəzər salaq: Bir neçə ay içində sadə işarələri oxumaqla başlayıb, sonra işarələri fərqli şəkillərdə bir yerə toplayaraq, yeni sözlər düzəltməyə, sözlərdən cümlə qurmağa və onları oxumağa başlayırlar. Onların bu cür oxuma qaydalarını və cəhdlərini görmək, bir müəllim üçün və ya ana-ata üçün çox şirin bir həyəcanlı olur. Halbuki, uşaqların hamısı oxumağı bacarsa, müəllim öyrətməkdən zövq ala bilərmi? Düşünün...

Uşaqlarımızın çox yüksək nöqtələrə gəlmələri mövzusunda artıq dərəcədə xəyallar qurmayaq. Yaxşı, yüksək nöqtələrə gəlməsinlər mi? Əlbəttə gəlsinlər. Təbii ki, mükəmməl olmağa çalışsınlar. Uğur qazanmağa cəhd etsinlər. Amma bizim məqsədimiz ən uca zirvələr olmasın. Niyə olmasın? Düşünün: Uşağımız üçün ən yüksək zirvələri nəzərdə tutursunuz. Bundan bir az aşağını qəbul etmirsiniz. Daha əvvəl riyaziyyatdan 500 bal toplayan bir uşağa məqsəd qoyursunuz. Övladım, 700 bal toplasan sənə hədiyyə alacağam. Amma 600 bal toplasan, qəbul etmərəm. Bizim məqsədimizə yavaş-yavaş çatmağımız lazımdır. Məsələn: Deməliyəm ki, “600 bal toplamağını gözləyirəm”. Onu bacarsa 700 bal da toplaya bilər. Elə etməliyik qoyduğumuz məqsəd uşağımız üçün müəyyən bir məntiq ifadə etsin. Əks təqdirdə pillələri birdən-birə tullanmaq kimi olar.

Birinci pilləkəndən 15-ci pilləkənə tullanması mövzusunda təkid edirsiniz. Əlbəttə bu mümkün deyil. Uşaq ya heç tullanmaz və ya öyrənmək baxımından özünə inamı olmaz. Ya da tullanmağa çalışar, yıxılar. Çalışması nəticəsiz qalar.

Ana–atalar uşaqların qarşısına məntiqə uyğun hədəflər qoymalıdır.

İməkləməkdə olan bir uşağın yaxınlığına bir oyuncaq qoysanız onu göturməyə çalışar. Amma on metr uzağa qoysanız, onu götürməyə gəlməz, gələ bilməz...Yaxında olanda niyə gəlir, çünki onu götürə biləcəyini.

Əgər edə biləcəyini düşünürsənsə, edə bilərsən. Əgər edə bilməyəcəyini düşünürsənsə, haqlısan!

Uşaqlarına bir iş tapşırırsan, amma uşaqların o işi görə biləcəyinin, mümkün olmayacağını düşünürsənsə, bu əlçatmaz arzudur. Bu ağılla, bu bədənlə mümkün deyil deyə düşü-

nürsünüz. İnanın ki, əgər belə düşünürsünüzsə o uşaq o işi görə bilməz. Çünki mümkün olmayanı tələb edirsiniz. Halbuki, həqiqətən uşağın o işin öhdəsindən gələ biləcəyinə inanırsınızsa və uşağınıza bunu hiss etdirsəniz, uşağınız əlindən gələni edəcək və o işi bacarmağa çalışacaqdır. (4. 277)

Ədəbiyyat

1. Əlizadə Ə.Ə, Abbasov A.N. AiləIX sinif şagirdləri üçün dərslik "Maarif" nəşriyyatı Bakı 1989

2. Bayramov. Ə.S. Əlizadə. Ə.Ə.Sosial psixologiya. Ali məktəblər üçün dərslik. "QAPP POLİQRAF" Bakı 2003

3. Bayramov. Ə.S Əlizadə. Ə.Ə.Psixologiya Dərslik "ÇİNAR- ÇAP" Bakı 2002

4. Q. E. Əzimli Yaş və pedoqoji psixologiyanın müsasir problemləri. Bakı 2006

5. Müəllifin şəxsi arxivindən.

XÜLASƏ

Məqalədə "Ailədə uşaqlarda özünəinam hissi formalaşdırmağın əhəmiyyətin"dən bəhs edilmişdir. Göstərilmişdir ki, uşaq xarakterinin formalaşdırılmasında ailənin rolu əvəzedilməzdir. Ailədə uşaqlarda özünəinam hissinin formalaşdırılmasının pedoqoji-psixoloji əsasları məqalədə öz əksini tapmışdır. Həmçinin məqalədə görkəmli pedoqoq və psixoloqların bu sahədə apardıqları araşdırmalar, eyni zamanda ailələrdə yaranan həyati təcrübələrdən sistatlar gətirilərək. uşaq tərbiyəsi ilə məşğul olan hər bir insan üçün faydalı olacağı nəzərə alınmışdır.

The importance of forming a sense of self-confidence in children in the family

SUMMARY

The article discusses the "importance of building self-confidence in children in the family." It was noted that the role of the family in the formation of children's character is irreplaceable. The pedagogical and psychological bases of formation of self-confidence in children in the family are reflected in the article. The article also quotes research conducted by prominent pedagogues and psychologists in this area, as well as quotes from life experiences in families. It is considered to be useful for everyone involved in child rearing.

Важность формирования у детей доверия в семье

РЕЗЮМЕ

В статье обсуждается «важность формирования у детей уверенности в себе в семье». Было отмечено, что роль семьи в формировании детского характера незаменима. В статье отражены педагогико-психологические основы формирования у детей уверенности в себе в семье. В статье также цитируются исследования, проведенные выдающимися педагогами и психологами в этой области, а также цитаты из жизненного опыта в семьях. Считается полезным для всех, кто занимается воспитанием детей.

I BÖLMƏ
İNNOVASİYALAR VƏ TƏHSİLİN KEYFİYYƏTİ

İsparova Səma. *Fənlərarası inteqrasiya anlayışının mahiyyəti və ədəbiyyat təlimində rolu* 3
Teymurova Aytən Şahin qızı. *"Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalında fəal-interaktiv təlim*.... 5
Teymurova Aytən Şahin qızı. *"Azərbaycan dili və ədəbiyyati tədrisi" jurnalında fəal/interaktiv təlim metodları üzrə olan materiallar haqqında* 8
Rəhimli Elvira. *Azərbaycan dili dərslərində fonetikanın tədrisində inteqrasiyadan istifadə üsulu* 12
Rəhimli Elvira. *Azərbaycan dili dərslərində fonetikanın tədrisində fənlərarası inteqrasiyadan istifadənin üsul və vasitələri* 14
Məhərrəmova Günay Arzuman qızı. *Nəsr əsərlərinin öyrədilməsində yeni texnologiyalardan istifadə*..... 15
İsmayılova Xəyalə Əliməmməd qızı. *Motivasiya və onun təlim prosesində rolu*..... 19
İsmayılova Xəyalə Əliməmməd qızı. *Xarici dilin tədrisində innovativ metodlardan istifadə*..... 22
Nurəliyeva Leyla. *İngilis dilinin tədrisində tələbələrə yazı bacarıqlarının öyrədilməsində müasir texnologiyaların əhəmiyyəti* 25
Abbasova Nigar. *Müasir tədris metodlarının istifadəsi zamanı qarşıya çıxan çətinliklər* 27
Abbasova Nigar. *Xarici dilin tədrisində müasir metodlar* 30
Ələkbərli Səkinə Cəfər qızı. *İngilis dili lüğət tərkibinin kommunikativ kompetensiyanın formalaşdırılması kontekstində tədrisi* 33
İbrahimova Rəna. *İngilis dili fakültəsi tələbələrinə kommunikativ yönümlü təlim yolları* 36
İbrahimova Rəna. *İngilis dili fakültəsinin birinci kurs tələbələri üçün ünsiyyət vərdişlərinin tədrisində motivasiyanın rolu* 40
Yusubova Ayişə. *Xarici dilin tədrisində pedaqoji texnologiyalar*..... 44
Yusubova Ayişə. *İngilis dilinin tədrisində informasiya və kommunikasiya texnologiyalarının (İKT) istifadəsi* 46
Əsədova Aynur Elşən qızı. *İngilis dilinin tədrisində oxu bacarıqlarının aşılanması* 48
Əsədova Aynur Elşən qızı. *İngilis dilində oxu vərdişlərinin aşılanması zamanı yaranan problemlər və onların həlli yolları* 50
Nurəliyeva Leyla. *Xarici dillərin tədrisində şagirdlərin yazı bacariqlarının inkişaf etdirilməsi*..... 52
Zeynalova Sevinc İlham qızı. *İbtidai siniflərdə informasiya kommunikasiya texnologiyalarından istifadənin rolu*..... 55
Həsənova Ramiyyə Ayaz qızı. *Kiçik yaşlı məktəblilərdə təfəkkürün inkişaf xüsusiyyətləri*..... 57
Vahidzadə Səkinə Mətləb qızı. *Pedaqoji prosesdə müəllimin innovativ fəaliyyəti*..... 59
Vahidzadə Səkinə Mətləb qızı. *Pedaqoji sistemdə innovasiya anlayışı* 61
Hüseynli Səadət Rəhbər qızı. *İbtidai siniflərdə öyrədilən həndəsi fiqurlar, təsvirləri və xassələri* 63
Quliyeva Nərminə. *Məntiqi çalışmalar və didaktik oyunlar vasitəsilə ibtidai sinif şagirdlərində məntiqi riyazi təfəkkürün inikşaf etdirilməsi* 66
Quliyeva Nərminə. *Məntiqi riyazi təfəkkürün məzmunu və mahiyyəti haqqında* 68
Mirzəli Elnarə Suqrət qızı. *İbtidai siniflərdə riyaziyyat fənni üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas funksiyaları*..... 70
Mirzəli Elnarə Suqrət qızı. *İbtidai siniflərdə riyaziyyat fənni üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsinin bəzi məsələləri* 73
Abdullayeva Nigar Hüseyn qızı. *Milli kurikulumların strukturu,vəzifəsi və prinsipləri* 76
Teyibova Günay Əhməd qızı. *İbtidai siniflərin riyaziyyat dərslərində fəndaxili və fənlərarası inteqrasiyanın rolu və əhəmiyyəti* 78
Teyibova Günay Əhməd qızı. *III sinfin riyaziyyat fənninin təlimində fənlərarası və fəndaxili inteqrasiyadan istifadə* 80
Mustafazadə Həbibə. *İbtidai siniflərdə vətəndaşlıq tərbiyəsinin həyata keçirilməsi* 83
Həsənova Nailə İsaxan qızı. *Nəticəyönümlü standartlar əsasında hazırlanmış ana dili təliminin məzmunu* 85
Həsənova Nailə. *İbtidai təhsil səviyyəsində ana dilinin tədrisi üzrə kurikulumun xarakterik cəhətləri və elmi-tətbiqi əsasları*..... 89
Daşdanova Səlbinaz Mehman qızı. *Şagirdlərin kompüter savadlılığının artırılmasının zəruriliyi*..... 91
Əsədova Rita. *Online təhsil və yeni texnologiyalardan istifadə*..... 94

Tağızadə Könül Təhmiraz qızı. *IX sinif şagirdlərinə Phyton mühitində proqramlaşdırmanın öyrədilməsi metodikası* 98
Yusifova Həvva Mahal qızı. *Distant təhsilin tətbiqi ilə bağlı metodik ədəbiyyatin təhlili* 102
Rəsullu Turanə Kamran qızı. *Üçölçülü proqramlarən üstün və mənfi cəhətləri. Sketchup proqramının əsas xüsusiyyətləri və tətbiqi* 104
Hümbətzadə S.S. *Kolleclərin informatika kursunda "verilənlər bazası"nın tədrisinin əhəmiyyəti* 108
Qasımova Elnarə Elman qızı. *İnformasiya təhlükəsizliyinin təmin olunmasının tədrisi metodikası* 110
Abdullayeva Aynurə Fuad qızı. *Komputer modelinin X sinifdə tədrisi metodikası* 114
Qocalı Nigar Vahid qızı. *Corel Draw qrafik dizayn proqramının tədrisində müsair təlim metodların tətbiq olunmasına metodik yanaşma (10-cu sinif)* 115
Kərimli G.Ş. *Bilik və ekspert sistemlərinin formallaşdırılması bölməsinin öyrənilməsi metodologiyası* 118
Hətəmxanov İsmayıl Roman oğlu. *8-ci sinif informatika dərsliklərində kompüter qrafikasının sketchup proqramı ilə öyrədilməsi metodikası* 120
Həmidli Aytən Əzizağa qızı. *Məktəbəqədər yaşlı uşaqların valeoloji tərbiyəsi* 122
Əhmədova Maisə Cavid qızı. *Sosial pedaqoqun peşə keyfiyyətləri* 124
Rüstəmli Aysel. *Dünyada gedən qloballaşmanın təhsilin qarşısında qoyduğu tələblər* 126
Əfəndizadə Ayşən. *Texnologiya dərslərində inteqrasiya, inteqrasiyanın elmi pedaqoji əsasları* 129
Əfəndizadə Ayşən. *Təlimin mərhələləri, bilik, bacarıq və vərdişlərin formalaşması* 132
Abbasova İlahə Eyvaz qızı. *Humanitarlaşdırma anlayışının mahiyyəti və məzmunu* 135
Əliyeva Elvina Mais qızı. *Uşaqların əmək və oyun fəaliyyətində texnoloji biliklərin aşılanması* 138
Şıxıyeva Əfsanə. *Məktəbəqədər təhsil müxtəlif ölkələri xarakterizə edən təhsil pilləsi kimi* 141
Bayramova Həcər Cavid qızı. *Uşaqlarin məktəbə hazırlanmasında İKT-dən istifadə* 145
Novruzova Həlimə. *Müasir təlim formalarının mahiyyət və məzmunu* 147
Novruzova Ləman Cəbrayıl qızı. *Müasir təlim üsulları* 150
İbrahimova S.H. *İnteraktiv öyrədici tapşırıqların müxtəlif formalarının biliyin keyfiyyətinə təsiri* 153
Məmmədova Ayişə Sərvər qızı. *Müasir dövrdə kimya dərslərində inteqrasiyanın əhəmiyyəti* 156
Qasımova Kəmalə Mahir qızı. *Təhsilalanların bacarıq və vərdişlərinin formalaşdırılmasında kimya eksperimentinin rolu* 158
Məmmədəlizadə Fərid Rizvan oğlu. *Azərbaycan və Estoniyada kurikulum təlim metodu vasitəsilə coğrafiyanın tədrisinin təşkilinin quruluş və məzmunca müqayisəli təhlili* 161
Hüseynli Dürrə Səfər qızı. *Coğrafiyanın tədrisində Online dərslərin rolu* 165
Hüseynli Dürrə Səfər qızı. *Coğrafiya dərslərində İKT və elektron dərsliklərin rolu* 167
Zeynalov İlyas Aqil oğlu. *Coğrafiya dərslərində diyarşünaslıq materiallarından istifadə edilməsinin əhəmiyyəti* 169
Tağıyeva Şahnaz Heydər qızı. *Sosial innovasiyaların yaranması və onların tətbiqinin əhəmiyyəti* 170
Allahverənova Sənubər Natiq qızı. *Şagirdlərdə vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında dövlət rəmzlərimizdən istifadənin mahiyyəti* 173
Həsənzadə Damla Sevindik qızı. *Ümumtəhsil məktəblərində tarixin tədrisində demokratiya və humanizm prinsiplərindən istifadə nümunəvi vətəndaşın tərbiyə edilməsinin mühüm vasitəsi kimi* 176
Yusifli Yeganə Ehtiram qızı. *Ali pedaqoji məktəblərdə interaktiv təlim metodu ilə keçirilən dərsin səciyyəvi xüsusiyyəti* 178
Məmmədova Aytac Sevindik qızı. *Müəllimin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsində onun şəxsi keyfiyyətlərinin yüksəldilməsinin yolları* 181
Məmmədova Aytac Sevindik qızı. *Müəllimin peşəkarliq və səriştəliyinin formalaşmasında yeni pedaqoji texnologiyalardan istifadə* 184
Əliyeva Lamiə Rəis qızı. *İnteraktiv və fəal təlim metodları* 186
Abdullayeva Nurlanə Cəlal qızı. *İnteraktiv tədris metodu ilə proqramlaşdırmanın öyrədilməsi texnologiyası* 188
Məmmədli Şəfiqə İmran qızı. *İnformatika dərslərində VEB proqramlaşdırma dilindən istifadə məzmununun təhlili* 191
Mehdizadə Səftər Rövşən oğlu. *Reed solomon kodları haqqında ümumi məlumat* 194
Qurbanova Ruhəngiz Ədalət qızı. *Qeyri-səlis məntiqə əsaslanan Pid nəzarətçinin dizaynı* 197
Hüseynova Ayşə Xəlil qızı. *Coğrafi informasiya sistemlərində verilənlərin strukturu* 204

II BÖLMƏ
TƏHSİLİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

İsmayilova Nəzakət Mehman qızı. *Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində pedaqoji prinsiplər* 207
İsmayilova Nəzakət Mehman qızı. *Şagirdlərin vətənpərvərlik tərbiyəsində sinifdənxaric tədbirlərin səciyyəvi xüsusiyyətləri* 209
Novruzlu Zərifə. *Dərsin planlaşdırılmasının əhəmiyyəti* 212
Novruzlu Zərifə. *Sinifin idarəedilməsinin səmərəliliyi* 215
Hüseynli Aytac. *Məktəb rəhbərliyi və müəllimlər arasında yaranan pedaqoji münaqişələrin səbəbləri* 218
Kişizadə Türkan Habil qızı. *Məktəblərdə aparılan peşəyönümü işlərinin üsulları və vasitələri* 220
Kişizadə Türkan Habil qızı. *İnkişaf etmiş ölkələrdə məktəblilərin peşəyönümü prosesinin əsas xüsusiyyətləri* 223
Məmmədova T.Ə. *Təlim, tərbiyə, təhsil və inkişafın qarşılıqlı əlaqəsi* 225
Liu Xingxiao. *Выбор профессии для китайских школьников* 228
Gou Yuyuan. *Цель образования в средных школах Китайской Народной Республики* 230
Hüseynova Səbinə Fazil qızı. *Yeni qiymətləndirmə texnologiyalarinin mahiyyəti* 232
Xaləddinova Aytac Cavid qızı. *Davamlı insan inkişafının qiymətləndirilməsi* 235
Hümbətli Lalə Rövşən qızı. *Azərbaycanda ümumi təhsilin idarə edilməsində normativ hüquqi sənədlərin tətbiqi zəruriliyi* 237
Dadaşova Məsməxanım Əkbər qızı. *Qiymətləndirmənin növləri və prinsipləri* 240
Məmmədova Həcər Elşad qızı. *Müasir dövrdə ibtidai siniflərdə məktəbdaxili qiymətləndirmənin mahiyyəti, təşkilinin pedaqoji-psixoloji şərtləri* 242
Məmmədova Həcər Elşad qızı. *İbtidai siniflərdə rəsmi qiymətləndirmə kimi summativ qiymətləndirmənin aparılması yolları* 244
Arifli Nərmin Elşən qızı. *İbtidai siniflərdə yeni qiymətləndirmə sisteminin mahiyyəti* 246
Cahidzadə Təzəgül Mahir qızı. *Müasir qiymətləndirmə təhsildə keyfiyyətin yüksəldilməsində vacib amil kimi* 249
Sadıqova Lalə Xıdır qızı. *Təhsilverənlərin fəaliyyətinin qiymətləndirilməsi* 252
Şahlarlı Ayşən. *Müasir təhsil mühiti və rəqabətqabillik* 253
Aslanova Hakimə Rəfail qızı. *Ümumtəhsil məktəblərində pedaqoji prosesin tərəflərinin fəaliyyətinin monitorinqi* 256
Cəfərova Nərmin Bayram qızı. *İdarəetmə yolu ilə təhsilin keyfiyyətinin və səmərəliliyinin artırılması* 258
Mürşüdova Aytac İlham qızı. *Məktəbdaxili qiymətləndirmənin növləri, qiymətləndirmədə istifadə olunan metod və vasitələrin əhəmiyyəti* 261
Dərgahova Ülkər Nadir qızı. *Təhsilin məqsədi, məzmunu və vəzifələri* 264
Kamilova Aida Kamran qızı. *Məktəbəqədər təhsil müəssisəsinin təhsil mühiti uşağın sağlamlığının qorunmasının amili kimi* 266
Məhərrəmli Çinarə Faiq qızı. *İbtidai sinif şagirdlərinin idrak fəaliyyətini inkişaf etdirmək üçün texnologiyalar* 268
Məhərrəmli Çinarə Faiq qızı. *İnkişafetdirici təlim texnologiyaları* 270
Hacılı Türkan Kamal qızı. *MİQ-də test imtahanlarinin özəllikləri* 272
Əliyeva Gülay Ceyhun qızı. *Məktəb müəllimlərinin fəaliyyətinin qiymətləndirilməsində diaqnostik qiymətləndirmənin rolu* 274
Əliyeva Gülay Ceyhun qızı. *Diaqnostik qiymətləndirmənin mahiyyəti, məqsədi və vəzifələri* 276
Qasımlı Ağcaxanım Rəfail qızı. *Reytinq anlayışı və mahiyyəti* 278
Qasımlı Ağcaxanım Rəfail qızı. *Universitetlərə reytinq verilməsi kriteriyaları* 280
Həsənova Könül Vasif qızı. *Monitorinq və qiymətləndirmə, onların pedaqoji prosesdə şagirdə təsiri* 281
İbrahimova Leyla Samir qızı. *İbtidai siniflərdə fənn kurikulumların tətbiqində qiymətləndirmənin rolu* 284
Həsənova Leyla İmamverdiyevna. *İbtidai sinif dərsliklərinin hazırlanmasına konseptual yanaşmalar* 287
Cahangirli Aynur. *Menecment modeli və müasir informasiya vasitələri* 290
Quliyeva Şəms. *Təlim və təhsilin səmərəliliyinin yüksəldilməsinin elmi-pedaqoji əsasları* 292
Quliyeva Şəms. *Pedaqoji prosesin idarə edilməsinin əsas müddəaları və elmi-nəzəri prinsipləri* 295
Abdullayeva Zeynəb. *Təhsilin idarəedilməsində menecment işinin elmi-pedoqoji əsasları* 299

Həsənli Vəfa Sabit qızı. *Müasir təhsildə menecment xidmətinin təşkili* 301
Həsənli Vəfa Sabit qızı. *Təhsil menecmentinin funksiyaları* 303
Şərifova Aygün Ramiz qızı. *Təhsil müəssisəsi rəhbərinin peşə mövqeyinin (səriştəsinin) inkişaf istiqamətləri* 305
Hüseynova Vüsalə Hüseyn qızı. *Kollektivdə sosial-psixoloji münaqişələr və onların həlli yolları* 306
Hüseynova Vüsalə Hüseyn qızı. *Sinfin idarə edilməsində sinif rəhbərinin rolu* 308
Şərifova Aygün Ramiz qızı. *Təhsil müəssisələri rəhbərlərinin peşə səlahiyyətlərinin inkişafının nəzəri əsasları* 311
Dadaşova Əfsanə Nahid qızı. *Pedaqoji şura məktəbin ali kollegial orqanı kimi* 315
Bayramova Həqiqət Həsən qızı. *İnkluziv təhsilin idarə edilməsi* 318
Bayramova Həqiqət Həsən qızı. *Xüsusi qayğıya ehtiyacı olan uşaqlara erkən müdaxilə inklüziv təhsilin ilk pilləsi kimi* 320
Mirzəyeva Elnurə Fəxrəddin qızı. *Ümumtəhsil məktəblərində qiymətləndirmənin idarəetmənin keyfiyyətinin yüksəldilməsində rolu* 322
Mirzəyeva Elnurə Fəxrəddin qızı. *Təhsildə keyfiyyətin monitorinqi və qiymətləndirilməsinin təhsil müəssisəsinin idarə olunmasına təsiri* 325
Həmidova Cəmilə. *Təhilin səmərəli idarə olunmasına təsir göstərən amillər* 328
Həmidova Cəmilə. *Təhsil fəaliyyəti üçün keyfiyyətli idarəetmə sisteminin qurulması istiqamətləri* 329
Gözəlova Tünzalə Fəxrəddin qızı. *Təlim-tərbiyə işinin səmərəliliyinin liderin təşkilatçılıq bacarığından asılılığı* 331
Məmmədəliyeva Aysel Rövşən qızı. *Təhsil standartının mahiyyəti və vəzifələri* 334
Məmmədəliyeva Aysel Rövşən qızı. *Təhsil standartının xarakterik xüsusiyyətləri* 336
Haqverdiyeva Jalə Məqsəd qızı. *Məktəb sisteminin yenidən qurulması* 337
Haqverdiyeva Jalə Məqsəd qızı. *Müəllim kadrlarının inkişafı* 339
Murquzova (Nadirova) Təhminə Kamis qızı. *Təhsil sisteminin idarə edilməsinin əsas prinsipləri* .. 341
Murquzova (Nadirova) Təhminə Kamis qızı. *Təhsil sistemini idarəetmə formaları* 343
Hüseynova Sevinc. *Təhsil sisteminin mahiyyəti, onun elmi-nəzəri əsasları* 344
Hüseynova Sevinc. *Təhsili idarəetmənin ümumi əsasları* 347
Babazadə Nisə. *Təhsilin keyfiyyətinin idarə edilməsində pedaqoji kollektivin rolu* 349
Babazadə Nisə. *Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün hansı işlər görülməlidir* 352
Balaşzadə Turan Atduxan oğlu. *Estetik tərbiyə və ailə mədəniyyətinin qarşılıqlı əlaqəsi* 356
Balaşzadə Turan Atduxan oğlu. *Ailədə estetik tərbiyənin idarə olunmasının pedaqoji və psixoloji əsasları* 358
Məmmədova Solmaz. *İdarəetmə təhsil keyfiyyətinin yüksəldilməsinin əsas amili kimi* 360
Məmmədova Solmaz. *Təhsil keyfiyyətinin yüksəldilməsinin təhsil prosesinə təsiri* 362
Qurbanova Gülər. *İdarəetmədə məktəb rəhbərlərinin səriştəliliyi və peşəkarlığı* 364
Qurbanova Gülər. *Təhsildə məktəb rəhbərinin fəaliyyətinin başlıca məqsədləri və funksiyaları* 367
Allahverdiyeva Münəvvər Rasim qızı. *Ali peşə təhsili və təhsil menecmenti sosiomədəni fenomen kimi* 370
Allahverdiyeva Münəvvər Rasim qızı. *İslahat şəraitində peşə təhsili sisteminin vəziyyəti* 372
Məmmədzadə Nigar Şahin qızı. *Təhsildə menecment işinin mahiyyəti və əsasları* 374
Cahangirli Aynur. *İnformasiya kommunikasiya texnologiyalarından istifadə edilməsində nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqəsinin əhəmiyyəti* 377

III BÖLMƏ
TƏHSİLDƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT

Kazımlı Fəridə Elçin qızı. *Ailədə mənəvi-psixoloji mühit* 380
Kazımlı Fəridə Elçin qızı. *"Kitabi-Dədə Qorqud"dastaninda milli-əxlaqi və bəşəri-mənəvi dəyərlər* 381
Həsənova Səkinə Mirəziz qızı. *Mətnin tədrisində milli-mənəvi dəyərlərdən istifadə metodları* 383
İsgəndərova Fəridə Zakir qızı. *Ali pedaqoji məktəb tələbələrinin sosial adaptasiyası* 386
İsgəndərova Fəridə Zakir qızı. *Pedaqoji universitet məzunlarının peşə uyğunlaşması* 389
Əlizadə Nərmin. *Ailə və məktəbin birgə fəaliyyəti pedaqoji problem kimi* 392
Əlizadə Nərmin. *Ailə və məktəbin birgə fəaliyyətinin təşkilində sosial pedaqoq işinin mahiyyəti* 394

Həsənova Ülkər Yaşar qızı. *Şagirdlərin asudə vaxtının təşkili imkanları* 397
Həsənova Ülkər Yaşar qızı. *Şagirdlərin asudə vaxtlarının praktik təşkilinin əhəmiyyəti* 399
Hümbətova Aytən Mübariz qızı. *Kiçikyaşlı məktəbli şəxsiyyətinin sosiallaşma prosesi və məktəbin tərbiyə sistemi* 401
Hümbətova Aytən Mübariz qızı. *Məktəbin sosiallaşma prosesi üçün mövcudşəraiti və imkanları* 404
Hümbətova Aytən Mübariz qızı. *Kiçikyaşlı məktəbli sosiallaşmanın obyekti və subyekti kimi* 407
Əhmədova Maisə Cavid qızı. *Sosial pedaqoqun peşəsinin mahiyyəti və vəzifəsi* 407
Fəridə Fəxrəddin Fəxrəddin qızı. *Şəxsiyyətin hərtərəfli inkişafında pedaqoji ünsiyyətin rolu* 409
Fəridə Fəxrəddin Fəxrəddin qızı. *Pedaqoji prosesdə kommunikativliyi gücləndirən ünsiyyət vasitələrinə bir nəzər* 411
Məhəmmədli Nərmin. *Tərbiyəçi-müəllimin şəxsiyyətində humanizm və onun uşaqların mənəvi tərbiyəsinə təsiri* 413
Mustafayeva Bahar Elşən qızı. *Məktəbəqədər yaşlı uşaqların idraki inkişafına təsir edən amillər* 415
Əbilzadə Günel Allahverən qızı. *Şagirdin ailə vəziyyətinin məktəb uğurlarına təsiri* 416
QədirovaAytən Oqtay qızı. *Ailə anlayışı və onun tarixi əhəmiyyəti* 419
Qədirova Aytən Oqtay qızı. *Beynəlxalq ailə adət və ənənələri* 422
Nəzərova Afaq Fəxrəddin qızı. *Ailə institutunun funksiyaları* 425
Nəzərova Afaq Fəxrəddin qızı. *Müasir dövrdə Azərbaycanda ailə institutunun vəziyyəti* 429
Məmmədli Murad Xalid oğlu. *Qaçqın və məcburi köçkünlərə göstərilən dövlət qayğısı* 433
Məmmədli Murad Xalid oğlu. *Qaçqınlıq XXI əsrin ən mühüm sosial problemlərindən biri kimi* ... 437
Tağıyeva Şahnaz Heydər qızı. *Sosial innovasiyalar sahəsində beynəl xalq təcrübə* 443
Cəfərova Şəbnəm. *Şəxsiyyətin formalaşmasında "yaş böhran"ları və onların sosial-psixoloji xüsusiyyətləri* 446
Cəfərova Şəbnəm Şirvan qızı. *Yeniyetməlik yaşı dövründə böhran problemi* 449
Zeynalova Şəfəq Kərəm qızı. *Çətin tərbiyə olunan uşaqların mahiyyəti, səbəbləri, problemləri* 452
Məmmədova Nigar Elxan qızı. *Ümumtəhsil məktəblərində sosial pedaqoqun fəaliyyətinin metodikası* 453
Məmmədova Nigar Elxan qızı. *Sosial pedaqoq peşəkar fəaliyyətin subyekti kimi* 456
Adullayeva Kamilə Ramil qızı. *Ailədaxili konfliktlərin yaranma səbəbləri və aradan qaldırılması yolları* 459
Adullayeva Kamilə Ramil qızı. *Ailələrdə sosial konfliktlərin ailə-nikah münasibətlərinə təsiri* 461
Hacıyeva Aysel Kamandar qızı. *Ailə mühiti və yeniyetmələrin həyatında onun rolu* 463
Hacıyeva Aysel Kamandar qızı. *Şagirdlərin həyatında sosial şəbəkələrin müsbət və mənfi cəhətləri* ... 465
Hüseynzadə Sevinc Rövşən qızı. *Müxtəlif dinlərdə sosiallaşmaya olan yanaşmalar* 467
Hüseynzadə Sevinc Rövşən qızı. *Müxtəlif lüğətlərdə sosiallaşma anlayışının təzahürü* 470
İbadova Könül Azər qızı. *Azərbaycanda xeyriyyəçilik işinin kökləri* 473
İbadova Könül Azər qızı. *Qocalara, tənhalara, əlillərə yardımın tərkibində könüllülük fəaliyyətinin təşkili* 476
Hüseynli Arzu İlqar. *Leyli və Məcnun poemasında tənhalığın psixoloji effektləri* 479
Hüseynli Arzu İlqar. *Tənhalığa təsir göstərən əsas psixoloji amillər və onun əsas xüsusiyyətləri* 482
Mirəhmədli Kifayət Mirismayıl qızı. *Şagirdlərin şəxsiyyət kimi formalaşmasında ailə tərbiyəsinin əhəmiyyəti* 484
Mirəhmədli Kifayət Mirismayıl qızı. *Ailədaxili münaqişələrin məktəblilərin tərbiyəsinə mənfi təsiri* ... 486
Süleymanova (Əliyeva) Ədilə Əlihəsən qızı. *Şagirdlərin sosiallaşmasına təsir edən amillər* 488
Süleymanova (Əliyeva) Ədilə Əlihəsən qızı. *Məktəb gənc nəslin təlim-tərbiyəsi işində aparıcı mərkəzdir* 491
Şirinova Aydan Elşən qızı. *İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında məktəbin ailə ilə əlaqə formaları* 493
Şirinova Aydan Elşən qızı. *İbtidai sinif şagirdlərinin şəxsiyyət kimi formalaşmasında ailədaxili münasibətlərin rolu* 495
Hüseynova Güllü Rövşən qızı. *İbtidai sinifdə şagirdlərin tədqiqatçılıq fəaliyyətinə psixoloji-pedaqoji yanaşma haqqında* 498
Muradxanlı Nərmin. *İbtidai sinif şagirdlərinin yaş və psixoloji xüsusiyyətləri* 500
Abdullayeva Asimə Azər qızı. *Azərbaycanda inklüziv təhsilə dövlət qayğısı* 502
Abdullayeva Asimə Azər qızı. *İnklüziv təhsil anlayışı və onun tarixi* 504

Muradxanlı Nərmin. *İbtidai sinif şagirdlərinin məntiqi təfəkkürünün inkişaf etdirilməsinin imkan və yolları* 506
Abdullayeva Aynur Oruc qızı. *Uşağın təhlükəsizliyinin təmin edilməsində ailənin dəstəyi* 509
Məhəmmədli Nərmin. *Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində tərbiyəçi-müəllimin rolu* 510
Kərimzadə Ziba İlham qızı. *Nitqin psixolinqvistik xüsusiyyətləri* 513
Mustafayeva Qəndab Asif qızı. *Dislaliyanı korreksiya etmək üçün loqopedik işin məqsədi, vəzifələri və təsir prinsipləri* 515
Mustafayeva Qəndab Asif qızı. *Məktəbəqədər yaşlı uşaqlarda nitqin qrammatik quruluşunun ontogenezdə formalaşması* 517
Abdullazadə Günel Tahar qızı. *Xüsusi təhsil məktəblərində peşə – əmək hazırlığının sağlamlıq imkanları məhdud şagirdlərin inkişafına təsiri* 520
Quliyeva Samirə Aqşin qızı. *Eşitmə pozulması olan uşaqlarda yazılı nitqin xüsusiyyətləri* 523
Mehdiyeva Nazpəri Asəf qızı. *Məktəbəqədər yaşlı uşaqlarda ağır nitq pozulmalarından biri olan alaliyanın patogenezi, sensor və motor formaları* 526
Qəhrəmanova Sevda Xəyyam qızı. *Psixi inkişafında ləngimə olan uşaqlarda kiçik motorikanın inkişaf xüsusiyyətləri* 529
Əhmədli Nərgiz Ceyhun qızı. *Kiçik məktəbyaşı dövründə hiperaktivlik və diqqət defisitliyi olan uşaqların ailədə tərbiyəsi* 533
İmanova Sevil Cavanşir qızı. *Zəif eşidən uşaqların inklüziv təhsilinin təşkili və xüsusiyyətləri* 535
Babayeva Zəhra Etibar qızı. *Psixi inkişafında ləngimə olan 5-6 yaşlı uşaqların hafizəsinin inkişaf xüsusiyyətləri* 538
Cəfərova Türkan Abasəd qızı. *Hiperaktiv və diqqət çatışmazlığı olan uşaqlarda hərəkət pozulmalarının korreksiya istiqamətləri* 542
Abduləliyeva Yaqut İbrahim qızı. *Məktəbəqədər yaşlı kəkələyən uşaqların nitqinin kommunikativ funksiyasının formalaşdırılmasının metodikaları* 545
Mustafayeva Bahar Əliosət qızı. *Eşitmə qüsurlu uşaqlar üçün xüsusi təhsil müəssisələrində musiqili ritmika dərslərinin təşkili xüsusiyyətləri* 548
Abbasova Əminə Rasim qızı. *Optik disleksiya zamanı loqopedik iş metodları* 551
Abbasova İlahə Eyvaz qızı. *Humanitarlaşdırma prinsipi – şəxsiyyətin təlim-tərbiyə prosesinin şərti kimi* 553
Nuriyeva Aygül Tahir qızı. *Şagirdlərin sağlamlığını şərtləndirən amillər* 555
Nuriyeva Firəngiz Surxay qızı. *Ali məktəb tələbələrinin səmərəli təliminin psixoloji amilləri* 557
Məmmədova Aytac. *Orta ixtisas təhsili müəssisələrində tələbənin asudə vaxtının təşkili istiqamətləri* 559
Seyidova Səriyyə Mirfeyzulla qızı. *Çətin tərbiyə olunan yeniyetmələrin ailədə valideynləri ilə münasibətlərində ortaya çıxan çatışmazlıqlar* 561
Nuriyeva Zəhra Cəbrayıl qızı. *Ailənin tarixi mənşəyi* 563
Nuriyeva Zəhra Cəbrayıl qızı. *Ailənin tipləri, sadə və mürəkkəb ailələr* 565
Qulamova Cəmilə. *Uşaq şəxsiyyətinin formalaşmasında ailə tərbiyəsinin rolu* 568
Qulamova Cəmilə. *Məktəbəqədər yaş dövründə uşaqların şəxsiyyətinin inkişafında oyunların rolu* 570
Xanlarlı Nərgiz Fazil qızı. *Kiçik məktəblilərin psixoloji inkişaf xüsusiyyətləri* 572
Xanlarlı Nərgiz Fazil qızı. *Pedaqogikada yaş bölgüləri və təlim fəaliyyətində yaş dövrlərinin rolu* 574
Сюй Вэйцзе. *Влияние родителей на нравственное воспитание детей* 576
Бао Сюеин. *Как родители относятся к профессиональному образованию детей* 578
Guo Wenzhe. *Воспитательное значение детской игры* 580
GuoWenzhe. *Некоторые вопросы семейного воспитания* 583
Seyidova Zəhraxanım Mirqasım qızı. *Gənc nəsildə ekoloji təhsilin və şüurun formalaşdırılması yolları* 585
Nəsibova Ülkər Zahid qızı. *Sosial kamilliyə aparan yollar* 589
Rüstəmli Nərmin İsmayıl qızı. *Travmaların uşaq inkişafı və davranışına təsirləri* 591
Rüstəmli Nərmin İsmayıl qızı. *Uşaq cinayətkarlığı uşaq istismarının nəticələrindən biri kimi* 593
Qasimzadə Zəhra Mərdan qızı. *Məktəbəqədər təhsil müəssisələrində sosiallaşma uşaq şəxsiyyətinin formalaşdırlıması vasitəsi kimi* 596
Gülməmmədli Gözəl Habil qızı. *Məktəbəqədər yaşlı uşaqların əqlinin inkişafında yeni texnologiyalardan istifadənin əhəmiyyəti* 599

Kərimova Pərvanə Namiq qızı. *Pedaqoji ünsiyyətin məktəbəqədər yaşlı uşaqların inkişafında rolu* 601
Məmmədbəyli Nuranə. *Nizami Gəncəvinin əsərlərində idrak məsələləri* 604
Həşimli Aytac. *Uşaq hüquqlarının konvensiyası – məktəbəqədər təhsildə yeri*..... 607
Həşimli Aytac. *Məktəbəqədər təhsildə uşaq hüquqlarının konvensiyasının nəzərə alınması*..... 609
Nuriyeva Aygül Tahir qızı. *Cəmiyyətdə sağlam həyat tərzi normaları*..... 611
Həmidli Aytən Əzizağa qızı. *Məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri*..... 613
Nəcəfova Sahilə Teymur qızı. *Ailə mühitinin məktəbəqədər yaşlı uşaqlarda mədəni adət və vərdişlərin formalaşdırılmasında rolu*..... 616
Nəcəfova Sahilə Teymur qızı. *Məktəbəqədər yaşlı uşaqlarda mədəni keyfiyyətlərin formalaşmasının psixoloji əsasları*..... 618
Məmişov Daşqın Rauf oğlu. *Nitq pozulmaları olan uşaqların psixo-pedaqoji xüsusiyyətlərinin təhlili* 621
Mustafayeva Tellixanım Teymur qızı. *Təfəkkür prosesinin özünəməxsus xüsusiyyətləri və əqli geriliyi olan uşaqlarda təfəkkürün inkişaf xüsusiyyətləri*..... 624
Gülməmmədli Gözəl Habil qızı. *Uşaqların əqli inkişafında gəzintinin rolu və əhəmiyyəti* 627
Аскерова Фирангиз Муршуд кызы. *Роль полового воспитания в формировании личности подростка*..... 629
Аскерова Фирангиз Муршуд кызы. *Роль семьи и школы в формировании полового воспитания* 632
Əlibalayeva Billurə Nasir qızı. *Əqli geriliyin psixoloji-pedaqoji xarakteristikası*..... 634
Əliyeva Samirə Qoşqar qızı. *Ailədə kiçik yaşlı məktəblilərdə milli tərbiyənin inkişafının psixoloji xüsusiyyətləri*..... 637
Əliyeva Samirə Qoşqar qızı. *Kiçik yaşlı məktəblilərdə milli hislərin inkişafi* 640
İsmayılova Aygün Etibar qızı. *Yeniyetməlik yaş dövründə intihara təhrik edən sosial-psixoloji amillər*..... 642
Məhərrəmi Könül. *Yeniyetmə yaşı-dövründə koqnitiv fəaliyyətin inkişafının psixoloji problemləri*..... 645
Məhərrəmi Könül. *Yeniyetmə yaşı dövründə emosional inkişafın psixoloji məsələləri*..... 648
Əsgərli Zinyət Çingiz qızı. *Təhsil uğurlarının dəyərlər sistemilə əlaqəsinin psixoloji əsasları* 650
Zamanova Səma Şükür qızı. *Aqressiv davranışa təsir göstərən amillər* 653
Zamanova Səma Şükür qızı. *Aqressivlik probleminin psixoloji ədəbiyyatda qoyuluşu*..... 655
Адилханов Айдын Зиядхан оглу. *Современное состояние психологической службы в Азербайджане*..... 657
Адилханов Айдын Зиядхан оглу. *Проблема развития психологической службы в Азербайджане*..... 660
Güləlizadə Səlimə Azər qızı. *Təhsil sistemində psixoloji xidmət* 663
Güləlizadə Səlimə Azər qızı. *Təlim prosesində məktəb psixoloqunun məktəblilərlə ünsiyyət yolları* 665
Rzayeva Hüriyyət. *Yeniyetmələrdə özünüdərkin formalaşmasına təsir edən sosial-psixoloji amillər* 668
Rzayeva Hüriyyət. *Yeniyetmələrin özünüdərkin formalaşmasına ailə, məktəb, kütləvi informasiyanın rolu* 670
Mehdizadə Aytən. *Məktəblilərdə bilik, bacarıq və vərdişlərin formalaşdırmanın psixoloji xüsusiyyətləri*..... 673
Mehdizadə Aytən. *Təlim prosesində biliklərin mənimsənilməsinin psixoloji əsasları*..... 675
İsmayılzadə Xoşbəxt Allahverdi qızı. *Əxlaqi hisslərin formalaşmasının psixopedaqoji xüsusiyyətləri*..... 677
İsmayılzadə Xoşbəxt Allahverdi qızı. *Şəxsiyyət və onun sosial-psixoloji mahiyyəti*..... 680
Məmmədova Şəbinə. *Kiçik məktəb yaşlı uşaqlarda psixi inkişafın xüsusiyyətləri* 683
Məmmədova Şəbinə. *Müstəqil təfəkkürün tərbiyəsinin psixoloji xüsusiyyətləri*..... 685
Yusifova Esmira Fikrət qızı. *Məktəbəqədər yaş dövründə şəxsiyyətin inkişafına təsir edən psixoloji amillər*..... 687
Yusifova Esmira Fikrət qızı. *Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında ailə və bağçanın birgə fəaliyyəti*..... 689
Quliyeva Səidə. *Pedaqoji prosesdə destruktiv konfliktlərin yaranmasına təsir edən amillərin pedaqoji-psixoloji əsasları*..... 692
Ələkbərov Səbuhi Malik oğlu. *"Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsi və təlimin təşkilində ondan istifadə yolları* 695
Babayeva Turan Fazil qızı. *Ailədə uşaqlarda özünə inam hissi formalaşdırmağın əhəmiyyəti* 700

QEYD ÜÇÜN

Çapa imzalanmış: 29.04.2021
Kağız formatı 60x84, 1/16 çap vərəqi 86
Sifariş 122 , sayı 100

ADPU-nun mətbəəsi
Ünvan: Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.:(+912)493-74-10
E-mail: Poliqrafiya@mail.ru